# Bələdiyyələr haqqında

## sənədlər toplusu

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Qanun-2008

Az2

TƏRTİBÇİ VƏ NAŞİR:
*Şahbaz XUDUOĞLU*

***2008-ci ilin oktyabrına qədər olan əlavə və dəyişikliklərlə***

**Bələdiyyələr haqqında sənədlər toplusu.**
*Azərb. dilində. Bakı, Qanun-2008. 676 səh.*

Kitabda bələdiyyələrin statusu, maliyyələşməsi, onların əmlakı, torpaqları, əraziləri, bələdiyyə üzvlərinin səlahiyyətləri və s. haqqında normativ hüquqi aktlar toplanmışdır.

Kitab bələdiyyə işçiləri, bələdiyyə sahəsində çalışan mütəxəssislər, hüquqşünaslar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Q 1100011003/AB022051 *qrifli*

Az2
© Qanun, 2003-2005
© Qanun, 2008

# MÜNDƏRİCAT

**Naşirdən** ..... 15

**BEYNƏLXALQ SƏNƏDLƏR**

Yerli özünüidarə haqqında Avropa Xartiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(25 dekabr 2001-ci il, № 238-IIQ)* ..... 17

Azərbaycan Respublikası və Norveç Krallığı arasında bağlanmış "İkiqat vergiyə cəlb etməyə yol verilməməsi, gəlirlərə və kapitala görə vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında" konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(25 iyun 1996-cı il, № 136-IQ)* ..... 25

"Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında" Avropa Çərçivə Konvensiyasının və onun əlavə protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(9 yanvar 2004-cü il, № 576-IIQ)* ..... 45

Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında nümunəvi avropa konvensiyası ..... 50

Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasına əlavə protokol ..... 71

Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasına 2 saylı protokol ..... 75

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNLARI**

Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının Qanunu *(2 iyul 1999-cu il, № 698-IQ)* ..... 80

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı *(27 iyul 1999-cu il, № 162)* ..... 97

Bələdiyyənin nümunəvi nizamnaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu *(15 oktyabr 1999-cu il, № 709-IQ)* ..... 99

Yerli rəy sorğusu haqqında Azərbaycan Respublikasının Qanunu *(30 noyabr 1999, № 764-IQ)* ..... 103

"Yerli rəy sorğusu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı *(24 dekabr 1999, № 234)* ..... 117

Bələdiyyə qulluğu haqqında Azərbaycan Respublikasının Qanunu *(30 noyabr 1999-cu il, № 765-IQ)* ... 118

"Bələdiyyə qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(24 dekabr 1999-cu il, № 297)* ... 121

Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında Azərbaycan Respublikasının Qanunu *(7 dekabr 1999, № 770-IQ)* ... 122

"Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı *(15 yanvar 2000, № 253)* ... 123

Bələdiyyələrin əraziləri və torpaqları haqqında Azərbaycan Respublikasının Qanunu *(7 dekabr 1999, № 771-IQ)* ... 125

"Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı *(24 dekabr 1999, № 237)* ... 197

Bələdiyyələrin maliyyəsinin əsasları haqqında Azərbaycan Respublikasının Qanunu *(7 dekabr 1999, № 772-IQ)* ... 199

"Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı *(24 dekabr 1999, № 233)* ... 204

Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu *(14 aprel 2000, № 858-IQ)* ... 204

"Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(21 oktyabr 2000, № 546)* ... 206

"Bələdiyyələrin daimi və başqa komissiyaları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(14 aprel 2000, № 859-IQ)* ... 207

"Bələdiyyələrin daimi və başqa komissiyaları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(21 oktyabr 2000, № 547)* ... 212

Bələdiyyə üzvünün statusu haqqında Azərbaycan Respublikasının Qanunu *(18 aprel 2000, № 863-IQ)* ... 212

"Bələdiyyə üzvünün statusu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı *(21 oktyabr 2000, № 405)* ... 216



"Azərbaycan Respublikasında yerli özünüidarəetmə üzrə Əlaqələndirmə Şuraları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(18 aprel 2000, № 864-IQ)* ... 216

"Azərbaycan Respublikasında yerli özünüidarəetmə üzrə Əlaqələndirmə Şuraları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(21 oktyabr 2000, № 555)* ... 220

Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında Azərbaycan Respublikasının Qanunu *(27 dekabr 2001-ci il, №244-IIQ)* ... 221

"Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı *(4 aprel 2002-ci il, № 683)* ... 225

Bələdiyyələrin məhəllə komitələri haqqında Nümunəvi Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(8 may 2001-ci il, № 129-IIQ)* ... 225

"Bələdiyyələrin məhəllə komitələri haqqında Nümunəvi Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(11 iyun 2001-ci il, № 738)* ... 228

Bələdiyyələrin su təsərrüfatı haqqında Azərbaycan Respublikasının Qanunu *(29 iyun 2001-ci il, № 159-IIQ)* ... 228

"Bələdiyyələrin su təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı *(9 avqust 2001-ci il, № 547)* ... 236

"Bələdiyyələrin su təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı *(23 oktyabr 2003-cü il, № 957)* ... 237

Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu *(29 iyun 2001-ci il, № 160-IIQ)* ... 238

"Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı *(9 avqust 2001-ci il, № 548)* ... 252

"Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(15 mart 2002-ci il, № 274-IIQ)* ... 253

"Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı *(6 may 2002-ci il, № 696)* ................ 259

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında Azərbaycan Respublikasının Qanunu *(13 may 2003-cü il, № 454-IIQ)* ................ 260

"Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı *(27 sentyabr 2003-cü il, № 922)* ................ 264

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə İş Mərkəzi haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı *(12 iyul 2000-ci il)* ................ 265

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə İş Mərkəzi haqqında Əsasnamə ................ 265

Bələdiyyələrin vergi xidməti orqanı haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(17 iyun 2003-cü il, № 478-IIQ)* ................ 269

Bələdiyyələrin vergi xidməti orqanı haqqında Əsasnamə ................ 270

"Bələdiyyələrin vergi xidməti orqanı haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı *(23 oktyabr 2003-cü il, № 938)* ................ 275

Bələdiyyələrin regional assosiasiyalarının Nümunəvi Əsasnaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(3 may 2005-ci il, № 903-II Q)* ................ 276

Bələdiyyələrin regional assosiasiyalarının Nümunəvi Əsasnaməsi ................ 276

"Bələdiyyələrin regional assosiasiyalarının Nümunəvi Əsasnaməsinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(18 iyul 2005-ci il, № 896)* ................ 282

Aqrar islahatların həyata keçirilməsini təmin edən bəzi normativ-hüquqi aktların təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (Torpaqların alqı-satqı qaydaları) *(10 yanvar 1997-ci il, № 534)* ................ 284

Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı *(11 iyun 2001-ci il, № 498)* ................ 287

Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında Əsasnamə ................ 288



Bələdiyyə sifarişlərinin verilməsi qaydalarının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı *(4 iyul 2001-ci il, № 529)* ................ 289

Bələdiyyə sifarişlərinin verilməsi qaydaları ................ 289

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin gücləndirilməsi tədbirləri barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(26 may 2006-cı il, № 1482)* ................ 291

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNLARINDAN BƏLƏDİYYƏLƏRLƏ BAĞLI ÇIXARIŞLAR

Azərbaycan Respublikasının Konstitusiyası *(12 noyabr 1995-ci il)* ................ 292

Naxçıvan Muxtar Respublikasının Konstitusiyası *( 29 dekabr 1998-ci il, № 603-IKQ)* ................ 294

Azərbaycan Respublikasının Torpaq Məcəlləsi *(25 iyun 1999-cu il, № 695-İQ)* ................ 295

Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli, 695-İQ nömrəli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı *(4 avqust 1999-cu il, № 176)* ................ 350

Azərbaycan Respublikasının Cinayət Məcəlləsi *(30 dekabr 1999-cu il, № 787-IQ)* ................ 353

Azərbaycan Respublikasının Əmək Məcəlləsi *(1 fevral 1999-cu il, № 618-IQ)* ................ 353

Azərbaycan Respublikasının Mülki Məcəlləsi *(28 dekabr 1999-cu il, № 779-IQ)* ................ 356

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi *(11 iyul 2000-ci il, № 906-IQ)* ................ 366

Azərbaycan Respublikasının Vergi Məcəlləsi *(11 iyul, 2000-ci il, № 905-IQ)* ................ 367

Azərbaycan Respublikasının Seçki Məcəlləsi *(27 may 2003-cü il)* ................ 374

Hərbi qulluqçuların statusu haqqında Azərbaycan Respublikasının Qanunu *(25 dekabr 1991-ci il, № 36)* ................ 391

Xarici investisiyanın qorunması haqqında Azərbaycan Respublikasının Qanunu *(15 yanvar 1992, № 57)* ................ 393

İcarə haqqında Azərbaycan Respublikasının Qanunu *(30 aprel 1992, № 114)* ................ 394

Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu *(25 avqust 1992, № 284)* ........ 394

Antiinhisar fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu *(4 mart 1993-cü il, № 526)* ........ 394

Daxili qoşunların statusu haqqında Azərbaycan Respublikasının Qanunu *(8 fevral 1994-cü il)* ........ 395

İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu *(13 yanvar 1995-ci il, № 952)* ........ 397

Aqrar islahatın əsasları haqqında Azərbaycan Respublikasının Qanunu *(18 fevral 1995-ci il, № 976)* ........ 398

Sovxoz və kolxozların islahatı haqqında Azərbaycan Respublikasının Qanunu *(18 fevral 1995-ci il , № 978)* ........ 400

Maliyyə-sənaye qrupları haqqında Azərbaycan Respublikasının Qanunu *( 23 aprel 1996, № 69-IQ)* ........ 402

Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu *(17 may 1996-cı il, № 74-IQ)* ........ 403

Meliorasiya və irriqasiya haqqında Azərbaycan Respublikasının Qanunu *(5 iyun 1996-cı il, № 116-IQ)* ........ 404

Torpaq islahatı haqqında Azərbaycan Respublikasının Qanunu *(16 iyul 1996-cı il, № 155-IQ)* ........ 406

Toxumçuluq haqqında Azərbaycan Respublikasının Qanunu *(11 mart 1997-ci il, № 257- IQ)* ........ 410

Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının Qanunu *(26 iyun 1997, № 360-IQ)* ........ 411

Reklam haqqında Azərbaycan Respublikasının Qanunu *(3 oktyabr 1997-ci il, № 376-IQD)* ........ 412

"Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(3 oktyabr 1997-ci il, 377-IQ)* ........ 413

Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu *(06 fevral 1998-ci il, № 430-IQ)* ........ 417

Balıqçılıq haqqında Azərbaycan Respublikasının Qanunu *(27 mart 1998-ci il, № 457-IQ)* ........ 417

Elektroenergetika haqqında Azərbaycan Respublikasının Qanunu *(3 aprel 1998-ci il)* ........ 419

Tarix və mədəniyyət abidələrinin qorunması haqqında Azərbaycan Respublikasının Qanunu *(10 aprel 1998-ci il, № 470-IQ)* ........ 419



Qrant haqqında Azərbaycan Respublikasının Qanunu *(17 aprel 1998-ci il, № 483-IQ)* ........ 421

Geodeziya və kartoqrafiya haqqında Azərbaycan Respublikasının Qanunu *(17 aprel 1998-ci il, № 484-IQ)* ........ 421

Hidrometeorologiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu *(17 aprel 1998-ci il, № 485-IQ)* ........ 423

Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu *(19 may 1998-ci il, № 499-IQ)* ........ 424

Məlumat azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu *(19 iyun 1998-ci il, № 505-IQ)* ........ 424

Qiymətləndirmə fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu *(25 iyun 1998-ci il, № 510-IQ)* ........ 425

İstehsalat və məişət tullantıları haqqında Azərbaycan Respublikasının Qanunu *(30 iyun 1998-ci il, № 514-IQ)* ........ 426

Yol hərəkəti haqqında Azərbaycan Respublikasının Qanunu *(3 iyul 1998-ci il, № 517-IQ)* ........ 427

Azərbaycan Respublikası Milli Məclisinin daimi komissiyaları haqqında Azərbaycan Respublikasının Qanunu *(10 iyul 1998-ci il, № 521-IQ)* ........ 427

Sərbəst toplaşmaq azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu *(13 noyabr 1998-ci il, № 537-IQ)* ........ 428

Energetika haqqında Azərbaycan Respublikasının Qanunu *(24 noyabr 1998-ci il, № 541-IQ)* ........ 429

Torpaq icarəsi haqqında Azərbaycan Respublikasının Qanunu *(11 dekabr 1998-ci il, № 587-IQ)* ........ 430

Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında Azərbaycan Respublikasının Qanunu *(22 dekabr 1998-ci il, № 593-IQ)* ........ 434

Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu *(29 dekabr 1998-ci il, № 611-IQ)* ........ 435

Torpaq bazarı haqqında Azərbaycan Respublikasının Qanunu *(7 may 1999-cu il, № 665-IQ)* ........ 436

Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu *(21 may 1999-cu il, № 669-IQ)* ........ 440

Heyvanlar aləmi haqqında Azərbaycan Respublikasının Qanunu *(4 iyun 1999-cu il, № 675-IQ)* ........ 440

Nəqliyyat haqqında Azərbaycan Respublikasının Qanunu *(11 iyun 1999-cu il, № 683-IQ)* ........ 442

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu *(22 iyun 1999-cu il)* ........ 442

Sığorta haqqında Azərbaycan Respublikasının Qanunu *(25 iyun 1999-cu il, № 696-IQ)* ........ 444

Hesablama Palatası haqqında Azərbaycan Respublikasının Qanunu *(2 iyul 1999-cu il, № 700-IQ)* ........ 445

Su təchizatı və tullantı suları haqqında Azərbaycan Respublikasının Qanunu *(28 oktyabr 1999-cu il, № 723-IQ)* ........ 445

Yeyinti məhsulları haqqında Azərbaycan Respublikasının Qanunu *(18 noyabr 1999-cu il, № 759-IQ)* ........ 450

İnvestisiya fondları haqqında Azərbaycan Respublikasının Qanunu *(30 noyabr 1999-cu il, № 766-IQ)* ........ 452

Kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikasının Qanunu *(7 dekabr 1999-cu il, № 769-IQ)* ........ 453

Avtomobil yolları haqqında Azərbaycan Respublikasının Qanunu *(22 dekabr 1999-cu il, № 778-IQ)* ........ 456

Torpaqların münbitliyi haqqında Azərbaycan Respublikasının Qanunu *(30 dekabr 1999-cu il, № 788-IQ)* ........ 463

Özəl tibb fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu *(30 dekabr 1999-cu il, № 789-I Q)* ........ 466

Muzeylər haqqında Azərbaycan Respublikasının Qanunu *(24 mart 2000-ci il, № 839-IQ)* ........ 468

Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında Azərbaycan Respublikasının Qanunu *(24 mart 2000-ci il, № 840)* ........ 468

Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında Azərbaycan Respublikasının Qanunu *(14 aprel 2000-ci il, № 857-IQ)* ........ 470

Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu *(2 may 2000-ci il, № 875-IQ)* ........ 471

Dövlət əmlakının özəlləşdirilməsi haqqında Azərbaycan Respublikasının Qanunu *(16 may 2000-ci il, № 878-IQ)* ........ 472

Nəşriyyat işi haqqında Azərbaycan Respublikasının Qanunu *(30 may 2000-ci il, № 887-IQ)* ........ 473

Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında Azərbaycan Respublikasının Qanunu *(13 iyun 2000-ci il, № 892-IQ)* ........ 475

Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasının Qanunu *(13 iyun 2000-ci il, № 894-IQ)* ........ 480

Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Azərbaycan Respublikasının Qanunu *(5 iyun 2001, № 136-IIQ)* ........ 481

Tütün və tütün məmulatı haqqında Azərbaycan Respublikasının Qanunu *(8 iyun 2001, № 138-IIQ)* ........ 482



Ahıllara sosial xidmət haqqında Azərbaycan Respublikasının Qanunu *(22 iyun 2001, № 158-IIQ)* ........ 483

Üzümçülük və şərabçılıq haqqında Azərbaycan Respublikasının Qanunu *(19 oktyabr 2001-ci il, № 208-IIQ)* ........ 484

Dövlət rüsumu haqqında Azərbaycan Respublikasının Qanunu *(4 dekabr 2001, №223-IIQ)* ........ 486

Kommersiya sirri haqqında Azərbaycan Respublikasının Qanunu *(4 dekabr 2001, № 224-IIQ)* ........ 488

Azərbaycan Respublikası Hesablama Palatasının Daxili Nizamnaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(5 mart 2002-ci il, № 269-IIQ)* ........ 488

İcbari ekoloji sığorta haqqında Azərbaycan Respublikasının Qanunu *(12 mart 2002-ci il, №271-IIQ)* ........ 490

Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu *(9 aprel 2002-ci il, № 297-IIQ)* ........ 491

Televiziya və radio yayımı haqqında Azərbaycan Respublikasının Qanunu *(25 iyun 2002-ci il, 345-IIQ)* ........ 491

Büdcə sistemi haqqında Azərbaycan Respublikasının Qanunu *(2 iyul 2002-ci il, 358-IIQ)* ........ 492

Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında Azərbaycan Respublikasının Qanunu *(10 dekabr 2002-ci il, № 401-IIQ)* ........ 500

Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında Azərbaycan Respublikasının Qanunu *(27 dekabr 2002-ci il, № 412-IIQ)* ........ 501

Konstitusiya Məhkəməsi haqqında Azərbaycan Respublikasının Qanunu *(23 dekabr 2003-cü il, № 384-IQ)* ........ 502

Banklar haqqında Azərbaycan Respublikasının Qanunu *(16 yanvar 2004-cü il, № 590-IIQ)* ........ 506

Ovçuluq haqqında Azərbaycan Respublikasının Qanunu *(20 aprel 2004-cü il, № 637-IIQ)* ........ 508

Daşınmaz əmlakın dövlət reyestri haqqında Azərbaycan Respublikasının Qanunu *(29 iyun 2004-cü il, № 713-IIQ)* ........ 509

Poçt rabitəsi haqqında Azərbaycan Respublikasının Qanunu *(29 iyun 2004-cü il, 714-IIQ)* ........ 510

Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının Qanunu *(29 iyun 2004-cü il, 716-IIQ)* ........ 511

İctimai televiziya və radio yayımı haqqında Azərbaycan Respublikasının Qanunu *(28 sentyabr 2004-cü il, № 767-IIQ)* ........ 512

Azərbaycan Respublikasının Milli Bankı haqqında Azərbaycan Respublikasının Qanunu *(10 dekabr 2004-cü il, № 802-IIQ)* ........ 513

İpoteka haqqında Azərbaycan Respublikasının Qanunu *(15 aprel 2005-ci il)* ........ 514

Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında Azərbaycan Respublikasının Qanunu *(3 may 2005-ci il, № 904-IIQ)* ... 514

Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında Azərbaycan Respublikasının Qanunu *(3 may 2005-ci il, № 905-IIQ)* ... 515

Baytarlıq haqqında Azərbaycan Respublikasının Qanunu *(31 may 2005-ci il, № 922-IIQ)* ... 516

Ailə kəndli təsərrüfatı haqqında Azərbaycan Respublikasının Qanunu *(14 iyun 2005-ci il, № 926-IIQ)* ... 516

Telekommunikasiya haqqında Azərbaycan Respublikasının Qanunu *(14 iyun 2005-ci il, № 927-IIQ)* ... 519

Aviasiya haqqında Azərbaycan Respublikasının Qanunu *(24 iyun 2005-ci il, № 944-IIQ)* ... 520

Teatr və teatr fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu *(29 dekabr 2006-cı il, № 222-IIIQ)* ... 522

Atçılıq haqqında Azərbaycan Respublikasının Qanunu *(27 fevral 2007-ci il)* ... 523

Sığorta fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu *(25 dekabr 2007-ci il)* ... 524

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI

**Qərar** № 144|. ***(17 oktyabr 1996-cı il).*** Kənd təsərrüfatına yararsız və ya az yararlı torpaqlardan kənd təsərrüfatı məqsədləri üçün istifadəsində güzəştlər edilməsi haqqında ... 525

**Qərar № 94.** ***(7 iyun 1999-cu il).*** Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu ilə bağlı bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında ... 527

- Dövlət torpaq kadastrının aparılması qaydaları haqqında Əsasnamə ... 527
- Torpaqların texniki uçotunun aparılması Qaydaları ... 529
- Torpaq-kadastr sənədlərinin aparılması Qaydaları ... 532
- Dövlət torpaq kadastrı fondunun yaradılması, istifadəsi və mühafizəsi haqqında Əsasnamə ... 534
- Torpaqların monitorinqinin aparılması qaydaları haqqında Əsasnamə ... 537
- Yerquruluşu işlərinin aparılması qaydaları haqqında Əsasnamə ... 540

**Qərar № 167.** ***(19 oktyabr 1999-cu il ).*** Torpaq bazarı ilə bağlı bəzi məsələlər haqqında ... 542



- İnzibati-ərazi vahidləri üzrə xüsusi mülkiyyətçinin əldə edə biləcək torpaq sahəsinin yuxarı həddinin müəyyən edilməsi Qaydası ... 542

**Qərar № 3.** ***(12 yanvar 2000-ci il).*** Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəricilərinin qeydiyyata alınması qaydalarının təsdiq edilməsi haqqında ... 543

**Qərar № 42.** ***(15 mart 2000-ci il).*** Azərbaycan Respublikasının Torpaq Məcəlləsi ilə bağlı bəzi normativ hüquqi aktlar haqqında ... 545

- Torpaq sahələrinin geri alınması və dövlət ehtiyacları üçün ayrılması barədə vəsatətlərin qaldırılması və onlara baxılması qaydaları ... 546
- Örüş, otlaq və biçənək sahələrinin istifadəyə və icarəyə verilməsi, habelə istifadə edilməsi qaydaları ... 550
- Sənaye, nəqliyyat, rabitə və digər təyinatlı torpaqların istifadəsi qaydaları ... 556

**Qərar № 117.** ***(13 iyul 2000-ci il).*** Azərbaycan Respublikasında heyvanlar aləmi ilə bağlı bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında ... 558

- Dövlət əhəmiyyətli təbii sərvətlərə aid edilən heyvanlar aləmi obyektlərinin növləri, bələdiyyə və ya xüsusi mülkiyyət hüququnda ola bilən heyvan növlərinin sənədlərinin forması və siyahısı ... 558
- Heyvanlar aləmindən ümumi və xüsusi istifadə qaydaları ... 563
- Vəhşi heyvanlardan onların həyat fəaliyyətinin məhsullarını əldə etmək məqsədi ilə istifadə edilməsi qaydaları ... 565
- Zooloji kolleksiyaların yaradılması, zənginləşdirilməsi, saxlanması, istifadəsi, dövlət uçotuna alınması, onlarla ticarət, habelə Azərbaycan Respublikasına gətirilməsi, onun hüdudlarından kənara göndərilməsi və aparılması qaydaları ... 567
- Ekoloji təhlükəsizlik normativləri və vəhşi heyvanların əldə edilməsi limitləri ... 573

**Qərar № 121.** ***(13 iyul 2000-ci il).*** "Şəhərsalma proqramlarının Siyahısı, baxılması və təsdiq olunması Qaydası"nın təsdiq edilməsi barədə ... 579

**Qərar № 226.** ***(23 dekabr 2000-ci il).*** Dövlət və bələdiyyə mükiyyətində olan torpaqların icarə haqqının aşağı həddinin müəyyən edilməsi barədə ... 580

**Qərar №46.** ***(23 fevral 2001-ci il).*** Binalar üzrə əmlak vergisinin hesablanması Qaydalarının təsdiq edilməsi barədə ... 581

**Qərar № 106.** ***(8 iyul 2002-ci il).*** Bələdiyyə mülkiyyətinə verilən dövlət əmlakının Siyahısının təsdiq edilməsi barədə ... 583

**Qərar № 22.** ***(26 yanvar 2006-cı il).*** "Ailə kəndli təsərrüfatının uçotunun aparılması qaydaları"nın təsdiq edilməsi barədə ... 589

**Qərar № 59.** *(27 fevral 2006-cı il).* "Ailə kəndli təsərrüfatının üzvlərinə onların statusunu, əmək fəaliyyətini və əmək stajını təsdiq edən vəsiqənin forması və verilmə qaydası"nın təsdiq edilməsi ............ 591

**Qərar № 33.** *(16 fevral 2007-ci il).* "Dövlət orqanlarının və bələdiyyələrin İnternet informasiya ehtiyatlarının yaradılması formaları və qaydaları"nın təsdiq edilməsi haqqında ............ 595


## MƏRKƏZİ İCRA HAKİMİYYƏTİ ORQANLARININ SƏNƏDLƏRİ

### Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi

Azərbaycan Respublikasının Dövlət və bələdiyyə qiymətli kağızlarının buraxılması, yerləşdirilməsi və tədavülü haqqında qaydalar *(04 aprel 2001-ci il tarixli 036 №-li əmrin redaksiyasında)* ............ 598


### Vergilər Nazirliyi

Yerli (bələdiyyə) büdcənin ödəyiciləri olan fiziki şəxslərin uçota alınması qaydası *(25 aprel 2006-cı il, 0617040100404300 saylı əmr)* ............ 602

"Yerli (bələdiyyə) büdcəyə fiziki şəxslərin daşınmaz əmlak vergisinin uçotunun aparılması qaydaları haqqında" Metodiki Göstəriş *(25 aprel 2006-cı il, 0617040100404300 saylı əmr)* ............ 623

Yerli (bələdiyyə) vergi (ödəniş) ödəyici olan hüquqi şəxsin uçota alınması haqqında Ərizənin tərtib olunma Qaydası *(25 aprel 2006-cı il, 0617040100404300 saylı əmr)* ............ 642

Bələdiyyə ərazisində mehmanxana, sanatoriya-kurort və turizm xidmətləri göstərən şəxslərdən alınan ödənişin Hesabatının tərtib edilməsi Qaydası *(25 aprel 2006-cı il, 0617040100404300 saylı əmr)* ............ 646

Yerli (bələdiyyə) büdcəyə fiziki şəxslərin əmlak vergisinin hesablanması və ödənilməsi qaydaları haqqında Metodiki Göstəriş *(19 may 2005-ci il, F-146 saylı əmr)* ............ 651

Fiziki şəxslərə hesablanmış torpaq və əmlak vergisinin məbləği və ödənilməsi müddəti barədə Tədiyyə bildirişinin tərtib edilməsi qaydası *(19 may 2005-ci il, F-146 saylı əmr)* ............ 663

Yerli (bələdiyyə) büdcəyə fiziki şəxslərin torpaq vergisinin hesablanması və ödənilməsi qaydaları haqqında Metodiki Göstəriş *(19 may 2005-ci il, F-146 saylı əmr)* ............ 664




# NAŞİRDƏN

Yerli özünüidarə haqqında hər kəsin öz fikri olduğu kimi əslində hər bir ölkə də ayrı-ayrılıqda bu məsələyə özünəməxsus yanaşır. Yəni bu gün Amerikanın yerlərdəki idarəçilik institutunu olduğu kimi Azərbaycana tətbiq etsək heç bir uğur əldə edə bilmərik. Amerika olmasın, lap Türkiyə və ya Polşa olsun. Türkiyə bizə son dərəcə yaxındır və oxşar milli xüsusiyyətlərimiz çoxdur, Polşa isə sovetlər ittifaqından daha tez qopa bilmiş və Avropanın dəstəyilə müasir tələblərə cavab verən səviyyədə demokrarik institutların inkişafına nail ola bilmişdir. Bir dəfə bir amerikalı diplomatla söhbət edərkən o da dedi ki, niyə Azərbaycan Türkiyənin bələdiyyə sahəsindəki qanunlarını olduğu kimi götürüb qəbul etməsin? Mən də suala sualla cavab verdim ki, Osmanlı varisiylə Sovetlər imperiyasının varislərini eyni bir qanunla idarə etmək sizcə mümkündürmü? Hətta bizim regionlarımızda elə fərqli xüsusiyyətlər var ki, onlara eyni standartla yanaşmaq mümkün deyil. Əlbəttə, bizim Türkiyə yerli özünüidarəçilik sistemindən öyrəniləsi çoxlu mütərəqqi nümunələr olsa belə, onun mexaniki şəkildə tətbiq olunması gözlənilən effekti verə bilməz.

Yerli idarəçilik o zaman effektli ola bilər ki, yerli təşəbbüslər çox olsun. Hər bir bələdiyyə öz problemlərini dəqiq öyrənərək qanunvericilik və icra hakimiyyəti qarşısında məsələ qaldıra bilsin.

Yerli idarəçilik hər yerin təbiətinə, ənənəsinə uyğun irəli sürülən mexanizmdir. Bu mexanizmin təşəbbüskarları, qanunyaradıcılar həmin yerin əhalisidir. Əhalinin aktivlik dərəcəsi yüksək olarsa, onların işgörmə imkanları da geniş olar.

Yerli özünüidarə demək olar ki, bütün demoktarik ölkələrdə uğurlu nəticələr əldə edə bilib. Hələ yerli özünüidarə haqqında məlumatımız az olduğu bir vaxtda həmin ölkələrin təcrübələrini (1999-cu ildə) toplayaraq Avrasiya Fondunun maliyyə dəstəyi hesabına "Bələdiyyələr haqqında (şərhlər, təcrübələr, sənədlər)" kitabını nəşr etdik. O vaxtdan sonra çoxlu qanunlar qəbul olunub. Bələdiyyə seçkiləri keçirilib. Ölkədə bələdiyyələr formalaşıb. Lakin bələdiyyə seçkiləri necə keçirilib, bələdiyyələr hansı fəaliyyətlə məşğuldurlar, qəbul olunmuş qanunların işləmə dərəcəsi hansı həddədir – bütün bu suallar çoxlu həll olunmamış məsələlərdən xəbər versə də təəssüf ki, az müzakirə olunur. Bələdiyyələr öz problemlərini ictimaiyyət və müvafiq orqanlar qarşısında qaldıra bilmədikləri üçün səlahiyyət dairəsini də genişləndirə bilmirlər. Bələdiyyələrin fəaliyyəti ilə bağlı qəbul olunmuş qanunların böyük əksəriyyəti müasir tələblərə cavab versə də, onun istifadəsi, tətbiqi aşağı səviyyədədir. Bu vaxta qədər bələdiyyə sahəsində 10-dan çox qanun qəbul olunub. Həmin qanunların tətbiqi ilə əlaqədar verilən prezident

fərmanında qanunun işlənmə mexanizmi ilə bağlı Nazirlər Kabinetinin üzərinə müvafiq öhdəliklər qoyulsa da bütün məsələlərdə olduğu kimi NK bu məsələni də həll etməmiş saxlayır. Əslində Azərbaycan Respublikasında bələdiyyələrlə bağlı yaranmış problemlərin kökü də elə burdandır. Bələdiyyələr aşağıda göstərilən 3 halda yerli problemlərin həllində əsaslı rol oynaya bilərlər.

1. Yerli özünüidarənin bütün səlahiyyətləri qanunvericilik qaydasında dəqiq müəyyən olunsun.

2. Bələdiyyələr öz səlahiyyət hüdudlarında tam müstəqil olsunlar.

3. Bələdiyyələrin inzibati təsərrüfat müstəqilliyini təmin edən möhkəm maliyyə bazası əsasında fəaliyyət göstərsinlər.

Bu üç problem həll olunarsa, o zaman bələdiyyələrimizdən effektli iş tələb edə bilərik. Ümid edirik bu kitab bələdiyyələrin stolüstü kitabı kimi əsas vəsaitə çevriləcək.

Xatırlatmaq yerinə düşər ki, bu kitab hər il təzələnmə üsulu ilə bələdiyyələr tərəfindən irəli sürülən təkliflər nəzərə alınmaqla yenidən çap olunur.



# BEYNƏLXALQ SƏNƏDLƏR

## "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. 1985-ci il oktyabrın 15-də Strasburq şəhərində imzalanmış "Yerli özünüidarə haqqında" Avropa Xartiyası müvafiq bəyanatlar ilə (bəyanatların mətnləri əlavə olunur) təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

***Heydər Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 dekabr 2001-ci il***
***№ 238-IIQ***

4949

## YERLİ ÖZÜNÜİDARƏ HAQQINDA AVROPA XARTİYASI
**Strasburq, 15 oktyabr 1985-ci il**

### *P R E A M B U L A*

Avropa Şurasının üzvü olub, bu xartiyanı imzalamış dövlətlər,

Avropa Şurasının məqsədinin ümumi sərvət sayılan ideal və prinsiplərin təntənəsi və qorunması naminə onun üzvləri arasında daha sıx birliyə nail olmaqdan ibarət olduğunu hesab edərək;

idarəetmə sahəsində sazişlər bağlanmasının bu məqsədə xidmət edən vasitələrdən biri olduğunu hesab edərək;

yerli özünüidarə orqanlarının istənilən demokratik quruluş əsaslarından birini təşkil etdiyini hesab edərək;

dövlət işlərinin idarə edilməsində vətəndaşların iştirakı hüququnun Avropa Şurasının üzvü olan bütün dövlətlər üçün ümumi sayılan demokratik prinsiplərə aid olduğunu hesab edərək;

real hakimiyyət verilmiş yerli özünüidarə orqanlarının mövcudluğunun səmərəli və eyni zamanda vətəndaşa yaxın idarəetməni təmin etməsi qənaətinə söykənərək;

Avropanın müxtəlif ölkələrində yerli özünüidarənin müdafiəsinin və möhkəmləndirilməsinin demokratiya və hakimiyyətin mərkəzləşdirilməsi prinsiplərinə əsaslanan Avropanın qurulmasına əhəmiyyətli töhfə olduğunu dərk edərək;

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

bunun, qərarlar qəbul etmək səlahiyyəti verilmiş, demokratik yolla yaradılmış orqanlara malik olan və öz səlahiyyəti, onun həyata keçirilməsi qaydası və bunun üçün zəruri olan vəsaitlər baxımından geniş muxtariyyətə malik olan yerli özünüidarə orqanlarının mövcudluğunu nəzərdə tutduğunu təsdiq edərək;

aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Tərəflər aşağıdakı maddələrə bu xartiyanın 12-ci maddəsində nəzərdə tutulmuş qaydada və həcmdə riayət etməyi öhdələrinə götürürlər.

## 1-ci hissə

**Maddə 2**

**Yerli özünüidarənin konstitusiya və qanunvericilik əsasları**

Yerli özünüidarə prinsipi ölkə qanunvericiliyində və imkan daxilində ölkənin konstitusiyasında təsbit olunmalıdır.

**Maddə 3**

**Yerli özünüidarə anlayışı**

1. Yerli özünüidarə dedikdə, yerli özünüidarə orqanlarının dövlət işlərinin xeyli hissəsini reqlamentləşdirmək və qanun çərçivəsində fəaliyyət göstərərək, məsuliyyəti öz üzərinə götürməklə onu yerli əhalinin maraqlarına uyğun idarə etmək hüququ və real qabiliyyəti başa düşülür.

2. Bu hüququ azad, gizli, bərabər, birbaşa və ümumi səsvermə yolu ilə seçilmiş üzvlərdən ibarət şuralar, yaxud yığıncaqlar həyata keçirir. Şuraların, yaxud yığıncaqların onlara hesabat verməli olan icra orqanları ola bilər. Bu müddəa, qanunla yol verilən yerlərdə vətəndaşların yığıncaqlarına, referenduma və ya vətəndaşların birbaşa iştirakının hər hansı başqa formasına müraciət olunmasını istisna etmir.

**Maddə 4**

**Yerli özünüidarənin səlahiyyət sahəsi**

1. Yerli özünüidarə orqanlarının əsas səlahiyyətləri konstitusiya ilə, yaxud qanunla müəyyən edilir. Lakin bu müddəa yerli özünüidarə orqanlarına qanuna müvafiq olaraq ayrı-ayrı konkret səlahiyyətlərin verilməsini istisna etmir.

2. Yerli özünüidarə orqanları onların səlahiyyətindən çıxarılmamış və başqa bir hakimiyyət orqanının səlahiyyətinə aid edilməmiş hər hansı məsələyə dair öz təşəbbüslərini həyata keçirmək üçün qanunla müəyyən edilmiş hüdudlarda tam sərbəstliyə malikdirlər.

3. Dövlət səlahiyyətlərinin həyata keçirilməsi, bir qayda olaraq, əsas etibarı ilə vətəndaşlara daha yaxın olan hakimiyyət orqanlarına həvalə edilməlidir. Bu səlahiyyətlərdən hər hansı birinin başqa bir hakimiyyət orqanına verilməsi qarşıya qo-



yulmuş vəzifənin həcmini və xarakterini, eləcə də səmərəlilik və qənaət tələblərini nəzərə almaqla həyata keçirilməlidir.

4. Yerli özünüidarə orqanlarına verilən səlahiyyətlər, bir qayda olaraq, tam və müstəsna olmalıdır. Onlar başqa bir hakimiyyət orqanı, mərkəzi və ya regional orqan tərəfindən yalnız qanunla müəyyən edilmiş hüdudlarda mübahisələndirilə, yaxud məhdudlaşdırıla bilər.

5. Mərkəzi və regional orqanların səlahiyyətlərinin həvalə edilməsi zamanı yerli özünüidarə orqanları imkan daxilində onların həyata keçirilməsini yerli şəraitə uyğunlaşdırmaq sərbəstliyinə malik olmalıdırlar.

6. Yerli özünüidarə orqanlarına bilavasitə aidiyyəti olan hər hansı qərarların planlaşdırılması və qəbulu prosesində bu orqanlarla məsləhətləşmək və bunu, imkan daxilində, qabaqcadan və müvafiq formada etmək zəruridir.

**Maddə 5**

**Yerli özünüidarə orqanlarının ərazi hüdudlarının qorunması**

Yerli ərazi hüdudlarının istənilən dəyişməsi zamanı müvafiq yerli özünüidarə orqanları ilə qabaqcadan məsləhətləşmək zəruridir, qanunun yol verdiyi hallarda bunu referendum keçirilməsi yolu ilə etmək olar.

**Maddə 6**

**İnzibati strukturların və vasitələrin yerli özünüidarə orqanlarının vəzifələrinə uyğunluğu**

1. Yerli hakimiyyət orqanları daha ümumi qanunvericilik müddəalarını pozmadan, yerli tələbata cavab verən və səmərəli idarəetməni təmin edən öz daxili inzibati strukturlarını özləri müəyyənləşdirmək hüququna malik olmalıdırlar.

2. Yerli özünüidarə orqanları qulluqçularının iş şəraiti elə olmalıdır ki, təcrübə və səriştəliliyin nəzərə alınması prinsiplərinə əsaslanan yüksək ixtisaslı kadrlar seçimini təmin etmək mümkün olsun; bundan ötrü peşə hazırlığının, əməyin ödənilməsinin və vəzifədə irəliçəkilmənin müvafiq şərtlərinin təmin edilməsi zəruridir.

**Maddə 7**

**Yerli səviyyədə səlahiyyətlərin həyata keçirilməsi şərtləri**

1. Yerli seçkili şəxslərin statusu onların səlahiyyətlərinin sərbəst həyata keçirilməsini təmin etməlidir.

2. Yerli seçkili şəxslərin statusu onların öz səlahiyyətlərini həyata keçirmələri ilə bağlı çəkdikləri xərclərin müvafiq pul kompensasiyasını, həmçinin zərurət olduqda, əldən çıxmış faydaya, yaxud əməkhaqqına görə kompensasiyanı və müvafiq sosial sığortanı almağa imkan verməlidir.

3. Yerli seçkili şəxsin mandatı ilə bir araya sığmayan istənilən funksiyalar və fəaliyyət yalnız qanunla, yaxud əsas hüquqi prinsiplərlə müəyyənləşdirilə bilər.

**Maddə 8**
**Yerli özünüidarə orqanlarının fəaliyyətinə inzibati nəzarət**

1. Yerli özünüidarə orqanları üzərində istənilən inzibati nəzarət yalnız konstitusiya ilə, yaxud qanunla nəzərdə tutulmuş formalarda və hallarda həyata keçirilə bilər.

2. Yerli özünüidarə orqanlarının fəaliyyətinə istənilən inzibati nəzarət, bir qayda olaraq, yalnız qanunçuluğa və konstitusiya prinsiplərinə riayət olunmasını təmin etmək üçün nəzərdə tutulmalıdır. Bununla belə, inzibati nəzarət həmçinin yerli özünüidarə orqanlarının onlara həvalə edilmiş səlahiyyətləri lazımi qaydada yerinə yetirmələri üzərində yuxarı hakimiyyət orqanlarının nəzarətini də ehtiva edə bilər.

3. Yerli özünüidarə orqanları üzərində inzibati nəzarət elə tərzdə həyata keçirilməlidir ki, nəzarət edən orqanın müdaxilə dərəcəsi bu müdaxilənin qorumağı nəzərdə tutduğu maraqların əhəmiyyətinə mütənasib olsun.

**Maddə 9**
**Yerli özünüidarə orqanlarının maliyyələşmə mənbələri**

1. Yerli özünüidarə orqanlarının milli iqtisadi siyasət çərçivəsində kifayət qədər maliyyə vəsaitlərinə malik olmaq hüququ vardır, onlar öz funksiyalarını yerinə yetirmək üçün həmin vəsaitlər barədə sərbəst sərəncam verə bilərlər.

2. Yerli özünüidarə orqanlarının maliyyə vəsaitləri konstitusiya ilə, yaxud qanunla onlara verilən səlahiyyətlərə mütənasib olmalıdır.

3. Yerli özünüidarə orqanlarının maliyyə vəsaitlərinin heç olmazsa bir hissəsi yerli rüsum və vergilər hesabına daxil olmalıdır, bunların dərəcələrini yerli özünüidarə orqanları qanunda göstərilən hüdudlarda müəyyənləşdirməyə ixtiyarlıdırlar.

4. Yerli özünüidarə orqanlarının maliyyə vəsaitlərinin əsaslandığı maliyyə sistemləri yetərincə müxtəlif və çevik olmalıdır ki, yerli orqanların səlahiyyətlərinin həyata keçirilməsi zamanı çəkilən xərclərin dəyişməsini mümkün qədər təmin edə bilsin.

5. Maliyyə baxımından daha zəif olan yerli özünüidarə orqanlarının qorunması maliyyə tənzimi prosedurlarının, yaxud yerli orqanların potensial maliyyələşmə mənbələrinin qeyri-bərabər bölüşdürülməsinin nəticələrini və onlar üzərinə düşən xərcləri təshih etmək üçün nəzərdə tutulmuş ekvivalent tədbirlərin tətbiqini tələb edir. Belə prosedurlar və ya tədbirlər yerli özünüidarə orqanlarının öz səlahiyyətləri hüdudlarında seçim sərbəstliyini məhdudlaşdırmamalıdır.

6. Yenidən bölüşdürülən vəsaitlərin verilmə qaydasını yerli özünüidarə orqanları ilə lazımi qaydada razılaşdırmaq zəruridir.

7. Yerli özünüidarə orqanlarına verilən subsidiyalar imkan daxilində müəyyən layihələrin maliyyələşdirilməsi üçün nəzərdə tutulmamalıdır. Subsidiyaların verilməsi yerli özünüidarə orqanlarının özlərinin səlahiyyətləri sahəsində siyasət seçimində əsas sərbəstliyinə ziyan vurmamalıdır.



8. Kapital qoyuluşları üzrə xərclərin maliyyələşdirilməsi üçün yerli özünüidarə orqanları qanunvericiliyə riayət etməklə milli borc kapital bazarından istifadə edə bilməlidir.

**Maddə 10**
**Yerli özünüidarə orqanlarının birləşmək hüququ**

1. Yerli özünüidarə orqanları öz səlahiyyətlərini həyata keçirərkən ümumi maraq doğuran vəzifələrin yerinə yetirilməsi üçün digər yerli özünüidarə orqanları ilə əməkdaşlıq etmək və qanunla müəyyənləşdirilmiş hüdudlarda onlarla birləşmək hüququna malikdirlər.

2. Hər bir dövlətdə yerli özünüidarə orqanlarının ümumi maraqlarının qorunması və inkişafı üçün onların birliklərə və yerli özünüidarə orqanlarının beynəlxalq birliklərinə daxil olmaq hüququ tanınmalıdır.

3. Yerli özünüidarə orqanlarına qanunla müəyyən edilə bilən şərtlər əsasında başqa dövlətlərin belə orqanları ilə əməkdaşlıq etmək hüququ verilir.

**Maddə 11**
**Yerli özünüidarənin hüquqi müdafiəsi**

Yerli özünüidarə orqanları özlərinin səlahiyyətlərinin və ölkə konstitusiyasında və qanunvericiliyində təsbit olunmuş yerli özünüidarə prinsiplərinə riayət edilməsinin sərbəst həyata keçirilməsini təmin etmək üçün məhkəmə müdafiəsi hüququna malik olmalıdırlar.

## 2-ci hissə

## Xüsusi müddəalar

**Maddə 12**
**Öhdəliklər**

1. Hər bir tərəf xartiyanın 1-ci hissəsinin ən azı iyirmi bəndinə riayət etməyi öhdəsinə götürür; onlardan ən azı on bənd aşağıdakı bəndlər arasından seçilməlidir:
maddə 2
maddə 3, 1-ci və 2-ci bəndlər
maddə 4, 1-ci, 2-ci, 4-cü bəndlər
maddə 5
maddə 7, 1-ci bənd
maddə 8, 2-ci bənd
maddə 9, 1-ci, 2-ci və 3-cü bəndlər
maddə 10, 1-ci bənd
maddə 11.

2. Təsdiqnamənin, yaxud xartiyanı qəbuletmə və ya bəyənmə barədə sənədin saxlanılmaq üçün təhvil verildiyi vaxt razılığa gələn hər bir dövlət bu maddənin

1-ci bəndinin müddəalarına uyğun olaraq seçdiyi bəndlər barədə Avropa Şurasının Baş katibinə bildiriş göndərir.

3. Gələcəkdə hər bir tərəf istənilən vaxt Baş katibə bildiriş göndərə bilər ki, o, xartiyanın, bu maddənin 1-ci bəndinin müddəalarına uyğun olaraq hələ qəbul etmədiyi istənilən digər bəndinə riayət etməyi öhdəsinə götürür. Sonradan qəbul edilmiş bu cür öhdəliklər bildiriş göndərən tərəfin ratifikasiya, qəbuletmə, yaxud bəyənmə prosedurunun əsas hissəsi hesab edilir və bildirişi Baş katibin aldığı tarixdən üç aylıq müddət keçdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir.

**Maddə 13**
**Xartiyanın qüvvəsi şamil edilən yerli özünüidarə orqanları**

Bu xartiyada təsbit olunmuş yerli özünüidarə prinsipləri tərəflərin ərazilərində mövcud olan yerli özünüidarə orqanlarının bütün kateqoriyalarına şamil edilir. Lakin təsdiqnamənin yaxud qəbuletmə və ya bəyənmə haqqında sənədin saxlanılmaq üçün təhvil verilməsi zamanı hər bir tərəf bu xartiyanın tətbiqinin məhdudlaşdırıldığı yerli və ya regional özünüidarə orqanlarının kateqoriyalarını, yaxud bu xartiyanın tətbiq dairəsindən çıxarmaq niyyətində olduğu kateqoriyaları göstərə bilər. Tərəf həmçinin Avropa Şurasının Baş katibinə sonradan bildiriş göndərmək yolu ilə xartiyanın qüvvəsini yerli və regional hakimiyyət orqanlarının digər kateqoriyalarına şamil edə bilər.

**Maddə 14**
**İnformasiyanın verilməsi**

Hər bir tərəf özünün qanunvericilik müddəaları və bu xartiyanın müddəalarına uyğunlaşdırma üçün gördüyü digər tədbirlər haqqında bütün zəruri informasiyanı Avropa Şurasının Baş katibinə göndərir.

## 3-cü hissə

**Maddə 15**
**İmzalama, ratifikasiya, qüvvəyəminmə**

1. Bu xartiya Avropa Şurasının üzvü olan dövlətlərin imzalaması üçün açıqdır. Xartiya ratifikasiya edilməli, qəbul olunmalı, yaxud bəyənilməlidir. Təsdiqnamələr yaxud qəbuletmə və ya bəyənmə haqqında sənədlər saxlanılmaq üçün Avropa Şurasının Baş katibinə təhvil verilir.

2. Bu xartiya Avropa Şurasının üzvü olan dörd dövlətin bundan əvvəlki bəndin müddəalarına uyğun olaraq xartiyaya riayət etməyə öz razılıqları barədə bəyanatları təqdim etməsi tarixindən üç aylıq müddətin keçməsindən sonra gələn ayın birinci günü qüvvəyə minir.

3. Gələcəkdə xartiyaya qoşulmağa öz razılığını bildirmiş, Avropa Şurasının üzvü olan istənilən dövlət üçün xartiya təsdiqnamənin, qəbuletmə və ya bəyənmə haqqında sənədin saxlanılmaq üçün təhvil verilməsindən sonra gələn ayın birinci günü qüvvəyə minəcək.



**Maddə 16**
**Ərazi qeyd-şərti**

1. Təsdiqnamə, yaxud xartiyanı qəbuletmə, bəyənmə və ya ona qoşulma barədə sənədi imzalayarkən və ya saxlanılmaq üçün təhvil verərkən hər bir dövlət bu Xartiyanın tətbiq ediləcəyi ərazini, yaxud əraziləri göstərə bilər.

2. Hər bir dövlət gələcəkdə istənilən vaxt Avropa Şurasının Baş katibinə bəyannamə göndərməklə, bu xartiyanın tətbiqini bəyannamədə göstərilmiş istənilən digər əraziyə şamil edə bilər. O əraziyə münasibətdə xartiya Baş katibin həmin bildirişi aldığı tarixdən üç aylıq müddət keçdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir.

**Maddə 17**
**Etibarsız elanetmə**

1. Tərəflərdən heç biri bu xartiyanın onun üçün qüvvəyə mindiyi gündən beş illik müddət bitənədək xartiyanı etibarsız elan edə bilməz. Altı ay öncədən Avropa Şurasının Baş katibinə ilkin bildiriş göndərilir. Bu cür etibarsız elanetmə xartiyanın digər tərəflər üçün qüvvəsinə təsir etmir, bir şərtlə ki, onların sayı heç vaxt dörddən az olmasın.

2. Əvvəlki bəndin müddəalarına uyğun olaraq tərəflərdən hər biri xartiyanın I hissəsinin əvvəllər özü tərəfindən qəbul edilmiş hər hansı bəndini etibarsız elan edə bilər, bir şərtlə ki, həmin tərəfin riayət etməli olduğu bəndlərin sayı və kateqoriyaları 12-ci maddənin 1-ci bəndinin müddəalarına uyğun olsun. Bəndlərdən birinin etibarsız elan edilməsindən sonra 12-ci maddənin 1-ci bəndinin tələblərinə artıq uyğun gəlməyən hər bir tərəf həmçinin xartiyanı bütövlükdə etibarsız elan etmiş sayılacaqdır.

**Maddə 18**
**Bildirişlər**

Avropa Şurasının Baş katibi Şuranın üzvü olan dövlətlərə aşağıdakılar barədə bildirişlər göndərir:

a) hər hansı imzalanma;

b) hər hansı təsdiqnamənin, yaxud qəbuletmə və ya bəyənmə haqqında sənədin saxlanılmaq üçün təhvil verilməsi;

c) 15-ci maddəyə uyğun olaraq bu xartiyanın hər hansı qüvvəyəminmə tarixi;

d) 12-ci maddənin 2-ci və 3-cü bəndlərinin müddəalarına uyğun olaraq alınmış istənilən bildiriş;

e) 13-cü maddənin müddəalarına uyğun olaraq alınmış istənilən bildiriş;

f) bu xartiyaya aidiyyəti olan hər hansı başqa akt, bildiriş və ya məlumat.

Bunun təsdiqi olaraq, lazımi qaydada vəkil edilmiş aşağıda imza edənlər bu xartiyanı imzalamışlar.

Strasburqda, 1985-ci il oktyabrın 15-də fransız və ingilis dillərində, hər iki mətni eyni qüvvəyə malik olan bir nüsxədə imzalanmışdır, həmin nüsxə saxlanılmaq üçün Avropa Şurasının arxivinə təhvil veriləcəkdir.

Avropa Şurasının Baş katibi lazımi qaydada təsdiq edilmiş surətləri Avropa Şurasının üzvü olan dövlətlərin hər birinə göndərir.

## "Yerli özünüidarə haqqında" Avropa Xartiyasına dair Azərbaycan Respublikasının BƏYANATI

Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində Xartiyanın müddəalarının yerinə yetirilməsinə işğal olunmuş ərazilər azad olunana qədər təminat vermək iqtidarında deyildir (işğal olunmuş ərazilərin sxematik xəritəsi əlavə olunur).

## "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının 12-ci maddəsinin 2-ci bəndinə dair Azərbaycan Respublikasının BƏYANATI

"Yerli özünüidarə haqqında" Avropa Xartiyasının 12-ci maddəsinin 2-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikası aşağıdakı maddə və bəndlər üzrə öhdəliklər götürdüyünü bəyan edir:

- maddə 2;
- maddə 3, I və II bəndlər;
- maddə 4, I, II, IV, V və VI bəndlər;
- maddə 5;
- maddə 6, I və II bəndlər;
- maddə 7, I və III bəndlər;
- maddə 8, I, II və III bəndlər;
- maddə 9, I, II, III, IV, VII və VIII bəndlər;
- maddə 10, I və II bəndlər;
- maddə 11



## Azərbaycan Respublikası və Norveç Krallığı arasında bağlanmış "İkiqat vergiyə cəlb etməyə yol verilməməsi, gəlirlərə və kapitala görə vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında" konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikası və Norveç Krallığı arasında bağlanmış "İkiqat vergiyə cəlb etməyə yol verilməməsi, gəlirlərə və kapitala görə vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında" 1996-cı il aprelin 24-də Oslo şəhərində imzalanmış konvensiya təsdiq edilsin.

2. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

*Heydər Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 25 iyun 1996-cı il*
*№ 136- IQ*

## Azərbaycan Respublikası və Norveç Krallığı arasında bağlanmış "İkiqat vergiyə cəlb etməyə yol verilməməsi, gəlirlərə və kapitala görə vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında" KONVENSİYA

Azərbaycan Respublikası hökuməti və Norveç Krallığı hökuməti ikiqat vergiyə cəlb etməyə yol verilməməsi, gəlirlərə və kapitala görə vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında konvensiya bağlamaq məqsədilə aşağıdakılar barədə razılığa gəlmişlər:

**Maddə 1. Konvensiyanın şamil edildiyi şəxslər**

Bu konvensiya razılığa gələn dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olan şəxslərə şamil edilir.

**Maddə 2. Konvensiyanın tətbiq edildiyi vergi növləri**

1. Bu Konvensiya, razılığa gələn dövlət və ya onun ərazi-inzibati, yaxud yerli hakimiyyət orqanları tərəfindən gəlirlərə və kapitala görə alınan (alınma qaydasından asılı olmayaraq) vergilərə tətbiq olunur.

2. Gəlirlərə və kapitala görə vergilər dedikdə, ümumi gəlirə və ümumi kapitala görə vergilər, yaxud gəlir və kapitalın ayrı-ayrı elementlərindən tutulan vergilər, o cümlədən daşınar və daşınmaz əmlakın özgəninkiləşdirilməsindən əldə edilən gəlirə görə vergilər, eləcə də müəssisələr tərəfindən verilən əmək haqqı və məvacibin ümumi məbləğindən tutulan bütün vergilər nəzərdə tutulur.

3. Konvensiyanın tətbiq edildiyi mövcud vergi növləri əsasən aşağıdakılardır:

a) Norveçdə:

(I) gəlirdən dövlət vergisi;

(II) gəlirdən dairə-bələdiyyə vergisi;

(III) gəlirdən bələdiyyə vergisi;

(IV) Vergi Tarazlaşdırma Fonduna dövlət yardımları;

(V) kapitala görə dövlət vergisi;

(VI) kapitala görə bələdiyyə vergisi;

(VII) sualtı neft yataqlarının tədqiqi və istismarı, orada görülən iş və fəaliyyət, o cümlədən istehsal olunan neftin neft kəməri vasitəsilə daşınması ilə əlaqədar əldə edilən gəlirdən dövlət vergisi;

(VIII) qeyri-rezident incəsənət xadimlərinə verilən mükafatlardan dövlət rüsumu (burada və sonra "Norveç vergisi" adlanır);

b) Azərbaycanda:

(I) hüquqi şəxslərin mənfəətindən və bəzi gəlir növlərindən tutulan vergi;

(II) fiziki şəxslərdən alınan gəlir vergisi;

(III) torpaq vergisi;

(IV) royalti vergisi;

(V) əmlak vergisi (burada və sonra "Azərbaycan vergisi" adlanır).

4. Konvensiya, imzalandığı tarixdən sonra, mövcud vergilərə əlavə olaraq, yaxud onların əvəzinə razılığa gələn dövlətlərdən hər hansı biri tərəfindən qoyulan əsasən oxşar və ya eyni olan vergilərə də tətbiq edilir.

**Maddə 3. Ümumi təriflər**

1. Bu konvensiyada, kontekst başqa cür tələb etmirsə, aşağıdakı tə`riflər qəbul olunur:

a) "Azərbaycan" - Azərbaycan Respublikasının Konstitusiyasında müəyyən edilmiş mənada Azərbaycan Respublikasının ərazisi deməkdir, ona hüdudlarında Azərbaycan Respublikasının suveren hüquqlarının dəniz dibi, yerin təki və təbii resurslara münasibətdə həyata keçirilə biləcəyi istənilən dəniz sahəsi, beynəlxalq hüquqa və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müəyyən edilmiş və ya bundan sonra müəyyən edilə biləcək istənilən sahə aiddir;

b) "Norveç" dedikdə Norveç Krallığı, o cümlədən Norveç qanunvericiliyinə və beynəlxalq hüquq qaydalarına müvafiq olaraq, dəniz yataqları, yerin təki və təbii sərvətlər barədə Norveç Krallığının öz hüquqlarını həyata keçirə biləcəyi Norveç Krallığının ərazi sularından kənarda qalan hər hansı ərazi nəzərdə tutulur; bu termin Svalbard, Yan - Maya və Norveçdən asılı əraziləri əhatə etmir;



c) "şəxs" termininə hər hansı bir fiziki şəxs, şirkət və hər hansı bir şəxslər qrupu daxildir;

d) "şirkət" vergi məqsədləri üçün korporativ orqan kimi götürülən hər hansı korporativ qurum və ya birlik deməkdir;

e) "razılığa gələn bir dövlətin müəssisəsi" və "razılığa gələn digər dövlətin müəssisəsi" terminləri, müvafiq olaraq razılığa gələn bir dövlətin rezidenti tərəfindən idarə olunun müəssisəni və razılığa gələn digər dövlətin rezidenti tərəfindən idarə olunan müəssisəni bildirir;

f) "razılığa gələn bir dövlət" və "dazılığa gələn digər dövlət" terminləri, kontekstdən asılı olaraq, Azərbaycanı və ya Norveçi bildirir;

g) "beynəlxalq daşımalar" termini, razılığa gələn digər dövlətdə yerləşən məntəqələr arasında istifadə halları istisna olmaqla, Razılığa gələn bir dövlətin müəssisəsi tərəfindən idarə olunan dəniz və hava nəqliyyat vasitələri ilə hər hansı bir daşımanı nəzərdə tutur.

h) "səlahiyyətli orqan" termini:

(I) Azərbaycanda - maliyyə naziri və ya onun səlahiyyətli nümayəndəsini;

(II) Norveçdə - Maliyyə və Gömrük Naziri və ya onun səlahiyyətli nümayəndəsini bildirir;

i) "milli şəxs" termini:

(I) razılığa gələn bir dövlətin vətəndaşı olan bütün fiziki şəxsləri;

(II) razılığa gələn bir dövlətin qüvvədə olan qanunlarına əsasən həmin statusu almış bütün hüquqi şəxsləri, yoldaşlıq və assosiasiyaları bildirir.

2. Bu konvensiyanın razılığa gələn bir dövlət tərəfindən tətbiqi zamanı burada tərifi verilməyən hər hansı bir termin, kontekst başqa cür tələb etmirsə, konvensiyanın tətbiq edildiyi vergilər haqqında həmin dövlətin qanunlarında nəzərdə tutulmuş me`naya malik olacaqdır.

**Maddə 4. Rezident**

1. Bu konvensiyanın məqsədləri üçün, "razılığa gələn dövlətin rezidenti" termini, həmin dövlətin qanunlarına əsasən, daimi yaşayış yerinə, iş yerinə, qeydiyyatdan keçiyi yerə (inkorporasiya yerinə), yaxud bu kimi başqa me`yarlara görə vergiyə cəlb edilməli olan şəxsi bildirir. Lakin bu termin yalnız həmin dövlətdəki mənbələrdən əldə etdiyi gəlirə və ya orada yerləşən əmlakına görə həmin dövlət tərəfindən vergiyə cəlb olunan şəxsləri əhatə etmir.

2. Bu maddənin 1-ci bəndinin müddəalarına əsasən, fiziki şəxs razılığa gələn dövlətlərdən hər ikisinin rezidentidirsə, onun statusu aşağıdakı kimi müəyyənləşdirilir:

a) bir dövlətdə öz ixtiyarında daimi yaşayış yeri olan şəxs həmin dövlətin rezidenti sayılır; əgər onun hər iki dövlətdə daimi yaşayış yeri varsa, onda həmin dövlətlərdən hansı ilə daha sıx şəxsi və iqtisadi əlaqələrə malikdirsə (həyat mənafeyinin mərkəzi), həmin dövlətin rezidenti hesab olunur;

b) əgər onun bu dövətlərdən heç birində öz ixtiyarında daimi yaşayış yeri yoxdursa və ya onun həyat mənafeyinin mərkəzinin hansı dövlətdə yerləşdiyini müəyyənləşdirmək mümkün deyilsə, o zaman həmin şəxs adətən yaşadığı dövlətin rezidenti hesab olunur;

c) əgər o, hər iki dövlətdə yaşayırsa, yaxud heç birində yaşamırsa, həmin şəxs milliyyətcə mənsub olduğu dövlətin rezidenti sayılır;

d) əgər həmin şəxs milliyyətcə hər iki dövlətə mənsubdursa, yaxud heç birinə mənsub deyilsə, bu halda razılığa gələn dövlətlərin səlahiyyətli orqanları məsələni qarşılıqlı razılaşma yolu ilə həll etməlidirlər.

3. Bu maddənin 1-ci bəndinin müddəalarında göstərilən səbəblərə görə fiziki şəxs olmayan hər hansı bir şəxs razılığa gələn dövlətlərin hər ikisinin rezidenti olarsa, razılığa gələn həmin dövlətlərin səlahiyyətli orqanları məsələni qarşılıqlı razılaşma yolu ilə həll etməyə cəhd göstərəcəklər. Razılıq əldə edilməzsə, həmin şəxs bu konvensiyanın tə`min etdiyi vergi imtiyazlarından istifadə etmək və ya vergidən azad olunmaq barədə heç bir iddia irəli sürə bilməz.

**Maddə 5. Daimi nümayəndəlik**

1. Bu konvensiyanın məqsədləri üçün "daimi nümayəndəlik" termini müəssisənin öz fəaliyyətini bütünlüklə və ya qismən həyata keçirdiyi iş yerini bildirir.

2. "Daimi nümayəndəlik" termininə əsasən aşağıdakılar daxildir:

a) idarəetmə yeri;

b) filial;

c) ofis;

d) fabrik və ya zavod;

e) emalatxana;

f) şaxta, neft və ya qaz quyusu, daş karxanası, yaxud təbii sərvətlərin tədqiq olunduğu və ya çıxarıldığı hər hansı bir yer;

g) təbii sərvətlərin kəşfiyyatı üçün tələb olunan tikili və ya qurğu;

h) 12 aydan artıq fəaliyyət göstərmək lazım gələrsə, inşaat meydançası və ya tikinti-quraşdırma və yığma obyekti.

3. Razılığa gələn dövlətdə daimi nümayəndəliyin işini müəssisənin bu məqsədlə işə götürmüş olduğu işçilər və digər personal tərəfindən xidmət, o cümlədən məsləhət xidmətləri göstərilməsi təşkil edir, lakin bu cür fəaliyyət növü (eyni və ya onunla bağlı) həmin dövlət daxilində 6 aydan artıq davam etməlidir.

4. Bu maddənin yuxarıda göstərilən müddəalarına baxmayaraq, "daimi nümayəndəlik" termini aşağıdakıları əhatə etmir:

a) avadanlıq və təchizat vəsaitlərindən müəssisəyə məxsus olan mal və məhsulların yalnız saxlanması, nümayiş etdirilməsi və göndərilməsi məqsədilə istifadə olunması;

b) müəssisəyə məxsus olan mal və məhsul ehtiyatının yalnız yığmaq, nümayiş etdirmək və göndərmək məqsədilə saxlanması;



c) müəssisəyə məxsus mal və məhsul ehtiyatının yalnız başqa müəssisədə emalı məqsədilə saxlanması;

d) daimi iş yerinin yalnız mal və məhsulların alınması və ya müəssisəyə lazım olan informasiyanın toplanması üçün saxlanması;

e) daimi iş yerinin müəssisə üçün yalnız hazırlıq və ya yardımçı xarakterli hər hansı bir fəaliyyəti həyata keçirmək məqsədilə saxlanması;

f) daimi iş yerinin yalnız a) - e) yarımbəndlərində göstərilən fəaliyyət növlərinin hər hansı bir kombinasiyasını həyata keçirmək üçün saxlanması, bu şərtlə ki, daimi iş yerinin bu kombinasiyalardan doğan fəaliyyəti hazırlıq və ya yardımçı xarakter daşısın.

5. Bu maddənin 1-ci və 2-ci bəndlərindəki müddəalara baxmayaraq, 6-cı bəndin şamil edildiyi müstəqil statuslu agentdən başqa digər bir şəxs müəssisə adından fəaliyyət göstərirsə və razılığa gələn dövlətdə müəssisə adından müqavilələr bağlamaq səlahiyyətinə malikdirsə, həmin şəxsin müəssisə üçün göstərdiyi fəaliyyət nəzərə alınmaqla, bu müəssisə həmin dövlətdə daimi nümayəndəliyə malik bir müəssisə hesab olunacaqdır, lakin belə şəxsin fəaliyyət dairəsi 4-cü bənddə göstərilən müddəalarla məhdudlaşaraq daimi iş yeri vasitəsilə həyata keçirilərsə, bu bəndin müddəalarına əsasən belə daimi iş yeri daimi nümayəndəliyə çevrilə bilməz.

6. Hər hansı bir müəssisə razılığa gələn dövlətlərdən birində broker, ümumi komission agenti və ya müstəqil statuslu hər hansı bir nümayəndəsi vasitəsilə iş görürsə və həmin şəxslər öz işlərini adi qayda üzrə həyata keçirirlərsə, həmin müəssisə bu dövlətdə daimi nümayəndəliyə malik hesab olunmur. Bununla belə, nümayəndə və müəssisə arasındakı sazişlərin iki müstəqil partiya arasında bağlana biləcək şərtlər altında bağlanması göstərilməyincə, həmin şəxsin fəaliyyəti bütünlüklə və ya əsasən bu müəssisəyə həsr olunsa belə o, bu bəndin məzmunu hüdudları daxilində, müstəqil statuslu nümayəndə hesab olunmayacaqdır.

7. Razılığa gələn dövlətlərdən birinin rezidenti olan şirkətin razılığa gələn digər dövlətin rezidenti olan, yaxud o dövlətdə biznes fəaliyyəti göstərən (istər daimi nümayəndəlik vasitəsilə, istərsə də başqa yolla) şirkətə nəzarət etməsi və ya onun tərəfindən nəzarətə alınması faktı öz-özlüyündə bu şirkətlərin birini digərinin daimi nümayəndəliyinə çevirmir.

**Maddə 6. Daşınmaz əmlakdan gəlir**

1. Razılığa gələn dövlətlərdən birinin rezidentinin razılığa gələn digər dövlətin ərazisində yerləşən daşınmaz əmlakından (meşə və kənd təsərrüfatından gəlir də daxil olmaqla) əldə etdiyi gəlir həmin digər dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bu konvensiyada "daşınmaz əmlak" termini, haqqında söhbət gedən əmlakın yerləşdiyi razılığa gələn dövlətin qanunlarına əsasən malik olduğu mənanı verir. Bütün hallarda bu termin daşınmaz əmlaka aid olan mülkü, ev heyvanlarını, meşə və kənd təsərrüfatında istifadə edilən avadanlığı, torpaq haqqında ümumi

qanunun müddəalarından irəli gələn hüquqları, daşınmaz əmlakdan və ondan gələn gəlirdən istifadə hüquqlarını, mineral qazıntıların, mənbələrin və digər təbii ehtiyatların işlənməsi hüquqlarını və ya işlənməsinə görə təsbit edilmiş və ya dəyişkən ödənişlərə dair hüquqları əhatə edir; dəniz və hava nəqliyyatı daşınmaz əmlak hesab olunmur.

3. Bu maddənin 1-ci bəndinin müddəaları daşınmaz əmlakın birbaşa, yaxud digər formada istifadəsindən, həmçinin icarəyə verilməsindən əldə olunan gəlirlərə də tətbiq edilir.

4. Bu maddənin 1-ci və 3-cü bəndlərinin müddəaları müəssisənin daşınmaz əmlakından gələn gəlirə və eləcə də müstəqil şəxsi xidmətlər göstərmək üçün istifadə olunan daşınmaz əmlakdan gələn gəlirlərə də tətbiq olunur.

**Maddə 7. Biznes fəaliyyətindən əldə olunan mənfəət**

1. Razılığa gələn dövlətlərdən birinin müəssisəsinin, razılığa gələn digər dövlətin ərazisindəki daimi nümayəndəliyi vasitəsilə biznes fəaliyyəti göstərməməsi şərti ilə, əldə etdiyi mənfəət yalnız həmin dövlətdə vergiyə cəlb olunur. Əks halda, yəni müəssisə razılığa gələn digər dövlətin ərazisindəki daimi nümayəndəliyi vasitəsilə biznes fəaliyyəti göstərərsə, onun əldə etdiyi mənfəətin yalnız həmin daimi nümayəndəliyə aid olan hissəsi digər dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bu maddənin 3-cü bəndinin müddəaları nəzərə alınmaqla razılığa gələn bir dövlətin müəssisəsi razılığa gələn digər dövlətdə yerləşən daimi nümayəndəliyi vasitəsilə biznes fəaliyyəti göstərərsə, razılığa gələn dövlətlərdən hər birində həmin daimi nümayəndəliyin mənfəətinə - onun ayrıca bir müəssisə kimi eyni və ya oxşar şəraitdə, eyni və ya oxşar fəaliyyəti yerinə yetirdiyi, həmçinin daimi nümayəndəsi olduğu müəssisədən tam müstəqil şəkildə fəaliyyət göstərdiyi təqdirdə əldə edilən mənfəət daxildir.

3. Daimi nümayəndəliyin mənfəətini müəyyənləşdirərkən, idarəetmə və ümumi inzibati xərclər də daxil olmaqla, daimi nümayəndəliyin məqsədləri üçün çəkilmiş xərclərin, bu xərclərin daimi nümayəndəliyin yerləşdiyi dövlətdə və ya digər bir yerdə çəkilməsindən asılı olmayaraq çıxarılmasına yol verilir.

4. Müəssisənin ümumi mənfəət məbləğinin müxtəlif bölmələr üzrə mütənasib olaraq bölüşdürülməsi əsasında daimi nümayəndəliyə ayrılan mənfəətin müəyyənləşdirilməsi razılığa gələn bir dövlətdə qanunauyğun şəkildə adi təcrübəyə çevrilmişdirsə, bu maddənin 2-ci bəndindəki heç bir müddəa həmin razılığa gələn dövlətin vergiyə cəlb edilən mənfəətin, adətən qəbul edilmiş bölgü qaydası müəyyənləşdirməsinə maneçilik törətmir; lakin qəbul edilən bölgü metodu bu maddədə əksini tapmış prinsiplərə uyğun nəticələr verməlidir.

5. Daimi nümayəndəliyə, öz·müəssisəsi üçün mal və məhsulları yalnız satın almasına görə heç bir mənfəət hesablanmır.

6. Əgər mənfəətin hesablanma üsulunu dəyişmək üçün kifayət qədər tutarlı səbəb yoxdursa, yuxarıdakı bəndlərin məqsədləri naminə, daimi nümayəndəliyə aid mənfəət hər il eyni qaydada müəyyənləşdirilir.



7. Bu konvensiyanın digər maddələrində ayrı-ayrılıqda nəzərdən keçirilən gəlir növləri də mənfəətə daxildirsə, onda bu maddənin müddəaları həmin maddələrin müddəalarına tə`sir göstərmir.

**Maddə 8. Dəniz və hava nəqliyyatı, konteynerlər**

1. Razılığa gələn dövlətin müəssisəsinin beynəlxalq daşımalarda dəniz və ya hava nəqliyyatının istismarından əldə etdiyi mənfəət yalnız Razılığa gələn həmin dövlətdə vergiyə cəlb olunur.

2. Mal və məhsulların beynəlxalq nəqliyyat vasitəsilə daşınması üçün razılığa gələn dövlətin müəssisəsinin istifadə etdiyi konteynerlərin (treylerlər və konteynerlərin daşınması üçün işlədilən bu kimi avadanlıq da daxil olmaqla) istifadəsi, saxlanması və icarəyə verilməsindən əldə olunan mənfəət yalnız həmin dövlətdə vergiyə cəlb olunur.

3. Bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları həmçinin pulda (rəqabəti aradan götürmək üçün sahibkarlar birliyi), birgə müəssisədə, yaxud beynəlxalq əməliyyatlar təşkilatında iştirakdan əldə olunan mənfəətə də tətbiq edilir.

4. Müxtəlif ölkələrin şirkətləri birlikdə - konsorsium şəklində beynəlxalq daşıma əməliyyatlarını həyata keçirərlərsə, bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları bu konsorsiumdan əldə edilən mənfəətə də tətbiq olunur; lakin konsorsiumdan·əldə edilən mənfəətin razılığa gələn dövlətin rezidenti olan şirkətin konsorsiumda iştirakı ilə əlaqədar hissəsinə vergi qoyulur.

**Maddə 9. Assosiasiya müəssisələri**

1. Əgər –

a) Razılığa gələn dövlətin bir müəssisəsi razılığa gələn digər dövlətin müəssisənin idarə və nəzarət olunmasında, yaxud kapitalında bilavasitə, yaxud bilvasitə iştirak edərsə, və ya

b) eyni şəxslər razılığa gələn bir dövlətin müəssisəsinin və razılığa gələn digər dövlətin müəssisəsinin idarə olunmasında, nəzarət edilməsində və kapitalında iştirak edirsə və hər iki halda, həmin iki müəssisə arasında kommersiya və maliyyə münasibətlərinə dair, müstəqil müəssisələr arasında qəbul edilən şərtlərdən fərqli şərtlər və öhdəliklər qəbul edilir; sonra isə müəssisələrdən birinə aid edilə biləcək, lakin bu şərtlərin mövcudluğu səbəbindən ona hesablanmayan hər hansı bir mənfəət o müəssisənin mənfəətinə daxil edilir və müvafiq olaraq vergiyə cəlb edilir.

2. Razılığa gələn dövlətlərin səlahiyyətli orqanları mənfəətin hesablanması qaydasında razılığa gəlmək üçün birgə məsləhətləşmələr apara bilərlər.

**Maddə 10. Dividendlər**

1. Razılığa gələn bir dövlətin rezidenti olan şirkətin razılığa gələn dövlətin rezidentinə ödədiyi dividendlər həmin digər dövlətdə vergiyə cəlb edilə bilər.

2. Belə dividendlər, onları ödəyən şirkətin rezidenti olduğu razılığa gələn dövlətdə də, bu dövlətin qanunlarına uyğun olaraq, vergiyə cəlb oluna bilər, lakin

dividend alan onun faktiki sahibidirsə, bu cür qoyulan vergi aşağıda göstərilənlərdən çox olmamalıdır:

a) dividendlərin faktiki sahibi, dividendləri ödəyən şirkətin kapitalının ən azı 30 faizinə bilavasitə nəzarət edən şirkətdirsə (yoldaşlıqdan fərqli) və həmin dövlətə bütünlükdə götürdükdə 100 min ABŞ dollarına ekvivalent məbləğdə investisiya qoymuşdursa, dividendlərin ümumi məbləğinin 10 faizindən. İnvestisiya termini həmin dövlətdə yatırıma qoyulmuş hər cür pulu əhatə edir;

b) bütün digər hallarda dividendlərin ümumi məbəğinin 15 faizindən.

Bu bənd, hesabından dividendlər ödənilən mənfəətə görə şirkətə qoyulan vergilərə təsir etmir.

3. Bu maddədə işlənən "dividend" termini - səhmlərdən, eləcə də borc öhdəliyindən savayı digər hüquqlardan, mənfəətdə iştirakdan gələn gəlir, habelə mənfəəti bölüşdürən şirkətin rezidenti olduğu dövlətin qanunlarına müvafiq olaraq, səhmlərdən gəlir kimi vergiyə cəlb olunan digər korporativ hüquqlardan gələn gəlir mənasında işlənir.

4. Razılığa gələn dövlətin rezidenti olan faktiki dividend sahibi, onları ödəyən şirkətin rezidenti olduğu razılığa gələn digər dövlətdə, ordakı daimi nümayəndəliyi vasitəsilə biznes fəaliyyəti həyata keçirirsə, yaxud həmin digər dövlətdə yerləşən daimi bazadan müstəqil şəxsi xidmətlər göstərirsə, həmçinin dividendlərin ödənildiyi holdinq belə daimi nümayəndəlik və ya daimi baza ilə faydalı şəkildə əlaqəlidirsə, bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, bu konvensiyanın 7-ci və 14-cü maddələrinin müddəaları tətbiq edilir.

5. Razılığa gələn bir dövlətin rezidenti olan şirkət razılığa gələn digər dövlətdən mənfəət və ya gəlir əldə etdiyi halda, həmin digər dövlət bu şirkətin ödədiyi dividendləri - onların həmin digər dövlətin rezidentinə ödənildiyi, yaxud dividendlərin ödənildiyi holdinq həmin digər dövlətin ərazisində yerləşən daimi nümayəndəliklə və ya daimi baza ilə faydalı əlaqədə olduğu hallar istisna olunmaqla - vergilərdən azad edə bilər və şirkətin bölüşdürülməmiş mənfəətindən, hətta dividendlər ödənildikdə və ya bölüşdürülməmiş mənfəət qismən, yaxud bütünlüklə həmin digər dövlətdə əldə edilmiş mənfəət və gəlirdən ibarət olduqda belə, vergilər tutulmur.

**Maddə 11. Faizlər**

1. Razılığa gələn dövlətlərdən birində əldə edilən və razılığa gələn digər dövlətin rezidentinə ödənilən faizlərə həmin digər dövlətdə vergi qoyula bilər.

2. Bu faizlər əldə olunduqları razılığa gələn dövlət tərəfindən də, həmin dövlətin qanunlarına uyğun surətdə, vergiyə cəlb oluna bilər, lakin faizləri alan şəxs onların faktiki sahibidirsə, tutulan vergi faizlərin ümumi məbləğinin 10 faizdən artığını təşkil etməməlidir.



3. Bu maddədə istifadə olunan "faizlər" termini hər növ borc öhdəliklərindən, xüsusən dövlətin qiymətli kağızlarından, istiqraz və ya borc öhdəliyi qəbzlərindən, həmçinin onlara əlavə edilən mükafat və uduşlardan gələn gəliri bildirir.

4. Razılığa gələn bir dövlətin rezidenti olan faktiki faiz sahibi, bu faizlərin əldə edildiyi razılığa gələn digər dövlətdə, oradakı daimi nümayəndəliyi vasitəsilə biznes fəaliyyəti həyata keçirirsə, yaxud həmin digər dövlətdə yerləşən daimi bazadan müstəqil şəxsi xidmətlər göstərirsə, habelə faizlərin ödənildiyi borc öhdəlikləri faydalı şəkildə belə daimi nümayəndəlik və ya daimi baza ilə əlaqəlidirsə, bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, bu konvensiyanın 7-ci və 14-cü maddələrinin müddəaları tətbiq edilir.

5. Razılığa gələn dövlət özü, onun ərazi-inzibati, yaxud yerli hakimiyyət orqanları və ya həmin dövlətin rezidenti tədiyyəçi (ödəyən) kimi çıxış edərsə, faizlər bu dövlətdə yaranmış hesab olunur. Lakin faizləri ödəyən şəxsin, razılığa gələn dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, həmin razılığa gələn dövlətdə daimi nümayəndəliyi və ya daimi bazası varsa və faizləri ödənilən borc həmin daimi nümayəndəlikdə və ya bazada yaranırsa və belə faizlərin ödənişi həmin daimi nümayəndəlik və ya baza tərəfindən yerinə yetirilirsə, onda belə faizlər həmin daimi nümayəndəlik, yaxud daimi baza yerləşən dövlətdə yaranmış hesab olunur.

6. Tədiyəçi ilə faktiki sahib arasında və ya onların hər ikisi ilə digər şəxs arasındakı xüsusi münasibətlərin olması səbəbindən borc öhdəliyinə əsasən ödənilən faizlərin məbləği, belə münasibətlərin mövcud olmadığı təqdirdə tədiyəçi ilə sahib arasında razılaşdırılmış məbləğdən çox olarsa, bu maddənin müddəaları yalnız göstərilən sonuncu məbləğə aid edilir. Bu halda, bu konvensiyanın digər müddəaları nəzərə alınmaqla, ödənişin artıq hissəsi razılığa gələn hər dövlətin öz qanunlarına müvafiq surətdə vergiyə cəlb olunur.

7. Bu maddənin 2-ci bəndinin müddəalarına baxmayaraq, faizlər Razılığa gələn hər hansı bir dövlətin hökuməti, onun qanuni hakimiyyət orqanları, yaxud başqa bir agentliyi tərəfindən, və ya həmin hökumət, ərazi-inzibati, yaxud yerli hakimiyyət orqanlarının vasitəçiliyi ilə əldə olunubsa, razılığa gələn digər dövlətdə yaranan faizlər, yarandıqları həmin dövlətdə vergidən azad olunurlar.

8. Bu konvensiyanın 7-ci maddəsinin və bu maddənin 2-ci bəndinin müddəalarına baxmayaraq, Azərbaycanda yaranan və Norveç rezidentinə ödənilən faizlər Norveç Ixrac Kreditlərinin Təminat İnstitutu və ya A/S Eksportfinans (A/J Eksportfinans) tərəfindən alınmış, təminat verilmiş və ya sığorta edilmiş borca, yaxud təminat verilmiş və ya sığorta edilmiş kreditə, həmçinin hər hansı bir başqa borc öhdəliyinə görə ödənmişsə, Azərbaycanda vergidən azad edilir.

9. Bu konvensiyanın 7-ci maddəsi və bu maddənin 2-ci bəndinin müddəalarına baxmayaraq, Norveçdə yaranan və Azərbaycan rezidentinə ödənilən faizlər, Azərbaycan Milli Bankı və Azərbaycan Beynəlxalq Bankı tərəfindən alınmış təminat verilmiş və ya sığorta edilmiş borca, yaxud təminat verilmiş və ya sığorta edilmiş kreditə, həmçinin hər hansı bir başqa borc öhdəliyinə görə ödənmişsə, Norveçdə vergidən azad edilir.

**Maddə 12. Royaltilər**

1. Razılığa gələn dövlətlərdən birində yaranan və razılığa gələn digər dövlətin rezidentinə ödənilən royaltilər həmin digər dövlətdə vergiyə cəlb oluna bilər.

2. Royaltilər yarandıqları razılığa gələn dövlətdə də, bu dövlətin qanunlarına əsasən vergiyə cəlb edilə bilər, lakin onları alan şəxs royaltilərin faktiki sahibidirsə, qoyulan vergi royaltilərin ümumi məbləğinin 10 faizindən artıq olmamalıdır.

3. Bu maddədə işlənən "royalti" termini - kinofilmlər, televiziya və radio verilişləri üçün film və lentlər də daxil olmaqla, hər hansı bir ədəbiyyat, incəsənət, yaxud elm əsərinin müəlliflik hüququndan, hər hansı bir patentdən, fabrik markasından, layihə və modeldən, plandan, məxfi düsturdan və ya prosesdən istifadə etmək üçün və ya istifadə etmək hüququ qazanmaq üçün, habelə sənaye, kommersiya və elmi təcrübələrə dair məlumat üçün verilən hər cür ödənişi bildirir.

4. Razılığa gələn bir dövlətin rezidenti olan faktiki royalti sahibi, royaltilərin yarandığı razılığa gələn digər dövlətdə oradakı daimi nümayəndəliyi vasitəsilə biznes fəaliyyəti həyata keçirirsə, yaxud həmin dövlətdə yerləşən daimi bazadan müstəqil şəxsi xidmətlər göstərirsə və royaltilərin mənbəyi olan hüquq və ya əmlak faydalı şəkildə belə daimi nümayəndəlik və ya daimi baza ilə əlaqəlidirsə, bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və 14-cü maddələrin müddəaları tətbiq edilir.

5. Əgər razılığa gələn bir dövlət özü, onun ərazi-inzibati və yerli hakimiyyət orqanları və ya həmin dövlətin rezidenti tədiyyəçi kimi çıxış edərsə, royaltilər bu dövlətdə yaranmış hesab olunur. Lakin royaltiləri ödəyən şəxsin, razılığa gələn bir dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, razılığa gələn dövlətdə royaltiləri ödəməyə məsul sayılan daimi nümayəndəliyi və ya daimi bazası varsa və belə royaltilərin ödənişi həmin daimi nümayəndəlik və daimi baza tərəfindən yerinə yetirilirsə, onda belə royaltilər daimi nümayəndəlik və ya daimi baza yerləşən dövlətdə yaranmış hesab olunur.

6. Tədiyyəçi ilə faktiki sahib arasında və ya onların hər ikisi ilə digər şəxs arasında xüsusi münasibətlərin olması səbəbindən, istifadə hüququna və məlumata görə ödənən royaltinin məbləği, belə münasibətlərin mövcud olmadığı təqdirdə tədiyyəçi ilə faktiki sahib arasında razılaşdırılmış məbləğdən çox olarsa, bu maddənin müddəaları, göstərilən sonuncu məbləğə aid edilir. Bu halda, bu konvensiyanın digər müddəaları nəzərə alınmaqla, ödənişin artıq hissəsi razılığa gələn hər dövlətin qanunlarına uyğun surətdə vergiyə cəlb olunur.

**Maddə 13. Kapitaldan gəlir**

1. Razılığa gələn bir dövlətin rezidentinin razılığa gələn digər dövlətdə yerləşən, bu konvensiyanın 6-cı maddəsində adı çəkilən daşınmaz əmlakın özgəninkiləşdirilməsindən əldə edilən gəlir həmin digər dövlətdə vergiyə cəlb oluna bilər.



2. Razılığa gələn bir dövlətin müəssisəsinin razılığa gələn digər dövlətin ərazisində yerləşən daimi nümayəndəliyinə məxsus biznes əmlakının bir hissəsini təşkil edən daşınar əmlakın və ya razılığa gələn bir dövlətin rezidentinin müstəqil şəxsi xidmətlər göstərmək üçün razılığa gələn digər dövlətdə yerləşən daimi bazasına məxsus daşınar əmlakın, o cümlədən bu cür daimi nümayəndəliyi (ayrılıqda, yaxud bütün müəssisə ilə birlikdə) və ya belə daimi bazanın özgəninkiləşdirilməsindən əldə edilən gəlirlər, həmin digər dövlətdə vergiyə cəlb edilə bilər.

3. Bir razılığa gələn tərəfin rezidentinin beynəlxalq daşımalarda istifadə edilən dəniz və hava nəqliyyat vasitələrinin və ya belə nəqliyyat vasitələrinin istismarı ilə bağlı olan daşınar əmlakın özgəninkiləşdirilməsindən əldə etdiyi gəlirlər yalnız razılığa gələn həmin dövlətdə vergiyə cəlb oluna bilər.

4. Razılığa gələn bir dövlətin fiziki şəxsinin razılığa gələn digər dövlətdə yerləşən səhmlərin və ya başqa korporativ hüquqların özgəninkiləşdirilməsindən əldə etdiyi gəlirlər, habelə həmin digər dövlətdə belə səhmlərin və başqa hüquqların özgəninkiləşdirilməsindən gələn gəlirlər kimi eyni vergiqoymaya məruz qalan hər cür qiymətli kağızların özgəninkiləşdirilməsindən əldə etdiyi gəlirlər həmin digər dövlətdə vergiyə cəlb oluna bilər, lakin bu şərtlə ki:

a) əmlakı özgəninkiləşdirən şəxs, hüquq, səhm və qiymətli kağızların özgəninkiləşdirilməsindən əvvəl hər hansı bir vaxtda 5 il müddətində razılığa gələn həmin digər dövlətin rezidenti olmuşdur; və

b) əmlakı özgəninkiləşdirən şəxs həmin digər dövlətin rezidenti olarkən, yuxarıda qeyd olunan səhm və hüquqların faktiki sahibi olmuşdur.

5. Razılığa gələn bir dövlətin müəssisəsinin mal və məhsulları daşımaq üçün beynəlxalq daşımalarda istifadə etdiyi konteynerlərin (treylerlər və onların daşınması üçün lazım olan avadanlıq da daxil olmaqla) özgəninkiləşdirilməsindən əldə etdiyi gəlirlər yalnız həmin dövlətdə vergiyə cəlb olunur.

6. Müxtəlif ölkələrin şirkətləri tərəfindən yaradılmış beynəlxalq nəqliyyat konsorsiumun əldə etdiyi gəlirlərə gəldikdə, bu maddənin müddəaları yalnız razılığa gələn dövlətin rezidenti olan şirkətin konsorsiumdakı iştirakı ilə əlaqədar hissəsinə tətbiq edilir.

7. Əvvəlki bəndlərdə qeyd olunmuş əmlak növlərindən fərqli digər əmlakın özgəninkiləşdirilməsindən əldə edilən gəlirlər, yalnız əmlakı özgəninkiləşdirən şəxsin rezidenti olduğu razılığa gələn dövlətdə vergiyə cəlb olunur.

**Maddə 14. Müstəqil şəxsi xidmətlər**

1. Razılığa gələn bir dövlətin rezidenti olan fərdin müstəqil peşəkar xidmətlərdən və ya digər fəaliyyətdən əldə etdiyi gəlir yalnız həmin dövlətdə vergiyə cəlb olunur. Lakin bu cür gəlir həmçinin razılığa gələn digər dövlətdə də o zaman vergiyə cəlb oluna bilər ki:

a) həmin fərd 12 aylıq müddətdə cəmi 183 gündən artıq bir dövr və ya dövrlər ərzində digər dövlətdə qalmış olsun; və ya

b) həmin digər dövlətdə fəaliyyət göstərmək üçün fərdin tabeliyində daimi baza olsun; lakin yalnız həmin digər dövlətdə göstərilən xidmətlərə aid olacaq miqdarda.

2. "Peşəkar xidmətlər" termini xüsusilə müstəqil elmi, ədəbi, incəsənət, təlim və təhsil fəaliyyətini, eləcə də həkimlərin, hüquqşünasların, mühəndislərin, memarların, diş həkimlərinin və mühasiblərin müstəqil fəaliyyətini əhatə edir.

**Maddə 15. Asılı şəxsi xidmətlər**

1. Bu konvensiyanın 16, 18 və 19-cu maddələrinə müvafiq olaraq, razılığa gələn bir dövlətin rezidentinin muzdlu işlə əlaqədar aldığı əməkhaqqı və digər bu kimi zəhmət haqqı, həmin iş razılığa gələn digər dövlətdə yerinə yetirilmədiyi təqdirdə, yalnız bu dövlətdə vergiyə cəlb olunur. Əks təqdirdə işə görə verilən belə haqqlar həmin digər dövlətdə də vergiyə cəlb oluna bilər.

2. Bu maddənin 1-ci bəndinin müddəalarına baxmayaraq, razılığa gələn bir dövlətin rezidentinin razılığa gələn digər dövlətdə yerinə yetirdiyi işə görə aldığı zəhmət haqqı aşağıdakı hallarda adı çəkilən birinci dövlətdə vergiyə cəlb olunur:

a) haqq alan 12 aylıq müddətdə cəmi 183 gündən artıq olmayan dövr və ya dövrlər ərzində həmin digər dövlətdə qaldıqda; və

b) haqlar, onları alan şəxsin rezidenti olduğu dövlətin rezidenti olan və fəaliyyəti muzdlu işçi tutmaqdan ibarət olmayan işəgötürən tərəfindən və ya onun adından ödənildikdə; və

c) haqlar, işəgötürənin həmin digər dövlətdə yerləşən daimi nümayəndəliyi və ya daimi bazası tərəfindən ödənilmədikdə.

3. Bu maddənin əvvəlki müddəalarına baxmayaraq, beynəlxalq daşımalarda istismar edilən gəmilərdə və hava nəqliyyatı vasitələrində yerinə yetirilən muzdlu işə görə verilən haqq, gəmi və hava nəqliyyatı vasitələrini istismar edən müəssisənin rezidenti olduğu razılığa gələn dövlətdə vergiyə cəlb edilə bilər.

4. Əgər razılığa gələn bir dövlətin rezidenti, həmin dövlətin rezidenti olan şirkət də daxil olmaqla, müxtəlif ölkələrin şirkətləri tərəfindən yaradılmış beynəlxalq nəqliyyat konsorsiumu tərəfindən idarə olunan beynəlxalq daşımalarda dəniz və ya hava nəqliyyat vasitələrində görülən işə görə zəhmət haqqı alarsa, belə haqq yalnız həmin dövlətdə vergiyə cəlb edilir.

**Maddə 16. Direktorlar qonorarı**

Razılığa gələn bir dövlətin rezidentinin razılığa gələn digər dövlətin rezidenti olan şirkətin direktorlar şurasının və ya buna bənzər bir orqanın üzvü kimi aldığı direktor qonorarı, və yaxud oxşar ödənişlər həmin digər dövlətdə vergiyə cəlb olunur.

**Maddə 17. Artistlər və idmançılar**

1. Bu konvensiyanın 14-cü və 15-ci maddələrinin müddəalarına baxmayaraq, razılığa gələn bir dövlətin rezidentinin razılığa gələn digər dövlətdə teatr, kino,



estrada, radio və televiziya artisti, musiqiçi, yaxud idmançı kimi həyata keçirdiyi şəxsi fəaliyyətdən əldə etdiyi gəlir həmin digər dövlətdə vergiyə cəlb edilə bilər.

2. Əgər artist və ya idmançının şəxsi fəaliyyətindən əldə edilən gəlir onun özünə deyil, başqa bir şəxsə hesablanarsa, bu konvensiyanın 7, 14 və 15-ci maddələrinin müddəalarına baxmayaraq, həmin gəlir artist və ya idmançıların fəaliyyət göstərdikləri razılığa gələn dövlətdə vergiyə cəlb edilə bilər.

3. İncəsənət xadimlərinin və idmançıların razılığa gələn bir dövlətə səfəri, razılığa gələn digər dövlətin ictimai fondları, yaxud ərazi-inzibati və ya yerli hakimiyyət orqanları tərəfindən əsaslı surətdə maliyyələşdirilərsə, bu maddənin 1-ci və 2-ci bəndinin müddəaları göstərilən fəaliyyətdən əldə edilən gəlirlərə tətbiq edilmir. Bu halda, gəlir yalnız incəsənət xadiminin və ya idmançının rezidenti olduğu dövlətdə vergiyə cəlb edilər.

**Maddə 18. Pensiyalar, illik rentalar və sosial təminatlar**

Razılığa gələn bir dövlətin rezidentinə verilən pensiyalar (hökumət pensiyaları və sosial təminatlar da daxil olmaqla) və illik rentalar yalnız həmin dövlətdə vergiyə cəlb edilir.

**Maddə 19. Dövlət xidməti**

1.

a) Pensiyalardan fərqli olaraq, hər hansı bir fiziki şəxsin razılığa gələn bir dövlətdə göstərdiyi xidmətə görə həmin dövlət, yaxud ərazi-inzibati və ya yerli hakimiyyət orqanları tərəfindən ödənilən əməkhaqqı və digər bu kimi mükafatlar yalnız bu dövlətdə vergiyə cəlb olunur.

b) Lakin fiziki şəxs digər dövlətin rezidentidirsə və xidmət həmin dövlətdə həyata keçirilirsə, əməkhaqqı və digər bu kimi mükafatlar yalnız bu dövlətdə vergiyə cəlb olunur, bu şərtlə ki, həmin fiziki şəxs

(I) həmin dövlətin vətəndaşıdır; və ya

(II) yalnız xidmət göstərmək məqsədilə həmin dövlətin rezidenti olmamışdır.

2. Razılığa gələn bir dövlətin, ərazi-inzibati və ya yerli hakimiyyət orqanının yerinə yetirdiyi işlə əlaqədar verilən əməkhaqqı və digər bu kimi mükafatlara (pensiyalardan başqa) bu konvensiyanın 15-ci və 16-cı maddələrinin müddəaları tətbiq olunur.

**Maddə 20. Tələbələr**

Razılığa gələn dövlətlərdən birinə gəlməzdən qabaq razılığa gələn digər dövlətin rezidenti olmuş və ya hazırda olan və yalnız təhsil almaq, ya da təcrübə keçmək məqsədilə yuxarıda göstərilən birinci dövlətə gəlmiş tələbə və ya təcrübə keçən şəxsin özünü saxlamaq, təhsil almaq və ya təcrübə keçmək üçün aldığı vəsait, bu dövlətin hüdudlarından kənardakı mənbələrdən əldə edilərsə, yuxarıda göstərilən birinci dövlətdə vergiyə cəlb olunmur.

**Maddə 21. Sahildənkənar fəaliyyət**

1. Bu konvensiyanın digər müddəalarından asılı olmayaraq, bu Maddənin müddəaları tətbiq olunur.

2. Razılığa gələn bir dövlətin rezidenti olan şəxs razılığa gələn digər dövlətin ərazisində yerləşən dəniz yataqlarının və yerin təkinin, həmçinin onların təbii ehtiyatlarının tədqiqi və istismarı ilə əlaqədar sahildənkənar fəalliyyət göstərirsə, bu maddənin 3-cü və 4-cü bəndlərinə uyğun olaraq, həmin digər dövlətdə yerləşən və biznes fəaliyyəti göstərən daimi nümayəndəlik və ya daimi bazanın həyata keçirdiyi fəaliyyətlə əlaqəli hesab olunacaq.

3. Belə fəaliyyət 12 aylıq müdətdə cəmi 30 gündən artıq olmayan dövr ərzində həyata keçirilərsə, bu maddənin 2-ci bəndinin müddəaları tətbiq olunmayacaq. Lakin bu bəndin məqsədləri üçün:

a) hər hansı bir müəssisənin digər müəssisə ilə birlikdə həyata keçirdiyi fəaliyyət, onun əlaqədə olduğu müəssisə tərəfindən həyata keçirilmiş hesab olunacaq, bu şərtlə ki, haqqında söhbət gedən fəaliyyət, göstərilən sonuncu müəssisənin həyata keçirdiyi fəaliyyətin əsasən eyni olsun;

b) müəssisələrdən birinə digəri tərəfindən bilavasitə və ya bilvasitə nəzarət olunarsa, yaxud onların hər ikisinə üçüncü bir şəxs və ya şəxslər tərəfindən bilavasitə və ya bilvasitə nəzarət olunarsa, bu iki müəssisə assosiasiya müəssisələri hesab olunacaqdır.

4. Dəniz yataqlarının, yerin təkinin, eləcə də onların təbii ehtiyatlarının tədqiqi və istismarı ilə əlaqədar fəaliyyət göstərilən yerdə, avadanlıq və işçilərin hər hansı bir məntəqəyə, yaxud məntəqələrarası daşınmasından və ya belə fəaliyyətə yardım kimi yedək gəmilərinin və digər gəmilərin istifadəsindən razılığa gələn bir dövlətin rezidentinin əldə etdiyi mənfəət yalnız müəssisənin rezidenti olduğu dövlətdə vergiyə cəlb olunur. Gəmi və hava nəqliyyat vasitələri bu konvensiyanın 5-ci maddəsində müəyyənləşdirilən daimi nümayəndəlik tərəfindən istismar edilərsə, yaxud fəaliyyət hər hansı 12 aylıq müddətdə 6 aydan artıq davam edərsə, bu müddəa tətbiq edilmir.

5.

a) Bu bəndin b) yarımbəndinə uyğun olaraq, razılığa gələn bir dövlətin rezidentinin, razılığa gələn digər dövlətin ərazisində yerləşən dəniz yataqlarının, yerin təkinin və onların təbii ehtiyatlarının tədqiqi və istismarı ilə əlaqədar işdən əldə etdiyi əmək haqqı və bu kimi mükafatlar, bu vəzifələr həmin digər dövlətdə sahildən kənar yerinə yetirildiyi təqdirdə, həmin digər dövlətdə vergiyə cəlb oluna bilər. Lakin digər dövlətin rezidenti olmayan sahibkar üçün və 12 aylıq müddətdə cəmi 30 gündən artıq olmayan dövr və ya dövrlər ərzində sahildənkənar iş yerinə yetirilərsə, belə mükafatlar qeyd olunan birinci dövlətdə vergiyə cəlb olunur.

b) Dəniz yataqlarının, yerin təkinin və onların təbii ehtiyatlarının tədqiqi və istismarı ilə əlaqədar fəaliyyət göstərilən razılığa gələn digər dövlətin ərazisində avadanlıq və işçilərin hər hansı bir məntəqəyə, yaxud məntəqələrarası daşınması



üçün istifadə olunan gəmi və ya hava nəqliyyatı vasitələrində, yaxud belə fəaliyyətə yardım kimi istifadə olunan yedək gəmilərində və digər gəmilərdə yerinə yetirilən işdən əldə olunan əməkhaqqı və buna bənzər mükafatlar, belə fəaliyyəti həyata keçirən müəssisənin rezidenti olduğu razılığa gələn dövlətdə vergiyə cəlb olunur. Gəmi və hava nəqliyyatı vasitələri bu konvensiyanın 5-ci maddəsində müəyyənləşdirilən daimi nümayəndəlik tərəfindən istismar edilərsə, yaxud fəaliyyət hər hansı 12 aylıq müddətə 6 aydan artıq davam edərsə, bu müddəa tətbiq edilmir.

6. Aşağıdakıların özgəninkiləşdirilməsindən razılığa gələn bir dövlətin rezidentinin əldə etdiyi gəlir həmin digər dövlətdə vergiyə cəlb edilə bilər:

a) tədqiqat və ya istismar hüquqları; və ya

b) razılığa gələn digər dövlətdə yerləşən və həmin dövlətin ərazisindəki dəniz yataqlarının, yerin təkinin və onların təbii ehtiyatlarının tədqiqi və istismarı ilə əlaqədar istifadə olunan əmlak; yaxud

c) öz dəyərini və ya dəyərinin əksər hissəsini bilavasitə, yaxud bilvasitə belə hüquq və ya belə əmlakdan, ya da birlikdə götürülmüş belə hüquq və belə əmlakdan əxz edən səhmlər.

Bu bənddə "tədqiqat və istismar hüquqları" razılığa gələn digər dövlətin ərazisindəki dəniz yataqlarının, yerin təkinin və onların təbii ehtiyatlarının tədqiqatı və istismarından əldə edilən mülkiyyətdən gələn mənfəət və faizlərə hüquqlar mənasında işlənir.

**Maddə 22. Digər gəlirlər**

1. Bu konvensiyanın əvvəlki maddələrində nəzərdə tutulmayan mənbələrdən razılığa gələn bir dövlətin rezidentinin əldə etdiyi gəlir yalnız həmin dövlətdə vergiyə cəlb olunur.

2. Razılığa gələn bir dövlətin rezidenti razılığa gələn digər Dövlətdə orada yerləşən daimi nümayəndəlik vasitəsilə biznes fəaliyyəti həyata keçirirsə, yaxud daimi bazadan müstəqil şəxsi xidmətlər göstərirsə və gəlirin əldə edilməsi ilə əlaqədar hüquq və əmlak faydalı şəkildə belə daimi nümayəndəlik və ya daimi baza ilə əlaqəlidirsə, bu konvensiyanın 6-cı maddəsinin 2-ci bəndində müəyyənləşdirilən daşınmaz əmlakdan əldə edilən gəliri çıxmaqla, digər gəlirə bu maddənin 1-ci bəndi şamil edilmir. Bu halda, şəraitdən asılı olaraq, bu konvensiyanın 7-ci və 14-cü Maddələri tətbiq edilir.

**Maddə 23. Kapital**

1. Razılığa gələn bir dövlətin rezidentinin razılığa gələn digər dövlətin ərazisində yerləşən, bu konvensiyanın 6-cı maddəsində göstərilən daşınmaz əmlakının təşkil etdiyi kapital həmin digər dövlətdə vergiyə cəlb oluna bilər.

2. Razılığa gələn bir dövlətin müəssisəsinin razılığa gələn digər dövlətdəki daimi nümayəndəliyinin malik olduğu sahibkarlıq mülkiyyətinin bir hissəsini təşkil edən daşınar əmlakın və ya razılığa gələn bir dövlətin rezidentinin müstəqil şəxsi xidmətlər göstərmək məqsədilə razılığa gələn digər dövlətin ərazisində

yerləşdirilən daimi bazasına məxsus daşınar əmlakın təşkil etdiyi kapital həmin digər dövlətdə vergiyə cəlb olunur.

3. Beynəlxalq daşımalarda istifadə edilən gəlirlər və hava nəqliyyat vasitələrinin, həmçinin belə gəmi və hava nəqliyyat vasitələrinin istifadəsinə aidiyyəti olan daşınar əmlakın təşkil etdiyi, razılığa gələn bir dövlətin müəssisəsinə məxsus kapital, müəssisənin rezidenti olduğu razılığa gələn dövlətdə vergiyə cəlb olunur.

4. Beynəlxalq daşımalarda mal və məhsulların daşınması üçün istifadə olunan konteynerlərin (konteynerlərin daşınması üçün lazım olan avadanlıq və treylerlər də daxil olmaqla) təşkil etdiyi, razılığa gələn bir dövlətin müəssisəsinə məxsus kapital yalnız həmin dövlətdə vergiyə cəlb olunur.

5. Müxtəlif ölkələrin şirkətlərinin təşkil etdiyi beynəlxalq nəqliyyat konsorsiumuna məxsus kapitala gəldikdə, bu maddənin müddəaları kapitalın, razılığa gələn bir dövlətin rezidenti olan şirkətin bu konsorsiumdakı iştirakı ilə əlaqədar olan hissəsinə tətbiq olunur.

6. Razılığa gələn bir dövlətin rezidentinin kapitalının bütün başqa elementləri yalnız həmin dövlətdə vergiyə cəlb olunur.

**Maddə 24. İkiqat vergitutmanın aradan qaldırılması**

1. Razılığa gələn dövlətlərin qanunlarının qoyduğu məhdudiyyətləri nəzərə alaraq və buradakı müddəalara uyğun olaraq (ümumi prinsipləri dəyişmədən vaxtaşırı düzəlişlər edilməklə):

a) Bu konvensiyanın müddəalarına əsasən, Norveç rezidenti Azərbaycanda vergiyə cəlb edilə biləcək gəlir əldə edərsə, yaxud kapitala sahib olarsa, Norveç:

(I) Azərbaycanda ödənilmiş gəlir vergisinə bərabər məbləğin həmin rezidentin gəlirinə qoyulan vergidən çıxılmasına;

(II) Azərbaycanda kapital elementlərinə görə ödənilmiş kapital vergisinə bərabər məbləğin, həmin rezidentin kapitalına qoyulan vergidən çıxılmasına icazə verəcəkdir. Lakin hər iki halda belə çıxılmalar, çıxılmalar edilməmişdən qabaq hesablanan gəlir vergisinin və kapital vergisinin, Azərbaycanda vergiyə cəlb oluna biləcək gəlir və ya eyni kapital elementlərinə aid hissəsindən artıq olmamalıdır.

Bu konvensiyanın hər hansı bir müddəasına müvafiq olaraq, Norveç rezidentinin malik olduğu kapitalın və ya əldə etdiyi gəlirin Norveçdə vergidən azad edilməsinə baxmayaraq, Norveç tərəf bu rezidentin yerdə qalan gəlir və kapitalına qoyulan verginin məbləğini hesablayarkən, vergidən azad edilən gəlir və kapitalı nəzərə ala bilər.

b) Azərbaycan rezidentinin Norveçdə malik olduğu kapitala və əldə etdiyi gəlirə, bu Konvensiyanın müddəalarına əsasən, Norveçdə vergi qoyularsa, Norveçdə bu gəlir və kapitala görə ödənilən vergi məbləği, belə gəlir və kapitala görə Azərbaycanda həmin şəxsdən tutulan vergidən çıxılacaqdır. Lakin çıxılan məbləğ, Azərbaycan vergi qanunvericiliyinə əsasən belə gəlir və kapitala görə müəyyən edilmiş verginin məbləğindən artıq olmamalıdır.



**Maddə 25. Qeyri-diskriminasiya**

1. Razılığa gələn bir dövlətin milli şəxsləri, razılığa gələn digər dövlətdə, eyni şəraitdə həmin digər dövlətin milli şəxslərinə tətbiq edilən vergiqoymadan və bununla bağlı öhdəliklərdən fərqli və ya daha ağır vergiqoymaya və bununla bağlı öhdəliklərə cəlb edilməyəcəklər. Bu konvensiyanın 1-ci maddəsinin müddəalarına baxmayaraq, bu müddəa razılığa gələn dövlətlərdən birinin, yaxud hər ikisinin rezidenti olmayan şəxslərə də tətbiq olunacaqdır.

2. Razılığa gələn bir dövlətin rezidenti olan, lakin vətəndaşlığı olmayan şəxslər, razılığa gələn dövlətlərin heç birində həmin digər dövlətin milli şəxslərinə eyni şəraitdə tətbiq edilən və ya edilə biləcək vergiqoyma və bununla əlaqədar öhdəliklərdən fərqli və ya daha ağır vergiqoymaya cəlb olunmamalı və onlara bununla əlaqədar daha ağır heç bir öhdəlik qoyulmamalıdır.

3. Razılığa gələn bir dövlətin müəssisəsinin razılığa gələn digər dövlətin ərazisindəki daimi nümayəndəliyinə həmin digər dövlətdə qoyulan vergilər, həmin digər dövlətin eyni cür fəaliyyət göstərən müəssisələrinə qoyulan vergilərdən əlverişsiz olmamalıdır.

Bu müddəa, razılığa gələn bir dövləti, öz rezidentlərinə vətəndaşlıq statusu və ya ailə təəhhüdləri səbəbindən vergiqoyma zamanı edilən hər hansı şəxsi güzəştlərin, imtiyazların və üstünlüklərin razılığa gələn digər dövlətin rezidentlərinə də şamil edilməsinə məcbur edən müddəa kimi başa düşülməməlidir.

4. Bu konvensiyanın 9-cu maddəsinin, 11-ci maddənin 6-cı bəndinin və ya 12-ci maddənin 6-cı bəndinin müddəalarının tətbiq edildiyi halları çıxmaqla, razılığa gələn bir dövlətin müəssisəsinin razılığa gələn digər dövlətin rezidentinə ödədiyi faizlər, royaltilər və başqa ödənişlər, bu müəssisənin vergiyə cəlb olunası mənfəətini müəyyənləşdirmək məqsədilə, qeyd olunan birinci dövlətin rezidentinə ödəniləcəyi təqdirdə qoyulacaq eyni şərtlərlə çıxılmalara məruz qalırlar.

Eyni şəkildə, razılığa gələn bir dövlətin müəssisəsinin razılığa gələn digər dövlətin rezidentinə olan hər hansı bir borcu, belə müəssisənin vergiyə cəlb olunası kapitalını müəyyənləşdirmək məqsədilə, qeyd olunan birinci dövlətin rezidentinə olan borc kimi, eyni şərtlər altında çıxılmalara məruz qalır.

5. Razılığa gələn bir dövlətin, kapitalı bütünlüklə və ya qismən razılığa gələn digər dövlətin bir və ya bir neçə rezidenti tərəfindən mənimsənilən, yaxud bilavasitə və ya bilvasitə nəzarət edilən müəssisələri, yuxarıda göstərilən birinci dövlətdə onun başqa oxşar müəssisələrinə tətbiq edilən və ya tətbiq edilə biləcək vergilərdən və bununla əlaqədar tələblərdən fərqli və ya daha ağır vergi və tələblərə cəlb edilmirlər.

6. Bu maddənin müddəaları hər cür və növ vergiyə tətbiq edilir.

**Maddə 26. Qarşılıqlı razılaşma üsulları**

1. Əgər hər hansı bir fiziki şəxs hesab edirsə ki, razılığa gələn dövlətlərdən birinin və ya hər ikisinin fəaliyyəti onun, bu Konvensiyanın müddəalarına uyğun gəlməyən vergilərə cəlb edilməsinə səbəb olur və ya səbəb ola bilər, o zaman o,

həmin dövlətlərin daxili qanunlarında nəzərdə tutulan müdafiə vasitələrindən asılı olmayaraq, öz işini baxılmaq üçün rezidenti olduğu razılığa gələn dövlətin, yaxud onun məsələsi bu konvensiyanın 25-ci maddəsinin 1-ci bəndinə müvafiqdirsə, milli şəxsi olduğu razılığa gələn dövlətin səlahiyyətli orqanına verə bilər. İş, bu konvensiyanın müddəalarına uyğun olmayan vergiqoyma ilə nəticələnən fəaliyyəti sübut edən ilk qəbz alınan kimi 3 il müddətində təqdim olunmalıdır.

2. Əgər səlahiyyətli orqan təqdim olunan ərizəni haqlı hesab edərsə, və özü qənaətbəxş bir qərara gəlmək iqtidarında olmazsa, konvensiyaya uyğun gəlməyən vergiqoymaya yol verməmək məqsədilə, məsələni razılığa gələn digər dövlətin səlahiyyətli orqanı ilə qarşılıqlı razılaşma yolu ilə həll etməyə cəhd göstərməlidir.

Əldə edilən hər hansı bir razılıq, razılığa gələn dövlətin qanunlarında göstərilən vaxt məhdudiyyətlərinə baxmayaraq, yerinə yetirilməlidir.

3. Razılığa gələn dövlətlərin səlahiyyətli orqanları konvensiyanın şərhi və ya tətbiqi ilə əlaqədar meydana çıxan hər hansı bir çətinliyi və ya şübhəni qarşılıqlı razılaşma yolu ilə həll etməyə cəhd göstərməlidirlər.

4. Razılığa gələn dövlətlərin səlahiyyətli orqanları əvvəlki bəndlərin anlaşılmasında razılıq əldə etmək üçün bir-biri ilə birbaşa əlaqələrə girə bilərlər.

**Maddə 27. İnformasiya mübadiləsi**

1. Razılığa gələn dövlətlərin səlahiyyətli orqanları, bu konvensiyanın və razılığa gələn dövlətlər tərəfindən müəyyənləşdirilmiş vergiqoyma qaydalarına dair həmin dövlətlərin konvensiyaya zidd olmayan daxili qanunlarının müddəalarının yerinə yetirilməsi üçün zəruri olan informasiya mübadiləsi edirlər. İnformasiya mübadiləsi hər cür və növ vergilərə dair ola bilər və bu konvensiyanın 1-ci maddəsi ilə məhdudlaşdırılmır. Razılığa gələn bir dövlətin aldığı hər bir informasiya, həmin dövlətin daxili qanunlarına əsasən aldığı informasiya kimi, sirr kimi qiymətləndirilir və yalnız həmin dövlətin qoyduğu vergilərlə əlaqədar apellyasiyalara baxmaqla və ya vergiqoyma məqsədləri üçün əmlakın qiymətləndirilməsi və vergilərin toplanması, vergilərin məcburi və ya məhkəmə yolu ilə alınması ilə məşğul olan şəxslərə və ya hakimiyyət orqanlarına (məhkəmələr və inzibati orqanlar da daxil olmaqla) açıqlana bilər. Belə şəxslər və ya orqanlar informasiyadan yalnız göstərilən məqsədlər üçün istifadə edirlər. Onlar bu informasiyanı açıq məhkəmə iclasının gedişində və ya məhkəmə qərarları qəbul olunarkən aça bilərlər.

2. Bu maddənin 1-ci bəndinin müddəaları razılığa gələn dövlətin üzərinə aşağıdakı məcburi öhdəliklərin qoyulması kimi başa düşülməməlidir:

a) razılığa gələn bu və ya digər dövlətin qanunları və inzibati təcrübəsi ilə ziddiyyət təşkil edən inzibati ölçülər götürmək;

b) razılığa gələn bu və ya digər dövlətin qanunlarına əsasən və ya inzibatçılıq təcrübəsinin normal gedişində əldə edilməsi mümkün olmayan informasiya ilə təmin etmək;



c) hər hansı ticarət, biznes, sənaye, kommersiya və ya peşə sirlərini və ya ticarət prosesini, yaxud da açılması dövlət siyasətinə zidd ola biləcək informasiyanı başqalarına vermək.

**Maddə 28. Vergi toplanmasına kömək**

1. Razılığa gələn dövlətlərin səlahiyyətli orqanları bu bənddə "dövlət mədaxili iddiaları" adlanan vergilərin və onlarla əlaqədar faizlərin, məhkəmə məsrəflərinin və vətəndaş cərimələrinin toplanmasında bir-birlərinə kömək göstərməyi öhdəyə götürürlər.

2. Razılığa gələn bir dövlətin səlahiyyətli orqanlarının dövlət mədaxili iddialarının toplanmasında yardım xahişinə, həmin dövlətin qanunlarına əsasən, dövlət mədaxili iddialarının tam müəyyənləşdirilməsi barədə bu səlahiyyətli orqanın şəhadəti də daxildir. Bu maddənin məqsədləri üçün, öz daxili qanunlarına müvafiq surətdə, razılığa gələn dövlət, dövlət mədaxili iddialarını toplamaq hüququna malik olduqda və vergi ödəyən şəxsin vergilərin toplanmasını ləngitməyə artıq heç bir hüququ olmadıqda, dövlət mədaxili iddialarının tam müəyyənləşdirilməsi başa çatmış hesab olunur.

3. Razılığa gələn digər dövlətin səlahiyyətli orqanları tərəfindən toplanmaq üçün qəbul edilmiş razılığa gələn bir dövlətin dövlət mədaxili iddiaları, həmin digər dövlət tərəfindən, vergilərin toplanmasına dair həmin dövlətin qanunlarına uyğun tam müəyyənləşdirilmiş öz dövlətinə məxsus dövlət mədaxili iddialarının toplanacağı qaydada toplanır.

4. Bu maddəyə müvafiq olaraq, razılığa gələn bir dövlətin səlahiyyətli orqanlarının topladığı məbləğ razılığa gələn digər dövlətin səlahiyyətli orqanlarına göndərilir. Lakin razılığa gələn dövlətlərin səlahiyyətli orqanlarının başqa cür razılaşdıqları halları çıxmaqla, toplama yardımı həyata keçirilən zaman meydana çıxan adi məsrəflər qeyd olunan birinci dövlət və hər hansı qeyri-adi (müstəsna) xərclər digər dövlət tərəfindən ödənilir. Razılığa gələn dövlət qarşıya çıxacaq həmin qeyri-adi məsrəfləri qabaqcadan görərsə, bunu razılığa gələn digər dövlətə bildirməli və belə məsrəflərin hesablanmış məbləğini göstərməlidir.

5. Əgər razılığa gələn bir dövlətin vergi iddiaları, apellyasiyaya verilmə və ya digər səbəbdən tam müəyyənləşdirilməyibsə, həmin dövlət mədaxilini qorumaq üçün razılığa gələn digər dövlətdən (həmin digər dövlətin öz qanunlarının yol verdiyi qaydada) onun adından ilkin müdafiə ölçüləri götürməyi xahiş edə bilər. Əgər belə təklif digər dövlət tərəfindən qəbul edilərsə, digər dövlət tərəfindən götürülən bu cür ilkin ölçülər, həmin digər dövlətin öz vergilərinə nəzərən götürəcəyi ölçülərin eyni olacaq.

6. Bu maddəyə görə, razılığa gələn bir dövlət tərəfindən xahiş o zaman edilə bilər ki, vergi borcu olan şəxsin, vergi borclarını ödəmək üçün həmin dövlətdə ixtiyarında kifayət qədər mülkiyyəti olmasın.

7. Bu maddəyə görə, vergiödəyənin bu və ya digər razılığa gələn dövlətin rezidenti olmadığı dövrə dair razılığa gələn bir dövlətin mədaxil iddiaları barədə heç bir kömək göstərməyəcəkdir.

8. Bu konvensiyanın 2-ci maddəsinin (konvensiyanın tətbiq edildiyi vergi növləri) müddəalarına baxmayaraq, bu maddənin müddəaları, gömrük rüsum və vergilərini çıxmaqla, bütün növ vergilərə tətbiq olunur.

9. Bu maddənin heç bir müddəası razılığa gələn dövlətlərdən heç birini öz vergilərini yığmaq üçün istifadə etdiyi üsullardan fərqli və onun dövlət siyasətinə zidd ölçülər götürməyə məcbur edən müddəa kimi başa düşülməməlidir.

**Maddə 29. Diplomatik nümayəndəliklərin və konsulluqların üzvləri**

Bu konvensiyanın heç bir maddəsi, beynəlxalq hüququn ümumi normalarına və ya xüsusi sazişlərin müddəalarına müvafiq olaraq, diplomatik nümayəndəliklərin və konsulluqların üzvlərinin vergi imtiyazlarına tə'sir göstərmir.

**Maddə 30. Qüvvəyə minmə**

Razılığa gələn hər bir dövlət öz qanunlarına əsasən bu konvensiyanın qüvvəyə minməsi üçün tələb olunan prosesin başa çatması barədə diplomatik kanallar vasitəsilə digərinə məlumat verməlidir. Bu konvensiya belə məlumatların sonuncusu daxil olan tarixdən qüvvəyə minir və həmin vaxtdan aşağıdakılara tə'sir göstərir:

a) mənbədən tutulan vergilər üzrə - konvensiyanın qüvvəyə mindiyi ildən sonrakı təqvim ilində yanvarın 1-də və ya ondan sonra ödənilən və ya kredit verilən məbləğlərə;

b) digər vergilər üzrə - konvensiyanın qüvvəyə mindiyi ildən sonrakı təqvim ilində yanvarın 1-də və ya ondan sonra başlayan vergitutma dövrünə.

**Maddə 31. Fəaliyyətin dayandırılması**

Bu konvensiya razılığa gələn dövlətlərdən biri tərəfindən dayandırılmayanadək qüvvədə qalır. Razılığa gələn dövlətlərdən hər biri konvensiya qüvvəyə mindikdən 5 il sonra təqvim ilinin bitməsinə azı 6 ay qalmış diplomatik kanallar vasitəsilə xəbərdarlıq verilməsi yolu ilə konvensiyanın fəaliyyətini dayandıra bilər. Belə hadisə baş verərsə, konvensiya aşağıdakılara təsirini itirəcəkdir:

a) mənbədən alınan vergilər üzrə - xəbərdarlıq veriləndən sonrakı növbəti təqvim ilində yanvarın 1-də və ondan sonra ödənilən və ya kredit verilən məbləğlərə;

b) digər vergilər üzrə - xəbərdarlıq veriləndən sonrakı növbəti təqvim ilində yanvarın 1-də və ya ondan sonra başlayan vergitutma dövrünə.

Yuxarıdakıları təsdiq edərək, müvafiq hökumətləri tərəfindən səlahiyyət verilmiş şəxslər bu konvensiyanı imzalamışlar.

Konvensiya iki nüsxədə 24 aprel 1996-cı il tarixdə Azərbaycan, Norveç və ingilis dillərində tərtib edilmişdir və hər bir mətn eyni dərəcədə etibarlıdır. Bu konvensiyanın müddəalarının şərhi zamanı təhrifə yol verilərsə, ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.



Azərbaycan Respublikası hökuməti adından

Norveç Krallığı hökuməti adından

## "Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında" Avropa Çərçivə Konvensiyasının və onun əlavə protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. 1980-ci il mayın 21-də Madrid şəhərində imzalanmış "Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında" Avropa Çərçivə Konvensiyası və onun əlavə protokolları müvafiq bəyanatlarla (bəyanatların mətni əlavə olunur) təsdiq edilsin.

II. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 9 yanvar 2004-cü il***
***№ 576-IIQ***

## Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında AVROPA ÇƏRÇİVƏ KONVENSİYASI

**Madrid 21.05.1980**

### *PREAMBULA*

Bu konvensiyanı imzalamış Avropa Şurası üzvü olan dövlətlər,

Avropa Şurasının üzvləri arasında böyük birliyə nail olmağı, habelə onun iştirakçıları arasında əməkdaşlığın dərinləşməsini Avropa Şurasının məqsədi hesab edərək,

Avropa Şurası Nizamnaməsinin 1-ci maddəsində göstərildiyi kimi, bu məqsədə, xüsusilə inzibati sahədə sazişlər bağlanması vasitəsilə nail olunacağını hesab edərək,

Avropa Şurası bu məqsədə nail olmaq üçün ərazi icmalarının və hakimiyyət orqanlarının iştirakını dəstəklədiyini hesab edərək,

bu məqsədə nail olmaq üçün sərhədyanı rayonlarda regional, şəhər və kənd inkişafı, ətraf mühitin qorunması, ictimai infrastrukturun və xidmətin yaxşılaşdırılması sahəsində, habelə fövqəladə hallarda qarşılıqlı yardım sahəsində ərazi icmaları və hakimiyyət orqanları arasında əməkdaşlığın əhəmiyyətini nəzərə alaraq,

bu cür əməkdaşlığa və sərhədyanı rayonların iqtisadi və sosial inkişafına yardım etməyə və Avropada insanları birləşdirən dostluğu möhkəmləndirməyə tamamilə hazır olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Konvensiyanın hər bir iştirakçısı olan hər bir tərəf öz yurisdiksiyası çərçivəsində ərazi icmaları və hakimiyyət orqanları arasında və digər iştirakçı tərəfin öz yurisdiksiyası çərçivəsində ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlığın inkişafı üzrə addımlar atır. Konvensiya iştirakçılarının hər biri, onların hər birinin konstitusion müddəalarını nəzərə almaqla, zəruri müqavilə və sazişlərin bağlanmasına çalışacaq.

**Maddə 2**

1. Bu Konvensiyaya əsasən transsərhəd əməkdaşlıq dedikdə, ərazi icmaları və hakimiyyət orqanları arasında iki və ya daha çox Konvensiya iştirakçısının yurisdiksiyası çərçivəsində səmimi qonşuluq münasibətlərinin möhkəmləndirilməsi və təşviqi üzrə istənilən birgə aksiya, habelə onlar arasında müvafiq müqavilə və sazişlərin bağlanması başa düşülür. Transsərhəd əməkdaşlıq ərazi icmaları çərçivəsində və qanunvericiliyə uyğun olaraq regional hakimiyyətlərin səlahiyyəti çərçivəsində həyata keçirilir. Bu cür səlahiyyətlərin həcmi və xarakteri bu konvensiyanın predmeti sayılmır.

2. Bu konvensiyaya əsasən ərazi icmaları və hakimiyyət orqanları dedikdə, dövlətin daxili qanunvericiliyilə müəyyən edilən yerli və regional hakimiyyət funksiyalarını həyata keçirən ərazi icmaları, hakimiyyətlər və ya orqanlar başa düşülür. Eyni zamanda tərəflərdən hər biri konvensiyanı imzalayarkən və ya Avropa Şurasının Baş katibinə müvafiq bildiriş göndərdikdən sonra subyekti və formaları bu Konvensiya ilə müəyyən edilən siyahıya daxil olan və ya oradan çıxarılan ərazi icmalarının, hakimiyyətlərin və ya orqanların adlarını göstərə bilər.

**Maddə 3**

1. Bu konvensiyanın tərəfləri 2-ci maddənin 2-ci bəndinin müddəalarına uyğun olaraq ərazi icmaları və yerli hakimiyyətlər arasında Avropa Şurası tərəfindən işlənib hazırlanan sazişlər çərçivəsində irəli sürülən ərazi icmalarının və hakimiyyət orqanlarının təşəbbüslərini təşviq edir. Zəruri hesab edildiyi təqdirdə, onlar Avropa Şurası tərəfindən işlənib hazırlanan və ərazi icmaları və hakimiyyət orqanları arasında əməkdaşlığın inkişafına yönələn ikitərəfli və ya çoxtərəfli dövlətlərarası model sazişləri nəzərdən keçirə bilərlər.



Sazişlər və müqavilələr konkret vəziyyətdən asılı olaraq istənilən dəyişiklikləri nəzərə almaqla, bu sazişə əlavə olunan (1.1-1.5 və 2.1.-2.6.) nümunəvi model sazişlərə əsaslana bilər. Bu modellər yalnız əsas istiqamətləri müəyyən edir və heç bir beynəlxalq müqavilə qüvvəsinə malik deyildir.

2. İştirakçıların rəyilə beynəlxalq sazişin bağlanması transsərhəd əməkdaşlığı həyata keçirərkən özündə ərazi icmalarının və hakimiyyət orqanlarının fəaliyyət göstərdiyi konteksti, forma və çərçivələri əks etdirə bilər. Hər bir sazişdə eyni zamanda onun tətbiq ediləcəyi hakimiyyətlər və orqanlar göstərilə bilər.

3. Konvensiyanın yuxarıda göstərilən müddəaları transsərhəd əməkdaşlığın digər formalarına xələl gətirmir. Bu konvensiyanın müddəaları əməkdaşlıq haqqında artıq mövcud olan sazişlərin qüvvəsini ləğv edən müddəalar kimi şərh edilməməlidir.

4. Saziş və müqavilələr beynəlxalq münasibət adətlərini və siyasətini nəzərə alaraq, mövcud olan beynəlxalq hüquq prinsiplərinə, habelə ərazi icmalarının və hakimiyyət orqanlarının obyekti olduğu nəzarət və müşayiət qaydalarına uyğun olaraq bağlanır.

5. Bu səbəbdən tərəflərdən hər hansı biri Konvensiyanı imzalayarkən və ya ona qoşulmaq haqqında Avropa Şurasının Baş katibini məlumatlandırarkən, daxili qanunvericiliyə uyğun olaraq müvafiq ərazi icmalarına və hakimiyyət orqanlarına nəzarət və müşayiət etmək səlahiyyəti olan hakimiyyət dairələrini göstərə bilər.

**Maddə 4**

Tərəflərdən hər biri transsərhəd əməkdaşlığın həyata keçirilməsində istənilən hüquqi, inzibati, yaxud texniki xarakterli çətinlikləri həll etməyə çalışır və bu məsələlərlə əlaqədar Konvensiyanın digər iştirakçıları ilə lazım olan həcmdə məsləhətləşmələr keçirir.

**Maddə 5**

Tərəflər bu konvensiyanın müddəalarına uyğun olaraq transsərhəd əməkdaşlıqda iştirak edən ərazi icmalarına və hakimiyyət orqanlarına milli səviyyədə əməkdaşlıq zamanı nəzərdə tutulan imkanların təqdim edilməsinin məqsədəmüvafiqliyini nəzərdən keçirirlər.

**Maddə 6**

Tərəflərdən hər biri digər tərəfin xahişilə bu konvensiyadan irəli gələn öhdəliklərin sonuncu tərəfindən yerinə yetirilməsini asanlaşdırmaq üçün tam məlumatlandırmanı həyata keçirir.

**Maddə 7**

Azərbaycan Respublikasının Prezidenti tərəflərdən hər biri ərazi icmalarının və hakimiyyət orqanlarının, sonunculara bu konvensiya ilə yaradılmış imkanlar haqqında məlumatlandırılmasını izləyir.

**Maddə 8**

1. Tərəflər 3-cü maddədə adı çəkilən müqavilə və sazişlərə aid olan bütün zəruri məlumatı Avropa Şurasının Baş katibinə təqdim edirlər.

2. Bir və ya bir neçə tərəfin bu konvensiyanı tamamlayan istənilən təklifi və ya nümunəvi sazişləri Avropa Şurasının Baş katibinə göndərilir. Baş katib qərarın qəbul edilməsi üçün təklifi Nazirlər Komitəsinə ötürür.

**Maddə 9**

1. Bu konvensiya Avropa Şurasının üzvü olan dövlətlər tərəfindən imzalanmaq üçün açıqdır. Bu konvensiya ratifikasiya, qəbul və ya təsdiq edilməlidir. Avropa Şurasının Baş katibi konvensiyanın depozitarisidir.

2. Konvensiya onun dördüncü tərəfinin ratifikasiya fərmanının, qəbuletmə və ya təsdiqetmə haqqında sənədinin saxlanca təqdim edilməsi tarixindən etibarən üç ay ərzində və ən azı bu rəsmiyyəti yerinə yetirmiş və ümumi sərhədlərə malik olan iki tərəfin mövcud olduğu təqdirdə qüvvəyə minir.

3. Bu konvensiyanı imzalamış və ratifikasiya etmiş tərəfə münasibətdə, konvensiya, ratifikasiya fərmanının, qəbuletmə və ya təsdiqetmə haqqında sənədinin saxlanca təqdim edilməsi tarixindən üç ay sonra qüvvəyə minir.

**Maddə 10**

1. Konvensiya qüvvəyə mindikdən sonra Avropa Şurasının Nazirlər Komitəsi Avropa Şurasının üzvü olmayan istənilən Avropa dövlətinin bu konvensiyaya qoşulması üçün onun dəvət edilməsi haqqında yekdil qərar qəbul edə bilər. Bu cür dəvəti konvensiyanı ratifikasiya etmiş hər bir tərəf bəyənməlidir.

2. Bu cür qoşulma ratifikasiya fərmanının, qoşulma və ya təsdiqetmə haqqında sənədin Avropa Şurasının Baş katibinə verilməsindən sonra qüvvəyə minir.

**Maddə 11**

1. İstənilən tərəf Avropa Şurası Baş katibinin adına yazılı bildiriş göndərməklə bu konvensiyanı denonsasiya edə bilər.

2. Bu cür denonsasiya, Baş katib müvafiq bildirişi aldığı gündən altı ay sonra qüvvəyə minir.

**Maddə 12**

Avropa Şurasının Baş katibi Avropa Şurasının üzvü olan dövlətlərə və Konvensiyaya qoşulan digər dövlətlərə aşağıdakılar barədə bildirir:

a) hər bir imzalama;

b) ratifikasiya fərmanının və ya qəbuletmə və ya təsdiqetmə haqqında sənədin saxlanca təqdim edilməsi;

c) 9-cu maddəyə uyğun olaraq bu konvensiyanın qüvvəyə mindiyi tarix;

d) 2-ci maddənin 2-ci bəndinə və ya 3-cü maddənin 5-ci bəndinə uyğun olaraq alınmış bildiriş;



g) 11-ci maddənin müddəalarına uyğun olaraq alınmış bildiriş və denonsasiyanın qüvvəyə mindiyi tarix.

Bunun təsdiqi olaraq, lazımi qaydada səlahiyyətləndirilmiş aşağıda imza edənlər bu konvensiyanı imzaladılar.

1980-ci il mayın 21-də Madriddə ingilis və fransız dillərində, hər ikisi bir nüsxədə imzalanmış və eyni qüvvəyə malikdir, həmin nüsxə Avropa Şurasının arxivinə saxlanca verilir.

Avropa Şurasının Baş katibi konvensiyanın təsdiq edilmiş surətini Avropa Şurasının üzvü olan hər bir dövlətə göndərir.

# ƏRAZİ İCMALARI VƏ HAKİMİYYƏT ORQANLARI ARASINDA TRANSSƏRHƏD ƏMƏKDAŞLIQ HAQQINDA NÜMUNƏVİ AVROPA KONVENSİYASI

## *ƏLAVƏ*

**Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında nümunəvi və model sazişlər, əsasnamələr və müqavilələr**

Bu nümunəvi sazişlərin ardıcıl sistemi, onların başlıca və sazişlərin bağlanma səviyyəsinə uyğun olan iki kateqoriya arasındakı fərqdən irəli gələrək yaradılmışdır:

– yerli və regional səviyyədə transsərhəd əməkdaşlıq haqqında dövlətlərarası model sazişlər;

– ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlığa əsas ola biləcək nümunəvi sazişlər, müqavilələr və əsasnamələr.

### *1. DÖVLƏTLƏRARASI MODEL SAZİŞLƏR*

**Model sazişlərin ümumi bəndləri**

1.1. Transsərhəd əməkdaşlığa yardım haqqında dövlətlərarası model saziş;

1.2. Regionlararası transsərhəd məsləhətləşmələr haqqında dövlətlərarası model saziş;

1.3. Rayonlararası transsərhəd məsləhətləşmələr haqqında dövlətlərarası model saziş;

1.4. Hakimiyyət orqanları arasında razılaşdırılmış transsərhəd əməkdaşlıq haqqında dövlətlərarası model saziş;

1.5. Hakimiyyətlər arasında transsərhəd əməkdaşlıq üzrə orqanlar haqqında dövlətlərarası model saziş.

### *2. HAKİMİYYƏT ORQANLARI ARASINDA NÜMUNƏVİ SAZİŞLƏR, ƏSASNAMƏLƏR VƏ MÜQAVİLƏLƏR*

2.1. Hakimiyyət orqanları arasında məşvərətçi qrupun yaradılması haqqında nümunəvi saziş;



2.2. Hakimiyyət orqanlarının transsərhəd işlərinin idarə olunmasının əlaqələndirilməsi haqqında nümunəvi saziş;

2.3. Xüsusi hüquq transsərhəd assosiasiyalarının yaradılması haqqında nümunəvi saziş;

2.4. Sərhədyanı rayonların hakimiyyət orqanları arasında mal tədarükü və xidmətin göstərilməsi haqqında (xüsusi hüquqi xarakterli) nümunəvi müqavilə;

2.5. Hakimiyyət orqanları arasında mal tədarükü və xidmətin göstərilməsi haqqında (ümumi hüquqi xarakterli) nümunəvi müqavilə;

2.6. Hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq üzrə orqanların yaradılması haqqında nümunəvi saziş.

### *1. DÖVLƏTLƏRARASI MODEL SAZİŞLƏR*

**Giriş qeydi.** Dövlətlərarası sazişlərin bağlanmasının məqsədi, ilk növbədə dövlətlər tərəfindən müəyyən edilən hakimiyyət orqanlarının vəziyyətinin, formalarının və fəaliyyət dairələrinin dəqiq müəyyən edilməsindən və problemlərin (tətbiq olunacaq hüququn, məhkəmə hakimiyyətinin, şikayət vermək mümkünlüyünün və s. müəyyən edilməsi) yaranmasına səbəb ola biləcək hüquqi anlaşılmazlıqların aradan qaldırılmasından ibarətdir.

Bundan savayı, maraqlı dövlətlər arasında hakimiyyət orqanlarının transsərhəd əməkdaşlığına yardım göstərilməsi haqqında dövlətlərarası sazişlərin bağlanması, şübhəsiz ki, aşağıdakı münasibətlərdə faydalı olacaq:

– bu cür əməkdaşlıq üsullarının qanuniliyinin rəsmi tanınması və hakimiyyətlərin onların istifadəsinə təşviq edilməsi;

– müşayiət və nəzarət edən orqanların müdaxiləsinin məqsəd və şərtləri;

– dövlətlər arasında məlumat mübadiləsi;

– bu cür əməkdaşlıq formaları və sərhədyanı rayonlarda digər birgə fəaliyyət üsulları arasında yaradıla biləcək əlaqə;

– transsərhəd əməkdaşlığa mane olan hüquq normalarının dəyişdirilməsi və ya onların şərhi və s.

Yuxarıda göstərilən model sazişlərin müxtəliflik sisteminin seçilməsi hökumətlərə, transsərhəd əməkdaşlığa (1.1.) yardım göstərilməsi üçün dövlətlərarası sazişdən istifadə etməklə, əsas kimi onu verilən müxtəlif variantlardan (1.2-1.5. model sazişlərdən) birilə tamamlayaraq, sərhədyanı əməkdaşlığı öz tələbatlarına uyğun olaraq ən əlverişli şərtlərlə həyata keçirməyə imkan verir. Dövlət eyni zamanda və ya ardıcıl bu variantlardan ya birini, ya bir neçəsini, yaxud da onların hamısını seçə bilər. Skandinaviya dövlətləri kimi analoji hüquqi sistemə malik olan dövlətlər arasında sazişlər mövcud olduğu təqdirdə, bu cür xüsusi növ sazişlərin seçilməsi onlar üçün məcburi olmaya da bilər.

### Model sazişlərin ümumi müddəaları 1.1-1.5.

**Maddə a**

1. Bu saziş üçün "hakimiyyət orqanları" dedikdə, hər bir dövlətin daxili qanunvericiliyinə uyğun olaraq yerli özünüidarəetmə funksiyasını həyat keçirən hakimiyyətlər, icmalar və ya orqanlar başa düşülür.

2. Bu saziş üçün "regional hakimiyyət" dedikdə, hər bir dövlətin daxili qanunvericiliyinə uyğun olaraq regional idarəetmə funksiyalarını həyata keçirən hakimiyyətlər, icmalar və ya orqanlar başa düşülür.

**Maddə b**

Bu saziş onun iştirakçısı olan dövlətlər arasında mövcud olan, xüsusilə də beynəlxalq sazişə əsaslanan transsərhəd əməkdaşlığın digər formalarına toxunmur.

**Maddə c**

Sazişin iştirakçısı olan dövlətlər yerli və regional hakimiyyətləri onlara təqdim olunan səlahiyyətlərin həcmi barədə məlumatlandırır və bunlardan istifadə etmək üçün onlara kömək edirlər.

**Maddə d**

Bu sazişdə qeyd edilən "yuxarı hakimiyyət orqanları" saziş iştirakçılarının hər biri tərəfindən təyin edilən nəzarət orqanlarıdır.

**Maddə e**

Bu saziş, hakimiyyət orqanlarına sazişin iştirakçısı olan tərəflərin daxili qanunvericiliyilə müəyyən edilmiş səlahiyyətlərin həcmini və xarakterini heç cür dəyişmir.

**Maddə f**

Hər bir dövlət, bu sazişin tətbiq edilməyəcəyi öz ərazisində olan rayonları, əməkdaşlığın məqsəd və formalarını istənilən zaman göstərə bilər.

Lakin bunun edilməsi, artıq qüvvədə olan əməkdaşlıqla əlaqədar əldə olunmuş hüquqlara xələl gətirməməlidir.

**Maddə g**

İştirakçı dövlətlər bu saziş əsasında tapşırıq almış komissiyaların, komitələrin və digər orqanların fəaliyyəti haqqında mütəmadi olaraq Avropa Şurasının Baş katibini məlumatlandırır.

**Maddə h**

İştirakçı dövlətlər əldə etdikləri təcrübə əsasında sadə nota mübadiləsi yolu ilə bu sazişə cüzi dəyişikliklər etməyə haqlıdırlar.

**Maddə i**

1. Hər bir iştirakçı bu sazişin həyata keçirilməsi üçün öz daxili qanunvericiliyi ilə müəyyən edilmiş və sonuncu bildirişin təqdim edildiyi tarixdən qüvvəyə minən prosedurların yerinə yetirilməsi haqqında digər iştirakçını məlumatlandırır.



2. Bu saziş, onun qüvvəyə mindiyi tarixdən etibarən beş illik müddətə bağlanır. Əgər onun ləğv edilməsi haqqında altı ay əvvəlcədən bildiriş təqdim edilməzsə, onda o, avtomatik olaraq həmin şərtlər əsasında hər dəfə beş illik müddətə uzadılır.

3. Sazişin ləğv edilməsi haqqında bildiriş təqdim edən iştirakçı göstərə bilər ki, saziş yalnız müəyyən maddələrə, coğrafi regionlara və ya fəaliyyət sahələrinə tətbiq edilir. Belə olduğu təqdirdə, əgər saziş, onun qismən ləğv edilməsi haqqında bildiriş alındıqdan sonra dörd ay ərzində digər iştirakçı və ya iştirakçılar tərəfindən ləğv edilmirsə, o, qalan müddətdə də qüvvədə qalacaqdır.

4. İştirakçılar istənilən zaman bu sazişin tətbiqini müəyyən müddətə qədər dayandıra bilərlər. Onlar həmçinin müvafiq komitənin fəaliyyətinin dayandırılması haqqında da razılığa gələ bilərlər.

### 1.1. Transsərhəd əməkdaşlığa yardım haqqında dövlətlərarası model saziş

**Giriş qeydi.** Bu, aşağıda göstərilən, ayrı-ayrılıqda, yaxud bir və ya bir neçə dövlətlərarası model sazişlərlə birlikdə bağlana biləcək ümumi müddəaları özündə əks etdirən dövlətlərarası model sazişdir.

Hökumətlər ______________________

və ______________________

Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Nümunəvi Avropa Konvensiyasında müəyyən edilmiş transsərhəd əməkdaşlığın əhəmiyyətini etiraf edərək, aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

İştirakçılar regional və yerli səviyyədə transsərhəd əməkdaşlıq üçün vasitələrin axtarılmasını və ona kömək göstərilməsini öz öhdələrinə götürürlər.

Transsərhəd əməkdaşlığı, onlar sərhədin hər iki tərəfində yerləşən rayonlar arasında mehriban qonşuluğun möhkəmləndirilməsi və inkişafı üzrə bütün birgə inzibati, texniki, iqtisadi və mədəni tədbirlər və bu sahədə yarana biləcək problemlərin həlli məqsədilə müvafiq sazişlərin bağlanılması kimi başa düşürlər.

Bu tədbirlər, digərlərindən savayı, yerli və şəhər inkişafının yaxşılaşdırılmasına, təbii ehtiyatların mühafizəsinə, təbii fəlakətlər və ya qəzalar zamanı qarşılıqlı yardıma və əhaliyə göstərilən xidmətin yaxşılaşdırılmasına yönəlməlidir.

**Maddə 2**

İştirakçılar, qarşılıqlı məsləhətləşmələrin köməyilə onların yurisdiksiyası altında olan yerli hakimiyyətləri bu cür əməkdaşlıq üçün lazım olan zəruri resurslarla təmin etməlidirlər.

**Maddə 3**

Onlar həmçinin hakimiyyət orqanlarının transsərhəd əməkdaşlığının qurulmasına və inkişafına yönələn hərəkətlərini dəstəkləməyi öz öhdələrinə götürürlər.

**Maddə 4**

Bu sazişə uyğun olaraq transsərhəd əməkdaşlığı həyata keçirən yerli və regional hakimiyyət orqanları, əgər onlar ümumdövlət səviyyəsində əməkdaşlıq etsəydilər, onların istifadə edəcəyi vasitə və müdafiəyə uyğun olan vasitə və müdafiədən istifadə etməyə haqlıdırlar.

Hər bir iştirakçının səlahiyyətli hakimiyyəti bu sazişdə nəzərdə tutulan transsərhəd əməkdaşlığın inkişaf etdirilməsinə məsuliyyət daşıyan orqanların cari xərclərinin ödənilməsi üçün lazım olan vəsaitin ayrılmasına nəzarət etməlidir.

**Maddə 5**

Hər bir iştirakçı, yerli hakimiyyətlərin transsərhəd əməkdaşlığın inkişafına mane ola biləcək istənilən müddəalara dəyişikliklər edilməsi ilə əlaqədar təkliflərin verilməsi məqsədilə onun tərəfindən qüvvədə olan milli qanunvericiliyin tədqiq edilməsi üçün təyin edilən orqana, komissiyaya və ya təşkilata göstəriş verir. Bu cür orqanlar maliyyə və gömrük qaydalarının, xarici valyutanın və kapitalın köçürülmə qaydalarının təkmilləşdirilməsinə və yuxarı hakimiyyətlərin, xüsusilə də müşahidə və ya nəzarət baxımından müdaxiləsinə xüsusi diqqət yetirməlidirlər.

Yuxarıdakı yarımbənddə göstərilən addımları atmaqdan öncə, iştirakçılar birbirilə məsləhətləşmələr aparmalı və lazım gəldikdə, müvafiq məlumat mübadiləsi etməlidirlər.

**Maddə 6**

İştirakçılar transsərhəd əməkdaşlıq layihələrinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün zəruri olan əvvəlki tənzimlənməni tələb edən yerli xarakterli mübahisəli məsələləri arbitraj və ya digər vasitələrlə həll etməyə çalışırlar.

## 1.2. Rayonlar arasında transsərhəd məsləhətləşmələr haqqında dövlətlərarası model saziş

**Giriş qeydi.** Bu saziş ayrı-ayrılıqda, yaxud bir və ya bir neçə dövlətlərarası model sazişlərlə birlikdə bağlana bilər (1.1-1.5. Mətnlər).

**Maddə 1**

Rayonlar arasında, tərifi bu mətnin əlavəsində verilən transsərhəd əməkdaşlığa yardım etmək üçün iştirakçılar, transsərhəd məsləhətləşmələrə dair məsələlərə baxılması məqsədilə (bundan sonra "komitələr" adlanacaq) birgə komissiyalar yaradırlar.

**Maddə 2**

1. Komissiya və komitələr hər bir İştirakçı tərəfindən seçilən nümayəndə heyətindən ibarət olur.

2. Komissiyadakı nümayəndə heyəti ən azı üçü rayon hakimiyyətlərini təmsil edən 8 üzvdən ibarət olur. Komitələrin nümayəndə heyətlərinin başçıları, yaxud onların nümayəndələri komissiyanın işində məsləhətçi qismində iştirak edirlər.



3. Komitələr hər birində üzv olmaq şərtilə nümayəndə heyətindən ibarət olur və bu sazişin təsiri altına düşən sərhədyanı rayonlardakı regional və yerli hakimiyyətlərin razılığı ilə komissiyanın təşəbbüsü əsasında təşkil edilir. Komitədəki nümayəndə heyəti bu hakimiyyətlərin, yaxud da regional və ya yerli orqanların nümayəndələrindən ibarət olur. Bir nümayəndə mərkəzi hakimiyyətlər tərəfindən təyin edilir. O, mümkün olan yerdə, mərkəzi hakimiyyətləri komitələrin məsul olduqları sərhədyanı rayonlarda təmsil edən orqan üzvlərinin sırasından seçilir.

4. Komissiya ən azı ildə bir dəfə iclas keçirir. Komitələr, lazım gəldikdə, ildə iki dəfədən çox olmayaraq iclas keçirirlər.

5. Komissiya və komitələr öz prosedur qaydalarını qəbul edir.

**Maddə 3**

Hər bir iştirakçı komissiyadakı nümayəndə heyətinin xərclərini özü ödəyir. Komitədəki nümayəndə heyətinin xərcləri, onları yaratmış hakimiyyətlər tərəfindən ödənilir.

**Maddə 4**

Komissiya və komitələrin işini düzgün qurmaq və əlaqələndirmək məqsədilə İştirakçılar, lazım gəldikdə tərkibi, qərargahı, fəaliyyət qaydası və maliyyələşməsi komissiyasının təklifi əsasında iştirakçıların bağladığı xüsusi razılaşma ilə müəyyən edilən katiblik yaradır. İştirakçılar arasında razılaşma mövcud olmadığı təqdirdə, bu cür katibliyi komissiya özü yaradır.

**Maddə 5**

Bu sazişin təsiri altına düşən sərhədyanı rayonlar, məzmunu sadə notalar mübadiləsilə dəyişdirilən sazişin əlavəsində göstərilir.

**Maddə 6**

1. Transsərhəd məsləhətləşmələr vasitəsilə həll edilən məsələlər aşağıda göstərilən fəaliyyət sahələrində yaranır:

- regional və şəhər inkişafı;
- nəqliyyat və kommunikasiya (ictimai nəqliyyat, yol və avtostradalar, birgə aeroportlar, su yolları, dəniz yolları və s.);
- enerji təchizatı (elektrik stansiyaları, qaz, elektrik və su təchizatı);
- su ehtiyatlarının saxlanılması (çirklənməyə nəzarət, təmizləyici qurğular və s.);
- atmosferin mühafizəsi (havanın çirklənməsi, səslə mübarizə, səsdən azad olan zonalar və s.);
- təhsil, təlim və elmi təhqiqatlar;
- səhiyyə (məsələn, rayonlardan birinin tibb müəssisələrindən digər rayon sakinlərinin istifadə etməsi);
- mədəniyyət, asudə vaxt və idman (teatr, orkestr, idman mərkəzləri, istirahət düşərgələri və evləri, gənclik mərkəzləri və s.);

– təbii fəlakətlər zamanı qarşılıqlı yardım (yanğınlar, sellər, epidemiyalar, hava qəzaları, zəlzələ, dağlarda bədbəxt hadisələr və s.);
– turizm (turizmin inkişafı üzrə birgə layihələr);
– sərhədyanı rayonlarda zəhmətkeşlərin problemləri (nəqliyyat vasitələri, yaşayış, sosial təminat, vergitutma, məşğulluq, işsizlik və s.);
– iqtisadi layihələr (sənayenin yeni sahələri və s.);
– müxtəlif layihələr (zibil və tullantıların məhv edilməsi üçün qurğular, kanalizasiya və s.);
– kənd təsərrüfatının təkmilləşdirilməsi;
– sosial xidmət vasitələri.

2. İştirakçılar sadə notalar mübadiləsi vasitəsilə bu siyahıya dəyişikliklər edə bilərlər.

**Maddə 7**

1. Əgər digər qayda nəzərdə tutulmamışdırsa, komitələrin işləri üzrə proqramların tərtib edilməsi, bu saziş qüvvəyə minənə qədər yaradılmış maraqlı komissiyalarla rabitə və əlaqələndirmə kimi ümumi və prinsipial xarakterli məsələlərin həll edilməsinə görə komissiya cavabdehdir.

2. Komissiya, xüsusilə beynəlxalq sazişlərin bağlanması üçün müvafiq hökumətlərə, lazım gəldikdə, öz tövsiyələrinin və komitənin tövsiyələrinin və istənilən layihələrin təqdim edilməsinə görə cavabdehdir.

3. Komissiya müəyyən məsələləri həll edərkən ekspertlərin köməyindən istifadə edə bilər.

**Maddə 8**

1. Komitələrin əsas funksiyası 6-cı maddədə sadalanan sahələrdə yaranan problemlərin təhlilindən və müvafiq təklif və tövsiyələrin təqdim edilməsindən ibarətdir. Bu cür problemlər onlara komissiya, İştirakçıların mərkəzi, regional və yerli hakimiyyətləri və müəssisələr, assosiasiyalar, yaxud digər ictimai və ya özəl təşkilatlar tərəfindən verilə bilər. Onlar həmçinin problemləri öz şəxsi təşəbbüsü əsasında həll edə bilərlər.

2. Komitələr bu məsələlərin təhlili üçün işçi qruplar yarada bilər. Onlar həmçinin ekspertlərin köməyindən istifadə edə bilər və hüquq məsləhətçilərinin və ya texniki ekspertlərin rəylərini istəyə bilər. Komitələr ən dolğun məsləhətləşmələr vasitəsilə sərhədyanı rayonların əhalisinin maraqlarına uyğun gələn nəticələrin əldə olunmasına çalışırlar.

**Maddə 9**

1. Komitələr onlara təqdim olunan və onlar tərəfindən verilən rəylər haqqında komissiyanı məlumatlandırır.

2. Əgər onların bağlanmasına komissiya və ya müvafiq hökumətlər tərəfindən qərarların qəbul edilməsi tələb olunursa, komitələr bu barədə komissiyaya tövsiyələr təqdim edir.



**Maddə 10**

1. Həm komissiya, həm də komitələr ümumi maraq kəsb edən məsələlərin həllinə dair onların üzvlərinin razılığı ilə onlara verilən səlahiyyətə malikdir, bu şərtlə ki, onlar həmin səlahiyyətə iştirakçıların qanunvericiliyinə uyğun olaraq malik olsunlar.

2. Komissiya və komitələr, onlar tərəfindən qəbul edilmiş bu cür qərarlar haqqında məlumat mübadiləsi həyata keçirirlər.

**Maddə 11**

1. Komissiyada və ya komitələrdəki nümayəndə heyəti səlahiyyətli hakimiyyətlər tərəfindən onlara verilən tövsiyələr əsasında görülən tədbirlər, yaxud 7.2 və 9.2-ci maddələrə uyğun olaraq işlənib hazırlanan sazişlər haqqında məlumat mübadiləsi həyata keçirir.

2. Komissiya və ya komitələr 1-ci bənddə göstərilən səlahiyyətli hakimiyyətlər tərəfindən görülən tədbirlər üzrə zəruri olan hərəkətləri nəzərdən keçirir.

## 1.3. Rayonlar arasında transsərhəd məsləhətləşmələr haqqında dövlətlərarası model saziş

**Giriş qeydi.** Bu saziş ayrı-ayrılıqda, yaxud bir və ya bir neçə dövlətlərarası model sazişlərlə birlikdə bağlana bilər (1.1-1.5. Mətnlər).

**Maddə 1**

Həmsərhəd dövlətlərin yerli hakimiyyətləri arasında daha dolğun məlumat mübadiləsini və məsləhətləşmələrin inkişaf etdirilməsini təmin etmək məqsədilə iştirakçılar, bu cür hakimiyyətlərdən ümumi maraq kəsb edən problemləri məşvərətçi komitələrin köməyilə birgə tədqiq etməyi tələb edir.

**Maddə 2**

Bu cür komitələrin prosedur qaydaları onların üzvləri tərəfindən qəbul edilir. Yuxarı hakimiyyətlər ya onların işində iştirak edir, ya da ki onlardan mütəmadi olaraq məlumat alır.

Məşvərətçi komitələr, əgər onlar həmin rayonlarda yaradılırsa, yerli transsərhəd məşvərətçi komissiyaların işində komissiyaların müəyyən etdiyi şərtlər əsasında iştirak edirlər. Bu komissiyalar da məşvərətçi komissiyaların işində onlara eyni qaydada yardım edir.

Onlar həmçinin transsərhəd əməkdaşlıq məsələləri üzrə bağlanmış xüsusi dövlətlərarası sazişlərin həyata keçirilməsilə əlaqədar məsləhətçi orqanlar kimi fəaliyyət göstərə bilər.

**Maddə 3**

Məşvərətçi komitələrin funksiyaları məlumat mübadiləsinin təşkili və hər iki tərəfin məsləhətləşməsi, habelə ümumi maraq kəsb edən məsələlərin tədqiqindən və ümumi məqsədlərin müəyyən edilməsindən ibarətdir.

Onlar öz fəaliyyətində öz üzvlərinin vəzifələrinə hörmət bəslənilməsini rəhbər tutur və onların səlahiyyəti ötürülmür.

Lakin bu komitələrin üzvləri əməkdaşlıq haqqında olan sazişlər çərçivəsində öz fəaliyyətində hansı tədbirlərin və ya məhdudiyyətlərin rəhbər tutulması və ya hansı məsləhət prosedurlarının yerinə yetirilməsi məsələsini birgə həll edə bilərlər.

**Maddə 4**

Bu məşvərətçi komitələrə onların işində yardım göstərilməsi məqsədilə maraqlı yerli hakimiyyətlər daxili qanunvericiliyə əsasən öz səlahiyyətləri çərçivəsində öz əməkdaşlıqları üçün hüquqi əsas təmin edən assosiasiyalar yarada bilər.

Bu cür assosiasiyalar maraqlı dövlətlərdən birində assosiasiyalara tətbiq edilən mülki və ya ticarət hüququ normalarına uyğun olaraq yaradılır. Seçilmiş hüquqi sistemin tətbiq edilməsi zamanı lazım gəldikdə, assosiasiya üzvlərinin vətəndaşlığına aid olan şərtlər, rəsmiyyətlər və müəyyən qərarlar nəzərə alınmır.

2-ci maddəyə uyğun olaraq yuxarı hakimiyyətlərə ötürülən məlumat, bu maddədə adı çəkilən assosiasiyaların fəaliyyəti haqqında bütün məlumatı əks etdirir.

## 1.4. Hakimiyyət orqanları arasında razılaşdırılmış transsərhəd əməkdaşlıq haqqında dövlətlərarası model saziş

**Giriş qeydi.** Bu saziş ayrı-ayrılıqda, yaxud bir və ya bir neçə dövlətlərarası model sazişlərlə birlikdə bağlana bilər (*1.1.-1.5. Mətnlər*).

**Maddə 1**

Yerli hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq, digərlərindən savayı, inzibati, iqtisadi və ya texniki müqavilələr əsasında həyata keçirilir.

**Maddə 2**

Transsərhəd əməkdaşlıq haqqında müqavilələr daxili qanunvericiliyə əsasən öz səlahiyyətləri çərçivəsində yerli hakimiyyət orqanları tərəfindən bağlanır.

Onlar, digərlərindən savayı, mal tədarükünə və xidmət göstərilməsinə, birgə hərəkətlərə, sazişin iştirakçısı olan dövlətlərdən birinin mülki və ya ticarət hüququnun normalarına əsasən assosiasiyaların yaradılmasına, yaxud bu cür asosiassiyalarda olan üzvlərin tərkibinə aiddir.

**Maddə 3**

Bu cür müqavilənin iştirakçıları bu sazişin iştirakçısı olan dövlətlərdən birinin müqavilə (istər ümumi, istərsə də xüsusi) hüququna istinad etməklə, müqaviləyə tətbiq edilməli olan hüququ göstərirlər.

Onlar həmçinin lazım olan həcmdə, bu hüququn məcburi olmayan müddəalarından hansı çıxarışların edilməsini göstərə bilərlər.

Müqavilədə müvafiq şərtin mövcud olmadığı təqdirdə, dövlətin yerli hakimiyyətlərinin, yaxud bu cür hakimiyyətlər olmadıqda, ən çox maliyyə vəsaitlərini təmin edən yerli hakimiyyətlərinin əsas xidmətin göstərilməsinə görə cavabdeh olmasına əsas verən hüquq tətbiq edilən hüquq hesab edilir.



Müqavilə iştirakçılarının yerli hakimiyyət orqanlarının idarəçiliyi altında olan şəxslər hər bir halda bu cür hakimiyyətlərə qarşı iddialar qaldırmaq, yaxud onlara qarşı mülki-müdafiə vasitələri axtarmaq hüququna malikdirlər, onlar sonuncu hüquqa o şərtlə malik ola bilər ki, bu hakimiyyətlər adı çəkilən şəxslərin həmin mal və xidmətlərlə təmin edilməsini öz üzərinə götürmüş olsun. Bu cür iddiaların verildiyi, yaxud barələrində mülki-müdafiə vasitələrinin istifadə edildiyi yerli hakimiyyətlər, bu cür mal və xidmətlərin təmin edilməsini öz üzərinə götürən yerli hakimiyyətlərə qarşı məhkəmə işi açmaq hüququna malikdirlər.

**Maddə 4**

Müqavilələrin bağlanması və ya onlara dəyişikliklər edilməsi haqqında təkliflər eyni zamanda hər bir dövlətdə yuxarı hakimiyyətlərin müdaxiləsini nəzərdə tutan adi hüquq normaları ilə tənzimlənir. Yuxarı hakimiyyət orqanının əməkdaşlıq haqqında transsərhəd müqavilənin ləğv olunmasına səbəb ola biləcək istənilən qərarı, digər maraqlı dövlətlərin müvafiq yuxarı hakimiyyətlərilə məsləhətləşmələrdən sonra qəbul edilməlidir.

**Maddə 5**

Mübahisə yarandığı təqdirdə, səlahiyyətli məhkəmə orqanının seçilməsi tətbiq olunan hüquqla müəyyən edilir, lakin transsərhəd əməkdaşlıq haqqında müqavilələrə arbitraj haqqında qeyd-şərtlər edilə bilər. Bu cür qeyd-şərtin olub-olmamasından asılı olmayaraq, istehlakçılar və ya üçüncü şəxslər öz dövlətlərinin yerli hakimiyyətlərinə qarşı istənilən mülki-müdafiə vasitələrdən istifadə etmək hüququnu özündə saxlayır, çünki məhz bu hakimiyyətlər müqaviləni pozmuş tərəfdən kompensasiya tələb edə bilər.

Yuxarı hakimiyyət orqanları məhkəmə qərarlarının tezliklə icrasını təmin etmək məqsədilə onları çıxarmış məhkəmələrin dövlət mənsubiyyətindən asılı olmayaraq bütün mümkün tədbirləri görür.

**Maddə 6**

Bu sazişə əsasən bağlanan müqavilələr onun denonsasiyasından sonra da qüvvədə qalır. Lakin bu saziş denonsasiya edildikdə, müqavilələrə, tərəflərə həmin müqavilələrin ləğv edilməsinə icazə verən, bu cür ləğvetməyə beş il qalmış məlumatlandırmaq şərtilə qeyd-şərt əlavə edilir. İştirakçı dövlətlər bu qeyd-şərti tətbiq etməyə haqlıdır.

## 1.5. Yerli hakimiyyətlər arasında transsərhəd əməkdaşlıq haqqında dövlətlərarası model saziş

**Giriş qeydi.** Bu saziş ayrı-ayrılıqda, yaxud bir və ya bir neçə dövlətlərarası model sazişlərlə birlikdə bağlana bilər (1.1-1.5. Mətnlər).

**Maddə 1**

Yerli hakimiyyətlər və digər ümumi hüquqi orqanlar onların dövlətdaxili qanunvericiliyilə assosiasiya və ya konsorsiumların tərkibində nail olunmasına yol verilən məqsədlər üçün sazişin digər iştirakçısının ərazisində onun dövlətdaxili qanunvericiliyinə uyğun olaraq yaradılan assosiasiya və ya konsorsiumlara daxil ola bilərlər.

**Maddə 2**

1-ci maddədə adı çəkilən assosiasiya və ya konsorsiumlar öz üzvlərinin səlahiyyətləri çərçivəsində qanunvericiliklə müəyyən edilmiş məqsədlərlə öz fəaliyyətini hər bir maraqlı iştirakçının ərazisində həyata keçirməyə haqlıdır. Belə olduqda, dövlətin icazə verdiyi hallar istisna olmaqla, onlar həmin dövlətin müəyyən etdiyi qaydaları rəhbər tutur.

**Maddə 3**

1. Assosiasiya və konsorsiumun təsis sənədləri, nizamnaməsi və onlara edilən düzəlişlər onlarda iştirak edən yerli hakimiyyətlərin yuxarı hakimiyyətləri tərəfindən təsdiq edilməlidir. Həmin qaydalar eyni zamanda artıq mövcud olan assosiasiya və ya konsorsiuma daxil olmağa da tətbiq edilir.

2. Maraqlı əhali bu cür təsis sənədləri və onların təsdiq edilməsi barədə adi qaydada hər bir ölkədə məlumat yayımı vasitəsilə məlumatlandırılır. Həmin qayda eyni zamanda rəsmi mənzil-qərargahın yerləşdiyi yerin dəyişməsinə, assosiasiya və ya konsorsium adından çıxış etməyə səlahiyyəti olan şəxslərə və onların səlahiyyət həddinə aid istənilən qərarlara dair tətbiq edilir.

3. Yuxarıda göstərilən təsis sənədləri onların qüvvəyə minəcəyi hər bir dövlətin rəsmi dilində tərtib edilir. Onların mətnlərinin hər bir nüsxəsi autentikdir.

**Maddə 4**

1. Nizamnamələrdə assosiasiya və ya konsorsiumların hüquqi statusunu tənzimləyən qaydalar əks olunur. Onlar 1-ci maddəyə əsasən müvafiq qanunvericiliyin tələblərini yerinə yetirir. Hər bir halda onlarda assosiasiya və ya konsorsiumun adı, qərargahı, üzvləri göstərilir. Onlarda assosiasiya və ya konsorsiumun məqsədləri və lazım gəldikdə, onun müəssisələrinin funksiyaları və onların olduqları yer əks etdirilir. Onlarda idarəedici və inzibati aparatın təyin edilmə qaydası, onların üzvlərinin vəzifə həcmi və ümumi xərclərə etdikləri ödənişlərin məbləği müəyyən edilir. İdarəedici aparata hər bir dövlətin assosiasiya və ya konsorsium üzvlərinin yerli hakimiyyətlərindən ən azı bir nümayəndə daxildir. Nizamnamədə Baş Assambleyanın tərkibi və iş qaydası, iclas protokollarının təmin edilməsi, buraxılma və ya ləğv etmə qaydası büdcə və hesabatı tənzimləyən qaydalar müəyyən edilir.

2. Nizamnamə həmçinin assosiasiya üzvlərinin öz kapital qoyuluşlarına və onların adından çəkilən xərclərə görə assosiasiyaya bütün borclarını və ekspertlərin qiymətləndirməsinə görə kompensasiyanı ödədikdən sonra nizamnamə ilə müəyyənləşdirilən müddət ərzində bildiriş təqdim etməklə assosiasiyadan üzvlərin çıxması haqqında müddəanı əks etdirir.



**Maddə 5**

İştirakçılar ictimai qayda və ictimai təhlükəsizlik normalarını nəzərə almaqla, assosiasiya və ya konsorsiumun qarşısında duran vəzifələrin öz ərazisində yerinə yetirilməsinə görə icazənin verilməsini öz üzərlərinə götürürlər.

**Maddə 6**

Əgər daxili qanunvericiliyə əsasən assosiasiya və ya konsorsium hər hansı bir ölkənin ərazisində öz üzvünün yerli hakimiyyət orqanının maraqları naminə zəruri olan müəyyən səlahiyyət, hüquq və ya imtiyazları həmin dövlətdə həyata keçirə bilmirsə, onda həmin hakimiyyət orqanı bu cür səlahiyyət, hüquq və ya imtiyazların həyata keçirilməsi və ya təmin edilməsi məqsədilə həmin assosiasiya və ya konsorsium tərəfindən və ya onun adından hərəkət etməyə haqlıdır və bunu etməyə borcludur.

**Maddə 7**

1. Assosiasiya və ya konsorsiuma müşahidə və ya nəzarət etmək hüququ, onların qərargahlarının yerləşdiyi dövlətin səlahiyyətli hakimiyyət orqanı tərəfindən daxili qanunvericiliyə uyğun olaraq həyata keçirilir. Bu cür orqan eyni zamanda digər dövlətlərin yerli hakimiyyətlərinin maraqlarının müdafiə olunmasını təmin edir.

2. Digər dövlətlərin səlahiyyətli orqanlarının assosiasiya və ya konsorsiumun fəaliyyəti və ya qərarları haqqında və müşahidə və ya nəzarətin həyata keçirilməsi üçün görülən tədbirlər haqqında məlumat almaq hüququ vardır. Onlara sorğu əsasında xüsusilə assosiasiya və ya konsorsium orqanlarının iclas protokolları və təsdiq edilmiş sənədlər, illik hesabatlar və büdcə layihələri, əgər onlar varsa, müşahidə və nəzarətə görə məsul olan orqanlara ötürülmə mümkünlüyünü nəzərdə tutan daxili qanunvericiliyə əsasən təqdim edilir. Onlar assosiasiya və ya konsorsium orqanları, yaxud müşahidə və ya nəzarət edən orqanlar ilə birbaşa əlaqə yarada bilər, öz qeydlərini təqdim edə və müəyyən hallarda və ya müəyyən məsələlərə dair birbaşa məsləhətləşmənin keçirilməsini tələb edə bilərlər.

3. Digər dövlətlərin səlahiyyətli orqanları, onların yurisdiksiyası altında olan yerli hakimiyyətlərin assosiasiya və ya konsorsiumda sonrakı iştirakına etiraz etmələri haqqında assosiasiya və ya konsorsiumu məlumatlandırmaq hüququna malikdirlər. Bu cür bildiriş, buna kifayət qədər əsas olduqda, onların çıxarılması üçün əsas hesab edilir və assosiasiyanın nizamnaməsinə daxil edilir. Bu maddənin 1 və 2-ci bəndlərində göstərilən orqanların öz nümayəndəsini assosiasiya və ya konsorsiumun idarəedici orqanına göndərməyə ixtiyarı var; bu cür nümayəndə bütün bu orqanların iclaslarında iştirak etməyə və onların gündəliyini və protokollarını almağa haqlıdır.

**Maddə 8**

Assosiasiya və ya konsorsiuma onların üzvlərinin arasında, onların nizamnaməsinə uyğun olaraq həvalə olunan mal tədarükü və xidmətlərin göstərilməsi onların mə-

suliyyəti altında həyata keçirilir və bu da onların üzvlərini bu səbəbdən hər hansı bir öhdəliyin yerinə yetirilməsindən tam azad edir. Assosiasiya və ya konsorsium həmçinin istehlakçılar və üçüncü şəxslər qarşısında məsuliyyət daşıyır. Buna baxmayaraq, istehlakçılar və üçüncü şəxslər mal tədarükü və xidmətlər göstərilən və ya göstərən yerli hakimiyyətlərə münasibətdə iddialar vermək və mülki müdafiə vasitələrindən istifadə etmək hüququnu özündə saxlayır, onlar sonuncu hüquqlara o şərtlə malik ola bilər ki, bu hakimiyyətlər həmin mal tədarükünə və həmin xidmətlərin göstərilməsinə məsuliyyət daşımış olsun. Barələrində iddia və ya reqres hüququ həyata keçirilən hakimiyyətlər özləri assosiasiyalara qarşı iddialar qaldırmağa haqlıdır.

**Maddə 9**

1. Assosiasiyanın fəaliyyətilə bağlı assosiasiya və onun üzvləri və ya onun üzvlərinin bir neçəsi arasında olan mübahisə, barışığa nail olunmadıqda, assosiasiya və ya konsorsiumun qərargahının yerləşdiyi dövlətin inzibati və ya məhkəmə orqanına verilir.

2. 1-ci bənddə göstərilən mübahisələr istisna olmaqla, bütün mübahisələr, əgər maraqlı tərəflər bu cür mübahisələrin onların təyin etdiyi digər məhkəmə orqanına verilməsini qərara almazsa, iştirakçı dövlətlərin ərazisində mövcud olan adi qaydalara uyğun olaraq inzibati və ya məhkəmə orqanlarına verilə bilər.

3. İştirakçı dövlətlər yuxarıda göstərilən müddəalara aid olan inzibati və məhkəmə qərarlarının öz ərazisində icra edilməsi üçün bütün zəruri tədbirlər görürlər.

**Maddə 10**

Bu sazişə uyğun olaraq yaradılmış assosiasiya və ya konsorsiumlar, 7-ci maddənin 3-cü bəndinin müddəalarına xələl gətirmədən, bu sazişin denonsasiyasından sonra da öz fəaliyyətini davam etdirir.

## *2. YERLİ HAKİMİYYƏT ORQANLARI ARASINDA NÜMUNƏVİ SAZİŞLƏR, ƏSASNAMƏLƏR VƏ MÜQAVİLƏLƏR*

**Giriş qeydi.**

Yerli hakimiyyət orqanları üçün nəzərdə tutulan nümunəvi sazişlər, müqavilələr və əsasnamələr

Dövlətlərə təklif olunduğu kimi, yerli hakimiyyət orqanlarına da saziş və müqavilələrin seçilməsini təklif etmək olar. Bu cür seçim, artıq bağlanmış müqavilələrə əsasən toplanmış sənədlərin həcmindən göründüyü kimi, faktiki olaraq artıq bir neçə dövlətdə mövcuddur.

Təklif olunan sistem yerli hakimiyyətlərin transsərhəd əməkdaşlığının müxtəlif səviyyə və formalarına uyğun gələn altı nümunəvi saziş, müqavilə və əsasnamədən ibarətdir. Milli qanunvericiliyin həcmindən və mövcud vəziyyətindən asılı olaraq, onlar dərhal, yaxud onların tətbiq edilməsini tənzimləyən dövlətlərarası sazişin qəbul edilməsindən sonra tətbiq edilir.



Ümumilikdə, dövlətlərarası sazişlərin bağlanması, hətta əgər buna zərurət olmadıqda belə, bu cür sazişlərin yerli hakimiyyətlər tərəfindən həyata keçirilmə şərtlərinə aydınlıq gətirə bilər. Hər bir halda, dövlətlərarası sazişin bağlanması 2.6-cı bənddə (transsərhəd əməkdaşlıq üzrə orqanlar) göstərilən sazişin tətbiq edilməsi üçün ilkin şərt kimi zəruri ola bilər.

Yerli hakimiyyətlər üçün nəzərdə tutulan hazırkı nümunəvi sazişlər sistemi dövlətlərarası model sazişlərə uyğun gəlir. Hər bir nümunəvi sazişin giriş qeydində dövlətlərarası sazişlərə istinad verilir.

Yerli səviyyədə yaradılmış orqanları sonradan regional və ya ümumdövlət səviyyəsində yaradılan məşvərətçi transsərhəd qurumlara daxil etmək olar. Məsələn, əlaqələr üzrə yerli komitələri (nümunəvi saziş 2.1) regionlar arasında transsərhəd məsləhətləşmələr haqqında dövlətlərarası model sazişlərdə (1.2) nəzərdə tutulan komissiyaların, Komitələrin və işçi qrupların strukturunda daxil etmək olar.

Bundan əlavə, hər bir konkret halda yarana biləcək problemlərə hərtərəfli baxış mümkün olmadığından, bu model sazişlər sxematik olaraq tərtib edilmişdir. Nümunəvi sazişlər dəyərli təlimatdır. Lakin onları istifadə edən yerli hakimiyyətlərin tələbatından asılı olaraq onlarda dəyişikliklər edilə bilər.

Eyni zamanda yerli hakimiyyətlər sosial-mədəniyyət sahəsində transsərhəd əməkdaşlıqda öz vətəndaşlarının iştirakını təmin etmək üçün həvəsləndirmə vasitələri müəyyən etməlidir. Bu cür iştirakçılıq hər halda, bəzən transsərhəd əməkdaşlıq üçün olan psixoloji maneələrin aradan qalxmasına yardım edəcək. İctimaiyyətin maraqları ilə dəstəklənən məsləhətləşmələr möhkəm özül yaradır. İctimaiyyətin iştirak etməsi üçün həvəsləndirmə üsullarından biri də assosiasiyalardan istifadə etməkdir. Bu səbəbdən nümunəvi sazişlərdən biri də (2.3) xüsusi hüquq assosiasiyasının yaradılmasıdır.

## 2.1. Yerli hakimiyyət orqanları arasında məşvərətçi qrupun yaradılması haqqında nümunəvi saziş

**Giriş qeydi.** Bu cür qrupun yaradılması adətən dövlətlərarası sazişlər bağlamadan da mümkündür. Buna bir çox misal gətirmək olar. Lakin əgər hüquqi baza yoxdursa, dövlətlərarası saziş bu cür məsləhətləşmələrin keçirilmə şərtlərini müəyyən edə bilər *(bax: nümunəvi saziş 1.3).*

### Qrupun məqsədi və onun qərargahı

**Maddə 1**

Sazişin iştirakçıları olan yerli hakimiyyətlər öz səlahiyyətləri çərçivəsində (fəaliyyət sahəsini və ya "yerli məqsədləri" göstərmək) aşağıdakı sahələrdə öz səylərini əlaqələndirməyi öz üzərlərinə götürürlər. Bu məqsədlə onlar qərargahı olan və bundan sonra "qrup" adlanacaq məşvərətçi qrup yaradır.

Qrupun məqsədi onun üzvləri arasında yuxarıdakı yarımbənddə göstərilən fəaliyyət sahələrində məlumat mübadiləsini, əlaqələndirməni və məsləhətləşməni təmin etməkdən ibarətdir. Sazişin iştirakçıları olan hakimiyyətlər, onun məqsədlərinin yerinə yetirilməsi və qərar qəbul etməzdən və ya tədbir görməzdən öncə qrupun köməyilə bir-birilə məsləhətləşmələrin keçirilməsi üçün bütün zəruri məlumatla təchiz etmək öhdəliyini öz üzərlərinə götürürlər.

## Qrupun tərkibi

Saziş iştirakçısı olan hər bir yerli hakimiyyət orqanı qrupda onun təyin etdiyi nəfərdən ibarət olan üzvlər tərəfindən təmsil olunur. Hər bir nümayəndə heyəti qrupun razılığı ilə özəl sosial-iqtisadi təşkilatların nümayəndələri və ekspertləri-lə müşayiət oluna bilər (bu variant yerli hakimiyyət olmayan istənilən orqanı qrupun tərkibindən çıxarır, bu isə onu 2.3-cü bənddə nəzərdə tutulan xüsusi hüquq assosiasiyasından fərqləndirir).

Mümkün variant: hər bir nümayəndə heyətində olan üzvlərin sayı müxtəlif ola bilər. Qrupun tərkibinə yerli və regional hakimiyyət orqanları, sosial-iqtisadi qruplar və bu sazişi imzalayan şəxslər daxil ola bilər. Qrup öz tərkibinə yeni üzvlərin daxil olması haqqında qərar qəbul edir. Hər bir nümayəndə heyəti qrupun razılığı ilə özəl təşkilatların nümayəndələrilə müşayiət oluna bilər.

## Səlahiyyət

**Maddə 3**

Qrup 1-ci maddədə göstərilən bütün məsələləri müzakirə etməyə haqlıdır. Konsensus əsasında qəbul olunan bütün qərarlar və qrupun müvafiq orqan və ya qruplara verəcəyi tövsiyələr protokola daxil edilir.

Qrup, onun səlahiyyətinə daxil olan məsələləri təhlil etməyə və təhqiqatlar keçirməyə səlahiyyətlidir.

**Maddə 4**

Qrupun üzvləri müəyyən edilmiş, dəqiq formalaşdırılmış praktiki vəzifələrin yerinə yetirilməsinin qrupa həvalə olunması barədə razılaşa bilərlər. Qrup eyni zamanda ona digər müəssisələr tərəfindən həvalə olunan məsələləri yerinə yetirə bilər.

## İş prinsipi

**Maddə 5**

Qrup öz prosedur qaydalarını qəbul edir.

**Maddə 6**

Qrupun iclasları, bir qayda olaraq, ildə iki dəfə və ya iclasın keçirilməsi haqqında bəndi iclasın gündəliyinə çıxaran üzvlərinin üçdə bir hissəsinin xahişilə çağırılır.



İclasın keçirilməsi haqqında bildiriş və gündəlik ən azı 15 gün qalmış göndərilməlidir ki, orada təmsil olunan bütün təşkilatlar müzakirəyə hazırlaşa bilsin.

**Maddə 7**

Qrup öz üzvlərinin sırasından daimi Büro təyin edir və onun tərkib və səlahiyyətini müəyyən edir.

Sədr prosedur qaydalara uyğun olaraq seçilir, yaxud əgər onlar tətbiq edilmirsə, sədr kimi qrupda iştirak edən üzvlərdən qocamanı seçilir.

## Qrupun üzvü olmayan şəxslər və yuxarı hakimiyyətlərlə münasibət

**Maddə 8**

Qrupun üzvü olmayan şəxslərlə münasibətdə, prosedur qaydalarda nəzərdə tutulan hallar istisna olmaqla, qrupu sədr təmsil edir. Qrupun üzvləri tərəfindən təmsil olunan yuxarı hakimiyyət orqanları qrupun işi barədə onların tələb etdikləri məlumatı ala bilər və onlar iclaslara müşahidəçini göndərməyə haqlıdırlar.

## Katiblik və maliyyə vəsaitləri

**Maddə 9**

Katibliyin işi qrup üzvlərinin təşkilatlarından biri tərəfindən təmin edilir.

Hər bir hakimiyyət orqanı katibliyin xərclərini ödəmək üçün aşağıdakı qaydada ödəniş etməlidir:

Məlumat və sənədlər adətən həmin sənədlərin göndərildiyi dövlətin dilində göndərilir.

## Qrup üzvlüyünə qəbul və ondan çıxma

**Maddə 10**

Qrupun üzvlüyünə daxil olmaq üçün qəbul bu sazişi imzalaya biləcək əlavə yerli və regional hakimiyyətlər üçün açıqdır. Yeni üzvlərin qəbul edilməsi haqqında qərarı qrup qəbul edir.

**Maddə 11**

Qrupun istənilən üzvü qrupun sədrini məlumatlandıraraq qrupun tərkibindən çıxa bilər. Əgər qrup digər qərar qəbul etməmişdirsə, üzvün qrupun tərkibindən çıxması onun işinə təsir etmir.

**Maddə 12**

Bu sazişin iştirakçıları onun bağlanması haqqında Avropa Şurasının Baş katibini məlumatlandırır və sazişin mətnini ona ötürürlər.

## 2.2. Yerli hakimiyyət orqanlarının transsərhəd işləri üzrə idarəçiliyin əlaqələndirilməsi haqqında nümunəvi saziş

**Giriş qeydi.** Transsərhəd əməkdaşlıq haqqında bu cür sazişin artıq bir neçə dövlətdə mövcud olması mümkündür. Əgər mövcud deyilsə, onda bu cür sazişin tətbiq etmə şərtləri dövlətlərarası saziş çərçivəsində müəyyən edilməlidir (bax, model saziş 1.3).

### Sazişin məqsədi

**Maddə 1**

1-ci maddə sazişin məqsədini və onun təsir dairəsini müəyyən edir (məsələn, sərhədyanı rayonların inkişafının razılaşdırılması).

### Sazişin təsir dairəsində olan ərazi

**Maddə 2**

2-ci maddə sərhədin hər iki tərəfindən (və ya üç tərəfindən) sazişin təsir dairəsində olan ərazini müəyyən etməlidir.

### Öhdəliklər

**Maddə 3**

3-cü maddə sazişin məqsədlərinə (maddə 1) nail olunması üçün vasitələri müəyyən etməlidir. Sazişin əsas məqsədinə uyğun olaraq aşağıdakı öhdəlikləri müəyyən etmək olar:

– iştirakçılar öz səlahiyyətləri çərçivəsində və onların idarəçiliyi altında olan ərazilər daxilində görəcəyi bəzi tədbirlər üzrə qərar qəbul etməzdən öncə əvvəlcədən keçirilən məsləhətləşmə proseduruna riayət etməyi öz öhdələrinə götürürlər;

– iştirakçılar öz səlahiyyətləri və əraziləri çərçivəsində sazişin məqsədlərinə nail olmaq üçün zəruri olan tədbirlərin görülməsini öz öhdələrinə götürürlər;

– iştirakçılar bu sazişin məqsədlərinə xələl gətirməyən tədbirlərin görülməsini öz öhdələrinə götürürlər.

### Əlaqələndirmə

**Maddə 4**

4-cü maddə hər bir sazişin müəyyən hallarına və tələblərinə uyğun olaraq:

əlaqələndirmə məqsədilə 2.1 saylı nümunəvi sazişdə qeyd olunan ümumi təyinatlı qrup təyin etməklə;

hazırkı sazişin mahiyyətinə əsasən xüsusi məşvərətçi qrup yaratmaqla;

yaxud da sadəcə olaraq maraqlı hakimiyyət orqanları arasında ikitərəfli əlaqələrlə;

əlaqələndirmə üzrə tədbirlər müəyyən etməlidir.



### Barışdırma

**Maddə 5**

Qrupun hər bir üzvü (qrup olmadıqda, hər bir iştirakçı) qrup (Qrup olmadıqda, digər iştirakçı) qarşısında sazişin həyata keçirilməməsi barədə məsələ qoya bilər, xüsusən:

ilkin məsləhətləşmələr keçirilməmişdirsə;

görülən tədbirlər sazişə uyğun gəlmirsə;

sazişin məqsədlərinə nail olmaq üçün zəruri tədbirlər görülməmişdirsə.

Əgər iştirakçılar razılığa gələ bilməzsə, mübahisə Barışdırıcı Komitəyə verilir ki, o, onların öz üzərlərinə götürdükləri öhdəliklərin yerinə yetirilməsini təmin etsin.

### Nəzarətedici Orqan

**Maddə 6**

Tərəflər götürülmüş öhdəliklərin yerinə yetirilməsinə riayət edilməsini təmin edən, hər bir iştirakçı tərəfindən təyin edilən eyni saylı ekspertlərdən və təyinatı və ya təyin edilmə qaydası əvvəlcədən razılaşdırılmalı neytral ekspertdən ibarət olan xüsusi nəzarətedici orqanın yaradılması haqqında razılığa gələ bilər.

Nəzarətedici orqan sazişə riayət olunub-olunmaması barədə ümumi ictimai fikrə əsasən rəy verir.

**Maddə 7**

Sazişin iştirakçıları onun bağlanması haqqında Baş katibi məlumatlandırır və sazişin mətnini ona ötürürlər.

## 2.3. Xüsusi hüquq transsərhəd assosiasiyalarının yaradılması haqqında nümunəvi saziş

**Giriş qeydi.** Güman edilir ki, bir dövlətin yerli hakimiyyət orqanı, həmin hakimiyyət orqanının öz dövlətinin xüsusi hüquq assosiasiyasına daxil olması üçün tətbiq edilən qayda və şərtlərə uyğun olaraq, digər dövlətin xüsusi hüquq assosiasiyasına daxil ola bilər. Əgər bu, hal-hazırda mümkün deyilsə, bu cür mümkünatı maraqlı dövlətlər arasında dövlətlərarası sazişin bağlanması vasitəsilə birbaşa qaydada nəzərdə tutmaq lazımdır (bax: dövlətlərarası model sazişlər 1.3 və 1.4).

Xüsusi hüquq assosiasiyaları onların qərargahlarının yerləşdiyi dövlətin hüquq normalarına uyğun fəaliyyət göstərməlidir. Aşağıda göstərilən siyahı, müvafiq qanunvericiliyin olmadığı təqdirdə, onların nizamnaməsinə daxil edilməli müddəaları əks etdirir. Bu növ assosiasiyalara müvafiq dəyişikliklərlə, eyni zamanda məşvərətçi qruplar haqqında müddəalar tətbiq edilə bilər (bax: nümunəvi saziş 2.1).

Assosiasiyanın nizamnaməsi aşağıdakıları müəyyən etməlidir:

1. Onun təsisçi üzvləri və yeni üzvlərin üzvlüyə qəbul edilmə şərtləri;
2. Onun adı, qərargahı və (müvafiq milli qanunvericiliyi göstərməklə) hüquqi statusu;

3. Onun məqsədi, bu məqsədə nail olma qaydası və assosiasiyanın sərəncamında olan ehtiyatlar;

4. Onun orqanları və xüsusilə də onun Baş Assambleyasının funksiya və iş qaydası (təmsil olunma və səsvermə qaydası);

5. Müdiriyyətin və ya rəhbərliyin təyin edilməsi və onların səlahiyyətləri;

6. Assosiasiya üzvlərinin üçüncü şəxslərə münasibətdə öhdəliyinin həcmi;

7. Nizamnaməyə dəyişikliklərin edilmə qaydası və assosiasiyanın ləğv edilməsi;

8. İştirakçıların Avropa Şurasının Baş katibini transsərhəd assosiasiyası yaradılması barədə məlumatlandırmaq və nizamnamə mətnini ona ötürmək vəzifəsi.

### 2.4. Sərhədyanı rayonlarda yerli hakimiyyət orqanları arasında mal tədarükü və xidmətlərin göstərilməsi haqqında nümunəvi müqavilə

**Giriş qeydi.** Güman edilir ki, yerli hakimiyyət orqanları digər dövlətlərin yerli hakimiyyət orqanları ilə bu cür müqavilələr bağlamaq hüququna malikdir. Əgər bu cür hüquq yoxdursa, onda bu cür mümkünlüyü dövlətlərarası saziş çərçivəsində nəzərdə tutmaq lazımdır (bax: nümunəvi saziş 1.4).

Bu növ müqavilə yerli hakimiyyətlər tərəfindən alqı-satqı, icarə, podrat, malların tədarükü və xidmətlərin göstərilməsi, konsessiyaların yaradılması və s. məqsədlərlə istifadə oluna bilər. Yerli hakimiyyətlər tərəfindən "xüsusi hüquqi" müqavilələrin istifadə edilməsi həm milli qanunvericilik, həm də təcrübəyə əsasən müxtəlif dərəcədə mümkündür və buna görə də "ümumi hüquqi" və "xüsusi hüquqi" müqavilələr arasında fərqləndirmə aparmaq çətindir. Buna baxmayaraq, güman edilir ki, bu cür müqavilə o hallarda istifadə edilir ki, hər bir müvafiq ölkədəki üstün tutulan şərhə uyğun olaraq, bu cür müqavilə kommersiya və ya iqtisadi xarakterli əməliyyatları nəzərdə tutmuş olsun və bunların həyata keçirilməsi üçün fiziki və ya hüquqi şəxslər müqavilələr bağlaya bilsinlər.

Aşağıda göstərilən müddəalara əlavə olaraq, dövlət orqanlarının üzərinə qoyulan vəzifələri yerinə yetirən zaman yerli hakimiyyət orqanlarından müvafiq hərəkətlərin edilməsini tələb edən əməliyyatlar mövcud olduqda, nümunəvi "xüsusi hüquqi" müqavilədə nəzərdə tutulan əlavə qaydaları nəzərə almaq lazımdır (bax: 2.5).

#### Müqavilə iştirakçıları

1-ci maddə iştirakçıları (habelə müqavilənin digər yerli hakimiyyət orqanlarının iştirakı üçün açıq olub-olmamasını) müəyyən edir.

2-ci maddə müqavilə üzrə ümumi hüquqlara aid olan məsələləri və xüsusən də mənfəət əldə edənləri və müqavilənin şərtlərini müəyyən edir. Onda həmçinin lazım gəldikdə, əgər bu, müqavilənin tətbiqinə toxunursa, yuxarı hakimiyyətlərə icazələrin verilməsinə dair qeyd-şərtləri müəyyən edir.



#### Müqavilənin məqsədi

3-cü maddə aşağıdakılara istinadən müqavilənin məqsədini müəyyən edir:

- konkret məsələlər;
- coğrafi rayonlar;
- hüquqi şəxslər (bələdiyyələr, yerli hakimiyyət səlahiyyətinə malik olan milli orqanlar və s.);
- konkret hüquqi status.

4-cü maddə müqavilənin qüvvədə olma müddətini, onun müddətinin uzadılmasını və bütün bunların yerinə yetirilmə müddətlərini müəyyən edir.

#### Hüquqi rejim və maliyyə vəsaitləri haqqında müddəalar

5-ci maddə müqavilənin imzalanma və yerinə yetirilmə yerini və onun (beynəlxalq xüsusi hüquqla) hüquqi tənzimlənməsini və tətbiqə yararlı hüququ göstərir.

6-cı maddə, lazım gəldikdə, maliyyə məsələlərini (ödənişin edildiyi valyutanı və uzunmüddətli xidmətlərin göstərilməsi zamanı qiymətlərin tənzimlənmə qaydasını) və sığortanı müəyyən edir.

#### Arbitraj

7-ci maddədə, lazım gəldikdə, tətbiqetmə proseduru, habelə arbitraj proseduru nəzərdə tutulur.

Arbitraj araşdırması ilə əlaqədar arbitraj məhkəməsi aşağıdakı qaydada yaradılır:

əks maraqları olan iştirakçılardan hər biri (variant: iştirakçılardan hər birinin məhkəmə aidiyyəti olan inzibati məhkəmələrin sədrləri) arbitraj orqanında bir üzv təyin edir və iştirakçılar birgə bir və ya iki müstəqil üzv seçir ki, onların sayı tək olsun;

arbitraj orqanının üzvlərinin sayı cüt olduqda, səslər bərabər bölünməklə son səsə müstəqil üzv malik olur.

#### Müqavilənin dəyişdirilməsi və ləğv edilməsi

**Maddə 8**

8-ci maddə müqaviləyə düzəlişlərin edilməsini və ya onun ləğv edilməsini tənzimləyən qaydalar müəyyən edir.

**Maddə 9**

Müqavilə iştirakçıları müqavilənin bağlanması və ya onun ləğv edilməsi haqqında Avropa Şurasının Baş katibini məlumatlandırır.

### 2.5. Sərhədyanı rayonlarda yerli hakimiyyət orqanları arasında malların tədarükü və xidmətlərin göstərilməsi haqqında (ümumi hüquqi xarakterli) nümunəvi müqavilə

**Giriş qeydi.** Bu cür müqavilə öz müvafiq məqsəd daşımasına görə 2.4-cü bənddəki müqavilə ilə (xüsusi hüquqi müqavilələrlə) oxşardır. Bu müqavilə, daha konkret olaraq, konsessiyaya və ya əhaliyə xidmətin göstərilməsi (yaxud maraqlı tərəflərdən birində "ictimai" iş və ya xidmət kimi hesab edilən iş və ya xidmətlərə) və ya ictimai işlərə, yaxud sərhədin digər tərəfində olan hakimiyyət orqanı tərəfindən digər hakimiyyət orqanının maliyyələşməsinə aiddir. Bu cür konsessiyalardan əhaliyə xidmətin göstərilməsilə əlaqədar xüsusi risklər və öhdəliklər irəli gəlir, bu isə müqaviləyə "xüsusi və ya ümumi" xarakterli nümunəvi müqavilələrlə müəyyən edilməyən müddəaların daxil edilməsini tələb edir.

Bu kimi "transsərhəd" müqavilələr bütün ölkələrdə tətbiq edilmir. Nəticə etibarilə bu cür müqavilənin bağlanma mümkünlüyü və onların tətbiq olunma şərtləri ilk növbədə dövlətlərarası sazişlə müəyyən edilir (bax: model saziş 1.4).

Bəzi hallarda, bu cür müqavilənin tətbiqi, hüquqi xarakterli problemləri qaldıran "Yerli hakimiyyət orqanlarının transsərhəd sindikatı" (bax: 2.6) kimi birgə təşkilatın yaradılması zərurətini aradan qaldırır.

#### Müqavilənin müddəaları

Əgər müqavilə ilə ictimai əmlakın yaradılması və ya onun idarə olunması, əhaliyə xidmətin göstərilməsi və ya yerli hakimiyyət orqanına məxsus olan, hətta dövlətlərdən birində olsa belə, xidmət vasitələri nəzərdə tutulursa, müqavilədə maraqlı dövlətdə və ya maraqlı dövlətlərdə qüvvədə olan hüquq normalarına uyğun olaraq təminatlar müəyyən edilməlidir.

Müqavilədə, lazım gəldikdə, aşağıdakı konkret şərtlərə istinad edilməlidir:

1. xidmət vasitələrinin yaradılmasını və ya onların istismarını tənzimləyən qaydalara, yaxud xidmətin özünə (məsələn, qrafik, ödəmə, istifadə qaydaları və s.);
2. xidmət vasitələrinin yaradılmasının xüsusi şərtlərinə, yaxud xidmətin özünə (məsələn, lazımi icazələr, prosedurlar və s.);
3. bu cür xidmət vasitələri və ya xidmət haqqında müqavilənin şərtlərinə;
4. ictimai maraqlar naminə müqavilənin tənzimlənmə qaydasına və müvafiq maliyyə səlahiyyətinə;
5. xidmət vasitələrindən və ya xidmətdən istifadə edənlər və istismarçılar arasında yaradılmış münasibətlərə (məsələn, istifadə etmə qaydaları, ödəmə və s.);
6. müqavilədən çıxmağa, ondan imtina etməyə və ya onun ləğv edilməsinə. Bu cür xüsusi şərtlərə əlavə olaraq, 2.4-cü "xüsusi hüquqi" nümunəvi müqavilədə nəzərdə tutulan müddəalar da tətbiq edilir.



### 2.6. Yerli hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq üzrə orqanların yaradılması haqqında nümunəvi saziş

**Giriş qeydi.** Güman edilir ki, bir neçə yerli hakimiyyət orqanı birləşib qanuni əsaslarla kommunal xidmətlər üzrə müəssisələrin və digər növ xidmətlərin göstərilməsi və ya xidmət vasitələri üçün müəssisələrin yaradılması məqsədilə təşkilatlar yarada bilər.

Bu cür assosiasiya və ya sindikatın yaradılması və işi əsasən tətbiq olunan hüquqdan və bu cür əməkdaşlıq formasını nəzərdə tutan, əvvəl bağlanmış dövlətlərarası sazişin müddəalarından asılı olacaq (bax: nümunəvi saziş 1.5).

Əgər aşağıda göstərilən müddəalar artıq tətbiq edilən hüquqda göstərilmirsə, onlar bu cür müəssisənin nizamnaməsinə daxil olunmalıdır.

Digərlərindən savayı, təşkilatın nizamnaməsində həm də aşağıdakılar göstərilməlidir:

1. təşkilatı təsis edən üzvlərin adı və yeni üzvlərin üzvlüyə qəbul edilmə şərtləri;
2. təşkilatın adı, qərargahı, fəaliyyət müddəti və (ona bu cür statusu verən hüququ göstərməklə) hüquqi statusu;
3. təşkilatın məqsədi, bu məqsədə nail olma qaydası və onun sərəncamında olan ehtiyatlar;
4. ilkin təsis kapitalının formalaşma qaydası;
5. təşkilat üzvlərinin öhdəliklərinin həcmi və hüdudu;
6. müdiriyyət və rəhbərlik heyətinin vəzifəyə təyin və azad olunma qaydaları, habelə onların səlahiyyətləri;
7. təşkilatın öz üzvləri, üçüncü şəxslər və yuxarı hakimiyyət orqanları ilə münasibəti, xüsusilə də onlara büdcə, balans və hesabatlar haqqında məlumatın təqdim edilməsi;
8. təşkilatın fəaliyyətilə əlaqədar maliyyə və texniki nəzarət üçün məsul olan şəxslər və bu cür nəzarət haqqında hesabat;
9. təşkilatın nizamnaməsinə düzəlişlər edilmə və təşkilatın buraxılma qaydası;
10. heyətin işini tənzimləyən qaydalar;
11. təşkilatın işlək dillərinə dair qaydalar.

## Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasına ƏLAVƏ PROTOKOL

***Strasburq, 9.11.1995-ci il***

Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasına əlavə (bundan sonra "Çərçivə Konvensiyası" adlanacaq) olan bu protokolu imzalayan Avropa Şurası üzvü olan dövlətlər

sərhəd ərazilərində ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlığın əhəmiyyətini təsdiq edərək;

ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlığı təmin etmək məqsədilə müəyyən tədbirlər həyata keçirilməsi əzmində olaraq;

sərhəd ərazilərində yerləşən ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlığı inkişaf etdirmək və genişləndirməyə niyyət edərək;

Çərçivə Konvensiyasını Avropada aktual vəziyyətlə uyğunlaşdırmaq tələbatını müəyyən edərək;

ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlığı gücləndirmək məqsədilə Çərçivə Konvensiyasını mükəmməlləşdirməyi müvafiq hesab edərək;

Yerli özünüidarə haqqında Avropa Xartiyasını nəzərə alaraq;

Nazirlər Komitəsinin Avropa Şurasının 40-cı ildönümü münasibətilə qəbul etdiyi transsərhəd əməkdaşlıq haqqında Bəyannamənin, digər işlər arasında transsərhəd layihələrin inkişafını dayandıran inzibati, hüquqi, siyasi və psixoloji maneələri aradan qaldırmağa çağırdığını yadda saxlayaraq,

aşağıdakı əlavə müddəalar üzrə razılığa gəlmişlər:

**Maddə 1**

1. Razılığa gələn hər bir tərəf öz yurisdiksiyası altında olan və Model Konvensiyanın 1 və 2-ci maddələrində istinad edilən ərazi icmalarının və hakimiyyət orqanlarının digər dövlətlərin ekvivalent sahələrdə ərazi icmaları və hakimiyyət orqanları ilə, onların nizamnamələrinə, milli qanunvericiliyinə və Tərəfin beynəlxalq öhdəliklərinə uyğun gələn transsərhəd əməkdaşlıq sazişini bağlamaq hüququnu tanıyır və ona hörmət edir.

2. Transsərhəd əməkdaşlıq sazişi yalnız bu sazişi imzalayan hakimiyyət orqanları və ərazi icmalarının məsuliyyətinə səbəb olur.

**Maddə 2**

Transsərhəd əməkdaşlıq sazişi üzrə birgə olaraq qəbul edilən qərarlar, ərazi icmalarının və hakimiyyət orqanlarının öz milli qanunvericiliyinə uyğun olaraq, öz milli hüquq sistemləri əsasında onların özləri tərəfindən yerinə yetirilməlidir. Yerinə yetirilən qanunlar bu birliklər və ya yerli hakimiyyətin milli hüquq sistemləri əsasında görülən tədbirlərə əsasən eyni hüquqi qüvvəyə və təsirə malikdir.

**Maddə 3**

Ərazi icmaları və hakimiyyət orqanları arasında bağlanan transsərhəd saziş hüquq subyektliyinə malik olan və ya olmayan transsərhəd əməkdaşlıq orqanını yarada bilər. Saziş istənilən şəxsi təfsilatı ilə müəyyən etməli, burada qeyd olunan məsuliyyətləri və milli qanunvericiliyin müddəalarını təyin etməli və saziş ərazi icmalarının və hakimiyyət orqanlarının aid olan sazişi imzaladıqları milli hüquq sistemləri əhatəsində ictimai və ya şəxsi varlıq kimi qəbul edilməlidir.



**Maddə 4**

1. Transsərhəd əməkdaşlıq orqanının hüquq subyektliyini onun daxili qanunvericiliyinə uyğun olaraq transsərhəd sazişin tərəfi olan ərazi icmaları və ya yerli hakimiyyətə malik tərəflər tanıyırlar.

2. Transsərhəd əməkdaşlıq orqanı təyin edildiyi milli qanunvericilikdə təmin edilən üsula və məqsədlərə müvafiq olaraq, ərazi icmalarının və ya yerli hakimiyyətin təyin etdiyi səlahiyyətləri həyata keçirir. Beləliklə:

a) transsərhəd əməkdaşlıq orqanı tərəfindən olan fəaliyyət öz nizamnaməsi və mərkəz dövlətin qanunları ilə idarə olunur;

b) transsərhəd əməkdaşlıq orqanına şəxslərin azadlığı və hüquqlarına təsir edə bilən və ya geniş surətdə tətbiq edilən tədbirlər həyata keçirmək səlahiyyəti verilməməlidir;

c) transsərhəd əməkdaşlıq orqanı ərazi icmaları və hakimiyyət orqanlarının büdcəsindən maliyyələşdirilir. Ona maliyyənin yığılmasını təyin etmək hüququ verilməməlidir. Müvafiq olan zaman, ərazi icmaları və yerli hakimiyyət, istifadəçilər və ya 3-cü tərəf üçün təmin olunan xidmətlərə görə gəlir qəbul etmək olar.

d) transsərhəd əməkdaşlıq orqanı illik qiymətləndirilən büdcəyə malik olmalı və sazişdə tərəf olan ərazi icmaları və hakimiyyəti müstəqil auditorlar tərəfindən qəbul olunan balans-hesabı müəyyən edə bilərlər.

**Maddə 5**

1. Razılığa gələn tərəflər, milli qanunvericilik və mümkünsə, belə bir qərara gələ bilərlər ki, transsərhəd əməkdaşlıq orqanı ümumi qanuni müəssisədir və razılığa gələn tərəflərin hüquq sisteminə görə irəli sürülən istənilən tədbir sazişi imzalayan ərazi icmaları və yerli hakimiyyət tərəfindən irəli sürülən bir tədbir kimi eyni hüquqi qüvvəyə və təsirə malik olmalıdır.

2. Lakin saziş qarşıya belə bir şərt qoya bilər ki, tədbirlərin insanların hüquqlarına, azadlıqlarına və maraqlarına təsir edə bilən yerlərdə belə tədbirlərin həyata keçirilməsi saziş imzaları, ərazi icmaları və yerli hakimiyyət üçündür. Bundan əlavə, hər bir müqaviləni imzalayan tərəf ümumi məsuliyyətlərin transsərhəd əməkdaşlıq orqanına aid edilməməsini və bu orqana ümumi şəkildə tətbiq olunan tədbirlərin həyata keçirilməsi hüququnun verilməməsini təmin edə bilər.

**Maddə 6**

1. Transsərhəd əməkdaşlıq sazişi əsasında ərazi icmaları və yerli hakimiyyət tərəfindən görülən tədbirlər sazişi imzalayan ərazi icmaları və yerli hakimiyyət tərəfindən irəli sürülən hər hansı tədbirə görə razılığa gələn hər bir tərəfin verdiyi qanun kimi eyni nəzarətə malik olmalıdır.

2. Transsərhəd əməkdaşlıq orqanı tərəfindən saziş əsasında irəli sürülən tədbirlər orqanın mərkəzinin yerləşdiyi dövlətin qanunlarında və eyni zamanda digər dövlətlərin ərazi icmalarının və yerli hakimiyyətinin maraqlarını nəzərdə saxlayaraq, təmin edilən nəzarətə aiddir. Transsərhəd əməkdaşlıq orqanı ərazi icmaları-

nın və yerli hakimiyyətin aid olduğu dövlətlərin yerli hakimiyyəti tərəfindən irəli sürülən məlumat sorğusunu yerinə yetirməlidir. Razılığa gələn tərəflərin nəzarət etdiyi yerli hakimiyyət müvafiq koordinasiya və məlumat vasitələrini təsis etmək üçün cəhd göstərməlidir.

3. Maddə 5-in 1-ci paraqrafında istinad edildiyi kimi, orqan tərəfindən həyata keçirilən tədbirlər sazişi imzalayan ərazi icmaları və yerli hakimiyyət tərəfindən həyata keçirilən hər hansı tədbirə görə müqaviləni imzalayan hər bir tərəfin verdiyi qanun kimi, eyni nəzarətə malik olmalıdır.

**Maddə 7**

Transsərhəd əməkdaşlıq orqanının fəaliyyətindən yaranan hər hansı mübahisənin həlli üçün daxili qanunvericilik və ya beynəlxalq saziş əsasında səlahiyyətə malik olan məhkəməyə müraciət olunmalıdır.

**Maddə 8**

1. Razılığa gələn hər bir tərəf protokol imzalanarkən və ya təsdiq, ratifikasiya və ya qəbul edilmə sənədlərini saxlanca verərkən 4 və 5-ci maddələrin müddəalarını və ya yalnız bu maddələrdən birinin müddəalarını tətbiq edəcəyini bəyan edir.

2. Bu bəyannamə istənilən sonrakı vaxtda dəyişdirilə bilər.

**Maddə 9**

Bu protokolun müddəalarına heç bir qeyd-şərt edilə bilməz.

**Maddə 10**

1. Bu protokol Çərçivə Konvensiyasını imzalayan dövlətlərin imzalamaları üçün açıqdır, onlar razılıqlarını həm:

a. ratifikasiya, qəbul və ya təsdiqetmə kimi qeyd-şərt olmadan imza etməklə, həm də

b. ratifikasiya, qəbul və ya təsdiqi tələb edən qeyd-şərtlə imza etməklə bildirirlər.

2. Avropa Şurası üzvü olan dövlətlər Çərçivə Konvensiyasının ratifikasiyası, təsdiqi və ya qəbul edilməsi haqqında sənədləri təhvil verməyənə kimi və ya eyni vaxtda protokolu ratifikasiya, və ya qəbul etmə şərtilə imzalaya və ya ratifikasiya, qəbul və ya təsdiq sənədlərini təhvil verə bilməzlər.

3. Ratifikasiya, qəbul və ya təsdiq etmə haqqında sənədlər Avrova Şurasının Baş katibinə təhvil verilir.

**Maddə 11**

1. Bu protokol 10-cu maddənin müddəalarına müvafiq olaraq, Avropa Şurasının üzvü olan 4 dövlət protokl ilə bağlılığına razılığını ifadə etdiyi tarixdən 3 ay keçdikdən sonra qüvvəyə minir.

2. Bu protokol, sonradan onunla bağlı olmaq razılığını ifadə edən hər hansı üzv dövlətə gəldikdə isə, protokol imzalandığı gündən və ya ratifikasiya, qəbul və ya təsdiq haqqında sənədlər təhvil verildiyi tarixdən 3 ay keçdikdən sonra qüvvəyə minir.



**Maddə 12**

1. Bu protokol qüvvəyə mindiyi andan Çərçivə Konvensiyasına qoşulan istənilən dövlət eyni zamanda protokola qoşula bilər.

2. Qoşulma, Avropa Şurası Baş katibinə qoşulma sənədinin verilməsindən 3 ay keçdikdən sonra etibarlı hesab edilir.

**Maddə 13**

1. Müqavləni imzalayan hər hansı tərəf istənilən zaman Avropa Şurasının Baş katibinə ünvanlanan bildiriş vasitəsilə bu protokolu ləğv edə bilər.

2. Bu ləğv etmə Baş katib tərəfindən bildirişin qəbulundan sonra 6 ay müddətində təsirli hesab edilir.

**Maddə 14**

Avropa Şurasının Baş katibi üzvü olan dövlətləri və protokola daxil edilən hər hansı dövləti aşağıdakılar barəsində məlumatlandırmalıdır:

a. maddə 8-ə müvafiq olaraq, müqaviləni imzalayan tərəflərin təqdim etdikləri hər hansı bəyannamə barəsində;

b. hər hansı imza barəsində;

c. ratifikasiya, qəbul, təsdiq və ya qoşulma haqqında sənədlərin verilməsi barəsində;

d. maddə 11 və 12-yə müvafiq olaraq, bu protokolun qüvvəyə minmə tarixi barəsində;

e. bu protokolla əlaqədar hər hansı digər tədbirlər, bildiriş və ya əlaqə barəsində.

Aşağıda imza edənlərin şahidliyilə bu protokol imzalandı.

Strasburqda, 1995-ci noyabrın 9-da ingilis və fransız dillərində hər iki mətn eyni qüvvəyə malik olmaqla bir nüxsədə imzalanmışdır. Həmin nüsxə Avropa Şurasının arxivində saxlanılır. Avrpa Şurasının Baş katibi təsdiq olunmuş nüsxələri Avropa Şurasının üzvü olan dövlətlərin hər birinə və bu Protokola qoşulmağa dəvət olunan istənilən dövlətə göndərməlidir.

## Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasına 2 saylı PROTOKOL

Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasının 2 saylı Protokolunu imzalayan, Avropa Şurası üzvü olan dövlətlər,

1995-ci il noyabrın 9-da, sərhədyanı rayonlarda əməkdaşlıq çərçivəsində fəaliyyətin hüquqi nəticələrinə və sərhədyanı rayonlarda əməkdaşlıq haqqında sazişlərə uyğun olaraq yaradıla biləcək bu cür əməkdaşlığın inkişafı üzrə təşkilatların hüquqi statusuna aid olan Çərçivə Konvensiyasına Əlavə Protokolun imzalanmasını nəzərə alaraq,

ərazi icmaları və yerli hakimiyyətlərin öz funksiyalarının daha da səmərəli yerinə yetirilməsi üçün nəinki sərhədyanı dövlətlərin qonşu rayonları (sərhədyanı rayonlarda əməkdaşlıq), həm də ümumi sərhədi olmayan dövlətlərin regionları ilə fəal əməkdaşlıq etməsini, eləcə də birgə maraqların olmasını və bütün bunların yalnız sərhədyanı əməkdaşlıq üzrə təşkilatlar və ərazi icmaları və yerli hakimiyyətlərin assosiasiyaları çərçivəsində deyil, həmçinin ikitərəfli əməkdaşlıq kontekstində həyata keçirildiyini nəzərə alaraq,

Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1993-cü il tarixli Vyana bəyannaməsini, sərhədyanı rayonlarda ərazi icmaları və ya yerli hakimiyyətlər arasında əməkdaşlığın köməyilə tolerant və çiçəklənən Avropanın yaradılması prosesində onun rolunu xatırladaraq,

Avropada transsərhəd əməkdaşlıq sahəsində Avropa Çərçivə Konvensiyasına uyğun olan digər sənədin olmamasını qeyd edərək,

bu cür əməkdaşlıq üçün beynəlxalq səviyyədə hüquqi bazanın yaradılmasını arzulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Bu protokolda "transsərhəd əməkdaşlıq" dedikdə, sərhədyanı rayonlarda qonşu olan ərazi icmaları arasında əməkdaşlıq münasibətlərindən fərqli olaraq razılığa gələn bir və ya bir neçə tərəfin ərazi icmaları və hakimiyyətləri arasında əlaqələrin yaradılması məqsədilə razılaşdırılmış istənilən formalı hərəkətlər, o cümlədən digər dövlətlərin ərazi icmaları və yerli hakimiyyətlərilə sazişlərin bağlanması başa düşülür.

**Maddə 2**

1. Razılığa gələn hər bir tərəf ərazi icmalarının və yerli hakimiyyətlərin, onların yurisdiksiyasından irəli gələn və ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasının (bundan sonra "Çərçivə Konvensiyası") 1 və 2-ci maddələrində qeyd olunan hüquqlarını tanıyır və onlara riayət edir. Bu hüquqlar, münasibətlərin saxlanılmasını və onların nizamnamələrində, milli qanunvericiliklərində nəzərdə tutulan prosedurlara uyğun olaraq onların ümumi səlahiyyətlərinə aid olan sahələrdə əməkdaşlıq haqqında ərazilərarası sazişlərin bağlanmasını nəzərdə tutur.

2. Ərazilərarası əməkdaşlıq haqqında saziş, yalnız onu bağlamış ərazi icmaları və ya yerli hakimiyyətlər üçün hüquqi nəticələrə səbəb olur.

**Maddə 3**

Razılığa gələn tərəflər transsərhəd əməkdaşlıqda Çərçivə Konvensiyasını bu protokol çərçivəsində *mutatis mutandis* tətbiq edəcəklər (*mutatis mutandis* – müvafiq dəyişikliklərlə – tərcüməçinin qeydi).



**Maddə 4**

Bu protokol çərçivəsində razılığa gələn tərəflər eyni zamanda Çərçivə Konvensiyasına əlavə protokol çərçivəsində də razılığa gələn tərəflər kimi çıxış edir və əlavə protokolu transsərhəd əməkdaşlığa mutatis mutandis tətbiq edirlər.

**Maddə 5**

Bu protokolda *"mutatis mutandis"* ifadəsi işlətdikdə Çərçivə Konvensiyasında və ona əlavə protokolda "sərhədyanı rayonlarda əməkdaşlıq" termininin "transsərhəd əməkdaşlıq" kimi oxunacağı və Çərçivə Konvensiyasının və ona əlavə protokolun maddələrinin, əgər bu protokolda başqa cür şərt edilməzsə, ona tətbiq olunacağı başa düşülür.

**Maddə 6**

Razılığı gələn hər bir tərəf Çərçivə Konvensiyası və ona əlavə protokol çərçivəsində protokolu imzalayarkən və ya ratifikasiya fərmanını, onun qəbul və ya təsdiq edilməsi haqqında sənədlərini saxlanca verərkən, bu protokolun 4-cü maddəsinə əsasən əlavə protokolun 4-cü və 5-ci maddələrini və ya bu maddələrdən birinin tətbiq edilib-edilməməsini göstərə bilər.

2. Bu cür bəyanat, Avropa Şurasının Baş katibinə müvafiq müraciət göndərməklə sonradan istənilən zaman dəyişdirilə bilər.

**Maddə 7**

Bu protokolun müddəalarına münasibətdə heç bir qeyd-şərt edilə bilməz.

**Maddə 8**

Bu protokol, öz razılığını aşağıdakı qaydada bildirən və Çərçivə Konvensiyasını imzalamış bütün dövlətlər tərəfindən imzalanmaq üçün açıqdır:

a) ratifikasiya, qəbul və ya təsdiqi tələb edən qeyd-şərti etmədən imzalama; və ya

b) sonradan ratifikasiya, qəbul və ya təsdiq etmək vəzifəsilə ratifikasiya, qəbul və ya təsdiq etməklə imzalama.

2. Avropa Şurasının üzvü olan dövlət, əgər o, hələ Çərçivə Konvensiyasının ratifiksiya, qəbul və ya təsdiqi haqqında sənədi saxlanca verməmişdirsə, onda o, ratifikasiya, qəbul və ya təsdiq etmə zərurəti haqqında qeyd-şərt etmədən bu Protokolu imzalaya və ya Protokolun ratifikasiya, qəbul və ya təsdiq olunması haqqında sənədlərini saxlanca verə bilməz.

3. Ratifikasiya fərmanları, qəbul və ya təsdiq etmə haqqında sənədlər Avropa Şurasının Baş katibinə saxlanca verilir.

**Maddə 9**

1. Bu protokol, Avropa Şurasının üzvü olan ən azı dörd dövlətin 8-ci maddəyə uyğun olaraq bu protokola qoşulması barədə öz razılığını bildirdiyi gündən üç ay sonra qüvvəyə minir.

2. Bu protokola sonradan qoşulmaq razılığını ifadə edən istənilən dövlətə münasibətdə protokol, onun imzalandığı gündən və ya onun ratifikasiya, qəbul və ya təsdiq edilməsi haqqında sənədlərin saxlanca verildiyi gündən üç ay sonra qüvvəyə minir.

**Maddə 10**

1. Bu protokol qüvvəyə mindikdən sonra Çərçivə Konvensiyasına qoşulmuş istənilən dövlət həm də bu protokola qoşula bilər.

2. Protokola qoşulma, Avropa Şurasının Baş katibinə protokola qoşulma haqqında sənədin saxlanca verilməsindən sonra baş verir, o da onun saxlanca verilməsindən üç ay sonra qüvvəyə minir.

**Maddə 11**

1. Razılığa gələn hər bir tərəf Avropa Şurasının Baş katibinə bildiriş göndərməklə bu protokolu istənilən zaman denonsasiya edə bilər.

2. Denonsasiya, Avropa Şurasının Baş katibi müvafiq bildirişi aldığı tarixdən altı ay sonra qüvvəyə minir.

**Maddə 12**

Avropa Şurasının Baş katibi Avropa Şurasının üzvü olan dövlətlərə və bu protokola qoşulmuş bütün dövlətlərə aşağıdakıları bildirir:

a) 6-cı maddəyə uyğun olaraq razılığa gələn tərəflərdən alınan bütün müraciətlər barədə;

b) bu protokolun bütün imzalanma faktı barədə;

c) istənilən ratifikasiya, qəbul və ya təsdiqetmə və ya protokola qoşulma haqqında sənədlər barədə;

d) 9-cu və ya 10-cu maddələrə uyğun olaraq bu protokolun qüvvəyə minmə tarixi barədə;

e) bu protokola aidiyyəti olan hər hansı bir digər hərəkət, bildiriş və ya məlumatlar barədə.

Bunun təsdiqi olaraq, buna lazımi qaydada səlahiyyətləndirilmiş aşağıdakı imza edənlər bu protokolu imzaladılar.

Strasburqda ingilis və fransız dillərində imzalanmışdır, hər iki mətn bir nüsxədə eyni qüvvəyə malikdir, həmin nüsxə Avropa Şurasının arxivinə saxlanca verilir. Avropa Şurasının Baş katibi bu protokolun təsdiq olunmuş surətlərini Avropa Şurasının üzvü olan hər bir dövlətə və bu protokola qoşulmaq üçün dəvət almış digər istənilən dövlətə lazımi qaydada ötürür.



## I. "Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında" Avropa Çərçivə Konvensiyasına (Madrid, 21 may 1980-ci il) dair

## BƏYANATLAR

1. Konvensiyanın 3-cü maddəsinin 2-ci hissəsinə əsaslanaraq Azərbaycan Respublikası bəyan edir ki, konvensiya yalnız Azərbaycan Respublikası ilə bu konvensiyanın iştirakçısı olan digər dövlət arasında müvafiq beynəlxalq saziş mövcud olduqda tətbiq ediləcək.

2. Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində konvensiyanın müddəalarının yerinə yetirilməsinə işğal olunmuş ərazilər azad olunana qədər təminat vermək iqtidarında deyildir (işğal olunmuş ərazilərin sxematik xəritəsi əlavə olunur).

## II. "Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında" Avropa Çərçivə Konvensiyasına əlavə protokola (Strasburq, 9 noyabr 1995-ci il) dair

## BƏYANATLAR

1. Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində əlavə protokolun müddəalarının yerinə yetirilməsinə işğal olunmuş ərazilər azad olunana qədər təminat vermək iqtidarında deyildir (işğal olunmuş ərazilərin sxematik xəritəsi əlavə olunur).

2. Əlavə Protokolun 8-ci maddəsinin 1-ci bəndinə müvafiq olaraq Azərbaycan Respublikası bəyan edir ki, o, yalnız 4-cü maddənin müddəalarını tətbiq edəcəkdir.

## III. "Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında" Avropa çərçivə Konvensiyasına 2 saylı Protokola (Strasburq, 5 may 1998-ci il) dair

## BƏYANATLAR

1. Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində 2 saylı protokolun müddəalarının yerinə yetirilməsinə işğal olunmuş ərazilər azad olunana qədər təminat vermək iqtidarında deyildir (işğal olunmuş ərazilərin sxematik xəritəsi əlavə olunur).

2 saylı protokolun 6-cı maddəsinin 1-ci bəndinə müvafiq olaraq Azərbaycan Respublikası bəyan edir ki, o, yalnız əlavə protokolun 4-cü maddəsinin müddəalarını tətbiq edəcəkdir.

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNLARI

## Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının Qanunu

*(2 iyul 1999-cu il, № 698-IQ)*

***Əlavə və dəyişikliklər:***

*1. 12 oktyabr 2001-ci il, № 193-IIQD, q.m.t. 28.11.2001*
*2. 12 oktyabr 2001-ci il, № 197-IIQD, q.m.t. 01.12.2001*
*3. 23 aprel 2002-ci il, q.m.t. 12.05.2002*
*4. 03 dekabr 2002-ci il, q.m.t. 15.01.2003*
*5. 03 dekabr 2002-ci il, q.m.t. 16.01.2003*
*6. 25 mart 2003-cü il, q.m.t. 07.06.2003*
*7. 30 dekabr 2003-cü il, q.m.t. 01.02.2004*
*8. 09 mart 2004-cü il, q.m.t. 14.04.04*
*9. 09 aprel 2004-cü il, q.m.t. 14.05.2004*
*10. 20 aprel 2004-cü il, q.m.t. 20.06.2004*
*11. 30 dekabr 2004-ci il, q.m.t. 10.02.2005*
*12. 23 dekabr 2005-ci il, q.m.t. 16.02.2006*
*13. 10 oktyabr 2006-cı il, q.m.t. 01.12.2006*
*14. 20 oktyabr 2006-cı il, q.m.t. 30.12.2006*
*15. 09 oktyabr 2007-ci il, q.m.t. 29.11.2007*
*16. 23 oktyabr 2007-ci il, q.m.t. 29.11.2007*
*17. 25 aprel 2008-ci il, q.m.t. 09.05.2008*

***Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq bu qanun yerli özünüidarəni həyata keçirən bələdiyyələrin yaradılması prinsiplərini, rolunu, yerli özünüidarənin hüquqi, iqtisadi və maliyyə əsaslarını, onun həyata keçirilməsi üçün dövlət təminatlarını müəyyənləşdirir.***

### *I fəsil*
### Ümumi müddəalar

**Maddə 1. Yerli özünüidarə anlayışı**

*Azərbaycan Respublikasında yerli özünüidarə vətəndaşların fəaliyyətinin təşkilinin elə bir sistemidir ki, bu sistem onlara qanun çərçivəsində yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək hüququnu həyata keçirmək və yerli əhalinin mənafeyi naminə Azərbaycan Respublikası Konstitusiyasının 144-cü maddəsinin II hissəsinə uyğun olaraq dövlət işlərinin bir hissəsini yerinə yetirmək imkanı verir. (11)* Bu *hüquqları (11)* qanunla müəyyən edilmiş qaydada ümumi,



bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilmiş bələdiyyə üzvlərindən ibarət nümayəndəli kollegial orqanlar (bələdiyyələr) və ya vətəndaşların yığıncaqları həyata keçirirlər. Bələdiyyələr öz vəzifələrini yerinə yetirmək məqsədi ilə onların qarşısında məsuliyyət daşıyan, daimi fəaliyyət göstərən icra strukturları yarada bilərlər.

**Maddə 2. Əsas anlayışlar**

1. **Bələdiyyə** – qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Bələdiyyənin öz *mülkiyyəti və yerli büdcəsi (11)* olur və o, Azərbaycan Respublikasının Konstitusiyası ilə və bu qanunla səlahiyyətlərinə aid edilmiş yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir. Bələdiyyələr bərabərlik əsasında qurulur və fəaliyyət göstərirlər.

2. ***Bələdiyyə orqanları*** *- səlahiyyətləri çərçivəsində yerli əhəmiyyətli məsələləri həll etmək üçün bələdiyyə qulluğunun təşkili məqsədilə bələdiyyə tərəfindən yaradılan və dövlət orqanları sisteminə daxil olmayan orqanlardır. (11)*

3. **Yerli əhəmiyyətli məsələlər** - bələdiyyə əhalisinin həyat fəaliyyətinin bilavasitə təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyənləşdirilən məsələlərdir.

4. **Yerli rəy sorğusu** - yerli əhəmiyyətli məsələlər barəsində vətəndaşların rəyinin öyrənilməsidir.

5. *Çıxarılıb. (11)*

6. **Bələdiyyə orqanlarının vəzifəli şəxsi** - yerli özünüidarə orqanlarında təşkilatçılıq-sərəncamçılıq funksiyalarını yerinə yetirən və dövlət qulluqçuları kateqoriyasına aid olmayan, kontrakt (əmək müqaviləsi) üzrə işləyən şəxsdir.

7. **Bələdiyyə mülkiyyəti** - bələdiyyəyə mənsub olan bütün növ daşınar və daşınmaz əmlakdır.

8. ***Yerli vergilər (bələdiyyə vergiləri)*** *- Azərbaycan Respublikasının Vergi Məcəlləsi və "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən və bələdiyyələrə ödənilən vergilərdir. (5)*

*8.1.* ***Yerli ödənişlər*** *- "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən bələdiyyələr tərəfindən müəyyənləşdirilən, habelə yerli rəy sorğularının nəticələri əsasında həyata keçirilən məqsədli layihələrin maliyyələşdirilməsi üçün hüquqi və fiziki şəxslərin ödədikləri könüllü birdəfəlik ödənişlərdir. (5)*

9. **Bələdiyyə qulluğu** - yerli özünüidarə orqanlarının səlahiyyətlərini icra etmək üçün həmin orqanlarda daimi peşə fəaliyyətidir.

10. **"Bələdiyyə"** və **"yerli özünüidarə"** terminləri və bunların iştirakı ilə düzələn söz birləşmələri bələdiyyə, onların orqanları, yerli özünüidarə funksiyalarının həyata keçirilməsi ilə bağlı olan müəssisə, idarə və təşkilatlar, mülkiyyət obyektləri və başqa obyektlər barəsində, habelə əhali tərəfindən yerli özünüidarənin həyata keçirilməsi ilə əlaqədar digər hallarda işlədilir.

**Maddə 3. Azərbaycan Respublikası vətəndaşlarının yerli özünüidarəni həyata keçirmək hüququ**

1. Azərbaycan Respublikasının vətəndaşları yaşadıqları ərazilərdə yerli özünüidarə hüququnu bələdiyyələrə seçkilər, öz iradəsini birbaşa ifadə etmək, rəy sorğusu, müstəqil fikir söyləmək, təkliflər vermək vasitəsilə və digər formalarda həyata keçirirlər.

2. Vətəndaşlar irqindən, milliyyətindən, cinsindən, dilindən, mənşəyindən, əmlak və vəzifə mövqeyindən, dinə münasibətindən, əqidəsindən, peşəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə münasibətindən asılı olmayaraq, yerli özünüidarəni həm bilavasitə, həm də öz nümayəndələri vasitəsilə həyata keçirə bilərlər.

3. Azərbaycan Respublikası vətəndaşlarının yerli özünüidarə orqanlarına seçmək və seçilmək hüququ vardır.

4. Bələdiyyə qulluğu Azərbaycan Respublikasının vətəndaşları üçün eyni dərəcədə müyəssərdir.

5. Hər bir vətəndaşın bələdiyyələrə, bələdiyyə orqanlarına və onların vəzifəli şəxslərinə müraciət etmək hüququ vardır.

6. Bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri insan və vətəndaş hüquqlarına və azadlıqlarına bilavasitə aid sənəd və materiallarda hər bir vətəndaşın tanış olmaq, habelə qanunla xüsusi hallar nəzərdə tutulmayıbsa, bələdiyyələrin fəaliyyəti haqqında tam məlumat almaq imkanını təmin etməyə, seçicilərin tapşırıqlarını yerinə yetirməyə borcludurlar.

**Maddə 4. Yerli sosial müdafiə və sosial inkişaf proqramları**

1. Yerli sosial müdafiə proqramları bələdiyyə tərəfindən müəyyən edilən vətəndaşlar kateqoriyasına dövlət sosial təminatından əlavə sosial təminatlar müəyyən edir. Həmin təminatlar mütəmadi və birdəfəlik ola bilər.

2. Yerli sosial müdafiə və sosial inkişaf proqramlarında məqsəd dövlətin həyata keçirdiyi sosial inkişaf proqramlarında nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli sosial inkişaf məsələlərini həll etməkdir. Həmin proqramlar məktəblərdə tərbiyə, təhsil, səhiyyə, mədəniyyət, yaşayış və qeyri-yaşayış binalarının saxlanılması və istifadə edilməsi, sanitariya müəssisələrinin təşkili, saxlanılması və inkişafı, mənzil tikintisi, yerli əhəmiyyətli su mənbələrindən istifadə, su təchizatının və kanalizasiya təsərrüfatının təşkili, saxlanılması və inkişafı, yanacaq təchizinin və satışının təşkili, yerli əhəmiyyətli yolların tikilməsi və saxlanılması, *(16)* yerli nəqliyyat və rabitə xidmətinin təşkili, ticarət, ictimai iaşə və məişət xidmətinin təşkilinə şərait yaradılması, mədəniyyət müəssisələrinin inkişafına yardım göstərilməsi, tarix və mədəniyyət abidələrinin saxlanılması, informasiya xidmətinin təşkili, kütləvi informasiya vasitələrinin fəaliyyəti üçün şərait yaradılması, kimsəsizlərə, xəstələrə, qocalara, maddi imkansızlara, valideyn himayəsindən məhrum olmuş, həmçinin istedadlı uşaqlara əlavə yardım, fiziki tərbiyə və idmanın inkişafına yardım göstərilməsi, əhalinin məşğulluğuna, adamların peşələri üzrə işlə təmin olunmasına, *gənclərin sosial hüquqi müdafiəsinə, (6)* ***ailə kəndli təsərrüfatının inkişafına (13)*** kömək göstərilməsi və yerli infrastrukturun digər sahələrini əhatə edə bilər.

*Yerli sosial müdafiə və sosial inkişaf proqramlarında mütəmadi olaraq mövcud qəbiristanlıqların qorunması, abadlaşdırılması, yeni qəbiristanlıq sahələrinin ayrılması, yas mərasimlərinin keçirilməsi üçün nəzərdə tutulmuş tikililərin təmiri və yenilərinin inşası, mərasim xidmətlərinin, o cümlədən bələdiyyənin ərazisində yaşayan əhalinin aztəminatlı təbəqəsindən olan mərhumların dəfn və yas mərasimlərinin təşkilinə yardım göstərilməsi nəzərdə tutulmalıdır. (16)*

3. Yerli sosial müdafiə və sosial inkişaf proqramlarını həyata keçirərkən bələdiyyələr bu maddənin 2-ci bəndində göstərilən məsələlər üzrə dövlət orqanlarının müvafiq proqramlarının həyata keçirilməsinə müdaxilə edə bilməzlər.

**Maddə 5. Yerli iqtisadi inkişaf proqramları**

1. Yerli iqtisadi inkişaf proqramlarından məqsəd dövlətin həyata keçirdiyi iqtisadi inkişaf proqramlarında nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli iqtisadi inkişaf məsələlərini həll etməkdir. Həmin proqramlar aqrar, sənaye, rabitə, nəqliyyat və digər sahələri əhatə edə bilər.

Yerli iqtisadi inkişaf proqramlarında bələdiyyə torpaqlarında və dövlətin bələdiyyələrə verdiyi əmlakdan səmərəli istifadə yolları göstərilir.

2. Yerli iqtisadi inkişaf proqramlarını həyata keçirərkən bələdiyyələr dövlət orqanlarının səlahiyyətlərinin həyata keçirilməsinə müdaxilə edə bilməzlər.

**Maddə 6. Yerli ekoloji proqramlar**

1. Yerli ekoloji proqramlardan məqsəd dövlətin həyata keçirdiyi ekoloji proqramlarda nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli ekoloji təmizlik məsələlərinin həllinə yerli əhalinin hamılıqla cəlb edilməsidir. Həmin proqramlara yerli şəraitdə mövcud olan ekoloji tarazlığın qorunub saxlanılması, bələdiyyə ərazisinin yaxşılaşdırılması və abadlaşdırılması, məişət tullantılarının *yığılması, nəql edilməsi, zərərsizləşdirilməsi, emalı və bu sahədə başqa məsələlərin həlli üçün tədbirlər görülməsi (11)*, suyun, havanın, torpağın hər cür çirklənmədən qorunması, qonşu bələdiyyələrlə birgə ekoloji tədbirlərin həyata keçirilməsi və yerli əhəmiyyətli digər tədbirlər daxil edilə bilər.

2. Bələdiyyələr dövlətin ekoloji proqramları ilə yerli ekoloji proqramların əlaqələndirilməsinə, müəyyən hallarda birgə tədbirlərin həyata keçirilməsinə yardım göstərirlər.

**Maddə 7. Yerli özünüidarəyə dair qanunvericilik**

Yerli özünüidarəyə dair qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından və qanunlarından, Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanlarının aktlarından (Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasından və qanunlarından, Naxçıvan Muxtar Respublikası müvafiq icra hakimiyyəti orqanlarının aktlarından) ibarətdir.

**Maddə 8. Bələdiyyənin nizamnaməsi**

1. Bələdiyyənin nizamnaməsi bələdiyyənin iclasları və ya vətəndaşların yığıncaqları tərəfindən qəbul edilir.

2. Bələdiyyənin nizamnaməsində aşağıdakılar göstərilir:

1) qanunla müəyyən edilmiş bələdiyyə ərazisinin hüdudları və tərkibi;

2) bələdiyyə orqanlarının adları, strukturu, səlahiyyətləri və formalaşdırılması qaydası;

3) *(11)* səlahiyyət müddəti;

4) bələdiyyə aktlarının qəbul edilməsi və qüvvəyə minməsi qaydası;

5) bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin məsuliyyətinin əsasları və növləri;

6) bələdiyyə üzvlərinin *(11)* statusu və sosial təminatları, onların səlahiyyətlərinə xitam verilməsi əsasları və qaydası;

7) bələdiyyə orqanlarının vəzifəli şəxslərinin hüquqları üçün təminatlar;

8) bələdiyyə qulluğu təşkilinin şərtləri və qaydası;

9) yerli özünüidarənin həyata keçirilməsinin iqtisadi və maliyyə əsasları, bələdiyyə mülkiyyətinə sahibliyin, ondan istifadənin və ona sərəncam verilməsinin ümumi qaydası;

10) Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq yerli özünüidarənin təşkilinə, bələdiyyələrin və bələdiyyə orqanlarının vəzifəli şəxslərinin səlahiyyətinə və fəaliyyət qaydasına dair digər müddəalar.

3. Bələdiyyənin nizamnaməsi Azərbaycan Respublikasının qanunu ilə müəyyənləşdirilmiş qaydada dövlət qeydiyyatına alınmalıdır. Bələdiyyə nizamnamələrinin qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

4. Bələdiyyənin nizamnaməsini dövlət qeydiyyatına almaqdan imtina edilməsinə ancaq onun Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanlarının aktlarına (Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və qanunlarına, Naxçıvan Muxtar Respublikası müvafiq icra hakimiyyəti orqanlarının aktlarına) zidd olması əsas verə bilər. Dövlət qeydiyyatına almaqdan imtina edilməsi barədə vətəndaşlar və bələdiyyələr *inzibati qaydada və (və ya) (15)* məhkəmə qaydasında şikayət verə bilərlər.

5. Bələdiyyənin nizamnaməsi qeydiyyata alındığı gündən qüvvəyə minir.

**Maddə 9. Bələdiyyələrə dövlət himayəsi**

Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları bələdiyyələrin təşəkkülü və inkişafı üçün zəruri, hüquqi, təşkilati və maddi-maliyyə şəraiti yaradır və yerli özünüidarə hüququnu həyata keçirməkdə əhaliyə kömək göstərirlər.

**Maddə 10. Bələdiyyələrin ittifaqları**

1. Bələdiyyələr öz fəaliyyətini əlaqələndirmək, hüquq və mənafelərini daha səmərəli həyata keçirmək məqsədilə ittifaqlar yarada bilərlər. Həmin ittifaqlar qanunvericiliyə uyğun qaydada qeydiyyata alınmalıdır.

2. Bələdiyyə ittifaqlarına bələdiyyələrin səlahiyyətləri verilə bilməz.



**Maddə 11. Bələdiyyələrin möhürü, ştampı, bank hesabı**

Bələdiyyələr hüquqi şəxsdirlər, onların öz möhürü, ştampı və bankda hesabı olur.

*II fəsil*

## Bələdiyyələrin ərazi əsasları

**Maddə 12. Bələdiyyələrin əraziləri**

1. Yerli özünüidarəni Azərbaycan Respublikasının qanunu ilə təsdiq edilmiş ərazilərdə yaradılan bələdiyyələr həyata keçirirlər.

2. Müəyyən ərazidə əhalinin sayına görə vətəndaşlar yerli özünüidarəni həyata keçirmək hüququndan məhrum edilə bilməzlər.

**Maddə 13. Bələdiyyə ərazilərinin müəyyənləşdirilməsi və dəyişdirilməsi**

Bələdiyyə ərazilərinin müəyyənləşdirilməsi və dəyişdirilməsi, o cümlədən bələdiyyələr təşkil edilərkən, birləşdirilərkən, *ayrılarkən, (1)* yenidən təşkil edilərkən və ya ləğv olunarkən onların hüdudlarının müəyyənləşdirilməsi və dəyişdirilməsi, *onlarda yaranan sosial-iqtisadi vəziyyət (1),* tarixi və digər yerli xüsusiyyətləri, müvafiq ərazi əhalisinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilir.

*III fəsil*

## Bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifələri

**Maddə 14. Bələdiyyələr və bələdiyyə orqanları**

1. Bələdiyyələr Azərbaycan Respublikasının Konstitusiyasına, *Azərbaycan Respublikasının Seçki Məcəlləsinə (7)*, bu qanuna və özlərinin nizamnamələrinə əsasən təşkil edilən, bələdiyyə üzvlərindən ibarət olan seçkili yerli özünüidarə orqanlarıdır.

2. Bələdiyyələrin say tərkibi *Azərbaycan Respublikasının Seçki Məcəlləsi (7)* ilə müəyyənləşdirilir.

3. Bələdiyyələrin nizamnamələrinə uyğun olaraq bələdiyyə orqanları yaradılır və onlara yerli özünüidarə məsələlərini həll etmək üçün səlahiyyətlər verilir.

4. Bələdiyyələr və onların orqanları dövlət hakimiyyəti orqanları sisteminə daxil deyildir. Dövlət orqanları və dövlətin vəzifəli şəxsləri tərəfindən yerli özünüidarənin həyata keçirilməsinə yol verilmir.

5. Bələdiyyələrin və onların orqanlarının strukturu bu qanuna və bələdiyyələrin nizamnamələrinə uyğun müəyyənləşdirilir.

**Maddə 15. Bələdiyyə üzvü**

1. **Bələdiyyə üzvü** - bələdiyyə seçkilərində seçilmiş, mandatı ərazi seçki komissiyası tərəfindən təsdiq edilmiş şəxsdir.

Bələdiyyənin iclaslarında bələdiyyə üzvünün müzakirə olunan məsələlər barəsində çıxış etmək, təkliflər və düzəlişlər vermək, qeydlər etmək, çıxış edənlə-

rə və ya təyin edilməsinə razılıq verilən vəzifələrə göstərilmiş namizədlərə sual vermək, arayış vermək, səsvermədə iştirak etmək hüququ vardır.

2. Əməkhaqqını bələdiyyədən alan bələdiyyə üzvünün əsas iş yeri bələdiyyə hesab olunur. Əməkhaqqı bələdiyyə tərəfindən ödənilməyən bələdiyyə üzvü öz səlahiyyətini həyata keçirərkən istehsal və ya xidmət fəaliyyətini dayandırmır. Bələdiyyə üzvü bələdiyyənin və tərkibinə seçildiyi daimi komissiyanın iclasları zamanı daimi iş yerində orta əməkhaqqı saxlanılmaqla öz istehsal və ya xidmət vəzifəsini yerinə yetirməkdən azad edilir. *Bələdiyyə üzvü bələdiyyə qulluqçusu kimi fəaliyyət göstərə bilməz. Bələdiyyə qulluqçusu bələdiyyə üzvü seçildikdə, 3 gün müddətində öz ərizəsinə əsasən bələdiyyə qulluğundan azad edilir. (12)*

3. Bələdiyyə üzvü bələdiyyənin, bələdiyyənin iclasları arasındakı dövrdə isə bələdiyyə sədrinin qabaqcadan razılığı olmadan əmək müqaviləsi ilə işlədiyi yerdə müdiriyyətin təşəbbüsü ilə işdən çıxarıla bilməz, yaxud intizam tənbehi qaydasında azmaaşlı işə keçirilə bilməz.

4. Bələdiyyə üzvü 6 ayda bir dəfədən az olmayaraq seçicilərinə hesabat verir.

5. Bələdiyyə üzvü daimi yaşamaq üçün bələdiyyənin hüdudlarından kənara köçdükdə və ya başqa səbəblərdən öz bələdiyyə ərazisində bələdiyyə üzvlüyü vəzifələrini yerinə yetirə bilmədikdə bələdiyyə üzvlüyü səlahiyyətlərini öhdəsindən götürməsi haqqında bələdiyyəyə ərizə verir.

Bələdiyyənin növbəti yığıncağı bələdiyyə ərazisinə baxıb müvafiq qərar qəbul edir və bu qərarı həmin dairənin seçicilərinin nəzərinə çatdırır.

6. Bələdiyyə üzvü səlahiyyət müddəti ərzində hər hansı səbəbdən bələdiyyə tərkibindən çıxdıqda müvafiq bələdiyyə ərazisində *Azərbaycan Respublikasının Seçki Məcəlləsinə (7)* uyğun olaraq seçkilər keçirilir.

**Maddə 16. Bələdiyyənin iclası**

1. Bələdiyyənin iclasları ayda bir dəfədən az olmayaraq bələdiyyənin sədri tərəfindən çağırılır.

Bələdiyyənin iclası bələdiyyə üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir.

2. Bələdiyyənin iclasları bələdiyyə ərazisində yaşayan əhalinin azı on faizinin, yaxud bələdiyyə üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırılır.

3. Bələdiyyənin iclaslarında bələdiyyə üzvlərinin və digər iştirakçıların məsuliyyəti bələdiyyənin nizamnaməsi ilə tənzimlənir.

4. Azərbaycan Respublikası Konstitusiyasının 145-ci maddəsinin II hissəsinə uyğun olaraq, bələdiyyə iclaslarında baxılan məsələlərə dair bələdiyyə üzvlərinin sadə səs çoxluğu ilə qərarlar qəbul edilir.

5. Bələdiyyənin bütün iclasları protokollaşdırılır.

**Maddə 17. Bələdiyyənin daimi və başqa komissiyaları**

1. Bələdiyyə öz səlahiyyətinə aid məsələlərin qabaqcadan nəzərdən keçirilməsi və hazırlanması üçün, habelə bələdiyyənin qərarlarının həyata keçirilməsinə yardım göstərilməsi, bələdiyyənin tabeliyində olan müəssisə, idarə və təşkilatların fəaliyyətinə nəzarət üçün daimi və başqa komissiyalar yarada bilər.



2. Daimi və başqa komissiyalar səlahiyyətləri daxilində fəaliyyətlərinin təşkili məqsədilə öz işinə ekspertlər cəlb edə bilər.

3. Daimi və başqa komissiyalar yaradılarkən yerli əhəmiyyətli məsələlər nəzərə alınır və onlar "Bələdiyyənin daimi və başqa komissiyaları haqqında" əsasnamə, bələdiyyənin nizamnaməsi əsasında fəaliyyət göstərirlər.

4. Bələdiyyənin daimi və başqa komissiyalarının əsas vəzifələri aşağıdakılardan ibarətdir:

1) yerli əhəmiyyətli sosial müdafiə və sosial inkişaf, ekologiya, iqtisadi inkişaf, yerli xidmət üzrə proqramlar hazırlayıb, bələdiyyənin iclasına və ya yerli əhalinin müzakirəsinə çıxarmaq;

2) yerli əhəmiyyətli məsələləri müzakirə etmək, bələdiyyə iclaslarında müzakirə üçün proqramlar, arayışlar, qərar layihələri və başqa materiallar hazırlamaq;

3) bələdiyyə və onun icra aparatı üçün təkliflər hazırlamaq;

4) seçicilərin tapşırıqlarının yerinə yetirilməsinin təşkilinə və yoxlanılmasına kömək etmək.

5. Daimi və başqa komissiyalar onları seçmiş bələdiyyə qarşısında məsuliyyət daşıyır və ona hesabat verir.

**Maddə 18. Bələdiyyənin icra orqanı**

Bələdiyyənin icra orqanı onun icra aparatıdır. İcra aparatı bələdiyyənin sədrindən və onun bu qanunla və bələdiyyənin nizamnaməsi ilə müəyyənləşdirilmiş qaydada formalaşdırdığı struktur bölmələrindən və bələdiyyənin nizamnaməsinə müvafiq surətdə yaradılan digər icra strukturlarından ibarətdir.

Bələdiyyənin icra aparatının fəaliyyətinə bələdiyyənin sədri rəhbərlik edir.

Yerli əhaliyə xidmət, iqtisadi və sosial inkişaf proqramlarını həyata keçirmək üçün yaradılan icra strukturlarının rəhbərlərini bələdiyyə *iclasının (11)* qərarına əsasən bələdiyyənin sədri təyin edir.

**Maddə 19. Bələdiyyənin sədri və sədr müavini**

1. Bələdiyyənin sədri yeni seçilmiş bələdiyyənin birinci iclasında bələdiyyə üzvləri sırasından açıq və ya gizli səsvermə yolu ilə seçilir. Bələdiyyənin sədri bələdiyyə üzvlərinin yarısından çoxunun səsini topladıqda seçilmiş hesab olunur.

2. Ehtiyac olduqda bələdiyyə bələdiyyə sədrinin müavinlərini seçir. Bələdiyyə sədrinin müavinləri bələdiyyə üzvləri sırasından açıq və ya gizli səsvermə yolu ilə seçilir. Bələdiyyə sədrinin müavinləri bələdiyyə üzvlərinin yarıdan çoxunun səsini topladıqda seçilmiş hesab olunur.

3. *Bələdiyyənin sədri və onun müavinləri aşağıdakı hallarda bu maddənin 1-ci və 2-ci bəndlərində göstərilən qaydada vaxtından əvvəl vəzifədən azad edilə bilərlər: (11)*

*1) öz arzusu ilə vəzifədən çıxmaq barədə yazılı müraciət etdikdə;*

*2) bələdiyyə iclasının səlahiyyətlərinə aid olan məsələlər barədə təkbaşına sərəncam verdikdə;*

*3) bələdiyyə qərarlarının icrasını təmin etmədikdə (qanunvericiliyə zidd olan və həlli imkan səlahiyyətlərindən kənar qərarlar istisna olmaqla);*

*4) əmək qabiliyyətinin fasiləsiz olaraq 6 aydan çox müddətdə tam itirməsi ilə əlaqədar vəzifəsini yerinə yetirə bilmədikdə;*

*5) qanunvericiliklə üzərinə qoyulmuş vəzifələri 3 ay müddətində yerinə yetirmədikdə;*

*6) qanunvericilikdə və bələdiyyənin nizamnaməsində nəzərdə tutulmuş digər hallarda. (11)*

4. Bələdiyyənin sədri əmr və sərəncamlar verir, bələdiyyənin qərarlarını imzalayır.

5. Bələdiyyə sədrinin müavini bələdiyyə sədrinin ona aid etdiyi məsələləri həll edir, bələdiyyə sədri olmadıqda onun səlahiyyətlərini həyata keçirir.

***Maddə 20. Bələdiyyə üzvlərinin statusu (11)***

1. Bələdiyyə üzvlərinin *(11)* öz səlahiyyətlərini maneəsiz və səmərəli həyata keçirməsinə, hüquqlarının, şərəf və ləyaqətinin müdafiəsinə dövlət təminat verir.

2. Bələdiyyə üzvünün səlahiyyət müddəti beş ildir.

3. Bələdiyyə üzvlərinin səlahiyyətləri yalnız bələdiyyənin səlahiyyət müddətində qüvvədədir. *Çıxarılıb (11).*

4. Bələdiyyə üzvləri *(11)* bələdiyyənin nizamnaməsinə uyğun olaraq öz səlahiyyətlərini daimi əsasda icra edə bilərlər.

5. Öz səlahiyyətlərini daimi əsasda icra edən bələdiyyə üzvlərinin *(11)* bu vəzifələrdə çalışmaqla bağlı sosial təminatları Azərbaycan Respublikasının Qanunları və bələdiyyənin nizamnaməsi ilə müəyyənləşdirilir.

**Maddə 21. Bələdiyyə üzvlərinin səlahiyyətlərinin itirilməsi əsasları**

Bələdiyyə üzvlərinin səlahiyyətləri aşağıdakı hallarda itirilmiş hesab edilir:

1) barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qərarı olduqda;

2) fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən müəyyən edildikdə;

3) Azərbaycan Respublikası vətəndaşlığından çıxdıqda, başqa dövlətin vətəndaşlığını qəbul etdikdə və ya digər dövlət qarşısında öhdəlik götürdükdə;

4) vəfat etdikdə;

5) məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə.

**Maddə 22. Bələdiyyə üzvlərinin səlahiyyətlərinə xitam verilməsi əsasları**

Bələdiyyə üzvlərinin səlahiyyətlərinə onların səlahiyyət müddəti qurtardıqda xitam verilir.

Bələdiyyə üzvlərinin səlahiyyətlərinə aşağıdakı əsaslara görə vaxtından əvvəl xitam verilə bilər:

1) bələdiyyə seçkiləri zamanı səslərin düzgün hesablanmadığı aşkar edildikdə;

2) öz arzusu ilə bələdiyyə üzvlüyündən çıxmaq barədə yazılı ərizə verdikdə;



3) bələdiyyə üzvlüyünə namizədlər üçün qanunla müəyyən edilmiş tələblərə uyğun gəlmədiyi aşkar edildikdə;

4) qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında məsul vəzifə tutduqda *və ya bələdiyyə qulluqçusu kimi vəzifə tutduqda (12)*;

5) dörd aydan artıq müddətdə xəstəliyi ilə əlaqədar vəzifəsini yerinə yetirməsinin qeyri-mümkünlüyü barədə məhkəmə tərəfindən təşkil edilmiş xüsusi həkim komissiyasının rəyi olduqda;

6) bələdiyyənin nizamnaməsində göstərilən müddətdə bələdiyyə iclaslarını üzrsüz səbəbdən buraxdıqda.

**Maddə 23. Bələdiyyə üzvlərinin səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi qaydası**

Bu qanunun 21-ci və 22-ci maddələrində nəzərdə tutulmuş əsaslar olduqda bələdiyyə üzvlərinin səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi Azərbaycan Respublikası Konstitusiyasının 144-cü və 145-ci maddələrinə müvafiq surətdə bələdiyyə iclasının sadə səs çoxluğu ilə qəbul etdiyi qərarı əsasında həll edilir.

Bu qanunun 21-ci maddəsinin 1-ci, 2-ci, 3-cü, 5-ci bəndlərində və 22-ci maddəsinin 1-ci, 3-cü, 5-ci bəndlərində nəzərdə tutulmuş əsaslar olduqda bələdiyyənin qərarı məhkəmənin qüvvəyə minmiş qərarından sonra qəbul edilir.

**Maddə 24. Bələdiyyələrin digər orqanları və vəzifəli şəxsləri**

Bələdiyyənin nizamnaməsində digər orqanların yaradılması və müvafiq vəzifəli şəxslərin təyin olunması nəzərdə tutula bilər.

**Maddə 25. Bələdiyyə qulluğu**

1. Bələdiyyə orqanlarında vəzifə tutan şəxslər bələdiyyə qulluqçularıdır.

2. Bələdiyyə qulluğunun hüquqi tənzimlənməsi, o cümlədən bələdiyyə qulluqçusunun statusu, bələdiyyə qulluğunun həyata keçirilməsi şərtləri və qaydası Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və bələdiyyənin nizamnaməsi ilə müəyyən edilir.

3. Bələdiyyə orqanlarında qulluq müddəti dövlət qulluğu haqqında qanunvericiliyə uyğun olaraq güzəştlər və təminatlar verilməsi üçün hesablanan staja daxil edilir.

## *IV fəsil*

## Vətəndaşların öz iradəsini birbaşa ifadə etməsi və yerli özünüidarənin həyata keçirilməsinin digər formaları

**Maddə 26. Yerli rəy sorğusu**

1. Yerli əhəmiyyətli məsələlərə dair yerli rəy sorğusu təyin edilə bilər.

2. Yerli rəy sorğusunun keçirilməsi haqqında qərarı bələdiyyə nizamnaməsinə uyğun olaraq öz təşəbbüsü ilə və ya əhalinin tələbi əsasında qəbul edir.

3. Bələdiyyə ərazisində yaşayan və seçki hüququ olan bütün vətəndaşların yerli rəy sorğusunda iştirak etmək hüququ vardır. Yerli rəy sorğusunda vətəndaşlar bilavasitə və könüllülük əsasında iştirak edirlər.

*4. Yerli rəy sorğusunda səsvermə gizli keçirilir, vətəndaşların öz iradəsini ifadə etməsi üzərində nəzarətə yol verilmir. (2)*

5. Yerli rəy sorğusunun təyin edilməsi və keçirilməsi qaydası Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq tənzimlənir.

**Maddə 27. Bələdiyyələrə seçkilər**

1. Bələdiyyələrə seçkilər vətəndaşların qanunla müəyyənləşdirilmiş seçki hüquqları təmin edilməklə, ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi, gizli səsvermə yolu ilə həyata keçirilir.

2. Bələdiyyələrə seçkilər *Azərbaycan Respublikasının Seçki Məcəlləsinə (7)* uyğun keçirilir.

3. Azərbaycan Respublikasının dövlət orqanları bələdiyyələrə seçkilərin demokratik əsasda keçirilməsinə təminat verirlər.

**Maddə 28. Vətəndaşların yığıncaqları**

1. Əhalisi 500 nəfərdən az olan bələdiyyələrdə yerli əhəmiyyətli məsələlərə münasibət bildirmək, təkliflər irəli sürmək, kollektiv rəy söyləmək, qərarlar qəbul etmək məqsədi ilə həmin bələdiyyə ərazilərində vətəndaşlar öz yığıncaqlarını keçirə bilərlər.

2. Vətəndaşların yığıncaqlarında həmin bələdiyyə ərazilərində yaşayan 18 yaşı tamam olmuş vətəndaşların iştirak etmək hüququ vardır.

3. Vətəndaşların yığıncaqlarında bələdiyyənin nizamnaməsi və başqa qərarlar qəbul edilir, dəyişdirilir və ləğv olunur.

4. Vətəndaşların yığıncaqları bələdiyyənin ərazisində yaşayan və səsvermə hüququ olan vətəndaşların azı 25 faizi iştirak etdikdə səlahiyyətlidir.

*5. Bu maddənin 1-ci bəndində əhalinin sayı ilə bağlı nəzərdə tutulan məhdudiyyət bələdiyyələrin birləşməsi və ayrılması məsələsinə münasibət bildirmək üçün keçirilən yığıncaqlara şamil edilmir. (17)*

**Maddə 29. Əhalinin bələdiyyə aktları yaratmaq təşəbbüsü**

Bələdiyyənin nizamnaməsinə uyğun olaraq, əhalinin yerli əhəmiyyətli məsələlərə dair bələdiyyə aktları yaratmaq təşəbbüsü göstərmək hüququ vardır. Yerli əhəmiyyətli məsələlər barəsində əhalinin bələdiyyələrə verdiyi bələdiyyə aktlarının layihələri hökmən əhalinin nümayəndələrinin iştirakı ilə açıq iclaslarda müzakirə olunmalı, nəticələri rəsmən elan edilməlidir.

**Maddə 30. Vətəndaşların bələdiyyələrə, bələdiyyə orqanlarına və onların vəzifəli şəxslərinə müraciəti**

1. Vətəndaşların bələdiyyələrə, bələdiyyə orqanlarına və onların vəzifəli şəxslərinə fərdi və kollektiv surətdə müraciət etmək hüququ vardır.



2. Bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri vətəndaşların müraciətlərinə mahiyyəti üzrə bir ay ərzində cavab verməlidirlər.

*Bələdiyyələr torpaq sahəsi əldə etmək istəyən hüquqi və fiziki şəxslərin ərizələrinə 10 gün müddətində baxırlar. (4)*

3. Vətəndaşların bələdiyyələrə, bələdiyyə orqanlarına və onların vəzifəli şəxslərinə, müraciətlərinə cavab verilməsi müddətlərinin və qaydasının pozulması bu qanuna, Azərbaycan Respublikasının digər qanunlarına əsasən müvafiq məsuliyyətə səbəb olur.

**Maddə 31. Yerli özünüidarənin həyata keçirilməsində əhalinin iştirakının digər formaları**

Yerli özünüidarənin həyata keçirilməsində vətəndaşlar bu qanunla nəzərdə tutulmuş formalarla yanaşı, Azərbaycan Respublikasının Konstitusiyasına, bu qanuna, başqa qanunlara və bələdiyyənin nizamnaməsinə zidd olmayan digər formalarda da (məhəllə komitələri, assosiasiyalar xeyriyyə təşkilatları və s.) iştirak edə bilərlər.

## *V fəsil*

## Yerli özünüidarənin iqtisadi əsasları

**Maddə 32. Yerli özünüidarənin iqtisadi əsasları**

1. Yerli özünüidarənin iqtisadi əsaslarını bələdiyyə mülkiyyəti, yerli maliyyə, dövlət mülkiyyətində olan və bələdiyyələrin istifadəsinə verilmiş bələdiyyə əhalisinin tələbatının ödənilməsinə xidmət edən əmlak təşkil edir.

2. Bələdiyyə öz əmlakına dair mülkiyyətçi hüququna malikdir, yəni sərbəst olaraq əmlakına sahiblik edir, ondan istifadə edir və ona sərəncam verir.

**Maddə 33. Bələdiyyə mülkiyyəti**

1. Bələdiyyə mülkiyyətinin tərkibinə yerli vergilər və ödənişlər hesabına formalaşan yerli büdcənin vəsaiti, bələdiyyənin büdcədənkənar fondları, bələdiyyə əmlakı, habelə bələdiyyə torpaqları, bələdiyyə müəssisələri və təşkilatları, bələdiyyə mənzil fondları və qeyri-yaşayış binaları, dövlət və xüsusi mülkiyyətdə olmayan yollar, bələdiyyə, təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələri, digər daşınar və daşınmaz əmlak daxildir.

2. Bələdiyyələr bələdiyyə mülkiyyətini idarə edirlər. Bələdiyyə mülkiyyətinin tərkibinə daxil olan əmlak barəsində mülkiyyət hüququnu bələdiyyələr, Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş hallarda isə bilavasitə əhali həyata keçirir.

3. Qanuna uyğun olaraq bələdiyyələr bələdiyyə mülkiyyəti obyektlərini fiziki və hüquqi şəxslərin müvəqqəti və ya daimi istifadəsinə, icarəsinə verə bilər, qanunla müəyyənləşdirilmiş qaydada özgəninkiləşdirə bilər, habelə bələdiyyə mülkiyyətində olan əmlak barəsində başqa əqdlər bağlaya bilər, özəlləşdirilən və ya istifadəyə verilən obyektlərdən istifadə şərtlərini müqavilə və sazişlərlə müəyyənləşdirə bilərlər.

4. Qanuna uyğun olaraq bələdiyyələr yerli əhalinin mənafeyi naminə, bələdiyyənin hüdudları daxilində olan torpaqlardan istifadə şərtlərini müəyyənləşdirə bilərlər.

5. Bələdiyyə mülkiyyətinin özəlləşdirilməsi qaydasını və şərtlərini əhali bilavasitə və ya bələdiyyə müstəqil surətdə müəyyənləşdirir. Bələdiyyə mülkiyyəti obyektlərinin özəlləşdirilməsindən daxil olan vəsaitlər bütünlüklə yerli büdcəyə daxil olur.

6. Bələdiyyə mülkiyyətindən yalnız Azərbaycan Respublikasının Konstitusiyasında və bu qanunda nəzərdə tutulmuş bələdiyyə vəzifələri üçün istifadə oluna bilər.

7. Dövlət bələdiyyə mülkiyyətini müdafiə edir, subsidiyalar, kreditlər, qrantlar vermək yolu ilə onun artmasına imkan yaradır.

**Maddə 34. Bələdiyyələrin hüquqi şəxs yaratmaq hüququ**

Qanuna uyğun olaraq bələdiyyələr təsərrüfat fəaliyyəti ilə və qanunvericiliklə qadağan edilməmiş başqa fəaliyyətlə məşğul olmaq üçün müstəqil hüquqi şəxslər yarada bilər, onların yenidən təşkili və ləğvi məsələlərini həll edə bilərlər.

**Maddə 35. Bələdiyyələrin yaratdıqları hüquqi şəxslərlə münasibətləri**

1. Bələdiyyələr yaratdıqları hüquqi şəxslərin fəaliyyət məqsədlərini, şərtlərini və qaydasını müəyyənləşdirir, onların məhsulunun (xidmətlərinin) qiymətlərini və tariflərini tənzimləyir, nizamnamələrini təsdiq edir, rəhbərlərini təyin və azad edir, fəaliyyətinə dair hesabatlarını dinləyirlər.

2. Bələdiyyələrin yaratdıqları hüquqi şəxslərin rəhbərləri ilə münasibətləri mülki və əmək qanunvericiliyinə uyğun olaraq qurulur.

**Maddə 36. Bələdiyyələrin digər hüquqi və fiziki şəxslərlə münasibətləri**

1. Bələdiyyələrin digər hüquqi və fiziki şəxslərlə münasibətləri müqavilələr əsasında qurulur.

2. Qanuna uyğun olaraq bələdiyyə orqanları bələdiyyə ərazisinin kompleks sosial-iqtisadi inkişafında hüquqi və fiziki şəxslərin iştirakını əlaqələndirə bilərlər.

3. Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş hallar istisna olmaqla, bələdiyyələr hüquqi və fiziki şəxslərin təsərrüfat fəaliyyəti üçün məhdudiyyətlər müəyyənləşdirə bilməzlər.

**Maddə 37. Bələdiyyə sifarişi**

Bələdiyyələr öz maddi və maliyyə vəsaitlərindən istifadə edilməklə bələdiyyə ərazisinin abadlaşdırılması, əhaliyə kommunal xidmətlər göstərilməsi, sosial infrastruktur obyektlərinin tikintisi və təmiri, müvafiq ərazi əhalisinin məişət və sosial-mədəni tələbatının ödənilməsi üçün zəruri məhsulların istehsalı,



xidmətlərin göstərilməsi və digər işlərin görülməsi üçün sifarişçi kimi çıxış edə bilərlər.

**Maddə 38. Bələdiyyələrin xarici iqtisadi fəaliyyəti**

Bələdiyyələr yerli əhalinin mənafeyi üçün qanunla müəyyənləşdirilmiş qaydada xarici iqtisadi fəaliyyətlə məşğul ola bilər.

**Maddə 39. Yerli büdcələr**

1. Yerli büdcələr bələdiyyə büdcələrindən ibarətdir.

2. Yerli büdcələrin *tərtibini, təsdiqini və icrasını, (8)* onların icrasına nəzarəti bələdiyyələr müstəqil həyata keçirirlər.

**Maddə 40. Yerli büdcənin mədaxili və məxarici**

1. Yerli vergilər və ödənişlər, Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin II hissəsində və 144-cü maddəsinin II hissəsində nəzərdə tutulmuş əsaslarla qanunvericilik və icra hakimiyyətləri tərəfindən bələdiyyəyə verilmiş əlavə səlahiyyətlərin həyata keçirilməsi üçün bələdiyyə üzrə ayrılmış müvafiq zəruri maliyyə vəsaiti, bələdiyyə əmlakının özəlləşdirilməsindən, bələdiyyə əmlakının icarəyə verilməsindən, yerli lotereyalardan, *bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə yerləşdirilən küçə reklamlarına görə daxil olan ödənişlər, (3)* bələdiyyə, müəssisə, idarə və təşkilatlarının mənfəətindən tutulan vergi, dotasiyalar, subvensiyalar, transfert ödənişləri, qanuna və bələdiyyələrin qərarlarına müvafiq surətdə digər mədaxil, habelə bələdiyyələrin fəaliyyəti nəticəsində yaranan başqa vəsait yerli büdcələrin mədaxilini təşkil edir.

2. Bələdiyyələr yerli büdcələrin vəsaiti barəsində müstəqil sərəncam verirlər.

3. Yerli büdcələrin mədaxil və məxaric hissələrində yerli əhəmiyyətli məsələlərin həllinin və bələdiyyələrə *qanunvericilik və icra hakimiyyəti orqanları (8)* tərəfindən verilən səlahiyyətlərin həyata keçirilməsinin maliyyələşdirilməsi ayrılıqda nəzərdə tutulur.

**Maddə 41. Yerli büdcələrin təmin edilməsi**

1. Qanuna uyğun olaraq Azərbaycan Respublikasının dövlət orqanları bələdiyyələrə verilmiş səlahiyyətlərin normal yerinə yetirilməsi kifayət edən yerli büdcələrin zəruri xərclərinin ödənilməsi üçün gəlir mənbələrini təsbit etmək yolu ilə bələdiyyələrin büdcələrini formalaşdırırlar.

2. Yerli büdcələrin mədaxil hissəsi Azərbaycan Respublikasının dövlət büdcəsi qəbul edilərkən müvafiq bələdiyyələr üzrə hər il nəzərdə tutulur. *Yerli büdcələrin xərclərinin öz gəlirləri ilə təmin olunmayan hissəsi (yerli büdcənin kəsiri) dövlət büdcəsindən alınan dotasiya ilə örtülə bilər. (8)*

3. Bələdiyyələr onların məşğuliyyət dairəsinə aid edilmiş sahələrdə əhalinin əsas yaşayış tələbatının ödənilməsini dövlət sosial standartlarından aşağı səviy-

yədə təmin edə bilməzlər. Bu standartların yerinə yetirilməsində dövlət müvafiq ayırmaları yerli büdcələrin mədaxilinə təsbit etmək yolu ilə bələdiyyələrə kömək göstərə bilər.

4. Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəricilərinin müvafiq icra hakimiyyəti orqanları tərəfindən qeydiyyata alınması qaydaları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

**Maddə 42. Ayrı-ayrı dövlət səlahiyyətlərinin həyata keçirilməsinin maliyyələşdirilməsi və bələdiyyə orqanlarının əlavə xərclərinin kompensasiyası**

*1. Qanunvericilik və icra hakimiyyəti orqanları bələdiyyələrə əlavə səlahiyyətlər həvalə etdikdə onları bu səlahiyyətlərin həyata keçirilməsi üçün zəruri maliyyə vəsaiti ilə təmin edirlər. (8)*

2. Azərbaycan Respublikası *icra hakimiyyəti orqanlarının (8)* qəbul etdikləri qərarlar nəticəsində bələdiyyənin məxarici artıb mədaxili azalarsa, qərar qəbul etmiş orqanlar kompensasiya ödəyirlər. Kompensasiyanın məbləği müvafiq qərarın qəbul olunması ilə bir vaxtda müəyyənləşdirilir. Bələdiyyələrin əlavə xərclərinə səbəb olan dövlət orqanlarının qərarlarını bələdiyyələr onlara kompensasiya kimi verilmiş vəsait həddində həyata keçirirlər.

**Maddə 43. Yerli vergilər və ödənişlər**

1. Yerli vergiləri, ödənişləri, habelə onların ödənilməsi üzrə güzəştləri bələdiyyələr Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və qanunlarına uyğun müəyyənləşdirirlər.

*2. Bələdiyyələr qanunvericilikdə nəzərdə tutulmuş qaydada məqsədli layihələrin maliyyələşdirilməsi üçün yerli rəy sorğusunun nəticəsinə əsasən hüquqi və fiziki şəxslər tərəfindən ödənilən könüllü birdəfəlik ödənişlər tətbiq edilə bilər. (5)*

3. Yerli vergilər və ödənişlər ilə bağlı qərarlar bələdiyyə üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul edilir.

**Maddə 44. Bələdiyyələrin təbii ehtiyatlardan istifadə üçün ödənişlər almaq hüququ**

*Çıxarılıb (5).*

**Maddə 45. Bələdiyyələrin büdcədənkənar fondları**

Bələdiyyələr Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada və şərtlərlə məqsədli büdcədənkənar fondlar yarada bilərlər.

**Maddə 46. Bələdiyyələrin kredit münasibətlərində iştirakı**

Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq bələdiyyələr bələdiyyə lotereyaları buraxa, *kreditlər ala bilərlər. (10)*



***VI fəsil***

**Yerli özünüidarənin hüquqi təminatları**

**Maddə 47. Yerli özünüidarənin hüquqlarını məhdudlaşdırmağın qadağan olunması**

Yerli özünüidarənin Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyənləşdirilmiş hüquqlarının məhdudlaşdırılması qadağandır.

Konstitusiya quruluşunun qorunması, ölkənin müdafiəsinin və dövlətin təhlükəsizliyinin təmin edilməsi məqsədilə vətəndaşların yerli özünüidarəni həyata keçirmək hüquqları yalnız qanuna əsasən və qanunla müəyyənləşdirilmiş müddətə məhdudlaşdırıla bilər.

**Maddə 48. Bələdiyyə qərarlarının məcburiliyi**

1. Azərbaycan Respublikası Konstitusiyasının 145-ci maddəsinə uyğun olaraq, bələdiyyənin qərarları bələdiyyə üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. *Bələdiyyələr qərar qəbul etdiyi andan 15 gündən gec olmayaraq onun surətini bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqana göndərməlidirlər. (9)*

2. Bələdiyyənin qəbul etdiyi qərarlar bələdiyyənin ərazisində yerləşən hüquqi və fiziki şəxslərin hüquq və səlahiyyətlərinin pozulmasına yönəldilə bilməz.

3. Bələdiyyənin öz səlahiyyətləri daxilində qəbul etdiyi qərarlar təşkilati-hüquqi formasından asılı olmayaraq, bələdiyyənin ərazisində yerləşən bütün hüquqi və fiziki şəxslər tərəfindən hökmən icra edilməlidir.

4. Bələdiyyə qərarları onları qəbul etmiş orqanlar tərəfindən ləğv oluna və ya məhkəmənin qərarı ilə etibarsız sayıla bilər.

5. Bələdiyyə qərarlarının icra edilməməsi qanuna müvafiq surətdə məsuliyyətə səbəb olur.

**Maddə 49. Bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin müraciətlərinə baxılması**

Bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin müraciətlərinə dövlət orqanları, siyasi partiyalar, ictimai birliklər, həmkarlar ittifaqı təşkilatları, digər şəxslər və onların vəzifəli şəxsləri bir ay müddətində baxmalıdırlar.

**Maddə 50. Yerli özünüidarənin məhkəmə müdafiəsi**

Bələdiyyənin ərazisində yaşayan vətəndaşlar, bələdiyyələr, bələdiyyə orqanları və bələdiyyə orqanlarının vəzifəli şəxsləri dövlət hakimiyyəti orqanlarının və dövlətin vəzifəli şəxslərinin, bələdiyyələri və bələdiyyə orqanlarının və bələdiyyə orqanlarının vəzifəli şəxslərinin, bələdiyyənin yaratdığı hüquqi şəxslərin, habelə ictimai birliklərin yerli özünüidarənin hüquqlarını pozan aktlarının etibarsız sayılması barədə məhkəməyə iddia verə bilərlər.

*VII fəsil*

**Bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin məsuliyyəti, onların fəaliyyətinə nəzarət**

**Maddə 51. Bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin məsuliyyəti**

Bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri hüquqa zidd hərəkətlərə və hərəkətsizliyə görə qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət daşıyırlar.

**Maddə 52. Bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin fəaliyyətinə inzibati nəzarət**

Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı bələdiyyə: bələdiyyə orqanları və onların vəzifəli şəxsləri tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət edilməsinə inzibati nəzarəti həyata keçirir. *Bələdiyyələrin müvafiq komissiyaları və seçicilər bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsinə cəlb edilə bilərlər. (9)*

***Maddə 52-1. Bələdiyyələrin informasiyanı açıqlamaq vəzifəsi (14)***

*Bələdiyyələr Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsi ilə təsbit olunmuş məlumat əldə etmək hüququnun sərbəst, maneəsiz və hamı üçün bərabər həyata keçirilməsini "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq təmin edirlər. (14)*

**Maddə 53. Bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin qərar və hərəkətlərindən ~~məhkəməyə~~ *(53)* şikayət verilməsi**

Bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin qərar və hərəkətlərindən (hərəkətsizliyindən) *inzibati qaydada və (və ya) (15)* məhkəməyə qanunla müəyyənləşdirilmiş qaydada şikayət verilə bilər.

*VIII fəsil*

**Yekun və keçid müddəaları**

**Maddə 54. Bələdiyyə mülkiyyətinin formalaşması**

1. Dövlət yerli əhəmiyyətli məsələlərin həlli üçün zəruri olan torpaq payı və dövlət mülkiyyəti obyektlərini bələdiyyələrin mülkiyyətinə verir.
2. Dövlət mülkiyyəti obyektlərinin bələdiyyə mülkiyyətinə verilməsi ilə bağlı yaranan mübahisələr məhkəmə qaydasında həll edilir.
3. Bələdiyyə ərazisində bələdiyyə mülkiyyətinin olmaması bələdiyyə yaratmaqdan imtina edilməsinə əsas vermir.



**Maddə 55. Vətəndaşların ilk yığıncağının çağırılması**

Vətəndaşların ilk yığıncağını təşəbbüs qrupu çağırır.

Təşəbbüs qrupunun yaradılması, vətəndaşların yığıncaqlarının çağırılması, keçirilməsi qaydaları Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının müvafiq təlimatı ilə tənzimlənir.

**Maddə 56. Qanunun qüvvəyə minməsi**

Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

***Dərci: 28 iyul 1999-cu il***

## "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*(27 iyul 1999-cu il, № 162)*

***Əlavə və dəyişikliklər:***

*1. 24 avqust 2002, q.m.t. 27.08.2002*

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının prezidentinə məlumat versin;
- dövlət mülkiyyətinin və bələdiyyə mülkiyyətinin bölünməsinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- bələdiyyə vergilərinə dair təklifləri hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- "Bələdiyyə sifarişlərinin verilməsi" qaydalarının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- "Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəricilərinin qeydiyyata alınması" qaydalarının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- bələdiyyələrə təbii ehtiyatlardan istifadə üçün ödənişlərə dair təklifləri hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- bələdiyyə qərarlarının icra edilməməsinə görə məsuliyyəti müəyyən edən qanun layihəsi hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- öz səlahiyyətləri daxilində "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin ki, bələdiyyələrin fəaliyyətinin təmin edilməsi ilə bağlı olan bələdiyyə mülkiyyətinin özgəninkiləşdirilməsi, bələdiyyə qulluğu, yerli rəy sorğusu, yerli özünüidarənin həyata keçirilməsinin formaları, vətəndaşların bələdiyyələrə, bələdiyyə orqanlarına və onların vəzifəli şəxslərinə müraciətləri, bələdiyyə (yerli) büdcələri haqqında və digər Azərbaycan Respublikası qanunlarının layihələrini qısa müddətə hazırlayıb qəbul etsin.

3. Müəyyən edilsin ki:

- "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsində, 8-ci maddəsinin 4-cü bəndində "Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanlarının aktları" müəyyən edildikdə uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin fərmanları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları nəzərdə tutulur;

- "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsində, 8-ci maddəsinin 4-cü bəndində "Naxçıvan Muxtar Respublikası müvafiq icra hakimiyyəti orqanlarının aktları" müəyyən edildikdə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları nəzərdə tutulur;

- "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun və 8-ci maddəsinin 3-cü bəndində" və 52-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və *Naxçıvan Muxtar Respublikası ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi həyata keçirirlər; (1)*

- "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 41-ci maddəsinin 4-cü bəndində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi həyata keçirir.

3. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına tövsiyə edilsin ki, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununun 55-ci maddəsinin ikinci abzasında nəzərdə tutulmuş təşəbbüs qruplarının yaradılması, vətəndaşların yığıncaqlarının çağırılması, keçirilməsi qaydaları barədə təlimatı iki ay müddətində hazırlayıb təsdiq etsin.

***Dərci: 28 iyul 1999-cu il***



# Bələdiyyənin Nümunəvi Nizamnaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

*(15 oktyabr 1999-cu il, № 709-IQ)*

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. "Bələdiyyənin Nümunəvi Nizamnaməsi" təsdiq edilsin *(əlavə olunur).*
2. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

***Dərci: 25 yanvar 2000-ci il***

*Azərbaycan Respublikasının 1999-cu il 15 oktyabr tarixli, № 709-IQ saylı qanunu ilə* ***təsdiq edilmişdir***

## Bələdiyyənin Nümunəvi Nizamnaməsi

***Əlavə və dəyişikliklər:***

*1. 23 noyabr 2001, q.m.t. 29.12.01*
*2. 03 dekabr 2002, q.m.t. 16.01.2003*
*3. 30 dekabr 2003, q.m.t. 01.02.2004*
*4. 30 dekabr 2004, q.m.t. 10.02.2005*
*5. 23 dekabr 2005, q.m.t. 16.02.2006*
*6. 21 aprel 2006, q.m.t. 25.06.2006*

### I. Bələdiyyənin adı

Bələdiyyə onun yerləşdiyi ərazinin adı ilə adlandırılır.

### II. Bələdiyyə orqanının ünvanı

Bələdiyyə orqanının ünvanı onun yerləşdiyi şəhər, şəhərdə rayon, qəsəbə, kənd, küçə və müvafiq binanın nömrəsidir.

### III. Bələdiyyənin hüdudları

Bələdiyyənin hüdudları onun yerləşdiyi ərazinin sərhədləri ilə müəyyənləşdirilir.

## IV. Bələdiyyənin fəaliyyətinin təşkili

**Bələdiyyənin iclası**

1. Bələdiyyənin iclası bələdiyyə üzvlərinin ümumi yığıncağıdır.

2. Bələdiyyə iclaslarında aşağıdakı məsələlər həll edilir:

- bələdiyyə üzvlərinin səlahiyyətlərinin tanınması, qanunla müəyyən edilmiş hallarda onların səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi;
- bələdiyyənin reqlamentinin təsdiq edilməsi;
- bələdiyyənin sədrinin və onun müavinlərinin, daimi və başqa komissiyaların seçilməsi;
- *yerli vergilərin dərəcələrinin aşağı salınması barədə qərar qəbul edilməsi və yerli ödənişlərin müəyyən edilməsi (2);*
- *növbəti büdcə ili üzrə yerli büdcənin layihəsinin (5)* və onun icrası haqqında hesabatların təsdiq edilməsi;
- bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam;
- yerli sosial müdafiə və sosial inkişaf proqramların qəbul və icra edilməsi;
- yerli iqtisadi proqramların qəbul və icra edilməsi;
- yerli ekoloji proqramların qəbul və icra edilməsi.

3. Bələdiyyə üzvləri *Azərbaycan Respublikasının Seçki Məcəlləsinə (3)* əsasən seçilirlər.

### Bələdiyyənin daimi və başqa komissiyaları

1. Bələdiyyənin daimi və başqa komissiyaları bələdiyyə üzvlərindən ibarətdir.

2. Bələdiyyənin daimi və başqa komissiyalarının əsas vəzifələri aşağıdakılardan ibarətdir:

- yerli əhəmiyyətli sosial müdafiə və sosial inkişaf, ekoloji, iqtisadi inkişaf, yerli xidmət üzrə proqramlar hazırlayıb bələdiyyənin iclasına və ya yerli əhalinin müzakirəsinə çıxarmaq;
- yerli əhəmiyyətli məsələləri müzakirə etmək, bələdiyyə iclaslarında müzakirə üçün proqramlar, arayışlar, qərar layihələri və başqa materiallar hazırlamaq;
- bələdiyyə və onun icra aparatı üçün təkliflər hazırlamaq;
- seçicilərin tapşırıqlarının yerinə yetirilməsinin təşkilinə və yoxlanılmasına kömək etmək.

3. Bələdiyyənin daimi və başqa komissiyaları bələdiyyə iclaslarında təşkil edilir.

### Bələdiyyənin icra orqanı

1. Bələdiyyənin icra orqanı onun icra aparatıdır.

2. Bələdiyyənin icra aparatı yerli əhaliyə xidmət, iqtisadi, ekoloji, sosial müdafiə və sosial inkişaf proqramlarını həyata keçirmək üçün yaradılan idarə, şöbə və digər struktur bölmələrdən ibarət ola bilər.



3. Yerli əhaliyə xidmət, iqtisadi və sosial proqramları həyata keçirmək üçün yaradılan icra strukturlarının rəhbərlərini bələdiyyənin qərarına əsasən, digər işçilərini işə birbaşa bələdiyyənin sədri vəzifəyə təyin edir.

4. Bələdiyyənin icra aparatının strukturu onun qarşısında duran vəzifələrdən və maliyyə vəziyyətindən asılı olaraq bələdiyyə iclasının qərarı ilə təsdiq edilir.

5. Bələdiyyənin icra aparatının səlahiyyətlərinə aşağıdakılar aiddir:

- bələdiyyəyə baxılmaq və təsdiq edilmək üçün təqdim edilən büdcə, plan, proqram və qərar layihələrinin hazırlanması;
- bələdiyyənin qəbul etdiyi qərarların yerinə yetirilməsi;
- bələdiyyə sədrinin qəbul etdiyi qərarların yerinə yetirilməsi;
- bələdiyyənin qanunla müəyyən olunmuş səlahiyyətlərinin həyata keçirilməsinin təşkili;
- bələdiyyə mülkiyyətinin və bələdiyyənin istifadəsinə verilmiş başqa mülkiyyətin idarə edilməsi;
- *çıxarılıb; (6)*
- qanunvericiliyə əsasən ona həvalə edilmiş digər səlahiyyətləri həyata keçirir.

### Vətəndaşların yığıncaqları

Qanunla müəyyən olunmuş hallarda bələdiyyələrdə yerli əhəmiyyətli məsələlərə münasibət bildirmək, təkliflər irəli sürmək, kollektiv rəy söyləmək, qərarlar qəbul etmək məqsədi ilə həmin bələdiyyə ərazilərində vətəndaşlar öz yığıncaqlarını keçirə bilərlər.

Vətəndaşların yığıncaqlarında həmin bələdiyyə ərazisində yaşayan 18 yaşı tamam olmuş vətəndaşların iştirak etmək hüququ vardır.

Vətəndaşların yığıncaqlarında bələdiyyənin nizamnaməsi və başqa qərarlar qəbul edilir, dəyişdirilir və ləğv olunur.

Vətəndaşların yığıncaqları bələdiyyənin ərazisində yaşayan və səsvermə hüququ olan vətəndaşların azı 25 faizi iştirak etdikdə səlahiyyətlidir.

## V. Bələdiyyə sədri və sədr müavininin səlahiyyət müddəti

Bələdiyyənin səlahiyyət müddəti ərzində bələdiyyə sədri və sədr müavini bələdiyyənin qərarı ilə müəyyən olunan müddətdə seçilə bilərlər.

## VI. Bələdiyyə aktlarının qəbul edilməsi və qüvvəyə minməsi qaydası

Bələdiyyə iclaslarında baxılan yerli vergilər və ödənişlər ilə bağlı qərarlar bələdiyyə üzvlərinin üçdə iki səs çoxluğu ilə, digər qərarlar isə bələdiyyə üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir.

Bələdiyyə aktları dərc və ya əhaliyə digər üsulla elan edildiyi gündən qüvvəyə minir.

## VII. Bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin məsuliyyətinin əsasları və növləri

Bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri öz fəaliyyətlərinə və qəbul etdikləri qərarlara, hüquqazidd hərəkətlərinə (hərəkətsizliyinə) görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

## *VIII. Bələdiyyə üzvlərinin statusu və sosial təminatları (4)*

Bələdiyyə üzvünün səlahiyyət müddəti beş ildir.

Bələdiyyə üzvünün səlahiyyətləri onun seçildiyi gündən başlanır və bələdiyyənin yeni tərkibinin işə başladığı gün qurtarır. *Çıxarılıb (4).*

Bələdiyyə üzvləri *(4)* öz səlahiyyətlərini daimi əsasla icra edə bilərlər.

Öz səlahiyyətlərini daimi əsasla icra edən bələdiyyə üzvlərinə: *(4)*

- əməkhaqqı bələdiyyə büdcəsinin vəsaiti hesabına ödənilir;
- səlahiyyət müddəti onun ümumi və fasiləsiz iş stajına daxil edilir.

Bələdiyyə üzvünə müalicə olunması və istirahət etməsi üçün bələdiyyə büdcəsi hesabına iki aylıq əməkhaqqı məbləğində pul təminatı verilir.

Bələdiyyə üzvləri səlahiyyət müddəti qurtardıqdan sonra yeni müddətdə seçilmədikdə bələdiyyə büdcəsinin vəsaiti hesabına üç ay ərzində müavinət alırlar.

## IX. Bələdiyyə üzvlərinin səlahiyyətlərinə xitam verilməsi əsasları və qaydası

Bələdiyyə üzvlərinin səlahiyyətlərinə onların səlahiyyət müddəti qurtardıqda xitam verilir.

Bələdiyyə üzvlərinin səlahiyyətlərinə qanunla müəyyən olunmuş əsaslara görə vaxtından əvvəl xitam verilə bilər.

Bələdiyyə üzvlərinin səlahiyyətlərinə xitam verilməsi bələdiyyə iclasının sadə səs çoxluğu ilə qəbul etdiyi qərarı əsasında həll edilir.

## X. Bələdiyyə üzvlərinin, bələdiyyə orqanlarının vəzifəli şəxslərinin hüquqları üçün təminatlar

Bələdiyyə üzvlərinin, bələdiyyə orqanlarının seçkili vəzifəli şəxslərinin öz səlahiyyətlərini maneəsiz və səmərəli həyata keçirməsinə, onların hüquqlarının, şərəf və ləyaqətinin müdafiəsinə dövlət təminat verir.

## XI. Bələdiyyə qulluğu təşkilatının şərtləri və qaydası

Bələdiyyə sədri və bələdiyyənin icra aparatı struktur bölmələrinin rəhbərləri bələdiyyə qulluğu ilə bağlı təşkilati rəhbərliyi həyata keçirir.



Bələdiyyə icra aparatının tərkibi bələdiyyənin fəaliyyət göstərdiyi ərazidən, qarşısında duran vəzifələrdən və maliyyə vəsaitindən asılı olaraq bələdiyyə tərəfindən idarə rəisləri və rəis müavinlərindən, şöbə müdirləri və onların müavinlərindən, mütəxəssislərdən, müfəttişlərdən və digər işçilərdən təşkil olunur.

## XII. Yerli özünüidarənin həyata keçirilməsinin iqtisadi və maliyyə əsasları, bələdiyyə mülkiyyətinə sahibliyin, ondan istifadənin və ona sərəncam verilməsinin ümumi qaydası

Yerli özünüidarənin həyata keçirilməsinin iqtisadi və maliyyə əsasları, bələdiyyə mülkiyyətinə sahibliyi, ondan istifadənin və ona sərəncam verilməsinin ümumi qaydası "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

# Yerli rəy sorğusu haqqında Azərbaycan Respublikasının Qanunu

*(30 noyabr 1999, № 764-IQ)*

***Əlavə və dəyişiklik:***

***1.30 dekabr 2003-cü il, q.m.t. 01.02.2004***

## *I fəsil*

## Ümumi müddəalar

**Maddə 1. Yerli rəy sorğusu anlayışı**

**Yerli rəy sorğusu** - yerli əhəmiyyətli məsələlər barəsində bələdiyyə ərazisində yaşayan vətəndaşların rəyinin öyrənilməsidir.

**Maddə 2. Yerli rəy sorğusuna çıxarılan məsələlər**

Azərbaycan Respublikası Konstitusiyası və qanunvericiliyi ilə bələdiyyələrin səlahiyyətinə aid edilmiş yerli əhəmiyyətli məsələlər yerli rəy sorğusuna çıxarıla bilər.

**Maddə 3. Yerli rəy sorğusuna çıxarılması qadağan olunan məsələlər**

Yerli rəy sorğusuna Azərbaycan Respublikası Konstitusiyası və qanunvericiliyi ilə bələdiyyələrin səlahiyyətinə aid edilməmiş məsələlər, bələdiyyənin rayon və şəhər inzibati ərazi tərkibindən çıxmaq, muxtariyyat elan etmək, bələdiyyələ-

rin dövlət tərəfindən müəyyən edilmiş sərhədlərini dəyişdirmək, insan və vətəndaş hüquqlarını və azadlıqlarını məhdudlaşdırmaq, tarixi, mədəni abidələrə və qoruqlara ziyan vurmaq məqsədi güdən məsələlər çıxarıla bilməz.

**Maddə 4. Yerli rəy sorğusunun nəticələrinin hüquqi qüvvəsi**

Yerli rəy sorğusunun nəticələrinin hüquqi qüvvəyə minməsi üçün bələdiyyə müvafiq qərar qəbul etməlidir. Həmin qərarın əsasını yerli rəy sorğusunun nəticələri təşkil edir. Bələdiyyənin qərarı bələdiyyə ərazisində məcburi hüquqi qüvvəyə malikdir.

**Maddə 5. Yerli rəy sorğusunun keçirilməsinin prinsipləri**

Yerli rəy sorğusu aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

- yerli rəy sorğusunda vətəndaşların bilavasitə və könüllülük əsasında iştirak etməsi;
- yerli rəy sorğusunun ümumi, bərabər və birbaşa seçki hüququ əsasında keçirilməsi;
- yerli rəy sorğusunda səsvermənin gizli keçirilməsi;
- vətəndaşların öz iradəsini ifadə etməsi üzərində nəzarətə yol verilməməsi.

**Maddə 6. Vətəndaşların yerli rəy sorğusunda iştirak etmək hüququ**

Bələdiyyələrin ərazisində yaşayan və seçki hüququna malik olan vətəndaşlar yerli rəy sorğusunda iştirak etmək hüququna malikdirlər.

İrqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, təhsilindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq vətəndaşların yerli rəy sorğusunda birbaşa və ya dolayısı ilə iştirak etmək hüququnun məhdudlaşdırılması qadağandır.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada fəaliyyət qabiliyyətsizliyi təsdiq edilmiş şəxslər yerli rəy sorğusunda iştirak edə bilməzlər.

**Maddə 7. Yerli rəy sorğusuna çıxarılan məsələlər barəsində təşviqat aparmaq hüququ**

Vətəndaşların, siyasi partiyaların, həmkarlar ittifaqlarının, başqa ictimai birliklərin yerli rəy sorğusunun keçirilməsi tələbinin lehinə və ya əleyhinə, habelə yerli rəy sorğusuna çıxarılan məsələnin həllinin lehinə və ya əleyhinə qanunvericiliyin tələbləri gözlənilməklə maneəsiz təşviqat aparmaq hüququ vardır.

**Maddə 8. Yerli rəy sorğusunun hazırlanması və keçirilməsi ilə bağlı xərclər**

Yerli rəy sorğusunun hazırlanması və keçirilməsi ilə bağlı tədbirlər bələdiyyə büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir.

Yerli rəy sorğu komissiyalarının işi üçün icarəyə götürülmüş binaların və avadanlıqların haqqı bələdiyyə büdcəsinin vəsaiti hesabına ödənilir.



**Maddə 9. Yerli rəy sorğusunun keçirilməsini istisna edən hallar**

Hərbi, yaxud fövqəladə vəziyyət olunan gündən və ya hərbi, yaxud fövqəladə vəziyyət qurtardıqdan sonra üç ay ərzində yerli rəy sorğusu təyin edilə və keçirilə bilməz.

Hərbi, yaxud fövqəladə vəziyyət elan olunduqdan əvvəl yerli rəy sorğusuna çıxarılmış məsələnin müzakirəsi dayandırılır və təyin edilmiş yerli rəy sorğusu başqa vaxta keçirilir.

Yerli rəy sorğusunun nəticələrinin dərc edildiyi gündən bir il müddətində həmin məsələ ilə əlaqədar təkrar yerli rəy sorğusu təyin edilə və keçirilə bilməz.

## *II fəsil*

## Yerli rəy sorğusunun təyin edilmə qaydası

**Maddə 10. Yerli rəy sorğusunu təyin etmək hüququ**

Yerli rəy sorğusunu təyin etmək hüququ bələdiyyələrə məxsusdur.

Yerli rəy sorğusunun təyin edilməsi haqqında qərarda yerli rəy sorğusunun keçirilməsi tarixi göstərilir, yerli rəy sorğusuna çıxarılan məsələnin ifadəsi verilir, maliyyələşdirmə qaydası müəyyən olunur və digər məsələlər həll edilir.

Qəbul edilmiş qərar üç gün ərzində yerli kütləvi informasiya vasitələrində elan olunur və müvafiq icra hakimiyyəti orqanına göndərilir.

Yerli rəy sorğusunun təyin edilməməsi haqqında qərardan müvafiq məhkəməyə şikayət edilə bilər.

Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı yerli rəy sorğusunun təyin edilməsi haqqında qərardan müvafiq məhkəməyə şikayət edə bilər.

Şikayətlərə 3 gün müddətində baxılır və müvafiq məhkəmə tərəfindən qəti qərar çıxarılır.

**Maddə 11. Yerli rəy sorğusunu keçirmək təşəbbüsü**

Yerli rəy sorğusu bələdiyyə orqanının və ya bələdiyyə ərazisində yaşayan vətəndaşların təşəbbüsü ilə keçirilir.

Bələdiyyə ərazisində yaşayan vətəndaşlar yerli rəy sorğusunu keçirmək təşəbbüsü ilə o halda çıxış edə bilərlər ki, yerli rəy sorğusuna çıxarılan məsələnin lehinə müvafiq ərazidə və səsvermə hüququna malik olan vətəndaşların azı 10 faizinin imzası toplansın.

**Maddə 12. Yerli rəy sorğusu üzrə təşəbbüs qruplarının yaradılması**

Yerli rəy sorğusunu keçirmək təşəbbüsünü həyata keçirmək üçün bələdiyyə ərazisində yaşayan və yerli rəy sorğusunda iştirak etmək hüququ olan azı 15 vətəndaşdan ibarət təşəbbüs qrupu yaradılır.

Təşəbbüs qrupu yaratmaq istəyən vətəndaşlar yığıncaq keçirirlər və aşağıdakı məsələlərə baxırlar:

1) təşəbbüs qrupunun yaradılması;
2) yerli rəy sorğusuna məsələnin irəli sürülməsi;
3) səlahiyyətli nümayəndənin təyin edilməsi;
4) təşəbbüs qrupunun qeydiyyata alınması barədə ərazi rəy sorğu komissiyasına müraciət edilməsi.

Həmin məsələlər yığıncaqda müzakirə edilir və müvafiq qərar qəbul edilir. Yığıncağın gedişi barədə protokol tərtib olunur və protokol təşəbbüs qrupunun üzvləri tərəfindən şəxsiyyət vəsiqəsinin (pasportun) nömrəsi və seriyası, daimi yaşayış yeri göstərilməklə imzalanır. Təşəbbüs qrupu yerli rəy sorğusuna çıxarılan məsələni dürüst ifadə etməlidir ki, ona birmənalı cavab verilməsi mümkün olsun.

**Maddə 13. Yerli rəy sorğusu üzrə təşəbbüs qruplarının qeydə alınması**

Təşəbbüs qrupu yığıncaq keçirdikdən sonra ərazi rəy sorğusu komissiyasına yazılı formada müraciət edir.

Müraciətə təşəbbüs qrupunun yaradılması üçün keçirilən yığıncağın protokolu əlavə olunur.

Ərazi rəy sorğusu komissiyası yuxarıda göstərilən sənədlər təqdim edildiyi gündən başlayaraq 5 gün müddətində onların bu qanunun 2-ci, 3-cü və 12-ci maddələrinə uyğunluğunu yoxlayır və müvafiq qərar qəbul edir. Təşəbbüs qrupu qeydə alındıqda səlahiyyətli nümayəndəyə təşəbbüs qrupunun qeydə alınması barədə şəhadətnamə və bu qanunun əlavəsində göstərilmiş formada və müvafiq sayda təsdiq edilmiş imza vərəqələri verilir.

Təşəbbüs qrupu qeydə alınmaqdan imtina edilməsindən müvafiq məhkəməyə şikayət edə bilər. Həmin şikayətə 3 gün müddətində baxılır və müvafiq məhkəmə tərəfindən qəti qərar çıxarılır.

**Maddə 14. Təşəbbüs qrupu tərəfindən imzaların toplanma qaydaları və müddətləri**

Təşəbbüs qrupu qeydiyyat haqqında şəhadətnaməni aldığı andan vətəndaşların imzalarının toplanmasını təşkil edir.

İmzaları yerli rəy sorğusunda iştirak etmək hüququ olan Azərbaycan Respublikası vətəndaşları toplayırlar.

İmza toplayan şəxs imza vərəqəsini imzalayan vətəndaşın tələbi ilə öz şəxsiyyət vəsiqəsini təqdim etməlidir. Yerli rəy sorğusu keçirilən bələdiyyə ərazisində yaşayan və yerli rəy sorğusunda iştirak etmək hüququ olan hər bir Azərbaycan Respublikası vətəndaşı imza vərəqəsini yalnız bir dəfə imzalaya bilər.

İmza vərəqəsində vətəndaşın imzası ilə yanaşı, onun soyadı, adı, atasının adı, təvəllüdü, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin pasportun) seriyası və nömrəsi göstərilir.

İmza toplayan şəxs tərəfindən vətəndaşın imza atmağa məcbur edilməsi və bu məqsədlə ələ alınması yolverilməzdir.



Təşəbbüs qrupu 30 gün ərzində imzalar toplayıb ərazi rəy sorğusu komissiyasına təqdim etməlidir.

**Maddə 15. Yerli rəy sorğusunun keçirilməsi tələbinə dair qərarın qəbul edilməsi**

Ərazi rəy sorğusu komissiyası imza vərəqələri təqdim edildiyi gündən başlayaraq 5 gün müddətində onların bu Qanunun 11-ci və 14-cü maddələrinə uyğunluğunu yoxlayır və müvafiq qərar qəbul edir.

**Maddə 16. Yerli rəy sorğusunun keçirilmə müddəti**

Yerli rəy sorğusu onun keçirilməsi haqqında qərarın qəbul edildiyi gündən etibarən 30 gündən tez və 60 gündən gec olmayaraq keçirilir.

## *III fəsil*

## Yerli rəy sorğusunun keçirilməsi qaydası və nəticələrin müəyyənləşdirilməsi

**Maddə 17. Yerli rəy sorğusunun keçirilməsi üzrə komissiyalar**

Yerli rəy sorğusunu aşağıdakı komissiyalar hazırlayırlar və keçirirlər:
- ərazi rəy sorğusu komissiyası;
- məntəqə rəy sorğusu komissiyaları,

Ərazi rəy sorğusu komissiyasının səlahiyyətlərini *qanunvericiliyə (1)* müvafiq yaradılan ərazi seçki komissiyası həyata keçirir.

**Maddə 18. Ərazi rəy sorğusu komissiyasının səlahiyyətləri**

Ərazi rəy sorğusu komissiyası:
- yerli rəy sorğusu keçirilən ərazidə bu qanunun həyata keçirilməsinə nəzarət edir;
- yerli rəy sorğusu məntəqələrinin hüdudlarını müəyyən edir;
- məntəqə rəy sorğusu komissiyalarını formalaşdırır;
- məntəqə rəy sorğusu komissiyalarının fəaliyyətini əlaqələndirir, onların qərar və fəaliyyətindən daxil olmuş şikayətlərə (ərizələrə) baxır, bu şikayətlər (ərizələr) üzrə əsaslandırılmış qərarlar qəbul edir;
- yerli rəy sorğusunun hazırlanması və keçirilməsi üçün ayrılmış pul vəsaitinə sərəncam verir, həmin vəsaiti məntəqə rəy sorğusu komissiyaları arasında bölüşdürür və bu vəsaitin məqsədli xərclənməsinə nəzarət edir;
- məntəqə rəy sorğusu komissiyalarını yerli rəy sorğu bülletenləri və digər sənədlərlə təmin edir;
- yerli rəy sorğusunun maddi-texniki təminatı ilə bağlı başqa məsələləri həll edir;
- yerli rəy sorğusunun nəticələrini müəyyənləşdirir, bu Qanuna uyğun olaraq başqa səlahiyyətləri həyata keçirir.

**Maddə 19. Məntəqə rəy sorğusu komissiyalarının təşkili**

Məntəqə rəy sorğusu komissiyaları müvafiq ərazi rəy sorğusu komissiyaları tərəfindən yerli rəy sorğu gününə ən geci 30 gün qalmış təşkil edilir.

Məntəqə rəy sorğusu komissiyaları *qanunvericiliyə (1)* müvafiq yaradılan məntəqə seçki komissiyalarına uyğun qaydada təşkil edilir.

**Maddə 20. Məntəqə rəy sorğusu komissiyasının səlahiyyətləri**

Məntəqə rəy sorğusu komissiyası:

- yarandığı vaxtdan ən geci 3 gün ərzində məntəqə rəy sorğusu komissiyasının ünvanı, telefon nömrəsi, iş vaxtı, habelə səsvermə günü və yeri haqqında vətəndaşlara məlumat verir;
- yerli rəy sorğusu məntəqəsi üzrə vətəndaşların siyahılarını dürüstləşdirir;
- yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşların siyahıları ilə tanış olması üçün şərait yaradır, siyahıdakı yanlışlıqlar və səhvlər barədə ərizələrə baxır və onların aradan qaldırılması üçün təxirə salmadan tədbirlər görür;
- səsvermə otaqlarının, səsvermə qutularının və başqa avadanlığın hazırlanmasını təmin edir;
- yerli rəy sorğusu məntəqəsi ərazisində rəy sorğusuna çıxarılan məsələnin təbliği üzrə materialların yerləşdirilməsi qaydalarına əməl olunmasına nəzarət edir;
- səsvermə günü yerli rəy sorğusu məntəqəsində səsverməni təşkil edir;
- yerli rəy sorğusu məntəqəsi üzrə səsvermənin nəticələrini müəyyənləşdirir, bu barədə məlumatı ərazi rəy sorğusu komissiyasına təqdim edir;
- binaların səsvermə üçün hazırlığını və onların avadanlıqla təchizatını təmin edir;
- yerli rəy sorğusunun hazırlanıb keçirilməsinə dair məsələlər üzrə ərizə və şikayətlərə baxır;
- həmin məsələlər üzrə müvafiq qərarlar qəbul edir;

bu qanuna uyğun olaraq başqa səlahiyyətləri həyata keçirir.

**Maddə 21. Yerli rəy sorğusu komissiyası üzvünün statusu**

Yerli rəy sorğusu komissiyası üzvünün statusu *müvafiq qanunvericiliklə (1)* tənzimlənir.

**Maddə 22. Yerli rəy sorğusu komissiyalarının fəaliyyətində aşkarlıq. Yerli rəy sorğusunda müşahidəçilərin iştirakı**

Yerli rəy sorğusu komissiyalarının fəaliyyəti aşkarlıq şəraitində həyata keçirilir.

Yerli rəy sorğusu komissiyalarının iclaslarında Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçmiş ictimai birliklərin (təşkilatların), habelə siyasi partiyaların müşahidəçilərinin və kütləvi informasiya vasitələri nümayəndələrinin iştirak etmək hüququ vardır.

Müşahidəçilər ərazi rəy sorğusu komissiyasında akkreditasiyadan keçirlər və bu barədə onlara müvafiq sənəd verilir.



Səsvermə günü məntəqə rəy sorğusu komissiyalarının öz işinə başladıqları vaxtdan səsvermənin nəticələrinə dair sənədlərin rəsmiləşdirilməsi başa çatanadək müşahidəçilərin və kütləvi informasiya vasitələri nümayəndələrinin yerli rəy sorğusu məntəqələrində olmaq hüququ vardır.

Müşahidəçinin yerli rəy sorğusu məntəqəsinə göndəriləcəyi barədə qabaqcadan xəbərdarlıq etmək tələb olunmur.

Müşahidəçilər səsvermənin nəticələrinə dair ərazi və məntəqə rəy sorğusu komissiyalarının yekun protokolunu ala bilərlər. Bu halda yekun protokolunun surəti komissiyanın katibi tərəfindən təsdiq edilir.

Müşahidəçinin hüquqları *müvafiq qanunvericiliklə (1)* tənzimlənir.

**Maddə 23. Yerli rəy sorğusu məntəqələrinin təşkili**

Yerli rəy sorğusunda vətəndaşların səs verməsini və səslərin hesablanmasını təşkil etmək üçün yerli rəy sorğusu məntəqələri yaradılır.

Yerli rəy sorğusu məntəqələri yerli şəraiti nəzərə almaqla, vətəndaşlar üçün maksimum rahatlıq yaratmaq məqsədilə müvafiq ərazi rəy sorğusu komissiyası tərəfindən səsvermə gününə ən geci 30 gün qalmış *qanunvericiliyə (1)* müvafiq yaradılır.

**Maddə 24. Yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşların siyahısı və onun tərtib edilməsi qaydası**

Yerli rəy sorğusunda iştirak etmək hüququna malik olan vətəndaşların siyahısını müvafiq icra hakimiyyəti orqanının müəyyən olunmuş formada təqdim etdiyi məlumat əsasında məntəqə rəy sorğusu komissiyası tərtib edir. Müvafiq icra hakimiyyəti orqanı yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşlar haqqında məlumatları səsvermə gününə ən geci 30 gün qalmış məntəqə rəy sorğusu komissiyasına göndərir.

Yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşların siyahıları məntəqə rəy sorğusu komissiyasının sədri və katibi tərəfindən imzalanır.

Siyahının 2 nüsxəsi məntəqə rəy sorğusu komissiyasında qalır. Üçüncü nüsxə isə səsvermə gününə ən geci 15 gün qalmış müvafiq ərazi rəy sorğusu komissiyasına verilir.

Yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşların siyahısı *qanunvericiliyə (1)* müvafiq tərtib edilir.

**Maddə 25. Yerli rəy sorğusunda iştirak etmək hüququna malik olan vətəndaşların siyahılarla tanış edilməsi**

Yerli rəy sorğusunda iştirak etmək hüququna malik olan vətəndaşlara siyahılar ümumi tanışlıq üçün yerli rəy sorğusu gününə ən geci 20 gün qalmış *qanunvericiliyə (1)* müvafiq qaydada təqdim olunur.

**Maddə 26. Yerli rəy sorğusu komissiyalarının fəaliyyətinin təşkili**

Yerli rəy sorğusu komissiyalarının iclasında üzvlərin yarısından çoxu iştirak edərsə, iclas səlahiyyətli sayılır. Komissiyanın iclaslarında qərar qəbul edilərkən

əleyhinə və lehinə verilən səslərin sayı bərabər olarsa, komissiyanın sədrinin səsi həlledici sayılır.

Komissiyanın sədri son növbədə səs verir.

Komissiyaların öz səlahiyyətləri daxilində qəbul etdikləri qərarlar aşağı komissiyalar üçün məcburidir.

Komissiyaların qərarları onların iclasında iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir.

Komissiyanın birinci iclasına komissiyanın yaşca ən qocaman üzvü sədrlik edir və ona bu maddənin ikinci hissəsinin tələbləri şamil edilir.

Komissiyanın iclası haqqında rəy sorğusu komissiyanın üzvləri komissiyanın katibi tərəfindən iclasın keçirilməsinə ən geci 2 saat qalmış xəbərdar edilirlər.

Komissiyanın qərarları rəy sorğusu komissiyasının sədri və katibi tərəfindən imzalanır.

Komissiyanın qərarı ilə razı olmayan komissiya üzvünün yazılı surətdə xüsusi rəyini ifadə etmək hüquq vardır.

Komissiyanın iclası komissiyanın sədri və ya onun tapşırığı ilə müavini tərəfindən çağırılır və keçirilir.

Rəy sorğusu komissiyalarının iclaslarında şikayətlərə (ərizələrə) baxılarkən maraqlı tərəfin nümayəndələri iştirak edə bilərlər.

Komissiyanın üzvlərinə və işçilərinə əməkhaqqı komissiyaların fəaliyyəti üçün ayrılan vəsait həddində və məbləğdə ödənilir.

Komissiyalar yerli rəy sorğusunun hazırlanması və keçirilməsi dövründə onlara ayrılmış büdcə vəsaiti həddində müvəqqəti olaraq ştatlar yarada bilərlər.

**Maddə 27. Yerli rəy sorğusu komissiyalarının qərar və hərəkətlərindən şikayət etmə**

Yerli rəy sorğusu komissiyalarının və onların vəzifəli şəxslərinin qərarlarından və qanunazidd hərəkətlərindən (hərəkətsizliyindən), bu qanunda başqa müddət nəzərdə tutulmayıbsa, 3 gün müddətində yuxarı rəy sorğusu komissiyasına və ya müvafiq məhkəməyə şikayət edilə bilər. Eyni şikayət üzrə rəy sorğusu komissiyası və müvafiq məhkəmə bir-birindən mahiyyətcə fərqli qərarlar qəbul edərlərsə, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, məhkəmənin qərarı daha yüksək hüquqi qüvvəyə malikdir.

Məhkəməyə müraciət etmək üçün əvvəlcədən yuxarı rəy sorğusu komissiyasına müraciət etmək məcburi deyildir.

Yerli rəy sorğusunun gedişində yuxarı rəy sorğusu komissiyasına daxil olmuş şikayətlərə (ərizələrə) daxilolma vaxtından 5 gün müddətində, təxirəsalınmaz halda isə yerli rəy sorğusu günü baxılır və qərar çıxarılır.

Yuxarı rəy sorğusu komissiyası şikayətin (ərizənin) mahiyyəti üzrə müstəqil qərar qəbul edə bilər və belə halda, lazım olarsa, aşağı rəy sorğusu komissiyasının qərarını ləğv edə bilər.



**Maddə 28. Yerli rəy sorğusu bülleteni**

Yerli rəy sorğusunda hər bir vətəndaş bir sorğu bülleteni alır. Yerli rəy sorğusu gününə ən geci 20 gün qalmış ərazi rəy sorğusu komissiyası yerli rəy sorğusu bülleteninin nümunəsini təsdiq edir.

Sorğu bülleteninin mətni onun yalnız bir üzündə yerləşir. Sorğu bülletenində sorğuya çıxarılan məsələnin mətni və ya qərar layihəsi və səs verən şəxsin iradəsini bildirmə variantları ("lehinə" və "əleyhinə") əks etdirilir.

Hər sorğu bülletenində onun doldurulması qaydası haqqında izahat olmalıdır.

Sorğu bülleteninin sol küncündə vətəndaşlara verilən sorğu bülletenlərinin uçotunun aparılması məqsədilə kəsilmə xətti müəyyən edilir.

Sorğu bülletenləri ərazi rəy sorğusu komissiyasının qərarı ilə yerli rəy sorğusu gününə ən geci 10 gün qalmış çap olunur.

Məntəqə rəy sorğusu komissiyaları yerli rəy sorğusu gününə ən geci 8 saat qalmış sorğu bülletenləri ərazi rəy sorğusu komissiyalarından alırlar. Sorğu bülletenlərinin sayı yerli rəy sorğusu məntəqəsi üzrə yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşların siyahısına daxil edilmiş vətəndaşların sayından 0,5 faizdən artıq olmamalıdır.

Sorğu bülleteninin sağ yuxarı küncündə məntəqə rəy sorğusu komissiyasının möhürü ilə təsdiqlənmiş iki üzvünün imzası olmalıdır.

**Maddə 29. Yerli rəy sorğusu günü səsvermə**

Yerli rəy sorğusu günü səsvermə saat 8-dən 20-dək keçirilir.

Məntəqə rəy sorğusu komissiyaları səsvermə gününə azı 10 gün qalmış səsvermənin yeri və vaxtı haqqında kütləvi informasiya vasitələri ilə və ya digər üsullarla vətəndaşları xəbərdar etməlidirlər.

Yerli rəy sorğusu günü saat 8-də məntəqə rəy sorğusu komissiyasının sədri yerli rəy sorğusu məntəqəsini açıq elan edir, müşahidəçilərə boş səsvermə qutularını göstərib möhürləyir, daha sonra məntəqə yerli rəy sorğusu komissiyasının üzvlərini səsverməyə başlamağa dəvət edir.

Vətəndaş sorğu bülletenini aldıqdan sonra yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşların siyahısına şəxsiyyət vəsiqəsinin (pasportunun) seriyasını və nömrəsini yazır.

Təqdim olunmuş şəxsiyyət vəsiqəsinin (pasportun) seriyası və nömrəsi yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşların siyahısına vətəndaşın razılığı ilə məntəqə yerli rəy sorğusu komissiyasının üzvü tərəfindən də qeyd edilə bilər.

Vətəndaş yazıların düzgünlüyünü yoxlayır və imza edir.

Vətəndaşın sorğu bülletenini sərbəst almaq imkanı olmadıqda o, məntəqə yerli rəy sorğusu komissiyasının üzvləri və müşahidəçilər istisna edilməklə, başqa şəxslərin köməyindən istifadə edə bilər. Vətəndaşa kömək edən şəxs öz soyadını göstərməklə yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşların siyahısının "sorğu bülletenini alması haqqında imza" qrafasında imza etməlidir.

Sorğu bülleteni vətəndaşa verilərkən onun kəsilmə xətti ilə işarələnmiş sol küncü məntəqə rəy sorğusu komissiyasının üzvündə qalır. Hər bir vətəndaş şəxsən səs verir. Başqa şəxslərin əvəzinə səs verməyə icazə verilmir.

Sorğu bülleteni vətəndaşdan başqa heç kəsin daxil olmasına icazə verilməyən gizli səsvermə üçün xüsusi avadanlıqla təchiz edilmiş kabinədə doldurulur.

Vətəndaş səsverməyə çıxarılan məsələ üzrə öz iradəsini bildirmə variantlarından ("lehinə" və "əleyhinə") birini pozur.

Sorğu bülletenini müstəqil yazıb doldurmaq imkanı olmayan vətəndaş məntəqə rəy sorğusu komissiyasının üzvlərindən və müşahidəçilərdən başqa, istədiyi şəxsi kömək üçün kabinəyə dəvət edə bilər. Bu şəxsin soyadı yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşların siyahısında sorğu bülleteni alınması barədə vətəndaşın imzası ilə birgə göstərilir.

Səsvermə qutuları məntəqə rəy sorğusu komissiyası üzvlərinin və müşahidəçilərin maneəsiz müşahidə edə bildikləri yerdə qoyulmalıdır.

Məntəqə rəy sorğusu komissiyasının sədri səsvermə yerində qayda-qanuna nəzarət edir. Məntəqə rəy sorğusu komissiyası sədrinin bu qanunun tələblərindən irəli gələn sərəncamları səsvermə otağında olan şəxslər üçün məcburidir. Vətəndaşın öz iradəsini ifadə etməsinə təsir göstərməyə cəhd edən və ya gizli səsverməni pozan məntəqə rəy sorğusu komissiyasının üzvü işindən kənarlaşdırılır, müşahidəçi isə təxirəsalınmadan otaqdan çıxarılır. Bu barədə qərarı məntəqə rəy sorğusu komissiyası qəbul edir.

Səsvermədə iştirak edən vətəndaşların, rəy sorğusu komissiyasının üzvlərindən, müşahidəçilərdən, kütləvi informasiya vasitələrinin nümayəndələrindən başqa, digər şəxslərin yerli rəy sorğu məntəqəsində olmaları qadağandır. Yerli rəy sorğusu günü polis orqanlarının işçiləri yerli rəy sorğusu məntəqəsinə yalnız formada və məntəqə yerli rəy sorğusu komissiyasının qərarı ilə ictimai asayişin bərpa edilməsi məqsədilə daxil ola bilərlər. İctimai asayiş bərpa edildikdən sonra formada olan polis orqanlarının işçisi dərhal yerli rəy sorğusu məntəqəsini tərk etməlidir.

Vətəndaş sorğu bülletenini doldurarkən səhv etdiyini bildirdikdə, ona sorğu bülleteni vermiş məntəqə rəy sorğusu komissiyası üzvündən sıradan çıxmış sorğu bülleteninin əvəzinə yeni bülleteni verməsini xahiş edə bilər. Bu halda komissiyanın üzvü vətəndaşa yeni sorğu bülleteni verir, yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşların siyahısında isə vətəndaşın soyadından sağda müvafiq qeyd edir. Sıradan çıxmış sorğu bülleteni sonradan ləğv edilir və bu barədə ayrıca akt tərtib olunur.

Vətəndaş yerli rəy sorğusu günü səhhətinə görə və ya digər üzrlü səbəblərdən yerli rəy sorğu məntəqəsinə gələ bilməyəcəyini yəqin edərsə, o, yerli rəy sorğu gününə azı 2 saat qalmış səsvermə otağından kənarda səs vermək istəyini məntəqə rəy sorğu komissiyasına bildirməlidir.

Məntəqə rəy sorğu komissiyası bütün vətəndaşlara, o cümlədən səhhətinə görə və ya digər üzrlü səbəblərdən səsvermə otağına gələ bilməyən vətəndaşlara



səsvermədə iştirak etmək imkanı yaratmalıdır. Bu məqsədlər üçün yerli rəy sorğu məntəqəsində məntəqə rəy sorğu komissiyasının qərarı ilə müəyyən edilmiş miqdarda daşınan səsvermə qutuları olmalıdır.

Vətəndaş səsvermə otağından kənarda səs vermək istəyini yazılı surətdə bildirməyibsə, o, məntəqə rəy sorğu komissiyası üzvlərinin yanında ərizə yazmalıdır. Ərizədə vətəndaş haqqında yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşların siyahısındakı məlumatlar göstərilməlidir.

Məntəqə rəy sorğu komissiyasının daşınan səsvermə qutusu ilə gedən üzvləri ərizələrin sayına uyğun yerli rəy sorğusu bülletenləri alırlar.

Vətəndaşın yerli rəy sorğusu məntəqəsindən kənarda səs verməsi eyni vaxtda yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşların siyahısında ayrıca qeyd olunur. Səsvermə otağından kənarda keçirilən səsvermədə müşahidəçilərin iştirak etmək hüququ vardır. Məntəqə rəy sorğu komissiyasının üzvləri daşınan səsvermə qutusunu səsvermə otağına qaytardıqdan sonra bu qutu səslərin hesablanmasınadək açılmır.

**Maddə 30. Yerli rəy sorğusu məntəqəsində səslərin hesablanması**

Səsvermə müddəti başa çatdıqda məntəqə rəy sorğusu komissiyasının sədri "yalnız sorğu bülleteni alan və səsvermə otağında (kabinədə) olan vətəndaşlar səs verə bilərlər" elanını verir.

Səsvermə qutuları açılmazdan əvvəl, istifadə edilməmiş sorğu bülletenləri səsvermə otağındakı müşahidəçilərin müşahidəsi ilə məntəqə rəy sorğu komissiyasının üzvləri tərəfindən sayılır və ləğv edilir.

Həmin sorğu bülletenlərinin sayı elan edilir və səsvermənin yekun protokolunda qeyd olunur. Bundan sonra məntəqə rəy sorğusu komissiyasının sədri səsvermə qutularının möhür və plomblarının salamatlığını yoxlayır, məntəqə rəy sorğusu komissiyasının üzvlərini və müşahidəçiləri bununla əyani surətdə tanış edərək səsvermə qutularını açır.

Səsvermə qutuları növbə ilə: əvvəlcə daşınan səsvermə qutuları, sonra isə daşınmaz səsvermə qutuları açılır.

İlk növbədə daşınan səsvermə qutularındakı yerli rəy sorğu bülletenləri sayılır. Onların sayı səsvermə otağından kənarda səsvermə üçün vətəndaşlar tərəfindən verilmiş ərizələrin sayından çox olmamalıdır. Daşınan səsvermə qutusu üzrə səslər hesablanarkən, bülletenlərin ümumi sayı verilmiş ərizələrin sayından çox olarsa, daşınan səsvermə qutusundakı bütün bülletenlər məntəqə rəy sorğusu komissiyasının qərarı ilə etibarsız hesab edilir. Bu barədə akt səsvermə otağından kənarda səsvermənin keçirilməsini təmin edən məntəqə rəy sorğusu komissiyası üzvlərinin soyadları göstərilməklə səsvermənin nəticələri haqqında protokola əlavə edilir.

Yerli rəy sorğusu məntəqəsi üzrə vətəndaşların səsləri hesablanarkən etibarsız sayılan bülletenlər ayrılır.

Etibarsız seçki bülletenləri ayrıca yığılıb bağlanır.

Məntəqə rəy sorğusu komissiyası üzvlərinin iştirakı ilə məntəqə rəy sorğusu komissiyasının sədri vətəndaşların səslərinin hesablanmasını birbaşa səsverməyə

yekun vurulanadək fasiləsiz aparır. Məntəqə rəy sorğusu komissiyasının bütün üzvləri və müşahidəçilər səsvermənin nəticələri ilə tanış edilir.

Məntəqə rəy sorğusu komissiyası səsvermənin nəticələri haqqında protokol tərtib edir. Prtokola səsvermənin nəticələrinə dair aşağıdakı məlumatlar daxil edilir:

- yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşların siyahısındakı vətəndaşların ümumi sayı;
- məntəqə rəy sorğusu komissiyasına verilmiş sorğu bülletenlərinin sayı;
- yerli rəy sorğusu günü yerli rəy sorğu məntəqəsində vətəndaşlara verilmiş sorğu bülletenlərinin sayı;
- səsvermə otağından kənarda səs vermiş vətəndaşlara verilmiş bülletenlərin sayı;
- ləğv edilmiş sorğu bülletenlərinin sayı;
- etibarlı sayılmış sorğu bülletenlərinin sayı;
- daşınmaz səsvermə qutularında olan sorğu bülletenlərinin sayı;
- daşınan səsvermə qutularında olan sorğu bülletenlərinin sayı;
- etibarsız sayılmış sorğu bülletenlərinin sayı;
- yerli rəy sorğusuna çıxarılan məsələnin lehinə səs vermiş vətəndaşların sayı;
- yerli rəy sorğusuna çıxarılan məsələnin əleyhinə səs vermiş vətəndaşların sayı.

Səsverməyə eyni zamanda bir neçə məsələ qoyulursa, onların hər birinə verilən səslər ayrı-ayrı hesablanır.

Məntəqə rəy sorğusu komissiyası tərəfindən səsvermənin nəticələri haqqında yekun protokolu məntəqə rəy sorğusu komissiyası üzvlərinin iştirakı və müşahidəçilərin müşahidəsi ilə 3 nüsxədən tərtib olunur və məntəqə rəy sorğusu komissiyasının üzvləri tərəfindən imzalanır. Protokolda səsvermənin nəticələri həm sözlə, həm də rəqəmlə ifadə edilir.

Bütövlükdə protokolla və ya onun ayrı-ayrı hissələri ilə razılaşmayan məntəqə rəy sorğusu komissiyasının üzvü protokola xüsusi rəyini əlavə edə bilər; bu barədə protokolda müvafiq qeyd edilir.

Səsvermənin nəticələri haqqında protokolun karandaşla yazılmasına və ona hər hansı bir düzəliş edilməsinə icazə verilmir.

Məntəqə rəy sorğusu komissiyası protokolun 1-ci nüsxəsini imzaladıqdan sonra yerli rəy sorğusu günündən ən geci 24 saat keçənədək müvafiq ərazi rəy sorğusu komissiyasına göndərilir. Protokolun 2-ci nüsxəsi, bağlanıb möhürlənmiş sorğu bülletenləri, həmin sorğu bülletenlərinin kəsilmiş sol kündələri komissiyasının fəaliyyətinin sonuna kimi məntəqə rəy sorğusu komissiyasının katibində qalır.

Səsvermənin nəticələri haqqında protokolun 3-cü nüsxəsi müşahidəçilərin, kütləvi informasiya vasitələri nümayəndələrinin ümumi tanışlığı məqsədilə yerli rəy sorğusu məntəqəsində asılır.

Sorğu bülletenləri də daxil olmaqla yerli rəy sorğusuna aid başqa sənədlər yerli rəy sorğusunun yekunları rəsmi elan olunduqdan sonra 5 gündən gec olmayaraq müvafiq ərazi rəy sorğusu komissiyasına göndərilir.



**Maddə 31. Etibarsız səsvermə sorğu bülletenləri**

Aşağıdakı səsvermə sorğu bülletenləri etibarsız sayılır:

1) məntəqə rəy sorğusu komissiyasının təsdiqləmədiyi sorğu bülletenləri;

2) səsvermə zamanı "lehinə" və "əleyhinə" sözlərinin hər ikisinin pozulduğu və ya hər iki sözün pozulmadığı sorğu bülletenləri.

**Maddə 32. Ərazi rəy sorğusu komissiyası tərəfindən səsvermənin nəticələrinin müəyyən edilməsi**

Ərazi rəy sorğusu komissiyası səsvermənin nəticələri haqqında məntəqə rəy sorğusu komissiyalarının protokolları əsasında bütün məlumatları ümumiləşdirir və müvafiq ərazidə yerli rəy sorğusu günündən ən geci 2 gün keçənədək səsvermənin nəticələrini müəyyən edir və müvafiq qərar qəbul edir.

Həmin qərardan müvafiq məhkəməyə şikayət edilə bilər.

Məntəqə rəy sorğusu komissiyalarının protokollarında göstərilmiş məlumatların ümumiləşdirilməsini ərazi rəy sorğusu komissiyasının üzvləri şəxsən həyata keçirirlər. Səsvermənin nəticələri barədə ərazi rəy sorğusu komissiyası protokol tərtib edir, bu protokola ərazi üzrə yerli rəy sorğusu məntəqələrinin sayı haqqında məlumat, məntəqə rəy sorğu komissiyalarından daxil olmuş protokolların sayı və bu qanunun 30-cu maddəsində göstərilən məntəqə rəy sorğusu komissiyaları protokollarının ümumiləşdirilmiş məlumatları daxil edilir.

Ərazi rəy sorğusu komissiyasının protokolu 4 nüsxədə tərtib edilir və komissiyanın bütün üzvləri tərəfindən imzalanır. Protokola ərazi üzrə məntəqə rəy sorğusu komissiyalarının bütün məlumatlarını ümumiləşdirən cədvəl əlavə edilir. Protokolda səsvermənin nəticələri həm sözlə, həm də rəqəmlə ifadə edilir.

Bütövlükdə protokolla və ya onun ayrı-ayrı hissələri ilə razılaşmayan ərazi rəy sorğusu komissiyasının üzvü protokola xüsusi rəyini əlavə edə bilər; bu barədə protokolda müvafiq qeyd edilir.

Protokolun 1-ci nüsxəsi və ərazi üzrə məntəqə rəy sorğusu komissiyalarının bütün məlumatlarını ümumiləşdirən cədvəl ilə birlikdə ərazi rəy sorğusu komissiyasının fəaliyyəti qurtaranadək komissiyanın katibində qalır.

Səsvermənin nəticələri haqqında protokolun 2-ci nüsxəsi və yerli rəy sorğusunun nəticələrinə dair ərazi rəy sorğusu komissiyasının qərarı müşahidəçilərin və kütləvi informasiya vasitələri nümayəndələrinin ümumi tanışlığı məqsədi ilə ərazi rəy sorğusu komissiyasının otağında asılır.

Səsvermənin nəticələri haqqında protokolun 3-cü və 4-cü nüsxələri və yerli rəy sorğusunun nəticələrinə dair ərazi rəy sorğusu komissiyasının qərarı yerli rəy sorğusu keçirilən ərazinin bələdiyyəsinə və müvafiq icra hakimiyyəti orqanına göndərilir.

Yerli rəy sorğusuna çıxarılan məsələ o halda qəbul edilmiş sayılır ki, yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşların siyahısına daxil edilmiş vətəndaşların azı 25 faizi iştirak etsin və səsvermədə iştirak etmiş vətəndaşların yarısından çoxu yerli rəy sorğusuna çıxarılan məsələnin "lehinə" səs versin.

Yerli rəy sorğusunun nəticələrinə dair ərazi rəy sorğusu komissiyasının qərarı beş gün ərzində elan olunur.

**Maddə 33. Yerli rəy sorğusunun etibarsız sayılması**

Yerli rəy sorğusunun gedişində onların nəticəsinə ciddi təsir göstərən qanun pozuntusuna yol verilərsə, bu halda ərazi rəy sorğusu komissiyası yerli rəy sorğusunun etibarsız sayılması barədə qərar qəbul edir.

**Maddə 34. Təkrar yerli rəy sorğusunun keçirilməsi**

Yerli rəy sorğusu etibarsız sayılarsa, ərazi rəy sorğusu komissiyasının qərarı ilə bu qanunun müddəalarına uyğun olaraq 3 aydan gec olmayan müddətdə təkrar yerli rəy sorğusu keçirilir.

**Yerli rəy sorğusu**

Ərazi rəy sorğusu komissiiası M.Y.

№ ________ imza vərəqəsi

Bələdiyyə ərazisinin adı ________________________________

Ərazi rəy sorğu komissiyasının adı ________________________________

Biz, aşağıda imza edənlər ________________________________ yerli rəy sorğusuna
(məsələnin mahiyyəti)
çıxarılan məsələni müdafiə edirik.

| Sıra №-si | İmza edən vətəndaşın soyadı, adı, atasının adı | Doğulduğu tarix | Yaşayış yerinin ünvanı | Şəxsiyyəti təsdiq edən sənədin seriyası və nömrəsi | İmza tarixi | İmza |
|---|---|---|---|---|---|---|
| 1 | | | | | | |
| 2 | | | | | | |
| 3 | | | | | | |
| 4 | | | | | | |
| 5 | | | | | | |
| 6 | | | | | | |
| 7 | | | | | | |
| 8 | | | | | | |
| 9 | | | | | | |
| 10 | | | | | | |

İmza vərəqəsini təsdiq edirəm: ________________________________
(imzanı toplamış şəxsin soyadı, adı, atasının adı)

Tarix: «___» ____________ il. İmza: ____________

***Dərci: 29 dekabr 1999-cu il***



# "Yerli rəy sorğusu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

***(24 dekabr 1999, № 234)***

"Yerli rəy sorğusu haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Nazirlər Kabineti bir ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının "Yerli rəy sorğusu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu haqda Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- "Yerli rəy sorğusu haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri öz səlahiyyəti hüdudlarında həll etsin.

2. Müəyyən edilsin ki:

- "Yerli rəy sorğusu haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin üçüncü və beşinci hissələrində və 32-ci maddəsinin yeddinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;
- həmin qanunun 24-cü maddəsinin birinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.

***Dərci: 29 dekabr 1999-cu il***

# Bələdiyyə qulluğu haqqında Azərbaycan Respublikasının Qanunu

*(30 noyabr 1999-cu il, № 765-IQ)*

***Əlavə və dəyişikliklər:***

*1. 30 dekabr 2003, q.m.t. 01.02.2004*
*2. 30 dekabr 2004, q.m.t. 10.02.2005*
*3. 03 mart 2006, q.m.t. 01.04.2006*

***Bu qanun bələdiyyə qulluğu ilə bağlı münasibətləri və Azərbaycan Respublikasında bələdiyyə qulluqçularının hüquqi vəziyyətini tənzimləyir.***

**Maddə 1. Bələdiyyə qulluğu haqqında qanunvericilik**

Bələdiyyə qulluğunun hüquqi tənzimlənməsi, o cümlədən bələdiyyə qulluqçusunun statusu, bələdiyyə qulluğunun həyata keçirilməsi şərtləri və qaydası Azərbaycan Respublikasının Konstitusiyası, bu qanun, Azərbaycan Respublikasının digər qanunvericilik aktları və bələdiyyənin nizamnaməsi ilə müəyyən edilir.

**Maddə 2. Bələdiyyə qulluğu və bələdiyyə qulluqçusu anlayışları**

**Bələdiyyə qulluğu** - yerli özünüidarə orqanlarının səlahiyyətlərini icra etmək üçün həmin orqanlarda daimi peşə fəaliyyətidir.

**Bələdiyyə qulluqçusu** - yerli özünüidarə orqanlarında təyin olunmaqla vəzifə tutan və ödənişli əsaslarla xidmət göstərən şəxs hesab edilir.

Bələdiyyə üzvləri və bələdiyyələrin fəaliyyətinin təmin olunması ilə birbaşa bağlı olmayan vəzifələri yerinə yetirən şəxslər bələdiyyə qulluqçusu hesab edilmirlər.

*Bələdiyyə üzvü bələdiyyə qulluqçusu kimi fəaliyyət göstərə bilməz. (2)*

**Maddə 3. Bələdiyyənin icra aparatı**

Bələdiyyənin icra aparatı bələdiyyənin sədrindən, onun "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanunu və bələdiyyənin nizamnaməsi ilə müəyyən edilmiş qaydada formalaşdırdığı struktur bölmələrdən və digər icra strukturlarından ibarətdir.

Bələdiyyənin icra aparatının strukturunu, ştat cədvəlini və saxlanması xərcləri smetasını bələdiyyə təsdiq edir.

Bələdiyyənin icra aparatına rəhbərliyi bələdiyyənin sədri həyata keçirir.

**Maddə 4. Bələdiyyə icra aparatının tərkibi**

Bələdiyyə icra aparatının tərkibi bələdiyyənin fəaliyyət göstərdiyi əraziyə və konkret iş vəziyyətinə uyğun olaraq, müvafiq bələdiyyənin nizamnaməsi ilə nəzərdə tutulmuş qaydada və sayda idarə rəisləri və rəis müavinləri, şöbə müdirləri və müdir müavinləri, mütəxəssislər, müfəttişlər və digər işçilərdən təşkil olunur.



**Maddə 5. Bələdiyyə qulluğunun təşkili**

Bələdiyyə sədri və bələdiyyənin icra aparatı struktur bölmələrinin rəhbərləri bələdiyyə qulluğu ilə bağlı təşkilati rəhbərliyi həyata keçirir və aşağıdakı vəzifələri daşıyırlar:

- bu qanunun yerinə yetirilməsi üzərində nəzarət;
- ixtisasartırma sahəsində işin təşkil edilməsi;
- bələdiyyə qulluqçularının yerdəyişməsinə dair təkliflərin verilməsi;
- bələdiyyə tərəfindən qəbul edilmiş qərarların icra edilməsi.

Yerli əhaliyə xidmət, iqtisadi və sosial inkişaf proqramlarını həyata keçirmək üçün yaradılan icra strukturlarının rəhbərlərini bələdiyyənin qərarına əsasən, digər işçiləri isə bələdiyyənin sədri birbaşa təyin edir.

**Maddə 6. Bələdiyyə qulluqçularının hüquqları**

Bələdiyyə qulluqçularının aşağıdakı hüquqları vardır:

- işə qəbul etmək və işdən azad etmək səlahiyyətinə malik olan vəzifəli şəxsdən öz xidməti vəzifələrinin yazılı surətdə təsbit edilməsini və onların həyata keçirilməsi üçün zəruri şəraitin yaradılmasını tələb etmək;
- vəzifə səlahiyyətlərinin yerinə yetirilməsi üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müvafiq orqanlardan, idarə, təşkilat və vətəndaşlardan zəruri məlumat və sənədləri almaq;
- səlahiyyətləri daxilində məsələlərin baxılmasında və onların həlli ilə əlaqədar qərar qəbul edilməsində iştirak etmək;
- həmkarlar ittifaqı yaratmaq, onlara daxil olmaq və təmsil etmək;
- ixtisas dərəcəsini və peşə hazırlığını artırmaq;
-bələdiyyə qulluğunun təkmilləşdirilməsi üzrə təkliflər vermək;
-öz hüquq və azadlıqlarının müdafiəsinin təminatını tələb etmək.

**Maddə 7. Bələdiyyə qulluqçularının vəzifələri**

Bələdiyyə qulluqçularının vəzifələri:

- öz fəaliyyətlərində Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etmək;
- vətəndaşların, müəssisə, idarə və təşkilatların müraciətlərinə öz səlahiyyətləri çərçivəsində və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada baxmaq;
- rəhbərliyin "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu, bu Qanun, Azərbaycan Respublikasının digər qanunvericilik aktları və bələdiyyələrin nizamnaməsi ilə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində qəbul etdiyi qərar və sərəncamları yerinə yetirmək;
- əmək və icra intizamına riayət etmək;
- yerli icra hakimiyyətinin müvafiq strukturları ilə fəaliyyətlərini əlaqələndirmək və yerli problemlərin həllində qarşılıqlı fəaliyyət göstərmək.

**Maddə 8. Bələdiyyə qulluğu ilə bağlı qadağalar**

Bələdiyyə qulluqçuları üçün qulluqla bağlı aşağıdakı qadağalar nəzərdə tutulur:

- qanunverici, icra və məhkəmə orqanlarında vəzifə tutmaq, *habelə Azərbaycan Respublikasının Milli Bankı haqqında Azərbaycan Respublikası Qanununun 21.3-cü maddəsinə müvafiq olaraq Azərbaycan Respublikası Milli Bankının İdarə Heyətinin üzvü olmaq; (3)*
- vəzifəsinin icrası ilə bağlı ona bəlli olan məlumatdan xidməti vəzifədən kənar məqsədlər üçün istifadə etmək.

**Maddə 9. Xidməti vəsiqə**

Bələdiyyə qulluqçularına bələdiyyələrdə qulluğa təyin edildikdən sonra xidməti vəsiqə verilir.

**Maddə 10. Bələdiyyə qulluqçusunun iş vaxtı, məzuniyyəti, pensiyası və digər sosial təminatları**

Bələdiyyə qulluqçularının iş vaxtı, məzuniyyəti, pensiyaların və başqa müavinətlərin təyin edilməsi və verilməsi qaydası və digər sosial təminatları Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

Bələdiyyələrin maliyyə imkanları daxilində əlavə olaraq digər kompensasiyalar və ödənişlər, habelə müavinətlər verilə bilər.

Bələdiyyələrin nizamnaməsi ilə, bələdiyyə qulluqçularına digər imtiyaz və zəmanətlərin verilməsi nəzərdə tutula bilər.

Bələdiyyə üzvlərinin səlahiyyət müddətinin qurtarması bələdiyyə qulluqçularının vəzifələrindən azad edilmələri üçün əsas ola bilməz.

*Bələdiyyə vəzifələrində işləyən və Azərbaycan Respublikasının seçki qanunvericiliyinə uyğun olaraq müvafiq seçki komissiyasının həlledici səs hüquqlu üzvü olan şəxslər seçki komissiyasında fəaliyyətləri dövründə özlərinin razılığı olmadan işəgötürənin təşəbbüsü ilə başqa işə keçirilə bilməzlər və ya vəzifələrindən azad oluna bilməzlər. (1)*

*Azərbaycan Respublikasının seçki qanunvericiliyinə uyğun olaraq namizədliyi qeydə alınmış bələdiyyə vəzifəsində işləyən şəxs namizəd kimi müvafiq seçki komissiyasında qeydə alındığı gündən seçkilərin nəticələrinin rəsmi dərc edildiyi günədək bələdiyyə orqanının təşəbbüsü ilə işdən çıxarıla bilməz, öz razılığı olmadan başqa işə, başqa yerdə işləməyə keçirilə bilməz, habelə ezamiyyətə göndərilə bilməz. (1)*

**Maddə 11. Bələdiyyə qulluqçusunun əməkhaqqının müəyyən edilməsi**

Bələdiyyə qulluqçularının əmək haqqı bələdiyyələrin büdcəsi hesabına, onun maliyyə imkanlarına uyğun olaraq bələdiyyə tərəfindən təsdiq edilmiş ştat cədvəli əsasında müəyyən edilir.



**Maddə 12. Bələdiyyə qulluqçularının qanunsuz qərarlarından və hərəkətlərindən (hərəkətsizliklərindən) şikayət**

Bələdiyyə qulluqçularının qanunsuz qərarlarından və hərəkətlərindən (hərəkətsizliklərindən) bələdiyyələrin struktur bölmələrinin rəhbərlərinə, bələdiyyə sədrinə və ya məhkəməyə şikayət verilə bilər.

**Maddə 13. Qanunun pozulmasına görə məsuliyyət**

Bu qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Maddə 14. Bu qanunun qüvvəyə minməsi qaydası**

Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

***Dərci: 28 dekabr 1999-cu il***

## "Bələdiyyə qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

*(24 dekabr 1999-cu il, № 297)*

"Bələdiyyə qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Nazirlər Kabineti bir ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının "Bələdiyyə qulluğu haqqında" Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu haqda Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- "Bələdiyyə qulluğu haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri öz səlahiyyəti hüdudlarında həll etsin.

***Dərci: 28 dekabr 1999-cu il***

# Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

*(7 dekabr 1999, № 770-IQ)*

***Əlavə və dəyişikliklər:***

*1. 12 oktyabr 2001, № 198-II QD, q.m.t. 28.11.2001*

**Maddə 1. Qanunun təyinatı**

Bu qanun yerli özünüidarəetmənin iqtisadi əsasını təşkil edən bələdiyyə əmlakının yaranması əsaslarını müəyyən edir.

Bələdiyyə mülkiyyətinə torpaqların verilməsi "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa və digər normativ hüquqi aktlarına uyğun olaraq həyata keçirilir.

**Maddə 2. Bələdiyyə əmlakı haqqında qanunvericilik**

Bələdiyyə əmlakı haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyası, Mülki Məcəlləsi, bu qanun və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir.

**Maddə 3. Bələdiyyə əmlakının yaranması mənbələri**

Bələdiyyə əmlakının yaranması mənbələri aşağıdakılardır:

- bu qanuna və digər normativ hüquqi aktlara uyğun olaraq bələdiyyələrin mülkiyyətinə verilən dövlət əmlakı;
- bələdiyyələrin fəaliyyəti nəticəsində əldə olunan və yaradılan əmlak;
- fiziki və hüquqi şəxslərin, beynəlxalq təşkilatların və fondların bələdiyyələrə könüllü maddi yardım şəklində verdikləri əmlak;
- varisi olmayan əmlakın bələdiyyələrə keçməsi yolu ilə əldə olunan əmlak;
- bələdiyyələrə vəsiyyət edilən əmlak;

*qanunvericilikdə nəzərdə tutulan digər hallarda əldə olunan əmlak. (1)*

**Maddə 4. Dövlət əmlakının bələdiyyələrə verilməsi**

Bu qanunda və digər normativ hüquqi aktlarda müəyyən edilmiş qaydada dövlət mülkiyyətində olan və bələdiyyələrin səlahiyyətlərinin həyata keçirilməsi üçün zəruri mənzil-kommunal, sosial və mədəniyyət obyektləri, əhalinin ümumi istifadəsində olan obyektlər və digər dövlət əmlakı onların mülkiyyətinə verilir.

İlk növbədə bələdiyyələrin mülkiyyətinə onların fəaliyyətini təmin etmək üçün lazımi inzibati binalar, otaqlar və avadanlıqlar verilir.

Qanunvericilikdə özəlləşdirilməsi qadağan edilən və ya müvafiq icra hakimiyyəti orqanının qərarı ilə özəlləşdirilən dövlət əmlakı istisna olmaqla bələdiyyələrin ərazilərində yerləşən əmlak onların mülkiyyətinə verilə bilər.



Bələdiyyə mülkiyyətinə dövlət əmlakı bələdiyyələr tərəfindən bu əmlakdan istifadə etmək imkanı yarandıqda onların müraciəti əsasında verilir.

Bu qanuna uyğun olaraq bələdiyyənin mülkiyyətinə obyektlərin verilməsi qaydası və müddətləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 5. Mübahisələrin həlli qaydası**

Bələdiyyə əmlakı ilə əlaqədar yaranan mübahisələr məhkəmə qaydasında həll edilir.

**Maddə 6. Qanunun pozulmasına görə məsuliyyət**

Bu qanunun pozulmasına görə təqsirkar şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

***Dərci: 25 yanvar 2000-ci il***

# "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*(15 yanvar 2000, № 253)*

"Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

- "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinin beşinci hissəsində nəzərdə tutulmuş bələdiyyənin mülkiyyətinə obyektlərin verilməsi qaydası və müddətləri barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

2. Müəyyən edilsin ki:

- "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinin üçüncü hissəsində "müvafiq icra hakimiyyəti orqanının qərarı ilə özəlləşdirilən dövlət əmlakı" dedikdə Azərbaycan Respublikası prezidentinin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər, yerli icra hakimiyyəti orqanları ilə razılaşdırılaraq Azərbaycan Respublikası Dövlət Əmlakı Nazirliyinin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər nəzərdə tutulur;

- həmin qanunun 4-cü maddəsinin beşinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, 15 gün müddətində bələdiyyələrin fəaliyyətini təmin etmək məqsədi ilə lazımi inzibati binaların, otaqların və avadanlıqların verilməsini təşkil etsin.

***Dərci: 25 yanvar 2000-ci il***



# Bələdiyyələrin əraziləri və torpaqları haqqında Azərbaycan Respublikasının Qanunu

*(7 dekabr 1999, № 771-IQ)*

***Əlavə və dəyişikliklər:***

*1. 5 oktyabr 2001-ci il, № 184-II QD, q.m.t.28.11.2001*
*2. 14 may 2002-cü il, q.m.t. 2.06.2002*
*3. 17 iyun 2003-cü il, q.m.t.07.08.2003 (siyahı)*
*4. 29 iyun 2004-cü il, q.m.t. 21.07.2004 (yeni siyahı)*
*5. 17 sentyabr 2004-cü il, q.m.t. 21.10.2004 (siyahı)*
*6. 7 dekabr 2004-cü il, q.m.t. 04.01.2005 (siyahı)*
*7. 14 dekabr 2004-cü il, q.m.t. 04.01.2005 (siyahı)*
*8. 29 mart 2005-ci il, q.m.t. 30.04.2005 (siyahı)*
*9. 20 sentyabr 2005-ci il, q.m.t. 02.11.2005*
*10. 16 fevral 2007-ci il, q.m.t. 14.03.2007*
*11. 9 oktyabr 2007-ci il, q.m.t. 29.11.2007*
*12. 1 aprel 2008-ci il, q.m.t. 09.05.2008*
*13. 1 aprel 2008-ci il, q.m.t. 09.05.2008*
*14. 4 iyul 2008-ci il, q.m.t. 09.08.2008*

1. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq surətdə bələdiyyələrin siyahısı təsdiq edilsin *(əlavə olunur)*. Bələdiyyələrin əraziləri bu siyahıya uyğun müəyyənləşdirilir.

Bələdiyyə ərazisinin hüdudları "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bələdiyyə mülkiyyətinə verilən torpaq sahələri müvafiq *ərazi vahidinin (2)* sahəsinə əlavə edilməklə müəyyənləşdirilir.

2. Müvafiq icra hakimiyyəti orqanı lazımi şəhərsalma və yerquruluşu sənədlərini tərtib edərək, bələdiyyələrin əraziləri və mülkiyyətlərinə verilən torpaq sahələri ilə birlikdə onların hüdudlarını, torpaq növlərini və ölçülərini göstərməklə, bələdiyyə orqanlarına təhvil verir.

Sənədlərin hazırlanması və torpaqların bələdiyyələrə təhvil verilməsi müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilir.

3. Bələdiyyə mülkiyyətində olan torpaqlara sahiblik, habelə onlardan istifadə və onlara dair sərəncam verilməsi sahəsində idarəetmə mülki və torpaq qanunvericiliyinin, *habelə "Şəhərsalmanın əsasları haqqında" və "Memarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanunlarının (1)* tələblərinə və bələdiyyənin nizamnaməsinə uyğun həyata keçirilir.

***Dərci: 5 yanvar 2000-ci il***

*"Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa*
***əlavə***

## Azərbaycan Respublikasında bələdiyyələrin
## SİYAHISI

*(AR-in 29 iyun 2004-cü il tarixli qanunu ilə siyahı yeni redaksiyada verilmişdir (4))*

| Sıra sayı | Bələdiyyələrin adı | Bələdiyyələrin əhatə etdiyi ərazi vahidləri |
|---|---|---|
| 1 | 2 | 3 |
| | **BAKI ŞƏHƏRİ** | |
| | **Binəqədi rayonu** | |
| 1 | Binəqədi bələdiyyəsi | Binəqədi rayonu (aşağıda göstərilən bələdiyyələrin ərazilərini çıxmaqla) |
| 2 | Biləcəri bələdiyyəsi | Biləcəri qəsəbəsi |
| 3 | Binəqədi qəsəbə bələdiyyəsi | Binəqədi qəsəbəsi |
| 4 | Xocəsən bələdiyyəsi | Xocəsən, 28 May və Sulutəpə qəsəbələri |
| 5 | M.Ə.Rəsulzadə bələdiyyəsi | M.Ə.Rəsulzadə qəsəbəsi |
| | **Əzizbəyov rayonu** | |
| 1 | Binə bələdiyyəsi | Binə qəsəbəsi |
| 2 | Buzovna bələdiyyəsi | Buzovna qəsəbəsi |
| 3 | Cilov-Neft Daşları bələdiyyəsi | Cilov və Neft Daşları qəsəbələri |
| 4 | Gürgən-Pirallahı bələdiyyəsi | Gürgən və Pirallahı qəsəbələri |
| 5 | Qala bələdiyyəsi | Qala qəsəbəsi |
| 6 | Mərdəkan bələdiyyəsi | Mərdəkan qəsəbəsi |
| 7 | Şağan bələdiyyəsi | Şağan qəsəbəsi |
| 8 | Şüvəlan bələdiyyəsi | Şüvəlan qəsəbəsi |
| 9 | Türkan bələdiyyəsi | Türkan qəsəbəsi |
| 10 | Zirə bələdiyyəsi | Zirə qəsəbəsi |
| | **Xətai rayonu** | |
| 1 | Xətai bələdiyyəsi | Xətai rayonu (aşağıda göstərilən bələdiyyənin ərazisini çıxmaqla) |
| 2 | Əhmədli bələdiyyəsi | Əhmədli qəsəbəsi |
| | **Qaradağ rayonu** | |
| 1 | Çeyildağ bələdiyyəsi | Çeyildağ qəsəbəsi |
| 2 | Ələt bələdiyyəsi | Ələt, Baş Ələt, Kotal, Qarakosa, Pirsaat, Şıxlar və Yeni Ələt qəsəbələri |
| 3 | Korgöz bələdiyyəsi | Korgöz qəsəbəsi |
| 4 | Qızıldaş bələdiyyəsi | Qızıldaş və Şonqar qəsəbələri |
| 5 | Qobustan bələdiyyəsi | Qobustan qəsəbəsi |
| 6 | Lökbatan bələdiyyəsi | Lökbatan, Heybət və Şubanı qəsəbələri |
| 7 | Müşviqabad bələdiyyəsi | Müşviqabad qəsəbəsi |
| 8 | Puta bələdiyyəsi | Puta qəsəbəsi |
| 9 | Sahil bələdiyyəsi | Sahil və Qaradağ qəsəbələri |
| 10 | Səngəçal bələdiyyəsi | Səngəçal qəsəbəsi |
| 11 | Ümid bələdiyyəsi | Ümid qəsəbəsi |
| | **Nərimanov rayonu** | |
| 1 | Nərimanov bələdiyyəsi | Nərimanov rayonu |
| | **Nəsimi rayonu** | |
| 1 | Nəsimi bələdiyyəsi | Nəsimi rayonu |
| | **Nizami rayonu** | |
| 1 | Nizami bələdiyyəsi | Nizami rayonu (aşağıda göstərilən bələdiyyənin ərazisini çıxmaqla) |
| 2 | Keşlə bələdiyyəsi | Keşlə qəsəbəsi |
| | **Sabunçu rayonu** | |
| 1 | Bakıxanov bələdiyyəsi | Bakıxanov qəsəbəsi |
| 2 | Balaxanı bələdiyyəsi | Balaxanı qəsəbəsi |
| 3 | Bilgəh bələdiyyəsi | Bilgəh qəsəbəsi |
| 4 | Kürdəxanı bələdiyyəsi | Kürdəxanı qəsəbəsi |
| 5 | Maştağa bələdiyyəsi | Maştağa qəsəbəsi |
| 6 | Nardaran bələdiyyəsi | Nardaran qəsəbəsi |
| 7 | Pirşağı bələdiyyəsi | Pirşağı qəsəbəsi |
| 8 | Ramana bələdiyyəsi | Ramana qəsəbəsi |
| 9 | Sabunçu bələdiyyəsi | Sabunçu qəsəbəsi |
| 10 | Zabrat bələdiyyəsi | Zabrat qəsəbəsi |
| | **Səbail rayonu** | |
| 1 | Səbail bələdiyyəsi | Səbail rayonu (aşağıda göstərilən bələdiyyələrin ərazilərini çıxmaqla) |
| 2 | Badamdar bələdiyyəsi | Badamdar qəsəbəsi |
| 3 | Bibiheybət bələdiyyəsi | Bibiheybət qəsəbəsi |
| | **Suraxanı rayonu** | |
| 1 | Bülbülə bələdiyyəsi | Bülbülə qəsəbəsi |
| 2 | Əmircan bələdiyyəsi | Əmircan qəsəbəsi |
| 3 | Hövsan bələdiyyəsi | Hövsan qəsəbəsi |
| 4 | Qaraçuxur bələdiyyəsi | Qaraçuxur qəsəbəsi |
| 5 | Yeni Suraxanı bələdiyyəsi | Yeni Suraxanı qəsəbəsi |
| 6 | Zığ bələdiyyəsi | Zığ qəsəbəsi |
| | **Yasamal rayonu** | |
| 1 | Yasamal bələdiyyəsi | Yasamal rayonu |

| | | |
|---|---|---|
| | **ƏLİ BAYRAMLI ŞƏHƏRİ** | |
| 1 | Əli Bayramlı bələdiyyəsi | Əli Bayramlı şəhəri *və Bayramlı qəsəbəsi (15)* (aşağıda göstərilən bələdiyyənin ərazisini çıxmaqla) |
| 2 | Hacıqəhrəmanlı bələdiyyəsi | Hacıqəhrəmanlı qəsəbəsi |
| | **GƏNCƏ ŞƏHƏRİ** | |
| | **Kəpəz rayonu** | |
| 1 | Kəpəz bələdiyyəsi | Kəpəz rayonu (aşağıda göstərilən bələdiyyənin ərazisini çıxmaqla) |
| 2 | Hacıkənd bələdiyyəsi | Hacıkənd və Göygöl qəsəbələri |
| | **Nizami rayonu** | |
| 1 | Nizami bələdiyyəsi | Nizami rayonu |
| | **MİNGƏÇEVİR ŞƏHƏRİ** | |
| 1 | Mingəçevir bələdiyyəsi | Mingəçevir şəhəri |
| | **NAFTALAN ŞƏHƏRİ** | |
| 1 | Naftalan bələdiyyəsi | Naftalan şəhəri |
| | **SUMQAYIT ŞƏHƏRİ** | |
| 1 | Sumqayıt bələdiyyəsi | Sumqayıt şəhəri (aşağıda göstərilən bələdiyyələrin ərazilərini çıxmaqla) |
| 2 | Corat bələdiyyəsi | Corat qəsəbəsi |
| 3 | Hacı Zeynalabdin bələdiyyəsi | Hacı Zeynalabdin qəsəbəsi |
| | **ABŞERON RAYONU** | |
| 1 | Xırdalan bələdiyyəsi | *Xırdalan şəhəri (10)* |
| 2 | Aşağı Güzdək bələdiyyəsi | Aşağı Güzdək qəsəbəsi |
| 3 | Ceyranbatan bələdiyyəsi | Ceyranbatan qəsəbəsi |
| 4 | Digah bələdiyyəsi | Digah qəsəbəsi |
| 5 | Fatmayı bələdiyyəsi | Fatmayı kəndi |
| 6 | Goradil bələdiyyəsi | Goradil kəndi |
| 7 | Güzdək bələdiyyəsi | Güzdək qəsəbəsi |
| 8 | Hökməli bələdiyyəsi | Hökməli qəsəbəsi |
| 9 | Qobu bələdiyyəsi | Qobu qəsəbəsi |
| 10 | Masazır bələdiyyəsi | Masazır kəndi |
| 11 | Mehdiabad bələdiyyəsi | Mehdiabad qəsəbəsi |
| 12 | Məmmədli bələdiyyəsi | Məmmədli kəndi |
| 13 | Novxanı bələdiyyəsi | Novxanı kəndi |
| 14 | Pirəkəşkül-Qobustan bələdiyyəsi | Pirəkəşkül və Qobustan kəndləri |
| 15 | Saray bələdiyyəsi | Saray qəsəbəsi |
| 13 | Novxanı bələdiyyəsi | Novxanı kəndi |



| | | |
|---|---|---|
| | **AĞCABƏDİ RAYONU** | |
| 1 | Ağcabədi bələdiyyəsi | Ağcabədi şəhəri |
| 2 | Ağabəyli bələdiyyəsi | Ağabəyli kəndi |
| 3 | Aran bələdiyyəsi | Aran kəndi |
| 4 | Arazbar bələdiyyəsi | Arazbar kəndi |
| 5 | Aşağı Avşar bələdiyyəsi | Aşağı Avşar kəndi |
| 6 | Avşar bələdiyyəsi | Avşar kəndi |
| 7 | Bala Kəhrizli bələdiyyəsi | Bala Kəhrizli kəndi |
| 8 | Biləyən bələdiyyəsi | Biləyən kəndi |
| 9 | Boyat bələdiyyəsi | Boyat kəndi |
| 10 | Böyük Kəhrizli bələdiyyəsi | Böyük Kəhrizli kəndi |
| 11 | Cəfərbəyli bələdiyyəsi | Cəfərbəyli kəndi |
| 12 | Qələbədin bələdiyyəsi | Qələbədin kəndi |
| 13 | Göyük bələdiyyəsi | Göyük kəndi |
| 14 | Hacıbədəlli bələdiyyəsi | Hacıbədəlli kəndi |
| 15 | Hacılar bələdiyyəsi | Hacılar kəndi |
| 16 | Hindarx bələdiyyəsi | *Hindarx qəsəbəsi (13)* |
| 17 | Hüsülü bələdiyyəsi | Hüsülü kəndi |
| 18 | Xocavənd bələdiyyəsi | Xocavənd kəndi |
| 19 | İmamqulubəyli bələdiyyəsi | İmamqulubəyli kəndi |
| 20 | Kəbirli bələdiyyəsi | Kəbirli kəndi |
| 21 | Kürdlər bələdiyyəsi | Kürdlər kəndi |
| 22 | Qaradolaq bələdiyyəsi | Qaradolaq kəndi |
| 23 | Qaraxanlı bələdiyyəsi | Qaraxanlı kəndi |
| 24 | Qaravəlli bələdiyyəsi | Qaravəlli kəndi |
| 25 | Qiyaməddinli bələdiyyəsi | Qiyaməddinli kəndi |
| 26 | Qiyaməddinli bələdiyyəsi | Qiyaməddinli kəndi |
| 27 | Mehrablı bələdiyyəsi | Mehrablı kəndi |
| 28 | Minaxorlu bələdiyyəsi | Minaxorlu kəndi |
| 29 | Mirzəhaqverdili bələdiyyəsi | Mirzəhaqverdili kəndi |
| 30 | Muğanlı bələdiyyəsi | Muğanlı kəndi |
| 31 | Nəcəfqulubəyli bələdiyyəsi | Nəcəfqulubəyli kəndi |
| 32 | Pərioğlular bələdiyyəsi | Pərioğlular kəndi |
| 33 | Poladlı bələdiyyəsi | Poladlı kəndi |
| 34 | Rəncbərlər bələdiyyəsi | Rəncbərlər kəndi |
| 35 | Salmanbəyli bələdiyyəsi | Salmanbəyli kəndi |
| 36 | Sarıcalı bələdiyyəsi | Sarıcalı kəndi |
| 37 | Sarvanlar bələdiyyəsi | Sarvanlar kəndi |
| 38 | Şahmalılar bələdiyyəsi | Şahmalılar kəndi |
| 39 | Şahsevən bələdiyyəsi | Şahsevən kəndi |
| 40 | Şahsevən Təzəkənd bələdiyyəsi | Şahsevən Təzəkənd kəndi |
| 41 | Şənlik bələdiyyəsi | Şənlik kəndi |

| | | |
|---|---|---|
| 42 | Şərəfxanlı bələdiyyəsi | Şərəfxanlı kəndi |
| 43 | Şotlanlı bələdiyyəsi | Şotlanlı kəndi |
| 44 | Taynaq bələdiyyəsi | Taynaq kəndi |
| 45 | Təzəkənd bələdiyyəsi | Təzəkənd kəndi |
| 46 | Yeni Qaradolaq bələdiyyəsi | Yeni Qaradolaq kəndi |
| | **AĞDAM RAYONU** | |
| 1 | Alıbəyli bələdiyyəsi | Alıbəyli, Böyükbəyli, *Kiçikli kəndləri və Birinci Alıbəyli, İkinci Alıbəyli qəsəbələri (13)* |
| 2 | Çəmənli bələdiyyəsi | Çəmənli kəndi |
| 3 | Əfətli bələdiyyəsi | Əfətli, Hacıməmmədli, İsalar, Küdürlü və Məmmədbağırlı kəndləri |
| 4 | Əhmədağalı bələdiyyəsi | Əhmədağalı, Çıraxlı, Kolqışlaq, *Mirəşelli kəndləri və Bənövşələr qəsəbəsi (13)* |
| 5 | Hacıturalı bələdiyyəsi | Hacıturalı, Həsənxanlı və Qəhrəmanbəyli kəndləri |
| 6 | Xındırıstan bələdiyyəsi | Xındırıstan, Baharlı, Bəybabalar, Kəlbəhüseynli, Birinci Yüzbaşılı, Dadaşlı, İkinci Yüzbaşılı, Paşabəyli, *Sarıçoban kəndləri və Qasımbəyli qəsəbəsi (13)* |
| 7 | Qaradağlı bələdiyyəsi | Qaradağlı, Evoğlu və Rzalar kəndləri |
| 8 | Qərvənd bələdiyyəsi | Orta Qərvənd və Ayaq Qərvənd kəndləri |
| 9 | Quzanlı bələdiyyəsi | *Quzanlı, Birinci Quzanlı, İmamqulubəyli qəsəbələri və Çullu, Eyvazlı, İmamqulubəyli kəndləri (13)* |
| 10 | Mərzili bələdiyyəsi | Mərzili kəndi |
| 11 | Sarıcalı bələdiyyəsi | Sarıcalı və Şükürağalı kəndləri |
| 12 | Təzəkənd bələdiyyəsi | *Təzəkənd kəndi və Birinci Dördyol, İkinci Dördyol, Təzəkənd qəsəbələri (13)* |
| 13 | Üçoğlan bələdiyyəsi | Üçoğlan, Baharlı, Ballar, Orta Qışlaq, *Eonææ e yi aeyre ay Aeræi ce Aauarau Eæ ei ce Aauarau Nyoyræ aynyayeyre (13)* |
| 14 | Zəngişalı bələdiyyəsi | Zəngişalı və Mahrızlı kəndləri |
| | **AĞDAŞ RAYONU** | |
| 1 | Ağdaş bələdiyyəsi | Ağdaş şəhəri |
| 2 | Abad bələdiyyəsi | Abad kəndi |
| 3 | Ağzıbir bələdiyyəsi | Ağzıbir kəndi |
| 4 | Aşağı Ləki bələdiyyəsi | Aşağı Ləki, Hapıtlı və Ovçulu kəndləri |
| 5 | *Aşağı Nemətabad (5) bələdiyyəsi* | *Aşağı Nemətabad və Yenikənd kəndləri* |
| 6 | Aşağı Zeynəddin bələdiyyəsi | Aşağı Zeynəddin, Tatlar və Yeniarx kəndləri |
| 7 | Binələr bələdiyyəsi | *Binələr və Davudlu kəndləri (7)* |
| 8 | Birinci Aral bələdiyyəsi | Birinci Aral və İkinci Aral kəndləri |
| 9 | Cardam bələdiyyəsi | Cardam kəndi |
| 10 | Cücük bələdiyyəsi | Cücük kəndi |
| 11 | Cüvə bələdiyyəsi | Cüvə kəndi |



| | | |
|---|---|---|
| 12 | Dəhnəxəlil bələdiyyəsi | Dəhnəxəlil kəndi və Türyançay qəsəbəsi |
| 13 | Eymur bələdiyyəsi | Eymur, Ağcaqovaq və Ərəbşəki kəndləri |
| 14 | Əmirarx bələdiyyəsi | Əmirarx kəndi |
| 15 | Ərəb bələdiyyəsi | Ərəb kəndi |
| 16 | Ərəbocağı bələdiyyəsi | Ərəbocağı kəndi |
| 17 | Güvəkənd bələdiyyəsi | Güvəkənd kəndi |
| 18 | Hüşün bələdiyyəsi | Hüşün kəndi |
| 19 | Xınaxlı bələdiyyəsi | Xınaxlı kəndi |
| 20 | Xosrov bələdiyyəsi | Xosrov və Sadavat kəndləri |
| 21 | Korarx bələdiyyəsi | Korarx kəndi |
| 22 | Kotanarx bələdiyyəsi | Kotanarx kəndi |
| 23 | Kotavan bələdiyyəsi | Kotavan kəndi |
| 24 | Kükəl bələdiyyəsi | Kükəl kəndi |
| 25 | Qaradağlı bələdiyyəsi | Qaradağlı və Malay kəndləri |
| 26 | Qaradeyin bələdiyyəsi | Qaradeyin kəndi |
| 27 | Qarağan Şıxlar bələdiyyəsi | Qarağan Şıxlar və Qarağan Sədi kəndləri |
| 28 | Qaraoğlan bələdiyyəsi | Qaraoğlan kəndi |
| 29 | Qarasuqumlaq bələdiyyəsi | Qarasuqumlaq kəndi |
| 30 | Qəribli bələdiyyəsi | Qəribli kəndi |
| 31 | Qobuüstu bələdiyyəsi | Qobuüstu və Yeniarx kəndləri |
| 32 | Qolqəti bələdiyyəsi | Qolqəti kəndi |
| 33 | Qoşaqovaq bələdiyyəsi | Qoşaqovaq kəndi |
| 34 | Qulbəndə bələdiyyəsi | Qulbəndə, Aşağı Qəsil, Bəylik və Orta Qəsil kəndləri |
| 35 | Ləki bələdiyyəsi | Ləki qəsəbəsi |
| 36 | Məşəd bələdiyyəsi | Məşəd və Gürcüvə kəndləri |
| 37 | Mürsəl bələdiyyəsi | Mürsəl kəndi |
| 38 | Nehrəxəlil bələdiyyəsi | Nehrəxəlil kəndi |
| 39 | Orta Ləki bələdiyyəsi | Orta Ləki və Yuxarı Ləki kəndləri |
| 40 | Pirəyir bələdiyyəsi | Pirəyir kəndi |
| 41 | Pirəzə bələdiyyəsi | Pirəzə kəndi |
| 42 | Pirkəkə bələdiyyəsi | Pirkəkə kəndi |
| 43 | Şəkili bələdiyyəsi | Şəkili kəndi |
| 44 | Şəmsabad bələdiyyəsi | Şəmsabad, Əmirmahmud və Qarağan Saatlı kəndləri |
| 45 | Şıxlı bələdiyyəsi | Şıxlı kəndi |
| 46 | Şordəhnə bələdiyyəsi | Şordəhnə kəndi |
| 47 | Tofiqi bələdiyyəsi | Tofiqi kəndi |
| 48 | Yenicə bələdiyyəsi | Yenicə kəndi |
| 49 | Yuxarı Ağcayazı bələdiyyəsi | Yuxarı Ağcayazı və Aşağı Ağcayazı kəndləri |
| 50 | Yuxarı Qəsil bələdiyyəsi | Yuxarı Qəsil və Bulaqotağı kəndləri |
| 51 | Yuxarı Nemətabad bələdiyyəsi | Yuxarı Nemətabad və Hacılar kəndləri |

| | AĞSTAFA RAYONU | |
|---|---|---|
| 1 | Ağstafa bələdiyyəsi | Ağstafa şəhəri |
| 2 | Aşağı Göycəli bələdiyyəsi | Aşağı Göycəli kəndi |
| 3 | Aşağı Kəsəmən bələdiyyəsi | Aşağı Kəsəmən kəndi |
| 4 | Böyük Kəsik bələdiyyəsi | *Böyük Kəsik kəndi (5)* |
| 5 | Dağ Kəsəmən bələdiyyəsi | Dağ Kəsəmən kəndi |
| 6 | Düzqışlaq bələdiyyəsi | Düzqışlaq və Kolayır kəndləri |
| 7 | Eynallı bələdiyyəsi | Eynallı kəndi |
| 8 | Göycəli bələdiyyəsi | Göycəli kəndi |
| 9 | Həsənsu bələdiyyəsi | Həsənsu kəndi |
| 10 | Xətai bələdiyyəsi | Xətai, Qaçaq Kərəm və Yenigün kəndləri |
| 11 | Xılxına bələdiyyəsi | Xılxına və Mollacəfərli kəndləri |
| 12 | Köçəsgər bələdiyyəsi | Köçəsgər kəndi |
| 13 | Köçvəlili bələdiyyəsi | *Köçvəlili kəndi və Soyuqbulaq qəsəbəsi (5)* |
| 14 | Qarahəsənli bələdiyyəsi | Qarahəsənli kəndi |
| 15 | Qıraq Kəsəmən bələdiyyəsi | Qıraq Kəsəmən kəndi |
| 16 | Qırılı bələdiyyəsi | Qırılı kəndi |
| 17 | Muğanlı bələdiyyəsi | Muğanlı kəndi |
| 18 | Pirili bələdiyyəsi | *Pirili kəndi (5)* |
| 19 | Poylu bələdiyyəsi | *Poylu kəndi və Şəkərli qəsəbəsi (5)* |
| 20 | Sadıqlı bələdiyyəsi | Sadıqlı kəndi |
| 21 | Saloğlu bələdiyyəsi | Saloğlu qəsəbəsi |
| 22 | Tatlı bələdiyyəsi | Tatlı *(5)* və Yaradullu kəndləri |
| 23 | Vurğun bələdiyyəsi | Vurğun qəsəbəsi |
| 24 | Zəlimxan bələdiyyəsi | Zəlimxan kəndi |
| 25 | *Ağgöl bələdiyyəsi (5)* | *Ağgöl kəndi (5)* |
| 26 | *Qarayazı bələdiyyəsi (5)* | *Qarayazı, Həzi Aslanov və Soyuqbulaqlar qəsəbələri (5)* |
| 27 | Kolxəlfəli bələdiyyəsi *(5)* | Kolxəlfəli kəndi *(5)* |
| 28 | Poylu qəsəbə bələdiyyəsi | Poylu və Ceyrançöl qəsəbələri |
| 29 | *Köhnəqışlaq bələdiyyəsi (5)* | *Köhnəqışlaq kəndi (5)* |
| | AĞSU RAYONU | |
| 1 | Ağsu bələdiyyəsi | Ağsu şəhəri |
| 2 | Abasxanlı bələdiyyəsi | Abasxanlı kəndi |
| 3 | Ağabəyli bələdiyyəsi | Ağabəyli kəndi |
| 4 | Ağalarbəyli bələdiyyəsi | Ağalarbəyli kəndi |
| 5 | *Ağarx bələdiyyəsi (7)* | Ağarx kəndi |
| 6 | Axundlu bələdiyyəsi | Axundlu kəndi |
| 7 | Aratlı Curuğlu bələdiyyəsi | Aratlı Curuğlu kəndi |
| 8 | Bəyimli bələdiyyəsi | Bəyimli kəndi |
| 9 | Bico bələdiyyəsi | Bico kəndi |
| 10 | Bozavand bələdiyyəsi | Bozavand kəndi |



| | | |
|---|---|---|
| 11 | Cəfərli bələdiyyəsi | Cəfərli kəndi |
| 12 | Cəlayir bələdiyyəsi | Cəlayir kəndi |
| 13 | Çaparlı bələdiyyəsi | Çaparlı kəndi |
| 14 | Çiyni bələdiyyəsi | Çiyni kəndi |
| 15 | Daşdəmirbəyli bələdiyyəsi | Daşdəmirbəyli kəndi |
| 16 | Dəlilər bələdiyyəsi | Dəlilər kəndi |
| 17 | Dilman bələdiyyəsi | Dilman, Hacıman və Xatman kəndləri |
| 18 | Ərəbmehdibəy bələdiyyəsi | Ərəbmehdibəy, Dədəli və Qasımbəyli kəndləri |
| 19 | Ərəbsarvan bələdiyyəsi | Ərəbsarvan kəndi |
| 20 | Ərəbuşağı bələdiyyəsi | Ərəbuşağı kəndi |
| 21 | Gəgəli bələdiyyəsi | Gəgəli kəndi |
| 22 | Göydəlləkli bələdiyyəsi | Göydəlləkli kəndi |
| 23 | Gürcüvan bələdiyyəsi | Gürcüvan, Girdə, Hinqar, Kəndaxan, Kövlüc və Yenikənd kəndləri |
| 24 | Hacıqədirli bələdiyyəsi | Hacıqədirli kəndi |
| 25 | Hacısəmədli bələdiyyəsi | Hacısəmədli kəndi |
| 26 | Hacmşağı bələdiyyəsi | Hacmşağı kəndi |
| 27 | Xəlilli bələdiyyəsi | Xəlilli və Mustafalı kəndləri |
| 28 | İlxıçı bələdiyyəsi | İlxıçı kəndi |
| 29 | Kalağaylı bələdiyyəsi | Kalağaylı kəndi |
| 30 | Kalva bələdiyyəsi | Kalva kəndi |
| 31 | Keşdiməz bələdiyyəsi | Keşdiməz kəndi |
| 32 | Kəndoba bələdiyyəsi | Kəndoba kəndi |
| 33 | Qarabağlı bələdiyyəsi | Qarabağlı kəndi |
| 34 | Qaradağ bələdiyyəsi | Qaradağ kəndi |
| 35 | Qaraqaşlı bələdiyyəsi | Qaraqaşlı kəndi |
| 36 | Qaraqoyunlu bələdiyyəsi | Qaraqoyunlu kəndi |
| 37 | Qaraməmmədli bələdiyyəsi | Qaraməmmədli və Navahı kəndləri |
| 38 | Qaravəlli bələdiyyəsi | Qaravəlli kəndi |
| 39 | Qəşəd bələdiyyəsi | Qəşəd kəndi |
| 40 | Qiyaslı bələdiyyəsi | Qiyaslı kəndi |
| 41 | Ləngəbiz bələdiyyəsi | Ləngəbiz kəndi |
| 42 | Maşadqanlı bələdiyyəsi | Maşadqanlı kəndi |
| 43 | Məlikçobanlı bələdiyyəsi | Məlikçobanlı kəndi |
| 44 | Muradlı bələdiyyəsi | Muradlı kəndi |
| 45 | Musabəyli bələdiyyəsi | Musabəyli kəndi |
| 46 | Nəmirli bələdiyyəsi | Nəmirli kəndi |
| 47 | Növcü bələdiyyəsi | *Növcü kəndi (5)* |
| 48 | Nuran bələdiyyəsi | Nuran və Zərqava kəndləri |
| 49 | Nüydü bələdiyyəsi | Nüydü, Xasıdərə, Qırlar, Quzey və Sanqalan kəndləri |
| 50 | Padar bələdiyyəsi | Padar və Külüllü kəndləri |

| | | |
|---|---|---|
| 51 | Padarqışlaq bələdiyyəsi | Padarqışlaq kəndi |
| 52 | Pirhəsənli bələdiyyəsi | Pirhəsənli kəndi |
| 53 | Rəhimağalı bələdiyyəsi | Rəhimağalı kəndi |
| 54 | Rəhimli bələdiyyəsi | Rəhimli kəndi |
| 55 | Suraxanı bələdiyyəsi | Suraxanı kəndi |
| 56 | Şahbəyli bələdiyyəsi | Şahbəyli kəndi |
| 57 | Təklə bələdiyyəsi | Təklə kəndi |
| 58 | Ülgüc bələdiyyəsi | Ülgüc kəndi |
| 59 | Yenilik bələdiyyəsi | Yenilik, Elabad və Gursulu kəndləri |
| 60 | *Yuxarı Növcü bələdiyyəsi (5)* | *Yuxarı Növcü kəndi (5)* |
| | **ASTARA RAYONU** | |
| 1 | Astara bələdiyyəsi | Astara şəhəri |
| 2 | Alaşa bələdiyyəsi | Alaşa kəndi |
| 3 | Artupa bələdiyyəsi | Artupa kəndi |
| 4 | Asxanakəran bələdiyyəsi | Asxanakəran, Azaru, Bəlbay, Bursut və Dəstor kəndləri |
| 5 | Bala Şahağac bələdiyyəsi | Bala Şahağac və Qamışovka kəndləri |
| 6 | Burzubənd bələdiyyəsi | Burzubənd, Noyabud və Vənəşikəş kəndləri |
| 7 | Deqadi bələdiyyəsi | Deqadi və Səlivə kəndləri |
| 8 | Dolu bələdiyyəsi | Dolu və Sibiyyət kəndləri |
| 9 | Dürriyə bələdiyyəsi | Dürriyə kəndi |
| 10 | Ərçivan bələdiyyəsi | Ərçivan kəndi |
| 11 | Hamoşam bələdiyyəsi | Hamoşam, Klınbi, Reqloba və Rıvadila kəndləri |
| 12 | Kakalos bələdiyyəsi | Kakalos kəndi |
| 13 | Kijəbə bələdiyyəsi | Kijəbə qəsəbəsi |
| 14 | Kolatan bələdiyyəsi | Kolatan kəndi |
| 15 | Qapıçıməhəllə bələdiyyəsi | Qapıçıməhəllə kəndi |
| 16 | Lomin bələdiyyəsi | Lomin və Vovada kəndləri |
| 17 | Marzəsə bələdiyyəsi | Marzəsə, Bili, Bio və Sıhəkəran kəndləri |
| 18 | Maşxan bələdiyyəsi | Maşxan kəndi |
| 19 | Məsçitməhəllə bələdiyyəsi | Məsçitməhəllə kəndi |
| 20 | Miki bələdiyyəsi | Miki, Giləparqo, Qanqalaş, Lobir və Vaqadi kəndləri |
| 21 | Motalayataq bələdiyyəsi | Motalayataq, Anbuba, Əkbərməhəllə, Şıxımpeştə və Vıləparqo kəndləri |
| 22 | Ojakəran bələdiyyəsi | Ojakəran kəndi |
| 23 | Ovala bələdiyyəsi | Ovala kəndi |
| 24 | Pensər bələdiyyəsi | Pensər kəndi |
| 25 | Pəlikəş bələdiyyəsi | Pəlikəş kəndi |
| 26 | Rinə bələdiyyəsi | Rinə, Çüvaş, Taxtanəkəran və Viləşə kəndləri |



| | | |
|---|---|---|
| 27 | Rudəkənar bələdiyyəsi | Rudəkənar kəndi |
| 28 | Seləkəran bələdiyyəsi | Seləkəran kəndi |
| 29 | Səncərədi bələdiyyəsi | Səncərədi və Şuvaş kəndləri |
| 30 | Sərək bələdiyyəsi | Sərək kəndi |
| 31 | Sığaloni bələdiyyəsi | Sığaloni kəndi |
| 32 | Sım bələdiyyəsi | Sım kəndi |
| 33 | Sipiyəpart bələdiyyəsi | Sipiyəpart və Çükəş kəndləri |
| 34 | Siyaku bələdiyyəsi | Siyaku, Binabəy və Giləşə kəndləri |
| 35 | Siyətük bələdiyyəsi | Siyətük, Sekəşan və Vəznəş kəndləri |
| 36 | Suparibağ bələdiyyəsi | Suparibağ kəndi |
| 37 | Şağlazüzə bələdiyyəsi | Şağlazüzə, Həsin, Siyakeş və Şıxəməhlə kəndləri |
| 38 | Şahağac bələdiyyəsi | Şahağac kəndi |
| 39 | Şəmətük bələdiyyəsi | Şəmətük, Xıçaso və Sipiyaəlfətik kəndləri |
| 40 | Şəvqo bələdiyyəsi | Şəvqo, Avyarud və Diqo kəndləri |
| 41 | Şiyəkəran bələdiyyəsi | Şiyəkəran kəndi |
| 42 | Şuvi bələdiyyəsi | Şuvi kəndi |
| 43 | Şümrüd bələdiyyəsi | Şümrüd kəndi |
| 44 | Telman bələdiyyəsi | Telman kəndi |
| 45 | Təngərüd bələdiyyəsi | Təngərüd kəndi |
| 46 | Toradi bələdiyyəsi | Toradi və Kamlakan kəndləri |
| 47 | Tüləküvan bələdiyyəsi | Tüləküvan kəndi |
| 48 | Vaqo bələdiyyəsi | Vaqo, Lələkəpeştə və Liəzi kəndləri |
| 49 | Züngüləş bələdiyyəsi | Züngüləş kəndi |
| | **BALAKƏN RAYONU** | |
| 1 | Balakən bələdiyyəsi | Balakən şəhəri |
| 2 | Cederovtala bələdiyyəsi | Cederovtala kəndi |
| 3 | Gərəkli bələdiyyəsi | Gərəkli və Mazımçay kəndləri |
| 4 | Hənifə bələdiyyəsi | Hənifə, Böyüktala, Cincartala, Göyəmtala, Gülüzanbinə və Məlikzadə kəndləri |
| 5 | Xalatala bələdiyyəsi | Xalatala və Göyrüclük kəndləri |
| 6 | İtitala bələdiyyəsi | İtitala kəndi |
| 7 | Katex bələdiyyəsi | Katex və Beretbinə kəndləri |
| 8 | Kortala bələdiyyəsi | Kortala, Beçeqarbinə və Qaralıacılı kəndləri |
| 9 | Qabaqçöl bələdiyyəsi | Qabaqçöl qəsəbəsi |
| 10 | Qasbinə bələdiyyəsi | Qasbinə və Qaracabinə kəndləri |
| 11 | Qaysa bələdiyyəsi | Qaysa və Abjit kəndləri |
| 12 | Qazma bələdiyyəsi | Qazma, Bedağar, Cillik, Darvazbinə, Öküzovtala və Şambulbinə kəndləri |
| 13 | Qullar bələdiyyəsi | Qullar və Acılıqbinə kəndləri |
| 14 | Mahamalar bələdiyyəsi | Mahamalar və Solban kəndləri |

| | | |
|---|---|---|
| 15 | Meşəşambul bələdiyyəsi | Meşəşambul və Qazbölük kəndləri |
| 16 | Poştbinə bələdiyyəsi | Poştbinə və Çorçorbinə kəndləri |
| 17 | Püştətala bələdiyyəsi | Püştətala, Qadaşbinə, Qamıştala, Qaravəli, Pirqax və Mollaçıbinə kəndləri |
| 18 | Roçəhməd bələdiyyəsi | Roçəhməd, Əyritala və Murğuztala kəndləri |
| 19 | Sarıbulaq bələdiyyəsi | Sarıbulaq, Ağkilsə və Kilsəbuqov kəndləri |
| 20 | Şambul bələdiyyəsi | Şambul və İsaxlıgirmə kəndləri |
| 21 | Şərif bələdiyyəsi | Şərif kəndi |
| 22 | Talalar bələdiyyəsi | Talalar, Bayrambinə və Hetovlar kəndləri |
| 23 | Tülü bələdiyyəsi | Tülü, Mazımqarışan və Mazımüstü kəndləri |
| 24 | Yeni Şərif bələdiyyəsi | Yeni Şərif kəndi |
| | **BEYLƏQAN RAYONU** | |
| 1 | Beyləqan bələdiyyəsi | Beyləqan şəhəri |
| 2 | Allahyarlı bələdiyyəsi | Allahyarlı kəndi |
| 3 | Aşağı Çəmənli bələdiyyəsi | Aşağı Çəmənli kəndi |
| 4 | Aşıqalılar bələdiyyəsi | Aşıqalılar kəndi |
| 5 | Bahar bələdiyyəsi | Bahar qəsəbəsi |
| 6 | Baharabad bələdiyyəsi | Baharabad qəsəbəsi |
| 7 | Birinci Aşıqlı bələdiyyəsi | Birinci Aşıqlı kəndi |
| 8 | Birinci Şahsevən bələdiyyəsi | Birinci Şahsevən kəndi və Orconikidze qəsəbəsi |
| 9 | Bolsulu bələdiyyəsi | Bolsulu qəsəbəsi |
| 10 | Bünyadlı bələdiyyəsi | Bünyadlı kəndi |
| 11 | Dünyamalılar bələdiyyəsi | Dünyamalılar kəndi |
| 12 | Eyvazalılar bələdiyyəsi | Eyvazalılar kəndi |
| 13 | Əhmədli bələdiyyəsi | Əhmədli kəndi |
| 14 | Əlinəzərli bələdiyyəsi | Əlinəzərli kəndi |
| 15 | Əmirzeydli bələdiyyəsi | Əmirzeydli kəndi |
| 16 | Gödəklər bələdiyyəsi | Gödəklər kəndi |
| 17 | Günəş bələdiyyəsi | Günəş qəsəbəsi |
| 18 | Xaçınabad bələdiyyəsi | Xaçınabad kəndi |
| 19 | İkinci Aşıqlı bələdiyyəsi | İkinci Aşıqlı kəndi |
| 20 | İkinci Şahsevən bələdiyyəsi | İkinci Şahsevən kəndi |
| 21 | İmamverdili bələdiyyəsi | İmamverdili və Vətağa kəndləri |
| 22 | Kəbirli bələdiyyəsi | Kəbirli kəndi |
| 23 | Qaradağlı bələdiyyəsi | Qaradağlı kəndi |
| 24 | Qaralılar bələdiyyəsi | Qaralılar kəndi |
| 25 | Qəhrəmanlı bələdiyyəsi | Qəhrəmanlı qəsəbəsi |
| 26 | Mayak bələdiyyəsi | Mayak qəsəbəsi |



| | | |
|---|---|---|
| 27 | Mil bələdiyyəsi | Mil qəsəbəsi |
| 28 | Milabad bələdiyyəsi | Milabad qəsəbəsi |
| 29 | Orta Əlinəzərli bələdiyyəsi | Orta Əlinəzərli kəndi |
| 30 | Örənqala bələdiyyəsi | Örənqala qəsəbəsi |
| 31 | Sarısu bələdiyyəsi | Sarısu qəsəbəsi |
| 32 | Şəfəq bələdiyyəsi | Şəfəq qəsəbəsi |
| 33 | Şərq bələdiyyəsi | Şərq qəsəbəsi |
| 34 | Tatalılar bələdiyyəsi | Tatalılar kəndi |
| 35 | Təzəkənd bələdiyyəsi | Təzəkənd kəndi |
| 36 | Türklər bələdiyyəsi | Türklər qəsəbəsi |
| 37 | Yeni Mil bələdiyyəsi | Yeni Mil qəsəbəsi |
| 38 | Yuxarı Aran bələdiyyəsi | Yuxarı Aran qəsəbəsi |
| 39 | Yuxarı Çəmənli bələdiyyəsi | Yuxarı Çəmənli kəndi |
| 40 | Yuxarı Kəbirli bələdiyyəsi | Yuxarı Kəbirli kəndi |
| | **BƏRDƏ RAYONU** | |
| 1 | Bərdə bələdiyyəsi | Bərdə şəhəri |
| 2 | Alaçadırlı bələdiyyəsi | Alaçadırlı kəndi |
| 3 | Alpout bələdiyyəsi | Alpout kəndi |
| 4 | Arabaçılar bələdiyyəsi | Arabaçılar kəndi |
| 5 | Bala Ərəblər bələdiyyəsi | Bala Ərəblər kəndi |
| 6 | Bala Göyüşlü bələdiyyəsi | Bala Göyüşlü kəndi |
| 7 | Bala Qacar bələdiyyəsi | Bala Qacar kəndi |
| 8 | Bayramlı bələdiyyəsi | Bayramlı kəndi |
| 9 | Bəcirəvan bələdiyyəsi | Bəcirəvan kəndi |
| 10 | Birinci Qaradəmirçi bələdiyyəsi | Birinci Qaradəmirçi kəndi |
| 11 | Böyük Göyüşlü bələdiyyəsi | Böyük Göyüşlü kəndi |
| 12 | Böyük Qacar bələdiyyəsi | Böyük Qacar kəndi |
| 13 | Canavarlı bələdiyyəsi | Canavarlı kəndi |
| 14 | Cəyirli bələdiyyəsi | Cəyirli kəndi |
| 15 | Cimcimli bələdiyyəsi | *Cicimli (13)* kəndi |
| 16 | Cumalar bələdiyyəsi | Cumalar kəndi |
| 17 | Çələbilər bələdiyyəsi | Çələbilər kəndi |
| 18 | Dərğalar bələdiyyəsi | Dərğalar kəndi |
| 19 | Dəymədağıldı bələdiyyəsi | Dəymədağıldı kəndi |
| 20 | Dilənçilər bələdiyyəsi | Dilənçilər kəndi |
| 21 | Divanlı bələdiyyəsi | Divanlı kəndi |
| 22 | Əliyanlı bələdiyyəsi | Əliyanlı kəndi |
| 23 | Əmirli bələdiyyəsi | Əmirli kəndi |
| 24 | Ərəblər bələdiyyəsi | Ərəblər kəndi |
| 25 | Əyricə bələdiyyəsi | Əyricə kəndi |
| 26 | Gərənə bələdiyyəsi | Gərənə kəndi |
| 27 | Gülgəzli bələdiyyəsi | Gülgəzli kəndi |
| 28 | Güloğlular bələdiyyəsi | Güloğlular kəndi |

| | | |
|---|---|---|
| 29 | Hacallı bələdiyyəsi | Hacallı kəndi |
| 30 | Hacıalılı bələdiyyəsi | Hacıalılı kəndi |
| 31 | Hacıbəyli bələdiyyəsi | Hacıbəyli kəndi |
| 32 | Hacıəhmədli bələdiyyəsi | Hacıəhmədli kəndi |
| 33 | Hacılar bələdiyyəsi | Hacılar kəndi |
| 34 | Hacılı bələdiyyəsi | Hacılı kəndi |
| 35 | Həsənqaya bələdiyyəsi | Həsənqaya kəndi |
| 36 | Həsənli bələdiyyəsi | Həsənli kəndi |
| 37 | Hüseynalılar bələdiyyəsi | Hüseynalılar kəndi |
| 38 | Hüseynbəyli bələdiyyəsi | Hüseynbəyli kəndi |
| 39 | Xanagahlı bələdiyyəsi | *Oai auaeı(13)* kəndi |
| 40 | Xanərəb bələdiyyəsi | Xanərəb kəndi |
| 41 | Xanxanımlı bələdiyyəsi | Xanxanımlı kəndi |
| 42 | Xəsili bələdiyyəsi | Xəsili kəndi |
| 43 | İkinci Qaradəmirçi bələdiyyəsi | İkinci Qaradəmirçi kəndi |
| 44 | İmamqulubəyli bələdiyyəsi | İmamqulubəyli kəndi |
| 45 | Kafarlı bələdiyyəsi | Kafarlı kəndi |
| 46 | Kələntərli bələdiyyəsi | Kələntərli kəndi |
| 47 | Kərimbəyli bələdiyyəsi | Kərimbəyli kəndi |
| 48 | Kətəlparaq bələdiyyəsi | Kətəlparaq kəndi |
| 49 | Kolayır bələdiyyəsi | Kolayır kəndi |
| 50 | Köbərkənd bələdiyyəsi | Köbərkənd kəndi |
| 51 | Körpüsındıran bələdiyyəsi | Körpüsındıran kəndi |
| 52 | Kürdborakı bələdiyyəsi | Kürdborakı kəndi |
| 53 | Qaradağlı bələdiyyəsi | Qaradağlı kəndi |
| 54 | Qaradəmirçi bələdiyyəsi | Qaradəmirçi kəndi |
| 55 | Qaradırnaq bələdiyyəsi | Qaradırnaq kəndi |
| 56 | *Qarağacı (13)* bələdiyyəsi | *Qarağacı (13)* kəndi |
| 57 | Qaraqoyunlu bələdiyyəsi | Qaraqoyunlu kəndi |
| 58 | Qaraməmmədli bələdiyyəsi | Qaraməmmədli kəndi |
| 59 | Qaratəpə bələdiyyəsi | Qaratəpə kəndi |
| 60 | Qarayusifli bələdiyyəsi | Qarayusifli kəndi |
| 61 | Qasımbəyli bələdiyyəsi | Qasımbəyli kəndi |
| 62 | Qayalı bələdiyyəsi | Qayalı kəndi |
| 63 | Qazaxlar bələdiyyəsi | Qazaxlar kəndi |
| 64 | Qazaxlar bələdiyyəsi | Qazaxlar kəndi |
| 65 | Qazıqurdalı bələdiyyəsi | Qazıqurdalı kəndi |
| 66 | Qəhrəmanlı bələdiyyəsi | Qəhrəmanlı kəndi |
| 67 | Qullar bələdiyyəsi | Qullar kəndi |
| 68 | Qurdlar bələdiyyəsi | Qurdlar kəndi |
| 69 | Lək bələdiyyəsi | Lək kəndi |
| 70 | Lənbəran bələdiyyəsi | Lənbəran kəndi |
| 71 | Mehdixanlı bələdiyyəsi | Mehdixanlı kəndi |



| | | |
|---|---|---|
| 72 | Mehdili bələdiyyəsi | Mehdili kəndi |
| 73 | Məmmədli bələdiyyəsi | Məmmədli kəndi |
| 74 | Məşədiibişli bələdiyyəsi | Məşədiibişli kəndi |
| 75 | Mirasəfli bələdiyyəsi | Mirasəfli kəndi |
| 76 | Mirzalıbəyli bələdiyyəsi | Mirzalıbəyli kəndi |
| 77 | Mirzəcəfərli bələdiyyəsi | Mirzəcəfərli kəndi |
| 78 | Mirzəxan Qaraqoyunlu bələdiyyəsi | Mirzəxan Qaraqoyunlu kəndi |
| 79 | Mollagüllər bələdiyyəsi | Mollagüllər kəndi |
| 80 | Mollaisalar bələdiyyəsi | Mollaisalar kəndi |
| 81 | Mollalı bələdiyyəsi | Mollalı və Çərəlilər kəndləri |
| 82 | Mollaməmmədli bələdiyyəsi | Mollaməmmədli kəndi |
| 83 | Muğanlı bələdiyyəsi | Muğanlı kəndi |
| 84 | Mustafaağalı bələdiyyəsi | Mustafaağalı kəndi |
| 85 | Nəcəfqulubəyli bələdiyyəsi | Nəcəfqulubəyli kəndi |
| 86 | *İkinci Nazırlı (13)* bələdiyyəsi | *İkinci Nazırlı (13)* kəndi |
| 87 | Nəzirli bələdiyyəsi | Nəzirli kəndi |
| 88 | Nifçi bələdiyyəsi | Nifçi kəndi |
| 89 | Otuzikilər bələdiyyəsi | Otuzikilər kəndi |
| 90 | Piyadalar bələdiyyəsi | Piyadalar kəndi |
| 91 | Saatlı bələdiyyəsi | Saatlı kəndi |
| 92 | Samuxlu bələdiyyəsi | Samuxlu kəndi |
| 93 | Sərkarlar bələdiyyəsi | Sərkarlar kəndi |
| 94 | Soğanverdilər bələdiyyəsi | Soğanverdilər kəndi |
| 95 | Şahvəlilər bələdiyyəsi | Şahvəlilər kəndi |
| 96 | Şatırlı bələdiyyəsi | Şatırlı kəndi |
| 97 | Şərəfli bələdiyyəsi | Şərəfli kəndi |
| 98 | Şirvanlı bələdiyyəsi | Şirvanlı kəndi |
| 99 | Şorəlli bələdiyyəsi | Şorəlli kəndi |
| 100 | Tağılar bələdiyyəsi | Tağılar kəndi |
| 101 | Təhlə bələdiyyəsi | Təhlə kəndi |
| 102 | Tumaslı bələdiyyəsi | Tumaslı kəndi |
| 103 | Türkmən bələdiyyəsi | Türkmən kəndi |
| 104 | Uğurbəyli bələdiyyəsi | Uğurbəyli kəndi |
| 105 | Umudalılar bələdiyyəsi | Umudalılar kəndi |
| 106 | Vəliuşağı bələdiyyəsi | Vəliuşağı kəndi |
| 107 | Yeni Daşkənd bələdiyyəsi | Yeni Daşkənd kəndi |
| 108 | Yeni Əyricə bələdiyyəsi | Yeni Əyricə kəndi |
| 109 | Yerliağalı bələdiyyəsi | Yerliağalı kəndi |
| 110 | *Zümürxan (13)* bələdiyyəsi | *Zümürxan (13)* kəndi |
| | **BİLƏSUVAR RAYONU** | |
| 1 | Biləsuvar bələdiyyəsi | Biləsuvar şəhəri |
| 2 | Ağalıkənd bələdiyyəsi | Ağalıkənd kəndi |

| | | |
|---|---|---|
| 3 | Ağayrı bələdiyyəsi | Ağayrı kəndi |
| 4 | Amankənd bələdiyyəsi | Amankənd kəndi |
| 5 | Aranlı bələdiyyəsi | Aranlı kəndi |
| 6 | Arazbarı bələdiyyəsi | Arazbarı kəndi |
| 7 | Aşağı Cürəli bələdiyyəsi | Aşağı Cürəli kəndi |
| 8 | Bağbanlar bələdiyyəsi | Bağbanlar kəndi |
| 9 | Bəydili bələdiyyəsi | Bəydili kəndi |
| 10 | Çinarlı bələdiyyəsi | Çinarlı kəndi |
| 11 | Dərvişli bələdiyyəsi | Dərvişli kəndi |
| 12 | Əliabad bələdiyyəsi | Əliabad kəndi |
| 13 | Əsgərabad bələdiyyəsi | Əsgərabad kəndi |
| 14 | *Çaylı (9) bələdiyyəsi* | *Çaylı (9) kəndi* |
| 15 | Xırmandalı bələdiyyəsi | Xırmandalı kəndi |
| 16 | İsmətli bələdiyyəsi | İsmətli kəndi |
| 17 | *Günəşli (9) bələdiyyəsi* | *Günəşli (9) kəndi* |
| 18 | Muğan bələdiyyəsi | Muğan kəndi |
| 19 | Nərimankənd bələdiyyəsi | Nərimankənd kəndi |
| 20 | Nəsimi bələdiyyəsi | Nəsimi kəndi |
| 21 | Ovçubərə bələdiyyəsi | Ovçubərə kəndi |
| 22 | Səmədabad bələdiyyəsi | Səmədabad kəndi |
| 23 | Təzəkənd bələdiyyəsi | Təzəkənd kəndi |
| 24 | Yuxarı Ağalı bələdiyyəsi | Yuxarı Ağalı kəndi |
| 25 | Yuxarı Cürəli bələdiyyəsi | Yuxarı Cürəli kəndi |
| 26 | Zəhmətabad bələdiyyəsi | Zəhmətabad kəndi |
| | **CƏLİLABAD RAYONU** | |
| 1 | Cəlilabad bələdiyyəsi | Cəlilabad şəhəri |
| 2 | Göytəpə bələdiyyəsi | Göytəpə şəhəri |
| 3 | Abazallı bələdiyyəsi | Abazallı kəndi |
| 4 | Abdullu bələdiyyəsi | Abdullu kəndi |
| 5 | Abışabad bələdiyyəsi | Abışabad kəndi |
| 6 | Adnalı bələdiyyəsi | Adnalı kəndi |
| 7 | Ağbulaq bələdiyyəsi | Ağbulaq kəndi |
| 8 | Ağdaş bələdiyyəsi | Ağdaş kəndi |
| 9 | Ağusəm bələdiyyəsi | Ağusəm kəndi |
| 10 | Axtaxana bələdiyyəsi | Axtaxana kəndi |
| 11 | Alar bələdiyyəsi | Alar kəndi |
| 12 | Alaşar bələdiyyəsi | Alaşar kəndi |
| 13 | Albalan bələdiyyəsi | Albalan kəndi |
| 14 | Allahverənli bələdiyyəsi | Allahverənli kəndi |
| 15 | Astanlı bələdiyyəsi | Astanlı kəndi |
| 16 | Babaxanlı bələdiyyəsi | Babaxanlı kəndi |
| 17 | Babalı bələdiyyəsi | Babalı kəndi |
| 18 | Badamağac bələdiyyəsi | Badamağac kəndi |



| | | |
|---|---|---|
| 19 | Badamağac bələdiyyəsi | Badamağac kəndi |
| 20 | Bacirəvan bələdiyyəsi | Bacirəvan kəndi |
| 21 | Bədirli bələdiyyəsi | Bədirli kəndi |
| 22 | Boyxanlı bələdiyyəsi | Boyxanlı kəndi |
| 23 | Buravar bələdiyyəsi | Buravar kəndi |
| 24 | Cəfərxanlı bələdiyyəsi | Cəfərxanlı kəndi |
| 25 | Cəfərli bələdiyyəsi | Cəfərli kəndi |
| 26 | Cəlayir bələdiyyəsi | Cəlayir kəndi |
| 27 | Cəngan bələdiyyəsi | Cəngan kəndi |
| 28 | Çinar bələdiyyəsi | Çinar kəndi |
| 29 | Çünəxanlı bələdiyyəsi | Çünəxanlı kəndi |
| 30 | Çünzəli bələdiyyəsi | Çünzəli kəndi |
| 31 | Darılıq bələdiyyəsi | Darılıq kəndi |
| 32 | Dələli bələdiyyəsi | Dələli kəndi |
| 33 | Dostallı bələdiyyəsi | Dostallı kəndi |
| 34 | Dövlətalıbəyli bələdiyyəsi | Dövlətalıbəyli kəndi |
| 35 | Edişə bələdiyyəsi | Edişə kəndi |
| 36 | Əliabad bələdiyyəsi | Əliabad kəndi |
| 37 | Əliqasımlı bələdiyyəsi | Əliqasımlı kəndi |
| 38 | Əsədli bələdiyyəsi | Əsədli kəndi |
| 39 | Ətcələr bələdiyyəsi | Ətcələr kəndi |
| 40 | Fərəcullalı bələdiyyəsi | Fərəcullalı kəndi |
| 41 | Fərzili bələdiyyəsi | Fərzili kəndi |
| 42 | Fətullaqışlaq bələdiyyəsi | Fətullaqışlaq kəndi |
| 43 | Gülməmmədli bələdiyyəsi | Gülməmmədli kəndi |
| 44 | Günəşli bələdiyyəsi | Günəşli kəndi |
| 45 | Hacıcavadlı bələdiyyəsi | Hacıcavadlı kəndi |
| 46 | Hacıismayıllı bələdiyyəsi | Hacıismayıllı kəndi |
| 47 | Hacıməmmədli bələdiyyəsi | Hacıməmmədli kəndi |
| 48 | Hamarqışlaq bələdiyyəsi | Hamarqışlaq kəndi |
| 49 | Hasıllı bələdiyyəsi | Hasıllı kəndi |
| 50 | Həsənli bələdiyyəsi | Həsənli kəndi |
| 51 | Həziabad bələdiyyəsi | Həziabad kəndi |
| 52 | Xanəgah bələdiyyəsi | Xanəgah kəndi |
| 53 | Xanılı bələdiyyəsi | Xanılı kəndi |
| 54 | Xəlilabad bələdiyyəsi | Xəlilabad kəndi |
| 55 | Xəlilli bələdiyyəsi | Xəlilli kəndi |
| 56 | İcarə bələdiyyəsi | İcarə kəndi |
| 57 | İncilli bələdiyyəsi | İncilli kəndi |
| 58 | İnili bələdiyyəsi | İnili kəndi |
| 59 | Kazımabad bələdiyyəsi | Kazımabad kəndi |
| 60 | Komanlı bələdiyyəsi | Komanlı kəndi |
| 61 | Kövüzbulaq bələdiyyəsi | Kövüzbulaq kəndi |

| | | |
|---|---|---|
| 62 | Kövüzbulaq bələdiyyəsi | Kövüzbulaq kəndi |
| 63 | Kürdlər bələdiyyəsi | Kürdlər kəndi |
| 64 | Qamışlıgöl bələdiyyəsi | Qamışlıgöl kəndi |
| 65 | Qaraağac bələdiyyəsi | Qaraağac kəndi |
| 66 | Qarakazımlı bələdiyyəsi | Qarakazımlı kəndi |
| 67 | Qarazəncir bələdiyyəsi | Qarazəncir kəndi |
| 68 | Qarğılı bələdiyyəsi | Qarğılı kəndi |
| 69 | Qasımbəyli bələdiyyəsi | Qasımbəyli kəndi |
| 70 | Lallar bələdiyyəsi | Lallar kəndi |
| 71 | Ləkin bələdiyyəsi | Ləkin kəndi |
| 72 | Ləzran bələdiyyəsi | Ləzran kəndi |
| 73 | Maşlıq bələdiyyəsi | Maşlıq kəndi |
| 74 | Mədətli bələdiyyəsi | Mədətli kəndi |
| 75 | Məlikqasımlı bələdiyyəsi | Məlikqasımlı kəndi |
| 76 | Məmmədcanlı bələdiyyəsi | Məmmədcanlı kəndi |
| 77 | Məmmədrzalı bələdiyyəsi | Məmmədrzalı kəndi |
| 78 | Məşədi Hüseynli bələdiyyəsi | Məşədi Hüseynli kəndi |
| 79 | Məşədilər bələdiyyəsi | Məşədilər kəndi |
| 80 | Məşədivəlli bələdiyyəsi | Məşədivəlli kəndi |
| 81 | Mikayıllı bələdiyyəsi | Mikayıllı kəndi |
| 82 | Mirtəhməzli bələdiyyəsi | Mirtəhməzli kəndi |
| 83 | Mirzəli bələdiyyəsi | Mirzəli kəndi |
| 84 | Mollalı bələdiyyəsi | Mollalı kəndi |
| 85 | Moranlı bələdiyyəsi | Moranlı kəndi |
| 86 | Muğan bələdiyyəsi | Muğan kəndi |
| 87 | Musalı bələdiyyəsi | Musalı kəndi |
| 88 | Novruzallı bələdiyyəsi | Novruzallı kəndi |
| 89 | Ocaqlı bələdiyyəsi | Ocaqlı kəndi |
| 90 | Oğrubulaq bələdiyyəsi | Oğrubulaq kəndi |
| 91 | Pərdi bələdiyyəsi | Pərdi kəndi |
| 92 | Porsava bələdiyyəsi | Porsava kəndi |
| 93 | Privolnoye bələdiyyəsi | Privolnoye kəndi |
| 94 | Sabirabad bələdiyyəsi | Sabirabad kəndi |
| 95 | Sadatlı bələdiyyəsi | Sadatlı kəndi |
| 96 | Sarxanlı bələdiyyəsi | Sarxanlı kəndi |
| 97 | Seyidbazar bələdiyyəsi | Seyidbazar kəndi |
| 98 | Sərhədabad bələdiyyəsi | Sərhədabad kəndi |
| 99 | Soltankənd bələdiyyəsi | Soltankənd kəndi |
| 100 | Söyüdlü bələdiyyəsi | Söyüdlü kəndi |
| 101 | Suluçeşmə bələdiyyəsi | Suluçeşmə kəndi |
| 102 | Şabanlı bələdiyyəsi | Şabanlı kəndi |
| 103 | Şatırlı bələdiyyəsi | Şatırlı kəndi |
| 104 | Şıxlar bələdiyyəsi | Şıxlar kəndi |



| | | |
|---|---|---|
| 105 | Şiləvəngə bələdiyyəsi | Şiləvəngə kəndi |
| 106 | Şorbaçı bələdiyyəsi | Şorbaçı kəndi |
| 107 | Şötüklü bələdiyyəsi | Şötüklü kəndi |
| 108 | Şükürlü bələdiyyəsi | Şükürlü kəndi |
| 109 | Tahirli bələdiyyəsi | Tahirli kəndi |
| 110 | Təklə bələdiyyəsi | Təklə kəndi |
| 111 | Təzəkənd bələdiyyəsi | Təzəkənd kəndi |
| 112 | Təzəkənd bələdiyyəsi | Təzəkənd kəndi |
| 113 | Uzuntəpə bələdiyyəsi | Uzuntəpə kəndi və Novoqolovka qəsəbəsi |
| 114 | Üçtəpə bələdiyyəsi | Üçtəpə kəndi |
| 115 | Vənlik bələdiyyəsi | Vənlik kəndi |
| 116 | Yusifli bələdiyyəsi | Yusifli kəndi |
| 117 | Zəhmətabad bələdiyyəsi | Zəhmətabad kəndi |
| 118 | Zərbəli bələdiyyəsi | Zərbəli kəndi |
| 119 | Zopun bələdiyyəsi | Zopun kəndi |
| | **DAŞKƏSƏN RAYONU** | |
| 1 | Daşkəsən bələdiyyəsi | Daşkəsən şəhəri və Alunitdağ qəsəbəsi |
| 2 | Alaxançallı bələdiyyəsi | Alaxançallı kəndi |
| 3 | Astaf bələdiyyəsi | Astaf kəndi |
| 4 | Bayan bələdiyyəsi | Bayan kəndi |
| 5 | Çanaqçı bələdiyyəsi | Çanaqçı və Zivlan kəndləri |
| 6 | Çıraqlı bələdiyyəsi | Çıraqlı kəndi |
| 7 | Çovdar bələdiyyəsi | Çovdar və Çaykənd kəndləri |
| 8 | Daşkəsən qəsəbə bələdiyyəsi | Daşkəsən qəsəbəsi və Aşağı Daşkəsən kəndi |
| 9 | Dəstəfur bələdiyyəsi | Dəstəfur kəndi |
| 10 | Əhmədli bələdiyyəsi | Əhmədli və Dardərə kəndləri |
| 11 | Əhmədli bələdiyyəsi | Əhmədli kəndi |
| 12 | Əmirvar bələdiyyəsi | Əmirvar və Qazaxlı kəndləri |
| 13 | Gurbulaq bələdiyyəsi | Gurbulaq kəndi |
| 14 | Xoşbulaq bələdiyyəsi | Xoşbulaq kəndi |
| 15 | Kəmərqaya bələdiyyəsi | Kəmərqaya kəndi |
| 16 | Qabaqtəpə bələdiyyəsi | Qabaqtəpə, Gəlinqaya və Rəsullu kəndləri |
| 17 | Qaraqullar bələdiyyəsi | Qaraqullar, Qaratağlar və Şahkərəm kəndləri |
| 18 | Qazaxyolçular bələdiyyəsi | Qazaxyolçular kəndi |
| 19 | Qıyıqlı bələdiyyəsi | Qıyıqlı kəndi |
| 20 | Quşçu bələdiyyəsi | Quşçu kəndi |
| 21 | Quşçu qəsəbə bələdiyyəsi | Quşçu və Quşçu körpüsü qəsəbələri |
| 22 | Quytul bələdiyyəsi | Quytul kəndi |
| 23 | Mollahəsənli bələdiyyəsi | Mollahəsənli kəndi |

| | | |
|---|---|---|
| 24 | Muşavaq bələdiyyəsi | Muşavaq kəndi |
| 25 | Pirverdilər bələdiyyəsi | Pirverdilər kəndi |
| 26 | Şahvələdli bələdiyyəsi | Şahvələdli kəndi |
| 27 | Tapan bələdiyyəsi | Tapan, Dəvrallı və Güneykənd kəndləri |
| 28 | Təzəkənd bələdiyyəsi | Təzəkənd kəndi |
| 29 | Yuxarı Daşkəsən bələdiyyəsi | Yuxarı Daşkəsən qəsəbəsi |
| 30 | Zağalı bələdiyyəsi | Zağalı kəndi |
| 31 | Zəylik bələdiyyəsi | Zəylik kəndi |
| 32 | Zinzahal bələdiyyəsi | Zinzahal, Almalı, Kollu, Suqovuşan və Yolqullar kəndləri |
| | **DƏVƏÇİ RAYONU** | |
| 1 | Dəvəçi bələdiyyəsi | Dəvəçi şəhəri |
| 2 | Ağalıq bələdiyyəsi | Ağalıq kəndi |
| 3 | Ağbaş bələdiyyəsi | Ağbaş kəndi |
| 4 | Aygünlü bələdiyyəsi | Aygünlü kəndi |
| 5 | Çaraq bələdiyyəsi | Çaraq, Güləh, Hacıiskəndərli, Kyünçal, Təkyə və Uqah kəndləri |
| 6 | Çayqaraqaşlı bələdiyyəsi | Çayqaraqaşlı kəndi |
| 7 | Çölquşçu bələdiyyəsi | Çölquşçu kəndi |
| 8 | Çuxurazəmi bələdiyyəsi | Çuxurazəmi, Çovurar, Dəhnə, Qəriblik, Qızılqazma və Zöhrabkənd kəndləri |
| 9 | Dağ Bilici bələdiyyəsi | Dağ Bilici və Mumlu kəndləri |
| 10 | Düz Bilici bələdiyyəsi | Düz Bilici, Çinarlar, Nohurlar və Zağlı kəndləri |
| 11 | Əmirxanlı bələdiyyəsi | Əmirxanlı və Üzümlü kəndləri |
| 12 | Gəndov bələdiyyəsi | Gəndov kəndi |
| 13 | Günəşli bələdiyyəsi | Günəşli və Daşlıyataq kəndləri |
| 14 | Hacıqaraqaşlı bələdiyyəsi | Hacıqaraqaşlı kəndi |
| 15 | Xəlfələr bələdiyyəsi | Xəlfələr və Yeləkəsən kəndləri |
| 16 | Xəlilli bələdiyyəsi | Xəlilli, Liman və Sarvan kəndləri |
| 17 | Qazbabalı bələdiyyəsi | Qazbabalı kəndi |
| 18 | Qələgah bələdiyyəsi | Qələgah və Ləcədi kəndləri |
| 19 | Qorğan bələdiyyəsi | Qorğan, Bilici Qorğan və İzmara kəndləri |
| 20 | Leyti bələdiyyəsi | Leyti kəndi |
| 21 | Məliklər bələdiyyəsi | Məliklər kəndi |
| 22 | Mollakamallı bələdiyyəsi | Mollakamallı kəndi |
| 23 | Padar bələdiyyəsi | Padar və Borbor kəndləri |
| 24 | Pirəbədil bələdiyyəsi | Pirəbədil, Sumağava, Sumağava Qazma və Zöhramı kəndləri |
| 25 | Pirəmsən bələdiyyəsi | Pirəmsən və Ərəblər kəndləri |
| 26 | Rəhimli bələdiyyəsi | Rəhimli və Meytablı kəndləri |
| 27 | Sincanboyad bələdiyyəsi | Sincanboyad kəndi |



| | | |
|---|---|---|
| 28 | Surra bələdiyyəsi | Surra kəndi |
| 29 | Söhbətli bələdiyyəsi | Söhbətli kəndi |
| 30 | Şahnəzərli bələdiyyəsi | Şahnəzərli kəndi |
| 31 | Taxtalar bələdiyyəsi | Taxtalar kəndi |
| 32 | Təzəkənd bələdiyyəsi | Təzəkənd kəndi |
| 33 | Təzəkənd bələdiyyəsi | Təzəkənd, Xırdaoymaq, Qaraçaylı və Udulu kəndləri |
| 34 | Uzunboyad bələdiyyəsi | Uzunboyad kəndi |
| 35 | Vələsli bələdiyyəsi | Vələsli və Ceyranlı kəndləri |
| 36 | Zeyvə bələdiyyəsi | Zeyvə və Kilvar kəndləri |
| | **FÜZULİ RAYONU** | |
| 1 | Alxanlı bələdiyyəsi | Alxanlı kəndi |
| 2 | Arayatlı bələdiyyəsi | Arayatlı kəndi |
| 3 | Araz Dilağarda bələdiyyəsi | Araz Dilağarda kəndi |
| 4 | Araz Zərgər bələdiyyəsi | Araz Zərgər kəndi |
| 5 | Aşağı Kürdmahmudlu bələdiyyəsi | Aşağı Kürdmahmudlu kəndi |
| 6 | Aşağı Yağlıvənd bələdiyyəsi | Aşağı Yağlıvənd kəndi |
| 7 | Babı bələdiyyəsi | Babı kəndi |
| 8 | Bala Bəhmənli bələdiyyəsi | Bala Bəhmənli kəndi |
| 9 | Birinci Mahmudlu bələdiyyəsi | Birinci Mahmudlu kəndi |
| 10 | Böyük Bəhmənli bələdiyyəsi | Böyük Bəhmənli kəndi |
| 11 | Əhmədalılar bələdiyyəsi | Əhmədalılar kəndi |
| 12 | Əhmədbəyli bələdiyyəsi | Əhmədbəyli və İkinci Mahmudlu kəndləri |
| 13 | Horadiz bələdiyyəsi | *Horadiz şəhəri (12)* |
| 14 | Kərimbəyli bələdiyyəsi | Kərimbəyli kəndi |
| 15 | Qazaxlar bələdiyyəsi | Qazaxlar və Mirzənağılı kəndləri |
| 16 | Mollaməhərrəmli bələdiyyəsi | Mollaməhərrəmli kəndi |
| 17 | Şükürbəyli bələdiyyəsi | Şükürbəyli kəndi |
| 18 | Yuxarı Kürdmahmudlu bələdiyyəsi | Yuxarı Kürdmahmudlu kəndi |
| *19* | *1 №-li Qayıdış bələdiyyəsi* | *1 №-li Qayıdış qəsəbəsi (8)* |
| *20* | *2 №-li Qayıdış bələdiyyəsi* | *2 №-li Qayıdış qəsəbəsi (8)* |
| *21* | *3 №-li Qayıdış bələdiyyəsi* | *3 №-li Qayıdış qəsəbəsi (8)* |
| *22* | *4 №-li Qayıdış bələdiyyəsi* | *4 №-li Qayıdış qəsəbəsi (8)* |
| *23* | *5 №-li Qayıdış bələdiyyəsi* | *5 №-li Qayıdış qəsəbəsi (8)* |
| *24* | *6 №-li Qayıdış bələdiyyəsi* | *6 №-li Qayıdış qəsəbəsi (8)* |
| *25* | *7 №-li Qayıdış bələdiyyəsi* | *7 №-li Qayıdış qəsəbəsi (8)* |
| *26* | *8 №-li Qayıdış bələdiyyəsi* | *8 №-li Qayıdış qəsəbəsi (8)* |
| *27* | *9 №-li Qayıdış bələdiyyəsi* | *9 №-li Qayıdış qəsəbəsi (8)* |
| *28* | *10 №-li Qayıdış bələdiyyəsi* | *10 №-li Qayıdış qəsəbəsi (8)* |
| *29* | *11 №-li Qayıdış bələdiyyəsi* | *11 №-li Qayıdış qəsəbəsi (8)* |

| | GƏDƏBƏY RAYONU | |
|---|---|---|
| 1 | Gədəbəy bələdiyyəsi | Gədəbəy şəhəri |
| 2 | Ağamalı bələdiyyəsi | Ağamalı kəndi |
| 3 | Arabaçı bələdiyyəsi | Arabaçı və Fərzalı kəndləri |
| 4 | Arıqdam bələdiyyəsi | Arıqdam kəndi |
| 5 | Arıqıran bələdiyyəsi | Arıqıran və Əyrivəng kəndləri |
| 6 | Böyük Qaramurad bələdiyyəsi | Böyük Qaramurad, Ataxal, Qurudərə və Toplar kəndləri |
| 7 | Çalburun bələdiyyəsi | Çalburun kəndi |
| 8 | Çaldaş bələdiyyəsi | Çaldaş və Səbətkeçməz kəndləri |
| 9 | Çay Rəsullu bələdiyyəsi | Çay Rəsullu, Bəydəmirli və Turşsu kəndləri |
| 10 | Çobankənd bələdiyyəsi | Çobankənd və Yenikənd kəndləri |
| 11 | Daryurd bələdiyyəsi | Daryurd, Cəfərli və Nağılar kəndləri |
| 12 | Dəyəqarabulaq bələdiyyəsi | Dəyəqarabulaq, Musayal və *Günəşli (5)* kəndləri |
| 13 | Dəyirmandağ bələdiyyəsi | Dəyirmandağ, Hacıələkbərli, Köhnəkənd, Qurudərə və Sarıköynək kəndləri |
| 14 | Düz Rəsullu bələdiyyəsi | Düz Rəsullu, Gərməşöylü, Göyəmli, Rəhimli, Hüseynqulular və Təkyemişan kəndləri |
| 15 | Düzyurd bələdiyyəsi | Düzyurd və Aytala kəndləri |
| 16 | Əliismayıllı bələdiyyəsi | Əliismayıllı kəndi |
| 17 | Əlinağılar bələdiyyəsi | Əlinağılar və Arısu kəndləri |
| 18 | Ərtəpə bələdiyyəsi | Ərtəpə, Pirbulaq və Soyuqbulaq kəndləri |
| 19 | Gərgər bələdiyyəsi | Gərgər, Qarıkənd və Yenikənd kəndləri |
| 20 | Göyəlli bələdiyyəsi | Göyəlli kəndi |
| 21 | Hacılar bələdiyyəsi | Hacılar, Əyridərə, Qaravəlilər, Məmmədcəfərli və Sonalar kəndləri |
| 22 | Xarxar bələdiyyəsi | Xarxar kəndi |
| 23 | İnəkboğan bələdiyyəsi | İnəkboğan, Kərimli, Köhnəqışlaq və Qasımlı kəndləri |
| 24 | İsalı bələdiyyəsi | İsalı, Cücanlı, Dördlər, Qasımağalı və Motudərə kəndləri |
| 25 | Kiçik Qaramurad bələdiyyəsi | Kiçik Qaramurad və Leşkər kəndləri |
| 26 | Qaradağ bələdiyyəsi | Qaradağ və *Daşbulaq (5)* kəndləri |
| 27 | Qaraməmmədli bələdiyyəsi | Qaraməmmədli, Dikdaş və Kəsəmən kəndləri |
| 28 | Qoşabulaq bələdiyyəsi | Qoşabulaq, Tərs yer və Totuqlu kəndləri |
| 29 | Mormor bələdiyyəsi | Mormor və Zamanlı kəndləri |
| 30 | Novoivanovka bələdiyyəsi | Novoivanovka kəndi |
| 31 | Novosaratovka bələdiyyəsi | Novosaratovka kəndi |



| | | |
|---|---|---|
| 32 | *Nərimankənd (5)* bələdiyyəsi | *Nərimankənd (5)* kəndi |
| 33 | Parakənd bələdiyyəsi | Parakənd və Qarovultomba kəndləri |
| 34 | Pərizamanlı bələdiyyəsi | Pərizamanlı kəndi |
| 35 | Plankənd bələdiyyəsi | Plankənd və Qalakənd kəndləri |
| 36 | Poladlı bələdiyyəsi | Poladlı, Əmir, Hacıalılar, Heriknaz, Kələman və Qozqaralı kəndləri |
| 37 | Rüstəm Əliyev bələdiyyəsi | Rüstəm Əliyev kəndi |
| 38 | Samanlıq bələdiyyəsi | Samanlıq, Moruxlu və Rəmə kəndləri |
| 39 | Slavyanka bələdiyyəsi | Slavyanka və Maarif kəndləri |
| 40 | Söyüdlü bələdiyyəsi | Söyüdlü kəndi |
| 41 | Şəkərbəy bələdiyyəsi | Şəkərbəy, Əmiraslanlı, Gödəkdərə, Heydərli, Qasımağalı, Sarıhəsənli və Yaqublu kəndləri |
| 42 | Şınıx bələdiyyəsi | Şınıx və Kollu kəndləri |
| 43 | *Şahdağ (5)* bələdiyyəsi | *Şahdağ (5)* və Arabaçı kəndləri |
| 44 | Zəhmətkənd bələdiyyəsi | Zəhmətkənd və Qarabulaq kəndləri |
| | GORANBOY RAYONU | |
| 1 | Goranboy bələdiyyəsi | Goranboy şəhəri, İrəvanlı, Qarasüleymanlı və Şahməmmədli kəndləri |
| 2 | Dəliməmmədli bələdiyyəsi | Dəliməmmədli şəhəri və Sarovlu kəndi |
| 3 | Abbasqulular bələdiyyəsi | Abbasqulular kəndi |
| 4 | Ağamalıoğlu bələdiyyəsi | Ağamalıoğlu kəndi |
| 5 | Alpout bələdiyyəsi | Alpout kəndi |
| 6 | Aşağı Ağcakənd bələdiyyəsi | Aşağı Ağcakənd, Yuxarı Ağcakənd qəsəbələri, *Yuxarı Ballıqaya (7)* və Meşəli kəndləri |
| 7 | Bağçakürd bələdiyyəsi | Bağçakürd kəndi |
| 8 | Borsunlu bələdiyyəsi | Borsunlu və Qazaxlar kəndləri |
| 9 | Börü bələdiyyəsi | Börü kəndi |
| 10 | Buzluq bələdiyyəsi | Buzluq, Baş Qışlaq və Gülüstan kəndləri |
| 11 | Cinli Boluslu bələdiyyəsi | Cinli Boluslu kəndi |
| 12 | Dəyirmanlar bələdiyyəsi | Dəyirmanlar və Azad kəndləri |
| 13 | Eyvazlılar bələdiyyəsi | Eyvazlılar kəndi |
| 14 | Əlirzalı bələdiyyəsi | Əlirzalı kəndi |
| 15 | Əzizbəyov bələdiyyəsi | Əzizbəyov kəndi |
| 16 | Fəxralı bələdiyyəsi | Fəxralı kəndi |
| 17 | Goran bələdiyyəsi | Goran qəsəbəsi |
| 18 | Goranlı bələdiyyəsi | Goranlı kəndi |
| 19 | Gürzallar bələdiyyəsi | Gürzallar kəndi |
| 20 | Hacallı bələdiyyəsi | Hacallı və Şəfibəyli kəndləri |
| 21 | Hazırəhmədli bələdiyyəsi | Hazırəhmədli, Bəşirli, Göynüyən və Qarasuçu kəndləri |

| | | |
|---|---|---|
| 22 | Xan Qərvənd bələdiyyəsi | Xan Qərvənd kəndi |
| 23 | Xınalı bələdiyyəsi | Xınalı kəndi |
| 24 | Xoylu bələdiyyəsi | Xoylu kəndi |
| 25 | Kələk bələdiyyəsi | Kələk kəndi |
| 26 | Kürəkçay bələdiyyəsi | Kürəkçay qəsəbəsi və Qazançı kəndi |
| 27 | Qaraçinar bələdiyyəsi | Qaraçinar, Qaxtut və Yenikənd kəndləri |
| 28 | Qaradağlı bələdiyyəsi | Qaradağlı kəndi |
| 29 | Qaramusalı bələdiyyəsi | Qaramusalı və Həmənli kəndləri |
| 30 | Qarqucaq bələdiyyəsi | Qarqucaq kəndi |
| 31 | Qasımbəyli bələdiyyəsi | Qasımbəyli kəndi |
| 32 | Qaşaltı Qaraqoyunlu bələdiyyəsi | Qaşaltı Qaraqoyunlu kəndi |
| 33 | Qazanbulaq bələdiyyəsi | Qazanbulaq qəsəbəsi |
| 34 | Qınqlı bələdiyyəsi | Qınqlı, Gülməmmədli və Qarapirimli kəndləri |
| 35 | Qızılhacılı bələdiyyəsi | Qızılhacılı qəsəbəsi, Balakürd və *Aşağı Ballıqaya (7)* kəndləri |
| 36 | Qurbanzadə bələdiyyəsi | Qurbanzadə kəndi |
| 37 | Quşçular bələdiyyəsi | Quşçular kəndi |
| 38 | Mənəşli bələdiyyəsi | Mənəşli və Erkeç kəndləri |
| 39 | Məşədiqaralar bələdiyyəsi | Məşədiqaralar kəndi |
| 40 | Muzdurlar bələdiyyəsi | Muzdurlar kəndi |
| 41 | Nadirkənd bələdiyyəsi | Nadirkənd kəndi |
| 42 | Nərimanlı bələdiyyəsi | Nərimanlı və Cinli Zeynallı kəndləri |
| 43 | Nizami bələdiyyəsi | Nizami kəndi |
| 44 | Rəhimli bələdiyyəsi | Rəhimli kəndi |
| 45 | Rus Borisi bələdiyyəsi | Rus Borisi kəndi |
| 46 | Sarov bələdiyyəsi | Sarov kəndi |
| 47 | Səfikürd bələdiyyəsi | Səfikürd kəndi |
| 48 | Səmədabad bələdiyyəsi | Səmədabad və Xasadarlı kəndləri |
| 49 | Şadılı bələdiyyəsi | Şadılı kəndi |
| 50 | Şəfəq bələdiyyəsi | Şəfəq kəndi |
| 51 | Şıxlar bələdiyyəsi | Şıxlar kəndi |
| 52 | Tap Qaraqoyunlu bələdiyyəsi | Tap Qaraqoyunlu və Tap kəndləri |
| 53 | Tatarlı bələdiyyəsi | Tatarlı kəndi |
| 54 | Todan bələdiyyəsi | Todan kəndi |
| 55 | Veyisli bələdiyyəsi | Veyisli kəndi |
| 56 | Yeni yol bələdiyyəsi | Yeni yol və Təklə kəndləri |
| 57 | Yəhərçi Qazaxlar bələdiyyəsi | Yəhərçi Qazaxlar kəndi |
| 58 | Yolqulular bələdiyyəsi | Yolqulular kəndi |
| 59 | Yolpaq bələdiyyəsi | Yolpaq və Əhmədabad kəndləri |
| 60 | Zeyvə bələdiyyəsi | Zeyvə kəndi |



| | | |
|---|---|---|
| | **GÖYÇAY RAYONU** | |
| 1 | Göyçay bələdiyyəsi | Göyçay şəhəri |
| 2 | Alxasava bələdiyyəsi | Alxasava kəndi |
| 3 | Alpout bələdiyyəsi | Alpout kəndi |
| 4 | Aşağı Qaraməryəm bələdiyyəsi | Aşağı Qaraməryəm kəndi |
| 5 | Bəydövül bələdiyyəsi | Bəydövül kəndi |
| 6 | Bığır bələdiyyəsi | Bığır və Cırqurd kəndləri |
| 7 | Çaxırlı bələdiyyəsi | Çaxırlı kəndi |
| 8 | Çayarxı bələdiyyəsi | Çayarxı kəndi |
| 9 | Cəyirli bələdiyyəsi | Cəyirli və Qubadlı Şıxlı kəndləri |
| 10 | Çərəcə bələdiyyəsi | Çərəcə və Cəyirli kəndləri |
| 11 | Çərəkə bələdiyyəsi | Çərəkə kəndi |
| 12 | Dövranlı bələdiyyəsi | Dövranlı kəndi |
| 13 | Ərəbcəbirli bələdiyyəsi | Birinci Ərəbcəbirli və İkinci Ərəbcəbirli kəndləri |
| 14 | Hacalıkənd bələdiyyəsi | Hacalıkənd kəndi |
| 15 | Xəlitli bələdiyyəsi | Xəlitli kəndi |
| 16 | İncə bələdiyyəsi | İncə kəndi |
| 17 | Kürdəmiş bələdiyyəsi | Kürdəmiş və Türkmən kəndləri |
| 18 | Kürdşaban bələdiyyəsi | Kürdşaban və Yenikənd kəndləri |
| 19 | Qarabaqqal bələdiyyəsi | Qarabaqqal kəndi |
| 20 | Qaraxıdır bələdiyyəsi | Qaraxıdır kəndi |
| 21 | Qaraman bələdiyyəsi | Qaraman kəndi |
| 22 | Qaraməryəm bələdiyyəsi | Qaraməryəm kəndi |
| 23 | Qarayazı bələdiyyəsi | Qarayazı kəndi |
| 24 | Qızılağac bələdiyyəsi | Qızılağac və Mollahacılı kəndləri |
| 25 | Ləkçılpaq bələdiyyəsi | Ləkçılpaq kəndi |
| 26 | Mallı Şıxlı bələdiyyəsi | Mallı Şıxlı və Ərəbşahverdi kəndləri |
| 27 | Məlikkənd bələdiyyəsi | Məlikkənd və Şıxəmir kəndləri |
| 28 | Mırtı bələdiyyəsi | Mırtı və Alıkənd kəndləri |
| 29 | Mirzəhüseynli bələdiyyəsi | Mirzəhüseynli kəndi |
| 30 | Müskürlü bələdiyyəsi | Müskürlü və Qəbələ Müskürlü kəndləri |
| 31 | Potu bələdiyyəsi | Potu, Kürd və Ulaşlı Şıxlı kəndləri |
| 32 | Şahsoltanlı bələdiyyəsi | Şahsoltanlı kəndi |
| 33 | Şəhadət bələdiyyəsi | Şəhadət və Qarabağlar kəndləri |
| 34 | Şəkər bələdiyyəsi | Şəkər kəndi |
| 35 | Şəkili bələdiyyəsi | Şəkili kəndi |
| 36 | Şıxbəy bələdiyyəsi | Şıxbəy kəndi |
| 37 | Üngütlü bələdiyyəsi | Üngütlü kəndi |
| 38 | Veysəlli bələdiyyəsi | Veysəlli kəndi |
| 39 | Yalman bələdiyyəsi | Yalman kəndi |
| 40 | Yekəxana bələdiyyəsi | Yekəxana kəndi |
| 41 | Yeniarx bələdiyyəsi | Yeniarx və Hacıağabəyli kəndləri |

| | | |
|---|---|---|
| | **HACIQABUL RAYONU** | |
| 1 | Hacıqabul bələdiyyəsi | Hacıqabul şəhəri və Balıqçı qəsəbəsi |
| 2 | Abdulyan bələdiyyəsi | Abdulyan kəndi |
| 3 | Ağacanlı bələdiyyəsi | Ağacanlı kəndi |
| 4 | Axtaçı Şirvan bələdiyyəsi | Axtaçı Şirvan bələdiyyəsi |
| 5 | Atbulaq bələdiyyəsi | Atbulaq və Kürdçü kəndləri |
| 6 | Birinci Meyniman bələdiyyəsi | Birinci Meyniman və Meyniman kəndləri |
| 7 | Birinci Udullu bələdiyyəsi | Birinci Udullu kəndi |
| 8 | Ələtli bələdiyyəsi | Ələtli və Bürvənd kəndləri |
| 9 | İkinci Meyniman bələdiyyəsi | İkinci Meyniman kəndi |
| 10 | İkinci Udullu bələdiyyəsi | İkinci Udullu kəndi |
| 11 | Kolanı bələdiyyəsi | Kolanı kəndi |
| 12 | Qarasu bələdiyyəsi | Qarasu kəndi |
| 13 | Qızılburun bələdiyyəsi | Qızılburun kəndi |
| 14 | Qubalı bələdiyyəsi | Qubalı kəndi |
| 15 | Qubalıbalaoğlan bələdiyyəsi | Qubalıbalaoğlan və Pirsaatçay kəndləri |
| 16 | Muğan bələdiyyəsi | Muğan qəsəbəsi |
| 17 | Navahı bələdiyyəsi | Navahı kəndi və Pirsaat qəsəbəsi |
| 18 | Navahı qəsəbə bələdiyyəsi | Navahı qəsəbəsi |
| 19 | Padar bələdiyyəsi | Padar kəndi |
| 20 | Rəncbər bələdiyyəsi | Rəncbər kəndi |
| 21 | Şorbaçı bələdiyyəsi | Şorbaçı, Birinci Paşalı və İkinci Paşalı kəndləri |
| 22 | Tağılı bələdiyyəsi | Tağılı kəndi |
| 23 | Talış bələdiyyəsi | Talış kəndi |
| | **XAÇMAZ RAYONU** | |
| 1 | Xaçmaz bələdiyyəsi | Xaçmaz şəhəri |
| 2 | Xudat bələdiyyəsi | Xudat şəhəri və Şollar qəsəbəsi |
| 3 | Ağaşirinoba bələdiyyəsi | Ağaşirinoba, Qıraqlı və Manafoba kəndləri |
| 4 | Ağaverdioba bələdiyyəsi | Ağaverdioba və Balaqusarqışlaq kəndləri |
| 5 | Ağçay bələdiyyəsi | Ağçay kəndi |
| 6 | Ağtala bələdiyyəsi | Ağtala kəndi |
| 7 | Ağyazı Buduq bələdiyyəsi | Ağyazı Buduq kəndi |
| 8 | Alekseyevka bələdiyyəsi | Alekseyevka kəndi |
| 9 | Alıcqışlaq bələdiyyəsi | Alıcqışlaq kəndi |
| 10 | Armudpadar bələdiyyəsi | Armudpadar və Padar kəndləri |
| 11 | Arzu bələdiyyəsi | Arzu qəsəbəsi |
| 12 | Aşağı Ləgər bələdiyyəsi | Aşağı Ləgər qəsəbəsi |
| 13 | *Aşağı Zeyid (5)* bələdiyyəsi | *Aşağı Zeyid (5)* kəndi |
| 14 | Bostançı bələdiyyəsi | Bostançı, Hacıabdurəhimoba və Sibiroba kəndləri |



| | | |
|---|---|---|
| 15 | Canaxır bələdiyyəsi | Canaxır, Bəyqışlaq və Mehrəliqışlaq kəndləri |
| 16 | Cığatay bələdiyyəsi | Cığatay, Çaxmaqlı və Qaraqaşlı kəndləri |
| 17 | Çarxı bələdiyyəsi | Çarxı kəndi |
| 18 | *Çılğır (5)* bələdiyyəsi | *Çılğır (5)* kəndi |
| 19 | Çiləgir bələdiyyəsi | Çiləgir və Mənçəroba kəndləri |
| 20 | Dədəli bələdiyyəsi | Dədəli, Xaraxoba, Kiçik Baraxum və Nağıoba kəndləri |
| 21 | Digahoba bələdiyyəsi | Digahoba kəndi |
| 22 | Əbilyataq bələdiyyəsi | Əbilyataq kəndi |
| 23 | Əhmədoba bələdiyyəsi | Əhmədoba, Hacıəhmədoba, Hacıqazma və Qaracəlli kəndləri |
| 24 | Ərəb bələdiyyəsi | Ərəb və Hacılar kəndləri |
| 25 | Gödəkli bələdiyyəsi | Gödəkli kəndi |
| 26 | Hacıəlibəy bələdiyyəsi | Hacıəlibəy və Bayoba kəndləri |
| 27 | Həbibkənd bələdiyyəsi | Həbibkənd kəndi |
| 28 | Həsənqala bələdiyyəsi | Həsənqala kəndi |
| 29 | Hülövlü bələdiyyəsi | Hülövlü kəndi |
| 30 | Xanlıqoba bələdiyyəsi | Xanlıqoba kəndi |
| 31 | Xaspoladoba bələdiyyəsi | Xaspoladoba, Bəbəli, Əzizli və Gəncəli kəndləri |
| 32 | İdrisoba bələdiyyəsi | İdrisoba və Fərzəlioba kəndləri |
| 33 | İlxıçı Həsən Əfəndi bələdiyyəsi | İlxıçı Həsən Əfəndi və Qarğalıq kəndləri |
| 34 | Köhnə Xaçmaz bələdiyyəsi | Köhnə Xaçmaz kəndi |
| 35 | Köhnə Xudat bələdiyyəsi | Köhnə Xudat kəndi |
| 36 | Qadaşoba bələdiyyəsi | Qadaşoba, Ağarəhimoba və Hacıisaoba kəndləri |
| 37 | Qalağan bələdiyyəsi | Qalağan və Keymərəz kəndləri |
| 38 | Qarabağlı bələdiyyəsi | Qarabağlı kəndi |
| 39 | Qaracik Zeyid bələdiyyəsi | Qaracik Zeyid, Qaracik və Qədmalıqışlaq kəndləri |
| 40 | Qaraçaycek bələdiyyəsi | Qaraçaycek və Şıxhaput kəndləri |
| 41 | Qaraçı bələdiyyəsi | Qaraçı və Laman kəndləri |
| 42 | Qaradağ Buduq bələdiyyəsi | Qaradağ Buduq, Qaradağlı, Rəhimoba və Ustacəlilli kəndləri |
| 43 | Qaraqurdlu bələdiyyəsi | Qaraqurdlu, Gülalan və Hacıqurbanoba kəndləri |
| 44 | Qımılqışlaq bələdiyyəsi | Qımılqışlaq, Mirzəməmmədqışlaq və Şıxlar kəndləri |
| 45 | Qobuqıraq bələdiyyəsi | Qobuqıraq və Mürsəliqışlaq kəndləri |
| 46 | Qusarçay bələdiyyəsi | Qusarçay kəndi |
| 47 | Ləcət bələdiyyəsi | Ləcət, Moruqoba və Tağaroba kəndləri |
| 48 | Maqsudkənd bələdiyyəsi | Maqsudkənd kəndi |

| | | |
|---|---|---|
| 49 | Mollabürhanlı bələdiyyəsi | Mollabürhanlı, Çuxuroba və Maşıoba kəndləri |
| 50 | Müqtədir bələdiyyəsi | Müqtədir qəsəbəsi və Vələmir kəndi |
| 51 | Mürşüdoba bələdiyyəsi | Mürşüdoba və Sabiroba kəndləri |
| 52 | Müşkür bələdiyyəsi | Müşkür, Müşviq və Müzəffəroba kəndləri |
| 53 | Nabran bələdiyyəsi | Nabran kəndi, Dalğalı, Günəşli, Meşəli, Şimal, Samurçay və Turist qəsəbələri |
| 54 | Nərəcan bələdiyyəsi | Nərəcan kəndi |
| 55 | Niyazoba bələdiyyəsi | Niyazoba və İlxıçı kəndləri |
| 56 | Palçıqoba bələdiyyəsi | Palçıqoba və Çinartala kəndləri |
| 57 | Pirquluoba bələdiyyəsi | Pirquluoba, Hacıməmmədoba, Qoçaqqazma və Yeni Sudur kəndləri |
| 58 | Sayad bələdiyyəsi | Sayad və İlxıçı kəndləri |
| 59 | Seyidlər bələdiyyəsi | Seyidlər kəndi |
| 60 | Seyidlikəndyeri bələdiyyəsi | Seyidlikəndyeri, Aslanoba, Aşağıoba, Xuray kəndləri və Sahillər qəsəbəsi |
| 61 | Suxtaqalaqışlaq bələdiyyəsi | Suxtaqalaqışlaq kəndi |
| 62 | Susayqışlaq bələdiyyəsi | Susayqışlaq və Pərdiqıran kəndləri |
| 63 | Şollar bələdiyyəsi | Şollar və Çaxçaxlı kəndləri |
| 64 | Tel bələdiyyəsi | Tel kəndi |
| 65 | Tikanoba bələdiyyəsi | Tikanoba kəndi |
| 66 | Uzunoba bələdiyyəsi | Uzunoba, Baraxum, Xəzərli və Şərifoba kəndləri |
| 67 | Yalama bələdiyyəsi | Yalama, Düztahiroba, Ortaoba, Səlimoba, Ukuroba, Yaquboba, *Xanoba (5)* və Zuxuloba kəndləri |
| 68 | Yataqoba bələdiyyəsi | Yataqoba, Krasnı Xutor və Meçitoba kəndləri |
| 69 | Yeni Həyat bələdiyyəsi | Yeni Həyat qəsəbəsi |
| 70 | Yergüc bələdiyyəsi | Yergüc, Sərkərli və Üçgünqışlaq kəndləri |
| | **XANLAR RAYONU** | |
| 1 | Xanlar bələdiyyəsi | Xanlar şəhəri, Xanlar və Qızılqaya qəsəbələri |
| 2 | Aşıqlı bələdiyyəsi | Aşıqlı və Keşkü kəndləri |
| 3 | Balçılı bələdiyyəsi | Balçılı kəndi |
| 4 | Cümşüdlü bələdiyyəsi | Cümşüdlü kəndi |
| 5 | Çaykənd bələdiyyəsi | Çaykənd kəndi |
| 6 | Çaylı bələdiyyəsi | Çaylı kəndi |
| 7 | Dozular bələdiyyəsi | Dozular kəndi |
| 8 | Əlimədədli bələdiyyəsi | Əlimədədli kəndi |
| 9 | Göyçəkənd bələdiyyəsi | Göyçəkənd kəndi |



| | | |
|---|---|---|
| 10 | Hacımalik bələdiyyəsi | Hacımalik qəsəbəsi |
| 11 | Xaqani bələdiyyəsi | Xaqani kəndi |
| 12 | Kərəmli bələdiyyəsi | Kərəmli kəndi |
| 13 | Qarabulaq bələdiyyəsi | Qarabulaq kəndi |
| 14 | Qırıqlı bələdiyyəsi | Qırıqlı, Haçaqaya və Sərkar kəndləri |
| 15 | Qızılca bələdiyyəsi | *Qızılca, Damcılı, Danayeri, Yalqışlaq və Yeni Qızılca kəndləri (13)* |
| 16 | Quşçu bələdiyyəsi | Quşçu kəndi |
| 17 | Quşqara bələdiyyəsi | Quşqara, Sərnədli kəndləri və Bohrambağ qəsəbəsi |
| 18 | Mixaylovka bələdiyyəsi | Mixaylovka kəndi |
| 19 | Mollacəlilli bələdiyyəsi | Mollacəlilli kəndi |
| 20 | Nadil bələdiyyəsi | Nadil kəndi |
| 21 | *Pənahlılar (13)* bələdiyyəsi | *Pənahlılar (13)* kəndi |
| 22 | Sarısu bələdiyyəsi | Sarısu kəndi |
| 23 | Şəhriyar bələdiyyəsi | Şəhriyar kəndi |
| 24 | Toğanalı bələdiyyəsi | Toğanalı və Əzgilli kəndləri |
| 25 | Topalhəsənli bələdiyyəsi | Topalhəsənli kəndi |
| 26 | Tulallar bələdiyyəsi | Tulallar kəndi |
| 27 | Üçbulaq bələdiyyəsi | Üçbulaq kəndi |
| 28 | Üçtəpə bələdiyyəsi | Üçtəpə kəndi və Firuzabad qəsəbəsi |
| 29 | Yeni Zod bələdiyyəsi | Yeni Zod kəndi |
| 30 | Zurnabad bələdiyyəsi | Zurnabad, Gəncə kəndləri və Aşağı Zurnabad qəsəbəsi |
| | **XIZI RAYONU** | |
| 1 | Xızı bələdiyyəsi | *Xızı şəhəri (14)* |
| 2 | Ağdərə bələdiyyəsi | Ağdərə, Əmbizlər, Qasımkənd, Tudar və Yuxarı Əngilan kəndləri |
| 3 | Altıağac bələdiyyəsi | Altıağac qəsəbəsi, Çıstı Klyuç, Qızılqazma və Yarımca kəndləri |
| 4 | Baxışlı bələdiyyəsi | Baxışlı, Bəyəhmədyurd, Güneyqışlaq və Vərdah kəndləri |
| 5 | Fındığan bələdiyyəsi | Fındığan kəndi |
| 6 | Giləzi bələdiyyəsi | Giləzi qəsəbəsi |
| 7 | Xələnc bələdiyyəsi | Xələnc kəndi |
| 8 | Qarabulaq bələdiyyəsi | Qarabulaq və Dizəvər kəndləri |
| 9 | Məşədi Həsən bələdiyyəsi | Məşədi Həsən kəndi |
| 10 | Sitalçay bələdiyyəsi | Sitalçay kəndi |
| 11 | Şuraabad bələdiyyəsi | Şuraabad qəsəbəsi, Türkoba və Yaşma kəndləri |
| 12 | Tıxlı bələdiyyəsi | Tıxlı, Əngilan, Qars və Təzəkənd kəndləri |
| 13 | Yeni Yaşma bələdiyyəsi | Yeni Yaşma kəndi |

| | | |
|---|---|---|
| | **İMİŞLİ RAYONU** | |
| 1 | İmişli bələdiyyəsi | İmişli şəhəri |
| 2 | Ağamalılar bələdiyyəsi | Ağamalılar kəndi |
| 3 | Ağaməmmədli bələdiyyəsi | Ağaməmmədli kəndi |
| 4 | Ağcüyür bələdiyyəsi | Ağcüyür kəndi |
| 5 | Allahmədətli bələdiyyəsi | Allahmədətli kəndi |
| 6 | Aranlı bələdiyyəsi | Aranlı kəndi |
| 7 | Bacirəvan bələdiyyəsi | Bacirəvan kəndi |
| 8 | Bəhrəmtəpə bələdiyyəsi | Bəhrəmtəpə qəsəbəsi |
| 9 | Boşçalılar bələdiyyəsi | Boşçalılar kəndi |
| 10 | Cavadxanlı bələdiyyəsi | Cavadxanlı kəndi |
| 11 | Cəfərli bələdiyyəsi | Cəfərli və Hacımustafalı kəndləri |
| 12 | Çahar bələdiyyəsi | Çahar kəndi |
| 13 | Çaxırlı bələdiyyəsi | Çaxırlı kəndi |
| 14 | Əliqulular bələdiyyəsi | Əliqulular kəndi |
| 15 | Əlyetməzli bələdiyyəsi | Əlyetməzli kəndi |
| 16 | Göbəktala bələdiyyəsi | Göbəktala kəndi |
| 17 | Göhərli bələdiyyəsi | Göhərli kəndi |
| 18 | Hacıalmuradlı bələdiyyəsi | Hacıalmuradlı kəndi |
| 19 | Hacırüstəmli bələdiyyəsi | Hacırüstəmli kəndi |
| 20 | Xəlfəli bələdiyyəsi | Xəlfəli kəndi |
| 21 | Xoşçobanlı bələdiyyəsi | Xoşçobanlı kəndi |
| 22 | Xubyarlı bələdiyyəsi | Xubyarlı kəndi |
| 23 | Kürdmahmudlu bələdiyyəsi | Kürdmahmudlu kəndi |
| 24 | Qaradonlu bələdiyyəsi | Qaradonlu kəndi |
| 25 | Qaragüvəndikli bələdiyyəsi | Qaragüvəndikli kəndi |
| 26 | Qaraqaşlı bələdiyyəsi | Qaraqaşlı kəndi |
| 27 | Qaralar bələdiyyəsi | Qaralar kəndi |
| 28 | *Yuxarı Qaralar (5)* bələdiyyəsi | *Yuxarı Qaralar (5)* kəndi |
| 29 | Qaravəlili bələdiyyəsi | Qaravəlili kəndi |
| 30 | Qızılkənd bələdiyyəsi | Qızılkənd kəndi |
| 31 | Qulubəyli bələdiyyəsi | Qulubəyli kəndi |
| 32 | Məhəmmədli bələdiyyəsi | Məhəmmədli kəndi |
| 33 | Məmmədli bələdiyyəsi | Məmmədli kəndi |
| 34 | Məzrəli bələdiyyəsi | Məzrəli kəndi |
| 35 | Mirili bələdiyyəsi | Mirili kəndi |
| 36 | Muradalılı bələdiyyəsi | Muradalılı kəndi |
| 37 | Muradxanlı bələdiyyəsi | Muradxanlı kəndi |
| 38 | Murğuzalılı bələdiyyəsi | Murğuzalılı kəndi |
| 39 | Mürsəlli bələdiyyəsi | Mürsəlli kəndi |
| 40 | Nurulu bələdiyyəsi | Nurulu kəndi |
| 41 | Oruclu bələdiyyəsi | Oruclu kəndi |



| | | |
|---|---|---|
| 42 | Otuziki bələdiyyəsi | Otuziki kəndi |
| 43 | Ölcələr bələdiyyəsi | Ölcələr kəndi |
| 44 | Rəsullu bələdiyyəsi | Rəsullu kəndi |
| 45 | Soltanmuradlı bələdiyyəsi | Soltanmuradlı kəndi |
| 46 | Sarıxanlı bələdiyyəsi | Sarıxanlı kəndi və Vətəgə qəsəbəsi |
| 47 | Şahverdili bələdiyyəsi | Şahverdili kəndi |
| 48 | Telişli bələdiyyəsi | Telişli kəndi |
| 49 | Yalavac bələdiyyəsi | Yalavac kəndi |
| | **İSMAYILLI RAYONU** | |
| 1 | İsmayıllı bələdiyyəsi | İsmayıllı şəhəri |
| 2 | Ağbulaq bələdiyyəsi | Ağbulaq kəndi |
| 3 | Aşıqbayramlı bələdiyyəsi | Aşıqbayramlı kəndi |
| 4 | Basqal bələdiyyəsi | Basqal qəsəbəsi |
| 5 | Birinci Yeniyol bələdiyyəsi | Birinci Yeniyol, İkinci Yeniyol və Qərsələ kəndləri |
| 6 | Bizlan bələdiyyəsi | Bizlan və Zərgəran kəndləri |
| 7 | Burovdal bələdiyyəsi | Burovdal kəndi |
| 8 | Buynuz bələdiyyəsi | Buynuz kəndi |
| 9 | Cülyan bələdiyyəsi | Cülyan kəndi |
| 10 | Cülyan bələdiyyəsi | Cülyan, Dahar və Mulux kəndləri |
| 11 | Çəndahar bələdiyyəsi | Çəndahar və Zarat kəndləri |
| 12 | Diyallı bələdiyyəsi | Diyallı, Güyüm və Sədiyan kəndləri |
| 13 | Əhən bələdiyyəsi | Əhən, Duvaryan və Ximran kəndləri |
| 14 | Ərəkit bələdiyyəsi | Ərəkit, Bağəli, Kənəə və Namazgah kəndləri |
| 15 | Gəraybəyli bələdiyyəsi | Gəraybəyli, Əyyubbəyli və Keşxurt kəndləri |
| 16 | Göytəpə bələdiyyəsi | Göytəpə kəndi |
| 17 | Hacıhətəmli bələdiyyəsi | Hacıhətəmli kəndi |
| 18 | Hapıtlı bələdiyyəsi | Hapıtlı kəndi |
| 19 | Həftəsov bələdiyyəsi | Həftəsov kəndi |
| 20 | Xanagah bələdiyyəsi | Xanagah kəndi |
| 21 | Xəlilli bələdiyyəsi | Xəlilli kəndi |
| 22 | İsmayıllı kənd bələdiyyəsi | İsmayıllı kəndi |
| 23 | İstisu bələdiyyəsi | İstisu və Çayqovuşan kəndləri |
| 24 | İvanovka bələdiyyəsi | İvanovka və Külüllü kəndləri |
| 25 | Keyvəndi bələdiyyəsi | Keyvəndi və Mingə kəndləri |
| 26 | Kəlbənd bələdiyyəsi | Kəlbənd, Girk, Şükürçü və Yenikənd kəndləri |
| 27 | Kürd Eldarbəyli bələdiyyəsi | Kürd Eldarbəyli və Gideyli kəndləri |
| 28 | Kürdmaşı bələdiyyəsi | Kürdmaşı kəndi |
| 29 | Qalacıq bələdiyyəsi | Qalacıq kəndi |
| 30 | Qalagah bələdiyyəsi | Qalagah kəndi |

| | | |
|---|---|---|
| 31 | Qarakolluq bələdiyyəsi | Qarakolluq kəndi |
| 32 | Qaraqaya bələdiyyəsi | Qaraqaya, Gəndov və Köhnədaxar kəndləri |
| 33 | Qalınçaq bələdiyyəsi | Qalınçaq kəndi |
| 34 | Qıçatan bələdiyyəsi | Qıçatan kəndi |
| 35 | Qoşakənd bələdiyyəsi | Qoşakənd, Gənzə və Tubukənd kəndləri |
| 36 | Qoydan bələdiyyəsi | Qoydan kəndi |
| 37 | Qubaxəlilli bələdiyyəsi | Qubaxəlilli və Çərmədil kəndləri |
| 38 | Qurbanəfəndi bələdiyyəsi | Qurbanəfəndi kəndi |
| 39 | Quşencə bələdiyyəsi | Quşencə, Balik və Enişdibi kəndləri |
| 40 | Lahıc bələdiyyəsi | Lahıc qəsəbəsi |
| 41 | Maçaxı bələdiyyəsi | Maçaxı kəndi |
| 42 | Mican bələdiyyəsi | Mican və Qəzli kəndləri |
| 43 | Mollaisaqlı bələdiyyəsi | Mollaisaqlı kəndi |
| 44 | Mücü bələdiyyəsi | Mücü kəndi |
| 45 | Mücühəftəran bələdiyyəsi | Mücühəftəran kəndi |
| 46 | Müdrisə bələdiyyəsi | Müdrisə və Pirəqanım kəndləri |
| 47 | Müdri bələdiyyəsi | Müdri və Nanıc kəndləri |
| 48 | Pirəbülqasım bələdiyyəsi | Pirəbülqasım kəndi |
| 49 | Ruşan bələdiyyəsi | Ruşan kəndi |
| 50 | Sərdahar bələdiyyəsi | Sərdahar kəndi |
| 51 | Soltankənd bələdiyyəsi | Soltankənd kəndi |
| 52 | Sulut bələdiyyəsi | Sulut, Kələzeyvə və Sərsurə kəndləri |
| 53 | Sumağallı bələdiyyəsi | Sumağallı kəndi |
| 54 | Şəbiyan bələdiyyəsi | Şəbiyan, Bəhliyan və Bilistan kəndləri |
| 55 | Tağlabiyan bələdiyyəsi | Tağlabiyan və Kəlfərəc kəndləri |
| 56 | Talıstan bələdiyyəsi | Talıstan kəndi |
| 57 | Talış bələdiyyəsi | Talış kəndi |
| 58 | Təzəkənd bələdiyyəsi | Təzəkənd kəndi |
| 59 | Tircan bələdiyyəsi | Tircan kəndi |
| 60 | Topçu bələdiyyəsi | Topçu və Şirvanmeşə kəndləri |
| 61 | Uştal bələdiyyəsi | Uştal kəndi |
| 62 | Uştalqışlaq bələdiyyəsi | Uştalqışlaq kəndi |
| 63 | Vaşa bələdiyyəsi | Vaşa kəndi |
| 64 | Vəng bələdiyyəsi | Vəng kəndi |
| 65 | Zeyvə bələdiyyəsi | Zeyvə, Xankəndi və Kürdüvan kəndləri |
| 66 | Zəmava bələdiyyəsi | Zərnava, Aşağı Zəmava və Müşkəmir kəndləri |
| 67 | Zoğallıq bələdiyyəsi | Zoğallıq kəndi |
| | **KÜRDƏMİR RAYONU** | |
| 1 | Kürdəmir bələdiyyəsi | Kürdəmir şəhəri |
| 2 | Axtaçı bələdiyyəsi | Axtaçı kəndi |



| | | |
|---|---|---|
| 3 | Atakişili bələdiyyəsi | Atakişili kəndi |
| 4 | *Bağman (5)* bələdiyyəsi | *Bağman (5)* kəndi |
| 5 | Bala Kəngərli bələdiyyəsi | Bala Kəngərli kəndi |
| 6 | *Beyi (5)* bələdiyyəsi | *Beyi (5)* kəndi |
| 7 | Böyük Kəngərli bələdiyyəsi | Böyük Kəngərli kəndi |
| 8 | Carlı bələdiyyəsi | Carlı kəndi |
| 9 | Cəyli bələdiyyəsi | Cəyli kəndi |
| 10 | Çərtəyəz bələdiyyəsi | Çərtəyəz kəndi |
| 11 | Çöhranlı bələdiyyəsi | Çöhranlı kəndi |
| 12 | Çöl Ərəb bələdiyyəsi | Çöl Ərəb kəndi |
| 13 | Çöl Qubalı bələdiyyəsi | Çöl Qubalı kəndi |
| 14 | Dayıkazımlı bələdiyyəsi | Dayıkazımlı kəndi |
| 15 | Dəyirmanlı bələdiyyəsi | Dəyirmanlı kəndi |
| 16 | Ərəbxana bələdiyyəsi | Ərəbxana kəndi |
| 17 | Ərəb Qubalı bələdiyyəsi | Ərəb Qubalı kəndi |
| 18 | Ərşəli bələdiyyəsi | Ərşəli kəndi |
| 19 | Xəlsə bələdiyyəsi | Xəlsə kəndi |
| 20 | Xınıslı bələdiyyəsi | Xınıslı kəndi |
| 21 | Xırdapay bələdiyyəsi | Xırdapay kəndi |
| 22 | İsmayıllı bələdiyyəsi | İsmayıllı kəndi |
| 23 | Karrar bələdiyyəsi | Karrar kəndi |
| 24 | Karrar qəsəbə bələdiyyəsi | Karrar qəsəbəsi |
| 25 | Köhünlü bələdiyyəsi | Köhünlü kəndi |
| 26 | Qağacılı bələdiyyəsi | Qağacılı kəndi |
| 27 | Qarabucaq bələdiyyəsi | Qarabucaq kəndi |
| 28 | Qarabucaq bələdiyyəsi | Qarabucaq kəndi |
| 29 | Qarabucaq qəsəbə bələdiyyəsi | Qarabucaq qəsəbəsi |
| 30 | Qaraqocalı bələdiyyəsi | Qaraqocalı kəndi |
| 31 | Qaramahmudlu bələdiyyəsi | Qaramahmudlu kəndi |
| 32 | Qarasaqqal bələdiyyəsi | Qarasaqqal kəndi |
| 33 | *Garıs Əyribənd (5)* bələdiyyəsi | *Garıs Əyribənd (5)* kəndi |
| 34 | Qocalı bələdiyyəsi | Qocalı kəndi |
| 35 | Qoçulu bələdiyyəsi | Qoçulu kəndi |
| 36 | Qurdbayram bələdiyyəsi | Qurdbayram kəndi |
| 37 | Quşlar bələdiyyəsi | Quşlar kəndi |
| 38 | Mehdili bələdiyyəsi | Mehdili kəndi |
| 39 | Məhərrəmli bələdiyyəsi | Məhərrəmli kəndi |
| 40 | Mollakənd bələdiyyəsi | Mollakənd kəndi |
| 41 | Muğanlı bələdiyyəsi | Muğanlı kəndi |
| 42 | Muradxan bələdiyyəsi | Muradxan kəndi |
| 43 | Mürtülü bələdiyyəsi | Mürtülü kəndi |
| 44 | Öyləqulu bələdiyyəsi | Öyləqulu kəndi |

| | | |
|---|---|---|
| 45 | Pirəköcə bələdiyyəsi | Pirəköcə kəndi |
| 46 | Pirili bələdiyyəsi | Pirili kəndi |
| 47 | Sığırlı bələdiyyəsi | Sığırlı kəndi |
| 48 | Sor Sor bələdiyyəsi | Sor Sor kəndi |
| 49 | Sovla bələdiyyəsi | Sovla kəndi |
| 50 | Söyüdlər bələdiyyəsi | Söyüdlər kəndi |
| 51 | Şahbəyli bələdiyyəsi | Şahbəyli kəndi |
| 52 | Şahsevən bələdiyyəsi | Şahsevən kəndi |
| 53 | Şıxımlı bələdiyyəsi | Şıxımlı kəndi |
| 54 | Şilyan bələdiyyəsi | *Şilyan və Qarasu kəndləri (13)* |
| 55 | Şüşün bələdiyyəsi | Şüşün kəndi |
| 56 | Təklə bələdiyyəsi | Təklə kəndi |
| 57 | Topalhəsənli bələdiyyəsi | Topalhəsənli kəndi |
| 58 | Türkədi bələdiyyəsi | Türkədi kəndi |
| 59 | Ucarlı bələdiyyəsi | Ucarlı kəndi |
| 60 | Yenikənd bələdiyyəsi | Yenikənd kəndi |
| 61 | Yeni Şıxımlı bələdiyyəsi | Yeni Şıxımlı kəndi |
| | **QAX RAYONU** | |
| 1 | Qax bələdiyyəsi | Qax şəhəri |
| 2 | Ağçay bələdiyyəsi | Ağçay kəndi |
| 3 | Ağyazı bələdiyyəsi | Ağyazı və Üzümlükənd kəndləri |
| 4 | Almalı bələdiyyəsi | Almalı kəndi |
| 5 | Amanlı bələdiyyəsi | Amanlı kəndi |
| 6 | Aşağı Malax bələdiyyəsi | Aşağı Malax kəndi |
| 7 | Baydarlı bələdiyyəsi | Baydarlı kəndi |
| 8 | Böyük Alatəmir bələdiyyəsi | Böyük Alatəmir kəndi |
| 9 | Cəlayir bələdiyyəsi | Cəlayir kəndi |
| 10 | Çinarlı bələdiyyəsi | Çinarlı kəndi |
| 11 | Çudulu bələdiyyəsi | Çudulu kəndi |
| 12 | Dəymədağlı bələdiyyəsi | Dəymədağlı kəndi |
| 13 | Əlibəyli bələdiyyəsi | Əlibəyli kəndi |
| 14 | Əmbərçay bələdiyyəsi | Əmbərçay kəndi |
| 15 | Əmircan bələdiyyəsi | Əmircan kəndi |
| 16 | Fıstıqlı bələdiyyəsi | Fıstıqlı kəndi |
| 17 | Güllük bələdiyyəsi | Güllük kəndi |
| 18 | Xələftala bələdiyyəsi | Xələftala, Keşqutan və Qımırlı kəndləri |
| 19 | İbaxlı bələdiyyəsi | İbaxlı kəndi |
| 20 | İlisu bələdiyyəsi | İlisu kəndi |
| 21 | İngiloy Kötüklü bələdiyyəsi | İngiloy Kötüklü kəndi |
| 22 | Qaxbaş bələdiyyəsi | Qaxbaş və Kiçik Alatəmir kəndləri |
| 23 | Qax İngiloy bələdiyyəsi | Qax İngiloy kəndi |
| 24 | Qapıçay bələdiyyəsi | Qapıçay kəndi |
| 25 | Qarabaldır bələdiyyəsi | Qarabaldır kəndi |



| | | |
|---|---|---|
| 26 | Qaradolaq bələdiyyəsi | Qaradolaq kəndi |
| 27 | Qarameşə bələdiyyəsi | Qarameşə kəndi |
| 28 | Qaratala bələdiyyəsi | Qaratala kəndi |
| 29 | Qaşqaçay bələdiyyəsi | Qaşqaçay və Armudlu kəndləri |
| 30 | Qaysarlı bələdiyyəsi | Qaysarlı kəndi |
| 31 | Qazmalar bələdiyyəsi | Qazmalar kəndi |
| 32 | Qındırğa bələdiyyəsi | Qındırğa kəndi |
| 33 | Qıpçaq bələdiyyəsi | Qıpçaq kəndi |
| 34 | Qorağan bələdiyyəsi | Qorağan kəndi |
| 35 | Qum bələdiyyəsi | Qum kəndi |
| 36 | Ləkit bələdiyyəsi | Ləkit kəndi |
| 37 | Ləkit Kötüklü bələdiyyəsi | Ləkit Kötüklü kəndi |
| 38 | Ləkit Malax bələdiyyəsi | Ləkit Malax kəndi |
| 39 | Lələli bələdiyyəsi | Lələli kəndi |
| 40 | Ləlapaşa bələdiyyəsi | Ləlapaşa kəndi |
| 41 | Marsan bələdiyyəsi | Marsan kəndi |
| 42 | Meşəbaş bələdiyyəsi | Meşəbaş kəndi |
| 43 | Oncallı bələdiyyəsi | Oncallı kəndi |
| 44 | Sarıbaş bələdiyyəsi | Sarıbaş kəndi |
| 45 | Suskənd bələdiyyəsi | Suskənd kəndi |
| 46 | Şıxlar bələdiyyəsi | Şıxlar kəndi |
| 47 | Şotavar bələdiyyəsi | Şotavar kəndi |
| 48 | Tanqıt bələdiyyəsi | Tanqıt kəndi |
| 49 | Tasmalı bələdiyyəsi | Tasmalı kəndi |
| 50 | Turaclı bələdiyyəsi | Turaclı kəndi |
| 51 | Uzuntala bələdiyyəsi | Uzuntala və Bağtala kəndləri |
| 52 | Zərnə bələdiyyəsi | Zərnə kəndi |
| 53 | Zəyəm bələdiyyəsi | Zəyəm kəndi |
| | **QAZAX RAYONU** | |
| 1 | Qazax bələdiyyəsi | Qazax şəhəri |
| 2 | Ağköynək bələdiyyəsi | Ağköynək kəndi |
| 3 | Alpout bələdiyyəsi | Alpout kəndi |
| 4 | Aslanbəyli bələdiyyəsi | Aslanbəyli kəndi |
| 5 | Aşağı Salahlı bələdiyyəsi | Aşağı Salahlı kəndi |
| 6 | Birinci Şıxlı bələdiyyəsi | Birinci Şıxlı kəndi |
| 7 | Canalı bələdiyyəsi | Canalı kəndi |
| 8 | Çaylı bələdiyyəsi | Çaylı kəndi |
| 9 | Daş Salahlı bələdiyyəsi | Daş Salahlı kəndi |
| 10 | Dəmirçilər bələdiyyəsi | Dəmirçilər kəndi |
| 11 | Hüseynbəyli bələdiyyəsi | Hüseynbəyli kəndi |
| 12 | İkinci Şıxlı bələdiyyəsi | İkinci Şıxlı kəndi |
| 13 | Xanlıqlar bələdiyyəsi | Xanlıqlar kəndi |
| 14 | Kəmərli bələdiyyəsi | Kəmərli kəndi |

| | | |
|---|---|---|
| 15 | Kommuna bələdiyyəsi | Kommuna kəndi |
| 16 | Kosalar bələdiyyəsi | Kosalar kəndi |
| 17 | Qarapapaq bələdiyyəsi | Qarapapaq kəndi |
| 18 | Qaymaqlı bələdiyyəsi | Qaymaqlı kəndi |
| 19 | Qazaxbəyli bələdiyyəsi | Qazaxbəyli kəndi |
| 20 | Orta Salahlı bələdiyyəsi | Orta Salahlı kəndi |
| 21 | Ürkməzli bələdiyyəsi | Ürkməzli kəndi |
| 22 | Yuxarı Salahlı bələdiyyəsi | Yuxarı Salahlı kəndi |
| | **QƏBƏLƏ RAYONU** | |
| 1 | Qəbələ bələdiyyəsi | Qəbələ şəhəri və Küsnət kəndi |
| 2 | Abrıx bələdiyyəsi | Abrıx kəndi |
| 3 | Aydınqışlaq bələdiyyəsi | Aydınqışlaq kəndi |
| 4 | Bayramkoxalı bələdiyyəsi | Bayramkoxalı kəndi |
| 5 | Bılıx bələdiyyəsi | Bılıx kəndi |
| 6 | Böyük Əmili bələdiyyəsi | Böyük Əmili kəndi |
| 7 | Böyük Pirəli bələdiyyəsi | Böyük Pirəli kəndi |
| 8 | Bum bələdiyyəsi | *Bum qəsəbəsi və Qarasu kəndi (13)* |
| 9 | Bunud bələdiyyəsi | Bunud kəndi |
| 10 | Cığatelli bələdiyyəsi | Cığatelli kəndi |
| 11 | Çarxana bələdiyyəsi | Çarxana kəndi |
| 12 | Çuxur Qəbələ bələdiyyəsi | Çuxur Qəbələ kəndi |
| 13 | Daşca bələdiyyəsi | Daşca kəndi |
| 14 | Dizaxlı bələdiyyəsi | Dizaxlı və Sarıhacallı kəndləri |
| 15 | Əmirvan bələdiyyəsi | Əmirvan kəndi |
| 16 | Hacıalılı bələdiyyəsi | Hacıalılı kəndi |
| 17 | Həmzəli bələdiyyəsi | Həmzəli kəndi |
| 18 | Həzrə bələdiyyəsi | Həzrə kəndi |
| 19 | Xırxatala bələdiyyəsi | Xırxatala kəndi |
| 20 | İmamlı bələdiyyəsi | İmamlı kəndi |
| 21 | Kiçik Əmili bələdiyyəsi | Kiçik Əmili kəndi |
| 22 | Kiçik Pirəli bələdiyyəsi | Kiçik Pirəli kəndi |
| 23 | Kötüklü bələdiyyəsi | Kötüklü kəndi |
| 24 | Kürd bələdiyyəsi | Kürd kəndi |
| 25 | Qaradeyin bələdiyyəsi | Qaradeyin kəndi |
| 26 | Qəmərvan bələdiyyəsi | Qəmərvan kəndi |
| 27 | Quşlar bələdiyyəsi | Quşlar və Bəyli kəndləri |
| 28 | Laza bələdiyyəsi | Laza kəndi |
| 29 | Mamaylı bələdiyyəsi | Mamaylı və Ovcullu kəndləri |
| 30 | Məlikli bələdiyyəsi | Məlikli kəndi |
| 31 | Məmmədağalı bələdiyyəsi | Məmmədağalı kəndi |
| 32 | Mıxlıqovaq bələdiyyəsi | Mıxlıqovaq və Solquca kəndləri |
| 33 | Mirzəbəyli bələdiyyəsi | Mirzəbəyli və Corlu kəndləri |
| 34 | Nic bələdiyyəsi | *Nic qəsəbəsi (13)* |



| | | |
|---|---|---|
| 35 | Nohurqışlaq bələdiyyəsi | Nohurqışlaq kəndi |
| 36 | Savalan bələdiyyəsi | Savalan kəndi |
| 37 | Seyidqışlaq bələdiyyəsi | Seyidqışlaq kəndi |
| 38 | Sırt Yengicə bələdiyyəsi | Sırt Yengicə kəndi |
| 39 | Siləyli bələdiyyəsi | Siləyli kəndi |
| 40 | Soltannuxa bələdiyyəsi | Soltannuxa kəndi |
| 41 | Şamlı bələdiyyəsi | Şamlı kəndi |
| 42 | Şəfili bələdiyyəsi | Şəfili kəndi |
| 43 | Tikanlı bələdiyyəsi | Tikanlı və Dandıx kəndləri |
| 44 | Topbağ bələdiyyəsi | Topbağ kəndi |
| 45 | Tövlə bələdiyyəsi | Tövlə kəndi |
| 46 | Tüntül bələdiyyəsi | Tüntül kəndi |
| 47 | Uludaş bələdiyyəsi | Uludaş kəndi |
| 48 | Vəndam bələdiyyəsi | *Vəndam qəsəbəsi (13)* |
| 49 | Yemişanlı bələdiyyəsi | Yemişanlı kəndi |
| 50 | Yengicə bələdiyyəsi | Yengicə kəndi |
| 51 | Yeni Dizaxlı bələdiyyəsi | Yeni Dizaxlı kəndi |
| 52 | Yenikənd bələdiyyəsi | Yenikənd kəndi |
| 53 | Zalam bələdiyyəsi | Zalam və Mollaşıxalı kəndləri |
| 54 | Zarağan bələdiyyəsi | Zarağan kəndi |
| 55 | Zirik bələdiyyəsi | Zirik kəndi |
| | **QOBUSTAN RAYONU** | |
| 1 | Mərəzə bələdiyyəsi | Mərəzə qəsəbəsi |
| 2 | Bədəlli bələdiyyəsi | Bədəlli kəndi və Üzümçü qəsəbəsi |
| 3 | Bəklə bələdiyyəsi | Bəklə kəndi |
| 4 | Cəmcəmli bələdiyyəsi | Cəmcəmli və Damlamaca kəndləri |
| 5 | Cəyirli bələdiyyəsi | Cəyirli kəndi |
| 6 | Çelov bələdiyyəsi | Çelov kəndi |
| 7 | Çuxanlı bələdiyyəsi | Çuxanlı kəndi |
| 8 | Dərəkənd bələdiyyəsi | Dərəkənd kəndi |
| 9 | Ərəbqədim bələdiyyəsi | Ərəbqədim kəndi |
| 10 | Ərəbşahverdi bələdiyyəsi | Ərəbşahverdi kəndi |
| 11 | Ərəbşalbaş bələdiyyəsi | Ərəbşalbaş kəndi |
| 12 | Göydərə bələdiyyəsi | Göydərə kəndi |
| 13 | Xilmilli bələdiyyəsi | Xilmilli və Şıxlar kəndləri |
| 14 | Qaracüzlü bələdiyyəsi | Qaracüzlü kəndi |
| 15 | Qurbançı bələdiyyəsi | Qurbançı və Çay Qurbançı kəndləri |
| 16 | Nabur bələdiyyəsi | Nabur və Cəngi kəndləri |
| 17 | Nardaran bələdiyyəsi | Nardaran kəndi |
| 18 | Nərimankənd bələdiyyəsi | Nərimankənd kəndi |
| 19 | Poladlı bələdiyyəsi | Poladlı və Dağ Kolanı kəndləri |
| 20 | Sədəfli bələdiyyəsi | Sədəfli kəndi |
| 21 | Sündü bələdiyyəsi | Sündü kəndi |

| | | |
|---|---|---|
| 22 | Şıxzahırlı bələdiyyəsi | Şıxzahırlı, Ceyrankeçməz və İlanlı kəndləri |
| 23 | Təklə bələdiyyəsi | Təklə kəndi |
| 24 | Təklə Mirzəbaba bələdiyyəsi | Təklə Mirzəbaba kəndi |
| 25 | Təsi bələdiyyəsi | Təsi kəndi |
| 26 | Yekəxana bələdiyyəsi | Yekəxana kəndi |
| | **QUBA RAYONU** | |
| 1 | Quba bələdiyyəsi | Quba şəhəri |
| 2 | Ağbil bələdiyyəsi | Ağbil kəndi |
| 3 | Afurca bələdiyyəsi | Afurca, Atuc, Fırıq və Ruçuq kəndləri |
| 4 | Alekseyevka bələdiyyəsi | Alekseyevka kəndi |
| 5 | Alpan bələdiyyəsi | Alpan kəndi |
| 6 | Amsar bələdiyyəsi | Amsar kəndi |
| 7 | Amsarqışlaq bələdiyyəsi | Amsarqışlaq kəndi |
| 8 | Aşağı Atuc bələdiyyəsi | Aşağı Atuc kəndi |
| 9 | Aşağı Xuc bələdiyyəsi | Aşağı Xuc və Orta Xuc kəndləri |
| 10 | Aşağı Tüləkəran bələdiyyəsi | Aşağı Tüləkəran kəndi |
| 11 | Bağbanlı bələdiyyəsi | Bağbanlı qəsəbəsi |
| 12 | Barlı bələdiyyəsi | Barlı qəsəbəsi |
| 13 | Bərğov bələdiyyəsi | Bərğov kəndi |
| 14 | Birinci Nügədi bələdiyyəsi | Birinci Nügədi kəndi |
| 15 | Buduq bələdiyyəsi | Buduq, Dağüstü və Zeyid kəndləri |
| 16 | Cağacıq bələdiyyəsi | Cağacıq kəndi |
| 17 | Cimi bələdiyyəsi | Cimi kəndi |
| 18 | Çarxaçu bələdiyyəsi | Çarxaçu kəndi |
| 19 | Çartəpə bələdiyyəsi | Çartəpə kəndi |
| 20 | Çiçi bələdiyyəsi | Çiçi, Qənidərə və Raziyələr kəndləri |
| 21 | Dağlı bələdiyyəsi | Dağlı kəndi |
| 22 | Davudoba bələdiyyəsi | Davudoba kəndi |
| 23 | Dəlləkli bələdiyyəsi | Dəlləkli kəndi |
| 24 | Digah bələdiyyəsi | Digah kəndi |
| 25 | Əlibəyqışlaq bələdiyyəsi | Əlibəyqışlaq kəndi |
| 26 | Əlik bələdiyyəsi | Əlik, Cek və Haputlu kəndləri |
| 27 | Əliməmmədoba bələdiyyəsi | Əliməmmədoba kəndi |
| 28 | Ərməki bələdiyyəsi | Ərməki, Alıc və Digah kəndləri |
| 29 | Ərməkiqışlaq bələdiyyəsi | Ərməkiqışlaq kəndi |
| 30 | Əski İqrığ bələdiyyəsi | Əski İqrığ kəndi |
| 31 | Gədikqışlaq bələdiyyəsi | Gədikqışlaq, Gədik və İdrisiqışlaq kəndləri |
| 32 | Gənclər bələdiyyəsi | Gənclər qəsəbəsi |
| 33 | Gəray bələdiyyəsi | Gəray kəndi |
| 34 | Gömürdəhnə bələdiyyəsi | Gömürdəhnə və Puçuq kəndləri |
| 35 | Güləzi bələdiyyəsi | Güləzi, Aydınkənd, Dalaqo, Xanagahyolu, Xırt və Kunxırt kəndləri |



| | | |
|---|---|---|
| 36 | Gültəpə bələdiyyəsi | Gültəpə kəndi |
| 37 | Hacıhüseynli bələdiyyəsi | Hacıhüseynli və Novonikolayevka kəndləri |
| 38 | Hacıqaib bələdiyyəsi | Hacıqaib və Mirzəqasım kəndləri |
| 39 | Xaltan bələdiyyəsi | Xaltan kəndi |
| 40 | Xanəgah bələdiyyəsi | Xanəgah kəndi |
| 41 | Xaruşa bələdiyyəsi | Xaruşa kəndi |
| 42 | Xınalıq bələdiyyəsi | Xınalıq və Qalayxudat kəndləri |
| 43 | Xucbala bələdiyyəsi | Xucbala kəndi |
| 44 | İkinci Nügədi bələdiyyəsi | İkinci Nügədi kəndi |
| 45 | İqrığ bələdiyyəsi | İqrığ kəndi |
| 46 | İsnov bələdiyyəsi | İsnov, Çayqışlaq, Kələnov, Qasımqışlaq və Mahmudqışlaq kəndləri |
| 47 | İsnovqışlaq bələdiyyəsi | İsnovqışlaq kəndi |
| 48 | İspik bələdiyyəsi | İspik kəndi |
| 49 | Küçeyi bələdiyyəsi | Küçeyi kəndi |
| 50 | Küpçal bələdiyyəsi | Küpçal kəndi |
| 51 | Küpçalqışlaq bələdiyyəsi | Küpçalqışlaq kəndi |
| 52 | Kürkün bələdiyyəsi | Kürkün kəndi |
| 53 | Küsnət bələdiyyəsi | Küsnət kəndi |
| 54 | Qacar Zeyid bələdiyyəsi | Qacar Zeyid kəndi |
| 55 | Qamqam bələdiyyəsi | Qamqam, Hacıağalar və Sofikənd kəndləri |
| 56 | Qaraçay bələdiyyəsi | Qaraçay qəsəbəsi |
| 57 | Qarxun bələdiyyəsi | Qarxun və Adur kəndləri |
| 58 | Qəçrəş bələdiyyəsi | Qəçrəş kəndi |
| 59 | Qələdüz bələdiyyəsi | Qələdüz kəndi |
| 60 | Qımıl bələdiyyəsi | Qımıl kəndi |
| 61 | Qımılqazma bələdiyyəsi | Qımılqazma və Küsnətqazma kəndləri |
| 62 | Qımılqışlaq bələdiyyəsi | Qımılqışlaq kəndi |
| 63 | Qırmızı Qəsəbə bələdiyyəsi | Qırmızı Qəsəbə qəsəbəsi |
| 64 | Qonaqkənd bələdiyyəsi | Qonaqkənd qəsəbəsi, Xaşı və Qarovulüstü kəndləri |
| 65 | Qorxmazoba bələdiyyəsi | Qorxmazoba və Aspərəsti kəndləri |
| 66 | Qrız bələdiyyəsi | Qrız və Qrızdəhnə kəndləri |
| 67 | Mirzəqışlaq bələdiyyəsi | Mirzəqışlaq kəndi |
| 68 | Mirzəməmmədkənd bələdiyyəsi | Mirzəməmmədkənd kəndi |
| 69 | Möhüc bələdiyyəsi | Möhüc kəndi |
| 70 | Muçu bələdiyyəsi | Muçu kəndi |
| 71 | Nöydün bələdiyyəsi | Nöydün kəndi |
| 72 | Nütəh bələdiyyəsi | Nütəh kəndi |
| 73 | Ördüc bələdiyyəsi | Ördüc kəndi |
| 74 | Paşaoba bələdiyyəsi | Paşaoba kəndi |

| | | |
|---|---|---|
| 75 | Pirvahid bələdiyyəsi | Pirvahid kəndi |
| 76 | Püstəqasım bələdiyyəsi | Püstəqasım, Dəhnə və Güneyməhlə kəndləri |
| 77 | Rəngdar bələdiyyəsi | Rəngdar kəndi |
| 78 | Rustov bələdiyyəsi | Rustov, Bad, Bağçalı, Cadarı, Cindar, Kələbağ, Qalagah, Məckəxacə və Yekdar kəndləri |
| 79 | Səbətlər bələdiyyəsi | Səbətlər və Sırt Çiçi kəndləri |
| 80 | Söhüb bələdiyyəsi | Söhüb və Rük kəndləri |
| 81 | Susay bələdiyyəsi | Susay kəndi |
| 82 | Susayqışlaq bələdiyyəsi | Susayqışlaq kəndi |
| 83 | Şuduq bələdiyyəsi | Şuduq kəndi |
| 84 | Talabı bələdiyyəsi | Talabı və Toxmar kəndləri |
| 85 | Talabıqışlaq bələdiyyəsi | Talabıqışlaq kəndi |
| 86 | Təngəaltı bələdiyyəsi | Təngəaltı kəndi |
| 87 | Timiryazev bələdiyyəsi | Timiryazev kəndi |
| 88 | Tülər bələdiyyəsi | Tülər kəndi |
| 89 | Utuq bələdiyyəsi | Utuq kəndi |
| 90 | Uzunmeşə bələdiyyəsi | Uzunmeşə kəndi |
| 91 | Üçgün bələdiyyəsi | Üçgün kəndi |
| 92 | Vəlvələ bələdiyyəsi | Vəlvələ və İbrahimhaput kəndləri |
| 93 | Vladimirovka bələdiyyəsi | Vladimirovka kəndi |
| 94 | Yalavanc bələdiyyəsi | Yalavanc kəndi |
| 95 | Yenikənd bələdiyyəsi | Yenikənd kəndi |
| 96 | Yerfi bələdiyyəsi | Yerfi, Dərk, Qayadalı, Nohurdüzü və Talış kəndləri |
| 97 | Yuxarı Tüləkəran bələdiyyəsi | Yuxarı Tüləkəran kəndi |
| 98 | Zərdabi bələdiyyəsi | Zərdabi qəsəbəsi |
| 99 | Zərqava bələdiyyəsi | Zərqava və Xaspolad kəndləri |
| 100 | Zıxır bələdiyyəsi | Zıxır, Dalıqaya və Gürdəh kəndləri |
| 101 | Zizik bələdiyyəsi | Zizik kəndi |
| | **QUSAR RAYONU** | |
| 1 | Qusar bələdiyyəsi | Qusar şəhəri |
| 2 | Aşağı İmamqulukənd bələdiyyəsi | Aşağı İmamqulukənd və Mucuqoba kəndləri |
| 3 | Aşağı Ləgər bələdiyyəsi | Aşağı Ləgər kəndi |
| 4 | Atlıxan bələdiyyəsi | Atlıxan kəndi |
| 5 | Avaran bələdiyyəsi | Avaran kəndi |
| 6 | Avaranqışlaq bələdiyyəsi | Avaranqışlaq kəndi |
| 7 | Bala Qusar bələdiyyəsi | Bala Qusar kəndi |
| 8 | Bədirqala bələdiyyəsi | Bədirqala kəndi |
| 9 | Bədişqala bələdiyyəsi | Bədişqala kəndi |
| 10 | Böyük Muruq bələdiyyəsi | Böyük Muruq kəndi |



| | | |
|---|---|---|
| 11 | Caqar bələdiyyəsi | Caqar kəndi |
| 12 | Caqarqışlaq bələdiyyəsi | Caqarqışlaq kəndi |
| 13 | Cibir bələdiyyəsi | Cibir kəndi |
| 14 | Çiləgir bələdiyyəsi | Çiləgir kəndi |
| 15 | Çubuqlu bələdiyyəsi | Çubuqlu kəndi |
| 16 | Düztahir bələdiyyəsi | Düztahir kəndi |
| 17 | Əcəxur bələdiyyəsi | Əcəxur və Əcəxuroba kəndləri |
| 18 | Əniq bələdiyyəsi | Əniq kəndi |
| 19 | Əniqoba bələdiyyəsi | Əniqoba və Xuluqoba kəndləri |
| 20 | Əvəcük bələdiyyəsi | Əvəcük kəndi |
| 21 | Gədəzeyxur bələdiyyəsi | Gədəzeyxur kəndi |
| 22 | Gican bələdiyyəsi | Gican kəndi |
| 23 | Gilahoba bələdiyyəsi | Gilahoba və Nəcəfkəndoba kəndləri |
| 24 | Girik bələdiyyəsi | Girik kəndi |
| 25 | Gündüzqala bələdiyyəsi | Gündüzqala kəndi |
| 26 | Haçatala bələdiyyəsi | Haçatala kəndi |
| 27 | Həsənqala bələdiyyəsi | Həsənqala kəndi |
| 28 | Həzrə bələdiyyəsi | Həzrə və Həzrəoba kəndləri |
| 29 | Hil bələdiyyəsi | Hil kəndi |
| 30 | Hiloba bələdiyyəsi | Hiloba kəndi |
| 31 | Xuluq bələdiyyəsi | Xuluq və Gilah kəndləri |
| 32 | Xuray bələdiyyəsi | Xuray kəndi |
| 33 | Xürəl bələdiyyəsi | Xürəl kəndi |
| 34 | İmamqulukənd bələdiyyəsi | *İmamqulukənd kəndi (6)* |
| 35 | Köhnə Xudat bələdiyyəsi | Köhnə Xudat kəndi |
| 36 | Köhnə Xudat qazmalar bələdiyyəsi | Köhnə Xudat qazmalar kəndi |
| 37 | Kufoba bələdiyyəsi | Kufoba kəndi |
| 38 | Kuzun bələdiyyəsi | *Kuzun və Çatgün kəndləri (6)* |
| 39 | Kuzunqışlaq bələdiyyəsi | Kuzunqışlaq kəndi |
| 40 | Qalacıq bələdiyyəsi | Qalacıq kəndi |
| 41 | Qaratoba bələdiyyəsi | Qaratoba və Torpaqkörpü kəndləri |
| 42 | Qayakənd bələdiyyəsi | Qayakənd kəndi |
| 43 | Quxuroba bələdiyyəsi | Quxuroba və Gicanoba kəndləri |
| 44 | Qullar bələdiyyəsi | Qullar kəndi |
| 45 | Quturğan bələdiyyəsi | Quturğan, Arçan, Əlix və Kənarçay kəndləri |
| 46 | Ləcət bələdiyyəsi | Ləcət kəndi |
| 47 | Ləgərqışlaq bələdiyyəsi | Ləgərqışlaq kəndi |
| 48 | Minaxür bələdiyyəsi | Minaxür kəndi |
| 49 | Mucuq bələdiyyəsi | Mucuq kəndi |
| 50 | Nəcəfkənd bələdiyyəsi | Nəcəfkənd və Aşağı Qələnxur kəndləri |
| 51 | Piral bələdiyyəsi | Piral kəndi |

| | | |
|---|---|---|
| 52 | Samur bələdiyyəsi | Samur qəsəbəsi və Yeni Tahircal kəndi |
| 53 | Sudur bələdiyyəsi | Sudur, Quxur və Yerği kek kəndləri |
| 54 | Suvacal bələdiyyəsi | Suvacal kəndi |
| 55 | Şirvanovka bələdiyyəsi | Şirvanovka və Zuxuloba kəndləri |
| 56 | Ukur bələdiyyəsi | Ukur kəndi |
| 57 | Urva bələdiyyəsi | Urva və Urvaoba kəndləri |
| 58 | Üzdənoba bələdiyyəsi | Üzdənoba və Salahoba kəndləri |
| 59 | Yasab bələdiyyəsi | Yasab kəndi |
| 60 | Yasaboba bələdiyyəsi | Yasaboba kəndi |
| 61 | Yeni Həyat bələdiyyəsi | Yeni Həyat və Langi kəndləri |
| 62 | Yuxarı Qələnxur bələdiyyəsi | Yuxarı Qələnxur kəndi |
| 63 | Yuxarı Ləgər bələdiyyəsi | Yuxarı Ləgər kəndi |
| 64 | Yuxarı Tahircal bələdiyyəsi | Yuxarı Tahircal kəndi |
| 65 | Yuxarı Zeyxur bələdiyyəsi | Yuxarı Zeyxur kəndi |
| 66 | Zindanmuruq bələdiyyəsi | Zindanmuruq kəndi |
| 67 | Zindanmuruqqışlaq bələdiyyəsi | Zindanmuruqqışlaq kəndi |
| 68 | Zuxul bələdiyyəsi | Zuxul kəndi |
| *69* | *Suduroba bələdiyyəsi (6)* | *Suduroba kəndi (6)* |
| *70* | *Laza bələdiyyəsi (6)* | *Laza kəndi (6)* |
| | **LERİK RAYONU** | |
| 1 | Lerik bələdiyyəsi | Lerik qəsəbəsi |
| 2 | Ağqışlaq bələdiyyəsi | Ağqışlaq kəndi |
| 3 | Almu bələdiyyəsi | Almu kəndi |
| 4 | Ambu bələdiyyəsi | Ambu, *Xəlifəkücə (8)* və Osnağakücə kəndləri |
| 5 | Andurma bələdiyyəsi | Andurma və Piyəkücə kəndləri |
| 6 | Anzolu bələdiyyəsi | Anzolu və Təngəbin kəndləri |
| 7 | Aran bələdiyyəsi | Aran, Lələdulan və Musavar kəndləri |
| 8 | Arta bələdiyyəsi | Arta kəndi |
| 9 | Aşağı Amburdərə bələdiyyəsi | Aşağı Amburdərə, Hilədərə, Xocadoy, Qışlaq və Yuxarı Amburdərə kəndləri |
| 10 | Azərbaycan bələdiyyəsi | *Günəşli (13)* və Babagil kəndləri |
| 11 | Babakücə bələdiyyəsi | Babakücə və Axunahiran kəndləri |
| 12 | Barzavu bələdiyyəsi | Barzavu kəndi |
| 13 | Bibiyani bələdiyyəsi | Bibiyani kəndi |
| 14 | Biləvər bələdiyyəsi | Biləvər, Kekonu və *Osyodərə (8)* kəndləri |
| 15 | Blaband bələdiyyəsi | Blaband kəndi |
| 16 | Bobla bələdiyyəsi | Bobla, Ancaqov və Zeynəko kəndləri |
| 17 | Boykəndil bələdiyyəsi | Boykəndil kəndi |
| 18 | Bradi bələdiyyəsi | *Bradi kəndi (8)* |
| 19 | Brkandul bələdiyyəsi | Brkandul və 40-cı kilometr kəndləri |
| 20 | Buruq bələdiyyəsi | Buruq kəndi |
| 21 | Bülüdül bələdiyyəsi | Bülüdül kəndi |
| 22 | Bürsülüm bələdiyyəsi | Bürsülüm və Ləkər kəndləri |



| | | |
|---|---|---|
| 23 | Büzeyir bələdiyyəsi | Büzeyir kəndi |
| 24 | *Camaşair (8)* bələdiyyəsi | *Camaşair (8)* kəndi |
| 25 | Cəngəmiran bələdiyyəsi | Cəngəmiran kəndi |
| 26 | Cəngənəvud bələdiyyəsi | Cəngənəvud kəndi |
| 27 | *Conu (8)* bələdiyyəsi | *Conu (8)* və Tülü kəndləri |
| 28 | Çayrud bələdiyyəsi | Çayrud kəndi |
| 29 | Çeşman bələdiyyəsi | Çeşman kəndi |
| 30 | Davradibi bələdiyyəsi | Davradibi və Hücü kəndləri |
| 31 | Davıdonu bələdiyyəsi | Davıdonu, Haftonu və Vamazğon kəndləri |
| 32 | Dəstər bələdiyyəsi | Dəstər kəndi |
| 33 | Dico bələdiyyəsi | Dico, Nıso və Təndul kəndləri |
| 34 | Durğan bələdiyyəsi | Durğan kəndi |
| 35 | Əliabad bələdiyyəsi | Əliabad kəndi |
| 36 | *Veri Əliabadı (8)* bələdiyyəsi | *Veri Əliabadı (8)* kəndi |
| 37 | Ərdəbilə bələdiyyəsi | Ərdəbilə kəndi |
| 38 | Əvilə bələdiyyəsi | Əvilə kəndi |
| 39 | Gəndov bələdiyyəsi | Gəndov kəndi |
| 40 | Hamarat bələdiyyəsi | Hamarat və Dızdipok kəndləri |
| 41 | Hamarmeşə bələdiyyəsi | Hamarmeşə, Haran və Sivəkoran kəndləri |
| 42 | Hıramo bələdiyyəsi | Hıramo kəndi |
| 43 | Hovil bələdiyyəsi | Hovil kəndi |
| 44 | Xanəgah bələdiyyəsi | Xanəgah kəndi |
| 45 | Kələxan bələdiyyəsi | Kələxan, *Göydərə (8)*, Hüseynabad, Kəlvəz və Məhləabad kəndləri |
| 46 | Kıncıvo bələdiyyəsi | Kıncıvo kəndi |
| 47 | Kirəvud bələdiyyəsi | Kirəvud kəndi |
| 48 | Kornədi bələdiyyəsi | Kornədi kəndi |
| 49 | Küman bələdiyyəsi | Küman kəndi |
| 50 | *Gürdəsər (8)* bələdiyyəsi | *Gürdəsər (8)* kəndi |
| 51 | Küsəkəran bələdıyyəsi | Küsəkəran kəndi |
| 52 | Qələbin bələdiyyəsi | Qələbin kəndi |
| 53 | Qəvoy bələdiyyəsi | Qəvoy kəndi |
| 54 | Qılqılov bələdiyyəsi | Qılqılov kəndi |
| 55 | *Qosmalıan (8)* bələdiyyəsi | *Qosmalıan, Çökərə (8)*, Digah, Hiveri, Ləlahiran və Tatoni kəndləri |
| 56 | Laman bələdiyyəsi | Laman kəndi |
| 57 | Lərmərud bələdiyyəsi | Lərmərud kəndi |
| 58 | Livədirqə bələdiyyəsi | Livədirqə və Yuxarı Bilnə kəndləri |
| 59 | Lüləkəran bələdiyyəsi | Lüləkəran kəndi |
| 60 | Loda bələdiyyəsi | Loda kəndi |

| | | |
|---|---|---|
| 61 | Mastail bələdiyyəsi | Mastail kəndi |
| 62 | Mistan bələdiyyəsi | Mistan, Digov, Digovdərə, Xəlifəkənd, Halabın və Pirəsora kəndləri |
| 63 | Molalan bələdiyyəsi | Molalan kəndi |
| 64 | Monidigah bələdiyyəsi | Monidigah, Jindi və Pendi kəndləri |
| 65 | Murya bələdiyyəsi | Murya kəndi |
| 66 | Nisli bələdiyyəsi | Nisli və Həzovi kəndləri |
| 67 | Noda bələdiyyəsi | Noda və Bilnə kəndləri |
| 68 | Nücü bələdiyyəsi | Nücü kəndi |
| 69 | *Nuravud (8)* bələdiyyəsi | *Nuravud (8)*, Köhnə Orand, Sorsçay və Zərdəbərə kəndləri |
| 70 | Nüsomurya bələdiyyəsi | Nüsomurya və Qədimkücə kəndləri |
| 71 | Nüvədi bələdiyyəsi | Nüvədi və Rəzəvül kəndləri |
| 72 | Orand bələdiyyəsi | Orand kəndi |
| 73 | Ordahal bələdiyyəsi | Ordahal kəndi |
| 74 | Peştətük bələdiyyəsi | Peştətük kəndi |
| 75 | Piran bələdiyyəsi | Piran kəndi |
| 76 | Pirəsora bələdiyyəsi | Pirəsora kəndi |
| 77 | Pirzəkücə bələdiyyəsi | Pirzəkücə kəndi |
| 78 | Rəzgov bələdiyyəsi | Rəzgov kəndi |
| 79 | Rvarud bələdiyyəsi | Rvarud kəndi |
| 80 | Sipyəreqon bələdiyyəsi | Sipyəreqon kəndi |
| 81 | Siyov bələdiyyəsi | Siyov, Akuşapeştə və Xəlifəhoni kəndləri |
| 82 | Sors bələdiyyəsi | Sors kəndi |
| 83 | Soru bələdiyyəsi | Soru kəndi |
| 84 | Şinəbənd bələdiyyəsi | Şinəbənd kəndi |
| 85 | Şingədulan bələdiyyəsi | Şingədulan kəndi |
| 86 | Şivlə bələdiyyəsi | Şivlə və *Geskon (8)* kəndləri |
| 87 | Şonaçola bələdiyyəsi | Şonaçola, Divağac, Hoveri və Qələsər kəndləri |
| 88 | Təbrizli bələdiyyəsi | Təbrizli kəndi |
| 89 | Tikəband bələdiyyəsi | Tikəband və Zardoni kəndləri |
| 90 | Veri bələdiyyəsi | Veri kəndi |
| 91 | Vıjaker bələdiyyəsi | Vıjaker və Qışlaq kəndləri |
| 92 | Vistən bələdiyyəsi | Vistən kəndi |
| 93 | Vizəzəmin bələdiyyəsi | Vizəzəmin kəndi |
| 94 | Vov bələdiyyəsi | Vov, Nosovyədi və Vənədi kəndləri |
| 95 | *Vılık (8)* bələdiyyəsi | *Vılık (8)* və Hübi kəndləri |
| 96 | Zenoni bələdiyyəsi | Zenoni kəndi |
| 97 | Zərigümaco bələdiyyəsi | Zərigümaco və Qışlaq kəndləri |
| 98 | Zövnə bələdiyyəsi | Zövnə kəndi |
| 99 | Züvüc bələdiyyəsi | Züvüc kəndi |



| | LƏNKƏRAN RAYONU | |
|---|---|---|
| 1 | Lənkəran bələdiyyəsi | Lənkəran şəhəri |
| 2 | Liman bələdiyyəsi | Liman şəhəri, Qumbaşı kəndi və Şirinsu qəsəbəsi |
| 3 | Aşağı Nüvədi bələdiyyəsi | Aşağı Nüvədi qəsəbəsi |
| 4 | Bala Şürük bələdiyyəsi | Bala Şürük və Kosalar kəndləri |
| 5 | Balıqçılar bələdiyyəsi | Balıqçılar qəsəbəsi |
| 6 | Bəliton bələdiyyəsi | Bəliton, Horavenc və Şivlik kəndləri |
| 7 | Biləsər bələdiyyəsi | Biləsər, Ələzəpin, Seliqavol və Vıy kəndləri |
| 8 | Boladı bələdiyyəsi | Boladı kəndi |
| 9 | Bürcəli bələdiyyəsi | Bürcəli kəndi |
| 10 | Cil bələdiyyəsi | Cil kəndi |
| 11 | Darquba bələdiyyəsi | Darquba və Səbir kəndləri |
| 12 | Daşdalıqcar bələdiyyəsi | Daşdalıqcar kəndi |
| 13 | Daştatük bələdiyyəsi | Daştatük, Aşağı Apu və Rəzvan kəndləri |
| 14 | Dıryan bələdiyyəsi | Dıryan kəndi |
| 15 | Digah bələdiyyəsi | Digah kəndi |
| 16 | Əşlə bələdiyyəsi | Əşlə kəndi |
| 17 | Gəgiran bələdiyyəsi | Gəgiran və Jidi kəndləri |
| 18 | Gərmətük bələdiyyəsi | Gərmətük qəsəbəsi və Velədi kəndi |
| 19 | Girdəni bələdiyyəsi | Girdəni kəndi |
| 20 | Göyşaban bələdiyyəsi | Göyşaban kəndi |
| 21 | Günəhir bələdiyyəsi | Günəhir kəndi |
| 22 | Haftoni bələdiyyəsi | Haftoni qəsəbəsi, Xanlıqlı və Talışlı kəndləri |
| 23 | Havzova bələdiyyəsi | Havzova kəndi |
| 24 | Hirkan bələdiyyəsi | Hirkan qəsəbəsi |
| 25 | Xanbulan bələdiyyəsi | Xanbulan və Sərinbulaq kəndləri |
| 26 | Xarxatan bələdiyyəsi | Xarxatan kəndi |
| 27 | Xolmili bələdiyyəsi | Xolmili kəndi |
| 28 | İstisu bələdiyyəsi | İstisu qəsəbəsi |
| 29 | Kənarmeşə bələdiyyəsi | Kənarmeşə və Şilim kəndi |
| 30 | Kərgəlan bələdiyyəsi | Kərgəlan kəndi |
| 31 | Köhnə Gəgir bələdiyyəsi | Köhnə Gəgir kəndi |
| 32 | Küvənil bələdiyyəsi | Küvənil kəndi |
| 33 | Qurumba bələdiyyəsi | Qurumba kəndi |
| 34 | Ləj bələdiyyəsi | Ləj kəndi |
| 35 | Lüvəsər bələdiyyəsi | Lüvəsər kəndi |
| 36 | Mamusta bələdiyyəsi | Mamusta kəndi |
| 37 | Moğonojoba bələdiyyəsi | Moğonojoba kəndi |
| 38 | Narbağı bələdiyyəsi | Narbağı kəndi |

| | | |
|---|---|---|
| 39 | Nərimanabad bələdiyyəsi | Nərimanabad qəsəbəsi |
| 40 | Osaküçə bələdiyyəsi | Osaküçə, Haftaruon, Moloja, Pambəyi, Sinovli və Tatoba kəndləri |
| 41 | Parakənd bələdiyyəsi | Parakənd kəndi |
| 42 | Rvo bələdiyyəsi | Rvo, Mollakənd və Siyablı kəndləri |
| 43 | Separadi bələdiyyəsi | Separadi kəndi |
| 44 | Seyidəkəran bələdiyyəsi | Seyidəkəran kəndi |
| 45 | Səpnəkəran bələdiyyəsi | Səpnəkəran kəndi |
| 46 | Siyavar bələdiyyəsi | Siyavar kəndi |
| 47 | Sütəmurdov bələdiyyəsi | Sütəmurdov kəndi |
| 48 | Şağlaküçə bələdiyyəsi | Şağlaküçə və Ballabur kəndləri |
| 49 | Şağlaser bələdiyyəsi | Şağlaser kəndi |
| 50 | Şıxakəran bələdiyyəsi | Şıxakəran kəndi |
| 51 | Şiləvar bələdiyyəsi | Şiləvar kəndi |
| 52 | Şovu bələdiyyəsi | Şovu və Təngivan kəndləri |
| 53 | Şürük bələdiyyəsi | Şürük kəndi |
| 54 | Tuado bələdiyyəsi | Tuado kəndi |
| 55 | Tükəvilə bələdiyyəsi | Tükəvilə kəndi |
| 56 | Türkəkəran bələdiyyəsi | Türkəkəran kəndi |
| 57 | Türkəncil bələdiyyəsi | Türkəncil və Qodəsə kəndləri |
| 58 | Tütəpeştə bələdiyyəsi | Tütəpeştə kəndi |
| 59 | Ürgə bələdiyyəsi | Ürgə kəndi |
| 60 | Vel bələdiyyəsi | Vel kəndi |
| 61 | Yuxarı Nüvədi bələdiyyəsi | Yuxarı Nüvədi və Mikolan kəndləri |
| 62 | Vilvan bələdiyyəsi | Vilvan kəndi |
| 63 | Viravul bələdiyyəsi | Viravul kəndi |
| 64 | Viyən bələdiyyəsi | Viyən kəndi |
| 65 | Zövlə bələdiyyəsi | Zövlə kəndi |
| | **MASALLI RAYONU** | |
| 1 | Masallı bələdiyyəsi | Masallı şəhəri |
| 2 | Abasbəyli bələdiyyəsi | Abasbəyli kəndi |
| 3 | Ağakişibəyli bələdiyyəsi | Ağakişibəyli kəndi |
| 4 | Alışanlı bələdiyyəsi | Alışanlı kəndi |
| 5 | Allahyarlı bələdiyyəsi | Allahyarlı kəndi |
| 6 | Aşurlu bələdiyyəsi | Aşurlu kəndi |
| 7 | Babaküçə bələdiyyəsi | Babaküçə kəndi |
| 8 | Babaser bələdiyyəsi | Babaser kəndi |
| 9 | Bağıroba bələdiyyəsi | Bağıroba kəndi |
| 10 | Bala Təklə bələdiyyəsi | Bala Təklə kəndi |
| 11 | Banbaşı bələdiyyəsi | Banbaşı kəndi |
| 12 | Bədəlan bələdiyyəsi | Bədəlan kəndi |
| 13 | Binə Xocavar bələdiyyəsi | Binə Xocavar kəndi |
| 14 | Birinci Səmədxanlı bələdiyyəsi | Birinci Səmədxanlı kəndi |
| 15 | Birinci Tiyaqanı bələdiyyəsi | Birinci Tiyaqanı kəndi |



| | | |
|---|---|---|
| 16 | Birinci Yeddioymaq bələdiyyəsi | Birinci Yeddioymaq kəndi |
| 17 | Boradigah bələdiyyəsi | Boradigah qəsəbəsi |
| 18 | Böyük Xocavar bələdiyyəsi | Böyük Xocavar kəndi |
| 19 | Çaxırlı bələdiyyəsi | Çaxırlı kəndi |
| 20 | Çayqıraq bələdiyyəsi | Çayqıraq kəndi |
| 21 | Dadva bələdiyyəsi | Dadva kəndi |
| 22 | Dəlləkli bələdiyyəsi | Dəlləkli kəndi |
| 23 | Dəlləkoba bələdiyyəsi | Dəlləkoba kəndi |
| 24 | Dəmbəlov bələdiyyəsi | Dəmbəlov kəndi |
| 25 | Dəmirçi bələdiyyəsi | Dəmirçi kəndi |
| 26 | Digah bələdiyyəsi | Digah kəndi |
| 27 | Əhmədli bələdiyyəsi | Əhmədli kəndi |
| 28 | Əminli bələdiyyəsi | Əminli və Şəhriyar kəndləri |
| 29 | Ərəb bələdiyyəsi | Ərəb kəndi |
| 30 | Ərkivan bələdiyyəsi | *Ərkivan qəsəbəsi (11)* |
| 31 | Ətcələr bələdiyyəsi | Ətcələr kəndi |
| 32 | Əzizabad bələdiyyəsi | Əzizabad kəndi |
| 33 | Göyəçöl bələdiyyəsi | Göyəçöl kəndi |
| 34 | Güllütəpə bələdiyyəsi | *Güllütəpə və Əmirtürbə kəndləri (13)* |
| 35 | Hacıtəpə bələdiyyəsi | Hacıtəpə kəndi |
| 36 | Həsənli bələdiyyəsi | Həsənli kəndi |
| 37 | Hişkədərə bələdiyyəsi | Hişkədərə kəndi |
| 38 | Hüseynhacılı bələdiyyəsi | Hüseynhacılı kəndi |
| 39 | Xallıcalı bələdiyyəsi | Xallıcalı kəndi |
| 40 | Xanalıyan bələdiyyəsi | Xanalıyan kəndi |
| 41 | Xəlfələr bələdiyyəsi | Xəlfələr kəndi |
| 42 | Xıl bələdiyyəsi | Xıl kəndi |
| 43 | Xırmandalı bələdiyyəsi | Xırmandalı kəndi |
| 44 | Xoşçobanlı bələdiyyəsi | Xoşçobanlı kəndi |
| 45 | İkinci Səmədxanlı bələdiyyəsi | İkinci Səmədxanlı kəndi |
| 46 | İkinci Yeddioymaq bələdiyyəsi | İkinci Yeddioymaq kəndi |
| 47 | İmanlı bələdiyyəsi | İmanlı kəndi |
| 48 | İsgəndərli bələdiyyəsi | İsgəndərli kəndi |
| 49 | İsi bələdiyyəsi | İsi kəndi |
| 50 | Kalinovka bələdiyyəsi | Kalinovka kəndi |
| 51 | Kəlbəhüseynli bələdiyyəsi | Kəlbəhüseynli kəndi |
| 52 | Kolatan bələdiyyəsi | Böyük Kolatan və Bala Kolatan kəndləri |
| 53 | Kosagül bələdiyyəsi | Kosagül kəndi |
| 54 | Köçəkli bələdiyyəsi | Köçəkli kəndi |
| 55 | Köhnə Alvadı bələdiyyəsi | Köhnə Alvadı kəndi |
| 56 | Köhnə Zuvand bələdiyyəsi | Köhnə Zuvand kəndi |
| 57 | Kubin bələdiyyəsi | Kubin kəndi |
| 58 | Kürdəbazlı bələdiyyəsi | Kürdəbazlı kəndi |

| | | |
|---|---|---|
| 59 | Qarğalıq bələdiyyəsi | Qarğalıq kəndi |
| 60 | Qasımlı bələdiyyəsi | Qasımlı kəndi |
| 61 | Qədirli bələdiyyəsi | Qədirli kəndi |
| 62 | Qəriblər bələdiyyəsi | Qəriblər kəndi |
| 63 | Qəzvinoba bələdiyyəsi | Qəzvinoba kəndi |
| 64 | Qızılağac bələdiyyəsi | Qızılağac kəndi |
| 65 | Qızılavar bələdiyyəsi | Qızılavar kəndi |
| 66 | Qodman bələdiyyəsi | Qodman kəndi |
| 67 |Ləngan bələdiyyəsi | Ləngan kəndi |
| 68 | Lürən bələdiyyəsi | Lürən kəndi |
| 69 | Mahmudavar bələdiyyəsi | Mahmudavar kəndi |
| 70 | Masallı qəsəbə bələdiyyəsi | Masallı qəsəbəsi |
| 71 | Meşəkənarı bələdiyyəsi | Meşəkənarı kəndi |
| 72 | Məmmədxanlı bələdiyyəsi | Məmmədxanlı kəndi |
| 73 | Məmmədoba bələdiyyəsi | Məmmədoba kəndi |
| 74 | Məmmədrzakücə bələdiyyəsi | Məmmədrzakücə kəndi |
| 75 | Mişkəmi bələdiyyəsi | Mişkəmi kəndi |
| 76 | Miyanku bələdiyyəsi | Miyanku kəndi |
| 77 | Molalan bələdiyyəsi | Molalan kəndi |
| 78 | Mollahəsənli bələdiyyəsi | Mollahəsənli kəndi |
| 79 | Mollaoba bələdiyyəsi | Mollaoba kəndi |
| 80 | Musakücə bələdiyyəsi | Musakücə kəndi |
| 81 | Nəzəroba bələdiyyəsi | Nəzəroba kəndi |
| 82 | Ninəlov bələdiyyəsi | Ninəlov kəndi |
| 83 | Öncəqala bələdiyyəsi | Öncəqala kəndi |
| 84 | Pircana bələdiyyəsi | Pircana kəndi |
| 85 | Rüdəkənar bələdiyyəsi | Rüdəkənar kəndi |
| 86 | Sarıcəfərli bələdiyyəsi | Sarıcəfərli kəndi |
| 87 | Seybətin bələdiyyəsi | Seybətin kəndi |
| 88 | Sərçuvar bələdiyyəsi | Sərçuvar kəndi |
| 89 | Sığdaş bələdiyyəsi | Sığdaş kəndi |
| 90 | Sığıncaq bələdiyyəsi | Sığıncaq kəndi |
| 91 | Sirəbil bələdiyyəsi | Sirəbil kəndi |
| 92 | Şatıroba bələdiyyəsi | Şatıroba kəndi |
| 93 | Şərəfə bələdiyyəsi | Şərəfə kəndi |
| 94 | Şıxlar bələdiyyəsi | Şıxlar kəndi |
| 95 | Şıxlar bələdiyyəsi | Şıxlar kəndi |
| 96 | Tatyanoba bələdiyyəsi | Tatyanoba kəndi |
| 97 | Təkdam bələdiyyəsi | Təkdam kəndi |
| 98 | Təklə bələdiyyəsi | Təklə kəndi |
| 99 | Təzə Alvadı bələdiyyəsi | Təzə Alvadı kəndi |
| 100 | Təzəkənd bələdiyyəsi | Təzəkənd kəndi |
| 101 | Tüklə bələdiyyəsi | Tüklə kəndi |



| | | |
|---|---|---|
| 102 | Türkoba bələdiyyəsi | Türkoba kəndi |
| 103 | Yeni Zuvand bələdiyyəsi | Yeni Zuvand kəndi |
| 104 | Yeyənkənd bələdiyyəsi | Yeyənkənd kəndi |
| 105 | Yolağac bələdiyyəsi | Yolağac kəndi |
| 106 | Yusifli bələdiyyəsi | Yusifli kəndi |
| | **NEFTÇALA RAYONU** | |
| 1 | Neftçala bələdiyyəsi | Neftçala şəhəri |
| 2 | Astanlı bələdiyyəsi | Astanlı kəndi |
| 3 | Aşağı Qaramanlı bələdiyyəsi | Aşağı Qaramanlı kəndi |
| 4 | Aşağı Surra bələdiyyəsi | Aşağı Surra kəndi |
| 5 | Bankə bələdiyyəsi | Bankə qəsəbəsi |
| 6 | 1 №-li Mayak bələdiyyəsi | *1 №-li Mayak və Sübh kəndləri (5)* |
| 7 | Boyat bələdiyyəsi | Boyat, Ballıcalı və Dördlər kəndləri |
| 8 | Ərəbqardaşbəyli bələdiyyəsi | Ərəbqardaşbəyli, Bala Surra və Cəngan kəndləri |
| 9 | Həsənabad bələdiyyəsi | Həsənabad qəsəbəsi |
| 10 | Xəzər bələdiyyəsi | Xəzər kəndi |
| 11 | Xıllı bələdiyyəsi | Xıllı qəsəbəsi |
| 12 | Xol Qarabucaq bələdiyyəsi | Xol Qarabucaq, Dördlər və Xoltəzəkənd kəndləri |
| 13 | Xol Qaraqaşlı bələdiyyəsi | Xol Qaraqaşlı və Mürsəqulu kəndləri |
| 14 | 2 №-li Mayak bələdiyyəsi | *2 №-li Mayak kəndi (5)* |
| 15 | Kürkənd bələdiyyəsi | Kürkənd kəndi |
| 16 | Kür Qarabucaq bələdiyyəsi | Kür Qarabucaq kəndi |
| 17 | Qaçaqkənd bələdiyyəsi | Qaçaqkənd, Xanməmmədli, Qazaxbərəsi və Ramazanlı kəndləri |
| 18 | Qaraqaşlı bələdiyyəsi | Qaraqaşlı, Beştalı və Şorkənd kəndləri |
| 19 | Qədimkənd bələdiyyəsi | Qədimkənd və Birinci Qaralı kəndləri |
| 20 | Qırmızıkənd bələdiyyəsi | Qırmızıkənd kəndi |
| 21 | Mikayıllı bələdiyyəsi | Mikayıllı, Dalğalı, Kürdili, Qızqayıtdı, *Sahiloba (13)* və Sarıqamış kəndləri |
| 22 | Mirzəqurbanlı bələdiyyəsi | Mirzəqurbanlı və Uzunbabalı kəndləri |
| 23 | Şirvanlı bələdiyyəsi | Şirvanlı kəndi |
| 24 | Tatarməhlə bələdiyyəsi | Tatarməhlə, *Abasalılı (5)* kəndləri |
| 25 | Yenikənd bələdiyyəsi | *Yenikənd və Qırmızı Şəfəq kəndləri (5)* |
| 26 | Yeniqışlaq bələdiyyəsi | Yeniqışlaq və Haqverdilər kəndləri |
| 27 | Yuxarı Qaramanlı bələdiyyəsi | Yuxarı Qaramanlı, İkinci Qaralı və Pirəbbə kəndləri |
| | **OĞUZ RAYONU** | |
| 1 | Oğuz bələdiyyəsi | Oğuz şəhəri |
| 2 | Astraxanovka bələdiyyəsi | Astraxanovka və Vladimirovka kəndləri |
| 3 | Baş Daşağıl bələdiyyəsi | Baş Daşağıl kəndi |
| 4 | Bayan bələdiyyəsi | Bayan kəndi |

| | | |
|---|---|---|
| 5 | Böyük Söyüdlü bələdiyyəsi | Böyük Söyüdlü kəndi |
| 6 | Bucaq bələdiyyəsi | Bucaq kəndi |
| 7 | Calut bələdiyyəsi | Calut kəndi |
| 8 | Dəymədağlı bələdiyyəsi | Dəymədağlı kəndi |
| 9 | Dəymədərə bələdiyyəsi | Dəymədərə kəndi |
| 10 | Ərmənət bələdiyyəsi | Ərmənət kəndi |
| 11 | Filfili bələdiyyəsi | Filfili kəndi |
| 12 | Xaçmaz bələdiyyəsi | Xaçmaz və Abdallı kəndləri |
| 13 | Xaçmazqışlaq bələdiyyəsi | Xaçmazqışlaq kəndi |
| 14 | Xalxal bələdiyyəsi | Xalxal kəndi |
| 15 | Xalxalqışlaq bələdiyyəsi | Xalxalqışlaq kəndi |
| 16 | Kərimli bələdiyyəsi | Kərimli kəndi |
| 17 | Qarabaldır bələdiyyəsi | Qarabaldır kəndi |
| 18 | Qarabulaq bələdiyyəsi | Qarabulaq kəndi |
| 19 | Qumlaq bələdiyyəsi | Qumlaq və Hallavar kəndləri |
| 20 | Mollalı bələdiyyəsi | Mollalı kəndi |
| 21 | Muxas bələdiyyəsi | Muxas kəndi |
| 22 | Padar bələdiyyəsi | Padar kəndi |
| 23 | Sincan bələdiyyəsi | Sincan kəndi |
| 24 | Şirvanlı bələdiyyəsi | Şirvanlı kəndi |
| 25 | Tayıflı bələdiyyəsi | Tayıflı kəndi |
| 26 | Tərkeş bələdiyyəsi | Tərkeş kəndi |
| 27 | Top bələdiyyəsi | Top kəndi |
| 28 | Yaqublu bələdiyyəsi | Yaqublu kəndi |
| 29 | Yemişanlı bələdiyyəsi | Yemişanlı kəndi |
| 30 | Yenikənd bələdiyyəsi | Yenikənd kəndi |
| 31 | Zərrab bələdiyyəsi | Zərrab kəndi |
| | **SAATLI RAYONU** | |
| 1 | Saatlı bələdiyyəsi | Saatlı şəhəri |
| 2 | Azadkənd bələdiyyəsi | Azadkənd kəndi |
| 3 | Bəylər bələdiyyəsi | Bəylər kəndi |
| 4 | Bəylik bələdiyyəsi | Bəylik kəndi |
| 5 | Cəfərxan bələdiyyəsi | Cəfərxan kəndi |
| 6 | Dədə Qorqud bələdiyyəsi | Dədə Qorqud kəndi |
| 7 | Dəlilər bələdiyyəsi | Dəlilər kəndi |
| 8 | Əbil bələdiyyəsi | Əbil kəndi |
| 9 | Əhmədbəyli bələdiyyəsi | Əhmədbəyli kəndi |
| 10 | Əliabad bələdiyyəsi | Əliabad kəndi |
| 11 | Əlisoltanlı bələdiyyəsi | Əlisoltanlı kəndi |
| 12 | Fətəlikənd bələdiyyəsi | Fətəlikənd kəndi |
| 13 | Genişkənd bələdiyyəsi | Genişkənd kəndi |
| 14 | Gomuşçu bələdiyyəsi | Gomuşçu kəndi |
| 15 | Günəşli bələdiyyəsi | Günəşli kəndi |



| | | |
|---|---|---|
| 16 | Hacıqasımlı bələdiyyəsi | Hacıqasımlı kəndi |
| 17 | Heydərabad bələdiyyəsi | Heydərabad kəndi |
| 18 | Xanlarkənd bələdiyyəsi | *Xanlarkənd kəndi (5)* |
| 19 | Kamallı bələdiyyəsi | Kamallı kəndi |
| 20 | Qaracalar bələdiyyəsi | Qaracalar kəndi |
| 21 | Qaralar bələdiyyəsi | Qaralar kəndi |
| 22 | Qara Nuru bələdiyyəsi | Qara Nuru kəndi |
| 23 | Qarayevkənd bələdiyyəsi | Qarayevkənd kəndi |
| 24 | Qazanbatan bələdiyyəsi | Qazanbatan kəndi |
| 25 | Qıraqlı bələdiyyəsi | Qıraqlı kəndi |
| 26 | Məmmədabad bələdiyyəsi | Məmmədabad kəndi |
| 27 | Məzrəli bələdiyyəsi | Məzrəli kəndi |
| 28 | Mircəlal bələdiyyəsi | *Mircəlal kəndi (5)* |
| 29 | Mollavazlı bələdiyyəsi | Mollavazlı kəndi |
| 30 | Musalı bələdiyyəsi | Musalı kəndi |
| 31 | Mustafabəyli bələdiyyəsi | Mustafabəyli kəndi |
| 32 | Naharlı bələdiyyəsi | Naharlı kəndi |
| 33 | Nərimanov bələdiyyəsi | Nərimanov kəndi |
| 34 | Nəsimikənd bələdiyyəsi | Nəsimikənd kəndi |
| 35 | Novruzlu bələdiyyəsi | Novruzlu kəndi |
| 36 | Potubəyli bələdiyyəsi | Potubəyli kəndi |
| 37 | Sarıcalar bələdiyyəsi | Sarıcalar kəndi |
| 38 | Seyidoba bələdiyyəsi | *Seyidlər (13)* kəndi |
| 39 | Sımada bələdiyyəsi | Sımada kəndi |
| 40 | Şirinbəyli bələdiyyəsi | Şirinbəyli kəndi |
| 41 | Varxan bələdiyyəsi | Varxan kəndi |
| 42 | Yeni Novruzlu bələdiyyəsi | Yeni Novruzlu kəndi |
| *43* | *Çolpı bələdiyyəsi (5)* | *Çolpı kəndi (5)* |
| *44* | *Soltanabad bələdiyyəsi (5)* | *Soltanabad kəndi (5)* |
| | **SABİRABAD RAYONU** | |
| 1 | Sabirabad bələdiyyəsi | Sabirabad şəhəri |
| 2 | Axısxa bələdiyyəsi | Axısxa kəndi |
| 3 | Axtaçı bələdiyyəsi | Axtaçı kəndi |
| 4 | *Yuxarı Axtaçı (5)* bələdiyyəsi | *Yuxarı Axtaçı (5)* kəndi |
| 5 | Axtaçı Muğan bələdiyyəsi | Axtaçı Muğan kəndi |
| 6 | Şəhriyar *(5)* bələdiyyəsi | Şəhriyar *(5)* kəndi |
| 7 | Azadkənd bələdiyyəsi | Azadkənd kəndi |
| 8 | *Bala Həşimxanlı (5)* bələdiyyəsi | *Bala Həşimxanlı (5)* kəndi |
| 9 | Balakənd bələdiyyəsi | Balakənd kəndi |
| 10 | *Balvar (5)* bələdiyyəsi | *Balvar (5)* kəndi |
| 11 | Beşdəli bələdiyyəsi | Beşdəli kəndi |
| 12 | Bulaqlı bələdiyyəsi | Bulaqlı kəndi |
| 13 | Bulduq bələdiyyəsi | Bulduq kəndi |

| | | |
|---|---|---|
| 14 | Cavad bələdiyyəsi | Cavad kəndi |
| 15 | Cəngan bələdiyyəsi | Cəngan kəndi |
| 16 | Çığırğan bələdiyyəsi | Çığırğan kəndi |
| 17 | Çiçəkli bələdiyyəsi | Çiçəkli kəndi |
| 18 | Çöl Ağaməmmədli bələdiyyəsi | Çöl Ağaməmmədli kəndi |
| 19 | Çöl Beşdəli bələdiyyəsi | Çöl Beşdəli kəndi |
| 20 | Çöl Dəllək bələdiyyəsi | Çöl Dəllək kəndi |
| 21 | Dadaşbəyli bələdiyyəsi | Dadaşbəyli kəndi |
| 22 | Əhmədabad bələdiyyəsi | Əhmədabad kəndi |
| 23 | Əlicanlı bələdiyyəsi | Əlicanlı kəndi |
| 24 | Əliləmbəyli bələdiyyəsi | Əliləmbəyli kəndi |
| 25 | Əsədli bələdiyyəsi | Əsədli kəndi |
| 26 | Əsgərbəyli bələdiyyəsi | Əsgərbəyli kəndi |
| 27 | Ətcələr bələdiyyəsi | Ətcələr kəndi |
| 28 | Güdəcühür bələdiyyəsi | Güdəcühür kəndi |
| 29 | Hacıbəbir bələdiyyəsi | Hacıbəbir kəndi |
| 30 | Həsənli bələdiyyəsi | Həsənli kəndi |
| 31 | Həşimxanlı bələdiyyəsi | Həşimxanlı kəndi |
| 32 | Xankeçən bələdiyyəsi | Xankeçən kəndi |
| 33 | *Nəsimi (5)* bələdiyyəsi | *Nəsimi (5)* kəndi |
| 34 | Xəlfəli bələdiyyəsi | Xəlfəli kəndi |
| 35 | Kürkəndi bələdiyyəsi | Kürkəndi kəndi |
| 36 | Qalağayın bələdiyyəsi | Qalağayın kəndi |
| 37 | Qaraağac bələdiyyəsi | Qaraağac kəndi |
| 38 | Qaragüney bələdiyyəsi | Qaragüney kəndi |
| 39 | Qaraqaşlı bələdiyyəsi | Qaraqaşlı kəndi |
| 40 | Qaralar bələdiyyəsi | Qaralar kəndi |
| 41 | Qaralı bələdiyyəsi | Qaralı kəndi |
| 42 | Qaratəpə bələdiyyəsi | Qaratəpə kəndi |
| 43 | Qaratuğay bələdiyyəsi | Qaratuğay kəndi |
| 44 | Qardaşkənd bələdiyyəsi | Qardaşkənd kəndi |
| 45 | Qasımbəyli bələdiyyəsi | Qasımbəyli kəndi |
| 46 | Qəfərli bələdiyyəsi | Qəfərli kəndi |
| 47 | Qəzli bələdiyyəsi | Qəzli kəndi |
| 48 | *Kovlar (5)* bələdiyyəsi | *Kovlar (5)* kəndi |
| 49 | Quruzma bələdiyyəsi | Quruzma kəndi |
| 50 | Məmişlər bələdiyyəsi | Məmişlər kəndi |
| 51 | Minbaşı bələdiyyəsi | Minbaşı kəndi |
| 52 | Moranlı bələdiyyəsi | Moranlı kəndi |
| 53 | Muğan Gəncəli bələdiyyəsi | Muğan Gəncəli kəndi |
| 54 | Muradbəyli bələdiyyəsi | Muradbəyli kəndi |
| 55 | Mürsəlli bələdiyyəsi | Mürsəlli kəndi |
| 56 | Narlıq bələdiyyəsi | Narlıq kəndi |
| 57 | Nərimankənd bələdiyyəsi | Nərimankənd kəndi |



| | | |
|---|---|---|
| 58 | Osmanlı bələdiyyəsi | Osmanlı kəndi |
| 59 | Poladtuğay bələdiyyəsi | Poladtuğay kəndi |
| 60 | Rüstəmli bələdiyyəsi | Rüstəmli kəndi |
| 61 | Salmanlı bələdiyyəsi | Salmanlı kəndi |
| 62 | Sarxanbəyli bələdiyyəsi | Sarxanbəyli kəndi |
| 63 | Suqovuşan bələdiyyəsi | Suqovuşan kəndi |
| 64 | Surra bələdiyyəsi | Surra kəndi |
| 65 | Şıxlar bələdiyyəsi | Şıxlar kəndi |
| 66 | Şıx Salahlı bələdiyyəsi | Şıx Salahlı kəndi |
| 67 | Türkədi bələdiyyəsi | Türkədi kəndi |
| 68 | Ulacalı bələdiyyəsi | Ulacalı kəndi |
| 69 | *Nizami (5)* bələdiyyəsi | *Nizami (5)* kəndi |
| 70 | Yaxa Dəllək bələdiyyəsi | Yaxa Dəllək kəndi |
| 71 | Yastıqobu bələdiyyəsi | Yastıqobu kəndi |
| 72 | Yenikənd bələdiyyəsi | Yenikənd kəndi |
| 73 | Yolçubəyli bələdiyyəsi | Yolçubəyli kəndi |
| 74 | Zalqaraağac bələdiyyəsi | Zalqaraağac kəndi |
| 75 | Zəngənə bələdiyyəsi | Zəngənə kəndi |
| | **SALYAN RAYONU** | |
| 1 | Salyan bələdiyyəsi | Salyan şəhəri |
| 2 | Abadkənd bələdiyyəsi | Abadkənd kəndi |
| 3 | Alçalı bələdiyyəsi | Alçalı kəndi |
| 4 | Arbatan bələdiyyəsi | Arbatan kəndi |
| 5 | Aşağı Kürkəndi bələdiyyəsi | Aşağı Kürkəndi kəndi |
| 6 | Aşağı Noxudlu bələdiyyəsi | Aşağı Noxudlu kəndi |
| 7 | *Yeni Uluxanlı (13)* bələdiyyəsi | *Yeni Uluxanlı (13)* kəndi |
| 8 | Beştalı bələdiyyəsi | Beştalı kəndi |
| 9 | Bəydili bələdiyyəsi | Bəydili kəndi |
| 10 | Birinci Varlı bələdiyyəsi | Birinci Varlı kəndi |
| 11 | Boranıkənd bələdiyyəsi | Boranıkənd kəndi |
| 12 | Cəngan bələdiyyəsi | Cəngan kəndi |
| 13 | Çuxanlı bələdiyyəsi | Çuxanlı kəndi və Qırx Çıraq qəsəbəsi |
| 14 | Dayıkənd bələdiyyəsi | Dayıkənd kəndi |
| 15 | Düzənlik bələdiyyəsi | Düzənlik kəndi |
| 16 | Ərəbqardaşbəyli bələdiyyəsi | Ərəbqardaşbəyli kəndi |
| 17 | Həsənli bələdiyyəsi | Həsənli kəndi |
| 18 | Xələc bələdiyyəsi | Xələc kəndi |
| 19 | Xıdırlı bələdiyyəsi | Xıdırlı kəndi |
| 20 | Xocalı bələdiyyəsi | Xocalı kəndi |
| 21 | Xurşud bələdiyyəsi | Xurşud kəndi |
| 22 | İkinci Varlı bələdiyyəsi | İkinci Varlı kəndi |
| 23 | Kərimbəyli bələdiyyəsi | Kərimbəyli kəndi |
| 24 | Kür Qaraqaşlı bələdiyyəsi | Kür Qaraqaşlı kəndi |

| | | |
|---|---|---|
| 25 | Kürsəngi bələdiyyəsi | Kürsəngi kəndi |
| 26 | Qarabağlı bələdiyyəsi | Qarabağlı və Kolanı kəndləri |
| 27 | Qardili bələdiyyəsi | Qardili kəndi |
| 28 | Qaraçala bələdiyyəsi | Qaraçala qəsəbəsi və Şatrovka kəndi |
| 29 | Qızılağac bələdiyyəsi | Qızılağac kəndi |
| 30 | Quyçu bələdiyyəsi | Quyçu kəndi |
| 31 | Marışlı bələdiyyəsi | Marışlı kəndi |
| 32 | Pambıqkənd bələdiyyəsi | Pambıqkənd və Bəşirbəyli kəndləri |
| 33 | Parça Xələc bələdiyyəsi | Parça Xələc kəndi |
| 34 | Peyk bələdiyyəsi | Peyk kəndi |
| 35 | Piratman bələdiyyəsi | Piratman və Gəncəli kəndləri |
| 36 | Sarvan bələdiyyəsi | Sarvan kəndi |
| 37 | Seyidan bələdiyyəsi | Seyidan kəndi |
| 38 | Seyidlər bələdiyyəsi | Seyidlər kəndi |
| 39 | Seyidsadıqlı bələdiyyəsi | Seyidsadıqlı kəndi |
| 40 | Şəkərli bələdiyyəsi | Şəkərli kəndi |
| 41 | Şorsulu bələdiyyəsi | Şorsulu kəndi |
| 42 | Təzəkənd bələdiyyəsi | Təzəkənd və Gomuşçu kəndləri |
| 43 | Yenikənd bələdiyyəsi | Yenikənd kəndi |
| 44 | Yolüstü bələdiyyəsi | Yolüstü kəndi |
| 45 | Yuxarı Noxudlu bələdiyyəsi | Yuxarı Noxudlu kəndi |
| | **SAMUX RAYONU** | |
| 1 | Nəbiağalı bələdiyyəsi | Nəbiağalı qəsəbəsi |
| 2 | Alabaşlı bələdiyyəsi | Alabaşlı qəsəbəsi |
| 3 | Aşağı Ağasıbəyli bələdiyyəsi | Aşağı Ağasıbəyli kəndi |
| 4 | Bağbanlar bələdiyyəsi | Bağbanlar kəndi |
| 5 | Burunqovaq bələdiyyəsi | Burunqovaq kəndi |
| 6 | Çobanabdallı bələdiyyəsi | Çobanabdallı kəndi |
| 7 | Əhmədbəyli bələdiyyəsi | Əhmədbəyli kəndi |
| 8 | Əli Bayramlı bələdiyyəsi | Əli Bayramlı kəndi |
| 9 | *Alıuşağı (13)* bələdiyyəsi | *Alıuşağı (13)* kəndi |
| 10 | Füzuli bələdiyyəsi | Füzuli kəndi |
| 11 | Hacıalılı bələdiyyəsi | Hacıalılı kəndi |
| 12 | *Qədili (13)* bələdiyyəsi | *Qədili (13)* kəndi |
| 13 | İnstitut bələdiyyəsi | İnstitut qəsəbəsi |
| 14 | İstixana bələdiyyəsi | İstixana kəndi |
| 15 | Kəsəmən bələdiyyəsi | Kəsəmən kəndi |
| 16 | Kolayır bələdiyyəsi | Kolayır kəndi |
| 17 | Qaraarx bələdiyyəsi | Qaraarx qəsəbəsi |
| 18 | Qarabağlar bələdiyyəsi | Qarabağlar kəndi |
| 19 | Qarabağlı bələdiyyəsi | Qarabağlı kəndi |
| 20 | Qarayeri bələdiyyəsi | Qarayeri və Yenibağ qəsəbələri |
| 21 | Qırmızı Samux bələdiyyəsi | Qırmızı Samux qəsəbəsi |



| | | |
|---|---|---|
| 22 | Qiyaslı bələdiyyəsi | Qiyaslı kəndi |
| 23 | Qovlarsarı bələdiyyəsi | Qovlarsarı kəndi |
| 24 | Lək bələdiyyəsi | Lək kəndi |
| 25 | Lüksemburq bələdiyyəsi | Lüksemburq kəndi |
| 26 | Poylu bələdiyyəsi | Poylu kəndi |
| 27 | Salahlı bələdiyyəsi | Salahlı kəndi |
| 28 | Sarıqamış bələdiyyəsi | Sarıqamış kəndi |
| 29 | Seyidlər bələdiyyəsi | Seyidlər kəndi |
| 30 | Sərkar bələdiyyəsi | Sərkar kəndi |
| 31 | Tatlı bələdiyyəsi | Tatlı kəndi |
| 32 | Yenikənd bələdiyyəsi | Yenikənd kəndi |
| 33 | Yuxarı Ağasıbəyli bələdiyyəsi | Yuxarı Ağasıbəyli kəndi |
| 34 | Zazalı bələdiyyəsi | Zazalı kəndi |
| 35 | Ziyadlı bələdiyyəsi | Ziyadlı kəndi |
| | **SİYƏZƏN RAYONU** | |
| 1 | Siyəzən bələdiyyəsi | Siyəzən şəhəri |
| 2 | Balaca Həmyə bələdiyyəsi | Balaca Həmyə kəndi |
| 3 | Beşdam bələdiyyəsi | Beşdam, Dərə Zarat, Nardaran və Siyəzən kəndləri |
| 4 | Böyük Həmyə bələdiyyəsi | Böyük Həmyə kəndi |
| 5 | Dağ Quşçu bələdiyyəsi | Dağ Quşçu və Əlməkolu kəndləri |
| 6 | Eynibulaq bələdiyyəsi | Eynibulaq kəndi |
| 7 | Gilgilçay bələdiyyəsi | Gilgilçay qəsəbəsi |
| 8 | Qozağacı bələdiyyəsi | Qozağacı kəndi |
| 9 | Məşrif bələdiyyəsi | Məşrif, Daşlı Çalğan, Qalaaltı, Orta Çalğan və Qərəl kəndləri |
| 10 | Sədan bələdiyyəsi | Sədan, Çarxana, Müşkülqazma və Sağolcan kəndləri |
| 11 | Tuğay bələdiyyəsi | Tuğay kəndi |
| 12 | Yenikənd bələdiyyəsi | Yenikənd və Kolanı kəndləri |
| 13 | Yuxarı Ələz bələdiyyəsi | Yuxarı Ələz, Ərziküş, Hacışəkər, Köhnə Quşçu, Künövşə, Qaragöz və Yanıq Ələz kəndləri |
| 14 | Zarat bələdiyyəsi | Zarat, Cəndəhar və Qalaşıxı kəndləri |
| | **ŞAMAXI RAYONU** | |
| 1 | Şamaxı bələdiyyəsi | Şamaxı şəhəri |
| 2 | Adnalı bələdiyyəsi | Adnalı kəndi |
| 3 | Avaxıl bələdiyyəsi | Avaxıl kəndi və Yusif Məmmədəliyev qəsəbəsi |
| 4 | Bağırlı bələdiyyəsi | Bağırlı kəndi |
| 5 | Birinci Çaylı bələdiyyəsi | Birinci Çaylı kəndi |
| 6 | Böyük Xınıslı bələdiyyəsi | Böyük Xınıslı kəndi |
| 7 | Çağan bələdiyyəsi | Birinci Çağan və İkinci Çağan kəndləri |

| | | |
|---|---|---|
| 8 | Çarhan bələdiyyəsi | Çarhan kəndi |
| 9 | Çıraqlı bələdiyyəsi | Çıraqlı kəndi |
| 10 | Çuxuryurd bələdiyyəsi | Çuxuryurd kəndi |
| 11 | Dağ Bağırlı bələdiyyəsi | Dağ Bağırlı kəndi |
| 12 | Dədəgünəş bələdiyyəsi | Dədəgünəş kəndi |
| 13 | Dəmirçi bələdiyyəsi | Dəmirçi, Səfalı və Zarat Xeybəri kəndləri |
| 14 | Əhmədli bələdiyyəsi | Əhmədli kəndi |
| 15 | Əngəxaran bələdiyyəsi | Əngəxaran kəndi |
| 16 | Ərçiman bələdiyyəsi | Ərçiman kəndi |
| 17 | Göylər bələdiyyəsi | Göylər Dağ, Acıdərə, Çöl Göylər və Yenikənd kəndləri |
| 18 | Hacıqədirli bələdiyyəsi | Hacıqədirli kəndi |
| 19 | Hacılı bələdiyyəsi | Hacılı kəndi |
| 20 | Həmyəli bələdiyyəsi | Həmyəli kəndi |
| 21 | İkinci Cabanı bələdiyyəsi | İkinci Cabanı və Cabanı kəndləri |
| 22 | İkinci Çaylı bələdiyyəsi | İkinci Çaylı kəndi |
| 23 | Keçməddin bələdiyyəsi | Keçməddin və Qaladərəsi kəndləri |
| 24 | Kələxana bələdiyyəsi | Kələxana kəndi |
| 25 | Kərkənc bələdiyyəsi | Kərkənc kəndi |
| 26 | Qaravəlli bələdiyyəsi | Qaravəlli kəndi |
| 27 | Qaleybuğurd bələdiyyəsi | Qaleybuğurd kəndi |
| 28 | Qızmeydan bələdiyyəsi | Qızmeydan və Yeni Qızmeydan kəndləri |
| 29 | Qonaqkənd bələdiyyəsi | Qonaqkənd kəndi |
| 30 | Qurdtəpə bələdiyyəsi | Qurdtəpə kəndi |
| 31 | Quşçu bələdiyyəsi | Quşçu, Laləzar kəndləri və Aşkar qəsəbəsi |
| 32 | Meysəri bələdiyyəsi | Meysəri kəndi |
| 33 | Mədrəsə bələdiyyəsi | Mədrəsə qəsəbəsi |
| 34 | Məlhəm bələdiyyəsi | Məlhəm kəndi |
| 35 | Məlikçobanlı bələdiyyəsi | Məlikçobanlı kəndi |
| 36 | Mərzəndiyə bələdiyyəsi | Mərzəndiyə kəndi |
| 37 | Mirikənd bələdiyyəsi | Mirikənd və Məlcək kəndləri |
| 38 | Muğanlı bələdiyyəsi | Muğanlı kəndi |
| 39 | Nağaraxana bələdiyyəsi | Nağaraxana kəndi |
| 40 | Nüydi bələdiyyəsi | Nüydi kəndi |
| 41 | Ovçulu bələdiyyəsi | Ovçulu kəndi |
| 42 | Pirbəyli bələdiyyəsi | Pirbəyli kəndi |
| 43 | Sabir bələdiyyəsi | Sabir qəsəbəsi |
| 44 | Sabirli bələdiyyəsi | Sabirli kəndi |
| 45 | Saqiyan bələdiyyəsi | Saqiyan kəndi |
| 46 | Sis bələdiyyəsi | Sis kəndi |
| 47 | Şərədil bələdiyyəsi | Şərədil kəndi |
| 48 | Şəhriyar bələdiyyəsi | Şəhriyar qəsəbəsi |



| | | |
|---|---|---|
| 49 | Şirvan bələdiyyəsi | Şirvan kəndi |
| 50 | Talışnuru bələdiyyəsi | Talışnuru kəndi |
| | **ŞƏKİ RAYONU** | |
| 1 | Şəki bələdiyyəsi | Şəki şəhəri |
| 2 | Abbas bələdiyyəsi | Abbas kəndi |
| 3 | Aran bələdiyyəsi | Aran kəndi |
| 4 | Aşağı Daşağıl bələdiyyəsi | Aşağı Daşağıl kəndi |
| 5 | Aşağı Göynük bələdiyyəsi | *Aşağı Göynük (5)* kəndi |
| 6 | Aşağı Küngüt bələdiyyəsi | Aşağı Küngüt kəndi |
| 7 | Aşağı Layısqı bələdiyyəsi | Aşağı Layısqı kəndi |
| 8 | Aşağı Şabalıd bələdiyyəsi | Aşağı Şabalıd kəndi |
| 9 | Aydınbulaq bələdiyyəsi | *Aydınbulaq kəndi (13)* |
| 10 | Babaratma bələdiyyəsi | Babaratma kəndi |
| 11 | Baltalı bələdiyyəsi | Baltalı kəndi |
| 12 | Baş Göynük bələdiyyəsi | Baş Göynük kəndi |
| 13 | Baş Kəldək bələdiyyəsi | Baş Kəldək və Aşağı Kəldək kəndləri |
| 14 | Baş Küngüt bələdiyyəsi | Baş Küngüt kəndi |
| 15 | Baş Layısqı bələdiyyəsi | Baş Layısqı kəndi |
| 16 | Baş Şabalıd bələdiyyəsi | Baş Şabalıd kəndi |
| 17 | Baş Zəyzid bələdiyyəsi | Baş Zəyzid kəndi |
| 18 | Bideyiz bələdiyyəsi | Bideyiz kəndi |
| 19 | Bolludərə bələdiyyəsi | Bolludərə kəndi |
| 20 | Böyük Dəhnə bələdiyyəsi | Böyük Dəhnə kəndi |
| 21 | Cəfərabad bələdiyyəsi | Cəfərabad və Çolaqlı kəndləri |
| 22 | Cəyirli bələdiyyəsi | Cəyirli kəndi |
| 23 | *Cumakənd (5)* bələdiyyəsi | *Cumakənd (5)* kəndi |
| 24 | Cunud bələdiyyəsi | Cunud kəndi |
| 25 | Çapağan bələdiyyəsi | Çapağan kəndi |
| 26 | *Çayqaraqoyunlu (5)* bələdiyyəsi | *Çayqaraqoyunlu (5)* kəndi |
| 27 | Çeşməli bələdiyyəsi | Çeşməli kəndi |
| 28 | Çələbixan bələdiyyəsi | Çələbixan qəsəbəsi, Kosalı və Qızılarx kəndləri |
| 29 | Daşbulaq bələdiyyəsi | Daşbulaq kəndi |
| 30 | Daşüz bələdiyyəsi | Daşüz kəndi |
| 31 | *Dərəcənnət (5)* bələdiyyəsi | *Dərəcənnət (5)* kəndi |
| 32 | Əliyar bələdiyyəsi | Əliyar kəndi |
| 33 | Fazıl bələdiyyəsi | Fazıl kəndi |
| 34 | Göybulaq bələdiyyəsi | Göybulaq kəndi |
| 35 | İbrahimkənd bələdiyyəsi | İbrahimkənd kəndi |
| 36 | İnçə bələdiyyəsi | İnçə kəndi |
| 37 | Kiçik Dəhnə bələdiyyəsi | Kiçik Dəhnə kəndi |
| 38 | Kiş bələdiyyəsi | Kiş kəndi |
| 39 | Köbər Zəyzid bələdiyyəsi | Köbər Zəyzid kəndi |

| | | |
|---|---|---|
| 40 | Küdürlü bələdiyyəsi | Küdürlü kəndi |
| 41 | Qaradağlı bələdiyyəsi | Qaradağlı kəndi |
| 42 | Qaratorpaq bələdiyyəsi | Qaratorpaq kəndi |
| 43 | Qayabaşı bələdiyyəsi | Qayabaşı kəndi |
| 44 | Qırxbulaq bələdiyyəsi | Qırxbulaq kəndi |
| 45 | Qoxmuq bələdiyyəsi | Qoxmuq kəndi |
| 46 | Qozlubulaq bələdiyyəsi | Qozlubulaq kəndi |
| 47 | Qudula bələdiyyəsi | Qudula kəndi |
| 48 | Qumux bələdiyyəsi | Qumux kəndi |
| 49 | Oxud bələdiyyəsi | Oxud kəndi |
| 50 | Oraban bələdiyyəsi | Oraban kəndi |
| 51 | Orta Zəyzid bələdiyyəsi | Orta Zəyzid kəndi |
| 52 | *Örysət (5)* bələdiyyəsi | *Örysət (5)* kəndi |
| 53 | Sarıca bələdiyyəsi | Sarıca kəndi |
| 54 | Suçma bələdiyyəsi | Suçma kəndi |
| 55 | Şəki kənd bələdiyyəsi | Şəki kəndi |
| 56 | Şin bələdiyyəsi | Şin kəndi |
| 57 | Şirinbulaq bələdiyyəsi | Şirinbulaq kəndi |
| 58 | Şorsu bələdiyyəsi | Şorsu kəndi |
| 59 | Təpəcənnət bələdiyyəsi | Təpəcənnət və Kəhrizoba kəndləri |
| 60 | Turan bələdiyyəsi | Turan qəsəbəsi |
| 61 | Vərəzət bələdiyyəsi | Vərəzət kəndi |
| 62 | Zunud bələdiyyəsi | Zunud kəndi |
| *63* | *Baqqal bələdiyyəsi (5)* | *Baqqal kəndi (5)* |
| *64* | *Birinci Biləcik bələdiyyəsi (5)* | *Birinci Biləcik kəndi (5)* |
| *65* | *Köndələn bələdiyyəsi (5)* | *Köndələn kəndi (5)* |
| *66* | *İkinci Biləcik bələdiyyəsi (5)* | *İkinci Biləcik kəndi (5)* |
| | **ŞƏMKİR RAYONU** | |
| 1 | Şəmkir bələdiyyəsi | Şəmkir şəhəri |
| 2 | Abbaslı bələdiyyəsi | Abbaslı kəndi |
| 3 | Aşağı Çaykənd bələdiyyəsi | Aşağı Çaykənd kəndi |
| 4 | Aşağı Seyfəli bələdiyyəsi | Aşağı Seyfəli kəndi |
| 5 | Atabəy bələdiyyəsi | Atabəy kəndi |
| 6 | Bayramlı bələdiyyəsi | Bayramlı kəndi |
| 7 | Çaparlı bələdiyyəsi | Çaparlı kəndi |
| 8 | Çənlibel bələdiyyəsi | Çənlibel kəndi |
| 9 | Çinarlı bələdiyyəsi | Çinarlı qəsəbəsi |
| 10 | Dağ Cəyir bələdiyyəsi | Dağ Cəyir kəndi |
| 11 | Daşbulaq bələdiyyəsi | Daşbulaq kəndi |
| 12 | Dəllər bələdiyyəsi | Dəllər qəsəbəsi |
| 13 | Dəllər Cəyir bələdiyyəsi | Dəllər Cəyir kəndi |
| 14 | Dəllər Cırdaxan bələdiyyəsi | Dəllər Cırdaxan kəndi |
| 15 | Dəllər Daşbulaq bələdiyyəsi | Dəllər Daşbulaq kəndi |



| | | |
|---|---|---|
| 16 | Düyərli bələdiyyəsi | Düyərli kəndi |
| 17 | Əhmədli bələdiyyəsi | Əhmədli kəndi |
| 18 | Ələsgərli bələdiyyəsi | Ələsgərli və Kamandar kəndləri |
| 19 | Əliyaqublu bələdiyyəsi | Əliyaqublu kəndi |
| 20 | Günəşli bələdiyyəsi | Günəşli kəndi |
| 21 | Hacıalılar bələdiyyəsi | Hacıalılar kəndi |
| 22 | İrmaşlı bələdiyyəsi | İrmaşlı kəndi |
| 23 | İsgəndərli bələdiyyəsi | İsgəndərli kəndi |
| 24 | Keçili bələdiyyəsi | *Keçili və Xuluf kəndləri (13)* |
| 25 | Könüllü bələdiyyəsi | Könüllü kəndi |
| 26 | Kür bələdiyyəsi | Kür qəsəbəsi |
| 27 | Qapanlı bələdiyyəsi | Qapanlı kəndi |
| 28 | Qarabağlar bələdiyyəsi | Qarabağlar kəndi və Barlıbağ qəsəbəsi |
| 29 | Qaracəmirli bələdiyyəsi | Qaracəmirli kəndi |
| 30 | Qaraqoyunlu bələdiyyəsi | Qaraqoyunlu kəndi |
| 31 | Qaralar bələdiyyəsi | Qaralar kəndi |
| 32 | Qaranuy bələdiyyəsi | Qaranuy kəndi |
| 33 | Qasımalılar bələdiyyəsi | Qasımalılar və Göyməmmədli kəndləri |
| 34 | Qasım İsmayılov bələdiyyəsi | Qasım İsmayılov kəndi |
| 35 | Qılıncbəyli bələdiyyəsi | Qılıncbəyli kəndi |
| 36 | Mahmudlu bələdiyyəsi | Mahmudlu kəndi |
| 37 | Mehrili bələdiyyəsi | Mehrili, Çaylı və Qaraqocalı kəndləri |
| 38 | Məşədihüseynli bələdiyyəsi | Məşədihüseynli kəndi |
| 39 | Muxtariyyat bələdiyyəsi | Muxtariyyat və Miskinli kəndləri |
| 40 | Nərimanlı bələdiyyəsi | Nərimanlı kəndi |
| 41 | Sabirkənd bələdiyyəsi | Sabirkənd kəndi |
| 42 | Sarıtəpə bələdiyyəsi | Sarıtəpə kəndi |
| 43 | Səməd Vurğun bələdiyyəsi | Səməd Vurğun qəsəbəsi |
| 44 | Şeidlər bələdiyyəsi | Şeidlər kəndi |
| 45 | Şiştəpə bələdiyyəsi | Şiştəpə kəndi |
| 46 | Talış bələdiyyəsi | Talış kəndi |
| 47 | Tatarlı bələdiyyəsi | Tatarlı kəndi |
| 48 | Təzəkənd bələdiyyəsi | *Təzəkənd və Düzqışlaq kəndləri (13)* |
| 49 | Varlı Həyat bələdiyyəsi | Varlı Həyat kəndi |
| 50 | Yeniabad bələdiyyəsi | Yeniabad kəndi |
| 51 | Yeni Göyçə bələdiyyəsi | Yeni Göyçə kəndi |
| 52 | Yeni Həyat bələdiyyəsi | Yeni Həyat kəndi |
| 53 | Yeni yol bələdiyyəsi | Yeni yol kəndi və Füzuli qəsəbəsi |
| 54 | Yuxarı Çaykənd bələdiyyəsi | Yuxarı Çaykənd kəndi |
| 55 | Yuxarı Seyfəli bələdiyyəsi | Yuxarı Seyfəli kəndi |
| 56 | Zəyəm bələdiyyəsi | Zəyəm qəsəbəsi |
| 57 | Zəyəm Cırdaxan bələdiyyəsi | Zəyəm Cırdaxan kəndi |

| | |
|---|---|---|
| | **TƏRTƏR RAYONU** | |
| 1 | Tərtər bələdiyyəsi | Tərtər şəhəri |
| 2 | Azad Qaraqoyunlu bələdiyyəsi | Azad Qaraqoyunlu, İlxıçılar və Qapanlı kəndləri |
| 3 | Bala Kəngərli bələdiyyəsi | Bala Kəngərli kəndi |
| 4 | Bayandur bələdiyyəsi | Bayandur kəndi |
| 5 | Bayndurlu bələdiyyəsi | Bayndurlu kəndi |
| 6 | Bəyimsarov bələdiyyəsi | Bəyimsarov kəndi |
| 7 | Borsunlu bələdiyyəsi | Borsunlu və Qırmızı Saqqallar kəndləri |
| 8 | Buruc bələdiyyəsi | Buruc kəndi |
| 9 | Cəmilli bələdiyyəsi | Cəmilli kəndi |
| 10 | Dəmirçilər bələdiyyəsi | Dəmirçilər kəndi |
| 11 | Düyərli bələdiyyəsi | Düyərli kəndi |
| 12 | Evoğlu bələdiyyəsi | Evoğlu kəndi |
| 13 | Ələsgərli bələdiyyəsi | Ələsgərli kəndi |
| 14 | Əskipara bələdiyyəsi | Əskipara kəndi |
| 15 | Güləbatlı bələdiyyəsi | Güləbatlı kəndi |
| 16 | Hacıqərvənd bələdiyyəsi | Hacıqərvənd kəndi |
| 17 | Hüsənli bələdiyyəsi | Hüsənli kəndi |
| 18 | Xoruzlu bələdiyyəsi | Xoruzlu kəndi |
| 19 | İrəvanlı bələdiyyəsi | *İrəvanlı (5)* kəndi |
| 20 | İsmayılbəyli bələdiyyəsi | İsmayılbəyli kəndi |
| 21 | Kəbirli bələdiyyəsi | Kəbirli kəndi |
| 22 | Kəngərli bələdiyyəsi | Kəngərli kəndi |
| 23 | Köçərli bələdiyyəsi | Köçərli kəndi |
| 24 | Qapanlı bələdiyyəsi | Qapanlı kəndi |
| 25 | Qapanlı bələdiyyəsi | Qapanlı kəndi |
| 26 | Qaraağacı bələdiyyəsi | Qaraağacı kəndi |
| 27 | Qaradağlı bələdiyyəsi | Qaradağlı kəndi |
| 28 | Qaradağlı bələdiyyəsi | Qaradağlı kəndi |
| 29 | Qaynaq bələdiyyəsi | Qaynaq kəndi |
| 30 | Qazyan bələdiyyəsi | Qazyan kəndi |
| 31 | Mamırlı bələdiyyəsi | Mamırlı kəndi |
| 32 | Poladı bələdiyyəsi | Poladı kəndi |
| 33 | Rəcəbli bələdiyyəsi | Rəcəbli və Kövdadıq kəndləri |
| 34 | Sarıcalı bələdiyyəsi | Sarıcalı kəndi |
| 35 | Sarıcalı bələdiyyəsi | Sarıcalı kəndi |
| 36 | Sarov bələdiyyəsi | Sarov, Bildirçinli və Umudlu kəndləri |
| 37 | Seydimli bələdiyyəsi | Seydimli kəndi |
| 38 | Səhləbad bələdiyyəsi | Səhləbad kəndi |
| 39 | Soyulan bələdiyyəsi | Soyulan kəndi |
| 40 | Təzəkənd bələdiyyəsi | Təzəkənd kəndi |



| | | |
|---|---|---|
| 41 | Təzəkənd bələdiyyəsi | Təzəkənd kəndi |
| 42 | Yenikənd bələdiyyəsi | Yenikənd kəndi |
| 43 | Zolgəran bələdiyyəsi | Zolgəran kəndi |
| *44* | *Hacallı bələdiyyəsi (5)* | *Hacallı və Qapanlı kəndləri (5)* |
| | **TOVUZ RAYONU** | |
| 1 | Tovuz bələdiyyəsi | Tovuz şəhəri |
| 2 | Abulbəyli bələdiyyəsi | Abulbəyli kəndi |
| 3 | Ağacqala bələdiyyəsi | Ağacqala kəndi |
| 4 | Ağbaşlar bələdiyyəsi | Ağbaşlar, Almalıtala və Lazılar kəndləri |
| 5 | Ağbulaq bələdiyyəsi | Ağbulaq kəndi |
| 6 | Ağdam bələdiyyəsi | Ağdam kəndi |
| 7 | Alakol bələdiyyəsi | Alakol kəndi |
| 8 | Aran bələdiyyəsi | Aran kəndi |
| 9 | Aşağı Ayıblı bələdiyyəsi | Aşağı Ayıblı kəndi |
| 10 | Aşağı Quşçu bələdiyyəsi | Aşağı Quşçu kəndi |
| 11 | Aşağı Mülkülü bələdiyyəsi | Aşağı Mülkülü kəndi |
| 12 | Aşağı Öysüzlü bələdiyyəsi | Aşağı Öysüzlü kəndi |
| 13 | Aşırallar bələdiyyəsi | Aşırallar kəndi |
| 14 | Azaplı bələdiyyəsi | Azaplı kəndi |
| 15 | Baqqallı bələdiyyəsi | Baqqallı kəndi |
| 16 | Bayramlı bələdiyyəsi | Bayramlı kəndi |
| 17 | Bozalqanlı bələdiyyəsi | Bozalqanlı kəndi |
| 18 | Böyük Qışlaq bələdiyyəsi | Böyük Qışlaq, Məsimlər, Mollalar, Səfərli və Şamlıc kəndləri |
| 19 | Cəlilli bələdiyyəsi | Cəlilli kəndi |
| 20 | Cilovdarlı bələdiyyəsi | Cilovdarlı kəndi |
| 21 | Çatax bələdiyyəsi | Çatax, Cirdək, Hacılar, Kazımlı, Qandalar, Qoşa, Muncuqlu, Pələkli və Şıxheybət kəndləri |
| 22 | Çeşməli bələdiyyəsi | Çeşməli və Abbasqulular kəndləri |
| 23 | Çobansığnaq bələdiyyəsi | Çobansığnaq, Qaraboyunlar, Namxoş və Yoğunbulaq kəndləri |
| 24 | Dondar Quşçu bələdiyyəsi | Dondar Quşçu kəndi |
| 25 | Dönük Qırıqlı bələdiyyəsi | Dönük Qırıqlı kəndi |
| 26 | Düz Cırdaxan bələdiyyəsi | Düz Cırdaxan kəndi |
| 27 | Düz Qırıqlı bələdiyyəsi | Düz Qırıqlı kəndi |
| 28 | Əhmədabad bələdiyyəsi | Əhmədabad, Avdal və Qoçdərə kəndləri |
| 29 | Əlibəyli bələdiyyəsi | Əlibəyli kəndi |
| 30 | Əlimərdanlı bələdiyyəsi | Əlimərdanlı kəndi |
| 31 | Əsrik Cırdaxan bələdiyyəsi | Əsrik Cırdaxan kəndi |
| 32 | Girzan bələdiyyəsi | Girzan kəndi |
| 33 | Göyəbaxan bələdiyyəsi | Göyəbaxan, Hüseynqulular, Qarağatlı, Nəsibli və Məşədiqulular kəndləri |

| | | |
|---|---|---|
| 34 | Hacıalılı bələdiyyəsi | Hacıalılı kəndi |
| 35 | Hacıhəsənli bələdiyyəsi | Hacıhəsənli kəndi |
| 36 | Həsənli bələdiyyəsi | Həsənli və Məşədivəlilər kəndləri |
| 37 | Xatınlı bələdiyyəsi | Xatınlı kəndi |
| 38 | Xınnakirən bələdiyyəsi | Xınnakirən kəndi |
| 39 | İbrahimhacılı bələdiyyəsi | İbrahimhacılı kəndi |
| 40 | İsakənd bələdiyyəsi | İsakənd, Ağdərə, Aşralar və Qarabağlılar kəndləri |
| 41 | Kirən bələdiyyəsi | Kirən kəndi |
| 42 | Koxanəbi bələdiyyəsi | Koxanəbi kəndi |
| 43 | Köhnəqala bələdiyyəsi | Köhnəqala kəndi |
| 44 | Qalaboyun bələdiyyəsi | Qalaboyun və Xatıncan kəndləri |
| 45 | Qaradaş bələdiyyəsi | Qaradaş, Qayadibi və Qonaqlı kəndləri |
| 46 | Qaraxanlı bələdiyyəsi | Qaraxanlı kəndi |
| 47 | Qaralar bələdiyyəsi | Qaralar kəndi |
| 48 | Qazqulu bələdiyyəsi | Qazqulu kəndi |
| 49 | Qədirli bələdiyyəsi | Qədirli kəndi |
| 50 | Qəribli bələdiyyəsi | Qəribli, Bala Şamlıq, Böyük Şamlıq, Dəlləkli, Hətəmlər və Oskən kəndləri |
| 51 | Qovlar bələdiyyəsi | Qovlar qəsəbəsi |
| 52 | Məşədilər bələdiyyəsi | Məşədilər kəndi |
| 53 | Məşədilər bələdiyyəsi | Məşədilər və Qozdərə kəndləri |
| 54 | Molla Ayrım bələdiyyəsi | Molla Ayrım kəndi |
| 55 | Mülkülü bələdiyyəsi | Mülkülü kəndi |
| 56 | Papaqçılar bələdiyyəsi | Papaqçılar və Güvəndik kəndləri |
| 57 | Saladınlı bələdiyyəsi | Saladınlı kəndi |
| 58 | Sarıtala bələdiyyəsi | Sarıtala və Dondarlı kəndləri |
| 59 | Sofular bələdiyyəsi | Sofular kəndi |
| 60 | Vahidli bələdiyyəsi | Vahidli kəndi |
| 61 | Yanıqlı bələdiyyəsi | Yanıqlı, Böyük Xoşdarlı, Kəcavənd və Sadıqlı kəndləri |
| 62 | Yuxarı Öysüzlü bələdiyyəsi | Yuxarı Öysüzlü kəndi |
| | **UCAR RAYONU** | |
| 1 | Ucar bələdiyyəsi | Ucar şəhəri |
| 2 | Alpı bələdiyyəsi | Alpı kəndi |
| 3 | Alpout bələdiyyəsi | Alpout kəndi |
| 4 | Bağban bələdiyyəsi | Bağban kəndi |
| 5 | Bərgüşad bələdiyyəsi | Bərgüşad kəndi |
| 6 | Boyat bələdiyyəsi | Boyat kəndi |
| 7 | Çiyni bələdiyyəsi | Çiyni kəndi |
| 8 | Çiyni bələdiyyəsi | Çiyni kəndi |



| | | |
|---|---|---|
| 9 | Əlikənd bələdiyyəsi | Əlikənd kəndi |
| 10 | Gəraybəyli bələdiyyəsi | Gəraybəyli kəndi |
| 11 | Xələc bələdiyyəsi | Xələc kəndi |
| 12 | *Ənvər Məmmədxanlı (13)* bələdiyyəsi | *Ənvər Məmmədxanlı (13)* kəndi |
| 13 | Küçəkənd bələdiyyəsi | Küçəkənd kəndi |
| 14 | Qarabörk bələdiyyəsi | Qarabörk kəndi |
| 15 | Qaracallı bələdiyyəsi | Qaracallı kəndi |
| 16 | Qaradağlı bələdiyyəsi | Qaradağlı kəndi |
| 17 | Qazıqumlaq bələdiyyəsi | Qazıqumlaq kəndi |
| 18 | Qazyan bələdiyyəsi | Qazyan kəndi |
| 19 | Quləbənd bələdiyyəsi | Quləbənd və Bağırbəyli kəndləri |
| 20 | Lək bələdiyyəsi | Lək kəndi |
| 21 | Məlikballı bələdiyyəsi | Məlikballı kəndi |
| 22 | Müsüslü bələdiyyəsi | Müsüslü kəndi |
| 23 | Pirkənd bələdiyyəsi | Pirkənd kəndi |
| 24 | Ramal bələdiyyəsi | Ramal kəndi |
| 25 | Rəstəcə bələdiyyəsi | Rəstəcə kəndi |
| 26 | Şahlıq bələdiyyəsi | Şahlıq kəndi |
| 27 | Təzə Şilyan bələdiyyəsi | Təzə Şilyan kəndi |
| 28 | Türkəci bələdiyyəsi | Türkəci kəndi |
| 29 | Yuxarı Şilyan bələdiyyəsi | Yuxarı Şilyan kəndi |
| | **YARDIMLI RAYONU** | |
| 1 | Yardımlı bələdiyyəsi | Yardımlı qəsəbəsi |
| 2 | Abbasabad bələdiyyəsi | Abbasabad və Solqard kəndləri |
| 3 | Alçabulaq bələdiyyəsi | Alçabulaq kəndi |
| 4 | Allar bələdiyyəsi | Allar kəndi |
| 5 | Anzov bələdiyyəsi | Anzov kəndi |
| 6 | Arvana bələdiyyəsi | Arvana kəndi |
| 7 | Aşağı Astanlı bələdiyyəsi | Aşağı Astanlı, Yuxarı Astanlı və Musa kəndləri |
| 8 | Avaş bələdiyyəsi | Avaş, Abasallı, Deman və Qaravuldaş kəndləri |
| 9 | Bərcan bələdiyyəsi | Bərcan və Lazir kəndləri |
| 10 | Bilnə bələdiyyəsi | Bilnə kəndi |
| 11 | Bozayran bələdiyyəsi | Bozayran kəndi |
| 12 | Bürzünbül bələdiyyəsi | Bürzünbül kəndi |
| 13 | Çanaqbulaq bələdiyyəsi | Çanaqbulaq kəndi |
| 14 | Çay Üzü bələdiyyəsi | Çay Üzü və Avur kəndləri |
| 15 | Dağ Üzü bələdiyyəsi | Dağ Üzü kəndi |
| 16 | Daşkənd bələdiyyəsi | Daşkənd kəndi |
| 17 | Dəlləkli bələdiyyəsi | Dəlləkli kəndi |

| | | |
|---|---|---|
| 18 | Dəryavar bələdiyyəsi | Dəryavar kəndi |
| 19 | Ərsilə bələdiyyəsi | Ərsilə kəndi |
| 20 | Ərus bələdiyyəsi | Ərus kəndi |
| 21 | Əsədabad bələdiyyəsi | Əsədabad və Ünəş kəndləri |
| 22 | Əvçədulan bələdiyyəsi | Əvçədulan və Keçələkəran kəndləri |
| 23 | Gavran bələdiyyəsi | Gavran kəndi |
| 24 | Gendərə bələdiyyəsi | Gendərə kəndi |
| 25 | Gölyeri bələdiyyəsi | Gölyeri və Təzəkənd kəndləri |
| 26 | Gügəvar bələdiyyəsi | Gügəvar və Tiləkənd kəndləri |
| 27 | Hamarkənd bələdiyyəsi | Hamarkənd və Zəngəran kəndləri |
| 28 | Honuba bələdiyyəsi | Honuba kəndi |
| 29 | Honuba Şıxlar bələdiyyəsi | Honuba Şıxlar və Zeynələzir kəndləri |
| 30 | Horavar bələdiyyəsi | Horavar və Əngəvül kəndləri |
| 31 | Horonu bələdiyyəsi | Horonu kəndi |
| 32 | Jiy bələdiyyəsi | Jiy kəndi |
| 33 | Köryədi bələdiyyəsi | Köryədi kəndi |
| 34 | Kürəkçi bələdiyyəsi | Kürəkçi və Gərsava kəndləri |
| 35 | Qabaqdibi bələdiyyəsi | Qabaqdibi və Mişkireyn kəndləri |
| 36 | Qaraqaya bələdiyyəsi | Qaraqaya kəndi |
| 37 | Ləzran bələdiyyəsi | Ləzran və Eçara kəndləri |
| 38 | Mamulğan bələdiyyəsi | Mamulğan və Ökü kəndləri |
| 39 | Mirimli bələdiyyəsi | Mirimli və Şələ kəndləri |
| 40 | Nisəqələ bələdiyyəsi | Nisəqələ kəndi |
| 41 | Odurakəran bələdiyyəsi | Odurakəran kəndi |
| 42 | Osnakəran bələdiyyəsi | Osnakəran kəndi |
| 43 | Ostayır bələdiyyəsi | Ostayır kəndi |
| 44 | Peştəsər bələdiyyəsi | Peştəsər və Fındıqlıqışlaq kəndləri |
| 45 | Pirembel bələdiyyəsi | Pirəmbel kəndi |
| 46 | Porsova bələdiyyəsi | Porsova kəndi |
| 47 | Separadi bələdiyyəsi | Separadi və Teşkan kəndləri |
| 48 | Sırıq bələdiyyəsi | Sırıq kəndi |
| 49 | Şəfəqli bələdiyyəsi | Şəfəqli, Cirimbel və Gilar kəndləri |
| 50 | Şıxhüseynli bələdiyyəsi | Şıxhüseynli kəndi |
| 51 | Şıxlar bələdiyyəsi | Şıxlar kəndi |
| 52 | Şiləvəngə bələdiyyəsi | Şiləvəngə kəndi |
| 53 | Şovut bələdiyyəsi | Şovut kəndi |
| 54 | Tahirli bələdiyyəsi | Tahirli və Məlikli kəndləri |
| 55 | Telavar bələdiyyəsi | Telavar kəndi |
| 56 | Urakəran bələdiyyəsi | Urakəran və Avun kəndləri |
| 57 | Vəlixanlı bələdiyyəsi | Vəlixanlı kəndi |
| 58 | Vərgədüz bələdiyyəsi | Vərgədüz kəndi |
| 59 | Vərov bələdiyyəsi | Vərov və Zəngələ kəndləri |



| | | |
|---|---|---|
| 60 | Yeni Abdinli bələdiyyəsi | Yeni Abdinli, Abdinli və Xanbulaq kəndləri |
| 61 | Yolocaq bələdiyyəsi | Yolocaq kəndi |
| 62 | Zevin bələdiyyəsi | Zevin kəndi |
| | **YEVLAX RAYONU** | |
| 1 | Yevlax bələdiyyəsi | Yevlax şəhəri |
| 2 | Aran bələdiyyəsi | Aran qəsəbəsi |
| 3 | Aşağı Bucaq bələdiyyəsi | Aşağı Bucaq, Yenicə və Yuxarı Bucaq kəndləri |
| 4 | Aşağı Qarxun bələdiyyəsi | Aşağı Qarxun kəndi |
| 5 | Aşağı Salamabad bələdiyyəsi | Aşağı Salamabad kəndi |
| 6 | Balçılı bələdiyyəsi | Balçılı və Ağqıraqlı kəndləri |
| 7 | Cırdaxan bələdiyyəsi | Cırdaxan kəndi |
| 8 | Əcəmi bələdiyyəsi | Əcəmi kəndi |
| 9 | Ərəbbəsrə bələdiyyəsi | Ərəbbəsrə kəndi |
| 10 | Ərəş bələdiyyəsi | Ərəş kəndi |
| 11 | Gülövşə bələdiyyəsi | Gülövşə və Bəydili kəndləri |
| 12 | Hacıselli bələdiyyəsi | Hacıselli və Marzılı kəndləri |
| 13 | Havarlı bələdiyyəsi | Havarlı və Əxşam kəndləri |
| 14 | Hürüuşağı bələdiyyəsi | Hürüuşağı və Boşçalı kəndləri |
| 15 | Xaldan bələdiyyəsi | Xaldan, Quşçu və Yuxarı Salamabad kəndləri |
| 16 | Xanabad bələdiyyəsi | Xanabad kəndi |
| 17 | Kövər bələdiyyəsi | Kövər və Kolanı kəndləri |
| 18 | Qaramanlı bələdiyyəsi | Qaramanlı, Dəlləklər, Göyük, Hacımahmudlu, Nəmirli və Nurallar kəndləri |
| 19 | Qaraməmmədli bələdiyyəsi | Qaraməmmədli kəndi |
| 20 | Qaraoğlan bələdiyyəsi | Qaraoğlan kəndi |
| 21 | Qoyunbinəsi bələdiyyəsi | Qoyunbinəsi kəndi |
| 22 | Malbinəsi bələdiyyəsi | Malbinəsi kəndi |
| 23 | Meyvəli bələdiyyəsi | Meyvəli qəsəbəsi |
| 24 | Nemətabad bələdiyyəsi | Nemətabad kəndi və Duzdağ qəsəbəsi |
| 25 | Nərimanabad bələdiyyəsi | Nərimanabad kəndi |
| 26 | Rüstəmli bələdiyyəsi | Rüstəmli kəndi |
| 27 | Salahlı bələdiyyəsi | Salahlı kəndi |
| 28 | Səmədabad bələdiyyəsi | Səmədabad, Bünyadabad və İsmayılabad kəndləri |
| 29 | Tanrıqulular bələdiyyəsi | Tanrıqulular kəndi |
| 30 | Varvara bələdiyyəsi | Varvara kəndi |
| 31 | Yaldili bələdiyyəsi | Yaldili kəndi |
| 32 | Yuxarı Qarxun bələdiyyəsi | Yuxarı Qarxun kəndi |

| | ZAQATALA RAYONU | |
|---|---|---|
| 1 | Zaqatala bələdiyyəsi | Zaqatala şəhəri və Qazangül qəsəbəsi |
| 2 | Aşağı Çardaxlar bələdiyyəsi | Aşağı Çardaxlar kəndi |
| 3 | Aşağı Tala bələdiyyəsi | Aşağı Tala kəndi |
| 4 | Bəhmətli bələdiyyəsi | Bəhmətli və Kürdəmir kəndləri |
| 5 | Beretbinə bələdiyyəsi | Beretbinə kəndi |
| 6 | Car bələdiyyəsi | Car, Axaxdərə, Kebeloba və Zilban kəndləri |
| 7 | Çobankol bələdiyyəsi | Çobankol, Bazar və Qımır kəndləri |
| 8 | Danaçı bələdiyyəsi | Danaçı kəndi |
| 9 | Dombabinə bələdiyyəsi | Dombabinə, Bozbinə, Həsənbinə, Mamqabinə, Xanməmmədbinə, Masqarabinə və Mücəkbinə kəndləri |
| 10 | Əliabad bələdiyyəsi | Əliabad qəsəbəsi |
| 11 | Əli Bayramlı bələdiyyəsi | Əli Bayramlı, Əzgilli, Qalal və Qarqay kəndləri |
| 12 | Faldarlı bələdiyyəsi | Faldarlı kəndi |
| 13 | Fındıqlı bələdiyyəsi | Fındıqlı kəndi |
| 14 | Göyəm bələdiyyəsi | Göyəm, Çökəkoba, Dardoqqaz və Sumaylı kəndləri |
| 15 | Gözbarax bələdiyyəsi | Gözbarax kəndi |
| 16 | Kəpənəkçi bələdiyyəsi | Kəpənəkçi kəndi |
| 17 | Qandax bələdiyyəsi | Qandax kəndi |
| 18 | Lahıc bələdiyyəsi | Lahıc və Sabunçu kəndləri |
| 19 | Maqov bələdiyyəsi | Maqov, *Abaəli, Höytala (5)*, Paşan, *Vöhtala (5)* və Yolayrıc (5) kəndləri |
| 20 | Mamrux bələdiyyəsi | Mamrux, Cimcimax və Ələsgər kəndləri |
| 21 | Mazıx bələdiyyəsi | Mazıx, Cicibinə və Qəbizdərə kəndləri |
| 22 | Mosul bələdiyyəsi | Mosul kəndi |
| 23 | Muğanlı bələdiyyəsi | Muğanlı kəndi |
| 24 | Muxax bələdiyyəsi | Muxax kəndi |
| 25 | Uzunqazmalar bələdiyyəsi | Uzunqazmalar kəndi |
| 26 | Uzuntala bələdiyyəsi | Uzuntala kəndi |
| 27 | Yengiyan bələdiyyəsi | Yengiyan kəndi |
| 28 | Yeni Suvagil bələdiyyəsi | Yeni Suvagil kəndi |
| 29 | Yuxarı Çardaxlar bələdiyyəsi | Yuxarı Çardaxlar kəndi |
| 30 | Yuxarı Tala bələdiyyəsi | Yuxarı Tala, Çüdülübinə, Laqodexbinə və Mişleş kəndləri |
| 31 | Zəyəm bələdiyyəsi | Zəyəm kəndi |
| | **ZƏRDAB RAYONU** | |
| 1 | Zərdab bələdiyyəsi | Zərdab şəhəri |
| 2 | Ağabağı bələdiyyəsi | Ağabağı kəndi |



| | | |
|---|---|---|
| 3 | Allahqulubağı bələdiyyəsi | Allahqulubağı kəndi |
| 4 | Aşağı Seyidlər bələdiyyəsi | Aşağı Seyidlər kəndi |
| 5 | Bəyimli bələdiyyəsi | Bəyimli qəsəbəsi |
| 6 | Bıçaqçı bələdiyyəsi | Bıçaqçı kəndi |
| 7 | Birinci Alıcanlı bələdiyyəsi | Birinci Alıcanlı kəndi |
| 8 | Burunlu bələdiyyəsi | Burunlu kəndi |
| 9 | Cilovxanlı bələdiyyəsi | Cilovxanlı kəndi |
| 10 | Çallı bələdiyyəsi | Çallı kəndi |
| 11 | Dəkkəoba bələdiyyəsi | Dəkkəoba kəndi |
| 12 | Dəli Quşçu bələdiyyəsi | Dəli Quşçu kəndi |
| 13 | Əlibəyli bələdiyyəsi | Əlibəyli kəndi |
| 14 | Əlvənd bələdiyyəsi | Əlvənd kəndi |
| 15 | Gəlmə bələdiyyəsi | Gəlmə kəndi |
| 16 | Gödəkqobu bələdiyyəsi | Gödəkqobu kəndi |
| 17 | Hüseynxanlı bələdiyyəsi | Hüseynxanlı kəndi |
| 18 | Xanməmmədli bələdiyyəsi | Xanməmmədli kəndi |
| 19 | İkinci Alıcanlı bələdiyyəsi | İkinci Alıcanlı kəndi |
| 20 | İsaqbağı bələdiyyəsi | İsaqbağı və Böyük Dəkkə kəndləri |
| 21 | Kəndəbil bələdiyyəsi | Kəndəbil kəndi |
| 22 | Körpükənd bələdiyyəsi | Körpükənd kəndi |
| 23 | Qaravəlli bələdiyyəsi | Qaravəlli kəndi |
| 24 | Qoruqbağı bələdiyyəsi | Qoruqbağı kəndi |
| 25 | Qoşaoba bələdiyyəsi | Qoşaoba kəndi |
| 26 | Ləläağacı bələdiyyəsi | Ləläağacı kəndi |
| 27 | Məlikli bələdiyyəsi | Məlikli kəndi |
| 28 | Məlikumudlu bələdiyyəsi | Məlikumudlu kəndi |
| 29 | Məmmədqasımlı bələdiyyəsi | Məmmədqasımlı kəndi |
| 30 | Nəzəralılı bələdiyyəsi | Nəzəralılı kəndi |
| 31 | Otmanoba bələdiyyəsi | Otmanoba kəndi |
| 32 | Pərvanlı bələdiyyəsi | Pərvanlı kəndi |
| 33 | Salahlı bələdiyyəsi | Salahlı kəndi |
| 34 | Sarıqaya bələdiyyəsi | Sarıqaya kəndi |
| 35 | Siləyli bələdiyyəsi | Siləyli kəndi |
| 36 | Şahhüseynli bələdiyyəsi | Şahhüseynli kəndi |
| 37 | Şəftəhal bələdiyyəsi | Şəftəhal kəndi |
| 38 | Şıxbağı bələdiyyəsi | Şıxbağı kəndi |
| 39 | Təzəkənd bələdiyyəsi | Təzəkənd kəndi |
| 40 | Yarməmmədbağı bələdiyyəsi | Yarməmmədbağı kəndi |
| 41 | Yuxarı Seyidlər bələdiyyəsi | Yuxarı Seyidlər kəndi |

| | | |
|---|---|---|
| | **Naxçıvan Muxtar Respublikası** | |
| | **NAXÇIVAN ŞƏHƏRİ** | |
| 1 | Naxçıvan bələdiyyəsi | Naxçıvan şəhəri |
| 2 | Əliabad bələdiyyəsi | Əliabad qəsəbəsi |
| | **BABƏK RAYONU** | |
| 1 | Babək bələdiyyəsi | Babək qəsəbəsi |
| 2 | Araz bələdiyyəsi | Araz kəndi |
| 3 | Aşağı Buzqov bələdiyyəsi | Aşağı Buzqov kəndi |
| 4 | Aşağı Uzunoba bələdiyyəsi | Aşağı Uzunoba kəndi |
| 5 | Badaşqan bələdiyyəsi | Badaşqan kəndi |
| 6 | Bulqan bələdiyyəsi | Bulqan kəndi |
| 7 | Cəhri bələdiyyəsi | Cəhri kəndi |
| 8 | Çeşməbasar bələdiyyəsi | Çeşməbasar kəndi |
| 9 | Didivar bələdiyyəsi | Didivar kəndi |
| 10 | Gərməçataq bələdiyyəsi | Gərməçataq kəndi |
| 11 | Gülşənabad bələdiyyəsi | Gülşənabad kəndi |
| 12 | Güznüt bələdiyyəsi | Güznüt kəndi |
| 13 | Hacıniyyət bələdiyyəsi | Hacıniyyət kəndi |
| 14 | Hacıvar bələdiyyəsi | Hacıvar kəndi |
| 15 | Xalxal bələdiyyəsi | Xalxal kəndi |
| 16 | Xəlilli bələdiyyəsi | Xəlilli kəndi |
| 17 | Kalbaoruc Dizə bələdiyyəsi | Kalbaoruc Dizə kəndi |
| 18 | Kərimbəyli bələdiyyəsi | Kərimbəyli kəndi |
| 19 | Kültəpə bələdiyyəsi | Kültəpə kəndi |
| 20 | Qahab bələdiyyəsi | Qahab kəndi |
| 21 | Qaraçuq bələdiyyəsi | Qaraçuq kəndi |
| 22 | Qaraxanbəyli bələdiyyəsi | Qaraxanbəyli kəndi |
| 23 | Qaraqala bələdiyyəsi | Qaraqala kəndi |
| 24 | Qoşadizə bələdiyyəsi | Qoşadizə kəndi |
| 25 | Məmmədrza Dizə bələdiyyəsi | Məmmədrza Dizə kəndi |
| 26 | Məzrə bələdiyyəsi | Məzrə kəndi |
| 27 | Naxışnərgiz bələdiyyəsi | Naxışnərgiz kəndi |
| 28 | Nehrəm bələdiyyəsi | Nehrəm kəndi |
| 29 | Nəcəfəlidizə bələdiyyəsi | Nəcəfəlidizə kəndi |
| 30 | Nəzərabad bələdiyyəsi | Nəzərabad kəndi |
| 31 | Payız bələdiyyəsi | Payız kəndi |
| 32 | Sirab bələdiyyəsi | Sirab kəndi |
| 33 | Şəkərabad bələdiyyəsi | Şəkərabad kəndi |
| 34 | Şıxmahmud bələdiyyəsi | Şıxmahmud kəndi |
| 35 | Tumbul bələdiyyəsi | Tumbul kəndi |
| 36 | Vayxır bələdiyyəsi | Vayxır kəndi |
| 37 | Yarımca bələdiyyəsi | Yarımca kəndi |
| 38 | Yuxarı Buzqov bələdiyyəsi | Yuxarı Buzqov kəndi |
| 39 | Yuxarı Uzunoba bələdiyyəsi | Yuxarı Uzunoba kəndi |
| 40 | Zeynəddin bələdiyyəsi | Zeynəddin kəndi |



| | | |
|---|---|---|
| | **CULFA RAYONU** | |
| 1 | Culfa bələdiyyəsi | Culfa şəhəri |
| 2 | Bənəniyar bələdiyyəsi | Bənəniyar kəndi |
| 3 | Boyəhməd bələdiyyəsi | Boyəhməd kəndi |
| 4 | Camaldın bələdiyyəsi | Camaldın kəndi |
| 5 | Dizə bələdiyyəsi | Dizə kəndi |
| 6 | Əbrəqunus bələdiyyəsi | Əbrəqunus kəndi |
| 7 | Əlincə bələdiyyəsi | Əlincə kəndi |
| 8 | Ərəfsə bələdiyyəsi | Ərəfsə kəndi |
| 9 | Ərəzin bələdiyyəsi | Ərəzin kəndi |
| 10 | Gal bələdiyyəsi | Gal kəndi |
| 11 | Göydərə bələdiyyəsi | Göydərə kəndi |
| 12 | Göynük bələdiyyəsi | Göynük kəndi |
| 13 | Gülüstan bələdiyyəsi | Gülüstan kəndi |
| 14 | Xanəgah bələdiyyəsi | Xanəgah kəndi |
| 15 | Xoşkeşin bələdiyyəsi | Xoşkeşin kəndi |
| 16 | Kırna bələdiyyəsi | Kırna kəndi |
| 17 | Qazançı bələdiyyəsi | Qazançı kəndi |
| 18 | Qızılca bələdiyyəsi | Qızılca kəndi |
| 19 | Ləkətağ bələdiyyəsi | Ləkətağ kəndi |
| 20 | Milax bələdiyyəsi | Milax kəndi |
| 21 | Nəhəcir bələdiyyəsi | Nəhəcir kəndi |
| 22 | Saltaq bələdiyyəsi | Saltaq kəndi |
| 23 | Şurud bələdiyyəsi | Şurud kəndi |
| 24 | Teyvaz bələdiyyəsi | Teyvaz kəndi |
| 25 | Yaycı bələdiyyəsi | Yaycı kəndi |
| | **KƏNGƏRLİ RAYONU** | |
| 1 | Qıvraq bələdiyyəsi | Qıvraq qəsəbəsi |
| 2 | Böyükdüz bələdiyyəsi | Böyükdüz kəndi |
| 3 | Çalxanqala bələdiyyəsi | Çalxanqala kəndi |
| 4 | Xıncab bələdiyyəsi | Xıncab kəndi |
| 5 | Xok bələdiyyəsi | Xok kəndi |
| 6 | Qabıllı bələdiyyəsi | Qabıllı kəndi |
| 7 | Qarabağlar bələdiyyəsi | Qarabağlar kəndi |
| 8 | Şahtaxtı bələdiyyəsi | Şahtaxtı kəndi |
| 9 | Təzəkənd bələdiyyəsi | Təzəkənd |
| 10 | Yeni Kərki bələdiyyəsi | Yeni Kərki kəndi |
| 11 | Yurdçu bələdiyyəsi | Yurdçu kəndi |
| | **ORDUBAD RAYONU** | |
| 1 | Ordubad bələdiyyəsi | Ordubad şəhəri |
| 2 | Ağrı bələdiyyəsi | Ağrı kəndi |
| 3 | Anabad bələdiyyəsi | Anabad kəndi |
| 4 | Anaqut bələdiyyəsi | Anaqut kəndi |

| | | |
|---|---|---|
| 5 | Aşağı Əndəmic bələdiyyəsi | Aşağı Əndəmic kəndi |
| 6 | Aşağı Əylis bələdiyyəsi | Aşağı Əylis kəndi |
| 7 | Aza bələdiyyəsi | Aza kəndi |
| 8 | Azadkənd bələdiyyəsi | Azadkənd |
| 9 | Başkənd bələdiyyəsi | Başkənd |
| 10 | Baş Dizə bələdiyyəsi | Baş Dizə kəndi |
| 11 | Behrud bələdiyyəsi | Behrud kəndi |
| 12 | Biləv bələdiyyəsi | Biləv kəndi |
| 13 | Bist bələdiyyəsi | Bist kəndi |
| 14 | Çənnəb bələdiyyəsi | Çənnəb kəndi |
| 15 | Darkənd bələdiyyəsi | Darkənd kəndi |
| 16 | Dəstə bələdiyyəsi | Dəstə kəndi |
| 17 | Dırnıs bələdiyyəsi | Dırnıs kəndi |
| 18 | Dizə bələdiyyəsi | Dizə kəndi |
| 19 | Düylün bələdiyyəsi | Düylün kəndi |
| 20 | Ələhi bələdiyyəsi | Ələhi kəndi |
| 21 | Gənzə bələdiyyəsi | Gənzə kəndi |
| 22 | Gilançay bələdiyyəsi | Gilançay kəndi |
| 23 | Xanağa bələdiyyəsi | Xanağa kəndi |
| 24 | Xurs bələdiyyəsi | Xurs kəndi |
| 25 | Kələki bələdiyyəsi | Kələki kəndi |
| 26 | Kələntər Dizə bələdiyyəsi | Kələntər Dizə kəndi |
| 27 | Kotam bələdiyyəsi | Kotam və Kilit kəndləri |
| 28 | Qoruqlar bələdiyyəsi | Qoruqlar kəndi |
| 29 | Qoşadizə bələdiyyəsi | Qoşadizə kəndi |
| 30 | Məzrə bələdiyyəsi | Məzrə kəndi |
| 31 | Nəsirvaz bələdiyyəsi | Nəsirvaz kəndi |
| 32 | Nürgüt bələdiyyəsi | Nürgüt kəndi |
| 33 | Nüsnüs bələdiyyəsi | Nüsnüs kəndi |
| 34 | Parağa bələdiyyəsi | Parağa kəndi |
| 35 | Parağaçay bələdiyyəsi | Parağaçay və Ağdərə qəsəbələri |
| 36 | Pəzməri bələdiyyəsi | Pəzməri kəndi |
| 37 | Sabirkənd bələdiyyəsi | Sabirkənd |
| 38 | Şəhriyar bələdiyyəsi | Şəhriyar qəsəbəsi |
| 39 | Tivi bələdiyyəsi | Tivi kəndi |
| 40 | Unus bələdiyyəsi | Unus kəndi |
| 41 | Üstüpü bələdiyyəsi | Üstüpü kəndi |
| 42 | Yuxarı Əndəmic bələdiyyəsi | Yuxarı Əndəmic kəndi |
| 43 | Yuxarı Əylis bələdiyyəsi | Yuxarı Əylis kəndi |
| 44 | Vələver bələdiyyəsi | Vələver kəndi |
| 45 | Vənənd bələdiyyəsi | Vənənd kəndi |



| | | |
|---|---|---|
| | **SƏDƏRƏK RAYONU** | |
| 1 | Heydərabad bələdiyyəsi | Heydərabad qəsəbəsi |
| 2 | Qaraağac bələdiyyəsi | Qaraağac kəndi |
| 3 | Sədərək bələdiyyəsi | Sədərək kəndi |
| | **ŞAHBUZ RAYONU** | |
| 1 | Şahbuz bələdiyyəsi | *Şahbuz şəhəri (12)* |
| 2 | Ağbulaq bələdiyyəsi | Ağbulaq kəndi |
| 3 | Aşağı Qışlaq bələdiyyəsi | Aşağı Qışlaq kəndi |
| 4 | Ayrınc bələdiyyəsi | Ayrınc kəndi |
| 5 | Badamlı bələdiyyəsi | Badamlı kəndi |
| 6 | Badamlı qəsəbə bələdiyyəsi | Badamlı qəsəbəsi |
| 7 | Biçənək bələdiyyəsi | Biçənək kəndi |
| 8 | Daylaqlı bələdiyyəsi | Daylaqlı kəndi |
| 9 | Gömür bələdiyyəsi | Gömür kəndi |
| 10 | Güney Qışlaq bələdiyyəsi | Güney Qışlaq kəndi |
| 11 | Keçili bələdiyyəsi | Keçili kəndi |
| 12 | Kiçikoba bələdiyyəsi | Kiçikoba kəndi |
| 13 | Kolanı bələdiyyəsi | Kolanı kəndi |
| 14 | Kükü bələdiyyəsi | Kükü kəndi |
| 15 | Külüs bələdiyyəsi | Külüs kəndi |
| 16 | Qarababa bələdiyyəsi | Qarababa kəndi |
| 17 | Qızıl Qışlaq bələdiyyəsi | Qızıl Qışlaq kəndi |
| 18 | Mahmudoba bələdiyyəsi | Mahmudoba kəndi |
| 19 | Mərəlik bələdiyyəsi | Mərəlik kəndi |
| 20 | Nursu bələdiyyəsi | Nursu kəndi |
| 21 | Sələsüz bələdiyyəsi | Sələsüz kəndi |
| 22 | Şada bələdiyyəsi | Şada kəndi |
| 23 | Şahbuzkənd bələdiyyəsi | Şahbuzkənd |
| 24 | Türkeş bələdiyyəsi | Türkeş kəndi |
| 25 | Yuxarı Qışlaq bələdiyyəsi | Yuxarı Qışlaq kəndi |
| | **ŞƏRUR RAYONU** | |
| 1 | Şərur bələdiyyəsi | Şərur şəhəri |
| 2 | Axaməd bələdiyyəsi | Axaməd kəndi |
| 3 | Axura bələdiyyəsi | Axura kəndi |
| 4 | Alışar bələdiyyəsi | Alışar kəndi |
| 5 | Arbatan bələdiyyəsi | Arbatan kəndi |
| 6 | Arpaçay bələdiyyəsi | Arpaçay kəndi |
| 7 | Aşağı Aralıq bələdiyyəsi | Aşağı Aralıq kəndi |
| 8 | Aşağı Daşarx bələdiyyəsi | Aşağı Daşarx kəndi |
| 9 | Aşağı Yaycı bələdiyyəsi | Aşağı Yaycı kəndi |
| 10 | Babəki bələdiyyəsi | Babəki kəndi |

| | | |
|---|---|---|
| 11 | Cəlilkənd bələdiyyəsi | Cəlilkənd |
| 12 | Çəmənli bələdiyyəsi | Çəmənli kəndi |
| 13 | Çərçiboğan bələdiyyəsi | Çərçiboğan kəndi |
| 14 | Çomaxtur bələdiyyəsi | Çomaxtur kəndi |
| 15 | Danyeri bələdiyyəsi | Danyeri kəndi |
| 16 | Dəmirçi bələdiyyəsi | Dəmirçi kəndi |
| 17 | Dərəkənd bələdiyyəsi | Dərəkənd |
| 18 | Dərvişlər bələdiyyəsi | Dərvişlər kəndi |
| 19 | Diyadin bələdiyyəsi | Diyadin kəndi |
| 20 | Dizə bələdiyyəsi | Dizə kəndi |
| 21 | Düdəngə bələdiyyəsi | Düdəngə kəndi |
| 22 | Ələkli bələdiyyəsi | Ələkli kəndi |
| 23 | Ərəbyengicə bələdiyyəsi | Ərəbyengicə kəndi |
| 24 | Gümüşlü bələdiyyəsi | Gümüşlü kəndi |
| 25 | Havuş bələdiyyəsi | Havuş kəndi |
| 26 | Həmzəli bələdiyyəsi | Həmzəli kəndi |
| 27 | Xanlıqlar bələdiyyəsi | Xanlıqlar kəndi |
| 28 | Xələc bələdiyyəsi | Xələc kəndi |
| 29 | Xətai bələdiyyəsi | Xətai kəndi |
| 30 | İbadulla bələdiyyəsi | İbadulla kəndi |
| 31 | Kərimbəyli bələdiyyəsi | Kərimbəyli kəndi |
| 32 | Kosacan bələdiyyəsi | Kosacan kəndi |
| 33 | Kürçülü bələdiyyəsi | Kürçülü kəndi |
| 34 | Kürkənd bələdiyyəsi | Kürkənd |
| 35 | Qaraburc bələdiyyəsi | Qaraburc kəndi |
| 36 | Qarahəsənli bələdiyyəsi | Qarahəsənli kəndi |
| 37 | Qarxun bələdiyyəsi | Qarxun kəndi |
| 38 | Qışlaqabbas bələdiyyəsi | Qışlaqabbas kəndi |
| 39 | Qorçulu bələdiyyəsi | Qorçulu kəndi |
| 40 | Mahmudkənd bələdiyyəsi | Mahmudkənd, Bəhruz Kəngərli və Günnüt kəndləri |
| 41 | Maxta bələdiyyəsi | Maxta kəndi |
| 42 | Məmmədsabir bələdiyyəsi | Məmmədsabir kəndi |
| 43 | Muğancıq Mehrab bələdiyyəsi | Muğancıq Mehrab kəndi |
| 44 | Muğancıq Müslüm bələdiyyəsi | Muğancıq Müslüm kəndi |
| 45 | Muğanlı bələdiyyəsi | Muğanlı kəndi |
| 46 | Oğlanqala bələdiyyəsi | Oğlanqala kəndi |
| 47 | Oğuzkənd bələdiyyəsi | Oğuzkənd |
| 48 | Püsyan bələdiyyəsi | Püsyan kəndi |
| 49 | Sərxanlı bələdiyyəsi | Sərxanlı kəndi |
| 50 | Siyaqut bələdiyyəsi | Siyaqut kəndi |
| 51 | Stansiya Daşarx bələdiyyəsi | Stansiya Daşarx kəndi |



| | | |
|---|---|---|
| 52 | Şahbulaq bələdiyyəsi | Şahbulaq kəndi |
| 53 | Şəhriyar bələdiyyəsi | Şəhriyar kəndi |
| 54 | Tənənəm bələdiyyəsi | Tənənəm kəndi |
| 55 | Təzəkənd bələdiyyəsi | Təzəkənd |
| 56 | Tumaslı bələdiyyəsi | Tumaslı kəndi |
| 57 | Vayxır bələdiyyəsi | Vayxır kəndi |
| 58 | Vərməziyar bələdiyyəsi | Vərməziyar kəndi |
| 59 | Yengicə bələdiyyəsi | Yengicə kəndi |
| 60 | Yeni Havuş bələdiyyəsi | Yeni Havuş kəndi |
| 61 | Yuxarı Aralıq bələdiyyəsi | Yuxarı Aralıq kəndi |
| 62 | Yuxarı Daşarx bələdiyyəsi | Yuxarı Daşarx kəndi |
| 63 | Yuxarı Yaycı bələdiyyəsi | Yuxarı Yaycı kəndi |
| 64 | Zeyvə bələdiyyəsi | Zeyvə kəndi |

***Dərci: 21 iyul 2004-cü il***

## "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*(24 dekabr 1999-cu il, № 237)*

***Əlavə və dəyişikliklər:***
***1. 21 dekabr 2001-ci il, № 609***
***2. 23 noyabr 2007-ci il, q.m.t. 02.12.2007***

"Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Nazirlər Kabineti bir ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu haqda Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri öz səlahiyyəti hüdudlarında həll etsin.

2. Müəyyən edilsin ki:

- "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

- həmin qanunun 2-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini öz səlahiyyəti hüdudlarında Azərbaycan Respublikası Dövlət Torpaq *və Xəritəçəkmə (1)* Komitəsi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.

3. "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 2-ci hissəsinə uyğun olaraq bələdiyyələrin mülkiyyətinə verilən torpaqlara aid müvafiq sənədlərin hazırlanması və torpaqların bələdiyyələrə təhvil verilməsi iki ay müddətində başa çatdırılsın.

4. Qanuni istifadədə olan yaşayış evlərinin (binaların) həyətyanı torpaq sahələri əvəzsiz olaraq həmin evlərin (binaların) mülkiyyətçilərinə verilsin.

5. Azərbaycan Respublikasının Dövlət Torpaq Komitəsi həyətyanı sahələrin istifadəsinin qanuniliyini təsdiq edən sənədlərin müvafiq icra hakimiyyəti orqanları ilə birlikdə araşdırılmasını təmin etsin.

6. ~~Dövlət Torpaq Komitəsinə~~ *Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinə (2)* tapşırılsın ki, bu fərmanın 4-cü bəndində göstərilmiş şəxslər üçün onların həyətyanı torpaq sahələri üzərində mülkiyyət hüququnu təsdiq edən müvafiq sənədlərin rəsmiləşdirilməsini təmin etsin.

7. Vətəndaşlar və hüquqi şəxslər tərəfindən qanunsuz istifadə edilən və ya zəbt edilən torpaq sahələrini dövlət və ya bələdiyyə mülkiyyətinə qaytarılması üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti hüquq-mühafizə və yerli icra hakimiyyəti orqanları ilə birlikdə zəruri tədbirləri həyata keçirsin.

***Dərci: 5 yanvar 2000-ci il***



# Bələdiyyələrin maliyyəsinin əsasları haqqında Azərbaycan Respublikasının Qanunu

*(7 dekabr 1999-cu il, № 772-IQ)*

***Əlavə və dəyişikliklər:***

*1. 23 noyabr 2001-ci il, q.m.t. 29.12.2002*
*2. 23 aprel 2002-ci il, q.m.t.12.05.2002*
*3. 09 mart 2004-cü il, q.m.t. 14.04.2004*
*4. 30 dekabr 2004-cü il, q.m.t. 10.02.2005*
*5. 23 oktyabr 2004-cü il, q.m.t. 29.11.2007*

**Maddə 1. Qanunun təyinatı**

Bu Qanun bələdiyyələrin maliyyəsinin formalaşması və istifadəsinin prinsiplərini, yerli büdcə prosesinin əsaslarını və bu sahələrdə bələdiyyələrin səlahiyyətləri və onların müvafiq icra hakimiyyəti orqanları ilə qarşılıqlı münasibətlərini müəyyən edir.

**Maddə 2. Bələdiyyələrin maliyyəsinin əsasları haqqında qanunvericilik**

Bələdiyyələrin maliyyəsinin formalaşması və istifadəsi ilə əlaqədar yaranan münasibətlər Azərbaycan Respublikasının Konstitusiyası ilə, bu qanunla, "Bələdiyyələrin statusu haqqında", *"Büdcə sistemi haqqında", (3)* "Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktları ilə tənzimlənir.

**Maddə 3. Bələdiyyə maliyyəsinin iqtisadi əsasları və formalaşması prinsipləri**

1. Bələdiyyə maliyyəsinin iqtisadi əsaslarını bələdiyyə əmlakı, bələdiyyə torpaqları, yerli büdcə və büdcədənkənar fondlar, bələdiyyənin istehsal, xidmət və digər iqtisadi fəaliyyəti təşkil edir.

2. Bələdiyyənin maliyyə vəsaitinin formalaşması və istifadəsi özünüidarəetmə, müstəqillik, aşkarlıq və yerli mənafenin respublika mənafeyi ilə uzlaşması prinsiplərinə əsaslanır.

**Maddə 4. Yerli büdcə**

1. Yerli büdcə bələdiyyə statusuna uyğun olaraq özünüidarəetmə prinsiplərini reallaşdırmaq, Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyənləşdirilmiş bələdiyyə səlahiyyətlərini həyata keçirmək üçün formalaşan və istifadə olunan maliyyə vəsaitidir.

Yerli büdcə bələdiyyə büdcəsi olub dövlət büdcəsinin tərkib hissəsi deyil.

2. Bələdiyyələrin *qanunvericiliyə uyğun (3)* olaraq yerli büdcənin tənzimlənməsi prosesində dövlət büdcəsindən vəsait almaq hüququ vardır.

3. Yerli büdcənin tərtibi və icrası prosesində büdcə sisteminin qanunvericiliklə müəyyən edilmiş ümumi prinsipləri və Azərbaycan Respublikasında tətbiq olunan büdcə təsnifatından istifadə olunur.

4. Büdcə ili yanvarın 1-də başlanır və dekabrın 31-də qurtarır.

**Maddə 5. Yerli büdcənin müstəqilliyi**

1. Yerli büdcənin müstəqilliyi öz mədaxil mənbələrinin olması və bələdiyyənin yerli büdcə vəsaiti barədə sərəncam vermək müstəsna hüququ ilə təmin edilir.

2. Azərbaycan Respublikası qanunvericilik və icra hakimiyyəti orqanlarının bələdiyyələrin büdcə fəaliyyətinə müdaxiləsinə, Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hallar istisna olmaqla, yol verilmir.

3. Bələdiyyə yerli büdcənin maliyyə ilinin sonuna əmələ gəlmiş sərbəst qalıqlarına müstəqil sərəncam verir.

4. Bələdiyyə yerli büdcəni iqtisadi qanunların tələblərinə uyğun, müstəqil olaraq tərtib, müzakirə, təsdiq, icra və onun icrasına nəzarət edir.

**Maddə 6. Büdcələrarası və dövlət hakimiyyəti orqanları ilə münasibətlər**

1. Yerli büdcələrin müstəqilliyinə dövlət zəmanət verir və onun öhdəliklərinə məsuliyyət daşımır. Dövlət zəmanəti aşağıdakılara əsaslanır:

1.1. investisiya və pul-kredit siyasəti əsasında istehsal *və xidmət (3)* sferasının inkişafına şərait yaratmaq;

1.2. yerli sosial-iqtisadi inkişaf proqramlarını yerli büdcə gəlirləri hesabına maliyyələşdirmək mümkün olmadıqda, yerli büdcə kəsirini ödəmək üçün dövlət büdcəsinin imkanlarını nəzərə alaraq əlavə gəlir mənbələrinin müəyyən edilməsi və ya dövlət büdcəsindən dotasiya və subvensiyaların ayrılması.

2. Qanunvericilik və icra hakimiyyəti orqanları bələdiyyələrə əlavə səlahiyyətlər həvalə etdikdə onları bu səlahiyyətlərin həyata keçirilməsi üçün zəruri maliyyə vəsaiti ilə təmin edirlər.

3. İcra hakimiyyəti orqanlarının qəbul etdikləri qərarlar nəticəsində yerli büdcələrin gəlirlərinin azalması və ya xərclərinin artması baş verdikdə uyğun azalma və ya artma məbləğləri bu qərarları qəbul edən orqanlar tərəfindən kompensasiya olunur.

4. Bələdiyyə qanunvericiliklə nəzərdə tutulmuş qaydada yerli büdcənin icrasına dair məlumatı statistika orqanlarına *və müvafiq icra hakimiyyəti orqanına (3)* təqdim edir.

**Maddə 7. Yerli büdcənin gəlirləri**

1. Yerli büdcənin gəlirlərinə aşağıdakılar aid edilir:

1.1. fiziki şəxslərdən torpaq vergisi;

1.2. fiziki şəxslərdən əmlak vergisi;

1.3. yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi;

1.4. bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan mənfəət vergisi;

*1.5. bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə yerləşdirilən küçə reklamlarına görə ödəniş; (2)*

*1.6. kurort rüsumu, mehmanxana rüsumu, avtomobillərin dayanacaqları üçün rüsum və qanunla müəyyən edilən digər yerli ödənişlər; (1)*

1.7. Azərbaycan Respublikasının dövlət büdcəsindən verilən *dotasiya, subvensiya və ssudalar; (3)*



1.8. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq bələdiyyə əmlakının özəlləşdirilməsindən və icarəyə verilməsindən gəlirlər, lotereyalardan daxil olan vəsait, habelə bələdiyyələrin fəaliyyətindən əldə edilən digər gəlirlər;

1.9. fiziki və hüquqi şəxslərin, beynəlxalq təşkilatların və fondların maliyyə yardımları və qrantları;

1.10. dövlət əhəmiyyətli tədbirlərin və dövlət orqanlarının qərarları nəticəsində yaranan xərclərin ödənilməsi üçün maliyyə vəsaiti;

*1.11. Yerli (bələdiyyə) vergilər və ödənişlərə görə qanunvericiliklə müəyyən edilmiş qaydada hesablanmış faiz və sanksiyalar. (3)*

*2. Bu maddənin 1.1-1.4-cü, 1.6-cı yarımbəndlərində göstərilən yerli vergi və ödənişlərin hesablanması, ödənilməsi və güzəştlərin verilməsi qaydası, habelə dərəcələrinin (3) yuxarı həddi qanunla müəyyən edilir, tətbiqinin zəruriyyəti və konkret dərəcələri isə bələdiyyələrin qərarları ilə müəyyənləşdirilir. Bu maddənin 1.5-ci yarımbəndində göstərilən bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə küçə reklamının yerləşdirilməsi, yayımı və reklam tarifi zonaları üzrə ödənilən haqqın minimum miqdarının hesablanması qaydaları "Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş qaydada müəyyən olunur, konkret dərəcələri isə bələdiyyələr tərəfindən maliyyələşdirilir. (2)*

*3. Qanunvericiliklə nəzərdə tutulmuş qaydada bələdiyyələr yerli əhəmiyyətli məsələlərin maliyyələşdirilməsi üçün bu maddənin 1.6-cı yarımbəndində göstərilən yerli ödənişlər, habelə könüllü birdəfəlik ödənişlər barədə qərarlar qəbul edə bilərlər. Könüllü birdəfəlik ödənişlər barədə qərarlar nəticəsində əldə olunan vəsait yalnız məqsədli təyinatı üzrə istifadə olunur. (1)*

**Maddə 8. Yerli büdcələrin xərcləri**

1. Yerli büdcələrin xərclərinin həcmi və istiqamətləri bələdiyyələr tərəfindən müəyyənləşdirilir.

2. Yerli büdcə bələdiyyənin idarəetmə xərcləri, sosial-məişət, yaşayış, mədəniyyət və idman obyektlərinin, habelə əhalinin ümumi istifadəsində olan küçə, həyət və bağların saxlanması xərcləri nəzərə alınmaqla bələdiyyələrin müəyyən etdiyi xərc normativləri əsasında formalaşdırılır.

Yerli büdcələrdə həmçinin yerli sosial müdafiə, sosial və iqtisadi inkişaf, habelə ekoloji proqramların maliyyələşdirilməsi üçün xərclər nəzərdə tutula bilər.

*Bələdiyyənin ərazisində yaşayan əhalinin aztəminatlı təbəqəsindən olan mərhumların dəfn və yas mərasimlərinin təşkilinə yardım məqsədi ilə yerli büdcədə zəruri xərclər nəzərdə tutulur və təyinatı üzrə sərf edilir. (5)*

3. Dövlət büdcəsindən dotasiya, *subvensiya və ssuda (3)* alan yerli büdcənin xərclərinin hesablanmasında tətbiq olunan normativlər dövlət büdcəsinin xərclərinin *hesablanması (3)* üçün tətbiq olunan xərc normativlərindən yüksək ola bilməz.

*4. Dotasiyanın yuxarı həddinin hesablanmasında bələdiyyənin ərazisində yaşayan əhalinin sayı və ölkənin maliyyə ehtiyatlarının formalaşmasında onun xüsusi çəkisi və digər amillər nəzərə alına bilər. (3)*

5. Əlavə səlahiyyətlərin həyata keçirilməsi üçün qanunvericilik və icra hakimiyyətləri tərəfindən ayrılan məqsədli vəsait, o cümlədən subvensiya hesabına xərclərin maliyyələşdirilməsi yerli büdcənin məxaric hissəsində ayrıca sətirdə göstərilir.

6. Xərclərinin öz gəlirləri ilə təmin olunmayan hissəsi (yerli büdcənin kəsiri) dövlət büdcəsindən alınan dotasiya ilə örtülə bilər.

**Maddə 9. Yerli büdcənin tərtibi**

*1. Yerli büdcənin layihəsi bələdiyyə ərazisində fəaliyyət göstərən bələdiyyə müəssisələrinin və digər hüquqi şəxslərin, habelə fiziki şəxslərin təsərrüfat fəaliyyətinin qiymətləndirilməsi, sosial-iqtisadi proqnozlar və məqsədli proqramlar əsasında formalaşır. (3)*

2. Bələdiyyələr dövlət büdcəsindən dotasiya nəzərdə tutulan yerli büdcə layihəsini tərtib edərkən müvafiq icra hakimiyyəti orqanına mayın 1-dək lazımi hesablamalar verirlər.

*3. Yerli büdcə layihəsinin tərtibi prosesi növbəti büdcə ilinə 11 ay qalmış başlanır və büdcə layihəsinin bələdiyyə iclasına təqdim edildiyi günədək davam edir. Yerli büdcə layihəsinin tərtibinə və bələdiyyə iclasına təqdim edilməsinə bələdiyyə sədri cavabdehdir və bu məqsədlə o, bələdiyyənin daimi və başqa komissiyalarını, bələdiyyə qulluqçularını və mütəxəssisləri cəlb edə bilər. (4)*

**Maddə 10. Yerli büdcənin müzakirəsi və təsdiqi**

*1. Növbəti büdcə ili üçün yerli büdcə haqqında qərar layihəsi müvafiq sənədlərlə birlikdə cari ilin oktyabr ayının 15-dən gec olmayaraq bələdiyyə iclasının müzakirəsinə və təsdiqinə təqdim edilir. Yerli büdcənin layihəsi bələdiyyə iclasına təqdim edildiyi tarixdən 10 gün ərzində yerli əhalinin onunla tanış olması məqsədi ilə dərc edilir. (4)*

*2. Növbəti büdcə ili üzrə yerli büdcənin layihəsi bələdiyyə iclasında cari ilin dekabr ayının 20-dən gec olmayaraq təsdiq edilir. (4)*

3. Növbəti maliyyə ili üçün dövlət büdcəsindən dotasiya nəzərdə tutulan yerli büdcənin layihəsi cari ilin dekabr ayının 25-dən gec olmayaraq bələdiyyənin qərarı şəklində təsdiq edilir.

4. Təsdiq edilmiş yerli büdcə bələdiyyənin qərarı ilə dəqiqləşdirilə bilər.

**Maddə 11. Yerli büdcənin icrası**

1. Bələdiyyələr dövlət büdcəsindən alınmış məqsədli vəsaitlər istisna olmaqla, yerli büdcənin icrası prosesində mədaxil və məxaric maddələrində büdcə təsnifatı üzrə təsdiq edilmiş təxsisat həddində dəyişikliklər apara bilərlər.

*2. Yerli büdcələrin icrası zamanı qəbul edilmiş öhdəliklər üzrə əməliyyatlar büdcə ili qurtardıqda başa çatır və istifadə olunmayan vəsait bələdiyyələrin sərəncamında qalır. (3)*

3. Bələdiyyələr öz nizamnaməsində müəyyən edilmiş qaydada yerli büdcənin icrası haqqında *illik hesabatı (3)* təsdiq edir və öz əhalisinə çatdırırlar.



**Maddə 12. Yerli büdcənin tarazlaşdırılması**

Əgər bələdiyyə büdcəsinin icrası prosesində mədaxil mənbələri üzrə daxil olan vəsait azalarsa və bu, kəsrin son həddi aşmasına gətirib çıxararsa, məxaricin ixtisarı mexanizmi tətbiq edilə bilər. Məxaricin ixtisarı müdafiə olunmuş maddələr istisna olmaqla, büdcənin bütün maddələri üzrə məxaricin mütənasib surətdə azaldılmasından ibarətdir.

**Maddə 13. Yerli büdcəyə nəzarət**

*1. Yerli büdcənin icrasına, o cümlədən sərf edilən vəsaitin təsdiq edilmiş büdcə göstəricilərinə uyğunluğuna bələdiyyə nəzarət edir və bu məqsədlə ildə bir dəfədən az olmayaraq müstəqil auditorları cəlb edir. (4)*

2. Qanunvericilik və icra hakimiyyəti orqanlarının bələdiyyələrə verdikləri səlahiyyətlərin həyata keçirilməsi üçün maliyyə vəsaitindən istifadəyə həmin orqanlar nəzarət edirlər.

**Maddə 14. Bələdiyyələrin maliyyə-kredit və sığorta təşkilatları ilə qarşılıqlı əlaqəsi**

1. Bələdiyyələr öz maliyyəsinin təşkili işini həm müvafiq bələdiyyə ərazisində, həm də onun hüdudlarından kənarda fəaliyyət göstərən Azərbaycan Respublikasının rezidenti olan kredit təşkilatları ilə qarşılıqlı əlaqədə yerinə yetirirlər.

2. Bələdiyyələrlə kredit və sığorta təşkilatları arasında qarşılıqlı münasibətlər müqavilə əsasında həyata keçirilir.

3. Bələdiyyələrin qanunvericiliklə müəyyən edilmiş qaydada:

3.1. özünün hesablaşma və kassa əməliyyatının aparılması üçün müvəkkil bankı seçmək və xəzinədarlığı yaratmaq *və ya yerli büdcənin kassa icrasını qanunvericiliyə uyğun olaraq dövlət xəzinədarlığı vasitəsilə həyata keçirmək; (3)*

3.2. Azərbaycan Respublikasının rezidenti olan banklardan və digər kredit təşkilatlarından qısamüddətli və uzunmüddətli kreditlər almaq;

3.3. bələdiyyə mülkiyyətində olan obyektlərin, bələdiyyə qulluqçularının sığortalanması haqqında qərar qəbul etmək hüququ vardır.

4. Kredit təşkilatları qarşısında bələdiyyələrin öhdəlikləri üzrə dövlət məsuliyyət daşımır.

**Maddə 15. Keçid müddəaları**

Bələdiyyələrin vergi xidməti orqanları formalaşanadək bu qanunun 7-ci maddəsinin 1-ci bəndində göstərilən vergi və ödənişlərin yığılması və yerli büdcələrə köçürülməsi bələdiyyələrin müraciəti əsasında bağlanılan müqavilə ilə dövlət vergi xidməti orqanları tərəfindən həyata keçirilir.

2000-ci ildə yerli büdcələrə dotasiyalar "Azərbaycan Respublikasının 2000-ci il dövlət büdcəsi haqqında" Qanunun 11-ci maddəsinə uyğun olaraq verilir.

***Dərci: 28 dekabr 1999-cu il***

## "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*(24 dekabr 1999-cu il, № 233)*

"Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Nazirlər Kabineti bir ay müddətində;

- qüvvədə olan qanunvericilik aktlarının "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu haqda Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri öz səlahiyyəti hüdudlarında həll etsin.

2. Müəyyən edilsin ki:

- "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir.

***Dərci: 28 dekabr 1999-cu il***

## Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

*(14 aprel 2000-ci il, № 858-IQ)*

***Əlavə və dəyişikliklər:***
*1. 25 aprel 2008-ci il, q.m.t. 09.05.2008*

**Maddə 1. Bələdiyyələrin birləşməsinin və ayrılmasının məqsədi**

Bələdiyyələr onlarda yaranan sosial-iqtisadi vəziyyətlə əlaqədar, tarixi və digər yerli xüsusiyyətləri, müvafiq yerli əhalinin rəyini nəzərə almaqla birləşərək, yaxud ayrılaraq yeni bələdiyyə təşkil edə bilərlər.

**Maddə 2. Bələdiyyələrin birləşmə qaydası**

Bələdiyyələrin birləşməsi aşağıdakı qaydada həyata keçirilir:



*1) Birləşən hər bir bələdiyyədə onun ərazisində yaşayan və səsvermə hüququna malik olan vətəndaşların azı 25 faizinin bələdiyyələrin birləşməsi məsələsinə münasibət bildirməsini təmin edən yığıncaq (yığıncaqlar) keçirilir; (1)*

2) *Yığıncaqda (yığıncaqlarda) (1)* bələdiyyələrin birləşməsi barədə müsbət nəticə əldə edildikdə bələdiyyələr tərəfindən onların birləşməsi haqqında qərar qəbul edilir və baxılmaq üçün Azərbaycan Respublikası Milli Məclisinə təqdim olunur;

3) Azərbaycan Respublikasının Milli Məclisi bələdiyyələrin birləşməsi ilə bağlı Azərbaycan Respublikası qanunuvericiliyinə müvafiq surətdə qərar qəbul edir.

Bələdiyyələrin birləşməsi ilə bağlı mülkiyyət, maliyyə və başqa məsələlərin həlli üçün bələdiyyə tərəfindən bələdiyyə üzvlərindən müvafiq komissiya yaradılır. Həmin komissiya mülkiyyət, maliyyə və başqa məsələlərlə bağlı bələdiyyəyə təkliflər verir.

**Maddə 3. Bələdiyyələrin ayrılması qaydası**

Bələdiyyələrin ayrılması bu Qanunun 2-ci maddəsində göstərilmiş qaydada və ardıcıllıqla həyata keçirilir.

Bələdiyyələrin ayrılması ilə bağlı mülkiyyət, maliyyə və başqa məsələlərin həlli üçün bələdiyyə tərəfindən bələdiyyə üzvlərindən ibarət müvafiq komissiya yaradılır. Həmin komissiya mülkiyyət, maliyyə və başqa məsələlərlə bağlı bələdiyyəyə təkliflər verir.

**Maddə 4. Birləşmiş, yaxud ayrılmış bələdiyyələrə seçkilərin keçirilməsi**

Birləşmiş, yaxud ayrılmış hər bir bələdiyyəyə seçkilərin keçirilməsi *Azərbaycan Respublikasının Seçki Məcəlləsi (1)* ilə tənzimlənir.

**Maddə 5. Birləşmiş, yaxud ayrılmış bələdiyyənin statusu**

Birləşmiş, yaxud ayrılmış bələdiyyənin statusu Azərbaycan Respublikası Konstitusiyası və "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

**Maddə 6. Birləşmiş, yaxud ayrılmış bələdiyyənin mülkiyyəti**

Birləşən bələdiyyələrin hər birinin mülkiyyəti və onunla bağlı hüquqlar (vəzifələr) hüquq varisliyi qaydasında yeni yaradılmış bələdiyyəyə keçir.

Bələdiyyələr ayrıldıqda bələdiyyə mülkiyyətinin bölünməsi məsələsi bu qanunun 3-cü maddəsində göstərilmiş qaydada həll edilir.

**Maddə 7. Bələdiyyələrin birgə fəaliyyət göstərməsi**

Bələdiyyələrin səlahiyyətlərinə aid edilən iqtisadi, sosial, mədəni, ekoloji və digər sahələrdə fəaliyyətin səmərəsini artırmaq və qarşılıqlı əlaqələri möhkəmləndirmək məqsədi ilə bələdiyyələr birgə fəaliyyət göstərə bilərlər.

Bələdiyyələrin birgə fəaliyyət göstərməsi bələdiyyələrin qərarına əsasən həyata keçirilir.

Birgə fəaliyyət göstərmək üçün bələdiyyələr arasında müqavilə bağlanılır. Müqavilədə birgə fəaliyyətin sahələri, maliyyələşdirilmə qaydaları, müddətlər və digər şərtlər göstərilir.

Bələdiyyələr birgə fəaliyyət göstərdikdə onların əraziləri dəyişilmir.

**Maddə 8. Bələdiyyələrin ləğv edilməsi**

Bələdiyyələr aşağıdakı hallarda ləğv edilə bilər:

1) Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada bələdiyyənin yerləşdiyi müvafiq yaşayış məntəqəsi müvafiq uçot məlumatından çıxarıldıqda Azərbaycan Respublikasının Milli Məclisi bələdiyyə ərazilərinə Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq surətdə dəyişikliklər edir.

2) Müvafiq ərazidə əhali yerli özünüidarənin təşkilindən imtina etdikdə "Yerli rəy sorğusu haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq yerli rəy sorğusu keçirilir. Yerli rəy sorğusu nəticəsində bələdiyyənin ləğv edilməsi barədə müsbət nəticə əldə edildikdə bələdiyyə tərəfindən ləğv edilməsi haqqında qərar qəbul edilir və baxılmaq üçün Azərbaycan Respublikası Milli Məclisinə təqdim olunur. Azərbaycan Respublikasının Milli Məclisi bələdiyyənin ləğv edilməsi ilə bağlı Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq surətdə qərar qəbul edir.

Bələdiyyənin ləğvi ilə bağlı mülkiyyət, maliyyə və başqa məsələlərin həlli üçün bələdiyyə üzvlərindən ibarət müvafiq komissiya yaradılır. Həmin komissiya mülkiyyət, maliyyə və başqa məsələlərlə bağlı bələdiyyəyə təkliflər verir.

**Maddə 9. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu qanunun tələblərinin pozulması Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq surətdə məsuliyyətə səbəb olur.

***Dərci:** 27 oktyabr 2000-ci il*

## "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

*(21 oktyabr 2000-ci il, № 546)*

"Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- öz səlahiyyətləri daxilində "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***Dərci:** 27 oktyabr 2000-ci il*

## "Bələdiyyələrin daimi və başqa komissiyaları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

*(14 aprel 2000-ci il, № 859-IQ)*

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. "Bələdiyyələrin daimi və başqa komissiyaları haqqında" Əsasnamə təsdiq edilsin *(əlavə olunur)*.
2. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

***Dərci:** 27 oktyabr 2000-ci il*

*Azərbaycan Respublikasının 14 aprel*
*2000-ci il tarixli 859-IQ nömrəli qanunu ilə*
***təsdiq edilmişdir***

## Bələdiyyələrin daimi və başqa komissiyaları haqqında ƏSASNAMƏ

**Maddə 1.** Azərbaycan Respublikası Konstitusiyasının 143-cü maddəsinə və "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununa əsasən bələdiyyələr öz fəaliyyətini daimi və başqa komissiyalar vasitəsilə həyata keçirirlər.

**Maddə 2.** Bələdiyyələr öz səlahiyyətləri müddətində daimi və başqa komissiyalar yarada bilərlər.

Bələdiyyələr yerli büdcə, yerli sosial və yerli iqtisadi məsələlər, yerli ekologiya və onların fəaliyyətinə aid hüquq məsələləri ilə bağlı bu əsasnamənin 22-ci maddəsində göstərilən daimi komissiyalar formalaşdıra bilərlər.

Bələdiyyələr onların səlahiyyətlərinə aid edilən yerli məsələlərlə bağlı zərurət olduqda başqa komissiyalar yarada bilərlər.

**Maddə 3.** Bələdiyyələrin daimi və başqa komissiyalarının əsas vəzifələri "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilir.

**Maddə 4.** Bələdiyyələrin daimi və başqa komissiyaları və fəaliyyətində Azərbaycan Respublikası Konstitusiyasını və digər normativ-hüquqi aktlarını, bu əsasnaməni, bələdiyyələrin nizamnamələrini, habelə müvafiq bələdiyyələrin qərarlarını rəhbər tuturlar.

Bələdiyyələrin komissiyaları öz fəaliyyətində müvafiq bələdiyyə ərazisində yaşayan vətəndaşların mənafe ümumiliyini əsas götürürlər.

**Maddə 5.** Bələdiyyələr işlərinin həcmini, maliyyə vəziyyətini və ehtiyatlarını nəzərə alaraq müvafiq sayda daimi və başqa komissiyaları yaradırlar.

Bələdiyyələrin daimi komissiyaları bələdiyyələrin səlahiyyət müddəti ərzində səlahiyyətlidirlər. Bələdiyyələrin başqa komissiyalarının səlahiyyət müddəti bələdiyyə tərəfindən müəyyən edilir və bələdiyyələrin səlahiyyət müddətindən çox ola bilməz.

Bələdiyyələr lazım olduqda yeni komissiyalar yarada, mövcud olan komissiyaları ləğv edə və komissiyaların tərkibində dəyişikliklər edə bilərlər.

Bələdiyyələrin daimi və başqa komissiyalarının fəaliyyəti fikir müxtəlifliyi, aşkarlıq, məsələlərin sərbəst müzakirəsi, ictimai rəyi nəzərə almaqla komissiya üzvlərinin təşəbbüskarlığı prinsipləri əsasında həyata keçirilir.

**Maddə 6.** Bələdiyyələrin daimi və başqa komissiyalarının say tərkibi bələdiyyə tərəfindən müəyyən edilir. Daimi və başqa komissiyaların tərkibi azı üç bələdiyyə üzvündən ibarət olmalıdır.

Bələdiyyələrin daimi və başqa komissiyalarının tərkibinə daxil olan şəxslər bələdiyyələrin iclaslarında bələdiyyə üzvlərinin sadə səs çoxluğu ilə seçilir. Daimi və başqa komissiyaların tərkibinin seçilməsi bələdiyyənin qərarı ilə rəsmiləşdirilir.

Daimi və başqa komissiyalar öz tərkibindən sədr, lazım gəldikdə isə müavin də seçirlər.

Bələdiyyə üzvü bir neçə daimi və başqa komissiyaların üzvü ola bilər.

Bələdiyyələrin üzvü bir daimi və başqa komissiyanın sədri ola bilər.

**Maddə 7.** Daimi komissiyalar onların iclaslarında təsdiq olunmuş plana müvafiq olaraq fəaliyyət göstərirlər.

Daimi komissiyalar bələdiyyəyə ildə azı bir dəfə öz işi barədə hesabat verirlər.

Daimi komissiyaların iclasları ayda azı bir dəfə komissiyanın sədri tərəfindən çağırılır.

Daimi və başqa komissiyaların iclaslarında həmin komissiyanın üzvü olmayan bələdiyyə üzvləri və mütəxəssisləri məşvərətçi səslə iştirak edə, təkliflər verə bilərlər. Daimi və başqa komissiyalar səyyar iclasları da keçirə bilərlər.

**Maddə 8.** Daimi və başqa komissiyaların iclasları onların üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir.



Bələdiyyə sədrinin tələbi ilə bələdiyyələrin daimi və başqa komissiyalarının növbədənkənar iclası çağırıla bilər.

Daimi və başqa komissiyanın iclası haqqında komissiya üzvü iclas gününə azı 2 gün qalmış xəbərdar edilməlidir.

Daimi və başqa komissiyaların üzvləri hər hansı səbəbdən iştirak edə bilməyəcəyi barədə komissiya sədrinə əvvəlcədən məlumat verməlidir.

**Maddə 9.** Daimi və başqa komissiyaların iclaslarında baxılan bütün məsələlər barəsində qərarlar komissiyanın iclasında iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir.

Bu Əsasnaməyə müvafiq olaraq bir neçə daimi və başqa komissiyaların birgə iclası keçirildikdə qərarlar hər bir komissiya üzvlərinin iclasda iştirak etdiyi üzvlərinin sadə səs çoxluğu ilə qəbul olunur.

**Maddə 10.** Daimi və başqa komissiyalar öz səlahiyyətlərinə aid məsələlər barəsində bələdiyyənin icra aparatının struktur bölmələrinin rəhbərlərinin məruzələrini öz iclaslarında dinləyə bilərlər. Daimi və başqa komissiyalar öz səlahiyyətlərinə aid məsələlər barəsində bələdiyyənin icra aparatına tapşırıq vermək hüququna malikdirlər.

Daimi və başqa komissiyaların təşkilati, informasiya, kargüzarlıq, maddi-texniki təminat məsələlərini bələdiyyənin icra aparatı həyata keçirir.

**Maddə 11.** Daimi və başqa komissiyalar bələdiyyələrin müzakirəsinə çıxarılan məsələlər üzrə öz məruzələrini təyin edirlər.

Daimi və başqa komissiyaların birgə hazırladıqları məsələlər üzrə komissiyalar birgə məruzə və əlavə məruzələrlə çıxış edə bilər və ya öz rəy və təkliflərini ayrıca təqdim edə bilərlər.

**Maddə 12.** Daimi və başqa komissiyaların bələdiyyə müəssisə, idarə və təşkilatlarına bələdiyyənin səlahiyyətinə aid məsələlər barəsində sorğu ilə müraciət edə bilərlər.

**Maddə 13.** Daimi komissiyalar onların müzakirəsinə verilmiş məsələlərin başqa daimi komissiyaların da səlahiyyətinə aid olduğunu müəyyən etdikdə, yaxud başqa daimi komissiyaların həmin məsələlərə dair rəy verməsində zərurət olduqda bu barədə bələdiyyənin sədrinə təklif verə bilərlər.

Daimi komissiyalar digər daimi komissiyaların nəzərdən keçirəcəkləri məsələlərin hazırlanmasında həmin komissiyaların müraciəti ilə öz səlahiyyələrinə aid məsələlər üzrə iştirak edə bilər.

Daimi komissiyalar nəzərdən keçirdikləri məsələlər barəsində digər daimi komissiyaların rəyini ala bilərlər.

**Maddə 14.** Bir və ya bir neçə daimi və başqa komissiyaların səlahiyyətlərinə aid məsələlərin müzakirəsi məqsədi ilə komissiyaların özlərinin təşəbbüsü, habelə bələdiyyənin tapşırığı ilə daimi və başqa komissiyalar birgə iclaslar keçirə bilərlər. Komissiyaların birgə iclasında sədrlik edən komissiyaların üzvləri tərəfindən seçilir.

**Maddə 15.** Daimi və başqa komissiyalar bələdiyyələrin iclaslarında onların səlahiyyətlərinə aid məsələlər üzrə bələdiyyələrin tabeliyində olan müəssisə, idarə və təşkilatların, habelə bələdiyyənin vəzifəli şəxslərin məlumatlarını dinləmək barədə təklif verə bilərlər.

**Maddə 16.** Daimi və başqa komissiyaların iclaslarına həmin daimi komissiyaların tərkibinə daxil olmayan bələdiyyə üzvləri, bələdiyyənin tabeliyində olan müəssisələrin, idarə və təşkilatların nümayəndələri, mütəxəssislər və alimlər (ekspertlər) dəvət oluna bilərlər.

**Maddə 17.** Daimi və başqa komissiyaların sədri komissiyanın işinə rəhbərlik edir, komissiyanın iclasının vaxtını təyin edir, bələdiyyənin icra aparatı ilə birlikdə komissiyanın işini təşkil edir, komissiya üzvlərini zəruri sənədlərlə və materiallarla təmin edir, ayrı-ayrı komissiya üzvlərinə tapşırıqlar verir, komissiyanın işini başqa komissiyaların işi ilə əlaqələndirir, iclaslar üçün lazımi materialların hazırlanmasını təşkil edir, bələdiyyənin tabeliyində olan müəssisələrin, idarə və təşkilatların nümayəndələri, mütəxəssisləri və alimləri (ekspertləri) komissiyanın iclaslarında iştirak etmək üçün dəvət edir, komissiyanın iclaslarında sədrlik edir, daimi komissiyanın iş planının yerinə yetirilməsinə nəzarət edir.

Daimi və başqa komissiyaların sədri komissiyanın iclasında iştirak edə bilmədikdə onun vəzifələrini sədrin müavini, sədrin müavini seçilməyən komissiyalarda isə bələdiyyənin sədrinin tapşırığına əsasən komissiyaların üzvlərindən biri icra edir.

**Maddə 18.** Daimi və başqa komissiyaların üzvü onların fəaliyyətində iştirak etməyə, qərarlarının həyata keçirilməsinə kömək etməyə və tapşırıqlarını yerinə yetirməyə borcludur.

**Maddə 19.** Daimi və başqa komissiyaların üzvünün komissiyalarda baxılan bütün məsələlər üzrə həlledici səs hüququ vardır. Onun daimi və başqa komissiyalarda nəzərdən keçirilmək üçün məsələlər təklif etmək, həmin məsələlərin hazırlanması və müzakirəsində iştirak etmək, müzakirə olunan məsələlərlə əlaqədar bələdiyyənin tabeliyində olan müəssisə, idarə və təşkilatların, habelə bələdiyyələrin vəzifəli şəxslərini dinləmək barədə təkliflər vermək hüququ vardır.

Daimi və başqa komissiyaların hər bir üzvünə komissiyaların müzakirəsinə verilən məsələlər barəsində sənədlər və digər materiallar təqdim olunmalıdır.

Komissiya üzvü komissiyanın qəbul etdiyi qərarla razı olmadıqda xüsusi rəylə çıxış edə bilər. Həmin rəy müvafiq qərara əlavə olunur.

**Maddə 20.** Daimi və başqa komissiyaların iclasları protokollaşdırılır. Daimi və başqa komissiyaların qərar, rəy və protokollarını onların sədri imzalayır. Daimi və başqa komissiyaların birgə qəbul etdikləri qərarları, onların birgə hazırladıqları rəyləri və birgə iclaslarının protokollarını müvafiq komissiyaların sədrləri imzalayırlar.

**Maddə 21.** Daimi və başqa komissiyalar öz fəaliyyətləri haqqında ictimaiyyətə mütəmadi olaraq məlumat verirlər. Daimi və başqa komissiyaların iclaslarında kütləvi informasiya vasitələrinin nümayəndələri sərbəst iştirak edə bilərlər.



**Maddə 22.** Bələdiyyələr aşağıdakı daimi komissiyalar yarada bilərlər:

1) Yerli büdcə məsələləri daimi komissiyası:

- yerli vergilərə və ödənişlərə, yerli büdcəyə aid qərar layihələrini hazırlayır və ya təqdim olunmuş qərar layihələrinə dair rəy verir;
- yerli büdcəyə nəzarətlə bağlı məsələlərə baxır və bələdiyyəyə təkliflər verir;
- yerli büdcə layihəsinə dair başqa daimi komissiyaların təkliflərinə baxır və bu təkliflər barəsində rəy hazırlayır;
- yerli büdcənin icrası ilə bağlı hesabatlara dair rəy hazırlayır;
- bələdiyyə və onun icra aparatı üçün təkliflər hazırlayır.

2) Yerli sosial məsələləri daimi komissiyası:

- yerli sosial müdafiə və sosial inkişaf, o cümlədən əmək, məşğulluq, sosial təminat və digər yerli sosial məsələlər də daxil olmaqla, proqramların layihələrini, arayışlar, qərar layihələri hazırlayır və ya təqdim olunmuş yerli sosial müdafiə və sosial inkişaf proqramlarının layihələrinə və digər layihələrə dair rəy verir;
- bələdiyyə və onun icra aparatı üçün təkliflər hazırlayır.

3) Yerli ekologiya məsələləri daimi komissiyası:

- yerli ekoloji proqramların layihələrini, arayışlar, qərar layihələri hazırlayır və ya təqdim olunmuş yerli ekoloji proqramların layihələrinə və qərar layihələrinə dair rəy verir;
- bələdiyyə və onun icra aparatı üçün təkliflər hazırlayır.

4) Yerli iqtisadi inkişaf məsələləri daimi komissiyası:

- yerli iqtisadi inkişaf proqramları layihələrini (o cümlədən bələdiyyə mülkiyyətinin (bələdiyyə torpaqları da daxil olmaqla) səmərəli istifadəsi, bələdiyyələrin təsərrüfat fəaliyyətinin təşkili də daxil olmaqla), arayışlar, qərar layihələrini hazırlayır və ya təqdim olunmuş yerli iqtisadi inkişaf proqramların layihələrinə və qərar layihələrinə dair rəy verir;
- bələdiyyə və onun icra aparatı üçün təkliflər hazırlayır.

5) hüquq məsələləri daimi komissiyası:

- bələdiyyənin qərar layihələrini Azərbaycan Respublikası Konstitusiyasına və qanunvericiliyinə uyğunluğu haqqında, bələdiyyə üzvlərinin səlahiyyətlərinin itirilməsi və ya onlara xitam verilməsi məsələlərinə, yerli rəy sorğusuna çıxarılan məsələlərə dair rəy verir:
- bələdiyyə və onun icra aparatı üçün təkliflər hazırlayır.

## "Bələdiyyələrin daimi və başqa komissiyaları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

*(21 oktyabr 2000-ci il, № 547)*

"Bələdiyyələrin daimi və başqa komissiyaları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının "Bələdiyyələrin daimi və başqa komissiyaları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması haqqında təkliflərini Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;
- Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının prezidentinə məlumat versin;
- öz səlahiyyətləri daxilində "Bələdiyyələrin daimi və başqa komissiyaları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***Dərci: 27 oktyabr 2000-ci il***

## Bələdiyyə üzvünün statusu haqqında Azərbaycan Respublikasının Qanunu

*(18 aprel 2000-ci il, № 863-IQ)*

***Əlavə və dəyişikliklər:***

*1. 30 dekabr 2003-cü il, q.m.t. 01.02.2004*
*2. 23 dekabr 2005-ci il, q.m.t. 16.02.2006*
*3. 03 mart 2006-cı il, q.m.t. 01.04.2006*
*4. 23 oktyabr 2007-ci il, q.m.t. 01.12.2007*

### *I fəsil*
### Ümumi müddəalar

**Maddə 1. Bələdiyyə üzvünün statusu haqqında qanunvericilik**

Bələdiyyə üzvünün statusu Azərbaycan Respublikasının Konstitususiyası, bu qanun və Azərbaycan Respublikasının digər qanunvericilik aktları, habelə bələdiyyənin nizamnaməsi ilə müəyyən edilir.



**Maddə 2. Bələdiyyə üzvünün səlahiyyət müddəti**

*Bələdiyyə üzvlərinin səlahiyyətləri yalnız bələdiyyənin səlahiyyət müddətində qüvvədədir. (1)*

Bələdiyyə üzvünün səlahiyyətlərinin itirilməsinin və onun səlahiyyətlərinə xitam verilməsinin əsasları "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

**Maddə 3. Bələdiyyə üzvünün vəsiqəsi**

Ərazi seçki komissiyası tərəfindən bələdiyyə üzvünə seçkilərin yekunları elan olunduqdan sonra 5 gün müddətində Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilmiş nümunədə vəsiqə verilir.

### *II fəsil*
### Bələdiyyə üzvünün hüquq və vəzifələri

**Maddə 4. Bələdiyyə üzvünün hüquqları**

Bələdiyyə üzvü bələdiyyənin fəaliyyəti ilə bağlı aşağıdakı hüquqlara malikdir:

- bələdiyyənin daimi və digər komissiyalarına üzv seçmək və seçilmək;
- bələdiyyənin və onun orqanlarının iclaslarında müzakirə üçün məsələlər təklif etmək, müzakirə olunan məsələlər barəsində çıxış etmək, təkliflər və düzəlişlər vermək, qeydlər etmək, çıxış edənlərə və ya təyin edilməsinə razılıq verilən vəzifələrə göstərilmiş namizədlərə sual vermək, arayış vermək, səsvermədə iştirak etmək;
- bələdiyyənin iclaslarında müzakirə üçün qərar layihələrini hazırlamaq;
- bələdiyyənin daimi və başqa komissiyalarının iclaslarına təqdim edilmiş məsələlərin müzakirəsində iştirak etmək və təkliflər vermək;
- bələdiyyənin fəaliyyəti ilə əlaqədar zəruri məlumat almaq;
- sorğu vermək;
- qanunvericiliyə müvafiq surətdə yerli radio və televiziyadan, mətbu nəşrlərdən istifadə etmək.

**Maddə 5. Bələdiyyə üzvünün sorğusu**

Bələdiyyə üzvü yerli məsələlərlə bağlı bələdiyyənin vəzifəli şəxslərinə, bələdiyyənin icra orqanlarına, bələdiyyə müəssisə, idarə və təşkilatlarına sorğu ilə müraciət etmək hüququna malikdir.

Bələdiyyə üzvünün sorğusuna ən geci on beş gün müddətində, məsələnin əlavə öyrənilməsi və (və ya) yoxlanması tələb edildiyi hallarda isə bir aydan gec olmayaraq cavab verilməlidir.

**Maddə 6. Bələdiyyə üzvünün bələdiyyə qərarlarının pozulması hallarının aradan qaldırılmasını tələb etmək hüququ**

Bələdiyyə üzvü bələdiyyə tərəfindən onun səlahiyyətləri daxilində və qanunvericiliyə müvafiq olaraq qəbul etdiyi qərarlarının pozulmasını aşkar etdikdə onun

ərazisində yerləşən həmin pozuntulara yol vermiş şəxslərdən onların aradan qaldırılmasını tələb edə bilər.

**Maddə 7. Bələdiyyə üzvünün bələdiyyənin və onun orqanlarının fəaliyyətində iştirakı**

Bələdiyyə üzvləri bələdiyyənin iclaslarında iştirak etməyə borcludurlar.

Bələdiyyə üzvlərinin bələdiyyə orqanlarının iclaslarında bələdiyyənin səlahiyyətlərinə aid məsələlərin müzakirəsində iştirak etmək hüququ vardır.

Bələdiyyə üzvü bir və ya bir neçə bələdiyyənin daimi və başqa komissiyanın üzvü ola bilər.

**Maddə 8. Bələdiyyə üzvünün müraciət etməsi**

Bələdiyyə üzvü müvafiq icra hakimiyyəti orqanlarına yerli əhəmiyyətli məsələlərlə bağlı müraciət edə bilər.

**Maddə 9. Bələdiyyə üzvünün seçicilərlə əlaqə saxlaması**

Bələdiyyə üzvü seçicilərlə mütəmadi olaraq əlaqə saxlamalı, görüşlər keçirməli, onların təkliflərinə, müraciətlərinə və şikayətlərinə baxmalıdır.

Bələdiyyə üzvü 6 ayda bir dəfədən az olmayaraq seçicilərinə hesabat verir.

Bələdiyyə ərazisində yerləşən bələdiyyə müəssisə, idarə və təşkilatları bələdiyyə üzvünə seçicilərlə görüşmək üçün köməklik göstərməlidirlər.

## *III fəsil*

## Bələdiyyə üzvünün fəaliyyətinin əsas təminatları və məsuliyyəti

**Maddə 10. Bələdiyyə üzvünün fəaliyyətinin dövlət təminatı**

Bələdiyyə üzvünün səlahiyyətlərini maneəsiz və səmərəli həyata keçirməsinə, onun hüquqlarının, şərəf və ləyaqətinin qorunmasına dövlət tərəfindən təminat verilir.

**Maddə 11. Bələdiyyə üzvünün əmək hüquqlarının təminatı**

Səlahiyyət müddətində bələdiyyə üzvü bələdiyyənin, bələdiyyənin iclasları arasındakı dövrdə isə bələdiyyə sədrinin qabaqcadan razılığı olmadan əmək müqaviləsi ilə işlədiyi yerdə müdiriyyətinin təşəbbüsü ilə işdən çıxarıla, yaxud intizam tənbehi qaydasında azmaaşlı işə keçirilə bilməz.

Müəssisə, idarə və təşkilat yenidən təşkil olunduqda, struktur dəyişikliyi edildiyi hallarda da bu təminat tətbiq olunur.

**Maddə 12. Bələdiyyə üzvünün fəaliyyətinin informasiya təminatı**

Bələdiyyənin sədri və müavini, bələdiyyənin icra aparatı bələdiyyə üzvlərini lazımi sənədlərlə və bələdiyyənin rəsmi nəşrləri ilə təmin edir, köməyə ehtiyacı olan məsələlərlə bağlı onlara yardım göstərir və onların yerli özünüidarə orqanlarının qərar və sərəncamları ilə tanış olmalarına şərait yaradır.



**Maddə 13. Bələdiyyə üzvünün istehsal və ya xidmət fəaliyyətinə münasibəti**

Əmək haqqını bələdiyyədən alan bələdiyyə üzvünün əsas iş yeri bələdiyyə hesab olunur. Əmək haqqı bələdiyyə tərəfindən ödənilməyən bələdiyyə üzvü öz səlahiyyətlərini həyata keçirərkən istehsal və ya xidmət, eləcə də elmi, təhsil və yaradıcılıq fəaliyyətini dayandırmır. Bələdiyyə üzvü bələdiyyənin və ya daimi komissiyalarının iclasları zamanı öz daimi iş yerindəki vəzifələrinin yerinə yetirilməsindən azad olunur. *Bələdiyyə üzvü "Azərbaycan Respublikası Milli Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 21.3-cü maddəsinə müvafiq olaraq Azərbaycan Respublikasının Milli Bankının İdarə Heyətinin üzvü ola bilməz (3). Bələdiyyə üzvü bələdiyyə qulluqçusu kimi fəaliyyət göstərə bilməz. Bələdiyyə qulluqçusu bələdiyyə üzvü seçildikdə, 3 gün müddətində öz ərizəsinə əsasən bələdiyyə qulluğundan azad edilir. (2)*

**Maddə 14. Bələdiyyə üzvünün bələdiyyədə fəaliyyəti ilə əlaqədar məsuliyyəti**

Bələdiyyə üzvü barəsində bələdiyyədə fəaliyyəti ilə əlaqədar aşağıdakı hallarda intizam tədbirləri tətbiq edilir:

- bələdiyyənin iclaslarının aparılmasına mane olduqda;
- bələdiyyənin və onun komissiyalarının iclaslarında insanın şərəf və ləyaqətinə xələl gətirən kobud, təhqiramiz sözlərə və hərəkətlərə yol verdikdə, başqalarını bu cür hərəkətlər etməyə çağırdıqda;
- bələdiyyənin nizamnaməsində göstərilən müddətlərdə bələdiyyənin və onun daimi və başqa komissiyalarının iclaslarında üzrsüz səbəbə görə iştirak etmədikdə;
- *Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda). (4)*

**Maddə 15. Bələdiyyə üzvü barəsində tətbiq edilən intizam tədbirləri**

Bələdiyyə üzvü barəsində aşağıda göstərilən intizam tədbirlərinin tətbiq edilməsi qaydası bələdiyyənin nizamnaməsi ilə tənzimlənir: xəbərdarlıq, sözkəsmə, iclas zalından çıxarma, töhmət, bələdiyyə üzvünün səlahiyyətlərinə xitam verilməsi.

## *IV fəsil*

## Yekun müddəalar

**Maddə 16. Qanunun qüvvəyə minməsi**

Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

***Dərci: 27 oktyabr 2000-ci il***

## "Bələdiyyə üzvünün statusu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*(21 oktyabr 2000-ci il, № 405)*

"Bələdiyyə üzvünün statusu haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının "Bələdiyyə üzvünün statusu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

- öz səlahiyyətləri daxilində "Bələdiyyə üzvünün statusu haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

"Bələdiyyə üzvünün statusu haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsində müəyyən edilmiş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini rayon (şəhər, şəhərdə rayon) icra hakimiyyəti orqanları həyata keçirirlər.

***Dərci: 27 oktyabr 2000-ci il***

## "Azərbaycan Respublikasında yerli özünüidarəetmə üzrə əlaqələndirmə şuraları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

*(18 aprel 2000-ci il, № 864-IQ)*

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. "Azərbaycan Respublikasında yerli özünüidarəetmə üzrə Əlaqələndirmə Şuraları haqqında" Əsasnamə *(əlavə olunur)* təsdiq edilsin.
2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.



*"Azərbaycan Respublikasında yerli özünüidarəetmə üzrə əlaqələndirmə şuraları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə 2000-ci il 18 aprel tarixli 864-IQ saylı Azərbaycan Respublikasının qanunu ilə* ***təsdiq edilmişdir***

## Azərbaycan Respublikasında yerli özünüidarəetmə üzrə əlaqələndirmə şuraları haqqında ƏSASNAMƏ

### I. Ümumi müddəalar

1. Yerli özünüidarəetmə üzrə əlaqələndirmə şuraları (bundan sonra şuralar) Azərbaycan Respublikasında bələdiyyələrin səlahiyyətlərinə aid olan yerli əhəmiyyətli məsələlərin müzakirə edilməsi, həmin məsələlərlə əlaqədar ortaya çıxan problemlərin birgə həlli yollarının müəyyən edilməsi, səmərəli iş təcrübəsinin öyrənilib ümumiləşdirilməsi və yayılması, dövlət orqanları ilə bələdiyyələrin qarşılıqlı fəaliyyətinin uzlaşdırılması, yerli özünüidarə sisteminin inkişafı üzrə təkliflərin hazırlanması məqsədilə yaradılan əlaqələndirmə mərkəzləridir.

2. Yerli özünüidarəetmə üzrə əlaqələndirmə şuralarını təşkil etmək üçün müxtəlif əraziləri təmsil edən azı 3 bələdiyyə təşəbbüs qrupu yaradır. Təşəbbüs qrupu əlaqələndirmə şurasını yaratmaq üçün təsis konfransının hazırlanıb keçirilməsini təşkil edir.

Təşəbbüs qrupunun işində iştirak etmək könüllüdür.

3. Bir bələdiyyə eyni vaxtda rayon (şəhər), regional və respublika üzrə əlaqələndirmə şurasının üzvü ola bilər.

Bələdiyyələrin şuralarda iştirakı könüllüdür.

### II. Şuraların tərkibi

4. Bələdiyyələri üzvləri olduqları şuralarda bələdiyyələrin nümayəndələri – bələdiyyə üzvləri təmsil edir.

Bələdiyyələrin nümayəndələri şuraların tərkibinə daxil olan bələdiyyələr tərəfindən müəyyən edilir. Hər bələdiyyə şuraların tərkibinə bir nümayəndə – bələdiyyə üzvü təqdim edir. Şuralarda təmsil olunmuş bələdiyyələrin nümayəndələri vaxtaşırı dəyişdirilə bilər. Bələdiyyələrin şuradakı nümayəndələrinin dəyişdirilməsi qaydaları hər bir bələdiyyə tərəfindən müstəqil müəyyənləşdirilir.

Şuraların say tərkibi şuralarda təmsil olunan bələdiyyələr tərəfindən müəyyən edilir.

5. Şuraların tərkibi şuranın sədrindən, onun müavinindən və şuranın üzvlərindən ibarətdir.

6. Şuranın sədri, müavini və katibi şura üzvü olan bələdiyyələrin nümayəndələri sırasından seçilirlər.

Şura sədrinin dəvəti işə şuranın işində şurada təmsil olunmamış bələdiyyələrin, müvafiq dövlət orqanlarının, elm və təhsil müəssisələrinin, habelə ictimai birliklərin yerli özünüidarəetmə məsələləri ilə məşğul olan nümayəndələri iştirak edə bilərlər.

## III. Şuraların əsas vəzifələri

7. Şuraların əsas vəzifələri aşağıdakılardan ibarətdir:

- bələdiyyələrin müraciəti ilə bələdiyyələrin müvafiq yerli inkişaf proqramlarını hazırlaması;
- bələdiyyələrə onların səlahiyyətlərinə aid edilən müvafiq yerli məsələlərin həllində qarşılıqlı əlaqələrinin və əməkdaşlığının inkişafına köməklik göstərilməsi;
-bələdiyyələrin xarici ölkələrdə fəaliyyət göstərən bələdiyyələrlə əlaqələrinin yaradılmasına köməklik göstərilməsi;
- öz iclaslarında bələdiyyələrin nümayəndələrinin məlumatlarının dinlənilməsi;
- yerli özünüidarəetmə məsələlərinə dair qanunvericilik aktlarının və dövlət proqramlarının layihələrinin müzakirə edilməsi, onlara dair təkliflərin hazırlanması və müvafiq dövlət orqanlarına təqdim edilməsi;
- yerli özünüidarəetmə sahəsində beynəlxalq və xarici təşkilatlar, habelə yerli özünüidarəetmə məsələləri ilə məşğul olan ictimai birliklərlə qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi;
- yerli özünüidarəetmə sahəsində dövlət siyasətinin məqsədlərinin və vəzifələrinin təbliğ və izah edilməsi;
-yerli özünüidarətəmə məsələləri üzrə qabaqcıl təcrübənin ümumiləşdirilməsi və yayılması;
- bələdiyyələrin qarşılıqlı əməkdaşlığının inkişafına köməklik edilməsi;

8. Şuraların onların üzərlərinə qoyulan vəzifələrin həyata keçirilməsi üçün şura üzvü olan bələdiyyələrdən məlumat almaq, onların nümayəndələrini şuranın iclaslarında dinləmək, tövsiyə xarakterli təkliflər hazırlamaq hüququ vardır.

Şuraların iclaslarında baxılması nəzərdə tutulan məsələlərin əvvəlcədən öyrənilməsi, onlardan hər birinə dair sənədlərin toplanması və müvafiq təkliflərin hazırlanması üçün şuralar daimi və müvəqqəti işçi qrupları yarada bilərlər. Zəruri hallarda işçi qruplarının işinə müqavilə əsasında alim və mütəxəssislər cəlb edilə bilər.

## IV. Şuraların işinin təşkili

9. Şuranın sədri:

- şuranın iclaslarına sədrlik edir;
- şuranın bələdiyyələrlə qarşılıqlı əlaqələrini təmin edir;
- şuranın maddi-texniki ehtiyaclarının ödənilməsini təşkil edir;



- şuranın iş planlarının hazırlanmasını təşkil edir və şuranın iclasında təsdiq olunmaq üçün təqdim edir, onların icrasını təmin edir;
- şuranı təmsil edir.

10. Şura sədrinin müavinləri:

- şura sədri olmadıqda onu əvəz edir;
- şuranın sədrinin apardığı vəzifə bölgüsünə əsasən digər səlahiyyətləri həyata keçirirlər.

11. Şuranın katibi:

- şuranın iş planının hazırlanmasını təmin edir, onun iclaslarının gündəliyini tərtib edir, şuranın iclaslarına tövsiyələrin, müraciətlərin layihələrinin hazırlanmasını təşkil edir;
- şura üzvlərinə şuranın iclaslarının keçiriləcəyi yer, vaxt və gündəlik haqqında məlumat verir, onları lazımi arayış-informasiya xarakterli sənədlərlə təmin edir;
- şura iclaslarının prtokollarını tərtib edir;
- şuranın tövsiyələrinin, müraciətlərinin bələdiyyələrə çatdırılmasını təşkil edir.

12. Şura üzvləri olan bələdiyyələrin nümayəndələri:

- şuranın iş planını təsdiq edirlər;
- şuranın iş planı barədə, onun iclaslarının gündəliyi və məsələlərin müzakirə olunması qaydası barədə təklif verirlər;
- şuranın iclaslarına sənədlərin toplanmasında və müvafiq tövsiyə və müraciətlərin layihələrinin hazırlanmasında iştirak edirlər;
- şuranın qərarı ilə dövlət orqanları və bələdiyyələrlə, yerli özünüidarəetmə sahəsində beynəlxalq və xarici təşkilatlarla, digər qurumlar və əlaqədar orqanlarla qarşılıqlı fəaliyyətdə şuranı təmsil edirlər.

## V. Şuraların iş qaydası

13. Şuraların iclasları 3 ayda bir dəfədən az olmayaraq keçirilir. Şura sədrinin, eləcə də şura üzvləri olan bələdiyyələrin 25 faizinin təklifinə müvafiq olaraq şuranın növbədənkənar iclasları keçirilə bilər.

Şuraların iclasları şura üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətli hesab olunur.

Şuraların tövsiyələri, müraciətləri və şuranın fəaliyyətinin təşkili ilə bağlı qərarları şura iclaslarında iştirak edən şura üzvləri olan bələdiyyələrin nümayəndələrinin sadə səs çoxluğu ilə qəbul olunur.

Şuraların iclaslarına dövlət orqanlarının, müvafiq idarə, müəssisə və təşkilatların nümayəndələri, habelə mütəxəssislər və digər dəvət edilmiş şəxslər təkliflərlə çıxış edə bilərlər.

14. Şuraların iclasları onların sədrlərinin və katiblərinin imzaladıqları protokollarla rəsmiləşdirilir.

15. Şuraların üzvləri olan bələdiyyələrin nümayəndələri onların işində ictimai əsaslarla iştirak edirlər.

16. Şuraların maddi-texniki təchizatı şuranın üzvü olan bələdiyyələr tərəfindən şuranın hesabına könüllü surətdə ayrılan vəsait hesabına təmin edilir. Şuraların maddi-texniki təchizatında bələdiyyə müəssisələri, şirkətlər, fiziki şəxslər iştirak edə bilərlər.

17. Şuraların fəaliyyətinin elmi-metodik təminatını Azərbaycan Respublikası Milli Məclisinin Aparatı həyata keçirir.

***Dərci: 27 oktyabr 2000-ci il***

# "Azərbaycan Respublikasında yerli özünüidarəetmə üzrə əlaqələndirmə şuraları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

*(21 oktyabr 2000-ci il, № 555)*

"Azərbaycan Respublikasında yerli özünüidarəetmə üzrə əlaqələndirmə şuraları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

- Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının "Azərbaycan Respublikasında yerli özünüidarəetmə üzrə əlaqələndirmə şuraları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması haqqında təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

- Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

- öz səlahiyyətləri daxilində "Azərbaycan Respublikasında yerli özünüidarəetmə üzrə əlaqələndirmə şuraları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***Dərci: 27 oktyabr 2000-ci il***



# Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında Azərbaycan Respublikasının Qanunu

*(27 dekabr 2001-ci il, №244-IIQ)*

***Əlavə və dəyişikliklər:***
*1. 2 iyun 2008-ci il, 28.06.2008*

**Maddə 1. Qanunun təyinatı**

Bu qanun Azərbaycan Respublikasında yerli (bələdiyyə) vergilərin və ödənişlərin ödənilməsi ilə bağlı yaranan iqtisadi və hüquqi münasibətləri tənzimləyir.

**Maddə 2. Yerli (bələdiyyə) vergilər və ödənişlər üzrə qanunvericilik**

2.1. Yerli (bələdiyyə) vergi və ödənişlərə (bundan sonra yerli vergilər və ödənişlər) dair qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının Vergi Məcəlləsindən, "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının qanunlarından, bu qanundan, habelə bu qanunlara müvafiq qəbul edilmiş digər qanunvericilik aktlarından ibarətdir.

2.2. Bu qanunda istifadə olunan anlayışlar Azərbaycan Respublikasının Vergi Məcəlləsində qəbul edilmiş mənada tətbiq edilir.

**Maddə 3. Yerli vergilər və ödənişlər**

3.1. Yerli vergilər Azərbaycan Respublikasının vergi sisteminin tərkib hissəsidir.

3.2. Yerli vergilər bu qanuna və Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq bələdiyyələrə ödənilən vergilərdir.

3.3. Bələdiyyələr tərəfindən tətbiq edilən ödənişlər bu qanunla müəyyənləşdirilən ödənişlərdən, habelə yerli rəy sorğularının nəticələri əsasında həyata keçirilən məqsədli layihələrin maliyyələşdirilməsi üçün hüquqi və fiziki şəxslərin ödədikləri könüllü birdəfəlik ödənişlərdən ibarətdir.

3.4. Bu ödənişlər hüquqi və fiziki şəxslər tərəfindən qanunvericiliklə nəzərdə tutulmuş vergi öhdəlikləri yerinə yetirildikdən sonra onların sərəncamında qalan mənfəət və gəlirlər hesabına ödənilir.

3.5. Bu ödənişlərdən yalnız təyinatı üzrə istifadə olunmalıdır.

**Maddə 4. Yerli vergilərin müəyyən edilməsinin əsasları**

4.0. Yerli vergilərin müəyyən edilməsinin əsasları aşağıdakılardır:

4.0.1. vergitutma obyekti;

4.0.2. vergitutma bazası;

4.0.3. vergitutma dövrü;

4.0.4. vergi dərəcəsi;

4.0.5. verginin hesablanması qaydası;

4.0.6. verginin ödənilməsi qaydası və müddəti.

**Maddə 5. Vergitutma obyekti və vergi ödəyicisi**

5.1. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəəti, yerli əhəmiyyətli tikinti mateirallan, fiziki şəxslərin əmlakı (tikililər və onların hissələri, avtomobil və özüyeriyən təkərli texnika, su və hava nəqliyyatı vasitələri), habelə fiziki şəxslərin istifadəsində və (yaxud) mülkiyyətində olan torpaq sahələri müvafiq bələdiyyə vergilərinin vergitutma obyektidir.

5.2. Vergi ödəyicisi – bu qanuna uyğun olaraq müəyyən edilmiş vergitutma obyektlərindən vergi ödəyən fiziki və hüquqi şəxslərdir.

5.3. Tikililər və onların hissələrinə görə fiziki şəxslərdən əmlak vergisi hesablamaq məqsədi ilə bələdiyyələr 3-5 ildə bir dəfədən çox olmamaq şərti ilə, ərazilərində yerləşən müvafiq əmlakın vergiqoyma məqsədləri üçün qiymətləndirilməsi barədə qərar qəbul edirlər. Əmlakın qiymətləndirilməsi üzrə əməliyyatlar bələdiyyələrin vəsaiti hesabına maliyyələşdirilir. Bu dəyər müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunan qaydalar əsasında müəyyənləşdirilir.

5.4. Əmlakın dəyəri fiziki şəxsin təşəbbüsü ilə və onun hesabına müstəqil peşəkar qiymətləndiricilər tərəfindən hesablana bilər.

5.5. Vergi – agenti vergi qanunvericiliyinə uyğun olaraq vergini hesablamağa, onu vergi ödəyicisindən tutmağa və təyinatı üzrə yerli büdcəyə köçürməyə borclu olan şəxsdir.

5.6. Vergi ödəyicisinin və vergi agentinin hüquq və vəzifələri vergi qanunvericiliyi ilə tənzimlənir.

**Maddə 6. Vergitutmanın formaları**

6.0. Vergilər aşağıdakı formalarda tutulur:

6.0.1. bilavasitə mənbədən (verginin gəlir və ya mənfəət əldə edilməsinədək tutulması);

6.0.2. Bəyannamə üzrə (verginin gəlir və ya mənfəət əldə edilməsindən sonra tutulması);

6.0.3. bildiriş üzrə (vergitutma obyektinin dəyəri və sahəsi əsasında, bələdiyyələrin vergi xidməti orqanlarının hesabladığı məbləğ üçün təqdim etdiyi tədiyyə bildirişi üzrə vergi ödəyicisi tərəfindən verginin ödənilməsi).

**Maddə 7. Bələdiyyələrin vergi xidməti orqanları, onların hüquq və vəzifələri**

7.1. Qanunvericiliklə müəyyən edilmiş qaydada vergilərin və ödənişlərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət bələdiyyələrin vergi xidməti orqanları tərəfindən həyata keçirilir.

7.2. Azərbaycan Respublikasında yerli vergilərin və ödənişlərin ödənilməsi və yığılması qaydaları, vergi ödəyicilərinin və bələdiyyələrin vergi xidməti orqanlarının hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət, bələdiyyələrin vergi xidməti orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydaları qanunla təsdiq olunan müvafiq əsasnamə ilə müəyyən edilir.



**Maddə 8. Yerli vergilərin tərkibi**

8.0. Yerli vergilərə aşağıdakılar aiddir:

8.0.1. fiziki şəxslərdən torpaq vergisi;

8.0.2. fiziki şəxslərdən əmlak vergisi;

8.0.3. yerli əhəmiyyətli tikinti materialları (kərpic-kirəmit gilləri, tikinti qumları, yüksək möhkəmliyə malik olan çınqıl xammalı) üzrə mədən vergisi;

8.0.4. bələdiyyə mülkiyyətində olan hüquqi şəxslərin mənfəət vergisi.

**Maddə 9. Yerli ödənişlərin tərkibi**

9.1. Yerli ödənişlərə aşağıdaklar aiddir:

9.1.1. bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə küçə (divar) reklamının yerləşdirilməsi və yayımı üçün ödəniş;

9.1.2. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq bələdiyyə mülkiyyətinin özgəninkiləşdirilməsindən, icarəyə və istifadəyə verilməsindən daxil olan ödəniş;

9.1.3. bələdiyyələr tərəfindən xüsusi ayrılmış torpaq sahələrində stasionar və ya səyyar ticarət, ictimai iaşə və digər xidmətlərə görə ödəniş;

9.1.4. bələdiyyə ərazisində mehmanxana, sanatoriya-kurort və turizm xidmətləri göstərən şəxslərdən alınan ödəniş. Bu ödəniş hər bir şəxs üçün sutkada *1,1 manatdan (1)* çox olmamaqla müəyyən edilir;

9.1.5. bələdiyyə ərazilərində hüquqi və fiziki şəxslərə məxsus olan ixtisaslaşdırılmış avtomobil dayanacaqları və ya bələdiyyələrin qərarına əsasən müəyyən edilmiş yerlərdə bütün növ nəqliyyat vasitələrinin daimi və ya müvəqqəti dayanacaqları üçün ödəniş. Bu ödəniş hər bir nəqliyyat vasitəsi üçün sutkada *0,1 manatdan (1)* çox olmamaqla müəyyən edilir.

9.2. Qanunvericilikdə nəzərdə tutulmuş qaydada bələdiyyələr yerli əhəmiyyətli proqramların maliyyələşdirilməsi üçün yerli rəy sorğusunun nəticəsinə əsasən hüquqi və fiziki şəxslərin sərəncamında qalan mənfəət və gəlirlər hesabına ödənilən könüllü birdəfəlik ödənişlər tətbiq edə bilər. Bu ödənişlərdən yalnız təyinatı üzrə istifadə olunmalıdır.

**Maddə 10. Yerli vergilərin dərəcələri və vergi üzrə güzəştlər**

10.1. Yerli vergilərin dərəcələri Azərbaycan Respublikasının vergi qanunvericiliyində təsbit edilmiş hədlər daxilində müəyyən edilir.

10.2. Bələdiyyələr vergi qanunvericiliyinə uyğun olaraq vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını vergidən tam və ya qismən azad etmək vergi dərəcələrinin aşağı salınması barədə qərar qəbul edə bilərlər.

**Maddə 11. Yerli vergilərin və ödənişlərin hesablanması və ödənilməsi**

11.1. Bu Qanunda göstərilən yerli vergilərin və ödənişlərin hesablanması və ödənilməsi müvafiq qanunvericiliklə müəyyən edilir.

11.2. Bu Qanunun 9.1.4-cü maddəsində göstərilən ödənişlər qeydiyyata düşmüş şəxslərdən tutularaq, növbəti ayın 5-dək müvafiq bələdiyyələrə ödənilir.

11.3. Bu Qanunun 9.1.5-ci maddəsində göstərilən ödənişlər hər bir ödəyicidən tutularaq, bələdiyyələr tərəfindən müəyyən edilmiş müddətlərdə və qaydalarla bələdiyyələrə ödənilir.

**Maddə 12. Yerli vergi və ödənişlərin və istifadəsinə nəzarət**

12.1. Yerli vergilərin və ödənişlərin yığılmasına, yerli büdcələrə köçürülməsinə və istifadə olunmasına nəzarət bələdiyyələrin müvafiq komissiyaları, habelə seçkili orqanlarda, bələdiyyə qulluğunda işləməyən, yerli məhəllə komitələrinin və vətəndaşların yığıncaqlarında təklif olunan, bələdiyyə iclasında təsdiq olunan nəzarət komissiyaları tərəfindən həyata keçirilir.

12.2. Zəruri hallarda yerli vergi və ödənişlərin yığılmasına və onlardan istifadə edilməsinə nəzarət məqsədi ilə bələdiyyələrin qərarına əsasən müvafiq yoxlamaların aparılması üçün müstəqil auditorlar cəlb oluna bilər.

12.3. Bələdiyyələrin vergi və ödənişlərin yığılması və istifadəsi sahəsində fəaliyyəti tam aşkarlıq şəraitində həyata keçirilməlidir.

Bu məqsədlə bələdiyyələr və onların müvafiq nəzarət komissiyaları bələdiyyə ərazisində yaşayan sakinlər qarşısında mütəmadi olaraq hesabatlar verir, bülletenlər buraxır, illik hesabatları bələdiyyə binasının qarşısında xüsusi lövhələrdə yerləşdirirlər.

**Maddə 13. Yerli vergi və ödənişlərə dair qanunvericiliyin pozulmasına görə məsuliyyət**

13.1. Yerli vergi və ödənişlərin ödəyiciləri, vergi agentləri, habelə bələdiyyələrin vergi xidməti orqanlarının vəzifəli şəxsləri vergi qanunvericiliyinin pozulmasına görə Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

13.2. Bu qanunla müəyyənləşdirilən yerli vergi və ödənişlərin toplanması və büdcəyə köçürülməsi sahəsində bələdiyyələrin səlahiyyətlərinin icra hakimiyyəti orqanları tərəfindən məhdudlaşdırılmasına yol verilmir.

**Maddə 14. Qanunun qüvvəyə minməsi**

Bu qanun dərc olunduğu gündən qüvvəyə minir.

***Dərci: 7 aprel 2002-ci il***



## "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*(4 aprel 2002-ci il, № 683)*

"Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunu tətbiq etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti altı ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- həmin qanunun 7.2-ci maddəsində nəzərdə tutulmuş əsasnamənin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- öz səlahiyyətləri daxilində həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

- "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikası Qanununun 5.3-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

- yerli büdcələrə Azərbaycan Respublikasının dövlət büdcəsindən verilən dotasiya və subvensiyaları proqnozlaşdırmaq üçün bələdiyyələr yerli vergilərin və ödənişlərin yığılması barədə hər üç ayda bir dəfə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə məlumat verirlər;

- bələdiyyələrə yerli vergilərin və ödənişlərin düzgün hesablanmasında, tam və vaxtında ödənilməsində, habelə vergi qanunvericiliyinə tam və dəqiq riayət edilməsində metodik rəhbərliyi Azərbaycan Respublikasının Vergilər Nazirliyi həyata keçirir.

***Dərci: 7 aprel 2002-ci il***

## Bələdiyyələrin məhəllə komitələri haqqında Nümunəvi Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

*(8 may 2001-ci il, № 129-IIQ)*

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Bələdiyyələrin məhəllə komitələri haqqında Nümunəvi Əsasnamə təsdiq edilsin*(əlavə olunur)*.

II. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının 2001-ci il*
*8 may tarixli, 129-IIQ saylı qanunu ilə*
***təsdiq edilmişdir***

# Bələdiyyələrin məhəllə komitələri haqqında Nümunəvi ƏSASNAMƏ

1. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 31-ci maddəsinə müvafiq olaraq bələdiyyələrin məhəllə komitələri (bundan sonra "məhəllə komitələri") bələdiyyələrin səlahiyyətlərinə aid məsələlərin həllində onlara kömək məqsədilə vətəndaşların yaşayış yeri üzrə öz təşəbbüsü ilə yaratdıqları könüllü birliklərdir.

2. Məhəllə komitəsi ərazi prinsipi üzrə yaradılır. Məhəllə komitəsinin fəaliyyət göstərdiyi ərazi ayrıca bir və ya bir neçə evin (məhəllənin) hüdudları ilə müəyyən edilir.

3. Məhəllə komitəsi, həmin komitənin fəaliyyət göstərdiyi ərazidə yaşayan əhalinin yığıncağında 5-11 üzvdən ibarət tərkibdə açıq səsvermə yolu ilə iki il müddətinə seçilir. Yığıncaq komitənin fəaliyyət göstərdiyi ərazidə yaşayan və səsvermə hüququ olan vətəndaşların azı 15 faizi iştirak etdikdə səlahiyyətlidir. Həmin yığıncaqda məhəllə komitəsinin sədri, sədr müavini və katibi seçilir.

Məhəllə komitəsinin tərkibinə həmin ərazidə yaşayan, yaşı 18-dən aşağı olmayan vətəndaşlar seçilirlər. Vətəndaşların yığıncağında iştirak edənlərin səslərinin yarısından çoxunu toplamış şəxslər bu komitənin tərkibinə seçilmiş hesab olunurlar.

Məhəllə komitəsi vətəndaşların yığıncağının qərarı ilə vaxtından əvvəl tamamilə və ya qismən yenidən seçilə bilər. Vətəndaşların yığıncaqları məhəllə komitəsinin fəaliyyət göstərdiyi ərazidə yaşayan səsvermə hüququ olan şəxslərin azı 10 faizinin və ya məhəllə komitəsi üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırılır. Komitənin yeni üzvlərinin seçilməsi bu maddədə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

4. Məhəllə komitəsi görüləcək tədbirlərin siyahısını və növbəliliyini müəyyən edir və görülmüş işlərin uçotunu aparır.

Məhəllə komitəsi, lazım olan hallarda, lakin iki ayda bir dəfədən az olmamaq şərti ilə çağırılır və üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətli hesab edilir.

Məhəllə komitəsinin iclasları açıq keçirilir.

5. Məhəllə komitəsinin qərarları açıq səsvermə vasitəsilə və adi səs çoxluğu ilə qəbul olunur.

6. Məhəllə komitəsi öz fəaliyyəti barədə altı ayda bir dəfə vətəndaşların yığıncağında hesabat verir. Yığıncağın keçirilməsi haqqında müvafiq məhəllə komitəsinin fəaliyyət göstərdiyi ərazidə yaşayan şəxslərə bir həftə qabaq məlumat verilməlidir.



7. Məhəllə komitələri aşağıdakı əsas səlahiyyətləri həyata keçirir:

- yerli əhəmiyyətli məsələlər barəsində bələdiyyələr qarşısında vəsatət qaldırmaq;
- yerli əhəmiyyətli məsələlərlə bağlı vətəndaşların yığıncaqlarını keçirmək;
- yerli əhəmiyyətli məsələlərə dair bələdiyyə aktları yaratmaq təşəbbüsü göstərmək və həmin aktların layihələrini əhalinin iştirakı ilə açıq iclaslarda müzakirə etmək;
- müvafiq bələdiyyə torpaqlarından istifadəyə dair rəy və təkliflər vermək;
- yaşayış məntəqələrinin abadlaşdırılması, yaşıllaşdırılması, sanitariya vəziyyətinin yaxşılaşdırılması, uşaq və idman meydançalarının, avtomobil yollarının, küçələrin, səkilərin, digər obyektlərin tikintisi, yenidən qurulması, təmiri və saxlanması işində əhalinin iştirakını təşkil etmək;
- təbiətin, tarix və mədəniyyət abidələrinin mühafizəsi haqqında qanunvericiliyə riayət olunmasına kömək etmək;
- məktəbyaşlı uşaqların təhsilə cəlb edilməsində tədris müəssisələrinə kömək etmək;
- uşaq və gənclərin istirahəti, idmanla məşğul olması üçün şərait yaradılmasına kömək etmək;
- fəaliyyət göstərdiyi ərazidə yaşayan imkansızlara, xəstələrə və ahıl vətəndaşlara yardım göstərmək;
- yerli əhəmiyyətli məsələlərin həllində əhalinin təşəbbüskarlığının və özünüidarəetmə təcrübəsinin inkişafına kömək etmək.

Məhəllə komitələri Azərbaycan Respublikasının qanunvericiliyinə və müvafiq bələdiyyənin nizamnaməsinə zidd olmayan digər səlahiyyətləri də həyata keçirə bilər.

8. Məhəllə komitələri öz səlahiyyətlərini könüllü ianələr və Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan digər mənbələr hesabına həyata keçirir.

9. Bələdiyyələr məhəllə komitələrinin verdiyi rəy, təklif və ya vəsatətlərə bir ay ərzində cavab verməlidirlər.

Hər hansı məsələyə dair məhəllə komitələrinin rəyi həmin məsələlərin həlli zamanı bələdiyyələr tərəfindən nəzərə alınır.

10. Bələdiyyələrlə məhəllə komitələrinin fəaliyyətinin əlaqələndirilməsi məqsədi ilə komitələr bələdiyyələrdə siyahıya alınır. Siyahıyaalınma vətəndaşların yığıncağının protokolu əsasında həyata keçirilir.

***Dərci: 14 iyun 2001-ci il***

## "Bələdiyyələrin məhəllə komitələri haqqında Nümunəvi Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

*(11 iyun 2001-ci il, № 738)*

"Bələdiyyələrin məhəllə komitələri haqqında Nümunəvi Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsi məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının "Bələdiyyələrin məhəllə komitələri haqqında Nümunəvi Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası qanununa uyğunlaşdırılması barədə təkliflərin Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- Nazirlər Kabinetinin və müvafiq icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

***Dərci: 14 iyun 2001-ci il***

## Bələdiyyələrin su təsərrüfatı haqqında Azərbaycan Respublikasının Qanunu

*(29 iyun 2001-ci il, № 159-IIQ)*

***Əlavə və dəyişikliklər:***
*1. 4 mart 2005-ci il, q.m.t. 01.05.2005*
*2. 9 oktyabr 2007-ci il, q.m.t. 02.11.2007*
*3. 2 iyun 2008-ci il, q.m.t. 24.06.2008*

***Bu qanun Azərbaycan Respublikasında bələdiyyələrin ərazilərində yerləşən su təsərrüfatı obyektlərinin istifadəsi və onların mühafizəsi ilə əlaqədar bələdiyyələrlə müvafiq icra hakimiyyəti orqanları, hüquqi və fiziki şəxslər arasında münasibətlərin hüquqi əsaslarını müəyyən edir.***

### *I fəsil*
### Ümumi müddəalar

**Maddi 1. Əsas anlayışlar**

1.0. Bu qanunda istifadə olunan əsas anlayışlar aşağıdakılardır:

1.0.1. **bələdiyyələrin su təsərrüfatı** - bələdiyyə torpaqlarında yerləşən yerli əhəmiyyətli yeraltı və yerüstü suların tənzimlənməsi, istifadəsi, mühafizəsi, habelə suların vurduğu zərərin qarşısının alınması ilə əlaqədar tədbirlər;



1.0.2. **bələdiyyələrin su təsərrüfatı obyekti** - bələdiyyə torpaqlarında yerləşən dövlət mülkiyyətində və xüsusi mülkiyyətdə, *habelə Sudan İstifadəedənlər Birliyinin istifadəsində (1)* olmayan su ehtiyatlarının istifadəsi, bərpası və mühafizəsi ilə əlaqədar yaradılmış sistemlər və qurğular;

1.0.3. **su obyekti** - relyef formasına uyğun olaraq yerin üstündə və ya yerin təkində suların toplandığı sərhədləri, ölçüləri və xüsusi su rejimi əlamətləri olan təbii formalaşmış landşaft, yaxud geoloji struktur;

1.0.4. **yerli əhəmiyyətli su mənbəyi** - bələdiyyə torpaqlarında yerləşən və yerli ehtiyacları ödəmək üçün istifadə olunan su obyektləri;

1.0.5. **su obyektinin istifadəçisi** - su obyektlərindən istifadə hüququ verilmiş hüquqi və ya fiziki şəxs;

1.0.6. **su istehlakçısı** - öz ehtiyaclarını təmin etmək üçün müəyyən olunmuş qaydada su obyekti istifadəçilərindən su alan hüquqi və ya fiziki şəxs;

1.0.7. **tullantı sular** - istehsal, sosial və mülki obyektlərdə istifadə nəticəsində çirklənmiş sular;

1.0.8. **drenaj suları** - drenaj qurğuları vasitəsi ilə kənara axıdılan sular;

1.0.9. **su obyektlərinin mühafizəsi** - su obyektlərinin qorunması və bərpasına yönəldilmiş fəaliyyət;

1.0.10. **su obyektlərinin çirklənməsi** - suların keyfiyyətini pisləşdirən, su obyektlərinin səthinə, dibinə və ətrafına mənfi təsir edən zərərli maddələrin tökülməsi və ya axıdılması.

**Maddə 2. Bələdiyyələrin su təsərrüfatı haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

2.1. Bələdiyyələrin su təsərrüfatı haqqında Azərbaycan Respublikasının qanunvericiliyi bu qanundan, Azərbaycan Respublikasının Su Məcəlləsindən, "Yerin təki haqqında", "Meliorasiya və irriqasiya haqqında", "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikası Qanunlarından və onlara uyğun qəbul edilmiş digər normativ hüquqi aktlardan ibarətdir.

2.2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə bu qanunda nəzərdə tutulmuş müddəalardan fərqli müddəalar müəyyən edildikdə həmin beynəlxalq müqavilələrin müddəaları tətbiq edilir.

### *II fəsil*
### Bələdiyyələrin su təsərrüfatı obyektləri və subyektləri

**Maddə 3. Bələdiyyə mülkiyyətində olan su təsərrüfatı obyektləri**

3.1. Bələdiyyə torpaqlarında yerləşən dövlət mülkiyyətində olan yerli əhəmiyyətli su təsərrüfatı obyektləri Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada bələdiyyə mülkiyyətinə verilir.

3.2. Su təsərrüfatı obyektləri üzərində bələdiyyə mülkiyyəti aşağıdakı şərtlərlə yaradıla bilər:

3.2.1. qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət mülkiyyətində olan su təsərrüfatı obyektlərini bələdiyyə mülkiyyətinə verməklə;

3.2.2. bələdiyyələr tərəfindən yeni su təsərrüfatı obyektləri yaratmaqla;

3.2.3. hüquqi və fiziki şəxslərin mülkiyyətində olan su təsərrüfatı obyektlərini əqdlər əsasında bələdiyyə mülkiyyətinə almaqla;

3.2.4. qanunvericilikdə nəzərdə tutulmuş digər şərtlərlə.

**Maddə 4. Bələdiyyələrin su münasibətlərində obyektləri və subyektləri**

4.1. Bələdiyyələrin su münasibətlərinin obyektinə bələdiyyə torpaqlarında yerləşən dövlət mülkiyyətində və xüsusi mülkiyyətdə, *habelə Sudan İstifadəedənlər Birliyinin istifadəsində (1)* olmayan yerli əhəmiyyətli su obyektləri və su fondunun torpaqları daxildir.

4.2. Bələdiyyələrin su münasibətlərinin subyektləri su obyektlərinin istifadəçiləri və su istehlakçılarıdır. Bələdiyyələr su münasibətlərində onların statusunu müəyyən edən qanunvericilik aktları ilə verilən səlahiyyətlər daxilində iştirak edirlər.

**Maddə 5. Bələdiyyələrin ərazisində yerləşən, onların idarəçiliyinə və istifadəsinə verilən dövlət su təsərrüfatı obyektləri**

Bələdiyyələrin ərazisində yerləşən dövlət mülkiyyətində olan su təsərrüfatı obyektləri, yaşayış məntəqələrinin su təchizatı sistemləri, suvarma şəbəkələri, yerli əhəmiyyətli digər dövlət su təsərrüfatı sistemləri və qurğuları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən qaydalarla və şərtlərlə bələdiyyələrin idarəçiliyinə və istifadəsinə verilə bilər.

## *III fəsil*

## Bələdiyyələrin su təsərrüfatının təşkili və idarə olunması

**Maddə 6. Bələdiyyələrin su təsərrüfatının strukturu**

6.1. Azərbaycan Respublikasının mülki, su, torpaq, yerin təki haqqında və digər qanunvericiliyi ilə tənzimlənən hallarda bələdiyyələr öz əraziləri daxilində su təsərrüfatını yaradırlar.

6.2. Bələdiyyələrin su təsərrüfatının strukturuna aşağıdakılar aid edilir:

6.2.1. bələdiyyələrin su təsərrüfatı sistemləri və qurğuları;

6.2.2. bələdiyyə torpaqlarında yerləşən dövlət mülkiyyətində və xüsusi mülkiyyətdə, *habelə Sudan İstifadəedənlər Birliyinin istifadəsində (1)* olmayan bulaqlar, quyular, kəhrizlər və yerli əhəmiyyətli digər su obyektləri.

**Maddə 7. Bələdiyyələrin su təsərrüfatının idarə edilməsi**

7.1. Bələdiyyələrin su təsərrüfatı obyektlərinin idarə olunması bələdiyyələrin özləri və ya onların yaratdıqları su təsərrüfatı müəssisələri tərəfindən həyata keçirilir.



7.2. Bələdiyyələr tərəfindən yaradılan su təsərrüfatı müəssisələri bələdiyyələrin tabeçiliyində olan hüquqi şəxsdir, istehsal (təsərrüfat) hesabı əsasında fəaliyyət göstərirlər.

7.3. Bələdiyyələrin su təsərrüfatı obyektləri bələdiyyələrin su təsərrüfatı müəssisələrinin daimi idarəçiliyinə verilir.

7.4. Bələdiyyələrin su təsərrüfatı sistemləri və qurğularının, suqoruyucu meşə zolaqlarının qorunub saxlanması bələdiyyələr tərəfindən həyata keçirilir.

**Maddə 8. Bələdiyyələrin su təsərrüfatı tədbirlərinin planlaşdırılması**

8.1. Bələdiyyələrin su təsərrüfatı tədbirlərinin planlaşdırılması bələdiyyələr tərəfindən və onların sifarişi əsasında həyata keçirilir.

8.2. Bələdiyyələrin sifarişi ilə su təsərrüfatı tədbirləri planlaşdırılarkən ərazinin təbii-iqlim xüsusiyyətləri, əhalinin suya tələbatı və kənd təsərrüfatının suya ehtiyacı müvafiq norma və qaydalara uyğun müəyyən edilir.

**Maddə 9. Bələdiyyələrin su təsərrüfatının maliyyələşdirilməsi**

9.1. Bələdiyyə torpaqlarında meliorasiya və irriqasiya tədbirləri, habelə bələdiyyənin digər su təsərrüfatı obyektlərinin istismarı və bərpası müvafiq bələdiyyə büdcələri və dövlət büdcəsi hesabına aparılır.

9.2. Bələdiyyələrin sifarişləri əsasında aparılan su təsərrüfatı tədbirləri bələdiyyə büdcələri, kreditlər alınması, suya ödənişlər, hüquqi və fiziki şəxslərin vəsaiti, qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

9.3. Təbii fəlakət və qəza baş verdiyi hallarda su təsərrüfatı obyektlərinin yenidən bərpa olunması və bələdiyyələrə vurulan zərərin miqyasından asılı olaraq və onların aradan qaldırılması dövlət büdcəsi vəsaitindən və qanunvericiliklə müəyyən olunmuş digər vəsaitlərdən və güzəştli kreditlərdən də istifadə edilə bilər.

**Maddə 10. Bələdiyyələrin su təsərrüfatı obyektlərində sudan pullu istifadə**

10.1. Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə nəzərdə tutulmuş hallar, habelə yaşayış məntəqələri daxilində ümumi istifadədə olan içməli məqsədlər üçün istifadə olunan bulaqlar, quyular, kəhrizlər istisna olunmaqla bələdiyyələrin su təsərrüfatı obyektlərində sudan pullu istifadə olunur.

10.2. Bələdiyyələrin su təsərrüfatı obyektlərində sudan pullu istifadə qaydaları və şərtləri Azərbaycan Respublikasının su qanunvericiliyi və digər müvafiq qanunvericilik aktları, bələdiyyə aktları ilə müəyyən edilir.

10.3. Bələdiyyələrin su təsərrüfatı obyektlərində sudan pullu istifadənin əsas məqsədi aşağıdakılardır:

10.3.1. bələdiyyə ərazisindəki su ehtiyatlarından səmərəli istifadənin təmin olunması;

10.3.2. suyun dəqiq uçotunun aparılması;

10.3.3. su təchizatına yönəldilmiş xərclərin ödənilməsi;

10.3.4. suvarma və su kəmərləri sistemlərinin yeni avadanlıqlarla təchiz olunmasının yaxşılaşdırılması;

10.3.5. yeni su mənbələrinin yaradılması.

10.4. Bələdiyyələrin su təsərrüfatı obyektlərində sudan istifadə haqqı və onun differensiallaşdırılması suyun keyfiyyətindən, istifadəyə görə təyinatından (içməli, texniki, suvarma və s.), su ehtiyatlarının və ona tələbatın fəsillər üzrə dəyişkənliyindən, su təsərrüfatı obyektinin texniki səviyyəsindən, suyun götürülmə və nəqledilmə üsullarından və istehsal xərclərinin həcminə təsir edən digər amillərdən asılı olaraq bələdiyyələr tərəfindən müəyyən edilir.

## *IV fəsil*

## Bələdiyyələrin su təsərrüfatı obyektlərindən istifadə

**Maddə 11. Bələdiyyələrin su təsərrüfatı obyektlərindən ümumi və xüsusi istifadə sahəsində müəyyən olunan şərtlər**

11.1. Bələdiyyələrin su təsərrüfatı obyektlərindən ümumi istifadə qurğular və texniki avadanlıq tətbiq etmədən hüquqi və fiziki şəxslər tərəfindən *bələdiyyələrə məlumat verməklə (2)* həyata keçirilə bilər.

11.2. Bələdiyyə mülkiyyətində olan su təsərrüfatı obyektlərindən xüsusi istifadə hüquqi və fiziki şəxslər tərəfindən qurğular və texniki avadanlıq tətbiq etməklə bələdiyyələrin razılığı əsasında həyata keçirilir.

11.3. Əhalinin həyatını və sağlamlığını qorumaq və lazımi sanitariya şəraiti yaratmaq məqsədilə bələdiyyələr onların mülkiyyətində olan su obyektlərindəki çimərliklərin, qayıqlarla gəzintinin, balıq ovunun, içməli su ilə təsərrüfat-məişət ehtiyaclarını ödəmək üçün su götürülməsinin, mal-qaranın suvarılmasının və sudan digər istifadənin qadağan olduğu yerləri müəyyən edə bilərlər, habelə yaşayış məntəqələrinin ərazisində yerləşən bələdiyyələrin su təsərrüfatı obyektlərində sudan ümumi məqsədlər üçün istifadə olunmasının başqa şərtlərini təyin edə bilərlər.

11.4. Bələdiyyələr öz ərazilərində su təsərrüfatı obyektlərinin dağıdılmasının, torpaqların bataqlıqlaşmasının, şoranlaşmasının, yarğanların əmələ gəlməsinin, torpaq sürüşməsinin və çökməsinin, subasmanın, daşqının, sellərin, digər zərərli təsirlərin qarşısının alınmasında və onların nəticələrinin aradan qaldırılmasında müvafiq icra hakimiyyəti orqanları ilə birlikdə tədbirlər həyata keçirirlər.

**Maddə 12. Bələdiyyələrin su təsərrüfatı obyektlərindən *turizm və rekreasiya, (3)* idman, müalicə məqsədləri üçün istifadə yerlərinin müəyyən edilməsi**

12.1. Bələdiyyələr mülkiyyətində olan su təsərrüfatı obyektlərindən kütləvi *müalicə, turizm və rekreasiya, (3)* idman və başqa məqsədlər üçün istifadə yerlərini və qaydalarını müəyyən edirlər. Həmin yerlərin müəyyən edilməsi müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırılır.

12.2. Bələdiyyələrin su obyektlərindən kütləvi istirahət, müalicə, turizm və idman üçün istifadə qaydaları və şərtləri bələdiyyələr tərəfindən hazırlanır və müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırılır.



**Maddə 13. Bələdiyyələrin su təsərrüfatı obyektlərindən istifadə müqaviləsi**

13.1. Bələdiyyələrin su təsərrüfatı obyektlərindən istifadə müqavilə əsasında həyata keçirilir.

13.2. Bələdiyyələrin su təsərrüfatı obyektlərindən istifadə bələdiyyələrlə su təsərrüfatı obyektlərinin istifadəçiləri və su istehlakçıları arasında bağlanan müqavilə əsasında aparılır.

13.3. Bələdiyyələr dövlət mülkiyyətində olan su obyektlərindən istifadəni qanunvericiliyə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanları ilə bağlanan müqavilə əsasında həyata keçirirlər.

**Maddə 14. Bələdiyyələrə su təsərrüfatı obyektlərindən istifadəyə *icazənin (2)* verilməsi**

14.1. Bələdiyyələr dövlət mülkiyyətində olan su təsərrüfatı obyektlərindən müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş *icazə (2)* əsasında istifadə edirlər.

14.2. Bələdiyyələrə su təsərrüfatı obyektlərindən istifadəyə *icazə (2)* su obyektlərində su ehtiyatlarının həcmi, su istehlakçılarının suya olan tələbatı və su obyektlərinin vəziyyəti nəzərə alınmaqla Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada verilir.

**Maddə 15. Bələdiyyə torpaqlarında yerləşən yeraltı su təsərrüfatı obyektləri və onlardan istifadə**

Bələdiyyə torpaqlarında yerləşən yeraltı su təsərrüfatı obyektlərində suların tükənməsinin və bununla əlaqədar ətraf mühitə vurulan zərərin (meşə, bitki örtüyü və s.) qarşısının alınması üçün onların istismar ehtiyatından artıq çıxarılmasına icazə verilmir. Yeraltı içməli sulardan bir qayda olaraq əhalinin su təchizatında istifadə olunur. Yeraltı içməli suların ehtiyatlarından asılı olaraq bu sulardan suvarma üçün istifadə oluna bilər. Yeraltı su təsərrüfatı obyektlərindən istifadə rejimini və onun üzərində nəzarəti Azərbaycan Respublikasının su qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

**Maddə 16. Bələdiyyə mülkiyyətində və idarəçiliyində olan su təsərrüfatı obyektlərinin mühafizəsi**

16.1. Bələdiyyə mülkiyyətində olan və onların idarəçiliyinə verilmiş su təsərrüfatı obyektlərinin çirklənməsinin, zibillənməsinin və suların tükənməsinin, israfçılığın qarşısının alınması, habelə bunların zərərli təsirinin aradan qaldırılması üzrə tədbirlər bələdiyyələrin su təsərrüfatı müəssisələri tərəfindən həyata keçirilir.

16.2. Bələdiyyələr tərəfindən dövlət mülkiyyətində olan su təsərrüfatı obyektlərinin istifadəsi və mühafizəsi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən olunmuş qaydada həyata keçirilir.

## *V fəsil*
## Su münasibətlərinin tənzimlənməsi sahəsində bələdiyyələrin hüquqları və vəzifələri

**Maddə 17. Su istehlakçılarının hüquqları və vəzifələri**

Bələdiyyələrin su obyektlərindən istifadə edən su istehlakçılarının hüquqları və vəzifələri Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir.

**Maddə 18. Su təsərrüfatı obyektləri üzərində bələdiyyələrin mülkiyyət hüququ**

Bələdiyyələr öz mülkiyyətində olan su təsərrüfatı obyektlərini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq ümumi istifadəyə, hüquqi və fiziki şəxslərin istifadəsinə, icarəsinə, habelə Azərbaycan Respublikası vətəndaşlarının və hüquqi şəxslərinin mülkiyyətinə verə bilərlər.

**Maddə 19. Su münasibətlərinin tənzimlənməsi sahəsində bələdiyyələrin səlahiyyətləri**

19.0. Su münasibətlərinin tənzimlənməsi sahəsində bələdiyyələrin səlahiyyətləri aşağıdakılardır:

19.0.1. bələdiyyə mülkiyyətində olan su təsərrüfatı obyektlərinə sahiblik və istifadə etmək, onlar barədə sərəncam vermək;

19.0.2. əhalini içməli su ilə təmin etmək və təsərrüfat ehtiyaclarını ödəmək üçün tədbirlər görmək;

19.0.3. bələdiyyələrin mülkiyyətində və idarəçiliyində olan su təsərrüfatı sistemləri və qurğularının istismarı və mühafizəsi qaydalarına əməl olunmasını təmin etmək;

19.0.4. su obyektlərindən, su təsərrüfatı sistemləri və qurğularından istifadə tədbirləri həyata keçirilərkən ətraf mühitin mühafizəsi qaydalarına əməl olunmasını təmin etmək;

19.0.5. sulara zərərli maddələrin təsirinin qarşısının alınması və onun nəticələrinin aradan qaldırılması tədbirlərinin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

19.0.6. tullantı sularının təmizlənməsi, zəruri hallarda onların təkrar istifadəyə verilməsi işini təşkil etmək;

19.0.7. səlahiyyətləri daxilində ümumi istifadədə olan su obyektlərindən istifadə şərtlərini müəyyən etmək;

19.0.8. su təsərrüfatı sistemləri və qurğuları layihələrinin ekspertizasında iştirak etmək;

19.0.9. su obyektlərinin istifadəsi, bərpası və mühafizəsi üzrə dövlət proqramlarının işlənib hazırlanmasında və yerinə yetirilməsində iştirak etmək;

19.0.10. əhalinin ehtiyaclarını ödəmək məqsədi ilə əlavə su mənbələri müəyyənləşdirmək və istifadəyə vermək;

19.0.11. səlahiyyətləri daxilində su təsərrüfatı və meliorasiya sahəsində görülən işlərdə hüquqi və fiziki şəxslərin fəaliyyətini əlaqələndirmək;



19.0.12. regionun su təsərrüfatı məsələlərinin tənzimlənməsində iştirak etmək;

19.0.13. qanunvericiliklə müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirmək.

**Maddə 20. Bələdiyyələrin su təsərrüfatı müəssisələrinin vəzifələri**

20.1. Bələdiyyələrin su təsərrüfatı müəssisələri bələdiyyə mülkiyyətində olan su təsərrüfatı obyektlərinin idarə olunması üzrə aşağıdakı vəzifələri həyata keçirirlər:

20.1.1. əhalinin tələb olunan miqdarda içməli, təsərrüfat-məişət təyinatlı və digər sahələrdə istifadə olunan su ilə təchizatını təşkil etmək;

20.1.2. bələdiyyələrin mülkiyyətinə və ya onların idarəçiliyinə verilmiş su obyektlərinin, su təsərrüfatı sistemləri və qurğularının istismarı işlərini təşkil etmək;

20.1.3. tullantı suları imkan daxilində təmizləyərək təkrar dövriyyəyə yönəltmək və ya zərərsizləşdirərək istehsal sahələrindən, şəhər və qəsəbələrdən kənara axıdılmasını təşkil etmək;

20.1.4. sudan istifadə zamanı ətraf mühitin mühafizəsinə və ekoloji tələblərə riayət etmək;

20.1.5. sudan istifadənin uçot və hesabatı işlərini təşkil etmək;

20.1.6. bələdiyyə mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərindən istifadə edən hüquqi və fiziki şəxslərdən həmin obyektlərin saz vəziyyətdə saxlanmasına və onların korlanmasının qarşısının alınmasına nəzarət etmək;

20.1.7. bələdiyyə ərazisi daxilində onun mülkiyyətində və idarəçiliyində olan su anbarları, dəryaçalar və sututarlar vasitəsi ilə su axınlarının tənzimlənməsini təmin etmək;

20.1.8. qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

20.2. Bələdiyyələr öz səlahiyyətləri daxilində qanunvericiliyə uyğun olaraq yeni su təsərrüfatı obyektlərinin tikilməsi və istismarı tədbirlərinin həyata keçirilməsini təşkil edə bilərlər.

## *VI fəsil*
## Bələdiyyələrin su təsərrüfatı haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət və mübahisələrin həlli

**Maddə 21. Bələdiyyələrin su təsərrüfatı qanunvericiliyinin pozulmasına görə məsuliyyət**

Bələdiyyələrin su təsərrüfatı haqqında qanunvericiliyin pozulmasında təqsirkar olan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 22. Bələdiyyələrin su təsərrüfatı sahəsində mübahisələrin həlli**

Bələdiyyələrin su təsərrüfatı haqqında qanunvericiliyin pozulması ilə bağlı olan mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhkəmə qaydasında həll edilir.

***Dərci: 21 avqust 2001-ci il***

## "Bələdiyyələrin su təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*(9 avqust 2001-ci il, № 547)*

"Bələdiyyələrin su təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının "Bələdiyyələrin su təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- "Bələdiyyələrin su təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- "Bələdiyyələrin su təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanununun 11.4-cü və 13.3-cü maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanlarına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- öz səlahiyyətləri daxilində "Bələdiyyələrin su təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

- "Bələdiyyələrin su təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanununun 3.1-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;
- həmin qanunun 5-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;
- həmin qanunun 12.1-ci və 12.2-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;
- həmin qanunun 15-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir.



3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bələdiyyə torpaqlarında yerləşən dövlət mülkiyyətində olan yerli əhəmiyyətli su təsərrüfatı obyektlərinin qanunvericiliklə müəyyən edilmiş qaydada bələdiyyə mülkiyyətinə verilməsini təmin etsin.

***Dərci: 21 avqust 2001-ci il***

## "Bələdiyyələrin su təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*(23 oktyabr 2003-cü il, № 957)*

***Əlavə və dəyişikliklər:***
*1. 2 fevral 2007-ci il, q.m.t. 04.02.2007*

"Bələdiyyələrin su təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

- "Bələdiyyələrin su təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanununun 11.4-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, *Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti (1)*, Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları öz səlahiyyətləri daxilində həyata keçirirlər;
- həmin qanunun 13.3-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və *Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti (1)* öz səlahiyyətləri daxilində həyata keçirirlər.

2. Bu fərman dərc olunduğu gündən qüvvəyə minir.

***Dərci: 26 oktyabr 2003-cü il***

# Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

*(29 iyun 2001-ci il, № 160-IIQ)*

***Əlavə və dəyişikliklər:***

*1. 9 aprel 2004-cü il, q.m.t. 14.05.2004*
*2. 30 dekabr 2004-cü il, q.m.t. 10.02.2005*
*3. 23 may 2006-cı il, q.m.t. 25.06.2006*
*4. 30 may 2006-cı il, q.m.t. 04.08.2006*
*5. 10 oktyabr 2006-cı il, q.m.t. 01.12.2006*
*6. 23 oktyabr 2007-ci il, q.m.t. 29.11.2007*
*7. 1 aprel 2008-ci il, q.m.t. 17.05.2008*
*8. 2 iyun 2008-ci il, q.m.t. 28.06.2008*

***Bu Qanun bələdiyyə torpaqlarının idarə edilməsi xüsusiyyətlərini nəzərə almaqla mülkiyyətə, istifadəyə və icarəyə verilməsinin ümumi qaydalarını, istifadəsi və mühafizəsi sahəsində hüquq münasibətlərini tənzimləyir.***

## *I fəsil*
## Ümumi müddəalar

**Maddə 1. Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi bu qanundan, Azərbaycan Respublikasının torpaq və mülki məcəllələrindən, "Bələdiyyə əraziləri və torpaqları haqqında" və "Şəhərsalmanın əsasları haqqında" Azərbaycan Respublikası qanunlarından və torpaq münasibətlərini tənzimləyən Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir.

**Maddə 2. Bələdiyyə torpaqlarının tərkibi**

2.1. Müvafiq inzibati ərazi daxilində qanunvericiliklə müəyyən olunmuş qaydada dövlət mülkiyyətində saxlanılmış və xüsusi mülkiyyətə verilmiş torpaqlar çıxılmaqla qalan torpaqlar bələdiyyə torpaqlarıdır.

2.2. İstifadə xüsusiyyətlərinə görə bələdiyyə torpaqları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş ümumi istifadədə olan torpaqlara, hüquqi və fiziki şəxslərin qanuni istifadəsində və icarəsində olan torpaqlara, habelə ehtiyat fondu torpaqlarına bölünür.

2.3. Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, məqsədli təyinatına və hüquqi rejiminə görə bələdiyyə torpaqlarının tərkibinə bütün kateqoriyalardan olan torpaqlar daxil edilə bilər.

2.4. Müəyyən kateqoriyaya aid edilmiş bələdiyyə torpaqlarının başqa məqsədlər üçün istifadəsinə yalnız məqsədli təyinatının dəyişdirilməsindən sonra yol verilə bilər.



**Maddə 3. Bələdiyyə torpaqlarının idarə edilməsinin əsas prinsipləri**

3.0. Bələdiyyə torpaqlarının idarə edilməsi aşağıdakı prinsiplərə əsaslanır:

3.0.1. torpaqların məqsədli təyinatı üzrə istifadə edilməsi və dövriyyədən əsassız çıxarılmasına yol verilməməsi;

3.0.2. torpaqların münbit qatının bərpası, artırılması, mühafizəsi, təbii və antropogen təsirlərdən qorunması;

3.0.3. torpaqların xüsusi mülkiyyətə, istifadəyə və icarəyə verilməsində qanunvericiliyə və sosial ədalət prinsiplərinə əməl edilməsi;

3.0.4. torpaqdan haqqı ödənilməklə istifadə edilməsi;

3.0.5. müxtəlif məqsədlər üçün mülki dövriyyəyə cəlb edilən torpaqlar barədə əhalinin məlumatlandırılması.

**Maddə 4. Torpaq münasibətlərinin tənzimlənməsi sahəsində bələdiyyələrin səlahiyyətləri**

4.0. Torpaq münasibətlərinin tənzimlənməsi sahəsində bələdiyyələrin öz inzibati əraziləri daxilində səlahiyyətləri aşağıdakılardır:

4.0.1. qanunvericiliklə müəyyən edilmiş qaydada bələdiyyə mülkiyyətində olan torpaqlara sahiblik, onlardan istifadə və onlar barədə sərəncam vermək;

4.0.2. müəyyən edilmiş qaydada bələdiyyə torpaqlarını ümumi istifadəyə, hüquqi və fiziki şəxslərin istifadəsinə, icarəsinə və Azərbaycan Respublikasının vətəndaşlarının və hüquqi şəxslərinin mülkiyyətinə vermək;

4.0.3. yaşayış məntəqəsinin baş planının, planlaşdırma və tikinti layihələrinin, yerquruluşu və təsərrüfat planlarının hazırlanmasını və həyata keçirilməsini öz səlahiyyətləri daxilində təşkil etmək;

4.0.4. bələdiyyə torpaqlarının istifadəçilərindən torpaq vergisini və icarə haqqını almaq;

*4.0.5. ictimai ehtiyaclar tələb etdikdə bələdiyyə tərəfindən hüquqi və fiziki şəxslərə əvəzsiz istifadəyə verilmiş torpaq sahələrinin məcburi geri alınması barədə məhkəmədə iddia qaldırmaq; (4)*

4.0.6. bələdiyyə torpaqlarının mühafizəsinə və yaxşılaşdırılmasına dair proqramlar hazırlamaq, təsdiq etmək və onları həyata keçirmək;

4.0.7. hüquqi və fiziki şəxslərin mülkiyyətinə, istifadəsinə və icarəsinə verilən torpaq sahələrinin minimum həddini müəyyən etmək;

4.0.8. bələdiyyə mülkiyyətinə torpaq alınması zəruriyyəti yarandığı hallarda torpaq hərraclarından və xüsusi mülkiyyətçilərdən torpaq sahələri almaq, habelə dövlət mülkiyyətindən torpaq alınması barədə müvafiq icra hakimiyyəti orqanları qarşısında vəsatət qaldırmaq;

4.0.9. bələdiyyə torpaqlarından səmərəli istifadə olunmasına və onların mühafizəsinə nəzarət etmək;

4.0.10. bələdiyyə torpaqlarına dair məhkəmədən kənar qaydada həll olunmalı mübahisələri həll etmək;

4.0.11. öz səlahiyyətləri daxilində torpaq istifadəçilərinin və icarəçilərinin hüquqlarını müdafiə etmək;

4.0.12. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirmək.

**Maddə 5. Bələdiyyə torpaqlarının idarə edilməsində bələdiyyələrlə müvafiq icra hakimiyyəti orqanları arasında münasibətlərin tənzimlənməsi**

5.1. Bələdiyyə mülkiyyətində olan torpaqlara sərəncam verilməsi, həmin torpaqların istifadəsi və mühafizəsi sahəsində idarəetməni həyata keçirmək bələdiyyələrin müstəsna hüququdur.

5.2. Bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin hüdudları, növləri və ölçüləri müəyyən edilən gündən "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinin birinci hissəsi ilə bələdiyyə torpaqlarının idarə olunması sahəsində müvafiq icra hakimiyyəti orqanlarına verilmiş səlahiyyətlər həyata keçirilə bilməz.

5.3. Müvafiq icra hakimiyyəti orqanları tərəfindən bələdiyyə mülkiyyətində olan torpaqlara sahiblik, onlardan istifadə və bu torpaqlar barəsində sərəncam vermək sahəsində bələdiyyələrin hüquqlarını məhdudlaşdıran qərarlar qəbul edilməsinə yol verilmir.

5.4. Müvafiq icra hakimiyyəti orqanları, torpaq istifadəçiləri, icarəçiləri və qeyri-hökumət təşkilatları bələdiyyə torpaqlarına dair münasibətlərdə yalnız Azərbaycan Respublikasının qanunvericiliyi ilə onlara verilmiş səlahiyyətlər daxilində iştirak edə bilərlər.

## *II fəsil*

## Bələdiyyə torpaqlarının mülkiyyətə, istifadəyə və icarəyə verilməsinin xüsusiyyətləri

**Maddə 6. Torpaq sahələrinin mülkiyyətə, istifadəyə və icarəyə verilməsinin ümumi qaydaları**

6.1. Bələdiyyə mülkiyyətində olan torpaqlar Azərbaycan Respublikasının torpaq qanunvericiliyinə, "Bələdiyyə əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa və torpaq münasibətlərini tənzimləyən digər normativ hüquqi aktlara uyğun olaraq mülkiyyətə, istifadəyə və icarəyə verilir.

6.2. Bələdiyyə mülkiyyətində olan torpaqların hər hansı hüquqla hüquqi və fiziki şəxslərə verilməsi bələdiyyələrin qərarı və tərəflər arasında bağlanmış müqavilə əsasında həyata keçirilir. Müqavilədə tərəflərin hüquqları və vəzifələri, torpaq sahəsinin hüquqi statusu, öhdəliklər, servitutlar və digər məhdudiyyətlər, müqaviləyə xitam verilməsinin əsasları və torpaqların istifadəsi və mühafizəsi üzrə başqa şərtlər nəzərdə tutulur.



6.3. Bələdiyyələrin ehtiyat fondunun kənd təsərrüfatı təyinatlı torpaqları yalnız məqsədli təyinatı üzrə qanunvericilikdə nəzərdə tutulmuş qaydalara əməl edilməklə istifadəyə və icarəyə verilir.

6.4. Elektrik, rabitə, neft-qaz və nəqliyyat xətləri və sənaye müəssisələrinin sanitariya-mühafizə zonaları altındakı bələdiyyə torpaqlarının çoxmərtəbəli, çoxmənzilli, fərdi yaşayış və bağ evlərinin, qarajların tikintisi və sahibkarlıq fəaliyyəti məqsədilə zəruri tikililərin inşası üçün, habelə çoxmənzilli yaşayış evlərinə aid torpaq sahələrinin kənar məqsədlər üçün xüsusi mülkiyyətə, istifadəyə və icarəyə verilməsinə yol verilmir.

6.5. Torpaq sahəsinin mülkiyyətə, istifadəyə və icarəyə verilməsi bələdiyyələrin qərarı ilə sahənin xüsusiyyətinə və torpağın ayrılma məqsədinə, mövcud texniki normalara, habelə yerquruluşu və şəhərsalma sənədlərinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanlarının *rəyi (2)* alındıqdan sonra torpaqayırma qaydasında həyata keçirilir. Torpaqayırma sənədlərinin hazırlanması və razılaşdırılması qaydaları Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilən əsasnamə ilə tənzimlənir.

6.6. Torpaq sahəsi əldə etmək istəyən hüquqi və fiziki şəxslər bələdiyyələrə ərizə ilə müraciət edirlər. Ərizədə torpağın ölçüsü, yeri və məqsədli təyinatı göstərilməlidir.

6.7. Bələdiyyələr on gün müddətində ərizəyə baxır və Azərbaycan Respublikasının torpaq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada (torpaqayırma sənədləri hazır olduqdan sonra) torpaq sahəsinin verilməsi barədə qərar qəbul edirlər. Həmin qərar torpaq sahəsinin naturada (yerdə) ayrılması və torpaq üzərində hüquqlara dair sənədlərin verilməsi üçün əsasdır. *Bələdiyyələr qərar qəbul etdiyi andan 15 gündən gec olmayaraq onun surətini bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqana göndərməlidirlər (1).*

6.8. Torpaq sahələrinin mülkiyyətə, istifadəyə və icarəyə verilməsinə dair torpaqayırma sənədlərinin hazırlanması torpaq almaq istəyən şəxsin vəsaiti hesabına həyata keçirilir.

6.9. Bələdiyyə torpaqları üzərində mülkiyyət, istifadə, icarə və digər hüquqlar qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınır.

6.10. Xüsusi mülkiyyətdə, habelə istifadədə və icarədə olan bələdiyyə torpaqları dövlət *ehtiyacları (7)* üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada geri alına bilər.

6.11. Bələdiyyələr tərəfindən mülkiyyətə, istifadəyə və icarəyə verilən torpaq sahələrinə Azərbaycan Respublikasının Torpaq Məcəlləsi ilə müəyyən edilmiş öhdəliklər, servitutlar və digər məhdudiyyətlər qoyula bilər.

**Maddə 7. Xüsusi mülkiyyətə verilən bələdiyyə torpaqları**

7.1. Azərbaycan Respublikasının qanunvericiliyi ilə bələdiyyələrin ehtiyat fondunun aşağıdakı torpaqları xüsusi mülkiyyətə verilə bilər:

7.1.1. yaşayış məntəqələrinin perspektiv inkişafı üçün cəlb olunan torpaqlar;

7.1.2. kənd təsərrüfatına azyararlı və yararsız torpaqlar;

7.1.3. hüquqi və fiziki şəxslərin istifadəsinə və icarəsinə verilmiş kənd təsərrüfatına azyararlı və yararsız torpaqların öz vəsaiti hesabına yararlı hala salınmış kənd təsərrüfatı təyinatlı torpaqlar;

7.1.4. qeyri-kənd təsərrüfatı məqsədləri üçün istifadəyə və icarəyə verilmiş torpaqlar.

7.2. Ümumi istifadədə olan, habelə hüquqi və fiziki şəxslərin istifadəsində və icarəsində olan bələdiyyələrin kənd təsərrüfatı təyinatlı, eləcə də meşə və su fondu torpaqları xüsusi mülkiyyətə verilə bilməz.

7.3. Xüsusi mülkiyyətə verilən bələdiyyə torpaqları mülkiyyətində torpaq sahəsinin olub-olmamasından asılı olmayaraq haqqı ödənilməklə aşağıdakılara verilir:

7.3.1. fərdi yaşayış və bağ evlərinin tikintisi üçün Azərbaycan Respublikasının vətəndaşlarına;

7.3.2. fərdi və kooperativ qarajların tikintisi üçün Azərbaycan Respublikasının vətəndaşlarına və onların kooperativlərinə;

7.3.3. sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə.

7.4. Müvafiq inzibati-ərazi vahidi daxilində adambaşına düşən orta torpaq norması və torpaq ehtiyatları azlıq təşkil etdiyi hallarda bələdiyyələr torpaq sahəsinin ilk növbədə öz ərazilərində yaşayan vətəndaşlara və sahibkarlıq fəaliyyəti göstərən hüquqi və fiziki şəxslərə xüsusi mülkiyyətə verilməsi barədə qərar qəbul edə bilərlər.

**Maddə 8. Xüsusi mülkiyyətə verilən torpaq sahələrinin normaları**

8.0. Xüsusi mülkiyyətə verilən torpaq sahələrinin normaları müvafiq inzibati-ərazi vahidi üzrə adambaşına düşən orta torpaq norması, yerli şərait, əhalinin sıxlığı, torpaq ehtiyatlarının miqdarı və bu məqsədlə yaxın dövr üçün tələbat nəzərə alınmaqla aşağıdakı hədlər daxilində bələdiyyələr tərəfindən müəyyən edilir:

8.0.1. fərdi yaşayış evlərinin tikintisi üçün Bakı şəhərində tətbiq edilən 1-4-cü zonalar üzrə – 0,04 hektaradək; 5-8-ci zonalar üzrə – 0,05 hektaradək, 9-12-ci zonalar üzrə – 0,06 hektaradək, Naxçıvan, Gəncə, Sumqayıt, Əli Bayramlı, Mingəçevir, Naftalan, Xankəndi, Şəki və Yevlax şəhərlərində – 0,07 hektaradək, digər rayon mərkəzlərində – 0,08 hektaradək, qəsəbə və kəndlərdə – 0,12 hektaradək;

8.0.2. fərdi bağ evlərinin tikintisi üçün – 0,12 hektaradək;

8.0.3. kənd təsərrüfatı məqsədləri üçün inzibati-ərazi vahidi üzrə adambaşına düşən orta torpaq normasının kənd təsərrüfatına azyararlı torpaqlardan – 500 mislinədək; yararsız torpaqlardan – 600 mislinədək;

8.0.4. sənaye, nəqliyyat, rabitə və digər istehsal, ticarət, ictimai-iaşə, xidmət, digər obyektlərin, habelə fərdi və kooperativ qarajların, inzibati və çoxmənzilli çoxmərtəbəli binaların tikintisi üçün – layihə sənədləri ilə tələb olunan ölçüdə;



8.0.5. Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinin istifadəsinə və icarəsinə verilmiş kənd təsərrüfatına azyararlı və yararsız torpaqların yararlı hala salınmış hissəsi;

8.0.6. qeyri-kənd təsərrüfatı məqsədləri üçün Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinin istifadəsinə və icarəsinə verilmiş torpaq sahəsinin ayrılma məqsədi üzrə faktiki istifadə olunan hissəsi.

**Maddə 9. Bələdiyyə torpaqlarının satışının xüsusiyyətləri**

*9.1. Azərbaycan Respublikasında bələdiyyə torpaqları üzərində mülkiyyət, istifadə və icarə hüquqları yalnız torpaq hərracları və ya müsabiqələri vasitəsilə əldə edilə bilər. (6)*

9.2. Bələdiyyə torpaqlarının satışı ərazinin inkişaf planları, yerquruluşu, yaşayış məntəqələrinin baş planı və şəhərsalma sənədləri əsasında qanunvericiliklə müəyyən edilmiş qaydada yerli özünüidarə orqanları tərəfindən həyata keçirilir.

9.3. Bələdiyyənin ehtiyat fondunun özəlləşdirilən torpaqları barədə alqı-satqı əqdləri, yerli normativlər nəzərə alınmaqla aşkarlıq şəraitində bağlanılır.

9.4. Ərazi planlaşdırılması əsasında yaşayış məntəqəsinin infrastrukturu sahələrinin yaradılması üçün nəzərdə tutulan, habelə xüsusi şəhərsalma əhəmiyyətinə malik bələdiyyə torpaqlarının satışı, *(6)* torpaq hərracları və ya müsabiqələri vasitəsilə həyata keçirilir.

9.5. Kənd təsərrüfatı torpaqlarının, onlar üzərində istifadə və icarə hüquqlarının *əldə edilməsində (6)*, habelə kənd təsərrüfatına azyararlı və yararsız torpaqların kənd təsərrüfatına və onunla bağlı olan dövriyyəyə cəlb edilməsi məqsədilə satın alınmasında üstünlük hüququ, bu torpaqların əvvəlki istifadəçilərinə və icarəçilərinə, *torpaqlardan istifadə etməklə ailə kəndli təsərrüfatı kimi fəaliyyət göstərmək istəyən müvafiq yaşayış məntəqəsində daimi yaşayan və qeydiyyatda olan torpaq payı almamış vətəndaşlara və istefaya çıxmış hərbi qulluqçulara, (5)* habelə satışa çıxarılan sahələrlə həmsərhəd yerləşən kənd təsərrüfatı məhsulları istehsalçılarına verilir. *(6)*

*9.6. Bələdiyyə torpaqlarının özgəninkiləşdirilməsi, istifadəyə və icarəyə verilməsi müvafiq müqavilə ilə rəsmiləşdirilir. (6)*

9.7. Bələdiyyələr satışa çıxarılan torpaq sahələri və bu torpaqların ölçüləri, təyinatı, qiyməti, olduğu yeri göstərilməklə elanlar vasitəsilə əhalini əvvəlcədən məlumatlandırır, ildə bir dəfə torpaqların dövriyyəsi və istifadə olunması barədə məlumatları seçicilərə çatdırırlar.

**Maddə 10. Satışa çıxarılan torpaq sahələrinin qiyməti**

10.1. Bələdiyyə mülkiyyətində olan torpaq sahələri satıldıqda qiymətlər torpağın normativ qiymətindən az olmamaq şərtilə bazar qiyməti nəzərə alınmaqla bələdiyyələr tərəfindən müəyyən edilir.

10.2. Bələdiyyələrin kənd təsərrüfatında azyararlı və yararsız torpaqları öz vəsaitləri hesabına yararlı hala salaraq kənd təsərrüfatı məhsulları istehsal edən Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə satıldıqda bu torpaqlarda torpaq qanunvericiliyi ilə müəyyən edilmiş qiymət güzəştləri tətbiq olunur.

10.3. Satışa çıxarılan bələdiyyə torpaqlarının qiymətinin formalaşmasının şərtləri Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

**Maddə 11. Torpaq sahələrinin istifadəyə və icarəyə verilməsi**

11.1. Bələdiyyə torpaqları ümumi istifadəyə, habelə daimi və ya müvəqqəti istifadəyə verilir.

11.2. Torpaqların istifadəyə verilməsi qaydaları və şərtləri Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

11.3. Bələdiyyə mülkiyyətində olan bütün torpaqlar qanunvericiliklə müəyyən edilmiş qaydada icarəyə verilə bilər. *Müvafiq yaşayış məntəqəsində daimi yaşayan və qeydiyyatda olan torpaq payı almamış vətəndaşlar və istefaya çıxmış hərbi qulluqçular torpaqlardan istifadə etməklə ailə kəndli təsərrüfatı kimi fəaliyyət göstərmək istədikdə torpağı icarəyə götürməkdə üstünlük hüququna malikdirlər. (5)*

11.4. Xüsusi şəhərsalma əhəmiyyətinə malik bələdiyyə torpaqları ayrıldıqda, yaxud layihələrlə birlikdə yalnız torpaq müsabiqələri və ya hərracları vasitəsi ilə icarəyə verilə bilər.

11.5. Bələdiyyələrin ehtiyat fondundan yaşayış məntəqələrinin perspektiv inkişafı üçün ayrılan torpaqlar hüquqi və fiziki şəxslərin icarəsinə yalnız qısa müddətə verilir.

11.6. Bələdiyyə torpaqları mənfəət əldə etmək məqsədilə fəaliyyət göstərən hüquqi və fiziki şəxslərə icarə əsasında verilir.

11.7. Ümumi istifadədə olan bələdiyyə torpaqlarının bütövlükdə icarəyə verilməsinə yol verilmir.

11.8. Ümumi istifadədə olan bələdiyyə torpaqlarında yerləşən meydan, küçə, keçid, yol kənarı, sahil, park, meşə-park, xiyaban, çimərlik və əhalinin ictimai tələbatının ödənilməsinə xidmət edən digər yerlərdə sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədilə ticarət, məişət, ictimai-iaşə, əyləncə, idman obyektlərinin və digər zəruri tikililərin müvəqqəti quraşdırılması üçün sahələr hüquqi və fiziki şəxslərin icarəsinə bələdiyyələr tərəfindən qısa müddətə verilir. Belə məqsədlər üçün icarəyə verilən sahələrin ölçüsü layihə sənədlərində nəzərdə tutulan ölçüdən çox ola bilməz.

11.9. Bələdiyyə torpaqlarının icarəyə verilməsi şərtləri, müddəti və icarə haqqı tərəflərin razılığı ilə müəyyən edilir və bələdiyyələr ilə həmin torpaqların icarəçiləri arasında qanunvericiliklə müəyyən edilmiş qaydada bağlanılan müqavilədə təsbit olunur.

11.10. Torpağın icarəsinə dair müqavilənin qüvvədə olduğu müddət qurtardıqdan sonra icarəçinin həmin müqaviləni təzələmək üçün üstünlük hüququ vardır.



11.11. İcarəçi icarəyə götürdüyü torpaq sahəsini subicarəyə yalnız bələdiyyələrin razılığı ilə verə bilər.

11.12. İcarə müddəti tamam olanadək icarəçi öldükdə torpaq sahəsinə icarə hüququ onun vərəsələrindən birinə keçir.

11.13. Torpaq icarəsinə dair münasibətlər Azərbaycan Respublikasının torpaq və mülki qanunvericiliyi ilə tənzimlənir.

11.14. İstifadəyə və icarəyə verilən bələdiyyə torpaqlarının ölçüsü, inzibati-ərazi vahidi üzrə adambaşına düşən orta torpaq norması, yerli şərait, əhalinin əsas məşğuliyyəti, torpaq ehtiyatının miqdarı nəzərə alınmaqla müvafiq bələdiyyə tərəfindən müəyyən edilir.

## *III fəsil*

## Bələdiyyə torpaqlarından istifadə edilməsinin ümumi qaydaları

**Maddə 12. Kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadə**

12.1. Kənd təsərrüfatı ehtiyacları üçün verilmiş və ya bu məqsədlər üçün nəzərdə tutulan torpaqlar bələdiyyənin kənd təsərrüfatı təyinatlı torpaqları sayılır.

12.2. Kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadə qaydaları və şərtləri Azərbaycan Respublikasının torpaq və aqrar qanunvericiliyi ilə tənzimlənir.

12.3. İstifadəsində və ya icarəsində kənd təsərrüfatı təyinatlı bələdiyyə torpaqları olan hüquqi və fiziki şəxslər torpaqların münbitliyinin və digər faydalı xassələrinin qorunması və yüksəldilməsi üçün müvafiq mədəni-texniki, meliorativ və aqrotexniki tədbirlər görməlidirlər.

**Maddə 13. Yaşayış məntəqələrinin torpaqlarından istifadə**

13.1. Yaşayış məntəqələrinin torpaqlarının tərkibinə Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin 18-ci maddəsinin ikinci hissəsi ilə müəyyən olunmuş torpaqlar daxildir.

13.2. Yaşayış məntəqələrinin perspektiv inkişafı üçün ayrılmış bələdiyyə torpaqlarından şəhərlərin, qəsəbələrin və kəndlərin baş planlarına, ərazinin planlaşdırılması və tikintisi layihələrinə və eləcə də yer-təsərrüfat quruluşu planlarına müvafiq surətdə istifadə edilir.

13.3. Şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin hüdudları dəyişdirilərkən və ya orada tikinti üçün torpaq sahələri ayrılarkən yaşayış məntəqəsinin baş planı ilə müəyyən edilmiş şəhərsalma norma, qayda və reqlamentlərinə əməl olunmalıdır.

13.4. Yaşayış məntəqələrinin ümumi istifadədə olan bələdiyyə torpaqlarında əhalinin ictimai tələbatının ödənilməsinə xidmət edən ticarət, ictimai-iaşə, məişət və digər obyektlər istisna olmaqla, başqa məqsədlər daşıyan obyektlərin tikintisinə yol verilmir.

13.5. Ümumi istifadədə olan bələdiyyə torpaqlarında əhalinin ictimai tələbatının ödənilməsinə xitam etmək üçün müvəqqəti inşa edilən səyyar köşklər və di-

gər tikililər şəhərsalma və memarlıq norma və qaydalarına uyğun olmalı, ərazinin məqsədli istifadəsinə və ahəngdar fəaliyyətinə maneçilik törətməməlidir.

13.6. Şəhərətrafı zonaların bələdiyyə mülkiyyətinə aid torpaqları bu zonaların təsdiq edilmiş planlaşdırma layihəsinə uyğun olaraq istifadə edilir. Bu torpaqlar xüsusi mühafizə olunur və orada sanitariya-gigiyena, sağlamlaşdırma funksiyaları və əhalinin istirahətinin təşkili məqsədləri ilə bir araya sığmayan tikili və qurğuların inşa edilməsinə yol verilmir.

13.7. Şəhərlərin, qəsəbələrin və kənd yaşayış məntəqələrinin bələdiyyə torpaqlarından istifadə qaydaları Azərbaycan Respublikasının torpaq qanunvericiliyi, "Şəhərsalmanın əsasları haqqında", "Bələdiyyə əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının qanunları ilə, habelə onlara uyğun olaraq qəbul olunmuş müvafiq normativ hüquqi aktlarla müəyyən edilir.

**Maddə 14. Sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlardan istifadə**

14.1. Bələdiyyə mülkiyyətinə aid torpaqlarda yerləşən sənaye, nəqliyyat, rabitə, boru kəməri xətləri, dağ-mədən və digər qeyri-kənd təsərrüfatı məqsədləri üçün ayrılmış və onların ətrafında yaradılmış xüsusi hüquqi rejimli mühafizə zonalarında torpaqlardan istifadə qaydaları və şərtləri, habelə həmin torpaqlarda abadlıq işlərinin aparılması, yaşayış, inzibati, mədəni-məişət və digər binaların tikintisi və qurğuların quraşdırılması işləri bələdiyyələrin razılığı ilə həyata keçirilir.

14.2. Elektrik, rabitə, neft-qaz və nəqliyyat xətləri, habelə sənaye obyektlərinin sanitariya-mühafizə zonalarının altındakı bələdiyyə torpaqları, bu torpaqların və obyektlərin mülkiyyətçilərinin və istifadəçilərinin razılığı ilə yalnız qanunvericilikdə nəzərdə tutulmuş qaydada kənd təsərrüfatı məqsədləri üçün istifadə edilə bilər.

14.3. Geodeziya, geoloji, arxeoloji, neft-qaz kəşfiyyat və qazma işlərinin aparılması nəticəsində yararsızlaşmış torpaq sahələri bu işləri aparan idarə və təşkilatlar tərəfindən qanunvericilikdə müəyyən olunmuş qaydada abadlaşdırılmalı və yararlı vəziyyətə gətirilməlidir.

14.4. Radioaktiv və kimyəvi çirklənməyə məruz qalmış, insanların sağlamlığına təhlükə yarada bilən, habelə məhsul istehsalı üçün sanitariya tələblərinə cavab verməyən torpaqlar müvafiq icra hakimiyyəti orqanlarının mütəxəssislərinin ekspert rəyi əsasında bələdiyyələrin qərarı ilə təsərrüfat dövriyyəsindən müvəqqəti çıxarılır, konservasiya edilir və bərpa olunmaq üçün ehtiyat torpaq fonduna keçirilir.

14.5. Sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlardan istifadənin başqa şərtləri və qaydaları Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə müəyyən edilir.

**Maddə 15. Başqa kateqoriyalara aid edilmiş bələdiyyə torpaqlarından istifadə**

Başqa kateqoriyalara aid edilmiş bələdiyyə torpaqlarından istifadə Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə tənzimlənir.



**Maddə 16. Qeyri-qanuni istifadə edilən torpaq sahələrinə dair tələblər**

16.1. Qeyri-qanuni istifadə edilən (özbaşına tutulmuş) bələdiyyə torpaqları qanunvericiliklə müəyyən edilmiş qaydada mülkiyyətə, istifadəyə və icarəyə verilməmiş, habelə rəsmiləşdirilmiş ölçüdən artıq istifadə edilən torpaqlardır.

16.2. Qeyri-qanuni istifadə edilən (özbaşına tutulmuş) torpaq sahələri Azərbaycan Respublikasının torpaq və mülki qanunvericiliyinə uyğun olaraq aidiyyəti üzrə geri qaytarılmalıdır.

16.3. Bu qanun qüvvəyə minənədək fərdi yaşayış və bağ evlərinin, qarajların, habelə sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədilə zəruri obyektlərin tikintisi üçün qeyri-qanuni istifadə edilən bələdiyyə torpaqlarının geri qaytarılması mümkün olmadığı hallarda, bu torpaq sahələri qanunvericilikdə nəzərdə tutulmuş qaydada onları istifadə edən vətəndaşların və hüquqi şəxslərin mülkiyyətinə və ya icarəsinə verilir, eyni zamanda torpaq vergisinə cəlb edilir.

16.4. Torpaq üzərində mülkiyyət, istifadə və icarə hüquqlarını təsdiq edən sənədlərdə göstərilən ölçüdən artıq istifadə edilən torpaq sahəsinin geri alınması mümkün olmadığı hallarda isə artıq sahələr eyni hüquq əsasında həmin şəxslərin adına rəsmiləşdirilir.

## *IV fəsil*

## Torpaq haqqının bələdiyyələr tərəfindən müəyyən edilməsi

**Maddə 17. Torpaq haqqının formaları**

17.1. Azərbaycan Respublikasında torpaqdan istifadə pulludur.

17.2. Torpaq haqqı torpaq vergisi və icarə haqqı formalarında müəyyən edilir.

**Maddə 18. Torpaq vergisi**

18.1. Azərbaycan Respublikasında torpaqdan istifadəyə görə torpaq vergisi tutulur. Mülkiyyətində və istifadəsində torpaq sahəsi olan rezident və qeyri-rezident fiziki şəxslər torpaq vergisi ödəyirlər.

18.2. Torpaq vergisi torpaq mülkiyyətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq torpaq sahəsinə görə hər il sabit tədiyyə formasında hesablanır.

18.3. Rezident və qeyri-rezident fiziki şəxslər torpaq sahələri barədə özlərinin mülkiyyət və istifadə hüquqlarını təsdiq edən sənədləri aldıqdan sonra ərazi üzrə müvafiq bələdiyyələrdə bir ay ərzində uçota durmalıdırlar.

18.4. Bələdiyyələr öz ərazilərində Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilən hədlərdə torpaq vergisinin dərəcələrini və vergi güzəştlərini müəyyən edirlər.

18.5. Torpaq vergisinin dərəcəsi kənd təsərrüfatı torpaqları üzrə 1 şərti bal üçün *0,06 manat (8)* həcmində müəyyən olunur.

18.6. Kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla şərti balların müəyyənləşdirilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

18.7. Digər təyinatlı bələdiyyə torpaqları üzrə torpaq sahəsinin *hər 100 (yüz) kvadratmetrinə görə şərti maliyyə vahidinin misli ilə (3)* müəyyən olunan dərəcələri Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən olunmuş həcmdə tətbiq edilir.

18.8. Bələdiyyə mülkiyyətində olan aşağıdakı torpaqlar torpaq vergisinə cəlb edilmir:

18.8.1. yaşayış məntəqələrinin ümumi istifadədə olan torpaqları;

18.8.2. bələdiyyələrin mülkiyyətində və istifadəsində olan torpaqlar;

18.8.3. istehsal fəaliyyətinə cəlb edilməmiş bələdiyyələrin meşə fondu, su fondu və digər kateqoriyalara aid edilmiş torpaqları.

18.9. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 102.2-ci maddəsində göstərilən şəxslərin mülkiyyətində olan torpaqlara görə torpaq vergisinin məbləği *on manat (8)* azaldılır. Torpaq vergisinə belə güzəştlər tətbiq edilən şəxslərin mülkiyyətində ayrıca qeydiyyata alınmış iki və daha çox torpaq sahəsi olarsa, vergi güzəştləri mülkiyyətçinin arzusu ilə bu sahələrin birinə, yaşayış fondlarının torpaqlarında isə həmin şəxsin yaşayış yeri üzrə qeydiyyatda olduğu evin, habelə həyətyanı sahənin altında olan torpağa şamil edilir.

18.10. Torpaq vergisi torpaq barəsində mülkiyyət və ya istifadə hüququnu təsdiq edən sənədlər əsasında müəyyən edilir. Tikililərin və qurğuların altında olan torpaqlara, həmçinin obyektlərin sanitariya-mühafizə zonalarının torpaq sahələrinə görə torpaq vergisi tutulur.

18.11. Bələdiyyələr tərəfindən hər il iyulun 1-dək fiziki şəxslərə torpaq vergisi hesablanılır və tədiyyə bildirişləri avqustun 1-dən gec olmayaraq onlara çatdırılır.

18.12. Ayrılıqda bir neçə fiziki şəxsin mülkiyyətində və ya istifadəsində olan tikililərin altında qalan və ya onlara xidmət üçün ayrılmış torpaq sahələrinə görə vergi onlara məxsus tikili sahələrinə mütənasib surətdə hesablanır.

18.13. Torpaq vergisi bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq bələdiyyə büdcəsinə ödənilir.

**Maddə 19. Torpağın icarə haqqı**

19.1. Torpağın icarə haqqı torpaqdan müddətli istifadəyə görə icarəçinin icarəyəverənə ödədiyi vəsaitdir.

19.2. İcarəyəverən torpaq vergisi tədiyyəçisi olduqda, torpaq vergisi icarə haqqının tərkibinə daxil edilir.

19.3. İcarəyəverən torpaq vergisi tədiyyəçisi olmadıqda, icarə haqqının tərkibində torpaq vergisi nəzərə alınmır.

19.4. Torpaqların icarə haqqı tərəflərin razılığı ilə müəyyən edilir və icarə müqaviləsində təsbit olunur.



19.5. Torpaqların icarə haqqının aşağı həddi torpaq vegisinin 2 mislindən az ola bilməz.

19.6. Bələdiyyə mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqlara təklif tələbi üstələdiyi hallarda və kənd təsərrüfatına azyararlı və yararsız torpaqlar kənd təsərrüfatı ehtiyacları üçün icarəyə verildikdə icarə haqqı güzəştli şərtlərlə tətbiq edilir.

**Maddə 20. Torpaqla əlaqədar əqdlərin rəsmiləşdirilməsi**

20.1. Bələdiyyə mülkiyyətində olan torpaqların alqı-satqısı, girov qoyulması (ipotekası), nizamnamə (pay) fonduna verilməsi, habelə mülkiyyət, istifadə və icarə hüquqlarının digər formalarda dəyişdirilməsi ilə bağlı münasibətlər bələdiyyələrlə müvafiq hüquqi və fiziki şəxslər arasında bağlanılan müqavilələrlə rəsmiləşdirilir.

20.2. Torpaqla əlaqədar əqdlərdən daxil olan vəsaitin müvafiq bələdiyyə tərəfindən müəyyən edilmiş hissəsi yeni torpaqların kənd təsərrüfatı dövriyyəsinə cəlb edilməsinə, torpaqların keyfiyyətinin yaxşılaşdırılmasına, rekultivasiyasına, torpaqların istifadəsi və mühafizəsi ilə əlaqədar digər tədbirlərin həyata keçirilməsinə sərf edilir.

20.3. Torpaq ödəncləri üzrə güzəştlər Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə müəyyən edilir.

## *V fəsil*

## Bələdiyyə torpaqlarının mühafizəsi

**Maddə 21. Bələdiyyə torpaqlarının mühafizəsinin məqsədi və vəzifələri**

21.1. Bələdiyyə torpaqlarının mühafizəsinin məqsədi onlardan səmərəli istifadə edilməsini, torpaqların kənd təsərrüfatı dövriyyəsindən əsassız çıxarılmasına yol verilməməsini, onların zərərli antropogen təsirlərindən qorunmasını, torpaqların münbitliyinin bərpasını və artırılmasını təmin etməkdir.

21.2. Bələdiyyə torpaqlarının istifadəçiləri və icarəçiləri torpaqların mühafizəsi sahəsində aşağıdakıları həyata keçirməlidirlər:

21.2.1. ərazinin səmərəli təşkili;

21.2.2. torpaqların münbitliyinin və digər faydalı xassələrinin qorunması, bərpa edilməsi və yaxşılaşdırılması;

21.2.3. torpaqların su və külək eroziyasından, sellərdən, su basmaqdan, bataqlaşmaqdan, şoranlaşmadan, kimyəvi və radioaktiv maddələrlə çirklənmədən, digər dağıdıcı proseslərdən qorunmasını təmin etmək;

21.2.4. kənd təsərrüfatı bitkiləri altında olan torpaqları kol-kos basmaqdan, torpaqların mədəni-texniki vəziyyətini, habelə meliorasiya və irriqasiya sistemlərinin vəziyyətini pisləşdirən digər proseslərdən qorunması;

21.2.5. yararsızlaşmış kənd təsərrüfatı torpaqlarının münbitliyinin bərpa edilməsi üçün onların konservasiya edilməsi;

21.2.6. korlanmış torpaqların yenidən yararlı hala salınması (rekultivasiyası);

21.2.7. təsərrüfat fəaliyyəti nəticəsində torpaqların korlanması ehtimalı labüd olarsa, onların münbit qatının götürülməsi və təkrar istifadə edilməsi.

21.3. Bələdiyyə torpaqlarının mühafizəsinin məzmunu və qaydaları, bələdiyyələrin, habelə bələdiyyə mülkiyyətində olan torpaqların istifadəçiləri və icarəçilərinin torpaqların mühafizə sahəsindəki vəzifələri Azərbaycan Respublikasının torpaq qanunvericiliyi və digər normativ-hüquqi aktlarla müəyyən edilir.

**Maddə 22. Bələdiyyə torpaqlarından səmərəli istifadə edilməsinin və onların mühafizəsinin stimullaşdırılması**

22.1. Bələdiyyə torpaqlarından səmərəli istifadə olunması və iqtisadi cəhətdən stimullaşdırılması torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin torpağın münbitliyinin saxlanması və yüksəldilməsində marağın artırılması, təsərrüfat fəaliyyətinin zərərli təsirindən torpaqların qorunması məqsədi ilə həyata keçirilir.

22.2. Bələdiyyə torpaqlarından səmərəli istifadə və onların mühafizəsinin iqtisadi cəhətdən stimullaşdırılması aşağıdakı tədbirlər vasitəsi ilə həyata keçirilir:

22.2.1. əvvəllər korlanmış torpaqların bərpası üçün bələdiyyə büdcəsindən vəsait ayırmaq;

22.2.2. kənd təsərrüfatı dövriyyəsinə yeni torpaq sahəsi vermək və ya mövcud kənd təsərrüfatı torpaqlarının yaxşılaşdırılması mərhələsində – layihə üzrə işlərin görülməsi üçün nəzərdə tutulmuş müddətdə torpaq haqqından azad etmək;

22.2.3. torpaqlardan səmərəli istifadə və onların mühafizəsi tədbirlərinin həyata keçirilməsi üçün güzəştlər tətbiq etmək;

22.2.4. torpaqların keyfiyyətinin yaxşılaşdırılmasına və münbitliyinin artırılmasına görə mükafatlandırma və ya qanunvericiliklə müəyyən edilən hallarda kompensasiya vermək.

22.3. Bələdiyyə torpaqlarının mühafizəsi üzrə tədbirlər bələdiyyələrin təsdiq etdiyi proqramlar əsasında həyata keçirilir. Həmin proqramların həyata keçirilməsinin maliyyələşdirilməsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunan qaydada dövlət büdcəsi vəsaitindən istifadə edilə bilər.

**Maddə 23. Bələdiyyə torpaqlarından istifadəyə və onların mühafizəsinə nəzarət**

23.1. Torpaqlardan səmərəli istifadə olunmasına və onların mühafizəsinə bələdiyyə nəzarətinin vəzifələri istifadəyə və icarəyə verilmiş bələdiyyə torpaqlarından səmərəli istifadə edilməsi və mühafizəsi sahəsində torpaq qanunvericiliyinin tələblərinə əməl olunmasını təmin etməkdir.

23.2. Bələdiyyə mülkiyyətində olan torpaqlardan istifadəyə və onların mühafizəsinə nəzarəti bələdiyyələr həyata keçirirlər.

23.3. Mülkiyyətində olan torpaqların istifadəsinə və mühafizəsinə nəzarət funksiyalarını bələdiyyələr aşağıdakı yollarla həyata keçirirlər:



23.3.1. torpaqlardan səmərəsiz istifadə edilməsi nəticəsində bələdiyyə torpaqlarına vurulan zərərin və kənd təsərrüfatı itkilərinin ödənilməsi, habelə torpaq qanunvericiliyinin pozulması barədə qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq məhkəmələrə müraciət edilməsi və iddialar qaldırılması;

23.3.2. öz əraziləri daxilində torpaq qanunvericiliyinin və torpağın mühafizəsi tələblərinin pozulması ilə həyata keçirilən tikinti işlərinin, habelə faydalı qazıntıların hasilatı, aqrokimyəvi, meşə-meliorasiya, geoloji-kəşfiyyat və başqa işlərin dayandırılması, aşkar edilən pozuntuların aradan qaldırılmasına qədər göstərilən işlərin qadağan edilməsi təklifi ilə müvafiq icra hakimiyyəti orqanlarına müraciət edilməsi;

23.3.3. torpaqların münbitliyinin yaxşılaşdırılması, onların istifadəsi və mühafizəsi üzrə investisiya proqramlarının ekspertizasının həyata keçirilməsində iştirak edilməsi;

23.3.4. qanunvericiliklə müəyyən edilmiş digər məsələlərin həll edilməsi.

**Maddə 24. Bələdiyyə torpaqlarının monitorinqinin, torpaq kadastrının və yerquruluşu işlərinin aparılması**

Bələdiyyə torpaqlarının monitorinqinin, torpaq kadastrının və yerquruluşu işlərinin aparılması Azərbaycan Respublikasının torpaq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

## *VI fəsil*

## Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət və mübahisələrin həlli

**Maddə 25. Torpaq mülkiyyətçilərinə, istifadəçilərinə və icarəçilərinə vurulan ziyanın ödənilməsi**

Torpaq sahələrinin geri alınması (məcburi satın alınması) və ya müvəqqəti tutulması, habelə torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin hüquqlarının məhdudlaşdırılması, yaxud hüquqi və fiziki şəxslərin fəaliyyəti nəticəsində dəymiş zərər və əldən çıxmış gəlir Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada bu itkilərə məruz qalmış torpaq mülkiyyətçilərinə, habelə bələdiyyə torpaqlarının istifadəçilərinə və icarəçilərinə tam həcmdə ödənilir.

**Maddə 26. Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət**

Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında qanunvericiliyin pozulmasında təqsirkar olan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 27. Mübahisələrin həlli**

27.1. Bələdiyyə torpaqlarının istifadəsi və mühafizəsi ilə bağlı məhkəmədən kənar mübahisələr bələdiyyələr tərəfindən həll edilir.

27.2. Bələdiyyə torpaqlarının idarə edilməsi ilə bağlı, habelə bələdiyyələr ilə torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri arasında mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhkəmə qaydasında həll edilir.

**Maddə 28. Keçid müddəaları**

Bu qanunun 6.5-ci maddəsində nəzərdə tutulmuş əsasnamə qəbul edilənə qədər bələdiyyə torpaqları üzrə torpaqayırma sənədlərinin hazırlanması və razılaşdırılması qaydaları Azərbaycan Respublikasının torpaq qanunvericiliyi ilə tənzimlənir.

***Dərci: 16 avqust 2001-ci il***

## "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*(9 avqust 2001-ci il, № 548)*

"Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 4.0.8-ci, 14.4-cü və 23.3.2-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanlarına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;



- öz səlahiyyətləri daxilində "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

- "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 18.6-cı maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;
- həmin qanunun 5.2-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanları" dedikdə yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;
- həmin qanunun 6.5-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin yerli qurumları (kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı məqsədləri üçün verilən torpaq sahələrinə dair) və rayon, şəhər icra hakimiyyəti orqanlarının memarlıq xidmətləri (qeyri-kənd təsərrüfatı məqsədləri üçün verilən torpaq sahələrinə dair) həyata keçirirlər.

***Dərci: 16 avqust 2001-ci il***

## "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

*(15 mart 2002-ci il, № 274-IIQ)*

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnamə təsdiq edilsin *(əlavə olunur).*
2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

***Dərci: 14 may 2002-ci il***

*Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ saylı qanunu ilə* ***təsdiq edilmişdir***

# "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" ƏSASNAMƏ

***Əlavə və dəyişikliklər:***

*1. 25 mart 2003-cü il, q.m.t. 07.06.2003*
*2. 06 aprel 2004-cü il, q.m.t. 28.04.2004*
*3. 09 aprel 2004-cü il, q.m.t. 14.05.2004*
*4. 23 dekabr 2005-ci il, q.m.t. 16.02.2006*
*5. 21 aprel 2006-cı il, q.m.t. 25.06.2006*
*6. 10 oktyabr 2006-cı il, q.m.t. 01.12.2006*

***Bu əsasnamə "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 6.5-ci maddəsinə uyğun olaraq mülkiyyətə, istifadəyə və icarəyə vermək üçün bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydalarını müəyyən edir.***

## I. Ümumi müddəalar

1. Bələdiyyə mülkiyyətində olan torpaqların mülkiyyət, istifadə və icarə hüququ ilə hüquqi və fiziki şəxslərə verilməsi bələdiyyələrin qərarı və tərəflər arasında bağlanmış müqavilə əsasında həyata keçirilir.

2. Xüsusi mülkiyyətə verilən bələdiyyə torpaqlarının ölçüsü müvafiq inzibati-ərazi vahidi üzrə adambaşına düşən orta torpaq norması, yerli şərait, əhalinin sıxlığı, torpaq ehtiyatlarının miqdarı və bu məqsədlə yaxın dövr üçün tələbat nəzərə alınmaqla bələdiyyə tərəfindən "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 8.0.1.-8.0.6-cı maddələrinə uyğun olaraq müəyyən edilir.

3. İstifadəyə və icarəyə verilən bələdiyyə torpaqlarının ölçüsü müvafiq inzibati-ərazi vahidi üzrə adambaşına düşən orta torpaq norması, yerli şərait, əhalinin əsas məşğuliyyəti, torpaq ehtiyatının miqdarı nəzərə alınmaqla müvafiq bələdiyyə tərəfindən müəyyənləşdirilir.

4. Bələdiyyə torpaqları üzərində mülkiyyət, istifadə və icarə hüquqlarının, habelə bələdiyyə torpaqlarının satışı bələdiyyələrin qərarı ilə bilavasitə, torpaq hərracları və ya müsabiqələri vasitəsi ilə "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu və 10-cu maddələrinə və bu əsasnaməyə uyğun olaraq həyata keçirilir.



## II. Bələdiyyə torpaqlarının ayrılması qaydası

5. Bələdiyyələr öz ərazilərində bələdiyyə torpaqlarından həyətyanı sahə və kənd təsərrüfatı məqsədləri üçün, sənaye, nəqliyyat, rabitə və digər obyektlərin, fərdi yaşayış və bağ evlərinin, fərdi və kooperativ qarajların tikintisi, sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədilə zəruri tikililərin inşası, habelə inzibati və çoxmənzilli çoxmərtəbəli binaların tikintisi üçün qanunvericiliyə və bu əsasnamənin 2-ci və 3-cü bəndlərinə uyğun olaraq hüquqi və fiziki şəxslərin istifadəsinə, icarəsinə və Azərbaycan Respublikasının vətəndaşlarının və hüquqi şəxslərinin mülkiyyətinə, həmçinin bələdiyyələrin öz ehtiyaclarını və fəaliyyətlərini təmin etmək üçün torpaq sahəsi ayırırlar.

6. Bələdiyyələr bu əsasnamənin 5-ci bəndində göstərilmiş məqsədlər üçün torpaq sahələrini ərazinin yerquruluşu-təsərrüfat planına, yaşayış məntəqəsinin baş planına, ərazinin planlaşdırılması və tikintisi layihələrinə uyğun olaraq ayırırlar.

7. Ərazinin planlaşdırılması və tikintisi layihələri olmadıqda bu əsasnamənin 5-ci bəndində göstərilmiş obyektlərin yerləşdirilməsi və ya tikintisi üçün, habelə fərdi yaşayış və bağ evlərinin, fərdi və kooperativ qarajların tikintisi zərurəti yarandığı hallarda yeni yaşayış məhəllələrinin salınması üçün bələdiyyələr torpaq sahələrinin seçilməsini və ayrılmasını dəqiqləşdirmək məqsədi ilə ərazinin yerquruluşu-təsərrüfat planı, yaşayış məntəqəsinin baş planı əsasında yaxın dövr üçün şəhərsalma və tikinti normalarına uyğun olaraq ərazinin planlaşdırılması və tikintisi layihələrinin hazırlanmasını və həyata keçirilməsini təşkil edirlər. Bələdiyyələr ərazinin planlaşdırılması və tikintisi layihələrini müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırırlar. Müvafiq icra hakimiyyəti orqanı memarlıq-planlaşdırma baxımından obyektlərin yerləşdirilməsinə təklif verə bilər. *Torpaq sahəsinin mülkiyyətə, istifadəyə və icarəyə verilməsi bələdiyyələrin qərarı ilə sahənin xüsusiyyətinə və torpağın ayrılma məqsədinə, mövcud texniki normalara, habelə yerquruluşu və şəhərsalma sənədlərinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanlarının rəyi alındıqdan sonra torpaqayırma qaydasında həyata keçirilir. (4)*

8. Kənd təsərrüfatı məqsədləri üçün ayrılan torpaq sahələri bu əsasnamənin 11-ci, 13-23-cü və 25-27-ci bəndlərində nəzərdə tutulmuş qaydada rəsmiləşdirilir.

9. Ümumi istifadədə olan bələdiyyə torpaqlarında əhalinin ictimai tələbatının (ictimai-iaşə, əyləncə, idman və sair) ödənilməsi məqsədi ilə xidmət yerlərinin seçilməsi, mövsümi (dörd ayadək müddətə) xarakter daşıyan obyektlərin yerləşdirilməsi və quraşdırılması bələdiyyələrin qərarı və ya müqavilə əsasında şəhərsalma və memarlıq norma və qaydalarına uyğun olaraq torpaqayırma qaydası tətbiq edilmədən həyata keçirilir. Bu obyektlər ərazinin məqsədli istifadəsinə və ahəngdar fəaliyyətinə maneçilik törətməməlidir.

10. "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 16.3-cü və 16.4-cü maddələrinə uyğun olaraq fərdi yaşayış və bağ evlərinin, qarajların, habelə sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədilə zəruri obyektlərin tikintisi üçün qeyri-qanuni istifadə edilən (müvafiq qayda-

da rəsmiləşdirilməmiş) bələdiyyə torpaqlarının hüquqi və fiziki şəxslərdən geri alınması mümkün olmadığı hallarda həmin torpaq sahələri (elektrik, rabitə, nəqliyyat, qaz, su, kanalizasiya və digər kommunikasiya xətlərinin mühafizə zolağında, habelə sürüşmə zonasında yerləşmiş torpaq sahələri istisna olmaqla) onların mülkiyyətinə, istifadəsinə və icarəsinə bu əsasnamənin 11-ci, 14-23-cü və 25-27-ci bəndlərində müəyyən edilmiş qaydada verilir.

## III. Torpaq sahəsinin ayrılmasına dair müraciətə baxılması qaydası

11. Bələdiyyə torpaqlarından hər hansı bir hüquqda torpaq sahəsinin ayrılması üçün hüquqi və fiziki şəxslər ərizə ilə müvafiq bələdiyyəyə müraciət edirlər. Hüquqi və fiziki şəxslər müraciətlərində aşağıdakıları göstərməlidirlər:

11.1. torpaq sahəsinin hansı məqsəd üçün ayrılmasını;

11.2. torpaq sahəsinin hansı hüquqda (xüsusi mülkiyyət, istifadə və ya icarə hüququ ilə) ayrılmasını;

11.3. əvvəllər torpaq sahəsi alıb-almadığını;

11.4. ailə üzvlərinin adına torpaq sahəsi olub-olmadığını;

11.5. ailə üzvlərinin sayını və tərkibini;

11.6. torpaq sahəsinin yerini, yaxud həmin yerin ünvanını və ölçüsünü;

11.7. torpaq sahəsində tikilməsi, yaxud quraşdırılması nəzərdə tutulan obyektin eskizini;

11.8. daimi yaşayış yerini (fiziki şəxslər) və ya hüquqi ünvanını (hüquqi şəxslər).

12. Fərdi yaşayış və bağ evlərinin tikintisinə, həyətyanı sahələrə ehtiyacı olan vətəndaşların uçotu qaydasını və şərtlərini bələdiyyələr müvafiq ərazi üzrə müəyyən edir və öz qərarları ilə təsdiq edirlər. Bələdiyyələr həmin qayda və şərtlər barədə vətəndaşlara məlumat verirlər.

*13. Bələdiyyələrin ehtiyat fondunun kənd təsərrüfatına yararlı torpaqları kənd təsərrüfatı istehsalı üçün istifadəyə və icarəyə aşağıdakı növbəliliyə əməl edilməklə verilir: (6)*

*13.1. bələdiyyələrin ərazisində müvəqqəti məskunlaşmış məcburi köçkünlərə;*

*13.2. sərhədyanı və dağlıq ərazilərdə yaşayan, daimi yaşamaq üçün həmin ərazilərə köçən, təsərrüfatla məşğul olmaq istəyən gənclərə;*

*13.3. torpaqlardan istifadə etməklə ailə kəndli təsərrüfatı kimi fəaliyyət göstərmək istəyən, müvafiq yaşayış məntəqəsində daimi yaşayan və qeydiyyatda olan torpaq payı almamış vətəndaşlara və istefaya çıxmış hərbi qulluqçulara;*

*13.4. müvafiq ərazidə yerləşən hüquqi və yaşayan fiziki şəxslərə;*

*13.5. Azərbaycan Respublikasının digər hüquqi və fiziki şəxslərinə;*

*13.6. xarici ölkələrin hüquqi və fiziki şəxslərinə.*

*13-1. Bələdiyyələrin ehtiyat fondunun özəlləşdirilə bilən torpaq sahələri Azərbaycan Respublikası vətəndaşlarının və hüquqi şəxslərinin mülkiyyətinə alqı-satqı qaydasında verilir. (6)*



*13-1.1. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə əlil olmuş şəxslərə və həlak olanların ailəsinə, ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçulara fərdi yaşayış evinin tikintisi üçün, həyətyanı sahə və bağ sahəsi üçün torpaq sahələri onların mülkiyyətinə bir dəfə pulsuz verilir.*

*13-1.2. Sərhədyanı və dağlıq ərazilərdə yaşayan, daimi yaşamaq üçün həmin ərazilərə köçən, təsərrüfatla məşğul olmaq istəyən gənclər, qanunvericiliyə uyğun olaraq, torpaq sahələrini satın almaq istədikdə torpaq sahələri ilə ilk növbədə təmin olunurlar.*

*13-1.3. Torpaqlardan istifadə etməklə ailə kəndli təsərrüfatı kimi fəaliyyət göstərmək istəyən, müvafiq yaşayış məntəqəsində daimi yaşayan və qeydiyyatda olan torpaq payı almamış vətəndaşlar və istefaya çıxmış hərbi qulluqçular, qanunvericiliyə uyğun olaraq, torpaq sahələrini satın almaq istədikdə torpaq sahələri ilə bu əsasnamənin 13-1.2-ci yarımbəndində qeyd olunan şəxslərdən sonrakı növbədə təmin olunurlar.*

*13-2. Yaşa, xəstəliyə, ştatların ixtisarına, ailə vəziyyətinə görə ehtiyata və ya istefaya buraxılmış zabitləri, gizirləri və miçmanları, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularını bələdiyyələr torpaqla "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsində göstərilmiş qaydada təmin edirlər. (6)*

14. Hüquqi və fiziki şəxslərin müraciətlərinə ərizənin daxil olduğu gündən etibarən 5 gün müddətində baxılır.

15. Bələdiyyə torpaq sahəsinin ayrılmasının mümkünlüyünü dəqiqləşdirmək məqsədi ilə müraciətdə göstərilənlərə, ərazinin yerquruluşu-təsərrüfat planına, yaşayış məntəqəsinin baş planına, ərazinin planlaşdırılması və tikintisi layihələrinə baxır, hüquqi və fiziki şəxslərin iştirakı ilə ayrılması nəzərdə tutulan torpaq sahəsinə yerində baxış keçirir.

16. Ayrılması nəzərdə tutulan torpaq sahəsinin məqsədli təyinatı həmin ərazinin yerquruluşu-təsərrüfat planına, yaşayış məntəqəsinin baş planına, ərazinin planlaşdırılması və tikintisi layihələrinə uyğun olarsa və həmin yer başqa hüquqi və fiziki şəxsin mülkiyyətinə, istifadəsinə və ya icarəsinə verilməmişdirsə, habelə elektrik, rabitə, nəqliyyat, qaz, su, kanalizasiya və digər kommunikasiya xətlərinin mühafizə zolağında və sürüşmə zonasında yerləşməmişdirsə, bələdiyyə müraciət edən hüquqi və fiziki şəxsə torpaq sahəsinin ayrılmasını məqsədəuyğun hesab edir. Həmin ərazidə torpaq sahəsinin ayrılması mümkün olmadığı halda bələdiyyə müraciət edən şəxsə yaşayış məntəqəsinin baş planına, ərazinin planlaşdırılması və tikintisi layihələrinə uyğun olan boş torpaq sahəsi təklif edir və ya torpaq sahəsinin ayrılmasından imtina edilməsi barədə qərar qəbul edir. Bələdiyyə imtinanın səbəblərini göstərməklə müraciət etmiş şəxsə əsaslandırılmış cavab verir. Torpaq sahəsinin verilməsindən imtina edilməsi barədə bələdiyyənin qərarından *bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqana və ya (3)* məhkəmə qaydasında şikayət verilə bilər.

17. Bələdiyyə hüquqi və fiziki şəxsin müraciətində göstərilmiş yerdə torpaq sahəsinin ayrılmasını məqsədəuyğun hesab etdiyi halda 5 gün müddətində müraciətdən çıxarışı torpaq sahəsinin planını (cizgisini) hazırlamaq üçün müvafiq icra hakimiyyəti orqanına göndərir.

## IV. Torpaqayırma sənədlərinin hazırlanması və rəsmiləşdirilməsi

18. Müvafiq icra hakimiyyəti orqanı 10 gün müddətində bələdiyyənin və ərizəçinin iştirakı ilə ayrılması nəzərdə tutulan torpaq sahəsinin yerini, habelə torpaq sahəsinin yerləşdiyi zonanı (torpaq sahəsinin normativ qiymətini müəyyən etmək üçün) dəqiqləşdirir.

19. Ayrılması nəzərdə tutulan torpaq sahəsinin məqsədli təyinatı yaşayış məntəqəsinin baş planına, ərazinin planlaşdırılması və tikintisi layihələrinə uyğun olduğu halda müvafiq icra hakimiyyəti orqanı yerquruluşu işlərini (planalma) aparır və həmin yerin planını (cizgisini) sahənin ölçüsündən asılı olaraq tələb olunan miqyasda (1:500, 1:2000, 1:5000 və ya 1:10000 miqyasında) hazırlayır.

20. Yerquruluşu işləri (planalma) və ayrılması nəzərdə tutulan torpaq sahəsinin planının (cizgisinin) hazırlanması hüquqi və fiziki şəxslərin vəsaiti hesabına aparılır.

21. Müvafiq icra hakimiyyəti orqanı ayrılması nəzərdə tutulan torpaq sahəsinin planını (cizgisini) təsdiq edərək, torpaq sahəsinin normativ qiyməti barədə sənəd ilə birlikdə 10 gün müddətində bələdiyyəyə göndərir.

22. Bələdiyyə müvafiq icra hakimiyyəti orqanından daxil olmuş sənədlərə baxaraq 5 gün müddətində torpaq sahəsinin mülkiyyətə, istifadəyə və ya icarəyə ayrılması barədə (torpaq sahəsi mülkiyyətə verildiyi halda dəyəri ödənildikdən sonra) qərar qəbul edir.

23. Torpaq sahəsinin mülkiyyətə, istifadəyə və ya icarəyə verilməsi barədə bələdiyyənin qərarından sonra həmin sahənin sərhədləri yerdə (naturada) yerquruluşu qaydasında müəyyən edilir.

24. Bələdiyyələrin qərarı ilə hüquqi və fiziki şəxslərə ayrılmış torpaq sahələrində tikinti işlərinə başlanmazdan əvvəl tikiləcək obyektin layihəsi, habelə mühəndis-kommunikasiya pasportu hazırlanmalı və müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmalıdır. Tikiləcək obyektin layihəsi, habelə mühəndis-kommunikasiya pasportu razılaşdırılmadan tikinti işlərinin başlanmasına (aparılmasına) yol verilmir.

25. Bələdiyyələr ayrılmış torpaq sahəsi üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədlərin *alınması (5)* üçün öz qərarından *çıxarışı və torpaq sahəsinin planını (cizgisini) ərizəçiyə verir. (5)*

*26. Çıxarılıb. (5)*

27. Torpağa mülkiyyət, istifadə və icarə hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmasını təsdiq edən sənəd qanunvericiliklə müəyyən edilmiş qaydada verilir.



# "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*(6 may 2002-ci il, № 696)*

***Əlavə və dəyişikliklər:***

*1. 2 avqust 2006-cı il, q.m.t. 03.08.2006*

*2. 23 noyabr 2007-ci il, q.m.t. 02.12.2007*

"Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunu tətbiq etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnaməyə uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin əsasnaməyə uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının prezidentinə məlumat versin;
- öz səlahiyyətləri daxilində həmin əsasnamədən irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

- "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" *Əsasnamənin 7-ci bəndinin ikinci və üçüncü cümlələrində və 24-cü bəndində (1)* nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini rayon, şəhər icra hakimiyyəti orqanlarının memarlıq xidmətləri həyata keçirirlər;
- həmin əsasnamənin 17-ci, 18-ci, 19-cu, 21-ci, 22-ci bəndlərində *(2)* nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin yerli qurumları həyata keçirirlər;
- *Çıxarılıb (2)*
- *həmin əsasnamənin 7-ci bəndinin dördüncü cümləsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublika-*

*sının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin yerli qurumları (kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı məqsədləri üçün verilən torpaq sahələrinə dair) və rayon, şəhər icra hakimiyyəti orqanlarının memarlıq xidmətləri (qeyri-kənd təsərrüfatı məqsədləri üçün verilən torpaq sahələrinə dair) həyata keçirirlər. (1)*

***Dərci: 14 may 2002-ci il***

# Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında Azərbaycan Respublikasının Qanunu

*(13 may 2003-cü il, № 454-IIQ)*

*Əlavə və dəyişikliklər:*
*1. 23 dekabr 2005-ci il, q.m.t. 16.02.2006*

***Bu qanun Azərbaycan Respublikasında bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsinin hüquqi əsaslarını müəyyən edir.***

## *I fəsil*
## Ümumi müddəalar

**Maddə 1. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət anlayışı**

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət - bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri (bundan sonra "bələdiyyələr" adlandırılacaq) tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına (Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına) riayət edilməsinin təmin olunması, bələdiyyələr tərəfindən qanunvericiliyin pozulması hallarının aradan qaldırılması məqsədi ilə həyata keçirilən fəaliyyətdir.

**Maddə 2. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında qanunvericilik**

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunundan, bu qanundan, bələdiyyələrin fəaliyyətini tənzimləyən digər qanunlardan və normativ-hüquqi aktlardan ibarətdir.



**Maddə 3. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan**

3.1. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

3.2. Bələdiyyələrin müvafiq komissiyaları və seçicilər bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsinə cəlb edilə bilərlər.

**Maddə 4. İnzibati nəzarətin həyata keçirilməsinin şərtləri**

4.1. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət yalnız Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə nəzərdə tutulmuş qaydada və hallarda həyata keçirilir.

4.2. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət yalnız qanunçuluğa əməl olunması baxımından həyata keçirilir.

4.3. Qanunvericilik və icra hakimiyyətləri tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının 144-cü maddəsinin II hissəsinə uyğun olaraq bələdiyyələrə verilən əlavə səlahiyyətlərin həyata keçirilməsinə nəzarəti həmin hakimiyyətlər inzibati nəzarəti həyata keçirən orqana həvalə edə bilərlər.

4.4. İnzibati nəzarət bələdiyyələrin yerli əhəmiyyətli məsələləri qanun çərçivəsində müstəqil və sərbəst surətdə həll etmək hüququnu məhdudlaşdıra bilməz.

4.5. İnzibati nəzarət həyata keçirilərkən bələdiyyələrin fəaliyyətinə edilən müdaxilə qanunda nəzərdə tutulan məqsədə mütənasib olmalıdır.

*4.6. Azərbaycan Respublikasının Hesablama Palatası bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın sorğusu əsasında yerli büdcənin maliyyə-büdcə ekspertizasını keçirir, rəy hazırlayır, təkliflər verir və zərurət yarandıqda audit yoxlamasını həyata keçirir. (1)*

## *II fəsil*
## İnzibati nəzarətin həyata keçirilməsi qaydası

**Maddə 5. İnzibati nəzarət icraatının başlanması üçün əsaslar**

5.0. İnzibati nəzarət icraatının başlanması üçün əsaslar aşağıdakılardır:

5.0.1. bələdiyyələrin normativ aktlarının və bu qanunun 6-cı maddəsində nəzərdə tutulmuş aktların bu qanunun 1-ci maddəsində göstərilən normativ hüquqi aktlara zidd olması barədə kifayət qədər əsas olduqda;

5.0.2. hüquqlarına və ya qanuni mənafelərinə bələdiyyə tərəfindən zərər vurulduğunu iddia edən fiziki və ya hüquqi şəxsin, yaxud dövlət orqanının müraciəti daxil olduqda.

**Maddə 6. İnzibati nəzarəti həyata keçirən orqana mütləq təqdim olunan bələdiyyə aktları**

6.0. Bu qanunun 5.0.1-ci maddəsində nəzərdə tutulmuş əsas üzrə inzibati nəzarətin həyata keçirilməsini təmin etmək məqsədi ilə bələdiyyələr qəbul etdiklə-

ri aşağıdakı aktların bir surətini həmin aktların qəbul edildiyi andan 15 gündən gec olmayaraq inzibati nəzarəti həyata keçirən orqana göndərməlidirlər:

6.0.1. bələdiyyələrin normativ aktları;

6.0.2. dövlət büdcəsindən ayrılan maliyyə vəsaitinin istifadəsi barədə aktlar;

6.0.3. bələdiyyə mülkiyyətində olan əmlaka dair mülkiyyət hüququnun həyata keçirilməsi barədə aktlar;

6.0.4. birdəfəlik yerli vergilərin və rüsumların tətbiqi barədə aktlar;

6.0.5. yerli rəy sorğusunun nəticələrini əks etdirən qərarlar;

6.0.6. bələdiyyələr üçün xərclər və maliyyə öhdəlikləri doğuran aktlar.

**Maddə 7. Müraciətlər üzrə həyata keçirilən inzibati nəzarət**

7.1. Bu qanunun 5.0.2-ci maddəsində nəzərdə tutulmuş müraciət ərizəçinin hüquqlarının və ya qanuni mənafelərinin pozulduğu, yaxud ona bu barədə məlum olduğu gündən 6 ay ərzində verilə bilər.

7.2. İnzibati nəzarəti həyata keçirən orqan müraciətə daxil olduğu andan 15 gün müddətində, əlavə araşdırmalar tələb olunursa, 30 gün müddətində baxır. Müraciətə baxılması müddətinin uzadılması barədə ərizəçiyə dərhal məlumat verilməlidir.

7.3. İnzibati nəzarəti həyata keçirən orqan daxil olmuş müraciətə dair aşağıdakı iki qərardan birini qəbul edir:

7.3.1. bu qanunun 8-ci maddəsində nəzərdə tutulmuş icraata başlayır;

7.3.2. müraciətə baxmaqdan imtina edir və bu barədə müvafiq şəxsə və ya orqana əsaslandırılmış yazılı cavab göndərir.

**Maddə 8. İnzibati nəzarət icraatı**

8.1. İnzibati nəzarəti həyata keçirən orqan daxil olmuş müraciətə baxarkən həmin müraciətdə göstərilmiş və mübahisə doğuran bələdiyyə aktının, habelə əlavə sənədlərin və ya məlumatların ona göndərilməsi barədə müvafiq bələdiyyəyə müraciət edə bilər. Bələdiyyə bu sənədləri və ya məlumatları həmin sorğunu aldığı andan 15 gün ərzində inzibati nəzarəti həyata keçirən orqana təqdim etməlidir.

8.2. İnzibati nəzarəti həyata keçirən orqan ona təqdim olunmuş müraciətə baxarkən zəruri hallarda yerində araşdırmalar apara bilər. Bu cür araşdırmalar aparılmasına bələdiyyələr tərəfindən maneə törədilməməlidir.

8.3. İnzibati nəzarəti həyata keçirən orqan müraciətin araşdırılması nəticəsində bələdiyyənin fəaliyyətinin qanuna zidd olduğunu aşkar etdikdə, həmin fəaliyyətin 15 gün müddətində dayandırılması və vurulmuş ziyanın aradan qaldırılması barədə müvafiq bələdiyyəyə müraciət edir.

8.4. İnzibati nəzarəti həyata keçirən orqan bu qanunun 5.0.1-ci maddəsində nəzərdə tutulmuş hallarda və ya daxil olmuş müraciətin araşdırılması nəticəsində bələdiyyə aktının bu qanunun 1-ci maddəsində göstərilmiş normativ-hüquqi aktlara zidd olduğunu aşkar etdikdə, həmin aktın 15 gün ərzində dəyişdirilməsi və ya ləğv edilməsi barədə müvafiq bələdiyyəyə müraciət edir.



8.5. İnzibati nəzarəti həyata keçirən orqanın müraciəti bu qanunun 8.3. və 8.4-cü maddələrində müəyyən olunmuş müddət ərzində müvafiq bələdiyyə tərəfindən yerinə yetirilmədikdə o, 15 gün ərzində məhkəməyə müraciət edir. Məhkəməyə müraciət edilməsi barədə müvafiq bələdiyyəyə dərhal məlumat verilməlidir.

8.6. Hər hansı bələdiyyə aktı və ya bələdiyyənin fəaliyyəti dövlət mənafelərinə və ya ictimai mənafelərə ağır ziyan vura bilərsə, inzibati nəzarəti həyata keçirən orqan müvafiq bələdiyyəyə dərhal həmin aktın ləğv edilməsini və ya həmin fəaliyyətə xitam verilməsini təklif edir. Bu təklif 3 gün müddətində yerinə yetirilmədikdə, inzibati nəzarəti həyata keçirən orqan dərhal məhkəməyə müraciət edir və həmin iddianın təmin edilməsi ilə bağlı qanunvericilikdə müəyyən edilmiş qaydada müvafiq qərar çıxarılmasını məhkəmədən xahiş edir.

8.7. Bələdiyyənin fəaliyyətində cinayət aşkar etdikdə, inzibati nəzarəti həyata keçirən orqan müvafiq tədbirlər görülməsi üçün səlahiyyətli dövlət orqanına müraciət edə bilər.

**Maddə 9. İnzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi**

İnzibati nəzarəti həyata keçirən orqan hər ilin sonunda öz fəaliyyəti haqqında Azərbaycan Respublikasının Milli Məclisinə illik məruzə təqdim edir. Bu məruzədə inzibati nəzarəti həyata keçirən orqan bələdiyyələrin fəaliyyətini tənzimləyən qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi ilə bağlı təkliflər verə bilər.

**Maddə 10. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın təklif və tövsiyələri**

10.1. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan bələdiyyələrin fəaliyyətində qanunçuluq prinsipinə riayət olunmasının təmin edilməsi ilə bağlı ümumiləşdirmələr apara və onları öz təklif və tövsiyələri ilə birlikdə müvafiq bələdiyyələrə təqdim edə bilər.

10.2. Bu qanunun 10.1-ci maddəsində nəzərdə tutulmuş təklif və tövsiyələr bələdiyyələrin iclaslarında müzakirə olunur və müvafiq qərar qəbul olunur.

## *III fəsil*
## Yekun müddəalar

**Maddə 11. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın hərəkətlərindən şikayət verilməsi**

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın və onun vəzifəli şəxslərinin qanuna zidd qərar və ya hərəkətlərindən (hərəkətsizliyindən) Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına və ya məhkəməyə qanunla müəyyən edilmiş qaydada şikayət verilə bilər.

**Maddə 12. Bu qanunun pozulmasına görə məsuliyyət**

Bu qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Maddə 13. Qanunun qüvvəyə minməsi**

Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

***Dərci: 4 iyun 2003-cü il.***

## "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*(27 sentyabr 2003-cü il, № 922)*

"Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar olaraq onun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- öz səlahiyyətləri daxilində həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

- "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun 3.1-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;
- həmin qanunun 11-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

***Dərci: 5 oktyabr 2003-cü il***



## Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə İş Mərkəzi haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*(12 iyul 2000-ci il)*

*Əlavə və dəyişikliklər:*
*1.24 avqust 2002, d.t. 27.08.2002*
*2. 29 dekabr 2004, d.t. 07.01.2005*

Azərbaycan Respublikası Prezidentinin 8 fevral 2000-ci il tarixli 333 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə İş Mərkəzinin yaradılması ilə əlaqədar **qərara alıram:**

I. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə İş Mərkəzinin haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

II. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində Mərkəzə ştat vahidlərinin ayrılması, Mərkəzin fəaliyyətinin təminatı ilə bağlı maliyyə və maddi-texniki təchizat məsələlərini həll etsin.

III. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

*Azərbaycan Respublikası Prezidentinin*
*2000-ci il 12 iyul tarixli 364 nömrəli Fərmanı ilə*
***təsdiq edilmişdir***

## Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə İş Mərkəzi haqqında ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə İş Mərkəzi (bundan sonra "Mərkəz") Azərbaycan Respublikası Prezidentinin "Bələdiyyələrin fəaliyyətinin təşkil edilməsinin bəzi məsələləri haqqında" 2000-ci il 8 fevral tarixli 333 nömrəli Sərəncamı ilə yaradılmışdır.

1.2. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin əmrlərini, digər normativ hüquqi aktları və bu Əsasnaməni rəhbər tutur.

1.3. Mərkəz yerli özünüidarə orqanlarının üzvləri və həmin orqanların icra aparatlarının işçiləri tərəfindən bələdiyyələr haqqında qanunvericiliyin öyrənilməsinə, onların fəaliyyətinin müasir tələblərə və hamılıqla qəbul edilmiş standartlara uyğun təşkil edilməsinə kömək göstərilməsini və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsini təmin edir.

1.4. Mərkəz hüquqi şəxsdir, dövlət büdcəsindən maliyyələşdirilir, əmlaka, müstəqil balansa, dövlət xəzinədarlığında xəzinə uçot kitabına malikdir, öz adından müqavilələr bağlaya bilər, əmlak və qeyri-əmlak hüquqları əldə edə və qanunvericilikdə nəzərdə tutulan qaydada müvafiq öhdəliklər daşıya bilər.

Mərkəzin Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı olan möhürü, habelə müəyyən olunmuş nümunədə blankları vardır.

1.5. Mərkəzə verilmiş əmlak dövlət mülkiyyətidir. Mərkəz öz fəaliyyətinin həyata keçirilməsi üçün ona operativ idarəetmə hüquqları ilə verilmiş əmlaka və bu əmlak üzərində istifadə hüququna malikdir.

1.6. Mərkəz öz fəaliyyətinin nəticələrinin operativ və mühasibat uçotunu aparır, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada və müddətlərdə öz fəaliyyətinin nəticələri barədə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə statistik və mühasibat hesabatları təqdim edir.

1.7. Mərkəzin yenidən təşkili və ləğv edilməsi qanunvericiliyə uyğun olaraq həyata keçirilir.

## 2. Mərkəzin əsas vəzifələri və funksiyaları

2.1. Mərkəz yerli özünüidarə orqanlarının üzvləri və həmin orqanların icra aparatlarının işçiləri tərəfindən bələdiyyələr haqqında qanunvericiliyin öyrənilməsinə, onların fəaliyyətinin müasir tələblərə və hamılıqla qəbul edilmiş standartlara uyğun təşkil edilməsinə bələdiyyələrin fəaliyyətinin aşağıdakı istiqamətləri üzrə kömək göstərir:

- yerli sosial müdafiə və sosial inkişaf, yerli iqtisadi inkişaf, yerli ekoloji və yerli xidmət üzrə proqramlar müəyyən edilərkən;
- bələdiyyələr tərəfindən bələdiyyə ittifaqları yaradılarkən;
- bələdiyyələr tərəfindən bələdiyyə orqanları yaradılarkən və onlara yerli özünüidarə məsələlərini həll etmək üçün səlahiyyətlər verilərkən;
- bələdiyyə iclasları keçirilərkən;
- bələdiyyələrin daimi və başqa komissiyaları tərəfindən bələdiyyələrin səlahiyyətinə aid məsələlər qabaqcadan nəzərdən keçirilərkən və hazırlanarkən, habelə bələdiyyələrin qərarlarının həyata keçirilməsinə yardım göstərilərkən, bələdiyyənin tabeliyində olan müəssisə, idarə və təşkilatların fəaliyyətinə nəzarət həyata keçirilərkən;
- bələdiyyə üzvlərinin səlahiyyətlərinin itirilməsi və bələdiyyə üzvlərinin səlahiyyətlərinə xitam verilməsi ilə bağlı məsələlər həll olunarkən;



- bələdiyyə ərazilərində vətəndaşların yığıncaqları keçirilərkən;
- vətəndaşların bələdiyyələrə, bələdiyyə orqanlarına və onların vəzifəli şəxslərinə müraciəti zamanı vətəndaşların müraciətlərinə cavab verilməsi ilə bağlı çətinliklər meydana çıxarkən;
- bələdiyyələr tərəfindən bələdiyyə mülkiyyəti obyektləri fiziki və hüquqi şəxslərin müvəqqəti və ya daimi istifadəsinə, icarəsinə verilərkən, qanunla müəyyənləşdirilmiş qaydada özgəninkiləşdirilərkən və ya istifadəyə verilən obyektlərdən istifadə şərtləri müəyyənləşdirilərkən;
- bələdiyyələr tərəfindən bələdiyyənin hüdudları daxilində olan torpaqlardan istifadə şərtləri müəyyənləşdirilərkən;
- bələdiyyə mülkiyyətinin özəlləşdirilməsi qaydası və şərtləri müəyyənləşdirilərkən;
- Azərbaycan Respublikasının Konstitusiyasında və bələdiyyələr haqqında qanunvericilikdə nəzərdə tutulmuş bələdiyyə vəzifələri üçün bələdiyyə mülkiyyətindən istifadə olunarkən;
- bələdiyyələr tərəfindən digər hüquqi və fiziki şəxslərlə münasibətlər qurularkən, bələdiyyə orqanları tərəfindən bələdiyyə ərazisinin kompleks sosial-iqtisadi inkişafında hüquqi və fiziki şəxslərin iştirakı əlaqələndirilərkən, Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş hallarda bələdiyyələr tərəfindən hüquqi və fiziki şəxslərin təsərrüfat fəaliyyəti üçün məhdudiyyətlər müəyyənləşdirilərkən;
- bələdiyyə sifarişi verilərkən;
- bələdiyyələr tərəfindən yerli vergilər, ödənişlər, onların ödənilməsi üzrə güzəştlər, habelə yerli vergi və ödənişlərin tətbiqinin zəruriyyəti və konkret dərəcələri müəyyənləşdirilərkən;
- bələdiyyələr tərəfindən büdcədənkənar fondlar yaradılarkən;
- bələdiyyələr kredit münasibətlərində iştirak edərkən və bələdiyyələrin maliyyə-kredit və sığorta təşkilatları ilə münasibətləri qurularkən;
- büdcə sisteminin qanunvericiliklə müəyyən edilmiş ümumi prinsipləri və Azərbaycan Respublikasında tətbiq olunan büdcə təsnifatı əsasında yerli büdcə tərtib və icra edilərkən;
- yerli vergi və ödənişlərin yığılması və yerli büdcələrə köçürülməsi üçün dövlət vergi xidməti orqanları ilə müqavilə bağlanarkən;
- bələdiyyələr tərəfindən yerli rəy sorğusunun təyin edilməsi haqqında qərar hazırlanarkən;
- bələdiyyə qulluqçuları tərəfindən əmək fəaliyyəti prosesində qanunvericilikdə nəzərdə tutulmuş vəzifələr həyata keçirilərkən;
- bələdiyyələr tərəfindən qanunvericilikdə nəzərdə tutulan digər hüquq və vəzifələr həyata keçirilərkən.

2.2. Mərkəz bələdiyyələrlə işin təşkili və bələdiyyələrə metodoloji yardım göstərilməsi sahəsində vəzifələrini aşağıdakı yollarla həyata keçirir:

- bələdiyyələrin fəaliyyətinə dair bülletenlər, məcmuələr, metodiki vəsaitlər və s. hazırlayır;

- yerli özünüidarə orqanlarının üzvləri və həmin orqanların icra aparatlarının işçiləri arasında hüququn ayrı-ayrı sahələrinə dair diskussiyalar təşkil edir, seminarlar və yığıncaqlar keçirir;

- yerli özünüidarə orqanlarının üzvlərinin və həmin orqanların icra aparatlarının işçilərinin bələdiyyələr haqqında qanunvericilik sahəsində məlumatlarının artırılmasını təmin edir, bələdiyyələr haqqında qanunvericilik aktlarını çoxaldır və bələdiyyələrə çatdırır;

- bələdiyyələrin fəaliyyətinin ayrı-ayrı sahələrinin qanunvericiliyə uyğunlaşdırılması barədə yerli özünüidarə orqanlarının üzvləri və həmin orqanların icra aparatlarının işçilərinin şifahi və yazılı sorğularına cavab verir və s.

2.3. Mərkəz yerli rəy sorğusunun təyin edilməsi haqqında qərardan müvafiq məhkəməyə şikayət edə bilər.

2.4. Mərkəz bələdiyyə, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına (Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına) riayət edilməsinə inzibati nəzarət sahəsində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə verilmiş səlahiyyətin həyata keçirilməsini təmin edir.

2.5. Mərkəz "Yerli özünüidarə orqanlarının normativ aktlarının bülleteni"ni nəşr etdirir.

2.6. Mərkəz inkişaf etmiş ölkələrin bələdiyyə fəaliyyətinə dair təcrübəsini öyrənmək, tətbiq etmək məqsədilə qarşılıqlı əlaqələrin qurulmasına kömək göstərir.

### 3. Mərkəzin strukturu və idarə edilməsi

3.1. Mərkəzin işinə ümumi rəhbərliyi Azərbaycan Respublikasının ədliyyə naziri həyata keçirir.

3.2. Mərkəzə onun rəisi başçılıq edir. Mərkəzin rəisi Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən təyin olunur. Rəis müavini və Mərkəzin əməkdaşları Mərkəzin rəisinin təqdimatına əsasən Azərbaycan Respublikası Ədliyyə Naziri tərəfindən təyin olunurlar.

3.3. Mərkəzin rəisi:

- bütün dövlət orqanlarında, idarələrində, təşkilatlarında və yerli özünüidarə orqanlarında Mərkəzi təmsil edir;

- Mərkəzin şöbələrinin və yerli bölmələrinin əsasnamələrini təsdiq edir;

- Mərkəzin işçiləri arasında vəzifə bölgüsü aparır və onlara tapşırıqlar verir:



- metodiki sənədlərin hazırlanmasını və mövcud qaydada nəşr etdirilməsini təşkil edir;

- Mərkəzin iş planını, onun yerinə yetirilməsinə dair hesabatı hazırlayır və ədliyyə nazirinə təqdim edir;

- öz səlahiyyəti çərçivəsində Mərkəzin maliyyə fəaliyyəti məsələlərini həll edir;

- Mərkəzin bütün işçilərinin hökmən icra etməli olduğu əmr və sərəncamlar verir;

- qanunvericiliyə uyğun olaraq Mərkəzin işçilərinin mükafatlandırılmasını təşkil edir, onların barəsində tənbeh tədbirlərini tətbiq edir;

- Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olan digər hüquq və vəzifələri həyata keçirir.

3.4. Mərkəzin işçilərinin say tərkibi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Mərkəzin strukturu və ştat cədvəli Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən təsdiq edilir.

3.5. Mərkəzin işçilərinin hüquq və vəzifələri Azərbaycan Respublikasının qanunvericiliyi, Mərkəzin Əsasnaməsi, daxili intizam qaydaları, struktur bölmələrin əsasnamələri, vəzifə təlimatları, əmək müqavilələri ilə müəyyən olunur.

3.6. Mərkəzin işçilərinin sosial təminatı məsələləri qüvvədə olan qanunvericilik əsasında həll olunur.

3.7. Naxçıvan Muxtar Respublikasının ərazisində mərkəzin funksiyalarını dövlət büdcəsindən maliyyələşdirilən Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə İş Mərkəzi həyata keçirir.

## Bələdiyyələrin vergi xidməti orqanı haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

*(17 iyun 2003-cü il, № 478-IIQ)*

"Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" "Azərbaycan Respublikası Qanununa uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Bələdiyyələrin vergi xidməti orqanı haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

II. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının 2003-cü il 17 iyun tarixli, 478-IIQ nömrəli qanunu ilə* ***təsdiq edilmişdir***

# Bələdiyyələrin vergi xidməti orqanı haqqında ƏSASNAMƏ

***Əlavə və dəyişikliklər:***
*1. 23 dekabr 2005-ci il, q.m.t. 16.02.2006*

## I. Ümumi müddəalar

1.1. Bu əsasnamə bələdiyyələrin vergi xidməti orqanının fəaliyyətinin ümumi əsaslarını müəyyənləşdirir, onun yerli (bələdiyyə) vergilərin və ödənişlərin ödəyiciləri ilə qarşılıqlı münasibətlərini tənzimləyir.

1.2. Bələdiyyələrin vergi xidməti orqanı öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının Vergi Məcəlləsini, "Büdcə sistemi haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında", "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyə qulluğu haqqında" Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını, bələdiyyələrin qərarlarını və bu əsasnaməni rəhbər tutur.

1.3. Bu əsasnamədə istifadə olunan anlayışlar Azərbaycan Respublikasının Vergi Məcəlləsində qəbul edilmiş mənada təfsir edilir.

## II. Bələdiyyələrin vergi xidməti orqanının təşkili

2.1. Bələdiyyələrin vergi xidməti orqanı bələdiyyələrin qərarına əsasən bələdiyyələrin icra aparatının strukturunda yaradılır.

2.2. Ərazi, maliyyə imkanları, yerli (bələdiyyə) vergilərin və ödənişlərin ödəyicilərinin sayı və digər meyarlardan asılı olaraq bir neçə bələdiyyə saziş əsasında onlara xidmət göstərən vergi xidməti orqanı yarada bilər. Sazişdə vergi xidməti orqanının xidmət göstərdiyi bələdiyyələrin adı, sazişin qüvvədə olma müddəti, bələdiyyənin sazişdən çıxma şərtləri, vergi xidməti orqanının saxlanılması xərclərinin bələdiyyələr arasında bölgüsü qaydası göstərilməlidir.

2.3. Bələdiyyələrə yerli (bələdiyyə) vergi və ödənişlərin düzgün hesablanmasında, tam məbləğdə və vaxtında ödənilməsində, habelə vergi qanunvericiliyinə riayət edilməsində metodiki rəhbərlik müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.



## III. Bələdiyyələrin vergi xidməti orqanının vəzifələri və hüquqları

3.1. Bələdiyyələrin vergi xidməti orqanının aşağıdakı vəzifələri vardır:

3.1.1. yerli (bələdiyyə) vergilərin və ödənişlərin Azərbaycan Respublikasının Vergi Məcəlləsi və digər qanunları ilə müəyyən edilmiş qaydada hesablanmasına, vaxtında və tam məbləğdə yerli büdcələrə ödənilməsinə nəzarəti həyata keçirir;

3.1.2. yerli (bələdiyyə) vergilər və ödənişlər üzrə borcların, bu borclar üzrə hesablanmış faizlərin və tətbiq olunmuş maliyyə sanksiyalarının Azərbaycan Respublikasının Vergi Məcəlləsi və digər qanunlarla müəyyən edilmiş qaydada alınmasını təmin edir;

3.1.3. yerli (bələdiyyə) vergilərin və ödənişlərin ödəyicilərinin hüquqlarını və qanuni maraqlarını qoruyur, onların sorğularına, şikayətlərinə qanunvericiliyə uyğun olaraq baxılmanı və müvafiq tədbirlərin görülməsini təmin edir;

3.1.4. yerli (bələdiyyə) vergilərin və ödənişlərin ödəyicilərinin artıq ödədikləri məbləğlərin qanunvericiliklə müəyyən edilmiş qaydada əvəzləşdirilməsini, yaxud geri qaytarılmasını təmin edir;

3.1.5. qanunla müəyyən edilmiş hallarda və qaydada müvafiq yerli (bələdiyyə) vergilərin və ödənişlərin ödəyicilərinin uçotunu aparır;

3.1.6. müəyyən olunmuş müddətdə yerli (bələdiyyə) vergilərin və ödənişlərin toplanılması haqqında bələdiyyələrə hesabatlar və məlumatlar verir;

3.1.7. yerli (bələdiyyə) vergilərin və ödənişlərin ödəyicilərindən daxil olmuş sorğuların, müraciətlərin və təkliflərin qeydiyyatını aparır, onları qruplaşdırır və təhlil edir;

3.1.8. səlahiyyətlərinə aid olan məsələlər üzrə bələdiyyələrə təkliflər verir;

3.1.9. yerli (bələdiyyə) vergilərin və ödənişlərin ödəyicilərinə yerli vergilərə dair normativ hüquqi aktlar və bələdiyyələrin qərarları barədə məlumat verir;

3.1.10. yerli (bələdiyyə) vergi və ödənişlərin ödəyicilərinin vergi və kommersiya sirrini qoruyur;

3.1.11. səlahiyyətinə aid məsələlər üzrə yerli (bələdiyyə) vergilərin və ödənişlərin ödəyicilərinə arayışlar və izahatlar verir;

3.1.12. bələdiyyələrin qərarlarını icra edir;

3.1.13. qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri həyata keçirir.

3.2. Bələdiyyə vergi xidməti orqanının aşağıdakı hüquqları vardır:

3.2.1. Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən edilmiş qaydada fiziki şəxslərdən torpaq və əmlak vergilərini hesablamaq və hesablanmış məbləğin ödənilməsi üçün onlara tədiyyə bildirişi göndərmək;

3.2.2. bələdiyyə mülkiyyətində olan hüquqi şəxslərdə Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada kameral vergi yoxlamaları keçirmək;

3.2.3. Azərbaycan Respublikasının Vergi Məcəlləsində və digər qanunlarda müəyyən edilmiş hallarda və qaydada yerli (bələdiyyə) vergilər və ödənişlər üzrə vaxtı keçmiş borcların, yerli (bələdiyyə) vergilər üzrə hesablanmış faizlərin alınması və yerli (bələdiyyə) vergilərin ödəyicilərinə maliyyə sanksiyalarının tətbiq olunması barədə məhkəmədə vəsatət qaldırılması üçün bələdiyyələrə müraciət etmək;

3.2.4. yerli (bələdiyyə) vergi və ödənişlərin ödəyicilərinin ayrı-ayrı kateqoriyalarının bu vergi və ödənişləri ödəməkdən qanunvericiliyə müvafiq olaraq azad edilməsi, yaxud onlara güzəştlərin tətbiqi barədə bələdiyyələrə təkliflər vermək;

3.3. Bələdiyyələrin vergi xidməti orqanı bələdiyyə mülkiyyətində olan hüquqi şəxslərdən mənfəət vergisinin, yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisinin, bələdiyyə ərazisində mehmanxanadan və sanatoriya-kurort müəssisələrindən alınan yerli ödənişlərin hesablanmasının və ödənilməsinin düzgünlüyünü araşdırmaq məqsədi ilə dövlət vergi orqanlarının keçirdiyi səyyar vergi yoxlamalarında iştirak edə bilər. Bunun üçün bələdiyyə bu bənddə göstərilən səyyar vergi yoxlamalarında bələdiyyənin vergi xidməti orqanının iştirakı barədə dövlət vergi orqanına müraciət etməlidir.

## IV. Bələdiyyələrin vergi xidməti orqanının vəzifəli şəxsləri

4.1. Bələdiyyələrin vergi xidməti orqanının vəzifəli şəxsləri bələdiyyə qulluqçularıdır.

4.2. Bələdiyyələrin vergi xidməti orqanının vəzifəli şəxsləri bələdiyyə sədrinin təqdimatı ilə bələdiyyə tərəfindən vəzifəyə təyin olunur və vəzifədən azad edilir.

4.3. Bələdiyyələrin vergi xidməti orqanının vəzifəli şəxsləri "Bələdiyyə qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsində bələdiyyə qulluqçuları üçün qulluqla bağlı qadağalar nəzərə alınmaqla, sahibkarlıq fəaliyyəti ilə və elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa, digər ödənişli fəaliyyət növləri ilə məşğul ola bilməzlər.

## V. Yerli (bələdiyyə) vergilərin və ödənişlərin ödənilməsinə nəzarətin təşkili

5.1. Bələdiyyələrin vergi xidməti orqanı yerli (bələdiyyə) vergilərin və ödənişlərin ödənilməsinə nəzarəti Azərbaycan Respublikasının Vergi Məcəlləsində və digər qanunlarda müvafiq yerli (bələdiyyə) vergilərə və ödənişlərə dair müəyyən edilmiş hallarda və qaydada, bu əsasnaməyə müvafiq bələdiyyə mülkiyyətində olan hüquqi şəxslərdə kameral və səyyar vergi yoxlamaları aparmaqla həyata keçirir.

5.2. Bu əsasnamənin 3.3-cü bəndində nəzərdə tutulmuş hallarda dövlət vergi orqanları tərəfindən keçirilən səyyar vergi yoxlamasında iştirak edən bələdiyyənin vergi xidməti orqanının vəzifəli şəxsinə müvafiq yoxlamanın keçirilməsində iştirakı barədə bələdiyyənin qərarı verilməlidir. Qərar bələdiyyənin sədri (yaxud onun müavini) tərəfindən imzalanır. Qərarda dövlət vergi orqanının, səyyar vergi



yoxlaması keçirilən obyektin adı, yoxlamada iştirakın məqsədi, müddətləri (bu müddət dövlət vergi orqanının keçirdiyi yoxlamanın müddəti həddində olmalıdır), yoxlamada iştirak edən bələdiyyənin vergi xidməti orqanının vəzifəli şəxsinin (şəxslərinin) adı, soyadı, atasının adı göstərilməlidir.

5.3. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və digər qanunlarına əsasən müvafiq yerli (bələdiyyə) vergilər və ödənişlər ödənilmədikdə, bələdiyyənin vergi xidməti orqanlarının vəzifəli şəxsləri tərəfindən müvafiq akt tərtib edilir. Həmin aktda onun tərtib edildiyi tarix və yer, aktı tərtib etmiş şəxslərin vəzifəsi, soyadı, adı, atasının adı, yerli (bələdiyyə) verginin və (və ya) ödənişin ödəyicisi barədə məlumat, müvafiq verginin və (və ya) ödənişin növü (adı), Azərbaycan Respublikasının Vergi Məcəlləsinin və digər qanunların pozulmasını təşkil edən konkret hal (hallar) və həmin pozuntulara görə məsuliyyəti nəzərdə tutan Azərbaycan Respublikası Vergi Məcəlləsinin və digər qanunların konkret maddələri göstərilməli, ödəyiciyə müvafiq vergini və (və ya) ödənişi ödəmək təklif edilməlidir. Tərtib edilmiş akt bələdiyyənin sədrinə (yaxud onun müavininə), surəti isə ödəyiciyə təqdim edilir.

5.4. Ödəyici bələdiyyə vergi xidməti orqanının aktı ilə razılaşmadıqda, aktın alındığı gündən 30 gün müddətində akta və ya onun ayrı-ayrı hissələrinə öz etirazını yazılı surətdə bildirə bilər.

5.5. Ödəyici tərəfindən bələdiyyə vergi xidməti orqanının aktı üzrə yazılı izahat və ya etiraz təqdim edildikdə, həmin akta ödəyicinin və ya (və) onun nümayəndəsinin iştirakı ilə baxılır. Akta baxılmanın yeri və vaxtı haqqında ödəyiciyə vergi xidməti orqanı tərəfindən ən azı 3 iş günü əvvəl məlumat verilməlidir. Ödəyici (onun nümayəndəsi) üzrlü səbəb olmadan müzakirəyə gəlmədikdə, məsələyə onun iştirakı olmadan baxılır.

5.6. Bu əsasnamənin 5.4-cü bəndində müəyyən edilən müddət bitdikdən sonra 15 gün ərzində bələdiyyə öz vergi xidməti orqanının aktına baxır və ödəyiciyə münasibətdə qanunla müəyyən edilmiş hallarda yerli (bələdiyyə) vergi və ödənişlər barədə qanunvericiliyin pozulmasına görə məsuliyyət tədbirlərinin tətbiqi üçün məhkəməyə müraciət edilməsi barədə qərar çıxarır, yaxud belə qərarın çıxarılmasından imtina edir.

5.7. Ödəyiciyə bu əsasnamənin 5.6-cı bəndinə müvafiq olaraq çıxarılmış qərarın surəti və qanunla müəyyən edilmiş hallarda yerli (bələdiyyə) vergilər və (və ya) ödənişlər üzrə borcun, müvafiq olaraq hesablanmış faizlərin, müvafiq maliyyə sanksiyalarının ödənilməsi barədə tələbnamə göndərilir. Ödəyici müvafiq ödənişləri könüllü qaydada ödədikdə, bələdiyyə məhkəməyə müraciət edilməsi haqqında qərarını ləğv edir.

5.8. Bələdiyyənin qərarının surəti və tələbnamə ödəyiciyə və ya onun nümayəndəsinə verilmə tarixini təsdiq edən üsulla təqdim edilir.

5.9. Ödəyicinin və ya onun nümayəndəsinin bilərəkdən hərəkətləri nəticəsində bələdiyyənin qərarının surəti və (və ya) tələbnaməsi ona təqdim edilmirsə, bu sənədlər sifarişli məktubla göndərildiyi gündən sonrakı gün təqdim edilmiş hesab edilir.

5.10. Bələdiyyə tərəfindən bu əsasnamənin və digər qanunvericilik aktlarının tələblərinin yerinə yetirilməməsi bələdiyyənin qərarının məhkəmə tərəfindən ləğv edilməsi üçün əsas verir.

5.11. Yerli (bələdiyyə) vergilər və ödənişlər üzrə vaxtı keçmiş borcların məcburi qaydada alınması, hesablanmış faizlərin alınması və ödəyicilərə maliyyə sanksiyalarının tətbiq edilməsi üçün bələdiyyələr öz vergi xidməti orqanının təqdimatı əsasında, bu əsasnamənin 5.7-ci bəndinin ikinci cümləsində müəyyən edilmiş hal istisna olmaqla, məhkəmələrə müraciət edirlər.

5.12. Məhkəmənin yerli (bələdiyyə) vergi və ödənişlər üzrə borcların, hesablanmış faizlərin və maliyyə sanksiyalarının alınması haqqında qanuni qüvvəyə minmiş qərarlarının icrası qanunla müəyyən edilmiş qaydada həyata keçirilir.

## VI. Bələdiyyələrin vergi xidməti orqanı ilə yerli (bələdiyyə) vergilərin və ödənişlərin ödəyicilərinin münasibətləri

6.1. Bələdiyyələrin vergi xidməti orqanı ilə yerli (bələdiyyə) vergilərin və ödənişlərin ödəyicilərinin münasibətləri Azərbaycan Respublikası Vergi Məcəlləsinə, digər qanunvericilik aktlarına və bu əsasnaməyə müvafiq olaraq həyata keçirilir.

6.2. Yerli (bələdiyyə) vergilərin və ödənişlərin ödəyiciləri bələdiyyənin vergi xidməti orqanının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən), habelə bələdiyyənin qərarlarından, bələdiyyənin sədrinin (onun müavininin) hərəkətlərindən (hərəkətsizliyindən) müvafiq olaraq bələdiyyə sədrinə (onun müavininə) *(1)* və (və ya) məhkəməyə, digər səlahiyyətli dövlət orqanlarına şikayət etmək hüququna malikdirlər. Bələdiyyə və bələdiyyənin vergi xidməti orqanının vəzifəli şəxsləri hüquqa zidd hərəkətləri və ya hərəkətsizliyi, yaxud qərarları nəticəsində ödəyicilərə dəymiş zərərə görə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

6.3. Ödəyicinin bələdiyyə sədrinə (onun müavininə), *(1)* şikayət verməsi onun eyni vaxtda, yaxud sonradan məhkəməyə, digər səlahiyyətli dövlət orqanlarına müraciət etməsinə mane olmur.

6.4. Bələdiyyə vergi xidməti orqanının aktlarından, bələdiyyənin sədrinin (onun müavininin), bələdiyyə vergi xidməti orqanı vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən), habelə bələdiyyə qərarlarından şikayət müvafiq olaraq bələdiyyənin sədrinə (onun müavininə), *(1)* yerli (bələdiyyə) vergi və ödənişlərin ödəyicisi tərəfindən öz hüquqlarının pozulduğunu bildiyi gündən 3 ay müddətində verilir. Ödəyici üzrlü səbəbdən bu bənddə göstərilən müddəti buraxmışdırsa, həmin müddət bələdiyyə sədri (onun müavini) tərəfindən bərpa edilə bilər.

6.5. Yerli (bələdiyyə) vergilərin və ödənişlərin düzgün tətbiq olunmaması barədə ödəyici tərəfindən şikayətin verilməsi onların ödənişini dayandırmır. Ödəyici, şikayətinə baxılma müddətində ona tətbiq olunmuş maliyyə sanksiyalarını ödəməyə bilər.



6.6. Bələdiyyə tərəfindən yerli (bələdiyyə) vergilərin və ödənişlərin ödəyicisinin şikayətinə həmin şikayət alındığı gündən 30 gün müddətində baxılmalıdır. Qəbul edilmiş qərar barəsində şikayətçiyə 10 gün ərzində yazılı məlumat verilməlidir.

## VII. Bələdiyyələrin vergi xidməti orqanının fəaliyyətinə nəzarət

7.1. Bələdiyyənin vergi xidməti orqanının fəaliyyətinə nəzarət müvafiq bələdiyyə (bələdiyyələr) tərəfindən, habelə qanunvericiliklə müəyyən edilmiş digər qaydada həyata keçirilir.

7.2. Bələdiyyələrin vergi xidməti orqanlarının fəaliyyəti ildə bir dəfədən az olmayaraq müvafiq bələdiyyənin (bələdiyyələrin) iclasında müzakirə olunur və müzakirə nəticəsində qərar qəbul edilir.

7.3. Bələdiyyələrin vergi xidməti orqanının vəzifəli şəxsləri Azərbaycan Respublikası Vergi Məcəlləsinin, "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında", "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyə qulluğu haqqında" Azərbaycan Respublikası qanunlarının və digər normativ hüquqi aktların pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

***Dərci: 31 oktyabr 2003-cü il***

## "Bələdiyyələrin vergi xidməti orqanıhaqqında Əsasnamənin təsdiq edilməsibarədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*(23 oktyabr 2003-cü il, № 938)*

"Bələdiyyələrin vergi xidməti orqanı haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar olaraq onun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

- normativ hüquqi aktların "Bələdiyyələrin vergi xidməti orqanı haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanunun tələblərinə uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, bu qanunla təsdiq edilmiş "Bələdiyyələrin vergi xidməti orqanı haqqında Əsasnamə"nin II bölməsinin 2.3-cü bəndində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Vergilər Nazirliyi həyata keçirir.

3. Bu fərman dərc olunduğu gündən qüvvəyə minir.

*Dərci: 31 oktyabr 2003-cü il*

## Bələdiyyələrin regional assosiasiyalarının Nümunəvi Əsasnaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

*(3 may 2005-ci il, № 903-II Q)*

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Bələdiyyələrin regional assosiasiyalarının Nümunəvi Əsasnaməsi təsdiq edilsin (əlavə olunur).

II. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

*Dərci: 26 iyul 2005-ci il*

*Azərbaycan Respublikasının 2005-ci il 3 may tarixli 903-IIQ saylı qanunu ilə* ***təsdiq edilmişdir***

## Bələdiyyələrin regional assosiasiyalarının Nümunəvi Əsasnaməsi

### I. Ümumi müddəalar

1. Bələdiyyələrin regional assosiasiyası (bundan sonra "assosiasiya") Azərbaycan Respublikası ərazisinin müəyyən hissəsində fəaliyyət göstərən bələdiyyələrin öz fəaliyyətini əlaqələndirmək, hüquq və mənafelərini daha səmərəli həyata keçirmək məqsədi ilə yaratdıqları ittifaqdır.

2. Assosiasiya öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının tərəfdar çıxdığı müvafiq beynəlxalq müqavilələr, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu, digər qanunvericilik aktları və bu əsasnamə əsasında həyata keçirir.



3. Assosiasiyanın fəaliyyəti könüllülük, üzvlərin hüquq bərabərliyi, qanunçuluq, qərarların qəbul edilməsində kollegiallıq, demokratik idarəetmə və aşkarlıq prinsiplərinə əsaslanır.

4. Assosiasiya hüquqi şəxsdir.

5. Assosiasiyanın, üzərində Azərbaycan Respublikasının dövlət gerbinin təsviri və öz adı olan möhürü, habelə müəyyən olunmuş nümunədə blankları vardır.

### II. Assosiasiyanın məqsəd və vəzifələri

1. Assosiasiyanın əsas məqsədi bələdiyyələrin fəaliyyətinin əlaqələndirilməsinə, həmin fəaliyyətin beynəlxalq hüquq normalarına və mövcud qanunvericiliyə uyğun qurulmasına və ortaya çıxan problemlərin birgə həll edilməsinə kömək göstərmək yolu ilə Azərbaycan Respublikasında yerli özünüidarənin möhkəmlənməsinə və inkişafına nail olmaqdır.

2. Bu məqsədə nail olmaq üçün assosiasiya aşağıdakı vəzifələri həyata keçirir:

- bələdiyyələrin fəaliyyətinin səmərəli tənzimlənməsi üçün yeni qanunvericilik aktlarının qəbul edilməsinə və mövcud qanunvericiliyin təkmilləşdirilməsinə səy göstərmək, bələdiyyələrin inkişafı üçün əlverişli mühitin yaradılması məqsədi ilə layihələr və təkliflər hazırlamaq;
- yerli icra hakimiyyəti orqanları, qeyri-hökumət təşkilatları və müvafiq beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığın təmin olunması üçün tədbirlər həyata keçirmək;
- ölkənin və ayrı-ayrı regionların sosial-iqtisadi inkişafında, insanların sosial müdafiəsinin gücləndirilməsində, regional və yerli ekoloji tarazlığın qorunmasında bələdiyyələrin rolu ilə bağlı maarifçilik fəaliyyətini həyata keçirmək;
- bələdiyyələrin cəmiyyətdə nüfuzunun artması, fəaliyyət sahələrinin genişləndirilməsi, əhalinin geniş təbəqələrinin bu proseslərdə iştiraka cəlb edilməsi üçün təbliğat işi aparmaq;
- bələdiyyələrə metodik, hüquqi, texniki, təşkilati və informasiya təminatı sahəsində yardım göstərmək və onların fəaliyyətinin qanunauyğun qurulmasına kömək etmək;
- müvafiq ərazilərdə mədəni sərvətlərin qorunub saxlanılmasına, mədəniyyət və incəsənətin inkişafına kömək göstərilməsi ilə bağlı bələdiyyələrin birgə fəaliyyətini təmin etmək;
- səhiyyə və ətraf mühitin mühafizəsi sahəsində bələdiyyələrin birgə fəaliyyətini təmin etmək;
- bələdiyyələrin statusu və fəaliyyəti ilə bağlı bilgiləri yaymaq, bələdiyyə qulluqçularının ixtisasının artırılması üzrə kurslar təşkil etmək;
- xarici ölkələrdə fəaliyyət göstərən müvafiq assosiasiyalarla əlaqələrin qurulmasına və inkişaf etdirilməsinə kömək etmək;

- assosiasiyaların səmərəli fəaliyyətinin təmin edilməsi məqsədi ilə müvafiq tədqiqatların, araşdırmaların və monitorinqlərin təşkilinə və keçirilməsinə yardım göstərmək;

- assosiasiyanın məqsədindən və yerli əhalinin ehtiyaclarından irəli gələn digər vəzifələri həyata keçirmək.

### III. Assosiasiyanın hüquqları

1. Assosiasiya öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

- öz məqsəd və vəzifələri ilə bağlı dövlət orqanları qarşısında məsələlər qaldırır, rəy və təkliflərini verir;
- sahibkarlıq fəaliyyəti ilə məşğul olur;
- öz məqsədi, vəzifələri və fəaliyyəti haqqında məlumatları sərbəst yayır, qanunvericiliyə uyğun olaraq kütləvi informasiya vasitələri təsis edir, nəşriyyat, poliqrafiya müəssisəsi yaradır;
- regional və yerli iqtisadi, sosial və ekoloji problemlərin həllinə xidmət edən konfranslar, simpoziumlar, forumlar, dəyirmi masalar, treninqlər, seminarlar, kurslar, sərgilər, xeyriyyə marafonları və başqa tədbirlər təşkil edir;
- elmi araşdırmalar, tədqiqatlar, monitorinqlər, sosioloji sorğular aparır;
- müxtəlif istiqamətli mərkəzlər, bölmələr, xidmət sahələri, klublar, qruplar, komissiyalar və s. yaradır.

2. Öz məqsədlərinə nail olmaq üçün assosiasiya səlahiyyətləri çərçivəsində qanunla qadağan olunmayan istənilən digər fəaliyyəti həyata keçirə bilər.

### IV. Assosiasiyaya üzvlük

1. Assosiasiya yaratmaq istəyən üç və ya daha çox bələdiyyənin təşəbbüsü ilə təsis yığıncağı keçirilə bilər.

2. Assosiasiyaya əlavə üzv qəbul edilməsi müvafiq müraciət əsasında assosiasiyanın idarə heyəti tərəfindən həyata keçirilir.

3. Assosiasiya üzvlərinin aşağıdakı hüquqları vardır:

- assosiasiyanın təsis edilməsi, yenidən təşkil və ləğv edilməsi;
- assosiasiyanın ümumi yığıncağına nümayəndə seçilmək;
- assosiasiyanın tədbirlərində iştirak etmək;
- assosiasiyanın seçkili orqanlarına seçmək və seçilmək;
- assosiasiyanın göstərdiyi xidmət və yardımlardan istifadə etmək;
- assosiasiyanın rəhbər orqanlarının fəaliyyəti haqqında məlumat almaq;
- assosiasiyanın rəhbər orqanlarına və vəzifəli şəxslərinə ərizə, şikayət və təkliflərlə müraciət etmək;
- assosiasiyanın üzvlüyündən çıxmaq.



4. Assosiasiya üzvləri aşağıdakı vəzifələri yerinə yetirməyə borcludurlar:

- assosiasiyanın fəaliyyətinə kömək göstərmək, keçirilən tədbirlərdə fəal iştirak etmək;
- assosiasiyanın rəhbər orqanlarının qanuna və bu əsasnaməyə uyğun qərarlarını yerinə yetirmək;
- assosiasiyanın ümumi yığıncağında müəyyənləşdirilmiş üzvlük haqqını ödəmək.

5. Bu əsasnamə ilə müəyyən edilmiş vəzifələrini üzrsüz səbəbə görə mütəmadi yerinə yetirməyən assosiasiya üzvləri idarə heyətinin qərarı ilə assosiasiya üzvlüyündən çıxarıla bilər. Həmin qərardan ümumi yığıncağa şikayət verilə bilər.

6. Assosiasiyanın üzvü üzvlükdən çıxarıldıqda onun nümayəndəsi seçildiyi rəhbər orqandan da çıxmış hesab edilir.

### V. Assosiasiyanın rəhbər orqanları

1. Assosiasiyanın ali idarəetmə orqanı bir il ərzində bir dəfədən az olmayaraq çağırılan ümumi yığıncaqdır.

2. Ümumi yığıncağa nümayəndəlik normaları ümumi yığıncağın təşkili üzrə yaradılmış təşkilat komitəsi tərəfindən müəyyən edilir. Ümumi yığıncaq, nümayəndələrin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir.

3. Ümumi yığıncağın səlahiyyətləri aşağıdakılardır:

- əsasnamənin qəbul edilməsi, ona əlavə və dəyişikliklər edilməsi;
- assosiasiyanın əmlakının formalaşma və istifadə prinsiplərinin müəyyən edilməsi;
- assosiasiyanın illik hesabatının təsdiq edilməsi;
- assosiasiyanın fəaliyyətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi;
- assosiasiyanın rəhbər orqanlarının, onun sədrinin, idarə heyətinin və nəzarət-təftiş komissiyasının üzvlərinin seçilməsi;
- assosiasiyanın rəhbər orqanlarının – onun sədrinin və nəzarət təftiş komissiyasının hesabatlarının dinlənilib müvafiq qərarların qəbul edilməsi;

4. Assosiasiyanın əsasnaməsi, ona əlavə və dəyişikliklər üçdə iki səs çoxluğu ilə, digər qərarlar isə ümumi yığıncaq nümayəndələrinin adi səs çoxluğu ilə qəbul edilir.

5. Ümumi yığıncaqlararası dövrdə assosiasiyanın rəhbər orqanı idarə heyətidir.

6. İdarə heyəti ümumi yığıncaqlararası dövr üçün nümayəndələr arasından iki ildən beş ilə qədər müddətə seçilir. Konkret müddət ümumi yığıncaqda müəyyənləşdirilir.

7. İdarə heyəti üzvlərinin sayı ümumi yığıncaqda müəyyənləşdirilir. Üzvlərin yarısından çoxu iştirak etdikdə, idarə heyətinin iclası səlahiyyətli sayılır və qərarlar sadə səs çoxluğu ilə qəbul edilir.

8. İdarə heyəti ümumi yığıncağın müstəsna səlahiyyətlərinə aid olan məsələlərdən başqa assosiasiyanın fəaliyyəti ilə əlaqədar bütün məsələləri müzakirə edib müvafiq qərarlar qəbul edə bilər.

9. İdarə heyətinin iclasları zərurət olduqda, lakin ayda bir dəfədən az olmamaq şərti ilə çağırılır.

10. İdarə heyəti:

- assosiasiya sədrinin təqdimatı ilə onun sədr müavinlərini təsdiq edir;
- assosiasiya sədrinin təqdimatı ilə onun strukturunu və ştat cədvəlini təsdiq edir;
- assosiasiyanın struktur vahidlərini, filial və nümayəndəliklərini təsdiq edir;
- bələdiyyələri assosiasiyanın üzvlüyünə qəbul edir, nümayəndələrin səlahiyyətlərini təsdiq edir;
- ümumi yığıncağın qərarlarının icrasına nəzarəti həyata keçirir;
- növbədənkənar ümumi yığıncaq çağırmaq barədə məsələ qaldırır.

11. İdarə heyətinin icraya yönəldilən qərarları ilə assosiasiyanın sədri razı olmaya bilər. Bu hallarda həmin qərarlar yenidən müzakirə edilərək üçdə iki səs çoxluğu ilə qəbul edildikdə, son qərar qəbul edilmiş sayılır.

12. İdarə heyətinin iclaslarında nəzarət-təftiş komissiyasının sədri iştirak edə bilər.

13. Assosiasiyanın sədri ümumi yığıncaqda iki ildən beş ilə qədər müddətə seçilir. Konkret müddət konfransda müəyyənləşdirilir.

14. Assosiasiyanın sədri:

- qəbul edilmiş qərarların icrasını həyata keçirir;
- assosiasiyanın bütün struktur vahidlərinin, onun filial və nümayəndəliklərinin rəhbərlərini təyin edir və onların fəaliyyətini əlaqələndirir;
- assosiasiyanı təmsil edir, onun adından müqavilə və sazişlər imzalayır, müraciətlər edir;
- işçiləri işə qəbul edir və işdən azad edir;
- sərəncamlar, əmrlər verir, zəruri sənədləri hazırlayıb idarə heyətinə təqdim edir;
- assosiasiyanın maliyyə-təsərrüfat fəaliyyətinə rəhbərlik edir.

15. Assosiasiyanın sədri assosiasiyanın növbədənkənar ümumi yığıncağının çağırılması haqqında idarə heyəti qarşısında məsələ qaldıra bilər.

16. Assosiasiyanın sədri assosiasiyanın fəaliyyəti haqqında idarə heyətinə məlumat və ümumi yığıncağa hesabat verir.

17. Assosiasiyanın sədr müavinləri sədrin həvalə etdiyi səlahiyyətləri həyata keçirirlər.

18. Nəzarət-Təftiş Komissiyası:

- assosiasiyanın fəaliyyətinin qanuna və əsasnaməyə uyğunluğuna;
- assosiasiya üzvlərinin assosiasiya ilə bağlı fəaliyyətinin əsasnaməyə uyğunluğuna;
- assosiasiyanın maliyyə-təsərrüfat fəaliyyətinə nəzarəti həyata keçirir.

19. Nəzarət-Təftiş Komissiyasının üzvləri assosiasiyanın ümumi yığıncağına müvafiq müddətə seçilirlər. Sıradan çıxmış Nəzarət-Təftiş Komissiyası üzvünün yerinə ümumi yığıncaqda onun tərkibinə düşə bilməyən namizədlər arasından ən çox səs toplamış şəxs varsa, ilk növbədə o seçilir.



20. Nəzarət-Təftiş Komissiyasının iclasları üzvlərin yarısından çoxu iştirak etdikdə səlahiyyətli hesab edilir, qərarlar sadə səs çoxluğu ilə qəbul olunur.

21. Nəzarət-Təftiş Komissiyası öz üzvləri arasından Nəzarət-Təftiş Komissiyasının sədrini, sədrin müavinlərini və katibini seçir.

## VI. Assosiasiyanın mülkiyyəti və maliyyə vəsaitləri

1. Assosiasiya qanunvericiliyə uyğun olaraq əmlaka və maliyyə vəsaitlərinə malik ola bilər.

2. Assosiasiyanın əmlakı və maliyyə vəsaitləri yalnız əsasnamədə müəyyənləşdirilmiş məqsədlərin həyata keçirilməsi üçün istifadə edilə bilər.

3. Assosiasiyanın əmlakının və maliyyə vəsaitlərinin yaranma mənbələri aşağıdakılardır:

- üzvlərin üzvlük haqları, könüllü olaraq əmlak haqları, ianələr, məqsədli ödəmələr;
- assosiasiya tərəfindən keçirilən tədbirlərdən əldə olunan gəlirlər;
- sahibkarlıq fəaliyyəti ilə əldə olunan gəlirlər;
- göstərilən xidmətlərin, görülən işlərin nəticəsində əldə edilən gəlirlər;
- təhsil proqramlarının həyata keçirilməsindən əldə olunan gəlirlər;
- malların satışından, xidmətlərin göstərilməsindən və işlərin görülməsindən daxilolmalar;
- sərəncamında olan binaların, maşınların, texnikanın və digər əmlakın icarəyə verilməsindən əldə edilən gəlirlər;
- müxtəlif beynəlxalq fondların və təşkilatların ayırdığı qrantlar;
- qanunla qadağan olunmayan digər mənbələr.

## VII. Assosiasiyanın ləğv edilməsi

1. Assosiasiya aşağıdakı hallarda ləğv edilir:

- assosiasiyanın ümumi yığıncağında üzv bələdiyyələrin üçdə ikisinin razılığı ilə assosiasiya buraxıldıqda;
- assosiasiya digər təşkilatlar və ya qurumlarla birləşdikdə;
- Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq məhkəmənin qərarı ilə assosiasiyanın qeydiyyatı ləğv edildikdə.

2. Assosiasiya ləğv edildikdə, ümumi yığıncağın qərarı ilə ləğvetmə komissiyası yaradılır, borclar ödənildikdən sonra qalan əmlak assosiasiyanın əsasnamədə müəyyənləşdirilmiş məqsədlərinin həyata keçirilməsinə sərf olunur, bu mümkün olmadıqda isə Azərbaycan Respublikasının dövlət büdcəsinə yönəldilir.

3. Assosiasiyanın fəaliyyəti ilə bağlı əmlak mübahisələri qarşılıqlı anlaşma əsasında, əgər belə anlaşma əldə edilməzsə, məhkəmə qaydasında həll edilir.

***Dərci: 26 iyul 2005-ci il***

## "Bələdiyyələrin regional assosiasiyalarının Nümunəvi Əsasnaməsinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

*(18 iyul 2005-ci il, № 896)*

"Bələdiyyələrin regional assosiasiyalarının Nümunəvi Əsasnaməsinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının "Bələdiyyələrin regional assosiasiyalarının Nümunəvi Əsasnaməsinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. öz səlahiyyətləri daxilində "Bələdiyyələrin regional assosiasiyalarının Nümunəvi Əsasnaməsinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Bu sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

***Dərci: 26 iyul 2005-ci il***

## Aqrar islahatların həyata keçirilməsini təmin edən bəzi normativ-hüquqi aktların təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*(10 yanvar 1997-ci il, №-534)*

***(Əsasnamələr və qaydalar)***

***Əlavə və dəyişikliklər:***
*1. 25.05.2006, d.t. 28.05.2006*

Azərbaycan Respublikasında aqrar islahatları sürətləndirmək məqsədi ilə "Sovxoz və kolxozların islahatı haqqında" Azərbaycan Respublikası Qanununa və "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası prezidentinin 1996-cı il 13 avqust tarixli 482 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. Azərbaycan Respublikası Dövlət Aqrar İslahatı Komissiyasının hazırladığı aşağıdakı normativ-hüquqi aktlar təsdiq edilsin (əlavə olunur).

– Sovxoz, kolxoz və digər kənd təsərrüfatı müəssisələrinin özəlləşdiriləcək torpaqlarının kompleks yerquruluşu layihələrinin hazırlanması və təsdiq edilməsi haqqında Əsasnamə;

– Sovxoz, kolxoz və digər kənd təsərrüfatı müəssisələrinin özəlləşdiriləcək torpaqlarının keyfiyyəti nəzərə alınmaqla torpaq paylarının müəyyən edilməsi haqqında Əsasnamə;

– Vətəndaşların qanuni istifadəsindəki (fərdi yaşayış evlərinin, həyətyanı sahələrin, fərdi, kollektiv və kooperativ bağların, dövlət bağçılıq təsərrüfatının idarəçiliyindəki bağların) torpaqların onların mülkiyyətinə verilməsi haqqında Əsasnamə;

– Sovxoz, kolxoz və digər kənd təsərrüfatı müəssisələrinin torpaqlarının özəlləşdirilməsi (xüsusi hallar nəzərə alınmaqda) haqqında Əsasnamə;

– Yardımçı kənd təsərrüfatı üçün sovxoz və kolxozların ərazisindən nazirliklərə, komitələrə, birliklərə, müəssisələrə, idarələrə və təşkilatlara verilmiş torpaqların onların istifadəsində saxlanması, yaxud bütövlükdə və ya qismən əvvəlki istifadəçilərinə qaytarılması qaydaları; (24.08.2002-cil də düvvədən düşmüşdür)

– Torpaqların alqı-satqı qaydaları:

– Kənd təsərrüfatı müəssisələrində əmlakın bölünməsi və onun bir hissəsinin bələdiyyə mülkiyyətinə verilməsi qaydaları.

2. Müəyyən edilsin ki, bələdiyyə mülkiyyətinə veriləcək torpaqlar bələdiyyələr yaradılanadək müvafiq yerli icra hakimiyyətlərinin sərəncamında saxlanılsın.

3. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

*1997-ci il 10 yanvar tarixli*
*534 nömrəli fərmanı ilə*
***təsdiq edilmişdir***

## Torpaqların alqı-satqısı qaydaları

***Əlavə və dəyişikliklər:***

*1. 04.07.2001, q.m.t. 11.07.2001*
*2. 23.10.2003, q.m.t. 25.10.2003*
*3. 23.10.2003, q.m.t. 31.10.2003*
*4. 23.10.2003, q.m.t. 31.10.2003*

Bu qaydalar "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası Qanununa və digər qanunvericilik aktlarına müvafiq olaraq torpaqların alqı-satqısına dair münasibətləri tənzimləyir.

1. Aşağıdakı torpaqlar alqı-satqı müqavilələrinin predmeti ola bilər:

a) Azərbaycan Respublikası vətəndaşlarının və hüquqi şəxslərinin mülkiyyətində olan torpaqlar;

b) Bələdiyyənin ehtiyat fondunun özəlləşdirilə bilən torpaqları.

2. Torpaq sahəsinə mülkiyyət hüququ əldə edilən gündən etibarən o, alqı-satqı müqavilələrinin predmeti ola bilər.

Torpaq sahəsi yalnız Azərbaycan Respublikasında daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarına və hüquqi şəxslərinə satıla bilər.

3. Bələdiyyənin ehtiyat fondunun kənd təsərrüfatı məqsədləri üçün nəzərdə tutulmayan, kənd təsərrüfatına az yararlı və yararsız torpaqlarının Azərbaycan Respublikasının fiziki və hüquqi şəxslərinə satışı qanunvericiliyə uyğun olaraq həmin torpaqların ölçüsü və hüdudları müəyyən edilən gündən etibarən həyata keçirilə bilər.

4. Dövlət (bələdiyyə) torpaqlarından pulsuz torpaq əldə etmiş fiziki şəxslər torpaq sahəsini başqasına satdıqda, bağışladıqda, yaxud başqa cür özgəninkiləşdirdikdə onlara təkrarən pulsuz torpaq sahəsi verilmir.

5. "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bələdiyyə torpaqlarının vətəndaşlara və hüquqi şəxslərə satışı onların ərizələrinə əsasən *bələdiyyə orqanlarının (4)* qərarı ilə, vətəndaşların və hüquqi şəxslərin mülkiyyətində olan torpaqların alqı-satqısı isə onlar arasında notarial qaydada bağlanan müqavilələrə əsasən həyata keçirilir.

*Xüsusi şəhərsalma əhəmiyyətinə malik bələdiyyə torpaqları layihələrlə birlikdə və yaxud onlardan ayrı, habelə ərazi planlaşdırılması əsasında yaşayış məntəqəsinin infrastruktur sahələrinin yaradılması üçün nəzərdə tutulan torpaqlar bir qayda olaraq torpaq hərracları və müsabiqələri vasitəsilə satılır. (4)*



6. Bələdiyyənin ehtiyat fondunun özəlləşdirilə bilən torpaqlarından Azərbaycan Respublikasının fiziki və hüquqi şəxslərinə torpaq sahəsi həmin ərazi üçün adambaşına düşən orta torpaq norması və digər normativlər nəzərə alınmaqla, *müvafiq bələdiyyə orqanının (4)* müəyyən etdiyi ölçüdə satıla bilər.

7. Fiziki və ya hüquqi şəxslərin mülkiyyətində olan torpaq sahəsi satılanda onun qiyməti bazar qiyməti ilə, lakin normativ qiymətdən az olmamaq şərti ilə müəyyən edilir.

8. Torpaq sahələrinin alqı-satqısı aşağıdakı qaydada həyata keçirilir:

– Bələdiyyənin ehtiyat fondunun şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin hüdudlarından kənarda yerləşən torpaqlarından almaq istəyən Azərbaycan Respublikasının fiziki və ya hüquqi şəxsləri bu barədə müvafiq *bələdiyyə orqanına (4)* müraciət edərək ərizədə aşağıdakıları göstərir:

a) əvvəllər torpaq sahəsi alıb-almadığını;

b) ailə üzvlərindən torpaq alanın olub-olmadığını;

c) ailə üzvlərinin sayını və tərkibini;

ç) torpaq sahəsindən hansı məqsəd üçün istifadə edəcəyini;

d) torpaq sahəsinin ölçüsünü və yerləşdiyi yeri;

e) ailə üzvlərindən şəhid olan, müharibə əlili və hərbi xidmətdə olan, xaricdə işləməyə və oxumağa gedən, yaxud dövlət tərəfindən xüsusi xidmətə göndərilənin olub-olmadığını;

*ə) torpaq sahəsində tikilməsi, yaxud quraşdırılması nəzərdə tutulan obyektin eskizi; (2)*

*f) daimi yaşayış yerini (fiziki şəxslər) və ya hüquqi ünvanını (hüquqi şəxslər). (2)*

– bələdiyyə orqanı (4) ərizəyə 5 gün müddətində baxır, torpaq ehtiyatı imkanlarını nəzərə alaraq ilkin sənədləşdirməni həyata keçirmək üçün rayon, şəhər torpaq şöbəsinə müvafiq tapşırıq verir;

*– rayon, şəhər torpaq şöbəsi qanunvericiliklə müəyyən edilmiş qaydada satılması nəzərdə tutulan torpaq sahəsinin planını (cizgisini) təsdiq edərək, torpaq sahəsinin normativ qiyməti barədə sənəd ilə birlikdə 10 gün müddətində bələdiyyəyə göndərir. (2)*

– rayon, şəhər torpaq şöbəsi 15 gün müddətində aşağıdakı sənədləri hazırlayıb bələdiyyə orqanına təqdim edir:

a) satılacaq torpaq sahəsinin faktiki ölçüsü barədə arayış;

b) satılacaq torpaq sahəsinin qaiməsindən (sertifikatından) çıxarış;

c) ərazi üzrə adambaşına düşən orta torpaq norması barədə arayış;

ç) satılması nəzərdə tutulan sahənin təsdiq edilmiş yerquruluşu planından çıxarış.

- Əgər eyni sahəni almağa bir neçə şəxs iddia edirsə, aşağıdakılara üstünlük hüququ verilir:

a) satılan torpaq sahəsi yerləşən təsərrüfatda işləyənlərə;

b) təsərrüfatın ərazisində daimi yaşayan başqa şəxslərə;
c) kənd təsərrüfatı sahəsində iş təcrübəsi olanlara;
ç) şəhid ailələrinə, müharibə əlillərinə, hərbi xidmətdə olanlara və s.

*Qanunla nəzərdə tutulmuş hallarda bələdiyyə torpaqlarının satışı torpaq hərracları və ya müsabiqələri vasitəsilə həyata keçirilir. (2)*

– *Bələdiyyə orqanı (4)* 5 gün *(2)* müddətində məsələyə baxıb müvafiq qərar qəbul edir. Satışa icazə verildikdə torpaq sahəsini alan şəxs onun dəyərini (pulla) bələdiyyənin müvafiq bankda xüsusi hesabına keçirir və bu qaydalara əlavə edilmiş formaya uyğun olaraq torpaqların alqı-satqısına dair üç nüsxədən ibarət akt tərtib edilir. Aktı müvafiq rayon, şəhər bələdiyyə orqanının rəhbəri, torpaq şöbəsinin müdiri və torpaq alan şəxs imzalayır və o, möhürlə təsdiq edilir.

9. Şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin hüdudları daxilində həyətyanı sahə, yaşayış evi, fərdi qaraj tikintisi, sahibkarlıq fəaliyyəti ilə əlaqədar, ənənəvi xalq sənətləri və s. ilə məşğul olmaq üçün torpaq almaq istəyən Azərbaycan Respublikasının fiziki və ya hüquqi şəxsləri müvafiq *bələdiyyə orqanına (4)* ərizə ilə müraciət edir (ərizədə 8-ci bəndin birinci yarımbəndindəki məlumatlar göstərilməlidir).

Qalan məsələlərin həlli müvafiq qanuna *(3)* bu qaydaların 8-ci bəndində göstərilən şərtlərə uyğun həyata keçirilir.

10. *Fiziki və hüquqi şəxslərin (1)* torpaq sahəsinin alqı-satqısı iki tərəf arasına notarial qaydada bağlanan müqavilə əsasında həyata keçirilir.

11. Tikinti altında olan torpaqların satılması.

– Tikinti altında olan torpaqlar Azərbaycan Respublikasının fiziki və hüquqi şəxslərinə satıldıqda həmin torpaq üzərindəki tikililərə mülkiyyət hüququ müvafiq qanunvericiliyə uyğun olaraq tənzimlənir.

– İdarə, müəssisə və təşkilatların istifadəsində olan bina, obyekt və ya hər hansı bir qurğu Azərbaycan Respublikasının vətəndaşlarına və hüquqi şəxslərinə satılarsa, onların altında olan, torpaq sahəsinə mülkiyyət hüququ da qanunvericiliyə uyğun olaraq yeni mülkiyyətçiyə keçir.

Bu halda bir neçə mülkiyyətçi olarsa, torpaq sahəsi üzərində mülkiyyət hüququ qanunvericiliyə uyğun olaraq hər bir mülkiyyətçinin əmlak payına uyğun müəyyən edilir.

İdarə, müəssisə və təşkilatların istifadəsində olan bina, obyekt və ya hər hansı qurğu Azərbaycan Respublikasının vətəndaşı olmayan şəxslərə, *xarici hüquqi şəxslərə, beynəlxalq birliklərə və təşkilatlara, xarici dövlətlərə (3)* satılarsa, onların altında olan torpaq sahəsi bələdiyyə mülkiyyətində qalmaqla qanunvericiliyə uyğun olaraq onların uzunmüddətli istifadəsinə və ya icarəsinə verilir.

*12. Torpağa mülkiyyət hüququ alıcıya qanunvericiliklə müəyyən edilmiş qaydada daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat anından keçir.(1)*



# Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*(11 iyun 2001-ci il, № 498)*

"Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinin beşinci hissəsinə uyğun olaraq **qərara alıram:**

1. "Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında" əsasnamə təsdiq edilsin *(əlavə olunur).*

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, həmin əsasnamənin 5-ci bəndində nəzərdə tutulmuş bələdiyyə mülkiyyətinə verilə bilən dövlət əmlakının siyahısını iki ay müddətində müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

*Azərbaycan Respublikası Prezidentinin*
*2001-ci 11 iyun il tarixli, 498 nömrəli fərmanı ilə*
***təsdiq edilmişdir***

## Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında ƏSASNAMƏ

***Əlavə və dəyişikliklər:***

*1. 23 oktyabr 2003-cü il, № 967*
*2. 25 may 2006-cı il, № 409*
*3. 6 iyul 2006-cı il, q.m.t. 07.07.2006*
*4. 21 iyun 2007-ci il, q.m.t. 22.06.2007*

### I. Ümumi müddəalar

1. Bu əsasnamə "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hazırlanmışdır.

2. Əsasnamə dövlət mülkiyyətində olan və bələdiyyənin səlahiyyətlərinin həyata keçirilməsi üçün zəruri mənzil-kommunal, sosial və mədəniyyət obyektlərinin, əhalinin ümumi istifadəsində olan obyektlərin və digər dövlət əmlakının bələdiyyələrin mülkiyyətinə verilməsi qaydasını müəyyən edir.

*Qanunvericiliklə özəlləşdirilməsi qadağan edilən və Azərbaycan Respublikası Prezidentinin qərarı ilə özəlləşdirilən və ya müvafiq qərar qəbul edilənədək dövlət mülkiyyətində qalan dövlət əmlakı və onun yerləşdiyi torpaq sahələri, habelə fiziki və ya qeyri-dövlət hüquqi şəxslərinin vəsaiti hesabına inşa edilmiş obyektlərin yerləşdiyi torpaq sahələri istisna olmaqla, bələdiyyələrin ərazilərində yerləşən digər dövlət əmlakı onların mülkiyyətinə verilə bilər. (1)*

3. Dövlət əmlakının bələdiyyə mülkiyyətinə verilməsi Azərbaycan Respublikası adından Azərbaycan Respublikasının *Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi (3)* tərəfindən əvəzsiz olaraq həyata keçirilir.

4. Bələdiyyənin mülkiyyətinə verilən əmlakın yerləşdiyi torpaq sahələrinin bələdiyyə mülkiyyətinə verilməsi "Torpaq islahatı haqqında", "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" və Azərbaycan Respublikasının digər qanunlarına, normativ hüquqi aktlarına və bu əsasnaməyə uyğun olaraq həyata keçirilir.

## II. Dövlət əmlakının bələdiyyə mülkiyyətinə verilməsi

5. Bələdiyyə mülkiyyətinə verilə bilən müəssisə və obyektlərin, binaların, tikililərin, qeyri-yaşayış sahələrinin, qurğuların və avadanlıqların, habelə ümumi istifadə obyektlərinin siyahısı və bələdiyyələrə verilməsi müddətləri hər bir bələdiyyə ərazisi üzrə Azərbaycan Respublikası *Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsinin (2)* bələdiyyələr və yerli icra hakimiyyəti orqanları ilə razılaşdırılmış təqdimatı əsasında Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

6. Bələdiyyənin mülkiyyətinə ilk növbədə onların fəaliyyətinin təmin edilməsi üçün zəruri olan inzibati binalar, otaqlar və avadanlıqlar verilir.

7. Bələdiyyə mülkiyyətinə dövlət əmlakı bələdiyyələr tərəfindən bu əmlakdan istifadə etmək imkanı yarandıqda, onların müraciəti əsasında verilir.

8. Bələdiyyə mülkiyyətinə daşınmaz dövlət əmlakının verilməsi Azərbaycan Respublikasında dövlət əmlakının registrində müvafiq qeydiyyatlar aparılmaqla Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, *Dövlət Statistika Komitəsinə və (4) Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinə (2)* məlumat verməklə həyata keçirilir.

## III. Bələdiyyələrin mülkiyyət hüququnun rəsmiləşdirilməsi qaydası

9. Bələdiyyələr onların mülkiyyətinə verilən dövlət əmlakı üzərində mülkiyyət hüququnu aşağıdakı qaydada əldə edirlər:

Bələdiyyə mülkiyyətinə verilən əmlakın siyahısı (o cümlədən inzibati binalar, otaqlar və avadanlıqlar) Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edildikdən sonra bələdiyyə qurumları Azərbaycan Respublikasının *Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsinə (3)* ərizə ilə müraciət edirlər; ərizəyə bələdiyyə qurumunun statusunu təsdiq edən sənədlər əlavə olunmalıdır.



Azərbaycan Respublikasının *Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi (3)* daxil olmuş müraciətlərin əsaslığını yoxlayır.

Müraciətdə göstərilən dövlət əmlakının, o cümlədən ümumi istifadə obyektlərinin bələdiyyə mülkiyyətinə verilməsi nəzərdə tutulmuşdursa, Azərbaycan Respublikasının *Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi (3)* tərəfindən 10 gün ərzində müvafiq akt tərtib edilir.

*Bu əsasnamə ilə nəzərdə tutulmuş qaydada bələdiyyə mülkiyyətinə verilən daşınmaz dövlət əmlakı üzərində bələdiyyənin mülkiyyət hüququ qanunvericiliyə uyğun olaraq daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır. (4)*

Bələdiyyələrin ümumi istifadə obyektlərinə mülkiyyət hüququ həmin obyektlərin Azərbaycan Respublikasının *Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsindən (3)* təhvil-təslim aktı əsasında qəbul edildiyi andan yaranır.

# Bələdiyyə sifarişlərinin verilməsi qaydalarının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*(4 iyul 2001-ci il, № 529)*

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 162 nömrəli fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. Bələdiyyə sifarişlərinin verilməsi qaydaları təsdiq edilsin *(əlavə olunur).*
2. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

*Azərbaycan Respublikası Prezidentinin*
*2001-ci il 4 iyul tarixli, 529 nömrəli fərmanı ilə*
***təsdiq edilmişdir***

# Bələdiyyə sifarişlərinin verilməsi QAYDALARI

***Əlavə və dəyişikliklər:***

*1. 26 dekabr 2002-ci il, q.m.t. 29.12.2002*
*2. 27 sentyabr 2006-cı il, q.m.t. 29.09.2002*

Bələdiyyə sifarişlərinin verilməsi qaydaları "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respubli-

kası prezidentinin 1999-cu il 27 iyul tarixli 162 nömrəli Fərmanının icrası ilə əlaqədar, "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" və "Yerli rəy sorğusu haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

Bu qaydalar bələdiyyənin öz maddi və maliyyə vəsaitlərindən istifadə etməklə bələdiyyə ərazisinin abadlaşdırılması, əhaliyə kommunal xidmətlər göstərilməsi, sosial infrastruktur obyektlərinin tikintisi və təmiri, müvafiq ərazi əhalisinin məişət və sosial-mədəni tələbatının ödənilməsi üçün zəruri məhsulların istehsalı, xidmətlərin göstərilməsi və digər işlərin görülməsi üçün sifarişçi kimi çıxış etmək səlahiyyətini, sifariş verilməsinin şərtlərini müəyyən edir.

Bu qaydalar Azərbaycan Respublikası ərazisində olan bütün bələdiyyələrə və onların birliklərinə şamil edilir.

1. Bələdiyyə sifarişləri bələdiyyələrin müvafiq sosial inkişaf, iqtisadi inkişaf və digər proqramlarının icrası ilə əlaqədar verilir.

2. Bələdiyyə sifarişləri bələdiyyənin ərazisində yaşayan və seçki hüququ olan bütün vətəndaşların rəy sorğusu əsasında da formalaşdırıla bilər.

3. Bələdiyyə sifarişlərinə çıxarılan məsələlər (işlərin görülməsi, xidmətlərin göstərilməsi, mal, material alınması və sair) müvafiq maliyyə təminatına malik olmaqla yerli büdcənin vəsaiti hesabına maliyyələşdirilir.

4. Bələdiyyə sifarişlərinin yerinə yetirilməsi üçün icraçılar Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq müsabiqə *(1)* və ya birbaşa müqavilə əsasında seçilir.

5. İcraçıların hansı formada seçilməsi tərəflərin maraqları gözlənilməklə müvafiq əsaslandırmaya uyğun olaraq təmin edilir. Müsabiqə zamanı eyni təkliflər vermiş icraçılar arasında bələdiyyə mülkiyyətində olan icraçılara üstünlük verilir.

6. Bələdiyyə sifarişləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada bu işlərin görülməsi üçün müqavilə bağlanması yolu ilə fiziki və ya hüquqi şəxslərə verilir.

7. Bələdiyyə sifarişlərinin yerləşdirilməsinə və icrasına nəzarət bələdiyyələr tərəfindən yerinə yetirilir.

8. Bələdiyyə sifarişlərinin maliyyələşdirilməməsinə və digər müqavilə şərtlərinin yerinə yetirilməməsinə görə bələdiyyələr qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

9. Bələdiyyə sifarişlərinin maliyyələşdirilməsi qaydaları və yerinə yetirilməsi müddətləri, habelə işlərin qəbulu və digər şərtlər, o cümlədən məsuliyyətlər tərəflər arasında bağlanmış müqavilə ilə tənzimlənir.

10. Bələdiyyə sifarişlərinin verilməsi haqqında məlumatlar yerli kütləvi informasiya vasitələri ilə elan edilir. *Bələdiyyələr bələdiyyə sifarişlərinin şərtləri və nəticəsi barədə məlumatları qanunvericiliklə müəyyən edilmiş üsullarla açıqlayır (2).*

***Dərci: 10 iyul 2001-ci il***



## Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin gücləndirilməsi tədbirləri barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

*(26 may 2006-cı il, № 1482)*

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 8 fevral tarixli 333 nömrəli sərəncamı ilə yaradılmış Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə İş Mərkəzi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin mərkəzi aparatının tərkibinə daxil edilsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nazirliyin müvafiq yerli (regional) bölmələrinin yaradılmasını təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

3.1. qüvvədə olan qanunvericilik aktlarının bu sərəncama uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu sərəncama uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. öz səlahiyyətləri daxilində bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

***Dərci: 27 may 2006-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNLARINDAN BƏLƏDİYYƏLƏRLƏ BAĞLI ÇIXARIŞLAR

## AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYASI

*(12 noyabr 1995-ci il)*

### *Dördüncü bölmə*
### Yerli özünüidarəetmə

### *IX Fəsil.* Bələdiyyələr

**Maddə 142. Yerlərdə özünüidarənin təşkili**

I. Yerli özünüidarəni bələdiyyələr həyata keçirir.

II. Bələdiyyələr seçkilər əsasında yaradılır.

III. Bələdiyyələrin statusunun əsasları bu Konstitusiya ilə, bələdiyyələrə seçkilərin qaydaları isə qanunla müəyyən edilir.

**Maddə 143. Bələdiyyələrin işinin təşkili**

I. Bələdiyyə öz fəaliyyətini iclaslar, daimi və başqa komissiyalar vasitəsi ilə həyata keçirir.

II. Bələdiyyənin iclaslarını bələdiyyənin sədri çağırır.

**Maddə 144. Bələdiyyələrin səlahiyyətləri**

I. Bələdiyyələrin iclaslarında aşağıdakı məsələlər həll edilir:

1) bələdiyyə üzvlərinin səlahiyyətlərinin tanınması, qanunla müəyyən edilmiş hallarda onların səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi;

2) bələdiyyənin reqlamentinin təsdiq edilməsi;

3) bələdiyyənin sədrinin və onun müavinlərinin, daimi və başqa komissiyaların seçilməsi;

4) yerli vergilərin və ödənişlərin müəyyən edilməsi;

5) yerli büdcənin və onun icrası haqqında hesabatların təsdiq edilməsi;

6) bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam;

7) yerli sosial müdafiə və sosial inkişaf proqramlarının qəbul və icra edilməsi;

8) yerli iqtisadi inkişaf proqramlarının qəbul və icra edilməsi;

9) yerli ekoloji proqramların qəbul və icra edilməsi.



II. Bələdiyyələrə qanunvericilik və icra hakimiyyətləri tərəfindən əlavə səlahiyyətlər də verilə bilər. Bu səlahiyyətlərin həyata keçirilməsi üçün bələdiyyə üzrə müvafiq zəruri maliyyə vəsaiti də ayrılmalıdır. Belə səlahiyyətlərin həyata keçirilməsinə müvafiq olaraq qanunvericilik və icra hakimiyyətləri nəzarət edirlər.

**Maddə 145. Bələdiyyələrin qərarları**

I. Bələdiyyənin iclaslarında baxılan məsələlərə dair qərarlar qəbul edilir.

II. Bələdiyyənin qərarları bələdiyyə üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir.

III. Yerli vergilər və ödənişlər ilə bağlı qərarlar bələdiyyə üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul edilir.

**Maddə 146. Bələdiyyələrin müstəqilliyinin təminatı**

Bələdiyyələrin məhkəmə tərəfindən müdafiəsinə, dövlət orqanlarının qərarları nəticəsində yaranan əlavə xərclərinin ödənilməsinə təminat verilir.

**Maddə 149. Normativ hüquqi aktlar**

I. Normativ hüquqi aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətdə) əsaslanmalıdır.

II. Referendumla qəbul edilmiş aktlar yalnız dərc edildikdə onların tətbiq və icrası vətəndaşlar, qanunvericilik, icra və məhkəmə hakimiyyəti, hüquqi şəxslər və bələdiyyələr üçün məcburidir.

III. Qanunlar Konstitusiyaya zidd olmamalıdır. Yalnız dərc edilmiş qanunların tətbiqi və icrası bütün vətəndaşlar, icra hakimiyyəti və məhkəmə hakimiyyəti və bələdiyyələr üçün məcburidir.

**Maddə 150. Bələdiyyə aktları**

I. Bələdiyyələrin qəbul etdikləri aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalı, Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına (Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına) zidd olmamalıdır.

II. Bələdiyyənin qəbul etdiyi aktın icrası onun ərazisində yaşayan vətəndaşlar və onun ərazisində yerləşən hüquqi şəxslər üçün məcburidir.

### Keçid müddəaları

... 6. Bu Konstitusiya qüvvəyə mindiyi gündən Azərbaycan Respublikası yerli Xalq Deputatları Sovetlərinin səlahiyyətlərinə xitam verilir.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə Azərbaycan Respublikasının yerli Xalq Deputatları Sovetlərinə aid edilmiş səlahiyyətləri yerli icra hakimiyyəti orqanları həyata keçirir.

7. Bu Konstitusiya qüvvəyə mindikdən sonra iki il müddətində yerli özünüidarə haqqında qanun qəbul edilməli və bələdiyyələrə seçkilər keçirilməlidir.

8. Bu Konstitusiyanın qəbul edildiyi günədək Azərbaycan Respublikasının ərazisində qüvvədə olan qanunlar və başqa normativ hüquqi aktlar bu Konstitusiyaya zidd olmayan hissədə öz qüvvəsini saxlayır.

...

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ KONSTİTUSİYASI

*(29 dekabr 1998-ci il, № 603-IKQ)*

**Maddə 49. Naxçıvan Muxtar Respublikasının normativ hüquqi aktları**

I. Normativ hüquqi aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə, bərabər münasibətə) əsaslanmalıdır.

II. Naxçıvan Muxtar Respublikasının qanunları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına zidd olmamalıdır, yalnız dərc edilmiş qanunların tətbiqi və icrası Naxçıvan Muxtar Respublikasında bütün vətəndaşlar, icra hakimiyyəti və məhkəmə hakimiyyəti, hüquqi şəxslər və bələdiyyələr üçün məcburidir.

III. Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsinin fərmanları Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına zidd olmamalıdır, Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsinin fərmanları yalnız dərc edildikdə Naxçıvan Muxtar Respublikasında onların tətbiqi və icrası vətəndaşlar, mərkəzi və yerli icra hakimiyyəti orqanları, hüquqi şəxslər üçün məcburidir.

IV. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına, Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin fərman və sərəncamlarına zidd olmamalıdır. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları yalnız dərc edildikdə Naxçıvan Muxtar Respublikasında onların tətbiqi və icrası vətəndaşlar, mərkəzi və yerli icra hakimiyyəti orqanları, hüquqi şəxslər üçün məcburidir.

V. Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının aktları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına, Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsinin fərman və sərəncamlarına, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına və sərəncamlarına, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının aktlarına zidd olmamalıdır.



## AZƏRBAYCAN RESPUBLİKASININ TORPAQ MƏCƏLLƏSİ

*(25 iyun 1999-cu il, № 695-İQ)*

***Əlavə və dəyişikliklər:***

*1. 23.11.2001, №219-II-QD*
*2. 23.04.2002, q.m.t. 14.05. 2002*
*3. 19.04.2002, № 306-IIQD*
*4. 03.12.2002, №393- II-QD*
*5. 25.03.2003, q.m.t. 07.06.2003*
*6. 20.06.2003, q.m.t. 06.08.2003*
*7. 13.01.2004, q.m.t. 14.01.2004*
*8. 01.06. 2004, q.m.t. 20.06.2004*
*9. 07.09.2004, q.m.t. 22.10.2004*
*10. 23.12.2005, q.m.t. 16.02.2006*
*11. 21.04.2006, q.m.t. 25.06.2006*
*12. 30.05.2006, q.m.t. 04.08.2006*
*13. 20.10.2006, q.m.t. 02.12.2006*
*14. 26.12.2006, q.m.t. 24.01.2007*
*15. 17.04.2007, q.m.t. 19.08.2007*
*16. 01.04.2008, q.m.t. 17.05.2008*
*17. 02.06.2008, q.m.t. 24.06.2008*
*18. 04.07.2008, q.m.t. 09.08.2008*

### *I fəsil*

### Ümumi müddəalar

**Maddə 1. Azərbaycan Respublikası torpaq qanunvericiliyi**

1. Azərbaycan Respublikasının torpaq qanunvericiliyi bu məcəllədən, "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının Qanunundan və digər normativ hüquqi aktlardan ibarətdir.

2. Yerin təkindən, su obyektlərindən, meşədən, bitki və heyvanlar aləmindən, mədəni və təbii landşaftlardan, atmosfer havasından istifadə və onların mühafizəsi üzrə münasibətlər Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

**Maddə 2. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin məqsədi**

Azərbaycan Respublikasının Torpaq Məcəlləsi Azərbaycan Respublikasında torpaq üzərində mülkiyyətin müxtəlif növlərinin tətbiqi əsasında yaranan torpaq münasibətlərinin tənzimlənməsinə, torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçilərinin torpaqla bağlı vəzifələrinin yerinə yetirilməsinə və torpaq üzərində hüquqlarının müdafiəsinə, torpaqlardan səmərəli istifadə və onların mühafizəsi üçün şərait yaradılmasına, torpağın münbitliyinin bərpasına və artırılmasına, texnogen çirklənmə və dağılmadan korlanmış torpaqların rekultivasiyasına, təbii mühitin qorunub saxlanmasına və yaxşılaşdırılmasına yönəlmişdir.

**Maddə 3. Torpaq Münasibətləri**

*1. Torpaq Münasibətləri* – dövlət orqanları, bələdiyyələr, hüquqi və fiziki şəxslər arasında torpağa sahiblik, torpaqdan istifadə və torpaq barəsində sərəncam vermək sahəsində, habelə torpaq resurslarından istifadənin dövlət tərəfindən idarə edilməsi sahəsində ictimai münasibətlərdir.

2. Torpaq münasibətlərinin iştirakçıları Azərbaycan Respublikası, dövlət orqanları, bələdiyyələr, Azərbaycan Respublikasının vətəndaşları və hüquqi şəxsləri, habelə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər, beynəlxalq birliklər və təşkilatlar, xarici dövlətlərdir.

3. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər, beynəlxalq birliklər və təşkilatlar, habelə xarici dövlətlər torpaq münasibətlərinin iştirakçıları kimi bu Məcəllənin 48-ci maddəsində nəzərdə tutulmuş məhdudiyyətlərlə çıxış edə bilərlər.

4. Torpaq münasibətlərinin obyekti torpaq sahəsi və onun üzərində hüquqlardan ibarətdir.

**Maddə 4. Torpaq sahəsi**

*1. Torpaq sahəsi* - dövlət torpaq kadastrında və torpaq üzərində hüquqların dövlət qeydiyyatı sənədlərində sərhədləri, ölçüləri, coğrafi mövqeyi, hüquqi statusu, rejimi, təyinatı və digər göstəriciləri əks etdirilmiş yer səthinin bir hissəsidir.

2. Torpaq sahəsinin sərhədləri topoqrafik planlarda əks etdirilir və yerə (naturaya) keçirilir. Torpaq sahəsinin sərhəddi yerə (naturaya) keçirildikdən sonra onun ölçüsü müəyyən edilir.

3. Torpaq sahəsinin hüquqi statusu onun məqsədli təyinatını, torpaq sahəsi üzərində hüququn forması (mülkiyyət, istifadə və ya icarə hüququ), habelə torpaq sahəsindən istifadəyə dair müəyyən edilmiş yüklənməni (məhdudiyyətləri) əhatə edir.



4. Qanunvericiliklə başqa hallar nəzərdə tutulmamışdırsa, torpaq sahələri və onların üzərində hüquqlar, habelə torpaq sahəsi ilə bağlı daşınmaz əmlak (torpaq qatı, sututarlar, meşələr, çoxillik əkmələr, tikililər, qurğular və bu kimi digər obyektlər) dövriyyədə ayrılmaz şəkildə iştirak edirlər.

5. Torpaq sahəsi bölünən və bölünməz ola bilər.

Bölünən o torpaq sahələri hesab edilir ki, öz məqsədli və təsərrüfat təyinatına görə ayrı-ayrı hissələrə bölünə bilər və bölgüdən sonra bu hissələrin hər biri müstəqil torpaq sahələrinə çevrilməklə dövlət qeydiyyatından keçirilə bilər.

Bölünməz o torpaq sahələri hesab edilir ki, onlar öz məqsədli və təsərrüfat təyinatına görə ayrı-ayrı müstəqil torpaq sahələrinə bölünə bilməzlər.

Torpaqların həddindən artıq bölünməsinin qarşısını almaq məqsədilə dövlət qeydiyyatına alına bilən torpaq sahəsinin minimum həddinin müəyyən edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilir.

**Maddə 5. Torpaq sahəsi üzərində mülkiyyət və onun növləri**

1. Azərbaycan Respublikasında torpaq sahəsi üzərində ***dövlət, bələdiyyə və xüsusi mülkiyyət*** növləri mövcuddur. Bütün mülkiyyət növləri bərabərhüquqludur və dövlət tərəfindən qorunur.

***2. Mülkiyyət hüququnun subyektləri*** - dövlət mülkiyyətində olan torpaq sahələri üzərində – Azərbaycan dövləti, bələdiyyə mülkiyyətində olan torpaq sahələri üzərində – bələdiyyələr, xüsusi mülkiyyətdə olan torpaq sahələri üzərində – Azərbaycan Respublikasının vətəndaşları və hüquqi şəxsləridir.

3. Torpaq sahəsi üzərində mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə torpaq sahəsinə sahib olmaq, torpaq sahəsindən istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.

**Maddə 6. Torpaq münasibətlərinin tənzimlənməsi sahəsində dövlətin səlahiyyətləri**

Torpaq münasibətlərinin tənzimlənməsi sahəsində dövlətin səlahiyyətləri aşağıdakılardır:

Azərbaycan Respublikasının torpaq qanunvericiliyinin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması;

torpaq qanunvericiliyinin icrasını təmin edən normativ hüquqi aktların qəbulu və onlara dəyişikliklərin edilməsi;

dövlət torpaq kadastrının, torpaqların monitorinqinin və yerquruluşunun aparılması qaydalarının müəyyən edilməsi;

bu Məcəllədə və digər qanunvericilik aktlarında müəyyən edilmiş qaydada dövlət mülkiyyətində olan torpaq sahələrinin istifadəyə və icarəyə verilməsi, onların dövlət *ehtiyaclarının (15)* təmin edilməsi məqsədilə geri alınması;

xüsusi mülkiyyətdə olan torpaq sahələrinin bu Məcəllədə və digər qanunvericilik aktlarında müəyyən edilmiş qaydada *özgəninkiləşdirilməsi (12)*;

dövlət qeydiyyatına alına bilən torpaq sahələrinin minimum hədlərinin müəyyən edilməsi qaydalarının müəyyənləşdirilməsi;

torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi;

yay və qış otlaq sahələrinin inzibati-ərazi vahidlərinə istifadəyə verilməsi;

*vergitutma məqsədi ilə kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla, şərti balların müəyyənləşdirilməsi; (12)*

torpaqlardan səmərəli istifadəyə, torpaqların münbitliyinin artırılmasına, torpaq ehtiyatlarının qorunmasına dair və digər təbiəti mühafizə tədbirlərinin dövlət proqramlarının hazırlanması və yerinə yetirilməsi;

dövlət mülkiyyətində olan torpaqların istifadəsi ilə bağlı fəaliyyətin dövlət ekoloji ekspertizasının keçirilməsi və dövlət ekoloji ekspertizasının müsbət rəy vermədiyi obyektlərin tikintisinin və ya onların yenidən qurulmasının dayandırılması haqqında qərar qəbul edilməsi;

torpaqlardan qanunvericiliyə uyğun istifadə olunmasına və onların mühafizəsinə dövlət nəzarətinin təşkil edilməsi və həyata keçirilməsi;

dövlət torpaq kadastrının, torpaqların monitorinqinin və yerquruluşunun aparılmasının təşkil edilməsi;

bu Məcəllədə göstərilən və məhkəmədən kənar qaydada həll olunmalı torpaq mübahisələrinin həll edilməsi;

qanunvericiliklə müəyyən edilmiş digər səlahiyyətlərin həyata keçirilməsi.

**Maddə 7. Torpaq münasibətlərinin tənzimlənməsi sahəsində Naxçıvan Muxtar Respublikasının səlahiyyətləri**

Torpaq münasibətlərinin tənzimlənməsində Naxçıvan Muxtar Respublikasının səlahiyyətlərinə Muxtar Respublikanın hüdudları daxilində bu Məcəllənin 6-cı maddəsinin 5-ci-16-cı abzaslarında göstərilənlər aiddir.

**Maddə 8. Torpaq münasibətlərinin tənzimlənməsi sahəsində bələdiyyələrin səlahiyyətləri**

Torpaq münasibətlərinin tənzimlənməsi sahəsində bələdiyyələrin öz inzibati əraziləri daxilində səlahiyyətləri aşağıdakılardır:

qanunvericiliklə müəyyən olunmuş qaydada bələdiyyə mülkiyyətində olan torpaqlara sahiblik, onlardan istifadə və həmin torpaqlar barədə sərəncam verilməsi;

qanunvericiliklə müəyyən edilmiş qaydada bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin mülkiyyətə, istifadəyə və icarəyə verilməsi ;

yaşayış məntəqələrinin baş planının, planlaşdırma və tikinti layihələrinin, yerquruluşu və təsərrüfat planlarının hazırlanması və həyata keçirilməsinin təşkil edilməsi;



bələdiyyə torpaqlarının istifadəçilərindən torpaq sahələrinin icarəsinə görə haqq alınması;

*ictimai ehtiyaclar tələb etdikdə bələdiyyə tərəfindən hüquqi və fiziki şəxslərə əvəzsiz istifadəyə verilmiş torpaq sahələrinin məcburi geri alınması barədə məhkəmədə iddia qaldırılması; (12)*

öz səlahiyyəti daxilində torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin hüquqlarının müdafiə edilməsi;

bələdiyyə torpaqlarının mühafizəsinə və yaxşılaşdırılmasına dair proqramların hazırlanması və həyata keçirilməsi;

hüquqi və fiziki şəxslərin mülkiyyətinə, istifadəsinə və icarəsinə verilən (satılan) torpaq sahələrinin minimum həddinin müəyyən edilməsi;

öz səlahiyyəti daxilində bələdiyyə torpaqlarından istifadə olunmasına və onların mühafizəsinə nəzarət edilməsi;

öz səlahiyyəti daxilində bələdiyyə torpaqlarına dair məhkəmədən kənar qaydada həll olunmalı mübahisələrin həll edilməsi;

qanunvericiliklə müəyyən edilmiş digər səlahiyyətlərin həyata keçirilməsi.

## *II fəsil*

## Azərbaycan Respublikasının vahid torpaq fondu

**Maddə 9. Azərbaycan Respublikasının vahid torpaq fondu və onun tərkibi**

1.Azərbaycan Respublikasının hüdudları daxilində yerləşən bütün torpaqlar onun vahid torpaq fondunu təşkil edir.

2. Məqsədli təyinatına və hüquqi rejiminə uyğun olaraq Azərbaycan Respublikasının torpaqları aşağıdakı kateqoriyalara bölünür:

kənd təsərrüfatı təyinatlı torpaqlar;

yaşayış məntəqələrinin (şəhərlərin, qəsəbələrin və kənd yaşayış məntəqələrinin) torpaqları;

sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar;

xüsusi qorunan ərazilərin torpaqları;

meşə fondu torpaqları;

su fondu torpaqları;

ehtiyat fondu torpaqları.

3. Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

**Maddə 10. Torpaqların məqsədli təyinatı və hüquqi rejimi**

*1. Torpaqların məqsədli təyinatı* – torpağın kateqoriyasına uyğun olaraq onun konkret məqsədlər üçün istifadəsinin bu Məcəllədə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş qaydaları, şərtləri və həddidir.

*2. Torpaqların hüquqi rejimi* – torpaqların istifadəsinin, mühafizəsinin, uçotu və monitorinqinin həyata keçirilməsi sahəsində torpaq, şəhərsalma, su, meşə, yerin təki və təbiəti mühafizə haqqında qanunvericilik aktları ilə müəyyən edilmiş qaydaların məcmusudur və müəyyən torpaq kateqoriyasına aid edilmiş torpaq sahələrinin hamısına şamil edilir.

3. Bir çox kateqoriyalara aid edilmiş eyni torpaqlarda hər bir kateqoriya üçün müəyyən edilmiş qaydalar və məhdudiyyətlər qüvvədədir. Torpaq sahəsinin hüquqi rejimi barədə mübahisə zamanı daha ciddi hüquqi rejimə malik olan torpaq kateqoriyasına üstünlük verilir.

4. Torpaq kateqoriyalarının məqsədli təyinatı və hüquqi rejimi qanunvericiliklə müəyyən edilir, şəhərsalma və yerquruluşu sənədlərində əks etdirilir. Kateqoriyalar daxilində torpaqlardan istifadə qaydaları onların təbii-təsərrüfat rayonlaşdırılması, zonalaşdırılması, istifadəsinin ərazi planlaşdırılması və yerquruluşu sənədlərinə uyğun olaraq mülkiyyətçilər, istifadəçilər və icarəçilər tərəfindən müəyyən edilir.

5. Torpağın kateqoriyaları torpağın verilməsi barədə müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin qərarında, *(11)* dövlət torpaq kadastrı sənədlərində, torpaq qeydiyyatı kitablarında və bu Məcəllədə göstərilən digər sənədlərdə əks olunur.

**Maddə 11. Torpaq sahələrinin məhdudiyyətli istifadəsi**

**1. Torpaq sahələrinin məhtudiyyətli istifadəsi** – torpaq sahəsindən onun məqsədli təyinatı, habelə müəyyən edilmiş məhdudiyyətlər və öhdəliklər nəzərə alınmaqla istifadədir.

2. Torpaq sahəsinin məhdudiyyətli istifadəsi torpaqların zonalaşdırılması, şəhərsalma və yerquruluşu sənədləri əsasında həmin torpaq sahəsi üzərində olan hüquqların formasından asılı olmayaraq müəyyən edilir.

3. Torpaq sahəsinin məhdudiyyətli istifadəsinin əhatə etdiyi tələblər müvafiq normativ hüquqi aktlarla tənzimlənir.

4. Torpaq sahəsinin məhdudiyyətli istifadəsinin özbaşına dəyişdirilməsinə yol verilmir.

## *III fəsil*

## Kənd təsərrüfatı təyinatlı torpaqlar

**Maddə 12. Kənd təsərrüfatı təyinatlı torpaqlar və onların tərkibi**

1. Torpaqların istifadəsinin ərazi planlaşdırılmasında kənd təsərrüfatı ehtiyacları üçün nəzərdə tutulmuş torpaq sahələri kənd təsərrüfatı təyinatlı torpaqlar sayılır.



2. Kənd təsərrüfatı təyinatlı torpaqların tərkibinə kənd təsərrüfatı yerləri (uqodiyaları), meşə zolaqlarının, təsərrüfatdaxili yolların, kommunikasiyaların, bataqlıqların, sututarların, kənd təsərrüfatının aparılması üçün vacib olan tikili və qurğuların altında olan torpaqlar daxildir.

3. Kənd təsərrüfatı yerlərinə (uqodiyalarına) əkin, çoxillik əkmələrin altında olan torpaqlar, dincə qoyulmuş torpaqlar, biçənəklər, örüşlər və otlaqlar aid edilir.

4. Kənd təsərrüfatı yerləri (uqodiyaları) xüsusi olaraq qorunur. Bu torpaqların qeyri-kənd təsərrüfatı məqsədilə digər kateqoriyalara keçirilməsinə müstəsna hallarda bu Məcəllədə və digər qanunvericilik aktlarında müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanının *(13)* qərarı ilə yol verilir.

*5. Bələdiyyələr bələdiyyə mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqların qeyri-kənd təsərrüfatı məqsədilə digər kateqoriyalara keçirilməsi üçün müvafiq icra hakimiyyəti orqanı qarşısında vəsatət qaldırırlar. (13)*

**Maddə 13. Kənd təsərrüfatı təyinatlı torpaqların məqsədli istifadəsi**

1. Kənd təsərrüfatı təyinatlı torpaqlar kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, habelə kənd təsərrüfatı sahəsində elmi-tədqiqat, tədris, tədris-təcrübə və sınaq məqsədləri üçün istifadə edilir.

2. Kənd təsərrüfatı təyinatlı torpaqlarda kənd təsərrüfatının səmərəli təşkil edilməsi üçün vacib olan müvafiq ekoloji və texniki tələblərə uyğun kommunikasiyalar, müvəqqəti tikililər və qurğular quraşdırmaq olar.

3. Kənd təsərrüfatı təyinatlı torpaqlardan başqa məqsədlər üçün istifadə edilməsi bu məcəllənin 9-cu maddəsinin 3-cü bəndində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

**Maddə 14. Kənd təsərrüfat məhsulları istehsalı və emalı üçün torpaq sahələri**

1. Azərbaycan Respublikasının vətəndaşları və hüquqi şəxsləri kənd təsərrüfatı məhsulları istehsalı və emalı üçün kənd təsərrüfatı təyinatlı torpaq sahələrini aşağıdakı qaydalarla əldə edirlər:

"Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sovxoz və kolxozların özəlləşdirilən torpaqlarından ayrılan payların xüsusi mülkiyyətə verilməsi;

bələdiyyələrin ehtiyat torpaq fondunda, habelə vətəndaşların və hüquqi şəxslərin mülkiyyətində olan torpaqların qanunvericiliklə müəyyən olunmuş qaydada satın alınması;

dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlardan istifadəyə və icarəyə torpaq sahəsi götürülməsi.

2. Əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və xarici hüquqi şəxslər kənd təsərrüfatı məhsulları istehsalı və emalı üçün kənd təsərrüfatı təyinatlı torpaq sahələrini yalnız icarə hüququ əsasında əldə edə bilərlər.

**Maddə 15. Kənd təsərrüfatı sahəsinədə elmi-tədqiqat, tədris, tədris-təcrübə və sınaq məqsədləri üçün torpaq sahələri**

1. Kənd təsərrüfatı sahəsində elmi-tədqiqat, tədris, tədris-təcrübə və sınaq fəaliyyəti ilə məşğul olan dövlət müəssisələrinə, idarələrinə və təşkilatlarına torpaq sahələri bir qayda olaraq kənd təsərrüfatı təyinatlı dövlət torpaqlarından istifadəyə verilir.

Bələdiyyə mülkiyyətində olan bu kimi müəssisələrə torpaq sahələri, bələdiyyələrin kənd təsərrüfatı təyinatlı torpaqlarından istifadəyə və icarəyə verilir.

2. Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinin xüsusi mülkiyyətində olan kənd təsərrüfatı sahəsində elmi-tədqiqat, tədris, tədris-təcrübə və sınaq fəaliyyəti ilə məşğul olan müəssisələr, idarələr və təşkilatlar kənd təsərrüfatı təyinatlı torpaq sahələrini bu Məcəllədə və digər qanunvericilik aktlarında müəyyən edilmiş qaydada satınalma və icarə hüququ əsasında əldə edə bilərlər.

3. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin və xarici hüquqi şəxslərin mülkiyyətində olan kənd təsərrüfatı sahəsində elmi-tədqiqat, tədris, tədris-təcrübə və sınaq fəaliyyəti ilə məşğul olan müəssisələrə kənd təsərrüfatı təyinatlı torpaq sahələri yalnız icarə hüququ əsasında verilə bilər.

**Maddə 16. Örüş, otlaq və biçənək üçün torpaq sahələrinin istifadəsinin xüsusiyyətləri**

1. Yay və qış otlaqları, örüş və biçənək sahələri mülkiyyətində və istifadəsində mal-qara olan hüquqi və fiziki şəxslərə verilir. Dövlət mülkiyyətində olan yay və qış otlaqları dövlət qoyunçuluq təsərrüfatlarının ehtiyacları da nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanlarının qərarı ilə inzibati-ərazi vahidlərinin istifadəsinə verilir.

2. Yay və qış otlaqları bələdiyyələrin qərarı əsasında qoyunçuluğun inkişafı üçün bələdiyyə mülkiyyətində olan müəssisələrə istifadəyə, digər hüquqi və fiziki şəxslərə isə yalnız icarəyə verilir.

3. Bələdiyyələrin mülkiyyətində olan torpaqlarından əhalinin mal-qarası üçün örüş sahələri ümumi istifadəyə ayrılır, ehtiyat torpaq fondunda qalan örüş və biçənək sahələri isə hüquqi və fiziki şəxslərin icarəsinə verilir.

4. Ümumi istifadədə olan örüş sahələri əhalinin istifadəsinə müddətsiz verilir. Yay və qış otlaqları, habelə bələdiyyə ehtiyat fondunun örüş və biçənək sahələri hüquqi və fiziki şəxslərin icarəsinə bir qayda olaraq on ildən beş ilədək verilə bilər. Örüş, otlaq və biçənək sahələrinin icarə müddəti başa çatdıqda, müqavilə qanunvericiliklə müəyyən edilmiş qaydada yenidən uzadılır. Yay və qış otlaqlarının, örüş və biçənək sahələrinin istifadəçilərinin və icarəçilərinin mal-qarasının sayı iki dəfədən çox azaldıqda, yaxud heyvanlar tamamilə ləğv edildikdə və ya onların mülkiyyətçisi dəyişdikdə icarə müqaviləsinə və istifadə haqqında qərara qanunvericiliklə müəyyən olunmuş qaydada yenidən baxılır.

5. Qış otlaqlarına tələbat hesablanarkən otlaqların bitki örtüyündən, keyfiyyətindən, tutumundan, habelə torpaqların mexaniki tərkibindən və humus qatının qalınlığından asılı olaraq hər hektara 1-4 baş, yay otlaqlarında isə iki dəfə artıq davar nəzərdə tutulur.



Ümumi istifadədə olan örüş sahələrinə, habelə hüquqi və fiziki şəxslərin icarəsinə verilən örüş və biçənək sahələrinə tələbat hesablanarkən mal-qaranın sayı, sahələrin həcmi, tutumu və yerləşməsi, suvarma imkanları, torpaqların keyfiyyəti və digər normativ-texniki tələblər nəzərə alınır.

6. Yay və qış otlaqlarının əkilməsinə yol verilmir, istifadə edilən sahənin yalnız 3 faizə qədər hissəsində yaşıl yem üçün xəsil əkilə bilər.

7. Hüquqi və fiziki şəxslər yay və qış otlaqlarından, örüş və biçənək sahələrindən səmərəli istifadə etməli, bitki örtüyünü, su mənbələrini, köç yollarını və mal-qara düşərgələrini qoruyub saxlamalı, baytarlıq-sanitariya qaydalarına və digər tələblərə riayət etməlidirlər. Yay və qış otlaqlarında tələbata uyğun olaraq çoban evləri, yataqlar, digər mədəni-məişət və istehsal təyinatlı tikililər (əsaslı tikintilər istisna olmaqla) inşa edilə bilər.

8. Örüş, otlaq və biçənək sahələrinin istifadəyə və icarəyə verilməsi, habelə istifadə edilməsi qaydaları qanunvericiliyə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 17. Kənd təsərrüfatı ehtiyacları üçün torpaqların yararlığının müəyyən edilməsi**

Torpaqların kənd təsərrüfatı ehtiyacları üçün yararlı olub olmadığı dövlət torpaq kadastrı məlumatlarına əsasən dövlət yerquruluşu xidməti tərəfindən müəyyən edilir.

## *IV fəsil*

## Yaşayış məntəqələrinin torpaqları

**Maddə 18. Yaşayış məntəqələrinin torpaqları və onların tərkibi**

1. Şəhər, qəsəbə və kəndlərin hüdudları daxilindəki bütün torpaqlar yaşayış məntəqələrinin torpaqları hesab edilir.

2. Yaşayış məntəqələrinin torpaqlarının tərkibinə aşağıdakılar daxildir:

ictimai və yaşayış tikinti massivlərində yerləşən yaşayış, mədəni-məişət, inzibati, ibadət və digər bina, tikili və qurğular altındakı, habelə bunlar üçün nəzərdə tutulan torpaq sahələri;

ümumi istifadədə olan torpaqlarda yerləşən meydan, küçə, keçid, yol, sahil, park, meşə-park, xiyaban, bulvar, sututarlar, çimərlik və əhalinin ictimai tələbatının ödənilməsinə xidmət edən digər obyektlər altındakı torpaq sahələri;

sənaye, kommersiya, kommunal, anbar tikinti massivlərində sənaye, kommunal, anbar tikililəri altında olan və bu kimi istehsal obyektlərinin inşası üçün nəzərdə tutulan torpaq sahələri;

nəqliyyat, rabitə və mühəndis kommunikasiyaları torpaqlarında dəmir yolu, avtomobil, çay, dəniz, hava, boru kəməri nəqliyyatına, mühəndis infrastrukturu və rabitə magistralına aid binalar, tikililər və qurğular altındakı, habelə bu məqsədlər üçün nəzərdə tutulan torpaq sahələri;

təbiət abidələri, təbii parklar, milli dendroloji parklar, nəbatat bağları, meşə yerləşən, *turizm və rekreasiya, habelə (18)* əhalinin kütləvi istirahəti üçün istifadə olunan xüsusi qorunan ərazilərin, təbiəti mühafizə, təbii qoruq, sağlamlaşdırma, *(18)* tarix-mədəniyyət təyinatlı obyektlərin torpaqları, habelə təbii müalicəvi xassəyə malik olan mənbələr yerləşən və tarix-mədəniyyət abidələri, muzey-qoruqlar və xatirə parkları, qəbiristanlıqlar, məzarlar, arxeoloji abidələr və digər obyektlər yerləşdiyi torpaq sahələri;

yerüstü su axarları, sututarlar, akvatoriyalar, su mühafizə zonaları, hidrotexniki və digər su təsərrüfatı qurğularının yerləşdiyi su obyektləri torpaqları;

kənd təsərrüfatı üçün istifadə olunan torpaqlardan şum və çoxillik əkmələr, habelə kənd təsərrüfatı binaları, tikililəri və qurğuları altındakı torpaq sahələri;

hərbi və digər xüsusi hüquqi rejimli zonaların torpaq sahələri;

şəhərsalmaya və digər fəaliyyətə cəlb olunmayan ehtiyatda qalan torpaq sahələri.

*3. Ərazi qurluşu və inzibati ərazi bölgüsü müvafiq qanunla nəzərdə tutulmuş qaydada müəyyən edilir. (3)*

**Maddə 19. Yaşayış məntəqələrinin hüdudları (sərhədi)**

1. **Yaşayış məntəqələrinin hüdudları** - şəhər, qəsəbə və kənd torpaqlarını digər torpaqlardan ayıran sərhəddir.

2. Yaşayış məntəqələrinin hüdudları təsdiq olunmuş şəhərsalma və yerquruluşu sənədləri əsasında müəyyənləşdirilir.

Yaşayış məntəqəsinin hüdudu vətəndaşların və hüquqi şəxslərin torpaq sahələrinin sərhədləri üzrə müəyyən edilir.

3. Torpaq sahəsinin şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin hüduduna daxil edilməsi torpaq üzərində mülkiyyət, istifadə və icarə hüquqlarına xitam verilməsinə səbəb olmur.

**Maddə 20. Yaşayış məntəqələrinin torpaqlarından istifadə**

1. Yaşayış məntəqələrinin torpaqlarından onların baş planlarına, ərazinin planlaşdırılması və tikintisi layihələrinə və eləcə də yerquruluşu-təsərrüfat planlarına müvafiq surətdə istifadə edilir.

2. Yaşayış məntəqələrinin baş planları mənzil, sənaye, mədəni-məişət obyektlərinin tikintisi və başqa tikintilər, əhalinin istirahət yerlərinin müəyyənləşdirilməsi və abadlaşdırılması üçün şəhərlərin, qəsəbələrin və kənd yaşayış məntəqələrinin torpaqlarından istifadənin əsas istiqamətlərini müəyyən edir. Baş plan əsasında hazırlanmış planlaşdırma və tikinti layihələri tikinti üçün torpaqlardan istifadəni müəyyən edir.

3. Ərazinin yerquruluşu-təsərrüfat planları tikinti işləri aparılmalı olmayan və tikinti işləri müvəqqəti aparılmayan şəhər torpaqlarından istifadənin əsas istiqamətlərini müəyyən edir.



4. Yaşayış məntəqələrinin ərazisindən torpaq sahələrinin yerquruluşu-təsərrüfat planları üzrə verilməsi və geri alınması qaydaları, habelə həmin sahələrdən istifadə edilməsi şərtləri bu Məcəllə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilir.

**Maddə 21. Şəhərətrafı zonaların torpaqları**

1. Şəhər hüdudlarından kənarda yerləşən, şəhər ərazisinin genişləndirilməsi üçün ehtiyat sayılan, abadlaşdırma və şəhər təsərrüfatının normal işləməsi ilə əlaqədar zəruri qurğuların yerləşdirilməsi və tikilməsi üçün nəzərdə tutulan torpaqlar, habelə qoruyucu və sanitariya-gigiyena məqsədləri güdən və əhalinin istirahət yeri olan meşələrlə, meşə-parklarla və digər yaşıllıqlarla örtülü torpaqlar aidiyyəti üzrə müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırılaraq bələdiyyələr tərəfindən şəhərin şəhərətrafı zonasına ayrılır.

2. Şəhərətrafı zonaların torpaqları bu zonaların təsdiq edilmiş planlaşdırma layihəsinə uyğun olaraq istifadə edilir. Bu torpaqlar xüsusi mühafizə edilir və orada sanitariya-gigiyena, sağlamlaşdırıcı funksiyalar və əhalinin istirahətinin təşkili məqsədləri ilə bir araya sığmayan tikili və qurğuların inşa edilməsi qadağandır.

3. Torpaq sahələri şəhərətrafı zonaların tərkibinə daxil edilərkən həmin sahələr üzərində torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin hüquqları saxlanılır.

4. Şəhərətrafı zonaların ayrılması, habelə bu zonalardakı torpaqlardan istifadə edilməsi qaydaları müvafiq normativ hüquqi aktlarla müəyyən olunur.

## *V fəsil*

## Sənaye, nəqliyyat, rabitə, Müdafiə və digər təyinatlı torpaqlar

**Maddə 22. Sənaye, nəqliyyat, rabitə və digər təyinatlı orpaqlar**

1. Sənaye, rabitə, nəqliyyat, ticarət, ictimai-iaşə və digər istehsal və xidmət obyektlərinin yerləşdirilməsi və fəaliyyəti üçün qanunvericiliklə müəyyən edilmiş qaydada ayrılan və əldə edilən torpaq sahələri sənaye, nəqliyyat, rabitə və digər təyinatlı torpaqlar sayılır.

2. Əhalinin təhlükəsizliyinin təmin olunması, sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı obyektlərin istismarına lazımi şərait yaradılması üçün onların ətrafında xüsusi (qoruyucu, sanitariya və s.) hüquqi rejimli mühafizə zonaları yaradılır. *Telekommunikasiya fəaliyyəti üçün fiziki və hüquqi şəxslərə verilən torpaq sahələrinin, o cümlədən mühafizə zona və zonalarının ölçüsü bu fəaliyyət növü üçün torpaq ayrılması normalarına və layihə-texniki sənədlərə müvafiq olaraq müəyyənləşdirilir (13).*

3. Zona üzrə müəyyən edilmiş rejimlə, torpaqların tamamilə təsərrüfat dövriyyəsindən çıxarılması nəzərdə tutulan hallar istisna olmaqla, ərazisində mühafizə zonası müəyyən edilən torpaq mülkiyyətçiləri, istifadəçiləri və ic-

araçiləri torpaq sahəsi üzərində hüquqlardan məhrum edilmirlər. Mühafizə zonasının hüdudlarında torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri bu zonalar üçün təsdiq edilmiş qaydalara əməl etməyə borcludurlar.

4. Təsərrüfat dövriyyəsindən çıxarılan torpaq sahələri xüsusi hüquqi rejimli mühafizə zonaları yaradılacaq müəssisələrə verilir və ya ehtiyat fondu torpaqlarına aid edilir.

5. Sənaye, nəqliyyat, rabitə və digər təyinatlı torpaqların istifadəsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir, xüsusi hüquqi rejimli mühafizə zonalarının müəyyənləşdirilməsi qaydaları isə müvafiq normativ hüquqi aktlarla tənzimlənir.

**Maddə 23. Müdafiə və təhlükəsizlik təyinatlı torpaqlar**

1. Hərbi hissələrin, hərbi təhsil (təlim) müəssisələrinin, müdafiə və təhlükəsizlik orqanları müəssisələrinin, idarələrinin və təşkilatlarının daimi yerləşdirilməsi və fəaliyyət göstərməsi üçün verilmiş torpaqlar müdafiə və təhlükəsizlik təyinatlı torpaqlar hesab edilir.

2. Mühafizə, sanitariya və qoruyucu zonaları müəyyən edilən, hərbi obyektlərin tikintisi üçün verilən torpaq sahələri həmin zonaların əhatə etdiyi torpaqlarla birlikdə təhkim edilir, kənd təsərrüfatı və meşə təsərrüfatı itkilərinin əvəzi ümumi sahə üçün ödənilir.

3. Müdafiə və təhlükəsizlik təyinatlı torpaqlar dövlətin müstəsna mülkiyyətində olur və onların istifadəsi üzrə məhdudiyyətlər Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

4. Müdafiə və təhlükəsizlik təyinatlı torpaqlarda istifadə rejiminin əhalinin təhlükəsizliyini təmin edəcək tələbləri müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanları ilə razılaşdırılaraq müəyyən edilir.

5. Müdafiə və təhlükəsizlik ehtiyacları ilə əlaqədar müvəqqəti keçirilən təlimlər və digər tədbirlər üçün vətəndaşların və hüquqi şəxslərin torpaq sahələri müdafiə və təhlükəsizlik orqanları müəssisələrinin, idarələrinin və təşkilatlarının istifadəsinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qayda, müddət və şərtlərlə verilə bilər.

6. Müdafiə və təhlükəsizlik ehtiyacları üçün verilmiş torpaqların istifadə edilməyən və kənd təsərrüfatına yararlı sahələri bu maddənin 1-ci bəndində göstərilən istifadəçinin razılığına əsasən müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanlarının qərarı ilə kənd təsərrüfatı istehsalı üçün Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinin müvəqqəti istifadəsinə və icarəsinə verilə bilər.

7. Müdafiə və təhlükəsizlik təyinatlı torpaq sahələrinin istifadəyə verilməsi müddəti bitdikdən sonra bu maddənin 1-ci bəndində göstərilmiş istifadəçilər öz hesablarına həmin sahələri təyinatı üzrə əvvəlki vəziyyətə gətirməyə borcludurlar.

8. Müdafiə və təhlükəsizlik ehtiyacları üçün torpaq sahələrinin verilməsi, istifadəsi və geri alınması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.



## *VI fəsil*

## Xüsusi qorunan ərazilərinin torpaqları

**Maddə 24. Xüsusi qorunan ərazilərinin torpaqları və onların tərkibi**

*1. Xüsusi qorunan ərazilərinin torpaqları* – xüsusi təbiəti mühafizə, elmi, tarix-mədəniyyət, estetik, *turizm və rekreasiya (18)*, sağlamlaşdırma və digər qiymətli əhəmiyyətə malik olan, müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanları tərəfindən təsərrüfat istifadəsindən və mülki dövriyyədən tamamilə və ya qismən çıxarılan və üzərində xüsusi hüquqi rejim müəyyən edilən torpaqlardır.

2. Xüsusi qorunan ərazilərin torpaqlarına aşağıdakılar aid edilir:
təbiəti mühafizə təyinatlı torpaqlar;
təbii qoruq təyinatlı torpaqlar;
sağlamlaşdırma təyinatlı torpaqlar;
*turizm və rekreasiya (18)* təyinatlı torpaqlar;
tarix-mədəniyyət təyinatlı torpaqlar.

3. Torpaqların xüsusi qorunan ərazilərin torpaqlarına aid edilməsi, onların istifadəsi və mühafizəsi qaydaları Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə müəyyən edilir.

**Maddə 25. Təbiəti mühafizə təyinatlı torpaqlar**

1. Təbiəti mühafizə təyinatlı torpaqlara:
yerüstü su axınlarının və sututarların suqoruyucu zonalarının;
kürü tökülməsi üçün mühafizə zolaqlarının;
qoruyucu vəzifələri yerinə yetirən meşələrin;
otlaqqoruyucu, tarlaqoruyucu, suqoruyucu və eroziyaya qarşı meşə əkmələrinin;
təbiəti mühafizə vəzifələrini yerinə yetirən digər torpaq sahələri aiddir.

2. Təbiəti mühafizə təyinatlı torpaqlarda qanunvericiliklə onlar üçün müəyyən edilmiş hüquqi rejimə əməl etməklə məhdud təsərrüfat fəaliyyətinə yol verilir.

3. Çayların, göllərin, su anbarlarının, digər su təsərrüfatı obyektlərinin sərhədlərində, habelə təbiəti mühafizə təyinatlı digər torpaqların hüdudlarında xüsusi hüquqi rejimli mühafizə zonaları müəyyən edilir. Torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin təbiəti mühafizə təyinatlı torpaqların hüdudlarında yerləşən torpaq sahələri geri alınmır. Həmin sahələrdən qanunvericiliklə müəyyən edilmiş hüquqi rejimə riayət etməklə istifadə edilir.

4. Təbiəti mühafizə təyinatlı torpaqları olan müəssisələr, idarələr və təşkilatlar həmin torpaq sahələrinin sərhədlərində xüsusi xəbərdarlıq nişanları basdırmalıdırlar.

**Maddə 26. Təbii qoruq təyinatlı torpaqlar**

1. Təbii qoruq təyinatlı torpaqlara qoruqların, yasaqlıqların (ov yasaqlıqları istisna edilməklə), təbiət abidələrinin, təbii (milli) dendroloji və zooloji parkların, nəbatat bağlarının torpaqları aiddir.

2. Qoruqların torpaqları dedikdə, hüdudlarında elmi və mədəni dəyərə malik olan təbiət obyektləri (tipik və nadir landşaftlar, nadir geoloji törəmələr, bitki və heyvan növləri, canlı orqanizm qrupları və s.) olan və qanunvericilikdə müəyyən edilmiş qaydada qoruq təşkilatlarına təhkim edilmiş torpaq sahələri nəzərdə tutulur. Qoruq torpaqları bu landşaft zonası üçün tipik və nadir olan təbii komplekslərin bütün komponentləri ilə birlikdə onların təbii vəziyyətinin qorunub saxlanması, orada baş verən proseslərin və təzahürlərin təbii axarının və təbiətin mühafizəsinin elmi əsaslarının öyrənilməsi üçün istifadəyə verilir.

Qoruqların ərazisində, eləcə də onların ətrafında müəyyən edilmiş mühafizə zonalarında qoruqların təbii komplekslərini pozan və ya xüsusi elmi, yaxud mədəni dəyərli təbii obyektlərin mühafizəsi üçün təhlükə törədən hər hansı fəaliyyət qadağan edilir.

3. Yasaqlıqların torpaqlarına təbii ehtiyatların qorunub saxlanılması, bərpası, artırılması, eləcə də landşaftların və kompleks bioloji, paleontoloji, hidroloji və geoloji obyektlərin ümumi ekoloji tarazlığının qorunub saxlanması üçün nəzərdə tutulan torpaqlar aid edilir.

4. Təbiət abidələrinin torpaqları nadir və ya tipik, eləcə də elmi, mədəni və sağlamlaşdırma cəhətdən qiymətli abidələrin (tarix-mədəniyyət abidələrindən başqa) torpaq sahələri hesab edilir.

5. Təbii qoruq təyinatlı torpaqlarda onların məqsədli təyinatına aid olmayan fəaliyyətlər qadağan edilir. Bu torpaqlar onlar üçün müəyyən edilmiş mühafizə rejiminə uyğun gəlmədikdə qanunvericilikdə nəzərdə tutulmuş qaydada təsərrüfat istifadəsindən geri alınır.

6. Milli parkların torpaqları, təbii və mədəni landşaftları xüsusi ekoloji tarixi və estetik dəyərə malik olan torpaq sahələri hesab edilir. Dendroloji və zooloji parkların, nəbatat bağlarının torpaqlarına süni şəraitdə müxtəlif flora və fauna ehtiyatlarının saxlanılması, öyrənilməsi və artırılması, eləcə də onlardan səmərəli elmi-mədəni və təsərrüfat fəaliyyəti üçün istifadəyə verilən torpaq sahələri aiddir.

**Maddə 27. Sağlamlaşdırma təyinatlı torpaqlar**

1. Sağlamlaşdırma təyinatlı torpaqlara xəstəliklərin profilaktikasının və müalicə işinin təşkili üçün istifadə edilən və ya edilə bilən, əlverişli təbii müalicə amillərinə malik olan müalicə-sağlamlaşdırma yerlərinin və kurortların (çimərliklər, mineral su mənbələri, müalicəvi neft və palçıq yataqları və s.) torpaq sahələri aiddir.

2. Təbii müalicə amillərinin mühafizəsi məqsədi ilə bütün kurortların ərazilərində müalicə-sağlamlaşdırma yerləri və sanitariya mühafizə dairələri müəyyən edilir. Bu dairələrin hüdudları daxilində fəaliyyəti təbii müalicə xassələrinin və əhalinin istirahəti üçün əlverişli şəraitin mühafizəsi ilə bir araya sığmayan müəssisələrin, idarələrin və təşkilatların istifadəsinə və ya icarəsinə torpaq sahələrinin verilməsi qadağan edilir.



3. Müəyyən edilmiş sanitariya rejimi ilə əlaqədar torpaq sahələrinin təsərrüfat dövriyyəsindən tam çıxarılması nəzərdə tutulduğu hallar istisna edilməklə, sanitariya mühafizə zonalarının hüdudlarında olan torpaq sahələri torpaq mülkiyyətçilərindən, istifadəçilərindən və icarəçilərindən geri alınmır.

**Maddə 28. İstirahət (rekreasiya) təyinatlı torpaqlar**

1. Əhalinin istirahətini, turizm, bədən tərbiyəsi və idman fəaliyyətinin təşkili üçün nəzərdə tutulan və istifadə edilən torpaqlar istirahət (rekreasiya) təyinatlı torpaqlar sayılır.

2. Bu torpaqlara ərazisində istirahət evlərinin, pansionatların, kempinqlərin, turist bazalarının, uşaq turist stansiyalarının, meşə-parkların, şəhərətrafı yaşıllıq zonalarının, tədris-məşq, turist cığırlarının, nişanlanmış yolların, uşaq və idman düşərgələrinin və bu kimi digər obyektlərin yerləşdiyi torpaq sahələri aiddir.

3. Üzərindən tədris-məşq və turist cığırlarının, nişanlanmış yolların keçdiyi torpaq sahələri mülkiyyətçilərdən, istifadəçilərdən və icarəçilərdən geri alınmır, onların razılığı ilə servitut hüququ (özgə torpaq sahəsindən məhdud istifadə hüququ) əsasında istifadə olunur.

4. İstirahət (rekreasiya) təyinatlı torpaqlardan təyinatı üzrə istifadə edilməsinə maneçilik törədən hər hansı fəaliyyət qadağan edilir.

**Maddə 29. Tarix-mədəniyyət təyinatlı torpaqlar**

1. Tarix-mədəniyyət təyinatlı torpaqlara tarix-mədəniyyət qoruqlarının, xatirə parklarının, qəbiristanlıqların, məzarların, arxeoloji abidələrin və nadir geoloji törəmələrin torpaqları aiddir.

2. Tarix-mədəniyyət təyinatlı torpaqlarda onların məqsədli təyinatına zidd olan hər hansı fəaliyyət qadağan edilir.

**Maddə 30. Mühafizə və sanitariya zonaları sərhədlərninin müəyyən edilməsi**

1. Mühafizə və sanitariya zonaları qoruq torpaqlarının, yaşayış məntəqələrinin sağlamlaşdırma zonalarının, çayların, bulaqların, su hövzələrinin, hidrotexniki və sugötürmə qurğularının, içməli və texniki su təchizatı mənbələrinin ətrafında yaradılır.

2. Mühafizə və sanitariya zonası torpaqlarından istifadə qaydaları, şərtləri və onların ölçüsü müvafiq normativ hüquqi aktlarla müəyyən edilir.

## *VII fəsil*

## Meşə fondu, su fondu və ehtiyyat fondu torpaqları

**Maddə 31. Meşə fondu torpaqları**

1. Meşə bitkiləri ilə örtülü olan, habelə bu bitkilərlə örtülü olmayan, lakin meşə təsərrüfatının ehtiyacları üçün nəzərdə tutulan meşə və qeyri-meşə torpaqları meşə fondunun torpaqları hesab edilir.

2. Meşə fondu torpaqları əsasən meşə təsərrüfatının aparılması və genişlənməsi (meşələrin bərpası, meşələr salınması və i. a.) məqsədləri üçün istifadə edilir.

3. Meşə fondu torpaqlarından meşə təsərrüfatını aparmaq üçün meşə təsərrüfatı orqanları, habelə öz nizamnamə fəaliyyətinin həyata keçirilməsini təmin etmək üçün meşə fondu torpaqlarının təhkim olunduğu digər dövlət və qeyri-dövlət müəssisələri, idarələri və təşkilatları istifadə edirlər.

4. Meşə fondu torpaqlarından qanunvericiliklə müəyyən olunmuş qaydada meşədə oduncaq və digər meşə materialları tədarük edən və ya başqa işlər görən (binalar və digər qurğuların tikilməsi, yolların salınması, elektrik xətlərinin çəkilməsi və i.a.) müəssisələrin, idarələrin və təşkilatların istehsal və digər ehtiyaclarının təmin edilməsi üçün istifadə edilir.

5. Meşə fondu torpaqlarının özgəninkiləşdirilməsinə gətirən və gətirə bilən alqı-satqısına, girov qoyulmasına (ipotekasına) və digər əqdlərə, habelə başqa məqsədlər üçün istifadəsinə yol verilmir.

6. Meşə fondu torpaqları meşələrin bərpası məqsədilə təyinatı üzrə Azərbaycan Respublikasının Meşə Məcəlləsində nəzərdə tutulmuş qaydada icarəyə verilə bilər.

7. Meşə fondu torpaqları ilə həmsərhəd torpaqların istifadəçiləri öz torpaq sahələrində meşələri yanğından və digər fəlakətdən mühafizə edən tədbirlər görməlidirlər.

8. Meşəsi olmayan və meşəsi az olan rayonlarda meşə salmaq, dərə və yarğanların böyüməsinin qarşısını almaq, qoruyucu meşə zolaqları salmaq, şəhərlərin və sənaye mərkəzlərinin ətrafında yaşıllıq zonaları yaratmaq məqsədilə meşə fondu torpaqlarının tərkibinə müəyyən olunmuş qaydada başqa təyinatlı torpaqlar, ilk növbədə kənd təsərrüfatına yararsız və ya az yararlı yerlərdən torpaqlar verilə bilər.

9. Meşə fondu torpaqlarının verilməsi, geri alınması və istifadə qaydaları bu Məcəllə, Azərbaycan Respublikasının Meşə Məcəlləsi və digər normativ hüquqi aktlarla müəyyən edilir.

**Maddə 32. Su fondu torpaqları**

1. Su fondunun torpaqlarına aşağıdakı torpaq sahələri daxildir:

Azərbaycan Respublikasının daxili sularının və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin altında olan torpaqlar;

su mühafizəsi zonalarının və sahilboyu zolaqların altında olan torpaqlar, adalar və bataqlıqlar;

hidrotexniki qurğuların, meliorasiya və su təsərrüfatı obyektlərinin altında olan torpaqlar.

2. Su fondu torpaqları əhalinin içməli suya tələbatını, məişət, sağlamlaşdırma və digər ehtiyaclarını təmin edən qurğuların tikintisi və istismarı üçün, eləcə də su təsərrüfatı, kənd təsərrüfatı, balıqçılıq təsərrüfatı, sənaye, energetika, nəqliyyat və digər dövlət *ehtiyaclarının (12; 15)* təmin edilməsi üçün istifadə edilir.



3. Su fondu torpaqları bu Məcəllə, Azərbaycan Respublikasının Su Məcəlləsi və digər qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada bələdiyyə mülkiyyətinə, hüquqi və fiziki şəxslərin istifadəsinə və icarəsinə verilə bilər.

4. Su fondu torpaqlarının verilməsi, geri alınması və istifadə qaydaları bu Məcəllə, Azərbaycan Respublikasının Su Məcəlləsi və digər normativ hüquqi aktlarla müəyyən edilir.

**Maddə 33. Ehtiyyat fondu torpaqları**

1. Ehtiyat fondu torpaqları dövlət və bələdiyyə ehtiyat torpaqlarından ibarətdir.

2. Dövlət ehtiyat fondu torpaqlarına bələdiyyələrin, vətəndaşların və hüquqi şəxslərin mülkiyyətinə, istifadəsinə və icarəsinə verilməmiş dövlət torpaqları daxildir.

Dövlət ehtiyat fondu torpaqlarına istifadə hüququna xitam verilən, habelə konservasiya nəticəsində təsərrüfat dövriyyəsindən çıxarılmış torpaq sahələri aid edilir.

3. Bələdiyyələrin ehtiyat fondu torpaqlarına bu Məcəllənin 47-ci maddəsinin 5-ci bəndi ilə müəyyən olunmuş torpaqlar aid edilir.

4. Ehtiyat fondu torpaqlarının istifadəsinə onların müvafiq kateqoriyaya keçirilməsindən sonra yol verilir.

5. Ehtiyat fondu torpaqlarının istifadəsi qaydaları müvafiq normativ hüquqi aktlarla müəyyən edilir.

## *VIII fəsil*

## Torpaqların mühafizəsi

**Maddə 34. Torpaqların mühafizəsinin məqsədi və vəzifələri**

1. Torpaqların mühafizəsi onlardan səmərəli istifadə edilməsi, daha qiymətli torpaqların kənd təsərrüfatı və meşə təsərrüfatı dövriyyəsindən əsassız çıxarılmasına yol verilməməsi, onların zərərli təbii və antropogen təsirlərdən qorunması, habelə torpaqların münbitliyinin, meşə fondunun bərpası və artırılması məqsədilə həyata keçirilən hüquqi, təşkilati, iqtisadi və digər tədbirlər sistemindən ibarətdir.

2. Torpaqların mühafizəsi, zona və region xüsusiyyətləri nəzərə alınaraq onlara mürəkkəb təbii (ekoloji) sistemlər kimi kompleks yanaşılması əsasında təbiətin mühafizəsini, təbii ehtiyatlara qənaəti və torpaqların qorunub saxlanılmasını, bitki və heyvanlar aləminə, geoloji törəmələrə və ətraf mühitin digər tərkib hissələrinə zərərli təsirin məhdudlaşdırılmasını nəzərdə tutur.

3. Torpaqların mühafizəsi istifadənin optimal strukturunu özündə əks etdirən, elmi cəhətdən əsaslandırılmış torpaq istifadəçiliyi normativlərinin praktikada tətbiqi, habelə yerquruluşu əsasında ərazinin səmərəli təşkili vasitəsilə həyata keçirilir.

4. Suvarılan və meliorasiya olunmuş torpaqların səmərəli istifadəsi, onların keyfiyyətinə nəzarət, münbitliyin qorunması və artırılması, su, duz, hava və qida rejimlərinin tənzimlənməsi, əkinçiliyin rasional strukturunun formalaşdırılması məqsədilə aqrotexniki, aqromeliorativ və meliorativ tədbirlərin həyata keçirilməsi və qarşılıqlı münasibətlərin əlaqələndirilməsi dövlət tərəfindən müəyyənləşdirilmiş xüsusi proqramlar üzrə aparılır.

5. Torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri torpaqların mühafizəsi sahəsində aşağıdakı istiqamətdə tədbirləri həyata keçirməlidirlər:

torpağın münbitliyinin və digər faydalı xassələrinin qorunması, bərpa edilməsi və yüksəldilməsi;

torpaqların su və külək eroziyasından, sellərdən, su basmaqdan, bataqlaşmaqdan, təkrar şoranlaşma, kipləşmə və quraqlıqdan, istehsalat və məişət tullantılarından, kimyəvi və radioaktiv maddələrlə çirklənmədən, səhralaşma, sürüşmələr, abraziya və digər dağıdıcı proseslərdən qorunması;

kənd təsərrüfatı torpaqlarını kol-kos basmaqdan, torpaqların mədəni-texniki vəziyyətini, habelə meliorasiya və irriqasiya sistemlərinin vəziyyətini pisləşdirən digər proseslərdən qorunması;

keyfiyyəti pisləşmiş kənd təsərrüfatı torpaqlarının münbitliyinin bərpa edilməsi üçün onların konservasiya edilməsi;

korlanmış torpaqların yenidən yararlı hala salınması (rekultivasiyası), onların münbitliyinin və torpağın digər faydalı xassələrinin yüksəldilməsi;

təsərrüfat fəaliyyəti nəticəsində torpaqların korlanması ehtimalı labüd olan hallarda onların münbit qatın götürülməsi və təkrar istifadə edilməsi.

6. Torpaqların vəziyyətinə zərərli təsir göstərə bilən təzə tikililər, qurğular və yenidən qurulan obyektlər, yerləşdirilərkən, layihələşdirilərkən, tikilərkən və istismara verilərkən, habelə yeni texnologiyalar tətbiq edilərkən torpaqların mühafizəsi sahəsində zəruri tədbirlər nəzərdə tutulmalı və həyata keçirilməlidir.

7. Torpaqların tənəzzülə uğramadan və dağılmadan qorunması tədbirləri ilə təmin edilməmiş obyektlərin və texnologiyaların istismara verilməsi və tətbiq edilməsi qadağan olunur.

8. Torpaqların vəziyyətinə zərərli təsir göstərə bilən obyektlərin yerləşdirilməsi aidiyyəti olan torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri, eləcə də müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırılır.

9. Torpaqların mühafizəsi qaydaları müvafiq normativ hüquqi aktlarla müəyyən edilir.

**Maddə 35. Torpaqların mühafizəsinin iqtisadi stimullaşdırılması**

1. Torpaqların mühafizəsinin iqtisadi cəhətdən stimullaşdırılması torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin torpağın münbitliyinin qorunması və yüksəldilməsində marağının artırılması, təsərrüfat fəaliyyətinin zərərli təsirindən torpaqların qorunması məqsədilə həyata keçirilir.



2. Torpaqların mühafizəsinin iqtisadi stimullaşdırılması torpaqların münbitliyinin bərpasını, meşə-meliorasiya işlərinin görülməsini, istehsal və sosial infrastruktur obyektlərinin, yaşayış məntəqələrinin abadlaşdırılmasını və bu istiqamətdə dövlət və yerli proqramların yerinə yetirilməsini, habelə torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçilərinin torpaqdan istifadəyə görə müəyyən müddətdə torpağa görə haqdan azad edilməsini, təbii fəlakət, torpaqların konservasiyası və digər hallarda onlara dəyən ziyanın ödənilməsini və bu kimi digər tədbirlərin həyata keçirilməsi ilə əlaqədar qaydalar müvafiq normativ hüquqi aktlarla müəyyən edilir.

**Maddə 36. Radiaktiv və kimyəvi çirklənməyə məruz qalmış torpaqların istifadəsi**

1. Radioaktiv və kimyəvi çirklənməyə məruz qalmış, əhalinin həyatına və sağlamlığına təhlükə yarada bilən, habelə məhsul istehsalı üçün sanitariya tələblərinə, müvafiq normalara, qaydalara və normativlərə cavab verməyən torpaqlar kənd təsərrüfatı dövriyyəsindən çıxarılır və konservasiya edilməsi üçün dövlət ehtiyat torpaq fonduna keçirilir. Belə torpaqlarda rekultivasiya işləri aparılıb sağlamlaşdırılana qədər kənd təsərrüfatı məhsullarının istehsalı qadağan edilir.

2. Radioaktiv və kimyəvi çirklənməyə məruz qalmış torpaqların təsərrüfat dövriyyəsindən çıxarılması, konservasiya edilməsi, mühafizəsi, sağlamlaşdırılması və istifadəsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş normativ hüquqi aktlarla müəyyən edilir.

**Maddə 37. Ekzogen geoloji proseslərə məruz qalmış torpaqların istifadəsi**

Ekzogen geoloji proseslərə (sürüşmə, sel, aşınma, uçqun, tökülmə, eroziya, abraziya, deflyasiya, eol, bataqlaşma, yarğan və s.) məruz qalmış torpaq əraziləri texniki meliorasiya və yararlaşdırma (bərpa) işləri aparılanadək təsərrüfat fəaliyyəti dövriyyəsindən çıxarılır və prosesin miqyasından asılı olaraq müvafiq ehtiyat fondu torpaqlarına keçirilir. Belə torpaqlarda mühəndis-texniki və kənd təsərrüfatı işlərinin aparılmasına həmin ərazilərin (sahələrin) yararlı hala salınmasından sonra müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada icazə verilir.

## *IX fəsil*

## Torpaq fondunun istifadəsi və mühafizəsinin dövlət tənzimlənməsi

**Maddə 38. Torpaq fondunun istifadəsi və mühafizəsi sahəsində dövlətin vəzifələri**

Torpaq fondunun istifadəsi və mühafizəsi sahəsində dövlət aşağıdakı vəzifələri həyata keçirir:

torpaqlardan səmərəli istifadə edilməsinin təşkili və onların mühafizəsi sahəsində dövlət siyasətinin həyata keçirilməsi;

torpaqlardan istifadə olunmasına və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi;

dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu ilə əlaqədar işlərin və torpaq üzərində hüquqların dövlət qeydiyyatının həyata keçirilməsi, torpaq balansının tərtibi;

bu Məcəllədə nəzərdə tutulmuş qaydada dövlət ehtiyacları *(15)* üçün torpaqların geri alınması və verilməsi, torpaqların əsas məqsədli təyinatının dəyişdirilməsi və digər yerquruluşu məsələlərinin həlli ilə bağlı sənədlərin rəsmiləşdirilməsi, onların müvafiq icra hakimiyyəti orqanlarının təsdiqinə təqdim edilməsi;

müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanlarının və bələdiyyələrin torpaq qanunvericiliyinə uyğun gəlməyən qərarlarının ləğv edilməsi barədə məsələlərin qaldırılması;

torpaq fonduna vurulan zərərin, kənd təsərrüfatı və meşə təsərrüfatı istehsalı itkilərinin, torpaq qanunvericiliyinin pozulmasına görə cərimələrin və maliyyə sanksiyalarının ödənilməsi barədə qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq məhkəməyə müraciət edilməsi, iddialar qaldırılması;

torpaq sahələrinin yerquruluşu planından və dövlət torpaq kadastrı məlumatlarından çıxarışların verilməsi;

torpaq qanunvericiliyinin və torpağın mühafizəsi tələblərinin pozulması ilə həyata keçirilən tikinti işlərinin, habelə faydalı qazıntıların hasilatı, aqrokimyəvi, meşə-meliorasiya, geoloji-kəşfiyyat və başqa işlərin dayandırılması, aşkar edilən pozuntuların aradan qaldırılmasına qədər göstərilən işlərin qadağan edilməsi təklifi ilə müvafiq icra hakimiyyəti orqanlarına, bələdiyyələrə müraciət edilməsi;

torpaqların münbitliyinin bərpası və yaxşılaşdırılması, onların istifadəsi və mühafizəsi üzrə investisiya proqramlarının ekspertizasının həyata keçirilməsi;

torpaq qanunvericiliyinin pozulmasında təqsiri olan şəxslərin müəyyən edilmiş qaydada inzibati məsuliyyətə cəlb edilməsi;

qanunvericiliklə müəyyən edilmiş digər vəzifələrin həyata keçirilməsi.

**Maddə 39. Torpaq ehtiyatlarından istifadənin planlaşdırılması**

1. ***Torpaq ehtiyatları*** – istifadə olunan və ya istifadə oluna bilən torpaqlardır.

2.Torpaq ehtiyatlarının istifadəsi və mənimsənilməsi müvafiq icra hakimiyyəti orqanlarının və bələdiyyələrin ərazinin inkişafının planlaşdırılması haqqında qərarları əsasında həyata keçirilir.

3.Torpaq ehtiyatlarından istifadənin planlaşdırılması sosial-iqtisadi proqramlar, yerquruluşu, şəhərsalma, təbiətqoruyucu və digər sənədlər əsasında ərazinin uzunmüddətli inkişaf perspektivlərini müəyyən etmək məqsədilə aparılır.



**Maddə 40. Torpaqların zonalaşdırılması**

1. ***Torpaqların zonalaşdırılması*** – onların müxtəlif təyinatlı və hüquqi rejimli torpaq sahələrinə bölünməsidir.

2. Torpaqların zonalaşdırılması ərazinin inkişaf planına uyğun olaraq həyata keçirilir. Torpaqların zonalaşdırılmasının ümumi əsaslarını və prinsiplərini Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

3. Torpaqların zonalaşdırılması planları müvafiq icra hakimiyyəti orqanlarının və bələdiyyələrin qərarları ilə təsdiq edilir.

4. Şəhərlərin və digər yaşayış məntəqələrinin torpaqlarının zonalaşdırılmasına dair qərarlarda aşağıdakılara dair tələblər müəyyən edilir:

tikintinin sıxlığına;

mühəndis-nəqliyyat kommunikasiyalarının, yaşıllıqların, piyada yollarının, sanitariya-qoruyucu arakəsmələrin və daşınmaz əmlakın şəhərsalmada nəzərə alınan digər struktur elementlərinin əsas parametrlərinə;

əhaliyə xidmət edən sosial-məişət və mədəniyyət obyektlərinin yerləşdirilməsinə;

müasir ekzogen geoloji proseslərin yayılma dərəcəsinə və intensivliyinə (fəallığına);

yaşayış məntəqələrində torpaqdan istifadənin başqa sahələrinə.

Torpaqların zonalaşdırılmasına dair tələblərin icrası mülkiyyət formasından və torpaq sahələrinə digər hüquqlardan asılı olmayaraq icra üçün mütləqdir.

**Maddə 41. Dövlət torpaq kadastrı**

1. ***Dövlət torpaq kadastrı*** - torpaq istifadəçiliyinin dövlət qeydiyyatı, torpaqların kəmiyyət və keyfiyyətcə uçotu, bonitirovkası və iqtisadi qiymətləndirilməsi üzrə zəruri və etibarlı məlumatların məcmusudur.

2. Dövlət torpaq kadastrının məlumatları torpaqların istifadəsinin və mühafizəsinin planlaşdırılması, torpaqların verilməsi və geri alınması, torpaqların normativ qiymətinin, onlara görə haqların müəyyən edilməsi, yerquruluşu işlərinin aparılması, özgəninkiləşdirilmə zonalarının müəyyən edilməsi, torpaqların istifadəsi ilə bağlı təsərrüfat fəaliyyətinin qiymətləndirilməsi, eləcə də torpaqların istifadəsi və mühafizəsi ilə əlaqədar digər müvafiq tədbirlərin həyata keçirilməsi zamanı mütləq tətbiq edilməlidirlər.

3. Dövlət torpaq kadastrının aparılması geodeziya, topoqrafiya, kartoqrafiya, yerquruluşu, torpaq tədqiqatı, aqrokimya, meliorasiya, geobotanika və digər axtarış-tədqiqat işlərinin həyata keçirilməsi ilə təmin edilir.

4. Dövlət torpaq kadastrının aparılması qaydaları Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

**Maddə 42. Torpaqların monitorinqi**

1. ***Torpaqların monitorinqi*** – torpaqların münbitlik xassələrini səciyyələndirən ayrı-ayrı göstəricilərdə dəyişikliklərin vaxtında aşkara çıxarılması,

qiymətləndirilməsi, mənfi proseslərin qarşısının alınması və onların təsiri nəticələrinin aradan qaldırılması üçün torpaq fondunun vəziyyətinə uzunmüddətli müşahidə - nəzarət sistemindən ibarətdir.

2. Torpaqların monitorinqinin aparılması qaydaları Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

**Maddə 43. Yerquruluşu**

*1. Yerquruluşu* – torpaq münasibətlərinin nizama salınması və torpaqdan səmərəli istifadə olunması məsələlərinin həlli üzrə dövlətin müvafiq hüquqi, iqtisadi və texniki tədbirlər sistemidir.

2. Yerquruluşu torpaqların elmi-praktiki cəhətdən əsaslandırılmış səmərəli istifadəsinin təşkilinə, torpaq münasibətlərinin tənzimlənməsinə, torpaq resurslarının uçotuna və qiymətləndirilməsinə, əlverişli ekoloji mühitin qorunub saxlanmasına, təbii və antropogen landşaftların yaxşılaşdırılmasına və sabitliyinin təmin edilməsinə, eləcə də torpaqların mühafizəsinə yönəldilir.

3. Yerquruluşu aşağıdakı işləri nəzərdə tutur:

mülkiyyət və təsərrüfatçılıq formasından asılı olmayaraq torpaqların səmərəli istifadəsinin və mühafizəsinin planlaşdırılmasının təşkili;

ərazinin şəhərsalma, ekoloji, iqtisadi və digər xüsusiyyətlərini nəzərə almaqla torpaqların münbitliyinin artırılması, onların mühafizəsi üzrə respublika və regional proqramlarının və proqnozlarının, habelə yerquruluşu sxemlərinin hazırlanması;

torpaqların istifadəsində mövcud uyğunsuzluqların və çatışmazlıqların aradan qaldırılması məqsədilə torpaq sahələrinin dəqiqləşdirilməsi və qaydaya salınması layihələrinin tərtib edilməsi, yerdə (naturada) ayrılması, *qanunvericiliklə müəyyən edilmiş formada sənədlərin tərtibi (11)*;

kompleks və təsərrüfatdaxili yerquruluşu layihələrinin hazırlanması;

torpaqların istifadəsi və mühafizəsi ilə əlaqədar layihələrin və digər yerquruluşu sənədlərinin rəsmiləşdirilməsi;

xüsusi təbiəti mühafizə, istirahət və qoruq rejimləri olan ərazilərin ayrılmasının və sərhədlərinin müəyyən edilməsinin əsaslandırılması;

şəhər, qəsəbə və kənd yaşayış məntəqələri hüdudlarının müəyyən edilməsi və dəyişdirilməsinə dair sənədlərin rəsmiləşdirilməsi;

xüsusi təyinatlı geodeziya, topoqrafiya və kartoqrafiya işlərinin, torpaq, geobotanika, digər tədqiqatların və axtarışların aparılması;

torpaqların inventarlaşdırılmasının aparılması, istifadəsiz, habelə səmərəli və ya məqsədli təyinatına görə istifadə olunmayan torpaq sahələrinin müntəzəm olaraq aşkar edilməsi;

torpaqların vəziyyəti və istifadəsi üzrə xəritə və atlasların tərtib edilməsi;

torpaqların qiymətləndirilməsi üzrə müvafiq iqtisadi və texniki tədbirlərin aparılması;

təbii və antropogen proseslər nəticəsində korlanmış torpaqların rekultivasiyasına dair işçi layihə-smeta sənədlərinin hazırlanması;



torpaq münasibətlərinin nizama salınması və torpaqların səmərəli istifadəsi və mühafizəsi üzrə digər tədbirlər.

4. Yerquruluşu müvafiq icra hakimiyyəti orqanlarının qərarı, bələdiyyələrin təşəbbüsü və ya torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin sifarişi ilə aparılır.

5. Dövlət və ya bələdiyyə mülkiyyətində olan torpaqların kompleks yerquruluşu layihələri müvafiq icra hakimiyyəti orqanı və ya bələdiyyələr, xüsusi mülkiyyətdə olan torpaqların təsərrüfatdaxili yerquruluşu layihələri isə torpaq mülkiyyətçiləri tərəfindən təsdiq edilir.

6. Yerquruluşu işlərinin aparılması qaydaları Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

## *X fəsil*

## Torpaqların istifadəyə və onların mühafizəsinə dövlət nəzarəti

**Maddə 44. Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin vəzifələri**

Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin vəzifələri torpaqlardan səmərəli istifadə edilməsi və onların mühafizəsi məqsədilə torpaq qanunvericiliyinin tələblərinə bütün dövlət orqanlarının, bələdiyyələrin, hüquqi və fiziki şəxslərin əməl etməsini təmin etməkdən ibarətdir.

**Maddə 45. Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətini həyata keçirən**

1. Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətini müvafiq icra hakimiyyəti orqanları həyata keçirirlər.

2. Bu orqanların torpaqlardan istifadəyə və onların mühafizəsi üzrə səlahiyyətləri dairəsində göstərişləri bütün torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri üçün məcburidir.

3. Torpaqdan istifadəyə və onun mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi qaydaları müvafiq normativ hüquqi aktlarla müəyyən edilir.

## *XI fəsil*

## Dövlətin və bələdiyyələrin torpaq üzərində mülkiyyət hüququ

**Maddə 46. Dövlətin torpaq üzərində mülkiyyət hüququ**

1. Dövlət mülkiyyətində olan torpaqlara aşağıdakılar daxildir:

dövlət hakimiyyət orqanlarının yerləşdiyi torpaqlar;

***dövlət obyektlərinin*** – dağ-mədən sənayesinin, təsdiq edilmiş faydalı qazıntı yataqlarının, vahid energetika sisteminin, magistral boru kəmərlərinin, nəqliyyat,

rabitə və müdafiə obyektlərinin, dövlət sərhəd zolaqlarının, mühüm meliorasiya və su təsərrüfatı obyektlərinin yerləşdiyi torpaqlar;

yay və qış otlaqlarının, mal-qara düşərgələrinin və köç yollarının torpaqları;

meşə fondu torpaqları (dövlət kənd təsərrüfatı müəssisələrinin meşələri də daxil olmaqla);

Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin su fondu torpaqları ;

təbiəti mühafizə, təbii-qoruq, sağlamlaşdırma, istirahət (rekreasiya), tarix-mədəniyyət təyinatlı torpaqlar, habelə üzərində təsərrüfat fəaliyyəti qadağan edilmiş qanunla qorunan digər ərazilərin torpaqları;

*Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 80-130 metrlik zolağının altında olan torpaqlar; (6)*

dövlət elmi-tədqiqat və tədris müəssisələrinin, onların təcrübə bazalarının, maşın-sınaq stansiyalarının, dövlət sort-sınaq xidmətinin, toxumçuluq və damazlıq təsərrüfatlarının torpaqları;

dövlət müəssisə, idarə və təşkilatlarının daimi istifadəsində olan və ya dövlət obyektlərinin tikintisi layihələşdirilmiş torpaqlar;

dövlət ehtiyat fondu torpaqları.

2. Göstərilən torpaqlar dövlətin müstəsna mülkiyyətindədir, həmin torpaqlar bu Məcəllədə və digər normativ hüquqi aktlarda müəyyən olunmuş qaydada istifadəyə və icarəyə verilə bilər.

*2-1. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 80-130 metrlik zolağının altında olan torpaq sahələri dövlətin mülkiyyətində qalmaqla özgəninkiləşdirilə bilməz və yalnız dövlət məqsədləri üçün müvafiq icra hakimiyyəti orqanının qərarı ilə istifadəyə və icarəyə verilə bilər. İstifadəyə və icarəyə verilən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 80-130 metrlik zolağının altında olan torpaq sahələri hasara alınma yolu ilə və digər üsullarla bağlanıla bilməz və dənizin sahilinə gediş-gəliş məhdudlaşdırıla bilməz. Yalnız dövlətin iqtisadi və ya təhlükəsizlik mənafelərinin təmin edilməsi ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanı tərəfindən məhdudlaşdırıla bilər. Göstərilən sahilboyu zolağın qrafiki təsviri müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir. Sahilboyu zolaq Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin su səthinin quru ilə bu Qanun qüvvəyə mindikdən sonra mövcud olan təmas xəttindən hesablanır. (6)*

3. Dövlət mülkiyyətində olan torpaqların bələdiyyə və xüsusi mülkiyyətə verilməsi qanunla müəyyən edilir.

4. Dövlət mülkiyyətində olan torpaqların istifadəsi və mühafizəsi sahəsində dövlət idarəetməsini öz səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanları həyata keçirirlər.



**Maddə 47. Bələdiyyənin torpaq üzərində mülkiyyət hüququ**

1. Torpaq üzərində bələdiyyə mülkiyyəti "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bələdiyyə mülkiyyətinə ayrılan torpaqlar, habelə qanunvericiliklə müəyyən edilmiş qaydada başqa torpaq mülkiyyətçilərindən bələdiyyələrə keçən torpaqlar hesabına yaranır.

2. Bələdiyyə mülkiyyətinə aid torpaqlar:

ümumi istifadədə olan torpaqlara;

hüquqi və fiziki şəxslərin istifadəsində olan torpaqlara;

ehtiyat fondu torpaqlarına ayrılır.

3. Ümumi istifadədə olan torpaqlara, bir qayda olaraq, şəhərlərin, qəsəbələrin və kənd yaşayış məntəqələrinin – küçələrinin, meydanlarının, yerli əhəmiyyətli və təsərrüfatdaxili yolların, parkların, meşə-parkların, sututarların, stadionların, idman meydançalarının altındakı torpaqlar, habelə tarlaqoruyucu meşə zolaqlarının, yerli əhəmiyyətli su təsərrüfatı obyektlərinin, hidrotexniki qurğuların, ümumi istifadədə olan digər yerli əhəmiyyətli obyekt və qurğuların yerləşdiyi torpaqlar və əhalinin mal-qarası üçün istifadə olunan örüş sahələrinin torpaqları aiddir.

4. Hüquqi və fiziki şəxslərin istifadəsində olan torpaqlara onların qanuni istifadəsində və icarəsində olan bələdiyyə torpaqları daxildir.

5. Bələdiyyə ehtiyat fondu torpaqları aşağıdakılardır:

yaşayış məntəqələrinin perspektiv inkişafı üçün cəlb olunan torpaqlar;

hüquqi və fiziki şəxslərin istifadə və icarə hüququna xitam verilən bələdiyyə torpaqları;

ehtiyat məqsədləri daşıyan digər bələdiyyə torpaqları.

6. Bələdiyyə mülkiyyətində olan torpaqlar bu Məcəllə ilə, bələdiyyələr haqqında qanunlarla və digər normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada mülkiyyətə, istifadəyə və icarəyə verilə bilər.

7. Bələdiyyə mülkiyyətində olan torpaqlara sərəncam verilməsini, həmin torpaqların istifadəsi və mühafizəsi sahəsində idarəetməni bələdiyyələr həyata keçirirlər.*Bələdiyyələr bələdiyyə mülkiyyətinə torpaq alınması zəruriyyəti yarandığı hallarda dövlət mülkiyyətindən torpaq almaq barədə müvafiq icra hakimiyyəti orqanları (Azərbaycan Respublikasının Nazirlər Kabineti) qarşısında vəsatət qaldırır. (4)*

## *XII fəsil*

## Hüquqi və fiziki şəxslərin torpaq sahəsi üzərində hüquqları

**Maddə 48. Hüquqi və fiziki şəxslərin torpaq sahəsi üzərində hüquqlarının ümumi xarakteristikası**

1. Hüquqi və fiziki şəxslərin torpaq sahəsi üzərində hüquqları, həmin hüquqların bu Məcəllə, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, digər normativ

hüquqi aktlar və torpaqla bağlı əqdlərə dair müqavilələr ilə müəyyən edilmiş həcminə görə fərqlənir.

2. Azərbaycan Respublikasının vətəndaşları və hüquqi şəxsləri torpaq sahələrini mülkiyyət, istifadə və icarə hüququnda əldə edə bilərlər.

3. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər, beynəlxalq birliklər və təşkilatlar, habelə xarici dövlətlər Azərbaycan Respublikasında torpaq sahələrini yalnız icarə hüququ əsasında əldə edə bilərlər.

4. Torpaq mülkiyyətçisinə, istifadəçisinə və icarəçisinə torpaq sahəsi həmin sahə üçün müəyyən edilmiş məqsədli təyinatına və hüquqi statusuna uyğun olaraq verilir.

5. Torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri olan hüquqi və fiziki şəxslər torpaq sahəsi üzərində öz hüquqlarını həyata keçirərkən ətraf təbii mühitə, başqa şəxslərin hüquqlarına və mənafelərinə zərər vurmamalıdırlar.

6. Torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri torpaq sahələrini təbii fəlakətin təsirindən sığortalaya bilərlər.

**Maddə 49. Torpaq sahəsi üzərində xüsusi mülkiyyət hüququ**

1. Hüquqi və fiziki şəxslərin torpaq üzərində xüsusi mülkiyyət hüququ - torpaqlar üzərində qanunla və müqavilə ilə müəyyən edilən məhdudiyyətlərə və digər şərtlərə riayət etməklə sahiblik, istifadə və sərəncam hüququdur.

2. Torpaq üzərində hüquqi və fiziki şəxslərin xüsusi mülkiyyət hüququ dövlət və bələdiyyə torpaqlarının özəlləşdirilməsi, alqı-satqısı, vərəsəliyə keçməsi, bağışlanması, dəyişdirilməsi və torpaqla bağlı digər əqdlərin, habelə hüquqi şəxslərin nizamnamə (pay) fonduna verilməsi əsasında yaranır.

3. Keçmiş torpaq mülkiyyətçilərinin (onların varislərinin) torpaq sahələri üzərində hüquqlarının restitusiyasına yol verilmir.

4. Xarici hüquqi və fiziki şəxslərə torpaq sahələrinin vərəsəlik, bağışlama və ipoteka əqdləri nəticəsində keçən mülkiyyət hüququ bir il müddətinə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun özgəninkiləşdirilir. Xarici hüquqi və fiziki şəxslər torpaq sahəsi üzərində olan mülkiyyət hüququnu qanunvericiliyə uyğun özgəninkiləşdirmədikdə müvafiq icra hakimiyyəti orqanı və ya bələdiyyə torpaq sahəsini bu məcəllədə nəzərdə tutulmuş qaydada məcburi satın alır.

**Maddə 50. Torpaq sahəsi üzərində istifadə hüququ**

1. Torpaq sahəsi üzərində istifadə hüququ müvafiq qərar (müqavilə) əsasında torpaqdan daimi və ya müvəqqəti istifadə etməkdir. Torpağın istifadəyə verilməsinə görə torpaq vergisindən başqa haqq alınmır.

Əvvəlcədən müddəti müəyyən edilmədən həyata keçirilən istifadə torpaqdan daimi istifadə hesab olunur.

2. Müvafiq funksiyaların yerinə yetirilməsi, habelə əhalinin mənzil hüququnun təmin edilməsi məqsədilə dövlət və bələdiyyə torpaqları daimi istifadəyə bir qayda olaraq aşağıdakılara verilir:



dövlət hakimiyyət və yerli özünüidarə orqanlarına;

dövlət və bələdiyyə büdcəsindən maliyyələşən müəssisələrə, idarələrə, təşkilatlara və birliklərə;

həmkarlar ittifaqlarına və dini təşkilatlara;

dövlət əhəmiyyətli dağ-mədən, neft-kimya, energetika, nəqliyyat, rabitə, müdafiə, habelə təbiəti mühafizə, təbii qoruq, tarix-mədəniyyət, elmi-tədqiqat, tədris obyektlərinə, müəssisələrinə və idarələrinə;

dövlət və bələdiyyə mülkiyyətində olan digər müəssisələrə, idarələrə və təşkilatlara;

dövlətin, bələdiyyənin və əhalinin vəsaiti hesabına inşa edilən və sahibkarlıq fəaliyyətinə aid olmayan çoxmərtəbəli çoxmənzilli yaşayış evlərinin müvafiq mənzil-istismar təşkilatlarına.

Müstəsna hallarda bu kimi torpaq istifadəçilərinin (mənzil tikintisi istisna olmaqla) fəaliyyət müddəti bəlli olduqda dövlət və bələdiyyə torpaqları onların müvəqqəti istifadəsinə də verilə bilər.

3. Torpaqdan müvəqqəti istifadə qısamüddətli - on beş ilədək və uzunmüddətli - on beş ildən doxsan doqquz ilədək müəyyən oluna bilər.

4. Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlar daimi və ya müvəqqəti istifadəyə müvafiq icra hakimiyyəti orqanları və bələdiyyələr tərəfindən verilir.

Torpaqdan istifadə müddətləri həmin torpaq sahələrini müvəqqəti istifadəyə vermiş orqanlar tərəfindən uzadıla bilər.

5. Xüsusi mülkiyyətdə olan torpaq sahələrinin istifadəyə verilməsi həmin sahələrin mülkiyyətçiləri ilə istifadəçilər arasında qanunvericiliklə müəyyən edilmiş qaydada bağlanan müqavilə əsasında həyata keçirilə bilər.

Xüsusi mülkiyyətdə olan torpaq sahələrinin müvəqqəti istifadə müddətinin uzadılması həmin sahələrin mülkiyyətçiləri ilə yeni müqavilənin bağlanması əsasında həyata keçirilir.

6. Torpaqların istifadəyə verilməsi qaydaları və şərtləri Azərbaycan Respublikasının torpaq və mülki qanunvericiliyi ilə tənzimlənir.

7. Torpaq istifadəçiləri istifadə hüquqlarını başqalarına vermək (satmaq) səlahiyyətlərini Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun həyata keçirə bilərlər.

**Maddə 51. Torpaq sahəsi üzərində icarə hüququ**

1. Torpaq sahəsi üzərində icarə hüququ müqavilə əsasında əvəzi ödənilməklə torpaqdan müddətli istifadə etməkdir.

2. İcarə hüququ ilə torpaq sahələri Azərbaycan Respublikasının vətəndaşlarına və hüquqi şəxslərinə, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə, xarici hüquqi şəxslərə, beynəlxalq birliklərə və təşkilatlara, habelə xarici dövlətlərə verilir.

3. İcarəyəverən kimi dövlət mülkiyyətində olan torpaqlar üzrə müvafiq icra hakimiyyəti orqanları, bələdiyyə mülkiyyətində olan torpaqlar üzrə bələdiyyə-

lər, xüsusi mülkiyyətdə olan torpaqlar üzrə həmin torpaqların mülkiyyətçiləri çıxış edirlər.

4. İcarənin şərtləri, müddəti və icarə haqqı tərəflərin razılığı ilə müəyyən edilir və onlar arasında qanunvericilikdə müəyyən edilmiş qaydada bağlanılan müqavilədə təsbit olunur.

5. *Mülkiyyətçi olan icarəyəverənin razılığı ilə (2; 15 )* icarəçi icarəyə götürdüyü torpaq sahəsini başqasına subicarəyə (ikinci əldən icarəyə) verə bilər.

6. Dövlət və bələdiyyə torpaqları mənfəət əldə etmək məqsədilə fəaliyyət göstərən hüquqi və fiziki şəxslərin istifadəsinə, bir qayda olaraq, icarə əsasında verilir. Torpağın istifadəsi haqqında sənədlərdə nəzərdə tutulduğu hallarda torpağın istifadəçisi onu icarəyə verə bilər.

7. İcarə müddəti tamam olanadək icarəçi öldükdə torpaq sahəsi üzərində icarə hüququ onun vərəsələrinə keçir.

8. Torpaq icarəsinə dair münasibətlər Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

**Maddə 52. Torpaq sahəsi üzərində birgə hüquqlar**

1. Torpaq sahəsi üzərində birgə hüquqlar iki və daha çox şəxsin mülkiyyətində, istifadəsində və icarəsində torpaq sahəsi olduqda, habelə mülkiyyətçi, istifadəçi və icarəçi arasında qanunvericiliklə müəyyən edilmiş qaydada bağlanan müqavilə əsasında onlara məxsus olan torpaq sahələrinin birləşdirilməsi zamanı yaranır.

2. İki və daha çox şəxsin mülkiyyətində, istifadəsində və icarəsində olan torpaq sahəsi həmin şəxslərin birgə mülkiyyət, birgə istifadə və ya birgə icarə hüququna məxsus ola bilər. Birgə mülkiyyətdə olan torpaq sahələrinə sahiblik, onlardan istifadə və onlar barədə sərəncam verilməsi Azərbaycan Respublikası Mülki Məcəlləsinin birgə mülkiyyət hüququ haqqında müddəalarına uyğun olaraq həyata keçirilir.

**Maddə 53. Torpaq sahəsi ilə bağlı öhdəlikdər və məhdudiyyətlər**

1. Dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələri istifadəyə və icarəyə verilərkən (satılarkən) onlara dair aşağıdakı öhdəliklər və məhdudiyyətlər qoyula bilər:

torpaq sahəsi istifadəyə verildikdə onun icarəyə (və ya subicarəyə) verilməsinin qadağan edilməsi;

torpaq sahəsində müəyyən edilmiş qaydada razılaşdırılmış layihələr üzrə tikinti işlərinin və ya torpaq sahəsinin mənimsənilməsinin müəyyən edilmiş müddətlərdə başlanması və qurtarması;

təbiətqoruyucu tələblərə əməl edilməsi, torpaq sahəsində heyvanlar aləminin qorunması, torpağın münbit qatının, nadir bitkilərin, təbiət, geoloji, tarix-mədəniyyət abidələrinin, arxeoloji obyektlərin saxlanması;



verilmiş (satılmış) torpaq sahəsindən ovçuluq, balıqçılıq və ya cır meyvələrin toplanması məqsədləri üçün müəyyən edilmiş qaydada və müddətdə istifadəsinə icazə verilməsi;

vəhşi heyvanların təbii məskunlaşma mühitinin və miqrasiya yollarının saxlanması;

qanunvericiliyə zidd olmayan digər öhdəliklər və məhdudiyyətlər.

2. İstifadəyə və icarəyə verilmiş, habelə xüsusi mülkiyyətə satılmış torpaq sahəsinə dair qoyulan öhdəliklər və məhdudiyyətlər müvafiq müqavilə və ya məhkəmənin qərarı ilə müəyyən edilir.

3. Torpaq sahəsinə qoyulan öhdəliklər və məhdudiyyətlər onun hüquqi statusuna daxil edilməklə dövlət qeydiyyatından keçirilir. Torpaq sahəsi üzərində mülkiyyət, istifadə və icarə hüquqları başqa şəxsə keçdikdə həmin öhdəliklər və məhdudiyyətlər saxlanılır.

**Maddə 54. Torpaq sahəsi üzərində servitutlar**

*1. Servitut* – bir və ya bir neçə qonşu (özgə) torpaq sahələrindən məhdud istifadə hüququdur. *Torpaq sahəsi üzərində servitutla bağlı münasibətlər bu Məcəllə və Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə nizama salınır. (2)*

2. Servitut torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri arasında razılaşma ilə, yaxud məhkəmənin qərarı ilə müəyyən edilə bilər.

3. Torpaq mülkiyyətçisinin, istifadəçisinin və icarəçisinin öz sahəsinə xidmət göstərmək üçün qonşu torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin torpaq sahələrinə servitut qoyulmasını tələb etmək, o cümlədən məhkəmə qaydasında tələb etmək hüququ vardır.

4. Torpaq sahəsinə aşağıdakı servitutlar müəyyən edilə bilər:

torpaq sahəsindən piyada və ya nəqliyyat vasitəsilə keçmək;

torpaq sahəsindən fərdi, kommunal, mühəndis, elektrik və digər xətt və şəbəkələrin çəkilməsi və təmiri üçün istifadə etmək;

torpaq sahəsində drenaj işləri aparmaq;

torpaq sahəsində su toplamaq və içməli su götürmək (mal-qaranı suvarmaq);

torpaq sahəsindən mal-qaranı keçirmək;

yerli şəraitə və adətlərə uyğun olaraq özgənin torpaq sahəsində ot biçmək və mal-qara otarmaq;

torpaq sahəsindən axtarış, tədqiqat və digər işlərin aparılması üçün müvəqqəti istifadə etmək;

qonşu sahədə dayağı olan və ya müəyyən hündürlükdə qonşu sahəsinə keçən tikililər və qurğular ucaltmaq;

qonşu sahədə müəyyən hündürlükdən artıq olan tikililərin və qurğuların ucaldılmasını qadağan etmək;

torpaq sahəsində qoruyucu meşə əkinləri və zolaqları salmaq və digər təbiətqoruyucu obyektlər yaratmaq;

qanunvericiliyə zidd olmayan hallarda torpaq sahəsi üzərində digər servitutlar.

5. Servitutlar, onların müəyyən edildiyi torpaq sahəsinə mümkün qədər az məhdudiyyətlər yaradan üsullarla həyata keçirilməlidir.

6. Qanunvericilikdə başqa hallar nəzərdə tutulmamışdırsa, üzərində servitut müəyyən edilən torpaq sahəsinin mülkiyyətçisinin həmin servitutdan istifadə edən şəxsdən müvafiq ödəniş tələb etmək hüququ vardır.

7. Kənd əhalisinin və onların birliklərinin xeyrinə müəyyən edilən kənd təsərrüfatı servitutlarına görə ödəniş tutulmur.

8. Servitutlar müvəqqəti və daimi ola bilər. Torpaq sahəsi üzərində hüququn formasından asılı olmayaraq bütün torpaq sahəsinə servitut müəyyən edilə bilər.

9. Servitutlar qanunvericilikdə müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməlidir.

10. Torpaq sahəsi başqa şəxslərə keçdikdə qanunvericiliklə müəyyən edilmiş servitutlar saxlanılır.

11. Müəyyən edilmiş servitutun əsasları sonradan aradan götürülərsə, torpaq mülkiyyətçisinin tələbinə görə həmin servitut dayandırıla bilər. Üzərində servitutun müəyyən edilməsi nəticəsində torpaq sahəsindən məqsədli təyinatına görə istifadə edilməsi mümkün olmadığı hallarda həmin sahənin mülkiyyətçisinin bu servitutun məhkəmə qaydasında dayandırılmasını tələb etmək hüququ vardır.

**Maddə 55. Torpaq sahəsi üzərində hüquqların yaranmasının əsasları**

Hüquqi və fiziki şəxslərin torpaq sahəsi üzərində hüquqları:

müvafiq icra hakimiyyəti orqanlarının və ya bələdiyyələrin qərarları və onlarla bağlanan müqavilələr;

hüquqi və (və ya) fiziki şəxslər arasında bağlanan müqavilələr və torpaqla bağlı digər əqdlər;

məhkəmənin torpaq sahəsi üzərində hüququn müəyyən edilməsinə dair qərarı və ya hökmü;

vərəsəlik hüququ əsasında və qanunvericiliklə müəyyən edilmiş digər yollarla yaranır.

## *XIII fəsil*

## Torpaq sahələrinin mülkiyyətə, istifadəyə və icarəyə verilməsi

**Maddə 56. Torpaq sahələrinin mülkiyyətə, istifadəyə və icarəyə verilməsinin ümumi əsasları**

1. Azərbaycan Respublikasının torpaq qanunvericiliyinə uyğun olaraq mülkiyyətə, istifadəyə və icarəyə verilməyən dövlət torpaqlarını müvafiq icra hakimiyyəti orqanı, bələdiyyə torpaqlarını isə bələdiyyələr müəyyən edir.



2. Bələdiyyələrin ehtiyat fondunun özəlləşdirilə bilən torpaqları xüsusi mülkiyyətə satıla bilər. *Bələdiyyələrin ehtiyat fondunun yaşayış məntəqələrinin perspektiv inkişafı üçün cəlb olunan torpaq sahələri, habelə kənd təsərrüfatına azyararlı və yararsız torpaqları, hüquqi və fiziki şəxslərin istifadəsinə və icarəsinə verilmiş kənd təsərrüfatına azyararlı və yararsız torpaqların öz vəsaiti hesabına yararlı hala salınmış kənd təsərrüfatı təyinatlı torpaqları, qeyri-kənd təsərrüfatı məqsədləri üçün istifadəyə və icarəyə verilmiş torpaq sahələri özəlləşdirilə bilər. (4)* Özəlləşdirilməsi baədə qərar qəbul edilənədək bu torpaqlar ərazinin perspektiv inkişaf proqramına xələl gətirməmək şərtilə hüquqi və fiziki şəxslərin müvəqqəti istifadəsinə və iarəsinə verilə bilər.

3. Bələdiyyələrin ehtiyat fondunun kənd təsərrüfatı təyinatlı torpaqları yalnız kənd təsərrüfatı istehsalı üçün istifadəyə və icarəyə verilə bilər.

4. Bu torpaqlar kənd təsərrüfatı istehsalı üçün istifadəyə və icarəyə aşağıdakı növbəliliyə əməl edilməklə verilir:

müvafiq ərazidə müvəqqəti məskunlaşmış məcburi köçkünlər;

müvafiq rayonun (şəhərin) ərazisində yaşayan və "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun torpaq payı almamış hüquqi və fiziki şəxslər;

"Torpaq islahatı haqqında" Azərbaycan Repub1ikasının Qanununa uyğun olaraq müvafiq ərazidə torpaq payı almış hüquqi və fiziki şəxslər;

Azərbaycan Respublikasının digər vətəndaşları və hüquqi şəxsləri;

əcnəbilər və vətəndaşlığı olmayan şəxslər və xarici ölkələrin hüquqi şəxsləri.

*5. Sərhədyanı və dağlıq ərazilərdə yaşayan daimi yaşamaq üçün həmin ərazilərə köçən, təsərrüfatla məşğul olmaq istəyən gənclər qanunvericilikdə müəyyən olunmuş qaydada torpaq sahələri ilə ilk növbədə təmin olunurlar. (5)*

6. Bələdiyyələrin ehtiyat fondunun özəlləşdirilə bilən torpaqları xüsusi mülkiyyətə bələdiyyənin qərarı ilə, dövlət və ya bələdiyyə mülkiyyətində olan torpaqlar istifadəyə və icarəyə müvafiq olaraq müvafiq icra hakimiyyəti orqanının və bələdiyyənin qərarı ilə verilir.

Həmin qərarda yerli şərait, torpaq ehtiyatının miqdarı, əhalinin sıxlığı nəzərə alınmaqla, mövcud texniki normalara, habelə yerquruluşu və şəhərsalma layihə sənədlərinə uyğun olaraq verilən torpaq sahələrinin ölçüləri müəyyən edilir.

*Bələdiyyə mülkiyyətində olan torpaq sahəsinin mülkiyyətə, istifadəyə və icarəyə verilməsi bələdiyyələrin qərarı ilə sahənin xüsusiyyətinə və torpağın ayrılma məqsədinə, mövcud texniki normalara, habelə yerquruluşu və şəhərsalma sənədlərinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanlarının* ***rəyi (10)*** *alındıqdan sonra torpaqayırma qaydasında həyata keçirilir.(4)*

7.Ümumi istifadədə olan meliorasiya və irriqasiya sistemlərinin hüdudlarındakı torpaq sahələri hüquqi və fiziki şəxslərin mülkiyyətinə, istifadəsinə və icarəsinə həmin sistemlərin bölünməməsi və onlardan istifadə texnologiyasına əməl olunması şərtilə verilə bilər.

8. Müvafiq icra hakimiyyəti orqanları və bələdiyyələr mülkiyyətə, istifadəyə və icarəyə verilməsi nəzərdə tutulan sərbəst torpaq sahələri və yeni torpaqların mülki dövriyyəyə cəlb edilməsi proqramları barədə əhaliyə məlumat verməli və kütləvi informasiya vasitələrində hər il hesabat dərc etdirməlidirlər.

9. Xüsusi mülkiyyətdə olan torpaq sahələrinin özgəninkiləşdirilməsi, habelə istifadəyə və ya icarəyə verilməsi tərəflər arasında qanunvericilikdə müəyyən edilmiş qaydada bağlanılan və notarial qaydada təsdiq olunan müvafiq müqavilə əsasında həyata keçirilir.

**Maddə 57. Qeyri-kənd təsərrüfatı ehtiyacları üçün torpaq sahələrinin ayrılmasının xüsusiyyətləri**

1. Sənaye obyektlərinin tikintisi, dəmir və avtomobil yollarının, elektrik və rabitə xətlərinin, magistral boru kəmərlərinin çəkilişi, habelə digər qeyri-kənd təsərrüfatı ehtiyacları üçün torpaq sahələri əsasən kənd təsərrüfatına yararsız və ya az yararlı torpaqlardan ayrılır. Göstərilən məqsədlər üçün meşə fondu torpaqlarından torpaq sahələri bir qayda olaraq meşə bitkiləri ilə örtülü olmayan sahələr, yaxud meşəbitmə şəraitinə görə az yararlı və ya yararsız sahələrdən verilir.

2. Faydalı qazıntıların hasilatı üçün tikinti işlərinə torpaq sahələrinin ayrılması yerin təki haqqında qanunvericiliklə müəyyən olunmuş qaydada həyata keçirilir.

3. Elektrik və rabitə xətləri, digər xətti kommunikasiyalar başlıca olaraq yollar, kanallar, mövcud xətlər boyunca çəkilir və kənd təsərrüfatı işlərinin aparılmasına maneçilik törətməməlidir.

4. Qeyri-kənd təsərrüfatı və qeyri-meşə təsərrüfatı məqsədləri üçün torpaq sahəsinin ayrılması iki mərhələdə aparılır:

obyektin yerləşdirilməsinin əvvəlcədən razılaşdırılması (layihələşdirilməsi);

torpaq sahəsinin verilməsinin rəsmiləşdirilməsi.

5. Sənaye obyektlərinin tikintisi, faydalı qazıntıların hasilatı, dəmir və avtomobil yollarının, elektrik və rabitə xətlərinin, magistral boru kəmərlərinin çəkilişi üçün torpaq sahələri əsasən dövlət və bələdiyyə torpaqlarından ayrılır. Belə obyektlərin tikintisi altına düşən xüsusi mülkiyyətdə olan torpaqların, qanunvericilikdə nəzərdə tutulmuş qaydada, dəyəri ödənilir və ya başqa torpaq sahəsi ilə əvəz olunur.

6. Qeyri-kənd təsərrüfatı ehtiyacları üçün torpaq sahələrinin ayrılması və istifadəsi qaydaları bu Məcəllə və Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

**Maddə 58. Torpaq sahəsində tikintinin həyata keçirilməsi**

1. Torpaq mülkiyyətçisinin, istifadəçisinin və ya icarəçisinin şəhərsalma, mənzil, təbiətin və mədəni irsin mühafizəsi haqqında və digər müvafiq normativ hüquqi aktlara uyğun olaraq torpaq sahəsinə dair müəyyən edilmiş öhdəlikləri və məhdudiyyətləri yerinə yetirməklə həmin sahədə tikinti aparmaq, müvəqqəti tikililər ucaltmaq, əldə etdiyi tikili və qurğuları sökmək və ya yenidən qurmaq hüquqları vardır.



2. Qanunvericilikdə, habelə istifadə və icarə müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, torpaq sahəsindən müvəqqəti istifadə (icarə) müddəti başa çatdıqdan sonra istifadəçi (icarəçi) tərəfindən ucaldılmış müvəqqəti tikili onun hesabına sökülməlidir.

**Maddə 59. Fərdi və kooperativ mənzil, bağ evləri və qaraj tikintisi, habelə sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədilə zəruri tikililərin inşası üçün torpaq sahələrinin verilməsi**

1. Yaşayış məntəqələrində bələdiyyələrin ehtiyat fondu torpaqlarından sahələr aşağıdakı məqsədlər üçün verilir:

kooperativ çoxmərtəbəli çoxmənzilli yaşayış evlərinin tikintisi üçün mənzil-tikinti kooperativlərinin daimi istifadəsinə;

fərdi yaşayış və bağ evlərinin tikintisi üçün əvəzi ödənilməklə vətəndaşların xüsusi mülkiyyətinə;

çoxmərtəbəli çoxmənzilli yaşayış evlərinin tikintisi üçün mənzil tikintisi ilə məşğul olan hüquqi şəxslərin tikinti başa çatanadək müvəqqəti istifadəsinə;

fərdi və kooperativ qarajların tikintisi üçün əvəzi ödənilməklə fiziki şəxslərin və onların kooperativlərinin mülkiyyətinə və ya icarəsinə;

sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədilə zəruri tikililərin inşası üçün hüquqi və fiziki şəxslərin icarəsinə, habelə dəyəri ödənilməklə Azərbaycan Respublikası vətəndaşlarının və hüquqi şəxslərinin mülkiyyətinə.

2. Ümumi istifadədə olan torpaqlarda yerləşən meydan, küçə, keçid, yol kənarı, sahil, park, meşə-park, xiyaban, bulvar, çimərlik və əhalinin ictimai tələbatının ödənilməsinə xidmət edən digər yerlərdə sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədilə ticarət, məişət, ictimai-iaşə obyektlərinin və digər zəruri tikililərin müvəqqəti inşası üçün sahələr bələdiyyə torpaqları haqqında qanunvericiliyə uyğun olaraq hüquqi və fiziki şəxslərin icarəsinə verilir.

3. Kooperativ, habelə digər çoxmənzilli yaşayış evlərinin və qarajların tikintisi məqsədilə ayrılan torpaq sahəsinin ölçüsü müvafiq yaşayış məntəqəsinin planlaşdırılması və tikinti layihələrinə, habelə tikinti normalarına uyğun olaraq ayrı-ayrı konkret hallarda bələdiyyə tərəfindən müəyyən edilir.

4. Fərdi yaşayış və bağ evlərinin, qarajların, habelə sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədilə zəruri obyektlərin tikintisi üçün ayrılan torpaq sahəsinin ölçüsü yerli şəraitdən və torpaq ehtiyatı imkanlarından asılı olaraq bələdiyyə tərəfindən müəyyən edilir.

**Maddə 60. Özəlləşdirilən müəssisənin (obyektin) yerləşdiyi torpaq sahəsinin verilməsinin xüsusiyyətləri**

1. Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında müvafiq normativ hüquqi aktlara uyğun olaraq özəlləşdirilən müəssisənin (obyektin) mülkiyyətçisi kimi çıxış edən Azərbaycan Respublikasının hüquqi və ya fiziki şəxsi həmin müəssisənin

(obyektin) yerləşdiyi torpaq sahəsini müvafiq normativ hüquqi aktlarda müəyyən edilmiş qaydada satın ala və ya satınalma hüququ ilə icarəyə götürə bilər.

2. Özəlləşdirilən müəssisənin (obyektin) mülkiyyətçisi əcnəbi və ya vətəndaşlığı olmayan şəxs, yaxud xarici hüquqi şəxs olduqda isə, o, müvafiq torpaq sahəsini satınalma hüququ olmadan icarəyə götürə bilər.

3. Müəssisə (obyekt) özəlləşdirilərkən onun yerləşdiyi torpaq sahəsinin qiyməti həmin müəssisənin (obyektin) qiymətindən asılı olmayaraq ayrıca müəyyənləşdirilir.

**Maddə 61. Çoxmənzilli yaşayış evlərinə aid torpaq sahələri**

*Çıxarılıb (9)*

**Maddə 62. Elektrik, rabitə, nəqliyyat xətləri və sənaye müəssisələrinin sanitariya-mühafizə zonaları altındakı torpaq sahələrinin verilməsi**

Elektrik, rabitə, nəqliyyat xətləri və sənaye müəssisələrinin sanitariya-mühafizə zonaları altındakı torpaq sahələri onların mülkiyyətçilərinin və istifadəçilərinin razılığı ilə yalnız bostan və tərəvəz becərilməsi, habelə örüş və ot çalımı məqsədləri üçün qısamüddətli istifadəyə və icarəyə verilə bilər.

**Maddə 63. Axtarış və kəşviyyat işləri üçün torpaq sahəsindən istifadəyə dair tələblər**

1. Geodeziya, geoloji, kəşfiyyat, arxeoloji, kadastr, yerquruluşu və digər tədqiqat və axtarış işlərinin aparılması üçün torpaqdan istifadə onların mülkiyyətçilərindən, istifadəçilərindən və icarəçilərindən geri alınmadan, müvafiq tərəflər arasında bağlanılan və müvafiq icra hakimiyyəti orqanında və ya bələdiyyədə qeydə alınan müqavilələr əsasında həyata keçirilir.

2. Yerquruluşu və kadastr işləri istisna olmaqla, torpaqlarda geoloji, axtarış və kəşfiyyat, neft və qaz kəşfiyyat-qazma işlərinin aparılmasına icazəni müvafiq icra hakimiyyəti orqanı və ya bələdiyyə həmin işlərin aparılması üçün layihə sənədlərində nəzərdə tutulan müddətə verir.

3. Axtarış və kəşfiyyat işlərinin başlanması müddəti və yeri, torpaqdan istifadəyə görə haqqın məbləği, vurulan zərərin ödənilməsi, torpağın məqsədli təyinatına və hüquqi rejiminə dair öhdəliklər və məhdudiyyətlər, habelə digər şərtlər həmin işləri aparanlar ilə torpaq mülkiyyətçiləri, istifadəçiləri və ya icarəçiləri arasında bağlanan müqavilə ilə müəyyən edilir.

4. Axtarış və kəşfiyyat işlərindən sonra torpaqlardan təyinatı üzrə istifadə edilməsini təmin etmək üçün həmin işləri aparan müəssisələr, idarələr və təşkilatlar öz vəsaitləri hesabına istifadə etdikləri torpaqları yararlı vəziyyətə gətirməyə və tərəflərin iştirakı ilə tərtib edilmiş akt üzrə onları öz mülkiyyətçilərinə, istifadəçilərinə və ya icarəçilərinə müqavilə ilə müəyyən edilmiş müddətdə qaytarmağa borcludurlar.



5. Torpaq sahələri bir qayda olaraq axtarış və kəşfiyyat işləri zamanı yararlı vəziyyətə gətirilir. Bu mümkün olmadıqda isə torpaq sahələri axtarış və kəşfiyyat işləri başa çatdıqdan sonra ən geci üç ay müddətində yararlı vəziyyətə gətirilməlidir.

6. Axtarış və kəşfiyyat işlərini aparan müəssisələr, idarələr və təşkilatlar həmin işlərin aparılması müddətində torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri tərəfindən ödənilən torpaq vergisinin və ya icarə haqqının əvəzini, habelə onlara vurduqları ziyanı və əldən çıxmış mənfəəti bütövlükdə ödəyirlər.

**Maddə 64. Dövlət müəssisələri, idarələri və təşkilatları tərəfindən işçilərə torpaq sahələrinin verilməsi**

Dövlət müəssisələri, idarələri və təşkilatları əsas fəaliyyət sahəsinə xələl gətirmədən istifadələrində olan torpaqlardan öz işçilərinə müvafiq icra hakimiyyəti orqanının razılığı ilə müdiriyyətin və həmkarlar təşkilatının qərarı əsasında müvəqqəti istifadəyə və icarəyə torpaq sahələri verə bilərlər.

**Maddə 65. Torpaq sahəsinin planı. Torpaq sahəsinin sərhədlərinin yerdə (naturada) müəyyən edilməsi**

1. Torpaq sahəsinin yerquruluşu planı torpaq sahəsinin müəyyən miqyasda tərtib edilmiş və planaalma aparılan anda özündə ərazinin bütün vəziyyətini (bitki örtüyü, çaylar, yollar və digər obyektlər), şərti işarələr və nişanələr vasitəsilə əks etdirən xəritədir.

2. Torpaq ayrılması üçün sahə seçildikdə həmin sahənin istifadəyə və icarəyə verilməsi (satılması) barədə müvafiq qərar qəbul edilənə qədər onun sərhədləri yerdə (naturada) və xəritədə müəyyən edilir.

3. Torpaq sahəsinin istifadəyə və ya icarəyə verilməsi (satılması) barədə müvafiq qərar qəbul edildikdən sonra həmin sahənin sərhədləri yerdə (naturada) müəyyən edilir.

Torpaq sahələrinin sərhədlərinin yerdə (naturada) müəyyən edilməsi yerquruluşu qaydasında aparılır.

4. Qanunvericilikdə başqa hal nəzərdə tutulmamışdırsa, xüsusi mülkiyyətdə olan torpaq sahəsinin planının və təsvirinin hazırlanması, mərz nişanlarının qoyulması torpaq əldə edən şəxsin hesabına həyata keçirilir.

5. Torpaq sahəsinin planının və təsvirinin hazırlanması, onun sərhədlərinin yerə (naturaya) keçirilməsi yerquruluşu işlərinin aparılmasına hüququ olan təşkilatlar tərəfindən həyata keçirilir və yerdə yoxlandıqdan sonra müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

6. Torpaq sahəsinin təsdiq edilmiş planı torpaq sahəsinin istifadəyə və ya icarəyə verilməsi (satılması) barədə müqavilənin ayrılmaz hissəsidir.

7. Torpaq sahələrinin sərhədləri yerə (naturaya) keçirildikdən sonra onun sahəsi ölçülür və torpaqların istifadəyə və ya icarəyə verilməsi (satılması) barədə müqavilə bağlanılır.

8. Torpaq sahəsinin planının əsası kadastr işində saxlanılır, surəti isə torpaq mülkiyyətçisinə, istifadəçisinə və ya icarəçisinə verilir.

9. Torpaq sahəsinin ayrı-ayrı hissələrinin özgəninkiləşdirilməsi zamanı onların sərhədlərinin yerdə (naturada) müəyyən edilməsi də bu maddədə göstərilən qaydada aparılır.

**Maddə 66. Torpaq sahələri üzərində hüquqları təsdiq edən sənədlər**

1. Dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin hər hansı hüquqda hüquqi və fiziki şəxslərə verilməsi müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin qərarı və tərəflər arasında bağlanmış müqavilə əsasında həyata keçirilir. Xüsusi mülkiyyətdə olan torpaqlar üzərində bütün hüquqların başqasına keçməsi isə tərəflər arasında bağlanmış və notarial qaydada təsdiq edilmiş müqavilə əsasında həyata keçirilir. Müqavilədə tərəflərin hüquqları və vəzifələri, torpaq sahəsinin hüquqi statusu, öhdəliklər, məhdudiyyətlər və servitutlar, müqaviləyə xitam verilməsinin əsasları və torpaqların istifadəsi və mühafizəsi üzrə digər şərtlər nəzərdə tutulur.

*2. Torpaq üzərində hüquqlar (müddəti on bir aydan az olan icarə və istifadə hüquqları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş qaydada daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır və həmin reyestrdən çıxarışla rəsmiləşdirilir. (11)*

3. *Çıxarılıb (11)*

4. *(11)* Alqı-satqı, *(14)* istifadə və icarə müqavilələrinin nümunəvi formaları qanunvericiliklə müəyyən olunmuş qaydada təsdiq olunur.

5. *Çıxarılıb (11)*

**Maddə 67. Torpaq sahələri üzərində hüquqların dövlət qeydiyyatının məcburiliyi**

*1. Torpaq üzərində hüquqların dövlət qeydiyyatı qanunvericilikdə nəzərdə tutulmuş qaydada daşınmaz əmlakın dövlət reyestrində aparılır. (11)*

2. *Çıxarılıb (11)*

3. Dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin alınması ilə yaranan hüquqların, habelə torpaq sahələri və digər daşınmaz əmlaka dair bağlanılan əqdlər nəticəsində əldə edilən hüquqların dövlət qeydiyyatına alınması məcburidir.

4. Torpaq sahələri üzərində qeydiyyatdan keçməmiş hüquqların müdafiəsinə və toxunulmazlığına dövlət təminat vermir.

**Maddə 68. Torpaq sahələri üzərində hüquqların yaranma vaxtı**

Torpaq sahələri üzərində hüquqlar torpaq sahələrinin sərhədlərinin yerdə müəyyən edilməsindən, onların yerquruluşu planlarının və təsvirlərinin tərtib edilməsindən, torpaq sahələrinin verilməsi barədə müqavilənin bağlanmasından və onun müəyyən olunmuş qaydada dövlət qeydiyyatından keçirilməsindən sonra yaranır.



**Maddə 69. Torpaq sahəsinin verilməsindən imtina edilməsi barədə qərardan şikayət**

1. Hüquqi və fiziki şəxslərə torpaq sahəsinin verilməsindən imtina edilməsi barədə müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin qərarından məhkəmə qaydasında şikayət vermək olar. Ərizələrə baxılmasının müəyyən edilmiş müddətlərinin gecikdirilməsi torpaq sahəsinin verilməsindən imtina edilməsi kimi qiymətləndirilir.

2. Məhkəmə işə baxarkən torpaq sahəsinin verilməsindən imtina edilməsinin qanuni və ya qanunsuz olduğu barədə qərar qəbul edə bilər. Axırıncı halda məhkəmənin qərarı torpaq sahəsi üzərində hüquqların rəsmiləşdirilməsi üçün əsasdır və qanunvericiliklə müəyyən edilmiş qaydada yerinə yetirilməlidir.

## *XIV fəsil*

## Torpaq sahələrinin geri alınması

**Maddə 70. Torpaq sahələrinin geri alınmasının ümumi qaydaları**

1. Mülkiyyətdə, istifadədə və icarədə olan torpaq sahələri dövlət *ehtiyacları (12; 15)* üçün geri alına bilər.

2. Torpaq sahələri mülkiyyətçilərin, istifadəçilərin və icarəçilərin razılığı olduqda müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin qərarı (və ya müqavilə) əsasında geri alına (satın alına) bilər.

3. Mülkiyyətdə *(12)* və icarədə olan torpaqların *dövlət ehtiyacları (15) üçün özgəninkiləşdirilməsi (12)* müvafiq icra hakimiyyəti orqanının *(12)* qərarı ilə həyata keçirilir. *Əvəzsiz istifadədə olan torpaqların məcburi geri alınması müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin vəsatəti əsasında məhkəmənin qərarı ilə həyata keçirilir (12).*

4. Xüsusi mülkiyyətdə olan torpaqların *dövlət ehtiyacları (16) üçün özgəninkiləşdirilməsinə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş hallarda və şərtlərlə (12)* yol verilir.

5. Hüquqi və fiziki şəxslərin mülkiyyətində olan torpaq sahələri dövlət *ehtiyacları (12;15)* üçün qanunvericiliklə müəyyən edilmiş qaydada *özgəninkiləşdirildikdə (12)* onun dəyəri qabaqcadan xeyrinə torpaq sahəsi alınan müəssisə, idarə və ya təşkilatın, yaxud müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin vəsaiti hesabına torpağın geri alındığı vaxtda mövcud olan bazar qiyməti ilə həmin şəxsə tam həcmdə ödənilir.

6. İstifadədə və icarədə olan dövlət torpaqlarının *(12;15)* üçün geri alınması zərurəti yarandıqda bələdiyyələr bu barədə müvafiq icra hakimiyyəti orqanları qarşısında vəsatət qaldırırlar.

7. Torpağın geri alınması barədə qərarlardan məhkəmə qaydasında şikayət vermək olar.

8. Torpaq sahəsi dövlət *ehtiyacları (12;15)* ehtiyaclar üçün geri alındıqda qarşılıqlı razılıq əsasında onun əvəzində mülkiyyətçiyə və istifadəçiyə (icarəçiyə) eyni ölçüdə və keyfiyyətdə başqa yerdə torpaq sahəsi də verilə bilər.

9. Torpaq sahələrinin geri alınması və dövlət *ehtiyacları (15)* üçün ayrılması barədə vəsatətlərin qaldırılması və onlara baxılması qaydaları Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

**Maddə 71. Torpaq sahələrinin tikinti altına verilməsi üçün geri alınması şərtləri**

1. Müvafiq icra hakimiyyəti orqanı və ya bələdiyyə xüsusi mülkiyyətdə, istifadədə və ya icarədə olan torpaq sahəsini tikinti altına vermək üçün onu bu Məcəllədə və digər normativ hüquqi aktlarda müəyyən edilmiş qaydada geri ala bilər. Bu zaman aşağıdakı şərtlərə əməl olunmalıdır:

geri alınması nəzərdə tutulan torpaq sahəsi üçün özgəninkiləşdirilmə zonasının müəyyən edilməsi və həmin zonanın dövlət torpaq kadastrında və digər müvafiq qeydiyyat sənədlərində əks edilməsi;

geri alınması nəzərdə tutulan torpaq sahəsi üzərindəki daşınmaz əmlakın, o cümlədən xüsusi mülkiyyətdə olan torpaq sahəsinin satılmasından, yaxud həmin torpaq sahəsini geri alan müvafiq icra hakimiyyəti orqanı və ya bələdiyyə tərəfindən *geri (12)* alınmasından sonra onların tikinti altına verilməsi üçün qanunvericilikdə müəyyən edilmiş qaydada müsabiqənin (tenderin, hərracın) elan edilməsi.

2. Torpaq sahələrinin özgəninkiləşdirmə zonasına aid edilməsi yalnız dövlət *ehtiyaclarının (12;15)* ödənilməsi məqsədilə aparılır və ərazinin planlaşdırılmasına və yaşayış məntəqələrinin baş planına uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı və ya bələdiyyə tərəfindən həyata keçirilir.

*3. Torpaq sahəsinin geri alınması haqqında **qərardan iddia (12)** bu barədə yazılı bildiriş həmin sahənin mülkiyyətçisinə göndərildiyi gündən bir il ərzində verilə bilər. (2)*

**Maddə 72. Torpaq sahələrinin geri alınması ilə əlaqədar məsələlərin baxışı zamanı hüquqi və fiziki şəxslərin iştirakı**

1. Torpaq sahələrinin geri alınmasına dair baxılan məsələ hər hansı hüquqi və ya fiziki şəxsin mənafelərinə toxunarsa, həmin şəxsin (onun müvəkkilinin) bu məsələnin baxılmasında iştirak etmək hüququ vardır.

2. Torpaq sahələrinin geri alınması barədə müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin qərarı hüquqi və fiziki şəxslərin mənafeyinə toxunarsa, həmin qərar yalnız bu şəxslərin rəyi nəzərə alınmaqla qəbul edilə bilər.



## *XV fəsil*
## Torpaq sahələri üzərində mülkiyyət, istifadə və icarə hüquqlarının məhdudlaşdırılması və xitamı

**Maddə 73. Torpaq sahələri üzərində hüquqi və fiziki şəxslərin hüquqlarına xitam verilməsinin əsasları**

1. Torpaq sahəsi və ya onun bir hissəsi üzərində mülkiyyət, istifadə və ya icarə hüququna aşağıdakı hallarda xitam verilir:

torpaq sahəsindən könüllü imtina edildikdə və ya torpaq mülkiyyətçisi onu özgəninkiləşdirdikdə;

torpaq sahəsinin istifadəyə və ya icarəyə verildiyi müddət qurtardıqda;

hüquqi şəxslərin fəaliyyətinə xitam verildikdə;

torpaqdan məqsədli təyinatına görə istifadə edilmədikdə;

əmək münasibətləri əsasında müvəqqəti istifadə edilən torpaq sahələri ilə əlaqədar işçilərin fərdi əmək müqavilələrinə xitam verildikdə;

istifadə və ya icarə müqaviləsi şərtlərinə əməl edilmədikdə;

torpaq vergisi və icarə haqqı üzrlü səbəb olmadan 2 il dalbadal ödənilmədikdə;

kənd təsərrüfatı istehsalı üçün verilmiş torpaq sahəsindən dalbadal 2 il ərzində və qeyri-kənd təsərrüfatı ehtiyacları üçün verilmiş torpaq sahəsindən 1 il ərzində üzrlü səbəb olmadan istifadə edilmədikdə;

istifadə zamanı torpağın keyfiyyətinin pisləşməsinə və eroziyasına, kimyəvi və radioaktiv maddələrlə çirklənməsinə, bataqlaşmasına, təkrar şoranlaşmasına, torpaq sahəsində olan meliorasiya və irriqasiya sistemlərinin istismar qaydalarının pozulmasına, ətraf təbii mühitin çirklənməsinə yol verildikdə;

dövlət *ehtiyacları (12;15)* üçün torpaq sahələrinin geri alınması zəruriliyi *qanunla (8)* müəyyən edildikdə;

*torpaq sahəsinin mülkiyyətçisinə mənsub olan və həmin sahədə yerləşən tikili və qurğuya mülkiyyət hüququ keçdikdə; (15)*

torpaq mülkiyyətçisi, istifadəçisi (icarəçisi) öldükdə və vərəsələr olmadıqda;

torpaq sahəsinin girov qoyulması (ipotekası) zamanı girovla təmin edilmiş öhdəlik icra edilmədikdə.

2. Bu maddənin 1-ci bəndinin 5-ci, 8-ci, 9-cu və 10-cu abzaslarında nəzərdə tutulan müddəalar xüsusi mülkiyyətdə olan torpaqlara şamil edilmir.

3. Bu maddənin 1-ci bəndinin 7-ci abzasında nəzərdə tutulan müvəqqəti istifadəyə və icarəyə verilmiş torpaqların geri alınmasına səbəb olan halların müəyyən edilməsi məhkəmə tərəfindən həyata keçirilir (həmin torpaqlar tərəflərin razılığı ilə geri alındıqda bu qayda tətbiq edilmir).

4. Qanunvericilikdə torpaq üzərində mülkiyyət, torpaqdan istifadə və icarə hüququna xitam verilməsinin digər əsasları da nəzərdə tutula bilər.

**Maddə 74. Yanğın, digər qəza və təbii fəlakət hadisəsi nəticəsində tikili dağıldıqda torpaqdan istifadə hüququnun saxlanması**

Yanğın, digər qəza və təbii fəlakət hadisəsi nəticəsində tikili dağıldıqda, dağılan gündən ən geci iki il keçənədək tikilini bərpa etməyə və ya həmin sahədə yeni tikili ucaltmağa başlanarsa, həmin torpaq sahəsindən istifadə hüququ saxlanılır. Yaşayış məntəqəsinin planlaşdırma və tikinti layihələrində həmin torpaq sahəsindən başqa məqsədlər üçün istifadə edilməsi nəzərdə tutulduğu hallarda dağılmış tikililərin bərpası üçün bu məcəllə ilə müəyyən edilmiş qaydada başqa torpaq sahəsi verilir.

**Maddə 75. Torpaq sahələri üzərində mülkiyyət, istifadə və icarə hüquqlarına xitam verilməsi qaydaları**

1. Bu məcəllənin 73-cü maddəsinin 1-ci bəndinin 6-cı abzasında nəzərdə tutulmuş halda torpaq sahəsindən istifadə hüququna müəssisə, idarə və təşkilatın müdiriyyəti tərəfindən, *11-ci abzasında nəzərdə tutulmuş halda torpaq üzərində mülkiyyət və icarə hüququna müvafiq icra hakimiyyəti orqanı tərəfindən, əvəzsiz istifadə hüququna isə müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin vəsatəti üzrə məhkəmə tərəfindən (12),*qalan abzaslarda nəzərdə tutulmuş hallarda isə torpaq üzərində mülkiyyət, istifadə və icarə hüququna məhkəmə, daimi istifadə hüququna isə müvafiq icra hakimiyyəti orqanı və ya bələdiyyə tərəfindən xitam verilir.

2. Qanunvericilikdə başqa hal nəzərdə tutulmamışdırsa, torpaq sahəsi üzərində mülkiyyət, istifadə və ya icarə hüququnun xitamı bu barədə məhkəmə, müvafiq icra hakimiyyəti orqanı və ya bələdiyyə tərəfindən qərar qəbul edildiyi tarixdən, torpaq mülkiyyətçisi, istifadəçisi və ya icarəçisi torpaqdan və ya onun bir hissəsindən könüllü imtina etdikdə isə müvafiq ərizə verilən tarixdən baş verir.

3. Bu məcəllənin 73-cü maddəsinin 1-ci bəndinin 5-ci, 7-ci, 10-cu abzaslarında nəzərdə tutulan hallarda torpaq sahələri üzərində *(2)* istifadə və icarə hüquqlarına xitam verilməsi haqqında qərar, buraxılmış nöqsanların (pozuntuların) müəyyən edilmiş vaxtda aradan qaldırılması barədə xəbərdarlıqdan sonra tədbirlər görülmədikdə qəbul edilir.

4. Məhkəmə, müvafiq icra hakimiyyəti orqanı və ya bələdiyyə torpaq sahəsi üzərində mülkiyyət, istifadə və ya icarə hüququna xitam verilməsi barədə qərar qəbul edərkən torpaq mülkiyyətçilərinə, istifadəçilərinə və icarəçilərinə torpaqların keyfiyyətinin yaxşılaşdırılmasına çəkdikləri xərclərin ödənilməsi və ya onların torpaqdan səmərəsiz istifadə etməsi nəticəsində torpaqlara vurduqları zərərin ödənilməsi barədə göstərişlər də verə bilərlər.

5. Torpaq sahələri üzərində istifadə və ya icarə hüququna xitam verilməsi barədə məhkəmənin, müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin qərarından qanunvericilikdə müəyyən edilmiş qaydada müvafiq məhkəməyə şikayət vermək olar.

*6. Torpaq üzərində hüquqlara xitam verilmə qaydası bu Məcəllə ilə nəzərdə tutulmadıqda, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilir. (2)*



**Maddə 76. Torpaq sahələri üzərində hüquqlara xitam verilərkən nəzərə alınan tələblər**

Torpaq sahələri üzərində mülkiyyət, torpaqdan istifadə və ya icarə hüququna xitam verilməsi bu hüquqdan istifadə edən şəxsi məhsulu yığmaq hüququndan məhrum etmir, eləcə də vergiləri ödəmək və torpağın münbitliyinin qorunub saxlanılması məsuliyyətindən azad etmir.

**Maddə 77. Torpaq sahələri üzərində hüquqların məhdudlaşdırılması**

Torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və ya icarəçilərinin hüquqlarının məhdudlaşdırılması torpaqdan istifadənin ərazi planlaşdırılması, torpaqların zonalaşdırılması, kütləvi servitutların müəyyən olunması haqqında müvafiq qaydada qəbul edilmiş qərarlara uyğun olaraq müəyyən edilir.

## *XVI fəsil*

## Torpaq sahələri üzərində hüquqların dövlət qeydiyyatı

*Çıxarılıb (11)*

## *XVII fəsil*

## Torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin hüquqları və vəzifələri

**Maddə 80. Torpaq mülkiyyətçilərinin hüquqları**

Torpaq mülkiyyətçilərinin hüquqları aşağıdakılardır:

torpaqdan müstəqil təsərrüfatçılıq əsasında istifadə etmək;

öz torpaq sahəsində olan meşə örtüyündən, geniş yayılmış faydalı qazıntılardan və su ehtiyatlarından təsərrüfat ehtiyacları üçün müvafiq qanunvericiliklə müəyyən olunmuş qaydada istifadə etmək;

torpağın itirilmiş təbii münbitliyinin bərpası və digər səbəblərlə əlaqədar müvafiq icra hakimiyyəti orqanı tərəfindən əkin dövriyyəsindən müvəqqəti çıxarılan (dincə qoyulan) torpaq sahələrinə görə əvəz almaq;

torpaq sahəsi üzərində torpağın məqsədli təyinatına uyğun olan yaşayış evləri, istehsal, mədəni-məişət təyinatlı və digər tikililər və qurğular inşa etmək;

torpağın geri alındığı və torpaq sahəsindən könüllü imtina edildiyi hallarda torpağın keyfiyyətinin yaxşılaşdırılmasına çəkilən xərclərin əvəzini, torpağın bu Məcəllədə və digər normativ hüquqi aktlarda nəzərdə tutulan qaydada hesablanmış dəyərini və ya onun naturada əvəzini almaq;

qanunvericilikdə müəyyən edilmiş qaydada yerquruluşu layihələrinə və təbiəti mühafizə tələblərinə uyğun olaraq torpaq sahələrində meliorasiya işləri aparmaq, gölməçələr və digər sututarlar yaratmaq;

bu Məcəllə və digər normativ hüquqi aktlarla müəyyən olunmuş qaydada torpaq sahəsini və ya onun bir hissəsini istifadəyə və ya icarəyə vermək;

qanunvericilikdə müəyyən olunmuş qaydada torpağı satmaq, bağışlamaq, dəyişmək, girov (ipotekaya) qoymaq, nizamnamə (pay) fonduna, habelə vərəsəliyə və irsən vermək və onunla əlaqədar qanunvericiliklə qadağan edilməmiş digər əqdlər bağlamaq və fəaliyyətlə məşğul olmaq.

**Maddə 81. Torpaq istifadəçilərinin və icarəçilərinin hüquqları**

Torpaq istifadəçilərinin və icarəçilərinin hüquqları aşağıdakılardır:

torpaqdan təyinatı üzrə istifadə etmək;

qadağan edilmiş bitkilər istisna olmaqla, kənd təsərrüfatı bitkilərinin əkinləri və istehsal edilmiş məhsul üzərində mülkiyyət hüququnu həyata keçirmək;

torpaq sahəsində geniş yayılmış faydalı qazıntılardan, su ehtiyatlarından öz təsərrüfat ehtiyacları üçün müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada istifadə etmək;

torpağın verilməsi şərtlərinə müvafiq surətdə istehsal təyinatlı müvəqqəti yardımçı tikililər və qurğular ucaltmaq;

torpaqdan istifadəyə və icarəyə xitam verildikdə torpaqda öz hesabına aparılmış yaxşılaşdırma işlərinin dəyərini və əldən çıxmış mənfəətin əvəzini qanunvericiliklə müəyyən olunmuş qaydada almaq;

bu Məcəllədə və digər normativ hüquqi aktlarda müəyyən olunmuş qaydada torpaq sahəsini və ya onun bir hissəsini başqasının müvəqqəti istifadəsinə və icarəsinə (subicarəyə) vermək;

qanunvericiliklə qadağan edilməmiş digər fəaliyyəti həyata keçirmək.

**Maddə 82. Torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin vəzifələri**

Torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri aşağıdakıları yerinə yetirməyə borcludurlar:

torpaqdan təyinatı üzrə, səmərəli və müəyyən edilmiş istifadə rejiminə uyğun istifadə etmək, təbiətqoruyucu istehsal texnologiyalarını tətbiq etmək, təsərrüfat fəaliyyətində ərazinin ekoloji vəziyyətinin pisləşməsinə yol verməmək;

torpaqlarda bu Məcəllədə nəzərdə tutulmuş kompleks mühafizə tədbirlərini həyata keçirmək;

torpaq sahəsində tikinti və abadlaşdırma işlərini qüvvədə olan planlaşdırma-memarlıq, tikinti, sanitariya-gigiyena, yanğından mühafizə və müəyyən edilmiş digər tələblərə (normalara, qaydalara, normativlərə) uyğun olaraq həyata keçirmək;

torpaq sahəsi ilə bağlı öhdəliklərə, məhdudiyyətlərə, torpaq üzərində qoyulmuş servitutlara əməl etmək;



torpaq vergisini və ya icarə haqqını vaxtında ödəmək;

başqa torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin hüquqlarını pozmamaq;

torpaq sahəsində olan mərzləri, təbiət abidələrini, geoloji təzahürləri, geodeziya-istinad məntəqələrini və yerüstü nişanlarını, meteoroloji şəbəkələri və ölçü vasitələrini, habelə meliorasiya və irriqasiya sistemlərini qoruyub saxlamaq;

torpağın istifadəsi vəziyyətinə dair müəyyən edilmiş məlumatları müvafiq orqanlara vaxtında vermək;

qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**Maddə 83. Torpaq sahəsi üzərində hüquqların həyata keçirilməsi**

1. Hüquqi və fiziki şəxslər torpaq sahəsi üzərində onlara məxsus hüquqları, əgər qanunvericiliklə başqa hallar nəzərdə tutulmamışdırsa, öz istəklərinə uyğun həyata keçirirlər.

2. Torpaq sahəsi üzərində hüquqların həyata keçirilməsindən imtina edilməsinə o şərtlə yol verilə bilər ki, belə imtina başqa şəxslərin hüquq və mənafelərinə toxunmasın və ətraf təbii mühitə zərər vurmasın.

3. Hüquqi və fiziki şəxslərin torpaq sahəsi üzərində öz hüquqlarından imtina etmələri onları bu məcəllənin 88-ci maddəsi və bağladıqları müqavilə ilə müəyyən edilmiş vəzifələrindən azad etmir.

4. İmtina səbəbindən torpaq sahəsi üzərində hüquqlara xitam verilməsi bu məcəllə ilə müəyyən edilmiş qaydada həyata keçirilir və dövlət qeydiyyatında (reyestrində) əks etdirilir.

**Maddə 84. Torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin hüquqlarının müdafiəsi və təminatı**

1. Torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin hüquqları qanunla qorunur.

2. Qanunvericiliyin pozulduğu hallar istisna olmaqla, torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin fəaliyyətinə dövlət orqanlarının, bələdiyyələrin, hüquqi və fiziki şəxslərin qarışmasına yol verilmir.

3. Torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin pozulmuş hüquqları qanunvericilikdə nəzərdə tutulmuş qaydada bərpa edilir və hüquqların pozulması nəticəsində onlara dəyən zərər tam həcmdə ödənilir.

4. Zərərin ödənilməsinə dair mübahisələrə müvafiq məhkəmədə baxılır.

5. Hüquqi və ya fiziki şəxsə *istifadəyə (8)* verilmiş torpaq sahəsi dövlət *ehtiyacları (12;15)* üçün yalnız o şərtlə geri alına bilər ki, torpağı geri alan müvafiq icra hakimiyyəti orqanı və ya bələdiyyə həmin şəxsin arzusu ilə ona eyni ölçüdə və keyfiyyətdə başqa torpaq sahəsi ayırsın, habelə xeyrinə torpaq sahəsi geri alınan hüquqi və ya fiziki şəxs torpaqla birlikdə əldə edilmiş yaşayış, istehsal və başqa tikililərin əvəzinə yeni yerdə təzələrini tiksin və bu məcəlləyə uyğun olaraq bütün qalan zərəri tam həcmdə ödəsin. *Hüquqi və ya fiziki şəxslərin mülkiyyətində olan və onlara icarəyə verilmiş torpaq sahələrinin dövlət **ehtiyacları***

*(15) üçün özgəninkiləşdirilməsi şərtləri və halları Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir. (8)*

6. Torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin hüquqları yalnız bu məcəllədə və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş hallarda məhdudlaşdırıla bilər.

## *XVIII fəsil*

## Torpaq sahələrinin dövriyyəsi

**Maddə 85. Torpaq sahəsi dövriyyəsi anlayışı**

***Torpaq sahəsi dövriyyəsi*** – torpaq sahəsinin bir mülkiyyət növündən digərinə, torpaq sahəsi üzərində hüquqların torpaq münasibətlərinin iştirakçılarının birindən digərinə Azərbaycan Respublikasının Mülki Məcəlləsində və bu Məcəllədə nəzərdə tutulmuş qaydada və xüsusiyyətlərə uyğun olaraq müqavilələrin və digər əqdlərin bağlanması yolu ilə keçməsidir.

**Maddə 86. Torpaq sahəsinin alqı-satqısının xüsusiyyətləri**

1. Azərbaycan Respublikasının torpaq qanunvericiliyi ilə müəyyən olunmuş qaydada qeydiyyata alınmış aşağıdakı torpaq sahələri və torpaqla bağlı hüquqlar alqı-satqı obyekti ola bilər:

xüsusi mülkiyyətdə olan torpaqlar;

bələdiyyələrin ehtiyat fondunun özəlləşdirilə bilən torpaqları;

girov haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ilə girov (ipoteka) predmeti sayılan torpaq sahələri;

özəlləşdirilən dövlət obyektlərinin yerləşdiyi torpaq sahələri;

dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlar üzərində istifadə və icarə hüquqları.

2. Bu Məcəllədə nəzərdə tutulmuş dövlət torpaqları, ümumi istifadədə olan, habelə hüquqi və fiziki şəxslərin *istifadəsində və icarəsində olan bələdiyyələrin kənd təsərrüfatına yararlı torpaqları (4)* alqı-satqı obyekti ola bilməz.

3. Azərbaycan Respublikasında torpaqlar dövlət mülkiyyətinə, bələdiyyə mülkiyyətinə, habelə Azərbaycan Respublikasının vətəndaşlarının və hüquqi şəxslərinin mülkiyyətinə satıla bilər.

4. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə, xarici hüquqi şəxslərə, beynəlxalq birliklərə və təşkilatlara, habelə xarici dövlətlərə torpaqlar yalnız haqqı ödənilməklə istifadə və icarə hüququnda verilə bilər.

5. Torpaq sahələri üzərində mülkiyyət, istifadə və icarə hüquqları mülkiyyətçilərin və ya onların vəkil etdiyi şəxslərin, yaxud orqanların qərarı (razılığı) ilə bilavasitə, torpaq hərracları və ya müsabiqələri vasitəsilə alınıb satıla bilər.

6. Bələdiyyə mülkiyyətindəki torpaqların alqı-satqısı ərazinin inkişaf planları, yerquruluşu, yaşayış məntəqələrinin baş planı, şəhərsalma sənədləri əsasında planlaşdırılır və qanunvericiliklə müəyyən edilmiş qaydada bələdiyyələr tərəfindən həyata keçirilir.

Ərazi planlaşdırılması əsasında yaşayış məntəqəsinin infrastruktur sahələrinin (sahibkarlıq fəaliyyətinə aid edilməyən və ictimai ehtiyacların ödənilməsi məqsədləri daşıyan obyektlər istisna olmaqla) yaradılması üçün nəzərdə tutulan torpaqların, habelə onlardan istifadə və icarə hüquqlarının alqı-satqısı torpaq hərracları və müsabiqələri vasitəsilə həyata keçirilir.

7. Vətəndaşların və hüquqi şəxslərin mülkiyyətində olan torpaqlar, habelə onlar üzərində istifadə və icarə hüquqları bilavasitə satıldıqda, alqı-satqı tərəflər arasında bağlanılmış və notarial qaydada təsdiq edilmiş alqı-satqı müqavilələri əsasında həyata keçirilir.

8. Torpaq sahəsinin alqı-satqısının qaydaları Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

**Maddə 87. Torpaq sahəsinin nizamnamə (pay) fonduna verilməsi**

1. Xüsusi mülkiyyətdə olan torpaq sahəsi hüquqi şəxslərin nizamnamə (pay) fonduna mülkiyyət və istifadə hüququ formalarında verilir.

2. Dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahəsi nizamnamə (pay) fonduna yalnız istifadə hüququ əsasında verilə bilər.

3. Torpaq istifadəçiləri torpaqdan istifadə hüququnu nizamnamə (pay) fonduna yalnız mülkiyyətçilərin razılığı ilə müvəqqəti verə bilərlər.

4. Pay şəklində verilən torpaq sahəsinin və ya sahədən istifadə hüququnun dəyəri torpaq sahəsinin nizamnamə (pay) fonduna verilməsi barədə tərəflər arasında bağlanılmış müqavilə ilə müəyyən edilir.

5. Torpaq sahəsi üzərində mülkiyyət və ya ondan istifadə hüququ nizamnamə (pay) fonduna qanunvericiliklə müəyyən olunmuş qaydada dövlət qeydiyyatına alındıqdan sonra keçir. Torpaq sahəsi üzərində hüquqların qeydiyyatı torpaq sahəsinin nizamnamə (pay) fonduna verilməsi barədə tərəflərin müqaviləsi əsasında aparılır.

**Maddə 88. Daşınmaz əmlaka dair əqdlərin bağlanması ilə əlaqədar torpaq sahəsi üzərində hüquqların əldə edilməsinin xüsusiyyətləri**

1. Tikiliyə, qurğuya və ya müəssisəyə (obyektə) mülkiyyət hüququ başqa şəxsə keçərkən onların yerləşdiyi torpaq sahəsinə mülkiyyət hüququ da həmin şəxsə tikilinin, qurğunun və ya müəssisənin əvvəlki mülkiyyətçisinə məxsus olan həcmdə və torpaq sahəsindən istifadə üzrə müəyyən edilmiş şərtlər və məhdudiyyətlər qalmaqla bu maddəyə uyğun olaraq keçir.

2. Dövlət və ya bələdiyyə mülkiyyətində olan tikililər, qurğular və ya müəssisələr (obyektlər) qanunvericilikdə müəyyən edilmiş qaydada xüsusi mülkiyyətə satıldıqda daşınmaz əmlakla birlikdə onun yerləşdiyi torpaq sahəsi də satılır və ya satınalma hüququ ilə icarəyə verilir.

3. *Torpaq sahəsinin mülkiyyətçisinə mənsub olan və həmin sahədə yerləşən binaya, o cümlədən fərdi yaşayış evinə, habelə qurğuya mülkiyyət hüququ*

*keçərkən tərəflərin razılaşması ilə müəyyənləşdirilən torpaq sahəsinə hüquqlar binanı (fərdi yaşayış evini) və ya qurğunu əldə edənə keçir. Torpaq sahəsinin bina (fərdi yaşayış evi) və ya qurğu yerləşən və ondan istifadə üçün zəruri olan hissəsinə mülkiyyət hüququ əldə edənə keçir. (15)*

*Çıxarılıb (12;15)*

*Çoxmənzilli yaşayış evlərinin, habelə onlara aid olan qeyri-yaşayış tikililərinin torpaq sahələri həmin evlərin tərkib hissələri mülkiyyətçilərinin ümumi paylı mülkiyyətinə keçir. (12)*

4. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə, xarici hüquqi şəxslərə, beynəlxalq birliklərə və təşkilatlara, habelə xarici dövlətlərə tikililər, qurğular və ya müəssisələr (obyektlər) satıldıqda həmin obyektlərin yerləşdiyi torpaq sahələri onların icarəsinə verilir.

**Maddə 89. Torpaq sahəsinin girov qoyulmasının (ipotekasının) xüsusiyyətləri**

1. İpoteka haqqında müqavilə üzrə hüquqi və fiziki şəxslərin mülkiyyətində olan torpaq sahələri girov qoyula bilər.

2. Yaşayış məntəqələrində ümumi istifadədə olan torpaqların, o cümlədən şəhərsalma qaydalarına uyğun olaraq binalar və tikililər ucaldılmasına yol verilməyən şəhər torpaqlarının, xüsusi mühafizə olunan ərazilərdəki torpaqların, habelə xüsusi istifadə şəraitinə malik zonalardakı sahələrin tərkibindən dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların ipotekasına yol verilmir.

3. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq ipotekasına yol verilməyən torpaqlar istisna olmaqla, dövlət və bələdiyyə mülkiyyətində olan başqa torpaq sahələri və bu sahələr üzərində istifadə və icarə hüquqları girov (ipoteka) predmeti ola bilər.

*4. Kənd təsərrüfatı təyinatlı torpaqların ipotekasına kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, habelə torpaq qanunvericiliyinə uyğun olaraq, bu kateqoriya torpaqların məqsədli istifadəsi ilə bağlı yaranan öhdəliklərin təmin edilməsi üçün yol verilir. (14)*

*5. Bina, tikili, qurğu və ya digər daşınmaz əşyalar yalnız onların yerləşdiyi, yaxud fəaliyyətini təmin etdiyi torpaq sahəsi ilə birlikdə ipoteka qoyulur. (14)*

6. Torpaq sahəsinin bir hissəsi girov qoyulduqda, həmin hissənin sərhədləri girov qoyulmazdan əvvəl müəyyən edilməlidir.

*7. Girov qoyan (ipoteka qoyan) əsas öhdəliyi yerinə yetirmədiyi halda, girov (ipoteka) qoyulmuş torpaq sahəsinə müvafiq qanunla nəzərdə tutulmuş qaydada tutma yönəldilə bilər. (2;14)*

8. Girovsaxlayan xarici hüquqi və ya fiziki şəxs olduqda ipoteka müqaviləsində, girovla təmin edilmiş öhdəlik icra edilmədikdə, girov qoyulmuş torpaq sahəsinin ən geci bir il ərzində məcburi satılacağı barədə müddəa əks etdirilməlidir.



9. Torpaq sahəsinin girov qoyulmasının (ipotekasının) qaydaları Azərbaycan Respublikasının *ipoteka haqqında (14)* qanunvericiliyi *və Azərbaycan Respublikasının Mülki Məcəlləsi (2)* ilə tənzimlənir.

**Maddə 90. Torpaq sahəsinin dəyişdirilməsi**

1. Xüsusi mülkiyyətdə olan torpaq sahələri Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq hər hansı nisbətdə bir-biri ilə dəyişdirilə bilər.

2. Dövlət və ya bələdiyyə mülkiyyətində olan torpaq sahələrindən istifadə və ya icarə hüquqları əsasında istifadə edənlər müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin razılığı ilə həmin torpaq sahələrini başqalarının həmin ərazidəki istifadə və ya icarə hüququnda olan torpaq sahələri ilə dəyişdirə bilərlər.

3. Torpaq sahəsinin dəyişdirilməsi Azərbaycan Respublikasının mülki qanunvericiliyinə uyğun olaraq müvafiq normativ hüquqi aktlarla tənzimlənir.

**Maddə 91. Torpaq sahəsinin bağışlanması**

1. Torpağın mülkiyyətçisi Azərbaycan Respublikasının Mülki Məcəlləsində müəyyən edilmiş qaydada və formada bağışlama müqaviləsi ilə həmin torpaq sahəsini və ya onun bir hissəsini əvəzsiz olaraq Azərbaycan Respublikasının hər hansı vətəndaşının və ya hüquqi şəxsin, habelə dövlətin və ya bələdiyyənin mülkiyyətinə verə bilər.

2. Dövlət və bələdiyyə torpaqlarının bağışlanmasına yol verilmir. Bu torpaqlar üzərində istifadə və icarə hüquqları qanunvericiliklə müəyyən edilmiş qaydada bağışlana bilər.

3. Torpaq sahəsinin bağışlanması qaydaları Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə tənzimlənir.

**Maddə 92. Torpaq sahəsinin vərəsəlik qaydasında başqasına keçməsi**

1. Mülkiyyətçi öldükdə ona məxsus olan torpaq sahəsinin hamısı və ya onun bir hissəsi üzərində olan mülkiyyət hüququ vərəsəlik qaydasında vəsiyyət üzrə və ya qanun üzrə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada və formada başqa şəxslərə (vərəsələrə) keçir.

*2. Əgər nə qanun üzrə, nə də vəsiyyət üzrə vərəsə yoxdursa və ya vərəsələrdən heç biri mirası qəbul etməmişdirsə, yaxud bütün vərəsələr vərəsəlik hüququndan məhrum edilmişdirsə, vərəsələri olmayan torpaq dövlətə keçir; əgər miras qoyan şəxs qocalar, əlillər üçün müəssisələrin, müalicə, tərbiyə və sosial təminat müəssisələrinin təminatında olmuşdursa, həmin müəssisənin mülkiyyətinə keçir.(2)*

3. Dövlət və bələdiyyə torpaqları yalnız istifadə və icarə hüquqları əsasında vərəsələrə keçə bilər.

4. Torpaq sahəsi vərəsəlik qaydasında yetkinlik yaşına çatmamış şəxsə keçdikdə, onun qanuni müvəkkilləri həmin torpaq sahəsini vərəsə yetkinlik yaşına çatana qədər icarəyə verə bilərlər.

**Maddə 93. Torpaq sahəsinə dair əqdlərin rəsmiləşdirilməsi**

1. Torpaq sahəsinə dair əqdlər yazılı formada, əqdləri bağlayan tərəflər və ya onların müvəkkilləri tərəfindən imzalanan sənədlərin tərtib edilməsi yolu ilə Azərbaycan Respublikasının Mülki Məcəlləsinin müddəalarına uyğun olaraq həyata keçirilir.

2. Torpaq sahəsinə və ya onun üzərindəki daşınmaz əmlaka dair bağlanan əqd müqavilə ilə rəsmiləşdirilir.

3. Qanunvericilikdə başqa hallar nəzərdə tutulmamışdırsa, müqavilədə aşağıdakılar göstərilməlidir:

müqavilənin tərəfləri;

müqavilənin növü;

müqavilənin predmeti, torpaq sahəsinin planı, təsviri, məhdudiyyətlər və servitutlar da daxil olmaqla torpaq sahəsinin hüquqi rejimi, dövlət torpaq reyestrində qeydiyyat nömrəsi, torpaq sahəsində yerləşən daşınmaz əmlak barədə məlumatlar (tikililər, qurğular, çoxillik əkmələr, sututarlar və digər obyektlər);

müqavilənin bağlanmasından əvvəl torpaq sahəsinin və onun üzərində yerləşən daşınmaz əmlakın əldə edilməsinin əsasları (alqı-satqı, vərəsəlik, bağışlama və ya digər əsas);

torpaq sahəsi və onunla bağlı olan daşınmaz əmlaka dair qadağanlar qoyulması (əmlakın həbs edilməsi və ya digər səbəb nəticəsində) barədə qeydlər;

torpaq sahəsi üzərində üçüncü şəxslərin məhdudiyyət öhdəliklərinin olub-olmaması barədə göstərişlər (ipoteka, icarə, xüsusi istifadə rejimi, servitutlar və digər göstərişlər);

torpaq sahəsi üzərində hüquqların verilməsi tarixi;

əqdin qiyməti və onun həqiqiliyi barədə tərəflərin öz imzaları ilə təsdiq edilmiş ərizələri;

tərəflərin öhdəlikləri.

## *XIX fəsil*

## Torpağın qiymətləndirilməsi və torpaq haqqının müəyyən edilməsinin əsasları

**Maddə 94. Torpağın qiymətləndirilməsi**

1. Təbii resurs kimi torpaqlar torpaq haqqının məbləğini, torpağın dəyərini və rüsumların həcmini müəyyən etmək, habelə torpaq dövriyyəsi prosesini tənzimləmək məqsədilə qiymətləndirilir.

2. Torpaqların qiymətləndirilməsində torpağın normativ qiymətindən və bazar qiymətindən istifadə olunur.



**Maddə 95. Torpağın normativ qiyməti**

1. Torpağın normativ qiyməti torpaq sahəsinin təbii və iqtisadi potensialına ekvivalent götürülən dəyər göstəricisidir.

2. Torpağın normativ qiymətindən meyar kimi aşağıdakı hallarda istifadə edilir:

torpaq sahələri mülkiyyətçilərdən geri alındıqda və ya müsadirə edildikdə;

torpaq sahələri alınıb satıldıqda, girov (ipoteka) qoyulduqda, nizamnamə (pay) fonduna və icarəyə verildikdə, sığorta edildikdə;

torpaq sahəsi bir kateqoriyadan başqa kateqoriyalara keçirildikdə.

3. Torpağın normativ qiymətinin hesablanmasında istifadə olunan tariflər inflyasiyanın səviyyəsinə uyğun olaraq indeksləşdirilir və müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

4. Torpağın normativ qiymətinin müəyyən edilməsi qaydaları Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

**Maddə 96. Torpağın bazar qiymətinin formalaşmasının əsasları**

1. Torpağın bazar qiyməti torpaq əqdlərinin növlərindən, satışın formalarından, satış obyektinin təyinatından, torpaqların hüquqi statusundan, rejimindən və normativ qiymətindən, habelə tələb və təklifdən asılı olaraq formalaşır.

2. Xüsusi mülkiyyətdə olan torpaq sahələri bilavasitə satıldıqda qiymətlər tərəflərin razılığı ilə bazar məzənnəsi nəzərə alınmaqla müəyyənləşdirilir.

3. Bələdiyyə mülkiyyətində olan torpaq sahələri bilavasitə satıldıqda qiymətlər normativ qiymətdən az olmamaq şərtilə bazar məzənnələri nəzərə alınmaqla bələdiyyələr tərəfindən müəyyən edilir.

4. Bələdiyyələrin kənd təsərrüfatına az yararlı və yararsız torpaqları *öz vəsaitləri hesabına yararlı hala salaraq kənd təsərrüfatı məhsulları istehsal edən Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə satıldıqda bu torpaqlarda torpaq qanunvericiliyi ilə müəyyən edilmiş qiymət güzəştləri tətbiq olunur. (4)*

5. Bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaq sahələrinin (*ipoteka predmeti olan torpaq sahələri istisna olmaqla) (14)* hərrac və müsabiqə vasitəsi ilə satışında ilkin qiymət (müsabiqədə isə qiymət) bazar məzənnəsini nəzərə almaqla mülkiyyətçi ilə satışın təşkilatçıları arasında razılaşma əsasında torpağın normativ qiymətindən az olmamaq şərti ilə müəyyən edilir.

6. Torpaq sahələri dövlət *ehtiyaclarını (15)* ödəmək məqsədilə mülkiyyətçilərdən əvəzi ödənilməklə alındıqda onların *satınalma qiyməti Azərbaycan Respublikasının Mülki Məcəlləsinə müvafiq olaraq (12)* tərəflərin razılığı əsasında müəyyənləşdirilir. Tərəflər arasında mübahisə məhkəmə qaydasında həll olunur.

7. Torpaq üzərində istifadə və icarə hüquqlarının qiyməti, bazar məzənnələri nəzərə alınmaqla, bilavasitə satışı zamanı qarşılıqlı razılaşma əsasında, hərrac (və ya müsabiqə) vasitəsilə satıldıqda isə ilkin qiymət (qiymət) kimi mülkiyyətçilərlə satışın təşkilatçıları arasında razılaşma əsasında müəyyən edilir.

8. Torpaq sahələri (xüsusi mülkiyyətdə olan torpaqlar istisna olmaqla) bağışlanıldıqda, dəyişdirildikdə və vərəsəliyə verildikdə onlar müvafiq icra hakimiyyəti orqanı və ya bələdiyyələr tərəfindən müəyyən edilən qaydada normativ qiymətlərdən az olmamaq şərti ilə qiymətləndirilir.

9. Nizamnamə (pay) fonduna verilən torpaq sahəsinin və ya bu sahə üzərindəki hüquqların dəyəri iştirakçılar arasında bağlanılmış müqavilə ilə bazar məzənnəsinə uyğun müəyyən olunur.

*10. İpoteka predmeti olan torpaq sahəsinə tutma yönəldilərkən onun ilkin satış qiyməti ipoteka haqqında qanunvericiliyə uyğun olaraq bazar qiyməti nəzərə alınmaqla müəyyən edilir. (14)*

**Maddə 97. Torpaq haqqının formaları**

1. Azərbaycan Respublikasında torpaqdan istifadə pulludur.
2. Torpaq haqqı torpaq vergisi və icarə haqqı formalarında müəyyən edilir.

**Maddə 98. Torpaq vergisi**

*1. Azərbaycan Respublikasında torpaqdan istifadəyə görə torpaq vergisinin müəyyən edilməsi və ödənilməsi qaydaları Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilir. (1)*

2. Mülkiyyətindən və istifadəsində torpaq sahəsi olan hüquqi və fiziki şəxslər torpaq vergisi ödəyirlər.

3. Torpaq vergisi torpaq mülkiyyətçilərinin və istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq torpaq sahəsinə görə sabit tədiyyə formasında hesablanır.

4. Torpaq vergisinin dərəcələri torpağın təyinatından, sahəsindən, coğrafi yerləşməsindən və keyfiyyətindən asılı olmayaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş qaydada müəyyənləşdirilir.

Torpaq vergisinin müəyyən edilməsi üçün dövri olaraq onun renta qiymətləndirilməsi aparılır.

5. Keyfiyyət xaraktkristikası müəyyən edilməmiş torpaq sahələrinə görə torpaq vergisini hesablamaq məqsədilə torpaq sahəsinə daxil olduğu *inzibati ərazi vahidi (3)* üzrə torpağın orta bonitet balı qəbul edilir.

6. Torpaq vergisinin müəyyən edilməsi və ödəmə qaydaları Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

**Maddə 99. İcarə haqqı**

1. Torpağın icarə haqqı torpaqdan müddətli istifadəyə görə icarəçinin icarəyəverənə ödədiyi vəsaitdir.

2. İcarəyəverən torpaq vergisi tədiyyəçisi olduqda, torpaq vergisi icarə haqqının tərkibinə daxil edilir.

İcarəyəverən torpaq vergisi tədiyyəçisi olmadıqda, icarə haqqının tərkibində torpaq vergisi nəzərə alınmır.



3. Xüsusi mülkiyyətdə olan torpaqların icarə haqqı tərəflərin razılığı ilə müəyyən olunur.

4. Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların icarə haqqının aşağı həddi onların təyinatından, sahəsindən, coğrafi yerləşməsindən və keyfiyyətindən asılı olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş normativlər əsasında müəyyənləşdirilir. Həmin sənədlərdə torpağın normativ qiyməti, torpaq vergisi, habelə tələb və təklif nəzərə alınmalıdır.

5. Dövlət və bələdiyyə mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqlara təklif tələbi üstələdiyi hallarda icarə haqqı güzəştli tətbiq edilə bilər.

6. Kənd təsərrüfatına az yararlı və yararsız torpaqlar kənd təsərrüfatı ehtiyacları üçün icarəyə verildikdə torpaq qanunvericiliyində nəzərdə tutulmuş imtiyazlar tətbiq olunur.

**Maddə 100. Torpaqla bağlı əqdlərə tətbiq edilən tədiyyələr**

1. Müvafiq icra hakimiyyəti orqanları və səlahiyyətləri daxilində bələdiyyələr torpaqla bağlı əqdlərin növündən və torpaq sahələrinin qiymətindən asılı olaraq tədiyyələrin diferensiallaşdırılmış dərəcələrini və ödəmə qaydalarını müəyyən edirlər.

2. Torpaqla bağlı əqdlərə tətbiq edilən tədiyyələrdən (ödənclərdən) daxil olan vəsaitin müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş hissəsi yeni torpaqların kənd təsərrüfatı dövriyyəsinə cəlb edilməsinə, dövlət proqramları əsasında torpaqların keyfiyyətinin yaxşılaşdırılmasına, rekultivasiyasına, dövlət torpaq kadastrının, torpaqların monitorinqinin, yerquruluşu və elmi-tədqiqat işlərinin aparılmasına, torpaqların istifadəsi və mühafizəsi ilə əlaqədar digər tədbirlərin həyata keçirilməsinə sərf edilir.

Torpaq ödəncləri üzrə güzəştlər Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə müəyyən edilir.

## *XX fəsil*

## Torpaq mülkiyyətçilərinə istifadəçilərinə və icarəçilərinə vurulan zərərin və kənd təsərrüfatı və meşə təsərrüfatı istehsalı itkilərinin ödənilməsi

**Maddə 101. Torpaq mülkiyyətçilərinə, istifadəçilərinə və icarəçilərinə vurulan zərərin ödənilməsi**

1. Torpaq sahələrinin geri alınması (məcburi satın alınması) və ya müvəqqəti tutulması, habelə torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin hüquqlarının məhdudlaşdırılması, yaxud hüquqi və fiziki şəxslərin fəaliyyətinin təsiri ilə torpaqların keyfiyyətinin pisləşməsi nəticəsində dəymiş zərər və əldən çıxmış gəlir bu itkilərə məruz qalmış torpaq mülkiyyətçilərinə, istifadəçilərinə və icarəçilərinə

tam həcmdə ödənilməlidir. *Torpaq sahələri geri alınarkən qeyd olunan xərclərlə yanaşı, habelə torpaq mülkiyyətçisinin üçüncü şəxslər qarşısında daşıdığı öhdəliklərə vaxtından əvvəl xitam verilməsi ilə əlaqədar düşdüyü xərci də ödənilməlidir.(2)*

2. Vurulmuş zərəri, o cümlədən əldən çıxmış gəliri, geri alınan torpaq sahələrini əldə etmiş hüquqi və fiziki şəxslər, habelə fəaliyyəti torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin hüquqlarının məhdudlaşmasına, yaxud yaxınlıqda yerləşən torpaqların keyfiyyətinin pisləşməsinə səbəb olan hüquqi və fiziki şəxslər bu Məcəllə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilən qaydada ödəyirlər.

3. Zərərin ödənilməsi ilə əlaqədar mübahisələrə qanunvericilikdə müəyyən edilmiş qaydada müvafiq məhkəmədə baxılır.

**Maddə 102. Kənd təsərrüfatı və meşə təsərrüfatı istehsalı itkilərinin ödənilməsi**

1. Kənd təsərrüfatı və meşə təsərrüfatı ilə əlaqədar olmayan məqsədlər üçün kənd təsərrüfatı və meşə təsərrüfatı torpaqlarının geri alınması, habelə istifadə sahəsində hüquqi və ya fiziki şəxslərin fəaliyyətinin təsiri ilə yaranan məhdudiyyətlər nəticəsində baş verən kənd təsərrüfatı və meşə təsərrüfatı itkiləri bu Məcəllənin 101-ci maddəsinə uyğun olaraq zərərin ödənilməsindən əlavə olaraq kompensasiya edilir.

2. Kənd təsərrüfatı və meşə təsərrüfatı istehsalı itkilərini aşağıdakılar ödəyirlər:

kənd təsərrüfatı və meşə təsərrüfatı ilə əlaqədar olmayan ehtiyaclar üçün kənd təsərrüfatı və meşə torpaqlarını xeyrinə geri alan hüquqi və fiziki şəxslər;

obyektlərin ətrafında mühafizə, sanitariya və qoruyucu zonalar müəyyənləşdirilərkən kənd təsərrüfatı və meşə torpaqlarını dövriyyədən çıxaran və ya onları daha az qiymətli torpaqlara keçirən hüquqi və fiziki şəxslər.

3. Hüquqi və fiziki şəxslərin fəaliyyətinin təsiri nəticəsində kənd təsərrüfatı və meşə təsərrüfatı yerlərinin keyfiyyəti pisləşdikdə də kənd təsərrüfatı və meşə təsərrüfatı istehsalı itkiləri onlar tərəfindən kompensasiya edilir.

4. Kənd təsərrüfatı və meşə təsərrüfatı itkilərinin ödənilməsi qaydasında daxil olan vəsait müvafiq icra hakimiyyəti orqanının hesabına keçirilir. Həmin vəsaitdən ilk növbədə ərazisindən torpaq alınan rayonda yeni torpaqların mənimsənilməsi, torpaqların münbitliyinin artırılması, meşə salınması və meşə fondu torpaqlarının məhsuldarlığının yüksəldilməsi, torpaqların mühafizəsi və digər tədbirlərin həyata keçirilməsi üçün istifadə edilir.

5. İtkilərin və ziyanın miqdarının müəyyən edilməsi və ödənilməsi qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş normativ hüquqi aktlar əsasında müəyyən edilir.



## *XXI fəsil*

## Torpaq mübahisələrinin həlli

**Maddə 103. Torpaq mübahisələrini həll edən orqanlar**

1. Torpaq mübahisələri öz səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanları, bələdiyyələr və məhkəmələr tərəfindən həll edilir.

2. Müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin qərarı ilə tərəflər razı olmadıqda mübahisələrə qanunvericilikdə müəyyən edilmiş qaydada müvafiq məhkəmədə baxılır.

3. Torpaq münasibətləri ilə əlaqədar olan əmlak mübahisələri, o cümlədən vurulan zərərin ödənilməsinə və həcminin müəyyən edilməsinə dair mübahisələr qanunvericilikdə müəyyən edilmiş qaydada məhkəmə tərəfindən həll edilir.

4. Rayonların (şəhərlərin) daxilində torpaq üzərində mülkiyyət, torpaqdan istifadə məsələləri üzrə torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin mübahisələrinə müvafiq icra hakimiyyəti orqanı, bələdiyyə və məhkəmə tərəfindən baxılır.

5. Rayon (şəhər) daxilində yaşayış məntəqələrinin hüdudlarının müəyyən edilməsinə dair mübahisələrə müvafiq icra hakimiyyəti orqanı və bələdiyyə tərəfindən baxılır. Tərəflər onların qərarı ilə razı olmadıqda yuxarı dövlət orqanlarına və ya məhkəməyə müraciət edə bilərlər.

**Maddə 104. İnzibati-ərazi vahidləri arasında ərazi mübahisələrinin həlli**

İnzibati-ərazi vahidləri arasında ərazi məsələləri üzrə mübahisələrə aidiyyəti üzrə Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yaratdığı xüsusi komissiyalar tərəfindən baxılır.

**Maddə 105. Azərbaycan Respublikası ilə digər dövlətlər arasındakı torpaq mübahisələrinin həlli**

Azərbaycan Respublikası ilə digər dövlətlər arasında ərazi mübahisələri baş verdikdə, bu məsələ Azərbaycan Respublikasının qanunvericiliyi, beynəlxalq hüquq normaları və prinsipləri əsasında həll olunur.

**Maddə 106. Məhkəmədən kənar torpaq mübahisələrinə baxılması qaydası**

1. Torpaq üzrə mübahisələrə tərəflərdən birinin ərizəsinə əsasən müvafiq icra hakimiyyəti orqanı və ya bələdiyyə ərizənin daxil olduğu gündən etibarən bir ay müddətinədək baxır.

2. Torpaq mübahisələrinə maraqlı tərəflərin iştirakı ilə baxılır. Məsələnin həllində ilk dəfə tərəflərin biri iştirak etmədikdə və məsələyə baxılmasına dair onun rəsmi razılığı olmadıqda işə baxılması təxirə salınır.

3. Tərəflərdən birinin üzrlü səbəb olmadan ikinci dəfə baxışa gəlməməsi torpaq mübahisələrinə baxılmasını və bu məsələ üzrə qərar qəbul edilməsini dayandırmır.

4. Torpaq mübahisələrinə baxan orqanın qərarında onun yerinə yetirilməsi qaydaları və pozulmuş hüquqlarının bərpası üzrə tədbirlər nəzərdə tutulur.

5. Qərar qəbul edildiyi andan ən geci 5 gün keçənədək tərəflərə verilir.

**Maddə 107. Məhkəmədən kənar torpaq mübahisələrində iştirak edən tərəflərin hüquqları**

Məhkəmədən kənar qaydada baxılan torpaq mübahisələrində iştirak edən tərəflər mübahisəsinin həllinə dair sənədlərlə tanış olmaq, onlardan çıxarışlar etmək, torpaq mübahisələrinə baxılmasında iştirak etmək, sənədlər və digər sübutlar təqdim etmək, vəsatət qaldırmaq, şifahi və ya yazılı izahatlar vermək, vəsatətə və digər tərəfin müqavilələrinə etiraz etmək, torpaq mübahisələri üzrə qərarın surətini almaq, müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin qərarı ilə razı olmadıqda – ondan müvafiq məhkəməyə şikayət etmək hüquqlarına malikdirlər.

**Maddə 108. Məhkəmədən kənar torpaq mübahisələrinə dair qərarın icrası**

1. Torpaq mübahisələrinə dair müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin qərarı qəbul edildiyi andan qüvvəyə minir. Qərardan müvafiq məhkəməyə şikayət verilməsi onun icrasını dayandırır.
2. Müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin torpaq mübahisəsinə dair qərarının icrasına nəzarəti müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.
3. Torpaq mübahisələrinə dair qərarların icrası qərar çıxaran orqan və ya yuxarı orqan tərəfindən dayandırıla və ya onun müddəti uzadıla bilər.

## *XXII fəsil*

## Torpaq qanunvericiliyinin pozulmasına görə məsuliyyət

**Maddə 109. Torpağa dair əqdlərin etibarsızlığı**

Torpaq istifadəçiləri və icarəçiləri tərəfindən özgənin mülkiyyətində olan torpağın alınıb-satılması, bağışlanması, torpaq sahələrinin özbaşına dəyişdirilməsi barədə bağladığı əqdlər, habelə torpaq mülkiyyətçilərinin bu Məcəllədə nəzərdə tutulmuş qaydaları pozmaqla bağladıqları əqdlər etibarsız hesab edilir.

**Maddə 110. Torpaq qanunvericiliyinin pozulmasına görə məsuliyyət**

Aşağıdakı hərəkətlərin törədilməsində təqsiri olan şəxslər qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar:

bu Məcəllənin 109-cu maddəsində göstərilən əqdlərin bağlanılması;

torpaq sahələrinin özbaşına tutulması;

torpaq sahələrində qanunsuz tikinti aparılması;

torpaqların kateqoriyalarının qanunvericiliyə riayət edilmədən dəyişdirilməsi;

torpaqların zibilləndirilməsi, istehsalat və məişət tullantıları ilə, kimyəvi və radioaktiv maddələrlə, habelə çirkab suları ilə çirkləndirilməsi, bakterial-parazitik və zərərli karantin orqanizmlərlə yoluxdurulması;



torpaqları yaxşılaşdırmaq və onları külək, su eroziyasından və torpaqların münbitliyini pisləşdirən digər proseslərdən mühafizə etmək üçün məcburi tədbirlərin görülməməsi;

torpaqların (o cümlədən meşə torpaqlarının) münbit qatının korlanması;

torpağın vəziyyətinə zərərli təsir göstərən obyektlərin layihələşdirilməsi, tikilməsi və istismara verilməsi;

müvəqqəti istifadəyə və icarəyə verilən torpaqların vaxtında qaytarılmaması və ya onları təyinatı üzrə istifadə etmək üçün yararlı hala salmaq barədəki öhdəliklərin yerinə yetirilməməsi, *Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 80-130 metrlik zolağının altında olan torpaq sahələrinin hasara alınması yolu ilə və ya digər üsullarla bağlanılması və dənizin sahilinə gediş-gəlişin məhdudlaşdırılması; (7)*

mülkiyyətdə və istifadədə olan torpaqların hüdudlarının mərz nişanlarının məhv edilməsi;

torpaqların dövlət uçotundan, qeydiyyatından gizlədilməsi, kəmiyyət və keyfiyyətinə dair məlumatların təhrif edilməsi;

torpaq sahələrində meteoroloji şəbəkələrin və ölçü vasitələrinin, geodeziya-istinad məntəqələrinin və yerüstü nişanların, habelə meliorasiya və irriqasiya sistemlərinin sıradan çıxarılması.

**Maddə 111. Özbaşına tutulmuş (zəbt edilmiş) torpaqların qaytarılması**

1. Azərbaycan Respublikasında torpaqların özbaşına tutulması (zəbt edilməsi) qanunla qadağan olunur.
2. Özbaşına tutulmuş (zəbt edilmiş) torpaq sahələri qanunsuz istifadə zamanı çəkilən xərclərin əvəzi ödənilmədən aidiyyəti üzrə geri qaytarılmalıdır.
3. Torpaqların əvvəlki vəziyyətinə gətirilməsi (orada olan binaların, tikililər və qurğuların sökülməsi də daxil olmaqla) torpaqları zəbt etmiş hüquqi və fiziki şəxslər tərəfindən və ya onların hesabına həyata keçirilir. *(15)*

**Maddə 112. Torpaq qanunvericiliyini pozmaqla vurulan zərərin ödənilməsi**

Hüquqi və fiziki şəxslər torpaq qanunvericiliyini pozmaq nəticəsində vurduqları zərəri ödəməyə borcludurlar.

## *XXIII fəsil*

## Beynəlxalq müqavilələr

**Maddə 113. Beynəlxalq müqavilələr**

Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə bu Məcəllədən fərqli qaydalar nəzərdə tutulmuşdursa, beynəlxalq müqavilələrin qaydaları tətbiq edilir.

***Dərci: 8 avqust 1999-cu il***

## Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli, 695-İQ nömrəli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*(4 avqust 1999-cu il, № 176)*

***Əlavə və dəyişikliklər:***

*1. 06.03.2000, № 291*
*2. 21.12.2001, q.m.t.25.12.2001*
*3. 23.10.2003, q.m.t. 26.10.2003*
*4. 12.04.2004, q.m.t. 13.04.2004*
*5. 02.08.2006, q.m.t. 05.08.2006*
*6. 10.03.2008, q.m.t. 13.03.2008*
*7. 06.08.2008, q.m.t. 09.08.2008*

Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin qüvvəyə minməsi ilə əlaqədar həmin məcəllənin tətbiq edilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

– qüvvədə olan qanunvericilik aktlarının Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

– Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Məcəlləyə uyğunlaşdırılmasını təmin etsin və bu haqda Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

– Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin 6-cı maddəsinin beşinci, altıncı, on ikinci və on beşinci abzaslarında, 12-ci maddəsi-nin 4-cü bəndində, 16-cı maddəsinin 1-ci bəndində, 21-ci maddəsinin 1-ci bəndində, 23-cü maddəsinin 4-cü, 5-ci və 6-cı bəndlərində, 24-cü maddəsinin 1-ci bəndində, 34-cü maddəsinin 8-ci bəndində, *38-ci maddəsinin 5-ci, 6-cı və 9-cu abzaslarında, (1)* 46-cı maddəsinin 4-cü bəndində, 51-ci maddəsinin 3-cü bəndində, 55-ci maddəsinin ikinci abzasında, 56-cı maddəsinin 1-ci bəndində, 63-cü maddəsinin 1-ci və 2-ci bəndlərində, 64-cü maddəsində, 66-cı maddəsinin 1-ci, 2-ci və 3-cü bəndlərində, 70-ci maddəsinin 3-cü, 5-ci və 6-cı bəndlərində, 75-ci maddəsinin 1-ci, 2-ci, 4-cü və 5-ci bəndlərində, 79-cu maddəsinin 1-ci bəndinin ikinci abzasında, 80-ci maddəsinin dördüncü abzasında, 96-cı maddəsinin 8-ci bəndində, 99-cu maddəsinin 4-cü bəndində, 100-cü maddəsinin 1-ci bəndində və 2-ci bəndinin birinci abzasında, 102-ci maddəsinin 4-cü bəndində, 108-ci maddəsinin 2-ci bəndində nəzərdə tutulan "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanlarına dair təkliflərini Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;



– Azərbaycan Respublikası torpaq qanunvericiliyinin pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktlarının layihələrini hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

– Azərbaycan Respublikasının Torpaq Məcəlləsindən irəli gələn digər məsələləri öz səla-hiyyəti hüdudlarında həll etsin.

2. Müəyyən edilsin ki:

– Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin 4-cü maddəsinin 5-ci bəndinin dördüncü abzasında, 6-cı maddəsinin dördüncü, yeddinci - onuncu abzaslarında, 9-cu maddəsinin 3-cü bəndində, *12-ci maddəsinin 5-ci bəndində (7),* 16-cı maddəsinin 8-ci bəndində, 22-ci maddəsinin 5-ci bəndində, 23-cü maddəsinin 8-ci bəndində, 36-cı maddəsinin 2-ci bəndində, 37-ci maddəsində, 40-cı maddəsinin 2-ci bəndində, *71-ci maddəsinin 1-ci bəndinin birinci (xüsusi mülkiyyətdə və icarədə olan torpaq sahələrinin dövlət və ictimai ehtiyaclar üçün özgəninkiləşdirilməsi hissəsində) abzaslarında və 2-ci bəndində (5),* 95-ci maddəsinin 3-cü bəndində *(5),* 102-ci maddəsinin 5-ci bəndində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

– həmin məcəllənin 6-cı maddəsinin on üçüncü və on dördüncü abzaslarında, 38-ci maddəsində, 45-ci maddəsinin 1-ci bəndində, 65-ci maddəsinin 5-ci bəndində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Torpaq *və Xəritəçəkmə Komitəsi (2)* həyata keçirir;

– həmin məcəllənin 10-cu maddəsinin 5-ci bəndində, 39-cu maddəsinin 2-ci bəndində, 40-cı maddəsinin 3-cü bəndində, 43-cü maddəsinin 4-cü və 5-ci bəndlərində, 49-cu maddəsinin 4-cü bəndində *(1),* 56 cı maddənin 5-ci bəndinin birinci abzasında və 7-ci bəndində, 69-cu maddəsinin 1-ci bəndində, 70-ci maddəsinin 2-ci bəndində, *71-ci maddəsinin 1-ci bəndinin birinci (əvəzsiz istifadəyə verilmiş torpaq sahələrinin geri alınması hissəsində) və üçüncü (əvəzsiz istifadəyə verilmiş torpaq sahələrinin geri alınması hissəsində) abzaslarında (5),* 72-ci maddəsinin 2-ci bəndində, 84-cü maddəsinin 5-ci bəndində, 90-cı maddəsinin 2-ci bəndində, 103-cü maddəsinin 1-ci, 2-ci, 4-cü və 5-ci bəndlərində, 106-cı maddəsinin 1-ci bəndində, 107-ci maddəsində, 108-ci maddəsinin 1-ci bəndində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

– həmin məcəllənin 6-cı maddəsinin ikinci, üçüncü və on birinci abzasında nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini öz səlahiyyəti hüdudlarında Azərbaycan Respublikasının Nazirlər Kabineti, *Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (2;3)* və digər əlaqəli mərkəzi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.

*– həmin məcəllənin 45-ci maddəsinin 1-ci bəndində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini torpaqların münbitliyinin təmin olunmasına dövlət nəzarətinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Res-*

*publikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi öz səlahiyyətləri daxilində həyata keçirirlər. (4)*

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılsın ki, aşağıdakıların icrası barədə Azərbaycan Respublikasının prezidentinə məlumat verməklə üç ay müddətində:

– Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin 4-cü maddəsinin 5-ci bəndinin dördüncü abzasında və 6-cı maddəsinin yeddinci abzasında müəyyənləşdirilməsi nəzərdə tutulmuş dövlət qeydiyyatına alına bilən torpaq sahələrinin minimum həddlərinin müəyyən edilməsi qaydalarını;

– həmin məcəllənin 6-cı maddəsinin dördüncü abzasında müəyyən edilməsi nəzərdə tutulmuş dövlət torpaq kadastrının, torpaqların monitorinqinin və yerquruluşunun aparılması qaydalarını;

– həmin məcəllənin 16-cı maddəsinin 8-ci bəndində müəyyən edilməsi nəzərdə tutulmuş örüş, otlaq və biçənək sahələrinin istifadəyə və icarəyə verilməsi, habelə istifadə edilməsi qaydalarını;

– həmin məcəllənin 22-ci maddəsinin 5-ci bəndində müəyyən edilməsi nəzərdə tutulmuş sənaye, nəqliyyat, rabitə və digər təyinatlı torpaqların istifadəsi qaydalarını;

– həmin məcəllənin 23-cü maddəsinin 8-ci bəndində müəyyən edilməsi nəzərdə tutulmuş və təhlükəsizlik ehtiyacları üçün torpaq sahələrinin verilməsi, istifadəsi və geri alınması qaydalarını;

– həmin məcəllənin 36-cı maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş radioaktiv və kimyəvi çirklənməyə məruz qalmış torpaqların təsərrüfat dövriyyəsindən çıxarılması, konservasiya edilməsi, mühafizəsi, sağlamlaşdırılması və istifadəsi qaydalarını;

– həmin məcəllənin 37-ci maddəsində müəyyən edilməsi nəzərdə tutulmuş ekzogen proseslərə məruz qalmış torpaqlarda mühəndis-texniki və kənd təsərrüfatı işlərinin aparılmasına icazə verilməsi qaydasını;

– həmin məcəllənin 102-ci maddəsinin 5-ci bəndində nəzərdə tutulmuş kənd təsərrüfatı və meşə təsərrüfatı istehsalı itkilərinin və ziyanının miqdarının müəyyən edilməsi və ödənilməsi qaydalarını təsdiq etsin;

– həmin məcəllənin 40-cı maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş torpaqların zonalaşdırılmasının ümumi əsaslarını və prinsiplərini;

– həmin məcəllənin 70-ci maddəsinin 9-cu bəndində nəzərdə tutulmuş torpaq sahələrini dövlət *ehtiyacları (6)* üçün ayrılması barədə vəsatətlərin qaldırılması və onlara baxılması qaydalarını müəyyən etcin.

4. Azərbaycan Respublikasının Dövlət Torpaq *və Xəritəçəkmə (2)* Komitəsinə və yerli icra hakimiyyəti orqanlarına tapşırılcın ki, bu fərmanla onların səlahiyyətinə aid edilən məsələlərin həlli üçün lazımi tədbirləri həyata keçirsinlər.

***Dərci: 8 avqust 1999-cu il***



## AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT MƏCƏLLƏSİ

*(30 dekabr 1999-cu il, № 787-IQ)*

**Maddə 314-1. Dövlətin müstəsna mülkiyyətində olan və özgəninkiləşdirilməsi qadağan edilən torpaq sahələrinə dair qanunsuz qərar qəbul etmə**

Vəzifəli şəxs tərəfindən dövlətin müstəsna mülkiyyətində olan və özgəninkiləşdirilməsi qanunla qadağan edilən torpaq sahələrinin bələdiyyələrin, fiziki və ya hüquqi şəxslərin mülkiyyətinə, istifadəsinə və ya onlara icarəyə verilməsi haqqında qərar qəbul etmə –

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır .

## AZƏRBAYCAN RESPUBLİKASININ ƏMƏK MƏCƏLLƏSİ

*(1 fevral 1999-cu il, № 618-IQ)*

**Maddə 6. Bu Məcəllənin şamil edilmədiyi şəxslər**

Aşağıdakı şəxslərə bu Məcəllə şamil edilmir:

a) hərbi qulluqçulara;

b) məhkəmə hakimlərinə;

c) Azərbaycan Respublikasının Milli Məclisinin deputatlarına və bələdiyyələrə seçilmiş şəxslərə;

ç) xarici ölkənin hüquqi şəxsi ilə həmin ölkədə əmək müqaviləsi bağlayıb əmək funksiyasını Azərbaycan Respublikasında fəaliyyət göstərən müəssisədə (filialda, nümayəndəlikdə) yerinə yetirən əcnəbilərə;

d) podrat, tapşırıq, komisyon, müəlliflik və başqa mülki-hüquqi müqavilələr üzrə işləri yerinə yetirən şəxslərə.

**Maddə 87. İşçilərin əmək fəaliyyəti haqqında və müvafiq ödənclərinin haqq-hesab sənədləri**

1. İşçinin əmək fəaliyyəti haqqında sənəd əmək kitabçası hesab edilir. İşçinin əmək fəaliyyəti haqqında sənəddə onun əmək stajı haqqında işə girdiyi gün, ay, il, işlədiyi peşəsi (vəzifəsi), işdən çıxarılmanın əsası, günü, ayı və ili barədə qeydlər göstərilir.

Ailə kəndli təsərrüfatı üzvlərinin əmək fəaliyyətini və əmək stajını təsdiq edən sənəd bələdiyyələr tərəfindən verilən vəsiqə hesab edilir.

2. İşəgötürən 5 gündən artıq işləyən bütün işçilərin əmək kitabçasında onların işə qəbul edilməsi, başqa daimi işə keçirilməsi, əmək müqaviləsinə xitam verilməsi barədə müvafiq qeydləri yazmalıdır.

3. İşdən çıxan işçilərə əmək kitabçası əmək müqaviləsinə xitam verildiyi gün (sonuncu iş günü) verilir.

4. İşçilərin əmək kitabçasının forması və onun tərtibi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

5. İşəgötürən tərəfindən bu məcəllənin 173-cü maddəsində nəzərdə tutulmuş qaydada işçilərin əmək haqqının və digər ödənclərin verilməsi və qeydiyyatı aparılan haqq-hesab sənədi (kitabçası, vərəqi, çeki) tərtib edilir.

**Maddə 179. İşçilərin iş yerinin və orta əməkhaqqının saxlandığı hallar**

1. İşçi qanunvericiliklə nəzərdə tutulmuş hallarda və qaydada dövlət və ictimai vəzifələrin yerinə yetirilməsinə cəlb edildiyi müddət ərzində iş yeri, vəzifəsi (peşəsi) saxlanılmaqla ona orta əməkhaqqı ödənilməlidir.

2. Aşağıdakı hallarda işçinin iş yeri və orta əməkhaqqı saxlanılır:

...

m) dövlət və bələdiyyə orqanlarının işçiləri seçki qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda nəzarət-təftiş xidmətinə cəlb edildikdə.

...

**Maddə 214. Əməyin mühafizəsi sahəsində bələdiyyə orqanlarının səlahiyyətləri**

Bələdiyyə orqanları:

əməyin mühafizəsi sahəsində dövlət siyasətinin tabeliklərində olan ərazidə həyata keçirilməsini təmin edirlər;

əməyin mühafizəsi üzrə sahələrarası yerli əhəmiyyətli proqramlar hazırlayır və onların yerinə yetirilməsini təmin edirlər;

regional problemlərin həlli və əməyin mühafizəsinin təmin edilməsində mülkiyyətçilərə yardım göstərilməsi üçün onların pay iştirakı və digər vəsaiti hesabına əməyin mühafizəsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada məqsədli fondlar yaradır və bu fondların vəsaitinin təyinatı üzrə xərclənməsini təmin edirlər.

**Maddə 257. Kənd təsərrüfatı müəssisələrində iş vaxtının və əməyin ödənilməsinin tənzimlənməsi xüsusiyyətləri**

1. Kənd təsərrüfatı və aqrar sənaye müəssisələrində istehsal və digər iqtisadi münasibətlərin xüsusiyyətləri nəzərə alınaraq iş vaxtı bu məcəllədə nəzərdə tutulan normalar və qaydalar çərçivəsində nizamnamələri (əsasnamələri) ilə müəyyən edilir. Bu müəssisələrdə iş vaxtının cəmlənmiş və ya mövsümi işlərin yerinə yetirilməsi üçün ayrı-ayrı dövrlərə bölünmüş uçotu aparıla bilər.



2. Kənd təsərrüfatı təyinatlı məhsul istehsal edən və ya xidmətlər göstərən qurumların üzvlərinin əməkhaqqı məsələləri ilə bağlı münasibətlər bir qayda olaraq həmin müəssisənin mülkiyyətindəki pay iştirakı ilə müəyyən edilir. Bu müəssisələrdə əmək müqaviləsi ilə işləyən işçilərə əməkhaqqı bu məcəllədə nəzərdə tutulan normalardan az olmamaqla tərəflərin razılığı ilə müəyyən edilir.

3. Əgər kənd təsərrüfatı müəssisələrində işçilərin əməkhaqqının ödənilməsi formaları, qaydaları, əmək və əməyin qiymətləndirilməsi normaları onların nizamnamələrində, əsasnamələrində nəzərdə tutulmamışdırsa, onda müəssisənin əməkhaqqı normalarının müəyyən edilməsi və ödənilməsi qaydaları tətbiq edilir. Bu qaydalar müəssisənin ümumi yığıncağı tərəfindən səs çoxluğu ilə qəbul edilir. Belə qaydalar da qəbul edilməyibsə, əməkhaqqı normaları müvafiq icra hakimiyyəti və ya bələdiyyə orqanları tərəfindən müəyyən edilmiş normativlər barədə müvafiq tövsiyələr əsasında müəyyən edilir.

**Maddə 268. Kollektiv əmək mübahisəsinə əmək arbitrajında baxılması**

1. Əmək arbitrajı kollektiv əmək mübahisəsinin həlli üçün yaradılan müvəqqəti orqandır. O, kollektiv əmək mübahisəsinin əmək arbitrajının icraatına verilməsi barədə razılığın əldə edildiyi vaxtdan 5 iş günündən gec olmayaraq tərəflərin birgə qərarı ilə yaradılır.

2. Əmək arbitrajının tərkibi (üç nəfərdən az olmayaraq), reqlamenti, mübahisəyə baxılma yeri, müddətləri, arbitraja texniki yardımın təşkili tərəflərin qarşılıqlı razılığı ilə müəyyən olunur. Arbitrajın sədri arbitrlər tərəfindən öz sıralarından seçilir. Əmək arbitrajının tərkibinə mübahisənin nəticəsi ilə maraqlı olmayan şəxslər, icra hakimiyyəti, bələdiyyə orqanlarının nümayəndələri, hüquq, əmək və sosial məsələlər üzrə mütəxəssislər və digər şəxslər daxil edilə bilərlər.

3. Tərəflər əmək arbitrajının qərarlarının məcburiliyi barədə qabaqcadan razılığa gələ bilərlər.

4. Əmək arbitrajında kollektiv əmək mübahisələrinə baxılma müddəti 7 iş günündən çox olmamalıdır. Əmək arbitrajı mübahisəyə aid olan lazımi sənədləri və məlumatları almaq hüququna malikdir.

5. Əmək arbitrajının qərarı səs çoxluğu ilə qəbul edilir və protokolla rəsmiləşdirilir. Tərəflər arbitrajın qərarı ilə razılaşmadıqda bu barədə protokol tərtib edilir.

6. Tərəflər əmək arbitrajının qərarlarının məcburiliyi barədə qabaqcadan razılığa gəlmişlərsə, arbitrajın qərarı ilə mübahisə qəti həll olunmuş hesab edilir və mübahisənin davam etdirilməsinə yol verilmir.

**Maddə 275. Tətilin gedişində tərəflərin və müvafiq orqanların vəzifələri**

1. Tətilin keçirildiyi dövrdə tərəflər kollektiv əmək mübahisələrinin həlli üçün danışıqları davam etdirməyə borcludurlar.

2. İşəgötürən, icra hakimiyyəti, bələdiyyə orqanları, tətil komitəsi, həmkarlar ittifaqları təşkilatı tətil müddətində ictimai asayişin, müəssisənin və fiziki şəxslərin əmlaklarının qorunmasını təmin etməyə, həmçinin insanların həyatına, səhhə-

tinə və sağlamlığına bilavasitə təhlükə yarada biləcək maşın, qurğu və avadanlığın fasiləsiz işinin təmin edilməsi üçün onlardan asılı olan bütün tədbirləri görməyə borcludurlar.

3. Tərəflərin razılığı ilə, tətilin uzun müddət davam etdirilməsi nəticəsində insanların təhlükəsizliyi, sağlamlığı üçün təhlükə yaranarsa bu təhlükənin qarşısını almaq üçün, habelə cəmiyyətin mühüm həyati marağı ilə bağlı olan müəssisələrdə tətil keçirildiyi zaman minimum zəruri işlərin (xidmətlərin) aparılması təmin edilməlidir.

4. Razılıq əldə olunmadığı halda minimum zəruri işlər (xidmətlər) müvafiq icra hakimiyyəti orqanı, yaxud bələdiyyələr tərəfindən görülür.

## AZƏRBAYCAN RESPUBLİKASININ MÜLKİ MƏCƏLLƏSİ

*(28 dekabr 1999-cu il, № 779-IQ)*

**Maddə 43. Hüquqi şəxs anlayışı və onun növləri**

43.1. Hüquqi şəxs qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir. Hüquqi şəxsin müstəqil balansı olmalıdır.

43.2. Hüquqi şəxslər bir fiziki və ya hüquqi şəxs tərəfindən, yaxud fiziki və hüquqi şəxslərin toplusu tərəfindən yaradıla bilər, üzvlüyə əsaslana bilər, üzvlərin olmasından asılı ola və ya asılı olmaya bilər, sahibkarlıq fəaliyyəti ilə məşğul ola və ya məşğul olmaya bilər.

43.3. Azərbaycan Respublikası mülki hüquq münasibətlərində eynilə digər hüquqi şəxslər kimi iştirak edir. Bu hallarda Azərbaycan Respublikasının səlahiyyətlərini onun hüquqi şəxslər olmayan orqanları həyata keçirirlər.

43.4. Bələdiyyələr mülki hüquq münasibətlərində eynilə digər hüquqi şəxslər kimi iştirak edirlər. Bu hallarda bələdiyyənin səlahiyyətlərini onun hüquqi şəxslər olmayan orqanları həyata keçirirlər.

43.5. Hüquqi şəxslər fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdən ibarət olan (kommersiya hüquqi şəxsləri) və ya əsas məqsədi mənfəət götürməkdən ibarət olmayan və götürülən mənfəəti iştirakçıları arasında bölüşdürməyən (qeyri-kommersiya hüquqi şəxsləri) qurumlar ola bilər.

43.6. Qeyri-kommersiya qurumları olan hüquqi şəxslər ictimai birliklər, fondlar, hüquqi şəxslərin ittifaqları formasında, habelə qanunvericilikdə nəzərdə tutulan digər formalarda yaradıla bilər. Qeyri-kommersiya hüquqi şəxsləri sahibkarlıq fəaliyyəti ilə yalnız o hallarda məşğul ola bilərlər ki, bu fəaliyyət onların yaradılması zamanı qarşıya qoyulmuş məqsədlərə nail olmağa xidmət etsin və bu məqsədlərə uyğun gəlsin. Sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün qeyri-kommersiya hüquqi şəxsləri təsərrüfat cəmiyyətləri yarada bilər və ya onlarda iştirak edə bilərlər.

**Maddə 109. Kooperativlər haqqında əsas müddəalar**

109.1. Kooperativ fiziki və (və ya) hüquqi şəxslərin birgə fəaliyyət göstərmək üçün üzvlüyə əsaslanan könüllü birliyi olub iştirakçılarının maddi və başqa tələbatının onun üzvlərinin əmlak pay haqlarının birləşdirilməsi yolu ilə ödənilməsi məqsədilə yaradılır.

109.2. Kooperativ üzvü bu məcəllənin tələblərinə cavab verən və kooperativin nizamnaməsində müəyyənləşdirilən qaydada və həcmdə üzvlük haqqı, mütləq və əlavə pay haqqı ödəmiş və kooperativə qəbul edilmiş, onun fəaliyyətində iştirak edən və səs hüququ olan fiziki və (və ya) hüquqi şəxsdir.

109.3. Kooperativin ortaq (assosiativ) üzvü bu məcəllənin tələblərinə cavab verən və kooperativin nizamnaməsində müəyyənləşdirilən qaydada və həcmdə üzvlük haqqı və yalnız mütləq pay haqqı ödəmiş və kooperativə qəbul edilmiş, onun fəaliyyətində iştirak etmiş və bu məcəllədə nəzərdə tutulan hallar istisna olmaqla səs hüququna malik olmayan fiziki və (və ya) hüquqi şəxsdir.

109.4. Kooperativ üzvünün əmlak pay haqqı nizamnamə ilə müəyyənləşdirilən qaydada və həcmdə üzvlər tərəfindən ödənilən daşınar və (və ya) daşınmaz əmlakdan, habelə pulla qiymətləndirilən əmlak hüquqlarından ibarət olan pay haqqıdır. Əmlak pay haqqı mütləq və əlavə ola bilər.

109.5. Mütləq əmlak pay haqqı üzv tərəfindən mütləq qaydada ödənilən, kooperativin fəaliyyətində iştirak etmək, səs vermək və əsas kooperativ ödənişlərini almaq hüququ verən əmlak payıdır.

109.6. Əlavə əmlak pay haqqı üzv tərəfindən bu məcəllənin 109.5-ci maddəsində göstərilən pay haqqından əlavə, öz arzusu ilə ödənilən və kooperativ ödənişlərindən (əsas kooperativ ödənişlərindən) başqa, həmçinin dividend (əlavə kooperativ ödənişləri) almaq hüququ verən paydır.

109.7. Üzvlük haqqı iştirakçının kooperativ üzvlüyünə daxil olması zamanı bununla bağlı xərclərin ödənilməsi üçün verilən pul məbləğidir. Kooperativ üzvünün kooperativ ödənişləri (əsas kooperativ ödənişləri) və dividend (əlavə kooperativ ödənişləri) almaq hüququ vardır.

109.8. Kooperativ ödənişləri (əsas kooperativ ödənişləri) üzvlərin mütləq əmlak pay haqqına, kooperativdə şəxsi əməyinə və digər növ fəaliyyətinə mütənasib surətdə onlara ödənilən kooperativ mənfəətinin bir hissəsidir.

109.9. Dividend (əlavə kooperativ ödənişləri) yalnız səs hüququna malik olan üzvlərə onların əlavə əmlak haqlarına və kooperativin ortaq (assosiativ) üzvlərinin mütləq əmlak pay haqlarına mütənasib surətdə ödənilən kooperativ mənfəətinin bir hissəsidir.

109.10. Kooperativin nizamnaməsində bu məcəllənin 47.2-ci maddəsində göstərilən məlumatlardan savayı kooperativ üzvlərinin pay haqlarının miqdarı haqqında; pay haqlarının verilməsi qaydası və onların verilməsi öhdəliyinin pozulmasına görə kooperativ üzvlərinin məsuliyyəti haqqında; kooperativin idarəetmə orqanlarının tərkibi və səlahiyyəti, onların qərarlar qəbul etməsi, o cümlədən barəsində qərarların yekdilliklə və ya şərtləşdirilmiş səs çoxluğu ilə qəbul olunduğu məsələlərə dair qərarlar qəbul etməsi qaydası haqqında; kooperativin düşdüyü zərərin ödənilməsi qaydası haqqında şərtləri, sənədlərin tərtibi qaydaları (kooperativə qəbulun, üzvlərin siyahısının və pay haqlarının qəbulunun rəsmiləşdirilməsi, kooperativ üzvlərinin ümumi yığıncağının və digər idarəetmə orqanlarının protokollarının tərtibi və sair) göstərilməlidir.

109.11. Kooperativ qanunla qadağan olmayan istənilən sahədə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada sahibkarlıq fəaliyyətini həyata keçirə bilər. Fəaliyyət xarakterinə görə kooperativlər istehsal, istehlak, qarışıq (istehsal-istehlak) və digər növlərdə ola bilər.

109.12. Kooperativ öz üzvləri ilə onların istehsal etdiyi məhsulları kooperativə satmaq, iş və xidmətləri yerinə yetirmək barədə müqavilələr bağlaya bilər.

109.13. Dövlət orqanları, bələdiyyələr, digər fiziki və hüquqi şəxslər kooperativlə münasibətlərini müqavilə əsasında qururlar. Dövlət orqanları və bələdiyyələr Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallar istisna olmaqla, kooperativlərin təsərrüfat, maliyyə, təşkilati (idarəetmə orqanlarının formalaşdırılması) və digər fəaliyyətinə müdaxilə etmirlər.

109.14. Kooperativdə maliyyə-təsərrüfat fəaliyyətinin operativ və mühasibat uçotu, statistika hesabatı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada aparılır.

109.15. Kooperativ öz fəaliyyətini həyata keçirmək üçün muzdla işçilər tutmaq hüququna malikdir. Kooperativin belə işçilərlə əmək münasibətləri Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə tənzimlənir.

109.16. Kooperativin, şəxsi əməyini tətbiq etməklə onun fəaliyyətində iştirak edən üzvləri ilə əmək münasibətləri Azərbaycan Respublikasının əmək qanunvericiliyi, bu məcəllə və kooperativin nizamnaməsi ilə tənzimlənir.

109.17. Kooperativin adında onun fəaliyyətinin əsas məqsədi, habelə "kooperativ" sözü olmalıdır.

**Maddə 148. Daşınmaz əmlakın dövlət reyestrinin açıqlığı**

148.1. Daşınmaz əmlakın təsviri, dövlət qeydiyyatına alınmış hüquqlar və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayış qanunla müəyyən edilmiş qaydada hüquq sahibinə, onun tərəfindən vəkil edilmiş şəxsə, hüquq sahibinin əmlakına qanun və ya vəsiyyət əsasında vərəsəlik hüququ olan şəxslərə və qanunla nəzərdə tutulmuş səlahiyyətlərin yerinə yetirilməsi ilə əlaqədar müvafiq dövlət orqanlarına və bələdiyyələrə verilir.



148.2. Daşınmaz əmlakın dövlət reyestrindəki qeydə əsaslanaraq mülkiyyət hüququ və ya daşınmaz əmlaka başqa hüquqlar əldə etmiş hər bir şəxsin bu hüquqları müdafiə edilməlidir.

**Maddə 153. Mülkiyyət hüququnun subyektləri**

153.1. Bütün növlərdən olan daşınar və daşınmaz əmlaka mülkiyyət hüququnun subyektləri hüquqi və fiziki şəxslər, bələdiyyələr və Azərbaycan Respublikası ola bilər.

153.2. Qanunvericiliklə yalnız dövlət mülkiyyətində və ya bələdiyyələrin mülkiyyətində ola bilən əmlak növləri müəyyənləşdirilir.

153.3. Əmlakın fiziki və ya hüquqi şəxsin mülkiyyətində, Azərbaycan Respublikasının və ya bələdiyyələrin mülkiyyətində olmasından asılı olaraq əmlaka mülkiyyət hüququnun, əmlaka sahiblik, ondan istifadə və ona dair sərəncam hüququnun əldə edilməsi və ona xitam verilməsi xüsusiyyətləri yalnız qanunla müəyyənləşdirilə bilər.

153.4. Bütün mülkiyyətçilərin hüquqları eyni bərabərdə müdafiə edilir.

**Maddə 155. Dövlət mülkiyyəti hüququ**

155.1. Azərbaycan Respublikasına mülkiyyət hüququ ilə mənsub olan əmlak dövlət mülkiyyətidir.

155.2. Fiziki, hüquqi şəxslərin və ya bələdiyyələrin mülkiyyətində olmayan torpaq və digər təbii ehtiyatlar dövlət mülkiyyətidir.

155.3. Dövlət büdcəsinin vəsaiti Azərbaycan Respublikasının mülkiyyətidir.

155.4. Dövlət əmlakının özəlləşdirilməsi haqqında qanunda nəzərdə tutulmuş qaydada dövlət öz mülkiyyətində olan əmlakı fiziki və hüquqi şəxslərin mülkiyyətinə verə bilər.

**Maddə 156. Bələdiyyələrin mülkiyyət hüququ**

156.1. Bələdiyyələrə mülkiyyət hüququ ilə mənsub olan əmlak onların mülkiyyətidir.

156.2. Yerli büdcənin vəsaiti bələdiyyənin mülkiyyətidir.

**Maddə 239. Torpaq sahəsinə buraxılma**

239.1. Fiziki şəxslər dövlət və bələdiyyə mülkiyyətində olan, hamının buraxılması üçün açıq torpaq sahələrində heç bir icazə almadan sərbəst ola bilər və həmin sahələrdə olan təbiət obyektlərindən qanunvericiliyin, habelə müvafiq torpaq sahəsi mülkiyyətçisinin yol verdiyi hədlərdə istifadə edə bilər.

239.2. Fiziki və ya hüquqi şəxsin mülkiyyətində olan torpaq sahəsinə onun mülkiyyətçisinin icazəsi olmadan girməyə, qanunla nəzərdə tutulan hallar istisna olmaqla, icazə verilmir.

**Maddə 241. Torpaq sahəsindən istifadə hüququnun əldə edilməsi əsasları**

241.1. Torpq sahəsinin mülkiyyətçisi onu başqa şəxslərin istifadəsinə, o cümlədən icarəsinə verə bilər.

241.2. Dövlət və ya bələdiyyə mülkiyyətində olan torpaq sahəsindən istifadə hüququ fiziki və hüquqi şəxslərə torpaq sahələrini bu cür istifadəyə verməyə vəkil edilmiş dövlət orqanının və ya yerli özünüidarə orqanının qərarına əsasən qanunla müəyyənləşdirilmiş qaydada verilir.

241.3. Bu məcəllənin 243-cü maddəsində nəzərdə tutulan hallarda torpaq sahəsindən istifadə hüququnu binanın, qurğunun və digər daşınmaz əmlakın mülkiyyətçisi də əldə edə bilər.

241.4. Hüquqi şəxs yenidən təşkil edilərkən ona mənsub torpaq sahəsindən istifadə hüququ onun hüquq varisinə keçir.

**Maddə 359. Əqdlərdə təmsilçilik anlayışı**

359.1. Əqd təmsilçi vasitəsilə də bağlana bilər. Bir şəxsin (təmsilçinin) etibarnaməyə, qanunun göstərişinə və ya buna vəkil edilmiş dövlət və ya bələdiyyə orqanının aktına əsaslanan səlahiyyətə görə başqa şəxs (təmsil edilən) adından bağladığı əqd təmsil edilənin mülki hüquq və vəzifələrini bilavasitə yaradır, dəyişdirir və onlara xitam verir. Səlahiyyət həmçinin təmsilçinin fəaliyyət göstərdiyi şəraitdən də (pərakəndə ticarətdə satıcı, kassir və i.a.) bəlli ola bilər.

359.2. Özgə mənafeyi üçün olsa da, öz adından fəaliyyət göstərən şəxslər (kommersiya vasitəçiləri, müflisləşmə zamanı müsabiqə idarəçiləri, vərəsəlik zamanı vəsiyyət icraçıları və i.a.), habelə gələcəkdə mümkün ola biləcək əqdlər barəsində danışıqlara başlamağa vəkil edilmiş şəxslər təmsilçi deyildirlər.

359.3. Təmsilçi təmsil edilən adından şəxsən özü barəsində əqdlər bağlaya bilməz. O həmçinin kommersiya təmsilçiliyi halı və qiymətli kağızlar bazarında brokerlik halı istisna olmaqla, eyni zamanda təmsilçisi olduğu şəxs barəsində bu cür əqdlər bağlaya bilməz.

359.4. Xarakterinə görə yalnız şəxsən bağlana bilən əqdlərin, eləcə də bu məcəllədə göstərilən digər əqdlərin təmsilçi vasitəsilə bağlanmasına yol verilmir.

**Maddə 384. İddia müddətinin şamil edilmədiyi tələblər**

384.0. İddia müddəti aşağıdakılara şamil edilmir:

384.0.1. şəxsi qeyri-əmlak hüquqlarının və digər qeyri-maddi nemətlərin müdafiəsi haqqında tələblər;

384.0.2. əmanətlərin verilməsi haqqında əmanətçilərin banka tələbləri;

384.0.3. fiziki şəxsin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzinin ödənilməsi haqqında tələblər. Lakin bu cür zərərin əvəzinin ödənilməsi hüququnun əmələ gəldiyi andan üç il bitdikdən sonra irəli sürülmüş tələblər ən çoxu iddia irəli sürülməzdən əvvəlki üç il üçün ödənilir;

384.0.4. mülkiyyətçinin və ya digər sahibin onun hüququnun hər cür pozuntularının aradan qaldırılması haqqında tələbləri, özü də bu pozuntular sahiblikdən məhrumetmə ilə birləşdirilmiş olmasa belə;



384.0.5. dövlət və ya bələdiyyə orqanının və ya onların vəzifəli şəxslərinin əmlaka sahiblik, ondan istifadə və ya ona dair sərəncam üzrə mülkiyyətçinin hüquqlarını pozmuş aktının etibarsız sayılması haqqında mülkiyyətçinin tələbləri;

384.0.6. bu məcəllə ilə müəyyənləşdirilmiş hallarda digər tələblər.

**Maddə 545. Tələblərin əvəzləşdirilməsinin yolverilməzliyi**

545.0. Aşağıdakı hallarda öhdəliklərin əvəzləşdirilməsinə yol verilmir:

545.0.1. tələblərin əvəzləşdirilməsi razılaşma yolu ilə əvvəlcədən istisna edilmişsə;

545.0.2. öhdəliyin predmetinə tutmanı yönəltmək olmazsa və ya öhdəliyin predmeti yaşayış vasitəsidirsə;

545.0.3. öhdəlik sağlamlığa vurulan zərərin əvəzinin ödənilməsini nəzərdə tutursa;

545.0.4. digər tərəfin ərizəsi ilə tələbə iddia müddəti tətbiq edilməli olduqda və bu müddət keçdikdə;

545.0.5. alimentlərin tutulması ilə bağlı olduqda;

545.0.6. bu, Azərbaycan Respublikasının və ya bələdiyyənin tələbidirsə; digər tərəfin qarşılıqlı əvəzləşdirmə tələbi hansı orqanın vəsaitindən ödənilməlidirsə, öhdəliyin də həmin orqanın xeyrinə icra edilməli olduğu hallar istisna təşkil edir.

545.0.7. bu məcəllədə nəzərdə tutulmuş digər hallarda.

**Maddə 557. Dövlət və ya bələdiyyə orqanının aktına əsasən öhdəliyin xitamı**

557.1. Dövlət və ya bələdiyyə orqanının qəbul etdiyi akt nəticəsində öhdəliyin icrası tamamilə və ya qismən qeyri-mümkün olduqda, öhdəliyin icrası müddəti uzadıldıqda öhdəliyə tamamilə və ya müvafiq hissədə xitam verilir. Bu halda dövlət və ya bələdiyyə vurulmuş ziyanla əlaqədar verilə bilən iddialar üzrə reqressant qismində çıxış edir və bunun nəticəsində zərər çəkmiş tərəflər bu məcəllənin 19 və 22-ci maddələrinə uyğun olaraq zərərin əvəzinin ödənilməsini tələb edə bilərlər.

557.2. Öhdəliyin xitamı üçün əsas olmuş dövlət və ya bələdiyyə orqanının aktı müəyyənləşdirilmiş qaydada etibarsız sayıldıqda, əgər tərəflərin razılaşmasından və ya öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə və öhdəliyin icrasına kreditorun marağı itməyibsə, öhdəlik bərpa edilir.

**Maddə 706. Torpaq icarəsi müqaviləsinin məzmunu**

706.1. Torpaq icarəsi müqaviləsinə əsasən icarəyə dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan bütün kateqoriyalara aid torpaqlar verilə bilər.

706.2. Torpaqlar torpaq qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada mülkiyyətçilərin və ya onların vəkil etdiyi orqanların qərarı (razılığı) ilə bilavasitə və ya torpaq müsabiqələri və ya hərracları vasitəsi ilə icarəyə verilə bilər.

706.3. Torpaq icarəsi müqaviləsində icarəyə verilən torpaq sahəsinin ölçüsü, keyfiyyət kateqoriyası, təyinatı, icarənin müddəti, icarə haqqı, ödənilmə qaydaları, torpaqların istifadəsi, mühafizəsi və keyfiyyətinin yaxşılaşdırılması şərtləri, habelə torpaq qanunvericiliyi ilə və bu Məcəllə ilə müəyyənləşdirilmiş digər şərtlər nəzərdə tutula bilər.

706.4. Torpaq icarəsi haqqında müqavilələrə bu Məcəllənin 700.1, 701, 702 və 703-cü maddələri, habelə bu paraqrafın müddəaları tətbiq edilir.

**Maddə 710. Torpaq icarəsi haqqı**

710.1. Torpaq icarəsi haqqı tərəflərin razılığı ilə müəyyənləşdirilir.

710.2. Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların icarə haqqının aşağı həddi onların təyinatından, sahəsindən, coğrafi yerləşməsindən və keyfiyyətindən asılı olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş normativlər əsasında müəyyənləşdirilir.

710.3. İcarə haqqının ödənilməsi formaları və qaydaları torpaq icarəsi müqaviləsi ilə müəyyənləşdirilir.

**Maddə 744. Borc alanın müqaviləni ləğv etməyə xüsusi hüququ**

744.1. Borc alan müəyyən müddət üçün sabit faizlərin şərtləşdirildiyi borc müqaviləsini aşağıdakı hallarda tamamilə və ya qismən ləğv edə bilər:

744.1.1. faizlərlə bağlılığa borcun qaytarılması üçün müəyyənləşdirilmiş müddət çatanadək xitam verildikdə və faiz dərəcəsi haqqında heç bir yeni razılaşma qəbul edilmədikdə - ləğvetmə haqqında bir aylıq xəbərdarlıq müddətini gözləməklə, ən tezi faizlərlə bağlılığa xitam verilən günün sonunda qüvvəyə minməklə;

744.1.2. faiz dərəcəsinin il də daxil olmaqla müəyyən zaman hissələri üçün razılaşdırılması şərtləşdirildikdə – ləğvetmə haqqında bir aylıq xəbərdarlıq müddətini gözləməklə, müvafiq olaraq yalnız faizlərlə bağlılığa xitam verilən günün sonunda qüvvəyə minməklə;

744.1.3. borc fiziki şəxsə verildikdə – ləğvetmə haqqında üç aylıq xəbərdarlıq müddətini gözləməklə, lakin borc alındıqdan sonra doqquzuncu ayın axırından tez olmayaraq qüvvəyə minməklə; əgər borc torpağa sahibliklə bağlı hüquqla təmin edilmişdirsə və ya tamamilə və ya başlıca olaraq sənətkarlıq şəklində və ya peşəkarlıq qaydasında müstəqil fəaliyyətin həyata keçirilməsi üçün nəzərdə tutulmuşdursa;

744.1.4. hər bir halda borc alındıqdan on il sonra ləğvetmə haqqında altı aylıq xəbərdarlıq müddətini gözləməklə. Əgər borc alındıqdan sonra onun qaytarılması müddəti və ya faiz dərəcəsi yenidən şərtləşdirilirsə, həmin razılaşmanın bağlanma anı ödəniş müddətini əvəz edir.

744.2. Borclu faiz dərəcəsi dəyişən borc müqaviləsini ləğvetmə haqqında üç aylıq xəbərdarlıq müddətini gözləməklə istənilən vaxt ləğv edə bilər.

744.3. Əgər borclu ləğvetmə haqqında xəbərdarlıq müddətinin qurtardığı günün sonunadək borc verənə borcu ödəməzsə, borc alan tərəfindən ləğvetmə natamam sayılır.

744.4. Borc alanın bu maddəyə uyğun ləğvetmə hüquqları müqavilə ilə məhdudlaşdırıla və ya mürəkkəbləşdirilə bilməz. Bu müddəa Azərbaycan Respublikası, onun dövlət orqanları və ya bələdiyyələr üçün borc müqavilələrinə tətbiq edilmir.

**Maddə 950. Əmanətin qaytarılmasının təmin edilməsi**

950.1. Banklar fiziki şəxslərin əmanətlərinin qaytarılmasını icbari sığorta yolu ilə, qanunda nəzərdə tutulan hallarda isə başqa üsullarla təmin etməlidirlər. Nizamnamə kapitalında iştirak paylarının və ya səhmlərin əlli faizindən çoxunun Azərbaycan Respublikasına və ya bələdiyyələrə mənsub olduğu bank tərəfindən fiziki şəxslərin əmanətlərinin qaytarılmasına, bundan əlavə, əmanətçinin banka qarşı tələbləri üzrə onların bu məcəllənin 453-cü maddəsində nəzərdə tutulmuş qaydada subsidiar məsuliyyəti ilə qarantiya verilir.

950.2. Bank tərəfindən hüquqi şəxslərin əmanətlərinin qaytarılması üsulları bank əmanəti müqaviləsi ilə müəyyənləşdirilir.

950.3. Bank əmanəti müqaviləsi bağlanarkən bank əmanətin qaytarılmasının necə təmin ediləcəyi barədə əmanətçiyə məlumat verməlidir.

950.4. Bank əmanətin qaytarılmasının təmin edilməsi üçün bank əmanəti müqaviləsində nəzərdə tutulmuş vəzifələri yerinə yetirmədikdə, habelə əmanətin qaytarılması üçün təminat itirildikdə və ya onun şərtləri pisləşdikdə, əmanətçi bankdan əmanət məbləğini dərhal qaytarmağı, bu məcəllənin 948.1-ci maddəsinə uyğun müəyyənləşdirilmiş miqdarda faizlər ödəməyi və vurulmuş zərərin əvəzini verməyi tələb edə bilər.

**Maddə 965. Hesabdan pul vəsaitinin silinməsinin növbəliyi**

965.1. Hesabdakı pul vəsaitinin məbləği hesaba qarşı irəli sürülən bütün tələbləri ödəməyə kifayət etdikdə hesabdan bu vəsaitin silinməsi müştərinin sərəncamlarının və hesabdan silməyə dair digər sənədlərin daxil olduğu ardıcıllıqla (təqvim ardıcıllığı) həyata keçirilir, bu şərtlə ki, qanunda ayrı qayda nəzərdə tutulmasın.

965.2. Hesabdakı pul vəsaiti müştərinin sərəncamlarını və ona qarşı irəli sürülmüş bütün tələbləri yerinə yetirməyə kifayət etmədikdə hesabdan pul vəsaiti aşağıdakı ardıcıllıqla silinir:

965.2.1. birinci növbədə həyata və ya sağlamlığa vurulmuş zərərin ödənilməsi haqqında tələblərin, habelə alimentlərin tutulması haqqında tələblərin yerinə yetirilməsi üçün hesabdan pul vəsaitinin köçürülməsini və ya verilməsini nəzərdə tutan icra sənədi üzrə hesabdan silmə həyata keçirilir;

965.2.2. ikinci növbədə əmək müqaviləsi ilə işləyən şəxslərə işdənçıxma müavinətlərinin və əməkhaqqının ödənilməsi üzrə və müəlliflik müqaviləsinə görə haqların ödənilməsi üzrə hesablaşmalar üçün pul vəsaitinin köçürülməsini və ya verilməsini nəzərdə tutan icra sənədi üzrə hesabdan silmə, habelə bu məqsədlər üçün verilmiş bank kreditlərinin hesabdan silinməsi həyata keçirilir;

965.2.3. üçüncü növbədə dövlət büdcəsinə, məcburi dövlət sosial sığorta haqları üzrə büdcədənkənar dövlət fonduna və bələdiyyələrin büdcələrinə ödənişləri nəzərdə tutan ödəniş sənədləri üzrə hesabdan silmə həyata keçirilir;

965.2.4. dördüncü növbədə verilmiş kreditlər üzrə bankın tələblərinin yerinə yetirilməsini nəzərdə tutan ödəniş sənədləri üzrə hesabdan silmə həyata keçirilir;

965.2.5. beşinci növbədə başqa pul tələblərinin yerinə yetirilməsini nəzərdə tutan icra sənədi üzrə hesabdan silmə həyata keçirilir;

965.2.6. altıncı növbədə təqvim ardıcıllığı qaydasında digər ödəniş sənədləri üzrə hesabdan silmə həyata keçirilir.

965.3. Bir növbəyə aid tələblər üzrə vəsait sənədlərin daxil olmasının təqvim ardıcıllığı qaydasında hesabdan silinir.

**Maddə 992-1. Qiymətli kağızlar bazarı və qiymətli kağızlar bazarının iştirakçıları**

992-1.1. Qiymətli kağızlar bazarı qiymətli kağızların emissiyası, buraxılması, tədavülü, ödənilməsi, sahibliyi, saxlanılması, onlarla əqdlərin bağlanması, digər əməliyyatların aparılması üzrə subyektlər arasında olan hüquqi və iqtisadi münasibətlərin məcmusudur.

992-1.2. Qiymətli kağızlar bazarının iştirakçıları qiymətli kağızların emissiyasında, tədavülündə, ödənilməsində, sahibliyində, saxlanılmasında, qiymətli kağızlarla əməliyyatların aparılmasında subyekt və ya tərəf kimi çıxış edən şəxslər, habelə qiymətli kağızlar bazarının tənzimlənməsini həyata keçirən dövlət və qeyri-kommersiya təşkilatları olan qiymətli kağızlar bazarının iştirakçılarının özünü tənzimləyən təşkilatlarıdır.

992-1.3. Emitent qiymətli kağızların emissiyasını qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirən şəxs, müvafiq icra hakimiyyəti orqanı və müvafiq qaydada buna səlahiyyətləndirilmiş dövlət orqanı və ya bələdiyyədir.

992-1.4. Qiymətli kağızlar bazarında peşəkar fəaliyyət hüquqi və ya fiziki şəxslər tərəfindən qiymətli kağızlar bazarında xüsusi razılıq (lisenziya) əsasında həyata keçirilən sahibkarlıq fəaliyyətidir.

992-1.14. Fond birjası qiymətli kağızlarla əqdlərin bağlanması üçün zəruri şəraitin yaradılması, onların bazar qiymətlərinin müəyyən edilməsi, onlar haqqında lazımi məlumatın yayılması üzrə peşəkar fəaliyyətdir.

992-1.15. İnvestor qiymətli kağızları mülkiyyətinə əldə etmiş şəxsdir.

992-1.16. Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləyən təşkilatı qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının könüllülük, qeyri-kommersiya prinsipləri əsasında fəaliyyət göstərən qeyri-hökumət təşkilatı olan ictimai birliyidir.

992-1.17. Qiymətli kağızlar bazarında qiymətlərlə manipulyasiya qiymətli kağızlar bazarının stabilliyinin pozulmasına səbəb ola bilən, qiymətli kağızlar bazarının iştirakçılarının qiymətli kağızlarla əqdlər üzrə qiymətli kağızların bazar qiymətinin hər hansı bir üsulla əvvəlcədən razılaşdırılmış, qəsdən edilmiş əməllər ilə süni olaraq dəyişdirilməsidir. Qiymətli kağızlar bazarında qiymətlərlə manipulyasiyaya yol verilmir.

**Maddə 997-1. Dövlət və bələdiyyə qiymətli kağızları**

997-1.1. Dövlət qiymətli kağızları müvafiq icra hakimiyyəti orqanı və müvafiq qaydada buna səlahiyyətləndirilmiş dövlət orqanı tərəfindən buraxılan qiymətli kağızlardır.



997-1.2. Bələdiyyə qiymətli kağızları bələdiyyə tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada buraxılan qiymətli kağızlardır.

**Maddə 1076-1. Təmin edilmiş istiqrazlar**

1076-1.1. İstiqrazlar üzrə öhdəliklər girovla, qarantiya ilə, həmçinin dövlət və ya bələdiyyə zəmanəti ilə təmin edilə bilər. Belə istiqrazlar təmin edilmiş istiqrazlara aid edilir.

1076-1.2. Təmin edilmiş istiqrazlar üzrə hüquqların keçməsi ilə təminat üzrə hüquqlar da keçmiş hesab olunur. İstiqrazlar üzrə hüquqların keçməsi ilə müşayiət olunmayan təminat üzrə hüquqların keçməsi etibarsızdır.

1076-1.3. Təmin edilmiş istiqrazlar üzrə təminat haqqında məlumat istiqrazların emissiyası haqqında qərarda və emissiya prospektində əks etdirilməlidir.

1076-1.4. Təmin edilmiş istiqrazlar üzrə təminat üçüncü şəxs tərəfindən təqdim edildikdə həmin şəxs istiqrazların emissiyası haqqında qərarı imzalamalıdır. Təminatı təqdim etmiş şəxs hüquqi şəxs olduqda istiqrazların emissiyası haqqında qərar həmin hüquqi şəxsin rəhbəri tərəfindən imzalanır və möhürlə təsdiq edilir.

1076-1.5. Təmin edilmiş istiqrazlar üzrə təminatın dəyəri istiqrazların ümumi nominal dəyərindən və ödəniləcək olan faizlərdən (olduqda) aşağı olmamalıdır.

1076-1.6. Təmin edilmiş istiqrazlar üzrə, emitent öhdəliklərini istənilən səbəbdən, o cümlədən müflisləşmə nəticəsində icra etmədiyi halda investorlar təminatın predmetini həmin emitentin digər kreditorlarına nisbətən üstün qaydada əldə etmək hüququna malikdirlər.

**Maddə 1076-5. Dövlət və bələdiyyə zəmanəti ilə təmin edilmiş istiqrazlar**

Dövlət və bələdiyyə zəmanəti ilə təmin edilmiş istiqrazların buraxılması qaydası müvafiq qanunvericiliklə tənzimlənir.

**Maddə 1078-10. Bələdiyyə qiymətli kağızlarının emissiyası**

Bələdiyyə qiymətli kağızlarının emissiyası və tədavülü qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 1100. Dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və onların vəzifəli şəxslərinin vurduqları zərər üçün məsuliyyət**

Dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və ya bu orqanların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri (hərəkətsizliyi) nəticəsində, o cümlədən dövlət orqanının və ya yerli özünüidarə orqanının qanuna və ya digər hüquqi akta uyğun gəlməyən aktının qəbul edilməsi nəticəsində fiziki və ya hüquqi şəxsə vurulmuş zərərin əvəzini Azərbaycan Respublikası və ya müvafiq bələdiyyə ödəməlidir.

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi

*(11 iyul 2000-ci il, № 906-IQ)*

**Maddə 45-1. Qeydə alınmış namizədin seçkilərdə iştirak etdiyi müddətdə xidməti vəzifələrinin icrasını dayandırmaması**

Dövlət və ya bələdiyyə xidmətində olan qeydə alınmış namizəd seçkilərdə iştirak etdiyi müddətdə xidməti vəzifələrinin icrasını dayandırmamasına görə -

səksən manatdan doxsan manatadək miqdarda cərimə edilir.

**Maddə 45-2. Seçici imzalarının toplanması qaydasının pozulması**

Mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslərin, dövlət və bələdiyyə orqanlarının, qurumların və təşkilatların seçici imzalarının toplanmasında iştirak etməsinə görə -

vəzifəli şəxslər səksən manatdan doxsan manatadək miqdarda, hüquqi şəxslər iki yüz əlli manatdan üç yüz manatadək miqdarda cərimə edilir.

**Maddə 199-2. Ailə kəndli təsərrüfatının uçota durmaması**

Ailə kəndli təsərrüfatının üzvləri tərəfindən bu təsərrüfatın müvafiq bələdiyyədə uçota durmasının təmin edilməməsinə görə -

beş manatdan on manatadək miqdarda cərimə edilir.

**Maddə 326-1. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın fəaliyyətinə mane olma**

326-1.1 Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan tərəfindən araşdırmaların aparılmasına maneçilik törədilməsinə görə -

vəzifəli şəxslər vəzifəli şəxslər otuz manatdan əlli manatadək miqdarda cərimə edilir.

326-1.2. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqana mütləq təqdim olunan bələdiyyə aktlarının surətlərinin vaxtında təqdim edilməməsinə görə -

vəzifəli şəxslər vəzifəli şəxslər iyirmi manatdan qırx manatadək miqdarda cərimə edilir.



# Azərbaycan Respublikasının Vergi Məcəlləsi

*(11 iyul, 2000-ci il, № 905-IQ)*

**Maddə 1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə tənzimlənən münasibətlər**

1.1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi Azərbaycan Respublikasında vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydalarını müəyyən edir.

1.2. Bu Məcəllə ilə Naxçıvan Muxtar Respublikasında və bələdiyyələrdə vergitutmanın ümumi əsasları və vergilər müəyyən edilir.

1.3. Bu məcəllə ilə müəyyən olunan anlayışlar və qaydalar vergitutma məqsədi ilə müəyyən edilir və müstəsna olaraq bu məcəllə və onun əsasında qəbul edilmiş digər normativ hüquqi aktlar ilə tənzimlənən vergitutma və vergi nəzarəti ilə bağlı münasibətlər hüdudlarında tətbiq olunur.

**Maddə 4. Azərbaycan Respublikasında vergi sistemi**

4.1. Azərbaycan Respublikasında aşağıdakı vergilər müəyyən edilir və ödənilir:

4.1.1. dövlət vergiləri;

4.1.2. muxtar respublika vergiləri;

4.1.3. yerli vergilər (bələdiyyə vergiləri).

4.2. Dövlət vergiləri dedikdə, bu məcəllə ilə müəyyən edilən və Azərbaycan Respublikasının bütün ərazisində ödənilməli olan vergilər nəzərdə tutulur.

4.3. Muxtar respublika vergiləri dedikdə, Naxçıvan Muxtar Respublikasında bu məcəlləyə müvafiq olaraq Naxçıvan Muxtar Respublikasının qanunları ilə müəyyən edilən və Naxçıvan Muxtar Respublikasında ödənilən vergilər nəzərdə tutulur.

4.4. Yerli vergilər (bələdiyyə vergiləri) dedikdə bu məcəllədə və müvafiq qanunla müəyyən edilən, bələdiyyələrin qərarlarına əsasən tətbiq edilən və bələdiyyələrin ərazilərində ödənilən vergilər nəzərdə tutulur. Bələdiyyələr tərəfindən tətbiq edilən digər məcburi ödənişlər müvafiq qanunla müəyyən edilir.

Yerli vergilərin (bələdiyyə vergilərinin) dərəcələri vergi qanunvericiliyində təsbit edilmiş hədlər daxilində müəyyən edilir. Vergi qanunvericiliyinə uyğun olaraq bələdiyyələr öz ərazilərində vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyaları-

nı yerli vergilərdən tam və ya qismən azad etmək, vergi dərəcəsini azaltmaq barədə qərar qəbul edə bilərlər.

4.5. Azərbaycan Respublikasında bu məcəlləyə uyğun olaraq xüsusi vergi rejimi tətbiq edilə bilər.

Xüsusi vergi rejimi dedikdə müəyyən dövr ərzində vergilərin hesablanması və ödənilməsinin xüsusi qaydası nəzərdə tutulur.

4.6. Bu məcəllə ilə nəzərdə tutulmayan vergilərin müəyyən edilməsinə yol verilmir.

**Maddə 5. Vergitutmanın formaları**

5.0. Vergi məbləğləri aşağıdakı formalarda tutulur.

5.0.1. bilavasitə mənbədən (verginin gəlir və ya mənfəət əldə edilməsinədək tutulması);

5.0.2. bəyannamə üzrə (verginin gəlir və ya mənfəət əldə edilməsindən sonra tutulması).

5.0.3. Bildiriş üzrə (vergitutma obyektinin dəyəri və sahəsi əsasında vergi orqanının və ya bələdiyyənin hesabladığı məbləğ üçün təqdim etdiyi tədyyiə bildirişi əsasında vergi ödəyicisi tərəfindən verginin ödənilməsi).

**Maddə 6. Dövlət vergiləri**

6.1. Dövlət vergilərinə aşağıdakılar aiddir:

6.1.1. fiziki şəxslərin gəlir vergisi:

6.1.2. hüquqi şəxslərin mənfəət vergisi (bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan başqa);

6.1.3. əlavə dəyər vergisi;

6.1.4. aksizlər;

6.1.5. hüquqi şəxslərin əmlak vergisi;

6.1.6. hüquqi şəxslərin torpaq vergisi;

6.1.7. yol vergisi;

6.1.8. mədən vergisi;

6.1.9. sadələşdirilmiş vergi.

6.2. Bu məcəllə ilə bütün dövlət vergilərinin dərəcələrinin ən yüksək hədləri müəyyən edilir.

6.3. Dövlət vergilərinin hər il üçün tətbiq olunan dərəcələri bu məcəllədə müəyyən edilən dərəcələrdən yüksək ola bilməz və hər il Azərbaycan Respublikasının dövlət büdcəsi haqqında qanun qəbul edilən zaman həmin dərəcələrə yenidən baxıla bilər.

**Maddə 8. Yerli vergilər (bələdiyyə vergiləri)**

8.1. Yerli vergilər (bələdiyə vergiləri) aşağıdakılardır:

8.1.1. fiziki şəxslərin torpaq vergisi;

8.1.2. fiziki şəxslərin əmlak vergisi;

8.1.3. yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi;



8.1.4. bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi.

8.2. Yerli vergilərin hesablanması və ödənilməsi qaydaları, vergi ödəyicilərinin və bələdiyyələrin vergi xidməti orqanlarının hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət, bələdiyyələrin vergi xidməti orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydaları müvafiq qanunvericiliklə müəyyən edilir.

**Maddə 11. Vergi anlayışı**

***Vergi*** - dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödənişdir.

**Maddə 20. Dövlət vergi orqanları və onların təyinatı**

20.1. Azərbaycan Respublikasında dövlət vergi orqanlarını müvafiq icra hakimiyyəti orqanı və bilavasitə ona tabe olan vergi orqanları təşkil edir.

Vergi orqanları öz səlahiyyətləri çərçivəsində hüquq-mühafizə orqanlarının səlahiyyətlərini həyata keçirirlər.

20.2. Vergi orqanları öz fəaliyyətini yerli dövlət hakimiyyəti orqanlarından asılı olmayaraq müstəqil həyata keçirirlər.

Vergi orqanları tərəfindən onların səlahiyyətləri daxilində qəbul edilən qərarlar bütün hüquqi və fiziki şəxslər üçün məcburidir.

20.3. Vergi orqanları məhkəmələrə iddia ərizələrinin verilməsi üçün dövlət rüsumunu ödəməkdən azaddırlar.

20.4. Vergi orqanları yerli vergilər (bələdiyyə vergiləri), habelə tutulması dövlət gömrük orqanlarının səlahiyyətlərinə aid edilmiş yol vergisi, ƏDV və aksiz istisna olmaqla, vergilərin tam və vaxtında ödənilməsinə nəzarəti həyata keçirirlər.

20.5. Bu məcəllə ilə nəzərdə tutulan hallarda vergi orqanlarının səlahiyyətlərini qanunla müəyyən edilmiş hallarda və qaydada yol vergisi və idxal-ixrac əməliyyatları sahəsində gömrük orqanları həyata keçirir.

20.6. Bu məcəllənin 20.5-ci maddəsində göstərilən orqanlar öz səlahiyyətləri daxilində bu məcəlləyə, Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə, digər qanunlara və onlara uyğun olaraq qəbul edilmiş qanunvericilik aktlarına əsasən fəaliyyət göstərirlər.

**Maddə 32. Vergi nəzarəti və onun formaları**

32.1. Vergi orqanları vergilərin tam və vaxtında yığılmasını təmin etmək məqsədi ilə vergi nəzarətini həyata keçirirlər. Vergi nəzarəti vergi ödəyicilərinin və vergitutma obyektlərinin uçotuna, habelə vergi qanunvericiliyinə riayət olunmasına vahid nəzarət sistemidir.

32.2. Vergi nəzarətini bu məcəllədə və Azərbaycan Respublikasının Gömrük Məcəlləsində nəzərdə tutulmuş hallarda və qaydada müvafiq icra hakimiyyəti orqanları həyata keçirirlər.

Yerli vergilərin (bələdiyyə vergilərinin) qanunvericiliyə uyğun olaraq hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət bələdiyyələrin vergi xidməti orqanları tərəfindən həyata keçirilir.

32.3. Vergi nəzarəti vergi orqanlarının və gömrük orqanlarının, onların vəzifəli şəxslərinin səlahiyyətləri hədlərində bu məcəlləyə, Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə və digər qanunvericilik aktlarına müvafiq olaraq həyata keçirilir.

32.4. Vergi orqanları vergi nəzarətini vergi ödəyicilərinin və vergitutma obyektlərinin uçotunu aparmaqla, uçot və hesabat məlumatlarını yoxlamaqla, vergi ödəyiciləri və digər şəxslər arasında sorğu aparmaqla, gəlir əldə etmək üçün istifadə olunan binalara baxış keçirtməklə və bu məcəllə ilə müəyyən edilmiş digər formalarda həyata keçirirlər.

**Maddə 33. Vergi ödəyicilərinin uçotu**

...

33.9. Yerli (bələdiyyə) vergilərinin ödəyicilərinin uçotu bələdiyyələrin vergi xidməti orqanı tərəfindən aparılır.

...

**Maddə 151. Cari vergi ödəmələri**

151.1. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Hər ödəmənin məbləği əvvəlki vergi ilində hesablanmış vergi məbləğinin 1/4 hissəsini təşkil edir.

151.2. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini bu rübdəki gəlirinin həcmini onun keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyənləşdirə bilər.

151.3. Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dək bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün bu məcəllənin 151.2-ci maddəsində nəzərdə tutulan metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı bu məcəllənin 151.1-ci maddəsində nəzərdə tutulan metodu tətbiq edir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda vergi orqanı birinci metodu tətbiq edir və həmin metod vergi ilinin sonunadək dəyişdirilmir.

151.4. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.



151.5. Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən hüquqi şəxslərin və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslərin, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyicilərinin (bundan sonra əvvəllər fəaliyyəti olmayan vergi ödəyiciləri) cari vergi ödəmələri aşağıda göstərilən qaydada həyata keçirilir:

151.5.1. Əvvəllər fəaliyyəti olmayan vergi ödəyicilərinin mənfəət vergisi və ya gəlir vergisi üzrə cari vergi ödəmələri təqvim ili ərzində rüblər üzrə artan yekunla bu Məcəllə ilə müəyyənləşdirilən müvafiq vergi dərəcələrinə əsasən hesablanır.

151.5.2. Cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalıdır.

151.5.3. Əvvəllər fəaliyyəti olmayan vergi ödəyiciləri rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidirlər.

151.5.4. Cari vergi ödəmələri bu məcəllənin 151.5.3-cü maddəsi ilə müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün əvvəllər fəaliyyəti olmayan vergi ödəyicisindən ödənilməmiş cari vergi ödəmələrinə görə bu məcəllənin 59-cu maddəsində nəzərdə tutulmuş qaydada faiz tutulur.

151.5.5. Bu məcəllənin 151.5.4-cü maddəsində müəyyən edilmiş faiz bu məcəlləyə müvafiq olaraq aparılmış vergi yoxlaması nəticəsində aşkar edilmiş vaxtında ödənilməmiş vergilər üzrə cari vergi ödəmələrinə münasibətdə bütün ötmüş müddətə ancaq bir ildən çox olmamaq şərti ilə tətbiq edilir.

151.5.6. Cari vergi ödəmələri vergi ili üçün əvvəllər fəaliyyəti olmayan vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

151.5.7. Sadələşdirilmiş verginin ödəyiciləri əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyata alındıqdan sonra cari vergi ödəmələrinin məbləği bu məcəlləyə uyğun olaraq müəyyən edilir.

151.5.8. Əvvəllər fəaliyyəti olmayan vergi ödəyiciləri bu məcəllənin 16.2-ci və 151.5.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq arayışı təqdim etmədikləri halda, vergi orqanı cari vergi ödəmələrinin məbləğini bu məcəllənin 67-ci maddəsinə uyğun olaraq vergini əlaqəli məlumatlar əsasında hesablayır və vergi ödəyicisinə müvafiq bildiriş göndərir.

151.6. Cari vergi ödəmələri hesabat ili başa çatdıqdan sonra yenidən haqq-hesab edilir və bu zaman hesablanmış cari vergi məbləği hesabat üzrə vergi məbləğindən çox olduğu halda artıq hesablanmış cari vergi və ona uyğun faiz məbləğləri azaldılır.

**Maddə 152. İlin yekunlarına görə verginin ödənilməsi**

152.1. Vergi ödəyiciləri vergi ili üçün bəyannamənin verilməsinin müəyyən edilmiş vaxtınadək son hesablamanı aparmalı və vergini ödəməlidirlər.

152.2. Bələdiyyələrin mülkiyyətində olan müəssisələr mənfəət vergisini yerli büdcəyə, digər müəssisələr isə dövlət büdcəsinə ödəyir. Fiziki şəxslər gəlir vergisini dövlət büdcəsinə ödəyirlər.

**Maddə 200. Fiziki şəxslərdən əmlak vergisinin hesablanması və ödənilməsi qaydası**

200.1. Binalar üzrə əmlak vergisi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada binaların inventar dəyərinə əsasən hesablanır.

Fiziki şəxslərin xüsusi mülkiyyətində olan binalara görə əmlak vergisi onların yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən hesablanır.

Cari vergi ödəmələri bu Məcəllənin 201.3-cü maddəsi ilə müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən ödənilməmiş cari vergi ödəmələrinə görə bu Məcəllənin 59-cu maddəsində nəzərdə tutulmuş qaydada faiz tutulur.

Əmlak vergisi üzrə cari vergi ödəmələri hesabat ili başa çatdıqdan sonra yenidən haqq-hesab edilir və bu zaman hesablanmış cari vergi məbləği hesabat üzrə vergi məbləğindən çox olduğu halda artıq hesablanmış cari vergi və ona uyğun faiz məbləğləri azaldılır.

200.2. Bir neçə sahibi olan bina üzrə əmlak vergisi həmin binanın hər sahibi üçün onun binanın dəyərindəki payına uyğun olaraq, bu Məcəllənin 200.1-ci maddəsində müəyyən edilmiş qaydaya uyğun olaraq hesablanır.

200.3. Su və hava nəqliyyat vasitələrinə görə vergi onların qeydiyyatını həyata keçirən təşkilatlar tərəfindən verilən məlumatlar əsasında hər il yanvarın 1-i vəziyyətinə hesablanılır. Belə qeydiyyatın olmadığı hallarda, həmin əmlakın sahibi mülkiyyətində olan su və hava nəqliyyatı vasitələri barədə lazımi məlumatları (buraxılış ili, alış qiyməti və texniki xarakteristikası) əks etdirən sənədləri hər il yanvar ayının 1-dək müvafiq orqana təqdim edir.

Bir neçə fiziki şəxsə məxsus olan su və hava nəqliyyatı vasitəsinə görə vergi həmin nəqliyyat vasitəsini öz adına qediyyatdan keçirmiş şəxsdən tutulur.

200.4. Bələdiyyələr verginin ödənilməsi barədə tədiyyə bildirişini vergi ödəyicilərinə avqustun 1-dən gec olmayaraq verməlidirlər.

200.5. Cari il üçün verginin məbləği bərabər hissələrlə – həmin il avqustun 15-dək və noyabrın 15-dək ödənilir. Əmlak vergisi əmlakın əvvəlki sahibi tərəfindən ödənilmədiyi hallarda, vergi bu maddə ilə müəyyən edilmiş ödəmə vaxtında həmin əmlakın sahibi tərəfindən ödənilir.

200.6. Fiziki şəxslərdən əmlak vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir.

**Maddə 203. Torpaq vergisi**

203.1. Torpaq vergisi torpaq mülkiyyəçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq torpaq sahəsinə görə hər il sabit tədiyyə şəklində hesablanır.



203.2. Rezident və qeyri-rezident fiziki şəxslər, habelə rezident və qeyri-rezident müəssisələr torpaq sahələri barədə özlərinin mülkiyyət və istifadə hüquqlarını təsdiq edən sənədləri aldıqdan sonra fiziki şəxslər və bələdiyyə müəssisələri bələdiyyələrdə, digər müəssisələr isə vergi orqanında 1 ay ərzində uçota durmalıdırlar.

**Maddə 208. Torpaq vergisinin hesablanması və ödənilməsi qaydaları**

208.1. Torpaq vergisi torpaq barəsində mülkiyyət və ya istifadə hüququnu təsdiq edən sənədlər əsasında müəyyənləşdirilir. Tikililərin və qurğuların altında olan torpaqlara, həmçinin obyektlərin sanitariya mühafizəsi üçün zəruri olan torpaq sahələrinə görə torpaq vergisi tutulur.

208.2. Torpaq vergisini müəssisələr torpaq sahələrinin ölçüsünə və torpaq verg isinin dərəcələrinə əsasən illik olaraq hesablayır və mayın 15-dən gec olmayaraq hesablamaları vergi orqanına verirlər. Bu qaydada hesablanmış torpaq vergisinin məbləği bu məcəllənin 119-cu maddəsi ilə məhdudlaşdırılmayan gəlirdən çıxılmalara aid edilir.

208.3. Müvafiq orqanlar tərəfindən hər il iyulun 1-dək fiziki şəxslərə torpaq vergisi hesablanılır və tədiyyə bildirişləri avqustun 1-dən gec olmayaraq onlara çatdırılır.

208.4. Ayrılıqda bir neçə hüquqi və ya fiziki şəxsin mülkiyyətində və ya istifadəsində olan tikililərin altında qalan və ya onlara xidmət üçün ayrılmış torpaq sahələrinə görə vergi onlara məxsus tikili sahələrinə mütənasib surətdə hesablanır.

208.5. Torpaq vergisi bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq ödənilir. Torpaq vergisi torpağın əvvəlki sahibi tərəfindən ödənilmədiyi halda, vergi bu maddə ilə müəyyən edilmiş ödəmə vaxtına həmin torpağın sahibi tərəfindən ödənilir.

208.6. Müəssisələrin torpaq vergisi dövlət büdcəsinə, fiziki şəxslərin torpaq vergisi isə yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilir.

**Maddə 217. Verginin hesablanması qaydası, ödənilməsi müddəti və bəyannamənin verilməsi**

217.1. Mədən vergisi bu məcəllənin 216.1-ci maddəsində müəyyən edilmiş faydalı qazantılar üzrə yerin təkindən çıxarılmış faydalı qazıntıların topdansatış qiymətinə, 216.2-ci maddəsində müəyyən edilmiş faydalı qazıntılar üzrə isə yerin təkindən çıxarılmış faydalı qazıntıların hər kubmetrinə müvafiq vergi dərəcələrini tətbiq etməklə hesablanır.

217.2. Hesabat ayı üçün mədən vergisinin məbləği faydalı qazıntıların çıxarıldığı aydan sonrakı 20-dən gec olmayaraq ödənilir.

217.3. Mədən vergisinin ödəyiciləri hər ay hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq vergi orqanına, yerli büdcələrə daxil olan vergisi üzrə isə bələdiyyələrə mədən vergisinin bəyannaməsini verirlər.

217.4. Bu maddədə müəyyən edilən qaydada hesablanmış verginin məbləği bu məcəllənin 119-cu maddəsi ilə məhdudlaşdırılmayan gəlirdən çıxılmalara aid edilir.

217.5. Mədən vergisi (yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi istisna olmaqla) dövlət büdcəsinə ödənilir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilir.

Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

217.6. Xam neftin və qazın hasilatı zamanı bu məcəllənin 217.1-ci maddəsinə uyğun olaraq mədən vergisi hesablanarkən, hasil edilmiş neftin və qazın miqdarından texnoloji proseslə əlaqədar quyuya geri vurulan neftin və qazın miqdarı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən normativlər əsasında çıxılır.

## Azərbaycan Respublikasının Seçki Məcəlləsi

*(27 may 2003-cü il)*

**Maddə 2. Seçkilərdə və referendumda iştirakın prinsipləri**

2.1. Azərbaycan Respublikasının vətəndaşları seçkilərdə və referendumda ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə iştirak edirlər.

2.2. Azərbaycan Respublikası vətəndaşlarının seçkilərdə və referendumda iştirakı azad və könüllüdür. Seçkilərdə və ya referendumda iştirak edib-etməməyə məcbur etmək məqsədi ilə heç kəsin Azərbaycan Respublikası vətəndaşına təzyiq göstərmək hüququ yoxdur və heç kəs onun öz iradəsini azad ifadə etməsinə mane ola bilməz.

2.3. Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluq idarələri seçkilərin və referendumun keçirilməsi zamanı Azərbaycan Respublikasından kənarda yaşayan Azərbaycan Respublikası vətəndaşlarının Azərbaycan Respublikası Konstitusiyasının 3-cü və 56-cı maddələrində nəzərdə tutulan hüquqlarının həyata keçirilməsinə kömək göstərməlidirlər.

2.4. Seçkilər referendumla eyni gündə keçirilə bilməz. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının seçkiləri və Azərbaycan Respublikası Prezidentinin seçkiləri eyni gündə keçirilə bilməz. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının seçkiləri və bələdiyyə seçkiləri eyni gündə keçirilə bilməz. Azərbaycan Respublikası Prezidentinin seçkiləri və bələdiyyə seçkiləri eyni gündə keçirilə bilməz.

2.5. Seçkilərin və referendumun hazırlanması və keçirilməsi, səslərin hesablanması, səsvermənin yekunlarının, seçkilərin və referendumun nəticələrinin müəyyən edilməsi açıq və aşkar həyata keçirilir.



2.6. Seçkilərdə (referendumda) iştirak edənlər aşağıdakı şərtlərə riayət etməlidirlər:

2.6.1. mətbuat azadlığına hörmət bəsləmək;

2.6.2. öz peşə fəaliyyəti ilə məşğul olan kütləvi informasiya vasitələrinin nümayəndələrinin işinə mane olmamaq, namizədlərin, partiyaların (siyasi partiyalar bloklarının) seçki (referendum) kampaniyalarına müdaxilə etməmək və onu pozmamaq;

2.6.3. seçkiqabağı təşviqat materiallarının, referendumqabağı təşviqat materiallarının yayılmasına mane olmamaq;

2.6.4. seçkiqabağı (referendumqabağı) təşviqat plakatlarını və digər bu cür təşviqat materiallarını məhv etməmək və korlamamaq;

2.6.5. seçkiqabağı (referendumqabağı) kütləvi tədbirlərin keçirilməsinə mane olmamaq;

2.6.6. seçkilərin (referendumun) azad, sərbəst, dinc və mütəşəkkil keçirilməsi üçün seçki (referendum) orqanları ilə və onların vəzifəli şəxsləri ilə əməkdaşlıq etmək;

2.6.7. seçicilərin öz iradəsini azad və sərbəst bildirilməsinə maneçilik törətməmək;

2.6.8. səlahiyyətli şəxslərə və müşahidəçilərə hörmət bəsləmək və onlarla əməkdaşlıq etmək;

2.6.9. səsvermənin gizliliyini saxlamaq və saxlanılmasına kömək göstərmək;

2.6.10. seçiciləri qeyri-qanuni hərəkətlər yolu ilə öz tərəfinə çəkməmək;

2.6.11. seçki (referendum) komissiyalarının fəaliyyətlərinə əsassız müdaxilə etməmək, səslərin verilməsi və ya səslərin hesablanması prosesini pozmamaq;

2.6.12. seçkilərin (referendumun) qanuni təsdiqlənmiş nəticələrinə hörmət etmək, seçkilərlə (referendumla) bağlı hər bir şikayəti səlahiyyətli orqana təqdim etmək və həmin orqanın bu şikayətlə bağlı qərarına riayət etmək;

2.6.13. hədə-qorxu və böhtan xarakterli və ya zorakılığa çağıran çıxışlar etməmək və bu cür materiallar yaymamaq;

2.6.14. seçicilərə mükafat təklif etməmək, onları cəza ilə hədələməmək;

2.6.15. dövlət resurslarından, bələdiyyə və digər ictimai resurslardan bu məcəllə ilə nəzərdə tutulmamış hallarda istifadə etməmək;

2.6.16. təzyiq göstərmək ilə və ya bəxşiş təklif etmək yolu və ya digər qanunazidd üsullarla seçiciləri səs verməyə, səsvermədən çəkinməyə sövq etməmək;

2.6.17. təzyiq göstərmək ilə və ya bəxşiş təklif etmək yolu və ya digər qanunazidd üsullarla seçiciləri referendum üzrə təşviqat qruplarında iştirak etməyə və ya iştirak etməməyə, öz namizədliklərini irəli sürməyə və ya irəli sürməməyə, namizədliklərini geri götürməyə və ya geri götürməməyə, seçkiqabağı (referendumqabağı) təşviqatda iştirak etməyə və ya iştirak etməməyə məcbur etməmək;

2.6.18. heç bir vəzifəli şəxsin referenduma çıxarılan məsələnin, namizədin dəstəklənməsinə və ya dəstəklənməməsinə yönəldilən köməyindən və ya fəaliyyətindən istifadə etməmək.

2.7. Bu məcəllənin 2.6.2-ci - 2.6.5-ci, 2.6.7-ci, 2.6.10-cu, 2.6.11-ci, 2.6.13-cü, 2.6.18-ci maddələrinin tələblərinin pozulması Azərbaycan Respublikası Cinayət Məcəlləsində və ya İnzibati Xətalar Məcəlləsində göstərilən məsuliyyətə səbəb olur.

**Maddə 3. Ümumi seçki hüququ**

İrqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və başqa ictimai birliklərə mənsubiyyətindən və ya digər statusundan asılı olmayaraq Azərbaycan Respublikası vətəndaşlarının seçmək, seçilmək və referendumda iştirak etmək hüququ vardır.

**Maddə 4. Bərabər seçki hüququ**

4.1. Vətəndaşlar seçkilərdə və referendumda bərabər əsaslarla iştirak edirlər.

4.2. Hər bir səsvermə zamanı hər bir vətəndaşın bir səsi vardır.

4.3. Vətəndaşların hər bir səsi eyni hüquqi qüvvəyə malikdir.

**Maddə 11-1. Seçkilərin (referendumun) gedişinə qanunsuz müdaxiləyə yol verilməməsi**

11-1.1. Hüquqi şəxslərin, dövlət orqanlarının və bələdiyyələrin vəzifəli şəxslərinin, digər fiziki şəxslərin seçkilərin (referendumun) gedişinə qanunsuz müdaxilə etmələri qadağandır.

11-1.2. Vətəndaşların seçkidə (referendumda) iştirak hüquqlarının həyata keçirilməsinə mane olma, vətəndaşı namizədin lehinə imza atmağa məcbur etmə və ya onun səs verməsinə mane olma, seçki komissiyalarının işinə müdaxilə etmə və ya təsir göstərmə, seçki (referendumda iştirak) sənədlərinin saxtalaşdırılması və ya saxta sənədlərin təqdim edilməsi, bilə-bilə səslərin düzgün hesablanmaması, səsvermənin nəticələrinin düzgün müəyyənləşdirilməməsi və ya səsvermənin gizliliyinin pozulması, başqa şəxslərin yerinə səs verilməsi, bir şəxs tərəfindən seçki qutusuna birdən artıq seçki bülleteninin salınması Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

# *VII BÖLMƏ*

# Bələdiyyə seçkiləri

## *Otuz dördüncü fəsil*

## Bələdiyyə seçkilərinə aid ümumi müddəalar

**Maddə 210. Bələdiyyə seçkilərinin əsasları**

210.1. Azərbaycan Respublikasında yerli özünüidarəni həyata keçirən bələdiyyələrin üzvləri nisbi çoxluq sistemi əsasında çoxmandatlı seçki dairələri üzrə seçilirlər.



210.2. Seçki əraziləri üzrə aşağıdakı sayda bələdiyyə üzvləri seçilir:

210.2.1. əhalisi 500-dən az olan ərazilərdə – 5 bələdiyyə üzvü;

210.2.2. əhalisi 500-dən 999-dək olan ərazilərdə – 7 bələdiyyə üzvü;

210.2.3. əhalisi 1000-dən 4.999-dək olan ərazilərdə – 9 bələdiyyə üzvü;

210.2.4. əhalisi 5000-dən 9.999-dək olan ərazilərdə – 11 bələdiyyə üzvü;

210.2.5. əhalisi 10000-dən 19.999-dək olan ərazilərdə – 13 bələdiyyə üzvü;

210.2.6. əhalisi 20000-dən 49.999-dək olan ərazilərdə – 15 bələdiyyə üzvü;

210.2.7. əhalisi 50000-dən 99.999-dək olan ərazilərdə – 17 bələdiyyə üzvü;

210.2.8. əhalisi 100 000-dən 299.999-dək olan ərazilərdə – 19 bələdiyyə üzvü.

**Maddə 211. Bələdiyyələrin səlahiyyət müddəti**

211.1. Bələdiyyələrin səlahiyyət müddəti 5 ildir.

211.2. Bələdiyyələrin səlahiyyət müddətinin hesablanması səsvermənin keçirildiyi gündən başlanır və yeni seçilən bələdiyyələrin birinci iclas günü başa çatır.

211.3. Bələdiyyə üzvlərinin səlahiyyətləri yalnız bələdiyyənin səlahiyyət müddətində qüvvədədir.

211.4. Ölkə üzrə bələdiyyə seçkilərinin keçirilməsinə 6 aydan az müddət qalarsa, yeni yaradılmış, birləşmiş, yaxud ayrılmış bələdiyyələrə seçkilər ölkə üzrə bələdiyyələrə seçkilər zamanı keçirilir.

**Maddə 212. Bələdiyyələrə üzv seçilmək hüququ**

Seçkilər günü 21 yaşı tamam olan (seçki günü də daxil olmaqla) və yaşı 21-dən yuxarı olan və müvafiq seçki dairəsində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları bələdiyyələrə üzv seçilə bilərlər.

**Maddə 213. Bələdiyyə seçkilərinin təyin edilməsi**

213.1. Bələdiyyə seçkilərini bu məcəllənin 211.1-ci və 211.2-ci maddələrinə uyğun olaraq Mərkəzi Seçki Komissiyası təyin edir.

213.2. Bələdiyyə seçkilərinin təyin edilməsi barədə qərar onun qəbul edildiyi gündən ən geci 2 gün ərzində kütləvi informasiya vasitələrində rəsmi dərc edilməlidir.

## *Otuz beşinci fəsil*

## Bələdiyyə üzvlüyünə namizədlərin irəli sürülməsi qaydası

**Maddə 214. Bələdiyyə üzvlüyünə namizədlərin irəli sürülməsi**

214.1. Seçki dairəsi üzrə bələdiyyə üzvlüyünə namizədləri siyasi partiyalar, siyasi partiya blokları, həmin seçki dairəsində daimi yaşayan seçki hüququ olan Azərbaycan Respublikasının vətəndaşları bu məcəllənin 53 və 54-cü maddələrinə uyğun olaraq irəli sürə bilərlər.

214.2. Bələdiyyələrə təkrar seçkilərdə bələdiyyə üzvlüyünə namizədlər bu seçkilərin təyin edilməsi haqqında qərar rəsmi dərc olunduqdan sonra irəli sürülür.

214.3. Bələdiyyələrə əlavə seçkilərdə bələdiyyə üzvlüyünə namizədlər bu məcəllənin 213.2-ci maddəsində göstərilən müddətdən sonra irəli sürülür.

214.4. İrəli sürülən namizəd yalnız bir bələdiyyəyə namizəd irəli sürülməsinə razılıq verə bilər.

214.5. Bələdiyyə üzvlüyünə namizəd yalnız bir bələdiyyə üzvlüyünə namizəd kimi irəli sürülə və qeydiyyata alına bilər.

214.6. Bələdiyyə üzvlüyünə namizədlərin irəli sürülməsinədək dairə seçki komissiyasının yaradılması başa çatmayıbsa, namizədin irəli sürülməsi haqqında bildiriş, müvafiq namizədlərin razılıq ərizələri və digər sənədlər Mərkəzi Seçki Komissiyasına göndərilir. Mərkəzi Seçki Komissiyası göstərilən sənədləri dairə seçki komissiyasının təşkilindən və sədrinin seçilməsindən sonra ona təqdim edir.

**Maddə 215. Bələdiyyə üzvlüyünə namizədin müdafiəsi üçün seçici imzalarının toplanması qaydası**

215.1. Müvafiq seçki ərazisi üzrə bələdiyyə üzvlüyünə namizəd kimi qeydə alınmaq üçün namizədliyi irəli sürülmüş hər bir vətəndaş:

215.1.1. əhalisi 99.999-dan çox olan ərazidə – 150;

215.1.2. əhalisi 49.999-dan çox olan ərazidə – 100;

215.1.3. əhalisi 19.999-dan çox olan ərazidə – 75;

215.1.4. əhalisi 9.999-dan çox olan ərazidə – 50;

215.1.5. əhalisi 4.999-dan çox olan ərazidə – 30;

215.1.6. əhalisi 4.999-dan az olan ərazidə – 15 seçici imzası toplamalıdır.

215.2. Seçicilərin bələdiyyə üzvlüyünə bir neçə namizədin müdafiəsi üçün imza etmək hüququ vardır.

215.3. Seçicilərin imzaları bu məcəllənin 56-cı və 57-ci maddələrində göstərilən qaydada toplanır.

## *Otuz altıncı fəsil*

## Bələdiyyə üzvlüyünə qeydə alınmış namizədlər

**Maddə 216. Bələdiyyə üzvlüyünə namizədin qeydə alınması**

216.1. Bələdiyyə üzvlüyünə namizədlər bu məcəllənin 60-cı maddəsində göstərilən qaydada qeydə alınırlar.

216.2. Bir şəxsin birdən çox bələdiyyə üzvlüyünə namizəd kimi qeydə alınmasına yol verilmir.

216.3. Bu məcəllənin 214.5-ci maddəsində göstərilən qaydalar pozulduqda bələdiyyə üzvlüyünə namizədin əvvəlki qeydiyyatı etibarlı sayılır, qeydiyyat haqqında nisbətən gec qəbul edilmiş qərar isə müvafiq dairə seçki komissiyasının qərarı ilə ləğv edilir.

216.4. Qeydə alınmış bələdiyyə üzvlüyünə namizədlərin fəaliyyəti bu məcəllənin 69-71-ci maddələri ilə tənzimlənir.



216.5. Bələdiyyələr üzrə qeydə alınmış namizədlərin siyahısı səsvermə gününə azı 25 gün qalmış müvafiq dairə seçki komissiyaları tərəfindən bu məcəllənin 77.3-cü və 77.4-cü maddələrində göstərilən dövri nəşrlərdə dərc edilir.

**Maddə 217. Bələdiyyə seçkilərinin təxirə salınması**

217.1. Bu məcəllənin 58.1-ci maddəsində göstərilən müddətdə bələdiyyə üzrə heç bir namizəd qeydə alınmayıbsa və ya bu məcəllənin 210-cu maddəsində göstərilən bələdiyyə üzvlərinin sayından az sayda namizəd qeydə alınıbsa, əlavə namizədlərin irəli sürülməsi və növbəti seçki hərəkətlərinin həyata keçirilməsi məqsədi ilə müvafiq bələdiyyə üzrə seçkilər Mərkəzi Seçki Komissiyası tərəfindən 2 ay müddətinə təxirə salınır.

217.2. Səsvermə gününədək bələdiyyə üzrə qeydə alınmış namizəd qalmazsa, yaxud bələdiyyə üzvlüyünə bir yerə qeydə alınmış bir namizəd qalarsa, seçkilər Mərkəzi Seçki Komissiyası tərəfindən namizədlərin irəli sürülməsi və sonrakı hərəkətlərin edilməsi üçün bələdiyyə üzrə seçkilər 2 ay müddətinə təxirə salınır.

**Maddə 218. Bələdiyyə üzvlüyünə qeydə alınmış namizədin nəqliyyat xərclərinin ödənilməsi**

218.1. Bu məcəllənin 70.2-ci maddəsinə uyğun olaraq bələdiyyə üzvlüyünə namizəd qeydə alındığı gündən seçkilərin yekunları rəsmi dərc edildiyi günədək müvafiq seçki ərazisində gəliş-gediş üçün ictimai nəqliyyatın bütün növlərindən (taksi və sifarişli reyslər istisna olmaqla) pulsuz istifadə etmək hüququna malikdir.

218.2. Bu cür ödəmələr dairə seçki komissiyasına ayrılan vəsait hesabına və təqdim edilmiş gediş-gəliş sənədləri əsasında həyata keçirilir.

**Maddə 219. Bələdiyyə üzvlüyünə qeydə alınmış namizədin toxunulmazlığı**

Bələdiyyə üzvlüyünə qeydə alınmış namizəd bu məcəllənin 70.4-cü maddəsində nəzərdə tutulan qaydada yalnız müvafiq rayon prokurorunun razılığı ilə məsuliyyətə cəlb edilə bilər.

**Maddə 220. Bələdiyyə üzvlüyünə qeydə alınmış namizədlərin vəkil edilmiş şəxslərinin sayı**

220.1. Bələdiyyə üzvlüyünə qeydə alınmış namizədin 3-ə qədər vəkil edilmiş şəxs təyin etmək hüququ vardır. Göstərilən şəxslər dairə seçki komissiyası tərəfindən qeydə alınır.

220.2. Vəkil edilmiş şəxslərin statusu bu məcəllənin 72-ci maddəsi ilə müəyyən edilir.

**Maddə 221. Bələdiyyə üzvlüyünə namizədlərin namizədlik statusundan imtina etməsi**

221.1. Bələdiyyə üzvlüyünə namizədlərin namizədlik statusundan imtina etməsi bu məcəllənin 73-cü maddəsi ilə tənzimlənir.

221.2. Bu məcəllənin 73.1-73.3-cü maddələrində göstərilən hərəkətləri etmiş şəxsin bu məcəllədə nəzərdə tutulmuş qaydada və müddətdə istənilən digər bələdiyyə üzrə öz namizədliyini təkrar irəli sürmək hüququ vardır.

**Maddə 222. Siyasi partiyanın, siyasi partiyalar blokunun bələdiyyə seçkilərində iştirak etməkdən imtina etməsi**

222.1. Siyasi partiya öz nizamnaməsinə uyğun olaraq, siyasi partiyaların bloku isə ona daxil olan siyasi partiyaların səlahiyyətli nümayəndələrinin qərarı ilə səsvermə gününə azı 10 gün qalanadək istənilən vaxt müvafiq dairə seçki komissiyasına yazılı ərizə verərək, seçki dairəsi üzrə irəli sürülmüş bələdiyyə üzvlüyünə namizədi, qeydə alınmış bələdiyyə üzvlüyünə namizədi geri çağırmaq hüququna malikdir.

222.2. Bələdiyyə üzvlüyünə namizədlər irəli sürmüş siyasi partiya, siyasi partiyaların bloku səsvermə gününə azı 10 gün qalmış müvafiq dairə seçki komissiyasına yazılı ərizə verməklə, namizədləri irəli sürmüş orqanın qərarı ilə seçkilərdə iştirak etməkdən imtina edə bilər. Bu halda siyasi partiya, siyasi partiyalar bloku bələdiyyə üzvlüyünə namizədləri geri çağıra bilər.

222.3. Siyasi partiyalar blokunun tərkibinə daxil olan siyasi partiya səsvermə gününə azı 3 gün qalmış istənilən vaxt dairə seçki komissiyasına ərizə verməklə müvafiq siyasi partiyanın səlahiyyətli orqanının qərarı ilə bu siyasi partiyalar blokunun tərkibində seçkilərdə iştirak etməkdən imtina edə bilər.

222.4. Siyasi partiyalar blokunun tərkibində seçkilərdə iştirak etməkdən imtina edən siyasi partiya bu məcəllə ilə müəyyənləşdirilmiş qaydada müstəqil siyasi partiya kimi çıxış edə və ya digər siyasi partiyalar blokunun tərkibinə daxil ola bilər.

222.5. Siyasi partiya blokunun irəli sürdüyü bələdiyyə üzvlüyünə namizədləri dairə seçki komissiyası qeydə aldıqdan sonra, bu bloka daxil olmuş bütün siyasi partiyalar (birindən başqa) seçkilərdə iştirak etməkdən imtina edərlərsə, qalan siyasi partiya seçkilərdə siyasi partiyalar blokunun adı və rəmzləri saxlanılmaqla, siyasi partiyaların bloku kimi iştirak edə bilər. Bu, bələdiyyə üzvlüyünə namizədlərin qeydə alınmasından imtina edilməsi və ya qeydiyyatın ləğv edilməsi üçün əsas ola bilməz.

222.6. Siyasi partiyalar blokunun seçkilərdə iştirak etməkdən imtina etməsi ona daxil olmuş siyasi partiyaları seçkilərdə iştirak etmək hüququndan məhrum etmir; belə halda bu Məcəlləyə uyğun olaraq bələdiyyə üzvlüyünə namizədin təkrar irəli sürülməsi və digər zəruri seçki hərəkətlərinin həyata keçirilməsi tələb edilir.

**Maddə 223. Bələdiyyə seçkiləri zamanı seçki komissiyasına nümayəndənin təyin edilməsi**

Bələdiyyə seçkiləri zamanı Mərkəzi Seçki Komissiyasının tərkibinə bələdiyyələrin yarısından çoxunda namizədlər irəli sürən, dairə seçki komissiyasının tərkibinə isə dairənin ərazisindən bələdiyyələrin yarısından çoxunda namizədlər irəli sürən siyasi partiyalar, siyasi partiyaların blokları bir məşvərətçi səs hüquqlu üzv təyin edə bilərlər.



## *Otuz yeddinci fəsil*
## Bələdiyyə seçkilərinə hazırlıq

**Maddə 224. Siyasi partiyaların, siyasi partiya bloklarının, bələdiyyə üzvlüyünə namizədlərin seçkiqabağı təşviqatının aparılması üçün xüsusi tələblər**

224.1. bələdiyyə üzvlüyünə namizədlərin seçkiqabağı təşviqatda iştirakı bu məcəllənin on üçüncü fəsli ilə tənzimlənir.

224.2. Teleradio verilişləri təşkilatlarının ayırdıqları pulsuz efir vaxtının ümumi həcminin 1/3 hissəsi müvafiq olaraq bələdiyyələrin 1/3-dən çoxunda və ya yarısından çoxunda namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına bu məcəllənin 77.2-ci və 77.3-cü maddələrinin tələbləri nəzərə alınmaqla müzakirələrin, dəyirmi masaların, digər bu cür təşviqat tədbirlərinin keçirilməsi üçün ayrılır. Bu cür tədbirlərin keçirilməsi qaydaları Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilir.

224.3. Bu məcəllənin 77.2-ci və 77.3-cü maddələrində göstərilən teleradio verilişləri təşkilatlarının kanallarında birgə təşviqat tədbirlərinin keçirilməsi üçün efir vaxtı göstərilən siyasi partiyalar, siyasi partiyaların blokları üçün ayrılır, hesablanır və ayrı-ayrılıqda həyata keçirilir. Bu cür pulsuz efir vaxtından siyasi partiyalar, siyasi partiyaların blokları bərabər əsasla istifadə etməlidirlər. Bu halda hər bir siyasi partiya, siyasi partiyaların bloku tərəfindən istifadə edilən efir vaxtının həcmi ayrıca müəyyənləşdirilir.

224.4. Bu məcəllənin 71.1-ci maddəsində göstərilən teleradio verilişləri təşkilatlarının efir vaxtından ödənişli əsaslarla istifadə norması onun ümumi həcminin bu məcəllənin 77.4-cü maddəsində göstərilən bələdiyyə üzvlüyünə namizədlərin ümumi sayına bölünməsi yolu ilə müəyyənləşdirilir.

224.5. Bu məcəllənin 71.1-ci maddəsində göstərilən dövri nəşr səhifələrində ayrılan, bu məcəllənin 77.4-cü maddəsinə uyğun olaraq bələdiyyə üzvlüyünə namizədlərin ümum sayına bölünməsi yolu ilə müəyyən edilən yerdən axırıncılar müvafiq ödəniş müqabilində istifadə edə bilərlər.

224.6. Qeydə alınmış namizədlərin, bələdiyyələrin 1/3-dən və ya yarısından çoxunda namizədləri qeydə alınmış siyasi partiyaların, siyasi partiya bloklarının bu məcəllənin 224.2-ci maddəsində göstərilən tədbirlərdə iştirakdan imtina etməsi bu məcəllənin 80.6-cı maddəsinə uyğun olaraq pulsuz təqdim edilən efir vaxtı həcminin artırılmasına səbəb olmur.

**Maddə 225. Siyasi partiyaların, siyasi partiya bloklarının, bələdiyyə üzvlüyünə namizədlərin seçki fondları**

225.1. Bələdiyyə üzvlüyünə namizədlərin seçki fondları aşağıdakı pul vəsaiti hesabına formalaşa bilər:

225.1.1. bu Məcəllənin 215.1.1-ci maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün 10 min manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.2-ci maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün - 7 min 500 manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.3-cü maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün - 5 min -manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.4-cü maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün - 2 min 500 manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.5-ci maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün - 1 min 250 manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.6-cı maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün - 750 manatdan çox olmamaq şərti ilə bələdiyyə üzvlüyünə namizədlərin xüsusi vəsaiti;

225.1.2. bu Məcəllənin 215.1.1-ci maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün 7 min 500 manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.2-ci maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün - 5 min manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.3-cü maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün - 3 min 750 manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.4-cü maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün - 2 min 500 manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.5-ci maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün - 1 min 250 manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.6-cı maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün - 500 manatdan çox olmamaq şərti ilə bələdiyyə üzvlüyünə namizədləri irəli sürmüş siyasi partiyaların, siyasi partiyalar bloklarının vəsaiti;

225.1.3. bu Məcəllənin 233.8-ci maddəsi ilə müəyyənləşdirilmiş hallar istisna olmaqla, namizədlərin qeydiyyatı başa çatdıqdan sonra ən geci 3 gün müddətində bələdiyyə üzvlüyünə namizədlərə dairə seçki komissiyası tərəfindən bərabər həcmdə ayrılmış vəsait;

225.1.4. 500 manatdan çox olmayan vətəndaşların könüllü ianələri;

225.1.5. bu Məcəllənin 215.1.1-ci maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün 10 min manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.2-ci maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün - 7 min 500 manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.3-cü maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün - 3 min 750 manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.4-cü maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün - 2 min 500 manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.5-ci maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün - 1 min 250 manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.6-cı maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün - - 750 manatdan çox olmamaq şərti ilə hüquqi şəxslərin könüllü ianələri.

225.2. Bu Məcəllənin 215.1.1-ci maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlərin maliyyə fondu məbləğinin yuxarı həddi 50 min manatdan çox, bu Məcəllənin 215.1.2-ci maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün - 37 min 500 manatdan çox, bu Məcəllənin 215.1.3-cü maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün - 25 min manatdan çox, bu Məcəllənin 215.1.4-cü maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün - - 12 min 500 manatdan çox, bu Məcəllənin 215.1.5-ci maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün - 7 min 500 manatdan çox, bu Məcəllənin 215.1.6-cı maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün - 5 min manatdan çox ola bilməz.



225.3. Bələdiyyələr onların ərazilərində irəli sürülən namizədlərin seçki fondlarına bərabər şəkildə vəsait ayıra bilərlər.

225.4. Bələdiyyələrin 1/3-dən çoxunda namizəd irəli sürmüş və ya namizədləri qeydə alınmış siyasi partiyalar, siyasi partiyalar blokları vahid seçki fondu yarada bilərlər.

225.5. Siyasi partiyaların, siyasi partiyalar bloklarının seçki fondları yalnız aşağıdakı pul vəsaiti hesabına formalaşır:

225.5.1. siyasi partiyaların, siyasi partiyalar bloklarının 250 min manatdan çox olmamaq şərti ilə, xüsusi vəsaiti (siyasi partiyalar blokunun bu xüsusi vəsaiti seçki blokunu yaratmış siyasi partiyaların verdiyi vəsaitlər hesabına formalaşır);

225.5.2. bu Məcəllə ilə nəzərdə tutulan hallar istisna olmaqla, Mərkəzi Seçki Komissiyasının siyasi partiyaya, siyasi partiyaların blokuna ayırdığı vəsait;

225.5.3. vətəndaşların və hüquqi şəxslərin könüllü ianələri. Könüllü ianələrin həddi vətəndaş üçün 750 manatdan, hüquqi şəxs üçün 25 min manatdan çox ola bilməz.

225.6. Siyasi partiyanın, siyasi partiyalar blokunun seçki fondu vəsaitinin yuxarı həddi bu Məcəllənin 225.3-cü maddəsində göstərilən məbləğin irəli sürülmüş və ya qeydə alınmış namizədlərin sayına vurulması yolu ilə müəyyən edilir. Hər bir halda siyasi partiyanın, siyasi partiyalar blokunun seçki fondunun yuxarı məbləği 500 min manatdan çox ola bilməz. Eyni zamanda, hər bir namizəd üçün xərclənmiş məbləğ bu Məcəllənin 225.3-cü maddəsində göstərilən məbləğdən yuxarı ola bilməz. Bu tələbə riayət olunması siyasi partiyaların, siyasi partiya bloklarının maliyyə hesabatlarında göstərilməlidir.

**Maddə 226. Siyasi partiyaların, siyasi partiya bloklarının, bələdiyyə üzvlüyünə namizədlərin xüsusi hesabları**

226.1. Bələdiyyə üzvlüyünə namizədlər imzaların yığılmasının başlanması haqqında dairə seçki komissiyasına bildiriş təqdim etdikdən sonra 5 gün müddətində öz maliyyə fondunu formalaşdırmaq üçün xüsusi hesab açmalıdırlar.

226.2. Namizədlər üçün vahid seçki fondu yaratmaq niyyətində olan siyasi partiyalar bələdiyyələrin 1/3-dən çoxunda irəli sürülən namizədlərin siyahısını Mərkəzi Seçki Komissiyasına təqdim etdikdən sonra 5 gün müddətində vahid seçki fondunu formalaşdırmaq üçün xüsusi seçki hesabı açırlar.

226.3. Namizəd, siyasi partiya, siyasi partiyaların bloku namizədin irəli sürülməsi barədə dairə seçki komissiyasından bildirişin təsdiq edilmiş surəti əsasında, həm

də bu məcəllənin 53-cü və 54-cü maddələrində göstərilən sənədlər əlavə edilməklə xüsusi seçki hesabı açırlar. Namizəd, siyasi partiya, siyasi partiyaların bloku öz səlahiyyətli nümayəndəsinə xüsusi seçki hesabının açılmasını tapşıra bilər. Namizəd, qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyaların bloku dairə seçki komissiyasına (Mərkəzi Seçki Komissiyasına) yazılı məlumat verməklə, başqa şəxsə özünün seçki hesabında olan vəsaitdən istifadə etmək hüququ verə bilər.

226.4. Namizədin, qeydə alınmış namizədin irəli sürüldüyü bələdiyyə dəyişdikdə, o, xüsusi seçki hesabının qalıq vəsaitini könüllü ianə vermiş şəxslərə, hüquqi şəxslərə proporsional əsasda qaytarmalıdır. Bundan sonra namizəd, qeydə alınmış namizəd dairə seçki komissiyasına yekun maliyyə hesabatı verməlidir. Yeni xüsusi seçki hesabının açılması bu məcəllə ilə müəyyənləşdirilmiş qaydada tənzimlənir.

**Maddə 227. Vahid seçki fondunun ləğv edilməsi**

Vahid seçki fondu yaradan siyasi partiyanın, siyasi partiyalar blokunun bələdiyyələr üzrə qeydiyyatdan keçən namizədləri bələdiyyələrin yarısını və ya yarısından azını əhatə edərsə, siyasi partiyanın, siyasi partiyaların blokunun xüsusi seçki hesabı bağlanır, həmin hesabın bağlanması ilə eyni vaxtda hər bir namizəd üçün xüsusi seçki hesabı açılır və vahid seçki fondunun vəsaitləri namizədlərin seçki fondları arasında proporsional qaydada bölüşdürülür.

**Maddə 228. Siyasi partiyaların, siyasi partiya bloklarının, bələdiyyə üzvlüyünə namizədlərin seçki fondlarının vəsaitlərinin istifadəsində aşkarlıq**

228.1. Bələdiyyə üzvlüyünə namizədin seçki fondu haqqında aşağıdakı məlumatlar bu Məcəllənin 77.4-cü maddəsində göstərilən kütləvi informasiya vasitələri tərəfindən hökmən dərc edilməlidir:

228.1.1. bələdiyyə üzvlüyünə namizədin seçki fondu vəsaitinin məbləği min manatdan çox olduqda həmin vəsaitin xərclənməsinin maliyyə hesabatı barədə;

228.1.2. bələdiyyə üzvlüyünə namizədin seçki fonduna 2 min 500 manatdan çox məbləğdə ianə köçürən hüquqi şəxslər barəsində (bu zaman eyni hüquqi şəxs tərəfindən vəsaitin bir neçə ianə şəklində köçürülməsinin mümkünlüyü nəzərə alınmalıdır);

228.1.3. bələdiyyə üzvlüyünə namizədin seçki fonduna 250 manatdan çox məbləğdə ianə köçürən vətəndaşların sayı barədə;

228.1.4. ianəçilərə qaytarılan vəsaitlər barədə, geri qaytarmanın əsası haqqında;

228.1.5. bələdiyyə üzvlüyünə namizədin seçki fonduna daxil olmuş vəsaitin ümumi həcmi və onun xərclənmiş hissəsinin ümumi məbləği barədə.

228.2. Siyasi partiyanın, siyasi partiyalar blokunun seçki fondu haqqında aşağıdakı məlumatlar bu Məcəllənin 77.2-ci və ya 77.3-cü maddəsində göstərilən kütləvi informasiya vasitələrində hökmən dərc edilməlidir:

228.2.1. seçki fondu vəsaitinin məbləği 10 min manatdan çox məbləğdə xərclənməsinin maliyyə hesabatı barədə;

228.2.2. seçki fondu 5 min manatdan çox məbləğdə ianə köçürən hüquqi şəxslər barəsində (bu zaman eyni hüquqi şəxs tərəfindən vəsaitin bir neçə ianə şəklində köçürülməsi mümkünlüyü nəzərə alınmalıdır);



228.2.3. seçki fonduna 250 manatdan çox məbləğdə ianə köçürən vətəndaşların sayı barədə;

228.2.4. ianəçilərə qaytarılan vəsaitlər barədə, geri qaytarmanın əsası haqqında;

228.2.5. seçki fonduna daxil olmuş vəsaitin ümumi həcmi və onun xərclənmiş hissəsinin ümumi məbləği barədə.

**Maddə 229. Siyasi partiyaların, siyasi partiya bloklarının, bələdiyyə üzvlüyünə namizədlərin aldıqları vəsaitlərin geri qaytarılmasının ardıcıllığı**

Siyasi partiyaların, siyasi partiya bloklarının, bələdiyyə üzvlüyünə namizədlərin aldıqları vəsaitlərin geri qaytarılması qaydası bu məcəllənin 90.5-90.7-ci maddələri ilə müəyyən edilir.

**Maddə 230. Siyasi partiyaların, siyasi partiya bloklarının, bələdiyyə üzvlüyünə namizədlərin, qeydə alınmış bələdiyyə üzvlüyünə namizədlərin aldıqları büdcə vəsaitlərinin geri qaytarılmasının məcburiliyi**

Səsvermədə iştirak etmiş və seçicilərin etibarlı hesab edilən səslərinin azı 3 faizini toplamış bələdiyyə üzvlüyünə namizəd və ya seçilən sayılmış, habelə səsvermə gününədək məcburedici hallara görə namizədliyini geri götürmüş bələdiyyə üzvlüyünə qeydə alınmış namizəd, bələdiyyələrin yarısından çoxunda namizədləri qeydə alınmış siyasi partiya, siyasi partiyaların bloku səsvermə günündən sonra 15 gün müddətində dairə seçki komissiyasının onların seçki fondlarına köçürdüyü vəsaitin xərclənməmiş hissəsini bu seçki komissiyasına qaytarmağa borcludur. Bu vəsait köçürüləndən sonra göstərilən qaydada 15 gün müddətində bələdiyyələrin vəsaitləri qaytarılmalıdır. Bu müddət başa çatdıqda müvafiq bank Mərkəzi Seçki Komissiyasının və ya müvafiq bələdiyyənin məktubunda göstərilmiş pul vəsaitini mübahisəsiz qaydada onların hesabına köçürməlidir.

**Maddə 231. Siyasi partiyalar, siyasi partiya blokları, bələdiyyə üzvlüyünə namizədlər tərəfindən pulsuz efir vaxtının və dövri nəşrlərdə pulsuz ayrılmış yerin dəyərinin ödənilməsi**

231.1. Bu məcəllənin 230-cu maddəsində nəzərdə tutulmayan namizəd, siyasi partiya, siyasi partiyaların bloku bu məcəllənin 77.2, 77.3 və 77.4-cü maddələrində göstərilən teleradio verilişləri təşkilatlarına və dövri nəşrlərin redaksiyalarına pulsuz efir vaxtının və dövri nəşrlərdə ayrılmış yerin dəyərini tam həcmdə ödəməlidir. Göstərilən dəyər seçki fondundan yekun maliyyə hesabatının verildiyi günədək namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları tərəfindən ödənilməlidir. Mərkəzi Seçki Komissiyası seçkilərin ümumi nəticələrinin rəsmi dərc edildiyi gündən sonra 3 gün müddətində göstərilən namizədlərin, siyasi partiyaların, siyasi partiya bloklarının, habelə həmin partiyalar blokunun tərkibinə daxil olmuş siyasi partiyaların siyahısını, onların ünvanını, istifadə edilmiş pulsuz efir vaxtının və dövri nəşrdə ayrılmış yerin dəyərinin ödənilməsi barədə siyasi parti-

ya bloklarının birgə qərarlarından çıxarışların təsdiq edilmiş surətlərini bu məcəllənin 77.2, 77.3 və 77.4-cü maddələrində göstərilmiş teleradio təşkilatlarına və dövri nəşrlərin redaksiyalarına göndərir.

231.2. Bu məcəllənin 77.2, 77.3 və 77.4-cü maddələrində göstərilən teleradio verilişləri təşkilatları və dövri nəşrlərin redaksiyaları seçkilərin ümumi nəticələrinin rəsmi dərc edildiyi gündən sonra 10 gün müddətində bu məcəllənin 230-cu maddəsində nəzərdə tutulmayan namizədlərə, siyasi partiyalara, siyasi partiyaların blokuna, habelə siyasi partiyaların blokuna daxil olmuş siyasi partiyaya istifadə edilmiş pulsuz efir vaxtının dəyəri və dövri nəşrdə ayrılmış yerin həcmi və dəyəri haqqında, özlərinin hüquqi ünvanı və bank rekvizitləri barəsində müvafiq məlumat göndərirlər.

231.3. Bu məcəllənin 80.5, 83.6 və 224.2-ci maddələrində nəzərdə tutulmuş pulsuz efir vaxtının və dövri nəşrdə ayrılmış yerin dəyəri bu məcəllənin 80.6-cı və 83.7-ci maddələrində nəzərdə tutulmuş qaydada namizədə, siyasi partiyaya, siyasi partiyaların blokuna təqdim edilmiş efir vaxtının və dövri nəşrdə ayrılmış yerin ümumi həcminin teleradio verilişləri təşkilatlarının və dövri nəşrlərin redaksiyalarının müəyyənləşdirdiyi efir vaxtının və dövri nəşrdə ayrılmış və məlumat üçün dərc edilmiş yerin qiymətinə vurulması yolu ilə müəyyən edilir.

231.4. Siyasi partiya, siyasi partiyaların bloku bu məcəllənin 224.2-ci maddəsində göstərilən təşviqat tədbirlərinin birgə keçirilməsi yolu ilə pulsuz efir vaxtından istifadə etdikdə hər bir siyasi partiyanın, siyasi partiyalar blokunun qaytardığı pul vəsaitinin həcmi teleradio verilişləri təşkilatları tərəfindən onların iştirak etdikləri birgə təşviqat tədbirlərinin hər birinin iştirakçılarının ümumi sayına proporsional olaraq bərabər paylarla müəyyənləşdirilir.

231.5. Namizəd, siyasi partiya, siyasi partiyaların bloku pulsuz efir vaxtının bu məcəllənin 81.5-ci maddəsi ilə nəzərdə tutulmuş qaydada və müddətdə imtina edibsə, təqdim edilmiş pulsuz efir vaxtının dəyəri ödənilmir.

231.6. Bu məcəllənin 77.2, 77.3 və 77.4-cü maddələrində nəzərdə tutulmuş teleradio verilişləri təşkilatları və dövri nəşr redaksiyaları səsvermə günündən başlayaraq 12 ay müddətində Mərkəzi Seçki Komissiyasına bu məcəllənin 230-cu maddəsində nəzərdə tutulmuş pulsuz efir vaxtının və dövri nəşrdə ayrılmış yerin dəyərini tam ödəməmiş namizəd, siyasi partiya haqqında məlumat verirlər. Dairə seçki komissiyaları səsvermə günündən başlayaraq 12 ay müddətində bu məcəllənin 230-cu maddəsində nəzərdə tutulmayan və seçki komissiyaları qarşısında borc öhdəliyi olan vətəndaşlar, siyasi partiyalar haqqında Mərkəzi Seçki Komissiyasına məlumat verirlər.

**Maddə 232. Siyasi partiyaların, siyasi partiya bloklarının, bələdiyyə üzvlüyünə namizədlər seçki fondlarının xüsusi hesabında qalmış pul vəsaiti**

Bələdiyyə üzvlüyünə namizədlərin seçki fondlarının xüsusi hesabında qalmış pul vəsaitini dairə seçki komissiyasının yazılı göstərişinə uyğun olaraq müvafiq bank səsvermə günündən 30 gün keçdikdən sonra müvafiq bələdiyyə büdcəsinin mədaxilinə köçürməlidir.



**Maddə 233. Siyasi partiyalar, siyasi partiya blokları, bələdiyyə üzvlüyünə namizədlərin tərəfindən pul vəsaitinin öz vəsaitləri hesabına geri qaytarılması**

233.1. Seçki fondunda pul vəsaiti olmadıqda və yaxud çatışmadıqda büdcə və bələdiyyə pul vəsaitinin qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyaların bloku tərəfindən qaytarılması, habelə siyasi partiyalara və siyasi partiya bloklarına verilmiş pulsuz efir vaxtının və dövri nəşrdə ayrılmış yerin dəyərinin ödənilməsi onların öz vəsaiti hesabına həyata keçirilir.

233.2. Verilmiş pulsuz efir vaxtının və dövri nəşrdə ayrılmış yerin dəyərinin ödənilməsinə ayrılan büdcə və bələdiyyə vəsaitini qaytarmaq vəzifəsi siyasi partiyalar blokunun üzərinə düşdükdə, qaytarılmalı vəsait bu bloka səsvermə gününədək daxil olan siyasi partiyalar arasında bərabər paylarla bölüşdürülür, o şərtlə ki, siyasi partiyalar blokunun yaradılması haqqında Mərkəzi Seçki Komissiyasına təqdim edilmiş birgə qərarda ayrı qayda nəzərdə tutulmasın.

233.3. Bu məcəllənin 230-cu maddəsində nəzərdə tutulmayan qeydə alınmış namizəd bu məcəlləyə uyğun yekun maliyyə hesabatının verilməsi ilə yanaşı, müvafiq vəsaitin qaytarılmasını da öz üzərinə götürürsə, dövlət və bələdiyyə büdcəsinin geri qaytarılası vəsaitini səsvermə günündən başlayaraq 6 ay müddətində müvafiq olaraq dairə seçki komissiyasının və ya bələdiyyənin hesabına qaytara bilər.

233.4. Bu məcəllənin 230-cu maddəsində nəzərdə tutulmayan və bu məcələnin 230-cu maddəsinin tələblərini yekun maliyyə hesabatı verilənədək yerinə yetirməyən siyasi partiya, siyasi partiyaların bloku bu məcəllə ilə müəyyənləşdirilmiş müddətdə Mərkəzi Seçki Komissiyası, teleradio verilişləri təşkilatları və dövri nəşri redaksiyaları qarşısında müvafiq pul vəsaitinin ödənilməsi haqqında öhdəlik götürübsə, dövlət və bələdiyyə büdcəsinin vəsaitlərini, habelə istifadə edilmiş pulsuz efir vaxtının və dövri nəşrdə pulsuz ayrılmış yerin dəyərini səsvermə günündən başlayaraq 6 ay müddətində ödəmək üçün onlara möhlət verilə bilər.

233.5. Bu məcəllənin 233.3 və 233.4-cü maddələrində nəzərdə tutulan öhdəliklər icra edilmədikdə və vəsaitin qaytarılması haqqında öhdəlikdə göstərilən müddət başa çatdıqda vəsait məhkəmə qaydasında qaytarılır. Bu məcəllənin 230-cu maddəsində nəzərdə tutulmayan və bu məcəllənin 233.3 və 233.4-cü maddələrində göstərilən tələbləri yerinə yetirməyən qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyalar bloku yekun maliyyə hesabatı verilənədək bu məcəllənin 233.3-cü və 233.4-cü maddələrində göstərilən öhdəliyi götürmədikdə yekun maliyyə hesabatının verilməsi müddəti başa çatanadək pul vəsaiti məhkəmə qaydasında qaytarılır.

233.6. Namizəd, qeydə alınmış namizəd statusunu itirdikdə bu maddə ilə namizədlərin, qeydə alınmış namizədlərin üzərinə qoyulmuş öhdəliklər namizədin, qeydə alınmış namizəd sayılmış vətəndaşın üzərinə qoyulur. Namizəd, qeydə alınmış namizəd siyasi partiya, siyasi partiyalar bloku tərəfindən irəli sürülübsə, siyasi partiyanın, siyasi partiyalar blokunun üzərinə bu maddə ilə qoyulmuş öhdəliklər seçkilər qurtardıqda seçkilərdə iştirak etmiş siyasi partiyanın, o cümlədən siyasi partiyalar blokunun tərkibində iştirak etmiş siyasi partiyaların üzərinə qoyulur.

233.7. Mərkəzi Seçki Komissiyası əsas seçkilərin, təkrar və ya əlavə seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərcindən sonra bu məcəllənin 230-cu maddəsində nəzərdə tutulan və seçki komissiyaları, bələdiyyələr qarşısında borc öhdəliyi olan vətəndaşların siyahısını dairə seçki komissiyalarına onların yaradılması günündən başlayaraq 5 gün müddətində göndərir.

233.8. Əsas, təkrar və əlavə seçkilərdə bu məcəllənin 230-cu maddəsində nəzərdə tutulan və seçkilərin təyin edilməsi haqqında qərarın dərc edildiyi gün seçki komissiyası qarşısında büdcə vəsaiti üzrə borcu olan vətəndaşın, irəli sürüldüyü seçki dairəsindən asılı olmayaraq, dövlət büdcəsindən və ya bələdiyyədən vəsait almağa hüququ yoxdur.

## *Otuz səkkizinci fəsil*

## Bələdiyyə seçkilərinin keçirilməsi və seçkilərin nəticələrinin müəyyən olunması

### Maddə 234. Bələdiyyə seçkiləri zamanı səsvermə üçün otaq

234.1. Bələdiyyə seçkiləri zamanı səsvermə otağı bu məcəllənin 98-ci maddəsinin tələblərinə uyğun təşkil edilir.

234.2. Məntəqə seçki komissiyası səsvermə otağında və ya bilavasitə otağın qarşısında seçki bülleteninin nümunəsini, namizədləri qeydə alınmış siyasi partiyalar, siyasi partiya blokları haqqında məlumatları, müvafiiq birmandatlı seçki dairəsi üzrə qeydə alınmış bütün namizədlərin soyadı, adı, atasının adı, doğum tarixi, təhsil, əsas iş (və ya xidmət) yeri və tutduğu vəzifəsi (bu olmadıqda fəaliyyət növü), yaşayış yeri, namizədliyini kimin irəli sürməsi haqqında məlumatları məlumat lövhəsində yerləşdirir.

234.3. Namizədlər, siyasi partiyalar, siyasi partiya blokları haqqında məlumatlar seçki bülletenində nəzərdə tutulmuş qaydada və ardıcıllıqla yerləşdirilir.

### Maddə 235. Bələdiyyə seçkiləri zamanı seçki bülletenləri

235.1. Bələdiyyə seçkilərinin keçirilməsi üçün seçki bülletenləri bu məcəllənin 99-cu maddəsində nəzərdə tutulmuş qaydada hazırlanır.

235.2. Hər bir bələdiyyəyə seçkilərin keçirilməsi üçün ayrıca seçki bülletenləri hazırlanır.

235.3. Seçki bülleteninin hansı bələdiyyəyə seçkilərin keçirilməsi üçün nəzərdə tutulduğu başlığında göstərilməlidir.

235.4. Bələdiyyə seçkiləri üzrə seçki bülletenində bələdiyyə üzvlüyünə namizədlərin soyadı, adı, atasının adı, təxəllüsü, doğum tarixi, yaşayış yeri, əsas iş və ya xidmət yeri (bu olmadıqda - fəaliyyət növü), habelə qeydə alınmış bələdiyyə üzvlüyünə namizədi kimin irəli sürdüyü göstərilməlidir.

235.5. Seçki bülletenində bu məcəllənin 54-cü maddəsinə uyğun olaraq qeydə alınmış bələdiyə üzvlüyünə namizədin mənsub olduğu siyasi partiyanın qısa adı göstərilməlidir.



235.6. Seçki bülletenində bu məcəllənin 53-cü maddəsinə uyğun olaraq qeydiyyatdan keçmiş bələdiyyə üzvlüyünə namizədin partiya mənsubiyyəti onun arzusu ilə göstərilə bilər.

235.7. Seçki bülletenində namizədin soyadından sağda boş kvadrat yerləşdirilir.

### Maddə 236. Bələdiyyə seçkiləri zamanı səsvermə qaydası

236.1. Bələdiyyə seçkiləri zamanı səsvermə bu məcəllənin 104-cü və 105-ci maddələrinə uyğun olaraq keçirilir:

236.1.2. seçici seçki bülletenində lehinə səs verəcəyi namizədlərin soyadından sağdakı kvadratlarda müvafiq bələdiyyə üzvlərinin sayına bərabər və ya bu saydan az sayda işarə qoyur;

236.1.3. işarə qoyulmuş kvadratların sayı bələdiyyə üzvlərinin sayından çoxdursa, səs etibarsız sayılır.

236.1.4. boş kvadratlarda heç bir işarə qoyulmamış səs etibarsız sayılır.

### Maddə 237. Bələdiyyə seçkiləri zamanı seçki məntəqəsində səslərin hesablanması

237.1. Seçki məntəqəsində səslərin hesablanması bu məcəllənin 106-cı maddəsinə uyğun həyata keçirilir.

237.2. Məntəqə seçki komissiyasının protokoluna bu məcəllənin 100.2-ci maddəsində göstərilənlərlə yanaşı, aşağıdakı məlumatlar daxil edilir:

237.2.1. seçki bülleteninə daxil edilmiş namizədlərin soyadı, adı, atasının adı, bunlar eyni olduqda isə namizədlər haqqında digər məlumat;

237.2.2. hər bir namizədin lehinə verilmiş səslərin sayı.

### Maddə 238. Dairə seçki komissiyası tərəfindən səsvermənin nəticələrinin müəyyən edilməsi

238.1. Dairə seçki komissiyasında səslərin hesablanması bu məcəllənin 107-ci maddəsinə uyğun aparılır.

238.2. Səsvermə günündən ən geci 2 gün keçənədək dairə seçki komissiyası çoxmandatlı seçki dairəsi üzrə seçkilərin yekunlarını müəyyən edir.

238.3. Seçkilərdə iştirak edən və seçicilərin ən çox səsini toplayan namizədlər bələdiyyə üzvlərinin sayına bərabər olaraq müvafiq bələdiyyəyə üzv seçilmiş hesab edilirlər.

238.4. Dairə seçki komissiyasının protokolunda bələdiyyəyə üzv seçilmiş namizədlərin soyadı, adı və atasının adı göstərilir.

### Maddə 239. Bələdiyyə seçkilərinin yekunlarının yoxlanılması və təsdiqi

Mərkəzi Seçki Komissiyası səsvermə günündən başlayaraq ən geci 20 gün müddətində dairə seçki komissiyalarının protokollarını (bu məcəlləyə uyğun olaraq əlavə edilən sənədlərlə birlikdə) yoxlayır və bu məcəllənin 108-ci maddəsinə uyğun olaraq seçkilərin ümumi yekunları haqqında protokol tərtib edir.

**Maddə 240. Bələdiyyə seçkilərinin etibarsız sayılması**

240.1. Dairə seçki komissiyası qeydə alınmış namizədlərin lehinə verilən səslərin sayı bərabər olduqda, bələdiyyəyə seçkiləri baş tutmamış hesab edir.

240.2. Dairə seçki komissiyası və ya Mərkəzi Seçki Komissiyası bələdiyyə üzrə aşağıdakı hallarda seçkiləri etibarsız sayır:

240.2.1. Bələdiyyə üzrə səsvermə zamanı səsvermənin nəticələri etibarsız sayılmış seçki məntəqələrinin sayı həmin bələdiyyənin ərazisində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu təşkil etdikdə və ya ləğv edildikdə, o şərtlə ki, həmin seçki məntəqələrində seçicilərin sayı bələdiyyə üzrə qeydə alınmış seçicilərin ümumi sayının 1/4-dən çoxunu təşkil etsin.

240.2.2. məhkəmənin qərarı əsasında.

**Maddə 241. Bələdiyyə seçkilərinin yekunlarının elan edilməsi**

Mərkəzi Seçki Komissiyası seçkilər günündən başlayaraq ən geci 30 gün müddətində Azərbaycan Respublikası üzrə bələdiyyə seçkilərinin yekunlarını elan edir. Mərkəzi Seçki Komissiyasının bu qərarı qətidir.

**Maddə 242. Bələdiyyə üzvü seçilmək haqqında vəsiqə**

Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilmiş nümunədə bələdiyyə üzvü seçilmək haqqında vəsiqə seçkilərin yekunları elan olunduqdan sonra 5 gün müddətində dairə seçki komissiyası tərəfindən verilir.

**Maddə 243. Təkrar seçkilər**

Bu Məcəllənin 240-cı maddəsinə əsasən bələdiyyə seçkiləri baş tutmazsa və ya etibarsız sayılarsa, Mərkəzi Seçki Komissiyasının qərarı ilə təkrar seçkilər keçirilir.

**Maddə 244. Əlavə seçkilər**

Bələdiyyə üzvləri tam tərkibdə seçilmədikdə, yaxud onların səlahiyyətlərinə vaxtından əvvəl xitam verildikdə və bunun nəticəsində bələdiyyənin tərkibi 2/3 hissədən az olduqda Mərkəzi Seçki Komissiyasının qərarı ilə əlavə seçkilər keçirilir.

**Maddə 245. Sıradan çıxmış bələdiyyə üzvlərinin yerinin tutulması**

Bələdiyyə üzvü vəfat etdikdə və ya onun səlahiyyətlərinə vaxtından əvvəl xitam verildikdə dairə seçki komissiyasının təqdimatına əsasən Mərkəzi Seçki Komissiyasının qərarı ilə yeni seçkilər keçirilir.

**Maddə 246. Bələdiyyə seçkilərinin yekunlarının və səsvermənin nəticələrinin dərc olunması**

Bələdiyyə seçkilərinin yekunlarının və səsvermənin nəticələrinin dərc olunması qaydaları bu Məcəllənin 109-cu maddəsi ilə müəyyən edilir.



# Hərbi qulluqçuların statusu haqqında Azərbaycan Respublikasının Qanunu

*(25 dekabr 1991-ci il, № 36)*

. . .

**Maddə 12. Hərbi qulluqçuların mənzillə və ya torpaq sahəsilə təmin olunmaq hüququ**

1. Hərbi qulluqçunun (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa) xidmət yerinə gəlməsindən ən geci 3 ay keçənədək ona və onunla birlikdə yaşayan ailə üzvlərinə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş normalara uyğun gələn xidməti mənzil verilir. Xidməti mənzil Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, başqa mərkəzi icra hakimiyyəti orqanlarının və yerli icra hakimiyyəti başçılarının fondlarından ayrılır. Hərbi qulluqçular və onların ailə üzvləri xidməti mənzil alanadək xidmət yeri üzrə (qoşun hissəsinin ünvanı, müvəqqəti yaşayış ünvanı üzrə) qeydiyyata alınır, xidmət yerində onlara müvəqqəti mənzilin əsas kirayəçidən kirayəyə götürülməsi (kirayəsi) üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi məbləğdə pul kompensasiyası ödənilir.

Hərbi tədris müəssisələrinin ailəli kursantları ailə yataqxanalarında yerləşdirilir, belə yataqxanalar olmadıqda isə onlara müvəqqəti mənzilin əsas kirayəçidən kirayəyə götürülməsi (kirayəsi) üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi məbləğdə pul kompensasiyası ödənilir.

2. Azərbaycan Respublikası Silahlı Qüvvələrində 15 təqvim ili və daha çox xidmət etmiş xidməti mənzillərdə yaşayan və ya yaşayış sahəsi olmayan hərbi qulluqçuların (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa) ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçuların qanunvericilikdə nəzərdə tutulmuş qaydada 6 ay müddətinə yerli icra hakimiyyəti orqanı tərəfindən yaşayış sahəsi və ya fərdi yaşayış evinin tikintisi üçün müəyyən olunmuş qaydada bələdiyyələrdən pulsuz torpaq sahəsi almaq hüququ vardır.

Bu hüququ həyata keçirdikdən sonra xidməti mənzil sahəsinə malik olan hərbi qulluqçular mənzili müəyyən edilmiş qaydada təhvil verməyə borcludurlar.

Yaşa, xəstəliyə, ştatların ixtisarına, ailə vəziyyətinə görə ehtiyata və ya istefaya buraxılmış zabitləri, gizirlər və miçmanları müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularını yerli icra hakimiyyəti başçıları mənzillə və ya mənzil olmadıqda müəyyən olunmuş qaydada bələdiyyələr pulsuz torpaq sahəsilə ilk növbədə, lakin mövcud qeydiyyat qaydasını nəzərə almaqla seçilmiş yaşayış yerinə onların gəldikləri gündən ən geci 6 ay keçənədək təmin edirlər. Həm də müddətindən artıq xidmət hərbi qulluqçuları göstərilən qaydada mənzillə və ya torpaq sahəsilə bu şərtlə təmin edilirlər ki, 15 təqvim ili və daha çox xidmət etmiş olsunlar, Azərbaycan Respublikasının Silahlı Qüvvələri sayının ixtisarı ilə əlaqədar buraxılmış hərbi qulluqçular isə bu şərtlə təmin edilirlər ki, azı 5 təqvim ili xidmət etmiş olsunlar. Bundan ötrü hərbi qulluqçuların yaşa görə buraxılmasına 3 il qalmış, komandanlığın və-

satəti ilə onlar seçdikləri yaşayış yerindəki yerli icra hakimiyyəti başçıları tərəfindən mənzilə və ya bələdiyyələr tərəfindən torpaq sahəsinə ehtiyacı olanların siyahılarına daxil edilirlər. Yerli icra hakimiyyəti başçıları və bələdiyyələr göstərilən hərbi qulluqçuların mənzil və ya torpaq sahəsi almaq üçün uçota götürülməsi barədə komandanlığa 3 ay müddətində məlumat verirlər.

Ehtiyata və ya istefaya buraxılmış şəxslərin seçilmiş yaşayış yerinə gəldikləri günün 3 aylığından mənzil və ya torpaq sahəsi alanadək müvəqqəti mənzil kirayəsi xərclərini bu şəxslərin müvəqqəti yaşayış yerindəki yerli icra hakimiyyəti başçıları Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi məbləğdə və qaydada ödəyirlər.

Hərbi xidmət vəzifələrinin icrası dövründə əlil olmuş və bununla əlaqədar hərbi xidmətdən buraxılmış hərbi qulluqçulara seçdikləri yaşayış yerində mənzil və ya torpaq sahəsi növbədənkənar verilir.

3. İstər hərbi xidmətdə olan, istərsə də ehtiyata və ya istefaya buraxılmış "polkovnik" rütbəli, buna bərabər və bundan yuxarı rütbəli zabitlərə, alimlik dərəcəsi olan hərbi qulluqçulara Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilən ölçüdə əlavə yaşayış sahəsi verilir.

4. (Çıxarılıb);

5. Hərbi qulluqçular (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa) həmin yaşayış məntəqəsində hərbi xidmətinin müddətindən asılı olmayaraq güzəştli şərtlərlə mənzil-tikinti (mənzil) kooperativlərinə daxil olmaq, fərdi yaşayış evləri almaq və tikmək hüququna malikdirlər.

Mənzil-tikinti (mənzil) kooperativlərinə daxil olan və ya fərdi yaşayış evi tikən (satın alan) və başqa daimi mənzili olmayan hərbi qulluqçulara onların xidmət yerində mənzil haqqı üzrə və ya fərdi mənzil tikintisi üçün bank krediti üzrə borcu ödəməkdə əvəzsiz maliyyə yardımı göstərilir: fasiləsiz 15 təqvim ili və daha çox müddətdə qüsursuz hərbi xidmət edənlərə 50 faiz miqdarında, 20 təqvim ili və daha çox müddətdə qüsursuz hərbi xidmət edənlərə 100 faiz miqdarında.

Kooperativ mənzil haqqının və ya dövlət bankı kreditlərinin ödənilməsi sahəsində əvəzsiz maliyyə yardımı göstərilməsinin qaydası bu bənddə göstərilmiş və ya ehtiyata, yaxud istefaya buraxılmış hərbi qulluqçular sırasından mənzil-tikinti (mənzil) kooperativlərinin üzvü olan şəxslərə və fərdi ev tikənlərə də şamil edilir.

15 təqvim ili və daha çox xidmət etmiş hərbi qulluqçulara hüquq verilir ki, ehtiyata və ya istefaya buraxıldıqdan sonra yaşayacaqları yaşayış məntəqələrinin (əgər yaşayış məntəqələri Azərbaycan Respublikasının ərazisində yerləşirsə) mənzil-tikinti (mənzil) kooperativlərinə daxil olsunlar.

Yerli icra hakimiyyəti başçıları fərdi mənzil tikintisində və ya evlər alınmasında, o cümlədən kənd yerində fərdi mənzil tikintisində və ya evlər alınmasında iştirak etmək arzusunu bildirən zabitlərə, gizirlər və miçmanlara müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına torpaq sahələri ayırmalı, tikintidə, tikinti materialları almaqda kömək göstərməlidirlər.



6. Yaşına, xəstəliyə görə, ştatların ixtisarına, ailə vəziyyətinə görə həqiqi ehtiyata və ya istefaya buraxılmış, 20 təqvim ili və daha çox xidmət etmiş hərbi qulluqçular (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa) torpaq üçün icarə haqqını ödəməkdən azad edilirlər.

7. Yaşına, səhhətinə, ştatların ixtisarına görə ehtiyata, yaxud istefaya buraxılmış şəxslər (əgər Silahlı Qüvvələrin və qanunvericilikdə nəzərdə tutulan hallarda digər silahlı birləşmələrin sıralarında 15 təqvim ilindən az olmayaraq və onun beş ildən az olmayan müddətini Azərbaycan Respublikası Silahlı Qüvvələri və qanunvericilikdə nəzərdə tutulan hallarda digər silahlı birləşmələri sıralarında xidmət edibsə) müvafiq icra hakimiyyəti orqanı tərəfindən, Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada yaşayış sahələri (yaşayış sahəsi alana kimi isə kirayə haqqı ilə təmin edilirlər).

8. (Çıxarılıb);

9. Gəmidə olan matroslardan və starşinalardan başqa, müddətli xidmət hərbi qulluqçuları Azərbaycan Respublikası Silahlı Qüvvələri nizamnamələrinin tələblərinə uyğun olaraq qışlaqlarda yerləşdirilir.

10. Müddətli xidmət hərbi qulluqçularının hərbi xidmətə çağırılanadək yaşadıqları mənzil saxlanılır və onlar mənzil almaq üçün növbəyə dayananların siyahısından çıxarıla bilməzlər. Müddətli xidmət hərbi qulluqçularının ailəsi yaşadığı mənzilin haqqını 50 faiz güzəştlə ödəyir.

11. Hərbi qulluqçuların, həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılmış şəxslərin və ailə üzvlərinin bu maddədə nəzərdə tutulan mənzil hüquqları pozulduqda onların hüququ var ki, qanuni hüquqlarının təmin edilməsi və zərərin ödənilməsi barədə müvafiq yerli icra hakimiyyəti başçısına qarşı iddia ilə məhkəməyə, hərbi idarəetmə orqanlarına və ya başqa dövlət orqanına müraciət etsinlər.

## Xarici investisiyanın qorunması haqqında Azərbaycan Respublikasının Qanunu

*(15 yanvar 1992, № 57)*

...

**Maddə 4. Dövlətsizləşdirmədə və özəlləşdirmədə xarici investorların iştirakı**

Dövlət və bələdiyyə müəssisələrinin, habelə başa çatdırılmamış tikinti obyektlərinin özləşdirilməsində xarici investorlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilən şərtlərlə və qaydada iştirak edə bilərlər.

## İcarə haqqında Azərbaycan Respublikasının Qanunu

*(30 aprel 1992-ci il, № 114)*

...

**Maddə 4. İcarəyəverənlər**

Əmlakı icarəyə vermək hüququ mülkiyyətçiyə, əmlakı icarəyə vermək üçün onun vəkil etdiyi orqanlara, təşkilatlara və fiziki şəxslərə, habelə əmlak üzərində digər əşya hüquqlarına malik olan şəxslərə məxsusdur.

Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin icarəsinə dövlət və bələdiyyə mülkiyyəti obyektləri yalnız mülkiyyətçinin razılığı ilə verilir.

## Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu

*(25 avqust 1992-ci il, № 284)*

**Maddə 49. Sosial yardımın maliyyələşdirilməsi mənbələri**

Sosial yardım dövlət büdcəsinin və bələdiyyələr tərəfindən yerli büdcələrin vəsaiti, eləcə də Dövlət Sosial Müdafiə Fonduna müəssisələrin, təşkilatların və vətəndaşların cərimələri və könüllü verdikləri ianə hesabına göstərilir.

## Antiinhisar fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu

*(4 mart 1993-cü il, № 526)*

...

**Maddə 13. Təsərrüfat subyektlərinin və onların birliklərinin yaradılması, yenidən təşkili və ləğv edilməsi zamanı antiinhisar qanunvericiliyinə riayət edilməsinə dövlət nəzarəti**

1. Təsərrüfat subyektlərinin hökmran mövqelərindən sui-istifadə və ya rəqabəti məhdudlaşdıran hərəkətlərinin qarşısını almaq məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı aşağıdakılara dövlət nəzarətini həyata keçirir:

təsərrüfat subyektlərinin birləşdirilməsinə və qovuşmasına (əgər bu, müvafiq əmtəə bazarında payı 35%-dən çox olan təsərrüfat subyektlərinin yaranması ilə nəticələnərsə);



aktivlərinin ümumi dəyəri minimum əməkhaqqı məbləğinin 75 min mislindən artıq olan təsərrüfat subyektlərinin qovuşmasına və birləşməsinə;

aktivlərinin ümumi dəyəri minimum əməkhaqqı məbləğinin 50 min mislindən artıq dövlət və bələdiyyə müəssisələrinin ləğv edilməsinə (məhkəmənin qərarı ilə müəssisələrin ləğv edilməsi halları istisna olunmaqla) və bölünməsinə (əgər bu, müvafiq əmtəə bazarında payı 35%-dən çox olan təsərrüfat subyektlərinin yaranması ilə nəticələnərsə).

2. Bu maddənin 1-ci bəndində nəzərdə tutulan hallarda təsərrüfat subyektlərinin yaradılması, yenidən təşkili və ləğv edilməsi müvafiq icra hakimiyyəti orqanının razılığı əsasında həyata keçirilir. Belə təsərrüfat subyektlərinin yaradılması, yenidən təşkili və ləğv edilməsi haqqında qərar qəbul edən şəxslər və ya təsərrüfat subyektləri razılıq almaq üçün müvafiq icra hakimiyyəti orqanına vəsatət təqdim edir. Vəsatətə, dövlət qeydiyyatı üçün qanunvericiliyə uyğun təqdim olunan sənədlər və əsas məhsulun (xidmətlərin) müvafiq əmtəə bazarında satışının həcminə dair məlumat əlavə olunur.

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən bu maddənin 1-ci bəndində nəzərdə tutulan hallarda təsərrüfat subyektlərinin yaradılmasına, yenidən təşkilinə və ləğv edilməsinə razılıq vermək üçün onlardan digər sənədlərin tələb olunmasına yol verilmir.

Müvafiq icra hakimiyyəti orqanı lazımi sənədləri aldıqdan sonra 15 gündən gec olmayaraq vəsatətlə müraciət edənə qəbul olunmuş qərar barədə yazılı məlumat verir.

3. Bu maddənin 1-ci bəndində nəzərdə tutulmuş hallarda müvafiq icra hakimiyyəti orqanının razılığı alınmadıqda təsərrüfat subyektlərinin yaradılması, yenidən təşkili və ləğv edilməsi müvafiq icra hakimiyyəti orqanının iddiası üzrə məhkəmənin müvafiq qərarı ilə etibarsız hesab edilə bilər.

## Daxili qoşunların statusu haqqında Azərbaycan Respublikasının Qanunu

*(8 fevral 1994-cü il)*

...

**Maddə 7. Azərbaycan Respublikasının Milli Məclisinin, Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin səlahiyyətləri**

Azərbaycan Respublikasının Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublika-

sının Prezidenti və Azərbaycan Respublikasının Nazirlər Kabineti daxili qoşunların fəaliyyətinin təmin olunması üçün onlara aid edilmiş məsələləri həll edirlər.

Azərbaycan Respublikasının Milli Məclisi:

a) daxili qoşunların statusunu, hüquq və vəzifələrini müəyyənləşdirən qanunvericilik aktlarını qəbul edir;

b) Azərbaycan Respublikası Prezidentinin təqdimatı əsasında daxili qoşunların strukturunu və sayını təsdiq edir;

c) daxili qoşunların hərbi qulluqçularının geyim formasını, hərbi rütbələrini, fərqlənmə nişanlarını müəyyənləşdirir, qanunvericilikdə nəzərdə tutulmuş qaydada daxili qoşunların fəaliyyətinə aid digər məsələlər üzrə qərarlar qəbul edir.

Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali baş komandanı:

a) daxili qoşunların strukturu və sayı haqqında təklifləri Azərbaycan Respublikasının Milli Məclisi təqdim edir;

b) Azərbaycan Respublikası daxili işlər nazirinin təqdimatı əsasında daxili qoşunların inkişaf, səfərbərlik, yerləşdirmə, tətbiq planlarını və ştatlarını təsdiq edir;

c) daxili qoşunları fövqəladə vəziyyətin hüquqi rejiminin təmin olunmasına cəlb etmək haqqında əmr verir;

ç) daxili qoşunların komandanını təyin (azad) edir;

d) qanunvericiliklə müəyyənləşdirilmiş qaydada daxili qoşunların fəaliyyətinə aid digər məsələləri həll edir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

a) daxili qoşunların fəaliyyətini təmin etmək üçün onları maddi-texniki vasitələrlə, silahla, xüsusi vasitələrlə və döyüş texnikası ilə təmin edir;

b) səfərbərlik elan edilərkən və müharibə dövründə nəqliyyat, rabitə vasitələrini və başqa maddi-texniki vasitələri hazırlayıb daxili qoşunlara vermək tapşırıqlarını, habelə digər səfərbərlik tapşırıqlarını müəyyənləşdirib Azərbaycan Respublikasının nazirliklərinə və baş idarələrinə, rayonların, şəhərlərin, şəhərdə rayonların icra hakimiyyəti orqanlarına, dövlət və bələdiyyə müəssisələrinə, idarələrə və təşkilatlara həvalə edir;

c) hərbi hissələrin və bölmələrin xüsusi hissələrə və bölmələrə aid edilməsinin əsaslarını müəyyənləşdirir;

ç) Azərbaycan Respublikasının daxili qoşunlar tərəfindən mühafizə edilməli olan mühüm dövlət obyektlərinin, kommunikasiya qurğularının və xüsusi yüklərin siyahısını müəyyənləşdirir;

d) Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq daxili qoşunların fəaliyyətini təmin etmək məqsədilə digər məsələlər üzrə müvafiq qərarlar qəbul edir.



# İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu

*(13 yanvar 1995-ci il, № 952)*

...

**Maddə 6. İnvestisiya fəaliyyəti subyektlərinin hüquqları**

1. Azərbaycan Respublikası ərazisində mülkiyyət formasından və təsərrüfat fəaliyyətinin növündən asılı olmayaraq investisiya fəaliyyətinin bütün subyektləri investisiya fəaliyyətinin həyata keçirilməsi sahəsində bərabər hüquqlara malikdirlər.

Bu Qanunla və ya Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə investisiya qoyulması qadağan edilən və ya məhdudlaşdırılan obyektlərdən başqa, hər hansı obyektə investisiya qoyulması investorun müstəsna hüququdur və qanunla qorunur.

2. İnvestor müstəqil surətdə investisiya qoyuluşunun məqsədini, istiqamətini, növünü və həcmini müəyyənləşdirir, onun həyata keçirilməsi üçün müqavilə əsasında, o cümlədən müsabiqə və hərrac yolu ilə fiziki və hüquqi şəxsləri investisiya fəaliyyətinin hər hansı iştirakçısı qismində cəlb edir.

3. Azərbaycan Respublikasının qanunvericilik aktlarına uyğun olaraq investor Azərbaycan Respublikasının ərazisində investisiyanın obyektlərinə və nəticələrinə sahiblik, istifadə və sərəncam vermək, həmçinin reinvestisiya və ticarət əməliyyatları həyata keçirmək hüquqlarına malikdir.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş mülkiyyət hüququ əmələ gətirməyən obyektlərə investisiya qoyulması sonradan onlara digər əşya hüquqları əsasında və ya belə obyektlərin istismarından əldə edilən gəlirdə investorun iştirakı hüququnu istisna etmir.

4. İnvestorun qərarı ilə investisiyaya və onun nəticələrinə sahiblik, istifadə və sərəncam hüquqları qanunla müəyyənləşdirilmiş qaydada digər fiziki və hüquqi şəxslərə verilə bilər. Hüquqların bu cür verilməsi zamanı yaranan qarşılıqlı münasibətləri onlar müstəqil surətdə müqavilə əsasında nizama salırlar.

5. İnvestor investisiya qoyuluşu üçün maliyyə vəsaitini kredit, qanunvericiliklə müəyyən edilmiş qaydada qiymətli kağızlar buraxılışı və borc kimi də cəlb edə bilər.

İnvestor öz öhdəliklərinə təminat vermək üçün yalnız mülkiyyət hüququ əsasında özünə məxsus olan əmlakı girov qoya bilər.

Azərbaycan Respublikası ərazisinin hüdüdlarından kənarda ipoteka krediti hesabına investor kimi çıxış edən dövlət müəssisələrinin investisiyaları üçün Azərbaycan dövləti tərəfindən təminat verilir.

6. Azərbaycan Respublikası qanunvericiliyinə zidd olmadıqda, investorun fiziki və hüquqi şəxslərdən birbaşa və ya vasitəçilik yolu ilə istənilən miqdarda və növdən olan əmlakı tərəflərin müəyyənləşdirdiyi qiymətlərlə və şərtlərlə almaq hüququ vardır.

7. Dövlət və bələdiyyə mülkiyyətinin, habelə başa çatdırılmamış tikinti obyektlərinin özəlləşdirilməsində investorlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş şərtlərlə və qaydada iştirak edə bilərlər.

**Maddə 7. İnvestisiya fəaliyyəti subyektlərinin vəzifələri**

1. İnvestisiya fəaliyyətinin subyektləri Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən olunmuş hallarda və qaydada müvafiq olaraq aşağıdakıları həyata keçirməyə borcludurlar:

maliyyə vəsaiti və maddi sərvətlər əsasında həyata keçirdikləri investisiyanın həcmi və maliyyələşdirilməsi mənbəyi barədə yerli banklara və ya maliyyə orqanlarına müvafiq orqanların arayışını təqdim etmək;

əsaslı tikinti və icazə tələb edən digər işlər üçün müvafiq dövlət orqanlarından və xüsusi xidmətlərdən zəruri icazə və ya razılıq almaq;

texnoloji, sanitariya-gigiyena, radiasiya, ekologiya və arxitektura tələblərinə əməl edilməsi baxımından investisiya layihələri üçün ekspertiza rəyi almaq;

Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada müəyyənləşdirilən norma və standartlara, habelə beynəlxalq norma və standartlara əməl etmək;

dövlət orqanlarının və vəzifəli şəxslərin öz səlahiyyətləri daxilində, Azərbaycan Respublikasının qanunvericilik aktlarına uyğun verdikləri tələbləri yerinə yetirmək;

müəyyənləşdirilmiş qaydada mühasibat və statistika hesabatları təqdim etmək;

haqsız rəqabətə yol verməmək və antiinhisar tənzimlənməsinin tələblərinə əməl etmək;

2. Müvafiq attestasiya tələb edən xüsusi növ işlərin yerinə yetirilməsi üçün investisiya fəaliyyətinin iştirakçıları lisenziya almalıdırlar. Belə işlərin siyahısını Azərbaycan Respublikasının Ali Soveti, onlara lisenziya verilməsinin qaydasını isə Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyənləşdirir.

## Aqrar islahatın əsasları haqqında Azərbaycan Respublikasının Qanunu

*(18 fevral 1995-ci il. № 976)*

...

**Maddə 4. Dövlət və bələdiyyə mülkiyyəti**

Dövlət mülkiyyətində, bir qayda olaraq, elmi tədqiqat və tədris müəssisələri, onların təcrübə bazaları; baytarlıq və bitki mühafizəsi obyektləri cins toxumçuluq və damazlıq təsərrüfatları, balıqartırma müəssisələri; təbiəti mühafizə obyektləri, qoruqları mühüm heyvandarlıq və quşçuluq kompleksləri, emal müəssisələri, meliorasiya və su təsərrüfatı obyektləri, kənd təsərrüfatı maşınları istehsalı və təmiri müəssisələri, maşın-sınaq stansiyaları və dövlət əhəmiyyətli digər obyektlər saxlanılır.

Aqrar bölmənin dövlət mülkiyyətində olan yerli əhəmiyyətli obyektləri bələdiyyə mülkiyyətinə verilə bilər. Bələdiyyə mülkiyyətinə mülkiyyətçilərin qərarı ilə digər əmlak da verilə bilər.

Dövlət mülkiyyətində saxlanılan və bələdiyyə mülkiyyətinə verilən obyektlərin siyahısını Azərbaycan Respublikası Prezidentinin təqdimatı əsasında Azərbaycan Respublikasının Ali Soveti təsdiq edir.

**Maddə 5. Torpaq islahatı**

İslahat torpaqların dövlət və bələdiyyə mülkiyyətinə ayrılmasını, müəyyən edilmiş normalar əsasında torpaqların xüsusi mülkiyyətə əvəzsiz verilməsini, mülkiyyət formasından asılı olmayaraq torpaq istifadəçilərinə təsərrüfat fəaliyyəti üçün bərabər şərait yaradılmasını nəzərdə tutur. Torpaq mülkiyyətçisinin Azərbaycan Respublikasının torpaq qanunvericiliyinə uyğun olaraq torpağı satmaq, bağışlamaq, dəyişmək, girov qoymaq, icarəyə və vərəsəliyə vermək, əlavə torpaq sahəsi satın almaq hüquqları vardır.

Torpaq islahatı zamanı ərazinin təbii-coğrafi şəraiti, əhalinin sıxlığı və kənd təsərrüfatı istehsalında iştirakı, torpaqların keyfiyyəti, torpaqdan istifadənin yerli xüsusiyyətləri nəzərə alınır, torpaqlardan təyinatına görə istifadə olunması və ətraf mühiti mühafizə tələbləri gözlənilir.

**Maddə 6. Meliorasiya və su təsərrüfatının islahatı**

İslahat meliorasiya və su təsərrüfatı obyektləri üzərində mülkiyyət münasibətlərini dəyişdirmək və suyun pullu istifadəsini tətbiq etməklə sudan istifadənin səmərəliliyini yüksəltmək məqsədilə aparılır.

İri su mənbələri, meliorasiya və suvarma sistemləri, onların istismarı müəssisələri və digər obyektlər dövlət mülkiyyətində saxlanılır.

Sudan İstifadə Edənlər Birliyinin xidmət göstərdiyi ərazidə yerləşən dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemləri müvafiq icra hakimiyyəti orqanının qərarı ilə birliyin uzunmüddətli istifadəsinə (20 ildən az olmayan müddətə) verilir. Sistemlərin istifadəyə verilməsi şərtləri və bu şərtlər pozulduğu halda onların geri alınması qaydası həmin qərarla müəyyən edilir.

Təsərrüfatdaxili meliorasiya və su təsərrüfatı obyektləri sovxoz və kolxozların (mülkiyyətçilərin) qərarı ilə bələdiyyə mülkiyyətinə verilə və ya islahat nəticəsində yaranan mülkiyyətçilərin sərəncamında saxlanıla bilər.

**Maddə 7. Emal sənayesinin və istehsal infrastrukturu obyektlərinin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi**

Bələdiyyə mülkiyyətinə daxil edilən emal müəssisələri satılır və ya səhmləşdirilir. Müəssisə satılarkən üstünlük kollektiv üzvlərinə və xammal istehsalçılarına verilir. Müəssisə səhmləşdirildikdə səhmlərin nəzarət zərfi xammal istehsalçılarına güzəştli şərtlərlə satılır, müəyyən hissəsi kollektiv üzvlərinə əvəzsiz veri-

lir. Qalan səhmlər ümumi qaydalarla satılır. Emal müəssisələrinin dəyərinin on faizə qədəri bələdiyyə mülkiyyətində qala bilər.

Dövlət mülkiyyətində olan emal müəssisələri özəlləşdirmə haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun özəlləşdirilir.

İstehsal infrastrukturunda əmlakın özəlləşdirilməsi emal müəssisələri üçün müəyyən edilən prinsiplərə uyğun həyata keçirilir.

**Maddə 8. Sosial infrastrukturda yeni mülkiyyət münasibətləri**

Sosial infrastrukturda mülkiyyət məsələləri əmlak payı almaq hüququ olan şəxslərin qərarı ilə həll edilir. Həmin obyektlərin əsas təyinatının dəyişdirilməsinə yol verilmir.

Bu zaman:

səhiyyə, bədən tərbiyəsi və idman obyektləri, uşaq bağçaları və körpələr evi, ümumtəhsil məktəbləri və digər obyektlər birgə sahibkarlığa əsaslanan xüsusi mülkiyyətdə qalır və ya bələdiyyə mülkiyyətinə verilir;

kommunal təsərrüfat, istilik və su sistemləri, məişət xidməti, ticarət, ictimai iaşə obyektləri satılır və ya birgə sahibkarlığa əsaslanan xüsusi mülkiyyətdə qalır, yaxud bələdiyyə mülkiyyətinə verilir;

mənzillər (evlər) mənzillərin özəlləşdirilməsi haqqında Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada kirayəçilərin mülkiyyətinə verilir.

İcarədə olan obyektlərlə bağlı münasibətlər icarə qanunvericiliyi ilə tənzimlənir.

## Sovxoz və kolxozların islahatı haqqında Azərbaycan Respublikasının Qanunu

*(18 fevral 1995-ci il, N 978)*

...

**Maddə 5. Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyası**

Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyasının tərkibinə aqrar-sənaye kompleksi idarəçiliyini həyata keçirən mərkəzi dövlət idarəetmə orqanlarının rəhbərləri, Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanlarının, Milli Bankın, Dövlət Sığorta Fondunun, Aqrar-Sənaye Kompleksi İşçiləri həmkarlar İttifaqının Respublika Komitəsinin, elmi idarələrin və ictimaiyyətin nümayəndələri daxil edilir.

Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyasını Azərbaycan Respublikası Prezidenti təşkil edir və komissiyanın sədrini təyin edir. Komissiya Azərbaycan Respublikası Prezidentinə hesabat verir.



Komissiya:

aqrar islahatın dövlət proqramını hazırlayır, Azərbaycan Respublikası Prezidentinin təsdiqinə verir və həyata keçirilməsini təşkil edir;

islahat qanunlarının tətbiqi üçün təlimatları, tövsiyələri və digər sənədləri, zəruri materialları hazırlayır, onlara əməl olunmasını təmin edir;

dövlət mülkiyyətində saxlanılan və bələdiyyə mülkiyyətinə verilən obyektlərin siyahısını müəyyənləşdirir və Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

islahatın maliyyə təminatı ilə əlaqədar təkliflər verir, ayrılan vəsaitlərin bölgüsünü aparır və təyinatı üzrə istifadəsini təmin edir;

Naxçıvan Muxtar Respublikasının, rayon və yerli aqrar islahat komissiyalarının əsasnamələrini hazırlayır və təsdiq edir;

islahatla əlaqədar daxil olmuş müraciətlərə baxır və s.

...

**Maddə 7. Rayon aqrar islahat komissiyası**

Rayon aqrar islahat komissiyasını rayon (şəhər) icra hakimiyyətinin başçısı təşkil edir. Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyası və ya Naxçıvan Muxtar Respublikası Aqrar İslahat Komissiyası rayon aqrar islahat komissiyasının tərkibi barədə sərəncamı təsdiq edir və onun sədrini təyin edir. Komissiya həmin vaxtdan fəaliyyətə başlayır.

Rayon aqrar islahat komissiyası müvafiq surətdə Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyasına və ya Naxçıvan Muxtar Respublikası Aqrar İslahat Komissiyasına hesabat verir.

Rayon aqrar islahat komissiyasının tərkibinə rayon (şəhər) icra hakimiyyətinin, rayon xalq deputatlar sovetinin, kənd təsərrüfatı idarəsinin, Dövlət Əmlak Komitəsinin, torpaq şöbəsinin, statistika idarəsinin, aqrar-sənaye kompleksi işçiləri həmkarlar ittifaqının rayon komitəsinin, təsərrüfatların, rayon ictimaiyyətinin nümayəndələri daxil edilir.

Komissiya:

rayon aqrar islahat proqramını hazırlayır və Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyasının (Naxçıvan Muxtar Respublikası Aqrar İslahat Komissiyasının) təsdiqinə təqdim edir;

rayon ərazisində aqrar islahatın aparılmasını təmin edir;

islahatın maliyyə təminatı ilə əlaqədar təkliflərini aidiyyəti üzrə müvafiq orqanlara təqdim edir və ayrılan vəsaitin təyinatı üzrə istifadəsini təmin edir;

bələdiyyə mülkiyyətinə veriləcək torpaq və əmlak haqqında təkliflərini (müvafiq nazirlik və baş idarələrin rəyləri ilə) Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyasına və ya Naxçıvan Muxtar Respublikası Aqrar İslahat Komissiyasına təqdim edir;

yerli aqrar islahat komissiyalarına səlahiyyətinə aid məsələlər üzrə zəruri normativ sənədləri və təlimatları çatdırır, komissiyaların üzvlərinə məsləhətlər verir;

islahatla əlaqədar daxil olmuş müraciətlərə baxır və s.

...

**Maddə 11. Sovxozlarda və digər dövlət kənd təsərrüfatı istehsalı müəssisələrində əmlak payının müəyyənləşdirilməsi**

Sovxozlarda və digər dövlət kənd təsərrüfatı istehsalı müəssisələrində əmlak payı aşağıdakı qaydada müəyyənləşdirilir:

- əmlak inventarlaşdırılır və qiymətləndirilir;
- müəssisənin debitor və kreditorlarla haqq-hesabı aparılır və əmək haqqı üzrə borclar ödənilir;
- əmlakdan pay almaq hüququ olan şəxslərin siyahısı müəyyənləşdirilir;
- müəssisənin əmlakında bölünməyən və bölünən hissələr müəyyənləşdirilir. Ümumi istifadəsi zəruri hesab edilən əmlak bölünməyən, yerdə qalan əmlak bölünən əmlaka aiddir;
- əmlak payları əmək fəaliyyəti nəzərə alınmaqla müəyyənləşdirilir və mülkiyyətçilərə verilir.

Əmlakın bölünməsi, satılması və bələdiyyə mülkiyyətinə verilməsi qaydalarını Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyası hazırlayır və Azərbaycan Respublikası Prezidenti təsdiq edir.

## Maliyyə-sənaye qrupları haqqında Azərbaycan Respublikasının Qanunu

*(23 aprel 1996, № 69-IQ)*

...

**Maddə 3. Maliyyə-sənaye qrupunun iştirakçıları**

1. Maliyyə-sənaye qrupunun yaradılmasına dair müqaviləni imzalayan hüquqi şəxslər və onlar tərəfindən təsis edilən maliyyə-sənaye qrupunun baş şirkəti və ya qrupu formalaşdıran əsas və törəmə müəssisələr maliyyə-sənaye qrupunun iştirakçıları hesab olunurlar.

2. Maliyyə-sənaye qrupunun tərkibinə ictimai və dini təşkilatlar istisna olmaqla, istənilən hüquqi şəxslər, o cümlədən xarici hüquqi şəxslər daxil ola bilər.

3. Maliyyə-sənaye qrupunun tərkibində istehsal və xidmət sahəsində fəaliyyət göstərən müəssisələrlə yanaşı, mütləq maliyyə-kredit təşkilatları da iştirak etməlidirlər.

4. Dövlət və bələdiyyə müəssisələri maliyyə-sənaye qrupunda onların əmlakının mülkiyyətçisi tərəfindən müəyyən edilmiş qayda və şərtlərlə iştirak edə bilərlər.



5. Dövlət və yerli özünüidarə orqanları maliyyə-sənaye qrupunun iştirakçıları ola bilməzlər.

6. Törəmə müəssisələr maliyyə-sənaye qrupunun tərkibinə yalnız onları təsis edən əsas müəssisələrlə birlikdə daxil ola bilərlər.

7. Maliyyə-sənaye qrupunun iştirakçısı olan müəssisə və təşkilatlar digər maliyyə-sənaye qruplarına daxil ola bilməzlər.

## Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

*(17 may 1996-cı il, № 74-IQ)*

Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin birinci hissəsinin 1-ci bəndinə əsasən öz işini təşkil etmək məqsədilə Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi təsdiq edilsin (əlavə olunur).

2. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

## Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi

...

**Maddə 21-1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin hesabatı, Azərbaycan Respublikasının Hesablama Palatasının illik hesabatı, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) illik məruzəsi, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi**

"Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 1-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti hər il Azərbaycan Respublikası Milli Məclisinin yaz sessiyasının beşinci iclasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin fəaliyyəti haqqında hesabat verir.

Azərbaycan Respublikası Hesablama Palatasının Daxili Nizamnaməsinin 25.3-cü maddəsinə uyğun olaraq Hesablama Palatası onun fəaliyyəti haqqında illik hesabatları Azərbaycan Respublikası Milli Məclisinə təqdim edir.

"Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 14.1-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Azərbaycan Respublikası Milli Məclisi qarşısında illik məruzə ilə çıxış edir.

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə uyğun olaraq bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan hər ilin sonunda öz fəaliyyəti haqqında Azərbaycan Respublikasının Milli Məclisinə illik məruzə təqdim edir. Bu məruzədə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan bələdiyyələrin fəaliyyətini tənzimləyən qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi ilə bağlı təkliflər verə bilər.

## Meliorasiya və irriqasiya haqqında Azərbaycan Respublikasının Qanunu

*(5 iyun 1996-cı il, № 116-IQ)*

...

**Maddə 7. Bələdiyyə mülkiyyətində olan meliorasiya və irriqasiya sistemləri**

Bələdiyyə mülkiyyətinə müvafiq ərazi vahidi daxilində dövlət mülkiyyətində, habelə fiziki və hüquqi şəxslərin mülkiyyətində və Birliklərin istifadəsində olmayan meliorasiya və irriqasiya sistemləri daxildir.

**Maddə 11. Meliorasiya və irriqasiya sahəsində bələdiyyələrin səlahiyyətləri**

Meliorasiya və irriqasiya sahəsində bələdiyyələrin səlahiyyətləri aşağıdakılardır:

bələdiyyə mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinə sahiblik, onlardan istifadə və onlar barədə sərəncam vermək;

Birliklərin fəaliyyətini dəstəkləmək;

meliorasiya və irriqasiya tədbirləri həyata keçirilərkən müvafiq ərazilərdə ətraf mühitin mühafizəsi tələblərinə əməl olunmasına nəzarət etmək;

meliorasiya və irriqasiya sistemləri layihələrinin ekspertizasında iştirak etmək;

öz səlahiyyətləri daxilində meliorasiya və irriqasiya sahəsində fiziki və hüquqi şəxslərin fəaliyyətini əlaqələndirmək;

qanunvericiliklə müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirmək.

...

**Maddə 19. Meliorasiya və irriqasiya tədbirlərinin planlaşdırılması**

Meliorasiya və irriqasiya tədbirlərinin planlaşdırılması meliorasiya və irriqasiya üzrə müvafiq icra hakimiyyəti orqanı tərəfindən meliorasiya və irriqasiya sahəsində respublika və regional (rayon) proqramları, habelə bələdiyyələrin, birliklərin torpaq sahəsinin mülkiyyətçiləri və istifadəçiləri olan fiziki və hüquqi şəxslərin sifarişləri əsasında aparılır.



Meliorasiyanın bu və ya digər növünün seçilməsi müvafiq ərazinin təbii-iqlim xüsusiyyətlərindən və kənd təsərrüfatının ehtiyaclarından asılı olaraq müəyyən edilir.

Bələdiyyələrin, torpaq sahəsinin mülkiyyətçiləri və istifadəçiləri olan fiziki və hüquqi şəxslərin sifarişi ilə meliorasiya və irriqasiya tədbirləri planlaşdırılarkən meliorasiyanın növləri və meliorasiya və irriqasiya tədbirinin miqyası müvafiq standartlara, normalara və qaydalara uyğun müəyyən edilir.

...

**Maddə 26. Meliorasiya və irriqasiya sistemlərinin istismarı**

Meliorasiya və irriqasiya sistemlərini, qoruyucu meşə əkinlərini istismar edən fiziki və hüquqi şəxslər həmin obyektləri saz (lazımi) vəziyyətdə saxlamalı və onların korlanmasına yol verməməlidirlər.

Meliorasiya və irriqasiya sistemlərinin, qoruyucu meşə əkinlərinin saz (lazımi) vəziyyətdə saxlanması:

dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemləri (birliklərin istifadəsinə verilən sistemlər istisna olmaqla), qoruyucu meşə əkinləri üzrə – meliorasiya və ya irriqasiya üzrə müvafiq icra hakimiyyəti orqanı;

birliklərin istifadəsinə verilən dövlət meliorasiya və irriqasiya sistemləri, qoruyucu meşə əkinləri üzrə – birliklər;

bələdiyyə mülkiyyətində olan meliorasiya və irriqasiya sistemləri, qoruyucu meşə əkinləri üzrə – bələdiyyələr;

ümumi və fərdi istifadədə, fiziki və hüquqi şəxslərin mülkiyyətində olan meliorasiya və irriqasiya sistemləri, qoruyucu meşə əkinləri üzrə – həmin obyektlərin mülkiyyətçiləri və istifadəçiləri tərəfindən təşkil edilir.

Meliorasiya və irriqasiya sistemlərinin istismarı və qoruyucu meşə əkinlərinin saxlanması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Meliorasiya və irriqasiya sistemlərinin istismarı və qoruyucu meşə əkinlərinin saxlanması qaydalarına riayət etmək bütün fiziki və hüquqi şəxslər üçün məcburidir.

...

**Maddə 28. Meliorasiya və irriqasiya tədbirlərinin maliyyələşdirilməsinin əsasları**

Meliorasiya və irriqasiya tədbirləri dövlət büdcəsinin, habelə suvarılan və meliorasiya olunmuş (olunacaq) torpaqların mülkiyyətçiləri və ya istifadəçiləri olan bələdiyyələrin, Birliklərin, fiziki və hüquqi şəxslərin vəsaiti, suvarma suyuna ödənişlər və qanunla qadağan olunmayan digər vəsaitlər hesabına maliyyələşdirilir.

...

**Maddə 30. Meliorasiya və irriqasiya tədbirlərinin maliyyələşdirilməsində bələdiyyələrin, fiziki və hüquqi şəxslərin iştirakı**

Bələdiyyələrin, torpaq sahələrinin mülkiyyətçiləri və ya istifadəçiləri olan fiziki və hüquqi şəxslərin sifarişləri əsasında aparılan meliorasiya və irriqasiya tədbirləri sifarişçilər tərəfindən maliyyələşdirilir.

# Torpaq islahatı haqqında Azərbaycan Respublikasının Qanunu

*(16 iyul 1996-cı il, № 155-IQ)*

**Maddə 1. Torpaq islahatının məqsədi və vəzifələri**

Torpaq islahatının məqsədi iqtisadi azadlıq və sosial ədalət prinsipləri əsasında torpaq üzərində yeni mülkiyyət münasibətlərini yaratmaq, bazar iqtisadiyyatını və sahibkarlıq təşəbbüsünü inkişaf etdirmək, ölkənin iqtisadi müstəqilliyinə, o cümlədən ərzaq təminatına nail olmaq və nəticə etibarı ilə Azərbaycan xalqının maddi rifahını yüksəltməkdən ibarətdir.

Torpaq islahatının vəzifələri Azərbaycan Respublikası ərazisində dövlət torpaqlarının müəyyən edilməsini, torpaqların bələdiyyə və xüsusi mülkiyyətə verilməsini, mülkiyyətçilərin torpağa sahiblik, istifadə və sərəncam hüquqlarını təmin etməkdir.

...

**Maddə 3. Torpaq islahatının obyekti**

Torpaq islahatının obyekti Azərbaycan Respublikasının vahid torpaq fondudur.

Torpaq islahatı zamanı vahid torpaq fondunda:

dövlət mülkiyyətində saxlanılan torpaqlar (dövlət torpaqları);

bələdiyyə mülkiyyətinə verilən torpaqlar (bələdiyyə torpaqları);

xüsusi mülkiyyətə verilən torpaqlar müəyyən edilir.

...

**Maddə 6. Dövlət torpaqları**

Dövlət mülkiyyətində aşağıdakı torpaqlar saxlanılır:

1) dövlət hakimiyyət orqanlarının yerləşdiyi torpaqlar;

2) dövlət obyektlərinin - dağ-mədən sənayesinin, təsdiq edilmiş faydalı qazıntı yataqlarının, vahid energetika sisteminin, magistral boru kəmərlərinin, nəqliyyat, rabitə və müdafiə obyektlərinin, dövlət sərhəd zolaqlarının, mühüm meliorasiya və su təsərrüfatı obyektlərinin yerləşdiyi torpaqlar;

3) yay və qış otlaqlarının, mal-qara düşərgələrinin və köç yollarının torpaqları;

4) meşə fondu torpaqları (dövlət kənd təsərrüfatı müəssisələrinin meşələri də daxil olmaqla);

5) Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin su fondu torpaqları;

6) Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 80-130 metrlik zolağının altında olan torpaqlar;

7) təbiəti mühafizə, təbii-qoruq, sağlamlaşdırma, istirahət, tarix-mədəniyyət təyinatlı torpaqlar, habelə üzərində təsərrüfat fəaliyyəti qadağan edilmiş qanunla qorunan ərazilərin torpaqları;



8) dövlət elmi-tədqiqat və tədris müəssisələrinin, onların təcrübə bazalarının, maşın-sınaq stansiyalarının, dövlət sort-sınaq xidmətinin, toxumçuluq və damazlıq təsərrüfatlarının torpaqları;

9) dövlət müəssisə, idarə və təşkilatlarının daimi istifadəsində olan və ya dövlət obyektlərinin tikintisi layihələşdirilmiş torpaqlar;

10) dövlət ehtiyat fondu torpaqları.

Göstərilən torpaqlar dövlətin müstəsna mülkiyyətindədir, onlar qanunvericilikdə müəyyən olunmuş qaydada istifadəyə və icarəyə verilə bilər.

Həmin torpaqların bələdiyyə və xüsusi mülkiyyətə verilməsi qanunla müəyyən edilir.

Dövlət torpaqlarının istifadəsi və mühafizəsi sahəsində dövlət idarəetməsini öz səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanları həyata keçirir.

**Maddə 7. Bələdiyyə torpaqları**

1. Müvafiq ərazi vahidi daxilində dövlət mülkiyyətində saxlanılan və xüsusi mülkiyyətə verilən torpaqlar çıxılmaqla qalan torpaqlar bələdiyyə mülkiyyətinə verilir.

Bələdiyyə mülkiyyətinə verilən torpaqlara daxildir:

ümumi istifadədə olan torpaqlar;

fiziki və hüquqi şəxslərin istifadəsində olan torpaqlar;

ehtiyat fondu torpaqları.

Ümumi istifadədə olan torpaqlara, bir qayda olaraq, şəhərlərin, qəsəbələrin və kənd yaşayış məntəqələrinin - küçələrin, meydanların, parkların, meşə-parkların, sututarların, stadionların, idman meydançalarının altındakı, habelə əhalinin mal-qarası üçün örüş sahələri, yerli əhəmiyyətli və təsərrüfatdaxili yolların, tarlaqoruyucu meşə zolaqlarının, yerli əhəmiyyətli su təsərrüfatı obyektlərinin, hidrotexniki qurğuların və ümumi istifadədə olan digər obyektlərin yerləşdiyi torpaqlar aiddir.

Fiziki və hüquqi şəxslərin istifadəsində olan torpaqlara onların daimi və ya müvəqqəti - (qısamüddətli və uzunmüddətli) istifadəsində, eləcə də icarəsində olan bələdiyyə torpaqları daxildir.

Bələdiyyə ehtiyat fondu torpaqları aşağıdakılardır:

yaşayış məntəqələrinin perspektiv inkişafı üçün ayrılan torpaqlar;

hüquqi və fiziki şəxslərin istifadə və icarə hüququna xitam verilən bələdiyyə torpaqları;

ehtiyat məqsədləri daşıyan digər bələdiyyə torpaqları.

2. Bələdiyyənin ehtiyat fondunun torpaqları qanunvericiliyə uyğun olaraq ümumi istifadəyə, fiziki və hüquqi şəxslərin istifadəsinə, icarəsinə və Azərbaycan Respublikası vətəndaşlarının və hüquqi şəxslərinin mülkiyyətinə verilə bilər.

Bələdiyyənin ehtiyat fondunun kənd təsərrüfatına yararlı torpaqları kənd təsərrüfatı istehsalı üçün yalnız istifadəyə və icarəyə aşağıdakı növbəliliyə əməl etməklə verilir:

müvafiq ərazidə müvəqqəti məskunlaşmış məcburi köçkünlər;

Azərbaycan Respublikasının müvafiq rayonunun (şəhərinin) ərazisində yaşayan torpaq payı almamış fiziki və hüquqi şəxslər;

müvafiq ərazidə torpaq payı almış fiziki və hüquqi şəxslər;

Azərbaycan Respublikasının digər fiziki və hüquqi şəxsləri;

əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, xarici ölkələrin hüquqi şəxsləri.

Kənd təsərrüfatı istehsalı üçün müvəqqəti istifadəyə və icarəyə verilən torpaq sahələrinin normalarını bələdiyyələr müəyyən edir.

3. Bələdiyyə mülkiyyətində olan torpaqlara sərəncam verilməsini, həmin torpaqların istifadəsi və mühafizəsi sahəsində idarəetməni bələdiyyələr həyata keçirirlər.

**Maddə 8. Xüsusi mülkiyyətdə olan torpaqlar**

Xüsusi mülkiyyətdə olan torpaqlara dövlət və bələdiyyə torpaqlarının özəlləşdirilməsi, torpaqların alqı-satqısı, vərəsəliyə keçməsi, bağışlanması, dəyişdirilməsi və torpaqla bağlı digər əqdlərin bağlanması, habelə torpaqların hüquqi şəxslərin nizamnamə (pay) fonduna verilməsi əsasında üzərində fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyət hüququ yaranmış torpaq sahələri aiddir.

...

**Maddə 11. Sovxoz və kolxozların özəlləşdirilən torpaqları**

1. Sovxozların (dövlət mülkiyyətində saxlanan müəssisələr istisna olmaqla), kolxozların özəlləşdirilən torpaqları onların daimi istifadəsindəki torpaqlarından bələdiyyənin ehtiyat fonduna ayrılan torpaqlar çıxılmaqla müəyyən edilir.

Sovxozların bazasında dövlət kənd təsərrüfatı istehsalı müəssisəsi yaradıldıqda həmin ərazidə özəlləşdirilən torpaqlar yeni müəssisənin əsas istehsal məqsədləri üçün tələb olunan və bələdiyyənin ehtiyat fonduna verilən torpaqlar çıxılmaqla müəyyən edilir.

İslahat zamanı bələdiyyənin ehtiyat fonduna sovxoz və kolxozların kənd təsərrüfatına yararlı torpaqlarının 5 faizdən çox olmayan hissəsi, kənd təsərrüfatına az yararlı, yararsız torpaqları bütövlükdə ayrılır.

Bələdiyyə ehtiyat fonduna ayrılan kənd təsərrüfatına yararlı torpaqların ölçüsü və yeri yerli islahat komissiyaları ilə birlikdə rayon aqrar islahat komissiyaları tərəfindən sovxozun və ya kolxozun torpaq ehtiyatlarından, torpaq payı almaq hüququ olanların sayından və rayon üzrə adambaşına düşən orta torpaq payından asılı olaraq müəyyən edilir.

2. Yardımçı kənd təsərrüfatı üçün sovxoz və kolxozların ərazisindən nazirliklərə, komitələrə, şirkətlərə, birliklərə, müəssisələrə, idarələrə və təşkilatlara verilmiş torpaqlar Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi qaydada onların istifadəsində saxlanılır, yaxud bütövlükdə və ya qismən əvvəlki istifadəçilərinə qaytarılır.

3. Bu qanun qüvvəyə mindiyi günədək sovxozun və ya kolxozun torpaqlarında yaradılmış təsərrüfatlararası müəssisələrin, kooperativlərin, kiçik müəssisələrin, kəndli (fermer) təsərrüfatlarının və digər kənd təsərrüfatı müəssisələrinin torpaq sahələrinin bu qanunun 13-cü maddəsində müəyyən edilən torpaq paylarından artıq hissəsi özəlləşdirilən torpaqlara, təsərrüfatlararası müəssisələrdə isə payçı təsərrüfatların torpaqlarına daxil edilir. Həmin müəssisələrin torpaq sahələri torpaq payından az olduqda onlara əlavə torpaq verilir.

...

**Maddə 19. Torpaqların alqı-satqısının ümumi qaydaları və şərtləri**

Bələdiyyə ehtiyat fondunun özəlləşdirilə bilən torpaqları, Azərbaycan Respublikası vətəndaşlarının və hüquqi şəxslərinin mülkiyyətində olan torpaqlar alqı-satqı müqavilələrinin predmeti ola bilər.

Azərbaycan Respublikasında torpaq sahələri üzərində mülkiyyət hüququ mülkiyyətçilərin və ya onların vəkil etdiyi orqanların qərarı (şəxslərin razılığı) ilə bilavasitə, torpaq hərracları və müsabiqələri vasitəsilə alınıb satıla bilər.

Bu Qanun qüvvəyə mindiyi gündən sonra yaşayış evi, həyətyanı və bağ sahəsi üçün Azərbaycan Respublikası vətəndaşlarının mülkiyyətinə bələdiyyənin ehtiyat fondundan torpaq sahələri müəyyən edilmiş normalara uyğun olaraq satılır. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə əlil olmuş şəxslərə və həlak olanların ailəsinə, *ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçulara (8)* bu məqsəd üçün torpaq sahələri bir dəfə pulsuz verilir.

Azərbaycan Respublikası vətəndaşları və hüquqi şəxsləri qeyri-kənd təsərrüfatı ehtiyacları üçün bələdiyyənin ehtiyat fondunun kənd təsərrüfatına yararsız torpaqlarını texniki, tikinti və digər müvafiq normativlərə uyğun olaraq müəyyən edilmiş ölçüdə satın ala bilərlər.

Bələdiyyənin ehtiyat fondunun kənd təsərrüfatına az yararlı və ya yararsız torpaqlarını öz vəsaitləri hesabına yararlı hala salmaqla kənd təsərrüfatı məhsulları istehsal etmək istəyən Azərbaycan Respublikası vətəndaşlarının və hüquqi şəxslərinin mülkiyyətinə torpaq sahələrinin verilməsində (satılmasında) qanunvericiliklə müəyyən edilmiş qaydada güzəştlər tətbiq edilir.

Dövlət, bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin hər hansı hüquqda fiziki və hüquqi şəxslərə verilməsi müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin qərarı və tərəflər arasında bağlanmış müqavilə əsasında həyata keçirilir. Xüsusi mülkiyyətdə olan bütün torpaqlar üzərində bütün hüquqların başqasına keçməsi isə tərəflər arasında bağlanmış və notarial qaydada təsdiq edilmiş müqavilə əsasında həyata keçirilir.

Torpaqların alqı-satqısının digər xüsusiyyətləri Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir.

Torpağa mülkiyyət hüququ qanunvericilikdə nəzərdə tutulan qaydada müvafiq dövlət orqanı tərəfindən qeydə alınır. Torpağa mülkiyyət hüquqi qanunvericiliklə müəyyən edilmiş qaydada daşınmaz əmlakın dövlət reyestrində qeydə alınır.

...

**Maddə 25. Keçid müddəaları**

Azərbaycan Respublikasında bələdiyyə orqanları formalaşana qədər bu qanunla bələdiyyələrə ayrılan torpaqların idarə olunması müvafiq dövlət icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının Torpaq Məcəlləsi dəyişilənədək bu qanuna zidd olmayan hissədə tətbiq edilir.

2001-ci il yanvarın 1-dək yerli icra hakimiyyəti orqanlarının bələdiyyələrin ehtiyat fondundan yaşayış evi, həyətyanı və bağ sahələri üçün Azərbaycan Respublikası vətəndaşlarına qanunvericiliyə uyğun olaraq verdiyi torpaq sahələri barədə bələdiyyələr tərəfindən həmin torpaq sahələrinin geri qaytarılmasına dair iddialar qəbul edilə bilməz. Bu Qanunun 19-cu maddəsinin ikinci hissəsinin birinci cümləsində nəzərdə tutulmuş səlahiyyətləri bələdiyyələr 2001-ci il yanvarın 1-dən etibarən həyata keçirir.

## Toxumçuluq haqqında Azərbaycan Respublikasının Qanunu

*(11 mart 1997-ci il, № 257- IQ)*

...

**Maddə 16. Dövlət toxumçuluq müəssisələri**

Dövlət toxumçuluq müəssisələri öz fəaliyyətlərini təsərrüfat hesabı və özünümaliyyələşdirmə prinsipi ilə həyata keçirirlər. Toxumçuluğun inkişafını dəstəkləmək üçün dövlət büdcəsindən bu sahəyə məqsədli vəsaitlər ayrıla bilər. Dövlət toxumçuluq xidməti belə müəssisələrə yalnız onların əsas fəaliyyət istiqamətlərinə aid məhsullara sifariş müəyyən edir, digər məhsullara müəssisə sərbəst sərəncam verir.

Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla dövlət toxumçuluq müəssisələrinin fəaliyyətinə və idarə edilməsinə bələdiyyə və digər orqanların qarışmasına yol verilmir.

Aqrar islahatı zamanı dövlət toxumçuluq müəssisələrinin təşkilati-hüquqi formasının dəyişdirilməsi "Aqrar islahatının əsasları haqqında" və "Sovxoz və kolxozların islahatı haqqında" Azərbaycan Respublikasının Qanunları ilə tənzimlənir.



## Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının Qanunu

*(26 iyun 1997, № 360-IQ)*

**Maddə 5. Qeyri-dövlət səhiyyə sistemi**

Qeyri-dövlət səhiyyə sisteminə qanunvericilikdə müəyyən olunmuş qaydada fəaliyyət göstərən və əmlakı xüsusi mülkiyyətə, yaxud icarə müqaviləsi əsasında istifadə olunan mülkiyyətə əsaslanan özəl tibb müəssisələri, o cümlədən əmlakını bələdiyyə mülkiyyəti təşkil edən tibb və əczaçılıq müəssisələri, özəl tibbi praktika və əczaçılıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər daxildir.

...

**Maddə 16. Əhalinin sağlamlığının qorunması sahəsində ailənin hüquqları**

Dövlət ailə üzvlərinin sağlamlığını qorumaq qayğısını öz öhdəsinə götürür.

Hər bir vətəndaş ailənin planlaşdırılması, ətrafdakılar üçün təhlükə törədən xəstəliklərin mövcudluğu məsələlərinə və ailə-nikah münasibətlərinin tibbi-psixoloji cəhətlərinə dair, habelə nəsildə mümkün olan irsi xəstəliklərə yol verməmək məqsədilə yaşayış yerindəki dövlət və bələdiyyə tibb müəssisələrində pulsuz məsləhətlər almaq, müayinədən keçmək və dispanser nəzarətində olmaq hüququna malikdir.

Uşaqlı ailələrin (ilk növbədə əlil uşaqları və valideyn himayəsindən məhrum uşaqları böyüdən natamam ailələrin) əhalinin sağlamlığının qorunması sahəsində qanunvericilikdə müəyyən edilmiş güzəştlərdən istifadə etmək hüququ vardır.

14 yaşına çatmayan xəstə uşağa qulluq edilməsinə görə istər ambulator, istərsə də stasionar müalicə zamanı uşağın qulluğa ehtiyacı olan müddətədək valideynlərdən birinə və ya ailənin başqa bir üzvünə qanunvericilikdə müəyyən edilmiş müavinət verilir.

Yetkinlik yaşına çatmayan şəxs postvaksinal fəsadla əlaqədar xəstəliyə tutulduqda ona qanunvericilikdə müəyyən edilən qaydada əlillik qrupu verilənədək onun valideynlərindən biri və ya qanuni nümayəndəsi fasiləsiz iş stajından asılı olmayaraq, orta əmək haqqının 100 faizi miqdarında müavinət almaq hüququna malikdir.

## Reklam haqqında Azərbaycan Respublikasının Qanunu

*(3 oktyabr 1997-ci il, № 376-IQD)*

...

**Maddə 15. Küçə (divar) reklamının xüsusiyyətləri**

1. Şəhər və kənd yaşayış məntəqələrində, digər ərazilərdə reklam yayımı plakat, stend, işıq tabloları və sabit yerləşdirilən digər texniki qurğular şəklində, bu maddənin 2-ci, 3-cü və 4-cü bəndlərində göstərilən qaydalarda həyata keçirilə bilər. Küçə reklamı yol hərəkət nişanları ilə oxşar olmamalı, yollarda görmə zonalarını və təhlükəsizliyi azaltmamalıdır.

2. Şəhər, kənd, yaşayış məntəqələrində və başqa ərazilərdə küçə reklamını müvafiq icra hakimiyyəti orqanlarının icazəsi ilə yerləşdirmək olar.

3. Avtomobil yollarının təhkim zolağında reklam lövhələri, yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı olmayan digər məlumat işarələri və göstəriciləri müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırılmadıqda, avtomobil yollarının mülkiyyətçisi ilə reklam yayıcısı arasında bağlanılan müqavilə əsasında yerləşdirilə bilər.

4. Küçə reklamlarının yerləşdirilməsi, yayımı və reklam tarifi zonaları üzrə ödənilən haqqın minimum miqdarının hesablanması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

Bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə yerləşdirilən küçə reklamına görə reklam yayıcısı tərəfindən müqavilə əsasında ödənilən haqq müvafiq bələdiyyələrin hesabına köçürülür; dövlət mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə yerləşdirilən küçə reklamına görə reklam yayıcısı tərəfindən müqavilə əsasında ödənilən haqq isə müvafiq icra hakimiyyəti orqanının hesabına daxil edilir.

Reklam yayıcıları xüsusi mülkiyyətdə olan torpaqlarda, binalarda və digər obyektlərdə küçə reklamını onların mülkiyyətçisi (mülkiyyətçiləri) ilə bağlanılan müqavilə (bu maddənin 2-ci və 3-cü bəndlərində göstərilən tələblər nəzərə alınmaqla) əsasında yerləşdirə bilərlər.

5. Qüvvədən düşüb.



## "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

*(3 oktyabr 1997-ci il, 377-IQ)*

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə təsdiq edilsin (əlavə olunur).
2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının 1997-ci il*
*3 oktyabr tarixli, 377-IQ nömrəli qanunu ilə*
***təsdiq edilmişdir***

...

### *VIII fəsil*
### Məzuniyyətlər

118. Məzuniyyət aşağıdakı hallarda uzadıla bilər:

a) nəqliyyatın hərəkətində fasilə yaradıldıqda və ya hərbi qulluqçunun xəstəliyinə görə məzuniyyət yerinə gec çatdıqda. Bu zaman dəmir yolu və su nəqliyyatı ilə hərəkət edərkən yaxınlıqdakı dəmir yolu (su) sahəsi (stansiya, liman, port) hərbi komendantı, torpaq yolla gedərkən isə qarnizon komendantı, hərbi komissarlıq, yerli bələdiyyə orqanı tərəfindən faktiki gecikmə müddəti məzuniyyət biletində (vəsiqəsində) qeyd edilməli və ya gecikmənin səbəbi barədə ayrıca arayış verilməlidir;

b) hərbi qulluqçunun ailəsi yanğına və ya təbii fəlakətə məruz qaldıqda, ailə üzvlərinin (ata, ana, arvad, uşaqlar, qardaşlar, bacılar) və tərbiyəsi altında olduğu başqa şəxslərin ölümü və ağır xəstələnməsi ilə bağlı – 7 günə qədər;

v) nəqliyyatın hərəkətində fasilə yarandıqda və ya hərbi qulluqçunun xəstəliyi üzündən məzuniyyət keçirildiyi yerdən geri qayıtmağa maneçilik yarandıqda – həmin maneçiliyin aradan qaldırılmasına lazım olan müddət. Məzuniyyət hərbi qulluqçunun məzuniyyət keçirdiyi yerdə qarnizon komendantı və ya hərbi komissar tərəfindən ləngimənin səbəbləri araşdırıldıqdan sonra uzadıla bilər.

Gecikmənin səbəbləri və müddəti barədə qarnizon komendantı (hərbi komissar) dərhal hərbi qulluqçunun məxsus olduğu hərbi hissənin komandirinə məlumat verir və hərbi qulluqçunun məzuniyyət biletində (vəsiqəsində) bu barədə qeydlər edir.

Müəyyən edilən vaxtda məzuniyyətdən geri qayıtmayan və gecikmənin səbəbləri barədə məlumat verilməyən hərbi qulluqçu barədə hərbi hissə komandiri dərhal hərbi qulluqçunun məzuniyyət keçirdiyi yerin qarnizon komendantına (hərbi komissara) sorğu göndərir.

"Hərbi qulluqçu məzuniyyəti keçirəcəyi yerə gəlib çıxmayıb və ya oradan öz hərbi hissəsinə vaxtında yola düşüb" cavabı alınarsa, hərbi hissə komandiri müəyyən edilmiş qaydada axtarış təşkil edir.

129. 10 günədək qısa müddətli məzuniyyətlər dinc və müharibə dövründə hərbi qulluqçulara həvəsləndirmə qaydasında (dinc dövrdə yalnız müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına) və ailə vəziyyətinə görə verilir.

Qısa müddətli məzuniyyət növbəti məzuniyyətin hesabına daxil edilmir.

Dinc dövrdə qısa müddətli məzuniyyətlər həvəsləndirmə qaydasında müddətli həqiqi hərbi xidmət zamanı əsgər, matros və çavuşlara bir dəfə verilə bilər.

Müharibə dövründə qısa müddətli məzuniyyət bu əsasnamənin 194-cü maddəsinin tələblərinə uyğun olaraq hərbi qulluqçuların bütün kateqoriyalarına verilə bilər.

Dinc və müharibə dövründə ailə vəziyyətinə görə qısa müddətli məzuniyyət aşağıdakı hallarda verilə bilər:

a) hərbi qulluqçuların ailə üzvlərinin (atası, anası, arvadı, əri, uşaqları, qardaşları, bacıları) və himayəsində olduğu digər şəxslər ağır xəstələndikdə və vəfat etdikdə;

b) hərbi qulluqçunun ailəsi yanğın və ya təbii fəlakət hallarına məruz qaldıqda;

v) hərbi hissə komandirinin rəyinə görə hərbi qulluqçunun ailədə şəxsən olması zəruri olduğu digər xüsusi hallarda.

Ailə vəziyyətinə görə məzuniyyət verilməsi zərurəti hərbi qulluqçunun ailəsinin yaşayış yeri üzrə hərbi komissarlıq və ya yerli bələdiyyə orqanı, ya da müalicə müəssisəsi tərəfindən təsdiq edilmiş sənədlə sübut edilməlidir.

Sənədlər məzuniyyət barədə vəsatət qaldırıldığı zaman və ya heç olmasa məzuniyyətdən qayıtdıqdan sonra təqdim olunmalıdır.

## *IX fəsil*
## Ezamiyyətlər

141. Ezamiyyətə göndərilərkən və qayıdarkən ezamiyyət vəsiqəsində göstərilmiş marşrutdan kənara çıxmağa və aralıq məntəqələrdə özbaşına dayanmağa icazə verilmir.

Ezamiyyətə gedən şəxsdən asılı olmayan səbəblərə görə yolda gecikmələr baş verərsə, onda ezam olunan dəmir yolu və ya su nəqliyyatı ilə hərəkət edərsə, ən yaxında yerləşən dəmir (su) yolu sahəsi (stansiyası, limanı, portu) komendantından, bunlar olmazsa, dəmir yolu stansiyası (liman) rəhbərliyindən, avtomobil nəqliyyatı ilə gedəndə isə qarnizon komendantından, hərbi komissarlıqdan, yerli bələdiyyə orqanından gecikmənin səbəbləri barədə ayrıca arayış alır və ya ezamiyyət vəsiqəsində xüsusi qeyd edilir.

142. Ezam olunan yolda gedərkən sənədləri itirərsə, bu barədə ən yaxın dəmir (su) yolu sahəsi (stansiyası, limanı, portu) hərbi komendantına, avtomobil nəqliyyatı ilə getdikdə qarnizon komendantına, hərbi komissarlığa, yerli bələdiyyə orqanına xəbər verməlidir.



## *X fəsil*
## Hərbi qulluqçularn və hərbi vəzifəlilərin hüquqları, vəzifələri və məsuliyyəti

147. Təlim və yoxlama toplanışlarına çağırılmış hərbi qulluqçular və hərbi vəzifəlilər dövlət hesabına Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş normalara uyğun olaraq pul və natural təminat (və ya pul kompensasiyası) alırlar.

Hərbi xidmətin istənilən növünə çağırılmış və ya qəbul edilmiş işçilər, həmçinin təqaüd alan ali təhsil müəssisələrinin tələbələrinə, orta ixtisas təhsili müəssisələri və məktəblərinin şagirdlərinə müəyyən olunmuş qaydada işdənçıxarma müavinəti ödənilir.

Hərbi qulluqçular (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa) və onların ailələri xidmət yerinə gəlməsindən 3 aydan gec olmayaraq xidməti mənzil ilə təmin edilirlər və ondan istifadə haqqını qüvvədə olan qanunvericiliyə uyğun olaraq güzəştlə ödəyirlər.

Hərbi xidmətdə olan, ehtiyata, yaxud istefaya buraxılmış "Polkovnik", ona bərabər və ondan yuxarı rütbəli zabitlərə, alimlik dərəcəsi olan hərbi qulluqçulara Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş əlavə yaşayış sahəsi verilir.

Xidməti mənzillər Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının fondundan ayrılır. Xidməti mənzil alana kimi hərbi qulluqçular və onların ailə üzvləri xidmət yeri üzrə (hərbi hissənin ünvanına, müvəqqəti yaşayış ünvanına) qeydiyyata alınır, onlara müvəqqəti yaşayış sahəsinin kirayəsi üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş pul kompensasiyası ödənilir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrində 15 təqvim ili və daha çox xidmət etmiş xidməti mənzillərdə yaşayan və ya yaşayış sahəsi olmayan hərbi qulluqçuların (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa), ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçuların qanunvericilikdə nəzərdə tutulmuş qaydada 6 ay müddətinə müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaşayış sahəsi və ya fərdi yaşayış evinin tikintisi üçün müəyyən olunmuş qaydada bələdiyyələrdən pulsuz torpaq sahəsi almaq hüququ vardır. Bu hüququ həyata keçirdikdən sonra xidməti mənzil sahəsinə malik olan hərbi qulluqçular mənzili müəyyən edilmiş qaydada təhvil verməyə borcludurlar.

Ali hərbi tədris müəssisələrinin ailəli kursantları ailəvi yataqxanalarda yerləşdirilirlər. Belə yataqxanalar olmadıqda, onlara müvəqqəti yaşayış sahəsi üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş miqdarda pul kompensasiyası ödənilir.

Yaşına, səhhətinə, ştatların ixtisarına görə ehtiyata, yaxud istefaya buraxılmış şəxslər (əgər Silahlı Qüvvələrin sıralarında 15 təqvim ilindən az olmayaraq və onun beş ildən az olmayan müddətini Azərbaycan Respublikası Silahlı Qüvvələri sıralarında xidmət edibsə) müvafiq icra hakimiyyəti orqanı tərəfindən, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada yaşayış sahələri (yaşayış sahəsi alana kimi isə kirayə haqqı) ilə təmin edilirlər. Yaşa, xəstəliyə, ştatların ixtisarına, ailə vəziyyətinə görə ehtiyata və ya istefaya buraxılmış zabitləri, gizirləri və miçmanları, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularını bələdiyyələr torpaqla "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsində göstərilmiş qaydada təmin edirlər.

Hərbi xidməti qüsursuz keçmiş və Silahlı Qüvvələrin veteranı vəsiqəsini almış, habelə həqiqi hərbi xidmətdən yaşına, xəstəliyinə görə buraxılmış hərbi qulluqçular (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları və ehtiyatdan çağırılmış zabitlərdən başqa) üçün yaşayış sahəsinə görə güzəştli ödənc hüququ saxlanılır. Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları və zabitləri və onların ailə üzvlərinin xidmətə qədər tutduqları yaşayış sahələri həqiqi hərbi xidmət keçdikləri müddətdə onlar üçün saxlanılır. Onlar yaşayış sahəsi almaq üçün növbə siyahısından çıxarıla bilməz.

Toplanışa çağırılmış və ya komandir məşğələlərinə cəlb edilmiş işçilər toplanış (komandir məşğələləri) ərzində, hərbi hissəyə gəlib çatması və geri qayıtması vaxtı da nəzərə alınmaqla tutduğu vəzifəsi (işi) saxlanılır və onlara iş yerində orta əməkhaqqı verilir.

Göstərilən şəxslər çağırış vərəqəsi aldığı gündən toplanışdan (komandir məşğələlərindən) qayıdana kimi mülkiyyət formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatın tam ləğv olunması istisna olunmaqla işdən çıxarıla bilməzlər.

Hərbi vəzifəlilərin işlədiyi idarə, müəssisə, təşkilat ləğv olunduğu halda toplanış (komandir məşğələləri) müddəti ərzində onların alacağı əməkhaqqı və ya digər maddi təminat ləğv olunan müəssisə, idarə, təşkilat və ya onların hüquqi varisi olan təşkilat, ya da ləğv olunana qədər tabe olduqları idarə tərəfindən ödənilir.

Əgər hərbi qulluqçu toplanış (komandir məşğələləri) ərzində xəstələnsə və onların müddəti qurtardıqdan sonra da xəstəliyi davam etsə, müəyyən olunmuş qaydada onların iş yeri, vəzifəsi saxlanılır, toplanışın (komandir məşğələlərinin) müddətinin qurtarmasından sonrakı vaxt üçün isə ona mövcud qanunvericiliyə uyğun müvəqqəti əmək qabiliyyətini itirməsinə görə müavinət ödənilir.

Təhsil müəssisələrində oxuyarkən həqiqi hərbi xidmətə çağırılmış şəxslərin ehtiyata buraxılanda həqiqi hərbi xidmətə çağırılanadək oxuduqları həmin təhsil müəssisəsinə və həmin kursa bərpa olunmaq hüququ saxlanılır.



## Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu

*(06 fevral 1998-ci il, № 430-IQ)*

...

**Maddə 29. Mədəniyyət sahəsində mülkiyyət münasibətləri**

Mədəniyyət sərvətləri, habelə mədəniyyət təyinatlı daşınar və daşınmaz əmlak, mədəniyyət təsisatları dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə, habelə mülkiyyətin qarışıq formalarında ola bilər.

Mədəniyyət sahəsində mülkiyyətçinin hüquqları və vəzifələri Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir.

Mədəniyyət sahəsində dövlət mülkiyyəti müvafiq icra hakimiyyəti orqanları tərəfindən idarə olunur. Mədəniyyət sahəsində dövlət mülkiyyəti yalnız qanunvericilikdə müəyyən edilmiş qaydada digər təşkilatların istifadəsinə və ya idarəçiliyinə verilə bilər. Bu halda mədəniyyət mülkiyyətindən təyinatına uyğun istifadə edilməlidir.

## Balıqçılıq haqqında Azərbaycan Respublikasının Qanunu

*(27 mart 1998-ci il, № 457-IQ)*

Bu Qanun Azərbaycan Respublikasında balıqçılığın təşkilinin, idarə edilməsinin və balıq ehtiyatlarının artırılmasının, istifadəsinin və mühafizəsinin hüquqi əsaslarını müəyyən edir.

...

**Maddə 11. İdman və həvəskar balıq ovu**

İdman və həvəskar balıq ovu insanların fərdi ehtiyacları və istirahəti üçün balıq və digər su heyvanlarının ovlanmasını nəzərdə tutur.

Qoruqlar, balıqartırma vətəgələri və təsərrüfatları istisna olmaqla, bütün sututarlardan qanunvericilikdə müəyyən edilmiş qaydalara riayət etməklə idman və həvəskar balıq ovu üçün istifadə edilə bilər.

İdman və həvəskar balıq ovu üçün dövlət sututarlarının və ya onların müəyyən hissəsinin ayrılması müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

Ayrıca istifadədə, bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan su obyektlərində idman və həvəskar balıq ovu su obyektlərinin istifadəçiləri və mülkiyyətçilərinin razılığı ilə həyata keçirilir.

İdman və həvəskar balıq ovu müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş icazə vərəqələri əsasında həyata keçirilir.

Təbiəti mühafizə, balıqçılıq, ovçuluq, idman və digər cəmiyyətlərin, təşkilatların və mülkiyyətçilərin istifadəsində olan sututarlarda idman və həvəskar balıq ovuna icazə vərəqələri su obyektlərinin mülkiyyətçiləri və ya istifadəçiləri tərəfindən verilir.

İdman və həvəskar balıq ovu üçün ayrılmış su hövzələrində balıq ehtiyatlarının kütləvi qırğınına səbəb ola bilən zəhərli, kimyəvi və partlayıcı maddələrin, habelə qadağan olunmuş ov alətlərinin tətbiqi qadağan olunur.

İdman və həvəskar balıq ovu müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş təlimatlar əsasında həyata keçirilir.

...

**Maddə 32. Balıq ehtiyatlarından istifadəyə görə ödəmələr və qeyri-qanuni balıq ovuna cərimələr**

Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, balıq ehtiyatlarından istifadə ödənişlidir.

Balıq ehtiyatlarından ödənişli istifadənin məqsədi balıqların, digər su heyvanları və bitkilərinin öyrənilməsinə, artırılmasına, bərpasına və mühafizəsinə yönəldilən dövlət xərclərini ödəmək, balıq ehtiyatlarından səmərəli istifadə olunmasına və mühafizəsinin yaxşılaşdırılmasına maddi maraq yaratmaq və balıqçılığın inkişafına investisiya qoyuluşunu stimullaşdırmaqdan ibarətdir.

Balıq ehtiyatlarından istifadəyə görə ödəmələr və qeyri-qanuni balıq ovuna cərimələr balıqların, digər su heyvanları və bitkilərinin növündən, onların ovu üsullarından, ov alətlərinin və texniki vasitələrin növündən, habelə su obyektlərinin təyinatından asılı olaraq differensiallaşdırılır.

Ayrıca istifadədə, icarədə, bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan su obyektlərində balıq ehtiyatlarından istifadəyə görə ödəmələr bu maddənin üçüncü hissəsində göstərilən qaydada bələdiyyələr, mülkiyyətçilər, istifadəçilər və icarəçilər tərəfindən müəyyən edilir. Həmin su obyektlərində qeyri-qanuni balıq ovuna cərimələr qanunvericilikdə müəyyən edilmiş qaydada tətbiq edilir.

Balıq ehtiyatlarından istifadəyə görə güzəştlərin tətbiqi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

Balıq ehtiyatlarından istifadəyə görə ödəmələrin növləri, dərəcələri, tətbiq edilmə qaydaları və qeyri-qanuni balıq ovuna cərimələr müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

**Maddə 33. Balıq ehtiyatlarının artırılmasının, bərpasının, mühafizəsinin və balıqçılığın elmi təminatının maliyyələşdirilməsi**

Dövlət mülkiyyətində olan su obyektlərində balıq ehtiyatlarının süni artırılması, bərpası, mühafizəsi və balıq təsərrüfatı meliorasiya işləri dövlət büdcəsindən maliyyələşdirilir.



Nərə cinsli balıqların və digər qiymətli balıq növlərinin artırılması və bərpası dövlət tərəfindən stimullaşdırılır.

Ayrıca istifadədə, icarədə, bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan su obyektlərində balıqartırma, balıqyetişdirmə və balıq təsərrüfatı meliorasiya işləri su obyektlərinin istifadəçiləri və mülkiyyətçiləri tərəfindən maliyyələşdirilir.

Balıqçılığın elmi təminatı müvafiq elmi-tədqiqat müəssisələri tərəfindən həyata keçirilir və məqsədli proqramlar əsasında dövlət büdcəsi və büdcədənkənar ödəmələr hesabına maliyyələşdirilir.

## Elektroenergetika haqqında Azərbaycan Respublikasının Qanunu

*(3 aprel 1998-ci il)*

...

**Maddə 20. Mülkiyyət hüququnun məhdudlaşdırılması**

Elektroenergetikanın inkişafı məqsədilə dövlət ehtiyacı və ya ictimai ehtiyaclar üçün əmlakın özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər.

Elektroenergetikanın inkişafı ilə əlaqədar əmlakın özgəninkiləşdirilməsi, ondan istifadənin məhdudlaşdırılması, habelə dövlət və bələdiyyə mülkiyyətindən istifadəyə üstünlük verilməsi Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş qaydada həyata keçirilir.

## Tarix və mədəniyyət abidələrinin qorunması haqqında Azərbaycan Respublikasının Qanunu

*(10 aprel 1998-ci il, № 470-IQ)*

...

**Maddə 4. Abidələr üzərində mülkiyyət**

Abidələr dövlət və bələdiyyə mülkiyyətində, eləcə də xüsusi mülkiyyətdə ola bilər.

Dövlət mülkiyyətində olan abidələrin özəlləşdirilməsinə (yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınan yaşayış binaları və onların ayrı-ayrı hissələri istisna olmaqla) yol verilmir.

Özəlləşdirilmiş yaşayış binalarının və onların ayrı-ayrı hissələrinin görkəmini və daxili quruluşunu pozmaq, onların mədəni, tarixi dəyərinə xələl gətirə biləcək hər hansı hərəkət etmək qadağandır.

Dövlət qeydiyyatından keçmiş və xüsusi mülkiyyətdə olan abidələr satıldıqda dövlət onları almaqda üstün hüquqa malikdir.

Hər hansı bir ərazidə yeni abidə aşkar olunarsa, həmin ərazi tarixi-mədəni əhəmiyyətli zona elan olunur və onun yerləşdiyi torpaq sahəsi üzərindəki tikililərlə birlikdə qanunvericiliklə nəzərdə tutulmuş qaydada dövlət tərəfindən satın alına bilər.

Xüsusi mülkiyyətdə olan abidələr dövlət tərəfindən qeydə alınır və onlar satılarkən mülkiyyətçi müvafiq icra hakimiyyəti orqanına bu haqda məlumat verməlidir.

Müvafiq icra hakimiyyəti orqanının icazəsi olmadan xüsusi mülkiyyətdə olan abidələr xaricə aparıla bilməz.

...

**Maddə 19. Dövlət və ya bələdiyyə mülkiyyətində olan abidələrdən istifadə qaydaları və şərtləri**

Dövlət və ya bələdiyyə mülkiyyətində olan dünya və ölkə əhəmiyyətli daşınmaz abidələrin və ya onların ayrı-ayrı hissələrinin icarəyə verilməsi qadağandır.

Dövlət və ya bələdiyyə mülkiyyətində olan yerli əhəmiyyətli daşınmaz memarlıq abidələri, habelə xüsusi mülkiyyətdə olan daşınmaz abidələr və ya onların ayrı-ayrı hissələri müqavilə əsasında elmi, mədəni, dini, xidmət və turizm məqsədləri üçün qanunvericilikdə nəzərdə tutulmuş qaydada icazəyə verilə bilər.

Abidələri və ya onların ayrı-ayrı hissələrini icazəyə götürənlər onların həcm kompozisiyasını, xarici görünüşünü, konstruktiv elementlərini dəyişdirməməli, istismar zamanı abidələrə zərər vurmamalı və təsərrüfat işləri zamanı arxeoloji abidələrdə mədəni təbəqənin korlanmasına yol verməməlidirlər. Belə abidələrdə və ya onların ayrı-ayrı hissələrində təmir, konservasiya və bərpa işləri icazəçinin vəsaiti hesabına müvafiq icra hakimiyyəti orqanının və mütəxəssislərin nəzarəti ilə aparıla bilər.

Abidələrdən və ya onların ayrı-ayrı hissələrindən icazə qaydaları və şərtləri tərəflər arasında bağlanmış müqavilə ilə müəyyən olunur. Müqavilə şərtləri pozularsa, qanunvericiliklə nəzərdə tutulmuş qaydada müqaviləyə xitam verilir və dəymiş ziyan ödənilir.



## Qrant haqqında Azərbaycan Respublikasının Qanunu

*(17 aprel 1998-ci il, № 483-IQ)*

...

**Maddə 3. Resipiyent**

1. Donorla münasibətlərində qrant alan resipiyent sayılır.

2. Aşağıdakılar resipiyent ola bilərlər:

müvafiq icra hakimiyyəti orqanı qismində Azərbaycan dövləti;

bələdiyyə orqanları;

Azərbaycan Respublikasında fəaliyyət göstərən, nizamnaməsinə əsasən başlıca məqsədi xeyriyyəçilik, yaxud qrant predmeti ola bilən layihə və proqramların həyata keçirilməsi olan və qrant almaqla birbaşa mənfəət götürmək məqsədi güdməyən rezident və qeyri-rezident olan hüquqi şəxslər, onların filial, nümayəndəlik və şöbələri;

Azərbaycan Respublikasının fiziki şəxsləri.

3. Qrant almaqda, donoru və gerçəkləşdirilməsi üçün qrant aldıqları layihə və proqramları seçməkdə Azərbaycan Respublikasından olan resipiyentlər tam sərbəstdirlər.

4. Azərbaycan Respublikasından olan donorlar xarici ölkələrin hüquqi və ya fiziki şəxslərinə qrant verərkən resipiyent qismində kimlərin çıxış edə bilməsi həmin ölkələrin qanunvericiliyi ilə müəyyənləşdirilir.

5. Resipiyentlər qrant müqavilələrinin (qərarların) şərtlərinə uyğun olaraq fəaliyyət göstərirlər.

## Geodeziya və kartoqrafiya haqqında Azərbaycan Respublikasının Qanunu

*(17 aprel 1998-ci il, № 484-IQ)*

...

**Maddə 4. Geodeziya və kartoqrafiya fəaliyyəti sahəsində hüquq münasibətlərinin obyektləri və subyektləri**

Geodeziya və kartoqrafiya fəaliyyəti sahəsində hüquq münasibətlərinin obyektləri aşağıdakılardır:

Azərbaycan Respublikasının ərazisi;

Azərbaycan Respublikasının daxili suları və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi;

Azərbaycan Respublikasının üzərindəki hava məkanı və təbii fəza cisimləri də daxil olmaqla, kosmik fəza.

Geodeziya və kartoqrafiya fəaliyyəti sahəsində hüquq münasibətlərinin subyektləri Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası, bələdiyyələr, Azərbaycan Respublikasının və xarici dövlətlərin hüquqi şəxsləri və vətəndaşları, habelə vətəndaşlığı olmayan şəxslərdir.

Geodeziya və kartoqrafiya fəaliyyəti sahəsində hüquq münasibətlərində Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası adından öz səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanları iştirak edirlər.

Bələdiyyələr geodeziya və kartoqrafiya fəaliyyəti sahəsində hüquq münasibətlərində onların statusunu müəyyən edən qanunvericilik aktı ilə verilən səlahiyyət daxilində iştirak edirlər.

Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri geodeziya və kartoqrafiya fəaliyyəti sahəsində hüquq münasibətlərində sahibkarlıq fəaliyyəti göstərmək və öz ehtiyaclarını ödəmək məqsədilə iştirak edirlər.

Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən xarici müəssisələr, xarici investisiyalı müəssisələr, xarici dövlətlərin hüquqi şəxsləri, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər geodeziya və kartoqrafiya fəaliyyəti sahəsində hüquq münasibətlərində yalnız geodeziya və kartoqrafiya materiallarının və məlumatlarının istehsalçıları kimi iştirak edə bilərlər.

...

**Maddə 17. Geodeziya, topoqrafiya və kartoqrafiya məlumatlarının dövlət kadastrı**

Geodeziya, topoqrafiya və kartoqrafiya məlumatlarının dövlət kadastrı Azərbaycan Respublikası ərazisinin, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin təbii relyefi üzərində mövcud olan yerüstü, yeraltı, suüstü və sualtı obyektlərin yerləşməsini, həndəsi ölçülərini və səciyyəvi xüsusiyyətlərini əks etdirən məlumatlar toplusu olub vahid geoinformasiya sistemini təşkil edir.

Geodeziya, topoqrafiya və kartoqrafiya məlumatlarının dövlət kadastrı sahələrarası əhəmiyyət kəsb edən müxtəlif təyinatlı kadastrların (torpaq, su, meşə, inzibati-ərazi, informasiya, demoqrafiya və s.) məlumatlarının əsasını təşkil edərək, onları əlaqələndirmək və xalq təsərrüfatını, elm, təhsil və tədris müəssisələrini aerokosmik, topoqrafik, elektron, ekoloji, digər geodezi məlumatlar, xəritələr və coğrafi informasiya sistemləri ilə təmin etmək məqsədilə aparılır.

Xalq təsərrüfatının sahələrarası kadastrlarını aparan orqanlar tərəfindən geodeziya, topoqrafiya və kartoqrafiya məlumatlarının dövlət kadastrına daxil edilməli məlumatların dövlət geodeziya və kartoqrafiya xidmətinə təqdim edilməsi məcburidir.

Geodeziya, topoqrafiya və kartoqrafiya məlumatlarının dövlət kadastrının məlumatları dövlət orqanlarının və bələdiyyələrin qərar qəbul etməsi üçün əsasdır.

Geodeziya, topoqrafiya və kartoqrafiya məlumatlarının dövlət kadastrı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq aparılır.



## Hidrometeorologiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu

*(17 aprel 1998-ci il, № 485-IQ)*

Bu Qanun Azərbaycan Respublikasında hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə müşahidələrin, tədqiqatların və atmosfer proseslərinə fəal təsir işlərinin aparılması, məlumatların hazırlanması, istifadəsi və mühafizəsinin hüquqi əsaslarını müəyyən edir.

...

**Maddə 3. Hidrometeorologiya fəaliyyəti sahəsində hüquq münasibətlərinin obyektləri və subyektləri**

Hidrometeorologiya fəaliyyəti sahəsində hüquq münasibətlərinin obyektləri aşağıdakılardır:

Azərbaycan Respublikasının üzərindəki hava məkanı;

Azərbaycan Respublikasının ərazisində yerləşən torpaq və bitki örtüyü;

Azərbaycan Respublikasının daxili suları və Xəzər dənizinin (gölünün) akvatoriyası.

Hidrometeorologiya fəaliyyəti sahəsində hüquq münasibətlərinin subyektləri Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası, bələdiyyələr, hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə məlumatların istehsalçıları və istehlakçılarıdır.

Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası adından hidrometeorologiya fəaliyyəti sahəsində hüquq münasibətlərində öz səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanları iştirak edirlər.

Bələdiyyələr hidrometeorologiya fəaliyyəti sahəsində hüquq münasibətlərində onların statusunu müəyyən edən qanunvericilik aktları ilə verilən səlahiyyətlər daxilində iştirak edirlər.

Hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə məlumatların istehsalçıları və istehlakçıları hidrometeorologiya fəaliyyəti sahəsində hüquq münasibətlərində Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada sahibkarlıq fəaliyyəti göstərmək və öz ehtiyaclarını ödəmək məqsədilə iştirak edirlər.

...

**Maddə 22. Hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə məlumatlar və müşahidə şəbəkələri üzərində mülkiyyət hüquqlarının qorunması**

Dövlət hidrometeorologiya sisteminin məlumatları, dövlət müşahidə şəbəkəsi, hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə dövlət məlumatlar fondu Azərbaycan Respublikasının dövlət mülkiyyətidir.

Müvafiq icra hakimiyyəti orqanlarının, bələdiyyələrin, hüquqi və fiziki şəxslərin sifarişi ilə hazırlanmış hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə məlumatlar, müşahidə şəbəkələri, habelə idarə məlumatlar fondları həmin şəxslərin mülkiyyətidir.

Hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə məlumatlar və müşahidə şəbəkələri üzərində mülkiyyət hüquqları Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq qorunur.

**Maddə 23. Hidrometeorologiya fəaliyyətinin maliyyələşdirilməsi**

Dövlət sifarişi hesabına həyata keçirilən hidrometeorologiya və təbii mühitin monitorinqi işləri, hidrometeorologiya və ətraf mühitin monitorinqi üzrə Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərindən irəli gələn xərclərin ödənilməsi, habelə hidrometeorologiya fəaliyyətinə dövlət nəzarəti Azərbaycan Respublikasının büdcəsindən maliyyələşdirilir.

Bələdiyyələrin, hüquqi və fiziki şəxslərin sifarişi ilə xüsusi təyinatlı və məqsədli hidrometeoroloji işlər, onların sifarişçiləri tərəfindən maliyyələşdirilir.

Hidrometeorologiya fəaliyyəti hüquqi və fiziki şəxslərin, xarici investisiyanın və beynəlxalq təşkilatların yardımı hesabına da maliyyələşdirilə bilər.

Hidrometeorologiya və təbii mühitin monitorinqi işlərinin elmi təminatı müvafiq elmi-tədqiqat və ixtisaslaşdırılmış tədris müəssisələri tərəfindən həyata keçirilir, məqsədli proqramlar əsasında dövlət büdcəsi və büdcədənkənar ödəmələr hesabına maliyyələşdirilir.

## Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu

*(19 may 1998-ci il, № 499-IQ)*

...

**Maddə 4. Uşaq hüquqlarını müdafiə edən orqanlar, birliklər və təşkilatlar**

Azərbaycan Respublikasında uşaq hüquqlarının müdafiəsini müvafiq icra hakimiyyəti, məhkəmə və prokurorluq orqanları, bələdiyyələr, habelə ictimai birliklər, həmkarlar ittifaqı təşkilatları təmin etməlidirlər. Bu orqanlar, birliklər və təşkilatlar fəaliyyətlərində uşaq hüquqlarının üstün mühafizəsi prinsipini əsas tutmalıdırlar.

## Məlumat azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu

*(19 iyun 1998-ci il, № 505-IQ)*

...

**Maddə 6. Məlumatın əldə edilməsi üçün təminatlar**

Məlumatın əldə edilməsi aşağıdakı yollarla təmin edilir:

dövlət hakimiyyəti orqanlarının və bələdiyyələrin öz fəaliyyətləri və qəbul olunmuş qərarları barədə məlumatlar verməlari yolu ilə;



dövlət hakimiyyəti orqanlarında məlumatın əldə edilməsi üçün informasiya xidmətlərinin yaradılması ilə;

statistik məlumatlardan, kitabxanaların, arxivlərin və muzeylərin fondlarından, habelə informasiya sistemlərindən maneəsiz istifadə edilməsi ilə;

vətəndaşların həyatı və sağlamlığı üçün təhlükə yaradan fövqəladə hallar, təbii fəlakətlər və qəzalar barədə əhaliyə dərhal məlumat verilməsi ilə;

dövlətin təhlükəsizliyinə xətər yaradan fövqəladə hallar barədə əhaliyə dərhal məlumat verilməsi ilə;

kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurasına yol verilməməsi ilə;

normativ-hüquqi aktların qanunvericilikdə nəzərdə tutulmuş qaydada əhalinin nəzərinə çatdırılması ilə.

...

**Maddə 9. Açıq məlumatın əldə edilməsi**

Açıq məlumatın əldə edilməsi aşağıdakı yollarla təmin edilir:

mütəmadi rəsmi nəşrlərlə;

kütləvi informasiya vasitələrinin yayılması ilə;

fiziki və hüquqi şəxslərə təqdim edilməsi ilə.

Açıq məlumatın alınması qaydası və şərtləri bu Qanunla və ya müqavilə ilə (məlumatın verilməsi müqavilə əsasında həyata keçirilirsə) müəyyən olunur. Məlumatın verilməsi barədə müqavilə mülki qanunvericiliyə uyğun bağlanır. Dövlət hakimiyyəti orqanları, bələdiyyələr müqavilənin olmamasına görə məlumatı verməkdən imtina edə bilməzlər.

## Qiymətləndirmə fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu

*(25 iyun 1998-ci il, № 510-IQ)*

...

**Maddə 5.Məcburi qiymətləndirmə halları**

Aşağıdakı hallarda əmlakın məcburi qaydada qiymətləndirilməsi aparılır:

dövlət əmlakının dəyəri özəlləşdirilmə və ya etimadlı idarəetməyə verilmə məqsədilə müəyyən edildikdə;

dövlət və bələdiyyə əmlakı girov məqsədləri üçün istifadə olunduqda;

dövlət və bələdiyyə əmlakı satıldıqda və ya borc öhdəlikləri ilə bağlı olaraq başqasına verildikdə;

mülkiyyətçilərin əmlakı dövlət və ya bələdiyyə ehtiyacları üçün satın alındıqda;

dövlət mülkiyyətində olan əsas fondlar yenidən qiymətləndirildikdə;
icbari sığorta növləri üzrə sığorta hadisəsinin baş verməsi nəticəsində sığortalanmış dövlət və bələdiyyə əmlakına.dəyən zərər müəyyən edildikdə;
məhkəmə hökmünün və ya qərarının təmin edilməsi məqsədi ilə əmlakın qiymətləndirilməsinə zərurət olduqda; (bu halda qiymətləndirmə əmlakın mülkiyyətçisi olan şəxslərin sifarişi ilə qiymətləndirici tərəfindən və ya qanunvericiliyə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən aparılır);
etimadlı idarəetmədə olan əmlaka sahiblik hüququ dəyişilərkən əmlakın dəyəri haqqında mübahisə yarandıqda;
boşanan ər-arvadın birinin və ya hər ikisinin tələbi ilə əmlakın bölüşdürülməsi zamanı bu əmlakın dəyəri haqqında mübahisə yarandıqda;
səhmdar cəmiyyətlərinin birləşdirilməsi və ya ayrılması zamanı onlara məxsus əmlakın dəyəri haqqında mübahisə yarandıqda;
vərəsəlik məsələləri ilə bağlı mübahisələrin həlli zamanı.

## İstehsalat və məişət tullantıları haqqında Azərbaycan Respublikasının Qanunu

*(30 iyun 1998-ci il, № 514-IQ)*

Bu Qanun Azərbaycan Respublikasında insan fəaliyyəti nəticəsində əşya və maddə şəklində əmələ gələn istehsalat və məişət tullantılarından (bundan sonra tullantılar) ətraf mühitin qorunması, onların təhlükəli təsirinin azaldılması, təbiətdə ekoloji tarazlığın təmin olunması, təkrar xammal kimi tullantıların istifadəsi sahəsində dövlət siyasətini müəyyən edir, zərərli qazlar, çirkab suları və radioaktiv tullantılar istisna olmaqla, tullantılarla bağlı münasibətləri tənzimləyir.

...

**Maddə 17. Tullantılarla bağlı fəaliyyətə ictimai nəzarət**

Tullantılarla bağlı fəaliyyətə ictimai nəzarət qanunvericilikdə müəyyən olunan qaydada ictimai birliklər, əmək kollektivləri və vətəndaşlar (əhali) tərəfindən həyata keçirilir.

Tullantılarla bağlı fəaliyyətə ictimai nəzarətin məqsədi dövlət orqanları və bələdiyyələr, eləcə də hüquqi və fiziki şəxslər tərəfindən bu Qanunun tələblərinin yerinə yetirilməsini araşdırmaqdan ibarətdir.



## Yol hərəkəti haqqında Azərbaycan Respublikasının Qanunu

*(3 iyul 1998-ci il, № 517-IQ)*

...

**Maddə 2. Qanunun təyinatı**

Yol hərəkəti haqqında qanun yollarda nəqliyyat vasitələrinin və piyadaların təhlükəsiz və rahat hərəkətini təşkil etmək məqsədi ilə kompleks tədbirlər həyata keçirilməsi, yol hərəkəti ilə bağlı insanların həyatının və sağlamlığının qorunması, ətraf mühitin, xüsusi, bələdiyyə və dövlət əmlakının mühafizəsi, yol-nəqliyyat hadisələrinin qarşısının alınması və onların ağırlıq dərəcəsinin aşağı salınması üçün tədbirlər görülməsinin hüquqi əsaslarını və bu sahədə dövlətin, habelə yol hərəkəti iştirakçılarının hüquqlarını və vəzifələrini müəyyən edir.

## Azərbaycan Respublikası Milli Məclisinin daimi komissiyaları haqqında Azərbaycan Respublikasının Qanunu

*(10 iyul 1998-ci il, № 521-IQ)*

...

**Maddə 14. Regional məsələlər daimi komissiyası**

Regional məsələlər daimi komissiyası yerli özünüidarə orqanları ilə bağlı dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı daimi komissiyadır.

Regional məsələlər daimi komissiyası:

inzibati ərazi quruluşu, yerli özünüidarə orqanlarının seçkiləri, statusu, işinin təşkili məsələlərinə dair qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;

bələdiyyə mülkiyyəti, yerli vergilər və ödənişlər, yerli büdcə, yerli sosial müdafiə və sosial inkişaf proqramları, yerli iqtisadi inkişaf proqramları, yerli ekoloji proqramları ilə bağlı qanun layihələrini bu sahələr üzrə başqa aparıcı daimi komissiyalarla birlikdə hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;

Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrində yerli özünüidarə məsələlərinə dair rəy verir;

bələdiyyə orqanlarının işinin təşkilinə və təkmilləşdirilməsinə, bələdiyyə işçilərinin ixtisasının artırılmasına kömək göstərmək məqsədi ilə metodik tövsiyələr hazırlayır və dərc etdirir.

## Sərbəst toplaşmaq azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu

*(13 noyabr 1998-ci il, № 537-IQ)*

...

**Maddə 8. Toplantının qadağan edilməsi və ya dayandırılması**

I. Ayrı-seçkiliyə, ədavətə və ya zorakılığa çağırışlarla müşayiət olunan, milli, irqi və ya dini ədavəti təbliğ edən toplantılar qadağan edilir.

II. Müharibəni təbliğ edən toplantılar qadağan edilir.

III. Siyasi məqsədlə dinc toplantının keçirilməsi aşağıdakı hallarda qadağan edilir:

1) Azərbaycan Respublikası Prezidentinin seçkiləri (ölkə ərazisində), Azərbaycan Respublikası Milli Məclisi deputatlarının seçkiləri (ölkə ərazisində), Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının seçkiləri (Naxçıvan Muxtar Respublikasının ərazisində), bələdiyyə seçkiləri (müvafiq şəhər və rayonun ərazisində) gününə 24 saat qalmışdan seçki günü səsvermə məntəqələri bağlananadək;

2) referendumun keçirildiyi günə 24 saat qalmışdan səsvermə məntəqələri bağlananadək;

3) çıxarılıb.

IV. Bu qanunun 7-ci maddəsinin tələblərinə uyğun olaraq, təhlükəsizlik tədbirlərinin keçirilməsi zərurəti ilə əlaqədar mühüm dövlət əhəmiyyətli beynəlxalq tədbirlərin ərəfəsində və onların keçirildiyi günlərdə həmin tədbirlərin keçirildiyi şəhər və rayonların ərazilərində siyasi məqsədlə toplantıların keçirilməsi müvafiq icra hakimiyyəti orqanının qərarı ilə qadağan edilə bilər.

*V.* Toplantı demokratik cəmiyyətdə zəruri olan hallarda və bu qanunun 7-ci maddəsinin tələblərinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının sərəncamı ilə qadağan edilə bilər.

VI. Zəruri hallarda toplantı bu qanunun 7-ci maddəsinin tələblərinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının sərəncamı ilə dayandırıla bilər.

VII. Bu maddənin IV, V və VI hissələrinə uyğun olaraq toplantının qadağan edilməsi və ya dayandırılması son zərurət tədbiri sayılır və yalnız bu qanunun 7-ci maddəsində müəyyən edilmiş məhdudiyyətlər kifayət etmədikdə tətbiq edilir.

VIII. Fövqəladə vəziyyətin qüvvədə olduğu müddət ərzində onun tətbiq edildiyi ərazidə yığıncaqların, mitinqlərin, nümayişlərin, küçə yürüşləri və piketlərin keçirilməsinə "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada məhdudiyyət qoyula bilər və ya onların keçirilməsi qadağan edilə bilər.



## Energetika haqqında Azərbaycan Respublikasının Qanunu

*(24 noyabr 1998-ci il, № 541-IQ)*

...

**Maddə 21. İş proqramı**

1. Podratçı müqavilə fəaliyyətini müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmış iş proqramı üzrə həyata keçirir.

2. İş proqramı (proqramları) bu qanunun 6-cı fəslinin tələbləri nəzərə alınmaqla cəlb edilmiş dövlət və ya bələdiyyə orqanları ilə razılaşdırılmaqla yerinə yetirilir.

3. Müvafiq icra hakimiyyəti orqanı iş proqramının bu qanuna və energetika müqaviləsinə uyğunluğuna, podratçı tərəfindən onun yerinə yetirilməsinə nəzarət edir.

...

**Maddə 30. Ümumi istifadədə olan daşınmaz əmlakdan istifadənin üstünlüyü**

1. Energetika sahəsində fəaliyyət növlərinin ümumi istifadədə olan əmlaka təsirinin məhdudlaşdırılması əməli cəhətdən sərfəli olduqda üçüncü tərəfin xüsusi mülkiyyəti hər hansı təsirə məruz qalmamalıdır və onun razılığı olmadan istifadə olunmamalıdır. Dövlət və ya bələdiyyələr bu fəaliyyət növlərinin həyata keçirilməsi üçün ilk növbədə ona məxsus və ümumi istifadədə olan nəqliyyat yollarını, torpaq sahələrini təqdim etməli, yaxud mülkiyyətçinin razılığı ilə onun mülkiyyətindən istifadə etdiyinə görə dövlət öz torpaqlarını kompensasiya şəklində təklif etməlidir.

2. Baş enerji nəqletmə sistemlərinin, enerji paylayıcı şəbəkələrinin marşrutlarının və yaradılma planlarının müəyyən edilməsi üçün energetika müqaviləsinin təqdim edilməsinə qədər və onun icrası zamanı müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırılır.

3. Podratçının ödədiyi haqqın müəyyən hissəsinin birbaşa bələdiyyəyə və (və ya) dövlətə ödəməsi haqqında energetika müqaviləsində müddəa ola bilər.

...

**Maddə 31. Daşınmaz əmlakdan istifadə zamanı dəyişikliklər və ictimai mənafe**

1. Energetika sahəsində fəaliyyət nəticəsində mülkiyyət hüququnun və ya daşınmaz əmlakdan istifadənin dəyişməsi və onunla əlaqədar kompensasiyaların ödənilməsi aşağıdakıları nəzərə alaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən hazırlanır:

bu qanunun müddəaları;

ətraf mühitin qorunması, təhlükəsizlik və texniki tələblərin yerinə yetirilməsi;

qurğuların və ya baş enerji nəqletmə sistemlərinin yuxarıda göstərilən daşınmaz əmlakda yerləşdirilməsində ayrı-seçkiliyə yol verilməməsi.

2. Energetika müqaviləsinin təqdim edilməsi başlayanadək mülkiyyət hüququ və ona aid dəyişikliklər dərc edilməli və ictimaiyyətlə məsləhətləşmək üçün açıq olmalıdır. Onlar dərc edildikdən sonra bir ay müddətində vətəndaşlardan, dövlət orqanlarından və bələdiyyələrdən daxil olmuş əsaslandırılmış düzəlişləri nəzərə alaraq layihə uyğunlaşdırılmalı və onlar həyata keçirilməlidir.

## Torpaq icarəsi haqqında Azərbaycan Respublikasının Qanunu

*(11 dekabr 1998-ci il, № 587-IQ)*

Bu Qanun Azərbaycan Respublikasında dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqların icarəyə verilməsinin və icarə münasibətlərinin hüquqi əsaslarını müəyyən edir.

...

**Maddə 4. İcarə münasibətlərinin obyektləri**

Torpaq üzərində icarə münasibətlərinin obyektləri dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlardır.

Azərbaycan Respublikasında bu Qanunla müəyyənləşdirilən icarə münasibətlərinin obyektləri olan dövlət və bələdiyyə torpaqları mənfəət əldə etmək məqsədilə fəaliyyət göstərən hüquqi və fiziki şəxslərin istifadəsinə, bir qayda olaraq, icarə əsasında verilir.

Torpağın istifadəsi haqqında sənədlərdə nəzərdə tutulduğu hallarda torpağın istifadəçisi onu icarəyə verə bilər.

...

**Maddə 6. İcarəyə verilən bələdiyyə torpaqları**

Bələdiyyə mülkiyyətində olan aşağıdakı torpaqlar icarəyə verilə bilər:

ehtiyat fondu torpaqları;

fiziki və hüquqi şəxslərin istifadəsində olan torpaqlar.

Ümumi istifadədə olan torpaqların icarəyə verilməsi bələdiyyə torpaqları haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunur.

...

**Maddə 8. İcarə münasibətlərinin subyektləri**

Torpaq üzərində icarə münasibətlərinin subyektləri Azərbaycan Respublikası, bələdiyyələr, Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları, habelə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər, beynəlxalq birliklər və təşkilatlar, habelə xarici dövlətlərdir.



Azərbaycan Respublikası adından icarə münasibətlərində öz səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanları iştirak edirlər.

Bələdiyyələr icarə münasibətlərində Azərbaycan Respublikasının qanunvericilik aktları ilə bələdiyyələrə verilən səlahiyyətlər daxilində iştirak edirlər.

Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları icarə münasibətlərində icarəyəverənlər və icarəçilər kimi iştirak edirlər.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər, beynəlxalq birliklər və təşkilatlar, habelə xarici dövlətlər icarə münasibətlərində yalnız icarəçilər və subicarəçilər kimi iştirak edə bilərlər.

**Maddə 9. Torpaqların icarəyə verilməsi şərtləri**

Torpaqlar icarəyə verilərkən aşağıdakı şərtlərə əməl edilir:

ərazinin təbii-coğrafi şəraitinin, torpaqdan istifadənin müddətinin və xüsusiyyətlərinin, qonşu torpaqların mülkiyyətçilərinin və istifadəçilərinin qanunla qorunan mənafelərinin nəzərə alınması;

dövlət və bələdiyyə torpaqlarının icarəyə verilməsində torpaq qanunvericiliyində nəzərdə tutulmuş növbəliyə əməl edilməsi;

torpaqların təyinatı üzrə istifadə edilməsi;

torpaqların istifadəsi zamanı ekoloji tarazlığın gözlənilməsi və ətraf mühitin mühafizəsinin təmin edilməsi;

torpaq sahələrinin yerquruluşu layihələri və yaşayış məntəqələrinin baş planları əsasında verilməsi;

kənd təsərrüfatı təyinatlı torpaqların mühafizəsi, keyfiyyətinin və münbitliyinin qorunması, bərpası və yaxşılaşdırılmasının təmin edilməsi.

**Maddə 10. Torpaqların icarəyə verilməsinin ümumi qaydaları**

Azərbaycan Respublikasında torpaqlar mülkiyyətçilərin və ya onların vəkil etdiyi orqanların qərarı (razılığı) ilə bilavasitə, torpaq müsabiqələri və ya hərracları vasitəsilə icarəyə verilə bilər.

Dövlət və bələdiyyə torpaqlarının bilavasitə icarəyə verilməsi barədə qərar torpağı icarəyə götürmək istəyənin ərizəsi, icarəyə verilən torpaq sahəsi qanuni istifadədə olduqda isə torpaq istifadəçisinin razılığı və müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin rəyi əsasında qəbul olunur və icarəyəverənlə icarəçi arasında icarə müqaviləsi bağlanılır.

Xüsusi mülkiyyətdə olan torpaqların bilavasitə icarəyə verilməsi icarəyəverən və icarəçi arasında bağlanmış və notarial qaydada təsdiq edilmiş müqavilə əsasında həyata keçirilir.

Xüsusi şəhərsalma əhəmiyyətinə malik dövlət və bələdiyyə torpaqları ayrılıqda, yaxud layihələrlə birlikdə yalnız torpaq müsabiqələri və ya hərracları vasitəsilə icarəyə verilə bilər.

Dövlət torpaqlarının torpaq müsabiqələri və ya hərracları vasitəsilə icarəyə verilməsini müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

Bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan torpaqların torpaq müsabiqələri və ya hərracları vasitəsilə icarəyə verilməsini mülkiyyətçilər sərbəst həyata keçirirlər.

Torpaq müsabiqələrinin və ya hərraclarının keçirilməsində aşkarlıq təmin olunur.

Torpaq müsabiqəsində və ya hərracında qalib gəlmiş hüquqi və ya fiziki şəxs icarəyəverənlə icarə müqaviləsi bağlayır. İcarə müqaviləsi torpaq müsabiqəsinin və ya hərracının şərtləri əsasında tərtib olunur.

Torpaqların icarəyə verilməsi ilə bağlı torpaq müsabiqələrinin və hərraclarının keçirilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

...

**Maddə 12. Torpaq icarəsi müqaviləsinin dövlət qeydiyyatı**

Torpaq icarəsi müqaviləsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən qanunvericilikdə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınır. Torpağa icarə hüququ həmçinin qanunvericiliklə müəyyən edilmiş qaydada daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmalıdır. Torpaq sahələri üzərində qeydiyyatdan keçməmiş icarə hüquqlarının müdafiəsinə və toxunulmazlığına təminat verilmir.

Dövlət və bələdiyyə torpaqlarının icarəçilərinə torpaqdan müvəqqəti istifadə hüququna dair şəhadətnamələr verilir.

...

**Maddə 14. İcarə haqqı**

Torpağın icarə haqqı torpaqdan müddətli istifadəyə görə icarəçinin icarəyəverənə ödədiyi vəsaitdir.

İcarəyəverən torpaq vergisi tədiyəçisi olduqda, torpaq vergisi icarə haqqının tərkibinə daxil edilir.

İcarəyəverən torpaq vergisi tədiyəçisi olmadıqda, icarə haqqının tərkibində torpaq vergisi nəzərə alınmır.

Xüsusi mülkiyyətdə olan torpaqların icarə haqqı tərəflərin razılığı ilə müəyyən olunur.

Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların icarə haqqının aşağı həddi onların təyinatından, sahəsindən, coğrafi yerləşməsindən və keyfiyyətindən asılı olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş normativlər əsasında müəyyənləşdirilir. Həmin sənədlərdə torpağın normativ qiyməti, torpaq vergisi, habelə tələb və təklif nəzərə alınmalıdır.

Dövlət və bələdiyyə mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqlara təklif tələbi üstələdiyi hallarda icarə haqqı güzəştli tətbiq edilə bilər.

Kənd təsərrüfatına az yararlı və yararsız torpaqlar kənd təsərrüfatı ehtiyacları üçün icarəyə verildikdə torpaq qanunvericiliyində nəzərdə tutulmuş imtiyazlar tətbiq olunur.

İcarə haqqı tərəflərin razılığı ilə pul, natura və ya qarışıq formalarda müəyyən edilə bilər.



Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, dövlət mülkiyyətində olan torpaqların icarə haqları Azərbaycan Respublikasının dövlət büdcəsinə köçürülür.

Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalara nəzarət müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

**Maddə 15. Torpaq icarəsi müqaviləsinin dəyişdirilməsi, uzadılması, vaxtından əvvəl ləğv edilməsi və xitamı**

Torpaq icarəsi müqaviləsinin dəyişdirilməsi, uzadılması, vaxtından əvvəl ləğv edilməsi və xitamı Azərbaycan Respublikasının mülki qanunvericiliyində və müqavilədə nəzərdə tutulmuş hallarda və qaydada həyata keçirilir.

Torpağı icarəyə verən hüquqi şəxsin yenidən təşkil edilməsi, habelə torpaq mülkiyyətçisinin hüququnun başqa şəxsə keçməsi müqavilə şərtlərinin dəyişdirilməsi və ya onun vaxtından əvvəl ləğv edilməsi üçün əsas ola bilməz.

Bu Qanun qüvvəyə mindikdən sonra icarəyə götürülmüş dövlət və bələdiyyə torpaqları özəlləşdirilərkən icarəyəverənin hüquqları yeni mülkiyyətçiyə keçir.

İcarə müddəti tamam olanadək icarəçi fiziki şəxs vəfat etdikdə icarə müqaviləsi üzrə hüquqlar, Azərbaycan Respublikasının mülki qanunvericiliyində müəyyən olunmuş qaydada, onun hüquqi varislərinə keçir.

**Maddə 16. İcarəyə verilmiş torpaqların fors-major halları baş verdikdə geri alınması**

İcarəyə verilmiş dövlət və bələdiyyə torpaqları, habelə xüsusi mülkiyyətdə olan torpaqlar, fors-major halları baş verdikdə Azərbaycan Respublikasının torpaq qanunvericiliyində nəzərdə tutulmuş qaydada, icarə müddəti qurtarmamış dövlət, bələdiyyə və ya ictimai ehtiyaclar üçün geri alına bilər. İcarəyə verilmiş torpaqların geri alınması icarəçilərin razılığı ilə həmin torpaqları verən müvafiq icra hakimiyyəti orqanının, bələdiyyənin və ya məcburi qaydada məhkəmənin qərarı ilə həyata keçirilir.

Torpaq sahəsi dövlət, bələdiyyə və ya ictimai ehtiyaclar üçün geri alındıqda, onun əvəzində icarəçiyə eyni ölçüdə və keyfiyyətdə başqa torpaq sahəsi verilə bilər.

Torpaq sahəsi geri alınarkən icarəçilər tərəfindən bu sahəyə çəkilmiş xərclər qanunvericiliklə müəyyən olunmuş qaydada ödənilir.

...

**Maddə 18. Torpağın icarəyə vermək hüququ**

Azərbaycan Respublikasında torpağı icarəyə vermək hüququ mülkiyyətçilərə, onların vəkil etdiyi orqanlara, Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə məxsusdur.

Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsini qanunvericilikdə nəzərdə tutulmuş qaydada müvafiq icra hakimiyyəti orqanları, bələdiyyə torpaqlarını isə bələdiyyələr həyata keçirirlər.

Xüsusi mülkiyyətdə olan torpaqların icarəyə verilməsini qanunvericilikdə nəzərdə tutulmuş qaydada mülkiyyətçilər həyata keçirirlər.

## Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında Azərbaycan Respublikasının Qanunu

*(22 dekabr 1998-ci il, № 593-IQ)*

...

**Maddə 6. Dövlət torpaq kadastrının məlumatları**

Dövlət torpaq kadastrına aşağıdakı məlumatlar daxildir:

torpaq sahələrinin hüquqi statusu;

torpaq üzərində mülkiyyət, istifadə və icarə hüququ;

torpaq sahələrinin kəmiyyət və keyfiyyət göstəriciləri;

torpaqların bonitirovkası və iqtisadi qiymətləndirilməsi;

torpaqların istifadəsi və mühafizəsi ilə əlaqədar qanunvericiliklə müəyyən olunmuş digər məlumatlar.

Torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri tərəfindən dövlət torpaq kadastrına daxil edilməli məlumatların torpaq-kadastr işlərini aparan müvafiq icra hakimiyyəti orqanına təqdim edilməsi məcburidir.

Torpaqların istifadəsinin və mühafizəsinin planlaşdırılmasında, zonalaşdırılmasında və torpaq münasibətlərinin tənzimlənməsində dövlət torpaq kadastrının məlumatları tətbiq olunur.

Dövlət torpaq kadastrının məlumatları dövlət orqanlarının, bələdiyyələrin və məhkəmələrin qərar qəbul etməsi üçün əsasdır.

...

**Maddə 13. Torpaqların monitorinqinin forma və növləri**

Azərbaycan Respublikasında torpaqların monitorinqi torpaq üzərində müşahidə və təhqiqatların aparılması, məlumatların hazırlanması və ötürülməsi formalarında həyata keçirilir.

Torpaqların monitorinqi ətraf mühitin monitorinqinin tərkib hissəsi kimi Azərbaycan Respublikasının vahid torpaq fondunda aparılır və aşağıdakıları nəzərdə tutur:

müntəzəm müşahidələr, aerofotogeodezik və kartoqrafik tədqiqatlar əsasında dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaq sahələrinin təyinatının, ölçülərinin, sərhədlərinin, digər kəmiyyət göstəricilərinin dəyişməsi;

torpaqlarda baş verən keyfiyyət göstəricilərinin dəyişməsinə nəzarət etmək və qeydə almaq məqsədilə torpaq sahələrində müntəzəm torpaq, iqlim, aqrokimyəvi, geobotaniki, geomorfoloji və digər tədqiqatların aparılması.

Torpaqların monitorinqi əsasında torpaqların ekoloji vəziyyəti, istifadəsi və mühafizəsi barədə proqnozlar, proqramlar, xəritə və bülletenlər, digər məlumatlar hazırlanır.

Torpaqların monitorinqi respublika, regional və yerli proqramlar əsasında mülkiyyət formasından asılı olmayaraq ixtisaslaşdırılmış layihə-axtarış və elmi-tədqiqat müəssisələri tərəfindən aparılır.



...

**Maddə 19. Yerquruluşu işlərinin aparılması qaydaları**

Yerquruluşu işləri müvafiq icra hakimiyyəti orqanlarının qərarı, bələdiyyələrin təşəbbüsü və ya torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin sifarişi ilə aparılır.

Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların kompleks yerquruluşu layihələri müvafiq icra hakimiyyəti orqanı və bələdiyyələr, xüsusi mülkiyyətdə olan torpaqların təsərrüfatdaxili yerquruluşu layihələri isə mülkiyyətçilər tərəfindən təsdiq edilir.

Təsdiq edilmiş yerquruluşu layihələri yerə (naturaya) keçirilir, dövlət torpaq kadastrında qeydiyyata alınır, sənədləşdirilir və hüquqi qüvvəyə malik olur.

Yerquruluşu işlərinin aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş əsasnamə ilə müəyyən edilir.

**Maddə 20. Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu işlərinin idarə edilməsi**

Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu işlərinin idarə edilməsi müvafiq icra hakimiyyəti orqanları və bələdiyyələr tərəfindən həyata keçirilir.

Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu işləri üzrə idarəetmə orqanlarının səlahiyyətləri Azərbaycan Respublikasının torpaq qanunvericiliyi ilə müəyyən olunur.

## Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu

*(29 dekabr 1998-ci il, № 611-IQ)*

...

**Maddə 6. Kitabxana sisteminin tərkibi**

Azərbaycan Respublikasında kitabxana sisteminin tərkibinə dövlət və qeyri-dövlət kitabxanaları daxildir.

Dövlət kitabxanalarına aşağıdakılar daxildir:

Milli Kitabxana;

Naxçıvan Muxtar Respublikasının dövlət kitabxanası;

şəhər, rayon, qəsəbə, kənd kitabxanaları (kütləvi, elmi, xüsusi kitabxanalar, gənclər, uşaqlar, korlar üçün və sair kitabxanalar) və onların filialları, mərkəzləşdirilmiş kitabxana sistemləri;

respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar;

dövlət idarə, müəssisə və təşkilatlarının kitabxanaları;

Azərbaycan Elmlər Akademiyasının mərkəzi elmi kitabxanası və onun filialları;

dövlət təhsil müəssisələrinin kitabxanaları.

Qeyri-dövlət kitabxanalarına aşağıdakılar daxildir:

bələdiyyə kitabxanaları;

ictimai birliklərin kitabxanaları;

özəl və digər kitabxanalar;

xarici hüquqi və fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təsis edilmiş kitabxanalar.

...

**Maddə 27. Kitabxanaların maliyyələşdirilməsi**

Dövlət mülkiyyətində olan kitabxanalar dövlət büdcəsindən maliyyələşdirilir və qanunvericiliklə qadağan olunmayan digər xidmətlərdən əldə edilən gəlirlər bütövlükdə dövlət büdcəsinə köçürülür. Bələdiyyə və özəl mülkiyyətdə olan kitabxanalar isə öz vəsaitləri və qanunvericiliklə tənzimlənən fəaliyyətindən əldə edilmiş gəlirlər hesabına maliyyələşdirilir.

Dövlət kitabxanaları maliyyələşdirilərkən büdcədən kitab fondlarının komplektləşdirilməsinə yönəldilən vəsait ayrıca maddədə göstərilməli və bu vəsait müntəzəm olaraq artırılmalıdır. Ayrılmış vəsait kitabxanaların sərəncamında qalır və onların nizamnamə fəaliyyətini həyata keçirmək üçün istifadə edilir.

## Torpaq bazarı haqqında Azərbaycan Respublikasının Qanunu

*(7 may 1999-cu il, № 665-IQ)*

**Maddə 1. Əsas anlayışlar**

Bu Qanunda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

torpaq bazarı - torpaq dövriyyəsi proseslərində torpaq sahələrinin alqı-satqısı, girov qoyulması, bağışlanması, habelə mülkiyyət, istifadə və icarə hüquqlarının digər formalarda dəyişməsi ilə bağlı dövlət orqanları, bələdiyyələr, fiziki və hüquqi şəxslər arasında yaranan iqtisadi və hüquqi münasibətlər;

torpaq sahələrinin dövriyyəsi - Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada torpaq sahələri üzərində mülkiyyət, istifadə və icarə hüquqlarının dəyişməsi, torpaqların bir kateqoriyadan digərinə keçməsi və kateqoriyalar daxilində transformasiyası.



...

**Maddə 4. Torpaq bazarının obyektləri və subyektləri**

Azərbaycan Respublikasının torpaq qanunvericiliyi ilə müəyyən olunmuş qaydada qeydiyyata alınmış aşağıdakı torpaq sahələri və torpaqla bağlı hüquqlar torpaq bazarının obyekti ola bilər:

xüsusi mülkiyyətdə olan torpaqlar;

bələdiyyələrin ehtiyat fondunun özəlləşdirilə bilən torpaqları;

girov haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ilə girov (ipoteka) predmeti sayılan torpaq sahələri;

özəlləşdirilən dövlət obyektlərinin yerləşdiyi torpaq sahələri;

dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlar üzərində istifadə və icarə hüquqları.

Torpaq bazarının subyektləri Azərbaycan Respublikası, bələdiyyələr, Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və qaydada əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər, beynəlxalq birliklər, təşkilatlar və xarici dövlətlərdir.

Azərbaycan Respublikası adından torpaq bazarında müvafiq icra hakimiyyəti orqanları səlahiyyətləri daxilində iştirak edirlər.

Bələdiyyələr torpaq bazarında Azərbaycan Respublikasının qanunvericilik aktları ilə bələdiyyələrə verilən səlahiyyətlər daxilində iştirak edirlər.

Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları torpaq bazarında mülkiyyətçi, istifadəçi, icarəçi, girovqoyan, girovsaxlayan, alıcı, satıcı və digər əqdlərin iştirakçısı ola bilərlər.

Əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər, beynəlxalq birliklər, təşkilatlar və xarici dövlətlər torpağın mülkiyyətə alınması istisna olmaqla, torpaq bazarında qanunvericiliklə müəyyənləşdirilən səlahiyyətləri daxilində digər əqdlər bağlaya bilərlər.

...

**Maddə 9. Bələdiyyə torpaqlarının alqı-satqısı**

Bələdiyyə torpaqlarının alqı-satqısı ərazinin inkişaf planları, yerquruluşu, yaşayış məntəqələrinin baş planı və şəhərsalma sənədləri əsasında planlaşdırılır və qanunvericiliklə müəyyən edilmiş qaydada yerli özünüidarə orqanları tərəfindən həyata keçirilir.

Bələdiyyənin ehtiyat fondunun bazar obyektinə aid olan torpaqları barədə alqı-satqı əqdləri yerli normativlər nəzərə alınmaqla və aşkarlıq şəraitində bağlanılır.

Xüsusi şəhərsalma əhəmiyyətinə malik bələdiyyə torpaqları layihələrlə birlikdə və yaxud onlardan ayrı bir qayda olaraq torpaq hərracları və ya müsabiqələri vasitəsilə satılır.

Ərazi planlaşdırılması əsasında yaşayış məntəqəsinin infrastruktur sahələrinin yaradılması üçün nəzərdə tutulan torpaqların, habelə onlardan istifadə və icarə hüquqlarının alqı-satqısı bir qayda olaraq torpaq hərracları və müsabiqələri vasitəsilə həyata keçirilir.

Kənd təsərrüfatı torpaqlarının, onlar üzərində istifadə və icarə hüquqlarının, habelə kənd təsərrüfatına az yararlı və yararsız torpaqların kənd təsərrüfatına və onunla bağlı olan dövriyyəyə cəlb edilməsi məqsədilə satın alınmasında üstünlük hüququ, bu torpaqların əvvəlki istifadəçilərinə və icarəçilərinə, habelə satışa çıxarılan sahələrlə həmsərhəd yerləşən kənd təsərrüfatı istehsalçılarına verilir. Bu torpaq sahələrinə tələb təklifi üstələdiyi hallarda satış hərrac və ya müsabiqə yolu ilə həyata keçirilir.

Bələdiyyə tərəfindən bilavasitə satılmış torpaq sahələri və onlar üzərində istifadə və icarə hüquqlarına dair alqı-satqı aktı tərtib edilir.

Bələdiyyələr, satışa çıxarılan sərbəst torpaq sahələri, bu torpaqların ölçüləri, təyinatı, qiyməti, olduğu yer göstərilməklə elanlar vasitəsilə əhalini əvvəlcədən məlumatlandırır, ildə bir dəfə torpaqların dövriyyəsi və istifadə olunması barədə məlumatlar dərc edirlər.

...

**Maddə 11. Torpaq sahəsinin nizamnamə (pay) fonduna verilməsi**

Xüsusi mülkiyyətdə olan torpaq sahəsi hüquqi şəxslərin nizamnamə (pay) fonduna mülkiyyət və istifadə hüququ formalarında verilir.

Dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahəsi nizamnamə (pay) fonduna yalnız istifadə hüququ əsasında verilə bilər.

Torpaq istifadəçiləri, mülkiyyətçilərin razılığı ilə torpaqdan istifadə hüququnu nizamnamə (pay) fonduna yalnız müvəqqəti verə bilərlər.

Nizamnamə (pay) fonduna verilən torpaq sahəsi və ya bu sahə üzərindəki hüquqlar üzrə müqavilə iştirakçılarının mülkiyyət münasibətləri Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

Dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin nizamnamə (pay) fonduna verilməsi və istifadəsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı və bələdiyyələr müəyyən edirlər.

...

**Maddə 13. Torpaq sahəsinin dəyişdirilməsi, bağışlanması və vərəsəlik qaydasında başqasına keçməsi**

Hüquqi və fiziki şəxslərin xüsusi mülkiyyətində olan torpaq sahələrinin mülkiyyət, dövlət və bələdiyyə torpaqlarının isə istifadə və icarə hüquqlarının dəyişdirilməsi, bağışlanması və vərəsəlik qaydasında başqasına keçməsi Azərbaycan Respublikasının mülki və torpaq qanunvericiliyi ilə tənzimlənir.

...



**Maddə 16. Torpaq bazarında qiymətin formalaşmasının əsasları**

Torpaq bazarında qiymətlər əqdlərin növlərindən, satışın formalarından, satış obyektinin təyinatından, hüquqi statusundan, rejimindən, torpaqların normativ qiymətindən, habelə tələb və təklifdən asılı olaraq formalaşır.

Xüsusi mülkiyyətdə olan torpaq sahələri bilavasitə satıldıqda qiymətlər tərəflərin razılığı ilə bazar məzənnəsi nəzərə alınmaqla müəyyənləşdirilir.

Bələdiyyə mülkiyyətində olan torpaq sahələri bilavasitə satıldıqda qiymətlər normativ qiymətdən az olmamaq şərtilə bazar məzənnələri nəzərə alınmaqla bələdiyyələr tərəfindən müəyyən edilir. Bələdiyyələrin kənd təsərrüfatına az yararlı və yararsız torpaqları kənd təsərrüfatı məqsədləri üçün satıldıqda torpaq qanunvericiliyindəki güzəştlər nəzərə alınır.

Bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaq sahələrinin hərrac və müsabiqə vasitəsi ilə satışında ilkin qiymət (müsabiqədə isə qiymət), bazar məzənnəsini nəzərə almaqla, mülkiyyətçi ilə satışın təşkilatçıları arasında razılaşma əsasında torpağın normativ qiymətindən az olmamaq şərti ilə müəyyən edilir.

Torpaq sahələri dövlət və ictimai ehtiyacları ödəmək məqsədilə mülkiyyətçilərdən əvəzi ödənilməklə alındıqda onların qiyməti, müstəqil qiymətləndiricilərin (ekspertlərin) rəyi nəzərə alınmaqla, tərəflərin razılığı əsasında müəyyənləşdirilir. Tərəflər arasında mübahisə məhkəmə qaydasında həll olunur.

Torpaq üzərində istifadə və icarə hüquqlarının qiyməti, bazar məzənnələri nəzərə alınmaqla, bilavasitə satışı zamanı qarşılıqlı razılaşma əsasında, hərrac (və ya müsabiqə) vasitəsilə satıldıqda isə ilkin qiymət (qiymət) kimi mülkiyyətçilərlə satışın təşkilatçıları arasında razılaşma əsasında müəyyən edilir.

Torpaq sahələri üzərində istifadə və icarə hüquqları (xüsusi mülkiyyətdə olan torpaqlar istisna olmaqla) bağışlandıqda, dəyişdirildikdə və vərəsəliyə verildikdə onlar müvafiq icra hakimiyyəti orqanı və ya bələdiyyələr tərəfindən müəyyən edilən qaydada normativ qiymətlərdən az olmamaq şərti ilə qiymətləndirilir.

Nizamnamə (pay) fonduna verilən torpaq sahəsinin və ya bu sahə üzərindəki hüquqların dəyəri iştirakçılar arasında bağlanmış müqavilə ilə bazar məzənnəsinə uyğun müəyyən olunur.

Torpaq bazarında məzənnələri tənzimləmək və ehtiyat fonduna əlavə torpaq sahələri cəlb etmək məqsədilə bələdiyyələr torpaq hərraclarında və müsabiqələrində torpaq sahələri ala bilərlər.

...

**Maddə 18. Torpaq bazarında yaranan hüquqların əsasları**

Azərbaycan Respublikasında torpaq bazarında əldə edilmiş torpaq sahələri üzərində hüquqlar aşağıdakı əsaslar üzrə yaranır:

dövlət və bələdiyyə torpaqlarının və onlar üzərində istifadə və icarə hüquqlarının alqı-satqısı, girovu (ipotekası), nizamnamə (pay) fonduna verilməsi - müva-

fiq icra hakimiyyəti orqanlarının və bələdiyyələrin qərarları və torpaq münasibətlərinin subyektləri ilə bağlanmış müqavilələr və aktlar;

xüsusi mülkiyyətdə olan torpaqların və onlar üzərində istifadə və icarə hüquqlarının alqı-satqısı, nizamnamə (pay) fonduna verilməsi, dəyişdirilməsi, bağışlanması, girovu (ipotekası), vərəsələrə keçməsi - hüquqi və fiziki şəxslər arasında bağlanmış və notarial qaydada təsdiq edilmiş müqavilələr və aktlar;

torpaq üzərində hüquqların dövlət qeydiyyatı və sənədləşdirilməsi;

torpaq üzərində hüquqların müəyyən edilməsinə dair məhkəmənin qərarı və ya hökmü.

## Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu

*(21 may 1999-cu il, № 669-IQ)*

...

**Maddə 6. Məcburi köçkünlərə torpaq sahələri ayrılması, kreditlər verilməsi və texniki yardımlar göstərilməsi**

Məcburi köçkünlərə məskunlaşdıqları rayonlarda kənd təsərrüfatı ilə məşğul olmaları üçün dövlət proqramına uyğun olaraq dövlət və bələdiyyə torpaq fondu hesabına müvəqqəti olaraq torpaq sahələri ayrılır, onlara güzəştli kreditlər verilir, texniki və digər yardımlar göstərilir. Torpaq sahələrinin ayrılması, kreditlərin verilməsi və yardımların göstərilməsi qaydaları və şərtləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

## Heyvanlar aləmi haqqında Azərbaycan Respublikasının Qanunu

*(4 iyun 1999-cu il, № 675-IQ)*

...

**Maddə 5. Heyvanlar aləminin obyektləri üzərində mülkiyyət**

Azərbaycan Respublikasının ərazisində heyvanlar aləmi hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən dövlətə mənsubdur və onun mülkiyyətidir.

Azərbaycan Respublikasının xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan



bölməsində, digər su obyektlərində, ov yerlərində və meşə fondu sahələrində təbii sərbəstlik şəraitində olan heyvanlar aləminin obyektləri dövlət əhəmiyyətli təbii sərvətlərə aid edilir.

Dövlət əhəmiyyətli təbii sərvətlərə aid edilən heyvanlar aləmi obyektlərinin növləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Təbii sərbəstlik şəraitində və ya təbii mühitdən ayrılıb, yarımsərbəst və ya qeyri-sərbəst şəraitdə yetişdirilmiş (alınmış), yaxud qanunvericiliklə icazə verilən digər yollarla əldə edilmiş vəhşi heyvanlar və heyvanlar aləminin digər obyektləri bələdiyyə mülkiyyətində və ya xüsusi mülkiyyətdə ola bilərlər.

Heyvanlar aləmi obyektlərinin bələdiyyə mülkiyyəti və ya xüsusi mülkiyyət üçün əldə edilməsinin (ümumi istifadə qaydasında əldə edilməsindən başqa) qanuniliyi müvafiq sənədlərlə rəsmiləşdirilməlidir.

Bələdiyyə və ya xüsusi mülkiyyət hüququnda ola bilən heyvan növlərinin sənədlərinin forması və siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Heyvanlar aləminin obyektləri üzərində bələdiyyə və ya xüsusi mülkiyyət hüququ qanunvericilik aktlarında nəzərdə tutulmuş qaydada heyvanlar aləminin mühafizəsinin xeyrinə məhdudlaşdırıla bilər.

Xüsusi təbii mühafizə, elmi və estetik dəyərli heyvanlar aləminin obyektləri, habelə Azərbaycan Respublikasının Qırmızı kitabına daxil edilmiş heyvan növləri (qeyri-sərbəst şəraitdə yetişdirilmiş (alınmış) və ya Azərbaycan Respublikasının hüdudlarından kənarda qanunvericilikdə nəzərdə tutulmuş qaydada bələdiyyə mülkiyyəti və ya xüsusi mülkiyyət üçün əldə edilmiş heyvanlardan başqa) bələdiyyə mülkiyyətinə və ya xüsusi mülkiyyətə aid edilə bilməzlər.

...

**Maddə 10. Heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində bələdiyyələrin iştirakı**

Heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində bələdiyyələrin səlahiyyətləri aşağıdakılardır:

yerli büdcələrin tərkibində heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində xərcləri müəyyənləşdirmək və təsdiq etmək;

bələdiyyə mülkiyyətinə aid edilmiş heyvanlar aləmi obyektlərinin mühafizəsi və istifadəsi üzrə normativ hüquqi aktlar qəbul etmək;

qanunvericiliklə müəyyən edilmiş qaydada bələdiyyə mülkiyyətində zooparklar, zoobağlar, digər zooloji kolleksiyalar yaratmaq, onların mühafizəsini və istifadəsini həyata keçirmək;

yarımsərbəst və qeyri-sərbəst şəraitdə vəhşi heyvanlar saxlamaq, yetişdirmək və ticarət etmək;

heyvanlar aləminin və onların yaşayış mühitinin mühafizəsi və bərpası üzrə yerli ekoloji proqramlar hazırlamaq, təsdiq etmək və icrasını həyata keçirmək;

heyvanlar aləminin mühafizəsi və istifadəsi ilə əlaqədar dövlət orqanları və beynəlxalq təşkilatlar qarşısında müvafiq məsələlər qaldırmaq;

heyvanlar aləminə və onların yaşayış mühitinə zərərli təsir göstərə bilən müəssisələrin, qurğuların və digər obyektlərin yerləşdirilməsi, tikintisi, yenidən qurulması və istismarı haqqında qərarların inzibati və ya məhkəmə qaydasında ləğv edilməsini, habelə fiziki və hüquqi şəxslərin fəaliyyətinin məhdudlaşdırılmasını və dayandırılmasını tələb etmək;

öz səlahiyyətləri daxilində qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

...

**Maddə 45. Heyvanlar aləminin mühafizəsinə və istifadəsinə bələdiyyə nəzarəti**

Heyvanlar aləminin mühafizəsinə və istifadəsinə bələdiyyə nəzarəti təbiəti mühafizə və bələdiyyələr haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

## Nəqliyyat haqqında Azərbaycan Respublikasının Qanunu

*(11 iyun 1999-cu il, № 683-IQ)*

Bu Qanun nəqliyyatın fəaliyyətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyənləşdirir.

...

**Maddə 7. Nəqliyyat sahəsində bələdiyyələrin hüquqları və vəzifələri**

Nəqliyyat sahəsində bələdiyyələrin hüquqları və vəzifələri bələdiyyələr haqqında qanunvericiliklə müəyyən edilir.

## Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu

*(22 iyun 1999-cu il)*

**Maddə 1. Əsas anlayışlar**

Bu qanunda istifadə edilən əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

**valideynlərini itirmiş uşaqlar** - hər iki valideyni vəfat etmiş 18 yaşınadək olan şəxslərdir;

**valideyn himayəsindən məhrum olmuş uşaqlar** - hər iki valideyni:

məlum olmayan;



valideynlik hüquqlarından məhrum edilən və ya valideynlik hüquqları məhdudlaşdırılan;

xəbərsiz itkin düşmüş, fəaliyyət qabiliyyəti olmayan (fəaliyyət qabiliyyəti məhdudlaşdırılan) hesab edilən, ölmüş elan edilən;

cəzaçəkmə müəssisələrində cəzasını çəkən;

uşaqlarının tərbiyə edilməsindən və ya onların hüquq və mənafelərinin müdafiəsindən imtina edən;

uşaqlarını tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi və digər analoji müəssisələrdən götürməkdən imtina edən;

qanunla nəzərdə tutulmuş qaydada digər hallarda valideyn himayəsindən məhrum hesab edilən 18 yaşınadək şəxslərdir. Bir valideyni vəfat etmiş və o biri valideyni I və II qrup əlil olan 18 yaşınadək şəxslər də valideyn himayəsindən məhrum olmuş uşaqlar hesab edilirlər;

**valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların arasından olan şəxslər** - 18 yaşınadək hər iki valideynini itirmiş, habelə hər iki valideyninin himayəsindən məhrum olmuş ali və orta peşə-ixtisas təhsili müəssisələrində əyani formada təhsil alan 23 yaşınadək olan şəxslərdir;

**valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələr** - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların saxlanıldığı, təhsil və (və ya) tərbiyə aldığı təhsil müəssisələri;

ailə tipli uşaq evləri;

əhalinin sosial müdafiəsi müəssisələri (uşaq evləri);

əqli geriliyi və fiziki çatışmazlığı olan əlil uşaqlar üçün internatlar, sosial-reabilitasiya yardım mərkəzləri, sosial sığınacaqlar);

səhiyyə sistemi müəssisələri və qanunvericiliklə müəyyən edilmiş qaydada yaradılan digər dövlət və qeyri-dövlət müəssisələridir;

**qəyyumluq və himayə** - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların saxlanılması, tərbiyə olunması və təhsili, habelə hüquq və mənafelərinin müdafiəsi məqsədilə onların yerləşdirilməsi formasıdır. Qəyyumluq 14 yaşınadək olan uşaqlara, himayə 14 yaşından 18 yaşınadək olan uşaqlara müəyyən edilir;

**övladlığa götürən şəxs** - qanunvericiliklə müəyyən edilmiş qaydada valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqları övladlığa götürən ər-arvad və ya ayrı-ayrı şəxslərdir;

**valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların tam dövlət təminatı** - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara müvafiq dövlət və ya bələdiyyə müəssisələrində, qəyyumun (himayəçinin) ailəsində olduqları müddətdə müvafiq icra hakimiyyəti orqanları tərəfindən müəyyən olunmuş qaydada yemək, paltar və ayaqqabı dəsti verilməsi, yaşaması, təhsil alması və tibbi xidmət göstərilməsi və ya onların tam dəyərinin dövlət büdcəsi hesabına ödənilməsidir.

...

**Maddə 9. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların hüquqlarının müdafiəsi**

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, habelə onların arasından olan şəxslərin hüquqlarının və qanunla qorunan mənafelərinin müdafiəsini onların özləri, qanuni nümayəndələri, qəyyumları (himayəçiləri), müvafiq icra hakimiyyəti, məhkəmə və prokurorluq orqanları, bələdiyyələr, habelə ictimai birliklər və həmkarlar ittifaqı təşkilatları Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada həyata keçirirlər.

## Sığorta haqqında Azərbaycan Respublikasının Qanunu

*(25 iyun 1999-cu il, № 696-IQ)*

...

**Maddə 3. Sığortaçının müstəqilliyi**

Dövlət hakimiyyəti və bələdiyyə orqanları, qanunvericilikdə nəzərdə tutulmuş tənzimləmə və nəzarət funksiyalarının həyata keçirilməsi halları istisna olmaqla, sığortaçının fəaliyyətinə qarışa, onun əmlakına və fondlarına sərəncam verə bilməzlər.

...

**Maddə 8. Nizamnamə kapitalı barəsində tələblər**

1. Sığortaçının və təkrar sığortaçının nizamnamə kapitalının minimum məbləğini qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş hallar istisna olmaqla, sığortaçı nizamnamə kapitalını dövlət qeydiyyatına alınmazdan əvvəl tamamilə ödəməlidir.

3. Sığortaçının nizamnamə kapitalını formalaşdırmaq üçün kredit şəklində cəlb olunmuş pul vəsaitindən, habelə qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, dövlət və bələdiyyə büdcələrinin, büdcədənkənar fondların pul vəsaitindən və dövlət hakimiyyəti orqanlarının sərəncamında olan digər vəsaitdən istifadə edilə bilməz.

4. Nizamnamə kapitalına pay şəklində qoyulan əmlakın və ya əmlak hüquqlarının dəyərinin nizamnamə kapitalına nisbəti 25 faizdən çox ola bilməz.

5. Sığortaçının pul şəklində ödənilmiş nizamnamə kapitalı beynəlxalq kredit reytinqlərindən müvafiq icra hakimiyyəti orqanının göstərdiyi reytinqdən aşağı olmayan banklarda tam həcmdə saxlanıla bilər.



6. Nizamnamə kapitalına qoyulan əmlakın qiymətinin bazar qiymətinə uyğunluğuna müvafiq icra hakimiyyəti orqanı nəzarət edir.

## Hesablama Palatası haqqında Azərbaycan Respublikasının Qanunu

*(2 iyul 1999-cu il, № 700-IQ)*

...

**Maddə 2-1. Hesablama Palatasının fəaliyyət dairəsi**

Hesablama Palatası dövlət büdcəsinin təsdiq edilməsinə və icrasına, dövlət əmlakının idarə edilməsinə, onun barəsində sərəncam verilməsinə, dövlət əmlakının özəlləşdirilməsindən əldə edilən vəsaitlərin dövlət büdcəsinə daxil olmasına, hüquqi şəxslərə və bələdiyyələrə dövlət büdcəsindən vəsaitlər ayrıldıqda həmin vəsaitlərin təyinatı üzrə istifadə edilməsinə nəzarəti həyata keçirir.

## Su təchizatı və tullantı suları haqqında Azərbaycan Respublikasının Qanunu

*(28 oktyabr 1999-cu il, № 723-IQ)*

...

**Maddə 1. Əsas anlayışlar**

Bu qanunda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

**su təchizatı sistemi** - suyu mənbədən götürən, təmizləyən və istehlakçıya çatdıran bir və ya bir qrup qurğu, o cümlədən magistral (ümumiləşdirilmiş) və paylayıcı (daxili) su kəmərləri (xətləri) şəbəkəsidir;

**kanalizasiya sistemi** - yaşayış məntəqəsində və ya sənaye müəssisələrinin fəaliyyəti nəticəsində əmələ gələn tullantı sularını tullantı təmizləyən məntəqəyə nəql etdirən şəbəkədir;

**su təchizatı və kanalizasiya müəssisələri (su təchizatı müəssisələri, kanalizasiya müəssisələri)** - mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq müəyyən ərazi (zona) hüdudlarında su təchizatının və tullantı sularının axıdılmasını təmin edən hüquqi şəxsdir;

**istehlakçı** - su təchizatı və kanalizasiya müəssisəsinin xidmətlərindən istifadə edən hüquqi və fiziki şəxsdir;

**su təchizatı və tullantı sularının axıdılması obyektləri (su təchizatı obyekti, tullantı sularının axıdılması obyekti, obyekt)** - daxili (paylayıcı) su kəmərləri və kanalizasiya şəbəkəsi ümumi (magistral) su təchizatı və kanalizasiya sistemlərinə qoşulmuş və ya qoşulmalı olan hər hansı müəssisə, idarə, təşkilat, yaşayış binası, torpaq sahəsi, qurğu, binadır;

**məişət (təsərrüfat)-içməli su** - yaşayış məntəqəsində yaşayan əhalinin və sənaye müəssisələri işçilərinin məişət (təsərrüfat) və içmək məqsədləri üçün istifadə olunan sudur;

**istehsalat məqsədli su** - istehsalat, sənaye, texnoloji və başqa texniki məqsədlər üçün istifadə etdiyi sudur;

**tullantı suları** - istehlakçıların istifadə edərək çirkləndirdiyi sular, sənaye texnologiyası ilə əlaqədar olaraq çirklənmiş sular, həmçinin yaşayış məntəqəsində insanların fizioloji qalıqları (ifraz maddələri) ilə qarışmış mayelər, baş vermiş qəzalar zamanı ətraf mühitə və kanalizasiya sisteminə atılan şərti təmiz sulardır;

**su (kanalizasiya) müəssisəsinin nümayəndəsi** - səlahiyyətləri bu Qanunun 49-cu və 50-ci maddələrində nəzərdə tutulmuş vəzifəli şəxsdir;

**yerli orqanlar** - Azərbaycan Respublikasının Su Məcəlləsi, digər qanunvericilik aktları və bu Qanunla su təchizatı sahəsində səlahiyyətləri müəyyən edilmiş müvafiq icra hakimiyyəti orqanları və bələdiyyələrdir;

**su təchizatı və kanalizasiya obyektinin (obyektin) sahibləri** - su təchizatı və kanalizasiya obyektlərinin və ya su təchizatı və kanalizasiya xidmətlərindən istifadə edən obyektlərin (müəssisələrin, qurğuların, binaların, evlərin, mənzillərin) mülkiyyətçiləri, icarəçilərdir.

...

**Maddə 5. Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinin göstərilməsi prinsipləri**

1. Su təchizatı və kanalizasiya müəssisələri öz vəzifələrini həyata keçirərkən aşağıdakı prinsiplərə əsaslanırlar:

a) su təchizatı, tullantı sularının axıdılması və tullantıların atılması xidmətlərinin göstərilməsində öz xərcinin çıxarılması;

b) istehlakçıların müvafiq keyfiyyətli və lazımi miqdarda su ilə, ilk növbədə içməli su ilə təmin olunması;

c) su ehtiyatlarından səmərəli istifadə olunması;

ç) tullantı suları və tullantıların təmizlənməsi və atılmasının etibarlı sisteminin yaradılması.

2. Su təchizatı və kanalizasiya müəssisələri öz hüquqlarını, səlahiyyətlərini və vəzifələrini qanunvericiliyə və bu maddənin 1-ci bəndinin "a" yarımbəndində nəzərdə tutulan xidmətlərin göstərilməsi haqqında istehlakçılar və ya müvafiq icra hakimiyyəti orqanı (bələdiyyə) ilə bağladıqları müqavilə şərtlərinə riayət etməklə həyata keçirirlər.

...

**Maddə 7. Su təchizatı və tullantı sularının axıdılması sistemlərinin yerləşdirilməsi və inkişaf sxemləri**

1. Su təchizatı və tullantı sularının axıdılması sistemlərinin layihələndirilməsi və tikilməsi, əhalinin, müəssisə, idarə və təşkilatların məişət (təsərrüfat)-içməli, sənaye-texnoloji və digər məqsədlər üçün su ilə təmin olunması, həmçinin tullantı sularının axıdılması, nəqli, təmizlənməsi, tullantıların zərərsizləşdirilməsi və atılması prosesləri su təchizatı və kanalizasiya təsərrüfatlarının yerləşdirilməsi və inkişafı respublika və regional sxemlərinə müvafiq olaraq həyata keçirilir.

2. Respublika sxemləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş qaydada Azərbaycan Respublikasının bütün ərazisi üçün hazırlanır və təsdiq edilir.

3. Naxçıvan Muxtar Respublikasının regional sxemləri Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanları tərəfindən hazırlanır və təsdiq edilir.

4. Şəhərlərin, rayonların regional sxemləri müvafiq normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanları tərəfindən bələdiyyələrin iştirakı ilə hazırlanır və təsdiq edilir.

...

**Maddə 9. Ərazilərin (zonaların) müəyyən edilməsi və onlara cavabdeh müəssisələrin təyin edilməsi**

1. Bu qanuna əsasən müvafiq icra hakimiyyəti orqanı ölkə ərazisinin su təchizatı və (və ya) tullantı sularının axıdılması zonalarına bölünməsini təmin edir, o cümlədən bir və ya bir neçə zonada su təchizatına və (və ya) tullantı sularının axıdılmasına cavabdeh olan müəssisələri təyin edir. Müəyyən ərazidə su təchizatına və tullantı sularının axıdılmasına cavabdeh olan su təchizatı və kanalizasiya müəssisəsi qanunvericilikdə və müvafiq icra hakimiyyəti orqanı ilə bağlanmış müqavilədə nəzərdə tutulan vəzifələri icra edir və səlahiyyətləri həyata keçirir.

2. Müvafiq icra hakimiyyəti orqanı su təchizatı və kanalizasiya müəssisəsinə müvafiq normativ hüquqi aktlarla müəyyənləşdirilmiş qaydada və şərtlərlə, bələdiyyələrlə razılaşdırılmaqla, müəssisənin xidməti zonasının hüdudlarından kənarda onun fəaliyyətini həyata keçirməyə səlahiyyət verə bilər.

**Maddə 10. Su obyektlərindən istifadəyə icazənin verilməsi**

Müvafiq icra hakimiyyəti orqanı qanunvericiliklə nəzərdə tutulmuş qaydada və şərtlərə əsasən bələdiyyələrlə razılaşdırmaqla aşağıdakılara icazə verir:

a) müəyyən miqdarda yerüstü və yeraltı suyun qəbuluna;

b) tullantı sularının hər hansı yerüstü və yeraltı su hövzələrinə axıdılmasına, həmçinin tullantıların (o cümlədən maye tullantıların) daşınmasına, torpaqda və ya su hövzələrində basdırılmasına;

c) su bəndlərinin, su anbarlarının və digər hidrotexniki qurğuların tikintisinə.

**Maddə 11. Fövqəladə hallarda fəaliyyət**

1. Bu maddədə fövqəladə hallar dedikdə böyük miqyaslı qəzalar, təbii fəlakətlər nəzərdə tutulur ki, onlar aşağıdakı nəticələrə gətirə bilər:

a) su təchizatı və tullantı suları axıdan qurğuların işinin ciddi şəkildə pozulmasına;

b) əhalinin hamısının və ya əksər hissəsinin mənafeyinə toxunan maddi zərər, dağıntı və insan tələfatına, yaxud fövqəladə ekoloji böhrana.

2. Fövqəladə hallar baş verdiyi zaman müvafiq icra hakimiyyəti orqanı müvafiq su təchizatı və kanalizasiya müəssisəsi, bələdiyyə birgə fəaliyyət göstərirlər.

3. Müvafiq icra hakimiyyəti orqanı fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə əlaqədar su təchizatı və kanalizasiya müəssisələri tərəfindən çəkilmiş xərclərin ödənilməsi məqsədi ilə dövlət vəsaiti ayırır.

...

**Maddə 15. İctimai ehtiyaclar üçün su təchizatı**

1. Su təchizatı müəssisələri təqdim olunmuş sifarişlər əsasında kanalizasiya, yaşıllaşdırma, yol təsərrüfatı müəssisələrini və yerli orqanları (bələdiyyələri) ictimai ehtiyaclar üçün su ilə təchiz edirlər. Buna kanalizasiya borularının və drenac axarlarının təmizlənməsi, şose yollarının yuyulması və isladılması, həmçinin böyük su sərfi tələb edən digər ictimai məqsədlər üçün, o cümlədən parkların, hovuzların, hamamların, camaşırxanaların və qızdırıcı sistemlərin su ilə təchizatı aid edilir.

2. Bu maddəyə əsasən su təchizatı müəssisələri tərəfindən su təchizatı bütün maraqlı tərəflər üçün qarşılıqlı əlverişli və sərfəli hesab olunan müqavilə şərtlərinə əsasən təmin edilir.

3. Bu maddəyə əsasən su təchizatı müəssisəsi müqavilədə göstərilməyən hər hansı əlavə xərclərin və işlərin görülməsini nəzərdə tutan su təchizatını həyata keçirməyə borclu deyil. Lakin tərəflərin razılığına əsasən belə işlər sifarişçinin (tamamilə və ya qismən) hesabına su təchizatı müəssisəsi tərəfindən aparıla bilər.

...

**Maddə 20. Suyun qıtlığı zamanı su təchizatı**

1. Nəzərdə tutulmuş xərclər hesabına magistral su xətləri ilə lazımi miqdarda və tələb olunan keyfiyyətdə suyun verilməsi mümkün olmadıqda, su təchizatı müəssisəsi yerli orqanların (bələdiyyələrin) müraciətinə əsasən və onların hesabına tərəflər arasında razılaşdırılmış yerlərə, yaxud birbaşa obyektlərə suyun digər üsullarla (sudaşıyan maşınların köməyi ilə və ya su üçün tutumların aparılması) çatdırılmasını təmin edir.

2. Bu maddənin 1-ci bəndinin müddəaları o vaxt tətbiq edilir ki:

a) məişət (təsərrüfat) - içməli ehtiyacları üçün suyun təchizatı keyfiyyətinin aşağı səviyyədə olması və ya suyun qıtlığı insanların sağlamlığını və həyatlarını təhlükə altına alsın. Bu halda yerli orqanlar (bələdiyyələr) bu barədə su təchizatı müəssisələrinə məlumat verir və öz tələblərini irəli sürürlər ki, su təchizatı müəssisəsi bu tələblərin yerinə yetirilməsi imkanlarını müəyyənləşdirə bilsin;

b) su təchizatı müəssisəsi alternativ vasitələrin köməyi ilə bu bəndin "a" yarımbəndində qeyd olunan tələblərin yerinə yetirilməsi üçün maliyyə və texniki ehtiyatlara malik olsun;

c) yerli orqanlar (bələdiyyələr) alternativ su təchizatı dövründəki xərclərin müəyyən müddətdə ödənilməsi və kompensasiyanın müddətləri barədə su təchizatı müəssisəsi ilə müqavilə bağlasın.



3. Əhalinin alternativ su təchizatı ilə əlaqədar mərkəzləşdirilmiş su təchizatının qiymətindən əlavə xərclər müvafiq büdcə vəsaiti hesabına su təchizatı müəssisəsinə ödənilir.

**Maddə 21. Su təchizatı sisteminin istismara verilməsinin elan edilməsi**

Su təchizatı müəssisəsi su təchizatı zonası və ya onun bir hissəsində su təchizatı sisteminin istismara verilməsi barədə yerli orqanlara (bələdiyyələrə) rəsmi məlumat verir və kütləvi informasiya vasitələrində elan edir.

...

**Maddə 25. Su təchizatı sisteminin genişləndirilməsi**

1. Su təchizatı sistemi olmayan ərazilərdə yerləşən obyektlərin sahibləri və ya yerli orqanlar (bələdiyyələr) mövcud su təchizatı sisteminin genişləndirilməsi barədə su təchizatı müəssisəsinə yazılı müraciət edə bilərlər. Su təchizatı sisteminin genişləndirilməsi və obyektlərin qoşulması işləri bu barədə müraciət etmiş orqan və ya obyekt sahibi hesabına aparılır.

2. Mövcud su təchizatı sisteminin genişləndirilməsinin (magistral su kəmərləri də daxil olmaqla) dəyəri istehlakçılardan alınacaq ödənişlərin miqdarından artıq olduqda su təchizatı müəssisələri müraciət edənlərdən su təchizatı sisteminin genişləndirilməsinə tələb olunan xərclərin bir hissəsini qabaqcadan ödəməyi tələb edə bilərlər. Bu halda belə ödəniş adi qoşulmağa tələb olunan ödənişə əlavə kimi götürülür.

...

**Maddə 36. Ümumi istifadədə olan kanalizasiya sisteminə birləşmək hüququ**

Obyektlərin tikintisi aparılan və ya planlaşdırılan ərazilərdə ümumi istifadədə olan kanalizasiya sistemləri olmadıqda, yerli orqanlar (bələdiyyələr) və ya obyektlərin sahibləri kanalizasiya müəssisəsinə obyektlərin ümumi istifadədə olan kanalizasiya sisteminə qoşulması məqsədi ilə onların hesabına kanalizasiya kəmərlərinin çəkilməsi və ya kanalizasiya qurğularının tikintisinin təmin olunması haqqında yazılı sifarişlə müraciət edə bilərlər.

...

**Maddə 45. Torpaqlardan istifadə etmək hüquqları**

1. Su təchizatı və kanalizasiya müəssisələri öz vəzifələrini həyata keçirmək məqsədi ilə su təchizatı və kanalizasiya qurğularının tikilməsini təmin edir və bu məqsədlərlə müvafiq qanunvericiliklə nəzərdə tutulmuş qaydada torpaqlardan istifadə etmək hüququna malikdirlər.

2. Dövlət və ya bələdiyyələrin mülkiyyətində olan torpaqların ayrılması müvafiq icra hakimiyyəti orqanının və (və ya) bələdiyyə orqanının razılığına əsasən qanunvericiliklə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

Torpaq qanunvericiliyinə zidd olmayan hallarda xüsusi mülkiyyətdə olan torpaqlardan qeyd olunan məqsədlərlə istifadə torpaqların mülkiyyətçisi ilə bağlanmış müqaviləyə əsasən onların satın alınması, icarəyə götürülməsi və ya kompensasiyanın verilməsi yolu ilə həyata keçirilir.

...

**Maddə 56. Layihələndirmə və tikinti işlərinin razılaşdırılması**

1. Su təchizatı və kanalizasiya obyektlərinin layihələndirilməsi və tikintisi qanunvericiliklə nəzərdə tutulmuş qaydada müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla həyata keçirilir.

Müvafiq icra hakimiyyəti orqanı layihələndirmə və tikinti haqqında müvafiq müraciətlərə baxır və müraciəti alan gündən bir ay müddətində qəbul edilmiş qərar barədə məlumat verir.

2. İstehlakçıların birbaşa və dolayısı ilə su təchizatına, tullantı sularının axıdılmasına, subasmanın qarşısının alınmasına təsir göstərən tikinti və təsərrüfat fəaliyyəti qanunvericiliklə nəzərdə tutulmuş qaydada müvafiq su təchizatı və kanalizasiya müəssisələri, bələdiyyələrlə razılaşdırılmaqla həyata keçirilir.

## Yeyinti məhsulları haqqında Azərbaycan Respublikasının Qanunu

*(18 noyabr 1999-cu il, № 759-IQ)*

Bu Qanun Azərbaycan Respublikasında yeyinti məhsullarının keyfiyyətinin idarə edilməsinin, istehsalının və bazarının təşkilinin, əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsinin hüquqi əsaslarını müəyyən edir:

...

**Maddə 8. Yeyinti məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarəti**

Yeyinti məhsullarının istehsalı, ticarəti, tədarükü, saxlanması, idxalı, ixracı və daşınması zamanı onun keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarəti funksiyalarını öz səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanları həyata keçirirlər.

Bələdiyyələr, istehlakçılar, onların ictimai birlikləri və qeyri-hökumət təşkilatları ərzaq bazarında yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına ictimai nəzarət funksiyalarını yalnız onların statusunu müəyyən edən qanunvericilik aktları ilə verilən səlahiyyətlər daxilində həyata keçirə bilərlər.

Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlar və tələblərə əməl olunmasına dövlət nəzarəti funksiyalarının həyata keçirilməsində digər orqanların iştirakına yol verilmir.

Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlar və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.



...

**Maddə 10. Yeyinti məhsulları istehsalının stimullaşdırılması**

Əhalinin yeyinti məhsullarına olan tələbatının və ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasında yeyinti məhsullarının istehsalı sahəsində məqsədli investisiya, qiymət, kredit siyasəti həyata keçirilir.

Dövlət ərzaq ehtiyatlarının formalaşmasında, müdafiə, təhlükəsizlik, hüquq-mühafizə, digər dövlət orqanlarının və bələdiyyələrin qapalı təşkilatlarının yeyinti məhsulları ilə təchizatında yerli istehsalçılara üstünlük verilir.

Pəhriz və uşaq qida məhsullarının istehsalı və çeşidinin artırılması dövlət tərəfindən məqsədli proqramlar əsasında stimullaşdırılır.

Yeyinti məhsullarının istehsalı məqsədi ilə idxal edilən xammala və qida əlavələrinə gömrük rüsumlarının ödənilməsində güzəştlər tətbiq edilir.

...

**Maddə 18. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlətin vəzifələri**

Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

yeyinti məhsullarının istehsalının artırılması və ərzaq bazarının tənzimlənməsi sahəsində dövlət siyasətini həyata keçirmək;

əhalinin ərzaq təhlükəsizliyi barədə məqsədli dövlət proqramları hazırlamaq və icrasını təmin etmək;

yeyinti məhsulları üzrə dövlət ehtiyatları yaratmaq, onların formalaşmasını, saxlanmasını, istifadəsini və tənzimlənməsini təşkil etmək;

ərzaq və xammal kimi istifadə edilən yeyinti məhsullarının istehsalı və istifadəsi üzrə dövlət və regional balansları hazırlamaq və əhalinin yeyinti məhsulları ilə təminatını proqnozlaşdırmaq;

ərzaq böhranı və fövqəladə hadisələr zamanı əhalinin yeyinti məhsulları ilə təchizatını tənzimləmək, o cümlədən normativ ərzaq bölgüsü və digər xüsusi təminat rejimləri müəyyən etmək;

ərzaq bazarının tənzimlənməsi və yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində normativ hüquqi aktlar qəbul etmək;

əhalinin yeyinti məhsulları ilə təmin edilməsində dövlət orqanlarının və bələdiyyələrin fəaliyyətini əlaqələndirmək;

əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində digər vəzifələri həyata keçirmək.

# İnvestisiya fondları haqqında Azərbaycan Respublikasının Qanunu

*(30 noyabr 1999-cu il, № 766-IQ)*

...

**Maddə 6. İnvestisiya portfeli**

İnvestisiya portfeli investisiya fondunun malik olduğu aşağıda göstərilən tələblərə cavab verən investisiyaların məcmusudur:

açıq investisiya fondu üçün xalis aktivlərinin dəyərinin 15 faizə qədəri, qapalı investisiya fondu üçün isə xalis aktivlərinin dəyərinin 25 faizə qədəri bir emitentin qiymətli kağızları olan emissiya qiymətli kağızlarına investisiya oluna bilər. Dövlət, yaxud bələdiyyə orqanları tərəfindən buraxılan qiymətli kağızlara açıq investisiya fondunun xalis aktivlərinin 25 faizə qədəri, qapalı investisiya fondunun xalis aktivlərinin isə 35 faizə qədəri investisiya oluna bilər;

açıq investisiya fondu bir emitentin qiymətli kağızlarının qanunvericiliklə müəyyən edilmiş qaydada qeydiyyata alınmış ümumi məbləğinin 15 faizə qədərini, qapalı investisiya fondu isə 25 faizə qədərini ala bilər.

...

**Maddə 15. İnvestisiya fondunun fəaliyyətinə məhdudiyyətlər**

1. İnvestisiya fonduna aşağıdakılar qadağan edilir:

1.1. adi səhmlərdən başqa qiymətli kağızların digər növlərini buraxmaq;

1.2. altı aydan artıq müddətə, investisiya fondunun xalis aktivlərinin mütəmadi əsasda hesablanan dəyərinin 10 faizindən çox olan məbləğdə banklardan borc vəsaitini cəlb etmək;

1.3. açıq investisiya fondu üçün xalis aktivlərinin dəyərinin 15 faizindən, qapalı investisiya fondu üçün isə xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə bir emitentin qiymətli kağızları olan emissiya qiymətli kağızlarına investisiya qoyuluşunu həyata keçirmək. Dövlət, yaxud bələdiyyə orqanları tərəfindən buraxılan qiymətli kağızlara isə açıq investisiya fondu üçün xalis aktivlərinin 25 faizindən, qapalı investisiya fondu üçün isə xalis aktivlərinin 35 faizindən artıq məbləğdə investisiya qoyuluşu həyata keçirmək;

1.4. açıq investisiya fondu üçün bir emitentin qiymətli kağızlarının qanunvericiliklə müəyyən edilmiş qaydada qeydiyyata alınmış ümumi məbləğinin 15 faizindən, qapalı investisiya fondu üçün isə 25 faizindən çoxunu almaq;

1.5. afilə edilmiş şəxslərin qiymətli kağızlarını almaq;

1.6. investisiya fondunun müvafiq müqavilələr bağladığı depozitarinin və reyestr saxlayıcının qiymətli kağızlarını almaq;

1.7. hər hansı şəkildə borc vermək;

1.8. marca ilə istənilən qiymətli kağızları almaq;



1.9. investisiya fonduna məxsus olmayan qiymətli kağızların satılmasına, fyuçers və opsion istisna olmaqla qeyri-emissiya qiymətli kağızların alınmasına dair müqavilələr bağlamaq;

1.10. istənilən növ təminatlar vermək, özünün xalis aktivlərinin dəyərinin 10 faizindən artıq məbləğdə qiymətli kağızlarla girov əqdləri həyata keçirmək;

1.11. investisiya fondlarının qovuşması və (və ya) birləşməsi halları istisna olmaqla, başqa investisiya fondlarının səhmlərini almaq və öz aktivlərində saxlamaq;

1.12. investisiya fondunun əmlakı ilə bağlı, həmin fondun afilə edilmiş şəxsləri ilə əqdlər bağlamaq;

1.13. investisiya fondunun törəmə müəssisələrini, yaxud hər hansı xüsusi və ya ehtiyat fondlarını yaratmaq;

1.14. öz səhmlərinin satışı və alışının piramidal sxemlərindən istifadə etmək;

1.15. tərkibində investisiya fondunun səhmləri üzrə gəlirlərə dair təminatlar, yaxud vədlər olan məlumatlar yaymaq;

1.16. maddi istehsalla, habelə qiymətli kağızlar istisna olmaqla, digər əmlakın ticarəti ilə məşğul olmaq;

1.17. xarici emitentlərin qiymətli kağızlarını almaq.

# Kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikasının Qanunu

*(7 dekabr 1999-cu il, № 769-IQ)*

...

**Maddə 7. Senzuranın yolverilməzliyi**

Kütləvi informasiya vasitələri üzərində dövlət senzurasına, habelə bu məqsədlə xüsusi dövlət orqanlarının və ya vəzifələrin yaradılmasına və maliyyələşdirilməsinə yol verilmir. Məlumatın və ya müsahibənin müəllifi olduqları hallardan başqa, dövlət orqanlarının, bələdiyyələrin, idarə, müəssisə və təşkilatların, ictimai birliklərin, vəzifəli şəxslərin, habelə siyasi partiyaların kütləvi informasiya vasitələrində yayılan məlumat və materialların qabaqcadan onlarla razılaşdırılmasını tələb etmək və ya yayılmasını qadağan etmək hüququ yoxdur.

Fövqəladə vəziyyətin qüvvədə olduğu müddət ərzində şərtləri və bu şərtlərin həyata keçirilməsi qaydası göstərilməklə kütləvi informasiya vasitələrinin azadlığı müvəqqəti məhdudlaşdırıla bilər.

**Maddə 8. Kütləvi informasiya vasitələrinin məlumat almaq hüququ**

Kütləvi informasiya vasitələri cəmiyyətdəki iqtisadi, siyasi, ictimai və sosial durum haqqında, dövlət orqanlarının, bələdiyyələrin, idarə, müəssisə və təşkilatların, ictimai birliklərin, siyasi partiyaların, vəzifəli şəxslərin fəaliyyəti barədə operativ və

doğru-dürüst məlumatlar almaq hüququna malikdirlər. Bu hüquq Azərbaycan Respublikasının qanunvericiliyində göstərilən hallardan başqa, məhdudlaşdırıla bilməz.

Dövlət orqanları, bələdiyyələr, idarə, müəssisə və təşkilatlar, ictimai birliklər, siyasi partiyalar, vəzifəli şəxslər öz fəaliyyətləri haqqında məlumatı kütləvi informasiya vasitəsinin sorğusu əsasında, habelə mətbuat konfransları keçirmək yolu ilə, yaxud başqa formalarda verirlər.

İnformasiya almaq üçün sorğu yazılı və şifahi ola bilər. Tələb olunan informasiyanı adları çəkilən orqan, təşkilat və ictimai birliklərin rəhbərləri, onların müavinləri, mətbuat xidmətinin işçiləri, yaxud digər səlahiyyətli şəxslər verə bilərlər.

Məlumatın əldə edilməsi barədə yazılı sorğuya Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada və müddətdə baxılır. Qanunda göstərilən müddətdə həmin məlumat öz operativliyini itirərsə, sorğuya dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavab verilməlidir.

Kütləvi informasiya vasitəsinin nümayəndəsi məlumatı verməkdən imtina edən dövlət orqanlarından, bələdiyyələrdən, idarə, müəssisə və təşkilatlardan, ictimai birliklərdən, siyasi partiyalardan və ya vəzifəli şəxslərdən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə şikayət etmək hüququna malikdir.

...

**Maddə 14. Kütləvi informasiya vasitəsinin təsis edilməsi**

Mətbu nəşrlərin təsis edilməsi üçün dövlət orqanlarından icazə tələb olunmur.

Mətbu nəşr təsis etmək istəyən hüquqi və ya fiziki şəxs nəşrin çapından 7 gün əvvəl müvafiq icra hakimiyyəti orqanına rəsmi müraciət etməyə borcludur. Müraciətdə aşağıdakılar göstərilməlidir:

mətbu nəşrin adı, məqsədi, dövriliyi, hüquqi ünvanı;

mətbu nəşrin təsisçisinin, varsa redaktorunun (baş redaktorunun) adı, soyadı;

mətbu nəşrin təsisçisi, yaxud redaksiyası hüquqi şəxsdirsə, qeydiyyatdan keçirilmiş nizamnaməsi.

Mətbu nəşrin təsisçisi müvafiq icra hakimiyyəti orqanına rəsmi müraciət etmədən yayıldıqda, yaxud müraciətdə göstərilən məlumatların doğru olmadığı aşkarlandıqda müvafiq icra hakimiyyəti orqanı həmin nəşrin fəaliyyətinə xitam verilməsi barədə müvafiq məhkəmə qarşısında məsələ qaldırır.

Kütləvi informasiya vasitələrini dövlət orqanları, bələdiyyələr, siyasi partiyalar (yalnız mətbu nəşrlər üçün), ictimai birliklər, idarə, müəssisə və təşkilatlar, Azərbaycan Respublikası ərazisində daimi yaşayan vətəndaşlar təklikdə və ya başqaları ilə birlikdə təsis etmək hüququna malikdirlər.

Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikası ərazisində kütləvi informasiya vasitəsi təsis etməsi Azərbaycan Respublikasının bağladığı dövlətlərarası müqavilə ilə tənzimlənir (xarici dövlətin hüquqi şəxsi dedikdə, hüquqi şəxsin nizamnamə kapitalının və ya səhmlərinin 30 faizindən çoxunun xarici dövlətlərin hüquqi şəxslərinə və vətəndaşlarına məxsus olduğu



və ya təsisçilərinin 1/3 hissəsindən çoxunun xarici dövlətin hüquqi şəxsi və ya vətəndaşı olan hüquqi şəxslər başa düşülür).

Bu maddənin beşinci hissəsində və bu qanunun 21-ci maddəsində göstərilən, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulan digər hallardan başqa xarici ölkələrin dövlət orqanlarının, hüquqi və fiziki şəxslərinin kütləvi informasiya vasitələrini maliyyələşdirməsinə yol verilmir.

Həmçinin:

məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum etmə yerlərində cəza çəkən, habelə fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən şəxslər;

dövlət qeydiyyatından keçməyən, yaxud fəaliyyəti qanunla qadağan olunan ictimai birliklər və siyasi partiyalar kütləvi informasiya vasitəsi təsis edə bilməzlər.

Teleradio yayımçısının təsis edilməsi qaydaları müvafiq qanunvericiliklə müəyyən edilir.

...

**Maddə 17. Təsisçinin statusu**

Təsisçi (həmtəsisçi) kütləvi informasiya vasitəsi redaksiyasının nizamnaməsini təsdiq edir, redaksiya ilə (redaktorla, baş redaktorla) müqavilə bağlayır, kütləvi informasiya vasitəsinin istehsal və yayım istiqamətlərini müəyyənləşdirir, onun maliyyə, avadanlıq və texniki təchizat məsələlərini həll edir.

Təsisçi kütləvi informasiya vasitəsində çıxış etmək, bəyanat vermək, digər rəsmi məlumatlar dərc etdirmək hüququna malikdir. Təsisçinin çıxış və bəyanatının maksimum həcmi redaksiyanın qeydiyyatdan keçirilmiş nizamnaməsində, yaxud təsisçi ilə baş redaktor (redaktor) arasında bağlanmış müqavilədə müəyyənləşdirilə bilər. Həmin çıxış, bəyanat və rəsmi məlumatlarla bağlı şikayət və iddialara görə təsisçi özü məsuliyyət daşıyır.

Təsisçi (idarə, müəssisə, təşkilat, dövlət orqanları, bələdiyyələr, siyasi partiyalar, ictimai birliklər) ləğv olunarsa, əgər qeydiyyatdan keçirilmiş nizamnamədə başqa hal nəzərdə tutulmayıbsa, redaksiya kollektivi eyni adlı kütləvi informasiya vasitəsi təsis etməkdə üstün hüquqa malikdir.

Təsisçi bu Qanunda, nizamnamədə və redaksiya ilə (redaktorla, baş redaktorla) bağlanmış müqavilədə göstərilən hallar istisna olmaqla, kütləvi informasiya vasitəsinin istehsalına və ya yayımına müdaxilə etmir.

Kütləvi informasiya vasitəsinin həmtəsisçiləri birgə təsisçi kimi fəaliyyət göstərirlər.

...

**Maddə 59. Kütləvi informasiya azadlığının və jurnalist hüquqlarının pozulmasına görə məsuliyyət**

Kütləvi informasiya vasitələrinin təsisçilərinin, naşirlərinin, redaksiyalarının (məsul redaktorlarının), yayıcılarının və jurnalistlərin qanuni fəaliyyətinə vətəndaşlar,

dövlət orqanları, bələdiyyələr, idarə, müəssisə və təşkilatlar, siyasi partiyalar, habelə ictimai birliklər və ya vəzifəli şəxslər tərəfindən hər hansı müdaxilə, o cümlədən:

senzura tətbiq etmək;

peşə müstəqilliyini pozmaq;

tirajı və ya onun bir hissəsini qeyri-qanuni müsadirə etmək, yaxud məhv etmək;

jurnalisti informasiyanı yaymağa və ya informasiyanı çap etdirməkdən (efirə verməkdən) imtinaya məcbur etmək;

jurnalistə informasiya verilməsi üzərinə, Azərbaycan Respublikasının qanunvericiliyi ilə qorunan məlumatlar istisna olmaqla, məhdudiyyətlər qoymaq və ya informasiya verməkdən imtina etmək;

jurnalist sorğusuna Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş müddətdə cavab verməmək;

habelə jurnalistin bu qanunla müəyyənləşdirilmiş digər hüquqlarını pozmaq Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə mülki, inzibati, cinayət və digər məsuliyyətə səbəb ola bilər.

...

**Maddə 62. Məsuliyyətdən azad edilmə halları**

Kütləvi informasiya vasitəsində yayılmış həqiqətə uyğun olmayan məlumat:

1) rəsmi dövlət orqanları və ya onların mətbuat xidmətləri tərəfindən yayılmışdırsa;

2) informasiya agentliklərindən və ya idarə, müəssisə, təşkilat, siyasi partiya və ictimai birliklərin mətbuat xidmətlərindən alınmışdırsa;

3) digər kütləvi informasiya vasitəsindən götürülmüş və təkzib olunmamışdırsa;

4) Milli Məclis deputatlarının, dövlət orqanlarının, bələdiyyələrin, idarə, müəssisə, təşkilat və ictimai birliklərin nümayəndələrinin, habelə siyasi xidmətlərin və vəzifəli şəxslərin rəsmi çıxışlarında olduğu kimi təkrar edilmişdirsə;

5) canlı yayımla efirə gedən çıxışlarda deyilmişdirsə, yaxud bu Qanuna müvafiq surətdə redaktə edilməli olmayan mətnlərdə getmişdirsə, redaksiya (məsul redaktor), eləcə də jurnalist buna görə məsuliyyət daşımır.

# Avtomobil yolları haqqında Azərbaycan Respublikasının Qanunu

*(22 dekabr 1999-cu il, № 778-IQ)*

**Maddə 1. Əsas anlayışlar**

Bu qanunda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

**avtomobil yolu** - dövlət standartlarına, yol hərəkəti qaydalarına və digər normativ-hüquqi aktlara uyğun olan ölçülərə və kütləyə malik sürəti tənzimlənən avtomobil nəqliyyatı vasitələrinin bütün il boyu fasiləsiz, təhlükəsiz və rahat hərəkətini təmin edən konstruksiyalar və mühəndisi qurğular sistemidir;

**avtomagistral** - müəyyən məsafədə avtomobil nəqliyyatı vasitələrinin məhdudlaşdırılmayan sürətlə və maneəsiz hərəkətini təmin edən, yüksək hərəkəti buraxma qabiliyyətinə və ayırıcı zolağa malik olan, eyni səviyyədə kəsişmələri olmayan avtomobil yoludur;

**yol fəaliyyəti** - yolların yaradılması, inkişafı, saxlanılması və idarə edilməsi məqsədi ilə həyata keçirilən fəaliyyət növlərinin məcmusudur;

**avtomobil yollarının yaradılması** - müvafiq proqramlar əsasında yol tikintisi məqsədi ilə torpaq sahələrinin ayrılması, elmi tədqiqat, layihə-axtarış, tikinti-quraşdırma və yenidənqurma işlərinin aparılmasıdır;

**avtomobil yollarının saxlanılması** - yolun müvafiq layihəyə uyğun olaraq istifadəçilərin tələblərinə cavab verməsini təmin etmək məqsədi ilə bütün il boyu yola və yol qurğularına xidmət göstərilməsi, onların müayinəsi, yoxlanması və mühafizəsi tədbirlərinin məcmusudur;

**avtomobil yollarının təmiri** - yol geyiminin, torpaq yatağının və mühəndisi qurğuların gücləndirilməsi və genişləndirilməsi, o cümlədən deformasiyalara və dağılmalara məruz qalmış konstruksiyaların və ya onların ayrı-ayrı hissələrinin bərpası, səmərəli və möhkəm elementlərlə əvəz edilməsi, yol örtüyünün hamarlığının, ilişmə keyfiyyətlərinin yaxşılaşdırılması ilə bağlı işlər kompleksidir. Yolların təmiri növlərinə görə cari, orta və əsaslı olurlar;

**avtomobil yollarının yenidən qurulması** - mövcud yolun və yol qurğularının nəqliyyat-istismar göstəricilərinin yüksəldilməsi, yolun bütövlükdə və ya ayrı-ayrı hissələrinin daha yüksək texniki dərəcəyə keçirilməsi məqsədi ilə həndəsi parametrlərin normativ texniki sənədlərin tələblərinə uyğun olaraq dəyişdirilməsi ilə müşayiət olunan işlər kompleksidir;

**avtomobil yollarının tikintisi** - texniki iqtisadi əsaslandırma və normativ texniki sənədlərin tələblərinə uyğun olaraq iki məntəqə arasında zəlzələyə, digər təbii və texnogen təsirlərə davamlı yeni avtomobil yolunun və yol qurğularının inşasıdır;

**avtomobil yolu təsərrüfatı** - tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq konkret ərazidə mövcud olan avtomobil yolları şəbəkəsinin, həmçinin onların inkişafı, saxlanılması və əlaqələndirilməsi ilə məşğul olan subyektlərin məcmusudur;

**yol təsərrüfatı orqanları** - müvafiq icra hakimiyyəti orqanı və avtomobil yol fəaliyyətinin idarə edilməsi funksiyalarını həyata keçirən bələdiyyələrin orqanlarıdır;

**avtomobil yolunun istifadəçiləri** - öz ehtiyaclarını ödəmək və ya başqalarına xidmət göstərmək məqsədi ilə avtomobil yolları ilə hərəkət edən nəqliyyat vasitələrinin mülkiyyətçiləri, sürücülər və piyadalardır;

**yol təsərrüfatının subyektləri** - yol fəaliyyətini həyata keçirən və yoldan istifadə edən hüquqi və fiziki şəxslərdir;

**avtomobil yolları şəbəkəsi** - müəyyən ərazidə sərnişin və yük daşımalarını təmin edən bütün avtomobil yollarının vahid sistemidir;

**hərəkəti buraxmaq qabiliyyəti** - yolun və ya onun hər hansı bir hissəsinin vahid vaxt ərzində müəyyən edilmiş sürəti və təhlükəsizliyi təmin etməklə keçirə biləcəyi avtomobil nəqliyyatı vasitələrinin maksimum sayıdır;

**hərəkət şiddəti** - vahid vaxt ərzində yoldan və ya onun hər hansı bir hissəsindən hər iki istiqamətdə keçən avtomobil nəqliyyatı vasitələrinin sayıdır;

**yol qurğuları** - yolda hərəkətin fasiləsizliyini və təhlükəsizliyini, habelə yoldan istifadə edənlərə xidmət göstərilməsini təmin edən zəruri keçidlər, qurğular, tikililər və avadanlıqlardır;

**torpaq yatağı** - yol geyiminin konstruktiv laylarının və yolun digər elementlərinin yol zolağında səmərəli və dayanıqlı yerləşdirilməsini təmin edən qrunt tərkibli konstruksiyadır;

**yol geyimi** - torpaq yatağı üzərində yerləşən və avtomobil nəqliyyatı vasitələrinin yola təsirindən meydana gələn gərginliklərin torpaq yatağına ötürülməsini təmin edən yol örtüyü də daxil olmaqla bir və ya çox laylı möhkəm və dayanıqlı monolit konstruksiyadır.

. . .

**Maddə 4. Avtomobil yollarının təsnifatlandırılmasının əsasları**

Avtomobil yolları, bir qayda olaraq əhəmiyyətinə, yol şəbəkəsində tutduğu yerə, funksional təyinatına, istifadə imkanlarına, istifadəçilərinə və mülkiyyətçilərinə görə təsnif edilir.

İstifadəçilərinə görə avtomobil yolları ümumi istifadədə olan və xüsusi istifadədə olan yollara bölünür.

Mülkiyyətçilərinə görə avtomobil yolları dövlət, bələdiyyə və özəl yollar kimi təsnif edilir.

Əhəmiyyətinə və yol şəbəkəsində tutduğu yerə görə avtomobil yolları respublika, yerli və sahə yollarına bölünür.

Bunlarla yanaşı, avtomobil yollarının həndəsi parametrlərini, istehlak və texniki-konstruktiv xüsusiyyətlərini əks etdirən texniki təsnifatı tərtib edilir.

Bu təsnifatlarda funksional təyinatlarına və istifadə imkanlarına görə yolun hərəkət şiddətinə uyğun olaraq beş dərəcəyə bölünməsi, onların əsas, köməkçi, müvəqqəti, ikinci dərəcəli, yanaşma, bir və iki tərəfli, bir, iki və çox zolaqlı, eyni və müxtəlif səviyyəli, habelə tənzimlənən və tənzimlənməyən olması da nəzərə alınır.

Avtomobil yollarının təsnifatlaşdırılması müəyyən olunmuş qaydada işlənib hazırlanan və təsdiq edilən standartların və digər normativ hüquqi aktların tələbləri əsasında həyata keçirilir.

Avtomobil yollarından istifadə qaydaları onların mülkiyyətçiləri tərəfindən müvafiq qanunvericilik aktları çərçivəsində müəyyənləşdirilir.



**Maddə 5. Ümumi istifadədə olan avtomobil yolları**

Ümumi istifadədə olan avtomobil yolları tabeliyindən asılı olmayaraq ölkə ərazisində avtomobil yollarının bütün istifadəçilərinin tələbatını təmin edən avtomobil yolları şəbəkəsindən ibarətdir.

Ümumi istifadədə olan avtomobil yollarının tərkibinə, həmçinin beynəlxalq və müdafiə təyinatlı yollar da daxildir.

Əsas etibarı ilə müdafiə xarakterli yüklərin daşınması və hərbi texnikanın hərəkəti üçün nəzərdə tutulan müdafiə təyinatlı yollara aid edilən respublika, yerli və sahə yollarının təsnifatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada tərtib və təsdiq edilir.

Əsasən respublika əhəmiyyətli yollardan ibarət olan beynəlxalq avtomobil yollarının təsnifatı Azərbaycan Respublikasının müvafiq beynəlxalq müqavilələri ilə müəyyənləşdirilir.

Ümumi istifadədə olan avtomobil yolları şəbəkəsinin təsnifatı müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qaydada tərtib və təsdiq edilir.

Özəl, bələdiyyə və sahə yolları onların mülkiyyətçilərinin qərarı ilə o halda ümumi istifadə üçün açıq ola bilər ki, buna müvafiq icra hakimiyyəti orqanlarının müəyyən edilmiş qaydada müsbət rəyi alınmış olsun.

. . .

**Maddə 7. Bələdiyyə avtomobil yolları**

Bələdiyyə avtomobil yollarına şəhər, qəsəbə və başqa yaşayış məntəqələri daxilində yerləşən və onların mülkiyyətində olan küçələr, keçidlər, ictimai nəqliyyat xətləri, digər yollar və yol qurğuları aiddir. Bələdiyyə yolları bələdiyyə qurumlarının ərazisi hüdudlarında avtomobil və başqa nəqliyyat əlaqələrini təmin edir.

Zəruri hallarda bələdiyyə yolları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada bələdiyyələr tərəfindən ümumi istifadə üçün açıla bilər.

Bələdiyyə yollarından istifadə qaydalarını bələdiyyələr bu qanunun tələblərinə uyğun olaraq müəyyənləşdirirlər.

Bələdiyyə avtomobil yollarının təsnifatı qüvvədə olan qanunvericilik aktlarının tələblərinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada tərtib və təsdiq edilir.

. . .

**Maddə 13. Avtomobil yollarının torpaq sahəsi**

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada avtomobil yollarının əlverişli yerləşdirilməsi, tikintisi, inkişafı, saxlanılması, təmiri və istifadəsi üçün zəruri torpaq sahəsi ayrılır.

Ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının yerləşdiyi torpaq sahələri dövlət mülkiyyətidir.

Ümumi istifadədə olan bələdiyyə yollarının yerləşdiyi torpaq sahələri də bələdiyyə mülkiyyətinə aid edilir.

Özəl və sahə avtomobil yollarının yerləşdiyi torpaq sahələrinin mülkiyyət növünə aid edilməsi torpaq ayrılması sənədlərinə və həmin subyektlərin özlərinin mülkiyyət formasına uyğun olaraq müəyyənləşdirilir.

...

**Maddə 22. Yol işlərinin planlaşdırılması**

Dövlət avtomobil yollarının yaradılması və saxlanılması tədbirləri ölkənin ümumi sosial-iqtisadi inkişaf proqnozlaşmasının tərkib hissəsidir.

Dövlət avtomobil yollarında yol işlərinin illik planlaşdırma proqramları müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının, onun inzibati ərazi vahidlərinin müvafiq ümumi inkişaf proqramları, təsdiq edilmiş sahə, sahələrarası və regional proqramlar əsasında və bu məqsədlər üçün ayrılan müvafiq vəsait nəzərə alınaraq həyata keçirilir.

Bələdiyyə yollarında yol işlərinin planlaşdırılması, yerli sosial və iqtisadi inkişaf proqramları və ya müvafiq tikintilərin layihələri və nəqliyyatın inkişafı sxemləri əsasında həyata keçirilir.

Yol işləri planlaşdırılarkən müvafiq icra hakimiyyəti orqanları ilk növbədə maliyyə vəsaitlərinin səmərəli istifadəsini və mövcud yol şəbəkəsinin saxlanılması, təmiri və mühafizəsinin tam icrasını birinci növbədə təmin etməlidir.

**Maddə 23. Ümumi istifadədə olan avtomobil yollarının adı və indeksasiyası**

Ümumi istifadədə olan avtomobil yollarının adı və indeksi olmalıdır.

Ümumi istifadədə olan avtomobil yollarının adına onun birinci və axırıncı yaşayış məntəqələrinin adı, lazım gələrsə, aralıq yaşayış məntəqələrinin adı da daxil edilir.

Addan başqa, ümumi istifadədə olan avtomobil yollarının onların göstəricisi olan yerlərdə və xəritələrdə Azərbaycan əlifbasının hərfləri və rəqəmlərlə qeyd olunmuş indeksi də olur.

Ümumi istifadədə olan avtomobil yollarının adlandırılması, indeksasiyası və qeydiyyata alınması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Dövlət avtomobil yollarının adı və indeksləri yol təsərrüfatı subyektlərinin təqdimatı əsasında müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

Beynəlxalq avtomobil yollarının adlandırılması və indeksasiyası beynəlxalq sazişlər əsasında müəyyənləşdirilir.

Sahə avtomobil yollarının adlandırılması və indeksasiyası müvafiq icra hakimiyyəti orqanı və müəssisələr tərəfindən birgə müəyyənləşdirilir.

Bələdiyyə yollarının adlandırılması və indeksasiyası qanunvericiliklə müəyyən edilmiş qaydada bələdiyyələr tərəfindən müəyyənləşdirilir.

Mülkiyyətçi ona məxsus özəl yolların adlandırılmasını müəyyənləşdirmək hüququna malikdir.



**Maddə 24. Avtomobil yollarında məsafələrin hesablanması**

Avtomobil yollarında məsafə şərti olaraq qəbul edilmiş başlanğıc və son hesablama nöqtələri arasında aparılır. Bu hesablama nöqtələri kimi aşağıdakılar qəbul olunur:

Bakı şəhərindən çıxan respublika əhəmiyyətli dövlət yolları üçün - Bakı şəhərində Azərbaycan Respublikası avtomobil yollarının sıfır kilometr işarəsi hesab edilən Hökumət evi qarşısındakı Azadlıq meydanı;

yaşayış məntəqələrini birləşdirən yerli əhəmiyyətli yollar bələdiyyə yolları üçün - yaşayış məntəqəsinin mərkəzində yerləşdirilən poçt, kütləvi tanınan digər binalar, qurğular və ya xüsusi qurulan işarələr;

ümumi istifadədə olan başqa avtomobil yollarını birləşdirən və ya onlara qoşulan yollar üçün - çarpaz yolların kəsişmə oxları;

tarixi-coğrafi və başqa xüsusi obyektləri birləşdirən yollar üçün - bu obyektlərin sərhədi.

Bələdiyyə mülkiyyətində olan daxili küçə və yollar avtomobil yollarının ümumi uzunluğuna daxil edilmir.

...

**Maddə 31. Nəqliyyat vasitələrinin bərə və üzən körpü ilə buraxılması**

Avtomobil yollarında bərə və üzən körpülər dövlət, bələdiyyə və xüsusi mülkiyyətə aid ola bilər. Bu qurğuların mülkiyyətçiləri nəqliyyat vasitələrini müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırılmış qaydada və tariflə haqq alaraq buraxa bilərlər.

...

**Maddə 34. Avtomobil yollarının istifadəçilərinin hüquqları**

Dövlət avtomobil yolları istifadəçilərinin hüquqlarının müdafiəsinə təminat verir.

Avtomobil yolları istifadəçilərinin aşağıdakı hüquqları var:

qanunvericiliklə müəyyən olunmuş xüsusi hallar istisna olmaqla ümumi istifadədə olan dövlət və bələdiyyə avtomobil yolları ilə sərbəst və ödənişsiz hərəkət etmək, yol təsərrüfatı orqanlarının və onların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri nəticəsində əmlakına və sağlamlığına dəymiş zərərin ödənilməsini tələb etmək və ya müvafiq məhkəmələrdə iddia qaldırmaq;

yollardan istifadə etdiyi zaman ehtiyac yaranarsa, pulsuz təcili tibbi yardım almaq;

müəyyən olunmuş qaydada yol təsərrüfatı orqanlarından, habelə həmin orqanların vəzifəli şəxslərindən şikayət etmək;

yol təsərrüfatı orqanlarından avtomobil yollarının şəbəkəsi, marşrutları, yol şəraiti, hərəkətin müvəqqəti məhdudiyyəti və ya dayandırılması, daşına biləcək yükün miqdarı, qabariti və digər müvafiq məsələlər barədə məlumat almaq;

yol təsərrüfatı orqanlarının məsul şəxslərindən nəzakətli münasibət tələb etmək;

...

**Maddə 36. Bələdiyyə, sahə və özəl avtomobil yollarının saxlanılması**

Yerli özünüidarəetmə orqanları ümumi istifadədə olmayan bələdiyyə avtomobil yollarının saxlanılmasını müstəqil təşkil edir.

Ümumi istifadədə olmayan bələdiyyə, sahə və özəl avtomobil yollarının saxlanılması onların mülkiyyətçiləri tərəfindən müəyyənləşdirilən qaydada təşkil edilir və onlar yolları istifadəçilərin və yol hərəkətinin təhlükəsizliyini təmin edən standartların tələblərinə cavab verən vəziyyətdə saxlamalıdır.

...

**Maddə 40. Avtomobil yollarının səfərbərliyə hazırlığı**

Avtomobil yollarının səfərbərliyə hazırlığı Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq avtomobil yollarından fövqəladə şəraitlərdə istifadəçini təmin etmək məqsədi ilə həyata keçirilir.

Avtomobil yollarının səfərbərliyə hazırlığına rəhbərliyi dövlət avtomobil yollarında - müvafiq icra hakimiyyəti orqanları, bələdiyyə yollarında isə müvafiq bələdiyyə orqanları həyata keçirirlər.

Yol təsərrüfatı orqanları avtomobil yollarında hərəkətin pozulmasına səbəb olan hadisələrin nəticələrini aradan qaldırmaq üçün müvafiq tədbirlər görməlidir. Bu məqsədlə onlar müvafiq maddi və texniki vəsaitlərlə təmin edilirlər.

...

**Maddə 42. Yol təsərrüfatının əmlakı**

Yol təsərrüfatının əmlakı Azərbaycan Respublikasının dövlət mülkiyyətində, bələdiyyə və xüsusi mülkiyyətdə ola bilər.

Yol təsərrüfatı əmlakının idarə edilməsi qüvvədə olan normativ hüquqi aktlara uyğun olaraq yolun mülkiyyətçiləri tərəfindən qəbul olunmuş qaydada həyata keçirilir.

Dövlət mülkiyyətindəki ümumi istifadədə olan avtomobil yollarının əmlakının tərkibinə avtomobil yolları, tikililər, qurğular və avadanlıqlar, həmçinin onların saxlanılması və idarə olunması üçün vacib olan torpaq sahələri daxildir.

Bələdiyyə yolları əmlakının tərkibi yol-küçə şəbəkəsinin xüsusiyyətləri və hərəkətin təhlükəsizliyi nəzərə alınaraq, müvafiq bələdiyyə orqanları tərəfindən müəyyən edilir.

Sahə və özəl avtomobil yolları əmlakının tərkibi onların mülkiyyətçiləri tərəfindən müəyyən edilir.

Ümumi istifadədə olan avtomobil yolları və yol qurğuları, həmçinin onların tutduğu sahə, Azərbaycan Respublikası qanunvericiliyində başqa hal nəzərdə tutulmayıbsa, alqı-satqı, girov və digər mülki-hüquqi müqavilələrin bağlanması üçün obyekt ola bilməz.

Avtomobil yollarının mülkiyyət formalarının dəyişməsi zamanı yeni mülkiyyətçi əvvəlki mülkiyyətçidən avtomobil yollarını müəyyən edilmiş tələblərə cavab verən və yol hərəkətinin təhlükəsizliyini təmin edən vəziyyətə gətirilməsini tələb etmək hüququna malikdir.



Yeni tikilmiş avtomobil yollarına mülkiyyət hüququ Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə əsasən onların istismara qəbulundan sonra yaranır.

Avtomobil yollarının dövlət və ya bələdiyyə mülkiyyətinə keçməsi Azərbaycan Respublikası qanunlarının müəyyən etdiyi qaydada həyata keçirilir.

## Torpaqların münbitliyi haqqında Azərbaycan Respublikasının Qanunu

*(30 dekabr 1999-cu il, № 788-IQ)*

...

**Maddə 6. Torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində idarəetmə sistemi**

Torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində idarəetmə sisteminə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları, bələdiyyələr, torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri daxildir.

**Maddə 7. Torpaqların münbitliyinin təmin olunması sahəsində dövlətin vəzifələri**

Torpaqların münbitliyinin təmin olunması sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

torpaqların münbitliyinin təmin olunması sahəsində dövlət siyasətinin əsas istiqamətlərinin hazırlanması və həyata keçirilməsi;

torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində standartların, normaların, qaydaların, reqlamentlərin və digər normativ hüquqi aktların hazırlanması, qəbul edilməsi, onlara riayət olunmasına nəzarət edilməsi;

torpaqların münbitliyinin təmin olunması sahəsində məqsədli dövlət və regional proqramların hazırlanması, təsdiq edilməsi və həyata keçirilməsi;

torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində vahid elmi-texniki və investisiya siyasətinin həyata keçirilməsi;

dövlət orqanlarının, bələdiyyələrin, torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin torpaqların münbitliyinin təmin olunması sahəsində fəaliyyətlərinin əlaqələndirilməsi;

torpaqların münbitlik xassələrini səciyyələndirən göstəricilərin uçotunun və monitorinqinin aparılması;

torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində aqrotexniki, aqrokimyəvi, meliorativ, fitosanitar, eroziyaya qarşı mübarizə və digər kompleks tədbirlərin hazırlanması və həyata keçirilməsi;

torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində dövlət və regional proqramlar əsasında həyata keçirilən layihə-axtarış, elmi tədqiqat və tətbiq işlərinin maliyyələşdirilməsi;

Azərbaycan Respublikasının torpaq və aqrar qanunvericiliyi ilə müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid edilmiş digər vəzifələrin həyata keçirilməsi.

**Maddə 8. Torpaqların münbitliyinin təmin olunması sahəsində bələdiyyələrin vəzifələri**

Torpaqların münbitliyinin təmin olunması sahəsində bələdiyyələrin vəzifələri aşağıdakılardır:

torpaqların münbitliyinin təmin olunması sahəsində dövlət siyasətinə əməl etmək;

bələdiyyə mülkiyyətinə aid edilmiş torpaqların münbitliyinin təmin olunması sahəsində qanunvericiliyə uyğun müvafiq qərarlar qəbul etmək;

torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində yerli proqramlar hazırlamaq, həyata keçirmək və icrasına nəzarət etmək;

torpaqların münbitliyinin təmin olunması sahəsində dövlət orqanları və beynəlxalq təşkilatlar qarşısında müvafiq məsələlər qaldırmaq;

yerli büdcələrin tərkibində torpaqların münbitliyinin təmin olunması sahəsində xərclər müəyyənləşdirmək və onların maliyyələşdirilməsini həyata keçirmək;

öz əraziləri daxilində torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri tərəfindən torpaq sahələrində ətraf mühitə və başqalarının torpaqlarına zərərli təsir göstərə bilən tədbirlərin məhdudlaşdırılmasını və dayandırılmasını tələb etmək;

öz səlahiyyətləri daxilində bələdiyyə torpaqlarının səmərəli istifadəsinə və münbitliyinin mühafizəsinə nəzarət etmək;

Azərbaycan Respublikasının qanunvericiliyi ilə onların səlahiyyətinə aid edilmiş digər vəzifələri həyata keçirmək.

...

**Maddə 10. Torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində məqsədli proqramlar**

Torpaqların münbitliyinin təmin olunması üçün məqsədli dövlət, regional və yerli proqramlar hazırlanır və həyata keçirilir.

Məqsədli dövlət və regional proqramların hazırlanması, təsdiqi və yerinə yetirilməsi müvafiq icra hakimiyyəti orqanları, yerli proqramların hazırlanması, təsdiq edilməsi və yerinə yetirilməsi isə bələdiyyələr tərəfindən həyata keçirilir.

Müvafiq icra hakimiyyəti orqanı hər il torpaqların dövriyyəsi, münbitliyinin vəziyyəti, bərpasına və artırılmasına yönəldilmiş dövlət himayəsi barədə müvafiq icra hakimiyyəti orqanına milli hesabat təqdim edir.

...



**Maddə 12. Torpaqların münbitlik xassələrinin göstəricilərinin uçotu və monitorinqi**

Torpaqların münbitlik xassələrinin göstəricilərinin uçotu dövlət orqanlarını, bələdiyyələri, hüquqi və fiziki şəxsləri torpaqların münbitliyinin vəziyyəti barədə məlumatlarla təmin etmək məqsədi ilə aparılır.

Torpaqların münbitlik xassələrinin göstəricilərinin uçotu torpaq, aqrokimyəvi, meliorativ, fitosanitar, eroziyaya qarşı mübarizə, ekoloji və toksikoloji elmi tədqiqat işlərinin nəticələrinin məlumat toplusudur, vahid sistem üzrə aparılır və dövlət torpaq kadastrının məlumatlarına daxil edilir.

Torpaqların münbitlik xassələrinin göstəricilərinin uçotunun aparılması qaydaları müvafiq normativ hüquqi aktlarla tənzimlənir.

Münbitlik xassələrinin monitorinqi torpaqların monitorinqinin tərkib hissəsi olaraq Azərbaycan Respublikasının torpaq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada aparılır.

...

**Maddə 15. Münbitliyi itirilmiş torpaqların təsərrüfat dövriyyəsindən çıxarılması və konservasiyası**

Təbii və antropogen proseslərin zərərli təsiri nəticəsində münbitliyi itirilmiş torpaqların münbitlik xassələrinin bərpası və artırılması məqsədi ilə onlar təsərrüfat dövriyyəsindən müvəqqəti çıxarılır və konservasiya edilir.

Münbitliyin itirilmə dərəcəsindən asılı olaraq konservasiya edilmiş torpaqların münbitlik xassələrinin bərpası və artırılması üçün üç dövr müəyyən edilir:

birinci dövr - üç ilədək;

ikinci dövr - üç ildən beş ilədək;

üçüncü dövr - beş ildən artıq.

Mülkiyyət formasından asılı olmayaraq, torpaqların təsərrüfat dövriyyəsindən müvəqqəti çıxarılması, konservasiya edilməsi, habelə onların münbitliyinin bərpası və artırılmasına dair kompleks tədbirlər müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

Təbii və antropogen proseslərin zərərli təsiri nəticəsində münbitliyi itirilmiş və konservasiya edilmiş torpaqların münbitliyinin bərpası, artırılması, habelə onların təsərrüfat dövriyyəsinə qaytarılması işləri başa çatdırılana qədər həmin torpaqlar dövlətin və ya bələdiyyələrin müvafiq ehtiyat torpaq fonduna keçirilir, torpaq mülkiyyətçilərinə, istifadəçilərinə və icarəçilərinə torpaq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada torpağın dəyəri ödənilir.

Torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin müraciətinə və müvafiq icra hakimiyyəti orqanının razılığına əsasən konservasiya edilmiş torpaq sahələri təsərrüfat dövriyyəsinə qaytarılana qədər, dövlətin və ya bələdiyyələrin ehtiyat torpaq fondundan, onların müvəqqəti istifadəsinə və ya icarəsinə müvafiq ölçüdə

torpaq sahəsi verilə bilər. Belə hallarda torpaq mülkiyyətçilərinə, istifadəçilərinə və icarəçilərinə torpağın dəyəri ödənilmir.

Münbitliyi itirilmiş torpaqların konservasiya edilməsi və təsərrüfat dövriyyəsinə qaytarılması qaydaları Azərbaycan Respublikasının torpaq qanunvericiliyi ilə tənzimlənir.

## Özəl tibb fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu

*(30 dekabr 1999-cu il, № 789-I Q)*

...

**Maddə 3. Özəl tibb fəaliyyəti subyektlərinin vəzifəsi**

Özəl tibb fəaliyyətinin subyektləri dövlət və bələdiyyə səhiyyə müəssisələri ilə yanaşı, səhiyyə sahəsində dövlət siyasətinin həyata keçirilməsinə və əhalinin sağlamlığının qorunmasına təminat yaradır.

...

**Maddə 8. Özəl tibb fəaliyyəti subyektlərinin dövlət təminatı və səhiyyənin məqsədyönlü proqramlarının, habelə bələdiyyə proqramlarının həyata keçirilməsində iştirakı**

Özəl tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan şəxslər müsabiqə əsasında icbari tibbi sığorta, dövlət təminatı və səhiyyənin məqsədyönlü proqramlarının, habelə bələdiyyə proqramlarının həyata keçirilməsində iştirak edə bilərlər.

Özəl tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan şəxslərə dövlət təminatı və səhiyyənin məqsədyönlü proqramlarında iştirak etmək hüququ verən müsabiqələrin keçirilmə qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Müsabiqə komissiyasının tərkibinə paritet əsasında müvafiq icra hakimiyyəti orqanının, həmkarlar ittifaqlarının, tibb işçilərinin ictimai birliklərinin və özəl tibb müəssisələrinin, tibbi sığorta təşkilatlarının nümayəndələri daxil olurlar.

Özəl tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan şəxslərin dövlət təminatı və səhiyyənin məqsədyönlü proqramlarının həyata keçirilməsində iştirak etmələri barədə müqavilələr, onların icbari tibbi sığorta proqramlarında iştirakı hallarında, müvafiq icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları, habelə tibbi sığorta təşkilatları ilə bağlanır.

Bu müqavilələrdə:

tibbi yardımın keyfiyyətinə tələblər;

tibbi yardımın həcmi;



tibbi yardıma görə ödənişin şərtləri və qaydaları;

tibbi yardımın keyfiyyətinə nəzarət qaydaları;

müqavilə üzrə özəl tibbi fəaliyyət haqqında qeydiyyat və hesabat qaydaları müəyyən edilir.

...

**Maddə 10. Dövlət və bələdiyyə mülkiyyətində olan əmlakın özəl tibb fəaliyyəti subyektlərinin müvəqqəti istifadəsinə verilməsi**

Dövlət və bələdiyyə mülkiyyətində olan, habelə dövlət təminatı və səhiyyənin məqsədyönlü proqramlarının həyata keçirilməsində istifadə olunmayan əmlak qanunvericiliklə müəyyən olunmuş qaydada özəl tibb fəaliyyəti subyektlərinin müvəqqəti istifadəsinə verilə bilər.

Özəl tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan şəxslər səhiyyə üçün nəzərdə tutulan, tam tikilməyən və əsaslı təmirə ehtiyacı olan binaları müsabiqə yolu ilə müvəqqəti istifadə üçün əldə etmək, dövlət təminatı və səhiyyənin məqsədyönlü proqramlarında iştirak etmək şərti ilə onların beş ildən az olmayaraq, tibbi yardım göstərmək üçün istifadə olunmasına əməl etməlidirlər.

...

**Maddə 15. Özəl tibbi praktika ilə məşğul olan şəxslərin hüquqları**

Özəl tibbi praktika ilə məşğul olan şəxslərin hüquqları aşağıdakılardır:

qanunvericiliklə müəyyən olunmuş qaydada tibbi yardım göstərmək və məsləhətlər vermək;

vərəm xəstəliyindən başqa ictimai təhlükəli xəstəliklər və narkoloji xəstələrin müalicəsi istisna olmaqla, siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunan xəstəliklər üzrə tibbi yardım göstərmək;

qanunvericiliklə müəyyən olunmuş qaydada xalq təbabətindən istifadə etmək;

qanunvericiliklə müəyyən olunmuş qaydada tibbi sənədlər vermək;

özəl tibb fəaliyyətini həyata keçirmək üçün bütün tibb müəssisələrindən və özəl tibbi praktika ilə məşğul olan digər şəxslərdən məlumat almaq;

pasiyentin müayinələrinin nəticələri ilə tanış olmaq, məsləhətçi kimi bütün növbəti müalicə mərhələlərində iştirak etmək;

peşə fəaliyyətini həyata keçirmək üçün normativ sənədlərlə tanış olmaq;

ciddi hesabatlı dövlət nümunəli tibbi sənədlərin blanklarından istifadə etmək;

tibbi yardım göstərmək üçün özəl tibbi praktika ilə məşğul olan digər fiziki şəxslərlə birgə fəaliyyət göstərmək;

dövlət və bələdiyyə mülkiyyətində olan əmlakı, o cümlədən bina, qurğu və avadanlıqları müvəqqəti istifadəyə götürmək;

peşə fəaliyyətini təmin etmək üçün əmək müqaviləsi (kontraktı) əsasında işçilər cəlb etmək.

## Muzeylər haqqında Azərbaycan Respublikasının Qanunu

*(24 mart 2000-ci il, № 839-IQ)*

...

**Maddə 8. Muzey fəaliyyəti və onun növləri**

Azərbaycan Respublikasında dövlət mülkiyyətində, bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylər fəaliyyət göstərir.

Azərbaycan Respublikasında muzey fəaliyyətinə:

muzey əşyalarının və kolleksiyalarının komplektləşdirilməsi, onların uçotunun, mühafizəsinin təşkili və bütövlüyünün təmin olunması;

muzey kolleksiyaları, arxiv, kitabxana və digər materiallar əsasında elmi tədqiqatlar;

muzey ekspozisiyalarının və sərgilərin təşkili, muzey sahəsində dizayn və tərtibat işlərinin həyata keçirilməsi;

muzey əşyalarının konservasiyası və bərpasının bütün növləri;

muzey kolleksiyalarının kataloqlarının hazırlanması və nəşr olunması;

muzey kolleksiyalarının təbliği daxildir.

...

**Maddə 11. Bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylər**

Bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylər qanunvericilikdə müəyyən olunmuş qaydada yaradılır və qeydiyyata alınır. Bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylər qeydiyyata alındıqdan sonra müvafiq icra hakimiyyəti orqanlarında uçota götürülür və təsisçilərinin təsdiq etdikləri əsasnaməyə müvafiq fəaliyyət göstərirlər.

Dövlət bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylərin inkişafına daim qayğı göstərir. Bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylərin fondları Azərbaycan Respublikasının Dövlət muzey fondunun tərkib hissəsi kimi qorunur.

## Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında Azərbaycan Respublikasının Qanunu

*(24 mart 2000-ci il, № 840)*

...

**Maddə 4. Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri üzərində mülkiyyət**

Azərbaycan Respublikasının ərazisində beynəlxalq, respublika və bölgə əhəmiyyətli xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri hər hansı fiziki və hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan dövlətinə mənsubdur və özgəninkiləşdirilə bilməz.

Yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin bələdiyyələrin mülkiyyətinə verilməsi qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

Mülkiyyətində, istifadəsində və icarəsində torpaq sahələri olan fiziki və hüquqi şəxslər xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri yarada bilərlər.

...

**Maddə 13. Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri sahəsində idarəetmə sistemi**

Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri idarəetmə sisteminə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları və bələdiyyələr daxildir.

...

**Maddə 15. Xüsusi mühafizə olunan təbiət ərazilərini və obyektlərini idarəetmə sahəsində bələdiyyələrin səlahiyyətləri**

Xüsusi mühafizə olunan təbiət ərazilərini və obyektlərini idarəetmə sahəsində bələdiyyələrin səlahiyyətləri aşağıdakılardır:

elmi təşkilatların və müvafiq icra hakimiyyəti orqanının rəyi nəzərə alınmaqla yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması və ləğv edilməsi barədə qərar qəbul etmək;

yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkili üçün yerli büdcələrin tərkibində xərclər müəyyənləşdirmək və təsdiq etmək;

yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizəsi və istifadəsi üzrə qərarlar qəbul etmək;

özlərinin mülkiyyətində, istifadəsində və icarəsində olan torpaqlarda qanunvericiliklə müəyyən edilmiş qaydada təbiət parkları, zooloji parklar, müalicə-sağlamlaşdırma yerləri və kurortlar yaratmaq, habelə bu kimi əraziləri məqsədli təyinatı üzrə istifadəyə və icarəyə vermək, yaxud götürmək;

xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişafı və yerləşdirilməsi sxemləri üzrə təkliflər irəli sürmək;

yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizəsini və istifadəsinə nəzarəti həyata keçirmək;

öz səlahiyyətləri daxilində qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

# Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında Azərbaycan Respublikasının Qanunu

*(14 aprel 2000-ci il, № 857-IQ)*

...

**Maddə 3. İmmunoprofilaktika sahəsində dövlət siyasətinin əsas prinsipləri**

İmmunoprofilaktika sahəsində dövlət siyasəti yoluxucu xəstəliklərin yayılmasının məhdudlaşdırılmasına və aradan qaldırılmasına yönəldilmişdir.

İmmunoprofilaktika sahəsində dövlət siyasətinin əsas prinsipləri aşağıdakılardır:

bütün vətəndaşlar üçün profilaktik peyvəndlərin zəruriliyi;

dövlət və bələdiyyə tibb müəssisələrində profilaktik peyvəndlərin əhaliyə pulsuz aparılması;

məqsədli dövlət proqramlarının və regional proqramların həyata keçirilməsi;

immunoprofilaktikanın aparılması üçün səmərəli tibbi immunobioloji preparatlardan istifadə olunması;

tibbi immunobioloji preparatların keyfiyyətinə, təhlükəsizliyinə, saxlanılmasına və daşınmasına dövlət nəzarəti;

yeni tibbi immunobioloji preparatların işlənib hazırlanması sahəsində aparılan elmi tədqiqatlara dövlət qayğısı, tibbi immunobioloji preparatların müasir tələblərə cavab verən istehsalının təmin edilməsi;

tibbi immunobioloji preparatların yerli istehsalçılarına dövlət qayğısı;

immunoprofilaktika sahəsində tibb işçilərinin hazırlanması;

postvaksinal fəsadlar baş verdikdə vətəndaşların sosial müdafiəsi;

statistik müşahidə sisteminin təkmilləşdirilməsi;

immunoprofilaktika sahəsində humanitar təşkilatların iştirakına şərait yaradılması;

beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi.

...

**Maddə 6. Profilaktik peyvəndlər üçün tələblər**

Profilaktik peyvəndlər dövlət və bələdiyyə tibb müəssisələrində və ya özəl tibb fəaliyyəti üçün qanunvericiliklə müəyyən olunmuş qaydada xüsusi razılıq alan hüquqi və fiziki şəxslər tərəfindən aparılır.

Profilaktik peyvəndlər vətəndaşların razılığı əsasında aparılır. Qanunvericiliklə müəyyən olunmuş qaydada fəaliyyət qabiliyyəti olmayan hesab edilən və ya yetkinlik yaşına çatmayan şəxslərə profilaktik peyvəndlər valideynlərinin və ya digər qanuni nümayəndələrinin razılığı əsasında aparılır.

Profilaktik peyvəndlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş tibbi-sanitariya qaydalarına və tələblərinə əməl etməklə tibbi əks göstərişləri olmayan vətəndaşlara aparılır.

Profilaktik peyvəndlərin aparılmasına tibbi əks göstərişlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.



Profilaktik peyvəndlərin aparılmaması:

beynəlxalq tibbi-sanitariya qaydalarına və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrə uyğun olaraq profilaktik peyvəndlər tələb olunan ölkələrə gediş-gəlişin dayandırılması və ya məhdudlaşdırılması;

kütləvi yoluxucu xəstəliklər baş verdikdə və ya epidemiya təhlükəsi olduqda qanunvericiliklə müəyyən olunmuş qaydada təhsil və sağlamlıq müəssisələrinə şəxslərin qəbul edilməsinin müvəqqəti dayandırılması ilə nəticələnir.

Yoluxucu xəstəliklərin baş verməsinin yüksək riski ilə əlaqədar və profilaktik peyvəndlərin məcburi aparılması tələb olunan işlərin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

...

**Maddə 14. İmmunoprofilaktika sahəsində vətəndaşların hüquq və vəzifələri**

İmmunoprofilaktika sahəsində vətəndaşların:

profilaktik peyvəndlərin aparılmasının zəruriliyi, onlardan imtina edilməsinin nəticələri, mümkün postvaksinal fəsadlar haqqında tibb işçilərindən tam və obyektiv məlumat almaq;

mülkiyyət formasından asılı olmayaraq tibb müəssisələrini və ya özəl tibb fəaliyyəti ilə məşğul şəxsləri seçmək;

dövlət və bələdiyyə tibb müəssisələrində profilaktik peyvəndlərdən əvvəl büdcə vəsaitləri hesabına tibbi baxışdan keçmək və müayinə olunmaq, epidemik göstərişlərə görə profilaktik peyvənd olunmaq, postvaksinal fəsadlar baş verdikdə müalicə olunmaq;

real əks göstərişlər olduqda epidemik göstərişlərə görə profilaktik peyvəndlərdən imtina etmək hüququ vardır.

İmmunoprofilaktika sahəsində vətəndaşların vəzifələri aşağıdakılardır:

tibb işçilərinin immunoprofilaktika ilə bağlı göstərişlərini yerinə yetirmək;

epidemik göstərişlərə görə aparılan və ya təqvimdə nəzərdə tutulan profilaktik peyvəndlərdən imtina etməsinin səbəbini yazılı şəkildə bildirmək.

# Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu

*(2 may 2000-ci il, № 875-IQ)*

...

**Maddə 5. Vərəm əleyhinə yardım göstərən hüquqi və fiziki şəxslər**

Vərəm əleyhinə yardım ali tibb təhsili almış və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada xüsusi razılıq əsasında fəaliyyət göstərən həkim-ftiziatrlar və bu növ yardım üçün müvafiq icra hakimiyyəti orqa-

nı tərəfindən xüsusi razılıq alan ixtisaslaşdırılmış dövlət, bələdiyyə və özəl tibb müəssisələri tərəfindən göstərilir.

Mülkiyyət formasından asılı olmayaraq, vərəm əleyhinə bütün tibb müəssisələrində xəstələrin qeydiyyatı və uçotu müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

## Dövlət əmlakının özəlləşdirilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

*(16 may 2000-ci il, № 878-IQ)*

...

**Maddə 9. Dövlət əmlakının alıcıları**

9.1. Dövlət əmlakının özəlləşdirilməsi zamanı alıcılar kimi aşağıdakılar çıxış edir:

9.1.1. Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər;

9.1.2. bu Qanunun 9.2.-ci maddəsində göstərilənlərdən başqa Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış bütün hüquqi şəxslər;

9.1.3. xarici hüquqi şəxslər.

9.2. Dövlət əmlakının özəlləşdirilməsi zamanı aşağıdakılar alıcı kimi çıxış edə bilməzlər:

9.2.1. səhmlərin və ya nizamnamə fondundakı payın 20%-dən çoxu dövlət mülkiyyətində olan hüquqi şəxslər;

9.2.2. icra hakimiyyəti orqanları;

9.2.3. bələdiyyə orqanları.

9.3. Yerli investorların dövlət əmlakının özəlləşdirilməsinin bütün forma və üsullarında məhdudiyyətsiz iştirak etmək hüququ vardır.

9.4. Xarici investorlar dövlət əmlakının özəlləşdirilməsi prosesində bu Qanunla və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada iştirak edə bilərlər. Dövlət özəlləşdirmə çeklərinin tədavüldə olduğu müddətdə xarici investorlar dövlət özəlləşdirmə çeklərindən dövlət özəlləşdirmə opsionaları təqdim etməklə istifadə edirlər.

9.5. Dövlət özəlləşdirmə çekləri dövriyyədən çıxarıldıqdan sonrakı müddətdə xarici investorların özəlləşdirmədə iştirakı qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

9.6. Dövlət əmlakının özəlləşdirilməsi zamanı alıcılıq hüququnun sübut edilməsi vəzifəsi alıcının üzərinə düşür.

9.7. Alıcılar tərəfindən dövlət əmlakının özəlləşdirilməsində iştirak etmək üçün təqdim edilməli sənədlərin siyahısı və qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.



9.8. Dövlət əmlakının özəlləşdirilməsi zamanı müəyyən edilmiş qaydada özəlləşdirmə prosesinin təşkili üçün məsləhətçi cəlb edilə bilər.

## Nəşriyyat işi haqqında Azərbaycan Respublikasının Qanunu

*(30 may 2000-ci il, № 887-IQ)*

**Maddə 1. Əsas anlayışlar**

Bu qanunda istifadə edilən əsas anlayışlar aşağıdakı mənaları istifadə edir:

**nəşriyyat** - əsas fəaliyyət sahəsi müəllifə sifariş verməklə və ya müəllifin (müəlliflik hüququ sahibinin) sifarişi ilə nəşriyyat məhsullarının hazırlanması, istehsalı və (və ya) yayımından ibarət olan ixtisaslaşmış mədəniyyət müəssisəsi;

**dövlət nəşriyyatı** - dövlət təşkilatlarının təsis etdiyi və yaxud onların təşkilat strukturlarına daxil olan nəşriyyatlar və nəşriyyat bölmələri;

**qeyri-dövlət nəşriyyatları** - xüsusi mülkiyyət və ya bələdiyyə mülkiyyəti əsasında yaradılmış nəşriyyatlar;

**nəşriyyat işi** - nəşriyyat məhsullarının hazırlanması, istehsalı və yayımı ilə məşğul olan hüquqi və fiziki şəxslərin təşkilati-yaradıcılıq və istehsalat-təsərrüfat fəaliyyətini əhatə edən ictimai münasibətlər sahəsi;

**naşir** - nəşriyyat məhsulunun istehsalını maddi-texniki cəhətdən təmin edən (maliyyələşdirən) nəşriyyat və yaxud əsas fəaliyyəti bu sahə ilə əlaqədar olmayan fiziki və ya hüquqi şəxs;

**nəşriyyat məhsulu** - çap üsulundan və formasından asılı olmayaraq nəşriyyatların (naşirlərin) sifarişi ilə istehlakçı üçün nəzərdə tutulan kitab, broşür, albom, plakat, buklet, açıqca, elektron nəşrlər və digər nəşriyyat məhsullarının məcmusu;

**çap məhsulu** - poliqrafiya müəssisələrində çap texnikası vasitəsilə hazırlanan dövri mətbu nəşrlər, nəşriyyat məhsulları (elektron nəşrlərdən başqa) və bütün növlərdən olan poliqrafiya məhsullarının məcmusu;

**nəşriyyat məhsulunu istehsal edən** - nəşriyyatın (naşirin) sifarişi əsasında nəşriyyat məhsulunun tirаcının, yaxud tiracın bir hissəsinin istehsalını və buraxılışını təmin edən fiziki və ya hüquqi şəxs;

**yayıcı** - nəşriyyatla (naşirlə) müqavilə bağlamaqla, yaxud digər qanuni əsaslarla nəşriyyat məhsullarının yayılmasını və satışını həyata keçirən fiziki və ya hüquqi şəxs;

**sifarişçi** - maliyyə obyektlərini üzərinə götürməklə nəşriyyat məhsulunun hazırlanmasını, istehsalını və yayımını sifariş edən fiziki və ya hüquqi şəxs;

**tiraj** - nəşr nüsxələrinin miqdarı;

**kitabın beynəlxalq standart nömrəsi (İSBN)** - hər hansı nəşriyyatın kitabının və ya broşürünün beynəlxalq standart eyniliyini müəyyən edən nömrə;

**nəşr** - nəşriyyat prosesindən keçirilərək texniki vasitələrin köməyilə sayı çoxaldılan yazılı və audiovizual formada bir dəfə, yaxud dəfələrlə yayılan nəşriyyat məhsulu;

**redaktə** - nəşriyyat (naşir) tərəfindən müəllifə (müəlliflərə və tərtibçilərə) verilmiş sifariş əsasında, yaxud müəlliflərin özünün təqdimatı ilə nəşriyyata daxil olmuş əsərin müəllifin razılığı ilə elmi, ədəbi, texniki və bədii cəhətdən təkmilləşdirilməsi, ixtisar, dəyişiklik, əlavə və düzəlişlər etməklə nəşrə hazırlanması;

**nəşriyyat redaksiyası** - nəşriyyat məhsullarının hazırlanması ilə məşğul olan, əsərləri çap üçün hazırlayan əsas struktur bölmə;

**redaktor** - nəşriyyatlarda çalışan, yaxud müqavilə əsasında kənardan cəlb olunan, nəşriyyat əlyazmasının mətnini elmi, ədəbi, texniki və bədii cəhətdən işləyib nəşrə hazırlayan aparıcı mütəxəssis;

**nəşriyyat proqramı** - nəşriyyatın nizamnaməsinə, istiqamətinə uyğun olaraq nəşriyyatın (naşirin) tərtib və təsdiq etdiyi rüblük, illik və çoxillik tematik layihə;

**zəruri nəşrlər** - siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən və dövlət ehtiyaclarını təmin etmək üçün nəzərdə tutulan üstün nəşrlər;

**nəşriyyat işinin subyektləri** - nəşriyyatlar (naşirlər), müəlliflər, poliqrafiya müəssisələri, nəşriyyat məhsullarının sifarişçiləri və yayıcıları.

. . .

**Maddə 27. Kitabxana Kollektoru**

Kitabxana Kollektoru aşağıdakı vəzifələri həyata keçirir:

dövlət proqramına uyğun olaraq nəşr olunmuş kitab məhsulları ilə dövlət və qeyri-dövlət kitabxanalarının fondlarını zənginləşdirir;

elm və təhsil müəssisələrinin, dövlət təşkilatlarının, idarə və müəssisələrin, özəl qurumların, icra hakimiyyəti orqanlarının, bələdiyyələrin sifarişləri əsasında nəşriyyat məhsullarını əldə edərək onların kitabxanalarının təchiz olunmasına köməklik göstərir;

kitabxanaların və oxucuların nəşriyyat məhsullarına olan tələbatını öyrənir, bu sahədə sosioloji sorğular aparır və onun nəticələri barədə əlaqədar təşkilatlara məlumat verir;

öz fəaliyyətini genişləndirmək və inkişaf etdirmək üçün mülkiyyət formasından asılı olmayaraq qanunvericiliklə müəyyən olunmuş qaydada hüquqi və fiziki şəxslərlə müqavilələr bağlayır;

xarici ölkələrin kitabxana kollektorları ilə əməkdaşlıq edir, qanunvericiliklə müəyyən olunmuş qaydada nəşriyyat məhsullarının ölkəyə gətirilməsini və xaricə göndərilməsini təmin edir.



# Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında Azərbaycan Respublikasının Qanunu

*(13 iyun 2000-ci il, № 892-IQ)*

**Maddə 1. Qanunun təyinatı**

Bu qanun Azərbaycan Respublikasının ərazi quruluşunun və inzibati ərazi bölgüsünün, habelə ərazi vahidlərinin qeydiyyatının, sərhədlərinin müəyyən edilməsinin və dəyişdirilməsinin, adlandırılmasının və ya onların adlarının dəyişdirilməsinin hüquqi əsaslarını, eləcə də Azərbaycan Respublikasının ərazi quruluşu və inzibati ərazi bölgüsü ilə bağlı digər məsələlərin tənzimlənməsində dövlət orqanlarının və bələdiyyələrin səlahiyyətlərini müəyyən edir.

**Maddə 2. Əsas anlayışlar**

2.1. **Ərazi quruluşu** - Azərbaycan Respublikası Konstitusiyasının 7-ci və 11-ci maddələrinə və bu qanunda nəzərdə tutulmuş meyarlara əsasən Azərbaycan Respublikasının unitar, vahid əraziyə malik olan dövlət kimi müvafiq hissələrə bölünməsidir.

2.2. **İnzibati ərazi bölgüsü** - idarəetmənin, qanunçuluğun, vətəndaşların hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin dövlət hakimiyyəti orqanları tərəfindən təmin edilməsinin səmərəli təşkili məqsədi ilə Azərbaycan Respublikasının ərazisinin unitar dövlət kimi müəyyən hissələrə bölünməsidir.

2.3. **Ərazi vahidi** - müəyyən sərhədlərlə məhdudlaşan Azərbaycan Respublikası ərazisinin bir hissəsidir (rayon, şəhər, qəsəbə, kənd).

2.4. **İnzibati ərazi vahidi** - hüdudlarında dövlət hakimiyyəti orqanlarının yaradıldığı ərazi vahididir (şəhər, rayon, inzibati ərazi dairəsi, bəzi hallarda qəsəbə və kənd).

2.5. **Yaşayış məntəqəsi** - əhalinin yığcam məskunlaşdığı və yaşayış yeri üzrə qeydiyyatda olduğu (bundan sonra daimi yaşadığı), onların həyat fəaliyyətinin təmin edilməsi üçün zəruri olan yaşayış və digər bina və qurğulara, xüsusi ada və qanunvericiliklə müəyyən olunmuş ərazi hüduduna malik olan Azərbaycan Respublikası ərazisinin hissəsidir (şəhər, qəsəbə, kənd).

2.6. **Kənd** - əhalisinin əksəriyyəti kənd təsərrüfatı ilə məşğul olan ərazi vahididir.

2.7. **Qəsəbə** - əhalisinin əksəriyyəti kənd təsərrüfatı ilə məşğul olmayan (iqtisadi, sənaye, sosial, kommunal təsərrüfatı, ictimai iaşə, tarixi, mədəni, kurort obyektlərində, dövlət idarəetmə və ya inzibati orqanlarında və s. sahələrdə işləyən) ərazi vahididir.

2.8. **İnzibati ərazi dairəsi** - iki və daha çox kənd və ya qəsəbədən ibarət olan, hüdudlarında qanunvericiliklə nəzərdə tutulmuş qaydada yerli dövlət hakimiyyət orqanlarının yaradıldığı və fəaliyyət göstərdiyi Azərbaycan Respublikasının inzibati ərazi vahididir.

2.9. **Rayon** - Azərbaycan Respublikasının ümumi ərazisinin idarə edilməsinin mərkəzləşdirilməsi, dövlət funksiyalarının həyata keçirilməsinin səmərələşdiril-

məsi, habelə dövlət hakimiyyəti orqanlarının əhaliyə mümkün qədər yaxınlaşdırılması məqsədi ilə tarixən yaranmış, sabit və davamlı iqtisadi, mədəni və sosial əlaqələri olan ərazilərdən təşkil edilmiş, bir neçə inzibati ərazi dairələrini birləşdirən Azərbaycan Respublikasının inzibati ərazi vahididir.

2.10. **Şəhər** – əhalisinin sayı 15.000 nəfərdən yuxarı və onun əksəriyyəti sənayedə, iqtisadi, sosial və ya qeyri-istehsalat sahələrində (dövlət və ya bələdiyyə qulluğunda, kommunal təsərrüfatda, ictimai iaşə, mədəni və ya tarixi obyektlərdə və s.) məşğul olan, ətrafındakı ərazi vahidlərinin inzibati, iqtisadi və ya mədəni mərkəzləri olan inzibati ərazi vahididir.

2.11. Ayrı-ayrı hallarda əhalisinin sayı 15.000 nəfərdən az, lakin 12.000 nəfərdən yuxarı olan, inkişaf etmiş istehsalat və sosial infrastruktura, ərazisində ümumdövlət əhəmiyyətli müəssisələr və ya xüsusi əhəmiyyətli tarixi və mədəni abidələr yerləşən, habelə gələcək inkişaf və əhalisinin sayının artması perspektivinə malik olan böyük inzibati, iqtisadi və mədəni mərkəzlər, şəhərlər kateqoriyasına aid edilə bilər.

...

**Maddə 4. Azərbaycan Respublikasının ərazi quruluşunun prinsipləri**

4.0. Azərbaycan Respublikasının ərazi quruluşu aşağıdakı prinsiplərə əsaslanır:

4.0.1. Azərbaycan Respublikası ərazisinin vahidliyi, toxunulmazlığı və bölünməzliyi;

4.0.2. Azərbaycan Respublikasının və müvafiq ərazidə yaşayan əhalinin qanuni mənafelərinin uzlaşdırılması;

4.0.3. Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanlarının əhaliyə mümkün qədər yaxınlaşması və onların qarşılıqlı əlaqələrinin möhkəmləndirilməsi;

4.0.4. Azərbaycan Respublikasının dövlət hakimiyyətinin və yerli özünüidarənin uzlaşdırılması;

4.0.5. Azərbaycan Respublikasının yerli dövlət hakimiyyəti və bələdiyyə orqanlarının öz səlahiyyətlərinin müvafiq inzibati ərazi vahidi hüdudlarında həyata keçirilməsi;

4.0.6. eyni növdən olan inzibati ərazi vahidlərinin inkişafının tarazlığı və bərabərliyi, inzibati ərazi bölgüsünün və sosial-iqtisadi tələbatın əlaqələndirilməsi;

4.0.7. kiçik ərazi vahidlərinin ərazilərinin daha böyük ərazi vahidlərinin tərkibinə daxil edilməsi;

4.0.8. inzibati ərazi bölgüsünün müəyyən edilməsi zamanı eyni növdən olan inzibati ərazi vahidlərinin ərazi sahələrinin və onların əhalisinin sayının təxmini bərabərliyinin təmin edilməsi;

4.0.9. ərazi vahidlərinin hüquqi statusunun onların təyinatına, yerli xüsusiyyətlərə və sosial-iqtisadi inkişafın səviyyəsinə uyğunluğu;

4.0.10. ərazi quruluşu məsələlərinin həllində aşkarlıq, ictimai rəyin nəzərə alınması, yerli təşəbbüsün inkişafı üçün şəraitin yaradılması, habelə bu məsələlərin tarixi, coğrafi, etnoqrafik və toponimik xüsusiyyətlərə uyğun həll edilməsi.



...

**Maddə 7. Ərazi vahidlərinin qeydə alınması və qeydiyyatdan çıxarılması**

7.1. Yeni yaranmış, habelə mövcud olan və əhalinin daimi yaşadığı bütün ərazi vahidləri qeydə alınmalı və onların inzibati tabeliyi müəyyən olunmalıdır.

7.2. Azərbaycan Respublikasının bütün ərazi vahidlərinin qeydə alınması və qeydiyyatdan çıxarılması Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının vəsatəti əsasında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən həyata keçirilir.

7.3. Naxçıvan Muxtar Respublikasının ərazi vahidlərinin qeydə alınması və qeydiyyatdan çıxarılması Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatəti əsasında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən həyata keçirilir.

7.4. Ərazi vahidlərinin qeydə alınması üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının və ya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə aşağıdakı sənədlər əlavə olunur:

7.4.1. müvafiq icra hakimiyyəti orqanının ərazi vahidinin qeydiyyata alınmasına dair qərarı;

7.4.2. müvafiq icra hakimiyyəti orqanının ayrı-ayrı inzibati ərazi vahidi və ya inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin vəsatəti;

7.4.3. ərazi vahidinin harada yerləşməsi, onun yaranması səbəbi, təklif olunan ad, onun əsaslandırılması, əhalisinin sayı və əsas məşğuliyyətə görə tərkibi, ərazi vahidi üçün nə zaman və kim tərəfindən torpaq ayrılması və onun tikilişi planı haqqında məlumat (təsdiq edən orqanın adı və təsdiqin tarixi), ərazi vahidindən tabe olacağı inzibati ərazi vahidinin və ya inzibati ərazi dairəsinin mərkəzinədək, yaxın dəmiryol stansiyasınadək, poçt şöbəsinədək məsafə barədə müvafiq icra hakimiyyəti orqanının izahat məktubu;

7.4.4. ərazi vahidinə ad verilməsi barədə əhalinin ümumi yığıncağının qərarı;

7.4.5. qeydə alınması təklif olunan ərazi vahidinin qonşu ərazi vahidləri ilə sərhədlərinin təsvirini verən, ərazi vahidinin inkişafına dair baş plana görə mövcud və perspektiv sərhədləri göstərən müvafiq icra hakimiyyəti orqanında təsdiq edilmiş 1:5000 və ya 1:10000 miqyasında sxematik xəritə.

7.5. Ərazi vahidinin qeydiyyatdan çıxarılmasına həmin ərazi vahidinin əhalisinin köçməsi, bir ərazi vahidinin digər ərazi vahidi ilə birləşməsi və ya təbii fəlakətin doğurduğu nəticələrlə əlaqədar yol verilir. Ərazi vahidlərinin qeydiyyatdan çıxarılması üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının və ya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə aşağıdakı sənədlər əlavə olunur:

7.5.1. müvafiq icra hakimiyyəti orqanının ərazi vahidinin qeydiyyatdan çıxarılmasına dair qərarı;

7.5.2. müvafiq icra hakimiyyəti orqanının ayrı-ayrı inzibati ərazi vahidi və ya inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin vəsatəti;

7.5.3. müvafiq bələdiyyə orqanının ərazi vahidinin qeydiyyatdan çıxarılmasına dair qərarı;

7.5.4. ərazi vahidində əhalinin qalıb-qalmamasını, əhalinin qaldığı halda isə onun sayını, habelə ərazi vahidinin qeydiyyatdan çıxarılmasının səbəbini, onun hüdudlarında dövlət mülkiyyəti obyektlərinin olub-olmamasını göstərən müvafiq icra hakimiyyəti orqanının izahat məktubu.

7.6. Ərazi vahidləri birləşdikdə bu Qanunun 7.5-ci maddəsində göstərilmiş sənədlərə ərazi vahidinin inkişafına dair baş plana görə mövcud və perspektiv sərhədləri göstərən müvafiq icra hakimiyyəti orqanında təsdiq edilmiş 1:5000 və ya 1:10000 miqyasında sxematik xəritə və birləşən ərazi vahidlərinin əhalisinin ümumi yığıncağının qərarı əlavə olunur.

**Maddə 8. Ərazi vahidlərinin sərhədlərinin müəyyən edilməsi və dəyişdirilməsi**

8.1. Yeni yaranmış, habelə mövcud olan və əhalinin daimi yaşadığı bütün ərazi vahidlərinin sərhədləri müəyyən edilməlidir. Ərazi vahidlərinin sərhədlərinin dəyişdirilməsinə bir ərazi vahidi digər ərazi vahidi ilə birləşdikdə, ərazi vahidlərinin inzibati tabeliyi dəyişdirildikdə və bir inzibati ərazi dairəyə daxil olan iki və ya daha çox kənd və ya qəsəbənin qarşılıqlı razılaşması hallarında yol verilir.

8.2. Azərbaycan Respublikasının bütün ərazi vahidlərinin sərhədlərinin müəyyən edilməsi və dəyişdirilməsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının vəsatəti əsasında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən həyata keçirilir.

8.3. Naxçıvan Muxtar Respublikasının ərazi vahidlərinin sərhədlərinin müəyyən edilməsi və dəyişdirilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatəti əsasında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən həyata keçirilir.

8.4. Ərazi vahidlərinin sərhədlərinin müəyyən edilməsi və dəyişdirilməsi üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının və ya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə aşağıdakı sənədlər əlavə olunur:

8.4.1. ərazi vahidlərinin sərhədlərinin müəyyən edilməsinə dair müvafiq icra hakimiyyəti orqanlarının qərarları;

8.4.2. müvafiq icra hakimiyyəti orqanının ayrı-ayrı inzibati ərazi vahidi və ya inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin vəsatəti;

8.4.3. müvafiq bələdiyyə orqanlarının ərazi vahidlərinin sərhədlərinin dəyişdirilməsinə dair qərarları;

8.4.4. ərazinin sahəsi və torpaqların əsas istifadəçilərini, əhalinin ümumi sayını, sənaye və kənd təsərrüfatı müəssisələrinin, tikinti, nəqliyyat, kommunal və digər təşkilatların və onların hər birində işləyən şəxslərin sayını, torpaq ayrılmasını, onun geriyə qaytarılmasını və ya əlavə torpaq sahəsinin ayrılmasını əsaslandıran (bu hüquqları verən sənəd əlavə olunmaqla) izahat məktubu;



8.4.5. sərhədlərinin müəyyən edilməsi və dəyişdirilməsi təklif olunan ərazi vahidinin qonşu ərazi vahidləri ilə sərhədlərinin təsvirini verən, mövcud və layihələşdirilən sərhədi, inzibati mərkəzləri, torpaqların növləri göstərilməklə əlavə verilən torpaq sahəsini, həmin torpaqların hansı torpaq istifadəçilərindən alınmasının (verilməsinin) nəzərdə tutulduğunu, habelə əsas nəqliyyat yollarını göstərən müvafiq icra hakimiyyəti orqanında təsdiq edilmiş 1:5000 və ya 1:10000 miqyasında sxematik xəritə.

8.5. Ərazi vahidinin sərhədinin müəyyən edilməsi və ya dəyişdirilməsi ilə əlaqədar bütün mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həll edilir.

**Maddə 9. Ərazi vahidlərinə ad verilməsi və onların adlarının dəyişdirilməsi**

9.1. Təhkim olunmuş ərazisi və daimi yaşayan əhalisi olan bütün ərazi vahidlərinə müəyyən ad verilməlidir. Ərazi vahidlərinə ad verilməsi və onların adlarının dəyişdirilməsi ümumdövlət mənafeyi, habelə coğrafi, tarixi, etnoqrafik, milli və məişət şəraiti və digər yerli şərait, yerli əhalinin rəyi nəzərə alınmaqla həyata keçirilir.

9.2. Azərbaycan Respublikasının bütün ərazi vahidlərinə ad verilməsi və onların adlarının dəyişdirilməsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının vəsatəti əsasında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən həyata keçirilir.

9.3. Naxçıvan Muxtar Respublikasının ərazi vahidlərinə ad verilməsi və onların adlarının dəyişdirilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatəti əsasında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən həyata keçirilir.

9.4. Ərazi vahidlərinə ad verilməsi və onların adlarının dəyişdirilməsi haqqında hər bir təklifə əvvəlcədən Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponimiya komissiyası tərəfindən baxılır və bu barədə müvafiq rəy hazırlanır. Ərazi vahidlərinə ad verilməsi və onların adlarının dəyişdirilməsi ümumdövlət mənafeləri, coğrafi, tarixi, milli və digər xüsusiyyətlər, habelə yerli əhalinin rəyi nəzərə alınmaqla həyata keçirilir. Ərazi vahidinin adının dəyişdirilməsi zamanı yerli əhalinin rəyinin nəzərə alınmasına dair tələb ərazi vahidinin tarixi adının bərpa edilməsi hallarına şamil edilmir. Görkəmli dövlət və ya ictimai xadimlərin adları, bir qayda olaraq, yeni yaranmış ərazi vahidlərinə verilir.

9.5. İki və ya daha artıq ərazi vahidləri bir ərazi vahidində birləşdirildikdə, bir qayda olaraq, birləşmiş ərazi vahidlərindən birinin adı saxlanılır. Ərazi vahidlərinə ad verilərkən və onların adı dəyişdirilərkən mövcud adların təkrarlanmasına yol verilmir. Adları dövlətin milli, tarixi, coğrafi və mədəni irsi ilə bağlı olan ərazi vahidlərinin adlarının dəyişdirilməsinə yol verilmir.

9.6. Ərazi vahidlərinə ad verilməsi və onların adlarının dəyişdirilməsi üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının və ya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə aşağıdakı sənədlər əlavə olunur:

9.6.1. ərazi vahidinə ad verilməsinə və onun adının dəyişdirilməsinə dair müvafiq icra hakimiyyəti orqanının qərarı və müvafiq icra hakimiyyəti orqanı yanında şura iclasının protokolu;

9.6.2. müvafiq icra hakimiyyəti orqanının ayrı-ayrı inzibati ərazi vahidi və ya inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin vəsatəti;

9.6.3. müvafiq bələdiyyə orqanının ərazi vahidinin adının dəyişdirilməsinə dair qərarı;

9.6.4. ad verilməli və ya adı dəyişdirilməli olan ərazi vahidində yaşayan əhalinin (səsvermə hüququna malik olan şəxslərin sayı göstərilməklə) sayı və onların ümumi yığıncağının qərarı;

9.6.5. irəli sürülən təklifin məqsədəuyğunluğunun əsaslandırılmasını, təklif olunan adın izahını, poçt idarəsi və ya dəmiryol stansiyasının olmasını və onların adlarını göstərən izahat məktubu.

9.7. İki və ya daha artıq ərazi vahidlərinin birləşməsi nəticəsində yaranmış ərazi vahidinə ad verildikdə birləşən hər bir ərazi vahidi üzrə əhalinin yığıncağı ayrılıqda keçirilir.

9.8. Prospekt, küçə, meydan və müvafiq ərazi vahidinin digər tərkib hissələrinə ad verilməsi və onların adlarının dəyişdirilməsi həmin ərazinin əhalisinin rəyi nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

9.9. Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünü təşkil edən inzibati ərazi vahidlərinin adları dövlət dilində yazılmalıdır, onların dövlət dilinin normalarına uyğun olaraq yazılışı müvafiq qurum tərəfindən müəyyənləşdirilir. İnzibati ərazi vahidlərinin adları dövlət dili ilə yanaşı, xarici dillərdə də yazıla bilər. Belə olan halda inzibati ərazi vahidinin adı əvvəlcə dövlət dilində və ondan sonra xarici dildə verilməlidir.

## Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasının Qanunu

*(13 iyun 2000-ci il, № 894-IQ)*

...

**Maddə 2. Qeyri-hökumət təşkilatı**

2.1. **İctimai birlik** - təsis sənədlərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşmiş bir neçə fiziki və (və ya) hüquqi şəxsin təşəbbüsü ilə yaradılmış könüllü, özünüidarəedən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvləri arasında bölməyən qeyri-hökumət təşkilatıdır.



2.2. **Fond** - üzvləri olmayan, bir və ya bir neçə fiziki və (və ya) hüquqi şəxslər tərəfindən könüllü əmlak haqqı əsasında təsis edilən və sosial, xeyriyyə, mədəni, təhsil və ya digər ictimai-faydalı məqsədlər daşıyan qeyri-hökumət təşkilatıdır.

2.3. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə qadağan olunmamış məqsədlər üçün yaradıla və fəaliyyət göstərə bilər.

2.4. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin və bələdiyyələrin seçkilərində iştirak edə bilməz, siyasi partiyalara maliyyə və başqa maddi yardım göstərə bilməz. Azərbaycan Respublikasının seçki qanunvericiliyinə uyğun olaraq qeyri-hökumət təşkilatları Azərbaycan Respublikasında keçirilən prezident seçkiləri, Milli Məclisə seçkiləri və bələdiyyələrə seçkiləri müşahidə edə və *exit-poll həyata keçirə* bilərlər. *Xarici hüquqi şəxslər Azərbaycan Respublikası Prezidentinin seçkiləri, Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər və bələdiyyə seçkiləri zamanı exit-polla əlaqədar tədbirlərdə yalnız Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatları ilə birlikdə iştirak edə bilərlər.* Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının qanunlarında və öz nizamnaməsində nəzərdə tutulmuş qaydada hüquqi normativ aktların təkmilləşdirilməsi təklifləri ilə çıxış edə bilər.

## Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Azərbaycan Respublikasının Qanunu

*(5 iyun 2001, № 136-IIQ)*

...

**Maddə 25. Xüsusi təhsilin maliyyələşdirilməsi**

25.1. Xüsusi təhsili həyata keçirən dövlət və bələdiyyə müəssisələri müvafiq olaraq dövlət və yerli büdcələrin vəsaitləri hesabına maliyyələşdirilir.

25.2. Xüsusi təhsil həyata keçirən özəl müəssisələr təsisçinin (təsisçilərin) vəsaiti hesabına maliyyələşdirilir.

25.3. Xüsusi təhsil həyata keçirən müəssisələr təhsil alanların peşə təlimi prosesində istehsal etdikləri məhsulların satışından əldə olunan gəlirlər, hüquqi və fiziki şəxslərin ianələri, eləcə də qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilə bilər.

25.4. Xüsusi təhsili həyata keçirən dövlət müəssisələrində təhsil alan uşaqların təhsil müəssisələrinə gedib-gəlməsi üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən nəqliyyat vasitələri ayrılır.

**Maddə 26. Xüsusi təhsil müəssisəsinin, xüsusi təhsil bölməsinin və inteqrasiya təlimli təhsil müəssisəsinin maddi-texniki bazası və elmi-metodik təminatı**

26.1. Xüsusi təhsil müəssisəsinin, xüsusi təhsil bölməsinin və inteqrasiya təlimli təhsil müəssisəsinin maddi-texniki bazasına xüsusi təhsil müəssisəsinin tipindən asılı olaraq binalar, qurğular, yeməkxanalar, yardımçı binalar, tibb, korreksiya və reabilitasiya kabinetləri, idman qurğuları, təlimin texniki vasitələri, kitabxana fondu daxildir. Xüsusi təhsili həyata keçirən müəssisənin maddi-texniki bazası müvafiq olaraq dövlət, bələdiyyələr və təsisçi (təsisçilər) tərəfindən formalaşdırılır.

26.2. Xüsusi təhsil üçün dərslik, dərs vəsaitləri və elmi-metodik vasitələrin hazırlanması müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

26.3. Xüsusi təhsilə cəlb olunanların valideynlərinə və ya digər qanuni nümayəndələrinə uşaqlarını xüsusi təhsil müəssisəsinə, sağlamlıq və reabilitasiya mərkəzlərinə və tibb müəssisələrinə aparıb-gətirmək üçün müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi həcmdə vəsait ayrılır.

26.4. Xüsusi təhsil almaq hüququ olan sağlamlıq imkanları məhdud şəxslər dərslik, dərs vəsaitləri, fərdi texniki vasitələrlə müvafiq icra hakimiyyəti orqanı, bələdiyyələr və təsisçi (təsisçilər) tərəfindən təmin olunurlar.

## Tütün və tütün məmulatı haqqında Azərbaycan Respublikasının Qanunu

*(8 iyun 2001, № 138-IIQ)*

...

**Maddə 19. Tütünün və tütün məmulatının keyfiyyətinə və dövriyyəsinə dövlət nəzarəti**

19.1. Tütünün və tütün məmulatının keyfiyyətinə və dövriyyəsinə dövlət nəzarətinin məqsədi hüquqi və fiziki şəxslər tərəfindən bu məhsulların istehsalını, tədarükünü, emalını, qablaşdırılmasını, saxlanmasını, daşınmasını, markalanmasını, satışını, idxalını və ixracını, habelə keyfiyyət göstəricilərini nizamlayan normativ sənədlərin tələblərinə və gigiyenik normativlərə əməl olunmasını təmin etməkdir.

19.2. Tütünün və tütün məmulatının keyfiyyətinə və dövriyyəsinə dövlət nəzarətinin həyata keçirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilmiş normativ hüquqi aktlarla müəyyən edilir.

19.3. Bələdiyyələr, istehlakçılar və qeyri-hökumət təşkilatları tütünün və tütün məmulatının keyfiyyətinə və dövriyyəsinə nəzarət funksiyalarını onların statusunu müəyyən edən qanunvericilik aktları ilə verilən səlahiyyətlər daxilində həyata keçirə bilərlər.



...

**Maddə 22. Tütün məmulatının istehlakına nəzarət tədbirləri**

22.1. Tütün məmulatının istehlakına nəzarət tədbirləri müvafiq icra hakimiyyəti orqanları tərəfindən hazırlanır və həyata keçirilir. Tütün məmulatının istehlakına nəzarət tədbirləri dövlət ekoloji və sağlamlıq proqramlarının tərkib hissəsi olaraq dövlət büdcəsi və digər mənbələr hesabına maliyyələşdirilir.

22.2. Bələdiyyələr, istehlakçılar və qeyri-hökumət təşkilatları tütün məmulatının istehlakına nəzarət üzrə proqramlar hazırlaya, həyata keçirə və bununla əlaqədar müvafiq təkliflər irəli sürə bilərlər.

## Ahıllara sosial xidmət haqqında Azərbaycan Respublikasının Qanunu

*(22 iyun 2001-ci il, № 158-IIQ)*

...

**Maddə 4. Sosial xidmətdən istifadə hüququ**

4.1. Ahıllar müvafiq icra hakimiyyəti orqanı, dövlət, bələdiyyə və özəl sosial xidmət müəssisələri, habelə sosial xidmət sahəsində peşəkar fəaliyyətlə məşğul olan şəxslər tərəfindən həyata keçirilən sosial xidmətlərdən istifadə edə bilərlər.

4.2. Sosial xidmət müvafiq icra hakimiyyəti orqanı və ya dövlət sosial xidmət müəssisəsi tərəfindən ahılların razılığı və müvafiq icra hakimiyyəti orqanının qərarı ilə həyata keçirilir.

4.3. Bələdiyyə və ya özəl sosial xidmət müəssisələri, habelə sosial xidmət sahəsində peşəkar fəaliyyətlə məşğul olan şəxslər tərəfindən sosial xidmət onlarla ahıllar arasından bağlanmış müqavilə əsasında göstərilir.

...

**Maddə 13. Sosial-məsləhət yardımı**

13.1. Sosial-məsləhət yardımının məqsədi ahılların cəmiyyətə adaptasiyasını, ailədə sağlam münasibətlərin yaradılmasını təmin etməkdən ibarətdir.

13.2. Sosial-məişət yardımına aşağıdakılar aiddir:

13.2.1. qohumlarından və ya qanuni nümayəndələrindən ayrı yaşayan və sosial-məsləhət yardımına ehtiyacı olan tək ahılların, ahıl ər-arvadların müəyyənləşdirilməsi;

13.2.2. müxtəlif xarakterli sosial-psixoloji pozuntuların profilaktikası;

13.2.3. ahılların yaşadığı ailələrlə əlaqə yaradılması;

13.2.4. ahılların problemlərinin həllində dövlət, bələdiyyə orqanlarının və ictimai birliklərin fəaliyyətinin əlaqələndirilməsi;

13.2.5. sosial xidmət üzrə məsləhətlərin verilməsi.

...

**Maddə 16. Sosial xidmət sistemi**

16.1. Sosial xidmət sistemi dövlət, bələdiyyə və özəl sosial xidmət müəssisələrindən ibarətdir.

16.2. Sosial xidmət müəssisələri qanunvericilikdə müəyyən olunmuş qaydada yaradılır, fəaliyyət göstərir, yenidən təşkil edilir və ləğv olunur.

16.3. Ödənişsiz şərtlərlə xidmət göstərən sosial xidmət müəssisələri üçün qanunvericilikdə müəyyən olunmuş qaydada güzəştlər müəyyən edilə bilər.

**Maddə 18. Sosial xidmət göstərilməsi ilə əlaqədar sosial işçilərin hüquq və vəzifələri**

18.1. Sosial xidmət göstərilməsi ilə əlaqədar sosial işçilərin hüquqları aşağıdakılardır:

18.1.2. işəgötürənlə əmək müqaviləsi (kontraktı) bağlamaq;

18.1.3. işə qəbul olunarkən büdcə vəsaitləri hesabına dövlət və ya bələdiyyə tibb müəssisələrində profilaktik baxış və müayinədən keçmək;

18.1.4. işəgötürənin vəsaiti hesabına ixtisasını artırmaq;

18.1.5. xidməti vəzifəsini yerinə yetirərkən xüsusi geyim və avadanlıqla təmin olunmaq və ya bunları əldə etmək və nəqliyyat xərcləri üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada pul kompensasiyası almaq.

18.2. Sosial xidmət göstərilməsi ilə əlaqədar sosial işçilərin vəzifələri aşağıdakılardır:

18.2.1. professional etika normalarını rəhbər tutmaq, ahılların ləyaqətinə və hüquqlarına hörmətlə yanaşmaq;

18.2.2. sosial xidmət göstərərkən ahıllara münasibətdə ayrı-seçkiliyə və qeyri-humanistliyə yol verməmək;

18.2.3. qulluq etdikləri ahıllara sosial xidmətin növləri barədə məlumat vermək;

18.2.4. öz vəzifələrini yerinə yetirərkən əldə etdikləri məlumatların konfidensiallığını təmin etmək.

## Üzümçülük və şərabçılıq haqqında Azərbaycan Respublikasının Qanunu

*(19 oktyabr 2001-ci il, № 208-IIQ)*

...

**Maddə 21. Şərabçılıq məhsullarının satışı**

21.1. Şərabçılıq məhsullarının satışı Azərbaycan Respublikasının qanunvericiliyinə və ticarət qaydalarına uyğun olaraq topdan və pərakəndə satış formasında həyata keçirilir.



21.2. Markalı və kolleksiya şərablarının qablara süzülmədən açıq halda pərakəndə satışına yol verilmir.

21.3. Pərakəndə satışa çıxarılan şərabçılıq məhsullarının müşayiətedici sənədlərində Azərbaycan Respublikasının dövlət dilində aşağıdakılar barədə məlumatlar olmalıdır:

21.3.1. məhsulun adı, qiyməti və həcmi, o cümlədən istehlak qabında olan həcmi, habelə istehsal edildiyi tarix və istifadəyə yararlılıq müddəti;

21.3.2. istehsalçının adı, hüquqi ünvanı və istehsal olunduğu dövlət;

21.3.3. tələblərinə cavab verməli olduğu dövlət standartları və sertifikatlaşdırılması;

21.3.4. dadına və ətrinə təsir edən əsas inqrediyentlər və əlavələr;

21.3.5. məhsulun tərkibində insan sağlamlığı üçün zərərli maddələrin yol verilən miqdarı.

21.4. Şərabçılıq məhsullarının pərakəndə satışı aşağıdakı hallarda qadağan olunur:

21.4.1. saxtalaşdırılması müəyyən olunduqda;

21.4.2. qanunvericiliklə müəyyən edilmiş qaydada aksiz markası ilə markalanmadıqda və ya saxta aksiz markaları ilə markalandıqda;

21.4.3. istehsal markasına uyğun gəlmədikdə;

21.4.4. məhsulun hər partiyası üçün müvafiq sertifikatlar olmadıqda;

21.4.5. keyfiyyəti, qablaşdırılması və etiketləşdirilməsi qüvvədə olan standartların tələblərinə və gigiyenik normativlərə uyğun gəlmədikdə;

21.4.6. alıcılar 18 yaşına çatmamış şəxslər olduqda;

21.4.7. məhsulun süzüldüyü qab daxildən və ya xaricdən çirkli, çöküntülü, sınıq və ya zədəli olduqda.

21.5. Küçələrdə, ellərdə, hərbi, təhsil və tibb müəssisələrinin ərazilərində, kütləvi tədbirlər və idman yarışları keçirilən yerlərdə, yataqxanalarda, onlara bitişik ərazilərdə və bələdiyyələr və müvafiq icra hakimiyyəti orqanları tərəfindən müəyyən edilmiş digər yerlərdə şərabçılıq məhsullarının pərakəndə satışına yol verilmir.

## Dövlət rüsumu haqqında Azərbaycan Respublikasının Qanunu

*(4 dekabr 2001, №223-IIQ)*

...

**Maddə 9. Məhkəməyə verilən iddia ərizələrinin və şikayətlərin, hüquqi əhəmiyyət kəsb edən faktların müəyyən edilməsi barədə ərizələrin və məhkəmə qərarları barəsində şikayətlərin verilməsinə, məhkəmə tərəfindən sənədlərin surətinin təkrar verilməsinə görə dövlət rüsumundan azad edilməsi və dövlət rüsumunun ödənilməsinin xüsusiyyətləri**

9.1. Aşağıdakılar dövlət rüsumu ödəməkdən azad olunurlar:

9.1.1. əməyin ödənilməsi və əmək fəaliyyəti ilə bağlı digər tələblər üzrə – iddiaçılar;

9.1.1. aliment alınması barədə iddialar üzrə – iddiaçılar;

9.1.3. şikəstlik, səhhətə digər xəsarətlər yetirilməsinə və ya ailəni dolandıranın ölümü nəticəsində dəyən ziyanın ödənilməsi barəsində iddialar üzrə – iddiaçılar;

9.1.4. müəlliflik mübahisələri üzrə – müəlliflər, müəlliflik hüququ, ixtiralar, faydalı modellər, sənaye nümunələri, habelə əqli mülkiyyətin digər növlərinə dair hüquqlardan irəli gələn iddialar üzrə – iddiaçılar, bələdiyyələr;

9.1.5. istehlakçıların hüquqlarının pozulması ilə əlaqədar verdikləri iddialar üzrə – iddiaçılar;

9.1.6. zərərçəkənə və ya onun ailə üzvlərinə ödənilmiş müavinət və ya pensiya məbləğinin zərər vurandan tutulması barədə reqres iddialar üzrə – sosial sığorta orqanları və əhalinin sosial müdafiə mərkəzləri;

9.1.7. sosial müdafiə vasitələrinin tələbi barədə iddialar üzrə – sosial təminat orqanları;

9.1.8. borcludan tutulmalı olan, lakin borc tutan şəxsin hesabına keçirilməyən məbləğə görə iddialar üzrə – iddiaçılar;

9.1.9. cinayət nəticəsində dövlətə vurulmuş maddi zərərin ödənilməsi barədə prokuror tərəfindən verilən iddialar üzrə – iddiaçılar;

9.1.10. aliment verməkdən, şikəst etmə və ya səhhəti sair şəkildə zədələnmə ilə, habelə ailəni dolandıranın ölümü ilə vurulan ziyanı ödəməkdən, vergilərin və digər məcburi ödəmələrin tutulmasından boyun qaçıran şəxslərin axtarışı ilə əlaqədar xərclərin tələb olunması üzrə – polis orqanları;

9.1.1. cinayət işləri və aliment işləri ilə əlaqədar olaraq vətəndaşlara, müəssisələrə və təşkilatlara sənədlər (arayışlar) verilməsi üçün – vətəndaş, müəssisə, idarə və təşkilatlar;

9.1.12. inzibati hüquq münasibətlərindən əmələ gələn işlər üzrə – vətəndaş, inzibati orqanlar və vəzifəli şəxslər;



9.1.13. qanunsuz olaraq qətimkan tədbiri kimi həbsə alınmaqla, yaxud həbs və ya islah işləri növündə qanunsuz olaraq inzibati tənbeh verilməsi ilə fiziki şəxsə vurulmuş zərərin ödənilməsi ilə əlaqədar mübahisələr üzrə - tərəflər;

9.1.14. məhkəmələrə verilən iddia ərizələri və bütün növ şikayətlər üzrə – büdcə təşkilatları, Milli Bank və onun qurumları, bələdiyyələr;

9.1.15. başqa şəxslərin hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin, dövlət mənafeyinin müdafiəsi üçün verilən ərizələr üzrə – dövlət orqanları;

9.1.16. öz hüquqlarının müdafiəsi barədə ərizələr üzrə – yetkinlik yaşına çatmayanlar;

9.1.17. məhkəmə qərardadlarından verilən şikayətlər üzrə – işdə iştirak edən şəxslər;

9.1.18. qiyabi icraat qaydasında qəbul edilmiş qərarlara yenidən baxılması haqqında birinci instansiya məhkəmələrinə verilən ərizələr üzrə – tərəflər;

9.1.19. yeni açılmış hallara görə qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yenidən baxılması üçün verilmiş ərizələr üzrə – tərəflər;

9.1.20. məhkəmədə verilən iddialar üzrə – şəhid ailələri, müharibə veteranları, qaçqınlar və məcburi köçkünlər, habelə Çernobıl AES-də qəza nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslər.

9.1.21. Hüquqi şəxsin təqsiri üzündən icra sənədi üzrə borcludan tutulmalı olan məbləğin tutulmamasına görə ona qarşı iddialar üzrə – tələbkar;

9.1.22. İcra üzrə icraat zamanı borclunun və ya onun əmlakının tapılması ilə əlaqədar elan olunmuş axtarış üzrə xərcləri ödəməkdən borclu imtina etdikdə və ya yayındıqda, tələbkar tərəfindən çəkilmiş xərclərin əvəzinin ödənilməsi barədə iddialar üzrə – tələbkar.

9.2. Məhkəmə aktlarının surəti işdə iştirak edən şəxslərə dövlət rüsumu alınmadan verilir. Məhkəmə aktları təkrarən verildikdə dövlət rüsumu alınır.

9.3. Məhkəmədə təkrar verilmiş iddialar üzrə dövlət rüsumu yenidən ümumi qaydada alınır.

9.4. İddiaçı müəyyən olunmuş qaydada dövlət rüsumunu ödəməkdən azad edilmişsə, dövlət rüsumu iddianın təmin edilmiş hissəsinə münasib olaraq cavabdehdən tutularaq dövlət büdcəsinə köçürülür.

...

**Maddə 27. Əmlaka mülkiyyət hüququna, o cümlədən torpağa mülkiyyət, icarə və istifadə hüququna dair sənədlərin verilməsi üzrə dövlət rüsumundan azadolmalar**

27.1. Dövlətə öz əmlakını bağışlayan vətəndaşlardan, müəssisələrdən və təşkilatlardan dövlət rüsumu tutulmur.

27.2. Daşınmaz dövlət əmlakının bələdiyyə mülkiyyətinə keçməsi ilə əlaqədar mülkiyyət şəhadətnaməsinin verilməsi üçün dövlət rüsumu tutulmur.

## Kommersiya sirri haqqında Azərbaycan Respublikasının Qanunu

*(4 dekabr 2001, № 224-IIQ)*

...

**Maddə 15. Mülki-hüquq müqavilələrinin həyata keçirilməsindən yaranan "nou-hau"-ya mülkiyyət hüququ**

15.1. Elmi-tədqiqat, təcrübə-konstruktor və texnoloji işlərin yerinə yetirilməsi müqavilələrində başqa hallar nəzərdə tutulmadıqda və müqavilə üzrə sifarişçi dövlət hakimiyyəti və yerli (bələdiyyə) orqanı olmadıqda:

15.1.1. mülki-hüquq müqaviləsinin həyata keçirilməsindən yaranan "nou-hau"ya mülkiyyət hüququ sifarişçiyə məxsusdur;

15.1.2. icraçı müqavilənin yerinə yetirilməsindən əldə edilən "nou-hau"dan istehsalatında istifadə etmək hüququna malikdir;

15.1.3. icraçı sifarişçinin yazılı razılığı olmadan göstərilən "nou-hau"nu üçüncü şəxslərə vermək hüququna malik deyil.

15.2. Podrat müqaviləsinin yerinə yetirilməsi zamanı sifarişçi tərəfindən əldə edilən "nou-hau" hüququ müqavilə bağlananadək bu müqavilənin yerinə yetirilməsindən asılı olmayaraq sifarişçi tərəfindən əvəzsiz istifadə hüququnu yaratmır.

## Azərbaycan Respublikası Hesablama Palatasının Daxili Nizamnaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

*(5 mart 2002-ci il, 269-IIQ)*

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. "Azərbaycan Respublikası Hesablama Palatasının Daxili Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).
2. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.



*Azərbaycan Respublikasının 5 mart 2002-ci il tarixli, 269-IIQ saylı qanunu ilə* ***təsdiq edilmişdir***

## Azərbaycan Respublikası Hesablama Palatasının Daxili Nizamnaməsi

...

**Maddə 24. Hesablama Palatası tərəfindən maliyyə-büdcə ekspertizası ilə bağlı nəzarət tədbirlərinin nəticələri üzrə qərarların qəbul edilməsi**

24.1. Maliyyə-büdcə ekspertizası ilə bağlı nəzarət tədbirlərinin nəticələri barədə sənədlər (rəy, hesabat və digər sənədlər) və onlara aid bütün materiallar baxılmaq və müvafiq qərar qəbul etmək üçün Hesablama Palatasının sədri tərəfindən Hesablama Palatasının iclasına təqdim olunur.

24.2. Hesablama Palatasının iclasında hesabata baxılmanın nəticələri üzrə aşağıdakı qərarlardan biri qəbul edilir:

24.2.1. hesabatın təsdiq edilməsi barədə;

24.2.2. hesabatın təsdiq edilməməsi barədə.

24.3. Hesablama Palatasında baxıldıqdan sonra müvafiq qərar Hesablama Palatasının Sədri tərəfindən imzalanır.

24.4. Hesablama Palatasının iclasında hesabata baxıldıqda yoxlanılan qurumların nümayəndələri Hesablama Palatasının iclasına dəvət olunur.

24.5. Hesablama Palatasının iclasında hesabatın təsdiq edilməməsi üçün aşağıdakılar əsas ola bilər:

24.5.1. hesabatın nəzarət tədbirinin məqsədinə və onun proqramında təsbit olunmuş digər tələblərə uyğunsuzluğu;

24.5.2. nəzarət tədbirlərinin tam həcmdə həyata keçirilməməsi;

24.5.3. təqdim edilmiş hesabatda təkliflərin olmaması və ya hazırlanmış təkliflərin keçirilmiş nəzarət tədbirinin nəticələrinə uyğun olmaması;

24.5.4. təqdim edilmiş hesabat və ona əlavə edilən sənədlərin Hesablama Palatasının Daxili Nizamnaməsinə, Azərbaycan Respublikasının qanunvericiliyinə, müvafiq standartlara uyğun olmaması.

24.6. Təqdim edilmiş hesabat Hesablama Palatasının iclasında təsdiq edilmədikdə, nəzarət tədbirinin keçirilməsinə görə məsul şəxslərə uyğunsuzluqların aradan qaldırılması üçün əlavə tədbirlərin keçirilməsi barədə tapşırıq verilir və bunun müddətləri müəyyən olunur.

24.7. Hesablama Palatasının iclasında hesabat təsdiq olunduqdan sonra bu Nizamnamənin 24.4-cü maddəsində müəyyən edilmiş hərəkətlər həyata keçirilir.

24.8. Hesabat təsdiq edildikdə yoxlama üzrə hesabatın təsdiq edilməsi barədə Hesablama Palatasının qərarı, rəylər, hesabatlar və nəzarət tədbirlərinin nəticələri üzrə təkliflər "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanu-

nunun 16-cı maddəsinin birinci və dördüncü hissələrinə müvafiq olaraq maliyyə-büdcə ekspertizası keçirilməsi barədə sorğu ilə müraciət etmiş Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Milli Məclisinə və onun müvafiq daimi komissiyasına, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqana təqdim edilir.

24.9. Maliyyə-büdcə ekspertizası ilə bağlı nəzarət tədbirlərinin nəticələri aidiyyəti üzrə nəzarət tədbiri keçirilmiş müvafiq qurumların rəhbərlərinə çatdırılır.

## İcbari ekoloji sığorta haqqında Azərbaycan Respublikasının Qanunu

*(12 mart 2002-ci il, №271-IIQ)*

Bu Qanun ətraf mühitin qəza nəticəsində çirklənməsi zamanı əhalinin həyatına və sağlamlığına, əmlaka və ətraf mühitə vurulan zərərə görə mülki məsuliyyətin icbari sığortalanması şərtlərini və qaydalarını müəyyən edir, hüquqi və fiziki şəxslərin, habelə dövlətin və bələdiyyələrin əmlak mənafelərinin qorunmasına təminat verir.

...

**Maddə 3. Ekoloji sığorta fəaliyyəti və obyekti**

3.1. Ekoloji sığorta fəaliyyəti təhlükəli mənbəyi olan və mülki məsuliyyəti sığortalanan müəssisənin və ya fərdi sahibkarın (bundan sonra müəssisə) obyektində baş verən qəza və (və ya) texnogen fəlakət (bundan sonra qəza) nəticəsində əhaliyə, əmlaka və ətraf mühitə vurulan zərərin ödənilməsi üçün təminat sisteminin yaradılmasına yönəldilən, qanuna görə həyata keçirilən sığortaçıların və sığorta bazarının digər iştirakçılarının fəaliyyətidir.

Ekoloji sığorta fəaliyyəti bu qanunun 9.5 və 9.6-cı maddələrində göstərilən xüsusi, bələdiyyə və dövlət mülkiyyətində olan müəssisələri əhatə edir.

3.2. Ətraf mühitin qəza nəticəsində çirklənməsi zamanı insanların həyatına və sağlamlığına, üçüncü şəxslərin əmlakına, habelə ətraf mühitə vurduğu zərərə görə təhlükəli mənbəyi olan müəssisələrin mülki məsuliyyəti ilə bağlı əmlak mənafeləri ekoloji sığorta obyektidir.

3.3. Ekoloji sığorta təhlükəli mənbəyi olan müəssisə ilə sığortaçı arasında qanunvericiliyə uyğun olaraq bağlanan müqavilə əsasında aparılır.



## Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu

*(9 aprel 2002-ci il, № 297-IIQ)*

...

**Maddə 7. Gənclərin sağlamlığının qorunması və fiziki inkişafı**

7.1. Müvafiq icra hakimiyyəti orqanları tərəfindən gənclərə tibbi yardımın göstərilməsi, asudə vaxtın təşkili sahəsində tədbirlər həyata keçirilir.

7.2. Təhsil sistemində tibbi xidmət təşkil olunur. Müvafiq icra hakimiyyəti orqanları təhsil müəssisələrinin vəsaiti hesabına əyani təhsil alan tələbələrin hər il kompleks tibbi müayinədən keçirilməsini təmin edirlər.

7.3. Gənclərin dövlət mülkiyyətində olan bədən tərbiyəsi və idman obyektlərindən istifadə qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

7.4. Gənclərin bələdiyyə mülkiyyətində olan bədən tərbiyəsi və idman obyektlərindən istifadə qaydaları yerli özünüidarəetmə orqanları tərəfindən müəyyən edilir.

## Televiziya və radio yayımı haqqında Azərbaycan Respublikasının Qanunu

*(25 iyun 2002-ci il, 345-IIQ)*

**Maddə 6. Azərbaycan Respublikasında teleradio sistemi**

6.1. Azərbaycan Respublikasında teleradio yayımı milli teleradio sisteminin əsasını təşkil edən dövlət, bələdiyyə, özəl və ictimai yayımçılar tərəfindən həyata keçirilir.

6.2. Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında bütün yayımçılar bərabər hüquqlara malikdir və qanun qarşısında eyni məsuliyyət daşıyırlar.

...

**Maddə 8. Bələdiyyə yayımçısı**

8.1. Bələdiyyə yayımçısı:

8.1.1. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada yerli özünüidarəetmə orqanı tərəfindən təsis olunur və reyestrdən keçir;

8.1.2. yerli büdcə, reklamdan daxilolmalar və qanunla qadağan olunmayan digər mənbələr, habelə yerli rəy sorğusu yolu ilə qəbul edilən qərarla müəyyənləşdirilmiş abonent haqqı hesabına maliyyələşdirilir;

8.1.3. ayrılıqda təmsil olunduğu ərazinin, bütövlükdə cəmiyyətin mənafeyinə yönəlmiş məlumatlandırıcı, maarifləndirici və əyləndirici proqramlar yayımlayır;

8.1.4. teleradio fəaliyyətinin hüquqi rejimini bu Qanunun müddəalarını nəzərə almaqla, müstəqil şəkildə müəyyənləşdirir.

8.2. Bələdiyyə yayımçısı bir və ya bir neçə yerli özünüidarəetmə orqanı tərəfindən, yaxud fiziki və hüquqi şəxslərlə birlikdə təsis oluna bilər.

...

**Maddə 31. Seçki (referendum) kampaniyası zamanı televiziya və radiodan istifadə qaydaları**

Azərbaycan Respublikası Milli Məclisi deputatlarının, Azərbaycan Respublikası Prezidentinin və bələdiyyə üzvlərinin seçkiləri zamanı qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar blokunun, habelə referendum zamanı referendum üzrə təşviqat qrupunun efirdən istifadə qaydaları Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə tənzimlənir.

# Büdcə sistemi haqqında Azərbaycan Respublikasının Qanunu

*(2 iyul 2002-ci il, 358-IIQ)*

**Maddə 1. Qanunda istifadə olunan əsas anlayışlar**

1.1. Bu Qanunun məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə olunur:

1.1.1. **büdcə** - Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti və özünüidarəetmə orqanları vasitəsi ilə dövlətə və bələdiyyələrə məxsus vəzifə və funksiyaları yerinə yetirmək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədi;

1.1.2. **büdcə təsnifatı** - dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin, yerli büdcələrin və büdcədənkənar dövlət fondlarının gəlirlərinin, xərclərinin və maliyyələşmə mənbələrinin funksional, iqtisadi, təşkilati və digər prinsiplər əsasında qruplaşdırılması;

1.1.3. **büdcə ili** - yanvar ayının 1-dən dekabr ayının 31-dək olan birillik dövr;

1.1.4. **təsdiq olunan büdcə ayırmaları** - qanunvericiliklə təsdiq olunan və dövlət büdcəsində, Naxçıvan Muxtar Respublikasının büdcəsində və yerli büdcələrdə maddələr üzrə xərclənə biləcək vəsaitin yuxarı həddi;

1.1.5. **büdcədənkənar dövlət fondları** - Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktlarına əsasən dövlətə məxsus olan, lakin büdcə sisteminə daxil olmayan maliyyə fondları;

1.1.6. **büdcədənkənar əməliyyatlar** - müvafiq icra hakimiyyəti orqanlarının və büdcə təşkilatlarının qanunvericiliklə müəyyən edilmiş qaydada büdcədən kənarda əldə etdikləri gəlirləri və həyata keçirdikləri xərcləri üzrə maliyyə əməliyyatları;



1.1.7. **icmal büdcə** - dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin (büdcədənkənar əməliyyatlar da daxil olmaqla) və büdcədənkənar dövlət fondlarının gəlir və xərclərini funksional və iqtisadi təsnifata uyğun paraqraflar səviyyəsində əks etdirən maliyyə sənədi;

1.1.8. **büdcə kəsiri (defisit)** - büdcə xərclərinin gəlirlərlə təmin olunmayan məbləği;

1.1.9. **büdcə artıqlığı (profisit)** - büdcə gəlirlərinin büdcə xərclərindən artıq olan məbləği;

1.1.10. **dövlət büdcəsinin kassa icrası** - büdcə gəlirlərinin büdcəyə daxilolmasını və xərclərinin büdcə təsnifatına uyğun olaraq xəzinədarlıq vasitəsi ilə ünvanlı istifadəsini təmin edən icra mexanizmi;

1.1.11. **büdcə gəlirləri** - Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının və yerli özünüidarəetmə orqanlarının müvafiq qanunvericilik aktları ilə müəyyən olunmuş qaydada dövlət büdcəsinə, Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə daxil olan vergilər, rüsumlar, digər ödənişlər və daxilolmalar;

1.1.12. **büdcə xərcləri** - büdcə təsnifatına uyğun olaraq dövlət büdcəsindən, Naxçıvan Muxtar Respublikasının büdcəsindən və yerli büdcələrdən qanunvericiliklə nəzərdə tutulan tələbatı ödəmək üçün ayrılan vəsait;

1.1.12-1. **mərkəzləşdirilmiş gəlir** - dövlət büdcəsində müəyyən edilən normativlərə uyğun olaraq dövlət büdcəsi gəlirlərindən yerli gəlirlər çıxıldıqdan sonra formalaşan gəlir;

1.1.12-2. **mərkəzləşdirilmiş xərc** - büdcə təsnifatına uyğun olaraq dövlət büdcəsində nəzərdə tutulan müvafiq orqanların fəaliyyətinin və tədbirlərin maliyyələşdirilməsi ilə bağlı xərclər;

1.1.12-3. **yerli gəlir** - dövlət büdcəsində müəyyən edilən normativlər əsasında formalaşan ayrı-ayrı şəhər və rayonlar üzrə gəlir;

1.1.12-4. **yerli xərc** - büdcə təsnifatına uyğun olaraq maliyyələşdirilməsi yerli gəlirlər və mərkəzləşdirilmiş gəlirlərdən ayrılan vəsait hesabına həyata keçirilən xərclər;

1.1.13. **büdcə ssudaları** - dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə və hüquqi şəxslərə, yerli büdcələrdən bələdiyyə təşkilatlarına qaytarılmaq şərti ilə il ərzində müəyyən müddətə verilən maliyyə vəsaiti;

1.1.14. **dotasiya** - dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə onların gəlir və xərclərini tənzimləmək məqsədi ilə əvəzsiz verilən maliyyə vəsaiti;

1.1.15. **qrant** - daxili və xarici mənbələr hesabına əvəzsiz verilən məqsədli maliyyə yardımı;

1.1.16. **subvensiya** - məqsədli maliyyələşdirmənin həyata keçirilməsi üçün dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcə-

lərə verilən, lakin həmin məqsəd üçün və ya müəyyən edilmiş müddətdə istifadə edilmədikdə geri qaytarılan maliyyə vəsaiti;

1.1.17. **subsidiya** - dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə və hüquqi şəxslərə əvəzsiz verilən maliyyə vəsaiti;

1.1.18. **məqsədli büdcə fondları** - dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələrin tərkibində konkret tədbirlərin həyata keçirilməsi üçün formalaşan və istifadə edilən pul vəsaiti;

1.1.19. **sekvestr** - dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələrin gəlirləri yerinə yetirilmədikdə, müdafiə olunmuş xərc maddələri istisna olmaqla, büdcə ilinin qalan ayları üzrə xərclərin müəyyən olunmuş qaydada ixtisarı;

1.1.20. **müdafiə olunan xərc maddələri** - büdcə ili ərzində maliyyələşdirilməsinə sekvestr tətbiq olunmayan, qanunvericiliklə müəyyən edilmiş büdcə xərcləri;

1.1.21. **dövlət borcu** - müvafiq xərclərin maliyyələşdirilməsi üçün dövlət zəmanəti əsasında alınan və müəyyən olunmuş müddətlərdə qaytarılmasına öhdəlik götürülən maliyyə vəsaiti;

1.1.22. **toplu maliyyə balansı** - konkret dövr üçün ölkədə maliyyə vəsaitlərinin yaranma mənbələri və istifadə istiqamətləri barədə məlumatları özündə əks etdirən maliyyə sənədi.

1.1.23. **büdcə təşkilatı** - maliyyələşdirilməsi bilavasitə Azərbaycan Respublikasının dövlət büdcəsi və Naxçıvan Muxtar Respublikasının büdcəsi hesabına həyata keçirilən idarə və təşkilatlar;

1.1.24. **büdcənin tərtibi prosesində iştirak edən təşkilatlar** - mərkəzi və yerli icra hakimiyyəti orqanları və onların struktur bölmələri, büdcə gəlirlərinin icrasını təmin edən orqanlar, dövlət büdcəsindən maliyyələşən və (və ya) maliyyə yardımı alan təşkilatlar, büdcədənkənar dövlət fondları və vergi ödəyiciləri, zərurət yarandıqda bələdiyyələr.

**Maddə 2. Büdcə sistemi haqqında qanunvericilik**

Büdcə sistemi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikası Konstitusiyasından, bu Qanundan, bu Qanuna müvafiq olaraq hər büdcə ili üzrə qəbul edilən dövlət büdcəsi haqqında qanundan, digər qanunlardan və normativ hüquqi aktlardan, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

**Maddə 3. Büdcə sistemi**

3.1. Azərbaycan Respublikasında büdcə sistemini Azərbaycan Respublikasının dövlət büdcəsi (bundan sonra dövlət büdcəsi), Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələr təşkil edir.

3.2. Büdcə sistemi bu sistemə daxil olan büdcələrin vahid prinsiplər əsasında fəaliyyətinə və onların müstəqilliyinə əsaslanır.



3.3. Büdcə sisteminin vahidliyi tənzimləyici mədaxil mənbələrindən istifadə etmək, məqsədli büdcə fondları yaratmaq, maliyyə ehtiyatlarını müxtəlif səviyyəli büdcələr arasında bölüşdürmək vasitəsi ilə büdcələrin qarşılıqlı əlaqəsinə əsaslanır.

Büdcə sisteminin vahidliyi eyni büdcə təsnifatı, büdcə sənədləri və formalarından istifadə olunması, büdcələrin icrasına dair müntəzəm hesabatın və icmal büdcə hesabatının hazırlanması və qanunvericiliklə müəyyən olunmuş qaydada təqdim edilməsi yolu ilə təmin edilir.

3.4. Büdcələrin müstəqilliyi mövcud qanunvericiliyə uyğun olaraq mədaxil mənbələrin və vahid büdcə təsnifatı çərçivəsində xərclərin istiqamətlərini müəyyənləşdirmək hüququnun olması ilə təmin edilir.

**Maddə 4. Büdcə təsnifatı**

4.1. Azərbaycan Respublikasının büdcə sisteminə daxil olan büdcələr və büdcə təşkilatları, habelə büdcədənkənar dövlət fondları üzrə maliyyə əməliyyatlarının (o cümlədən büdcə təşkilatlarının büdcədənkənar əməliyyatlarının) müqayisəsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasında vahid büdcə təsnifatı tətbiq olunur.

4.3. Büdcə təsnifatı büdcə gəlirlərinin təsnifatından, büdcə xərclərinin funksional, iqtisadi, təşkilati və sair prinsiplər əsasında tərtib olunmuş təsnifatından ibarətdir. Büdcə təsnifatının gəlirlər, funksional, iqtisadi, təşkilati və sair üzrə tərkibi qanunvericiliklə müəyyən edilir.

**Maddə 5. Məqsədli büdcə fondları**

5.1. Məqsədli büdcə fondları dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin və yerli büdcələrin tərkib hissəsi kimi yaradıla bilər. Bu fondlar müstəqil mədaxil mənbələrinə malik ola bilərlər.

5.2. Məqsədli büdcə fondları üzrə daxilolmalar və xərclər büdcələrin gəlir və xərc hissələrində ayrıca göstərilməklə müvafiq maliyyə əməliyyatları xəzinədarlıq vasitəsi ilə həyata keçirilir.

5.3. Məqsədli büdcə fondlarının vəsaiti təyinatı üzrə istifadə olunmalıdır və onların başqa məqsədlər üçün xərclənməsinə yol verilmir.

5.4. Məqsədli büdcə fondlarının hesablarında ilin sonuna qalan vəsait onların növbəti ildə gəlirlərinə daxil edilir.

5.5. Məqsədli büdcə fondları müstəqil mədaxil mənbələrinə malik olmayaraq müvafiq büdcələrdən ayırmalar hesabına formalaşdıqda, bu fondlar həmin büdcələrin xərc hissəsində əks etdirilir. İlin sonuna fondların hesablarında qalan istifadə olunmamış vəsait maliyyələşdirmə mənbəyinə qaytarılır.

**Maddə 6. Ehtiyat fondları**

6.1. Dövlət büdcəsində, Naxçıvan Muxtar Respublikasının büdcəsində və yerli büdcələrdə nəzərdə tutulmayan xərclər, təbii fəlakət, digər fövqəladə halların

qarşısının alınması və nəticələrinin aradan qaldırılması, habelə dövlət və yerli əhəmiyyətli tədbirlərin həyata keçirilməsi üçün məbləği müəyyən edilən ehtiyat fondu yaradılır.

6.2. Ehtiyat fondunda vəsaitin həcmi növbəti büdcə ilinin gəlirinin 5 faizindən artıq olmamaqla və əvvəlki illərdə bu xərcin faktiki icrası baş verən fövqəladə halların və 6.1-ci maddədə nəzərdə tutulan digər tədbirlərin statistikası nəzərə alınmaqla müəyyən edilir.

6.3. Ehtiyat fondunun vəsaitinin istifadə müddəti büdcə ilinin sonunda başa çatır.

6.4. Ehtiyat fondunun vəsaitindən istifadə qaydaları müvafiq icra hakimiyyəti orqanı və bələdiyyələr tərəfindən təsdiq edilir.

6.5. Ölkənin sosial-iqtisadi həyatı üçün mühüm əhəmiyyət kəsb edən, lakin maliyyələşdirilməsinə vəsait nəzərdə tutulmayan tədbirlər üçün dövlət büdcəsində məbləği büdcə xərclərinin 2 faizindən çox olmamaqla Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondu yaradılır.

6.6. Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondunun vəsaiti yalnız müvafiq icra hakimiyyəti orqanının sərəncamları ilə müəyyən edilmiş xərclərin maliyyələşdirilməsinə istifadə olunur.

6.7. Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondunun vəsaiti ölkədə seçkilərin və referendumların keçirilməsinə, habelə Azərbaycan Respublikası Prezidentinin fəaliyyətinin təbliği məqsədilə xərclənə bilməz.

**Maddə 7. Müdafiə olunan xərc maddələri**

7.1. Büdcəyə daxilolmaların vəziyyətindən asılı olmayaraq iqtisadi təsnifatın aşağıdakı maddələri üzrə xərclər müdafiə olunan xərc maddələri hesab edilir və onlara sekvestr tətbiq olunmur:

7.1.1. əməkhaqqı;

7.1.2. əməkhaqqına üstəlik;

7.1.3. pensiya, başqa sosial müavinətlər və ödənişlər;

7.1.4. dövlətin daxili və xarici borclarına xidmətlə bağlı xərclər;

7.1.5. hər il üçün dövlət büdcəsi haqqında qanuna uyğun olaraq müdafiə olunması zəruri sayılan digər maddələr üzrə xərclər.

...

**Maddə 30. Yerli büdcə**

30.1. Yerli büdcə bələdiyyə statusuna uyğun olaraq özünüidarəetmə prinsiplərini reallaşdırmaq, bələdiyyələrin Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyənləşdirilmiş səlahiyyətlərini həyata keçirmək üçün formalaşan və istifadə olunan maliyyə vəsaitidir.

30.2. Yerli büdcənin tərtibi və icrası büdcə sisteminin qanunvericiliklə müəyyən edilmiş ümumi prinsipləri əsasında və Azərbaycan Respublikasında tətbiq olunan büdcə təsnifatına uyğun olaraq həyata keçirilir.



**Maddə 31. Yerli büdcənin müstəqilliyi**

31.1. Yerli büdcənin müstəqilliyi öz mədaxil mənbələrinin və bələdiyyənin yerli büdcə vəsaitinə sərəncam vermək barədə müstəsna hüququnun olması ilə təmin edilir.

31.2. Bələdiyyələrin müraciəti və qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla, qanunvericilik və icra hakimiyyəti orqanlarının bələdiyyələrin büdcə fəaliyyətinə müdaxiləsinə yol verilmir.

31.3. Bələdiyyələr maliyyə ilinin sonuna büdcədə əmələ gəlmiş sərbəst maliyyə qalıqlarına müstəqil sərəncam verirlər.

**Maddə 32. Bələdiyyələrlə dövlət hakimiyyəti orqanları arasında büdcə münasibətləri**

32.1. Bələdiyyələr yerli büdcələrin tərtibində, təsdiqində və icrasında müstəqildirlər.

32.2. Dövlətin yerli büdcələrə maliyyə dəstəyi aşağıdakı yollarla həyata keçirilir:

32.2.1. investisiya mühitini yaxşılaşdırmaqla və səmərəli iqtisadi siyasəti həyata keçirməklə istehsal və xidmət sahələrinin inkişafına şərait yaratmaq;

32.2.2. yerli sosial-iqtisadi inkişaf proqramlarını yerli büdcələrin vəsaiti hesabına maliyyələşdirmək mümkün olmadıqda, dövlət büdcəsindən dotasiya və subvensiya ayırmaq.

32.3. Qanunvericilik və icra hakimiyyəti orqanları bələdiyyələrə əlavə səlahiyyətlər həvalə etdikdə onları bu səlahiyyətlərin həyata keçirilməsi üçün zəruri maliyyə vəsaiti ilə təmin edirlər.

32.4. İcra hakimiyyəti orqanlarının qəbul etdikləri qərarlar nəticəsində yerli büdcələrin gəlirlərinin azalması və ya xərclərinin artması baş verdikdə, uyğun azalma və ya artma məbləğləri bu qərarları qəbul edən orqanlar tərəfindən kompensasiya olunur.

32.5. Bələdiyyə qanunvericiliklə nəzərdə tutulmuş qaydada yerli büdcənin icrasına dair məlumatı statistika orqanlarına və müvafiq icra hakimiyyəti orqanına təqdim edir.

**Maddə 33. Yerli büdcənin gəlirləri**

33.1. Yerli büdcənin gəlirlərinə Azərbaycan Respublikasının müvafiq qanunları ilə müəyyən edilmiş vergilər və digər ödənişlər, habelə həmin vergi və ödənişlərə görə hesablanmış faiz və sanksiyalar aid edilir.

33.2. Yerli vergi və ödənişlərin hesablanması, ödənilməsi və güzəştlərin verilməsi qaydası, habelə onların dərəcələrinin yuxarı həddi qanunla müəyyən edilir, tətbiqi qaydaları isə bələdiyyələrin qərarları ilə müəyyənləşdirilir.

33.3. Qanunvericiliklə nəzərdə tutulmuş qaydada bələdiyyələr yerli əhəmiyyətli tədbirlərin maliyyələşdirilməsi üçün könüllü birdəfəlik ödənişlər barədə qərarlar qəbul edə bilərlər. Könüllü birdəfəlik ödənişlər yalnız məqsədli təyinatı üzrə istifadə olunur.

**Maddə 34. Yerli büdcələrin xərcləri**

34.1. Yerli büdcələrin xərclərinin həcmi və istiqamətləri büdcə təsnifatına uyğun olaraq bələdiyyələr tərəfindən müəyyənləşdirilir.

34.2. Yerli büdcələrin xərclərinin öz gəlirləri ilə təmin olunmayan hissəsi (yerli büdcənin kəsiri) dövlət büdcəsindən alınan dotasiya ilə örtülə bilər.

34.3. Dövlət büdcəsindən dotasiya, subvensiya və ssuda alan yerli büdcənin xərclərinin hesablanmasında tətbiq olunan normativlər dövlət büdcəsinin xərclərinin hesablanması üçün tətbiq olunan xərc normativlərindən yüksək olmamalıdır.

34.4. Dotasiyanın yuxarı həddinin hesablanmasında bələdiyyənin ərazisində yaşayan əhalinin sayı və ölkənin maliyyə ehtiyatlarının formalaşmasında onun xüsusi çəkisi və digər amillər nəzərə alına bilər.

34.5. Əlavə səlahiyyətlərin həyata keçirilməsi üçün qanunvericilik və icra hakimiyyəti orqanları tərəfindən ayrılan məqsədli vəsait, o cümlədən subvensiya hesabına xərclərin maliyyələşdirilməsi yerli büdcənin məxaric hissəsində ayrıca sətirlə göstərilir.

**Maddə 35. Yerli büdcənin tərtibi**

35.1. Yerli büdcənin layihəsi bələdiyyə ərazisində fəaliyyət göstərən bələdiyyə müəssisələrinin və digər hüquqi şəxslərin, habelə fiziki şəxslərin təsərrüfat fəaliyyətinin qiymətləndirilməsi, sosial-iqtisadi proqnozlar və məqsədli proqramlar əsasında formalaşır.

35.2. Dövlət büdcəsindən dotasiya almaq nəzərdə tutulduqda yerli büdcənin layihəsi bu Qanunun 11.14-cü maddəsi ilə müəyyən edilən sənədlər və məlumatla birgə may ayının 1-dək müvafiq icra hakimiyyəti orqanına təqdim olunur.

35.3. Yerli büdcə layihəsinin tərtibi prosesi növbəti büdcə ilinə 11 ay qalmış başlanır və büdcə layihəsinin bələdiyyə iclasına təqdim edildiyi günədək davam edir. Yerli büdcə layihəsinin tərtibinə və bələdiyyə iclasına təqdim edilməsinə bələdiyyə sədri cavabdehdir və bu məqsədlə o, bələdiyyənin daimi və başqa komissiyalarını, bələdiyyə qulluqçularını və mütəxəssisləri cəlb edə bilər.

**Maddə 36. Yerli büdcənin müzakirəsi və təsdiqi**

36.1. Növbəti büdcə ili üçün yerli büdcə haqqında qərar layihəsi müvafiq sənədlərlə birlikdə cari ilin oktyabr ayının 15-dən gec olmayaraq bələdiyyə iclasının müzakirəsinə və təsdiqinə təqdim edilir. Yerli büdcənin layihəsi bələdiyyə iclasına təqdim edildiyi tarixdən 10 gün ərzində yerli əhalinin onunla tanış olması məqsədi ilə dərc edilir.

36.2. Növbəti büdcə ili üzrə yerli büdcənin layihəsi bələdiyyənin qərarı ilə cari ilin dekabr ayının 25-dən gec olmayaraq təsdiq edilir.

**Maddə 37. Yerli büdcənin icrası**

37.1. Yerli büdcənin kassa icrası bələdiyyənin müraciəti əsasında dövlət xəzinədarlığı vasitəsi ilə və ya qanunvericiliklə müəyyən edilmiş digər üsullarla həyata keçirilə bilər.



37.2. Bələdiyyələrin gəlir və xərc əməliyyatları onların müraciətləri əsasında dövlət xəzinədarlığı vasitəsi ilə həyata keçirildikdə uçot-hesabatın təşkili üzrə texniki xidməti dövlət xəzinədarlığı təmin edir. Bələdiyyələrin maliyyə əməliyyatları dövlət xəzinədarlığı vasitəsilə həyata keçirilmədiyi hallarda belə əməliyyatlar üzrə ödəmə və uçot-hesabat işlərinin aparılması qaydaları qanunvericiliklə müəyyən edilir.

37.3. Bələdiyyələr büdcə ilindən sonrakı ilin birinci iş günü gəlir və xərclər üzrə əməliyyatların dövlət xəzinədarlığı vasitəsilə həyata keçirilməsindən imtina edə bilərlər.

37.4. Yerli büdcələrin icrası prosesində bələdiyyələr büdcənin dəqiqləşdirilməsi barədə qərar verə və dövlət büdcəsindən alınmış məqsədli vəsait istisna olmaqla, mədaxil və məxaric maddələrində büdcə təsnifatı üzrə təsdiq edilmiş təxsisat həddində dəyişikliklər apara bilərlər.

37.5. Yerli büdcələrin icrası zamanı qəbul edilmiş öhdəliklər üzrə əməliyyatlar büdcə ili qurtardıqda başa çatır və istifadə olunmayan vəsait bələdiyyələrin sərəncamında qalır.

37.6. Bələdiyyələr maliyyə əməliyyatları apararkən bütün maliyyə qaydalarına riayət edilməsinə və maliyyə vəsaitindən təyinatı üzrə istifadə olunmasına görə məsuliyyət daşıyırlar.

37.7. Yerli büdcənin icrası haqqında illik hesabat bələdiyyələrin nizamnaməsində müəyyən edilmiş qaydada təsdiq edilir və bu barədə bələdiyyənin ərazisində yaşayan əhaliyə məlumat verilir.

**Maddə 38. Yerli büdcənin tarazlaşdırılması**

Yerli büdcələrin icrası prosesində mədaxil mənbələri üzrə daxil olan vəsait azalarsa və bu, büdcə kəsirinin son həddini aşmasına səbəb olarsa, müdafiə olunan xərc maddələri istisna olmaqla, digər xərclərə sekvestr tətbiq edilir.

**Maddə 39. Yerli büdcənin icrasına nəzarət**

39.1. Yerli büdcənin icrasına, o cümlədən sərf edilən vəsaitin təsdiq edilmiş büdcə göstəricilərinə uyğunluğuna bələdiyyə nəzarət edir və bu məqsədlə ildə bir dəfədən az olmayaraq müstəqil auditorları cəlb edir.

39.2. Qanunvericilik və icra hakimiyyəti orqanlarının bələdiyyələrə verdikləri səlahiyyətlərin yerinə yetirilməsi üçün ayırdıqları maliyyə vəsaitinin istifadəsinə nəzarəti həmin orqanlar həyata keçirirlər.

# Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

*(10 dekabr 2002-ci il, № 401-IIQ)*

...

**Maddə 6. Ekoloji təhsil və maarifləndirmə sahəsində yerli özünüidarəetmə orqanlarının hüquqları və vəzifələri**

6.0. Yerli özünüidarəetmə orqanlarının bu qanuna uyğun olaraq öz səlahiyyətləri daxilində ekoloji təhsil və maarifləndirmə sahəsində aşağıdakı hüquqları və vəzifələri vardır:

6.0.1. ərazi hüdudları daxilində ekoloji təhsilin idarə edilməsi üzrə strukturların yaradılmasında iştirak etmək;

6.0.2. qanunvericiliyə uyğun olaraq ekoloji təhsili və maarifləndirməni təşkil etmək, bu sahədə tədris fəaliyyətini həyata keçirən hüquqi şəxslər yaratmaq, dövlət və bələdiyyə təhsil müəssisələrindən, məlumat-tədris bazasından istifadə etmək;

6.0.3. əhalinin ekoloji təhsili və maarifləndirilməsi üzrə dövlət və regional proqramların işlənməsi və təkmilləşdirilməsi baxımından təkliflər irəli sürmək, qanunvericilikdə nəzərdə tutulan qaydada bu proqramların həyata keçirilməsində iştirak etmək, ekoloji təhsilin inkişafına kömək etmək.

...

**Maddə 8. Əhalinin ekoloji təhsili və maarifləndirilməsi sahəsində fəaliyyətin əlaqələndirilməsi**

8.1. Dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları əhalinin ekoloji təhsili və maarifləndirilməsinin təşkili, onun həyata keçirilməsi sahəsində öz fəaliyyətlərini əlaqələndirirlər.

8.2. Bu fəaliyyətlərin əlaqələndirilməsi məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən sahələrarası komissiya yaradılır. Bu komissiyanın fəaliyyəti həmin orqanın təsdiq etdiyi əsasnamə ilə tənzimlənir.

8.3. Sahələrarası komissiyanın tərkibinə ətraf mühitin mühafizəsi, qanunvericilik, elm, təhsil, mədəniyyət, kütləvi informasiya vasitələri, iqtisadiyyat, səhiyyə, hüquq-mühafizə və digər dövlət orqanlarının, habelə bələdiyyələrin, qeyri-hökumət təşkilatlarının nümayəndələri daxil ola bilərlər.



# Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında Azərbaycan Respublikasının Qanunu

*(27 dekabr 2002-ci il, № 412-IIQ)*

...

**Maddə 4. Hidrotexniki qurğular üzərində mülkiyyət və istismar hüququ**

4.1. Hidrotexniki qurğular dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə ola bilər.

4.2. Hidrotexniki qurğular üzərində istismar hüququ Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada əldə edilir.

...

**Maddə 8. Hidrotexniki qurğuların təhlükəsizliyinin təmin olunması sahəsində qurğu mülkiyyətçisinin və istismarçısının vəzifələri**

8.1. Hidrotexniki qurğuların təhlükəsizliyinin təmin olunması sahəsində qurğu mülkiyyətçisinin və istismarçısının vəzifələri aşağıdakılardır:

8.1.1. qurğunun tikintisi, istismara verilməsi, istismarı, təmiri, yenidən qurulması, istismardan çıxarılması və konservasiyası zamanı təhlükəsizlik norma və qaydalarına riayət edilməsini təmin etmək;

8.1.2. qurğunun istismarını mövcud qanunvericiliyə uyğun təşkil etmək, istismar heyətinin ixtisas dərəcəsinin artırılmasını təmin etmək;

8.1.3. qurğunun texniki vəziyyətinə müntəzəm nəzarət etmək, fasiləsiz monitorinq aparmaq, onların nəticələrini təhlil etmək, əldə olunmuş məlumatlar əsasında qurğuların təhlükəsizliyini, təbii və texnogen hadisələrin zərərli təsirini proqnozlaşdırmaq və qiymətləndirmək;

8.1.4. qurğuda fövqəladə vəziyyətin yarandığını xəbər verən yerli xəbərdarlıq sisteminin daim işlək vəziyyətdə olmasını təmin etmək;

8.1.5. qurğunun texniki vəziyyətinə nəzarət sistemi yaratmaq, onu daim təkmilləşdirmək və işlək vəziyyətdə olmasını təmin etmək;

8.1.6. qurğuda qəza baş verməsi ehtimalı yarandığı hallarda müvafiq icra hakimiyyəti orqanlarını, bələdiyyələri və əhalini xəbərdar etmək, baş verə biləcək qəzanın aradan qaldırılması üzrə təkliflər vermək və tədbirlər görmək;

8.1.7. qurğunun təhlükəsizliyinə mənfi təsir göstərən səbəblərin müntəzəm təhlili, onun texniki cəhətdən saz və təhlükəsiz olmasının təmin edilməsi, habelə qurğuda qəza baş verməsinin qarşısının alınması üzrə vaxtında lazımi tədbirlər işləyib həyata keçirmək;

8.1.8. qurğuda qəzanın qarşısının alınması məsələləri üzrə müvafiq icra hakimiyyəti orqanları və bələdiyyələrlə qarşılıqlı əlaqələr yaratmaq, qəza təhlükəsi və qurğunun dağılma qorxusu reallaşdıqda ərazidə məskunlaşan əhalinin və təşkilatların subasma zonasından çıxarılmasına yardım etmək;

8.1.9. dövlət nəzarət orqanları tərəfindən aşkar edilən təhlükəsizlik norma və qayda pozuntularını vaxtında aradan qaldırmaq;

8.1.10. qurğunun təhlükəsiz istismarı, qəza hadisələrinin baş verməməsi və qəzanın nəticələrinin aradan qaldırılması üçün müvafiq maliyyə və material ehtiyatları yaratmaq.

8.2. Hidrotexniki qurğunun mülkiyyətçisi və istismarçısı onun təhlükəsizliyinə öz səlahiyyətləri daxilində cavabdehdirlər.

## Konstitusiya Məhkəməsi haqqında Azərbaycan Respublikasının Qanunu

*(23 dekabr 2003-cü il, № 384-IQ)*

...

**Maddə 32. Sorğular**

32.1. Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının Prokurorluğu, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III və IV hissələrində, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) isə Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VII hissəsində nəzərdə tutulmuş məsələlərlə əlaqədar Konstitusiya Məhkəməsinə sorğu verə bilər.

32.2. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 4-cü bəndində nəzərdə tutulmuş məsələyə dair Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) sorğularına Konstitusiya Məhkəməsi tərəfindən baxılmasına aşağıdakı hallarda yol verilir:

32.2.1. tətbiq edilməli olan normativ hüquqi akt məhkəmə tərəfindən tətbiq edilmədikdə;

32.2.2. tətbiq edilməli olmayan normativ hüquqi akt məhkəmə tərəfindən tətbiq edildikdə;

32.2.3. normativ hüquqi akt məhkəmə tərəfindən düzgün şərh edilmədikdə.

32.3. Bu qanunun 32.2-ci maddəsində nəzərdə tutulmuş sorğu müvafiq məhkəmə aktının qüvvəyə mindiyi andan altı ay müddətində verilə bilər.

32.4. Sorğu Konstitusiya Məhkəməsinə yazılı şəkildə verilir. Sorğu səlahiyyətli şəxs tərəfindən, kollegial orqanın qərarı əsasında verildikdə isə onun rəhbəri tərəfindən imzalanır.

32.5. Sorğuda aşağıdakılar göstərilməlidir:

32.5.1. Konstitusiya Məhkəməsinin adı;



32.5.2. sorğuverənin adı, ünvanı;

32.5.3. nümayəndəliyin vəzifə kimi həyata keçirilməsi halları istisna olmaqla, sorğuverənin nümayəndəsi və onun səlahiyyətləri haqqında lazımi məlumatlar;

32.5.4. mübahisə olunan normativ hüquqi, məhkəmə və ya bələdiyyə aktını qəbul etmiş dövlət və ya yerli özünüidarə orqanının, yaxud səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrdə iştirak edən dövlət orqanının adı və ünvanı;

32.5.5. Konstitusiya Məhkəməsinə sorğu vermək hüququ verən və Konstitusiya Məhkəməsi tərəfindən həmin sorğuya baxılması səlahiyyətini təsdiq edən Azərbaycan Respublikası Konstitusiyasının maddələri;

32.5.6. mübahisə olunan normativ hüquqi, məhkəmə və ya bələdiyyə aktının, həmçinin şərh edilməsi xahiş olunan normativ hüquqi aktın dəqiq adı, qəbul edildiyi tarix, nömrəsi, dərc olunduğu mənbə və ona dair digər məlumatlar;

32.5.7. məsələyə dair sorğuverənin mövqeyi və Azərbaycan Respublikası Konstitusiyasının və ya digər normativ hüquqi aktlarının müvafiq normalarına istinadla onun hüquqi əsaslandırılması;

32.5.8. Konstitusiya Məhkəməsinə sorğu ilə əlaqədar ünvanlanmış xahiş;

32.5.9. sorğuya qoşulmuş sənədlərin siyahısı.

...

**Maddə 34. Şikayətlər**

34.1. Hər kəs onun hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarından, bələdiyyə və məhkəmə aktlarından Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərində göstərilən məsələlərin həll edilməsi üçün Konstitusiya Məhkəməsinə pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədi ilə şikayət verə bilər.

34.2. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 4-cü bəndində nəzərdə tutulmuş məsələyə dair şikayətlərə Konstitusiya Məhkəməsi tərəfindən baxılmasına aşağıdakı hallarda yol verilir:

34.2.1. tətbiq edilməli olan normativ hüquqi akt məhkəmə tərəfindən tətbiq edilmədikdə;

34.2.2. tətbiq edilməli olmayan normativ hüquqi akt məhkəmə tərəfindən tətbiq edildikdə;

34.2.3. normativ hüquqi akt məhkəmə tərəfindən düzgün şərh edilmədikdə.

34.3. Bu qanunun 34.2-ci maddəsində nəzərdə tutulmuş hallarda Ali Məhkəmə tərəfindən baxılmış işin faktiki hallarının yoxlanılmasına yol verilmir.

34.4. Konstitusiya Məhkəməsinə şikayət bir qayda olaraq aşağıdakı hallarda verilə bilər:

34.4.1. məhkəmə aktından şikayət vermək hüququndan tam istifadə edildikdən sonra axırıncı məhkəmə instansiyasının qərarının (Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarının) qüvvəyə mindiyi andan altı ay müddətində;

34.4.2. ərizəçinin məhkəməyə müraciət etmək hüququnun pozulduğu andan üç ay müddətində.

34.5. Hüquq və azadlıqların pozulması nəticəsində ərizəçiyə ağır və bərpaedilməz zərərin vurulmasının digər məhkəmələr vasitəsi ilə qarşısının alınması mümkün olmadıqda şikayət bilavasitə Konstitusiya Məhkəməsinə verilə bilər.

34.6. Şikayətdə aşağıdakılar göstərilməlidir:

34.6.1. Konstitusiya Məhkəməsinin adı;

34.6.2. şəxsin adı, soyadı, atasının adı, ünvanı;

34.6.3. şəxsin nümayəndəsi və onun səlahiyyətləri haqqında lazımi məlumatlar;

34.6.4. mübahisə olunan normativ hüquqi, məhkəmə və ya bələdiyyə aktını qəbul etmiş dövlət və ya yerli özünüidarə orqanının adı və ünvanı;

34.6.5. Konstitusiya Məhkəməsinə müraciət hüququ verən Azərbaycan Respublikası Konstitusiyasının və bu qanunun normaları;

34.6.6. mübahisə olunan aktın dəqiq adı, qəbul edildiyi tarix, nömrəsi, dərc olunduğu mənbə və ona dair digər məlumatlar;

34.6.7. məsələyə dair şəxsin mövqeyi və Azərbaycan Respublikası Konstitusiyasının və ya digər normativ hüquqi aktlarının müvafiq normalarına istinadla onun hüquqi əsaslandırılması;

34.6.8. Konstitusiya Məhkəməsinə şikayətlə əlaqədar ünvanlanmış xahiş;

34.6.9. şikayətə qoşulmuş sənədlərin siyahısı.

34.7. Şikayətdə aşağıdakılar əsaslandırılmalıdır:

34.7.1. mübahisə olunan normativ hüquqi, məhkəmə və ya bələdiyyə aktı ilə ərizəçinin hüquq və azadlıqlarının pozulması;

34.7.2. məhkəmə aktından şikayət vermək hüququndan tam istifadə edilməsi, məhkəməyə müraciət etmək hüququnun pozulması və ya ağır və bərpaedilməz zərərin vurulmasının digər məhkəmələr vasitəsi ilə qarşısının alınmasının mümkün olmaması.

**Maddə 35. Sorğu, müraciət və ya şikayətlərə qoşulan sənədlər**

35.1. Konstitusiya Məhkəməsinə verilən sorğu, müraciət və ya şikayətlərə aşağıdakılar qoşulur:

35.1.1. sorğu verənin, müraciət edənin və ya ərizəçinin qənaətinə görə işin hallarının aydınlaşdırılması üçün lazım olan izahatlar və sənədlər;

35.1.2. nümayəndəliyin vəzifə kimi həyata keçirilməsi halları istisna olmaqla nümayəndənin səlahiyyətini təsdiq edən etibarnamə və ya digər sənəd, habelə şəxsin Konstitusiya Məhkəməsində nümayəndə kimi çıxış etmək hüququnu təsdiq edən sənədlərin surətləri;

35.1.3. mübahisə olunan normativ hüquqi, məhkəmə və ya bələdiyyə aktının, habelə şərh edilməsi xahiş olunan normativ hüquqi aktın surəti;

35.1.4. başqa dildə verilmiş bütün sənədlərin və digər materialların Azərbaycan dilinə tərcüməsi.



35.2. Sorğu və ya müraciətə həmçinin onları təqdim edən kollegial orqanın iclasında yetərsayın olması və həmin sorğu və ya müraciətin lazımi səs çoxluğu ilə qəbul olunmasını təsdiq edən sənədlər qoşulur.

35.3. Şikayətə həmçinin məhkəmə aktından şikayət vermək hüququndan tam istifadə edilməsini və ya məhkəməyə müraciət etmək hüququnun pozulmasını təsdiq edən sənədlər qoşulur.

...

**Maddə 41. Konstitusiya məhkəmə icraatında tərəflər**

41.1. Konstitusiya məhkəmə icraatının tərəfləri sorğuverənlər və cavabverənlərdir.

41.2. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III və VII hissələrində göstərilən subyektlər konstitusiya məhkəmə icraatında sorğuverənlər ola bilərlər.

41.3. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin V hissəsində göstərilən şəxslər konstitusiya məhkəmə icraatında tərəf kimi "ərizəçilər" adlandırılır.

41.4. Konstitusiya məhkəmə icraatında aşağıdakılar cavabverən ola bilərlər:

41.4.1. mübahisə olunan normativ hüquqi, məhkəmə və ya bələdiyyə aktını qəbul etmiş müvafiq dövlət və ya yerli özünüidarəetmə orqanı;

41.4.2. mübahisə olunan Azərbaycan Respublikasının qüvvəyə minməmiş dövlətlərarası müqaviləsini və ya Azərbaycan Respublikasının hökumətlərarası müqaviləsini imzalamış vəzifəli şəxs;

41.4.3. qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü ilə bağlı güman edilən pozuntuya yol vermiş müvafiq dövlət orqanı.

41.5. Konstitusiya məhkəmə icraatında sorğuverənləri (ərizəçiləri) və cavabverənləri onların nümayəndələri təmsil edə bilərlər.

**Maddə 52. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərində, V və VII hissələrində nəzərdə tutulmuş məsələlərlə əlaqədar sorğu və ya şikayətə baxılmasının xüsusiyyətləri**

52.1. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərində, V və VII hissələrində nəzərdə tutulmuş məsələlərlə əlaqədar Konstitusiya Məhkəməsinə daxil olmuş sorğu və ya şikayət, bir qayda olaraq, 30 gün müddətində Konstitusiya Məhkəməsi palatasının iclasına çıxarılır, sorğu və ya şikayətin icraata qəbul edilməsi, yaxud icraata qəbul edilməsindən imtina edilməsi haqqında qərardad qəbul olunur.

52.2. Sorğu və ya şikayətin icraata qəbul edilməsi, yaxud icraata qəbul edilməsindən imtina edilməsi haqqında qərardad qəbul olunduğu gündən ən geci 7 gün keçənədək sorğuverənə (ərizəçiyə) göndərilir.

52.3. Sorğu və ya şikayətə Konstitusiya Məhkəməsinin Plenumunda mahiyyəti üzrə baxılması, bir qayda olaraq, onun icraata qəbul edildiyi gündən ən geci 60 gün keçənədək başlanmalıdır.

52.4. Konstitusiya Məhkəməsinin Plenumu ağır və bərpaedilməz zərər vurulmasının qarşısının alınması məqsədi ilə işin mahiyyəti üzrə qərar qəbul edilənədək mübahisə olunan normativ hüquqi aktın və ya bələdiyyə aktının icrasının dayandırılmasına dair qərar qəbul edə bilər və tərəflərə mübahisənin məhkəməyədək nizamlanmasını təklif edə bilər.

## Banklar haqqında Azərbaycan Respublikasının Qanunu

*(16 yanvar 2004-cü il, № 590-IIQ)*

**Maddə 2. Bank sistemi və onun hüquqi əsasları**

2.1. Azərbaycan Respublikasının bank sistemi Azərbaycan Respublikasının Milli Bankından (bundan sonra mətndə Milli Bank) və kredit təşkilatlarından ibarətdir.

2.2. Milli Bank dövlətin mərkəzi bankıdır və onun fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, "Azərbaycan Respublikasının Milli Bankı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, bu qanun və bunlara müvafiq olaraq qəbul edilmiş digər normativ hüquqi aktlar, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir.

2.3. Azərbaycan Respublikasında kredit təşkilatlarının fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, bu qanun, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Azərbaycan Respublikasının Milli Bankı haqqında" və "Kredit İttifaqları haqqında" Azərbaycan Respublikası qanunları, Milli Bankın bunlara müvafiq olaraq qəbul edilmiş normativ aktları, Azərbaycan Respublikasının digər normativ hüquqi aktları, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir.

2.4. Cari bank fəaliyyəti ilə bağlı qərarları qəbul edərkən kredit təşkilatları dövlət hakimiyyəti və bələdiyyə orqanlarından asılı deyildir və onlar kredit təşkilatlarının fəaliyyətinə qarışa bilməz. Kredit təşkilatları qanunla onların fəaliyyət növlərinə aid edilməyən fəaliyyəti həyata keçirməyə məcbur edilə bilməz.

2.5. Kredit təşkilatlarının və dövlətin müvafiq öhdəlik götürdüyü hallardan başqa, bütün digər hallarda kredit təşkilatları dövlətin, dövlət isə kredit təşkilatlarının öhdəlikləri üçün məsuliyyət daşımır.



**Maddə 10. İnzibatçılara dair tələblər**

10.1. Bankların, onların filiallarının, şöbələrinin, nümayəndəliklərinin və xarici bankların yerli filiallarının və nümayəndəliklərinin inzibatçıları məqbul və lazımi keyfiyyətə malik şəxslər olmalıdır.

10.2. Aşağıdakı şəxslər bankların, onların filiallarının, şöbələrinin və xarici bankların yerli filiallarının inzibatçısı ola bilməzlər:

10.2.1. maliyyə vəziyyətinin pisləşməsi və prudensial tələbləri pozmaqla əlaqədar məcburi ləğv olunmuş, yaxud müflis elan olunmuş bankda ləğvetmə və ya iflas haqqında qərarın qəbul edildiyi tarixdən əvvəlki bir il ərzində bankın fəaliyyət strategiyasının müəyyən edilməsi və qərarların qəbul edilməsi proseslərində iştirak etmiş inzibatçısı (belə şəxslər üç il ərzində başqa bankın inzibatçısı ola bilməzlər);

10.2.2. üç ildən az olmayan müddət ərzində başqası ilə əvəz edilməsi barədə Milli Bankın tələbi ilə hər hansı bankın, filialın və ya şöbənin inzibatçısı vəzifəsindən azad edilmiş şəxs (işə bərpa olunması haqqında barəsində qanuni qüvvəyə minmiş məhkəmə qərarı olan şəxslər istisna olmaqla);

10.2.3. bankın inzibatçısı hüququndan qanunla müəyyən edilmiş qaydada məhrum edilmiş şəxslər;

10.2.4. bankın digər idarəetmə orqanının (səhmdarların ümumi yığıncağı istisna olmaqla) üzvü olan şəxslər;

10.2.5. idarə heyətinin üzvləri istisna olmaqla, bankda digər vəzifə tutan şəxslər;

10.2.6. Müşahidə Şurasının üzvü üçün – üçdən çox hüquqi şəxsin və ya digər hər hansı bir bankın idarəetmə orqanlarının üzvü olan şəxslər;

10.2.7. bankın İdarə Heyətinin üzvləri, baş mühasibi (mühasibat xidmətinin rəhbəri), daxili audit bölməsinin rəhbəri, bank filialının, şöbəsinin rəhbəri və baş mühasibi üçün – başqa banklarda, xarici bankların yerli filiallarında, digər hüquqi şəxslərdə, o cümlədən banka aidiyyəti olan hüquqi şəxslərdə vəzifə tutan şəxslər (bankın payçı olduğu digər banklarda və hüquqi şəxslərdə Müşahidə Şurasının üzvü olması halları istisna olmaqla);

10.2.8. bankın inzibatçısı ilə qohumluq münasibətlərində olan şəxs – onun əri/arvadı, valideyni, o cümlədən ərinin/arvadının valideyni, babası, nənəsi, övladı, o cümlədən övladlığa götürülən, qardaşı və bacısı (bank şöbəsinin inzibatçıları istisna olmaqla);

10.2.9. dövlət hakimiyyəti və ya bələdiyyə orqanında qulluqda olan şəxslər (qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla).

10.3. İnzibatçı vəzifəsinə təyin edilmək üçün aşağıdakı tələblər gözlənilməlidir:

10.3.1. bankın Müşahidə Şurasının, Audit Komitəsinin sədri və üzvləri üçün – ali iqtisadi və ya hüquqi təhsilin, yaxud təhsilindən asılı olmayaraq maliyyə idarələrində fəaliyyət strategiyasının müəyyən edilməsi və qərarların qəbul edilməsi proseslərində iştirak etmək imkanı verən iş təcrübəsinin olması;

10.3.2. bankın İdarə Heyətinin sədri və üzvləri, habelə bankın daxili audit bölməsinin və filiallarının rəhbərləri üçün – ali iqtisadi və ya hüquqi təhsilin və

bank sistemində azı 2 illik iş stacının olması, yaxud ali təhsilin və bank sistemində azı 4 illik iş stacının olması;

10.3.3. bankın və bank filialının baş mühasibi (mühasibat xidmətinin rəhbəri) üçün – ali iqtisadi təhsilin və bankda mühasib vəzifəsində azı 2 illik iş stajının olması və ya orta ixtisas təhsilinin və mühasib vəzifəsində azı 5 illik iş stajının, o cümlədən bank sistemində azı 2 illik iş stajının olması. Bu tələblər baş mühasibin imza hüququ olan müavininə də şamil edilir;

10.3.4. bank şöbəsinin inzibatçısı üçün – ali və ya orta ixtisas təhsilinin və bank fəaliyyəti sahəsində 6 aylıq iş stajının olması.

10.4. Bank və ya yerli filialı olan xarici bank, bankın və ya xarici bankın yerli filialının inzibatçısı vəzifəsinə nəzərdə tutulan bütün təyinatlar və dəyişikliklər barəsində Milli Banka yazılı bildiriş göndərməlidir. Bildirişə müvafiq hallarda qanunun 8.2.8-ci, 9.3.10-cu və 11.3.5-ci maddələrində nəzərdə tutulan məlumatlar və sənədlər əlavə olunur. Milli Bank bildirişə dair öz münasibətini 30 təqvim günü müddətində banka və ya xarici bankın yerli filialına bildirməli, bu maddədə nəzərdə tutulan hallarda isə inzibatçıların attestasiya vaxtını təyin etməlidir. Bu müddətdə müraciətçiyə bildiriş göndərilməzsə, inzibatçının namizədliyinə müsbət baxılmış hesab olunur.

İnzibatçı vəzifəsinə nəzərdə tutulan təyinatlar qanunla müəyyən edilmiş tələblərə cavab vermədikdə Milli Bank onların dəyişdirilməsini tələb edə bilər.

Bankın İdarə Heyətinin üzvləri, daxili audit bölməsinin rəhbəri, bankın baş mühasibi (mühasibat xidmətinin rəhbəri) və onun imza hüququ olan müavinləri, habelə yerli və xarici bankların yerli filiallarının rəhbərləri və baş mühasibləri (mühasibat xidmətinin rəhbəri) və onların imza hüququ olan müavinləri Milli Bankda attestasiyadan keçirlər. Bu təyinatlara Milli Bankın müsbət rəyi alındıqdan sonra həmin inzibatçılar öz vəzifələrinin icrasına başlaya bilərlər.

Attestasiyanın keçirilməsi qaydalarını Milli Bank müəyyən edir.

10.5. Bu maddədə nəzərdə tutulan tələblər bankların və xarici bankların yerli filiallarının bütün fəaliyyət dövrünə şamil edilir.

## Ovçuluq haqqında Azərbaycan Respublikasının Qanunu

*(20 aprel 2004-cü il, № 637-IIQ)*

...

**Maddə 21. Ovçuluq təsərrüfatlarının təşkili və kateqoriyaları**

21.1. Ovçuluq təsərrüfatlarının təşkili və aparılması məqsədilə vəhşi heyvanların yaşadığı, miqrasiya etdiyi və çoxaldığı ərazilər ov yerləri kimi istifadə edilir.



21.2. Ov yerlərinə yaşayış məntəqələrinin, sənaye, təsərrüfat və hərbi obyektlərin, dövlət təbiət qoruqlarının əraziləri, milli və təbiət parklarının xüsusi mühafizənin hüquqi rejimi tətbiq olunan fəaliyyət zonaları aid edilə bilməz və bu ərazilərdə ovçuluğun həyata keçirilməsi qadağandır.

21.3. Ovçuluq təsərrüfatlarının aparılması məqsədilə ov yerləri qanunvericiliklə müəyyən edilmiş qaydada azı 10 il müddətinə hüquqi və fiziki şəxslərin istifadəsinə və ya icarəsinə verilə bilər.

21.4. Azərbaycan Respublikasında ovçuluq təsərrüfatları respublika və yerli əhəmiyyətli kateqoriyalara bölünür. Ovçuluq təsərrüfatlarının kateqoriyalara aid edilməsi və bir kateqoriyadan digərinə keçirilməsi elmi müəssisələrin və əlaqədar təşkilatların rəyi nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

21.5. Respublika əhəmiyyətli ovçuluq təsərrüfatları elmi və texniki-iqtisadi əsaslandırmaya uyğun olaraq elmi müəssisələrin və əlaqədar təşkilatların rəyi nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının qərarı ilə təşkil edilir.

21.6. Respublika əhəmiyyətli ovçuluq təsərrüfatlarını müvafiq icra hakimiyyəti orqanı idarə edir və həmin təsərrüfatlar hüquqi və fiziki şəxslərin istifadəsinə və icarəsinə verilə bilməz.

21.7. Yerli əhəmiyyətli ovçuluq təsərrüfatları elmi müəssisələrin və əlaqədar təşkilatların rəyi nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının qərarı ilə yaradılır.

21.8. Yerli əhəmiyyətli ovçuluq təsərrüfatları bütövlükdə və ya qismən, qanunvericiliklə müəyyən edilmiş qaydada bələdiyyələrin, hüquqi və fiziki şəxslərin istifadəsinə və icarəsinə verilə bilər. Yerli əhəmiyyətli ovçuluq təsərrüfatları istifadəyə və icarəyə verilərkən onların hüquqi statusu, mühafizə rejimi və məqsədli təyinatı saxlanılır.

21.9. Bələdiyyələr, hüquqi və fiziki şəxslər mülkiyyətlərində olan torpaqlarda qanunvericiliyə uyğun olaraq ov obyektlərini yetişdirib ov yerlərinə buraxmaq məqsədilə ovçuluq təsərrüfatları yarada bilərlər.

## Daşınmaz əmlakın dövlət reyestri haqqında Azərbaycan Respublikasının Qanunu

*(29 iyun 2004-cü il, № 713-IIQ)*

...

**Maddə 5. Dövlət reyestrinin açıqlığı**

5.1. Daşınmaz əmlakın təsvirini, dövlət qeydiyyatına alınmış hüquqları və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayış hüquq sahibinə, onun tərəfindən vəkil edilmiş şəxsə, hüquq sahibinin əmlakına qanun və

ya vəsiyyət əsasında vərəsəlik hüququ olan şəxslərə və qanunla nəzərdə tutulmuş səlahiyyətlərin yerinə yetirilməsi ilə əlaqədar müvafiq dövlət orqanlarına və bələdiyyələrə verilir.

5.2. Dövlət reyestrindən arayışı əldə etmək üçün qeydiyyat orqanına ərizə ilə müraciət etmiş fiziki şəxs şəxsiyyətini təsdiq edən sənədi, hüquqi şəxs isə onun dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin surətini və nümayəndəsinin səlahiyyətini təsdiq edən etibarnaməni təqdim etməlidir. Daşınmaz əmlak üzərində hüquq sahibi olmayan şəxs ərizədə arayışın əldə edilməsinin məqsədini göstərməlidir.

5.3. Qeydiyyat orqanı 5 iş günü müddətində müraciət etmiş şəxsə arayışı və ya əsaslandırılmış imtina məktubunu verməlidir.

5.4. Hüquq sahibinin sorğusuna əsasən ona məxsus olan daşınmaz əmlak haqqında qeydiyyat orqanının digər şəxslərə verdiyi arayışlar barədə məlumat sorğu verildiyi gün iş vaxtı ərzində qeydiyyat orqanı tərəfindən hüquq sahibinə verilməlidir.

5.5. Dövlət reyestrindəki məlumatlardan hüquq sahibinin qanuni mənafelərinə ziyan vuracaq üsul və formalarda istifadə edilməsi Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

## Poçt rabitəsi haqqında Azərbaycan Respublikasının Qanunu

*(29 iyun 2004-cü il, 714-IIQ)*

**Maddə 14. Poçt rabitəsi obyektlərinin yerləşdirilməsi**

14.1. Dövlət hakimiyyəti və bələdiyyə orqanları yaşayış məntəqələrinin, həmçinin yaşayış binalarının layihələşdirilməsi, tikintisi və yenidən qurulması zamanı milli operatorun poçt obyektlərinin yerləşdirilməsi üçün binaların tikintisini, binalarda yerlərin və ya torpaq sahələrinin ayrılmasını təmin etməlidir.

14.2. Milli operatorun obyektlərinin yerləşdirilməsi üçün torpaq sahələri Azərbaycan Respublikasının torpaq qanunvericiliyinə uyğun olaraq ayrılır. Avtomobil, dəmiryol stansiyalarında, hava və dəniz limanlarında, poçt mübadilə məntəqələrinin binalarının və qurğularının tikintisi üçün isə torpaq sahələri stansiya və limanların bilavasitə yaxınlığında, digər poçt obyektlərinin tikintisi üçün isə yaşayış məntəqələrinin mərkəzi hissəsində ayrılmalıdır.

14.3. Ünvan qutuları tikinti müəssisələri tərəfindən çoxmərtəbəli binaların birinci mərtəbələrində quraşdırılır. Ünvan qutularının alınması və quraşdırılması xərcləri bu evlərin tikinti xərclərinə daxil edilir.

14.4. Fərdi tikililərdə istifadəçilər poçt göndərişlərini almaq üçün ünvan qutularını öz vəsaitləri hesabına quraşdırırlar.



14.5. Çoxmərtəbəli binalarda yerləşən hüquqi şəxslər binaların birinci mərtəbəsində ünvan qutuları quraşdırır və onların yararlı vəziyyətdə saxlanılmasını təmin edir.

14.6. Mülkiyyət formasından asılı olmayaraq Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən poçt rabitəsi operatorları qanunvericilik ilə müəyyən edilmiş qaydada əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə müvafiq tədbirlər keçirilməsi üçün şərait yaratmalı, bu zaman yaranan təşkilati-texniki məsələləri həll etməli və istifadə olunan üsulları gizli saxlamalıdırlar.

## Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının Qanunu

*(29 iyun 2004-cü il, №716-IIQ)*

...

**Maddə 13. Qeyri-kommersiya təşkilatlarının maliyyə hesabatlarının tərtib edilməsi**

13.1. Bələdiyyə orqanları, büdcə təşkilatları və büdcədənkənar dövlət fondları bu qanuna əsasən tələb olunan maliyyə hesabatlarını Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun tərtib edirlər.

13.2. Qeyri-hökumət təşkilatları bu qanuna əsasən tələb olunan maliyyə hesabatlarını Qeyri-hökumət Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun tərtib edirlər.

**Maddə 14. Qeyri-kommersiya təşkilatları üçün hesabat dövrü, maliyyə hesabatlarının təqdim və dərc edilməsi qaydası**

14.1. Büdcə təşkilatları və büdcədənkənar dövlət fondlarının maliyyə hesabatlarının təqdim edilməsi, hesabat dövrləri və dərc edilməsi qaydaları mühasibat uçotu sahəsində dövlət tənzimlənməsini həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

14.2. Bələdiyyə orqanlarının maliyyə hesabatlarının təqdim edilməsi, hesabat dövrləri və dərc edilməsi qaydaları bələdiyyə tərəfindən müəyyən edilir.

14.3. Büdcə təşkilatları və büdcədənkənar dövlət fondlarının bu qanuna uyğun olaraq təqdim etdikləri maliyyə hesabatları "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının illik dövlət büdcəsi haqqında qanunları və büdcə sisteminə aid olan digər müvafiq normativ hüquqi aktlar əsasında tələb olunan maliyyə hesabatlarını əvəz etmir, onlara əlavə edilir.

14.4. Qeyri-hökumət təşkilatları üçün hesabat dövrləri bu qanunun 11-ci maddəsinə uyğun olaraq müəyyənləşdirilir.

14.5. Qeyri-hökumət təşkilatları illik maliyyə hesabatlarını bu qanunun 12-ci maddəsinin tələblərinə uyğun olaraq dərc etdirirlər.

## İctimai televiziya və radio yayımı haqqında Azərbaycan Respublikasının Qanunu

*(28 sentyabr 2004-cü il, № 767-IIQ)*

**Maddə 7. İctimai yayımçının vəzifələri**

7.0. İctimai yayımçının vəzifələri aşağıdakılardır:

7.0.1. ölkədə və dünyada baş verən mühüm hadisələr, dövlət orqanlarının, bələdiyyələrin, siyasi partiyaların, ictimai birliklərin, dini qurumların və kommersiya təşkilatlarının fəaliyyəti barədə vətəndaşların qərəzsiz və tarazlaşdırılmış informasiya almaq hüququnun həyata keçirilməsi;

7.0.2. milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyub inkişaf etdirən maarifləndirici, məlumatlandırıcı və əyləndirici proqramlar vasitəsilə vətəndaşların maraqlarının təmin olunması;

7.0.3. Azərbaycan və dünya müəlliflərinin əsərləri üzrə yüksək sənətkarlıq nümunəsi olan tamaşaların, bədii, sənədli və cizgi filmlərinin, serialların, incəsənət əsərlərinin, mühüm tarixi və mədəni tədbirlərin lentə alınması və gələcək nəsillər üçün ictimai yayımçının qızıl fondunda saxlanması;

7.0.4. hazırlanıb efirə verilən proqramlarda vətəndaşların öz fikirlərini bildirməsi üçün bərabər imkanlar yaradılması;

7.0.5. vətəndaşların cavabvermə hüququnun təmin edilməsi;

7.0.6. informasiyanın tərəfsizliyinin, qərəzsizliyinin və doğru-dürüstlüyünün təmin edilməsi;

7.0.7. pornoqrafik materialların, zorakılığı, qəddarlığı, dini və irqi ayrı-seçkiliyi təbliğ edən proqramların yayımlanmaması;

7.0.8. vətəndaşların şəxsi həyatına, şərəf və ləyaqətinə hörmətlə yanaşılması;

7.0.9. yayım zamanı peşə etikasına riayət olunması.

...

**Maddə 18. Yayım şurasının üzvlərinə verilən tələblər**

18.1. Yayım şurasının üzvləri dövlət orqanlarında və bələdiyyələrdə, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq hər hansı teleradio yayımında, reklam agentliyində işləyə bilməzlər.

18.2. Yayım şurasının üzvləri onların namizədliyini irəli sürmüş təşkilatların deyil, bütövlükdə cəmiyyətin maraqlarının müdafiəçisi kimi çıxış edirlər.

18.3. Yayım şurasının üzvləri ictimai yayımçının müstəqilliyinə zərər vuran bəyanatlar verə və ya öz vəzifələrindən siyasi, kommersiya, yaxud şəxsi məqsədlər üçün istifadə edə bilməzlər.



18.4. Yayım şurasının üzvləri teleradio, mətbuat, informasiya, mədəniyyət, maliyyə, teletexnika və digər aidiyyəti sahə üzrə iş təcrübəsi olan ali təhsilli Azərbaycan Respublikası vətəndaşlarından seçilir.

## Azərbaycan Respublikasının Milli Bankı haqqında Azərbaycan Respublikasının Qanunu

*(10 dekabr 2004-cü il, № 802-IIQ)*

...

**Maddə 20. Milli Bankın təşkilati strukturu**

20.1. Milli Bankın təşkilati strukturuna İdarə Heyəti, mərkəzi aparat, ərazi idarələri daxildir. Milli Bankın mərkəzi aparatı daxili audit bölməsindən, habelə İdarə Heyətinin müəyyən etdiyi digər struktur bölmələrdən ibarətdir.

20.2. Milli Bankın mərkəzi aparatına daxil olan bütün struktur bölmələri və qurumları İdarə Heyəti tərəfindən təsdiq edilmiş əsasnamələrə uyğun olaraq fəaliyyət göstərir.

**Maddə 21. Milli Bankın İdarə Heyəti**

21.1. Milli Bank İdarə Heyəti tərəfindən idarə olunur. Milli Bankın İdarə Heyətinin tərkibi yeddi nəfərdən ibarətdir. İdarə Heyətinin tərkibinə sədr, Milli Bankda daimi əsaslarla işləyən dörd üzv və iki kənar üzv daxildir.

21.2. İqtisadiyyat və ya hüquq sahəsində ali təhsilə, iqtisadiyyat, hüquq, maliyyə və ya bank sahəsi üzrə peşəkar təcrübəyə malik olan, mülkiyyət əleyhinə, iqtisadi fəaliyyət sahəsində, qulluq mənafeyi əleyhinə, habelə ağır və xüsusilə ağır cinayətlərə görə məhkum olunmayan, habelə xarici dövlətlərin qarşısında heç bir öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşları İdarə Heyətinin üzvləri ola bilərlər.

21.3. Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin üzvləri, bələdiyyələrin seçkili üzvləri, habelə dövlət hakimiyyəti və ya bələdiyyə orqanında qulluqda olan şəxslər eyni zamanda Milli Bankın İdarə Heyətinin üzvləri ola bilməzlər.

Milli Bankın İdarə Heyətinin üzvləri Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 10-cu bəndinə, 95-ci maddəsinin I hissəsinin 15-ci bəndinə və II hissəsinə müvafiq olaraq vəzifəyə təyin və vəzifədən azad edilirlər.

# İpoteka haqqında Azərbaycan Respublikasının Qanunu

*(15 aprel 2005-ci il)*

**Maddə 49. İpoteka predmeti ola bilən torpaq sahələri**

49.1. Hüquqi və fiziki şəxslərin mülkiyyətində olan torpaq sahələri ipoteka qoyula bilər.

49.2. Yaşayış məntəqələrində ümumi istifadədə olan torpaqlar, habelə torpaq qanunvericiliyinə uyğun olaraq ipotekasına yol verilməyən digər sahələr istisna olmaqla, dövlət və ya bələdiyyə mülkiyyətində olan torpaq sahələri ipoteka predmeti ola bilər.

49.3. Kənd təsərrüfatı təyinatlı torpaqların ipotekasına kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, habelə torpaq qanunvericiliyinə uyğun olaraq bu kateqoriya torpaqların məqsədli istifadəsi ilə bağlı yaranan öhdəliklərin təmin edilməsi üçün yol verilir.

...

**Maddə 56. Yaşayış evlərinin və mənzillərin ipotekası haqqında müddəaların tətbiqi**

56.1. Xüsusi mülkiyyətdə olan fərdi və çoxmənzilli yaşayış evləri, habelə mənzillər ipoteka predmeti ola bilər.

56.2. Dövlət və ya bələdiyyə mülkiyyətində olan yaşayış evlərinin və mənzillərin ipotekasına yol verilmir.

56.3. Mehmanxanalar, istirahət evləri, bağ evləri və bu kimi başqa tikililər və binalar ümumi əsaslarla ipoteka predmeti ola bilər. Yaşayış evlərinin (mənzillərinin) ipotekası üçün müəyyən edilən qaydalar onlara şamil edilmir.

# Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında Azərbaycan Respublikasının Qanunu

*(3 may 2005-ci il, № 904-IIQ)*

...

**Maddə 11. Qanın, qan komponentlərinin tədarükü, emalı, saxlanması və bölüşdürülməsi**

11.1. Beynəlxalq standartlara, sanitar-gigiyenik norma və tələblərə əməl edilməklə qanın, qan komponentlərinin tədarükü, emalı, saxlanması və bölüşdürülməsini müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş qaydada dövlət qan xidməti müəssisələri (qan bankları) həyata keçirir. Qanın, qan komponentlərinin tədarükü və xəstəxanadaxili qanköçürmə ilə bağlı xidmətləri bələdiyyə tibb müəssisələri də həyata keçirə bilər.

11.2. Qanın, qan komponentlərinin tədarükü, emalı, saxlanması və bölüşdürülməsi ilə məşğul olan qan xidməti müəssisələrinin (qan banklarının) siyahısını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

11.3. Qan xidməti müəssisələrinin (qan banklarının) vəzifəli şəxsləri qanın, qan komponentlərinin və preparatlarının tədarükündə, emalında, saxlanmasında və bölüşdürülməsində yol verilmiş pozuntulara görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məsuliyyət daşıyırlar.

# Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında Azərbaycan Respublikasının Qanunu

*(3 may 2005-ci il, № 905-IIQ)*

...

**Maddə 6. İrsi qan xəstəliyi olan şəxslərin müayinəsi və müalicəsi üzrə tədbirlərin maliyyələşdirilməsi**

6.1. İrsi qan xəstəliyi olan şəxslərin dövlət tibb müəssisələrində müayinə və müalicəsi dövlət büdcəsi vəsaiti hesabına maliyyələşdirilir.

6.2. İrsi qan xəstəliyi olan şəxslərin müayinəsi və müalicəsi ilə bağlı tədbirlər bələdiyyələrin vəsaitləri, məcburi tibbi sığorta haqları, hüquqi və fiziki şəxslərin ianələri, eləcə də qanunvericiliklə qadağan olunmayan digər vəsaitlər hesabına həyata keçirilə bilər.

**Maddə 7. İrsi qan xəstəliyi olan şəxslərin hüquqları**

7.0. *İrsi qan xəstəliyi olan şəxslərin aşağıdakı hüquqları vardır:*

7.0.1. tibbi göstərişlər əsasında ambulator, stasionar və ya sanatoriya-kurort şəraitində tibbi yardım almaq;

7.0.2. sağlamlığının vəziyyəti, xəstəliyin mahiyyəti, tətbiq olunan müalicə üsulları, aparılmış müalicənin nəticələri haqqında ətraflı və müntəzəm məlumat almaq;

7.0.3. ailənin planlaşdırılması məsələlərinə və ailə-nikah münasibətlərinin tibbi-psixoloji cəhətlərinə dair, habelə nəsildə mümkün olan irsi xəstəliklərə yol verməmək məqsədilə dövlət və bələdiyyə tibb müəssisələrində pulsuz məsləhətlər almaq, müayinədən keçmək və dispanser nəzarətində olmaq;

7.0.4. Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə müəyyən edilən işçinin səhhətinə, sağlamlığına mənfi təsir göstərən amillər olan ağır, zərərli və təhlükəli əmək şəraitli peşələr (vəzifələr) və iş yerləri istisna olmaqla, istənilən iş yerlərində işləmək;

7.0.5. qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada xüsusi təhsil almaq.

## Baytarlıq haqqında Azərbaycan Respublikasının Qanunu

*(31 may 2005-ci il, № 922-IIQ)*

...

**Maddə 10. Bələdiyyələrin baytarlıq sahəsində hüquqları**

10.1. Bələdiyyələr tərəfindən yaradılmış hüquqi şəxslər bu qanunun 27.1-ci maddəsində nəzərdə tutulmuş qaydada baytarlıq təbabəti ilə məşğul ola bilərlər.

10.2. Dövlət baytarlıq xidməti bu qanunun 20-ci maddəsində nəzərdə tutulmuş baytarlıq tədbirlərinin həyata keçirilməsində köməklik göstərilməsi üçün bələdiyyələri cəlb edə bilər. Bu zaman bələdiyyələr müvafiq tədbirlərin keçirilməsi məqsədilə öz vəsaitləri hesabına məqsədli fondlar yarada və yerli büdcədən vəsait ayıra bilərlər.

...

**Maddə 28. Özəl baytarlıq təbabəti müəssisələrinin fəaliyyəti**

28.1. Özəl baytarlıq təbabəti müəssisələri və bələdiyyələr tərəfindən yaradılan hüquqi şəxslər dövlət baytarlıq nəzarətinin səlahiyyətinə aid olan məsələlərdən başqa, qanunvericiliklə müəyyən edilmiş qaydada baytarlıq təbabəti sahəsində digər fəaliyyət növləri ilə məşğul ola bilərlər.

28.2. Özəl baytarlıq təbabəti müəssisələri zəruri hallarda müvafiq icra hakimiyyəti orqanlarının qərarı ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilən baytarlıq tədbirlərinə həmin özəl baytarlıq təbabəti müəssisələrinin razılığı əsasında cəlb edilə bilərlər.

28.3. Özəl baytarlıq təbabəti müəssisələri qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanının müvafiq ərazi bölməsində uçota durduqdan sonra fəaliyyət göstərə bilərlər.

## Ailə kəndli təsərrüfatı haqqında Azərbaycan Respublikasının Qanunu

*(14 iyun 2005-ci il, № 926-IIQ)*

...

**Maddə 5. Ailə kəndli təsərrüfatının uçotu**

5.1. Ailə kəndli təsərrüfatının uçotunun aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

5.2. Ailə kəndli təsərrüfatının uçotunu müvafiq ərazilər üzrə bələdiyyələr aparır. Bələdiyyələr tərəfindən ailə kəndli təsərrüfatının üzvlərinə onların statusunu, əmək fəaliyyətini və əmək stajını təsdiq edən, forması və verilmə qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən vəsiqə verilir. Vəsiqənin verilməsi üçün haqq ödənilmir.

5.3. Ailə kəndli təsərrüfatının dövlət qeydiyyatına alınması tələb olunmur.

**Maddə 6. Ailə təsərrüfatının əmlakı**

6.1. Təsərrüfat fəaliyyətini həyata keçirmək üçün ailə kəndli təsərrüfatının əmlakı onun mülkiyyətində və ya icarəsində olan torpaq sahələri, tikililər, qurğular və digər istehsal və qeyri-istehsal vasitələri, mal-material qalıqları, pul vəsaiti və başqalarından ibarətdir.

6.2. Ailə kəndli təsərrüfatının istifadə etdiyi əmlak qanunvericiliyə uyğun olaraq təsərrüfat üzvlərindən birinin mülkiyyətində, üzvlərin ümumi paylı və ümumi birgə mülkiyyətində və ya içərisində ola bilər.

6.3. Müvafiq yaşayış məntəqəsində daimi yaşayan və qeydiyyatda olan torpaq payı almamış vətəndaşlar və istefaya çıxmış hərbi qulluqçular dövlət və bələdiyyə torpaqlarından qanunvericiliyə uyğun qaydada istifadə etməklə ailə kəndli təsərrüfatı kimi fəaliyyət göstərmək istədikdə torpağı icarəyə götürməkdə və ya satın almaqla üstünlük hüququna malikdirlər.

6.4. Ailə kəndli təsərrüfatının əmlakının və torpaq sahəsinin dövriyyəsi Azərbaycan Respublikasının mülki və torpaq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

6.5. Ailə kəndli təsərrüfatında əmlakın istifadəsindən əldə edilən fayda (gəlir, artım, bəhər və başqa formalarda) təsərrüfat üzvlərinin ümumi birgə mülkiyyətidir və qanunvericilikdə və ya müqavilədə nəzərdə tutulan qaydada təsərrüfat başçısı tərəfindən bölünür.

...

**Maddə 8. Ailə kəndli təsərrüfatının vəzifələri**

8.1. Ailə kəndli təsərrüfatının vəzifələri aşağıdakılardır:

8.1.1. torpaq sahəsinin məqsədli təyinatına və hüquqi rejiminə uyğun olaraq səmərəli istifadə olunmasını təmin etmək;

8.1.2. torpaqların münbitliyini təmin edən müvafiq aqrotexniki, iqtisadi və təşkilati tədbirləri həyata keçirmək;

8.1.3. torpaq, su, meşə və ətraf mühitin mühafizəsi haqqında qanunvericilik aktlarının tələblərinə riayət etmək;

8.1.4. qanunla müəyyən edilmiş vergiləri, məcburi dövlət sosial sığorta haqlarını və digər ödənişləri vaxtında ödəmək;

8.1.5. istehsal etdiyi məhsulların, gördüyü iş və xidmətlərin keyfiyyətinə dair sanitariya, ekoloji və digər tələblərə, standartlara əməl etmək;

8.1.6. fəaliyyət göstərdiyi yaşayış məntəqəsinin müvafiq bələdiyyəsində uçota durmaq;

8.1.7. müvafiq icra hakimiyyəti orqanlarının və bələdiyyələrin öz səlahiyyətləri daxilində onların fəaliyyətinə aid qanunvericiliyə uyğun tələblərini yerinə yetirmək;

8.1.8. öz fəaliyyəti haqqında qanunvericiliklə müəyyən olunmuş hallarda və qaydada müvafiq icra hakimiyyəti orqanlarına və bələdiyyələrə hesabatlar təqdim etmək;

8.1.9. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

8.2. Ailə kəndli təsərrüfatının üzvləri bu maddədə göstərilən vəzifələri yerinə yetirmədikdə müvafiq qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Maddə 9. Ailə kəndli təsərrüfatı ilə dövlət orqanları və bələdiyyələrin qarşılıqlı münasibətləri**

9.1. Ailə kəndli təsərrüfatı ərazinin iqtisadi və sosial inkişafını təmin edən sahəvi və regional proqramların hazırlanması və həyata keçirilməsində dövlət orqanları və bələdiyyələr ilə könüllü olaraq qarşılıqlı fəaliyyət göstərə bilər.

9.2. Dövlət orqanlarının və bələdiyyələrin qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla ailə kəndli təsərrüfatının fəaliyyətinə müdaxilə etmələrinə yol verilmir.

9.3. Müvafiq dövlət orqanlarının və bələdiyyələrin öz səlahiyyətləri daxilində ailə kəndli təsərrüfatından qanunvericiliyə əməl etməsini tələb etmək hüququ vardır.

9.4. Ailə kəndli təsərrüfatının illik dövriyyəsinin yuxarı həddi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi miqdarı keçdikdə, o, sahibkarlıq fəaliyyətinin subyekti kimi fəaliyyət göstərir.

**Maddə 10. Ailə kəndli təsərrüfatına dövlət orqanlarının və bələdiyyələrin himayəsi**

10.1. Ailə kəndli təsərrüfatına dövlət himayəsi digər təsərrüfatçılıq subyektləri üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulan qaydada şamil edilir.

10.2. Müvafiq icra hakimiyyəti orqanları və bələdiyyələr müvafiq proqramlar çərçivəsində ailə kəndli təsərrüfatının dəstəklənməsinə maliyyə vəsaiti nəzərdə tuta bilərlər və öz səlahiyyətləri daxilində ailə kəndli təsərrüfatının inkişafı üçün aşağıdakı istiqamətlərdə kömək göstərə bilərlər:

10.2.1. istehsal və sosial infrastrukturun formalaşması və yerlərdə ailə kəndli təsərrüfatına xidmət edən tədarük, emal, ticarət və təchizat təşkilatları şəbəkəsinin təşkili və inkişaf etdirilməsinin stimullaşdırılması;

10.2.2. aqroservis, aqrokimyəvi, zoobaytarlıq və digər xidmətlərin təşkilinin, həmçinin toxum, əkin materialı, cins mal-qara və quş, avadanlıq və ləvazimat ilə təminatının, mütərəqqi texnika və texnologiyaların tətbiqinin dəstəklənməsi, ekoloji təmiz istehsalın təşviqi;

10.2.3. ailə kəndli təsərrüfatına güzəştli kreditlərin verilməsinin və lizinq xidməti göstərilməsinin dəstəklənməsi;

10.2.4. ailə kəndli təsərrüfatında məşğulluğun artırılmasını təmin edən xalq sənətkarlığının, yaşıl turizmin, ənənəvi və qeyri-kənd təsərrüfatı fəaliyyət sahələrinin inkişaf etdirilməsinin dəstəklənməsi;



10.2.5. ailə kəndli təsərrüfatı üzvlərinə elmi və informasiya-məsləhət xidməti göstərilməsinin, onların peşə hazırlığı və yenidən hazırlığının təşkili;

10.2.6. nailiyyətlərin nümayişi, öyrənilməsi və tətbiqinin genişləndirilməsi məqsədilə müsabiqələrin, sərgilərin, seminarların və təcrübə mübadiləsinin təşkil edilməsi;

10.2.7. ailə kəndli təsərrüfatına istehsal etdiyi məhsulları şəhər və rayon mərkəzlərində maneəsiz satmaq üçün ödənişsiz əsasda daimi satış yerlərinin ayrılması, həftəlik və mövsümi sərgi-yarmarkaların təşkil edilməsi;

10.2.8. ailə kəndli təsərrüfatının kooperasiya əlaqələrinin təşviqi;

10.2.9. daxili bazarın monitorinqinin aparılması və haqsız rəqabətin qarşısının alınması və digər istiqamətlərdə.

...

**Maddə 14. Mübahisələrin həlli**

Ailə kəndli təsərrüfatının fəaliyyəti ilə bağlı mübahisəli məsələlər öz səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanları və bələdiyyələr tərəfindən və ya məhkəmə qaydasında həll olunur.

## Telekommunikasiya haqqında Azərbaycan Respublikasının Qanunu

*(14 iyun 2005-ci il, № 927-IIQ)*

...

**Maddə 44. Telekommunikasiya şəbəkələri və vasitələri üzərində mülkiyyət hüququ**

44.1. Telekommunikasiya şəbəkələri, qurğuları və vasitələri dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə ola bilər.

44.2. Dövlət, mülkiyyət formasından asılı olmayaraq, operatorlar, provayderlər üçün bərabər hüquqi şərait yaradır.

44.3. Dövlət mülkiyyətində olan telekommunikasiya şəbəkələri, qurğuları və vasitələrinin təsnifatı normativ hüquqi aktlarla müəyyən edilir.

...

**Maddə 46. Telekommunikasiya ehtiyacları üçün torpaqdan və digər daşınmaz əmlakdan istifadə**

46.1. Telekommunikasiya şəbəkələri, vasitələri və qurğuları qanuna uyğun olaraq dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlarda yerləşdirilə bilər.

46.2. Torpaq sahələrinin ayrılması, mühafizə zona və zolaqlarının müəyyənləşdirilməsi qaydaları, onlardan istifadə müvafiq qanunvericilik aktları ilə müəyyən edilir.

46.3. Telekommunikasiya fəaliyyəti üçün fiziki və hüquqi şəxslərə verilən torpaq sahələrinin, o cümlədən mühafizə zona və zolaqlarının ölçüsü bu fəaliyyət növü üçün torpaq ayrılması normalarına və layihə-texniki sənədlərə müvafiq olaraq müəyyənləşdirilir.

46.4. Yaşayış məntəqələrinin yenidənqurulması, ayrı-ayrı binaların, yolların, körpülərin təmiri, meliorasiya işlərinin görülməsi, faydalı qazıntı yataqlarının emalı zamanı və bu kimi digər hallarda telekommunikasiya qurğularının köçürülməsi və ya yenidənqurulması sifarişçinin vəsaiti hesabına, mövcud standartlara və telekommunikasiya şəbəkəsinin mülkiyyətçisinin texniki şərtlərinə uyğun şəkildə həyata keçirilir.

46.5. Azərbaycan Respublikasının sərhədyanı ərazilərində, o cümlədən sərhəd çaylarında, Xəzər dənizinin (gölünün) Azərbaycan hissəsində telekommunikasiya vasitələrinin və qurğularının tikintisi, istismarı və qəza bərpa işlərinin aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilir.

46.6. Telekommunikasiya şəbəkələrinin və qurğularının layihələşdirilməsi, tikintisi, təmiri, yenidənqurulması, quraşdırılması və yerdəyişməsi müvafiq dövlət və sahə standartlarına, müəyyən edilmiş norma və qaydalara uyğun olaraq həyata keçirilir.

## Aviasiya haqqında Azərbaycan Respublikasının Qanunu

*(24 iyun 2005-ci il, № 944-IIQ)*

...

**Maddə 9. Hava limanları və aerodromlar**

9.1. Bu maddənin ikinci hissəsində nəzərdə tutulan hallar istisna olmaqla, hava limanları və aerodromlar dövlət, bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə ola bilər.

Beynəlxalq və hərbi aerodromlar strateji əhəmiyyətli obyektlər hesab olunur və dövlət mülkiyyətindədir.

9.2. Dövlət mülkiyyətində olan hava limanı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada idarə və istifadə olunur, təsdiq etdiyi planlara uyğun inkişaf etdirilir.

9.3. Müvafiq icra hakimiyyəti orqanı bütün hava limanlarını və mülki aerodromları aşağıdakı tələblərə uyğunluq baxımından sertifikatlaşdırmalıdır:

9.3.1. sertifikatlaşdırma üçün ərizə təqdim edən şəxs hava limanının mülkiyyətçisi, icarəçisi və ya istifadəçisidir;

9.3.2. hava limanının fiziki xarakteristikası və onun köməkçi əyani vasitələri, habelə yanaşı ərazisi, binalar, obyektlər və onların nişanlanması hava limanından istifadə üçün nəzərdə tutulan hava gəmilərinin kateqoriyaları üçün müvafiq beynəlxalq tələblərə uyğundur;

9.3.3. naviqasiya və enmə vasitələri, telekommunikasiya xidməti vasitələri və hava limanının elektrik təchizatı sistemi hava limanından istifadə şəraitinə adekvatdır;

9.3.4. hava limanında hərəkətinin idarə edilməsi və əlaqədar xidmətlər göstərilməsi bu qanunun 8-ci maddəsinə uyğun olaraq həyata keçirilir;

9.3.5. hava limanında göstərilən meteoroloji xidmətlər müvafiq icra hakimiyyəti orqanının tələblərinə uyğundur;

9.3.6. hava limanının aviasiya təhlükəsizliyi proqramı bu qanunun 43.2-ci maddəsinə uyğun təsdiq edilmişdir;

9.3.7. hava limanında fövqəladə hallar ehtimalı üçün təsdiq edilmiş tədbirlər planı mövcuddur;

9.3.8. müvafiq yanğınsöndürmə və xilasetmə bölmələri yaradılmışdır;

9.3.9. ərizəçi hava limanında uçuşların təhlükəsizliyinə müsbət təsir edən xidmətlərin təmin edilməsi işlərinin təşkili səviyyəsini xarakterizə edən yazılı izahat təqdim etmişdir;

9.3.10. hava hərəkəti üçün təhlükə yarada biləcək hündür binaların və digər obyektlərin inşasının, yanlışlığa səbəb ola biləcək işıqlandırmaların qarşısının alınması üçün müvafiq icra hakimiyyəti orqanları ilə əlaqələndirilməklə, adekvat nəzarət təmin edilmişdir.

Sertifikatlaşdırma ilə əlaqədar uçuşların təhlükəsizliyi və ya aviasiya təhlükəsizliyi üçün tələb olunduqda, hava limanından istifadə edilməsinə dair rəsmi göstərişlər verilə və məhdudiyyətlər qoyula bilər.

Sertifikatlaşdırma nəticəsində hava limanına uyğunluq sertifikatı verilir.

9.4. Hava limanının uyğunluq sertifikatını verən müvafiq icra hakimiyyəti orqanı aviasiyaya yerüstü xidmətlər göstərən şəxslərin səriştəsini təsdiq edən, uçuşların təhlükəsizliyi və ya aviasiya təhlükəsizliyi üçün zəruri olan sənədləri tələb edə bilər. Belə hallarda müvafiq icra hakimiyyəti orqanı zəruri səriştənin meyarlarını müəyyən edir. Hava limanının uyğunluq sertifikatının sahibi yerüstü xidmətləri təmin edən şəxsin səlahiyyətlərinə əmin olduqdan sonra müvafiq səriştənin mövcudluğunu təsdiq edən sənədi təqdim edir.

9.5. Bu qanunun 31.4-cü maddəsi hava limanlarında və digər yerüstü bölmələrdə aviasiyaya xidmət göstərən şəxslərə də şamil edilir.

9.6. Hava limanının uyğunluq sertifikatını verən müvafiq icra hakimiyyəti orqanı sertifikatlaşdırılmış hava limanlarına, beynəlxalq və milli aviasiya üçün yerüstü xidmət vasitələrinə və xidmətlərə nəzarət edir, yoxlamalar aparır. Bu məqsədlə müvafiq icra hakimiyyəti orqanına bütün müvafiq xidmət vasitələrindən, həmin xidmət vasitələrini təqdim edən və xidmət göstərən təşkilatların bütün sənədlərindən (məlumatlarından) sərbəst istifadə etmək imkanı verilir.

9.7. Uyğunluq sertifikatına malik olan hava limanının müvafiq tələblərə cavab vermədiyi aşkar edildikdə, həmin sertifikatı vermiş müvafiq icra hakimiyyəti or-

qanı uçuşların təhlükəsizliyinə və aviasiya təhlükəsizliyinə xələl gətirməmək şərtilə, hava limanının sahibinə çatışmazlıqların aradan qaldırılması üçün müddət müəyyən edir. Zəruri halda bu müddət ərzində hava limanı üçün müvafiq məhdudiyyətlər müəyyən edilə bilər.

Əgər aşkar edilmiş çatışmazlıqlar müəyyən edilmiş müddət ərzində aradan qaldırılmazsa, müvafiq icra hakimiyyəti orqanı verdiyi sertifikatı ləğv edə bilər.

9.8. Bütün mülki, eksperimental aerodromlar və dövlət aerodromları müvafiq icra hakimiyyəti orqanları tərəfindən aparılan aerodromların dövlət reyestrində qeydiyyata alınmalıdır.

Birgə bazalı aerodromlar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınır.

9.9. Müəyyən aerodromyanı ərazinin hüdudlarında şəhərlərin və digər yaşayış məntəqələrinin layihələşdirilməsində, inşa və inkişafında, habelə sənaye, kənd təsərrüfatı və digər obyektlərin inşasında və yenidən qurulmasında hava gəmiləri uçuşlarının təhlükəsizlik tələblərinə riayət olunmalı, əhalinin sağlamlığına və təşkilatların fəaliyyətinə zərərli və fiziki təsirin mümkünlüyü nəzərə alınmalı və müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmalıdır.

9.10. Müvafiq icra hakimiyyəti orqanları hava limanlarına (aerodromlara) gedən yolların inşasını, yenidən qurulmasını, abadlaşdırılmasını və istismarını, bu yollarda sərnişin nəqliyyatının müntəzəm hərəkətini, habelə şəhərlərin və digər yaşayış məntəqələrinin hava limanları ilə telefon rabitəsini təmin edir.

## Teatr və teatr fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu

*(29 dekabr 2006-cı il)*

...

**Maddə 18. Teatrların idarə edilməsi, yaradılması, yenidən təşkili və ləğv olunması**

18.1. Teatrların fəaliyyətinə rəhbərlik qanunvericilikdə və təsis sənədlərində nəzərdə tutulan qaydada təsisçinin vəzifəyə təyin etdiyi direktor tərəfindən həyata keçirilir.

18.2. Teatrlar dövlət, bələdiyyələr, istənilən hüquqi və fiziki şəxslər tərəfindən təsis edilə bilər.

18.3. Təsisçi (mülkiyyətçi) ilə teatr arasında münasibətlər qanunvericilikdə müəyyən edilmiş qaydada tənzimlənir.

18.4. Təsisçi (mülkiyyətçi) ilə teatr arasında bağlanmış müqavilədə tərəflərin öhdəlikləri, əmlakdan istifadənin şərtləri və qaydaları, teatrın maliyyələşdirilməsi, tərəflərin maddi məsuliyyəti, müqavilənin ləğv edilməsinin əsasları və şərtləri, sosial, əmək və digər məsələlərin həlli qaydaları müəyyən edilə bilər.



18.5. Teatrların yaradılması, yenidən təşkili, ləğvi və profilinin dəyişdirilməsi qanunvericilikdə müəyyən olunmuş qaydada həyata keçirilir.

18.6. Teatrların əmlak hüquqlarının həyata keçirilməsi, onların əmlakının idarə olunmasına nəzarət qanunvericiliklə müəyyən edilir.

**Maddə 19. Teatrların maliyyələşdirilməsi**

19.1. Dövlət teatrları tamaşalardan və qanunvericiliklə qadağan olunmayan başqa mənbələrdən daxilolmalar, eləcə də dövlət büdcəsindən ayrılan vəsait hesabına maliyyələşdirilir. Dövlət büdcəsindən ayrılan vəsait işçilərin əməkhaqları və sosial sığorta ayırmalarının həcmindən, eləcə də yeni tamaşaların quruluşu xərclərindən az olmamalıdır.

19.2. Bələdiyyə və özəl teatrlar qanunvericiliklə qadağan olunmayan istənilən mənbələrdən daxil olan vəsaitlər hesabına maliyyələşdirilir.

19.3. Dövlət orta və peşə ixtisas təhsili müəssisələrində aktyorların, rejissorların, baletmeysterlərin, teatr tənqidçilərinin, teatr sənəti üzrə digər mütəxəssislərin hazırlanması, elmi-tədqiqat müəssisələrində teatr sənəti üzrə tədqiqatların aparılması dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

...

**Maddə 21. Teatr işçilərinin sosial müdafiəsi**

21.1. Teatr işçiləri qanunvericilikdə nəzərdə tutulmuş qaydada əmək pensiyası hüququna malikdirlər.

21.2. Dövlət orqanları və bələdiyyələr müvafiq büdcə vəsaitləri və qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına teatr işçilərinin maddi təminatını yaxşılaşdırmaq üçün tədbirlər həyata keçirə bilərlər.

21.3. Teatr işçiləri bədbəxt hadisələrdən və peşə xəstəliklərindən qanunvericiliklə müəyyən edilmiş qaydada icbari şəxsi sığorta olunurlar.

## Atçılıq haqqında Azərbaycan Respublikasının Qanunu

*(27 fevral 2007-ci il)*

...

**Maddə 14. Atçılıq təsərrüfatlarının yaradılması və növləri**

14.1. Atçılıq təsərrüfatları hüquqi və fiziki şəxslər tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada yaradılır.

14.2. Atçılıq təsərrüfatlarının əsas növlərinə atçılıq zavodları, damazlıq atçılıq reproduktorları, atçılıq fermaları, cıdır meydanları (ippodromlar), atçılıq idman və jokey klubları, atların süni mayalandırılması və embrionlarının transplantasiyası

mərkəzləri, immunogenetik ekspertiza və dopinq nəzarəti laboratoriyaları, müxtəlif at cinsləri üzrə ictimai birliklər, qanunvericiliklə müəyyən edilmiş digər subyektlər daxildir.

14.3. Atçılıq təsərrüfatları dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə ola bilər.

14.4. Atçılıq təsərrüfatları zootexniki normalara uyğun torpaq, örüş və otlaq sahələrinə, su obyektlərinə, tövlə və köməkçi binalara, maşın, avadanlıq və qurğulara malik olmalıdır.

## Sığorta fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu

*(25 dekabr 2007-ci il)*

**Maddə 80. Sığortaçının nizamnamə kapitalı**

80.1. Sığortaçı olmaq üçün təsis edilən hüquqi şəxs dövlət qeydiyyatına alınanadək onun nizamnamə kapitalı tələb olunan kapitalın sığorta nəzarəti orqanı tərəfindən müəyyən olunmuş minimum məbləğindən az olmayan hissəsində pul ilə ödənilməlidir.

80.2. Sığortaçının nizamnamə kapitalının formalaşdırılması üçün kredit və ya borc şəklində cəlb olunmuş pul vəsaitindən, girov götürülmüş və ya qanunsuz yolla əldə edilmiş əmlakdan, habelə qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, dövlət və bələdiyyə büdcələrinin, büdcədənkənar fondların pul vəsaitlərindən və dövlət hakimiyyəti orqanlarının sərəncamında olan digər vəsaitdən istifadə edilə bilməz.



# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI

## QƏRAR № 144

*Bakı şəhəri, 17 oktyabr 1996-cı il*

### Kənd təsərrüfatına yararsız və ya az yararlı torpaqlardan kənd təsərrüfatı məqsədləri üçün istifadəsində güzəştlər edilməsi haqqında

***Əlavə və dəyişikliklər:***

*1. 24 yanvar 2001-ci il, № 22*

"Torpaq İslahatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 13 avqust tarixli 482 saylı Fərmanına və "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası Qanununa əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Kənd təsərrüfatına yararsız və ya az yararlı torpaqların kənd təsərrüfatı məqsədləri üçün istifadəsində güzəştlər edilməsi haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 17 oktyabr tarixli 144 nömrəli qərarı ilə* ***təsdiq edilmişdir***

### Kənd təsərrüfatına yararsız və ya az yararlı torpaqlardan kənd təsərrüfatı məqsədləri üçün istifadəsində güzəştlər edilməsi haqqında ƏSASNAMƏ

1. Bu Əsasnamə "Torpaq İslahatı haqqında" Azərbaycan Respublikasının Qanununa və digər qanunvericilik aktlarına uyğun olaraq bələdiyyənin ehtiyat fondunun kənd təsərrüfatına yararsız və ya az yararlı torpaqlarından kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilməsinin və icarəyə verilməsinin qaydalarını müəyyən edir.

2. "Torpaq İslahatı haqqında" Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinə əsasən bələdiyyənin ehtiyat fondunun kənd təsərrüfatına yararsız və

ya az yararlı torpaqlarının kənd təsərrüfatı məhsulları istehsalı üçün Azərbaycan Respublikasının fiziki və hüquqi şəxslərinin mülkiyyətinə, istifadəsinə və icarəsinə güzəştli şərtlərlə verilməsi bələdiyyə orqanının qərarı ilə həyata keçirilir.

3. Bələdiyyənin ehtiyat fondunun kənd təsərrüfatına yararsız və ya az yararlı torpaqları kənd təsərrüfatı məhsulları istehsalı üçün bu Əsasnamənin 2-ci bəndində sadalanan fiziki və hüquqi şəxslərin mülkiyyətinə, istifadəsinə və icarəsinə verilərkən aşağıdakı güzəştlər edilir:

istifadəyə və icarəyə götürdükləri kənd təsərrüfatına yararsız və ya az yararlı torpaqları öz vəsaitləri hesabına yararlı hala salmaqla kənd təsərrüfatı məhsulları istehsal etmək istəyən fiziki və hüquqi şəxslər altı il müddətinə *(1)* icarə haqqından azad edilirlər;

öz vəsaitləri hesabına kənd təsərrüfatına yararsız və ya az yararlı torpaqları yararlı hala salıb orada kənd təsərrüfatı məhsulları istehsal edən Azərbaycan Respublikasının fiziki və hüquqi şəxsləri bu torpaqları alqı-satqı yolu ilə mülkiyyətə götürmək istədikdə, onlara həmin torpaqların yararlı hala salındıqdan əvvəlki normativ qiymətinin (dəyərinin) 40 faizi həcmində güzəşt edilir;

torpağın yerləşdiyi ərazidə daimi yaşayan və kəndli (fermer) təsərrüfatı yaratmış, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüşlərdə əlil olmuş və həlak olanların ailələri kənd təsərrüfatı məhsulları istehsalı üçün əlavə bələdiyyənin ehtiyat fondunun kənd təsərrüfatına yararsız və ya az yararlı torpaq sahələrindən alqı-satqı yolu ilə mülkiyyətə torpaq almaq istədikdə onlara həmin torpaqların yararlı hala salındıqdan əvvəlki normativ qiymətinin (dəyərinin) 60 faizi həcmində güzəştlər edilir.

4. Respublika tabeli şəhərlərdə , rayon mərkəzlərində və qəsəbələrdə yaşayan torpaq payı almamış, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların ailələri, müharibə veteranları və Çernobıl qəzasının iştirakçıları kənd təsərrüfatı məhsulları istehsalı üçün bələdiyyənin ehtiyat fondunun yararsız və ya az yararlı torpaqlarını istifadəyə və icarəyə götürdükdə onlar 10 il müddətinə *(1)* icarə haqqından azad edilirlər.

Bələdiyyənin ehtiyat fondunun kənd təsərrüfatına yararsız və ya az yararlı torpaqlarından alqı-satqı yolu ilə mülkiyyətə torpaq sahəsi əldə etmək istəyən bu kateqoriyadan olan Azərbaycan Respublikasının vətəndaşlarına həmin torpaqların yararlı hala salındıqdan əvvəlki normativ qiymətinin (dəyərinin) 70 faizi həcmində güzəştlər edilir.



## QƏRAR № 94

***Bakı şəhəri, 7 iyun 1999-cu il***

## Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu ilə bağlı bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında

"Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası prezidentinin 1999-cu il 12 mart tarixli 113 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dövlət torpaq kadastrının aparılması qaydaları haqqında Əsasnamə", "Torpaqların texniki uçotunun aparılması Qaydaları", "Torpaq - kadastr sənədlərinin aparılması Qaydaları", "Dövlət torpaq kadastrı fondunun yaradılması, istifadəsi və mühafizəsi haqqında Əsasnamə", "Torpaqların monitorinqinin aparılması qaydaları haqqında Əsasnamə" və "Yerquruluşu işlərinin aparılması qaydaları haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. "Dövlət torpaq kadastrının və torpaqların monitorinqinin aparılması qaydaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 24 yanvar tarixli 34 nömrəli qərarı (7-ci bəndi istisna olmaqla) qüvvədən düşmüş hesab edilsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının***
***Baş naziri A. Rasizadə***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1999-cu il 7 iyun tarixli 94 nömrəli Qərarı ilə*
***təsdiq edilmişdir***

## Dövlət torpaq kadastrının aparılması qaydaları haqqında ƏSASNAMƏ

***Əlavə və dəyişikliklər:***
*1. 7 fevral 2000-ci il, №18*
*2. 20 noyabr 2006-cı il, № 242*

1. Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə uyğun olaraq, torpaqlardan istifadə edilməsinin hüquqi əsasları, növləri, torpaq mülkiyyətçiləri, istifadəçiləri və kateqoriyaları üzrə bölüşdürülməsi, torpaqların keyfiyyət xarakteristika-

sı, habelə torpaqların bonitrovkası və iqtisadi qiymətləndirilməsi haqqında lazımi məlumat və sənədlər sistemini əks etdirən dövlət torpaq kadastrı aparılır.

2. Dövlət torpaq kadastrı respublikada vahid sistem üzrə aparılır və geodeziya, topoqrafiya və kartoqrafiya məlumatlarının dövlət kadastrı əsasında torpaq, geobotanika və digər axtarış-tədqiqatların aparılması, *torpaq istifadəçiliyinin (2)* qeydiyyatı, torpaqların uçotu və qiymətləndirilməsi, eroziyaya uğraması, humusun itirilməsi, şorlaşması, şorakətləşməsi, bataqlaşması, təhlükəli maddələrlə çirklənməsi, habelə torpaqların münbitliyini səciyyələndirən göstəricilər kompleksi üzrə kənd təsərrüfatında istifadə edilən torpaqların mədəniləşdirilməsi dərəcəsinin dinamikası üzərində yerüstü səyyar, stasionar və kənardan idarə (aerokosmik) metodları komplekslərindən istifadə ilə təmin edilir.

Torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri tərəfindən torpaqların tematik xəritələnməsi və onların vəziyyəti üzərində nəzarət Respublika Dövlət Torpaq Komitəsində təsdiq edilmiş metodika və proqramlar üzrə aparılır.

3. Azərbaycan Respublikasının *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi (2)* Respublika Dövlət Geodeziya və Xəritəçəkmə Komitəsi və digər əlaqədar orqanlarla birlikdə:

*(2)* torpaqların qiymətləndirilməsi, torpaq (torpaq-aqrokimya və torpaq-meliorasiya axtarışları da daxil olmaqla), geobotanik və digər tədqiqat və axtarışlar aparılması, torpaqların vəziyyəti üzərində operativ müsahibə, habelə dövlət torpaq kadastrının aparılması üçün zəruri olan metodik göstəriş və təlimatlar işləyib hazırlayır və təsdiq edir;

torpaq ehtiyatlarının miqdarı, vəziyyəti və qiyməti barədə uzunmüddətli və operativ informasiyaya olan tələb və ehtiyacın sistematik öyrənilməsini həyata keçirir, dövlət torpaq kadastrının daim təkmilləşdirilməsi üzrə və yaranan xalq təsərrüfatı, təbiətin mühafizə ehtiyaclarına dair məlumatların torpaq kadastrı sənədlərinə daxil edilməsi üzrə tədbirlər görür;

torpaq haqqında məlumatların sistemləşdirilməsini, öyrənilməsini və saxlanılmasını, habelə dərc edilməsi zəruri olan dövlət torpaq kadastrı materiallarının nəşrini təmin edir.

4. Kadastr məlumatlarının dəqiqləşdirilməsi və yeniləşdirilməsi məqsədi ilə:

*a) mülkiyyət formasından asılı olmayaraq, bütün torpaq istifadəçiləri onların mülkiyyətində, istifadəsində və icarəsində olan torpaqların tərkibində baş verən dəyişikliklər barədə hər il yanvarın birinə müvafiq yerli icra hakimiyyəti orqanının kənd, qəsəbə və rayon tabeli şəhərlərdəki nümayəndəsinə və ya bələdiyyəyə, onlar isə öz növbəsində müvafiq rayon (şəhər) icra hakimiyyəti orqanına müəyyən edilmiş formada hesabat verirlər; (1)*

b) rayon (şəhər) icra hakimiyyəti orqanları *(1)* öz inzibati ərazi hüququnda torpaq sahələrinin kəmiyyət, keyfiyyət və istifadəsi üzrə hesabatı fevralın 20-dək, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti isə martın 1-dək təsdiq edərək Azərbaycan Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə (2)* təqdim edirlər;



c) *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi (2)* rayonlar, rayon və respublika tabeli şəhərlər, Naxçıvan Muxtar Respublikası və Azərbaycan Respublikası üzrə torpaqların kəmiyyəti, keyfiyyəti və onlardan istifadə haqqında (yanvarın 1-nə olan vəziyyət üzrə) hesabat tərtib edir. Həmin hesabatlara aşağıdakılar daxil edilir:

ümumi torpaq sahələrinin (o cümlədən suvarılan torpaqlar haqqında) kəmiyyəti və onlarda baş verən dəyişikliklər, onların növləri, torpaqların mülkiyyətə, istifadəyə və icarəyə verilməsi haqqında məlumatlar, habelə torpaqdan istifadə hüququna xitam verilmiş hüquqi və fiziki şəxslərin torpaqlarının əvvəlki istifadəçisinə qaytarılması, istifadə edilməyən, səmərəsiz istifadə edilən və təyinatı üzrə istifadə edilməyən, torpaqların geri alınması ötən ildə dövlət və ictimai ehtiyaclar üçün ayrılmış və rekultivasiya edilmiş torpaqlar haqqında məlumatlar;

qanunvericiliyə müvafiq olaraq torpaq sahələrinin alqı-satqısı, nizamnamə (pay) fonduna verilməsi, girov qoyulması (ipotekası), dəyişdirilməsi, bağışlanması, vərəsəlik qaydasında başqasına keçməsi, istifadə və icarə hüquqlarının başqasına keçməsi, habelə torpaq sahələrinə qoyulmuş servitutlar və digər öhdəliklər barədə məlumatlar;

beş ildə bir dəfə torpaq vergisinin, icarə haqqının və torpaqların normativ qiymətinin hesablanması üçün lazım olan məlumatlar.

Torpaqların kəmiyyəti, keyfiyyəti və onlardan istifadə haqqında hesabatlar torpaq qanunvericiliyində müəyyən edilmiş qaydada baxılır və təsdiq edilir.

5. Azərbaycan Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi (2)* torpaqların kəmiyyəti, keyfiyyəti və onlardan istifadə barədə ayrı-ayrı rayonlar, respublika tabeli şəhərlər və Naxçıvan Muxtar Respublikası üzrə ümumi hesabatı hər il aprelin 30-dək öz kollegiya iclasında təsdiq edərək, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Dövlət Statistika Komitəsinə təqdim edir.

Dövlət torpaq kadastrının aparılması prosesini tənzimləyən texniki (forma və ona əlavələr) sənədlərin nümunələri Azərbaycan Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi (2)* tərəfindən təsdiq olunur.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1999-cu il 7 iyun tarixli 94 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

## Torpaqların texniki uçotunun aparılması
## QAYDALARI

***Əlavə və dəyişiklik:***
*1. 22 noyabr 1999-cu il, №180*
*2. 7 fevral 2000-ci il, №18*

Bu Qaydalar "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikası Qanununa və digər qanunvericilik aktlarına

uyğun olaraq, Azərbaycan Respublikasının hər bir inzibati ərazi vahidi üzrə məqsədli təyinatından və hüquqi rejimindən asılı olmayaraq, mülkiyyətçilərin, istifadəçilərin və icarəçilərin istifadə etdikləri torpaqların texniki uçotunun aparılması qaydalarını müəyyən edir.

1. Azərbaycan Respublikasının vahid torpaq fondunda torpaqların texniki uçotunu Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin və Naxçıvan Muxtar Respublikasının və Xəritəçəkmə Komitəsinin qərarı, bələdiyyələrin təşəbbüsü və ya torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin sifarişi əsasında Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin və Naxçıvan Muxtar Respublikası Dövlət və Xəritəçəkmə Komitəsinin Yerquruluşu Layihə institutları aparırlar.

2. Torpaqların texniki uçotunun aparılmasında məqsəd bütün torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin istifadəsində olan torpaq sahələrinin həndəsi ölçülərini, sərhədlərini, konfiqurasiyasını (suvarılan və dəmyə sahələr ayrılmaqla) və baş vermiş dəyişiklikləri düzgün müəyyənləşdirərək, torpaqlardan tam və səmərəli istifadə edilməsi üçün zəmin yaratmaq, torpaqların münbitliyinin artırılması tədbirlərini tövsiyə etmək, habelə torpaq ehtiyatlarının mülkiyyət formaları üzrə hesabatını dəqiqləşdirmək, yekun torpaq balansı tərtib etmək, torpaq istifadəçiliyində ciddi qayda yaratmaq və torpaq uçotunun nəticələrini xəritələşdirməkdən ibarətdir.

3. Torpaqların texniki uçotu topoqrafik xəritə və planlar əsasında aşağıdakı ardıcıllıqla aparılır:

a) təsərrüfatın faktiki sərhəddi naturada şəhərsalma məlumatları nəzərə alınmaqla dəqiqləşdirilir və sərhəd daxilində fəaliyyət göstərən bütün torpaq istifadəçilərinin sərhədləri fotoplanlara keçirilir;

b) sərhəd daxilində olan bütün konturların (çevrələrin) daxilindəki kənd təsərrüfatı təyinatlı torpaqlar (əkin, çoxillik əkmələr, dinc, biçənək, örüş), topoqrafik elementlər, meşələr, kolluqlar, daşlıqlar, qumsallıqlar, bataqlıqlar və sair torpaqlar istifadə edilib-edilməməsindən asılı olmayaraq, planda şərti işarələrlə göstərilir;

c) çöl-tədqiqat işləri qurtardıqdan sonra fotoplanlarda müəyyən edilmiş konturlar hesablanır və təsərrüfatlar üzrə yekun torpaq eksplikasiyası tərtib edilir;

ç) çöl-torpaq tədqiqatı materiallarına əsasən hər bir torpaq istifadəçiliyi üzrə 1:5000, 1:10000, 1:25000 miqyasında, zəruriyyət yarandıqda isə daha irimiqyaslı yerquruluşu planları hazırlanır.

4. Ayrı-ayrı inzibati ərazi vahidliyi üzrə torpaqların texniki uçotu Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən təsdiq olunmuş xüsusi hesabat formalarına əsasən aparılır və həmin formalarda hər il 1 yanvar tarixə baş vermiş dəyişikliklər, sahə kadastrlarının məlumatları nəzərə alınır və bu məlumatlar torpaq balansında əks etdirilir.



Torpaqların texniki uçotunun nəticələri torpaq hesabatı formalarında aşağıdakı ardıcıllıqla qeydə alınır:

a) dövlət mülkiyyətində saxlanılan torpaqlar üzrə:

dövlət elmi tədqiqat və tədris müəssisələrinin, onların təcrübə bazalarının, maşın-sınaq stansiyalarının, dövlət sort-sınaq xidmətinin, toxumçuluq və damazçılıq təsərrüfatının torpaqları:

dövlət müəssisə, idarə və təşkilatlarının daimi istifadəsində olan, habelə dövlət obyektlərinin tikintisi layihələşdirilmiş torpaqlar;

yay və qış otlaqlarının, mal-qara düşərgələrinin və köç yollarının torpaqları;

meşə fondu torpaqları;

su fondu torpaqları;

təbiəti mühafizə, təbii qoruq, sağlamlaşdırma, istirahət, tarix-mədəniyyət təyinatlı torpaqlar, habelə üzərində təsərrüfat fəaliyyəti qadağan edilmiş qanunla qorunan ərazilərin torpaqları;

dövlət obyektlərinin - dağ-mədən sənayesinin, təsdiq edilmiş faydalı qazıntı yataqlarının, vahid energetika sisteminin, magistral boru kəmərlərinin, nəqliyyat, rabitə və müdafiə obyektlərinin, dövlət sərhəd zolaqlarının, mühüm meliorasiya və sü təsərrüfatı obyektlərinin yerləşdiyi torpaqlar;

dövlət hakimiyyət orqanlarının yerləşdiyi torpaqlar;

*dövlət ehtiyatı torpaqları (1)*

b) bələdiyyə mülkiyyətinə verilən torpaqlar üzrə:

*dövlət və bələdiyyə fondunun özəlləşdirilən torpaqları; (1)*

fiziki və hüquqi şəxslərin istifadəsində olan torpaqlar;

yaşayış məntəqələrinin perspektiv inkişafı üçün ayrılan torpaqlar;

*hüquqi və fiziki şəxslərin istifadə və icarə hüququna xitam verilən bələdiyyə torpaqları; (1)*

*ehtiyat məqsədləri daşıyan digər bələdiyyə torpaqları; (1)*

fiziki və hüquqi şəxslərin daimi və ya uzunmüddətli istifadə hüququna xitam verilmiş torpaqlar;

başqalarının mülkiyyətinə, daimi istifadəsinə və icarəsinə verilməmiş digər torpaqlar.

c) xüsusi mülkiyyətə verilən və xüsusi mülkiyyətdə olan torpaqlar üzrə:

sovxoz və kolxozların özəlləşdirilən torpaqları;

*Abzas çıxarılıb; (1)*

alqı-satqı və digər əqdlər nəticəsində mülkiyyətə əldə edilən torpaqlar.

*5. Ayrı-ayrı inzibati, ərazi vahidinin ərazisində torpaqların texniki uçotu mülkiyyət formaları üzrə hesablanır və ərazi vahidi üzrə icra nümayəndəsi və ya bələdiyyə tərəfindən təsdiq olunaraq, aidiyyəti üzrə rayon (şəhər) icra hakimiyyətinə təqdim edilir. (2)*

6. Rayon (şəhər) icra hakimiyyəti orqanı *(2)* və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti rayonun (şəhərin) və Naxçıvan Muxtar Respublikasının inzibati sərhəddi daxilində dövlət mülkiyyətində saxlanılan, bələdiyyə mülkiyyətinə verilən və özəlləşdirilən torpaqların texniki uçotunun nəticələrini digər sahə kadastrları və şəhərsalma məlumatlarını nəzərə almaqla təsdiq edir və Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə təqdim edir.

7. Rayon (şəhər) icra hakimiyyəti orqanlarından *(2)* və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetindən daxil olan sənədlər *Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi (2)* tərəfindən təhlil olunur və torpaqların texniki uçotunun nəticələri respublika üzrə ümumiləşdirilir.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1999-cu il 7 iyun tarixli 94 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

## Torpaq-kadastr sənədlərinin aparılması QAYDALARI

***Əlavə və dəyişiklik:***
*1. 22 noyabr 1999-cu il, №180*
*2. 20 noyabr 2006-cı il, № 242*

Bu Qaydalar "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikası Qanununa və digər qanunvericilik aktlarına müvafiq olaraq hazırlanmışdır və torpaq-kadastr sənədlərinin aparılması qaydalarını müəyyən edir.

1. Azərbaycan Respublikasında dövlət torpaq kadastrını formalaşdıran vahid torpaq-kadastr sənədləri sistemi tətbiq edilir.

2. Vahid torpaq-kadastr sənədləri sistemi hüquqi və texniki kadastr sənədlərindən ibarətdir.

*3. Torpaq üzərində hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarışlar və torpaq üzərində müddəti on bir aydan az olan icarə və istifadə hüquqlarını qanunvericiliyə uyğun olaraq təsdiq edən sənədlər hüquqi torpaq-kadastr sənədləri hesab olunur. (2)*

4. Azərbaycan Respublikasının inzibati-ərazi vahidləri üzrə aparılan aşağıdakı sənədlər texniki kadastr sənədləri hesab edilir:

*torpaq üzərində hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarışların və torpaq üzərində müddəti on bir aydan az olan icarə və istifadə hüquqlarını qanunvericiliyə uyğun olaraq təsdiq edən sənədlərin (2)*



qeydiyyat kitabları, plan-xəritə materialları, torpaqların kəmiyyət və keyfiyyət göstəriciləri üzrə uçotunun illik hesabat formaları, cədvəlləri və jurnalları;

şəhərsalma kadastrının məlumatları və materialları nəzərə alınmaqla, torpaq sahələrinin ölçülərini, kateqoriyalarını, kəmiyyət və keyfiyyət göstəricilərini əks etdirən kənd, qəsəbə, rayon, şəhər, Naxçıvan Muxtar Respublikası və Azərbaycan Respublikası üzrə torpaq-kadastr kitabları və xəritələri.

5. Vahid torpaq kadastr sənədləri sistemini tamamlayan digər texniki sənədləri, arayışları və formaları Azərbaycan Respublikasının *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi (2)* hazırlayır və təsdiq edir.

6. *Çıxarılıb (1;2)*

7. *Çıxarılıb (2)*

8. *Çıxarılıb (2)*

9. *Çıxarılıb (2)*

10. *Çıxarılıb (2)*

11. *Çıxarılıb (2)*

12. *Çıxarılıb (2)*

13. Azərbaycan Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* Yerquruluşu Layihə İnstitutu və Naxçıvan Muxtar Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* Yerquruluşu Layihə İnstitutu torpağın mülkiyyətə, daimi və müvəqqəti istifadəyə verilməsi haqqında səlahiyyətli orqanlar tərəfindən qəbul edilmiş *qərar əsasında qanunvericiliklə müəyyən edilmiş formada sənədləri hazırlayır (2).*

14. Bu sənədlər qeydiyyatdan keçirilərək torpaq mülkiyyətçisinə və istifadəçisinə verilmək üçün müvafiq olaraq Azərbaycan Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə (2)* və Naxçıvan Muxtar Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə (2)* təqdim olunur.

15. Hüquqi və fiziki şəxslərin mülkiyyətinə və istifadəsinə verilən torpaq sahələrini yer üzərində (naturada) Azərbaycan Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* və Naxçıvan Muxtar Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* Yerquruluşu Layihə İnstitutları mərzlərlə ayırırlar.

16. *Çıxarılıb (2)*

17. *Çıxarılıb (2)*

18. *Çıxarılıb (2)*

19. *Çıxarılıb (2)*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 7 iyun tarixli 94 nömrəli qərarı ilə* ***təsdiq edilmişdir***

# Dövlət torpaq kadastrı fondunun yaradılması, istifadəsi və mühafizəsi haqqında ƏSASNAMƏ

***Əlavə və dəyişikliklər:***
*1. 25 yanvar 2001-ci il, № 21*
*2. 24 may 2001-ci il, №100*

Bu Əsasnamə "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikası Qanununa və digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanmışdır və dövlət torpaq kadastrı fondunun yaradılması, istifadəsi, mühafizəsi qaydalarını və şərtlərini müəyyən edir.

## I. Ümumi müddəalar

1. Dövlət torpaq kadastrı fonduna (bundan sonra "Fond" adlanacaq) Azərbaycan Respublikasının hüdudları daxilində yerləşən torpaqların məqsədli təyinatı, sərhədləri, ölçüləri, coğrafi mövqeyi, hüquqi statusu və torpaq sahələrinin digər kəmiyyət və keyfiyyət göstəriciləri üzrə kadastr məlumatları və materialları daxildir.

2. Fond *Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* sərəncamındadır.

3. *Çıxarılıb (2)*

4. Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən müəssisələr, müəlliflik və mülkiyyət hüquqi saxlanılmaqla, torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu işləri üzrə hazırlanmış materialların bir nüsxəsini qanunvericiliklə müəyyən edilmiş qaydada *Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə (2)* təqdim etməlidirlər.

5. Dövlət torpaq kadastrı fondu, dövlət geodeziya və kartoqrafiya fondu və digər kadastr fondları ilə əlaqəli şəkildə qurularaq vahid informasiya fondunun tərkib hissəsini təşkil edir. *Dövlət torpaq kadastrı fondu hüquqi şəxs kimi fəaliyyət göstərən Azərbaycan Respublikasının Mərkəzi Dövlət Torpaq Kadastrı, Geodeziya və Kartoqrafiya Fonduna daxildir (2).*

6. Fondun idarəetmə strukturu iş planı əsasında fəaliyyət göstərməklə Baş Arxiv idarəsinin siyahısına uyğun olaraq məhv edilməsi nəzərdə tutulmuş bəzi fond məlumatlarının və materiallarının müəyyən edilməsini, yeni hazırlanmış məlumat



və materialların qəbulunu fondun idarəetmə strukturuna daxil olan ekspert komissiyası vasitəsi ilə həyata keçirir.

7. Ekspert komissiyasının fond ilə bağlı fəaliyyəti *Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* Kollegiyası tərəfindən təsdiq olunmuş Qaydalara uyğun olaraq tənzimlənir.

## II. Fondun yaradılması mənbələri

1. Fondun yaradılması mənbələri aşağıdakılardır:

bu Əsasnamə qüvvəyə mindiyi günədək *Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* və Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq Komitəsinin Dövlət Yerquruluşu Layihə İnstitutlarının arxivində saxlanılan və məhv olunması nəzərdə tutulmayan, eləcə də məhvedilmə müddəti çatmamış torpaq kadastrı məlumatları və materialları;

bu Əsasnamə qüvvəyə mindiyi gündən sonra *Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* və Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq Komitəsinin Dövlət Yerquruluşu Layihə İnstitutları və digər icraçı təşkilatlar tərəfindən hazırlanacaq torpaq kadastrı məlumatları və materialları;

*Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* rayon (şəhər) torpaq şöbələri və Naxçıvan Muxtar Rspublikası Nazirlər Kabineti tərəfindən hər ilin 01 yanvar vəziyyətinə təqdim olunan torpaq kadastrı məlumatları və materialları;

mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən hüquqi şəxslər tərəfindən təqdim olunan torpaq kadastrı məlumatları və materialları;

torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri tərəfindən təqdim olunan məlumatlar;

digər sahə kadastrının məlumatları.

## III. Fonddan istifadə və onun mühafizəsi qaydaları

1. Fond *Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsində (2)* yaradılır.

2. Fondun məlumat və materialları müasir kompüter texnikası vasitəsilə mərkəzləşdirilmiş qaydada sistemləşdirilir.

3. Fondun məlumat və materiallarından istifadə hüququ aşağıdakılara verilir:

*Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* və Naxçıvan Muxtar Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin* Dövlət Yerquruluşu Layihə İnstitutlarına yeni torpaq kadastrı məlumatları və materiallarının hazırlanması və digər məqsədlər üçün;

*Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* və Naxçıvan Muxtar Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin* mərkəzi aparatına və onun rayon (şəhər) torpaq şöbələrinə xidməti istifadə üçün;

dövlət orqanlarına və bələdiyyələrə xidməti istifadə üçün;

vətəndaşlara və hüquqi şəxslərə onların mülkiyyətində, istifadəsində və icarəsində olan torpaqlarla bağlı məsələlərə baxılması üçün.

4. Fondun məlumatlarından və materiallarından istifadə qaydaları aşağıdakı ardıcıllıqla həyata keçirilir:

4.1. Fondun məlumatlarından və materiallarından istifadə etmək üçün bu Əsasnamənin III bölməsinin 3-cü bəndində nəzərdə tutulan istifadəçilər tərəfindən *Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* sədrinin adına rəsmi qaydada müraciət (vətəndaşlar tərəfindən ərizə) edilir.

4.2. *Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* sədri həmin müraciətə 5 gün müddətində baxır, məlumat və materiallardan istifadəyə icazə verir.

4.3. Fondun ekspert komissiyası həmin tapşırığa uyğun olaraq bir gün ərzində istifadəsi tələb olunan məlumatları və materialları müəyyən edir.

4.4. Dövlət torpaq kadastrı məlumatlarından və materiallarından fondun daxilində istifadəsinə 2 gün ərzində icazə verilir.

4.5. Dövlət torpaq kadastrı məlumatları və materiallarından surət (dublikat) çıxarılması zərurəti yarandıqda (məxfi qrifləri olan materiallar istisna edilməklə), həmin surət fondun rəhbəri tərəfindən sifarişçinin vəsaiti hesabına hazırlanır. Bu məqsədlə ekspert komissiyası material və əmək sərfinin dəyərini əvvəlcədən sifarişçiyə (dövlət tapşırıqlarını icra edən sifarişçilər istisna olmaqla) bildirir və sifarişçi həmin məbləğdə maliyyə vəsaitini *Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* müvafiq bankdakı hesablaşma hesabına ödəyir və ödəmə barədə qəbzi fondun rəhbərinə təqdim edir.

4.6. Fondun materiallarından fondun ərazisindən kənarda istifadə müddəti səlahiyyətli orqanlar tərəfindən icraçıya tapşırılmış işin icra müddətindən artıq ola bilməz.

5. Dövlət torpaq kadastrı fondunun məlumatları aşağıdakı işlərdə istifadə edilir:

torpaq ehtiyatlarının istifadəsi və mühafizəsi sahəsində dövlət siyasətinin formalaşmasında və həyata keçirilməsində;

torpaqların səmərəli istifadəsinə, münbitliyinin artırılmasına, qorunmasına, digər torpaq mühafizəsi tədbirlərinə dair kompleks dövlət proqramlarının hazırlanmasında və yerinə yetirilməsində;

yerquruluşu layihələrinin və sxemlərinin hazırlanmasında;

şəhərsalma, meşəsalma, tikinti, meliorasiya, irriqasiya, geodeziya, topoqrafiya, geoloji kəşfiyyat və axtarış işlərinin layihələşdirilməsində və aparılmasında;

torpaq münasibətlərinin tənzimlənməsində, torpaqların normativ qiymətlərinin müəyyənləşdirilməsində, torpaq reyestrinin tərtibində və torpaq bazarının formalaşdırılmasında;

torpaq vergisinin və icarə haqqının müəyyənləşdirilməsində və tətbiqində;



torpaq informasiyası sisteminin və məlumat bankının yaradılmasında və istifadəsində;

torpaqların istifadəsinə, mühafizəsinə və torpaq münasibətlərinin tənzimlənməsinə dövlət nəzarətinin həyata keçirilməsində.

6. Fondda saxlanılan topoqrafiya-geodeziya, kartoqrafik, qravmetrik, aero və kosmik planların materiallarının məxfiliyi bu sahədə qüvvədə olan xüsusi təlimata uyğun olaraq təmin edilir və bu təlimatın tələbləri bütün hüquqi və fiziki şəxslər üçün məcburidir.

7. Fondun surət (dublikat) çıxarılması icazə verilməyən materiallardan müvəqqəti istifadəyə bu Əsasnamənin III bölməsinin 6-cı bəndində nəzərdə tutulmuş təlimata uyğun olaraq fondun daxilində icazə verilir.

8. Fondun məlumatları dövlət orqanlarının, bələdiyyələrin *(1)* müvafiq qərar qəbul etməsi üçün əsasdır.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1999-cu il 7 iyun tarixli 94 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

## Torpaqların monitorinqinin aparılması qaydaları haqqında
## ƏSASNAMƏ

***1.7 fevral 2000-ci il, №18***

***Bu Əsasnamə "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikası Qanununa və digər qanunvericilik aktlarına müvafiq hazırlanmış və torpaqların monitorinqinin aparılması qaydalarını tənzimləyir.***

**1. Monitorinq** – hər bir hansı təbii obyektdə təbii proseslərin gedişini izləmək, daha geniş mənada bu sahədə çoxməqsədli informasiya məlumatları toplamaq sistemidir. Monitorinqin əsas vəzifəsi obyekti müşahidə etmək, antropogen təsirlər nəticəsində insan orqanizmi, bütöv canlı aləm və ətraf mühit üçün kritik situasiyaların yaranması haqqında toplanmış məlumatların nəticələrinə əsasən xəbərdarlıq etmək, təbii mühitin vəziyyətini qiymətləndirmək və proqnozunu verməkdir.

Əhatə dairəsinə görə monitorinq lokal, (məhdud məhəlli sahədə) regional və qlobal-biosfer sahələrə bölünür.

Təyinatına görə isə monitorinq baza yaxud fon, impakt, regional və sürətli lokal təsir dairələrinə bölünür.

2. Torpaqların monitorinqi torpaqların münbitlik xassələrini səciyyələndirən ayrı-ayrı göstəricilərdə baş verən dəyişikliklərin vaxtında aşkara çıxarılması, on-

ların qiymətləndirilməsi, mənfi proseslərin qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün vahid torpaq fondunun istifadə vəziyyəti üzərində müntəzəm müşahidə sistemidir.

3. Torpaqların monitorinqi bütövlükdə biosfer monitorinqinin tərkib hissəsi kimi Azərbaycan Respublikasının vahid torpaq fondunda inzibati ərazi vahidləri üzrə vahid metodologiya əsasında aparılır və aşağıdakıları nəzərdə tutur:

torpaq üzərində müntəzəm müşahidələr, torpaq, iqlim, aqro-kimyəvi, geobotaniki, geomorfoloji aerofotogeodezik, kartoqrafik, digər çöl və laboratoriya tədqiqatları əsasında dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaq sahələrinin eroziyaya uğraması, şorlaşması, şorakətləşməsi, bataqlaşması, səhralaşması, təhlükəli kimyəvi maddələrlə çirklənməsi, təyinatının, ölçülərinin sərhədlərinin və digər kəmiyyət və keyfiyyət göstəricilərinin dəyişməsini öyrənir;

torpaqlarda humusun itirilməsi, torpaqların təbii münbitliyini səciyyələndirən digər parametrlər üzrə kənd təsərrüfatında istifadə edilən torpaqların mədəniləşdirilməsi dərəcəsinin dinamikası, təbii və antropogen proseslər nəticəsində müxtəlif dərəcədə pozulmuş torpaqların rekultivasiyası üzərində səyyar, stasionar və məsafədən idarə olunan (aerokosmik tədqiqatlar) metodlar kompleksindən istifadə etməklə müşahidələrin aparılmasını əhatə edir.

4. Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi Respublika Dövlət Geodeziya Komitəsi, Azərbaycan Respublikası Elmlər Akademiyası və digər aidiyyəti elmi-tədqiqat və layihə-axtarış təşkilatları ilə razılaşdırmaqla:

torpaq (torpaq - aqrokimyəvi və torpaq-meliorasiya tədqiqatları da daxil olmaqla) iqlim, aqroekoloji, geobotaniki və digər elmi-tədqiqat və axtarış işlərinin aparılması, torpaq sahələrinin müxtəlif miqyaslarda xəritələşdirilməsi, torpaqların istifadə vəziyyəti üzərində operativ monitorinq müşahidələrinin aparılması üçün zəruri olan plan-xəritə materiallarının tərtib edilməsi üzrə təlimatlar və metodik göstərişlər işləyib hazırlayır və təsdiq edir:

torpaq ehtiyatlarının səmərəli istifadə vəziyyəti barədə uzunmüddətli və operativ informasiyaya olan tələb və ehtiyacın sistematik öyrənilməsini həyata keçirir. Torpaqların monitorinq müşahidələrinin daim təkmilləşdirilməsi üzrə torpaqların mühafizə ehtiyaclarına dair məlumatların monitorinq sənədlərinə daxil edilməsi üzrə tədbirlər görür;

torpaqların monitorinqi əsasında torpaqların istifadəsinin ekoloji vəziyyəti, mühafizəsi barədə proqnozlar, proqramlar, xəritə və bülletenlər və sair məlumatlar hazırlayır;

torpaqların monitorinqi ilə bağlı toplanmış materialların və məlumatların sistemləşdirilməsini, eyni zamanda həmin məlumatların təhlil edilməsini, saxlanılmasını və nəşrini təmin edir.

5. Torpaqların monitorinqi ilə bağlı məlumatların dəqiqləşdirilməsi və təhlili məqsədilə:



*a) mülkiyyət formasından asılı olmayaraq bütün torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri onların mülkiyyətində, istifadəsində və icarəsində olan torpaqların tərkibində baş vermiş dəyişikliklər barədə hər il yanvarın birinə müvafiq yerli icra hakimiyyəti orqanının kənd, qəsəbə və rayon tabeli şəhərlərdəki nümayəndəsinə və ya bələdiyyəyə, onlar isə öz növbəsində müvafiq rayon (şəhər) icra hakimiyyəti orqanına müəyyən edilmiş formada hesabat verirlər; (1)*

b) rayon (şəhər) icra hakimiyyəti orqanları *(1)* öz inzibati ərazi hüdudunda torpaqdan səmərəli istifadənin ekoloji vəziyyəti üzrə (keyfiyyət dəyişiklikləri barədə) hesabatı fevralın 20-dək, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti isə martın 1-dək təsdiq edərək Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə təqdim edirlər;

c) Respublika Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi rayonlar, rayon və respublika tabeli şəhərlər, Naxçıvan Muxtar Respublikası və Azərbaycan Respublikası üzrə torpaqların ekoloji vəziyyəti barədə (yanvarın 1-nə olan vəziyyət) hesabat tərtib edir. Həmin hesabatlara aşağıdakılar daxil edilir:

hər il:

torpaqlarda baş verən eroziya, səhralaşma, şorlaşma, şorakətləşmə, bataqlaşma və s. prosesləri, habelə torpaqlarda antoropogen və təbii amillərin təsiri nəticəsində baş verən digər dəyişikliklər haqqında məlumatlar.

5 ildən bir:

torpaqların ümumi fiziki-kimyəvi və bəzi mühüm aqronomik göstəricilərinə aid çöl və laboratoriya tədqiqatlarının nəticələri haqqında məlumatlar.

10 ildən bir:

dövlət yay və qış otlaqlarının torpaq, geobotaniki və yem vahidi göstəricilərinin çöl və laboratoriya nəticələri haqqında məlumatlar.

6. Torpaqların monitorinqi respublika, regional və yerli proqramlar əsasında ixtisaslaşmış layihə-axtarış və elmi-tədqiqat müəssisələrinə Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən verilən sifarişlərə uyğun aparılır.

7. Torpaqların monitorinq müşahidələrinin çöl və laboratoriya tədqiqatlarının nəticələri mətn, cədvəl və qrafik materiallar hər il hesabat şəklində ayrılıqda tərtib edilir. Torpaqların keyfiyyəti və onların istifadə vəziyyəti haqqında məlumatlar müvafiq hesabatlara daxil edilir.

8. Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi Respublikanın vahid torpaq fondunda baş vermiş bütün mənfi və müsbət dəyişikliklər barədə ayrı-ayri rayonlar, rayon mərkəzləri, respublika tabeli şəhərlər və Naxçıvan Muxtar Respublikası üzrə ümumiləşdirilmiş hesabatı hər il aprelin 30-dək öz kollegiya iclasında təsdiq edərək Azərbaycan Respublikası Nazirlər Kabinetinə və Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə təqdim edir.

9. Torpaqların monitorinqinin aparılması prosesini tənzimləyən texniki (forma və ona əlavələr) sənədlərin nümunələri Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən təsdiq olunur.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 7 iyun tarixli 94 nömrəli qərarı ilə* ***təsdiq edilmişdir.***

# Yerqurluşu işlərinin aparılması qaydaları haqqında ƏSASNAMƏ

***Əlavə və dəyişiklik:***
*1. 7 noyabr 2002-ci il, №173*
*2. 20 noyabr 2006-cı il, № 242*

**Bu Əsasnamə "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerqurluşu haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq Azərbaycan Respublikasının ərazisində yerqurluşu işlərinin aparılması qaydasını müəyyən edir.**

1. **Yerqurluşu işləri** – torpaq münasibətlərinin nizama salınması, torpaqdan səmərəli istifadə olunması məsələlərinin həlli üzrə müvafiq tədbirlərin sistemi olmaqla torpaqların elmi-praktiki cəhətdən əsaslandırılmış səmərəli istifadəsinin təşkilinə, torpaq münasibətlərinin tənzimlənməsinə, əlverişli ekolji mühitin qorunub saxlanılmasına, təbii və antropogen landşaftların yaxşılaşdırılmasına və sabitliyinin təmin edilməsinə, eləcə də torpaqların mühafizəsinə yönəldilir.

2. Yerqurluşu işləri respublikanın ərazisində mülkiyyət formalarına uyğun olaraq (dövlət, bələdiyyə və xüsusi) aidiyyəti üzrə Azərbaycan Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* və Naxçıvan Muxtar Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* qərarı, bələdiyyəlrinin təşəbbüsü və ya torpaq mülkiyyətçilərinin, istifadəçilərinin, icarəçilərinin sifarişi ilə Azərbaycan Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* və Naxçıvan Muxtar Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* Yerqurluşu Layihə İnistutlarının tərəfindən aparılır.

3. Təyinatından aslı olaraq yerqurluşu kompleks və təsərrüfatdaxili yerqurluşu işlərindən ibarətdir.

4. Respulikanın ərazisində kompleks yerquluşu işləri aşağıdakı qaydada aparılır.

qüvvədə olan torpaq qanunverikilik aktlarının müddəalarına müvafiq olaraq, dövlət mülkiyyətində saxlanılan, bələdiyyə mülkiyyətinə verilən və xüsusi mülkiyyətə ayrılan torpaq sahələrinin sərhədlərinin, habelə mövcud torpaq mülkiyyətlərinin, istifadəçilərinin və icarəçilərinin torpaqlarının qulluqlarının (sərhədlərinin) 1936-ci ilin ilkin dövlət aktlarına (bu aktlar olmadıqda *hüquqları təsdiq edən sənədlərə (2)* və digər torpaq-kadastr sənədlərinə əsasən) yerdə (naturada) şəhərsalma sənədlərinin və şəhərsalma kadastrının məlumatlarını nəzərə almaqla mərzlərə ayrılması;

mülkiyyət formaları üzrə ayrılmış torpaq sahələrinin invertarlaşdırılması, müvafiq yerqurulușu plan və xəritə materiallarına hazırlanması;



mülkiyyət formasından asılı olmayaraq qüvvədə olan qanunverikiliyin tələblərinə ciddi əməl olunmaqla, yeni yaradılmış mülkiyyətlərinin, istifadəçilərinin və icarəçilərinin torpaqlarında yerquruluşu işlərinin lahiləşdirilməsi və mövcud torpaq istifadəçiliyinin nizama salınması;

məqsədli təyinatına və hüquqi rejiminə uyğun olaraq Azərbaycan Respublikasının hüdudları daxilində yerləşən kənd təsərrüfatı təyinatı torpaqlarının yaşayış məntəqələrinin (şəhərlərin, qəsəbələrin, kənd yaşayış məntəqələrinin) torpaqlarının, sənaye, nəqliyyat, rabitə, müdafiə ehtiyacları üçün və başqa təyinatölı torpaqların, xüsusi qorunan ərazilərin torpaqlarının, su fondu, meşə fondu və ehtiyat fondu torpaqlarının müəyyən edilməsi və onların sərhədlərini yerdə (naturada) mərzlərə ayrılması;

torpaqların keyfiyyət göstəricilərini və təbii bitkilərinin yem vahidini müəyyən etmək məqsədilə iri miqyaslı torpaq və geobotanimk tədqiqatların aparılması və onların xəritələşdirilməsi;

xüsusi razılıq (lisenziya) əsasında xüsusi təyinatlı

*(1)* kartoqrafiya işlərinin aparılması;

torpaqların vəziyyəti və istifadəsi üzrə xəritə və atlasların tərtib edilməsi;

torpaqlardan səmərəli istifadə edilməsi və onların münbitliyini qorunması və bərpası məqsədilə mədəni- texniki işlərin aparılması, eroziyaya qarşı qoruyucu meşə zolaqlarının salınması, yamacların terraslaşdıralması, sahil bərkedici hidrotexniki qurğuların inşası, üst qatı korlanmış torpaqların rekultivasiyası üzrə işçi lahiyələrinin.

5. Ayrı-ayrı torpaq mülkiyyətlərinin, istifadəçilərinin və icarəçilərinin konkret torpaq sahələrində istehsal vasitələrindən ( ilk novbpdp torpaqdan) səmərəli istifadə edilməsini və ərazi təşkilinin təmin etmək üçün aşağıdakı təsərrüfat daxili yerquruluşu işəlri aparılır:

növbəli əkin sistemlərinin və onların ərazilərinin təşkili;

çoxillik əkmələrin ərazilərinin təşkili;

təbii yem bitkilərinin ərazilərinin təşkili;

6. Dövlət mülkiyyətində olan Azərbaycan Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* və Naxçıvan Muxtar Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)*, bələdiyyə mülkiyyətində olan torpaqların kompleks yerquruluşu layihələri bələdiyyələr, xüsusi mülkiyyətdə olan torpaqların təsərrüfatdaxili yerquruluşu layihələri isə mülkiyyətçilər tərəfindən təsdiq edilir.

7. Yerquruluşu işlərinə dair hazırlanmış sxem və layihələri həyata keçirilməsinə müəllif nəzarətini müvafiq olaraq Komitəsinin və Naxçıvan Muxtar Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* qərarı, bələdiyyəlrinin təşəbbüsü və ya torpaq mülkiyyətçilərinin, istifadəçilərinin, icarəçilərinin sifarişi ilə Azərbaycan Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* və Naxçıvan Muxtar Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* Yerqurluşu Layihə İnistutları həyata keçirirlər.

## QƏRAR № 167

***Bakı şəhəri, 19 oktyabr 1999-cu il***

# Torpaq bazarı ilə bağlı bəzi məsələlər haqqında

"Torpaq bazarı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu id 8 iyul tarixli 150 nömrəli Fəramının icrası ilə əlaqədar Azərbayxcan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "İnzibati-ərazi vahidləri üzrə xüsusi mülkiyyətçinin əldə edə biləcək torpaq sahəsinin yuxarı həddinin müəyyən edilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. "Dövlət rüsumunun dərəcələri və ödənilməsi qaydası haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 29 iyul tarixli 156 nömrəli Qərarının 1-ci bölməsinin 3-cü bəndinin a) yarımbəndində "qurğuların, tikililərin" sözlərindən sonra "torpaqların" sözü əlavə edilsin. *(Qüvvədən düşüb: 17 may 2000-ci il, Qərar № 91)*

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının***
***Baş naziri A. Rasizadə***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*1999-cu il 19 oktyabr tarixli 167 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

# İnzibati-ərazi vahidləri üzrə xüsusi mülkiyyətçinin əldə edə biləcək torpaq sahəsinin yuxarı həddinin müəyyən edilməsi Qaydası

***Əlavə və dəyişikliklər:***
*1. 7 fevral 2000-ci il, № 18*
*2. 16 noyabr 2001-ci il, № 184*

Bu Qayda "Torpaq bazarı haqqında" Azərbaycan Respublikası Qanununa və digər qanunvericilik aktlarına müvafiq olaraq inzibati-ərazi vahidləri üzrə xüsusi mülkiyyətçinin əldə edə biləcək ğorpaq sahəsinin yuxarı zəddinin müəyyən edilməsi qaydalarını tənzimləyir.

1. Azərbaycan Respublikasının Torpaq Məcəlləsi və qüvvədə olan digər qanunvericilik aktları ilə müəyyən olunmuş qaydada qeydiyyata alınmış və alqı-satqı predmeti olan torpaq sahələri torpaq bazarında alqı-satqı obyekti ola bilər.



2. İnzibati-ərazi vahidləri üzrə xüsusi mülkiyyətçinin əldə edə biləcək torpaq sahəsinin yuxarı həddi inzibati ərazi vahidinin özəlləşdirilə bilən torpaq ehtiyatlarından, əhalinin sıxıldığından, torpaqdan istifadənin yerli xüsusiyyətlərindən, torpaqların məqsədi təyinatından, hüquqi rejimindən, keyfiyyətindən, ərazinin şəhərsalma sənədləri rejimindən, keyfiyyətindən, ərazinin şəhərsalma sənədləri əsasında inkişaf perspektivindən, orta torpaq normasından və digər şəraitdən asılı olaraq, aşağıdakı ölçülərdə müəyyən edilir: xüsusi mülkiyyətdə olan torpaqların alqı-satqısında inzibati-ərazi vahidi üzrə özəlləşən torpaqlara görə, adambaşına düşən orta torpaq normasının 500 misilnədək;

bələdiyyənin yaşayış məntəqələrinin perspektivi inkişafı üçün ayrılan ərazilərində yerləşmiş kənd təsərrfatlarına yararlı torpaq sahələrindən həyatyanı sahələr, fərdi və çoxmənzilli yaşayış evlərinin tikintisi, fərdi və kooperativ qarajların tikintisi, habelə sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədilə zəruri tikililərin inşası üçün torpaq sahələrinin alqı-satqısında həmin inzibati-ərazi vahidi üzrə özəlləşən torpaqlara görə, adambaşına düşən orta torpaq norması, yerli şərait, əhalinin sıxlığı və torpaq ehtiyatının miqdarı *və Qanunla müəyyən edilmiş hədləri (2)* nəzərə alınmaqla, müvafiq rayon, şəhər bələdiyyə orqanının müəyyən etdiyi ölçüdə;

bələdiyyənin ehtiyat fondunun kənd təsərrüfatına az yararlı və yararsız torpaqlarının alqı-satqısı zamanı: torpaq sahələri az yararlı olduqda, inzibati-ərazisi vahidi üzrə özəlləşən torpaqlara görə, adambaşına düşən orta torpaq normasının 500 mislinədək, torpaq sahələri yararsız olduqda isə 600 mislinədək;

xüsusi şəhərsalma əhəmiyyətinə malik ərazi planlaşdırması əsasında yaşayış məntəqəsinin infrastruktur sahələrinin yaradılması üçün nəzərdə tutulan bələdiyyə torpaqlarının alqı-satqısında yuxarı hədd layihələrdə (texniki-iqtisadi əsaslandırmalarda) göstərilən ölçülərə görə müəyyənləşdirilir.

## QƏRAR № 3

***Bakı şəhəri, 12 yanvar 2000-ci il***

# Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəricilərinin qeydiyyata alınması qaydalarının təsdiq edilməsi haqqında

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 162 nömrəli fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəricilərinin qeydiyyata alınması qaydaları təsdiq edilsin *(əlavə olunur)*.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 12 yanvar tarixli 3 nömrəli qərarı ilə* ***təsdiq edilmişdir***

## Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəricilərinin qeydiyyata alınması qaydaları

1. Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəriciləri Dövlət Statistika Komitəsi tərəfindən müəyyən olunmuş qaydada qeydiyyata alınır. Müəssisə və təşkilatlar Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən təsdiq edilmiş statistik göstəricilər və hesabatlar əsasında müəyyən edilmiş qaydada və vaxtda bu barədə aidiyyəti statistika orqanlarına hesabat təqdim edirlər.

2. Bələdiyyələrin ərazisində yerləşən statistika orqanları Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış tövsiyə əsasında bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatlar üzrə statistik məlumatları rayon (şəhər) üzrə yekunlaşdırır, müvafiq bələdiyyə orqanlarına və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə təqdim edirlər.

3. Zəruri hallarda bələdiyyələrin sifarişi və vəsaiti hesabına Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə razılaşdırılmış sorğu anketləri əsasında bələdiyyələrin ərazisində statistik işlər planında nəzərdə tutulmamış müşahidələr keçirilə bilər.

4. Bələdiyyələrin tabeliyində olan müəssisə və təşkilatlar "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq öz fəaliyyətinə dair rüblük və illik maliyyə və mühasibat uçotu hesabatlarını və balanslarını müəyyən olunmuş həcmdə və müddətlərdə müvafiq maliyyə orqanlarına təqdim edirlər.

5. Bələdiyyələrin tabeliyində olan müəssisə və təşkilatlar bələdiyyələrin tabeliyinə verilməzdən əvvəl onların pul vəsaiti, əmlakı, hesablaşmaları, fondları və s. balans göstəriciləri bələdiyyələr tərəfindən təyin olunmuş inventarlaşdırma komissiyası vasitəsi ilə inventarlaşdırılır və nəticəsi aktla rəsmiləşdirilir.



# QƏRAR № 42

*Bakı şəhəri, 15 mart 2000-ci il*

## Azərbaycan Respublikasının Torpaq Məcəlləsi ilə bağlı bəzi normativ hüquqi aktlar haqqında

*Əlavə və dəyişikliklər:*

*1. 05 fevral 2008-ci il, № 27*

"Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli, 176 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Kənd təsərrüfatı və meşə təsərrüfatı istehsalı itkilərinin və ziyanının miqdarının müəyyən edilməsi və ödənilməsi qaydaları", "Torpaq sahələrinin geri alınması, dövlət *ehtiyacları (1)* üçün ayrılması barədə vəsatətlərin qaldırılması və onlara baxılması qaydaları", "Örüş, otlaq və biçənək sahələrinin istifadəyə və icarəyə verilməsi, habelə istifadə edilməsi qaydaları" və "Sənaye, nəqliyyat, rabitə və digər təyinatlı torpaqların istifadəsi qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Dövlət qeydiyyatına alına bilən torpaq sahəsinin minimum həddi sənaye, nəqliyyat, rabitə, istehsal, xidmət, sahibkarlıq və digər məqsədlə fəaliyyət göstərən obyektlərə dair münasibətdə ayrı-ayrılıqda həmin obyektlərin fəaliyyəti üçün zəruri olan texniki, sanitar, mühafizə şərtləri nəzərə alınmaqla onların baş planlarında müəyyən edilmiş torpaq sahəsi, qalan hallarda isə 1 (bir) kvadrat metr qəbul edilir.

3. "Azərbaycan SSR-nin yay və qış otlaqları haqqında əsasnaməsi barədə" Azərbaycan SSR Nazirlər Sovetinin 1972-ci il 27 oktyabr tarixli, 346 nömrəli qərarı və "Kənd təsərrüfatı və meşə təsərrüfatı istehsalı itkilərinin miqdarının müəyyən edilməsi, ödənilməsi qaydası və toplanmış vəsaitin təyinatı" haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 24 yanvar tarixli, 37 nömrəli qərarı (4-cü bənd istisna olmaqla) qüvvədən düşmüş hesab edilsin.

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri A. Rasizadə***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 mart tarixli, 42 nömrəli qərarı ilə* ***təsdiq edilmişdir***

# Torpaq sahələrinin geri alınması və dövlət *ehtiyacları (9)* üçün ayrılması barədə vəsatətlərin qaldırılması və onlara baxılması qaydaları

***Əlavə və dəyişikliklər:***
*1. 1 may 2000-ci il, № 79*
*2. 22 fevral 2001-ci il, № 38*
*3. 30 iyul 2002-ci il, № 118*
*4. 6 sentyabr 2004-cü il, № 123*
*5. 7 yanvar 2005-ci il, № 5*
*6. 14 dekabr 2005-ci il, № 228*
*7. 13 sentyabr 2006-cı il, № 207*
*8. 20 noyabr 2006-cı il, № 242*
*9. 05 fevral 2008-ci il, № 27*
*10. 06 may 2008-ci il, № 109*

## I. Ümumi müddəalar

Bu qaydalar Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq, Azərbaycan Respublikasında torpaq sahələrinin geri alınması və dövlət *ehtiyacları (9)* üçün ayrılması barədə vəsatətlərin qaldırılması və onlara baxılması qaydalarını tənzimləyir.

1. Torpaq sahələrinin geri alınması və ayrılması haqqında vəsatətə baxmaq üçün yerquruluşu işi tərtib edilir. Yerquruluşu işini torpaq sahəsinin geri alınması və ayrılması haqqında *vəsatət qaldıran aidiyyəti orqanların, (4)* hüquqi və fiziki şəxslərin (sifarişçinin) nümayəndələrinin bilavasitə iştirakı ilə müvafiq rayon, şəhər torpaq şöbələri hazırlayırlar.

2. Sənaye obyektlərinin tikintisi, dəmir və avtomobil yollarının, elektrik və rabitə xətlərinin, magistral boru kəmərlərinin çəkilişi, habelə kənd təsərrüfatı və meşə təsərrüfatı istehsalı ilə əlaqədar olmayan ehtiyaclar üçün torpaq sahələri əsasən kənd təsərrüfatına yararsız və ya az yararlı torpaqlardan ayrılır. Göstərilən məqsədlər üçün meşə fondu torpaqlarından torpaq sahələri bir qayda olaraq meşə bitkiləri ilə örtülü olmayan sahələrdən, yaxud meşəbitmə şəraitinə görə yararsız və ya az yararlı sahələrdən ayrılır.

3. Faydalı qazıntıların hasilatı üçün tikinti işlərinə torpaq sahələrinin ayrılması yerin təki haqqında qanunvericiliklə müəyyən olunmuş qaydada həyata keçirilir.



4. Elektrik və rabitə xətləri, digər xətti kommunikasiyalar başlıca olaraq yollar, kanallar, mövcud xətlər boyunca çəkilir və kənd təsərrüfatı işlərinin aparılmasına maneçilik törətməməlidir.

5. ***Dövlət və ya bələdiyyə mülkiyyətində olan fiziki və hüquqi şəxslərə istifadəyə verilmiş torpaq sahələri dövlət ehtiyacları üçün torpaq sahələri istifadəçilərinin razılığı olduqda, (6, 9)*** *yerli icra hakimiyyəti orqanı və ya bələdiyyənin qərarı əsasında Azərbaycan Respublikasının Torpaq Məcəlləsində nəzərdə tutulmuş şərtlərlə geri alına bilər. (4) Əvəzsiz istifadədə olan torpaqların məcburi geri alınması yerli icra hakimiyyəti orqanının və ya bələdiyyənin vəsatəti əsasında məhkəmənin qərarı ilə həyata keçirilir. (9)*

6. *Hüquqi və ya fiziki şəxslərin mülkiyyətində olan və onlara icarəyə verilmiş torpaq sahələrinin dövlət* ***ehtiyacları (9)*** *üçün* ***geri alınması (6)*** *şərtləri və halları Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir. (4)*

7. Qeyri-kənd təsərrüfatı və qeyri-meşə təsərrüfatı məqsədləri üçün torpaq sahəsinin ayrılması iki mərhələdə aparılır:
- obyektin yerləşdirilməsinin əvvəlcədən razılaşdırılması (layihələşdirilməsi);
- torpaq sahəsinin ayrılmasının rəsmiləşdirilməsi.

## II. Obyektin yerləşdirilməsinin əvvəlcədən razılaşdırılması (layihələşdirilməsi)

8. Torpaq sahələrinin geri alınması və dövlət *ehtiyacları (9)* üçün ayrılmasında *marağı olan aidiyyəti orqanlar (4)* hüquqi və fiziki şəxslər məqsədli təyinatını göstərməklə, torpaq sahəsinin ayrılması haqqında həmin torpağın yerləşdiyi *ərazi vahidinin (2)* yerli icra hakimiyyəti və ya bələdiyyə orqanlarına vəsatət göndərirlər.

Vəsatətə aşağıdakı sənədlər əlavə edilir:
- obyektin layihələşdirilməsi və tikintisi nəzərdə tutulan dövlət orqanının qərar və ya sərəncamlarından çıxarış;
- obyektin tikintisi üçün tələb olunan torpaq sahəsinin təxmini ölçüsü və onun yerləşəcəyi sahənin cizgisi (planı);
- neft və qaz istisna olmaqla faydalı qazıntılar çıxarılması üçün torpaq sahəsinin ayrılması tələb olunduqda, faydalı qazıntıların təsdiq edilmiş ehtiyatları və onların işlənilməsinin məqsədəuyğunluğu haqqında *Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (5)* rəyi;
- meşə fondundan torpaq sahələri ayrıldıqda həmin sahələrin texniki – müayinə aktı.

9. Yerli icra hakimiyyəti və ya bələdiyyə orqanları torpaq *istifadəçilərinin, (4)* habelə sifarişçilərin iştirakı ilə vəsatətə 10 gün müddətində baxır. Qaldırılmış məsələnin həllinə razılıq verildikdə sifarişçiyə aşağıdakı sənədlər təqdim edilir:
- torpaq *istifadəçilərinin (4)* razılığı;
- ayrılması nəzərdə tutulan sahələrin rayon, şəhər torpaq şöbəsi tərəfindən təsdiq edilmiş 1:10000 və ya 1:25000 miqyasında planı;

- şəhərlərin və qəsəbələrin hüququ daxilində yerləşən obyektlər üzrə baş plandan memarlıq və şəhərsalma xidmətinin rəhbəri tərəfindən təsdiq edilmiş çıxarış;

- yerli icra hakimiyyəti və ya bələdiyyə orqanının rəyi.

10. Sifarişçi təşkilat, həmçinin obyektin yerləşəcəyi sahəni bir qayda olaraq *Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (5)* şəhər və qəsəbə hüdudlarında yerləşəcək obyektlərə dair münasibətdə - *öz səlahiyyətləri daxilində Fövqəladə Hallar Nazirliyi, (7) Dövlət Şəhərsalma və Arxitektura Komitəsi (10)*, meşə fondu torpaqlarında yerləşəcək obyektlərə dair münasibətdə - *Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (5)*, habelə mənafeyinə toxunulan digər hüquqi və fiziki şəxslərlə razılaşdıraraq onların rəylərini alır.

11. Torpaq sahələrinin *(4)* dövlət *ehtiyacları (9)* üçün ayrılması ilə əlaqədar bu Qaydaların 9 və 10-cu bəndlərində göstərilmiş sənədlər sifarişçisi tərəfindən öz səlahiyyətləri daxilində baxılıb obyektin layihələşdirilməsinə icazə verilməsi üçün müvafiq yerli icra hakimiyyətinə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin səlahiyyətinə aid olan halda isə 2 nüsxədən ibarət olmaqla müvafiq olaraq Azərbaycan Respublikasının *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə (8)* və Naxçıvan Muxtar Respublikasının *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə (8)* (obyektlə əlaqədar sifarişçinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ünvanlanmış izahlı məktubu və torpaq sahəsinin ayrılması ilə bağlı itkilərin və ziyanın, *habelə qanunvericiliklə nəzərdə tutulmuş digər xərclərin (3)* ödənilməsinə dair zəmanəti sənədlərə əlavə edilməklə) təqdim edilməlidir.

Azərbaycan Respublikasının *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi (6)* və Naxçıvan Muxtar Respublikasının *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi (6)* həmin sənədlərə 15 gün müddətində baxaraq, öz rəyi ilə birlikdə sənədlərin birinci nüsxəsini müvafiq olaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim edir.

Obyektin layihələşdirilməsinə dair icazə verilməsi bir ay müddətində həyata keçirilir.

12. Yerli icra hakimiyyətləri, bələdiyyələr, Azərbaycan Respublikasının Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən obyektin layihələşdirilməsinə dair verilmiş icazə həmin torpaq sahəsində tikinti işlərinin başlanmasına əsas vermir və verildiyi gündən başlayaraq 1 il ərzində etibarlıdır.

13. Obyektin tikiləcəyi yerin və ayrılması nəzərdə tutulan sahənin təxmini ölçüsünün qabaqcadan razılaşdırılması (layihələşdirilməsi) haqqında yerli icra hakimiyyətlərinin, bələdiyyələrin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin icazəsi həmin sahədə layihə - axtarış işləri aparmaq və bu işləri maliyyələşdirmək üçün əsasdır.

14. Sututarların olacağı yer və su altında qalması nəzərdə tutulan sahələrin təxmini ölçüləri əvvəlcədən hidrotexniki qurğular tikintisinin texniki-iqtisadi cəhətdən əsaslandırılması mərhələsində torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri ilə razılaşdırılır.



15. Yay və qış otlaqlarından torpaq sahələrinin ayrılması haqqında vəsatət ayrı-ayrılıqda həmin otlağın yerləşdiyi və müvəqqəti istifadə üçün təhkim edildiyi yerli icra hakimiyyətlərinə və ya bələdiyyələrə göndərilir. Bu halda torpaq ayrılması barədə qərar *(2)* otlaq sahələrinin yerləşdiyi *ərazinin (2)* yerli icra hakimiyyəti və ya bələdiyyələr tərəfindən torpaq istifadəçilərinin rəyi nəzərə alınmaqla qəbul edilir.

## III. Torpaq sahəsinin ayrılmasının rəsmiləşdirilməsi

16. Torpaq sahəsinin ayrılmasına *marağı olan aidiyyəti orqanlar, (4)* hüquqi və fiziki şəxslər (sifarişçi) əvvəlcədən razılaşdırılmış obyektin layihələşdirilməsi qurtardıqdan sonra torpaq sahəsinin ayrılması barədə müvafiq yerli icra hakimiyyətləri və ya bələdiyyələr qarşısında vəsatət qaldırırlar.

Vəsatətə aşağıdakı sənədlər əlavə edilir:

obyektin yerləşəcəyi sahənin əvvəlcədən razılaşdırılması (layihələşdirilməsi) barədə ilkin sənədlər;

obyektin baş planı (xətti qurğularda isə onların istiqamətinin uzununa profilli en kəsiyi);

tikintinin təsdiq edildiyi titul siyahısından çıxarış və ya tikintinin həyata keçirilməsi üçün zəruri vəsaitin olması barədə sifarişçinin arayışı;

torpaq ayrılması ilə əlaqədar olaraq torpaq mülkiyyətçilərinə, istifadəçilərinə və icarəçilərinə vurulacaq ziyanın, *qanunvericiliklə nəzərdə tutulmuş digər xərclərin (3)*, habelə kənd təsərrüfatı və meşə təsərrüfatı itkilərinin ödəniləcəyi və obyektin layihələşdirilməsi müddətində mənafeyinə toxunulan hüquqi və fiziki şəxslərin tikinti ilə bağlı qoyduqları tələblərin yerinə yetiriləcəyi barədə zəmanət məktubu.

Torpaq sahəsi faydalı qazıntı çıxarmaqdan ötrü tələb olunduqda dağ-mədən işləri üçün müəyyən olunmuş razılıq sənədi, habelə açıq üsulla faydalı qazıntı çıxarılması və ya torpağın üst qatını pozmaqla əlaqədar olan tikinti aparılması üçün torpaq ayrıldığı halda, həmin torpaqların rekultivasiyası layihəsi təqdim edilir.

17. Yerli icra hakimiyyətləri və ya bələdiyyələr vəsatətə və ona əlavə edilmiş sənədlərə sifarişçinin iştirakı ilə 10 gün müddətində baxaraq:

a) obyektin yerləşdirilməsinin razılaşdırılması barədə ilkin sənədlərdə *Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (5)* və mənafeyinə toxunulan digər hüquqi və fiziki şəxslərin qoyduqları şərtlər yerinə yetirildiyi halda, öz səlahiyyətlərinə aid olan sənədləri təsdiq edir və *qanunvericiliklə nəzərdə tutulmuş sənədlərin (8)* hazırlanması üçün qəbul etdiyi qərarın surətini və ayrılan torpağın miqyaslı planını müvafiq olaraq Azərbaycan Respublikasının *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə (8)* və Naxçıvan Muxtar Respublikasının *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə (8)* təqdim edir;

b) Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin səlahiyyətinə aid olan sənədləri isə aidiyyəti üzrə təqdim etmək üçün yerli icra hakimiyyəti öz qərarı ilə birlikdə iki nüsxədən ibarət olmaqla sifarişçiyə qaytarır.

18. Sifarişçi yerli icra hakimiyyətindən aldığı sənədləri müvafiq olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin adına izahlı məktubu (vəsatəti) ilə birlikdə iki nüsxədən ibarət olmaqla müvafiq olaraq Azərbaycan Respublikasının *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə (8)* və Naxçıvan Muxtar Respublikasının *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə (8)* təqdim edir.

19. Azərbaycan Respublikasının *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi (8)* və Naxçıvan Muxtar Respublikasının *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi (8)* sifarişçi tərəfindən təqdim olunmuş sənədləri 20 gün müddətində ekspertizadan keçirir və öz rəyi ilə birlikdə sənədlərin birinci nüsxəsini müvafiq olaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim edir.

20. Torpaq sahələrinin geri alınması və dövlət *ehtiyacları (9)* üçün ayrılması barədə Azərbaycan Respublikasının Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən qərar qəbul edildikdən sonra Azərbaycan Respublikasının *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi (8)* və Naxçıvan Muxtar Respublikasının *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi (8)*10 gün müddətində *torpaq sahəsinin planının, ölçüsünün hazırlanması, təsdiq və ya sifarişçiyə təqdim edilməsi üçün müvafiq rayon (şəhər) şöbəsinə (1,8)* göndərir.

*Torpaq üzərində hüquqlar həmçinin daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmalıdır. (3)*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*2000-ci il 15 mart tarixli, 42 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

## Örüş, otlaq və biçənək sahələrinin istifadəyə və icarəyə verilməsi, habelə istifadə edilməsi qaydaları

***Əlavə və dəyişikliklər:***
*1. 30 iyul 2002-ci il, № 118*
*2. 20 noyabr 2006-cı il, № 242*

### I. Ümumi müddəalar

1. Azərbaycan Respublikasının dövlət torpaq fonduna aid olan yay və qış otlaqları, mal-qara düşərgələri və köç yolları dövlətin müstəsna mülkiyyətindədir.



Örüş sahələri və biçənəklər yerli icra hakimiyyəti orqanlarının idarəçiliyində və ya bələdiyyələrin mülkiyyətindədir. Onlar bu qaydalara uyğun olaraq mülkiyyətində və istifadəsində mal-qara və davarlar olan fiziki və hüquqi şəxslərin haqqı ödənilməklə istifadəsinə və ya icarəsinə verilir.

Mal-qara düşərgələri və köç yolları yalnız təyinatı üzrə istifadə edilir.

2. Yay və qış otlaq sahələrinin, mal-qara düşərgələrinin və köç yollarının başqa məqsədlər üçün istifadəsinə və kateqoriyalarının dəyişdirilməsinə müvafiq olaraq Azərbaycan Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* və Naxçıvan Muxtar Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* vəsatətinə və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin razılığına əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin sərəncamı ilə icazə verilir.

3. Yerli icra hakimiyyəti orqanlarının idarəçiliyində və ya bələdiyyələrin mülkiyyətində olan kəndyanı örüş sahələri əhalinin mal-qarası üçün ümumi istifadəyə ayrılır. Ümumi istifadədə olan örüş sahələri əhalinin istifadəsinə müddətsiz verilir.

Ehtiyat fondu torpaqlarında qalan örüş sahələri və biçənəklər hüquqi və fiziki şəxslərin icarəsinə haqqı ödənilməklə verilir.

4. Örüş, otlaq sahələrinin və biçənəklərin təyinatı üzrə istifadə edilməsinə dövlət nəzarətini öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Dövlət Torpaq Komitəsi və Naxçıvan Muxtar Respublikasının *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi (2)*, habelə yerli icra hakimiyyəti orqanları və bələdiyyələr həyata keçirirlər.

5. Örüş, otlaq və biçənək sahələrinin məhsuldarlığı və münbitliyi təbii amillərin təsiri nəticəsində itirilərsə, bu sahələr müvafiq yerli icra hakimiyyəti orqanının və ya bələdiyyənin vəsatətinə əsasən dövriyyədən çıxarılaraq konservasiya edilir. Həmin sahələrin sağlamlaşdırılması qaydası müvafiq normativ-hüquqi aktlarla tənzimlənir.

### II. Yay və qış otlaqlarının bölünməsi

6. Yay və qış otlaqları mülkiyyət formasından asılı olmayaraq heyvandarlığın inkişafı üçün təbii yem mənbəyi olmaqla, yem ehtiyatının artırılması məqsədi ilə istifadə edilir.

7. Yerli icra hakimiyyəti orqanlarının və bələdiyyələrin vəsatəti, habelə Azərbaycan Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)*, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Naxçıvan Muxtar Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* və Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin razılığı əsasında yay və qış otlaq sahələrinin inzibati-ərazi vahidləri üzrə bölgüsünü Azərbaycan Respublikasının Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti təsdiq edir.

8. Yay və qış otlaq sahələrinin inzibati-ərazi vahidlərinin arasında bölüşdürülməsi zamanı aşağıdakı şərtlər nəzərə alınır:

a) dövlət damazlıq təsərrüfatının və bələdiyyə mülkiyyətində olan müəssisələrin yaya və qış otlaqlarına olan tələbatı;

b) mülkiyyət formasından asılı olmayaraq, fiziki və hüquqi şəxslərin yay və qış otlaqlarına tələbatı;

c) otlaq sahələrinin yerləşdiyi yer;

ç) otlaq sahəsində müvafiq tikililərin olması;

d) fiziki və hüquqi şəxslərin mülkiyyətində, yaxud istifadəsində olan otlaq sahələrində davarların saxlanılması imkanı;

e) davarların sayı;

ə) otlaq sahəsinin tutumu;

f) köç yolu və mal-qara düşərgəsinin mövcud vəziyyəti.

9. Yay və qış otlaq sahələrinin yerlərdə dövlət, bələdiyyə və ya xüsusi mülkiyyət formalı təsərrüfatlar, eləcə də digər fiziki və hüquqi şəxslər arasında bölüşdürülməsi yerli icra hakimiyyəti orqanlarının və ya bələdiyyələrin sərəncamı ilə həyata keçirilir.

10. Fiziki və hüquqi şəxslər onların yay və qış otlaq sahələrinə olan tələbatlarının ödənilməsi barədə yerli icra hakimiyyəti orqanlarına və ya bələdiyyələrə müraciət edirlər. Bu müraciətlərin əsasında Azərbaycan Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* və Naxçıvan Muxtar Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* yerli torpaq şöbələri tərəfindən müvafiq torpaqayırma sənədləri hazırlanır.

Yerli icra hakimiyyəti orqanları və ya bələdiyyələr 15 gün müddətinə həmin müraciətə və hazırlanmış sənədlərə baxaraq müvafiq qərar qəbul edirlər:

Qərarda aşağıdakılar göstərilir:

a) fiziki və hüquqi şəxslərin istifadəsinə və ya icarəsinə veriləcək otlaq sahəsinin nömrəsi və adı;

b) otlaq sahəsinin ölçüsü və yerləşdiyi ərazi;

c) sahənin torpaq və bitki örtüyünün vəziyyəti;

ç) həmin torpağın normativ qiyməti (dəyəri) barədə nümunəsi əlavədə göstərilmiş qaiməyə (sertifikata) uyğun olaraq məlumat;

d) otlağın tutumu və su təminatı;

e) otlaq sahəsində olan müvafiq tikili və obyektlərin adı, sayı və ölçüsü;

ə) tikili və obyektlərin mövcud istifadəyə yararlılıq vəziyyəti.

11. Yerli icra hakimiyyəti orqanının və ya bələdiyyənin sərəncamı ilə ayrılmış otlaq sahəsinin sərhədi yerquruluşu xidməti tərəfindən yerdə (naturada) qoyulduqdan sonra *istifadəçi (icarəçi) ilə icarə (istifadə) müqaviləsinin bağlanması (2)* qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

12. Otlaq sahəsindən müvəqqəti istifadə və icarə müddəti başa çatdıqda, yeni müddət üçün həmin sahənin istifadəsində və icarəsində üstünlük hüququ əvvəlki istifadəçiyə və icarəçiyə verilir.



### III. Yay və qış otlaqlarının istifadəsi və icarəsi

13. Dövlət və bələdiyyə mülkiyyətində olan müəssisələrə yay və qış otlaq sahələri qısa müddətli istifadəyə verilir, digər hüquqi və fiziki şəxslərin icarəsinə isə bir qayda olaraq 10 ildən 15 ilədək verilir. *Yay və qış otlaq sahəsinin üzərində istifadə, icarə hüquqlarının qeydiyyatı qanunvericiliklə nəzərdə tutulmuş qaydada daşınmaz əmlakın dövlət reyestrində aparılır. (2)* İcarənin şərtləri tərəflərin razılığı ilə müəyyən edilir və icarə müqaviləsində təsbit olunur.

Qış otlaqlarına tələbat hesablanarkən otlaqların bitki örtüyündən, keyfiyyətindən, tutumundan, habelə torpaqların mexaniki tərkibindən və humus qatının qalınlığından asılı olaraq hər hektara 1-4 baş, yay otlaqlarında isə iki dəfə artıq davarın otarılması nəzərdə tutulur.

14. Davarların baş sayı azaldıqda, yaxud sürü tamamilə sıradan çıxdıqda və ya onların mülkiyyətçisi dəyişdikdə istifadəsiz qalmış otlaq sahələrindən (yaxud onun bir hissəsindən) istifadə hüququna yerli icra hakimiyyəti orqanının və ya bələdiyyənin sərəncamı ilə xitam verilir. Əgər belə bir hal bütövlükdə hər hansı inzibati-ərazi vahidinin ərazisində baş verərsə, onda otlaqların istifadə edilməyən hissəsi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təklifi, Azərbaycan Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* və Naxçıvan Muxtar Respublikası *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (2)* razılığı əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin sərəncamı ilə həmin inzibati-ərazi vahidinin istifadəsindən geri alınıb, ehtiyacı olan digər inzibati-ərazi vahidinə verilir.

15. Yay və qış otlaqlarının istifadəsi və icarəsi zamanı inzibati-ərazi vahidləri daxilində yaranmış mübahisə barədə müvafiq rayon, şəhər torpaq şöbəsinə müraciət olunur. Torpaq şöbəsində 10 gün müddətində məsələ torpaq qanunvericiliyinin tələblərinə uyğun olaraq araşdırılır və konkret təkliflə müvafiq yerli icra hakimiyyəti orqanı və ya bələdiyyə qarşısında vəsatət qaldırılır.

16. Yerli icra hakimiyyəti orqanı və ya bələdiyyə 15 gün ərzində həmin vəsatətə baxıb müvafiq qərar qəbul edir.

Yay və qış otlaqlarının istifadəsində inzibati-ərazi vahidləri arasında baş verən mübahisələrə Azərbaycan Respublikasının *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi (2)* və Naxçıvan Muxtar Respublikasının *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi (2)*, habelə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən birgə baxılır və həll edilir.

17. Yay və qış otlaq sahələrindən istifadəyə görə vergi tutulması *Azərbaycan Respublikasının Vergi Məcəlləsi, (2)* icarə haqqının müəyyən edilməsi isə Azərbaycan Respublikasının Torpaq Məcəlləsi ilə tənzimlənir.

## IV. Örüş sahələrinin və biçənəklərin istifadəsi və icarəsi

18. Yerli icra hakimiyyəti orqanlarının idarəçiliyində və bələdiyyə mülkiyyətində olan örüş sahələri və biçənəklərin ümumi istifadəyə, dövlət və bələdiyyə mülkiyyətində olan müəssisələrə qısa müddətli istifadəyə və digər hüquqi şəxslərin icarəsinə verilməsi yerli icra hakimiyyəti orqanlarının və ya bələdiyyələrin sərəncamı (qərarı) ilə həyata keçirilir. Ümumi istifadəyə ayrılmış örüş sahələri torpaq vergisinə cəlb edilmir.

19. Örüş sahələrinin və biçənəklərin fiziki və hüquqi şəxslərin istifadəsinə və ya icarəsinə verilməsi üçün tələbat hesablanarkən mal-qaranın sayından, torpaq ehtiyatlarının həcmindən, sahənin tutumundan, coğrafi yerləşməsindən, suvarma imkanından asılı olaraq bu torpaqların dəmyə sahəsində hər hektarda 2-3 baş davar və 1 baş iribuynuzlu mal-qara, suvarılan sahəsində isə müvafiq olaraq iki dəfə artıq davar və iribuynuzlu mal-qara otarılması (yemləndirilməsi) nəzərdə tutulur.

20. İstifadəyə və icarəyə verilmiş örüş sahələrinin və biçənəklərin sərhədləri naturada mərz nişanları ilə ayrılır, istifadəçilərə və icarəçilərə qanunvericiliyə uyğun olaraq müvafiq *(2)* sənədlər verilir.

*Torpaq üzərində hüquqlar həmçinin daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmalıdır. (1)*

21. Örüş sahələrinin və biçənəklərin istifadəyə və icarəyə verilməsi bu qaydaların II və III bölmələrinə uyğun olaraq həyata keçirilir.

## V. Yay və qış otlaqlarından, örüş sahələrindən və biçənəklərdən istifadədə qanunvericiliyə əməl edilməsi

22. Fiziki və hüquqi şəxslər onların istifadəsinə və ya icarəsinə verilmiş yay və qış otlaq sahələrindən, habelə örüş və biçənəklərdən təyinatına uyğun olaraq səmərəli istifadə etməlidirlər.

23. Yay və qış otlaqlarını istifadəyə və icarəyə götürən fiziki və hüquqi şəxslər həmin sahənin 20-25 faizini dincə qoya bilər və tələbata uyğun olaraq çoban evləri, heyvandarlıq və digər mədəni-məişət və istehsal təyinatlı tikililər tikə bilərlər (əsaslı tikinti aparmamaq şərti ilə). Həmin tikintilər üçün torpaq sahəsi yerli icra hakimiyyəti orqanının və ya bələdiyyənin sərəncamı ilə torpaqayırma qaydasında ayrılır.

24. Otlaqların istifadə və ya icarə müddəti qurtardıqdan sonra həmin sahə başqa istifadəçiyə və ya icarəçiyə verildikdə, yaxud bu qaydaların 14-cü maddəsinə əsasən otlaq sahələri geri alındıqda yataqda olan tikililərin dəyəri qarşılıqlı razılaşma əsasında yeni istifadəçi və ya icarəçi tərəfindən ödənilir. Razılaşma mümkün olmadıqda tikinti əvvəlki istifadəçi və ya icarəçi tərəfindən sökülüb aparılır.

25. Torpaq istifadəçiləri və ya icarəçiləri aşağıdakı şərtlərə əməl etməyə borcludurlar:

a) otlaq sahələrindən təyinatı üzrə istifadəyə;

b) otlaq sahələrindəki su mənbəyindən səmərəli istifadəyə və onların qorunub saxlanılmasına;



c) otlaq sahələrindəki mərz nişanlarının qorunmasına;

ç) köç yolu və mal-qara düşərgəsinin təyinatı üzrə istifadəçisinə;

d) yataqlar və otlaqlararası xüsusi yollardan istifadə etməyə, lazımsız yol və cığırların salınmasına yol verməməyə;

e) otlaqlarda baytarlıq-sanitariya tələblərinə ciddi riayət etməyə;

ə) otlaqlarda iribuynuzlu mal-qaranın sürü halında otarılmasına.

26. Quzuları və boğaz heyvanları yaşıl yemlə təmin etmək məqsədi ilə istifadəyə və ya icarəyə verilmiş qış otlağının ümumi sahəsinin 3 faizindən çox olmayan hissəsi yaşıl yem üçün arpa əkini altında istifadə edilə bilər.

27. Fiziki və hüquqi şəxslərin istifadəsinə və ya icarəsinə verilmiş örüş, otlaq və biçənək sahələrinin sərhədlərinin dəyişdirilməsi müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin sərəncamı ilə, inzibati-ərazi vahidlərinin arasında bu cür dəyişikliklər müvafiq olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin sərəncamı ilə həyata keçirilir.

28. Örüş, otlaq və biçənək sahələrinin istifadəçiləri və icarəçiləri tərəfindən həmin sahələrin alınıb-satılmasına, girov qoyulmasına, özbaşına dəyişdirilməsinə və torpaq qanunvericiliyinin digər tələblərinin pozulmasına yol verilmir.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*2000-ci il 15 mart tarixli, 42 nömrəli qərarı ilə*
*təsdiq edilmiş qaydalara*

***əlavə***

## İstifadəyə və ya icarəyə verilmiş otlaq sahəsinin qaiməsi (sertifikatı)

| Sıra №-si | Yaylaq və qışlaq Sahələrinin adı və nömrəsi | Otlaq tiplərinin adı | Otlağa yararlı sahələr (hektarla) | Yerüstü kütlənin ot məhsuldarlığı (sentnerlə) | Ümumi yem ehtiyatı | | | Otlağın tutumu (xırda buynuzlu mal-qaranın baş sayı hesabı ilə) | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Quru yeyilən kütlə | Yem vahidi | Mənimsənilən protein | 1 hektarda | Cəmi sahədə |
| | | | | | | | | | |

_____ -rayon torpaq şöbəsinin müdiri

M. Y ________________

İmza, soyadı, adı və atasının adı

"__" __________ 2000-ci il

Dövlət Yerquruluşu Layihə İnstitutu

M. Y ________________ -

İmza, soyadı, adı və atasının adı

"__" __________ 2000-ci il

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 mart tarixli, 42 nömrəli qərarı ilə* ***təsdiq edilmişdir***

## Sənaye, nəqliyyat, rabitə və digər təyinatlı torpaqların istifadəsi qaydaları

***Əlavə və dəyişikliklər:***

*1. 7 yanvar 2005-ci il, № 5*
*2. 20 noyabr 2006-cı il, № 242*
*3. 06 may 2008-ci il, № 109*

1. Bu qaydalar Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq Azərbaycan Respublikasının ərazisində sənaye, nəqliyyat, rabitə və digər təyinatlı torpaqların istifadəsi qaydalarını tənzimləyir.

2. Sənaye, rabitə, nəqliyyat, ticarət, ictimai iaşə və digər istehsal və xidmət obyektlərinin yerləşdirilməsi (tikinti, yenidənqurma, genişləndirmə işlərinin aparılması) və fəaliyyəti üçün qanunvericiliklə müəyyən edilmiş qaydada ayrılan və əldə edilən torpaq sahələri sənaye, nəqliyyat, rabitə və digər təyinatlı torpaqlar sayılır.

3. Sənaye, nəqliyyat, rabitə və digər təyinatlı torpaqların fiziki və hüquqi şəxslərin (bundan sonra sifarişçi) istifadəsinə və icarəsinə verilməsini öz səlahiyyəti daxilində yerli icra hakimiyyəti orqanları və bələdiyyələr həyata keçirirlər.

4. Ayrılmış torpaqdan tam və səmərəli istifadə etmək üçün sifarişçi tikiləcək obyektin əsas texniki - iqtisadi parametrlərini müəyyənləşdirmək üçün layihəqabağı araşdırmalar aparır. Təqribi hesablamalar əsasında aparılan bu araşdırmalar nəticəsində obyektin təyinatı, istehsalat və həndəsi parametrləri, suya, elektrik enerjisinə, istiliyə və s. tələbatı, istehsal və məişət tullantılarının həcmi, nəqliyyat kommunikasiyalarına qoşulma ehtiyacı, tikinti üçün ayrılacaq torpaq sahəsinin ölçüləri və digər ilkin texniki-iqtisadi göstəricilər müəyyən edilir.

Aparılmış layihəqabağı araşdırmalar nəticəsində sifarişçi tikiləcək obyekt üçün torpaq sahəsinin ayrılmasına dair müvafiq vəsatət hazırlayır.

Torpaq sahəsinin ayrılması haqqında sifarişçinin vəsatətinə yerli icra hakimiyyəti orqanları və bələdiyyələr 30 gün müddətində baxır və müvafiq qərar qəbul edirlər.

5. Sənaye, nəqliyyat, rabitə və digər təyinatlı obyektlər əsasən təsdiq olunmuş rayon planlaşma layihəsində və yaşayış məntəqələrinin baş planlarında nəzərdə tutulmuş ərazilərdə *Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, (10) Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, (1) Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi (2)* və mənafeyinə toxunulan digər təşkilatlarla razılaşdırılmaqla yerləşdirilməlidir.

6. Layihəqabağı araşdırmalara istinad edərək, sənaye obyektləri üçün ayrılmış torpaq sahəsi istehsalatın nəqliyyat və mühəndis xətlərinin əhatədəki müəssisə və yaşayış məntəqələri ilə əlaqəli təşkilini, eyni zamanda həmin müəssisənin fəaliyyətinə lazım olan suburaxma, təmizləyici qurğu və başqa obyektlərin yerləşdirilməsini təmin etməlidir.



7. Sənaye obyektləri yerləşdirildikdə torpaqdan istifadə daha səmərəli və iqtisadi cəhətdən əlverişli olmalı, habelə torpaq istifadəçisinə vurulan ziyan və əldən çıxan gəlir ödənilməlidir.

8. Layihələşdirmə zamanı tikiləcək (qurulacaq) obyektlər arasında istifadəsiz torpaq sahəsinin yaranmasına yol verilməməlidir.

9. Sənaye obyektləri yerləşdirilərkən onların arasındakı tələb olunan sanitar və yanğından mühafizə məqsədi ilə verilən məsafələr normadan artıq olmamalı və kommunikasiya xətləri maksimum qısa olmalıdır.

10. Sənaye müəssisələri texnoloji proseslərlə əlaqədar olaraq ətraf mühitə ziyan verdiyi üçün yaşayış və ictimai binalardan sanitar-mühafizə zonası ilə ayrılmalıdır. Mühafizə zonasının hüdudlarında torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri bu zonalar üçün təsdiq edilmiş qaydalara əməl etməyə borcludurlar.

11. Sənaye, nəqliyyat, rabitə və digər təyinatlı torpaqların istifadəsi nəticəsində yaranan istehsal tullantıları və çirkab suları ilə əlaqədar ətraf mühitin çirklənməsinə qarşı tədbirlər görülməli, həmin obyektlərin yerləşəcəyi torpağın 15-20 sm-lik yuxarı (üst) məhsuldar qatı götürülərək az məhsuldar sahələrə köçürülməli və planlaşma həllinin texniki-iqtisadi cəhətdən ən əhəmiyyətlisi seçilməlidir.

12. Sənaye, nəqliyyat, rabitə və digər təyinatlı obyektlərin yerləşdirilməsi üçün torpaq sahəsinin sərhədləri *(2)* müvafiq xidmətləri (memarlıq-tikinti, yerquruluşu) tərəfindən naturada (yerdə) müəyyən edilərək torpaqdan istifadə *hüququnun daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınması məqsədilə qanunvericiliklə müəyyən edilmiş sənədlər hazırlanır (2)* və tikinti aparmaq üçün zəruri şərtlərlə birlikdə sifarişçiyə təhvil verilir.

13. Sifarişçiyə mənsub olan torpaq sahəsində yeni təyinatlı obyekt tikintisi aparmaq üçün bu qaydalara uyğun yenidən razılaşdırmalar aparılmalıdır.

Torpaq sahəsinin ayrılması və mövcud istifadədən çıxarılması ilə əlaqədar torpağın qiymətinin, dəyəcək ziyanın və əldən çıxacaq gəlirin sifarişçi tərəfindən torpaq sahibinə ödənilməsi qaydası qüvvədə olan normativ hüquqi aktlarla tənzimlənir.

14. Sənaye, nəqliyyat, rabitə və digər təyinatlı obyektlərin tikintisi üçün torpaq sahələrinin ayrılması ilə əlaqədar texniki-iqtisadi göstəricilərin və digər sənədlərin hazırlanması, razılaşdırılması, tərtibatı və sair xərclər sifarişçinin vəsaiti hesabına həyata keçirilir.

15. Torpaqların vəziyyətinə təsir göstərə bilən təzə tikililər, qurğular və yenidən qurulan obyektlər, yerləşdirilərkən, layihələşdirilərkən, tikilərkən və istismara verilərkən, habelə yeni texnologiyalar tətbiq edilərkən torpaqların mühafizəsi sahəsində tədbirlər nəzərdə tutulmalı və həyata keçirilməlidir.

# QƏRAR № 117

*Bakı şəhəri, 13 iyul 2000-ci il*

## Azərbaycan Respublikasında heyvanlar aləmi ilə bağlı bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında

***Əlavə və dəyişikliklər:***
*1. 6 fevral 2002-ci il, № 22*
*2. 11 sentyabr 2004-cü il, № 129*
*3. 7 yanvar 2006-cı il, № 5*

"Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası prezidentinin 1999-cu il 30 avqust tarixli, 186 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dövlət əhəmiyyətli təbii sərvətlərə aid edilən heyvanlar aləmi obyektlərinin növləri, bələdiyyə və ya xüsusi mülkiyyət hüququnda ola bilən heyvan növlərinin sənədlərinin forması və siyahısı", "Heyvanlar aləmindən ümumi və xüsusi istifadə Qaydaları", "Vəhşi heyvanlardan onların həyat fəaliyyətinin məhsullarını əldə etmək məqsədi ilə istifadə edilməsi Qaydaları", "Zooloji kolleksiyaların yaradılması, zənginləşdirilməsi, saxlanması, istifadəsi, dövlət uçotuna alınması, onlarla ticarət, habelə Azərbaycan Respublikasına gətirilməsi, onun hüdudlarından kənara göndərilməsi və aparılması Qaydaları" və "Ekoloji təhlükəsizlik normativləri və vəhşi heyvanların əldə edilməsi limitləri" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının***
***Baş naziri A. Rasizadə***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*2000-ci il 13 iyul tarixli, 117 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

## Dövlət əhəmiyyətli təbii sərvətlərə aid edilən heyvanlar aləmi obyektlərinin növləri, bələdiyyə və ya xüsusi mülkiyyət hüququnda ola bilən heyvan növlərinin sənədlərinin forması və siyahısı

### I. Ümumi müddəalar

1. Bu sənəd "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası Qanununa və "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq



edilməsi barədə" Azərbaycan Respublikası prezidentinin 1999-cu il 30 avqust tarixli, 186 nömrəli Fərmanına əsasən hazırlanmışdır və dövlət əhəmiyyətli təbii sərvətlərə aid edilən heyvanlar aləmi obyektlərinin növləri, bələdiyyə və ya xüsusi mülkiyyət hüququnda ola bilən heyvan növlərinin formasını və siyahısını müəyyən edir.

2. Azərbaycan Respublikasının xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində, digər su obyektlərində, ov yerlərində və meşə fondu sahələrində təbii sərbəstlik şəraitində olan heyvanlar aləminin obyektləri dövlət əhəmiyyətli təbii sərvətlər aid edilir.

3. Xüsusi təbii mühafizə, elmi və estetik dəyərli heyvanlar aləminin obyektləri, habelə Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilmiş heyvan növləri (qeyri-sərbəst şəraitdə yetişdirilmiş (alınmış) və ya Azərbaycan Respublikasının hüdudlarından kənarda qanunvericilikdə nəzərdə tutulmuş qaydada bələdiyyə mülkiyyəti və ya xüsusi mülkiyyət üçün əldə edilmiş heyvanlardan başqa) bələdiyyə mülkiyyətinə və ya xüsusi mülkiyyətə aid edilə bilməzlər.

4. Heyvanlar aləminin obyektləri üzərində bələdiyyə və ya xüsusi mülkiyyət hüququ qanunvericilik aktlarında nəzərdə tutulmuş qaydada heyvanlar aləminin mühafizəsinin xeyrinə məhdudlaşdırıla bilər.

5. Fiziki və hüquqi şəxslər tərəfindən qeyri-sərbəst vəya yarımsərbəst şəraitdə saxlanılan, təbii mühitdən götürülməsinə və başqa yollarla əldə edilməsinə dair sənədləri olmayan vəhşi heyvanlar qanunsuz əldə edilmiş hesab edilir.

### II. Dövlət əhəmiyyətli təbii sərvətlərə aid edilən heyvanlar aləmi obyektləri

1. Dövlət əhəmiyyətli təbii sərvətlərə aid edilən heyvanlar aləmi obyektlərinə aşağıdakılar aiddir:

a) Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilənlər;
b) kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna növləri;
c) endemik və relikt;
ç) tibb sahəsində istifadə olunanlar;
d) sənaye əhəmiyyətlilər;
e) kənd və meşə təsərrüfatı ziyanvericilərinə qarşı istifadə edilənlər;
ə) ov və balıqçılıq obyektlərinə aid olunanlar;
f) xəz dərililər;
q) ov və balıqçılıq obyektlərinə aid edilməmiş digər növlər;
ğ) heyvanların paleontoloji qalıqları;
h) heyvanların kütləvi yuvalama, balalama, kürütökmə, tüləmə, daimi və müvəqqəti yığışma yerləri.

## III. Bələdiyyə və ya xüsusi mülkiyyət hüququnda ola bilən heyvan növlərinin siyahısı

1. Təbii sərbəstlik şəraitindən və ya təbii mühitdən ayrılıb, yarımsərbəst və ya qeyri-sərbəst şəraitdə yetişdirilmiş (alınmış), yaxud qanunvericiliklə icazə verilən digər yollarla əldə edilmiş vəhşi heyvanlar və heyvanlar aləminin digər obyektləri bələdiyyə mülkiyyətində və ya xüsusi mülkiyyətdə ola bilər.

1-ci bölmənin 3-cü bəndində göstərilən heyvan növləri istisna olmaqla bələdiyyə mülkiyyətində və ya xüsusi mülkiyyətdə aşağıdakı heyvan növləri ola bilər:

a) məməlilər;
b) quşlar;
c) sürünənlər;
ç) suda-quruda yaşayanlar;
d) balıqlar;
e) dəyirmiağızlılar;
ə) molyuskalar;
f) buğumayaqlılar;
q) qurdlar;
ğ) bağırsaqboşluqlular;
h) ibtidai orqanizmlər.

2. Heyvan növlərinin bələdiyyə və ya xüsusi mülkiyyətdə olmasının qanuniliyi *Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (3) tərəfindən verilən (1)* və xüsusi reyestr kitabında qeydə alınan şəhadətnamə ilə rəsmiləşdirilir (əlavə olunur).

3. Bələdiyyə və ya xüsusi mülkiyyət üçün əldə edilmiş heyvan növlərinə şəhadətnamə alınması üçün onların əldə edildiyi vaxtdan 15 gün müddətində *Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (3)* yerli orqanlarına *(1)* mülkiyyətçilər tərəfindən ərizə (məktubla) müraciət edilməlidir.

Ərizədə aşağıdakılar əks olunmalıdır:

a) heyvanın növü;
b) miqdarı;
c) mülkiyyət hüququnda saxlanma məqsədi;
ç) saxlanması üçün şəraitin olması;
d) hüquqi şəxs üçün - hüquqi şəxsin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı;
e) fiziki şəxs üçün - adı, atasının adı, soyadı, ünvanı.

Ərizəyə heyvan növünün qanuni əldə edilməsi barədə müvafiq sənəd əlavə edilməlidir.



4. *Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (1;3)* yerli orqanları tərəfindən ərizə (məktub) qeydə alınmaqla qəbul edilir.

5. Ərizəyə (məktuba) qeydə alınma tarixindən başlayaraq 25 gün müddətində baxılır və *Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (3) verdiyi (1)* şəhadətnaməni bu təşkilatların yerli orqanları (xüsusi kitabda qeyd etməklə) mülkiyyətçiyə təqdim edirlər.

3-cü bölmənin 3-cü bəndində göstərilən tələblərə əməl edilmədikdə və qüvvədə olan qanunvericiliyə zidd olduqda şəhadətnamənin verilməsindən imtina edilir. Bu barədə *Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (1;3)* yerli orqanları ərizəyə (məktuba) baxılma müddətində mülkiyyətçiyə rəsmi qaydada bildirməlidirlər.

6. Heyvan növlərinin (yırtıcı, zəhərli və yoluxucu xəstəliklər yayan heyvanlardan başqa) əldə edilməsini təsdiq edən özgəninkiləşdirmə haqqında müqavilə, kolleksiyanın reyestrə daxil edilməsi haqqında şəhadətnamə, digər sənədlər və ov bileti olduqda bu heyvan növlərinin bələdiyyə və ya xüsusi mülkiyyətdə olmasına şəhadətnamə tələb olunmur.

7. Ayrı-ayrı heyvan növlərinin xüsusi mülkiyyətdə olmasına Azərbaycan Respublikasının qanunvericilik aktları ilə qadağa qoyulduqda, heyvanlar aləminin obyektləri üzərində mülkiyyət hüququna qanunvericilikdə nəzərdə tutulmuş qaydada xitam verilir.

*Dövlət əhəmiyyətli təbii sərvətlərə aid edilən heyvanlar aləmi obyektlərinin növləri, bələdiyyə və ya xüsusi mülkiyyət hüququnda ola bilən heyvan növlərinin sənədlərinin forması və siyahısına*
***ƏLAVƏ***

## Heyvanlar aləmi obyektlərinin bələdiyyə mülkiyyətində və ya xüsusi mülkiyyətdə olması barədə ŞƏHADƏTNAMƏ

Verilir ____________________________________________
tərəfindən (şəhadətnaməni verən təşkilatın adı)

____________________________________________
(sahibinin adı, soyadı, təşkilatın adı)

ondan ötəri ki, ____________________________________________
(heyvanların adı Azərbaycan və latın dillərində)

____________________________________________
statusu və sayı - (cinslərini göstərməklə)

____________________________________________
____________________________________________
____________________________________________
____________________________________________

Saxlanma məqsədi ____________________________________________
____________________________________________
____________________________________________
____________________________________________
____________________________________________

Saxlanıldığı ünvan ____________________________________________
(hansı ildə və harada əldə olunub, təsdiq edən sənəd)
Mənbəyi ____________________________________________
____________________________________________
____________________________________________

ona məxsusdur və mülkiyyətidir.

Reyestr kitabı №———— səhifə————
tarixi————

Nazir:



*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 13 iyul tarixli, 117 nömrəli qərarı ilə* ***təsdiq edilmişdir***

## Heyvanlar aləmindən ümumi və xüsusi istifadə QAYDALARI

### I. Ümumi müddəalar

1. Bu Qaydalar "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası Qanununa və "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə"Azərbaycan Respublikası prezidentinin 1999-cu il 30 avqust tarixli, 186 nömrəli Fərmanına əsasən hazırlanmışdır və heyvanlar aləmindən ümumi və xüsusi istifadə qaydalarını müəyyən edir.

2. Heyvanlar aləmindən istifadə mülkiyyət, ümumi və xüsusi istifadə hüquqları əsasında həyata keçirilir.

3. Heyvanlar aləmindən ümumi istifadə, idman və həvəskar balıq ovu istisna olmaqla, vəhşi heyvanları təbii mühitdən ayırmadan insanların həyati vacib tələbatlarını (estetik, sağlamlıq, istirahət (rekreasiya) və s.) təmin etmək məqsədi ilə ödənişsiz həyata keçirilir.

4. Heyvanlar aləmindən xüsusi istifadəyə vəhşi heyvanları təbii mühitdən ayırmaqla (idman və həvəskar balıq ovu istisna olmaqla) həyata keçirilən bütün istifadə növləri aid edilir.

### II. Heyvanlar aləmindən ümumi istifadə

1. Təbii sərbəstlik şəraitində olan heyvanlar aləmindən ümumi istifadəyə aşağıdakılar aid edilir:

a) heyvanlar aləmi obyektlərindən elmi-tədqiqat, mədəni-maarif, tərbiyəvi və estetik məqsədlər üçün (müşahidə, nişanlama, şəkilçəkmə və s.) istifadə edilməsi;

b) vəhşi heyvanların həyat fəaliyyətinin faydalı xüsusiyyətlərindən (mühitin təbii sanitarları olmaq, bitkiləri tozlamaq və s.) istifadə edilməsi;

c) vəhşi heyvanlardan onların həyat fəaliyyətinin məhsullarını əldə etmək məqsədi ilə istifadə edilməsi;

ç) idman və həvəskar balıq ovu.

Heyvanlar aləmi obyektlərindən elmi-tədqiqat, mədəni-maarif, tərbiyəvi və estetik məqsədlər üçün (müşahidə, nişanlama, şəkilçəkmə və s.) və vəhşi heyvanların həyat fəaliyyətinin faydalı xüsusiyyətlərindən (mühitin təbii sanitarları olmaq, bitkiləri tozlamaq və s) istifadə edilməsi onların yaşayış mühitinə zərər vurmamaq, təbii sərvətlərin mülkiyyətçilərinin və istifadəçilərinin hüquqlarını pozmamaq şərti ilə pulsuz və müvafiq icazə almadan (xüsusi mühafizə olunan təbiət əraziləri istisna olmaqla) həyata keçirilir.

Vəhşi heyvanlardan onların həyat fəaliyyətinin məhsullarını əldə etmək məqsədi ilə istifadə edilməsi müvafiq Qaydalarla tənzimlənir.

Vəhşi heyvanlardan idman və həvəskar balıq ovu məqsədi ilə istifadə edilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 24 sentyabr tarixli, 152 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında balıq ehtiyatlarının mühafizəsi və balıq ovu Qaydaları" ilə tənzimlənir.

2. Vəhşi heyvanlardan ümumi istifadə zamanı aşağıdakılar qadağandır:

a) vəhşi heyvanların məhv edilməsi, onların yaşayış mühitinə, miqrasiya yollarına və nəsilartırma yerlərinə ziyan vurulması;

b) xüsusi icazə olmadan ümumi istifadəni dövlət qoruqlarında və digər xüsusi rejimli ərazilərdə aparmaq;

c) qış yuxusuna gedən dövrdə vəhşi heyvanlara yaxınlaşmaq (elmi-tədqiqat məqsədlərindən başqa), onları narahat etmək (səs və işıq salmaq, yaşayış yerlərini dağıtmaq);

ç) cütləşmə və çoxalma dövrlərində (xüsusən koloniyalarda) onların çoxalma yerlərinə yaxınlaşmaq, yumurtaları, lələkləri və heyvanların həyat fəaliyyətinin digər məhsullarını yığmaq (elmi-tədqiqat məqsədlərindən başqa), yuvaları dağıtmaq və gecə vaxtı işıq salmaq.

## III. Heyvanlar aləmindən xüsusi istifadə

1. *Sərbəst və yarımsərbəst (2)* şəraitində olan heyvanlar aləmindən xüsusi istifadəyə aşağıdakılar aid edilir:

a) ovçuluq;

b) balıqçılıq (idman və həvəskar balıq ovu istisna olmaqla);

c) vəhşi heyvanların qeyri-sərbəst və yarımsərbəst şəraitdə saxlanılması, çoxaldılması, kommersiya və digər məqsədlər üçün tutulması;

ç) heyvanlar aləmi obyektlərindən elmi-tədqiqat, mədəni-maarif, tərbiyəvi və estetik məqsədlər üçün tutulması (əldə edilməsi).

2. Heyvanlar aləmindən xüsusi istifadə ödənişlidir və qanunvericiliklə müəyyən olunmuş qaydada həyata keçirilir.

Bu tələblər su obyektlərinin, torpaq və meşə mülkiyyətçilərinin və istifadəçilərinin ərazilərində məskunlaşan heyvanlar aləminin obyektlərinə şamil edilir.

3. Heyvanlar aləmindən xüsusi istifadə - ovçuluq, balıqçılıq, vəhşi heyvanların qeyri-sərbəst və yarımsərbəst şəraitdə saxlanılması, çoxaldılması, kommersiya, elmi-tədqiqat, mədəni-maarif, tərbiyəvi, estetik və digər məqsədlər üçün tutulması müvafiq Qaydalarla tənzimlənir.

4. Heyvan növünün sayı optimal şəraitdən az olduqda, təbii şəraitdə bərpasına təhlükə yarandıqda, xəstəliklərə məruz qaldıqda, epizootik xəstəliklərin baş verməsi təhlükəsi yarandıqda, təbii fəlakət zamanı və heyvanların yaşayış mühitinə mənfi təsir göstərən digər hallarda Azərbaycan Elmlər Akademiyasının Zoologiya İnstitutunun rəyinə əsasən *Ekologiya və Təbii Sərvətlər Nazirliyi (1;3)* tərəfindən bu heyvan növlərindən müvəqqəti və ya daimi istifadə məhdudlaşdırılır.



*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 13 iyul tarixli, 117 nömrəli qərarı ilə* ***təsdiq edilmişdir***

# Vəhşi heyvanlardan onların həyat fəaliyyətinin məhsullarını əldə etmək məqsədi ilə istifadə edilməsi QAYDALARI

## I. Ümumi müddəalar

1. Bu Qaydalar "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası Qanununa və "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası prezidentinin 1999-cu il 30 avqust tarixli, 186 nömrəli Fərmanına əsasən hazırlanmışdır və heyvanlardan onların həyat fəaliyyətinin məhsullarını əldə etmək məqsədi ilə istifadə edilməsi qaydalarını müəyyən edir.

2. Vəhşi heyvanlardan onların həyat fəaliyyətinin məhsullarını əldə etmək məqsədi ilə istifadə edilməsinə yalnız heyvanları təbii mühitdən ayırmamaqla və məhv etməməklə və onların yaşayış mühitini pisləşdirməməklə yol verilir.

3. Vəhşi heyvanların həyat fəaliyyəti məhsullarına bal, mum, zəhər, hormonlar, propolis, lələk və digər məhsullar aid edilir.

4. Vəhşi heyvanlardan onların həyat fəaliyyətinin məhsullarının əldə edilməsi *Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (3)* razılığı ilə həyata keçirilir.

## II. Vəhşi heyvanlardan onların həyat fəaliyyətinin məhsullarını əldə etmək məqsədi ilə istifadə edilməsi

1. Vəhşi heyvanlardan onların həyat fəaliyyətinin məhsullarını əldə etmək məqsədi ilə istifadə edilməsi aşağıdakı hallarda qadağandır:

a) vəhşi heyvanların qış yuxusuna getdiyi dövrdə;

b) cütləşmə və çoxalma zamanı;

c) həyat fəaliyyəti məhsullarının bərpa müddəti başa çatmadıqda;

ç) bioloji xüsusiyyətlərini nəzərə alaraq vəhşi heyvanların yaşamasının təmin edilməsi üçün tələb olunan həddi gözləmədən həyat fəaliyyəti məhsullarının yığılması (əldə edilməsi);

d) həyat fəaliyyəti məhsullarının yığıldığı (toplandığı) obyektlərin dağıdılması və məhv edilməsi.

2. Vəhşi heyvanların həyat fəaliyyəti məhsullarının yığılmasına (əldə edilməsinə) razılıq almaq üçün fiziki və hüquqi şəxslər tərəfindən *Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə (3)* və ya onun yerli təşkilatlarına müvafiq ərizə (məktub) təqdim edilməlidir.

Ərizədə aşağıdakılar əks olunmalıdır:

a) heyvanın növü və həyat fəaliyyəti məhsulu;

b) heyvanların həyat fəaliyyəti məhsulunun əldə edilməsi üsulu;

c) ərazi və müddəti;

ç) heyvanların həyat fəaliyyəti məhsulunun istifadə məqsədi;

d) heyvanların həyat fəaliyyəti məhsulunun yığılmasını (əldə edilməsini) aparan şəxs barədə məlumat.

Məlumatda aşağıdakılar əks olunmalıdır:

a) hüquqi şəxslər üçün - hüquqi şəxsin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı;

b) fiziki şəxslər üçün - adı, atasının adı, soyadı və ünvanı.

3. *Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində (3)* ərizə (məktub) qeydə alınmaqla qəbul edilir.

Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilmiş və daxil edilməmiş, lakin kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna növlərinin əldə edilməsinə icazə verilmir.

4. Ərizəyə (məktuba) qeydə alınma tarixindən başlayaraq 15 gün müddətinə baxılır və müvafiq cavab verilir.

5. Müvafiq elmi rəy zərurəti olduqda və bu barədə *Ekologiya və Təbii Sərvətlər Nazirliyi (3)* tərəfindən Azərbaycan Elmlər Akademiyasının Zoologiya İnstitutuna müraciət edildiyi təqdirdə həmin məktubun (ərizənin) icra müddəti müvafiq cavab alınan vaxta qədər uzadılır.

6. Vəhşi heyvanların bəzi həyat fəaliyyəti məhsullarının əldə edilməsi üçün qanunvericiliklə digər tələblər müəyyən edildikdə, bu tələblər yerinə yetirildikdən sonra göstərilən məhsulların əldə edilməsinə icazə verilir.

7. *Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (3)* razılıq məktubu (heyvanların həyat fəaliyyəti məhsulunun növü, yığılma üsulu, müddəti, ərazisi və miqdarı göstərilməklə) verildikdə və həmin məktub *Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (3)* yerli təşkilatlarında müəyyən olunmuş qaydada qeydə alındıqdan sonra müraciət edən fiziki və hüquqi şəxslər müəyyən olunmuş müddətlərdə heyvanların həyat fəaliyyəti məhsulunun yığılmasını (əldə edilməsini) təşkil edə bilərlər. Əgər heyvanların həyat fəaliyyəti məhsulunun yığılması (əldə edilməsi) meşə fondu sahəsində aparılarsa, bu tədbiri həyata keçirən fiziki və hüquqi şəxslər *Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (3)* yerli təşkilatlarına məlumat verməlidirlər. Müəyyən olunmuş müddət qurtardıqdan sonra 20 gün ərzində heyvanların həyat fəaliyyəti məhsulunun yığılması (əldə edilməsi) barədə *Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (3)* yerli təşkilatlarına məlumat (heyvanların həyat fəaliyyəti məhsulunun yığılma miqdarı və ərazisi barədə) təqdim edilməlidir.

8. Heyvanların həyat fəaliyyəti məhsulunun yığılması (əldə edilməsi) zamanı heyvanları zədələməyən, onların yaşayış mühitinə zərər vurmayan və mənfi təsir göstərməyən üsullardan istifadə olunmalıdır.



9. Heyvanların həyat fəaliyyəti məhsulunun yığılmasına (əldə edilməsinə) verilmiş razılıqdan yalnız adı göstərilən fiziki və hüquqi şəxs istifadə edə bilər.

10. Heyvanların həyat fəaliyyəti məhsulunun yığılıb yığılmamasından (əldə edilib edilməməsindən) asılı olmayaraq göstərilən vaxt qurtardıqdan sonra verilmiş razılıq öz qüvvəsini itirir.

11. Heyvanların həyat fəaliyyəti məhsullarının yığılması (əldə edilməsi) nəticəsində vəhşi heyvanların yaşayış mühitinə və təbii bərpasına mənfi təsir göstərə bilən hallarda, heyvanların sayı həmin ərazidə optimal miqdardan az olduqda və Elmlər Akademiyasının Zoologiya İnstitutunun mənfi rəyi alındıqda fiziki və hüquqi şəxslərə heyvanların həyat fəaliyyəti məhsullarının yığılmasına razılıq verilməyə bilər.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*2000-ci il 13 iyul tarixli, 117 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

# Zooloji kolleksiyaların yaradılması, zənginləşdirilməsi, saxlanması, istifadəsi, dövlət uçotuna alınması, onlarla ticarət, habelə Azərbaycan Respublikasına gətirilməsi, onun hüdudlarından kənara göndərilməsi və aparılması

# QAYDALARI

## I. Ümumi müddəalar

1. Bu Qaydalar "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası Qanununa və "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikasının prezidentinin 1999-cu il 30 avqust tarixli, 186 nömrəli Fərmanına əsasən hazırlanmışdır və zooloji kolleksiyaların yaradılması, zənginləşdirilməsi, saxlanması, istifadəsi, dövlət uçotuna alınması, onlarla ticarət, habelə Azərbaycan Respublikasına gətirilməsi, onun hüdudlarından kənara göndərilməsi və aparılması qaydalarını müəyyən edir.

2. Heyvanların təbii mühitdən götürülməsi yolu ilə fiziki və hüquqi şəxslər tərəfindən yaradılmış zooparklar, zoobağlar, okeanariumlar və s. canlı kolleksiyalar, habelə heyvan müqəvvaları, preparatları, hissələri və qalıqları şəklində kolleksiyalar-zooloji kolleksiyalar adlanır.

3. Zooloji kolleksiyalar dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə ola bilər.

4. Bu Qaydalar Azərbaycan Respublikasının bütün ərazisinə, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinə aiddir və Azərbaycan Respublikasının və xarici ölkələrin bütün hüquqi və fiziki şəxsləri üçün icrası məcburidir.

## II. Zooloji kolleksiyaların dövlət uçotu

1. Elmi, mədəni-maarif, təlim-tərbiyə və estetik dəyəri olan zooloji kolleksiyalar (mülkiyyət formasından asılı olmayaraq) dövlət uçotuna alınmalıdır.

2. Azərbaycan Respublikasında zooloji kolleksiyalar dövlət uçotuna *Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (3)* tərəfindən dövlət reyestrinə daxil edilməklə alınır və zooloji kolleksiyaların canlı obyektləri barədə məlumatlar heyvanların dövlət uçotu sənədlərində və dövlət kadastrında öz əksini tapır (1 nömrəli əlavə).

3. Zooloji kolleksiyaların elmi, mədəni-maarif, təlim-tərbiyə və estetik dəyərinin qiymətləndirilməsi məqsədi ilə *Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (3)*, Elmlər Akademiyasının Zoologiya İnstitutunun, Kənd Təsərrüfatı Nazirliyinin *(1)* mütəxəssislərindən ibarət zooloji kolleksiyalara dair ekspert qrupu yaradılır. Ekspert qrupunun tərkibi aidiyyəti təşkilatların razılığı ilə *Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (3)* tərəfindən təsdiq edilir.

4. Zooloji kolleksiyaların dövlət reyestrinə daxil edilməsi üçün aşağıdakılar təqdim edilməlidir:

a) kolleksiya mülkiyyətçisinin (sahibinin) ərizəsi və kolleksiyanın ona məxsus olmasını təsdiq edən sənəd;

b) elmi, mədəni-maarif, təlim-tərbiyə və estetik dəyərinə malik olması barədə zooloji kolleksiyalar üzrə ekspert qrupunun rəyi;

c) kolleksiyaya daxil olan obyektlərin, kolleksiya materiallarının siyahısı, sayı və qanuni əldə edilməsi barədə sənədlər.

5. Zooloji kolleksiyaların dövlət reyestrinə daxil edilməsi (ekspertizaya təqdim olunan zooloji kolleksiyaya dair mütəxəssis-ekspertin yazılı rəyi ekspert qrupunun yığıncağında müzakirədə səs çoxluğu ilə təsdiq olunandan sonra) *Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (3)* əmri ilə həyata keçirilir.

6. Zooloji kolleksiyaların dövlət uçotuna alınması və dövlət reyestrinə daxil edilməsi barədə onun mülkiyyətçisinə (sahibinə) şəhadətnamə verilir (2 nömrəli əlavə).

7. Elmi, mədəni-maarif, təlim-tərbiyə və estetik dəyərinə malik olması barədə ekspert qrupunun mənfi rəyi olduğu halda zooloji kolleksiya dövlət uçotuna alınmır və bu barədə ərizəçiyə səbəblərin göstərilməklə müvafiq cavab göndərilir.

Təqdim edilən zooloji kolleksiyada olan canlı heyvanların qanuni əldə edilməsi barədə sənədlər olmadıqda bu kolleksiya dövlət uçotuna alınmır və qanunvericilikdə nəzərdə tutulmuş qaydada tədbir görülür. Bu barədə zooloji kolleksiyanın mülkiyyətçisinə (sahibinə) müvafiq məlumat verilir.

8. Zooloji kolleksiyaların reyestrə daxil edilməsi barədə verilən şəhadətnamənin tarixi həmin kolleksiyanın dövlət uçotuna alınma tarixi hesab edilir.

9. Dövlət uçotuna alınmış kolleksiyaların mülkiyyətçiləri (sahibləri) tərəfindən hər il (20 yanvar tarixinə kimi) kolleksiyanın vəziyyəti və dövriyyəsi barədə *Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinə (3)* məlumat verilməlidir.



Təqdim olunan məlumatda il ərzində zooloji kolleksiya üçün əldə edilmiş yeni, dəyişdirilmiş, respublikanın hüdudlarından kənara göndərilmiş və sıradan çıxmış obyektlər barədə məlumatlar öz əksini tapmalıdır. Bütün dəyişikliklər reyestrdə göstərilməlidir.

## III. Zooloji kolleksiyaların yaradılması və zənginləşdirilməsi

1. Fiziki və hüquqi şəxslər tərəfindən zooloji kolleksiyaların yaradılması və zənginləşdirilməsi (canlı heyvanlar üçün qanunvericilikdə digər tələblər müəyyən edildikdə və bu tələblər yerinə yetirildikdən sonra) *Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (3)* icazəsi ilə həyata keçirilir.

Qanunvericiliklə müəyyən edilmiş qaydada əldə edilməsi barədə sənədləri olmayan fiziki və hüquqi şəxslərdən vəhşi heyvanların alınması qadağandır.

Ovçular tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş qaydada ovlanmış ov heyvanlarından (ov qənimətlərindən) zooloji kolleksiyaların yaradılmasına icazə tələb olunur.

2. Xüsusi təbii mühafizə (Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilməmiş, lakin kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna növlərindən), elmi (relikt və endemik) və estetik (ərazi üçün xas olan oxuyan və bəzəkli) dəyərli heyvanlar aləminin obyektlərindən, habelə Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilmiş heyvan növlərindən (qeyri-sərbəst şəraitdə yetişdirilmiş (alınmış) və ya Azərbaycan Respublikasının hüdudlarından kənarda qanunvericiliklə nəzərdə tutulmuş qaydada əldə edilmiş heyvan növlərindən başqa) bələdiyyələr və ya xüsusi mülkiyyətçilər tərəfindən zooloji kolleksiyaların yaradılmasına yol verilmir.

Bu bəndin birinci abzasında göstərilən heyvanlar aləmi obyektlərindən və heyvan növlərindən yalnız dövlət tərəfindən təsis edilmiş hüquqi şəxslər zooloji kolleksiyalar yarada bilərlər.

3. Zooloji kolleksiyaların yaradılması məqsədi ilə icazə almaq üçün fiziki və hüquqi şəxslər tərəfindən *Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinə (3)* müvafiq ərizə (məktub) təqdim edilməlidir.

Ərizədə (məktubda) zooloji kolleksiyanın yaradılmasının və zənginləşdirilməsinin məqsədi, heyvanların növü, miqdarı, saxlanılması üçün müvafiq şəraitin olması barədə məlumatlar öz əksini tapmalıdır.

4. Zooloji kolleksiyaların yaradılmasına icazə (razılıq məktubu) *Ekologiya və Təbii Sərvətlər Nazirliyi (3)* tərəfindən verilir.

Heyvan növləri obyektləri məhdud olduqda və canlı heyvanların bərpası mümkün olmadıqda zooloji kolleksiyaların yaradılmasına icazə verilmir.

5. Canlı heyvanları təbii mühitdən ayırmaq şərti ilə zooloji kolleksiyanın yaradılması (icazə verildiyi təqdirdə) və zənginləşdirilməsi fəaliyyət növünə alınmış lisenziya əsasında həyata keçirilir.

## IV. Zooloji kolleksiyaların saxlanması və istifadəsi

1. Dövlət uçotuna alınmış zooloji kolleksiyaların mülkiyyətçiləri (sahibləri) heyvanların (habelə heyvan müqəvvaları, preparatları, hissələri və qalıqları) saxlanılması üçün müvafiq şərait yaratmalı və daşınma zamanı onların qorunmasını təmin etməlidirlər.

2. Fiziki və hüquqi şəxslər onlara məxsus zooloji kolleksiyalarda olan heyvanların (habelə heyvan müqəvvaları, preparatları, hissələri və qalıqları) qorunub saxlanılmasına və düzgün istifadəsinə məsuliyyət daşıyırlar.

3. Dövlət uçotuna alınmış zooloji kolleksiyaların saxlanma şəraitinə və istifadəsinə nəzarət *Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (3)* və onun yerli təşkilatları tərəfindən həyata keçirilir.

4. Zooloji kolleksiyalar tələb olunan şəraitdə saxlanıldıqda və yaxud düzgün istifadə edilmədikdə, mülkiyyətçi (sahibkar) qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır.

5. Zooloji kolleksiyalardan istifadə hüquqi ləğv edildikdə və ya mülkiyyət hüququna xitam verildikdə kolleksiya qanunvericilikdə nəzərdə tutulmuş qaydada özgəninkiləşdirilir.

## V. Zooloji kolleksiyaların ticarəti, habelə Azərbaycan Respublikasına gətirilməsi, onun hüdudlarından kənara göndərilməsi və aparılması

1. Zooloji kolleksiyaların ticarəti, habelə Azərbaycan Respublikasına gətirilməsi, onun hüdudlarından kənara göndərilməsi və aparılması Azərbaycan Respublikası prezidentinin 1997-ci il 24 iyun tarixli, 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları" və "Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında" Konvensiyaya (SİTES) və həmin Konvensiyanın iştirakçı dövlətlərinin "Nərə balıqlarının qorunmasına dair" Qətnaməsinə qoşulmaq barədə" Azərbaycan Respubilkasının 1998-ci il 23 iyun tarixli, 507-İQ nömrəli Qanununa əsasən həyata keçirilir.

2. Zooloji kolleksiyaların obyekti yuxarıda adı çəkilən Konvensiyanın və Fərmanın təsir dairəsinə düşmədikdə onların ticarəti, habelə respublikaya gətirilməsi və respublikadan kənara göndərilməsi və aparılması bu bölmənin 3-6 bəndlərinə əsasən həyata keçirilir.

3. Dövlət uçotunda olan zooloji kolleksiyaların, onların hisssələrinin və ya ayrı-ayrı obyektlərinin Azərbaycan Respublikasına gətirilməsi, onun hüdudlarından kənara göndərilməsi və aparılması *Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (3)*müvafiq icazəsi ilə həyata keçirilir (3 nömrəli əlavə).

4. Fiziki və hüquqi şəxslər tərəfindən zooloji kolleksiyaların Azərbaycan Respublikasının hüdudlarından kənara göndərilməsi və aparılması üçün *Ekologiya və Təbii*



*Sərvətlər Nazirliyinin (3)* müvafiq icazəsini almaq məqsədi ilə aşağıdakı sənədlər təqdim edilməlidir:

a) ərizə

fiziki şəxslər üçün - pasport məlumatı (adı, atasının adı, soyadı və ünvanı);

hüquqi şəxslər üçün - hüquqi şəxsin adı, təşkilati-hüquqi forması və ünvanı;

b) zooloji kolleksiyanın reyestrə daxil edilməsi barədə şəhadətnamə;

c) zooloji kolleksiyaya daxil olan obyektlərin (taksonomik qrupların) Azərbaycan və latın dillərində adları, miqdarı və qanuni əldə edilməsi barədə sənədlər;

ç) zooloji kolleksiya üzrə ekspert qrupunun kolleksiyaların ticarəti, respublikaya gətirilməsi, onun hüdudlarından kənara göndərilməsi və aparılmasına dair rəyi;

d) zooloji kolleksiyanın bir ildən artıq olmamaq şərti ilə nümayiş etdirildiyi ölkənin hüquqi tərəfi ilə əməkdaşlıq haqqında müqavilə (kontrakt).

5. Bu bölmənin 4-cü bəndində göstərilən icazənin alınması respublika qanunvericiliyində nəzərdə tutulan digər icazələrin alınması zərurətini əvəz etmir.

6. Dövlət uçotuna alınmamış zooloji kolleksiyaların kənara göndərilməsi və aparılması bu Qaydaların V bölməsinin 4-cü bəndində nəzərdə tutulan qaydada həyata keçirilir. Lakin belə hallarda fiziki və hüququ şəxslər verdikləri ərizə və sənədlərdə zooloji kolleksiyanın dövlət uçotuna daxil olması haqqındakı Şəhadətnamənin əvəzinə kolleksiyanın və yaxud ayrı-ayrı obyektlərin onların mülkiyyətində olması barədə sənəd təqdim edirlər.

7. "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası Qanununun 39-cu maddəsinə əsasən, fiziki və hüquqi şəxslər tərəfindən heyvanlar aləmi obyektlərinin zooparklarda, zoobağlarda, zoomuzeylərdə və şirkətlərdə elmi-tədqiqat, mədəni-maarif, təlim-tərbiyə və estetik məqsədlər üçün istifadə olunması məqsədi ilə Azərbaycan Respublikasına daimi gətirilməsi idxal hesab edilmir.

8. Azərbaycan Respublikasının daxilində zooloji kolleksiyaların ticarəti qanunvericilikdə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

*Zooloji kolleksiyaların yaradılması, zənginləşdirilməsi, saxlanması, istifadəsi, dövlət uçotuna alınması, onlarla ticarət, habelə Azərbaycan Respublikasına gətirilməsi, onun hüdudlarından kənara göndərilməsi və aparılması Qaydalarına*

***1 nömrəli əlavə***

## Dövlət uçotuna daxil edilmiş zooloji kolleksiyanın REYESTR FORMASI

Dövlət uçotunun nömrəsi.

Uçot tarixi.

Kolleksiyanın adı.

Sahibi.
Sahibinin ünvanı və kolleksiyanın yerləşdiyi ünvan.
Mülkiyyət forması (dövlət təşkilatları üçün - tabe olduğu təşkilat).
Kolleksiyanın dəyəri (elmi, mədəni-maarif, təlim-tərbiyə və estetik).
Kolleksiyanın yaradılma tarixi.
Kolleksiyaya daxil olan obyektlərin siyahısı və sayı.
Kolleksiyanın mənşəyi.
Kolleksiyanın təsviri (canlı orqanizmlər, heyvanların müqəvvaları, preparatları, hissələri, qalıqları və s).
Nadir obyektlərin olması (beynəlxalq və Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilmiş növlər).
Kolleksiyanın tərkibində olan dəyişikliklər və dəyişikliklərin edilmə tarixi.
Kolleksiyanın saxlanma və qorunma şəraiti.
Zooloji kolleksiyalar üzrə ekspert qrupunun rəyi.

*Zooloji kolleksiyaların yaradılması, zənginləşdirilməsi, saxlanması, istifadəsi, dövlət uçotuna alınması, onlarla ticarət, habelə Azərbaycan Respublikasına gətirilməsi, onun hüdudlarından kənara göndərilməsi və aparılması Qaydalarına*

***2 nömrəli əlavə***

## Zooloji kolleksiyanın reyestrə daxil edilməsi barədə Şəhadətnamə

Verilir______________________________
(sahibinin adı, soyadı)
ondan ötəri ki, kolleksiya______________________________
(kolleksiyanın adı)
tərkibində olan ______________________________
(canlı orqanizmlər, heyvanların müqəvvaları,
______________________________
preparatları, hissələri, qalıqları və s.)
______________________________
(taksonomik qrupların adı)
______________________________
(eksponatların sayı)
yerləşən______________________________
(ünvan)

Dövlət uçotuna alınmış zooloji kolleksiyaların reyestrinə "___" 200_il tarixdə ------ -------nömrə ilə daxil edilib.

Reyestr kitabı № ———— səhifə————
tarixi ————

*Ekologiya və təbii sərvətlər naziri*





***3 nömrəli əlavə***

## Zooloji kolleksiyaların, onların hissələrinin və ya ayrı-ayrı obyektlərin Azərbaycan Respublikasına gətirilməsi, onun hüdudlarından kənara göndərilməsi və aparılmasına dair

## İCAZƏ

Etibarlıdır "________" 200_____ildən "____" 200____llədək
Ölkəyə gətirilir ______________________________
Ölkədən aparılır (göndərilir) ______________________________
Göndərən ______________________________
Alan ______________________________
______________________________
Kolleksiyanın adı______________________________
Dövlət uçotuna alınma tarixi və nömrəsi ______________________________
Kolleksiya materialları və miqdarı ______________________________
SİTES Konvensiyasının təsir dairəsinə düşmür ______________________________
Məqsəd ______________________________
Xüsusi şərtlər ______________________________

Reyestr kitabı № ——— səhifə————
tarixi————

*Ekologiya və təbii sərvətlər naziri*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 13 iyul tarixli, 117 nömrəli qərarı ilə* ***təsdiq edilmişdir***

# Ekoloji təhlükəsizlik normativləri və vəhşi heyvanların əldə edilməsi limitləri

## I. Ümumi müddəalar

1. Bu sənəd "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası Qanununa və "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası prezidentinin 1999-cu il 30 avqust tarixli,

186 nömrəli Fərmanına əsasən hazırlanmışdır və ekoloji təhlükəsizlik normativləri və vəhşi heyvanların əldə edilməsi limitlərinin qaydalarını müəyyən edir.

2. Ekoloji təhlükəsizlik-insanın və cəmiyyətin vacib həyati maraqlarının antorpogen və təbii təsirlər nəticəsində yaranan təhlükələrdən qorunmasının təmin edilməsidir.

3. Ekoloji təhlükəsizlik normativləri, ətraf mühitə atılan və axıdılan çirkləndirici kimyəvi maddələrin, zərərli fiziki və bioloji təsirin yol verilə bilən son hədləri hazırlanarkən və müəyyən edilərkən, heyvanlar aləminin və heyvanların yaşayış mühitinin mühafizəsi tələbləri nəzərə alınmalıdır.

4. Hər növ məişət və təsərrüfat mənşəli tullantıların və digər amillərin təsiri nəticəsində heyvanların yaşayış mühitinin qismən və yaxud tamamilə yararsız hala düşməsi ekoloji təhlükə sayılır.

## II. Ekoloji təhlükəsizlik normativləri

1. Heyvanların yaşayış mühitinin yararlığı ekoloji təhlükə normativləri əsasında müəyyən edilir.

2. Heyvanların yaşayış mühitinə təsir edən və ekoloji təhlükə amilləri yarada bilən aşağıdakı fəaliyyət növləri qadağan edilir:

a) qatılıq həddi təsdiq edilməmiş normalardan artıq olan zərərli maddələrin və tullantıların heyvanların yaşayış mühitinə atılması (axıdılması);

b) neft kəmərləri və neft mədənlərindən heyvanların yaşayış mühitinə sızmaların yol verilməsi;

c) sənaye və kənd təsərrüfatı müəssisələrindən, məişət obyektlərindən təmizlənməmiş tullantıların heyvanların yaşayış mühitinə atılması (axıdılması);

ç) qüvvədə olan radiasiya təhlükəsizliyi qaydalarına və normalarına riayət edilmədən tərkibində radioaktiv maddələr olan tullantıların heyvanların yaşayış mühitinə atılması (axıdılması).

3. Heyvanların yaşayış mühitinin ekoloji təhlükəsizlik normativləri (ətraf mühitə atılan və axıdılan çirkləndirici kimyəvi maddələrin, zərərli fiziki və bioloji təsirin yol verilə bilən son hədləri) 1 və 2 nömrəli əlavələrə əsasən müəyyən edilir.

4. "Balıqçılıq əhəmiyyətli su obyektlərinə zərərli təsirin yol verilən normaları" Azərbaycan Respubilkası Nazirlər Kabinetinin 1999-cu il 6 sentyabr tarixli, 146 nömrəli qərarı ilə təsdiq edilmişdir.

## III. Vəhşi heyvanların əldə edilməsi limitlərinin müəyyən edilməsi qaydaları

1. Vəhşi heyvanların əldə edilən limitləri müəyyən müddətlərdə ayrı-ayrı növlərin təbii mühitdən götürülmə miqdarını müəyyən edir. Bu limitlər müəyyən edilərkən vəhşi heyvanların təbiətdə olan sayı və təbii bərpa imkanı nəzərə alınmalıdır.



2. Vəhşi heyvanların əldə edilməsi limitlərini müəyyən etmək məqsədi ilə Azərbaycan Respublikasının bütün ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində daimi, müvəqqəti və köçəri yaşayan vəhşi heyvan növlərinin uçotu aparılır.

3. Heyvanlar aləmi obyektlərinin istifadəçiləri hər il vəhşi heyvan növlərinin sayının və əldə edilmiş həcminin uçotunu aparmalı, məlumatları *Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinə (3)* təqdim etməlidirlər.

4. Vəhşi heyvanların əldə edilməsi limitləri heyvanlar aləmi obyektlərinin aparılmış uçotunun yekunlarına əsasən və heyvanların bioloji xüsusiyyətlərini nəzərə almaqla müəyyən edilir. Vəhşi heyvanların əldə edilməsi limitləri müəyyən edildikdə, Azərbaycan Elmlər Akademiyasının Zoologiya İnstitutunun *rəyi (1)* nəzərə alınmalıdır.

5. Vəhşi heyvanların əldə edilməsi limitləri aşağıdakı təşkilatlar tərəfindən müəyyən edilir:

a) ov obyektlərinə aid edilmiş vəhşi heyvanlar üzrə - *Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (3)* tərəfindən (hər il ov mövsümü üçün).

Ov obyektinə aid edilməyən vəhşi heyvanlara sifariş olduqda - *Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (3)* tərəfindən;

b) balıq və su heyvanları üzrə:

nərə cinsli balıqlar, kilkə və suiti üçün - Xəzərətrafı dövlətlərin Xəzərin bioloji resurslarının istifadəsi Komissiyasının ayırdığı kvotaya əsasən *Ekologiya və Təbii Sərvətlər Nazirliyi (1)* tərəfindən;

c) axçalı və siyənək balıq növləri üçün (Xəzərdə və daxili su hövzələrində) - *Ekologiya və Təbii Sərvətlər Nazirliyi (1)* tərəfindən (Azərbaycan Elmlər Akademiyasının Zoologiya İnstitutunun *(1)* proqnozlarına əsasən).

ç) digər su heyvanları üzrə sifariş olduqda - *Ekologiya və Təbii Sərvətlər Nazirliyi (1)* tərəfindən Azərbaycan Elmlər Akademiyasının Zoologiya İnstitutunun *(1)* rəyinə əsasən.

6. Əhalinin sağlamlığını və təhlükəsizliyini mühafizə etmək, kənd təsərrüfatı və başqa ev heyvanlarını xəstəliklərdən qorumaq, heyvanlar aləminə, onların yaşayış mühitinə və iqtisadiyyata zərər vurulmasının qarşısını almaq məqsədi ilə bəzi vəhşi heyvanların sayı Səhiyyə Nazirliyinin və Kənd Təsərrüfatı Nazirliyinin təkliflərinə və Azərbaycan Elmlər Akademiyasının rəyinə əsasən zərurət olan limit həddində *Ekologiya və Təbii Sərvətlər Nazirliyi (1)* tərəfindən tənzimlənə bilər.

***1 nömrəli əlavə***

**Heyvanların yaşayış yerlərində atmosfer havasına atılan çirkləndirici kimyəvi maddələrin yol verilə bilən miqdarının son hədləri**

| Maddələrin adları | Yol verilə bilən qatılıq həddi mq/m3 (təbii fon nəzərə alınmaqla) |
|---|---|
| 1 | 2 |
| Azot 4-oksid (NO2) | 0,085 |
| Azot 2-oksid (NO) | 0,4 |
| Kükürd 4-oksid (SO2) | 0,5 |
| Ammonyak | 0,2 |
| Aseton | 0,35 |
| Benzapiren - 3,4 | 0,1 mqk/100mz |
| Benzin | 5,0 |
| Benzol | 1,5 |
| Vanadium 5-oksid (V2O5) | - |
| Hidrogen - bromid | 1,0 |
| Hidrogen - xlorid | 0,2 |
| Sulfat turşusu | 0,3 |
| Sirkə turşusu | 0,2 |
| Nikel (həll olunan duzlar) | 0,002 |
| Silisium oksidi tərkibində olan qeyri-üzvi toz %-lə | |
| a) >70 | 0,16 |
| b) 70-20 | 0,3 |
| c) < 20 | 0,5 |
| Üzvi toz (kətan, pambıq) | 0,5 |
| Civə (metal) | - |
| His (qurum) | 0,15 |
| Qurğuşun və onun birləşmələri | - |
| Karbon sulfid | 0,03 |
| Hidrogen sulfid | 0,008 |
| Toluol | 0,6 |
| Doymuş karbohidrogenlər | 1,0 |
| Dəm qazı | 5,0 |
| Karbogen 4-xlorid | 4,0 |
| Fenol | 0,01 |
| Formaldehid | 0,035 |
| Hidrogen - ftorid | 0,02 |
| Furfurol | 0,05 |
| Xlor | 0,1 |
| Xlor-benzol | 0,1 |
| Sink-oksid | - |
| Etilasetat | 0,1 |
| Etilbenzol | 0,02 |
| 2 metilbutaden - 1,3 (izopren) | 0,5 |
| Natrium sulfat | 0,3 |
| Natrium sulfit | 0,3 |
| Naftalin | 0,003 |
| Etil spirti | 5,0 |
| Etil oksid | 0,3 |
| Propilen | 3,0 |
| Skipidar | 2,0 |
| Stirol | 0,04 |
| Etilen | 3,0 |
| Etilen oksid | 0,3 |
| Etil sulfid | 0,5 |
| Manqan və onun birləşmələri (manqan 4-oksidə görə) | 0,01 |





***2 nömrəli əlavə***

**Heyvanların yaşayış yerlərində torpağa atılan çirkləndirici kimyəvi maddələrin yol verilə bilən miqdarının son hədləri**

| Maddələrin adları | Yol verilə bilən qatılıq həddi mq/kq (təbii fon nəzərə alınmaqla) |
|---|---|
| 1 | 2 |
| Asetaldehid | 10,0 |
| Benzapiren | 0,02 |
| Benzin | 0,1 |
| Benzol | 0,3 |
| Vanadium | 150,0 |
| Heksoxloran | 0,1 |
| Heksaxlorbutadien | 0,5 |
| Heptaxlor | 0,05 |

| 1 | 2 |
|---|---|
| 2,4 -D-dixlorfenol | 0,05 |
| 2,4 -D-amin duzu | 0,25 |
| DDT və onun metabolitləri (cəm miqdarı) | 0,1 |
| Dixlor | 0,5 |
| İzopropilbenzol | 0,5 |
| Karbofos | 0,5 |
| N:R:K=64:0:15 tərkibi dənəvər kompleks gübrələr | 120,0 |
| N:R:K=10:34:0 tərkibli maye kompleks gübrələr | 80,0 |
| Ksilollar | 0,3 |
| Metafos | 0,1 |
| Arsen | 2,0 |
| Nitratlar | 130,0 |
| Polixlorpinen | 0,5 |
| Civə | 2,1 |
| Qurğuşun + civə | 20,0+1,0 |
| Sevin | 0,05 |
| Elementar kükürd | 160,0 |
| Hidrogen sulfid | 10,4 |
| Sulfat turşusu | 160,0 |
| Stirol | 0,1 |
| Superfosfat ($R_2O_5$) | 200,0 |
| Sürmə | 4,5 |
| Toluol | 0,3 |
| Fosfamid | 0,3 |
| Fozalon | 0,5 |
| Formalin | 7,0 |
| Furfurol | 3,0 |
| Kalium xlor | 560,0 |
| Xlorofos | 0,5 |
| Kobalt ($Co^{2+}$) | 5,0 |
| Mis ($Cu^{2+}$) | 3,0 |
| Nikel ($Ni^{2+}$) | 4,0 |
| Qurğuşun ($Pb^{2+}$) | 6,0 |
| Sink ($Zn^{2+}$) | 23,0 |
| Ftor | 2,8 |
| Xrom (suda həll olunan forma) | 6,0 |



# QƏRAR № 121

***Bakı şəhəri, 13 iyul 2000-ci il.***

## "Şəhərsalma proqramlarının Siyahısı, baxılması və təsdiq olunması Qaydası"nın təsdiq edilməsi barədə

***Əlavə və dəyişikliklər:***
***1. 7 yanvar 2005-ci il, № 5***
***2. 25 fevral 2008-ci il, № 55***

"Şəhərsalmanın əsasları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası prezidentinin 1999-cu il 30 avqust tarixli, 187 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Şəhərsalma proqramlarının Siyahısı, baxılması və təsdiq olunması Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının***
***Baş naziri A. Rasizadə***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*2000-ci il 13 iyul tarixli, 121 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

## Şəhərsalma proqramlarının Siyahısı

1. Respublika yaşayış məskənlərinin regional sistemlər daxilində inkişaf proqramı.

2. Yaşayış məskənlərinin dayanıqlı inkişafı və miqrasiya prosesini tənzimləmə proqramı.

3. Sərhəd zonaları yaşayış məskənlərinin inkişaf proqramı.

4. Şəhər və kənd əhalisinin normal yaşayış tərzini təmin edən mənzil tikintisi proqramı.

5. Dövlət əhəmiyyətli yolların inkişafı və genişləndirilməsi proqramı.

6. Ərazilərdə yerləşən binaların, ilk növbədə qəza vəziyyətində olan və zəlzələyə davamlılıq tədbirləri nəzərə alınmadan tikilmiş yaşayış və digər təyinatlı binaların zəlzələyə davamlılığının faktiki vəziyyətinin təsdiq edilməsi, həmçinin seysmoloji nöqteyi-nəzərindən pasportlaşdırılması, lazım olduğu halda konstruktiv gücləndirilməsi tələb olunan binalarda müvafiq mühəndisi tədbirlərin yerinə yetirilməsi ilə bağlı işlərin icrası üçün uzunmüddətli proqramlar.

7. Sahilyanı torpaq sahələrini su basımından mühafizə proqramı.

8. Kurort, *turizm və rekreasiya zonalarında (2)* sanator-kurort müəssisələrinin planlaşdırılması, tikintisi və abadlaşdırılması proqramı.

9. Ərazilərdə və yaşayış məskənlərində milli və tarixi, irsin, şəhərsalma, memarlıq, monumental incəsənət abidələrinin, təbii-mədəni landşaftların, qoruq zonalarının mühafizəsi və zənginləşdirilməsi proqramı.

## Şəhərsalma proqramlarının baxılması və təsdiq olunması QAYDASI

Şəhərsalma proqramlarının hazırlanması və təsdiq olunması barəsində qərar Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən qəbul edilir.

Şəhərsalma proqramları təsdiq olunmağa təqdim olunmamışdan əvvəl yerli icra hakimiyyəti orqanları (bələdiyyələr), İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, *Ekologiya və Təbii Sərvətlər Nazirliyi (1)* və digər aidiyyəti olan təşkilatlarla razılaşdırılmalı və Dövlət Tikinti və Arxitektura Komitəsində ekspertizadan keçməlidir.

## QƏRAR № 226

***Bakı şəhəri, 23 dekabr 2000-ci il***

## Dövlət və bələdiyyə mükiyyətində olan torpaqların icarə haqqının aşağı həddinin müəyyən edilməsi barədə

"Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların icarə haqqının aşağı həddi torpaq vergisinin 2 misli miqdarında müəyyən edilsin.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir

***Azərbaycan Respublikasının***
***Baş naziri A. Rasizadə***



## QƏRAR № 46

***Bakı şəhəri, 23 fevral 2001-ci il***

## Binalar üzrə əmlak vergisinin hesablanması Qaydalarının təsdiq edilməsi barədə

"Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Binalar üzrə əmlak vergisinin hesablanması Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının***
***Baş naziri A.Rasi-zadə***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*2001-ci il 23 fevral tarixli, 46 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

## Binalar üzrə əmlak vergisinin hesablanması QAYDALARI

***Əlavə və dəyişikliklər:***
*1. 11 iyul 2002-ci il, №110*
*2. 13 aprel 2004-cü il, № 47*
*3. 24 fevral 2005-ci il, № 34*
*4. 20 fevral 2006-cı il, № 55*
*5. 9 avqust 2006-cı il, № 192*
*6. 28 fevral 2007-ci il, № 42*

Bu Qaydalar Azərbaycan Respublikası Vergi Məcəlləsinin 200.1-ci maddəsinə uyğun olaraq fiziki şəxslərin mülkiyyətində olan tikililər və ya onların hissələri (bundan sonra - binalar) üzrə əmlak vergisinin hesablanması qaydalarını tənzimləyir.

### 1. Vergitutma obyekti və dərəcələri

1.1. Fiziki şəxslərin əmlak vergisinə cəlb edilməsi məqsədləri üçün binaları dedikdə, fiziki şəxsin xüsusi mülkiyyətində olan yaşayış evləri, mənzilləri, bağ evləri, qaracları, digər tikililəri və onların hissələri başa düşülür.

1.2. Azərbaycan Respublikasının ərazisində rezident və qeyri-rezident fiziki şəxslərin xüsusi mülkiyyətində olan binaların yaxud onların hissələrinin dəyəri əmlak vergisinə cəlb olunur.

1.3. Fiziki şəxslərin xüsusi mülkiyyətində olan binalarına görə əmlak vergisi onların yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən hesablanır.

1.4. Fiziki şəxslərin xüsusi mülkiyyətində olan binalara görə əmlak vergisi binaların *(1)* müəyyənləşdirilən inventar dəyərindən bu dəyər *5000 manatadək (3,6) olduqda vergi tutulmur, 5000 manatdan (3,6) çox olan məbləğdən isə (2)* - 0,1 faizlə tutulur.

### 2. Verginin hesablanması qaydaları

2.1. Fiziki şəxslərin binalarının inventar dəyəri Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 1999-cu il 28 iyun tarixli 110 nömrəli "Fiziki şəxslərin mülkiyyətində olan binaların inventar dəyərinin hesablanması qaydasının təsdiq edilməsi haqqında" qərarı ilə müəyyən edilmiş qaydalara uyğun olaraq müəyyənləşdirilir.

*Bələdiyyələr binalara görə fiziki şəxslərdən əmlak vergisini hesablamaq məqsədilə 3-5 ildə bir dəfədən çox olmamaq şərtilə, ərazilərində yerləşən müvafiq əmlakın vergiqoyma məqsədləri üçün qiymətləndirilməsi barədə qərar qəbul edirlər. (1)*

2.2. Bir neçə sahibi olan bina üzrə əmlak vergisi həmin binanın hər sahibi üçün binanın inventar dəyərindəki payına uyğun olaraq hesablanır.

2.3. *Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin yerli qurumları (4;5)* fiziki şəxslərin binalarına əmlak vergisinin hesablanması məqsədilə *bələdiyyə vergi xidməti orqanlarına (1)* binaların inventar dəyəri barədə *(1)* məlumat verirlər.

Fiziki şəxsin xüsusi mülkiyyətində müxtəlif bələdiyyələrin ərazisində yerləşən binaları olduqda, daşınmaz əmlakın dövlət reyestrini aparan orqan bələdiyyələrin müraciətinə əsasən hər bir bələdiyyəyə fiziki şəxsin binaları barədə məlumat verə bilər.

2.4. Bələdiyyələr verginin ödənilməsi barədə tədiyə bildirişini vergi ödəyicilərinə iyunun 1-dən gec olmayaraq verməlidirlər.

2.5. Cari il üçün verginin məbləği bərabər hissələrlə - həmin il avqustun 15-dək və noyabrın 15-dək ödənilir. Əmlak vergisi binanın əvvəlki sahibi tərəfindən ödənilmədiyi hallarda, vergi müəyyən edilmiş ödəmə vaxtında binanın sahibi tərəfindən ödənilir.

2.6. Vərəsəlik üzrə keçən binalara görə vergi vərəsəliyin açıldığı vaxtdan başlayaraq vərəsələrdən tutulur.



2.7. Binaların icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla, Vergi Məcəlləsinin 102.2-ci maddəsində göstərilən şəxslərin, habelə pensiyaçıların və müddətli hərbi xidmət hərbi qulluqçularının və onların ailə üzvlərinin müddətli hərbi xidmət dövründə binalara görə ödəməli olduqları əmlak vergisinin məbləği *30 manat (2,6)* qədər azaldılır.

### 3. Məsuliyyət

3.1. Əmlak vergisi vaxtında ödənilmədikdə, vergi ödəyiciləri qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

3.2. Bələdiyyələrin müvafiq orqanları formalaşanadək fiziki şəxslərin mülkiyyətində olan binalara görə əmlak vergisinin yığılması və yerli büdcələrə köçürülməsi bələdiyyələrin müraciəti əsasında bağlanılan müqavilə ilə dövlət vergi orqanları tərəfindən həyata keçirilir.

## QƏRAR № 106

***Bakı şəhəri, 8 iyul 2002-ci il***

## Bələdiyyə mülkiyyətinə verilən dövlət əmlakının siyahısının təsdiq edilməsi barədə

"Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 11 iyun tarixli 498 nömrəli fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. İqtisadi İnkişaf Nazirliyinin bələdiyyələr və yerli icra hakimiyyəti orqanları ilə razılaşdırılmış təqdimatı əsasında "Bələdiyyə mülkiyyətinə verilən dövlət əmlakının siyahısı" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Statistika Komitəsi, müvafiq bələdiyyələr və yerli icra hakimiyyəti orqanları bir ay müddətinə bu qərardan irəli gələn məsələləri həll etsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının***
***Baş naziri A. Rasizadə***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*2002-ci il 8 iyul tarixli 106 nömrəli Qərarı ilə*
***təsdiq edilmişdir***

# Bələdiyyə mülkiyyətinə verilən dövlət əmlakının SİYAHISI

***Əlavə və dəyişikliklər:***
*1) 13 may 2003-cü il, № 62*
*2) 26 dekabr 2006-cı il, № 275*
*3) 05 iyun 2008-ci il, № 131*
*4) 10 iyun 2008-ci il, № 134*

| Sıra №-si | Verilən əmlakın adı | Ünvanı | Balans sahibi | Bələdiyyənin adı |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 1 | Ağdaş rayonu inzibati binanın 3-cü mərtəbəsi | M.Ə. Rəsulzadə, 60 | Ağdaş mənzil təsərrüfatı istehsalat istismarı-təmir müəssisəsi | Ağdaş şəhər bələdiyyəsi |
| 2 | Ağcabədi rayonu Şəhər bulvarı | Ağcabədi şəhəri | Şəhər Yaşıllaşdırma İdarəsi | Ağcabədi şəhər bələdiyyəsi |
| 3 | Park | Ağcabədi şəhəri | Şəhər İH | Ağcabədi şəhər bələdiyyəsi |
| 4 | Abşeron rayonu İnzibati binanın 2-ci mərtəbəsində 2 otaq | *Xırdalan şəhəri (2),* H. Aslanov küçəsi, 1 | Abşeron rayon İH | *Xırdalan şəhər (2)* bələdiyyəsi |
| 5 | Güzdək qəsəbəsi üzrə icra nümayəndəliyinin inzibati binasında 1 otaq | Güzdək qəsəbəsi | Rayon İH-nin Güzdək qəsəbə nümayəndəliyi | Güzdək qəsəbə bələdiyyəsi |
| 6 | Fatmayı kəndi üzrə icra nümayəndəliyinin binasında 2 otaq | Fatmayı kəndi | Rayon İH-nin Fatmayı kənd nümayəndəliyi | Fatmayı kənd bələdiyyəsi |
| 7 | Saray qəsəbə nümayəndəliyinin yardımçı binası | Saray qəsəbəsi, Axundov küçəsi, 27 | Rayon İH-nin Saray qəsəbə nümayəndəliyi | Saray qəsəbə bələdiyyəsi |
| 8 | Rayon İH-nin Mehdiabad qəsəbə nümayəndəliyinin binasında 2 otaq | Mehdiabad qəsəbəsi | Rayon İH-nin Mehdiabad qəsəbə nümayəndəliyi | Mehdiabad qəsəbə bələdiyyəsi |
| 9 | Ağsu rayonu Mədəniyyət və istirahət parkı | Ağsu şəhəri | Rayon Mənzil Kommunal Təsərrüfatı Birliyi | Ağsu şəhər bələdiyyəsi |
| 10 | İnzibati binanın 3-cü mərtəbəsində 4 otaq və iclas zalı | Ağsu şəhəri S. Vurğun küçəsi, 3 | Ağsu rayon Mənzil İstismar İdarəsi | Ağsu şəhər bələdiyyəsi |
| 11 | Beyləqan rayonu Yataqxana | Beyləqan şəhəri, 4 №-li Səyyar Mexanikləşdirilmiş Dəstə qəsəbəsi | Mənzil İstismar Sahəsi | Beyləqan şəhər bələdiyyəsi |
| 12 | Yataqxana | Beyləqan şəhəri, 4 №-li Səyyar Mexanikləşdirilmiş Dəstə qəsəbəsi | Mənzil İstismar Sahəsi | Beyləqan şəhər bələdiyyəsi |



| | | | | |
|---|---|---|---|---|
| 13 | Yataqxana | Beyləqan şəhəri, 42 №-li Səyyar Mexanikləşdirilmiş Dəstə qəsəbəsi | Mənzil İstismar Sahəsi | Beyləqan şəhər bələdiyyəsi |
| 14 | İnzibati bina | Beyləqan şəhəri, M.Ə. Rəsulzadə küçəsi, 1 | Kommunal müəssisələri kombinatı | Beyləqan şəhər bələdiyyəsi |
| 15 | Daşkəsən rayonu Anbar və idarə binası | Qaraqollar kəndi | Rayon İH-nin Qaraqollar yerli ərazi nümayəndəliyi | Qaraqollar kənd bələdiyyəsi |
| 16 | "Dədə Qorqud - 1300" parkı | Daşkəsən şəhəri | Kommunal müəssisələri kombinatı | Daşkəsən şəhər bələdiyyəsi |
| 17 | İnzibati binanın 2-ci mərtəbəsində 5 otaq | Azadlıq meydanı, 1 | RİH | Daşkəsən şəhər bələdiyyəsi |
| 18 | İdarə binası | Zəylik kəndi | Rayon İH-nin Zəylik yerli ərazi nümayəndəliyi | Zəylik kənd bələdiyyəsi |
| 19 | Mühasibat binası | Zəylik kəndi | Rayon İH-nin Zəylik yerli ərazi nümayəndəliyi | Zəylik kənd bələdiyyəsi |
| 20 | Dəvəçi rayonu M.Nəzirov adına park | Dəvəçi rayonu | Kommunal müəssisələri kombinatı | Dəvəçi şəhər bələdiyyəsi |
| 21 | *Şirvan (4)* şəhəri Kommunal müəssisələr kombinatının inzibati binası | G.Şıxbala oğlu küçəsi, 16 | Kommunal müəssisələri kombinatı | *Şirvan (4)* şəhər bələdiyyəsi |
| 22 | Şəhər İH Hacı Qəhrəmanlı qəsəbə nümayəndəliyinin inzibati binası (keçmiş məktəb binası) | Hacı Qəhrəmanlı qəsəbəsi | Şəhər İH-nin Hacı Qəhrəmanlı qəsəbə nümayəndəliyi | Hacı Qəhrəmanlı qəsəbə bələdiyyəsi |
| 23 | Gəncə şəhəri Z.Tağıyev küçəsindəki bağ | Z.Tağıyev küçəsi, 2-ci dalan | Gəncə şəhər Kommunal Təsərrüfatı İstehsalat Birliyi | Nizami rayon bələdiyyəsi |
| 24 | Novruz meydanı | Yeni Gəncə yaşayış sahəsi | Gəncə şəhər Kommunal Təsərrüfatı İstehsalat Birliyi | Nizami rayon bələdiyyəsi |
| 25 | Göyçay rayonu inzibati binanın 2-ci mərtəbəsində 5 otaq və iclas zalı | Nərimanov küçəsi, 32 | Rayon Mənzil İstismar sahəsi | Göyçay şəhər bələdiyyəsi |
| 26 | Gədəbəy rayonu park | S.Vurğun küçəsi | Rayon Kommunal müəssisələri kombinatı | Gədəbəy şəhər bələdiyyəsi |
| 27 | Köhnə inzibati bina | M.Ə.Rəsulzadə küçəsi, 16 | Rayon Kommunal müəssisələri kombinatı | Gədəbəy şəhər bələdiyyəsi |
| 28 | 1941-1945-ci illər üçün abidə kompleksi | Mirzəyev küçəsi | Rayon Kommunal müəssisələri kombinatı | Gədəbəy şəhər bələdiyyəsi |
| 29 | Goranboy rayonu inzibati binanın 2-ci mərtəbəsində 4 otaq | V.Bayramov küçəsi, 68 | RİH | Goranboy şəhər bələdiyyəsi |
| 30 | Hacıqabul rayonu İnzibati binanın 2-ci mərtəbəsində 2 otaq | Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi, 7 | RİH | Qazıməmməd şəhər bələdiyyəsi |

| | | | | |
|---|---|---|---|---|
| 31 | Xaçmaz rayonu Konserv kombinatının parkı | Xaçmaz şəhəri | 2 nömrəli Mənzil İstismar Sahəsi | Xaçmaz şəhər bələdiyyəsi |
| 32 | Xızı rayonu inzibati binanın 2-ci mərtəbəsində 2 otaq | Xızı rayonu | RİH | *Xızı şəhər(3)* bələdiyyəsi |
| 33 | İsmayıllı rayonu İnzibati binanın 2-ci mərtəbəsində 6 otaq və iclas zalı | İsmayıllı şəhəri, 20 Yanvar küçəsi | İsmayıllı rayon İH | İsmayıllı şəhər bələdiyyəsi |
| 34 | Keçmiş Lahıc qəsəbə İcraiyyə Komitəsinin köhnə inzibati binası | Lahıc qəsəbəsi | Rayon İH-nin Lahıc nümayəndəliyi | Lahıc qəsəbə bələdiyyəsi |
| 35 | İmişli rayonu fəvvarə | M.Əsədov küçəsi | Rayon Kommunal müəssisələri kombinatı | İmişli şəhər bələdiyyəsi |
| 36 | 2 mərtəbəli inzibati binanın 2-ci mərtəbəsində 8 otaq | M.Əsədov küçəsi, 5 | RİH | İmişli şəhər bələdiyyəsi |
| 37 | Sabir adına uşaq və məktəblilər parkı | Nizami küçəsi | Rayon Kommunal müəssisələri kombinatı | İmişli şəhər bələdiyyəsi |
| 38 | Kürdəmir rayonu birmərtəbəli ədəd əsas və birmərtəbəli 4 ədəd yardımçı binalar | Kürdəmir şəhəri, Qarabağ küçəsi, 50 | Daxili İşlər Nazirliyi | *Kürdəmir şəhər bələdiyyəsi* |
| 39 | Qax rayonu N.Nərimanov adına park | 20 Yanvar küçəsi | Qax rayon Mədəniyyət şöbəsi | Qax şəhər bələdiyyəsi |
| 40 | Nizami adına park | Azadlıq küçəsi | Rayon Kommunal müəssisələri kombinatı | Qax şəhər bələdiyyəsi |
| 41 | İnzibati binanın 2-ci mərtəbəsi | Azadlıq küçəsi, 26 | RİH | Qax şəhər bələdiyyəsi |
| 42 | Qəbələ rayonu Kənd icra nümayəndəliyinin binası | Böyük Pirəlli kəndi | RİH | Böyük Pirəlli kənd bələdiyyəsi |
| 43 | Kənd icra nümayəndəliyinin idarə binası | Kiçik Pirəlli kəndi | RİH | Kiçik Pirəlli kənd bələdiyyəsi |
| 44 | Qazax rayonu İnzibati binanın 2-ci mərtəbəsi 6 otaq | Qazax şəhəri, Sabir küçəsi, 177 | RİH | Qazax şəhər bələdiyyəsi |
| 45 | Kənd icra nümayəndəliyində 2 otaq | İkinci Şıxlı kəndi | Rayon İH-nin İkinci Şıxlı kənd nümayəndəliyi | İkinci Şıxlı kənd bələdiyyəsi |
| 46 | Kənd icra nümayəndəliyində 1 otaq | Xanlıqlar kəndi | Rayon İH-nin Xanlıqlar kənd nümayəndəliyi | Xanlıqlar kənd bələdiyyəsi |
| 47 | Kənd icra nümayəndəliyində 2 otaq | Orta Salahlı kəndi | Rayon İH-nin Orta Salahlı kənd nümayəndəliyi | Orta Salahlı kənd bələdiyyəsi |
| 48 | Kənd icra nümayəndəliyində 3 otaq | Çaylı kəndi | Rayon İH-nin Çaylı kənd nümayəndəliyi | Çaylı kənd bələdiyyəsi |
| 49 | Kənd icra nümayəndəliyində 2 otaq | Birinci Şıxlı kəndi | Rayon İH-nin Birinci Şıxlı kənd nümayəndəliyi | Birinci Şıxlı kənd bələdiyyəsi |
| 50 | Kənd icra nümayəndəliyində 3 otaq | Yuxarı Salahlı kəndi | Rayon İH-nin Yuxarı Salahlı kənd nümayəndəliyi | Yuxarı Salahlı kənd bələdiyyəsi |
| 51 | Kənd icra nümayəndəliyində 1 otaq | Qaymaqlı kəndi | Rayon İH-nin Qaymaqlı kənd nümayəndəliyi | Qaymaqlı kənd bələdiyyəsi |
| 52 | Quba rayonu inzibati idarə binasında 8 otaq və iclas zalı | Quba şəhəri, Qələbə küçəsi, 8 | RİH | Quba şəhər bələdiyyəsi |
| 53 | Lerik rayonu Fin evi | Pirəsora kəndi | Mənzil Kommunal Təsərrüfat Birliyi | Pirəsora kənd bələdiyyəsi |
| 54 | Mingəçevir şəhəri M.Ə.Rəsulzadə prospektində inzibati binanın 2-ci və 3-cü mərtəbələri | M.Ə.Rəsulzadə prospekti, 26/11 | Mənzil təsərrüfatı və abadlaşdırma müəssisəsi | Mingəçevir şəhər bələdiyyəsi |
| 55 | S. Vurğun adına İstirahət bağı | S.Vurğun meydanı | Şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi | Mingəçevir şəhər bələdiyyəsi |
| 56 | M. Hüseynzadə adına "Sahil" bağı | N.Rəfibəyli küçəsi | Şəhər Mədəniyyət şöbəsi | Mingəçevir şəhər bələdiyyəsi |
| 57 | Fəvvarə | M.P.Vaqif küçəsi | Şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi | Mingəçevir şəhər bələdiyyəsi |
| 58 | Fəvvarə | M.Ə.Rəsulzadə prospekti, 34 nömrəli binanın qarşısı | Şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi | Mingəçevir şəhər bələdiyyəsi |
| 59 | Fəvvarə | M.Ə.Rəsulzadə prospekti, 47/2 nömrəli binanın qarşısı | Şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi | Mingəçevir şəhər bələdiyyəsi |
| 60 | Fəvvarə | M.Ə.Rəsulzadə prospekti, "Mingəçevir-bazar" ATSC-nin qarşısı | Şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi | Mingəçevir şəhər bələdiyyəsi |
| 61 | Fəvvarə | Ş. Mustafayev adına meydan | Şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi | Mingəçevir şəhər bələdiyyəsi |
| 62 | Fəvvarə | N.Rəfibəyli küçəsi | Şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi | Mingəçevir şəhər bələdiyyəsi |
| 63 | Fəvvarə | Ailə istirahət mərkəzi | Şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi | Mingəçevir şəhər bələdiyyəsi |
| 64 | Fəvvarə | Füzuli küçəsi | Şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi | Mingəçevir şəhər bələdiyyəsi |
| 65 | Neftçala rayonu inzibati binanın 2-ci mərtəbəsində 7 otaq | Nizami küçəsi, 66 | RİH | Neftçala şəhər bələdiyyəsi |
| 66 | 3 otaqlı taxta inzibati bina | 2 „ -li Mayak kəndi | Rayon Mənzil Kommunal Təsərrüfatı Birliyi | 2 N-li Mayak kənd bələdiyyəsi |
| 67 | İnzibati binanın 6 otağı | Həsənabad kəndi | Rayon Kommunal Təsərrüfatı Birliyi | Həsənabad qəsəbə bələdiyyəsi |
| 68 | İnzibati binada 1 otaq | 1 №-li Mayak kəndi | RİH-nin Yenikənd kənd ərazi nümayəndəliyi | 1 N-li Mayak kənd bələdiyyəsi |

| | | | | |
|---|---|---|---|---|
| 69 | Aşağı Surra kənd ərazi nümayəndəliyinin binasında bir otaq | Aşağı Surra kəndi | RİH-nin Aşağı Surra kənd ərazi nümayəndəliyi | Aşağı Surra kənd bələdiyyəsi |
| 70 | 4 otaqlı binanın 3 otağı | Xıllı qəsəbəsi | Rayon Mənzil Kommunal Təsərrüfatı Birliyi | Xıllı qəsəbə bələdiyyəsi |
| 71 | Naftalan şəhəri "Qələbə" parkı | Q. Namazəliyev küçəsi | Mənzil Kommunal Təsərrüfatı Birliyi | Naftalan şəhər bələdiyyəsi |
| 72 | Oğuz rayonu Böyük Vətən Müharibəsi iştirakçıları abidəsi | Oğuz şəhəri, S.Vurğun küçəsi | ŞİH-nin nümayəndəliyi | Oğuz şəhər bələdiyyəsi |
| 73 | Saatlı rayonu Rayonun mərkəzi parkı | Saatlı şəhəri, "Azərbaycan" xiyabanı | Rayon Kommunal Təsərrüfatı Kombinatı | Saatlı şəhər bələdiyyəsi |
| 74 | "Qızlar bulağı" bağçası | Saatlı şəhəri, "Azərbaycan" xiyabanı | Rayon Kommunal Təsərrüfatı Kombinatı | Saatlı şəhər bələdiyyəsi |
| 75 | Sumqayıt şəhəri Şəhər bağı | Sumqayıt şəhəri | Şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi | Sumqayıt şəhər bələdiyyəsi |
| 76 | İnzibati binada 5 otaq | Zeynalabdin qəsəbəsi S.Bəhlulzadə küçəsi, 8 | Sumqayıt şəhər İH | H. Zeynalabdin qəsəbə bələdiyyəsi |
| 77 | Corat qəsəbə nümayəndəliyinin binasında 2 otaq | Corat qəsəbəsi, Sülh küçəsi | İH-nin Corat qəsəbə nümayəndəliyi | Corat qəsəbə bələdiyyəsi |
| 78 | Şəmkir rayonu inzibati binanın 3-cü mərtəbəsi | Nizami küçəsi, 1 | RİH | Şəmkir şəhər bələdiyyəsi |
| 79 | Şamaxı rayonu inzibati binanın 2-ci mərtəbəsində 6 otaq | Azərbaycan küçəsi, 30 | RİH-nin Şamaxı şəhər nümayəndəliyi | Şamaxı şəhər bələdiyyəsi |
| 80 | Tərtər rayonu inzibati binanın 2-ci mərtəbəsində 6 otaq | E.Hüseynov küçəsi, 108 | Tərtər rayon Mənzil İstismar Sahəsi | Tərtər şəhər bələdiyyəsi |
| 81 | Tovuz rayonu inzibati bina | Tovuz şəhəri, Sabir küçəsi, 43 | Tovuz rayon Mənzil İstismar Sahəsi | Tovuz şəhər bələdiyyəsi |
| 82 | "Qəhrəmanlar" parkı və oradakı abidələr | Tovuz şəhəri | Rayon İH-nin Tovuz şəhər nümayəndəliyi | Tovuz şəhər bələdiyyəsi |
| 83 | Pionerlər parkı | Tovuz şəhəri | Rayon İH-nin Tovuz şəhər nümayəndəliyi | Tovuz şəhər bələdiyyəsi |
| 84 | 1941-1945-ci illər abidə kompleksi | Tovuz şəhəri | Rayon İH-nin Tovuz şəhər nümayəndəliyi | Tovuz şəhər bələdiyyəsi |
| 85 | Nizami adına park | Tovuz şəhəri | Rayon İHnin Tovuz şəhər nümayəndəliyi | Tovuz şəhər bələdiyyəsi |
| 86 | Ucar rayonu inzibati binanın 2-ci mərtəbəsi | N.Nərimanov küçəsi, 81 | Rayon Mənzil İstismar Sahəsi | Ucar şəhər bələdiyyəsi |
| 87 | Yevlax şəhəri kənd nümayəndəliyinin binasında 1 otaq | Yevlax rayonu, Havarlı kəndi | Rayon İH-nin Havarlı kənd nümayəndəliyi | Havarlı kənd bələdiyyəsi |
| 88 | S. Vurğun adına park | S.Əliyev küçəsi | Rayon Mənzil Kommunal Təsərrüfatı Birliyi | Yevlax şəhər bələdiyyəsi |
| 89 | Mərkəzi park | S.Əliyev küçəsi | Rayon Mənzil Kommunal Təsərrüfatı Birliyi | Yevlax şəhər bələdiyyəsi |
| 90 | Kənd nümayəndəliyində iş otağı | Yuxarı Qarxun kəndi | Rayon İH-nin Yuxarı Qarxun kənd nümayəndəliyi | Yuxarı Qarxun kənd bələdiyyəsi |
| 91 | Zərdab rayonu inzibati binanın 3-cü mərtəbəsində 5 otaq | Zərdab şəhəri, M.Rəsulzadə küçəsi, 14 | Rayon Mənzil İstismar Sahəsi | Zərdab şəhər bələdiyyəsi |
| 92 | Zaqatala rayonu RİH-nin şəhər nümayəndəliyinin binasında 4 otaq (III mərtəbədə) | Zaqatala şəhəri, Nizami küçəsi, 9 | RİH-nin şəhər nümayəndəliyi | Zaqatala şəhər bələdiyyəsi |



## QƏRAR № 22

***Bakı şəhəri, 26 yanvar 2006-cı il***

## "Ailə kəndli təsərrüfatının uçotunun aparılması qaydaları"nın təsdiq edilməsi barədə

"Ailə kəndli təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 319 nömrəli fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Ailə kəndli təsərrüfatının uçotunun aparılması qaydaları" təsdiq edilsin (əlavə olunur).
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının***
***Baş naziri A.Rasizadə***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 26 yanvar tarixli 22 nömrəli qərarı ilə* ***təsdiq edilmişdir***

## Ailə kəndli təsərrüfatının uçotunun aparılması qaydaları

1. Bu qaydalar "Ailə kəndli təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 319 nömrəli fərmanının 1.5-ci bəndinə əsasən hazırlanmışdır və ailə kəndli təsərrüfatının uçotunun aparılmasını tənzimləyir.

2. Ailə kəndli təsərrüfatının uçotunu müvafiq ərazilər üzrə bələdiyyə orqanları həyata keçirir. Ailə kəndli təsərrüfatının başçısı uçota durmaq üçün müvafiq ərazi bələdiyyəsinə ərizə ilə müraciət etməlidir. Ərizədə ailə kəndli təsərrüfatının başçısının və üzvlərinin adı, soyadı, atasının adı, yaşayış yeri və ailə kəndli təsərrüfatının yerləşdiyi yer barədə məlumatlar göstərilməlidir. Ailə kəndli təsərrüfatının başçısının şəxsiyyətini təsdiq edən sənədin surəti ərizəyə əlavə edilir.

3. Ailə kəndli təsərrüfatının uçotunu aparan bələdiyyə orqanı ərizəyə 2 gündən gec olmayaraq baxmalıdır. Uçotu aparan bələdiyyə orqanı bu müddət ərzində təsərrüfatın uçota götürülməsi barədə onun başçısına və ailə üzvlərinə rəsmi sənəd-vəsiqə verir. Rəsmi sənədin verilməsinə görə bələdiyyə orqanlarına haqq ödənilmir.

4. Ailə kəndli təsərrüfatının başçısı dəyişdirildikdə təsərrüfatın yeni seçilmiş başçısı bu barədə onun uçotunu aparan bələdiyyə orqanına 3 gün müddətində məlumat verməlidir. Ailə kəndli təsərrüfatının üzvlərinin sayının və tərkibinin dəyişməsi ilə əlaqədar təsərrüfatın başçısı bələdiyyə orqanına yazılı məlumat verməlidir.

5. Ailə kəndli təsərrüfatının uçotunun aparılması üçün statistika orqanları tərəfindən təsdiq edilmiş formaya uyğun bələdiyyə orqanı xüsusi reyestr kitabı tərtib edir. Reyestr kitabında uçotu aparılan ailə kəndli təsərrüfatlarının üzvləri və dövriyyəsi barədə qeydlər aparılır.

Ləğv edilmiş və statusu itirilmiş ailə kəndli təsərrüfatları barədə reyestr kitabında müvafiq qeydlər aparılır.

6. Ailə kəndli təsərrüfatı statistika orqanı tərəfindən müəyyən edilmiş formaya uyğun olan kitabda öz dövriyyəsinin uçotunu aparır.

Təsərrüfatın başçısı illik dövriyyə barədə məlumatı statistika orqanının müəyyən etdiyi formada növbəti il yanvarın 20-dən gec olmayaraq uçotda olduğu bələdiyyə orqanına təqdim edir.

7. İllik dövriyyəsinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi həddən çox olmasına görə statusunu itirmiş ailə kəndli təsərrüfatları barədə məlumatlar bu statusun itirildiyi gündən sonrakı 3 gün müddətində bələdiyyə tərəfindən müvafiq ərazi vergi orqanına təqdim edilir.



8. Ailə kəndli təsərrüfatının uçotunu aparan müvafiq bələdiyyə orqanı hesabat dövründən sonrakı ayın 10-dək uçota götürülmüş təsərrüfatlar barədə müvafiq ərazi statistika orqanına məlumat verməlidir.

## QƏRAR № 59

***Bakı şəhəri, 27 fevral 2006-cı il***

## "Ailə kəndli təsərrüfatının üzvlərinə onların statusunu, əmək fəaliyyətini və əmək stajını təsdiq edən vəsiqənin forması və verilmə qaydası"nın təsdiq edilməsi haqqında

"Ailə kəndli təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli, 319 nömrəli fərmanının 1.6-cı bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Ailə kəndli təsərrüfatının üzvlərinə onların statusunu, əmək fəaliyyətini və əmək stajını təsdiq edən vəsiqənin forması və verilmə qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri A. Rasizadə***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 27 fevral tarixli, 59 nömrəli qərarı ilə* ***təsdiq edilmişdir***

## Ailə kəndli təsərrüfatının üzvlərinə onların statusunu, əmək fəaliyyətini və əmək stajını təsdiq edən vəsiqənin forması və verilmə qaydası

### *1. Ümumi müddəalar*

1.1. Bələdiyyələr tərəfindən ailə kəndli təsərrüfatı (bundan sonra AKT) üzvünə verilən vəsiqə onun statusunu, əmək fəaliyyətini və əmək stajını təsdiq edən sənəddir.

1.2. Vəsiqə ailə kəndli təsərrüfatı üzvünə AKT müvafiq ərazilər üzrə bələdiyyədə uçota alındıqdan sonra 5 gün müddətində verilir.

1.3. Ailə kəndli təsərrüfatının başçısı AKT üzvlərinin vəsiqələrini (və ya vəsiqələrin dublikatını) almaq üçün onların şəxsiyyətini təsdiq edən sənədləri müvafiq ərazilər üzrə bələdiyyəyə təqdim etməlidir.

## 2. *Ailə kəndli təsərrüfatı üzvünün vəsiqəsinin forması və onun doldurulması*

2.1. AKT üzvünün vəsiqəsi (bu qaydaya əlavədə verilmiş forma) 10 sm x 14 sm ölçüdə, üz qabığı yaşıl rəngli, qalın cildli kitabça şəklindədir. AKT üzvünün vəsiqəsi üç bölmədən ibarətdir. 1-ci bölmə üz qabığı, 2-ci bölmə titul vərəqi, 3-cü bölmə isə iş haqqında məlumatdır.

2.2. AKT üzvünün vəsiqəsi müvafiq ərazilər üzrə bələdiyyələr tərəfindən Azərbaycan Respublikasının dövlət dilində doldurulur.

2.3. Müvafiq ərazilər üzrə bələdiyyələr tərəfindən AKT üzvünün vəsiqəsində təsdiqedici sənədlərə əsasən aşağıdakı qeydlər aparılır:

* "Titul vərəqi" bölməsində AKT üzvünün soyadı, adı, atasının adı (ixtisar olunmadan), doğulduğu tarix (gün, ay, il), AKT-yə üzv olma tarixi (gün, ay, il), AKT-nin adı və hüquqi ünvanı yazılır;

* vəsiqənin titul vərəqi vəsiqənin verilməsi üçün məsuliyyət daşıyan müvafiq ərazilər üzrə bələdiyyənin sədri tərəfindən imzalanır və möhürlə təsdiq edilir;

* "İş haqqında məlumat" bölməsinin 1-ci sütununda AKT üzvünün fəaliyyətə başladığı gün, ay və il, 2-ci sütununda təsərrüfat - təqvim illəri, 3-cü sütununda AKT üzvünün hansı işlə məşğul olduğu göstərilir, 4-cü sütununda isə qeydlər müvafiq ərazilər üzrə bələdiyyə sədri tərəfindən imzalanır və möhürlə təsdiq edilir.

2.4. AKT üzvünün vəsiqəsində AKT statusunun itirilməsi və ləğv edilməsi səbəbləri "Ailə kəndli təsərrüfatı" haqqında Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinə uyğun göstərilməlidir.

2.5. AKT üzvünün soyadının, adının, atasının adının vəsiqədə dəyişdirilməsi müvafiq ərazilər üzrə bələdiyyələr tərəfindən təsdiqedici sənədlərə əsasən aparılır. Bu halda hansı sənədlərə istinad edildiyi göstərilməlidir. Dəyişikliklər vəsiqənin birinci səhifəsində edilir.

## 3. *Ailə kəndli təsərrüfatı üzvlərinin vəsiqələrinin hazırlanması, verilməsi və saxlanılması*

3.1. AKT üzvlərinin vəsiqələri Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən hazırlanır, nömrələnir və müvafiq ərazilər üzrə bələdiyyələrə çatdırılır.

3.2. AKT üzvünün vəsiqəsinin hazırlanması ilə əlaqədar vəsait müvafiq bələdiyyələr tərəfindən ayrılır.

3.3. AKT üzvləri tərəfindən vəsiqə üçün haqq ödənilmir.

3.4. Vəsiqə AKT üzvünün özündə saxlanılır.



## 4. *Ailə kəndli təsərrüfatı üzvünün vəsiqəsinin dublikatı*

4.1. Vəsiqə itirildikdə və ya yararsız hala salındıqda, AKT üzvünün xahişi ilə ona vəsiqənin dublikatı verilir.

4.2. Dublikat almaq hüququna malik olan işçi dövlət qəzetlərinin birində itirilmiş vəsiqənin etibarsız hesab edilməsi barədə elan dərc etdirdiyi gündən 1 ay sonra AKT-nin başçısına müraciət etməlidir.

4.3. AKT-nin başçısı bu qaydanın 1.3-cü bəndinə əsasən müvafiq ərazilər üzrə bələdiyyəyə müraciət edir.

AKT üzvünə müvafiq ərazilər üzrə bələdiyyə tərəfindən müəyyən edilmiş qaydada yeni vəsiqə (dublikat) verilir.

AKT üzvünün yeni vəsiqəsinin titul vərəqinin yuxarı sağ tərəfində iri hərflərlə "Dublikat" sözü yazılır.

4.4. AKT üzvünün vəsiqəsi bu qaydanın 2-ci bəndinə uyğun doldurulur.

4.5. AKT üzvünə dublikat vəsiqə verildiyi zaman həmin vaxta qədər AKT üzvünün işi haqqında məlumat müvafiq bələdiyyələr tərəfindən müəyyənləşdirilir və dublikata qeyd olunur.

## 5. *Ailə kəndli təsərrüfatı üzvünün vəsiqəsinin uçotu*

5.1. AKT üzvünün vəsiqəsinin uçotu müvafiq ərazilər üzrə bələdiyyələr tərəfindən aparılır və mədaxil-məxaric kitabında qeydə alınır.

5.2. Mədaxil-məxaric kitabına vəsiqənin sifarişi və alınması ilə əlaqədar bütün əməliyyatlar yazılır. Kitab bələdiyyələr tərəfindən aparılır.

5.3. Mədaxil-məxaric kitabı nömrələnməli, qaytanlanmalı, bələdiyyə sədri tərəfindən imzalanmalı və möhürlə təsdiq edilməlidir.

5.4. AKT üzvünə vəsiqə verildikdə və AKT-nin fəaliyyətinə xitam verildikdə, AKT üzvü mədaxil və məxaric kitabında imza edir.

*"Ailə kəndli təsərrüfatının üzvlərinə onların statusunu,*
*əmək fəaliyyətini və əmək stajını təsdiq edən vəsiqənin*
*forması və verilmə qaydası"na*
***ə l a v ə***

# Ailə kəndli təsərrüfatı üzvünün vəsiqəsinin forması

### *I. Üz qabığı*

| | |
|---|---|
| | **Ailə kəndli təsərrüfatı üzvünün vəsiqəsi** |

### *II. Titul vərəqi*

| | Ailə kəndli təsərrüfatı üzvünün vəsiqəsi №_____ |
|---|---|
| | Soyadı_____ |
| | Adı_____ |
| | Atasının adı_____ |
| | Doğulduğu tarix_____ *(gün, ay, il)* |
| | Ailə kəndli təsərrüfatına üzv olduğu tarix_____ |
| | _____ *(gün, ay, il)* |
| | Hüquqi ünvanı_____ |
| | Vəsiqə sahibinin imzası_____ |
| | Vəsiqəni verən orqanın adı_____ |
| | _____ |
| | Məsul şəxsin imzası_____ M.Y. |
| | Vəsiqənin verilmə tarixi "__" _____ 20__ il |

### *III. İş haqqında məlumat*

| AKT fəaliyyətinə başlanması və dayandırılması tarixi (il, ay, gün) | Məlumat hansı il üçün verilir | Məşğulluq növü | Qeydləri təsdiq edən şəxslərin imzası və möhürü |
|---|---|---|---|
| *1* | *2* | *3* | *4* |
| | | | |



## QƏRAR № 33

*Bakı şəhəri, 16 fevral 2007-ci il*

### "Dövlət orqanlarının və bələdiyyələrin İnternet informasiya ehtiyatlarının yaradılması formaları və qaydaları"nın təsdiq edilməsi haqqında

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 dekabr tarixli 326 nömrəli fərmanının 1.7-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dövlət orqanlarının və bələdiyyələrin İnternet informasiya ehtiyatlarının yaradılması formaları və qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının*
*Baş naziri* ***A.Rasizadə***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 16 fevral tarixli 33 nömrəli qərarı ilə* ***təsdiq edilmişdir***

### Dövlət orqanlarının və bələdiyyələrin İnternet informasiya ehtiyatlarının yaradılması formaları və qaydaları

1. Bu qaydalar "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 dekabr tarixli 326 nömrəli fərmanına uyğun olaraq hazırlanmışdır və dövlət orqanlarının və bələdiyyələrin İnternet informasiya ehtiyatlarının yaradılması formaları və qaydalarını müəyyən edir.

2. Dövlət orqanları və bələdiyyələr "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 29.1-ci maddəsində göstərilən ictimai informasiyaları açıqlamaq üçün İnternet informasiya ehtiyatları yaradırlar. Mərkəzi icra hakimiyyəti orqanları onların tabeliyində olan dövlət orqanlarının İnternet informasiya ehtiyatları formalaşdırmalarına şərait yaratmalıdırlar. Bu məqsədlə sahə (korporativ), regional və s. formada İnternet informasiya ehtiyatları yaradıla bilər.

3. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 9.1.2-ci və 9.3-cü maddələrində göstərilən informasiya sahibləri ictimai informasiyaları açıqlamaq məqsədi ilə İnternet şəbəkəsində ayrı-ayrılıqda və ya birgə informasiya ehtiyatları yarada bilərlər.

4. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 9.1.1-ci maddəsində göstərilən informasiya sahibləri:

4.1. İnternet informasiya ehtiyatları ilə tanış olmaq imkanları barədə məlumatı əks etdirən müvafiq ünvanları və ya onlara edilən dəyişiklikləri kütləvi informasiya vasitələrində açıqlamaq yolu ilə ictimaiyyətə çatdırırlar;

4.2. İnternet informasiya ehtiyatlarında ən yeni və aktual informasiyaları yerləşdirirlər;

4.3. köhnəlmiş, natamam, qeyri-dəqiq və ya çaşqınlıq yaradan informasiyaları İnternet informasiya ehtiyatlarında yerləşdirməkdən imtina edirlər;

4.4. İnternet informasiya ehtiyatlarında sənədin yerləşdirildiyi vaxtı və açıqlanması tarixini göstərirlər;

4.5. İnternet informasiya ehtiyatlarında yerləşdirilən ictimai informasiyaların tez və asan əldə edilməsi üçün şərait yaradırlar;

4.6. İnternet informasiya ehtiyatlarının etibarlı fəaliyyətini təmin edirlər.

5. Dövlət sirri təşkil edən və yayılması məhdudlaşdırılmış xidməti informasiyanın işlənilən, habelə məhdudlaşdırılmış daxilolma növlü informasiya ehtiyatları yerləşən informasiya sistemlərinin, rabitə şəbəkələrinin və fərdi kompyuterlərin informasiya mübadiləsi üçün istifadə edilən digər informasiya sistemləri və şəbəkələrinin, o cümlədən İnternet şəbəkəsinin tərkibinə daxil edilməsinə yol verilmir.

6. Əldə edilməsi məhdudlaşdırılan informasiya İnternet informasiya ehtiyatlarına daxil edilibsə, bu zaman onun əldə olunmasını mümkünsüz edən tədbirlər görülməlidir.

7. Açıq dövlət və bələdiyyə informasiya ehtiyatlarının mülkiyyətçiləri və istifadəçiləri bu ehtiyatları İnternet şəbəkəsi də daxil olmaqla, informasiya mübadiləsi üçün istifadə edilən informasiya sistemləri və şəbəkələrinə, rabitə şəbəkələrinə qoşan texniki vasitələri dövlət sirri təşkil edən məsələlərin müzakirə olunduğu və məxfi danışıqların aparılması nəzərdə tutulan yerlərdən kənarda yerləşdirməlidirlər.

8. Dövlət orqanları və bələdiyyələr "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq sertifikatlaşdırılmış informasiya sistemlərindən, məlumat bazalarından, məlumat banklarından, informasiya mühafizə vasitələrindən istifadə etməli və informasiya ehtiyatlarının və proseslərinin mühafizəsini təmin etməlidirlər.

9. Dövlət orqanları İnternet şəbəkəsi ilə əlaqəni, ondan istifadəni və həmin şəbəkədə informasiyanın yerləşdirilməsini "Azərbaycan Respublikasının dövlət orqanlarında informasiya təhlükəsizliyinin təmin edilməsi üzrə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli 172 nömrəli fərmanına müvafiq həyata keçirirlər.

10. Hər bir dövlət orqanının domen ünvanı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 31 mart tarixli 91 nömrəli qərarı ilə təsdiq edilmiş "GOV.AZ domeninin inzibatlaşdırılması qaydaları"na uyğun müəyyən edilməlidir.



11. Dövlət orqanları və bələdiyyələr inteqrasiya oluna bilən İnternet saytlarına malik olmalıdırlar. Sayt üzərindən informasiya sorğularının qəbulu və saytdan informasiya sahibinin sənədlərinin reyestrinə müraciət edib məlumat əldə edilməsi imkanları təmin edilməlidir.

12. Dövlət orqanları və bələdiyyələrin İnternet saytları aşağıdakı texniki tələbatları ödəməlidir:

12.1. qanunvericiliyin tələblərindən irəli gələn bütün vəzifələrin yerinə yetirilməsini təmin edən funksiyalara və xidmətlərə malik olmalıdır;

12.2. İnternet resursunun, müvafiq məlumat bazasının sanksiyalaşdırılmamış müdaxilədən etibarlı mühafizəsi və saytların təhlükəsizliyinin proqram təminatı sistem baxımından tam təmin olunmalıdır;

12.3. istifadəçilərin proqram və log-fayllara keçidi olmamalıdır;

12.4. saytların müxtəlif brauzerlərdə açılması və məlumatların düzgün oxunuşu təmin olunmalıdır;

12.5. saytlar sorğuların sürətli emalını təmin etməli, dayanaqlı xidmət göstərmə qabiliyyətinə malik olmalıdır;

12.6. saytların verilənlər bazası İSO 10646 (Unicode) formatını dəstəkləməlidir;

12.7. saytların proqram təminatı məlumatları verilənlər bazasına həm İnternet bağlantısı üzərindən, həm də lokal şəbəkə vasitəsilə daxil etməyə imkan verməlidir;

12.8. saytlar üzrə axtarış sistemi olmalı və axtarış simvolların registrindən asılı olmamalıdır;

12.9. İnternet saytları dövlət dilində və tələbatdan asılı olaraq, ən azı bir geniş yayılmış xarici dildə tərtib olunmalıdır;

12.10. saytların proqram təminatı və verilənlər bazası lazım gəldikdə, yeni texnologiyalara keçmək üçün inteqrasiya edilə bilən olmalıdır;

12.11. məlumatların düzgünlüyü və mətnlərin üslubu, qrammatik redaktəsi sayt sahibi tərəfindən təmin edilməlidir;

12.12. saytların xarici görünüşü, naviqasiya sistemi və istifadə rahatlığı məsələləri sayt sahibi tərəfindən saytın funksionallığı və qanunun tələblərinin qarşıya qoyduğu vəzifələri pozmamaqla müəyyən edilməlidir;

12.13. digər dövlət orqanları və bələdiyyələrin, habelə aidiyyəti beynəlxalq təşkilatların saytlarına keçidlər olmalıdır.

13. Dövlət orqanlarında və bələdiyyələrdə informasiya və kommunikasiya texnologiyaları (bundan sonra - İKT) mühiti yaradılmalıdır. Dövlət orqanlarının və bələdiyyələrin İKT mühitinin yaradılmasını aşağıdakı proseslər təşkil edir:

13.1. dövlət orqanlarının və bələdiyyələrin kompyuterləşdirmə və avtomatlaşdırma prinsipinə uyğun iş recíminə keçməsi;

13.2. dövlət orqanlarının və bələdiyyələrin lokal şəbəkəyə malik olması;

13.3. İnternet şəbəkəsinə çıxışın təmin edilməsi;

13.4. dövlət orqanlarının və bələdiyyələrin elektron poçt ünvanının olması;

13.5. İnternet şəbəkəsindən istifadə zamanı informasiya təhlükəsizliyinin təmin edilməsi;

13.6. "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun elektron sənəd dövriyyəsinin təmin edilməsi;

13.7. İKT üzrə müvafiq struktur bölmənin mövcudluğu və bu sahədə mütəxəssislərə malik olması.

14. Dövlət orqanları və bələdiyyələrin İKT üzrə struktur bölməsi aşağıdakı funksiyaları yerinə yetirir:

14.1. məlumatların təhlükəsizliyinin qorunması;

14.2. məlumat bazaları ilə bağlantının sürətlə həyata keçirilməsi;

14.3. sorğuların emalının sürətlə həyata keçirilməsi;

14.4. İnternet şəbəkəsi ilə əlaqəsinin kəsilməzliyi;

14.5. zəruri hallarda optimal genişləndirilməsi;

14.6. məlumat bazalarının ehtiyatlarının (rezervlərinin) təmin olunması.

15. İnformasiya resursunun təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə vaxtaşırı həmin resursun ehtiyat nüsxəsi (Back Up) informasiya daşıyıcılarına köçürülməli və ya digər üsullardan istifadə olunmalıdır.

**Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi 09 fevral 2000-ci il**

*(04 aprel 2001-ci il tarixli 036 №-li əmrin redaksiyasında)*

## Azərbaycan Respublikasının Dövlət və bələdiyyə qiymətli kağızlarının buraxılması, yerləşdirilməsi və tədavülü haqqında Q A Y D A L A R

### 1. Ümumi müddəalar

1.1. Bu qaydalar "Qiymətli kağızlar haqqında" Azərbaycan Respub-likasının 1998-ci il 14 iyul tarixi qanununa, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının 1999-cu il 27 iyul tarixli qanununa və Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 26 iyul tarixli 161 saylı fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında" qaydalara müvafiq olaraq dövlət və bələdiyyə qiymətli kağızlarının buraxılması, yerləşdirilməsini və tədavülünü tənzimləyir.

1.2. Dövlət və bələdiyyə tərəfindən veksellərin buraxılması Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, "Azərbaycan Respublikasında veksellərin dövriyyəsi haqqında" əsasnaməyə və bu qaydaların müvafiq tələblərinə uyğun qaydada həyata keçirilir.



1.3. Dövlət qiymətli kağızlarının beynəlxalq bazarda buraxılışı və yerləşdirilməsi qaydaları Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları və Azərbaycan Dövləti tərəfindən bağlanmış beynəlxalq sazişlərlə tənzimlənir.

### 2. Dövlət və bələdiyyə qiymətli kağızlarının buraxılış müddətləri:

2.1. Dövlət və bələdiyyə qiymətli kağızlarının müddət üzrə aşağıdakı növləri buraxılır:

- qısamüddətli qiymətli kağızlar 1 ilədək;
- ortamüddətli qiymətli kağızlar 1 ildən 5 ilədək;
- uzunmüddətli 5 ildən artıq.

### 3. Dövlət və bələdiyyə qiymətli kağızlarının buraxılmasının məqsədləri və yerləşdirilməsi üsulları

3.1. Dövlət qiymətli kağızlarının buraxılışı müvafiq olaraq aşağıdakı məqsədləri daşıyır:

- cari büdcə kəsirinin maliyyələşdirilməsi;
- dövlət kassa icrasının təmin edilməsi;
- büdcə ödəmələrinin ardıcıllığının tənzimlənməsi;
- dövlətin müəyyən edilmiş pul-kredit siyasətinin həyata keçirilməsi üçün;
- dövlət əhəmiyyətli iqtisadi inkişaf proqramların həyata keçirilməsi;
- dövlət əhəmiyətli sosial problemlərin həlli;

3.2. Bələdiyyə qiymətli kağızlarının buraxılması aşağıdakı məqsədlərlə həyata keçirilir:

- yerli büdcənin formalaşdırılması;
- yerli iqtisadi inkişaf proqramlarının həyata keçirilməsi;
- yerli əhəmiyyətli sosial, mədəni və məişət problemlərinin həll edilməsini həyata keçirilməsi;
- alqı - satqı (əmtəə) əməliyyatların yerinə yetirilməsi.

3.3. Dövlət və bələdiyə qiymətli kağızlarının yerləşdirilməsi hərrac, açıq satış və ya xüsusi yerləşdirmə üsulu ilə həyata keçirilə bilər.

3.4. Satış hərrac vasitəsilə aparıldığı halda potensial alıcılar hərracın təşkilatçılarına öz sifarişlərini göndərirlər. Həmin sifarişdə onların ala biləcəyi qiymətli kağızların həcmi göstərilir, bu şərtlə ki, satış sifarişdə göstərilən qiymətə və yaxud göstərilmiş faiz dərəcəsinə müvafiq həyata keçirilmiş olsun.

3.5. Qiymətli kağızlar açıq satış üsulü ilə yerləşdirildikdə onlar bütün alıcılara bərabər şərtlərlə satılmalıdır və bu halda qiymətli kağızların emitenti vasitəçinin xidmətlərindən istifadə etməlidir. Satışın həyata keçirilməsi zamanı bazar konyunkturası nəzərə alınır.

## 4. Dövlət və bələdiyyə qiymətli kağızları üzrə gəlirin müəyyən edilməsi formaları

4.1. Dövlət və bələdiyyə qiymətli kağızları üzrə gəlir aşağıdakı formalarda müəyyən edilə bilər:

- qiymətli kağızın nominalına nisbətdə müəyyənləşdirilmiş faiz dərəcəsi ilə;
- pilləli faiz dərəcəsi ilə;
- diskontla (nominal dəyərindən güzəştlə);
- dəyişilə bilən faiz dərəcəsi ilə;
- qiymətli kağızların nominal dəyərinin indeksləşdirilməsi yolu ilə.

## 5. Dövlət və bələdiyyə qiymətli kağızlarının emitenti

5.1. Dövlətin qiymətli kağızlarının emitenti kimi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Milli Bankı və Azərbaycan Respublikasının qanunvericilik aktlarının tələblərinə müvafiq digər orqanlar çıxış edə bilərlər.

5.2. Dövlət qiymətli kağızlarının növü, emissiyanın həcmi, yerləşdirmə və dövriyyə şərtlərini, gəlirin müəyyən edilməsi və ödənişin həyata keçirilməsi üsulları, tədavül və ödəmə müddətləri, vasitəçisi və sair xüsusi şərtləri mövcud qanunvericilik aktlarına müvafiq Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və ya emitent tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi ilə razılaşdırmaq şərti ilə müəyyən edilir.

5.3. Dövlət və bələdiyyə qiymətli kağızları hər növ üzrə nominal dəyəri, buraxılış və ödəmə şərtləri eyni olan bircinsli seriyalarla buraxılır.

5.4. Çıxarılıb

## 6. Dövlət və bələdiyyə qiymətli kağızlarının buraxılması:

6.1 Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti emissiya edilən dövlət qiymətli kağızlarının buraxılışının xüsusi şərtlərini müəyyən edə bilərlər.

6.2 Bələdiyyələr tərəfindən buraxılan qiymətli kağızlar haqqında qərar protokolla rəsmiləşdirilir. Protokolda aşağıdakılar göstərilməlidir:

- bələdiyyələrin adı, əhatə etdiyi ərazisi və yerləşdiyi ünvan;
- emissiya edilən qiymətli kağızların təminatı şərtləri və buraxılış məqsədi;
- əvvəl buraxılmış bələdiyyə qiymətli kağızlarının yerləşdirilməsi barədə məlumat;



- qiymətli kağızların növü;
- qiymətli kağızların miqdarı və emissiyanın ümumi məbləği, nominal dəyəri;
- qiymətli kağızların yerləşdirilməsindən imtina edildikdə bu qiymətli kağızların yerləşdirilməsindən əldə edilmiş vəsaitin geri qaytarılma müddəti və üsulu;
- qiymətli kağızların tədavül müddəti və ödəniş tarixi;
- qiymətli kağızlar üzrə gəlirin müəyyən edilməsi üsulu və ödənilməsi qaydaları;
- qiymətli kağızların buraxılması və tədavülü ilə bağlı digər məsələlər.

## 7. Dövlət və bələdiyyə qiymətli kağızlarının dövlət qeydiyyatı

7.1 Dövlət və bələdiyyə qiymətli kağızlarının dövlət qeydiyyatını Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi həyata keçirir.

7.2 Dövlət və bələdiyyə qiymətli kağızlarının dövlət qeydiyyatı ayrı ayrı kitablarda aparılır.

## 8. Dövlət və bələdiyyə qiymətli kağızların tədavülü

8.1 Qiymətli kağızların buraxılış şərtləri ayrı olaraq növlər üzrə müəyyən edilir.

## 9. Məsuliyyət

9.1 Bu qaydaları pozanlar Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

## 10. Qüvvəyə minmə qaydası

10.1. Bu qaydalar təsdiq olunduğu gündən qüvvəyə minir.

# VERGİLƏR NAZİRLİYİNİN SƏNƏDLƏRİ

*Azərbaycan Respublikası Vergilər Nazirliyinin 25 aprel 2006-cı il tarixli 0617040100404300 saylı əmri ilə* ***təsdiq edilmişdir***

## Yerli (bələdiyyə) büdcənin ödəyiciləri olan fiziki şəxslərin uçota alınması QAYDASI

### 1. Ümumi müddəalar

1.1. Yerli (bələdiyyə) büdcənin ödəyiciləri olan rezident və qeyri-rezident fiziki şəxslərin daşınmaz əmlaklarının (daşınar əmlaklarının) vergiyə cəlb edilməsi üzrə bələdiyyə orqanlarında uçota alınması barədə olan bu qayda Azərbaycan Respublikasının Vergi Məcəlləsinin vergi ödəyicilərinin uçotu, uçota alınma, yenidən uçota alınma və uçotdan çıxarılma prinsiplərinə uyğun hazırlanmışdır.

1.2. Qayda yerli (bələdiyyə) büdcənin ödəyiciləri olan fiziki şəxslərin uçota alınması, onlara "Yerli vergi ödəyicisinin kodu"nun (YVÖK) verilməsi, vergi ödəyicilərinin reyestrinin aparılması, fiziki şəxsə uçota alınması haqqında "Şəhadətnamə"nin verilməsi qaydalarını müəyyən edir.

### 2. Yerli vergi ödəyiciləri haqqında məlumat

2.1. Yerli (bələdiyyə) büdcənin vergi ödəyiciləri (daşınmaz əmlakın hüquq sahibi) olan fiziki şəxslər yaşadıqları ərazi üzrə bələdiyyənin vergi orqanında (bələdiyyədə) uçota alınarkən bu qaydaya 1 saylı əlavə "Yerli (bələdiyyə) vergi ödəyicisi olan fiziki şəxsin uçota alınması haqqında ərizə" formasında hər bir fiziki şəxsin daşınmaz əmlakı (əmlakı) barədə göstərilən məlumatlarına əsasən bazası yaradılmalı və həmin məlumat bazasına əsasən şəxsi hesab vərəqəsi açılarkən ondan istafadə olunmalıdır.

***2.2. Məlumat bazasında aşağıdakılar əks etdirilməlidir:***

**2.2.1. Vergi ödəyicisinin şəxsiyyəti haqqında məlumat:**
2.2.1.1. Soyadı, adı, atasının adı
2.2.1.2. Doğulduğu tarix, doğulduğu yer, cinsi
2.2.1.3. Şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi
2.2.1.4. Vəsiqəsini vermiş orqanın adı
2.2.1.5. Vəsiqəsinin verilmə tarixi



***2.2.2. Vergi ödəyicisinin ünvanı:***
2.2.2.1. Ölkənin kodu
2.2.2.2. Poçt indeksi
2.2.2.3. Şəhər (rayon), kənd (qəsəbə)
2.2.2.4. Küçə, ev №, mənzil
2.2.2.5. Vətəndaşlığı
2.2.2.6. Telefonu, elektron poçt ünvanı

**2.2.3. Vergi ödəyicisinin güzəşt hüququ:**
2.2.3.1. Sənədin №-si
2.2.3.2. Verildiyi tarixi
2.2.3.3. Sənədi verən təşkilatın adı
2.2.3.4. Güzəştə əsas verən səbəb
2.2.3.5. Sənədin qüvvədə olma müddəti

***2.2.4. Əmlakları barədə məlumat:***
2.2.4.1. Bina :
2.2.4.2. Mülkiyyət barədə sənədin reyestr №-si, tarixi
2.2.4.3. Binanın ünvanı
2.2.4.4. Binanın dəyəri
2.2.4.5. Binanın təyinatı
2.2.4.6. Nəqliyyat vasitəsi – su və hava nəqliyyatı:
2.2.4.7. Mühərrikin həcmi (kub sm.)
2.2.4.8. Bazar qiyməti
2.2.4.9. Torpaq:
2.2.4.10. Mülkiyyət və daimi istifadə barədə sənədlərin reyestr №-si, tarixi O cümlədən:
2.2.4.11. Torpağın ünvanı
2.2.4.12. Kənd təsərrüfatı torpağı: əkin, dinc və çoxillik əkmələr altındakı torpaqlar, biçənək, örüş və otlaq sahələri (hektarla)
2.2.4.13. Yaşayış fondlarının həyətyanı sahələri və bağ sahələri (kv.metr)
2.2.4.14. Digər təyinatlı torpaqlar (kv.metr)
2.2.4.15. Müvəqqəti istifadə və icarəyə götürülmüş torpaqların sahəsi
2.2.4.16. Müvəqqəti istifadə və icarənin müddəti

### 3. Yerli (bələdiyyə) büdcəyə daxil olan vergilərin kodlaşdırılması

3.1. Büdcə gəlirlərinin təsnifatı- büdcə sisteminə daxil olan büdcə gəlirlərinin qruplaşmasıdır. Büdcə gəlirləri 4 kateqoriyadan ibarətdir: vergilərdən daxilolmalar (1.1), sosial ayırmalar (1.2), qrantlar (1.3) və digər gəlirlər (1.4). Bu kateqoriyalardan asılı olaraq büdcə gəlirlərinin təsnifatı dörd səviyyədən: bölmə, yarımbölmə, maddə və yarımmaddədən ibarətdir.

3.2. Azərbaycan Respublikasının qanunla təsdiq edilmiş vergiləri dövlət vergilərinə, Muxtar Respublika vergilərinə və yerli (bələdiyyə) vergilərə bölünür.

Yerli vergilər (bələdiyyə vergiləri) dedikdə Azərbaycan Respublikasının Vergi Məcəlləsi, "Yerli (bələdiyyə) vergi və ödənişlər haqqında" Qanun və digər qanunlarla müəyyən edilən, bələdiyyə qərarlarına əsasən tətbiq edilən və bələdiyyələrin ərazisində ödənilən vergilər nəzərdə tutulur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 oktyabr tarixli 149 nömrəli qərarı ilə təsdiq edilmiş "Büdcə gəlirlərinin təsnifatı"na əsasən vergilər - gəlirlərdən (mənfəətdən) vergilərə, mükiyyətdən vergilərə, mal və xidmətlərə görə vergilərə və sair vergilərə bölünür.

Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi - gəlirlərdən (mənfəətdən) vergilərə, fiziki şəxslərin əmlak və torpaq vergiləri - mülkiyyətdən vergilərə aiddir. 6 simvoldan ibarət müəyyən edilmiş "vergilərin kodu"nun ilk 2 simvolu büdcə təsnifatının bölməsini, 3-cü simvol köməkçi bölməni, 4-cü simvol paraqrafı, 5-ci simvol maddəni və 6-cı simvol yarımmaddəni əks etdirir. Vergilərin kodu aşağıdakılardan ibarətdir:

**3.2.1. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi :**------------------------------------------------------------111260

3.2.2. **Əmlak vergisinin kodu**: ---------------------------------------------113200

O cümlədən

3.2.2.1 Rezident və qeyri-rezident fiziki şəxslərin mülkiyyətində olan binalara görə əmlak vergisinin kodu:-------------------------------------------113250

3.2.2.2. Rezident fiziki şəxslərin mülkiyyətində olan Su və hava nəqliyyatı vasitələrinə əmlak vergisinin kodu: ---------------------------- 113240

3.2.3. **Torpaq vergisinin kodu:**--------------------------------------------------113100

O cümlədən

3.2.3.1. Kənd təsərrüfatı üçün istifadə edilən torpaqlara görə rezident və qeyri-rezident fiziki şəxslərin torpaq vergisinin kodu: -----------------113140

3.2.3.2. Yaşayış fondlarının, həyətyanı sahələri və bağ sahələrinin torpaqlarına görə torpaq vergisinin kodu: ----------------------------------113150

3.2.3.3. Digər təyinatlı torpaqlara görə rezident və qeyri-rezident fiziki şəxslərin torpaq vergisinin kodu: ------------------------------------------ 113160

3.2.3.4. Torpaqların icarəyə götürülməsindən icarə haqqı: ------------- 141730

**3.2.4. Yerli əhəmiyyətli tikinti materiallarına görə mədən vergisi: -----1141060**

3.2.5. Vergi qanunvericiliyinin pozulmasına görə hesablanan faiz və ya tətbiq olunan sanksiyaların kodu müvafiq növ vergilərin kodunun sonuna 7-ci "F"(yəni faiz) və ya "S" (yəni sanksiya) simvolları əlavə edilməklə müəyyən edilir..

**Misal:** Vaxtında ödənilməmiş torpaq vergisinə hesablanmış faizin kodu "113100F", həmin vergi üzrə tətbiq edilmiş maliyyə sanksiyasının kodu "113100S" simvolları kimi qəbul olunmalıdır. Bu digər yerli (bələdiyyə) vergilərə də eyni qaydada tətbiq edilir.



**4. Vergi ödəyicilərinin uçota alınması və uçotunun (YVÖK) ləğv edilməsi**

4.1. Yerli (bələdiyyə) vergilərin düzgün hesablanması, tam və vaxtında ödənilməsi üçün bələdiyyə nəzarətinin həyata keçirilməsini təmin etmək məqsədilə fiziki şəxslər aşağıdakı qaydada uçota alınır:

4.1.1. Yaşayış yeri üzrə ərazidə yerləşən və mülkiyyətlərində tikintiləri və ya onların hissələri, həmçinin mülkiyyətində və istifadəsində torpaq sahələri (bundan sonra daşınmaz əmlak adlandırılacaq) olan rezident və qeyri-rezident fiziki şəxslər, habelə yerindən və istifadə edilib-edilməməsindən asılı olmayaraq su və hava nəqliyyatı vasitələrinin (bundan sonra əmlak adlandırılacaq) sahibi olan rezident fiziki şəxslər vergi ödəyicisi kimi yaşadığı ərazi üzrə bələdiyyədə;

4.1.2. Yerli (bələdiyyə) büdcəyə əmlak və torpaq vergisinin ödəyicisi kimi uçota alınmış fiziki şəxsin yaşadığı bələdiyyənin ərazisindən kənarda mülkiyyətində daşınmaz əmlakı və ya istifadəsində torpağı olduqda, həmin fiziki şəxs daşınmaz əmlakının yerləşdiyi digər bələdiyyədə.

4.2. Rezident və qeyri-rezident fiziki şəxslər daşınmaz əmlaklarının mülkiyyət və istifadə hüquqlarını təsdiq edən sənədlərini aldıqdan sonra 1 ay müddətində əmlakların yerləşdiyi müvafiq ərazi üzrə bələdiyyədə uçota durmalıdır.

4.3. Yerli (bələdiyyə) vergi ödəyicisi olan fiziki şəxsin olduğu yer və ya yaşadığı yer dəyişdikdə, bu cür dəyişiklik baş verdiyi gündən 15 gün müddətində müvafiq bələdiyyəyə ərizə verməlidir. Vergi ödəyicisi olan fiziki şəxsin uçotda olduğu yerin və ya yaşadığı yerin dəyişməsi barədə ərizə ilə müraciət etdiyi gündən sonra 15 gün müddətində həmin bələdiyyənin vergi orqanı vergi ödəyicisinin yenidən uçota alınmasını (yəni əvvəlki vergi orqanından uçotdan çıxması və yeni vergi orqanında uçota alınması) həyata keçirməlidir.

4.4. Vergi ödəyicisi olan fiziki şəxs vergi orqanında uçota alınmaq üçün verdiyi ərizə formasında olan məlumatlarda hər hansı dəyişiklik baş verdikdə, dəyişiklik baş verən gündən 15 gün müddətində müvafiq bələdiyyənin vergi orqanına (bələdiyyəyə) məlumat verməlidir.

4.5. Vergi ödəyicilərinin uçot məlumatlarında dəyişikliklər Vergilər Nazirliyi tərəfindən təsdiq edilmiş forma üzrə təqdim etdikləri ərizə əsasında aparılır.

4.6. Vergi ödəyicisi olan fiziki şəxsin uçotdan çıxarılması (YVÖK ləğv edilməsi) aşağıdakı hallarda mümkündür:

4.6.1. vergi ödəyicisi (fiziki şəxsin) qanunvericiliklə müəyyən edilmiş qaydada itkin düşmüş sayıldıqda;

4.6.2. vəfat etdikdə;

4.6.3. mülkiyyətində olan bütün əmlakı və torpaq sahəsini qanunvericiliklə müəyyən olunmuş qaydada özgəninkiləşdirdikdə (bağışladıqda);

4.6.4. mülkiyyətində olan daşınmaz əmlakı ilə yanaşı istifadəsində olan torpaq sahələrinin istifadə hüququ qanunamüvafiq qaydada başqasına verildikdə.

4.7. Bələdiyyədə uçota alınma, yenidən uçota alınma, uçotdan çıxarılma ödənişsiz həyata keçirilir.

## 5. "Yerli vergi ödəyicisinin kodu"nun müəyyən edilməsi və fiziki şəxsin uçota alınması haqqında Şəhadətnamənin verilməsi

5.1. Fiziki şəxslər daşınmaz əmlaklarının (əmlaklarının) mülkiyyət və istifadə hüququnu təsdiq edən sənədləri bələdiyyənin vergi orqanına (bələdiyyəyə) təqdim etdikdən sonra (yeni yaranmış əmlaklara) ona 5 gün müddətində **"Yerli vergi ödəyicisinin kodu"** (bundan sonra "YVÖK" adlandırılacaq) müəyyən edilməklə və bu qaydaya 3 saylı əlavə forma üzrə "yerli (bələdiyyə) büdcənin vergi ödəyicisi olan fiziki şəxsin uçota alınması haqqında" Şəhadətnamə verilir. Şəhadətnamə vergi ödəyicisi olan fiziki şəxsin uçotda olmasını təsdiq edən əsas sənəddir.

5.1.1. "Yerli (bələdiyyə) büdcənin vergi ödəyicisi olan fiziki şəxsin uçota alınması haqqında" şəhadətnamə bu qaydaya 3a saylı əlavəyə əsasən tərtib edilir.

5.2. Yerli (bələdiyyə) büdcəyə əmlak və torpaq vergisinin ödəyicisi kimi uçota alınmış rezident fiziki şəxsin yaşadığı bələdiyyənin ərazisindən kənarda mülkiyyətində daşınmaz əmlakı olduqda, həmin fiziki şəxs yaşadığı ərazi üzrə bələdiyyə tərəfindən verilmiş "YVÖK" ilə daşınmaz əmlakının yerləşdiyi digər bələdiyyədə də uçota alınır.

5.3. Qeyri-rezident fiziki şəxs mülkiyyətində olan binasının və istifadəsində olan torpaq sahəsinin yerləşdiyi ərazi üzrə bələdiyyədə vergi ödəyicisi kimi bu qaydanın 4.2-ci bəndinə müvafiq uçota alınır və ona "YVÖK" verilir.

5.4. **"Yerli (bələdiyyə) büdcənin vergi ödəyicisi olan fiziki şəxsin uçota alınması haqqında" şəhadətnamə** itirildikdə və ya yararsız hala düşdükdə vergi ödəyicisinin müraciətinə əsasən ona şəhadətnamənin yeni nüsxəsi verilir. Bu zaman şəhadətnamənin yeni nüsxəsinin üzərində "dublikat" sözü yazılır.

5.5. Bələdiyyənin vergi orqanı (bələdiyyə) vergi ödəyicisinə hesablanmış vergi məbləğləri və ödənilməsi müddəti barədə "Tədiyyə bildirişi"ndə "YVÖK" göstərir.

Yerli vergi ödəyicisinin kodu "YVÖK" dövlət vergi orqanları tərəfindən verilən "VÖEN"-i əvəz etmir, yalnız fiziki şəxslərə yerli (bələdiyyə) vergilərin hesablanılması və ödənilməsi üzrə sənədlərdə əks etdirilir.

Yerli vergi ödəyicisinin kodundan "YVÖK" sahibkarlıq fəaliyyətində istifadə olunan sənədlərdə, o cümlədən idxal-ixrac əməliyyatları üzrə sənədlərdə istifadə olunması qadağandır.

5.6. **"YVÖK"** 12 simvoldan ibarət olmaqla əvvəldən beş simvol bələdiyyənin inzibati ərazi bölgüsünü təsnifləşdirir:

5.6.1. əvvəldən iki simvol şəhər və ya rayonun (bundan sonra ərazi vahidi adlanacaq) Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş simvollarını;

5.6.2. sonrakı üç simvolda ərazi vahidinin bir hissəsi olan əhalinin yığcam məskunlaşdığı (şəhər, kənd, qəsəbə) yerdə (bundan sonra yaşayış məntəqəsi adlanacaq) əhalinin sayına müvafiq olaraq bu qaydaya 2 saylı əlavəsində müəyyən edilmiş yaşayış məntəqəsinin sıra sayının simvollarını;



5.6.3. qalan yeddi simvol yerli (bələdiyyə) vergi ödəyicisi olan fiziki şəxslərə aid olmaqla Azərbaycan Respublikasının daxili işlər orqanı tərəfindən şəxsiyyətləri barədə onlara verilmiş şəxsiyyət vəsiqəsindəki pinkodun simvollarını;

5.7. Kompyuterlə təchiz olunmuş bələdiyyələrin vergi orqanlarında (bələdiyyələrdə) "YVÖK" bu qaydanın 5.9-cu bəndinin müddəalarına müvafiq qaydada avtomatlaşdırılmış proqram vasitəsilə verilir.

5.8. Bələdiyyələrdə (bələdiyyələrin vergi orqanlarında) yerli büdcənin rezident vergi ödəyiciləri uçota alınarkən bu qaydaya 2 saylı əlavədə bələdiyyələr üzrə müəyyən olunmuş simvollardan istifadə edilməklə fiziki şəxslərə 12 simvoldan ibarət olan "YVÖK" aşağıdakı kimi müəyyən edilir:

5.8.1. yerli vergi ödəyicisi olan rezident fiziki şəxsə "YVÖK" verilərkən 12 simvoldan ibarət kodun əvvəlki iki simvoluna Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş ərazi vahidininin simvolu yazılır :

**Misal:** Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən təsdiq olunmuş ərazi vahidlərinin simvollarına görə Naxçıvan MR-in Kəngərli rayonu üzrə "09" simvolu müəyyən edilmişdir. Kəngərli rayonu üzrə fəaliyyət göstərən bələdiyyələrdə vergi ödəyicisi olan fiziki şəxslər uçota alınarkən vergi ödəyicisinin 12 simvoldan ibarət kodunun əvvəldən iki xanasına ərazi vahidinin simvolu aşağıdakı kimi yazılır:

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 0 | 9 | | | | | | | | | | |

Əvvəldən iki xanada yazılan "09" simvolu yalnız Naxçıvan MR-nın Kəngərli rayonu üzrə inzibati əraziyə məxsus olmaqla rayonda olan yaşayış məntəqələrinin (bələdiyyələrin) hər birinə aiddir. Rayon ərazisində olan bələdiyyələr yerli (bələdiyyə) büdcəyə vergi ödəyiciləri olan fiziki şəxslərə "YVÖK" verərkən 12 simvoldan ibarət kodun əvvəlində "09" göstərməlidir. "09" simvolunun digər ərazi vahidində (rayonlarda) təkrarlanmasına yol verilmir.

5.8.2. sonrakı üç simvol ərazi vahidinə aid olan yaşayış məntəqələrinin sıra sayını bildirir:

***Misal:*** Naxçıvan MR **Kəngərli rayonunda** 11 yaşayış məntəqəsi mövcuddur.

| | *Naxçıvan MR Kəngərli rayonu* | **Bələdiyyələrin kodu** |
|---|---|---|
| 1 | Qarabağlar kənd bələdiyyəsi | 090020000000 |
| 2 | Xok kənd bələdiyyəsi | 090030000000 |
| 3 | Qıvraq qəsəbə bələdiyyəsi | 090010000000 |
| 4 | Şaxtaxtı kənd bələdiyyəsi | 090040000000 |
| 5 | Çalxanqala kənd bələdiyyəsi | 090050000000 |
| 6 | Böyükdüz kənd bələdiyyəsi | 090060000000 |
| 7 | Yurdçu kənd bələdiyyəsi | 090070000000 |
| 8 | Qalibli kənd bələdiyyəsi | 090080000000 |
| 9 | Xıncab kənd bələdiyyəsi | 090090000000 |
| 10 | Təzəkənd kənd bələdiyyəsi | 090100000000 |
| 11 | Yeni Kərki kənd bələdiyyəsi | 090110000000 |

Əhalinin sayına müvafiq olaraq bu yaşayış məntəqələri simvollaşdırılarkən ərazi vahidinin mərkəzi olan **Qıvraq qəsəbə bələdiyyəsinə** (əhalinin sayından asılı olmayaraq) **"001"** simvolu müəyyən edilmişdir. Yaşayış məntəqəsinin simvolu "001", ərazi vahidini əks etdirən "09" simvolundan sonra aşağıdakı kimi yazılır:

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 0 | 9 | **0** | **0** | **1** | | | | | | | |

5.8.3. qalan yeddi simvolda yerli (bələdiyyə) vergi ödəyicisinin daxili işlər orqanları tərəfindən verilmiş **"şəxsiyyət vəsiqəsi"**nin üz qabığının aşağı hissəsindəki alt sətrin son 8 simvolundan sağdan axırıncısı atılmaqla 7 simvol (şəxsin şəxsiyyəti barədə pinkodu) əks olunur.

***Misal:*** Naxçıvan MR Kəngərli rayonunun **Qıvraq qəsəbə bələdiyyəsi ərazisində** yaşayan (şərti olaraq) daşınmaz əmlakın mülkiyyətçisi və ya istifadəçisi Kərimli Vüqar Həsən oğlu bələdiyyədə yerli (bələdiyyə) büdcəyə vergi ödəyicisi olan fiziki şəxs kimi uçota alınarkən "YVÖK" qalan yeddi simvoluna daxili işlər orqanları tərəfindən verilmiş şəxsiyyət vəsiqəsinin üz qabığının aşağı hissəsindəki qabığının aşağı hissəsindəki alt sətrin son 8 simvolundan sağdan axırıncısı atılmaqla 7 simvol (şəxsin şəxsiyyəti barədə pinkodu) aşağıdakı kimi yazılır.




| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 0 | 9 | 0 | 0 | 1 | 2 | E | N | H | 4 | 1 | Z |

5.9. Bələdiyyənin vergi orqanında (bələdiyyədə) yerli vergi ödəyicisi kimi fiziki şəxsə "YVÖK" verilərkən bu qaydanın 4.2-ci bəndində müəyyən olunmuş müddətdə bu qaydaya 3 saylı əlavə üzrə **"Yerli (bələdiyyə) büdcənin vergi ödəyicisi olan fiziki şəxsin uçota alınması haqqında"** şəhadətnamə verilir və bu qaydaya 4 saylı əlavə "Reyestr"də onların uçotu aparılır.



5.10. Mülkiyyətində və istifadəsində daşınmaz əmlakı olan qeyri-rezident vergi ödəyicisi bələdiyyədə (bələdiyyənin vergi orqanında) bu Qaydanın 4.2-ci bəndinə müvafiq uçota alınarkən ona "YVÖK" Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən verilmiş **"Əcnəbilərin qeydiyyata alınması haqqında vəsiqə"**yə əsasən verilir. Qeyri-rezidentə "YVÖK" bu Qaydanın 5.8-5.9-cu bəndlərində nəzərdə tutulmuş qayda üzrə müəyyən edilir.

## 6. Yerli (bələdiyyə) büdcənin vergi ödəyicilərinin reyestrinin aparılması

6.1. Yerli (bələdiyyə) vergi ödəyicilərinə Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada 12 simvoldan ibarət "YVÖK" verilərkən kağız üzərində və ya elektron daşıyıcılarda bu qaydaya 4 saylı əlavə forma üzrə "Yerli (bələdiyyə) büdcənin vergi ödəyicilərinin reyestri"ndə xronoloji qaydada uçotu aparılır.

6.1.1. "Yerli (bələdiyyə) büdcənin vergi ödəyicilərinin reyestri" bu qaydaya 4a saylı əlavə üzrə tərtib edilir.

6.2. Kompyuterlə təchiz olunmamış bələdiyyələrdə (bələdiyyələrin vergi orqanlarında) **"Yerli (bələdiyyə) büdcənin vergi ödəyicilərinin reyestri"** kompyuterdən istifadə etmədən yazı üsulu ilə kağız (yazılı sənədlər) üzərində möhkəm üz səhifəsi ilə əhatələnmiş (cildlənmiş) vərəqlərdən ibarət olan (vərəqlərinin yalnız cırmaq və ya kəsmək yolu ilə çıxarılması mümkün olan) kitabda aparılır. Reyestr kitabında vərəqələr nömrələnir, bələdiyyənin sədri (müavini) tərəfindən imzalanaraq möhürlə təsdiq edilir.

6.3. "Yerli (bələdiyyə) büdcənin vergi ödəyicilərinin reyestri" kitabının hər bir cildinin üzərində (əgər bir neçə kitab təşkil edərsə) həmin cildə daxil olan ilk və sonuncu vərəqlərin nömrələri əks etdirilir. Hər bir cildə daxil olan vərəqlərin sayı özlərindən əvvəl gələn cildə daxil olan nömrələrin və vərəqlərin sayını davam etdirir.

6.4. Kompyuterlə təchiz olunmuş bələdiyyələrin vergi orqanlarında "Yerli (bələdiyyə) büdcənin vergi ödəyicilərinin reyestri" kompyuterdən istifadə etməklə elektron daşıyıcıları üzərində aparılır.

6.5. Elektron daşıyıcılar üzərində aparılan məlumatların işlənməsinin lazımi qaydasının gözlənilməsi, məlumatların itirilməsinin qarşısının alınması, məlumatların qanunsuz əldə edilməsi üzrə tədbirlər görülməsinə riayət olunmalıdır.

6.6. Məlumatların məlumat bazasına operativ daxil edilməsi, dəyişilməz və aydın şəkildə oxunaqlı vəziyyətdə saxlanılması, həmçinin məlumatların daxil edilməsinin, dəyişdirilməsinin və silinməsinin sübut olunması mümkünlüyü təmin edilməlidir.

6.7. "YVÖK" verilmiş vergi ödəyicilərinin uçotu ilə bağlı aşağıdakılara mütləq əməl olunmalıdır:

6.7.1. xronoloji qaydada "Yerli (bələdiyyə) büdcənin vergi ödəyicilərinin reyestri" jurnalının aparılması;

6.7.2. ləğv edilmiş "yerli vergi ödəyicisinin kodu"nun reyestri jurnalının aparılması;

6.7.3. uçota alınmış vergi ödəyicilərinin məlumatlarında dəyişikliklərlə bağlı dəqiqləşdirmənin aparılması;

6.7.4. uçota alınmış vergi ödəyicilərinə və qanunvericiliklə müəyyən olunmuş halda rəsmi sorğulara məlumat bankından müvafiq çıxarışın (arayışın) verilməsi.

6.8. Bələdiyyədə (bələdiyyənin vergi orqanında) yerli vergi ödəyicisi olan fiziki şəxsə "YVÖK" verilərkən "Yerli (bələdiyyə) vergi ödəyicilərinin reyestri"ndəki sıra sayı üzrə ona şəxsi hesab vərəqəsi açılır və reyestrdəki sıra sayı "Şəxsi hesab vərəqəsi"nin nömrəsini müəyyən edir.

**Misal:** Naxçıvan MR Kəngərli rayonunun Qıvraq qəsəbə bələdiyyəsində yaşayan (şərti olaraq) Kərimli Vüqar Həsən oğluna "YVÖK" verilərkən " Yerli (bələdiyyə) vergi ödəyicilərinin reyestr"də sıra sayı 585-ci olmuşdur.

| Sıra №-si | Vergi ödəyicisinin soyadı, adı, atasının adı | Vergi ödəyicisinin kodu «YVÖK» | Şəhadətnamənin verilmə tarixi | Vergi ödəyicisinin imzası | *Qeyd* |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| ... | *xxx* | 000000000000 | xxx | xxx | |
| 583 | *xxx* | 000000000000 | xxx- | xxx | |
| 584 | *xxx* | 000000000000 | xxx | xxx | |
| **585** | **Kərimli Vüqar Həsən oğlu** | **090012ENH41Z** | **05.02.2006** | *xxx* | |

Yerli (bələdiyyə) vergi ödəyicisi kimi reyestrdə uçota alınarkən Kərimov Vüqar Həsən oğlunun reyestr üzrə sıra sayı **"585"** "Yerli (bələdiyyə) büdcəyə fiziki şəxslərin daşınmaz əmlak vergisinin uçotunun aparılması qaydaları haqqında" metodiki göstərişə 1 saylı əlavə "Şəxsi hesab vərəqəsi"ndə göstərildiyi kimi şəxsi hesab nömrəsi kimi qeyd olunmalıdır.



Azərbaycan Respublikası vergilər nazirinin 25 aprel 2006-cı il tarixli 0617040100404300 №li əmri ilə təsdiq edilmiş"Yerli (bələdiyyə büdcənin ödəyiciləri olan fiziki şəxslərin uçota alınması Qaydası"na

**1 saylı əlavə**

**Yerli (bələdiyyə) vergi ödəyicisi olan fiziki şəxsin uçota alınması haqqında**

**Ə R İ Z Ə**

səhifə

***Diqqət!*** *Forma qara və ya tünd göy rəngli qələmlə böyük çap hərfləri ilə nümunələrə əsasən doldurulmalıdır* [A][B][C][ ][E]

Ərizənin doldurulma səbəbi müvafiq [X] yazmaqla göstərilir

Vergi ödəyicisinin qeydiyyatı [ ] Vergi ödəyicisinin məlumatlarında dəyişikliklərin edilməsi [ ] YVÖK

**1. BƏLƏDİYYƏ**

**Adı:**

**Kodu:**

**Ərizənin qeydiyyat tarixi:** gün ay il **Qeydiyyat №-si:**

**2. Vergi ödəyicisi haqqında ümumi məlumat**

**Soyadı:**

**Adı:**

**Atasının adı:**

**Yaşadığı bələdiyyədən aldığı YVÖK:**

**3. Vergi ödəyicisinin şəxsiyyət vəsiqəsi**

**Vəsiqənin seriyası:** **Nömrəsi:**

**Vəsiqəni vermiş orqanın adı:**

**Verilmə tarixi:** gün ay il

**4. Vergi ödəyicisi haqqında əlavə məlumat**

**Anadan olduğu tarix:** gün ay il

**Anadan olduğu yer:**

**Ölkənin kodu:** **Vətəndaşlığı:**

**Cinsi:**

**5. Vergi ödəyicisinin güzəşti barədə məlumat**

**Sənədin №-si:** **Tarixi:** gün ay il

**Sənədi verən təşkilat:**

**Güzəştin səbəbi:**

**Güzəştin müddəti**

**6. Ünvan**

**Azərbaycan Respublikasında ünvanı:**

**Poçt indeksi:**

**Şəhər/Rayon:** **Kənd/Qəsəbə:**

**Küçə:**

**Ev №:** **Mənzil**

səhifə 2

*Yerli (bələdiyyə) vergi ödəyicisi olan fiziki şəxsin uçota alınması haqqında ərizənin davamı*

**Azərbaycan Respublikasındakı əlaqə telefonları:**

**Telefon:** İş: ☐☐☐☐ ☐☐☐☐☐☐☐ Ev: ☐☐☐☐ ☐☐☐☐☐☐☐

Mobil: ☐☐☐ ☐☐☐☐☐☐☐ Faks: ☐☐☐☐ ☐☐☐☐☐☐☐

Elektron poçt ünvanı ☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐

**7. Əmlak haqqında məlumat**

1. **Bina:** Binanın ünvanı: ☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐

Mülkiyyət hüququ haqqında sənədin reyestr №-si: ☐☐☐☐☐☐☐☐ Tarixi: ☐☐☐☐☐☐☐☐ (gün ay il)

Binanın inventar dəyəri: ☐☐☐☐☐☐☐☐☐☐☐☐ (milyard milyon min manat)

2. **Nəqliyyat vasitəsi:** a) Nəqliyyatın növü: ☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐

Mühərrikin həcmi sm³ ☐☐☐☐☐☐ Bazar qiyməti ☐☐☐☐☐☐☐☐☐☐☐☐ (milyard milyon min manat)

3. **Torpaq:**

Kənd təsərrüfatı torpağı: Torpağın ünvanı: ☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐

a) *Əkin, dinc və coxillik əkmə:*

Mülkiyyət hüququ haqqında sənədin reyestr №-si: ☐☐☐☐☐☐☐☐ Tarixi: ☐☐☐☐☐☐☐☐ (gün ay il)

Sahəsi: ☐☐☐☐☐☐ (hektar sot) Keyfiyyət qrupu: ☐

Bonitet şkalası: ☐☐☐ Şərti balı: ☐☐☐

b) *Biçənək, örüş, otlaq:*

Mülkiyyət hüququ haqqında sənədin reyestr №-si: ☐☐☐☐☐☐☐☐ Tarixi: ☐☐☐☐☐☐☐☐ (gün ay il)

Sahəsi: ☐☐☐☐☐☐ (hektar sot)

c) *Yaşayış fondu, həyətyanı və bağ sahəsi:* Sahəsi m² ☐☐☐☐☐ Torpağın ünvanı: ☐☐☐☐☐☐☐☐☐☐☐

Mülkiyyət hüququ haqqında sənədin reyestr №-si: ☐☐☐☐☐☐☐☐ Tarixi: ☐☐☐☐☐☐☐☐ (gün ay il)

d) *Digər təyinatlı torpaqlar:* Sahəsi m² ☐☐☐☐☐ Torpağın ünvanı: ☐☐☐☐☐☐☐☐☐☐☐

Mülkiyyət hüququ haqqında sənədin reyestr №-si: ☐☐☐☐☐☐☐☐ Tarixi: ☐☐☐☐☐☐☐☐ (gün ay il)

e) *İstifadə və ya icarəyə götürülmüş torpaq:* Torpağın ünvanı: ☐☐☐☐☐☐☐☐☐☐☐

İstifadə və ya icarə haqqında sənəd №-si ☐☐☐☐☐☐☐☐ Tarixi: ☐☐☐☐☐☐☐☐ (gün ay il)

İstifadə və ya icarənin müddəti: ☐☐☐☐☐☐☐☐ (gün ay il) - dək

**8. Ərizəni dolduran şəxs (və ya səlahiyyətli nümayəndəsi):**

*Çərçivədən kənara çıxmayın*

______________________ / ______________

*Soyadı, adı, atasının adı* *İmzası*

Ərizənin doldurulma tarixi: ☐☐☐☐☐☐☐☐ (gün ay il)

**9. Yoxlanıldı**

*Çərçivədən kənara çıxmayın*

______________________ / ______________

*Soyadı, adı, atasının adı* *İmzası*

Tarix: ☐☐☐☐☐☐☐☐ (gün ay il)



*Azərbaycan Respublikası Vergilər Nazirliyinin 25 aprel 2006-cı il tarixli 0617040100404300 saylı əmri ilə təsdiq edilmiş "Yerli (bələdiyyə) büdcənin ödəyiciləri olan fiziki şəxslərin uçota alınması" qaydasına*

***1 a saylı əlavə***

## Yerli (bələdiyyə) vergi ödəyicisi olan fiziki şəxsin uçota alınması haqqında ərizənin tərtib olunma qaydası

Yerli (bələdiyyə) vergi ödəyicisi olan fiziki şəxs bələdiyyənin vergi orqanında (bələdiyyədə) bu qaydaya 1 saylı əlavə üzrə tərtib edilmiş "Yerli (bələdiyyə) vergi ödəyicisi olan fiziki şəxsin uçota alınması haqqında ərizə"yə əsasən vergi uçotuna alınır.

"Yerli (bələdiyyə) vergi ödəyicisi olan fiziki şəxsin uçota alınması haqqında ərizə" fiziki şəxs tərəfindən aşağıdakı qaydada tərtib edilməlidir:

1. Ərizə tərtib edilərkən ərizənin yuxarı hissəsində göstərilmiş tövsiyəyə əməl olunmaqla formadakı xanalar sağ küncdə göstərilmiş nümunəyə əsasən ( A B C ¯ E ) qara və ya tünd rəngli qələmlə böyük çap hərfləri ilə doldurulmalıdır.

2. Vergi ödəyicisi ərizənin doldurulma səbəbini müvafiq xanalarda "X" simvolu yazmaqla göstərməlidir.

**Misal:** Vergi ödəyicisi olan fiziki şəxs bələdiyyənin vergi orqanında (bələdiyyədə) vergi uçotuna alınarkən ərizə formasının yuxarı hissəsində göstərilmiş **"vergi ödəyicisinin qeydiyyatı"** yazılmış xanada X yazılır.

***Qeyd:*** Ərizə formasının yuxarı hissəsinin sağ tərəfində göstərilmiş 12 simvoldan ibarət "YVÖK" xanaları yerli (bələdiyyə) vergi ödəyicisi olan fiziki şəxsin məlumatlarında dəyişikliklər edildiyi halda tərtib edilir.

3. *Ərizə formasının **1-ci "Bələdiyyə"** bölməsi hər xanada bir hərf yazılmaqla aşağıdakı kimi tərtib edilir:*

**Misal:**

**1. BƏLƏDİYYƏ**

**Adı:** Q I V R A Q Q Ə S Ə B Ə B Ə L Ə D İ Y Y Ə S İ

**Kodu:** 0 9 0 0 1 0 0 0 0 0 0 0

**Ərizənin qeydiyyat tarixi:** 0 2 0 2 2 0 0 5 (gun ay il) **Qeydiyyat №-si:** 0 0 0 0 0 0 0

**Qeyd:** *1-ci bölmədəki "ərizənin qeydiyyat tarixi" və "qeydiyyat №-si" xanaları bələdiyyənin vergi orqanının (bələdiyyənin) vəzifəli şəxsi tərəfindən tərtib edilməlidir.*

4. Formanın 2-ci **"Vergi ödəyicisi haqqında ümumi məlumat"** bölməsi hər xanada bir hərf yazılmaqla aşağıdakı kimi tərtib edilir:

**2. Vergi ödəyicisi haqqında ümumi məlumat**

| | |
|---|---|
| **Soyadı:** | K Ə R İ M L İ |
| **Adı:** | V Ü Q A R |
| **Atasının adı:** | H Ə S Ə N |
| **Yaşadığı bələdiyyədən aldığı YVOK** | |

Fiziki şəxs bələdiyyənin vergi orqanında (bələdiyyədə) vergi ödəyicisi kimi ilk dəfə vergi uçotuna alınarkən ərizə formasının *2-ci bölmənin* ***"Əvvəlki YVÖK"*** xanaları doldurulmur.

5. Ərizə formasının *3-cü "Vergi ödəyicisinin şəxsiyyət vəsiqəsi (pasportu)"* bölməsi hər xanada bir hərf yazılmaqla aşağıdakı kimi tərtib edilir:

**3. Vergi ödəyicisinin şəxsiyyət vəsiqəsi (pasportu)**

| | | | |
|---|---|---|---|
| **Vəsiqənin seriyası:** | A Z E | **Nömrəsi :** | 0 0 0 0 0 0 0 |
| **Vəsiqəni vermiş orqanın adı:** | K Ə N G Ə R L İ R A Y O N P O L İ S İ D A R Ə S İ | | |
| **Verilmə tarixi:** | 0 9 1 1 2 0 0 3 (gün ay il) | | |

Bu bölmə tərtib edilərkən uçota alınan fiziki şəxs qeyri-rezident (əcnəbi) olduqda xanalar müvafiq qaydada həmin şəxsin pasportuna əsasən tərtib edilir.

6. Ərizə formasının 4-cü "Vergi ödəyicisi haqqında əlavə məlumat" bölməsi tərtib edilərkən hər xanada bir hərf yazılmaqla fiziki şəxsin şəxsiyyət vəsiqəsinə (pasportuna) əsasən aşağıdakı kimi tərtib edilir:

**4. Vergi ödəyicisi haqqında əlavə məlumat**

| | | | |
|---|---|---|---|
| **Anadan olduğu tarix:** | 0 2 0 7 1 9 6 0 (gün ay il) | | |
| **Anadan olduğu yer:** | N A X Ç I V A N M R Ş Ə R U R R A Y O N U | | |
| **Ölkənin kodu:** | A Z ? . | **Vətəndaşlığı:** | A Z Ə R B A Y C A N |
| **Cinsi:** | K İ Ş İ | | |

7. Ərizə formasının *5-ci "Vergi ödəyicisinin güzəşti barədə məlumat"* bölməsi yalnız o halda tərtib edilir ki, fiziki şəxsin güzəşt hüququ olsun. Fiziki şəxs Kərimli Vüqar Həsən oğlunun güzəşt hüququ olmadığına görə ərizə formasının 5-ci bölməsini tərtib etmir.



Güzəşt hüququ olan fiziki şəxs bələdiyyənin vergi orqanında (bələdiyyədə) vergi uçotuna alınarkən bölmənin hər xanasında bir hərf yazılmaqla onun güzəşt hüququnu təsdiq edən sənədə (vəsiqəyə) əsasən ***"sənədin №-si"***, sənədin verilmə ***"tarixi"***, ***"sənədi verən təşkilat"***ın adı yazılır. Bu bölmədə göstərilmiş "güzəştin səbəbi" xanalarında fiziki şəxsin güzəşt hüququnu təsdiq edən vəsiqəyə əsasən güzəştin səbəbi (müharibə veteranı, I və II qrup müharibə əlili olması, pensiyaçı və ya həqiqi hərbi xidmətçi və ya hərbi xidmətçi ailəsi) göstərilməlidir.

**5. Vergi ödəyicisinin güzəşti barədə məlumat**

| | | | |
|---|---|---|---|
| **Sənədin №-si:** | | **Tarixi:** | gün ay il |
| **Sənədi verən təşkilat:** | | | |
| **Güzəştin səbəbi:** | | | |
| **Güzəştin müddəti** | | | |

8. Fiziki şəxs vergi ödəyicisi kimi uçota alınarkən tərtib etdiyi ərizə formasının *6-cı "Ünvan"* bölməsinin *"Azərbaycan Respublikasında ünvanı"* hissəsi uçota alınan şəxsin şəxsiyyət vəsiqəsinə əsasən yaşayış yerinin poçt indeksi müvafiq xanalara aşağıdakı kimi yazılır:

**6. Ünvan**

**Azərbaycan Respublikasında ünvanı:**

| | | | |
|---|---|---|---|
| **Poçt indeksi:** | A Z 6 8 2 7 | | |
| **Şəhər/Rayon:** | K Ə N G Ə R L İ | **Kənd/Qəsəbə:** | Q I V R A Q |
| **Küçə :** | B A Ş Y O L | | |
| **Ev №:** | 2 7 | **Mənzil** | |

Ərizənin 6-cı "Ünvan" bölməsinin "Azərbaycan Respublikasında əlaqə telefonları" hissəsində fiziki şəxsin mövcud olan ev, iş, mobil telefonlarının və faks nömrələri, habelə elektron poçt ünvanları göstərilir.

Fiziki şəxsin telefon nömrələri göstərilərkən müvafiq xanalarda əvvəlki dörd xanada şəhərlərarası kod, sonrakı yeddi xanada fiziki şəxsin mövcud telefon nömrələri şərti olaraq aşağıdakı kimi yazılır:

**Azərbaycan Respublikasındakı əlaqə telefonları:**

| | | | | |
|---|---|---|---|---|
| **Telefon:** | **Ev:** | 0 1 3 6  0 0 0 0 0 0 0 | **İş:** | |
| | **Mobil:** | 0 5 0  0 0 0 0 0 0 0 | **Faks:** | |
| **Elektron poçt ünvanı** | | | | |

9. Ərizə formasının **7-ci "Əmlak haqqında məlumat"** bölməsinin 1-ci **"Bina"** hissəsindəki mülkiyyət hüququ haqqında sənədin reyestr №-si xanaları yerli vergi ödəyicisi kimi uçota alınan fiziki şəxsə məxsus binanın mülkiyyət hüququnu təsdiq edən sənədə əsasən tərtib edilir və simvolik olaraq aşağıdakı qaydada yazılır:

Əmlaka dair bölmənin 1-ci hissəsində "Binanın ünvanı" üzrə xanalar torpağın sənədlərinə əsasən onun yerləşdiyi yer, "sənədin reyestr №-si" xanalarında torpağın mülkiyyət haqqında şəhadətnaməsinin reyestr nömrəsi, "Tarixi" göstərilir.

**7. Əmlak haqqında məlumat**

1\. **Bina:** **Binanın ünvanı:**

**Mülkiyyət hüququ haqqında sənədin reyestr №-si:** 0 0 0 0 0 0 0 0 **Tarixi:** 1 5 0 3 2 0 0 2 (gün ay il)

milyard milyon min manat

**Binanın inventar dəyəri:** 2 5 0 0 0 0

***"Əmlak haqqında məlumat"*** bölməsinin "Nəqliyyat vasitəsi" hissəsi həmin nəqliyyat vasitələri olmadıqda müvafiq xanalar tərtib olunmur. Belə nəqliyyat vasitələri olduqda isə müvafiq xanalar onların qeydiyyat sənədlərinə əsasən tərtib edilir.

2\. **Nəqliyyat vasitəsi:** **a) Nəqliyyatın növü:**

milyard milyon min manat

**Mühərrikin həcmi** $sm^3$ **Bazar qiyməti**

***"Əmlak haqqında məlumat"*** bölməsi üzrə 3-cü "Torpaq" hissəsinin a) bəndində əkin, dinc və çoxillik əkmə torpaqlarına dair xanalar uçota alınan fiziki şəxsin mülkiyyət hüquqları barədə sənədlərə əsasən şərti olaraq aşağıdakı kimi tərtib edilir:

Bu hissədə "Banitet şkalası" xanası fiziki şəxsin torpağa mülkiyyət hüququ haqqında dövlət aktına əlavə edilmiş torpağın ***sertifikatına*** əsasən tərtib olunur.

***Qeyd:*** *Ərizə formasının torpaq bölməsindəki üç simvoldan ibarət "Şərti bal" xanaları bələdiyyələrin vergi orqanının (bələdiyyələrin) vəzifəli şəxsləri tərəfindən tərtib edilə bilər.*

3\. **Torpaq:**

**Kənd təsərrüfatı torpağı:** **Torpağın ünvanı:** [ ][ ][ ][ ][ ][ ][ ][ ][ ][ ][ ][ ][ ][ ][ ][ ]

a) ***Əkin, dinc və çoxillik əkmə:***

**Mülkiyyət hüququ haqqında sənədin reyestr №-si::** [0][0][0][0][0][0][0][0] **Tarixi:** [1][6][1][0][1][9][9][9] (gün ay il)

**Sahəsi:** [ ][ ][ ][3][0][5] (hektar sot) **Keyfiyyət qrupu:** [II]

**Bonitet şkalası:** [ ][7][0] **Şərti balı:** [ ][4][0]



***"Əmlak haqqında məlumat"*** bölməsinin 3-cü "Torpaq" hissəsində b) bəndində biçənək, örüş, otlaq torpaqlarına dair xanalar fiziki şəxsin mülkiyyət və istifadə hüquqları barədə sənədlərə əsasən şərti olaraq aşağıdakı kimi tərtib edilir:

b) ***Biçənək, örüş, otlaq:***

**Mülkiyyət hüququ haqqında sənədin reyestr №-si:** [0][0][0][0][0][0][0][0] **Tarixi:** [0][0][0][0][0][0][0][0] (gün ay il)

**Sahəsi:** [ ][ ][8][8][0][6] (hektar sot)

Ərizə formasının 7-ci ***"Əmlak haqqında məlumat"*** bölməsinin 3-cü "Torpaq" hissəsində c) bəndində yaşayış fondu, həyətyanı və bağ sahələrinin tutduğu torpaqlarına dair xanalar fiziki şəxsin mülkiyyət hüquqları barədə sənədlərə əsasən yaşayış binasının altında olan torpaqların, həyətyanı və bağ sahələrinin sahəsi, ünvanı və mülkiyyət hüququ haqqında sənədin nömrəsi və tarixi aşağıdakı kimi göstərilir:

c) ***Yaşayış fondu, həyətyanı və bağ sahəsi:*** **Sahəsi** $m^2$ [ ][8][5][0][0] **Torpağın ünvanı:** [ ][ ][ ][ ][ ][ ][ ][ ][ ][ ]

**Mülkiyyət hüququ haqqında sənədin reyestr №-si:** [0][0][0][0][0][0][0][0] **Tarixi:** [1][6][1][0][1][9][9][9] (gün ay il)

***"Əmlak haqqında məlumat"*** bölməsinin 3-cü *"Torpaq"* hissəsinin d) bəndində digər təyinatlı torpaqların sahəsinə dair xanalar fiziki şəxsin mülkiyyət hüquqları barədə sənədlərə əsasən onun mülkiyyətində olan qeyri-yaşayış torpaqlarının (sahibkarlıq fəaliyyəti, qeyri-yaşayış təyinatlı tikililəri və s.) şərti olaraq aşağıdakı kimi tərtib edilir:

*d)* ***Digər təyinatlı torpaqlar:*** **Sahəsi** $m^2$ 2 0 0 **Torpağın ünvanı:**

**Mülkiyyət hüququ haqqında sənədin reyestr №-si:** 0 0 0 0 0 0 0 0 **Tarixi:** 1 5 0 8 2 0 0 2 (gün ay il)

***"Əmlak haqqında məlumat"*** bölməsinin 3-cü *"Torpaq"* hissəsində e) bəndində istifadəyə və ya icarəyə götürülmüş torpaq sahələrinə dair xanalarda fiziki şəxsin istifadə hüquqları barədə sənədin qeydiyyat nömrəsi, qeydiyyatın tarixi və istifadə və icarənin müddəti şərti olaraq aşağıdakı kimi tərtib edilir:

e) *İstifadə və ya icarəyə götürülmüş torpaq:* **Torpağın ünvanı:**

**İstifadə və ya icarə haqqında sənəd №-si** 0 0 0 0 0 0 0 0 **Tarixi:** 0 9 0 7 2 0 0 5 (gün ay il)

**İstifadə və ya icarənin müddəti:** 0 9 0 2 2 0 2 5 **dək**

10. Ərizə formasının 8-ci ***"Ərizə dolduran şəxs (və ya səlahiyyətli nümayəndəsi)"*** bölməsindəki çərçivədə (çərçivədən kənara çıxmadan) uçota alınarkən ərizəni dolduran və ya onun səlahiyyətli nümayəndəsi soyadını, adını və atasının adını yazaraq ərizəni imzalamalı və müvafiq xanada tarixi aşağıdakı kimi yazmalıdır:

**8. Ərizəni tərtib edən şəxs (və ya səlahiyyətli nümayəndəsi) :**

*Çərçivədən kənara çıxmayın*

**Kərimli Vüqar Həsən oğlu** / xxxxx

*Soyadı, adı, atasının adı* — *imzası*

**Ərizənin doldurulma tarixi:** 0 2 0 2 2 0 0 5
gün ay il

11. Ərizə formasının 9-cu "Yoxlanıldı" bölməsindəki çərçivə bələdiyyənin vergi orqanının (bələdiyyənin) vəzifəli şəxsləri tərəfindən tərtib olunur. Yerli (bələdiyyə) vergi ödəyicisi kimi uçota alınan fiziki şəxsin (və ya onun səlahiyyətli nümayəndəsinin) tərtib etdiyi ərizə bələdiyyənin vergi orqanının (bələdiyyənin) vəzifəli şəxsləri tərəfindən yoxlanıldıqdan və bir sıra müvafiq xanalar onlar tərəfindən tərtib edildikdən sonra həmin vəzifəli şəxs (çərçivədən kənara çıxmadan) soyadını, adını və atasının adını yazaraq ərizəni imzalamalı və müvafiq xanada tarixi şərti olaraq aşağıdakı kimi yazmalıdır.

**9. Yoxlanıldı**

*Çərçivədən kənara çıxmayın*

**Əhmədov Vaqif Əli oğlu** / **xxxxxxx**

*Soyadı, adı, atasının adı* — *imzası*

**Tarix:** 0 2 0 2 2 0 0 5
gün ay il



Azərbaycan Respublikası Vergilər Nazirinin "__"______2006-cı il tarixli_____№-li əmri ilə təsdiq edilmiş "Yerli (bələdiyyə) büdcənin ödəyiciləri olan fiziki şəxslərin uçota alınması Qaydası"na

**3 saylı əlavə**

***Diqqət!*** *Forma qara və ya tünd göy rəngli qələmlə böyük çap hərflərilə nümunələrə əsasən doldurulur:* | | A B C

**Azərbaycan Respulikas**

b ə l ə d i y y ə n i n

a d ı

**BƏLƏDİYYƏSİ**

**Yerli (bələdiyyə) büdcənin vergi ödəyicisi olan fiziki şəx uçota alınması haqqında**

# ŞƏHADƏTNAMƏ

1. **Vergi ödəyicisinin kodu: (VÖEN)** ☐☐☐☐☐☐☐☐☐☐

2. **Vergi ödəyicisinin:**
   - ***Soyadı:*** ☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐
   - ***Adı:*** ☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐
   - ***Atasının adı:*** ☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐

3. **Vergi ödəyicisinin ünvanı:**
   - **Olkə (Respublika):** ☐☐☐☐☐☐☐☐☐☐☐☐☐☐
   - ***Ölkə kodu:*** ☐☐☐
   - **Poçt indeksi:** ☐☐☐☐☐☐
   - **Rayon (şəhər):** ☐☐☐☐☐☐☐☐☐☐
   - ***Kənd (qəsəbə):*** ☐☐☐☐☐☐☐☐☐☐
   - ***Küçə:*** ☐☐☐☐☐☐☐ Ev.№ ☐☐ mən.№ ☐☐

4. **Şəhadətnamənin verilmə tarixi:** ☐☐☐☐☐☐☐☐

*Azərbaycan Respublikası vergilər nazirliyinin 25 aprel 2006-cı il tarixli 0617040100404300 saylı əmri ilə təsdiq edilmiş "Yerli (bələdiyyə) büdcənin ödəyiciləri olan fiziki şəxslərin uçota alınması" qaydasına*
***3 a saylı əlavə***

## "Yerli (bələdiyyə) büdcənin vergi ödəyicisi olan fiziki şəxsin uçota alınması haqqında şəhadətnamə"nin tərtib edilmə qaydası

1. Şəhadətnamə forması çap etdirilərkən bu qaydaya 3 saylı əlavənin yuxarı hissəsində içərisində "bələdiyyənin adı" yazılmış xanaların əvəzinə hər bir bələdiyyə öz adını tam aşağıdakı kimi çap etdirməlidir:

**Misal:** Bələdiyyə tərəfindən "Şəhadətnamə" forması çap etdirilərkən xanaların yerinə bələdiyyənin tam adı aşağıda göstərilən kimi çap olunmalıdır

| Azərbaycan Respublikası<br>Naxçıvan MR Kəngərli rayonunun<br>**Qıvraq bələdiyyəsi** |
|---|

2. Şəhadətnamənin 1-ci bölməsində yerli (bələdiyyə) büdcəyə vergi ödəyicisi olan fiziki şəxs bələdiyyədə uçota alınarkən bu qaydanın 4.8-ci bəndlərində nəzərdə tutulmuş qaydalara müvafiq müəyyən edilmiş 12 simvoldan ibarət "Yerli vergi ödəyicisinin kodu (YVÖK)" xanalarında hər xanada bir böyük çap hərfi və rəqəmlə bir simvol yazılır.

**Misal:** Naxçıvan MR Kəngərli rayonunun Qıvraq bələdiyyəsi yerli (bələdiyyə) vergi ödəyicisi olan fiziki şəxs uçota alınarkən ona verilmiş "YVÖK" şəhadətnamənin 1-ci bölməsində "yerli vergi ödəyicisinin kodu (YVÖK)" xanalarında aşağıdakı kimi yazılır:

**1. Vergi ödəyicisinin kodu (YVÖK)** 0 9 0 0 1 2 - N H 4 1 Z

3. 2-ci bölmədə göstərilmiş "Vergi ödəyicisinin soyadı, adı və atasının adı" xanalarında fiziki şəxsin soyadı, adı və atasının adı aşağıdakı kimi yazılır:



**2. Vergi ödəyicisinin:**

| | |
|---|---|
| *Soyadı:* | K Ə R İ M L İ |
| *Adı:* | V Ü Q A R |
| *Atasının adı:* | H Ə S Ə N |

4. Şəhadətnamənin 3-cü **"Vergi ödəyicisinin ünvanı"** bölməsinin birinci sıradakı "Ölkə (Respublika)" xanaları və ikinci sıradakı **"Ölkə kodu"** xanaları Şəhadətnamə yalnız qeyri-rezidentə verildikdə həmin fiziki şəxsin (əcnəbinin) ölkəsinin (respublikasının) adı və üç simvoldan ibarət ölkə kodu yazılır.

**Misal:** Hər hansı bələdiyyənin ərazisində Türkiyə Respublikasının vətəndaşı olan fiziki şəxsin mülkiyyətində və ya istifadəsində daşınmaz əmlakı vardır. Bu halda həmin şəxs müvafiq bələdiyyədə uçota alınarkən "Ölkə (respublika)" və "Ölkə kodu" xanaları aşağıdakı kimi tərtib edilir:

| | |
|---|---|
| ***Ölkə (respublika)*** | T Ü R K İ Y Ə |
| ***Ölkə kodu:*** | T Ü R |

3-cü bölmənin qalan müvafiq xanalarında onun həmin bələdiyyənin ərazisində yaşadığı ünvanlar göstərilməlidir.

Rezident fiziki şəxs uçota alınarkən Şəhadətnamənin 3-cü "Vergi ödəyicisinin ünvanı" bölməsindəki xanalar aşağıdakı kimi doldurulur:

| | |
|---|---|
| ***Poçt indeksi:*** | A Z 6 8 2 7 |
| ***Rayon (şəhər):*** | K Ə N G Ə R L İ |
| ***Kənd (qəsəbə):*** | Q I V R A Q |
| ***Küçə:*** | N İ Z A M İ Ev.№ 9 Mən.№ |

**Qeyd:** Yerli (bələdiyyə) büdcənin vergi ödəyicisi olan **rezident fiziki şəxs** bələdiyyədə uçota alınarkən şəhadətnamənin 3-cü "Vergi ödəyicisinin ünvanı" bölməsindəki "Ölkə (respublika)" və "Ölkə kodu" xanaları doldurulmur.

5. 4-cü bölmədə "Şəhadətnamənin verilmə tarixi" xanalarında şəhadətnamənin tərtib edildiyi tarix soldan sağa doğru ilk iki xanada gün, sonrakı iki xanada ay, axırıncı dörd xanada isə il aşağıdakı kimi yazılır:

**4. Şəhadətnamənin verilmə tarixi:** 0 5 0 2 2 0 0 6
gün ay il

6. Şəhadətnamə tərtib edildikdən sonra şəhadətnamənin 5-ci ***"bələdiyyənin sədrinin (müavininin) soyadı, adı"*** bölməsindəki çərçivədən kənara çıxmadan bələdiyyənin sədri (müavini) soyadını, adını və atasının adını yazaraq "Şəhadətnaməni" imzalayır və möhürlə təsdiq edilir.

Azərbaycan Respublikası Vergilər Nazirliyinin "___" ______2006-cı il tarixli ___saylı əmri ilə təsdiq edilmiş "Yerli (bələdiyyə) büdcəsinin ödəyiciləri olan fiziki şəxslərin uçota alınması Qaydası"na **4 saylı əlavə**

________________________

Bələdiyyənin adı

| | |
|---|---|
| / | |
| Bələdiyyənin *sədrinin* S.A.A. | *imza* |

M.Y

**Yerli (bələdiyyə) büdcənin vergi ödəyicilərinin**

**R e y e s t r i**

| Sıra №si | Vergi ödəyicisinin soyadı, adı, atasının adı | Vergi ödəyicisinin kodu | Şəhadətnamənin verilmə tarixi | Vergi ödəyicisinin imzası | *Qeyd* |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |



*Azərbaycan Respublikası Vergilər Nazirliyinin 25 aprel 2006-cı il tarixli 0617040100404300 saylı əmri ilə təsdiq edilmiş "Yerli (bələdiyyə) büdcənin ödəyiciləri olan fiziki şəxslərin uçota alınması" qaydasına*
***4 a saylı əlavə***

## "Yerli (bələdiyyə) büdcənin vergi ödəyicilərinin reyestri"nin tərtib edilməsi qaydası

1. Reyestr bələdiyyənin (bələdiyyənin vergi orqanının) vəzifəli şəxsi tərəfindən doldurulur.

2. Reyestrin 1-ci **"sıra №-si"** sütununda uçota alınmış yerli (bələdiyyə) vergi ödəyicisi olan fiziki şəxslərin xronoloji qaydada sıra sayı qeyd olunur.

3. Vergi ödəyicisinin soyadı, adı və atasının adı şəxsiyyət vəsiqəsinə əsasən reyestrin *2-ci sütununda* yazılır.

4. Reyestrin ***"yerli vergi ödəyicisinin kodu"*** *sütununda, "Yerli (bələdiyyə)* büdcənin vergi ödəyicisi olan fiziki şəxsin uçota alınması haqqında" şəhadətnamədə göstərilmiş "YVÖK" yazılır.

5. Reyestrin *4-cü sütununda* fiziki şəxsə bələdiyyədə "Şəhadətnamənin" verildiyi tarix yazılır.

6. "Yerli (bələdiyyə) büdcənin vergi ödəyicisi olan fiziki şəxsin uçota alınması haqqında" şəhadətnamənin alınmasını təsdiq etmək üçün vergi ödəyicisi reyestrin *5-ci sütununda* imza edir.

7. Reyestrin 6-cı ***"qeyd"*** *sütununda* zəruri hallarda (məsələn: şəhadətnamənin təkrar verildiyini, lakin "YVÖK" dəyişmədən, vergi ödəyicisinin qeyri-rezident olduğunu və s.) müvafiq qeydlər aparılır.

*Azərbaycan Respublikası Vergilər Nazirliyinin 25 aprel 2006-cı il tarixli 0617040100404300 saylı əmri ilə*
***təsdiq edilmişdir.***

## "Yerli (bələdiyyə) büdcəyə fiziki şəxslərin daşınmaz əmlak vergisinin uçotunun aparılması qaydaları haqqında" metodiki göstəriş

### 1. Ümumi müddəalar

1.1. Bu metodiki göstəriş Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və Yerli (bələdiyyə) vergilərin hesablanması və ödənilməsi qaydalarına və prinsiplərinə uyğun hazırlanmışdır.

1.2. Metodiki göstəriş yerli (bələdiyyə) büdcəyə fiziki şəxslərin əmlak və torpağına hesablanmış və ödənilmiş (qaytarılmış) vergilərin, faiz və maliyyə sanksiyası məbləğlərinin *(bundan sonra vəsaitlər adlandırılacaq)* uçotunun şəxsi hesab vərəqəsinin və yerli büdcəyə ödənilmiş (qaytarılmış) vəsaitlərin reyestrinin aparılması qaydasını müəyyən edir.

## 2. Metodiki göstərişdə istifadə olunan əsas anlayışlar

2.1. ***Fiziki şəxs*** - Azərbaycan Respublikasının vətəndaşı, əcnəbi və vətəndaşlığı olmayan şəxslər.

2.2. ***Vergi ödəyicisi*** - Vergi Məcəlləsinə uyğun olaraq yerli (bələdiyyə) büdcəyə vergitutma obyektlərinə (əmlaka və torpağa) görə vergi ödəməli olan fiziki şəxslər.

2.3. ***Şəxsi hesab vərəqəsi*** - vergi ödəyicisinin Vergi Məcəlləsi ilə müəyyən edilmiş yerli (bələdiyyə) vergi, faiz və tətbiq edilmiş maliyyə sanksiyası üzrə bələdiyyə büdcəsi ilə qarşılıqlı hesablaşmalarının vəziyyətini kağız üzərində və ya elektron daşıyıcılarda əks etdirən uçot formasıdır.

2.4. ***Hesablanmış vəsait*** - vergi qanunvericiliyi ilə müəyyən edilmiş qaydada və müddətlərdə hesabat dövrü ərzində vergi ödəyicisi tərəfindən yerli (bələdiyyə) büdcəyə ödənilməli olan vergi, faiz və tətbiq edilmiş maliyyə sanksiyası məbləği.

2.5. ***Ödənilmiş vəsait*** - vergi ödəyicisi tərəfindən nağd və ya nağdsız qaydada yerli (bələdiyyə) büdcəyə daxil olmuş vergi, faiz və tətbiq edilmiş maliyyə sanksiyası məbləği.

2.6. ***Qaytarılmış vəsait*** - vergi ödəyicisi tərəfindən hər hansı səbəbdən artıq ödənilmiş verginin, faizin və tətbiq edilmiş maliyyə sanksiyasının bələdiyyə büdcəsindən vergi ödəyicisinə qaytarılmış məbləği.

2.7. ***Reyestr*** - verginin, faizin və tətbiq edilmiş maliyyə sanksiyası məbləğlərinin yerli (bələdiyyə) büdcəyə ödənilməsinin və ya büdcədən qaytarılmasının gün ərzində, həmçinin ilin əvvəlindən artan yekunla aparıldığı uçot formasıdır.

2.8. ***Ödəniş sənədi*** - vergi, faiz və tətbiq edilmiş maliyyə sanksiyası məbləğlərinin nağd və nağdsız qaydada yerli (bələdiyyə) büdcənin xəzinəsinə (hesabına) daxil olduğunu təsdiq edən sənəd.

2.9. ***Verginin kodu*** - Azərbaycan Respublikası vahid büdcə təsnifatına əsasən büdcə sisteminə daxil olan və Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilərək bələdiyyələrin ərazisində ödənilən yerli büdcə gəlirlərinin qruplaşdırılmasıdır.

## 3. Yerli (bələdiyyə) büdcəyə fiziki şəxslərin daşınmaz əmlakına hesablanmış vergilərin uçotunun şəxsi hesab vərəqəsində aparılması

3.1. Bələdiyyənin vergi orqanlarında (bələdiyyədə) fiziki şəxslərin mülkiyyətində və istifadəsində olan daşınmaz əmlaka hesablanmış və ödənilmiş vəsaitlərin bu metodiki göstərişə 1 saylı əlavədə göstərilən forma üzrə şəxsi hesab vərəqəsində uçotu aparılır.



3.2. Kompyuterlə təchiz olunmamış bələdiyyələrin vergi orqanlarında (bələdiyyələrdə) fiziki şəxslərə hesablanmış və ödənilmiş vəsaitlərin uçotu vergi ödəyicilərinin şəxsi hesab vərəqəsi müəyyən olunmuş formada kompyuterdən istifadə etmədən yazı üsulu ilə kağız (yazılı sənədlər) üzərində kitabda aparılır. Şəxsi hesab kitabı qaytanlanır, vərəqələr nömrələnir, bələdiyyənin sədri (müavini) tərəfindən imzalanaraq möhürlə təsdiq edilir.

3.3. Kağız üzərində şəxsi hesab kitabının hər bir cildinin üzərində (əgər bir neçə kitab təşkil edərsə) həmin cildə daxil olan ilk və sonuncu vərəqlərin nömrələri əks etdirilir. Hər bir cildə daxil olan vərəqlərin sayı özlərindən əvvəl gələn cildə daxil olan nömrələrin və vərəqlərin sayını davam etdirir.

3.4. Kompyuterlə təchiz olunmuş və xüsusi proqram təminatı olan bələdiyyələrin vergi orqanlarında (bələdiyyələrdə) fiziki şəxslərə hesablanmış və ödənilmiş vəsaitlərin uçotu elektron daşıyıcıları üzərində bu metodiki göstərişin tələblərinə əməl edilməklə aşağıdakı kimi aparılır:

3.4.1. Məlumatların məlumat bazasına operativ daxil edilməsi, dəyişilməz və aydın şəkildə oxunaqlı vəziyyətdə saxlanılması, həmçinin məlumatların daxil edilməsinin, dəyişdirilməsinin və silinməsinin sübut olunması mümkünlüyü təmin edilməlidir.

3.5. Kağız və elektron daşıyıcılarda aparılan şəxsi hesab vərəqəsində əks etdirilən rekvizitlər eyni olmalıdır.

3.6. Fiziki şəxslərə hesablanmış və ödənilmiş vəsaitlərin uçotunun aparılması üçün uçota alınmış bütün ödəyicilərə hər vergi ilinin əvvəlindən, vergi ili ərzində yeni uçota alınmış ödəyicilərə isə onlar uçota alındığı gündən bu metodiki göstərişin 1 saylı əlavəsi üzrə formada şəxsi hesab vərəqələri açılır.

3.7. Şəxsi hesab vərəqəsində aşağıdakı məlumatlar əks etdirilməlidir:

3.7.1. bələdiyyənin adı, fiziki şəxsin tam adı, "YVÖK", daşınmaz əmlakı barədə müvafiq göstəricilər, vergi ödəyicisinin ünvanı, telefonu və s.;

3.7.2. hesablanmış verginin kodu, vergi məbləğləri və ödəmə müddətləri;

3.7.3. azaldılmış məbləğlər;

3.7.4. artıq ödənilmiş və ya ödənilməli borc məbləğləri;

3.7.5. artıq ödənilmiş vəsaitlərin vergi ödəyicisinə qaytarılmış məbləğləri;

3.7.6. verginin vaxtında ödənilməməsinə görə hesablanmış və ödənilmiş faizin məbləğləri.

3.7.7. vergi qanunvericiliyinin pozulmasına görə tətbiq edilmiş maliyyə sanksiyası məbləğləri.

3.8. Şəxsi hesab vərəqələrində əməliyyatların məbləğlərinin uçotu manatla aparılır. Vergi məbləğlərinin manatla ifadə olunması zamanı minlikləri ayırmaq üçün "nöqtə", manatla qəpiyi ayırmaq üçün isə "vergül" işarəsindən istifadə olunur.

**Misal:** vergi ödəyicisinə hesablanmış vergi məbləği və ya vergi məbləğlərinin cəmi - 2.255,15 manatdır. Buradakı rəqəmlərdə soldan sağa nöqtədən əvvəlki

birinci rəqəm (2.255,15) minliyi, nöqtədən sonrakı üç rəqəm (2.**255**,15) manatı, vergüldən sonra axırdan iki rəqəm (2.255,**15**) qəpiyi ifadə edir.

3.9. Kağız üzərində aparılan şəxsi hesab vərəqələrində bütün yazılışlar, bu yazılışların düzgünlüyünü təsdiq edən sənədlər əsasında diyircəkli qələmlə aparılmalıdır. Yazılışlar səliqəli aparılmalı, düzəlişlərə və pozuntulara yol verilməməlidir. Eyni zamanda,

3.9.1. ilkin yazılışlar zamanı aşkar edilən səhvlərin düzəldilməsi düzgün olmayan sətrin üzərindən xətt çəkməklə, yeni sətirdə düzgün yazılış aparmaq yolu ilə həyata keçirilməli, düzəliş aparan şəxs tərəfindən müvafiq sətirdə "düzəliş edilmişdir" sözləri yazılmaqla imza edilməlidir;

3.9.2. düzəliş aparılan zaman üzərindən xətt çəkilmiş sətrin məzmunu aydın oxunmalıdır;

3.9.3. sonradan aşkar edilən səhv yazılışlar üzrə düzəlişlər, səhvin aşkar edildiyi gün, səhvin tarixi və düzgün yazılış qeyd edilməklə həyata keçirilir. Səhv aşkar edilmiş sətrin üzərindən xətt çəkilir, düzəliş aparan şəxs tərəfindən "düzəliş edilmişdir" sözləri yazılmaqla imza edilir.

3.10. Kompyuterlə aparılan şəxsi hesab vərəqələrində səhvlərin düzəldilməsi ilkin yazılışlar zamanı aşkar edilən səhvlər üzrə həmin yazılışın şəxsi hesab vərəqəsinin ***3-cü "əməliyyatın adı" sütununda*** düzəlişin səbəbi barədə qeyd olunaraq səhv yazılmış məbləğ qədər müvafiq sütunlarda düzəliş verilməklə (+ və ya -) yazılması yolu ilə aparılmalıdır.

3.11. Fiziki şəxslərə hesablanmış və ödənilmiş vəsaitlərin uçotunun avtomatlaşdırılmış şəkildə kompyuterdə (elektron daşıyıcılarda) aparılması zamanı, vergi ödəyicisinin şəxsi hesab vərəqəsinə hesablanmış və ödənilmiş vəsaitlərin daxil edilməsi, bu məqsədlə xüsusi *şifrə* verilmiş bələdiyyənin vergi orqanının (bələdiyyənin) vəzifəli şəxsi tərəfindən aparılır.

3.12. Fiziki şəxslərə hesablanmış və ödənilmiş vəsaitlərin şəxsi hesab vərəqələrinə daxil edilməsi üçün bələdiyyənin müvafiq vəzifəli şəxsinə verilmiş *şifrələr* onların imzaları hesab edilir və bu *şifrələr* şəxsi hesab vərəqələrində müvafiq imzaları əvəz edir.

3.13. Fiziki şəxslərə hesablanmış və ödənilmiş vəsaitlərin şəxsi hesab vərəqələrinə daxil edilməsi üçün xüsusi *şifrələr* verilmiş bələdiyyənin vergi orqanının vəzifəli şəxsləri bu *şifrələrin* məxfiliyinin saxlanılmasına məsuliyyət daşıyırlar.

## 4. Hesablanmış vəsaitlərin şəxsi hesab vərəqəsinə daxil edilməsinə əsas verən sənədlər və şəxsi hesab vərəqələrinə daxil edilməsi müddətləri

4.1. Yerli (bələdiyyə) vergi ödəyicisi olan fiziki şəxslərə hesablanmış vəsaitlərin məbləğləri ***"Şəxsi hesab vərəqəsi"***nə aşağıdakı sənədlər əsasında və göstərilən müddətlərdə daxil edilir:



4.1.1. bələdiyyələrin vergi orqanı tərəfindən yerli vergi ödəyicisi olan fiziki şəxslərə hesablanmış torpaq və əmlak vergisinin məbləği və ödənilməsi müddəti barədə "Tədiyyə bildirişi"nə əsasən;

4.1.2. yerli vergi ödəyicisinə hesablanmış vergilər ilə əlaqədar məhkəmə qərarı (qətnaməsi) əsasında;

4.1.3. fiziki şəxslərə hesablanmış torpaq və əmlak vergisinin məbləğlərinin şəxsi hesab vərəqinə daxil edilməsi "Tədiyyə bildirişi" vergi ödəyicisinə çatdırılanadək;

4.1.4. Məhkəmənin qərarı (qətnaməsi) daxil olunduğu gündən 2 iş günü ərzində.

4.2. Məhkəmənin qərarından (qətnaməsindən) apellyasiya şikayəti verilib-verilməməsindən asılı olmayaraq vergi ödəyicisinin şəxsi hesab vərəqində müvafiq yazılışlar aparılır. Apellyasiya şikayətinə baxılmasının nəticələrindən asılı olaraq vergi ödəyicisinin şəxsi vərəqəsində müvafiq düzəlişlər edilir.

4.3. Vergi qanunvericiliyinə uyğun olaraq bələdiyyələr öz ərazilərində vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergidən tam və ya qismən azad etdikdə, vergi dərəcəsini azaltmaq barədə qərar qəbul etdikdən, həmçinin fiziki şəxsin əmlakının dəyərində və ya sahəsində dəyişiklik olarsa, dəyişikliyin nəticəsi barədə sənədin daxil olunduğu gündən 2 iş günü ərzində vergi məbləği yenidən haqq-hesab edilir.

## 5. Ödənilmiş vəsaitlərin şəxsi hesab vərəqəsinə daxil edilməsinə əsas olan sənədlər və ödənilmiş vergi məbləğlərinin şəxsi hesab vərəqəsinə daxil edilməsi müddətləri

5.1. Yerli (bələdiyyə) vergi ödəyiciləri tərəfindən ödənilmiş vəsaitlər onların şəxsi hesab vərəqəsinə aşağıdakı sənədlər əsasında və müddətlərdə daxil edilir:

5.1.1. fiziki şəxslərdən yerli vergilər və ödənişlər Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təsdiq etdiyi forma qəbzlə nağd qaydada qəbul edildiyi halda 1 iş günü ərzində həmin vəsait bələdiyyənin kassasına (xəzinəsinə) ödənilməklə, ödənilmiş vəsaitlər vergi ödəyicisinin şəxsi hesab vərəqinə 2 iş günü ərzində;

5.1.2. yerli (bələdiyyə) büdcəyə vəsaitlər vergi ödəyicisi tərəfindən nağdsız qaydada ödənildiyi halda vəsaitlər barədə bankın ödəniş sənədlərinin surəti alındığı gündən 2 iş günü müddətində;

5.1.3. artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyasının ödəyiciyə qaytarılmış məbləğləri barədə rəsmi məlumatlara əsasən 2 iş günü ərzində.

5.2. Yerli (bələdiyyə) vergilər üzrə yaranmış borc aşağıdakı sıra qaydası ilə ödənilir:

5.2.1. ödənilmə müddətlərinin ardıcıllığı ilə hesablanmış yerli vergi məbləğləri;

5.2.2. hesablanmış faizlərin məbləğləri;
5.2.3. tətbiq edilmiş maliyyə sanksiyası məbləğləri.

**6. Daxil olmuş və qaytarılmış vəsaitlərin uçotunun reyestrdə aparılması**

6.1. Bələdiyyələrin vergi orqanı (bələdiyyələr) tərəfindən yerli vergi, faiz və maliyyə sanksiyası üzrə daxilolmaların ümumi uçotu bu metodiki göstərişə 4 saylı əlavə üzrə reyestrdə aparılır.

6.2. Kompyuterlə təchiz olunmamış bələdiyyələrin vergi orqanlarında (bələdiyyələrdə) "Reyestr" nömrələnir, bələdiyyənin sədri tərəfindən imzalanmaqla möhürlə təsdiq edilir.

6.3. Reyestrdə aşağıdakı məlumatlar əks etdirilməlidir:

6.3.1. əməliyyatın sıra №-si;

6.3.2. əməliyyatın kodu, əməliyyatın növü, daxil olmuş və qaytarılmış məbləğləri təsdiq edən sənədlərin nömrəsi;

6.3.3. gün ərzində daxil olmalar və qaytarmalar və ilin əvvəlindən artan yekunla daxil olmuş məbləğlər;

6.4. Bələdiyyənin vergi orqanının (bələdiyyənin) vəzifəli şəxsi tərəfindən *gündəlik daxilolmaların və qaytarılmış vəsaitlərin uçotu* **"Yerli (bələdiyyə) büdcəyə daxilolma və qaytarılan məbləğlərin reyestri"**ndə hər bir ödəniş sənədi üzrə ayrılıqda aparılır:

6.5. İlin əvvəlindən daxil olmuş vəsaitlərin artan yekunla uçotu – gün ərzində daxil olmuş vəsaitlərin (qaytarılmış vəsaitlər çıxılmaqla) cəmi ilin əvvəlindən artan yekunla daxil olmuş vəsaitlərlə toplanılır.

**7. Şəxsi hesab vərəqəsinin tərtib edilməsi və vəsaitlərin şəxsi hesab vərəqələrinə daxil edilməsi qaydaları**

7.1. Bu metodiki göstərişə 1 saylı əlavə "Yerli (bələdiyyə) vergi və ödənişlər üzrə fiziki şəxsin şəxsi hesab vərəqəsi"nin forması bələdiyyələr tərəfindən çap etdirilərkən formanın yuxarı sol küncündə göstərilmiş "Bələdiyyənin adı" göstərilmiş xəttin yerində şərti olaraq hər bir bələdiyyənin aşağıda göstərildiyi kimi öz adı yazılmalıdır:

**Kəngərli rayon Qıvraq bələdiyyəsi**

7.2. "Şəxsi hesab vərəqəsinin №-si" xanalarından aşağı hissədəki çərçivədə vergi ödəyicisinin soyadı, adı və atasının adı (çərçivədən kənara çıxmadan) yazılır.

7.3. Şəxsi hesab vərəqəsinin yuxarı hissəsində göstərilmiş "Şəxsi hesab vərəqəsinin №-si" xanaları **"Yerli (bələdiyyə) büdcənin ödəyiciləri olan fiziki şəxslərin uçota alınması qaydası"**nın 6.8-ci bəndində müəyyən edilmiş qaydada aşağıdakı kimi tərtib edilir:

| **Şəxsi hesab vərəqəsinin №-si** | | | | | 5 | 8 | 5 |
|---|---|---|---|---|---|---|---|



7.4. "Yerli vergi ödəyicisinin kodu (YVÖK)" xanalarına "Yerli (bələdiyyə) büdcənin ödəyiciləri olan fiziki şəxslərin uçota alınması qaydası"na 3 saylı əlavə "Yerli (bələdiyyə) büdcənin vergi ödəyicisi olan fiziki şəxsin uçota alınması haqqında şəhadətnamə" üzrə fiziki şəxsə müəyyən edilmiş "YVÖK" şərti olaraq aşağıdakı kimi yazılır:

**Yerli vergi ödəyicisinin kodu : (YVÖK)** 0 9 0 0 1 2 - N 4 1 Z

7.5. Fiziki şəxslərə hesablanmış verginin məbləği bu metodiki göstərişin 4.1.1-ci bəndinə uyğun olaraq şəxsi hesab vərəqəsinə daxil edildikdə ödəmə müddəti çatanadək şəxsi hesab vərəqəsinin yuxarı sağ küncündə yerləşən hesablanmış verginin məbləği və ödənilməsi müddəti barədə hissəsinə yazılır.

7.6 **Hesablanmış vergilərin** ödəmə müddətləri çatdıqda "Şəxsi hesab vərəqəsi"ndə aşağıdakı kimi yazılışlar aparılır:

**Misal:** Yerli (bələdiyyə) vergi ödəyicisi olan fiziki şəxsə 2006-cı il üçün 100,00 manat əmlak vergisi, 30,00 manat torpaq vergisi hesablanmışdır.

Bu halda **birinci ödəniş müddəti** çatdıqda (15 avqust) həmin vergi məbləğləri bərabər hissələrlə, yəni 50,00 manat əmlak vergisi və 15,00 manat torpaq vergisi məbləğləri bu metodiki göstərişə 1a saylı əlavə "Şəxsi hesab vərəqəsi" üzrə nümunəyə uyğun olaraq müvafiq sütunlarda: 1-ci **"yazılışın tarixi"** sütununda hesablanmış vergi məbləğlərinin şəxsi hesab vərəqəsinə yazıldığı tarix, 2-ci **"əməliyyatın kodu"** sütununda "Yerli (bələdiyyə) büdcənin ödəyiciləri olan fiziki şəxslərin uçota alınması qaydası"nın 3.2.2-ci bəndində "Azərbaycan Respublikası vahid büdcə təsnifatı"na əsasən müəyyən edilmiş əmlak vergisinin kodu 113200, həmin qaydanın 3.2.3-cü bəndində torpaq vergisinin kodu - 113100, 3-cü **"əməliyyatın adı"** sütununda verginin adı – "əmlak vergisi" və "torpaq vergisi", 4-cü **"əməliyyatın növü"** sütunda "hesablama", 5-ci **"ödəmə (ödəniş) tarixi"** sütununda verginin ödənmə müddəti – "15.08.2006", 6-cı **"məbləğ (manatla)"** sütununda isə hesablanmış verginin məbləğləri yazılır

7.7. Həmçinin hesablanmış yerli (bələdiyyə) vergilər "Şəxsi hesab vərəqəsi"nə yazılarkən eyni zamanda müvafiq sütunlarında aşağıdakı yazılışlar aparılır:

7.7.1. əmlak və torpaq vergisi məbləğləri – şəxsi hesab vərəqinin 4-cü "Əməliyyatın növü" sütununa yazılarkən hesablamaya əsas verən sənədin (tədiyyə bildirişi və ya qısa olaraq T/b kimi yazıla bilər) adı;

7.7.2. vergi, faiz və maliyyə sanksiyasının hesablanması ilə əlaqədar Məhkəmə qərarı (qətnaməsi) olduqda – şəxsi hesab vərəqinin 4-cü "Əməliyyatın növü" sütununda məhkəmənin adı, qərarın (qətnamənin) tarixi, №-si və vergi dövrü;

7.7.3. vergi qanunvericiliyinə uyğun olaraq bələdiyyələr öz ərazilərində vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarına güzəşt verilməsi barədə qərar qəbul etdikdə, həmçinin fiziki şəxsin əmlakının dəyərində və ya torpaq sahəsində dəyişiklik olduğu hallarda vergi ödəyicisinin şəxsi hesab vərəqinin 4-cü "Əməliyyatın növü" sütununda dəyişikliyə əsas verən sənədin adı və vergi dövrü yazılır.

7.8. **Ödənilmiş vəsaitlərin məbləğləri** bu metodiki göstərişin 5.1-ci bəndində göstərilən müddətlərdə "Şəxsi hesab vərəqəsi"nin 6-cı "məbləğ (manatla)" sütununa yazılır:

**Misal:** Fiziki şəxs tərəfindən ödənilmiş vergi məbləğləri bu metodiki göstərişə 1a saylı əlavənin "Şəxsi hesab vərəqəsi"nin 4-cü "əməliyyatın növü" sütununda göstərildiyi kimi yazılır.

7.9. Ödənilmiş vergi məbləğlərinə yazılış "Şəxsi hesab vərəqəsi"nin müvafiq sütunlarında aşağıdakı kimi aparılır:

7.9.1. vergi ödəyicisinə hesablanmış əmlak və torpaq vergisi ödənildikdə "Şəxsi hesab vərəqəsi"nin 4-cü sütununda göstərildiyi kimi "ödəmə" sözü yazılmaqla şəxsi hesab vərəqinin 3-cü **"Əməliyyatın adı"** sütununda ödənilmiş məbləğə əsas verən (qəbz, bankın ödəniş sənədləri) sənədin adı, tarixi, № -si yazılmaqla verginin adı yazılır.

7.10. Vergi və ödənişlərin hesablanması və daxil olması zamanı "Şəxsi hesab vərəqəsi"nin müvafiq sütunlarında yazılışlar aparılmalı və haqq-hesabın nəticəsindən asılı olaraq qalıq və ya artıq ödəmənin saldosu çıxarılaraq müvafiq qaydada şəxsi hesab vərəqəsinin 7 və 8-ci sütunlarına yazılmalıdır.

**Misal:** bu metodiki göstərişə 1a saylı əlavədə göstərildiyi kimi 01.01.2006-cı il vəziyyətinə 1-ci sətrin 7-ci **"qalıq"** sütununda əmlak vergisi üzrə 50,00 manat qalıq qalmış və həmin məbləğə müddətində ödənilmədiyinə görə gecikdirilmiş 46 gün (15.11.2005-01.01.2006) üçün 2,3 % (46 x 0,05) miqdarında 1 manat 15 qəpik məbləğində faiz hesablanmışdır. Ödəniş sənədi üzrə 13.01.2006-cı il tarixdə 60,00 manat və ya 10,00 manat artıq əmlak vergisi daxil olmuşdur. Bu halda, 01.01.2006-cı il tarixdən sonra 13 gün gecikmə ilə daxil olmuş 50,00 manat əmlak vergisininə 0,65 % (13x0,05) miqdarında 0,33 qəpik faiz hesablanılır. 50.00 manat qalıq məbləğinə nisbətən artıq ödənilmiş 10,00 manat əmlak vergisi məbləği ilə 13.01.2006-cı il tarixədək ödənilməmiş günlər üçün hesablanmış 1 manat 48 qəpik (10-cu sütun – 1 və 2-ci sətirlər) faiz məbləğləri əvəzləşdirildikdən sonra 8 manat 52 qəpik (10,00-1,48) məbləğində əmələ gəlmiş artıq ödəmə məbləği "Şəxsi hesab vərəqəsi"nin 8-ci "atrıq ödəmə" sütununa yazılmalıdır.

7.11. Ödənilmiş vəsaitlər barədə məlumatlar bank idarələrindən elektron məlumat şəklində alındıqda, şəxsi hesab vərəqəsinin müvafiq sütunlarında yazılışlar müvafiq proqram təminatı əsasında aparılır.

7.12. Bütün hallarda vergi ödəyicisi tərəfindən ödənilmiş vəsait məbləği şəxsi hesab vərəqəsinə yazıldıqda, şəxsi hesab vərəqəsinin 1-ci **"əməliyyatın tarixi"** sütununda ödəniş sənədlərinin şəxsi hesab vərəqəsinə işləndiyi tarix (gün) göstərilir, vəsaitin bələdiyyənin büdcəsinə (hesabına) daxil olduğu tarix, şəxsi hesabın 5-ci **"ödəmə (ödəniş) tarixi"** sütununda isə vəsaitin bələdiyyənin büdcəsinə (hesabına) mədaxil edilməsi barədə ödəniş sənədlərində (qəbz və ya bank sənədlərində) qeyd edilən tarix əks etdirilməlidir.



7.13. Bu metodiki göstərişə 1saylı əlvə "Yerli (bələdiyyə) vergilər üzrə fiziki şəxsin şəxsi hesab vərəqəsi"nin aşağı hissəsindəki cədvəlin içərisində göstərilən "İlin əvvəlinə **"Saldo"** qalıq və artıq ödəmə" sətirlərində (7 və ya 8-ci sütunlar üzrə saldo) qalıq və ya artıq ödənilmiş məbləğlər, "hesablanmışdır" sətirlərinə vergi və maliyyə sanksiyası və faiz üzrə (6 və 10 sütunlar üzrə) hesablanmış məbləğlər, "Ödənilmişdir" sətirlərinə ödənilmiş vergi, maliyyə sanksiyası və faiz məbləğləri, **"Azaldılmışdır"** sətirlərinə il ərzində qanunvericilikdə nəzərdə tutulmuş qaydada azaldılmış (çıxılmış) vergi və faiz məbləğləri, **"Qaytarılmışdır"** sətirlərinə qanunvericilikdə nəzərdə tutulmuş hallarda vergi və faiz məbləğlərinin yenidən haqq-hesab nəticəsində azaldılmış vergi və faiz məbləğləri, **"Artıq ödəmə"** sətrinə ilin sonunda haqq-hesab nəticəsində yaranmış artıq ödənilmiş (8-ci sütun üzrə) məbləğ, **"Ödənilməli borc"** sətirlərinə ilin sonunda haqq-hesab nəticəsində yaranmış vergi, maliyyə sanksiyası və faiz üzrə borc (7 və 11-ci sütunlar üzrə) məbləğləri yazılır.

## 8. Vaxtında ödənilməmiş yerli vergi borclarına hesablanmış faizlərin, tətbiq edilmiş maliyyə sanksiyasının şəxsi hesaba daxil edilməsi və borcların alınması

8.1. Yerli verginin əsas məbləğləri üzrə hər yazılışdan sonra vergi ödəyicisinin bələdiyyə büdcəsinə olan borc məbləğləri dəqiqləşdirilərək şəxsi hesab vərəqəsinin Saldo hissəsinin 7-ci **"qalıq"** və ya 8-ci **"artıq ödəmə"** sütunlarında əks etdirilməlidir.

8.2. Vergi ödəyicisinin şəxsi hesab vərəqəsində hər bir əməliyyatdan əvvəlki yazılış üzrə 7-ci "qalıq" sütununda yerli büdcəyə olan borc məbləğinə, ödəmə müddətindən sonrakı gecikdirilmiş hər gün üçün vaxtında ödənilməmiş vergi məbləğinin 0,05 faizi həcmində faiz hesablanmalıdır.

8.3. Şəxsi hesab vərəqəsi kağız üzərində və ya kompyuterdə aparılan bələdiyyələrin vergi orqanlarında (bələdiyyələrdə) vergi ödəyicilərinin şəxsi hesab vərəqəsində ödəmə müddəti başa çatdığı gündən sonrakı gündən başlayaraq ödənişlə bağlı hər bir yazılışdan sonra faizlərin hesablanması təmin edilməlidir.

**Misal:** Vergi ödəyicisinin 01.01.2006-cı il tarixinə 2005-ci il üçün hesablanmış əmlak vergisindən ikinci ödəniş müddəti üzrə (15.11.05-ilə) 50,00 manat ödənilməmiş borcu qalmış və ödəmə müddətindən sonrakı günlərin sayı 46 gün təşkil edir. Bu halda 50,00 manat ödənilməmiş borc məbləği bu metodiki göstərişə 1a saylı əlavə "Şəxsi hesab vərəqəsi"nin 7-ci **"qalıq"** sütununa, ödəmə müddətindən sonrakı gecikdirilmiş günlərin sayı 46 isə 9-cu "günlərin sayı" sütununa yazılaraq gecikdirilmiş günlərə görə 50,00 manatın 2,3 % -i (46 x 0,05%) miqdarında 1 manat 15 qəpik (2,3% x 50,00) faiz hesablanılır və "Şəxsi hesab vərəqəsi"nin faiz bölməsinin 10-cu **"hesablanıb"** sütununa yazılır.

***Qeyd: Tətbiq edilmiş maliyyə sanksiyası məbləğinin yerli büdcəyə alınması ilə bağlı şəxsi hesabda yazılışlar əsas vergi məbləğinə uyğun olaraq eyni sütunlarda aparılır.***

8.4. Kompyuterlə təchiz olunmuş və müvafiq proqram təminatı ilə təmin olunmuş bələdiyyələrin vergi orqanlarında (bələdiyyələrdə) vergi ödəyicilərinin şəxsi hesab vərəqəsində ödənişlə bağlı hər bir yazılışdan sonra faizlərin hesablanması avtomatlaşdırılmış qaydada həyata keçirilir.

8.5. Vəsaitlərin yerli büdcəyə ödənildiyi tarix, bank idarəsi tərəfindən həmin məbləğlərin bələdiyyənin büdcə hesabına mədaxil edilməsi barədə sənədlərində qeyd edilən tarixə əsasən müəyyənləşdirilir.

8.6. Yerli (bələdiyyə) vergi ödəyicisi olan fiziki şəxsə şərti maliyyə vahidinin 40 misli miqdarında maliyyə sanksiyası tətbiq edilir:

8.6.1. fiziki şəxs daşınmaz əmlaklarının mülkiyyət və istifadə sənədlərini aldıqdan 1 ay müddətində bələdiyyədə uçota durmaq üçün ərizə vermədikdə;

8.6.2. fiziki şəxsin olduğu yerin, yaxud yaşadığı yerin dəyişməsi barədə 15 gün müddətində bələdiyyəyə ərizə təqdim etmədikdə;

8.6.3. vergi uçotuna alınması üçün təqdim etdiyi ərizədə göstərilən əmlakları haqqında məlumatlarında dəyişiklik barədə 15 gün müddətində bələdiyyəyə məlumat təqdim etmədikdə.

8.7. Fiziki şəxslərdən alınan yerli (bələdiyyə) vergilərə hesablanmış faiz və tətbiq edilmiş maliyyə sanksiyası məbləği şəxsi hesab vərəqəsinə yazılarkən "Yerli (bələdiyyə) büdcəsinin ödəyiciləri olan fiziki şəxslərin uçota alınması qaydası"nın 3.2.3-cü bəndində müvafiq olaraq 2-ci **"əməliyyatın kodu"** sütununda faiz və maliyyə sanksiyasının kodu (vergilərin növünə müvafiq kodu yazmaq), "Şəxsi hesab vərəqəsi"nin 3-cü **"əməliyyatın adı"** sütununda hesablanmış faiz və tətbiq edilmiş maliyyə sanksiyası sözləri, 6-cı **"Məbləğ (manatla)"** sütununa tətbiq edilmiş maliyyə sanksiyasının məbləği, 10-cu "faiz hesablanmışdır" sütununa hesablanmış faizin məbləği yazılır. Maliyyə sanksiyası üzrə haqq-hesabın nəticəsindən asılı olaraq 7-ci **"qalıq"** və ya 8-ci **"artıq ödəmə"** sütunlarında müvafiq yazılış aparılır. Faiz üzrə qalıq məbləği 11-ci **"qalıq"** sütununa yazılır.

8.8. Yerli vergilər ödənilmədikdə, bələdiyyənin vergi xidməti orqanının (bələdiyyənin) vəzifəli şəxsləri tərəfindən müvafiq akt tərtib edilərək bələdiyyənin sədrinə (yaxud müavininə), surəti isə vergi ödəyicisi olan fiziki şəxsə təqdim edilir.

8.9. Ödəyici bələdiyyə vergi xidməti orqanının aktı ilə razılaşmadıqda, aktın aldığı gündən 30 gün müddətində akta və ya onun ayrı-ayrı hissələrinə yazılı surətdə öz etirazını bildirə bilər.

8.10. Bu metodiki göstərişin 8.9-cu bəndində göstərilmiş müddət bitdikdən sonra bələdiyyənin sədri (yaxud müavini) 15 gün ərzində vergi xidməti orqanının aktına baxır və yerli vergilər barədə qanunvericiliyin pozulmasına görə məsuliyyət tədbirlərinin tətbiqi üçün məhkəməyə müraciət edilməsi barədə qərar çıxarır, yaxud belə qərarın çıxarılmasından imtina edir.

8.11. Bələdiyyənin sədri (yaxud müavini) tərəfindən yerli vergi barədə qanunvericiliyin pozulmasına görə vergi ödəyicisi olan fiziki şəxsə qarşı məsuliyyət



tədbirləri barədə çıxarılmış qərarın surəti və qanunla müəyyən edilmiş hallarda yerli (bələdiyyə) vergilər üzrə borcların, müvafiq olaraq hesablanmış faizlərin və maliyyə sanksiyalarının ödənilməsi barədə tələbnamə göndərilir.

8.12. Vergi ödəyicisi ödənişləri könüllü qaydada ödədikdə, bələdiyyə məhkəməyə müraciət edilməsi barədə qərarı ləğv edir.

8.13. Fiziki şəxs bələdiyyənin qərarına əsasən vergilər üzrə vaxtı keçmiş borcları, müvafiq olaraq hesablanmış faizləri və maliyyə sanksiyalarını könüllü ödəmədikdə bələdiyyənin sədri (yaxud müavini) öz vergi xidməti orqanının təqdimatı əsasında vergilər üzrə vaxtı keçmiş borcların məcburi qaydada alınması, hesablanmış faizlərin alınması və maliyyə sanksiyalarının tətbiq edilməsi üçün məhkəməyə müraciət edir.

8.14. Məhkəmənin yerli (bələdiyyə) vergilər üzrə borcların, hesablanmış faizlərin və maliyyə sanksiyalarının alınması haqqında qanuni qüvvəyə minmiş qərarının icrası qanunla müəyyən edilmiş qaydada həyata keçirilir.

8.15. **Fiziki şəxslər** tərəfindən yerli (bələdiyyə) vergilərin vaxtında ödənilməmiş məbləğlərinə hesablanmış faiz və tətbiq edilmiş maliyyə sanksiyası məbləğlərinə faiz hesablanmır.

8.16. Vergi qanunvericiliyinin pozulması anından 3 il keçmişdirsə, şəxs həmin qanunvericiliklə bağlı hüquq pozuntusunun törədilməsinə görə məsuliyyətə cəlb oluna bilməz və vergi öhdəlikləri yarana bilməz.

## 9. Yerli (bələdiyyə) büdcəyə ödənilmiş vəsaitlər üzrə əvəzləşmə və qaytarılmaların uçotu

9.1. Vergi ödəyicisinin büdcəyə olan borclarının "Şəxsi hesab vərəqəsi"nin 8-ci "artıq ödəmə" sütununda əmələ gəlmiş artıq ödənilmiş məbləğlərlə əvəzləşdirilməsi, habelə artıq ödənilmiş vəsaitlərin ödəyiciyə qaytarılması ilə əlaqədar əməliyyatlar şəxsi hesab vərəqəsinin 4-cü "əməliyyatın növü" sütununda qeydlər aparılmaqla müvafiq yazılışlar aparılır.

9.2. Əvəzləşmələr vergi ödəyicisinin müraciəti olmadan aparılır.

9.3. Vergi ödəyicisi tərəfindən artıq ödənilmiş vəsaitlərin məbləği yerli vergilərin ödəmə müddətinə yaranmış qalıq məbləğilə, faiz və maliyyə sanksiyası üzrə artıq ödənilmiş məbləğlər isə qalıq məbləğlərinin yarandığı tarixə əvəzləşdirilir.

9.4. Yerli vergilər üzrə ödəmə müddətlərindən sonra yaranmış artıq ödəmələri digər vergilərin, faizin və maliyyə sanksiyasının ödənilməsi hesabına aid edildiyi hallarda fiziki şəxsə 20 gün ərzində bu metodiki göstərişə 3 saylı əlavə üzrə "Artıq ödənilmiş məbləğlərin əvəzləşdirilməsi barədə bildiriş" göndərilir.

9.5. Yerli vergilərin son ödəmə müddətindən sonra yaranmış artıq ödəmə barədə fiziki şəxs tərəfindən həmin artıq ödəmənin ona qaytarılması barədə yazılı müraciəti daxil olduqda artıq ödənilmiş vəsait 45 gün ərzində vergi ödəyicisinə qaytarılır.

9.6. Hesablanmış vergi məbləğindən artıq vergi məbləği ödənildikdə, artıq ödənilmiş məbləğin geri qaytarılması barədə vergi ödəyicisinin ərizəsinin veril-

diyi tarixdən həmin məbləğlər geri qaytarılanadək gecikdirilən hər bir gün üçün (ödəmə günü də daxil olmaqla) vergi ödəyicisinə müvafiq məbləğlərin 0,05 faizi məbləğində faiz ödənilir.

Fiziki şəxsin artıq ödənilmiş məbləğlərinin qaytarılmasına dair ərizə verildiyi müddətdən 45 gün ərzində məbləğ qaytarılarsa, faizlər vergi ödəyicisinə qaytarılmır.

9.7. Artıq ödənilmiş vergilər, hesablanmış faiz və tətbiq edilmiş maliyyə sanksiyaları qaytarıldıqda - "Şəxsi hesab vərəqəsi"nin 3-cü "əməliyyatın adı" sütununda "artıq ödəmə" sözü yazılmaqla qaytarılmış məbləğə əsas verən sənədin (məsələn: məxaric orderlərinin) adı, tarixi, №-si, 4-cü "əməliyyatın növü" sütununda "qaytarma" sözü yazılır və digər sütunlarda müvafiq yazılışlar aparılır.

9.8. Yerli (bələdiyyə) büdcəyə artıq ödənilmiş vergi məbləğlərinin vergi ödəyicisi olan fiziki şəxsin ərizəsinə əsasən ona qaytarılması zamanı artıq ödəmənin yarandığı tarixdən 5 il müddətin keçib-keçməməsi yoxlanmalıdır. Hesabat dövrü qurtardıqdan 5 il sonra artıq ödənilmiş vergi və faiz məbləğləri qaytarılmır.

## 10. Yerli (bələdiyyə) vergilərin silinməsi qaydası

10.1. Fiziki şəxsin vergilər, faizlər və maliyyə sanksiyaları üzrə yerli büdcəyə (bələdiyyə büdcəsinə) olan borcları aşağıdakı hallarda silinir:

10.1.1. Vergi Məcəlləsi ilə müəyyən edilmiş öhdəliklərin yerinə yetirilməsi müddəti qurtardıqda;

10.1.2. Vergi Məcəlləsi ilə müəyyən edilmiş əsaslar üzrə vergi öhdəlikləri qüvvədən düşdükdə;

10.1.3. Digər hallarda vergilər, faizlər və maliyyə sanksiyaları üzrə ümidsiz borclar qanunla müəyyən edilmiş qaydada silinə bilər.

10.2. Vəfat etmiş fiziki şəxsin vergi öhdəliklərini onun varisi (varisləri) miras qalan əmlakın dəyəri hüdudlarında və mirasın alındığı tarixdəki payına mütənasib şəkildə ödəyirlər. Varis (varislər) olmadıqda isə vəfat etmiş fiziki şəxsin vergi öhdəlikləri silinir (ləğv edilir).

10.3. Fiziki şəxs vəfat etdikdə ölümün qeydə alınması ölmüş şəxsin yaşamış olduğu yerdə və ya ölümün baş verdiyi yerdə vətəndaşlıq vəziyyəti aktının dövlət qeydiyyat (VVADQ) orqanı, konsulluq idarəsi və icra hakimiyyətinin nümayəndəliyi tərəfindən aparılır.

10.3.1. Fiziki şəxsin ölüm faktının müəyyən edilməsi haqqında və ölmüş elan edilməsi haqqında məhkəmənin qətnaməsi üzrə ölümün qeydə alınması qətnamə çıxarmış məhkəmənin olduğu yerdə aparılır.

10.3.2. Ölüm haqqında məlumatlar bu qaydanın 10.3-cü bəndində göstərilən orqanlarda akt kitablarında qeydə alındıqdan sonra ölüm haqqında şəhadətnamə yazılır. Ölüm haqqında şəhadətnamə ölən şəxsin müraciət etmiş yaxın qohumlarına təqdim edilir. Fiziki şəxsin ölümündən sonra onun yerli büdcəyə (bələdiyyə büdcəsinə) olan borcları silinərkən həmin şəxsin ölüm haqqında şəhadətnamənin təsdiq edilmiş surəti işə əlavə olunur.



10.4. Nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən ölmüş şəxsin (miras qoyanın) əmlakı başqa şəxslərə (vərəsələrə) qanun üzrə və ya vəsiyyət üzrə və ya hər iki əsasla keçir.

10.4.1. Miras fiziki şəxsin ölümü və ya məhkəmə tərəfindən ölmüş elan edilməsi ilə açılır. Miras qoyanın öldüyü gün və ya fiziki şəxsin ölmüş elan edilməsi məhkəmə qərarının qüvvəyə mindiyi gün mirasın açıldığı vaxt sayılır.

10.4.2. Miras qoyanın yaşayış yeri, bu məlum olmadıqda isə mirasın olduğu yer mirasın açıldığı yer sayılır. Əgər miras müxtəlif yerlərdədirsə, mirasın açıldığı yer daşınmaz əmlakın və ya onun qiymətli hissəsinin olduğu yer, daşınmaz əmlak olmadıqda isə daşınar əmlakın və ya onun əsas hissəsinin olduğu yer sayılır.

10.4.3. Müvəqqəti xaricdə yaşamış və orada olmuş Azərbaycan Respublikasının vətəndaşının ölümündən sonra mirasın açıldığı yer onun xaricə getməzdən əvvəl Azərbaycan Respublikasında yaşadığı yer, bu yer məlum olmadıqda isə mirasın və ya onun əsas hissəsinin olduğu yer sayılır. Xaricdə daimi yaşamış Azərbaycan Respublikası vətəndaşının ölümündən sonra mirasın açıldığı yer onun yaşadığı ölkə sayılır.

10.4.4. Vərəsə mirasın açıldığı yer üzrə notariat kontoruna mirası qəbul etdiyi barədə ərizə verdikdə və ya əmlaka sahiblik etməyə və ya əmlakı idarə etməyə faktiki başladıqda və bununla da mirası qəbul etdiyini şəksiz nümayiş etdirdikdə miras vərəsə tərəfindən qəbul edilmiş sayılır. Vərəsə mirasın bir hissəsinə sahiblik etməyə faktiki başladıqda hesab edilir ki, mirasın nədə ifadə edilməsindən və harada olmasından asılı olmayaraq, o, mirası tamamilə qəbul etmişdir.

10.4.5. Vərəsə vərəsəliyə çağrıldığını bildiyi və ya bilməli olduğu gündən üç ay ərzində mirası qəbul edə bilər. Miras açıldığı gündən altı ay keçdikdən sonra mirasın qəbuluna yol verilmir.

10.4.6. Mirasın qəbul edilməsi üçün müəyyənləşdirilmiş müddəti məhkəmə, gecikdirmənin səbəbini üzrlü sayarsa uzada bilər. Müddət qurtardıqdan sonra, əgər mirası qəbul edən bütün digər vərəsələr razıdırlarsa, miras məhkəməyə müraciət edilmədən də qəbul edilə bilər.

10.4.7. Vərəsələr miras qoyanın kreditorlarının mənafelərini alınmış aktivdə özlərindən hər birinin payına mütənasib surətdə birgə borclu kimi tam ödəməyə borcludurlar. Vərəsələr, əgər ölənin borcları onlara məlumdursa, mirasın açılması barədə miras qoyanın kreditorlarına məlumat verməyə borcludurlar.

10.4.8. Əgər kreditor tələbi icra müddəti çatanadək irəli sürmüşdürsə, vərəsə icranı müddət çatanadək təxirə sala bilər. Müddət çatdıqda kreditor ümumi iddia müddəti ərzində icranı tələb edə bilər. Tələblərin ödənilməsi zamanı miras qoyanın kreditorları vərəsənin kreditorları qarşısında üstünlüyə malikdirlər. Vərəsələri olmayan əmlak dövlətə keçdikdə, miras qoyanın borcları üzrə o, vərəsə kimi məsuliyyət daşıyır.

10.4.9. Vərəsəliyə çağrılmış şəxslər mirasın açıldığı yerdəki notariat orqanından vərəsəlik şəhadətnaməsi tələb edə bilərlər. Vərəsəlik şəhadətnaməsi vərəsələrə

mirasın açıldığı gündən altı ay keçdikdən sonra istənilən vaxt verilir. Əgər notariat orqanında şəhadətnamə tələb edən şəxslərdən savayı başqa vərəsələrin olmadığı barədə məlumat vardırsa, vərəsəlik şəhadətnaməsi altı aydan da tez verilir.

10.5. Fiziki şəxsin ölüm haqqında şəhadətnaməsi alındıqdan sonra vərəsə tərəfindən, bu qaydanın 10.4.4-cü bəndində nəzərdə tutulmuş faktiki hərəkətlər edildikdə, miras qoyanın yerli büdcəyə (bələdiyyə büdcəsinə) olan borclarının ödənilməsi tələbi həmin vərəsəyə qarşı irəli sürülür.

10.6. Vəfat etmiş və ya məhkəmənin qətnaməsi ilə ölmüş elan edilmiş şəxsin vərəsələrinin olub-olmamasını müəyyən etmək mümkün olmadıqda, bu barədə mirasın açıldığı yer üzrə notarial orqana, zərurət olduqda isə müvafiq orqanlara sorğu ilə müraciət edilir.

10.7. Fiziki şəxsin ölmüş elan edilməsi barədə məhkəmənin qərarı, həmin şəxsin sağ olması ilə əlaqədar qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəmə tərəfindən ləğv edildikdə, fiziki şəxsin silinmiş vergi öhdəlikləri bərpa edilir.

10.8. Məhkəmə tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş sayılan fiziki şəxsin vergi öhdəliklərini itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş şəxsin əmlak sərəncamçısı kimi səlahiyyətləndirən şəxs həmin əmlakın hesabına ödəyir.

10.8.1. Qanunvericiliklə müəyyən olunmuş qaydada itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş kimi tanınan fiziki şəxsin əmlakı onun vergi öhdəliklərini ödəmək üçün kifayət deyilsə, vergilərin əmlakın çatışmaması ilə əlaqədar ödənilməyən hissəsi Vergi Məcəlləsinin 93-cü maddəsində göstərilən qaydada silinir.

10.8.2. Fiziki şəxsin itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş kimi tanınmasının ləğv olunmasına dair məhkəmə tərəfindən qanunvericiliklə müəyyən edilmiş qərar qəbul edildikdə, əvvəllər silinmiş vergi öhdəlikləri bərpa edilir. Lakin fiziki şəxsin itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş sayıldığı vaxtdan bu cür tanınmanın ləğv olunduğuna dair qərar qəbul edildiyi vaxtadək olan dövr ərzində faizlər hesablanmır və maliyyə sanksiyaları tətbiq edilmir.

10.9. Fiziki şəxslərin vergilər, faizlər və maliyyə sanksiyaları üzrə yerli büdcəyə olan borclarının vergi öhdəliklərinin yerinə yetirilməsi müddətinin qurtarmasına görə ümidsiz borclar o halda silinə bilər ki, Vergi Məcəlləsində müəyyən edilmiş vergi öhdəliyinin yerinə yetirilməsi müddəti qurtarmış olsun.

Bələdiyyənin vergi orqanları vergiyə cəlb olunan hesabat dövrü qurtardıqdan sonra Vergi Məcəlləsinin 85.4-cü maddəsinə müvafiq qaydada 3 il ərzində vergi ödəyicisinin vergisini, faizləri və maliyyə sanksiyasını hesablamaq və hesablanmış məbləği yenidən hesablamaq, verginin, faizin və maliyyə sanksiyasının hesablanmış (yenidən hesablanmış) məbləğini vergiyə cəlb edilən hesabat dövrü qurtardıqdan sonra 5 il ərzində tutmaq hüququna malikdir.

10.10. Fiziki şəxslərin vergilər, faizlər və maliyyə sanksiyaları üzrə yerli büdcəyə olan borclarının vergi öhdəliklərinin yerinə yetirilməsi müddətinin



qurtarmasına görə silinməsi əmlak vergisi (binalara) və torpaq vergisi üzrə hüquqi şəxslər üçün göstərilən qaydada həyata keçirilir.

Vergiyə cəlb olunan hesabat dövrü təqvim ili olduqda vergilər üzrə borcların tutula bildiyi 5 ilin başlanğıcı həmin hesabat ilinin tamamlandığı ildən sonrakı ilin yanvar ayının 1-dən hesab edilir. Nəzərə almaq lazımdır ki, vergi öhdəliyinin yerinə yetirilməsi müddəti qurtardıqda vergilər, faizlər və maliyyə sanksiyası üzrə borclar bələdiyyələr tərəfindən onların alınması yalnız ümidsiz olduqda silinir.

10.11. Fiziki şəxslərin vergilər, faizlər və maliyyə sanksiyaları üzrə yerli büdcəsinə olan borclarının silinməsi bir qayda olaraq lazımi sənədləşmələr aparılmaqla həyata keçirilir.

Bu məqsədlə bələdiyyənin vergi orqanı (bələdiyyə) tərəfindən zəruri sənədlər (sənədlərin surətləri) əldə edilir və lazım gələn aktlar, arayışlar tərtib olunur. Həmin sənədlər diqqətlə öyrənilir, onların düzgünlüyünə yəqinlik yarandıqda və bu sənədlər borcların silinməsinə əsas verdikdə rəy tərtib edilir.

Borcların silinməsi barədə rəydə fiziki şəxsin soyadı, adı və atasının adı, YVÖK, ünvanı, vergi növləri, faizlər və maliyyə sanksiyaları üzrə yerli büdcəyə olan borcların məbləği, habelə həmin borcların qanunvericiliyin konkret maddəsinə əsasən silinməsi şərtlərinin olması və s. qeyd edilir.

Vergilər üzrə borcların silinməsi barədə rəy bələdiyyənin vergi orqanının rəhbəri tərəfindən imzalanaraq bələdiyyənin sədrinə təqdim edilir.

Həmin rəy bələdiyyənin sədri tərəfindən təsdiq edildikdən sonra icra üçün bələdiyyənin vergi orqanına təqdim edilir.

10.12. Alınması ümidsiz olan vergilər və maliyyə sanksiyaları üzrə borclar silinərkən bu borclara görə onların silinməsi haqqında rəyin icra edildiyi günə olan faizlər də silinir.

## 11. Şəxsi hesab vərəqəsinin bağlanması

11.1. Kompyuterlə təchiz olunmamış bələdiyyələrin vergi orqanlarında (bələdiyyələrdə) fiziki şəxslərə hesablanmış yerli vergilərin ödəniş müddəti bitdikdən və bütün əməliyyatlar üzrə yazılışlar şəxsi hesab vərəqəsinə yazıldıqdan sonra, ilin sonunda, yəni 31 dekabr tarixə "Şəxsi hesab vərəqəsi"nin "Saldo"su çıxarılaraq nəticəsindən asılı olaraq qalıq yarandıqda 7-ci "qalıq" sütununa, artıq ödəmə yarandıqda isə 8-ci "artıq ödəmə" sütununa yazılır.

11.2. İlin sonuna "Şəxsi hesab vərəqəsi"nin "Saldo"su çıxarılarkən 7-ci "qalıq" və 8-ci "artıq ödəmə" sütunlarında yaranmış məbləğlər yeni il üçün açılmış "Şəxsi hesab vərəqəsi"nə aşağıdakı kimi köçürülməlidir:

11.2.1. hər bir şəxsi hesab vərəqəsi üzrə saldo müəyyənləşdirildikdən sonra, "Şəxsi hesab vərəqəsi"nin 3-cü "əməliyyatın adı" sütununda "şəxsi hesab vərəqəsi bağlanılır və saldo məbləği 200 __ ci il üçün açılmış şəxsi hesab vərəqəsinə keçirilir" sözləri yazılır.

11.3. Növbəti il üçün açılmış "Şəxsi hesab vərəqəsi"nə əvvəlki ilin saldosu aşağıdakı kimi yazılır:

**Misal:** 2006-cı il üçün bu metodiki göstərişə 1a saylı əlavədə göstərildiyi kimi "Şəxsi hesab vərəqəsi"nin 1-ci sətrinin 1-ci "yazılışın tarixi" sütununa şəxsi hesab vərəqəsinə yazılışın aparıldığı "03.01.2006" tarix, 2-ci "əməliyyatın kodu" sütununa verginin adı əvəzinə onun kodu "113200", 3-cü "əməliyyatın adı" sütununa "01.01.2006 saldo", 5-ci "ödəmə (ödəniş) müddəti" sütununa əgər saldo qalıq üzrə müəyyən edilərsə, bu halda vergi qalığının hansı ödəmə müddəti üzrə qaldığı "15.11.2005", 6-cı "məbləğ (manatla)" sütununa isə vergi üzrə əmələ gəlmiş qalıq məbləği "50,00" yazılır.

11.4. Şəxsi hesab vərəqəsinin aşağı hissəsindəki çərçivələrdə (çərçivədən kənara çıxmadan) bələdiyyənin vergi orqanının rəhbərinin (bələdiyyənin sədrinin) və şəxsi hesabın aparılmasına məsul şəxsin soyadı, adı və atasının adı yazılaraq imzalanmalıdır.

11.5. Vergi ödəyicilərinin şəxsi hesab vərəqələri vergi orqanının rəhbəri (bələdiyyənin sədri) tərəfindən imzalanaraq möhürlə təsdiq edildikdən sonra, bələdiyyənin vergi orqanında (bələdiyyədə) ayrıca qovluğda saxlanılır.

11.6. Kompyuterlə təchiz olunmuş bələdiyyələrin vergi orqanlarında (bələdiyyələrdə) şəxsi hesab vərəqəsi üzrə saldo məbləğləri müvafiq qaydada avtomatlaşdırılmış proqram təminatı vasitəsilə müəyyənləşdirilir.

11.7. Vergi ödəyicilərinin şəxsi hesab vərəqələri kompyuterdə avtomatlaşdırılmış proqram təminatı vasitəsilə aparıldıqda, vergi və ödənişlərin uçotu bazasından vergi ödəyicisinin şəxsi hesab vərəqələrinin bütün məlumatları saxlanmaq üçün disketə köçürülür.

11.8. Vergi ödəyicisinin vergi uçotundan çıxarılması ilə əlaqədar şəxsi hesab vərəqəsi bağlandıqda, onun yerli büdcəyə olan bütün borcları ödənildikdən və ya artıq ödəmə məbləğləri vergi ödəyicisinə qaytarıldıqdan sonra şəxsi hesab vərəqəsinin 1-ci "Yazılışın tarixi" sütununda müvafiq yazılışlar edilməklə 3-cü "əməliyyatın adı" sütununda vergi ödəyicisinin ləğv edilməsi ilə bağlı müvafiq orqanının arayışının tarixi və №-si göstərilməklə *"vergi ödəyicisi ləğv edildiyi üçün şəxsi hesab vərəqəsi bağlanır"* sözləri yazılaraq şəxsi hesab vərəqəsi bağlanılır və arxiv haqqında qanunvericilikdə müəyyən edilmiş müddətlərdə saxlanılması təmin olunmalıdır.

11.9. Hesablanmış və ödənilmiş vəsaitlərin uçotunu kompyuterlə təchiz olunmuş və xüsusi proqram təminatı əsasında aparan bələdiyyələrdə (bələdiyyələrin vergi orqanında) şəxsi hesab vərəqəsinin bağlanması proqramda müvafiq "fayl" açılması ilə həyata keçirilməlidir. Uçotdan çıxarılması ilə əlaqədar şəxsi hesab vərəqələri ləğv olunan vergi ödəyiciləri üçün "ləğv olunmuşlar", başqa yaşayış yerinə köçmüş vergi ödəyiciləri üçün "Başqa yaşayış yerinə köçmüşlər" faylı açılmalı və həmin ödəyicilər üzrə bütün məlumatlar bu fayla keçirilməklə disketə köçürülərək arxiv haqqında qanunvericilikdə müəyyən edilmiş müddətlərdə saxlanılması təmin olunmalıdır.



Azərbaycan Respublikası Vergilər Nazirliyinin 25 aprel 2006-cı il tarixli 0617040100404300 №li əmri ilə təsdiq edilmiş "Yerli (bələdiyyə) büdcəyə fiziki şəxslərin daşınmaz əmlak vergisinin uçotunun aparılması qaydaları haqqında" metodiki göstərişə

______________________
**Bələdiyyənin adı**

**2 saylı əlavə**

**Yerli (bələdiyyə) büdcəyə daxil olma və qaytarılan məbləğlərin REYESTRİ**

| Sıra №si | Əməliyyatın tarixi | Əməliyyatın kodu | Əməliyyatın növü | Sənədin tarixi və nömrəsi | Məbləğ (manatla) | |
|---|---|---|---|---|---|---|
| | | | | | Gün ərzində | İlin əvvəlindən |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

| |
|---|
| ______________________ / ______________ |
| Bələdiyyənin vergi orqanının rəhbərinin S.A.A. imza |

| |
|---|
| ______________________ / ______________ |
| Reyestrin aparılmasına məsul şəxsin S.A.A imza |

Azərbaycan Respublikası Vergilər Nazirliyinin 25 aprel 2006-cı il tarixli 0617040100404300 saylı əmri ilə təsdiq edilmiş "Yerli (bələdiyyə) büdcəyə fiziki şəxslərin daşınmaz əmlak vergisinin uçotunun aparılması qaydaları haqqında" metodiki göstərişə

**2a saylı əlavə**

## "Yerli (bələdiyyə) büdcəyə daxilolma və qaytarılan məbləğlərin reyestri"nin tərtib edilməsi qaydası

1. Yerli (bələdiyyə) vergi və ödənişlərin daxil olması və qaytarılmasının uçotu bu metodiki göstərişə 2 saylı əlavə "Yerli (bələdiyyə) büdcəyə daxilolmaların və

qaytarılan məbləğlərin reyestri" forması bələdiyyələr tərəfindən çap etdirilərkən formanın yuxarı hissəsində göstərilmiş "Bələdiyyənin adı" yazılmış sözlər və

**Bələdiyyənin adı:**

xanaların əvəzinə bu metodiki göstərişə 4a saylı əlavədə göstərildiyi kimi hər bir bələdiyyənin öz adı aşağıda göstərildiyi qaydada yalnız sözlə yazılır:

**Kəngərli rayon Qıvraq bələdiyyəsi**

2. "Yerli (bələdiyyə) büdcəyə daxilolmaların və qaytarılan məbləğlərin reyestri"ndə daxilolmaların və qaytarılmaların uçotunun aparılması qaydası "Yerli (bələdiyyə) büdcəyə fiziki şəxslərin daşınmaz əmlak vergisinin uçotunun aparılması qaydaları haqqında" metodiki göstərişin 6-cı bəndlərində müəyyən edilmiş və bu metodiki göstərişə 2a saylı əlavədə daxilolmaların və qaytarmaların reyestrə işlənməsi nümunəsi göstərilmişdir.

| Sıra №-si | Əməliyyatın tarixi | Əməliyyatın kodu | Əməliyyatın növü | Sənədin tarixi və nömrəsi | Məbləğ (manatla) Gün ərzində | İlin əvvəlindən artan yekunla |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| **Cəmi** | 28.02.2006 | | daxil olub | | | **4230,50** |
| 1 | 02.03.2006 | 113200 | daxil olub | xxx | 55,00 | |
| ... | | | daxil olub | ... | 550.00 | |
| 55 | 02.03.2006 | 113100 | daxil olub | xxx | 70,50 | |
| 56 | 02.03.2006 | 141730 | qaytarılıb | xxx | 25,00 | |
| **Cəmi** | **02.03.2006** | | daxil olub | xxx | | **4826,00** |
| 1 | 03.03.2006 | 141730 | daxil olub | | 95,00 | |
| 2 | 03.03.2006 | 113200 | daxil olub | | 80,50 | |
| ... | | | daxil olub | ... | 700.00 | |
| 35 | 03.03.2006 | 113100 | daxil olub | | 25,00 | |
| **Cəmi** | **03.03.2006** | | daxil olub | xxx | | **5726.50** |

Reyestrdən göründüyü kimi 1-ci "sıra № si" sütununda əməliyyatın sayı, 2-ci "əməliyyatın tarixi" sütununda yazılışın aparıldığı (yəni cari iş günü) gün göstərilir.

Reyestrin 3-cü "əməliyyatın kodu" sütununda daxilolmalar və ya qaytarmalar üzrə verginin və ya digər ödənişin kodu yazılır. Məsələn, daxil olan vəsait əmlak vergisi olduqda, 3-cü sütunda əmlak vergisinin kodu – 113200 qeyd olunur.

4-cü "əməliyyatın növü" sütununda vəsaitin daxil olmasını və ya qaytarılmasını əks etdirən "daxil olub" və yaxud "qaytarılıb" sözləri yazılır.

5-ci "sənədin tarixi və nömrəsi" sütununda vəsaitlərin daxil olmasını və ya qaytarılmasını təsdiq edən sənədlərin tarixi və nömrəsi yazılır. Vəsait nağd qaydada toplandıqda (24 №li qəbzlə) qəbzin, bank vasitəsilə daxil olduqda isə bankın müvafiq sənədinin (mədaxil orderinin) tarixi və nömrəsi yazılır.



6-cı "Gün ərzində" sütununda daxil olan və ya qaytarılan vəsaitlərin manatla məbləği göstərilir.

7-ci "İlin əvvəlindən (artan yekunla)" sütununda ilin əvvəlindən daxil olan vəsaitlərin artan yekunla məbləği göstərilir. Hər günün axırına daxil olan vəsaitlərdən qaytarılan vəsaitlər çıxılaraq 7-ci sütuna toplanılır.

**Misal:** Bu metodiki göstərişə 4a saylı əlavə "Yerli (bələdiyyə) büdcəyə daxilolma və qaytarılan məbləğlərin Reyestr"də göstərilən 02.03.2006-cı il tarixdə 6-cı "Gün ərzində" sütun üzrə 55 halda "daxil olub" yazılmış vəsaitlərin 675,50 manat (55,00+550,00+70,50) vəsaitlə, 1 halda (sıra № 56) "qaytarılıb" yazılmış 25,00 manatın fərqi 7-ci "İlin əvvəlindən artan yekunla" sütununda 28.02.2006-cı il tarixdən yerli büdcəyə daxil olmuş 4230,50 manatla toplanaraq 02.03.2006-cı il tarixə günün sonuna 7-ci sütunda 4881,00 yazılır. Bu yazılış hər günün sonuna bu qaydada davam etdirilir.

***Qeyd: Gün ərzində 6-cı sütun üzrə daxil olmuş və ya qatarılmış hər bir vergi və ödəniş məbləğinin 7-ci "ilin əvvəlindən artan yekunla" sütun üzrə haqq-hesab edilməsi vacib deyil.***

3. "Reyestr" formasının aşağı sol hissəsində "Bələdiyyənin vergi orqanının rəhbərinin (sədrinin) soyadı və adı" göstərilmiş çərçivədə, çərçivədən kənara çıxmamaq şərtilə bələdiyyənin vergi orqanının rəhbərinin (sədrinin) soyadı, adı və atasının adı şərti olaraq aşağıdakı kimi yazılaraq onun tərəfindən imzalanır:

*Dəmirli Rəhim Əli oğlu* ______________ / ___ **xxx**

Bələdiyyənin sədri — imza

4. "Reyestr" formasının aşağı sağ hissəsində göstərilmiş "Reyestri işləyən məsul şəxsin soyadı, adı və atasının adı" göstərilmiş çərçivədə çərçivədən kənara çıxmamaq şərtilə məsul işçinin soyadı, adı və atasının adı yazılaraq onun tərəfindən imzalanır.

Həsənova Fatimə Həsən qızı ______________ /_ııı ____

Reyestri işləyən məsul şəxsin S.A.A. — İmza

*Azərbaycan Respublikası Vergilər Nazirliyinin 25 aprel 2006-cı il tarixli 0617040100404300 saylı əmri ilə* ***təsdiq edilmişdir***

# Yerli (bələdiyyə) vergi (ödəniş) ödəyicisi olan hüquqi şəxsin uçota alınması haqqında ərizənin tərtib olunması qaydası

Bələdiyyə büdcəsinin vergi ödəyiciləri olan hüquqi şəxslər bələdiyyənin vergi orqanında (bələdiyyədə) "Yerli (bələdiyyə) vergi ödəyicisi olan fiziki şəxsin uçota alınması haqqında ərizə"yə əsasən vergi uçotuna alınır.

"Yerli (bələdiyyə) vergi ödəyici olan hüquqi şəxsin uçota aldınması haqqında ərizə" hüquqi şəxs tərəfindən aşağıdakı qaydada tərtib edilməlidir:

1. Ərizə tərtib edilərkən ərizənin yuxarı hissəsində göstərilmiş tövsiyəyə əməl olunmaqla formadakı xanalar sağ küncdə göstərilmiş nümunəyə əsasən ( A B C D E ) qara və ya tünd göy rəngli qələmlə böyük çap hərfləri ilə doldurulmalıdır.

2. Hüquqi şəxs ərizəni tərtib edərkən "1. Ərizənin təqdim edildiyi bələdiyyənin adı" bölməsindəki 1.1 sətrindəki xanalarda uçota alınacaq bələdiyyənin adını yazmalıdır.

**Misal:** 1.1. Bələdiyyənin tam adı   X A Ç M A Z   B Ə L Ə D İ Y Y Ə S İ

3. "2. Ərizənin təyinatı" bölməsi aşağıdakı kimi tərtib edilir: - Hüquqi şəxs bələdiyyədə yerli vergi ödəyicisi kimi qeydiyyata alındığı zaman 2.1 sətirdəki bir xanada " X" işarəsi, 2.2 sətirdəki xanalarda hüquqi şəxsin VÖEN-ni yazmalıdır.

2. Ərizənin təyinatı

2.1. Qeydiyyat

2.2. Hüquqi şəxsin VÖEN   0 0 0 0 0 0 0 0 0 0

4. Hüquqi şəxs barədə ümumi məlumatlar ərizə formasının "3. Hüquqi şəşx haqqında məlumat" bölməsindəki xanalar şərti olaraq aşağıdakı kimi tərtib olunur:

3.1-ci sətirdəki xanalarda dövlət qeydiyyatı sənədinə əsasən hüquqi şəxsin tam adı, 3.2 sətirdəki dövlət qeydiyyatını həyata keçirən orqanın adı, 3.3 sətirdəki xanalarda həmin orqanın verdiyi şəhadətnamənin tarixi, 3.4 sətirdəki xanalarda şəhadətnamənin nömrəsi, 3.5 sətirdəki xanalarda dövlət statistika orqanının həmin hüquqi şəxsə verdiyi identifikasiya kodu, 3.6 və 3.8 sətirlərindəki xanalarda hüquqi şəxsin faktiki olaraq yerinə yetirəcəyi əsas və digər fəaliyyət növü, 3.7 və 3.9 sətirlərindəki beş simvoldan ibarət xanalarda həmin fəaliyyətlər üzrə statistika orqanının müəyyən etdiyi kodlar göstərilir.



**3. Hüquqi şəxs haqqında ümumi məlumat:**

3.1 Hüquqi şəxsin tam adı:   Q U M V Ə Ç I N Q I L M Ə H D U D
M Ə S U L İ Y Y Ə T L İ C Ə M İ Y Y Ə T

3.2. Dövlət qeydiyyatını həyata keçirən orqan   Ə D L İ Y Y Ə N A Z İ R L İ Y İ

3.3 Şəhadətnamənin tarixi   2 5 | 0 6 | 2 0 0 1 (gün, ay, il)   3.4 Şəhadətnamənin № si   0 0 0 0 0 0 0 0

3.5 Hüquqi şəxsin dövlət statistika kodu:   0 0 0 0 0 0 0 0 0 0

3.6 Əsas fəaliyyət növü   Ç I N Q I L Ç I X A R T M A Q   3.7 kodu   0 0 0 0 0

3.8 Digər fəaliyyət növü   Y O X D U R   3.9 kodu

Nümunədə göstərildiyi kimi hüquqi şəxs digər fəaliyyət növü ilə məşğul olmadıqda müvafiq xanalara "YOXDUR" yazılır.

5. Ərizə formasının **"4. Hüquqi şəxsin ünvanı"** bölməsi tərtib edilərkən bölmənin müvafiq xanalarında onun ünvanı və telefon nömrələri yazılmalıdır.

**Misal:** Hüquqi şəxs Xaçmaz rayonunun Qusarçay bələdiyyəsinin ərazisində fəaliyyət göstərir və qum-çınqıl çıxarır. Bu halda hüquqi şəxs yerli tikinti materialları üçün mədən vergisini Qusarçay bələdiyyəsinə ödəmək üçün hüquqi şəxs kimi həmin bələdiyyədə uçota alınarkən nümunədə göstərildiyi qayda üzrə ünvanını və telefon nömrələrini müvafiq xanalara yazmalıdır:

4.1. sətirdəki xanalarda hüquqi şəxsin yerləşdiyi ərazi üzrə poçt indeksi, 4.2 sətirdəki xanalarda ərazinin kodu bələdiyyənin vəzifəli şəxsi tərəfindən hüquqi şəxsin ünvanına görə Dövlət Statistika Komitəsinin "İnzibati-ərazi bölgüsü təsnifatı"na əsasən dəqiqləşdirilib yazılır. Hüquqi şəxsin yerləşdiyi ünvan (şəhər, kənd, küçə) barədə məlumatlar 4.3, 4.4, 4,5 sətirlərindəki xanalarda göstərilir. Hüquqi şəxslə əlaqə barədə (telefon, faks, el.poçt ünvanı) məlumat 4.6, 4.7, 4.8, 4.9, 4.10 sətirlərindəki xanalarda aşağıdakı nümunədəki kimi göstərilir.

**4. Hüquqi şəxsin ünvanı:**

Azərbaycan Respublikasında ünvanı

4.1 Poçt indeksi   A Z 2 7 2 1   4.2 Ərazinin kodu:   3 0 2 1 3 0 1 8

4.3 Şəhər (rayon)   X A Ç M A Z   R A Y O N U

4.4 Kənd (qəsəbə)   Q U S A R Ç A Y   K Ə N D İ

4.5 Küçə   №si

Azərbaycan Respublikasındakı əlaqə telefonları

4.6 Telefon: X id.   0 0 0 0 0 0 0   4.7 Faks   Y O X D U R

8 El. Poçt ünvanı   Y O X D U R

6. Ərizə formasının "5. Təsnifat" bölməsinin 5.1 sətrindəki xanalarda mülkiyyətin (dövlət, xüsusi, bələdiyyə, xarici, birgə və beynəlxalq təşkilatların mülkiyyəti) növü, 5.3 sətrindəki xanalarda təşkilati-hüquqi forması yazılır. 5.2 və 5.4 sətirlərindəki iki simvollu xanalar statistika orqanının mülkiyyətlə əlaqədar müəyyən etdiyi kod bələdiyyənin vəzifəli şəxsi tərəfindən tərtib edilərkən müvafiq xanalarda aşağıdakı nümunədəki kimi göstərilir.

7. "6. Hüquqi şəxsin tabeçiliyi" bölməsində hüquqi şəxsin tabeçiliyi barədə məlumatlar yazılır.

6.1 sətrindəki xanalarda hüquqi şəxsin tabe olduğu təşkilatın adı, 6.2 sətrindəki xanalarda tabe olduğu təşkilatın VÖEN-i, 6.3 sətrindəki xanalarda hüquqi şəxsin yuxarı təşkilatının adı və 6.4 sətrindəki xanalarda yuxarı təşkilatın VÖEN-i yazılır. Bizim misaldakı təşkilat xüsusi mülkiyyət olduğuna görə onun tabeçiliyi və yuxarı təşkilatı yoxdur. Ona görə də 6-cı bölmənin müvafiq xanalarında aşağıdakı nümunədəki kimi "YOXDUR" yazılır.

6. Hüquqi şəxsin tabeçiliyi

6.1 Tabeçilik Y O X D U R 6.2 VÖEN

6.3 Yuxarı təşkilatı Y O X D U R 6.4 VÖEN

8. Ərizə formasının "7. Hüquqi şəxsin rəhbəri barədə məlumat" bölməsində təşkilatın rəhbəri barədə məlumatlar əks olunur.

7.1 sətirdəki xanalarda hüquqi şəxsin rəhbərinin soyadı, 7.2 sətrindəki xanalarda adı, 7.3 sətrindəki xanalarda atasının adı yazılır.

Hüquqi şəxsin rəhbərinin şəxsiyyət vəsiqəsi üzrə məlumatlar barədə: 7.5 sətrindəki üç simvolu xanalarda şəxsiyyət vəsiqəsinin seriyası, 7.6 sətrindəki yeddi simvolu xanalarda vəsiqənin nömrəsi, 7.7 sətrindəki xanalarda şəxsiyyət vəsiqəsini verən orqanın adı, 7.8 sətrindəki xanalarda vəsiqənin verilmə tarixi, 7.9 sətrindəki xanalarda "Yerli (bələdiyyə) büdcənin ödəyiciləri olan fiziki şəxslərin uçota alınması qaydası"nın 5.8.3. bəndinə əsasən müəyyən olunmuş qaydaya müvafiq olaraq daxili işlər orqanları tərəfindən verilmiş "şəxsiyyət vəsiqəsi"nin üz qabığının aşağı hissəsindəki alt sətirdən (şəxsin şəxsiyyəti barədə pinkodu) sağdan axırıncı simvolu istisna olmaqla, sola doğru 7 simvolu əks olunur.

Hüquqi şəxsin rəhbəri ilə əlaqə barədə: 7.11 sətrindəki xanalarda hüquqi şəxsin rəhbərinin iş telefonu, 7.12 sətrindəki xanalarda ev telefonu, 7.13 sətrindəki xanalarda mobil telefonunun nömrəsi aşağıdakı nümunəyə uyğun olaraq göstərilir.



7. Hüquqi şəxsin rəhbəri barədə məlumat

7.1 Soyadı M Ə M M Ə D O V

7.2 Adı M İ R Z Ə

7.3 Atasının adı M U S A

7.4 Şəxsiyyət vəsiqəsinin:

7.5 Seriyası A Z E 7.6 № si 0 0 0 0 0 0 0

7.7 Vəsiqəni verən orqanın adı X A Ç M A Z R A Y O N D İ Ş

7.8 Vəsiqənin verilmə tarixi 1 2 0 9 2 0 0 1 7.9 Vəsiqəyə əsasən Pin kodu 0 0 0 0 0 0 0
gün ay il

7.10 Telefonu:

7.11 İş: 0 0 0 0 0 0 0 7.12 Ev 0 0 0 0 0 0 0 7.13 mobil 0 0 0 0 0 0 0 0 0

9. Ərizə formasının **"8. Ərizəni tərtib edən vəzifəli şəxslər"** bölməsindəki yuxarıdakı birinci çərçivədə hüquqi şəxsin rəhbərinin, ikinci çərçivədə ərizəni tərtib edən vəzifəli şəxsin soyadı, adı, atasının adı yazılaraq onlar tərəfindən imzalandıqdan sonra hüquqi şəxsin möhürü ilə təsdiqlənir və aşağıda "ərizənin tərtib edilmə tarixi" xanalarında ərizənin tərtib edilmə tarixi aşağıdakı nümunəyə müvafiq olaraq yazılır.

8. Ərizəni tərtib edən vəzifəli şəxslər

Hüquqi şəxsin rəhbərinin S.A.A / imza

Ərizəni tərtib edən vəzifəli şəxsin S.A.A / imza

M.Y

Ərizənin tərtib edilmə tarixi: 1 2 0 6 2 0 0 6
gün ay il

10. Ərizə formasının "10.Yoxlanıldı" bölməsində çərçivədə ərizəni qəbul edən bələdiyyənin vəzifəli şəxsinin soyadı, adı və atasının adı yazılmaqla imzalamalı və "ərizənin qəbul edilmə tarixi" xanalarında bələdiyyədə ərizənin yoxlanılıb qəbul edildiyi tarix göstərilməlidir.

10. Yoxlanıldı

______________________/________

Bələdiyyədə ərizəni qəbul edən şəxsin S.A.A imza

Bələdiyyədə ərizənin qəbul edilmə tarixi: 1 3 0 6 2 0 0 6
gün ay il

*Azərbaycan Respublikası Vergilər Nazirliyinin 25 aprel 2006-cı il tarixli 0617040100404300 saylı əmri ilə* ***təsdiq edilmişdir***

## Bələdiyyə ərazisində mehmanxana, sanatoriya-kurort və turizm xidmətləri göstərən şəxslərdən alınan ödənişin hesabatının tərtib edilməsi qaydası

1. Hesabat "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" 27.12.2001-ci il tarixli Azərbaycan Respublikası Qanununun 9.1.4-cü maddəsinə əsasən "bələdiyyə ərazisində mehmanxana, sanatoriya-kurort və turizm xidmətləri göstərən şəxslərdən alınan ödəniş"in ödəyicisi sayılan şəxslər tərəfindən aşağıdakı kimi tərtib edilir:

Hesabatın əvvəlində göstərilən "Qeyd"dəki "verilmiş formanın tərtib edilməsi qaydalarını oxuyun və + . / , % Z simvollarından istifadə etməyin, böyük çap hərflərlə qara və ya göy diyircəkli qələmlə doldurun" tövsiyələrinə ciddi əməl olunmalıdır.

- "Qeyd"dən sonrakı "hesabat təqdim edilən bələdiyyənin adı" sətrinin xanalarında böyük çap hərfləri ilə hər xanada bir hərflə bələdiyyənin adı yazılmalıdır.

**Misal:**

| Y | A | S | A | M | A | L | | B | Ə | L | Ə | D | İ | Y | Y | Ə | S | İ |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|

### *Bölmə I.* Xidmət göstərən şəxs haqqında ümumi məlumat

- **1** - ci sətrin **"VÖEN"** xanalarında (hər xanada bir rəqəmlə) bələdiyyə



ərazisində mehmanxana, sanatoriya-kurort və turizm xidmətləri göstərən şəxsin VÖEN-i yazılır;

- **2** -ci sətrin **"Xidmət göstərənin tam adı"** xanalarında böyük çap hərfləri ilə (hər xanada bir hərflə) xidmət göstərən şəxsin tam adı yazılır;

- **3** -cü sətirdə **"Əsas xidmət növünün kodu"** göstərilən yeddi rəqəmli xanada, hər xanada bir rəqəmlə vergi ödəyicisinin əsas fəaliyyət növünün statistik kodu, ondan sonra gələn xidmət növünün adı göstərilən çoxsaylı xanalarda isə böyük çap hərfləri ilə (hər xanada bir hərflə) əsas xidmət növünün "adı" yazılır;

**"Əsas xidmət növünün kodu"** göstərilən yeddi rəqəmli xanalar xidmət göstərən tərəfindən dodurulmadığı hallarda hesabatın bələdiyyə orqanı tərəfindən qəbul edilməməsinə əsas vermir.

- **4** -cü sətrin **"Təqdim olunmuş əlavələrin sayı"** xanalarında xidmət göstərən tərəfindən sənədlərin hesabata əlavə olunmasına zərurət yarandığı və qanunvericilikdə nəzərdə tutulmuş hallarda (hər xanada bir rəqəmlə) hesabata əlavə olunan vərəqlərin sayı yazılır;

- **5** -ci **"Hesabatın növü"** sətrində hər hesabat rübü üçün təqdim edilən bəyannamənin "Cari" xanasında "X" işarəsi aşağıdakı kimi yazılır:

**X Cari**

Bələdiyyə ərazisində mehmanxana, sanatoriya-kurort və turizm xidmətləri göstərən şəxs hər hesabat rübü üçün növbəti ayın 20-dək hesabatı təqdim etməlidir.

**"Hesabatın növü"**ndən asılı olaraq, yəni əvvəlki hesabat dövrləri üzrə dəqiqləşməyə dair hesabat tərtib edilməsinə zərurət yarandığı halda səyyar vergi yoxlaması başlanan günədək hesabat təqdim edilməklə **"Dəqiqləşdirilmiş"** xanasında "X" işarəsi göstərilir:

Hesabat müəyyən olunmuş müddətdə təqdim edilmədikdə, bələdiyyə orqanları tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş qayda üzrə Vergi Məcəlləsinin 57.1-ci maddəsinə əsasən xidmət göstərən şəxsə maliyyə sanksiyasının tətbiq olunur.

- **6** -cı sətirdə "Ödənişin dövrü", "**B**" işarəsindən sonrakı altı rəqəmli xanalarda hesabatın hansı hesabat rübünə aid olmasından asılı olaraq (hər xanada bir rəqəmlə) müvafiq rüb və il yazılır.

**Misal:** Əgər hesabat 2006-cı ilin I rübü (yanvar-mart) üzrə tərtib edilirsə, bu halda xanalar aşağıdakı qaydada doldurulur:

| I | 2 | 0 | 0 | 6 |
|---|---|---|---|---|
| rüb | | il | | |

## *Bölmə 2.* Ödənişin hesablanması

- **01** -ci "Mehmanxana xidməti", **02** -ci "Sanatoriya-kurort xidməti" və **03** -cü "Turizm xidmətləri" sətirlərinə müvafiq olaraq "C4" xanalarında (hər xanada bir rəqəmlə) xidmət göstərilmiş şəxslərin sayı (nəfər) yazılır.

**Misal:** 2006-cı ilin I rübündə "A" mehmanxanasında yaşamış 5000 nəfər şəxsə mehmanxana xidməti, 500 nəfərə isə turist xidməti göstərilmişdir. Bu halda xidmət göstərilmiş şəxslərin sayı (nəfərlə "" xanalarında aşağıdakı kimi yazılır:

| Sətrin Kodu | min | | yüz | |
|---|---|---|---|---|
| 01 | 5 | 0 | 0 | 0 |
| 03 | | 5 | 0 | 0 |

- 01-ci və 03-cü sətirlərə müvafiq olaraq "" "hər bir şəxs üçün ödənişin məbləği, sutkada şərti maliyyə vahidinin 1 mislindən çox olmamaqla" xanalarında (hər xanada bir rəqəmlə) ödənişin məbləği (manat və qəpiklə) yazılır.

***Q e y d: "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin 2-ci bəndinin müddəalarına əsasən mehmanxana, sanatoriya-kurort və turizm xidmətləri göstərən şəxslərdən alınan ödənişin hesablanması, ödənilməsi, habelə dərəcəsinin yuxarı həddi qanunla müəyyən edilir, tətbiqinin zəruriliyi və konkret dərəcəsi isə bələdiyyələrin qərarı ilə müəyyənləşdirilir.***

**Misal:** "" xanalarında hər bir şəxs üçün ödənişin məbləği şərti olaraq aşağıdakı kimi yazılır:

| | *manat* | *qəpik* | |
|---|---|---|---|
| 01 | 1 | 1 | 0 |
| 03 | 1 | 1 | 0 |

- **01** və **03** -cü sətirlərə müvafiq olaraq "" xanalarında "xidmət üzrə ödənişin məbləği" yazılır.

**Misal:** "A" mehmanxanasında 2006-cı ilin I rübündə mehmanxana xidməti göstərilmiş 5000 şəxs üçün 5500,00 (5000 x 1,10) manat və turist xidməti göstərilmiş 500 şəxs üçün 550,00 (500x1,10) manat ödəniş hesablanmışdır.



Bu halda, **01** və **03** -cü sətirlər üzrə bələdiyyə ərazisində mehmanxana və turizm xidmətləri göstərən şəxslərdən alınan ödənişin məbləğləri "" xanalarında aşağıdakı kimi yazılır:

| sətrin kodu | Xidmət üzrə hesablanmış ödənişin məbləğləri, manatla *milyon* | *min* | | *yüz* | | *qəpik* | |
|---|---|---|---|---|---|---|---|
| 01 | | 5 | 5 | 0 | 0 | 0 | 0 |
| 03 | | | 5 | 5 | 0 | 0 | 0 |

**04** -cü sətrin "Hesablanmış ödəniş məbləğinin cəmi" "" xanalarında **01** və **03** -cü sətirlər üzrə hesablanmış ödəniş məbləğlərinin toplanaraq cəmi yazılır.

**Misal:** "A" mehmanxanasında 2006-cı ilin I rübü üçün mehmanxana xidməti göstərilmiş 5000 şəxs üçün 5500,00 (5000 x 1,10) manat və turist xidməti göstərilmiş 500 şəxs üçün 550,00 (500x1,10) manat hesablanmış ödənişin cəmi **04** -cü sətrin "" xanalarında aşağıdakı kimi yazılır:

| sətrin kodu | Hesablanmış ödəniş məbləğinin cəmi *milyon* | *min* | | *yüz* | | *qəpik* |
|---|---|---|---|---|---|---|
| 04 | 6 | 0 | 5 | 0 | 0 | 0 |

- Hesabatın tərtib edilməsinə və qəbulu üzrə məsul şəxslər hissəsində - zolağın aşağısında sol tərəfdə yuxarıdan aşağı göstərilmiş birinci "rəhbər şəxsin", ikinci "baş mühasibin", üçüncü "hesabatı tərtib edən məsul şəxsin" çərçivələrində xidmət göstərən hüquqi şəxsin rəhbərinin və ya fərdi sahibkarın, baş mühasibinin və hesabatı tərtib edən məsul şəxsin soyadı, adı və atasının adı (çərçivələrdən kənara çıxmadan) yazılmaqla onlar tərəfindən imzalanır. Hesabat rəhbər şəxs tərəfindən imzalandıqdan və möhürlə təsdiqləndikdən sonra möhürün aşağı hissəsində olan "hesabatın tərtib edilmə tarixi"nə dair xanalarda tərtib edilmə tarixi qeyd olunmalıdır.

**Misal:** "A" mehmanxanasında 2006-cı ilin I rübü üçün bələdiyyə ərazisində mehmanxana və turizm xidmətləri göstərən şəxsdən alınan ödənişin hesabatı rəhbər şəxs tərəfindən 17.04.2006-cı il tarixdə imzalanmış və möhürlə təsdiq edilmişdir. Bu halda, **"Hesabatın tərtib edilmə tarixi"**nə dair xanalar aşağıdakı kimi yazılır:

| 1 | 7 | 0 | 4 | 2 | 0 | 0 | 6 |
|---|---|---|---|---|---|---|---|
| gün | | ay | | il | | | |

- Hesabat auditor (agent) tərəfindən tərtib edildiyi halda sol tərəfdə yuxarıdan aşağı dördüncü **"hesabatı auditor (agent) tərtib etdiyi halda onun S.A.A"** çərçivədə auditorun (agentin) soyadı, adı və atasının adı (çərçivələrdən kənara çıxmadan) yazılmaqla imzalanır, "auditorun (agentin) VÖEN" xanalarında VÖEN göstərilir və dairənin üzərində auditorun (agentin) möhürü ilə təsdiqlənir.

- Hesabatın aşağı hissəsındəki digər "hesabatı qəbul edən şəxsin S.A.A", "bəyannamənin bələdiyyəyə təqdim edilmə (daxil olma) tarixi və qeydiyyat №-si" çərçivələri və "poçt ştempelinin vurulma tarixi" xanaları bələdiyyələrin vəzifəli şəxsləri (əməkdaşları) tərəfindən doldurulur.

- Bələdiyyənin hesabatı qəbul edən məsul şəxsi soyadını, adını və atasının adını (çərçivədən kənara çıxmadan) yazmaqla imzalayır və "hesabatın bələdiyyəyə təqdim edilmə (daxil olma) tarixi və qeydiyyat №-si" çərçivəsində daxil olma tarixini və qeydiyyat nömrəsini yazır.

- "poçt ştempelinin vurulma tarixi" xanalarında hesabat poçt vasitəsilə göndərildiyi halda zərfin üzərinə vurulmuş poçt ştempelinin tarixi yazılır.

**Misal:** "A" mehmanxanası 2006-cı ilin I rübü üzrə bələdiyyə ərazisində mehmanxana və turizm xidmətləri göstərən şəxsdən alınan ödənişin hesabatını poçt vasitəsilə təqdim etmiş və bəyannamə qoyulmuş zərfin üzərinə poçt ştempelinin tarixi "18.04.2006" vurulmuşdur. Bu halda, hesabatın "poçt ştempelinin vurulma tarixi" xanasında tarix aşağıdakı kimi yazılır:

**Poçt ştempelinin vurulma tarixi**

| 1 | 8 | 0 | 4 | 2 | 0 | 0 | 6 |
|---|---|---|---|---|---|---|---|
| gün | | ay | | il | | | |

Hesabat əllə təqdim edildikdə poçt ştempelinin vurulma tarixi üzrə xanalar doldurulmur.

"Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" 27.12.2002-ci il tarixli Azərbaycan Respublikası Qanununun 11.3-cü maddəsinə əsasən bələdiyyə ərazisində mehmanxana, sanatoriya-kurort və turizm xidmətləri göstərən şəxslərdən alınan ödənişlər qeydiyyata düşmüş şəxslərdən tutularaq, növbəti ayın 5-dək müvafiq bələdiyyələrə ödənilməlidir. Ödəniş məbləğləri qanunla müəyyən edilmiş müddətdə bələdiyyə büdcəsinə ödənilmədikdə, Vergi Məcəlləsinin 59.1-ci maddəsinə əsasən ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün xidmət göstərən şəxsdən ödənilməmiş ödəniş məbləğinin 0,05 faizi məbləğində faiz tutulur.

"Bələdiyyələrin vergi xidməti orqanı haqqında əsasnamənin təsdiq edilməsi barədə" 17.06.2003-cü il tarixli Azərbaycan Respublikası Qanunu ilə təsdiq edilmiş "Bələdiyyələrin vergi xidməti orqanı haqqında əsasnamə"nin 3.2.3-cü



bəndinə əsasən bələdiyyənin vergi xidməti orqanı bələdiyyə ərazisində mehmanxana, sanatoriya-kurort və turizm xidmətləri göstərən şəxslərdən alınan ödənişlər üzrə vaxtı keçmiş borcların alınması barədə məhkəmədə vəsatət qaldırılması üçün bələdiyyələrə müraciət etməlidir.

Ümumiyyətlə bu ödəniş üzrə vaxtı keçmiş borcların alınması üçün "Yerli (bələdiyyə) büdcəyə fiziki şəxslərin daşınmaz əmlak vergisinin uçotunun aparılması qaydaları haqqında" metodiki göstərişin 8.8-8.14-cü bəndlərində nəzərdə tutulmuş prosedur qaydalarına əməl olunmalıdır.

*Azərbaycan Respublikası Vergilər Nazirliyinin*
*19 may 2005-ci il tarixli F-146 saylı əmri ilə*
***təsdiq edilmişdir***

# Yerli (bələdiyyə) büdcəyə fiziki şəxslərin əmlak vergisinin hesablanması və ödənilməsi qaydaları haqqında

# METODİKİ GÖSTƏRİŞ

## I. Ümumi müddəalar

1. "Yerli (bələdiyyə) büdcəyə fiziki şəxslərin əmlak verginin hesablanması və ödənilməsi qaydaları haqqında" metodiki göstəriş Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq olaraq fiziki şəxslərin əmlakına verginin hesablanmasını, ödənilməsini, güzəştlərin verilməsini, vergi ödəyicilərinin məsuliyyətini, habelə Vergi Məcəlləsində və digər qanunvericiliklərdəki müvafiq münasibətləri müəyyən edir.

2. Fiziki şəxslərin əmlakına verginin hesablanması, ödənilməsi və güzəştlərin verilməsi məsələlərində bu metodiki göstərişlə yanaşı olaraq Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikasının "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" 07.12.1999-cu il tarixli, "Yerli (bələdiyyə) vergi və ödənişlər haqqında" 27.12.2001-ci il tarixli qanunları, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 28.06.1999-cu il tarixli qərarı ilə təsdiq edilmiş "Fiziki şəxslərin mülkiyyətində olan binaların inventar dəyərinin hesablanması" qaydası əldə rəhbər tutulmalıdır.

3. Fiziki şəxslərin əmlakına vergi, vergitutma obyektlərinin olduğu (qeydiyyatdan keçdiyi) yerdəki bələdiyyələr tərəfindən hesablanır və həmin bələdiyyələrin büdcələrinə ödənilir.

## II. Fiziki şəxslərin əmlak vergisinin ödəyiciləri və vergitutma obyektləri

4. Fiziki şəxslərin əmlak vergisinin ödəyiciləri aşağıdakılardır:

a) Azərbaycan Respublikasının ərazisində yerləşən tikintilərin və ya onların hissələrinin (bundan sonra bina adlandırılacaq) xüsusi mülkiyyətçiləri olan rezident və qeyri-rezident fiziki şəxslər;

b) yerindən və istifadə edilib-edilməməsindən asılı olmayaraq su və hava nəqliyyatı (o cümlədən mühərriki olmayan) vasitələrinin sahibi olan rezident fiziki şəxslər.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq olaraq vergitutma məqsədləri üçün rezident - təqvim ilində üst-üstə 182 gündən artıq vaxtda həqiqətən Azərbaycan Respublikasının ərazisində olan və ya təqvim ili içərisində, yaxud bir təqvim ili ərzində xarici ölkədə Azərbaycan Respublikasının dövlət xidmətində olan fiziki şəxsdir.

Azərbaycan Respublikasının ərazisində və xarici ölkədə fiziki şəxsin olma müddəti 182 gündən artıq olmadıqda, həmin fiziki şəxs daimi yaşayış yeri, həyatı mənafelərinin mərkəzi, adətən yaşadığı yer, Azərbaycan Respublikasının vətəndaşlığı meyarlarına görə rezident sayılır.

5. Fiziki şəxslərin əmlak vergisinin obyekti aşağıdakılardır:

a) rezident və qeyri-rezident fiziki şəxslərin xüsusi mülkiyyətində olan binalar;

b) rezident fiziki şəxsə məxsus olan su və hava nəqliyyatı vasitələri;

Fiziki şəxsin vergitutma obyektləri olan binası dedikdə, sahibkarlıq fəaliyyəti üçün istifadə edilən və edilməyən binası və onun hissələri, habelə fiziki şəxslərin yaşayış evləri (mənzilləri), bağ evləri, qarajları və digər tikililəri və onların hissələridir.

Su və hava nəqliyyatı vasitələrinə təyyarə, helikopter, gəmi, kater, yaxta, qayıq və bu qəbildən olan digər nəqliyyat vasitələri daxildir.

## III. Əmlak vergisinin dərəcələri

6. Fiziki şəxslərin əmlak vergisi aşağıdakı qaydada və dərəcələrlə ödənilir:

a) fiziki şəxsin xüsusi mülkiyyətində olan binanın inventar dəyərindən:

bu dəyər şərti maliyyə vahidinin 5000 mislinədək olduqda vergi tutulmur, 5000 mislindən artıq olan məbləğdən 0,1 faiz.

b) fiziki şəxsə məxsus su və hava nəqliyyatı vasitələrinə görə:

- su və hava nəqliyyatı vasitələrinin mühərrikinin 1 kub santimetri üçün şərti maliyyə vahidinin 0,4 faizi.

- mühərriki olmayan su və hava nəqliyyatı vasitələri üçün onların bazar qiymətinin 1 faizi.

## IV. Əmlak vergisinin hesablanması və ödənilməsi qaydası

7. Fiziki şəxslərin binalarına əmlak vergisi, onların inventar dəyərindən şərti maliyyə vahidinin 5000 misli miqdarında məbləğ azaldılmaqla qalan məbləğdən 0,1 faiz dərəcə ilə hesablanır.



8. Əmlak vergisinin hesablanması zamanı bu metodiki göstərişə 1 № li əlavə - "Yerli (bələdiyyə) büdcəyə əmlak vergisinin hesablanması" formasından və 2 № li əlavə - "Yerli (bələdiyyə) büdcəyə əmlak vergisinin hesablanması formasının" tərtib edilməsi qaydasından istifadə olunur.

9. Bir nəfərə məxsus bina üzrə əmlak vergisi "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Qanunun 5.3-cü maddəsində nəzərdə tutulmuş qaydada müəyyən edilmiş inventar dəyərinə əsasən hesablanır.

Fiziki şəxsin yeni tikililərinin və ya onların hissələrinin inşası başa çatdıqdan sonra Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 28 iyun tarixli 110 №-li qərarı ilə təsdiq edilmiş "Fiziki şəxslərin mülkiyyətində olan binaların inventar dəyərlərinin hesablanması" qaydasına əsasən həmin tikililərin inventar dəyəri müəyyənləşdirilir.

10. Tikililər və onların hissələrinə görə fiziki şəxslərdən əmlak vergisi hesablamaq məqsədilə bələdiyyələr 3-5 ildə bir dəfədən çox olmayaraq ərazilərində yerləşən əmlakın qiymətləndirilməsi barədə qərar qəbul edirlər. Əmlakın qiymətləndirilməsi üzrə əməliyyat bələdiyyələrin vəsaiti hesabına maliyyələşdirilir.

11. "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Qanunun 5.4-cü maddəsinə əsasən əmlakın dəyəri fiziki şəxsin təşəbbüsü ilə və onun hesabına müstəqil peşəkar qiymətləndiricilər tərəfindən də hesablana bilər.

12. Bələdiyyələr daşınmaz əmlakın qeydiyyatını həyata keçirən müvafiq orqandan fiziki şəxslərə məxsus binaların inventar dəyəri barədə məlumat ala bilərlər.

13. Fiziki şəxslərin xüsusi mülkiyyətində olan binaya görə əmlak vergisinin hesablanması, onların yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən həyata keçirilir.

14. Fiziki şəxsə məxsus tikililər və onların hissələri ayrı-ayrı bələdiyyələrin ərazisində yerləşdiyi halda əmlak vergisinin hesablanması aşağıdakı qaydada aparılmalıdır:

Ayrı-ayrı bələdiyyələrin ərazisində yerləşən binalara əmlak vergisi hesablanarkən binaların yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən fiziki şəxslərin mülkiyyətində olan binaların ümumi dəyərində həmin ərazidə yerləşən binanın xüsusi çəkisi müəyyən edilir.

Fiziki şəxsin xüsusi mülkiyyətində olan binaların ümumi dəyərlərinə görə müvafiq bələdiyyələrin ərazisində yerləşən binanın xüsusi çəkisinə uyğun nisbətlərdə şərti maliyyə vahidinin 5000 misli qədər vergi tutulmayan məbləğ bölüşdürülür.

Ayrı-ayrı bələdiyyələrin ərazilərində yerləşən binaların dəyərindən şərti maliyyə vahidinin 5000 misli qədər vergi tutulmayan məbləğin həmin binaya düşən hissəsi çıxıldıqdan sonra qalan dəyərə əmlak vergisi hesablanır.

**M i s a l:**

*1. Fiziki şəxsin 3 bələdiyyənin ərazisində binaları var.*
*Binaların dəyəri aşağıdakı kimidir:*

I bələdiyyədə - 25,0 mln. manat
II bələdiyyədə - 30,0 mln. manat
III bələdiyyədə - 40,0 mln. manat

95,0 mln. manat

Ümumi dəyərdə binaların xüsusi çəkisi:

| | | |
|---|---|---|
| I bələdiyyədə | - 26,3 % | (25,0 : 95,0) x 100 |
| II bələdiyyədə | - 31,6 % | (30,0 : 95,0) x 100 |
| III bələdiyyədə | - 42,1 % | (40,0 : 95,0) x 100 |

*2. Binaların xüsusi çəkisinə müvafiq olaraq şərti maliyyə vahidinin 5000 mislinin hər bina üzrə vergiyə cəlb olunmayan hissəsi müəyyən edilir:*

| | | |
|---|---|---|
| I bələdiyyədə | - 7,2 mln. man | (27,5 mln. man. x 26,3 %) |
| II bələdiyyədə | - 8,7 mln. man | (27,5 mln. man. x 31,6 %) |
| III bələdiyyədə | - 11,6 mln. man | (27,5 mln. man. x 42,1 %) |

cəmi- 27,5 mln. man

*3. Ayrı-ayrı bələdiyyənin ərazisində yerləşən hər bir bina üzrə vergi tutulmayan məbləğ çıxıldıqdan sonra verginin hesablanması.*

I bələdiyyədə - (25,0 mln. man - 7,2 mln. man) x 0,1 % = 17.8 min man.
II bələdiyyədə - (30,0 mln. man - 8,7 mln. man) x 0,1 % = 21,3 min man.
III bələdiyyədə - (40,0 mln. man - 11,6 mln. man) x 0,1 % = 28,4 min man.

cəmi - 67,5 min. man

Göründüyü kimi bir neçə bələdiyyənin ərazisində yerləşməsinə baxmayaraq, fiziki şəxsin mülkiyyətində olan binaların ümumi dəyərinə şərti maliyyə vahidinin 5000 misli qədər güzəşt tətbiq edilməklə müvafiq bələdiyyələrin büdcəsinə əmlak vergisi hesablanılır.

15. Bir neçə nəfərə məxsus bina üzrə əmlak vergisi - binanın müvafiq qaydada qiymətləndirilmiş inventar dəyərindən şərti maliyyə vahidinin 5000 mislinədək (yəni 27,5 mln. manat) olan məbləğ çıxıldıqdan sonra həmin binanın hər sahibi üçün onun binanın dəyərindəki payına uyğun olaraq hesablanır.

**Misal:** *6 nəfər sahibi olan binanın inventar dəyəri 150,0 milyon manat, o cümlədən 1 nəfərin payı 35,0 milyon manat, hər biri 25,0 milyon manat olmaqla 3 nəfərin payı 75,0 milyon manat, hər biri 20,0 milyon manat olmaqla 2 nəfərin payı 40,0 milyon manatdır. 1 nəfərin 35,0 milyon manata görə binanın ümumi dəyərdəki payı 23,3 %, 25,0 milyon manata görə 3 nəfərin hər birinin payı 16,7 %, 20,0 milyon manata görə 2 nəfərin hər birinin payı 13,3 % təşkil edir.*

*Bu halda, binanın ümumi dəyəri 150,0 milyon manatdan 27,5 milyon manat çıxıldıqdan sonra vergiyə cəlb olunan 122,5 (150,0-27,5) milyon manata 0,1 faiz dərəcə ilə 122500 manat, o cümlədən binanın dəyərindəki 35,0 milyon manatlıq payına görə 1 nəfərə 28542 (122,5 mil.man. x 23,3 %) manat, 25,0 milyon manatlıq payına görə 3 nəfərin hər birinə 20458 (122,5 mil. man. x 16,7 %) manat, 20,0 milyon manatlıq payına görə 2 nəfərin hər birinə 16292 (122,5 mil. man. x 13,3 %) manat vergi hesablanılır.*

16. Su və hava nəqliyyatı vasitələrinə görə vergi onların qeydiyyatını həyata keçirən təşkilatlar tərəfindən verilən məlumatlar əsasında hər il yanvarın 1-i vəziyyətinə hesablanılır. Belə qeydiyyatın olmadığı hallarda, həmin əmlakın sahibi mülkiyyətində olan su və hava nəqliyyatı vasitələri barədə lazımi məlumatları (buraxılış ili, alış qiyməti və texniki xarakteristikası) əks etdirən sənədləri hər il yanvar ayının 1-dək müvafiq orqana təqdim etməlidir.

Su və hava nəqliyyatı vasitələrinin mühərrikinin 1 kub santimetrinə görə vergi aşağıdakı kimi hesablanılır:

***Misal:*** *Fiziki şəxsə məxsus su nəqliyyatı vasitəsinin (yaxtanın) mühərrikinin həcmi 1500 kubsantimetrdir. Bu halda əmlak vergisi 33,0 min manat (1500 x 22 man. (5500 x 0,4%) təşkil edir.*

Mühərriki olmayan su və hava nəqliyyatı vasitələrinə vergi aşağıdakı kimi hesablanır:

***Misal:*** *1 nəfər fiziki şəxsə məxsus mühərriki olmayan su nəqliyyatı vasitəsinin bazar qiyməti 2500,0 min manatdır. Bu halda əmlak vergisi 25,0 min manat (2500,0 min manat x 1 %) təşkil edir.*

17. Bir neçə fiziki şəxsə məxsus olan su və hava nəqliyyatı vasitəsinə görə vergi həmin nəqliyyat vasitəsini öz adına qeydiyyatdan keçirmiş şəxsdən tutulur.

18. Bələdiyyələr hesablanmış verginin məbləği və ödənilmə müddəti barədə "Tədiyyə bildirişi"ni vergi ödəyicilərinə iyun ayının 1-dən gec olmayaraq verməlidirlər.

19. Mülki qanunvericiliyə müvafiq olaraq qəbul edilmiş miras onun açıldığı gündən vərəsənin mülkiyyəti sayıldığından vərəsəlik üzrə keçən binalara görə əmlak vergisi vərəsəliyin açıldığı gündən hesablanılır.

20. Bələdiyyələr vərəsəlik üzrə keçən binaların siyahısını notariat orqanlarından əldə edə bilərlər

21. Əmlak vergisi, əmlakın əvvəlki sahibi tərəfindən avqustun 15-dək və noyabrın 15-dək ödənilmədiyi halda, vergi göstərilən müddətlərdə əmlakın hazırkı sahibi tərəfindən ödənilməlidir.

22. Fiziki şəxs, onun xüsusi mülkiyyətində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən tikilinin və ya onun hissəsinin yerləşdiyi, habelə su və hava nəqliyyatı vasitələrinin qeydə alındığı yerdə yaşamadığı halda, hesablanmış verginin ödənilməsinə dair bildiriş onun yaşayış yeri üzrə göndərilir və ya fiziki şəxsin həmin binaya vəkil etdiyi şəxsə təqdim edilir.

23. Bu metodiki göstərişin 5-ci bəndində göstərilən əmlakların mülkiyyətçisi və ya sahibi yoxdursa və yaxud onlar müvafiq ərazidə qanunvericiliyin tələblərinə uyğun olaraq bələdiyyələr tərəfindən sahibsiz kimi uçota alınmışdırsa, bu halda həmin əmlaklara görə vergi hesablanmır.

## V. Fiziki şəxslərin binalarına görə əmlak vergisi üzrə güzəştlər və azadolmalar

24. Fiziki şəxslərə məxsus binalara görə əmlak vergisi üzrə aşağıdakı güzəşt və azadolmalar müəyyən edilmişdir:

a) misgərlik, qalayçılıq, dulusçuluq və saxsı məmulatlarının, təsərrüfat müxəlləfatının, bağçılıq-bostançılıq alətlərinin, xalq musiqi alətlərinin, oyuncaqların, suvenirlərin, qamışdan və qarğıdan məişət əşyalarının düzəldilməsi, keramika məmulatlarının bədii işlənməsi, bədii tikmə, ağac materiallarından məişət alətlərinin hazırlanması sahəsində hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sənətkarlıq emalatxanalarının binaları və ya binaların bu emalatxanalar yerləşən hissələri əmlak vergisinə cəlb edilmir.

***Misal:*** *fiziki şəxsin 50000,0 min manat inventar dəyəri olan yaşayış evi və xalq musiqi alətlərinin hazılanması ilə məşğul olduğu 40000,0 min manat dəyərində emalatxanası – cəmi 90000,0 min manat dəyərində olan binası var. Bu halda, vergi hesablanarkən emalatxananın 40000,0 min manat dəyərinə vergi hesablanmır. Lakin fiziki şəxsin yaşadığı binanın 50000,0 min manat dəyərindən şərti maliyyə vahidinin 5000 misli(27500,0 min man) çıxıldıqdan sonra vergiyə cəlb edilən 22500,0 min manata 0,1 faiz dərəcə ilə 22,5 min manat hesablanmış əmlak vergisi ödənilməlidir.*

b) binaların icarəyə, kirayəyə verilməsi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla Vergi Məcəlləsinin 102.2-ci maddəsində göstərilən şəxslərin, habelə pensiyaçıların və müddətli hərbi xidmət hərbi qulluqçularının və onların ailə üzvlərinin müddətli hərbi xidmət dövründə binalara görə ödəməli olduqları əmlak vergisinin məbləği şərti maliyyə vahidinin 30 misli qədər azaldılır.



*Vergi Məcəlləsinin 102.2-ci maddəsində göstərilən şəxslər aşağıdakılardır:*

– Azərbaycan Respublikasının Milli Qəhrəmanları, Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanları, Şöhrət ordeninin hər üç dərəcəsi ilə təltif edilmiş şəxslər;

– I və II qrup müharibə əlilləri, həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadları (ərləri), 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallar ilə təltif edilmiş şəxslər;

Həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına (ərlərinə) güzəşt o halda verilir ki, onlar təkrar nikaha girməmiş olsunlar.

– qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslər;

Müharibə veteranı adı almış şəxslər aşağıdakılardır:

– İkinci dünya müharibəsi illərində döyüşən orduda (donanmada), partizan birləşmələri tərkibində, gizli fəaliyyətdə Vətənin müdafiəsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş, habelə başqa ölkələrin ərazisində gedən məhəlli müharibələrində və hərbi münaqişələrdə hərbi birləşmələrin tərkibində və keçmiş SSRİ Silahlı Qüvvələrinin, Dövlət Təhlükəsizliyi Komitəsinin, Daxili İşlər Nazirliyinin mütəxəssisləri və müşavirləri kimi iştirak etmiş şəxslər;

– Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş şəxslər;

– 1944-cü il yanvarın 1-dən 1951-ci il dekabrın 31-dək Ukraynanın, Belarusiyanın, Baltikyanı respublikaların ərazisində quldur dəstələrinə qarşı silahlı mübarizədə iştirak etmiş şəxslər;

– Azərbaycan Respublikasının ərazisində daimi yaşayan, ikinci dünya müharibəsi illərində xarici ödkələrin ərazisində milli orduların, partizan dəstələrinin tərkibində faşist Almaniyasına, onun müttəfiqlərinə və imperialist Yaponiyaya qarşı döyüş əməliyyatlarında iştirak etmiş şəxslər;

– İkinci dünya müharibəsi illərində döyüşən cəbhələrin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçiləri;

– 1941-1945-ci illərdə keçmiş Sovet ordusunda (donanmasında), daxil işlər və dövlət təhlükəsizliyi orqanlarında hərbi xidmətdə olmuş, lakin döyüş əməliyyatlarında iştirak etməmiş hərbi qulluqçular;

– İkinci dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslər;

– Çernobıl AES-də qəza, mülki və ya hərbi təyinatlı atom obyektlərində digər radiasiya qəzaları nəticəsində, habelə nüvə qurğularının hər hansı növləri, o cümlədən nüvə silahı və kosmik texnika ilə bağlı olan sınaqlar, təlimlər və başqa işlər nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəliyi keçirmiş şəxslər;

c) pensiyaçılara (yaşa görə, əlilliyə görə, ailə başçısını itirməyə görə, xidmət illərinə görə);

d) müddətli hərbi xidmət dövründə hərbi qulluqçular və onların ailə üzvlərinə;

Müddətli həqiqi hərbi xidmət keçən hərbi qulluqçulara "Hərbi xidmət haqqında" Qanunla müəyyən edilmiş müddətlər daxilində həqiqi hərbi xidmət keçən əsgərlər, matroslar və çavuşlar aiddirlər.

Hərbi tədris müəssisələrinə qəbul olunmuş 17 yaşı tamam olmuş vətəndaşlar müddətli hərbi xidmətdə sayılırlar və kursant adlandırılırlar.

Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları üçün son yaş həddi 37 yaşdır.

25. Bu metodiki göstərişin 24-cü bəndinin c) və d) yarımbəndləri üzrə göstərilən şəxslərə verginin hesablandığı dövrdə onların mövcud vəziyyətinə müvafiq olaraq binalarına əmlak vergisinin hesablanması.

***Misallar:***

*1. Güzəşt hüququna malik müharibə veteranı adı almış şəxsin 60000,0 min manat inventar dəyəri olan yaşayış binası var (özü qohumunun yanında yaşayır) və bu binanı kirayəyə vermişdir. Bu halda binanın dəyəri 60000,0 min manatdan şərti maliyyə vahidinin 5000 misli çıxıldıqdan sonra vergiyə cəlb olunan 32500,0 (60000,0 -27500,0) min manata 0,1 % dərəcə ilə 32,5 min manat əmlak vergisi hesablanılır. Binanı kirayəyə verdiyi üçün müharibə veteranı güzəşt hüququnu itirir və ona hesablanmış 32,5 min manat əmlak vergisini tam həcmdə ödəməlidir.*

*Göstərilən şəxs binanı icarəyə verməd iyi halda güzəşt hüququnu saxlayır və ona hesablanmış 32,5 min manat vergi məbləğini (metodiki göstərişin 24-cü bəndinin c) yarımbəndində göstərilmiş şərti maliyyə vahidinin 30 misli qədər güzəşt hüququna malikdir) ödəmir.*

*2. II qrup müharibə əlilinin mülkiyyətində olan (yaşadığı) 60000,0 min manat dəyərində yaşayış binası, 80000,0 min manat dəyərində isə kommersiya fəaliyyəti üçün istifadə etdiyi digər binası vardır. Bu halda, 60000,0 min manat dəyərində yaşayış binası üçün hesablanmış (bu metodiki göstərişin 25-ci bəndinin 1-ci misalındakı qayda üzrə vergi hesablanır) 32,5 min manat əmlak vergisini ödəməkdən azaddır. Lakin kommersiya fəaliyyəti üçün istifadə etdiyi 80000,0 min manat dəyərində digər binasına heç bir güzəşt tətbiq edilmədən hesablanmış 80,0 (80000,0 x 0,1%) min manat vergini ödəməlidir.*

*3. Qocalığa görə pensiya alan şəxsin özünə məxsus 130000,0 min manat dəyərində yaşayış və 90000,0 min manat dəyərində digər binası var və bu metodiki göstərişin 24-cü bəndinin c) yarımbəndində göstərilən fəaliyyət növləri ilə məşğul olmur və həmin fəaliyyət üçün istifadəyə verilməmişdir. Bu halda pensiyaçının 220000,0 (130000,0+90000,0) min manatlıq binalarının dəyərinin vergiyə cəlb edilən 192500,0 (220000,0 -27500,0 ) min manat dəyərinə 192,5 (192500,0 x 0,1 %) min manat hesablanmış vergi məbləğindən şərti maliyyə vahidinin 30 misli (165,0 min manat) qədər azalma verilməli və 27,5 min manat vergi məbləği ödənilməlidir.*



26. Müddətli hərbi xidmət dövründə hərbi qulluqçular və onların ailə üzvlərinə (birgə yaşadıqda *valideynlər, qardaş və bacılar; ayrı yaşadıqda arvadı, övladları və övladlığa götürülmüş uşaqları) əmlak vergisi aşağıdakı qaydada hesablanır:*

***Misallar:***

*1. 85000,0 min manat dəyərində binanın sahibi olan fiziki şəxslə bir yerdə yaşayan oğlu 2005-ci ilin aprel ayının 10-dan sıravi əsgər kimi xidmətə çağrılmış və təqvim hesabı ilə 1 il 6 ay xidmət etməlidir. Bina icarəyə verilmədiyi və ya digər sahibkarlıq fəaliyyəti üçün istifadə edilmədiyi halda binanın sahibinə (yəni müddətli hərbi xidmətçinin atasına) 2005-ci il üçün hesablanmış 57,5 min manat (85000,0 -27500,0)x 0,1 % ) vergi məbləğindən aprel-dekabr aylarına çatası 43,1 min manat (57,5 : 12x 9) vergi məbləği (şərti maliyyə vahidinin 30 mislini keçmədiyi üçün) ödənilmir, lakin yanvar-mart ayları üçün çatası 14,4 min manat (57,5 :12 x 3) vergi məbləği ödənilir. 2006-cı il üçün isə hesablanmış 57,5 min manat vergi məbləğindən yanvar-sentyabr aylarına çatası 43,1 min manat (57,5 :12 x 9) vergi məbləği ödənilmir, oktyabr-dekabr ayları üçün isə güzəşt hüququnu itirdiyinə görə 14,4 min manat vergi məbləği ödənilməlidir.*

*2. Müddətli hərbi xidmətçiyə məxsus binada onun atası və anası, habelə ayrı ailələri olan bacısı və qardaşı yaşayır. Həmin binada mənzil kirayəyə verilməyir və digər sahibkarlıq fəaliyyəti üçün istifadə olunmur. Bu halda hərbi xidmətçiyə güzəşt tətbiq edilir.*

27. Fiziki şəxslərə məxsus binalar və ya tikililər ayrı-ayrı təşkilatların və vətəndaşların istifadəsinə verildiyi hallarda, əmlak vergisini istifadə edənlər deyil, əmlakın sahibi (güzəşt hüquna mallik olsalar belə) ödəməlidir.

28. Güzəşt hüququ olan şəxslər, həmin hüququnu zəruri sənədlərlə təsdiq etməlidirlər.

29. Vergi qanunvericiliyinə uyğun olaraq bələdiyyələr öz ərazisində vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergilərdən tam və ya qismən azad etmək, vergi dərəcəsini azaltmaq barədə qərar qəbul edə bilərlər.

## VI. Vergi ödəyicilərinin məsuliyyəti

30. Vergi ödəyicisi Tədiyyə bildirişini aldıqdan sonra cari il üçün hesablanmış vergi məbləğini bərabər hissələrlə - həmin ilin avqustun 15-dək və noyabrın 15-dək ödəməlidir. Göstərilən müddətlərdə vergi ödənilmədikdə Vergi Məcəlləsinin 59.1-ci maddəsinə əsasən ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün fiziki şəxsə ödənilməmiş əmlak vergisi məbləğinin 0,05 %-i məbləğində faiz hesablanılır.

*Azərbaycan Respublikası Vergilər Nazirliyinin*
*19 may 2005-ci il tarixli F-146 saylı əmri ilə*
***təsdiq edilmişdir***
**Əlavə 1**

## 20___ci il üçün
## Yerli (bələdiyyə) büdcəyə əmlak vergisinin hesablanması

(vergi ödəyicisi olan fiziki şəxsin soyadı, adı, atasının adı, ünvanı və şəxsi kodu)

(əmlaka sahiblik və ya istifadə hüququnu təsdiq edən sənədin adı, verildiyi tarix, nömrəsi)

| Sıra № si | Vergitutma obyektinin adı | Ölçü vahidi | Göstərici |
|---|---|---|---|
| | 1 | 2 | 3 |
| 1. | Binaların ümumi inventar dəyəri | min manat | |
| 2. | VM-in 199.2-ci maddəsinə əsasən binanın vergiyə cəlb edilməyən dəyəri | min manat | |
| 3. | Şərti maliyyə vahidinin 5000 mislindək (5500 x 5000) vegiyə cəlb olunmayan məbləğ | min manat | |
| 4. | VM-in 199.2-ci maddəsi üzrə güzəşt verilmiş binanın dəyəri və şərti maliyyə vahidinin 5000 mislinədək vegiyə cəlb olunmayan məbləğ çıxıldıqdan sonra vergi hesablanmalı olan əmlakın dəyəri (sət.1 sət. 2 sət. 3) | min manat | |
| 5. | Binalara görə hesablanan əmlak vergisinin dərəcəsi | faizlə | |
| 6. | Binalara görə hesablanmış əmlak vergisinin məbləği (sət.4 x sət.5) | min manat | |
| 7. | Su və hava nəqliyyatı vasitələrinin mühərriklərinin həcmi | kub sm. | |
| 8. | Su və hava nəqliyyatı vasitələrinin mühərrikinin həcminə görə hesablanan əmlak vergisinin dərəcəsi (şərti maliyyə vahidinə nisbətən) | faizlə | |
| 9. | Su və hava nəqliyyatı vasitələrinin mühərrikinin həcminə görə hesablanan əmlak vergisinin məbləği (sət.7 x sət.8) | min manat | |
| 10. | Mühərriki olmayan su və hava nəqliyyatı vasitələrinin bazar qiyməti | min manat | |
| 11. | Mühərriki olmayan su və hava nəqliyyatı vasitələrinə görə hesablanan əmlak vergisinin dərəcəsi (bazar qiymətinə nisbətən) | faizlə | |
| 12. | Mühərriki olmayan su və hava nəqliyyatı vasitələrinə görə hesablanan əmlak vergisinin məbləği (sət.10 x sət.11) | min manat | |
| 13. | Hesablanmış əmlak vergisinin ümumi məbləği (sət.6 + sət.9 + sət.12) | min manat | |
| 14. | Vergi Məcəlləsinin 199.3-cü maddəsi üzrə güzəşt hüququna malik olduğuna görə ödənməli olan vergi məbləğindən azaldılan (şərti maliyyə vahidinin 30 misli ) vergi məbləği | min manat | |
| 15. | Vergi Məcəlləsinin 4.4-cü maddəsinə müvafiq olaraq bələdiy yələrin qərarına əsasən güzəşt verilmiş vergi məbləği | min manat | |
| 16. | Güzəşt məbləğləri nəzərə alınmaqla ödənilməli olan əmlak vergisinin məbləği (sət.13 sət. 14 sət.15) | min manat | |

(hesablamanı aparmış və şəxsi hesab vərəqəsinə işləmiş vəzifəli şəxsin vəzifəsi, S.A.A ) (imza) (tarix)



*Azərbaycan Respublikası Vergilər Nazirliyinin*
*19 may 2005-ci il tarixli F-146 saylı əmri ilə*
***təsdiq edilmişdir***
***Əlavə 2***

## "Yerli (bələdiyyə) büdcəyə əmlak vergisinin hesablanması formasının" tərtib edilməsi qaydası

Forma bələdiyyənin vergi xidməti orqanının vəzifəli şəxsi tərəfindən doldurulur.

Formanın əvvəlində vergi ödəyicisi olan fiziki şəxsin soyadı, adı, atasının adı, ünvanı, VÖEN və şəxsi hesab nömrəsi, habelə əmlaka sahiblik və ya istifadə hüququnu təsdiq edən sənədin adı, verildiyi tarix və nömrəsi qeyd olunur.

Formanın 1-ci sətrindəki binaların inventar dəyərinin ümumi məbləği 2, 3 və 4-cü sətirdəki məbləğlərin cəminə bərabər olmalıdır.

2-ci sətirdə metodiki göstərişin 24-cü bəndinin a) yarımbəndində göstərilən vergiyə cəlb edilməyən sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sənətkarlıq emalatxanalarının binaları və ya binaların emalatxanalar yerləşən hissələrinin inventar dəyəri göstərilir.

3-cü sətirdə binaların vergitutma məqsədləri üçün müəyyən edilən qiymətinin vergiyə cəlb edilməyən şərti maliyyə vahidinin 5000 mislinədək olan məbləği göstərilir.

4-cü sətirdəki binanın vergiyə cəlb olunan dəyəri 1, 2 və 3-cü sətirlərin fərqinə bərabər olmalıdır.

5-ci sətirdə binalara görə hesablanan əmlak vergisinin Metodiki Göstərişin 6-cı bəndinin a) yarımbəndində göstərilən vergi dərəcəsi əks olunur.

6-cı sətirdə 4 və 5-ci sətirlərin hasilinə bərabər olmaqla binalara görə hesablanmış əmlak vergisinin məbləği göstərilir.

7-ci sətirdə fiziki şəxslərə məxsus olan su və hava nəqliyyatı vasitələrinin mühərriklərinin həcmi əks etdirilir.

8-ci sətirdə metodiki göstərişin 6-cı bəndinin b) yarımbəndinin birinci hissəsində göstərilən su və hava nəqliyyatı vasitələrinin mühərrikinin həcminə görə hesablanan əmlak vergisinin dərəcəsi göstərilir.

9-cu sətirdə 7 və 8-ci sətirlərin hasilinə bərabər olmaqla su və hava nəqliyyatı vasitələrinin mühərrikinin həcminə görə hesablanan əmlak vergisinin məbləği əks etdirilir.

10-cu sətrdə mühərriki olmayan su və hava nəqliyyatı vasitələrinin bazar qiyməti göstərilir.

11-ci sətirdə metodiki göstərişin 6-cı bəndinin b) yarımbəndinin ikinci hissəsində mühərriki olmayan su və hava nəqliyyatı vasitələrinin bazar qiymətinə görə müəyyən edilmiş əmlak vergisinin dərəcəsi göstərilir.

12-ci sətirdə 10 və 11-ci sətirlərin hasilinə bərabər olmaqla mühərriki olmayan su və hava nəqliyyatı vasitələrinə görə hesablanan əmlak vergisinin məbləği əks etdirilir.

13-cü sətir üzrə hesablanmış ümumi verginin məbləği, formanın 6, 9 və 12-ci sətirlərinin cəminə bərabər olmalıdır.

14-cü sətirdə hesablanmış ümumi vergi məbləğindən metodiki göstərişin 24-cü bəndinin b) yarımbəndində göstərilən fiziki şəxslərə şərti maliyyə vahidinin 30 misli miqdarında azaldılmış vergi məbləği (yəni 5500 man x 30 =165000) göstərilir.

15-ci sətirdə Vergi Məcəlləsinin 4.4-cü maddəsinə müvafiq olaraq əmlak vergisi üzrə ayrı-ayrı şəxslərə bələdiyyələrin qərarına əsasən güzəşt verilmiş vergi məbləği qeyd olunur.

16-cı sətirdə fiziki şəxsin ödəməli olduğu vergi məbləği 13-cü sətirdəki məbləğdən 14 və 15-ci sətirlərdəki məbləğlər çıxıldıqdan sonra qalan fərqə bərabər olmalıdır.

Forma əmlak vergisi üzrə hesablamanı aparan və şəxsi hesab vərəqəsinə işləyən vəzifəli şəxs tərəfindən imzalanır, onun vəzifəsi, soyadı, adı, atasının adı və cədvəlin tərtib edildiyi tarix göstərilir.

### TƏDİYYƏ BİLDİRİŞİ

1. ______________________________________
( fiziki şəxsin soyadı, adı, atasının adı)

2. ______________________________________
(fiziki şəxsin ünvanı)

3. ______________________________________,
( fiziki şəxsin kodu və şəxsi hesab nömrəsi)

4. ____________________ bildirir ki, Sizə Azərbaycan Respublikasının Vergi
( bələdiyyənin adı)

Məcəlləsinin ______ maddəsinə əsasən 200__ il üçün ______________________
( rəqəm və sözlə)

______________ manat məbləğində ______________ vergi hesablanmışdır.
(əmlak, torpaq)

5. Verginin ödənilmə müddəti: 200__ il 15 avqust tarixədək __________ manat
200__ il 15 noyabr tarixədək __________ manat

6. Vergi ______________ yerləşən ______________ № li hesaba və ya
(bankın adı) (bələdiyyənin hesab nömrəsi)

bələdiyyənin xəzinəsinə ödənilməlidir.

7. Ötən dövrlər üzrə vergi borcu: __________ manat
faiz məbləği: __________ manat

M.Y. Bələdiyyənin sədri (onun müavini) ______________ / ______ / ______
(soyadı, adı, atasının adı) (imza) (tarix)



KƏSİLMƏ XƏTTİ

Bildirişin kötüyü

______________________________________
(bələdiyyənin adı)

200__ il üçün ______________________ manat məbləğində
(rəqəmlə və sözlə)

hesablanmış ______________ vergisi üzrə tədiyyə bildirişini aldım:
(verginin adı)

______________________ / ______ / ______
(fiziki şəxsin soyadı, adı, atasının adı) (imza)* (tarix)

* Bildiriş sifarişli məktubla göndərildikdə fiziki şəxs tərəfindən imzalanmır.

*Azərbaycan Respublikası Vergilər Nazirliyinin*
*19 may 2005-ci il tarixli F-146 saylı əmri ilə*
***təsdiq edilmişdir***

## Fiziki şəxslərə hesablanmış torpaq və əmlak vergisinin məbləği və ödənilməsi müddəti barədə tədiyyə bildirişinin tərtib edilməsi qaydası

Tədiyyə bildirişi fiziki şəxsin torpağının və ya əmlakının yerləşdiyi ərazinin müvafiq bələdiyyə orqanı tərəfindən doldurulur.

Fiziki şəxsə hesablanmış əmlak və ya torpaq vergilərinin hər biri üzrə tədiyyə bildirişi verginin adı göstərilməklə ayrıca tərtib olunur. Tərtib olunmuş tədiyyə bildirişi "Tədiyyə bildirişlərinin qeydiyyatı kitabı"nda qeydə alınır.

Tədiyyə bildirişində fiziki şəxsin soyadı, adı, atasının adı 1-ci sətirdə, ünvanı 2-ci sətirdə, kodu və şəxsi hesab nömrəsi 3-cü sətirdə göstərilir.

Ərazi üzrə bələdiyyənin adı göstərilməklə, bildiriş əmlak vergisi üzrə doldurularkən Vergi Məcəlləsinin XIII fəslinin müvafiq maddələrinə, torpaq vergisi üzrə doldurulduqda həmin məcəllənin XIV fəslinin müvafiq maddələrinə istinad edilir və bildirişin 4-cü sətrində əks olunur.

5-ci sətirdə cari il üçün hesablanmış verginin illik məbləği bərabər hissələrlə iki yerə bölünməklə həmin məbləğlərin 15 avqust və 15 noyabr tarixinədək ödənilməsi göstərilir.

6-cı sətirdə verginin köçürüləcəyi bankın adı və bələdiyyənin bankdakı hesab nömrəsi qeyd olunur.

7-ci sətirdə bildirişin tərtib edildiyi tarixə fiziki şəxsin əvvəlki illər üzrə ödənilməyən vergi və ya faiz borc məbləğləri göstərilir.

Tədiyyə bildirişi bələdiyyə sədri (müavini) tərəfindən onun soyadı, adı, atasının adı və bildirişi imzaladığı tarix göstərilməklə imzalanır və möhürlə təsdiq edilir.

Tədiyyə bildirişi kəsilmə xətti göstərilməklə iki hissədən ibarət olur. Kəsilmə xəttindən yuxarıda olan birinci hissə vergi ödəyicisinə verilir, ikinci hissə (kötüyü) isə bələdiyyədə saxlanılır.

Tədiyyə bildirişinin kötüyündə bələdiyyənin adı, hesabat ili, verginin adı və məbləği, fiziki şəxsin soyadı, adı, atasının adı göstərilir. Vergi ödəyicisi bildirişi şəxsən aldıqda onun kötüyündə alınma tarixini göstərməklə imza edir.

Bildiriş sifarişli məktubla göndərildikdə isə fiziki şəxs tərəfindən imzalanmır.

*Azərbaycan Respublikası Vergilər Nazirliyinin*
*19 may 2005-ci il tarixli F-146 saylı əmri ilə*
***təsdiq edilmişdir***

# Yerli (bələdiyyə) büdcəyə fiziki şəxslərin torpaq vergisinin hesablanması və ödənilməsi qaydaları haqqında METODİKİ GÖSTƏRİŞ

## I. Ümumi müddəalar

1. "Yerli (bələdiyyə) büdcəyə fiziki şəxslərin torpaq vergisinin hesablanması və ödənilməsi qaydaları haqqında" metodiki göstəriş Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq olaraq torpaq mülkiyyətçilərinin və istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticəsindən asılı olmayaraq torpaq sahəsinə görə hər il sabit tədiyyə şəklində verginin hesablanmasını, ödənilməsini, güzəştlərin verilməsini, vergi ödəyicilərinin məsuliyyətini, habelə Vergi Məcəlləsində və digər qanunvericiliklərdəki müvafiq münasibətləri müəyyən edir.

2. Fiziki şəxslərə torpaq vergisinin hesablanması, güzəştlərin verilməsi və ödənilməsi məsələlərində bu metodiki göstərişlə yanaşı olaraq Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Mülki Məcəlləsi, Torpaq Məcəlləsi, Azərbaycan Respublikasının "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" 07.12.1999-cu il tarixli, "Yerli (bələdiyyə) vergi və ödənişlər haqqında" 27.12.2001-ci il tarixli, "Torpaq icarəsi haqqında" 03.12.1998-ci il tarixli, "Torpaq islahatı haqqında" 16.07.1996-cı il tarixli, "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" 29.06.2001-ci il tarixli qanunlar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla şərti balların müəyyənləşdirilməsi haqqında" 29.12.2000-ci il tarixli 230 saylı qərarı əldə rəhbər tutulmalıdır.

3. Rezident və qeyri- rezident fiziki şəxslər və bələdiyyə müəssisələri torpaq sahələri barədə özlərinin mülkiyyət və istifadə hüquqlarını təsdiq edən sənədləri aldıqdan sonra bələdiyyələrdə 1 ay müddətində uçota durmalıdırlar.



Torpaq sahələri üzərində hüquqlar torpaq sahələrinin sərhədlərinin yerdə müəyyən edilməsindən, onların yerquruluşu planlarının və təsvirlərinin tərtib edilməsindən, torpaq sahələrinin verilməsi barədə müqavilənin bağlanmasından və onun müəyyən olunmuş qaydada dövlət qeydiyyatından keçirilməsindən sonra yaranır.

## II. Fiziki şəxslərin torpaq vergisinin ödəyiciləri və vergitutma obyektləri

4. Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və istifadəsində torpaq sahələri olan fiziki şəxslər torpaq vergisinin ödəyiciləridir.

5. Rezident fiziki şəxslərin mülkiyyətində, qeyri-rezident fiziki şəxslərin isə istifadəsində olan torpaq sahələri torpaq vergisinin vergitutma obyektidir.

Torpaq xüsusi mülkiyyətə Azərbaycan Respublikasının vətəndaşlarına verilir. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında torpaq sahələrini yalnız icarə hüququ əsasında əldə edə bilərlər.

Torpağa mülkiyyət hüququ qanunvericiliklə nəzərdə tutulan qaydada müvafiq dövlət orqanı tərəfindən qeydə alınır. Torpağa mülkiyyət hüququ qanunvericiliklə müəyyən edilmiş qaydada daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmalıdır.

6. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq olaraq vergitutma məqsədləri üçün rezident - təqvim ilində üst-üstə 182 gündən artıq vaxtda həqiqətən Azərbaycan Respublikasının ərazisində olan və ya təqvim ili içərisində, yaxud bir təqvim ili ərzində xarici ölkədə Azərbaycan Respublikasının dövlət xidmətində olan fiziki şəxsdir.

Azərbaycan Respublikasının ərazisində və xarici ölkədə fiziki şəxsin olma müddəti 182 gündən artıq olmadıqda, həmin fiziki şəxs daimi yaşayış yeri, həyatı mənafelərinin mərkəzi, adətən yaşadığı yer, Azərbaycan Respublikasının vətəndaşlığı meyarlarına görə rezident sayılır.

## III. Torpaq vergisinin dərəcələri

7. Fiziki şəxslərin torpaq vergisinin dərəcəsi aşağıdakı kimidir:

a) kənd təsərrüfatı təyinatlı torpaqlar üzrə:

- Əkin, dinc və çoxillik əkmələr altındakı torpaqlar üzrə 1 şərti bal üçün şərti maliyyə vahidinin 5 faizi;

- Biçənək, örüş və otlaq (yay və qış otlaqları da daxil olmaqla) üçün torpaqların 1 hektarının şərti balları müvafiq kadastr rayonlarının əkin, dinc və çoxillik əkinələrin altındakı torpaqların I keyfiyyət qrupu üçün müəyyənləşdirilmiş şərti balların 1/10 miqdarında qəbul edilir.

Biçənək, örüş və otlaq üçün torpaqların vergi dərəcəsi, müvafiq kadastr rayonlarının əkin, dinc və çoxillik əkmələrin altındakı torpaqların I keyfiyyət qrupu üçün müəyyənləşdirilmiş şərti balların 1/10 miqdarında qəbul edilmiş 1 hektarının şərti balı üçün şərti maliyyə vahidinin 5 faizidir;

b) Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət, məişət xidməti və digər xüsusi təyinatlı; yaşayış fondlarının, həyətyanı sahələrin və vətəndaşların bağ sahələri-

nin tutduğu torpaqların yaşayış məntəqələri üzrə hər kv.metrinə görə şərti maliyyə vahidindən faizlə:

| Yaşayış məntəqələri | Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət, məişət xidməti, digər xüsusi təyinatlı torpaqlar | Yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar |
|---|---|---|
| *Bakı* | *5,5* | *0,45* |
| *Gəncə, Sumqayıt* | *4,5* | *0,4* |
| *Digər şəhərlər (rayon tabeliyində olan şəhərlər istisna olmaqla), rayon mərkəzləri* | *2,5* | *0,2* |
| *Rayon tabeliyində olan şəhərlərdə, qəsəbələrdə və kəndlərdə (Bakı, Sumqayıt şəhərlərinin qəsəbə və kəndləri istisna olmaqla)* | *1,0* | *0,1* |

***Qeyd:** Bakı, Sumqayıt və Gəncə şəhərlərindən başqa nəzərdə tutulan digər şəhərlərə Naxçıvan, Şəki, Yevlax, Lənkəran, Xankəndi, Mingəçevir, Əli-Bayramlı və Naftalan şəhərləri; rayon tabeliyində olan şəhərlərə isə Dəlimməmmədli (Goranboy), Liman (Lənkəran), Ağdərə (Tərtər), Xudat (Xaçmaz), Göytəpə (Cəlilabad) şəhərləri aiddir.*

8. İcarəyə götürülmüş torpaq sahələri üçün icarə haqqı tərəflərin razılığı ilə müəyyənləşdirilir.

Bələdiyyə mülkiyyətində olan torpaqların icarə haqqının aşağı həddi onların təyinatından, sahəsindən, coğrafi yerləşməsindən və keyfiyyətindən asılı olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən torpaq vergisinin 2 misli miqdarında müəyyən edilmişdir.

## IV. Torpaq vergisinin hesablanması və ödənilməsi qaydası

9. Fiziki şəxslərin torpaq vergisi torpaq barəsində mülkiyyət və istifadə hüququnu təsdiq edən sənədlər əsasında müəyyənləşdirilir.

Fiziki şəxslərə məxsus tikililərin və qurğuların altında olan torpaqlara, həmçinin obyektlərin sanitariya mühafizəsi üçün zəruri torpaq sahələrinə görə torpaq vergisi ödənilir.

Bələdiyyələr tərəfindən fiziki şəxslərə hər il iyulun 1-dək torpaq vergisi hesablanır.

Torpaq vergisinin hesablanması zamanı bu metodiki göstərişə 1 №-li əlavə "Yerli (bələdiyyə) büdcəyə torpaq vergisinin hesablanması" formasından və 2 №-li əlavə "Yerli (bələdiyyə) büdcəyə torpaq vergisinin hesablanması formasının tərtib edilməsi" qaydasından istifadə edilir.

Hesablanmış verginin məbləği və ödənilmə müddəti barədə "Tədiyyə bildirişi" avqust ayının 1-dən gec olmayaraq fiziki şəxslərə çatdırılmalıdır.



10. Əkin, dinc və çoxillik əkmələr altında olan torpaqların vergisi aşağıdakı kimi hesablanılır:

***Misal:** Kürdəmir rayonunun Muradxan kəndində 1 nəfər fiziki şəxsə məxsus bonitet balı 70 olan 2,5 hektar əkin üçün torpaq sahəsi var. Bu torpağın keyfiyyət qrupunu müəyyən etmək üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 29 dekabr tarixli 230 №li qərarı ilə təsdiq edilmiş "Kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla müəyyənləşdirilmiş şərti balları"na əsasən Aran-Şirvan qiymət rayonunun düzən torpaqlarında 70 ballıq torpaq sahəsi II keyfiyyət qrupuna aiddir və 1 hektarının şərti balı 75 müəyyən edilmişdir.*

*Bu halda fiziki şəxsin 2,5 hek. torpaq sahəsinə 51563 manat (1 hek. şərti balı 75 x 275 man.(ş.m.v-nin 5 faizi) x 2,5 hek. torpaq sahəsinə) vergi hesablanmalıdır.*

11. Biçənək, örüş və otlaq üçün torpaq vergisi aşağıdakı kimi hesablanılır:

***Misal:** Hacıqabul rayonunun düzən torpağında 1 nəfər fiziki şəxs 50 hektar otlaq sahəsini istifadəyə götürmüşdür. Otlaq sahəsinin 1 hektarının şərti balı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 29 dekabr tarixli 230 № li qərarı ilə təsdiq edilmiş "Kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla müəyyənləşdirilmiş şərti balları"na əsasən Muğan-Salyan kadastr qiymət rayonu üzrə Hacıqabulun düzən torpağında 1 hektar otlaq sahəsinin şərti balı 9,8 (I keyfiyyət qrupunun şərti balı 98 x 10 %) təşkil edir.*

*Bu halda fiziki şəxsə 50 hektar otlaq sahəsi üçün 134750 manat (1 hek. otlaq sahəsinin şərti balı 9,8 x 275 vergi dərəcəsi x 50 hek. otlaq sahəsinə) torpaq vergisi hesablanmalıdır.*

12. Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaq sahələrinə vergi aşağıdakı kimi hesablanır.

***Misal:** Goranboy rayonunun rayon tabeliyində olan Dəlimməmmədli şəhərində 1 nəfər fiziki şəxs ticarət-məişət təyinatlı 200 kvadrat metr torpaq sahəsini istifadəyə götürmüşdür. Fiziki şəxs bu sahəyə görə 11000 ( 200 kv.metr x 55 (5500 x 1 %)) manat torpaq vergisi ödəməlidir.*

13. Yaşayış fondlarının, həyətyanı sahələrin və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlara vergi aşağıdakı kimi hesablanılır:

***Misal:** Gədəbəy rayonunun mərkəzi olan Gədəbəy şəhərində 1 nəfər fiziki şəxsin 750 kv.metr həyətyanı torpaq sahəsi var. Fiziki şəxs bu sahəyə görə 8250 (750 kv.metr x 11 manata (5500 x 0,2 %)) manat torpaq vergisi ödəməlidir.*

14. Torpaq sahəsi üzərində istifadə hüququ müvafiq qərar (müqavilə) əsasında torpaqdan daimi və ya müvəqqəti istifadə etməkdir.

Bələdiyyələr tərəfindən torpaqlar daimi və ya müvəqqəti istifadəyə verilir. Müvəqqəti istifadə qısamüddətli - on beş ilədək və uzunmüddətli - on beş ildən 99 ilədək müəyyən oluna bilər.

15. Torpaq sahəsi üzərində icarə hüququ müqavilə əsasında əvəzi ödənilməklə müddətli istifadə deməkdir. Qanunvericiliyə müvafiq olaraq icarəyəverən

(bələdiyyə) ilə icarəçinin razılığına əsasən bağlanan müqavilədə icarənin şərtləri, müddəti və icarə haqqı müəyyən edilir və müqavilədə təsbit olunur.

16. İki və daha çox fiziki şəxsin mülkiyyətində, istifadəsində və icarəsində olan torpaq sahəsi həmin şəxslərin birgə mülkiyyət, birgə istifadə və ya birgə icarə hüququna məxsus ola bilər. Birgə mülkiyyətdə olan torpaq sahələrinə sahiblik, onlardan istifadə və onlar barədə sərəncam verilməsi Azərbaycan Respublikası Mülki Məcəlləsinin birgə mülkiyyət hüququ haqqında müddəalarına uyğun olaraq həyata keçirilir.

Ayrılıqda bir neçə fiziki şəxsin mülkiyyətində və ya istifadəsində olan tikililərin altında qalan və ya onlara xidmət üçün ayrılmış torpaq sahələrinə görə vergi onlara məxsus tikili sahələrinə mütənasib surətdə hesablanılır.

***Misal:*** *Bakı şəhərində kommersiya məqsədi üçün istifadə olunan 5 nəfərə məxsus binanın altında qalan torpaq sahəsi 500 kv.metrdir. Onlardan hər birinin tikintidə sahəsi 120 kv.metr olmaqla 2 nəfərin ümumi sahəsi 240 kv.metr, 3-cü şəxsə məxsus sahə 100 kv.metr, hər biri 80 kv.metr olmaqla 4-cü və 5-ci şəxsin ümumi sahəsi 160 kv.metrdir. Birinci 2 nəfərin hər birinin binanın ümumi sahəsində payı 24 % (120:500x100), 3-cü şəxsin payı 20 % (100:500x100), 4-cü və 5-ci şəxslərin hər birinin payı isə 16 % (80:500x100) təşkil edir.*

*Bu halda, binanın altında olan torpaq sahəsinə hesablanmış 151,3 (5500 x 5.5 % x 500) min manat torpaq vergisi tikintidəki paylarına mütənasib olaraq aşağıdakı kimi ödənilməlidir: Birinci 2 nəfərin hər biri 36,3 (151.3 x 24%) min manat, 3-cü şəxs 30,3 (151,3 x 20%) min manat, 4-cü və 5-ci şəxslərin hər biri 24,2 (151,3 x 16%) min manat.*

17. Yerli özünü idarəetmə orqanı kimi bələdiyyələr torpaq vergisinin tədiyyəçisi olmadığından icarəyə verilmiş bələdiyyə torpaqlarının icarə haqqının tərkibində torpaq vergisi nəzərə alınmır.

***Misal:*** *Hər hansı rayon mərkəzində hüquqi şəxs olan A firması bələdiyyəyə məxsus 200 m² torpaq sahəsini icarəyə götürmüşdür. Qanunvericiliyə müvafiq qaydada tərtib edilmiş müqavilənin şərtlərinə görə icarə haqqı torpaq vergisinin 3 misli miqdarında müəyyən edilmişdir. Rayon mərkəzlərində torpaq vergisinin dərəcəsi 1 m² torpaq sahəsi üçün 137,5 (5500 x 2,5 %) manatdır. Bu halda, A firması hüquqi şəxs olmasına baxmayaraq yerli (bələdiyyə) büdcəyə 200 m² torpaq sahəsi üçün yalnız 82,5 (137,5 x 3 x 200) min manat icarə haqqını ödəməlidir.*

18. Qanunvericiliyə müvafiq olaraq bələdiyyəyə məxsus torpaq sahələri mülkiyyət formasını dəyişdikdə, torpaq vergisi hüquqi formasından asılı olaraq müvafiq qaydada ödənilir.

***Misal:*** ***Bakı şəhərində hüquqi şəxs olan B firması qanunamüvafiq qaydada 350 m² bələdiyyə torpağını özəlləşdirərək öz mülkiyyətinə keçirmişdir. Bu halda, 350 m² torpaq sahəsi hüquqi şəxs kimi B firmasına məxsus olduğuna görə həmin sahə üçün 105,9 (5500 x 5,5 % x 350) min manat torpaq vergisi dövlət büdcəsinə ödəniləcəkdir.***



19. Başqa şəxsə mənsub torpaq sahəsində olan daşınmaz əmlakın mülkiyyətçisi həmin əmlakın yerləşdiyi torpaq sahəsi hissəsindən istifadə hüququna malikdir.

Bələdiyyənin qərarı və tərəflər arasında müqavilənin bağlanıb-bağlanmamasından asılı olmayaraq bələdiyyələrə mənsub torpaq sahəsində qanunvericiliyin tələblərinə müvafiq olaraq əldə edilmiş daşınmaz əmlakı olan fiziki şəxslər həmin torpaq sahələrinin istifadəçiləri hesab olunduqları üçün onlar müvafiq qaydada torpaq vergisinin ödəyiciləridirlər.

20. Torpaq vergisi bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq ödənilir. Torpaq vergisi əvvəlki sahibi tərəfindən ödənilmədiyi halda, vergi bu bənddə göstərilmiş ödəmə vaxtına həmin torpağın hazırkı sahibi tərəfindən ödənilir.

## V. Vergi güzəştləri

21. Aşağıdakı torpaqlar torpaq vergisinə cəlb edilmir:

a) yaşayış məntəqələrinin ümumi istifadəsində olan torpaqları – meydan, küçə, keçid, yol, sahil, park, meşə-park, xiyaban, bulvar, sututarlar, çimərlik və əhalinin ictimai tələbatının ödənilməsinə xidmət edən digər obyektlər altındakı torpaq sahələri;

b) dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının, Azərbaycan Respublikası Milli Bankının və onun qurumlarının, habelə Azərbaycan Respublikasının Dövlət Neft Fondunun mülkiyyətində və ya istifadəsində olan torpaqları;

c) dövlət sərhəd zolaqları və müdafiə təyinatlı torpaqlar;

d) Vergi Məcəlləsinin 102.2-ci maddəsində göstərilən şəxslərin mülkiyyətində olan torpaqlara görə torpaq vergisinin məbləği şərti maliyyə vahidinin 10 misli (5500 x 10) qədər azaldılır.

***Vergi Məcəlləsinin 102.2-ci maddəsində göstərilən şəxslər aşağıdakılardır:***

Azərbaycan Respublikasının Milli Qəhrəmanları, Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanları, Şöhrət ordeninin hər üç dərəcəsi ilə təltif edilmiş şəxslər:

I və II qrup müharibə əlilləri, həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadları (ərləri), 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallar ilə təltif edilmiş şəxslər;

- həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına (ərlərinə) güzəşt o halda verilir ki, onlar təkrar nikaha girməmiş olsunlar;

qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslər.

Müharibə veteranı adı almış şəxslər aşağıdakılardır:

- İkinci dünya müharibəsi illərində döyüşən orduda (donanmada), partizan birləşmələri tərkibində, gizli fəaliyyətdə Vətənin müdafiəsi uğrunda döyüş

əməliyyatlarında iştirak etmiş, habelə başqa ölkələrin ərazisində gedən məhəlli müharibələrdə və hərbi münaqişələrdə hərbi birləşmələrin tərkibində və keçmiş SSRİ Silahlı Qüvvələrinin, Dövlət Təhlükəsizliyi Komitəsinin, Daxili İşlər Nazirliyinin mütəxəssisləri və müşavirləri kimi iştirak etmiş şəxslər;

– Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş şəxslər;

– 1944-cü il yanvarın 1-dən 1951-ci il dekabrın 31-dək Ukraynanın, Belarusiyanın, Baltikyanı respublikaların ərazisində quldur dəstələrinə qarşı silahlı mübarizədə iştirak etmiş şəxslər;

– Azərbaycan Respublikasının ərazisində daimi yaşayan, ikinci dünya müharibəsi illərində xarici ödkələrin ərazisində milli orduların, partizan dəstələrinitn tərkibində faşist Almaniyasına, onun müttəfiqlərinə və imperialist Yaponiyaya qarşı döyüş əməliyyatlarında iştirak etmiş şəxslər;

– İkinci dünya müharibəsi illərində döyüşən cəbhələrin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın manafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçiləri;

– 1941-1945-ci illərdə keçmiş Sovet ordusunda (donanmasında), daxil işlər və dövlət təhlükəsizliyi orqanlarında hərbi xidmətdə olmuş, lakin döyüş əməliyyatlarında iştirak etməmiş hərbi qulluqçular;

– İkinci dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslər;

– Çernobıl AES-də qəza, mülki və ya hərbi təyinatlı atom obyektlərində digər radiasiya qəzaları nəticəsində, habelə nüvə qurğularının hər hansı növləri, o cümlədən nüvə silahı və kosmik texnika ilə bağlı olan sınaqlar, təlimlər və başqa işlər nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəliyi keçirmiş şəxslər.

Göstərilən şəxslərə güzəşt yalnız onların mülkiyyətində olan torpaqlara görə hesablanmış vergi məbləğindən verilir. Onların istifadəyə və ya icarəyə götürdükləri torpaq sahələrinə görə Vergi Məcəlləsinin 207.2-ci maddəsində güzəşt nəzərdə tutulmamışdır.

e) Bələdiyyələr öz ərazilərində vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergilərdən tam və ya qismən azad etmək, vergi dərəcəsini azaltmaq barədə qərar qəbul edə bilər.

22. Bu metodiki göstərişin 21-ci bəndinin d) yarımbəndi üzrə göstərilən şəxslərə torpaq vergisi aşağıdakı qaydada hesablanılır:

***Misallar:***

*1. Güzəşt hüququna malik II qrup müharibə əlilinin mülkiyyətində Gəncə şəhərində 500 kv.metr yaşayış fondu da daxil olmaqla həyətyanı sahəsi var və şəhərdən kənarda 600 kv.metr əkin sahəsi istifadəyə götürmüşdür. Bu halda o, şərti maliyyə vahidinin 10 misli miqdarında (yəni 55,0 min manat) güzəşt hüququna*



*malik olduğu üçün müharibə əlili mülkiyyətində olan 500 kv.metr həyətyanı sahəsinə görə hesablanmış 11,0 min manat (500 x 22(5500x0,4%)) torpaq vergisini ödəmir. Lakin əkin üçün istifadəyə götürülmüş 600 kv.metr torpaq sahəsinə hesablanmış 13,2 min manat (600x22(5500x0,4%)) vergini tam ödəməlidir.*

*2. Müharibə veteranı adı almış şəxsin mükiyyətində Xaçmaz rayonunun düzən torpaqlarında 70 banitet balı olan II keyfiyyət qrupu üzrə 2,4 hektar kənd təsərrüfat təyinatlı və yaşayış fondu da daxil olmaqla 950 kv.metr həyətyanı torpaq sahəsi var. Bu halda vergi aşağıdakı kimi hesablanılır:*

*Kənd təsərrüfat təyinatlı 2,4 ha torpaq sahəsinə 58,7 min manat (II qrup üzrə 1 hektarın şərti balı 89 x 275(5500x5%) x 2,4 hek.), həyətyanı 950 kv.metr sahəyə 5,2 min manat (5,5 (5500x0,1%) x 950), cəmi 63,9 (58,7+5,2) min manat hesablanılır. Güzəşt hüququna malik olduğu üçün fiziki şəxsin 63,9 min manat hesablanmış vergisi şərti maliyyə vahidinin 10 misli (5500x10=55,0 min man.) miqdarında azaldılaraq 8,9 (63,9-55,0) min manat məbləğində ödənilməlidir.*

23. Bələdiyyə mülkiyyətində olan kənd təsərrüfat təyinatlı torpaqlara təklif tələbi üstələdiyi hallarda icarə haqqı güzəştli (torpaq vergisinin iki mislindən az olmamaqla) tətbiq edilə bilər.

24. Bələdiyyələrin ehtiyat fondunun kənd təsərrüfatına yararsız və ya az yararlı torpaqları kənd təsərrüfatı məhsulları istehsalı üçün Azərbaycan Respublikasının fiziki və hüquqi şəxslərinin mülkiyyətinə, istifadəsinə və icarəsinə güzəştli şərtlərlə verilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17.10.1996-cı il tarixli 144 nömrəli qərarı ilə təsdiq edilmiş "Kənd təsərrüfatına yararsız və ya az yararlı torpaqlardan kənd təsərrüfatı məqsədləri üçün istifadəsinə güzəştlər edilməsi haqqında əsasnamə"yə müvafiq qaydada həyata keçirilməlidir.

Azərbaycan Respublikasının vətəndaşları və hüquqi şəxsləri qeyri-kənd təsərrüfatı ehtiyacları üçün bələdiyyələrin ehtiyat fondunun kənd təsərrüfatına yararsız torpaqlarını texniki, tikinti və digər müvafiq normativlərə uyğun olaraq müəyyən edilmiş ölçüdə satın ala bilərlər.

Bələdiyyələrin ehtiyat fondunun kənd təsərrüfatına az yararlı və ya yararsız torpaqlarını yalnız öz vəsaitləri hesabına yararlı hala salmaqla kənd təsərrüfatı məhsulları istehsal etmək istəyən Azərbaycan Respublikasının vətəndaşlarının və hüquqi şəxslərinin mülkiyyətinə torpaq sahəsi verilərkən (satılarkən) qanunvericiliklə müəyyən edilmiş qaydada güzəştlər tətbiq edilməlidir.

## VI. Vergi ödəyicilərinin məsuliyyəti

25. Vergi ödəyicisi tədiyyə bildirişini aldıqdan sonra cari il üçün hesablanmış vergi məbləğini bərabər hissələrlə – həmin ilin avqustun 15-dək və noyabrın 15-dək ödəməlidirlər. Göstərilən müddətlərdə vergi ödənilmədikdə Vergi Məcəlləsinin 59.1-ci maddəsinə əsasən ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün fiziki şəxsə ödənilməmiş torpaq vergisi məbləğinin 0,05 %-i həcmində faiz hesablanılır.

*Əlavə 1*

## 20___ci il üçün
## Yerli (bələdiyyə) büdcəyə torpaq vergisinin hesablanması

______________________________________________
(vergi ödəyicisi olan fiziki şəxsin soyadı, adı, atasının adı, ünvanı və şəxsi kodu)

______________________________________________
(torpağa sahiblik və ya istifadə hüququnu təsdiq edən sənədin adı, tarixi və nömrəsi)

| Sıra №-si | Torpaq sahəsi | Bonitt şkalası | 1 hek. şərti balı | Torpağın sahəsi *(ha)* | Torpağın sahəsi *(kv.m)* | Verginin dərəcəsi *(manatla)* | Verginin məbləği *(qr3 x r4, qr5) x r6)* |
|---|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 1. | Əkin, dinc və çoxillik əkmələr altındakı torpaqlar | | | | X | | |
| O cümlədən | - *I keyfiyyət qrupu* | | | | X | | |
| | - *II keyfiyyət qrupu* | | | | X | | |
| | - *III keyfiyyət qrupu* | | | | X | | |
| | - *IY keyfiyyət qrupu* | | | | X | | |
| 2. | Biçənək, örüş, otlaqlar | X | | | X | | |
| 3. | Sənaye, tikinti, nəqliyyat, rabitə,ticarət, məişət xid-məti və digər xüsusi təyi-natlı torpaqlar | X | X | X | | | |
| 4. | Yaşayış fondlarının, həyət- yanı sahələrin və bağ sahə-lərinin tutduğu torpaqlar | X | X | X | | | |
| 5. | Hesablanmış verginin cəmi: (sət. 1 + 2 + 3 + 4) | X | X | X | X | X | |
| 6. | V M-in 207.2-ci maddəsi üzrə güzəşt hüququna malik olduğuna görə ödənilməli olan vergi məbləğindən (şərti maliyyə vahidinin 10 misli ) azaldılan vergi məbləği | X | X | X | X | X | |
| 7. | Vergi Məcəlləsinin 4.4-cü maddəsinə müvafiq olaraq bələdiyyələrin qərarına əsasən güzəşt verilmiş vergi məbləği | X | X | X | X | X | |
| 7. | Güzəşt məbləği nəzərə alınmaqla ödənilməli torpaq ver-gisin məbləği (sət. 5 sət. 6 - sət. 7) | X | X | X | X | X | |

______________________ / ______________ / ______________
(hesablamanı aparmış və şəxsi hesab vərəqəsini işləmiş vəzifəli şəxsin vəzifəsi, S.A A)  (imza)  (tarix)

*Əlavə 2*

## Yerli (bələdiyyə) büdcəyə torpaq vergisinin hesablanması formasının tərtib edilməsi
## Q A Y D A S I

Forma bələdiyyənin vergi xidməti orqanının vəzifəli şəxsi tərəfindən doldurulur.

Formanın əvvəlində vergi ödəyicisi olan fiziki şəxsin soyadı, adı, atasının adı, ünvanı və şəxsi kodu, habelə torpağa sahiblik və ya istifadə hüququnu təsdiq edən sənədin adı, verildiyi tarix və nömrəsi qeyd olunur.

Əkin, dinc və çoxillik əkmələr altında qalan torpaqların keyfiyyət qrupları üzrə bonitet balları formanın 1-ci sətrinin 2-ci qrafasında, keyfiyyət qrupları üzrə 1 hektarının şərti balları 3-cü qrafada göstərilir.



Formanın 1-ci sətrində əkin, dinc və çoxillik əkmələr və 2-ci sətrində biçənək, örüş, otlaq torpaqlarının hektarla sahəsi 4-cü qrafada göstərilir.

Əkin, dinc və çoxillik əkmələr altında olan torpaqların vergi dərəcəsi metodiki göstərişin 7-ci bəndinin a) yarımbəndinə əsasən müəyyən edilərək formanın 1-ci sətrinin 6-cı qrafasında əks etdirilir.

Əkin, dinc və çoxillik əkmələr altında olan torpaqlara vergi məbləği (3, 4 və 6-cı qrafaların hasili) formanın 1-ci sətrinin 7-ci qrafasında əks etdirilir.

Biçənək, örüş və otlaq üçün torpaqların 1 hektarının şərti balları metodiki göstərişin 7-ci bəndinin a) yarımbəndində göstərilən qaydada müəyyən edilərək formanın 2-ci sətrinin 3-cü qrafasında əks etdirilir.

2-ci sətrin 4-cü qrafasında biçənək, örüş və otlaq üçün torpaqların sahələri göstərilir.

Biçənək, örüş və otlaq üçün torpaqların vergi dərəcəsi metodiki göstərişin 7-ci bəndinin a) yarımbəndində göstərilən qaydada müəyyən edilərək 2-ci sətrin 6-cı qrafasında göstərilir.

2-ci sətrin 7-ci qrafasında biçənək, örüş və otlaq üçün torpaqlara hesablanmış vergi məbləği (3, 4 və 6-cı qrafaların hasili) göstərilir.

Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət, məişət xidməti və digər xüsusi təyinatlı torpaqların kv.metrlə sahəsi 3-cü sətrin 5-ci qrafasında əks edirilir.

3-cü sətrin 6-cı qrafasında sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət, məişət xidməti və digər xüsusi təyinatlı torpaqlara metodiki göstərişin 7-ci bəndinin b)- yarımbəndində göstərilən vergi dərəcələri göstərilir.

Formanın 3-cü sətrinin 7-ci qrafasında vergi məbləği (5-ci və 6-cı qrafaların hasili) əks etdirilir.

Yaşayış fondlarının, həyətyanı sahələrin və bağ sahələrinin tutduğu torpaqların sahəsi (mülkiyyət və ya istifadə hüququnu təsdiq edən sənədə əsasən, kv. m), 4-cü sətrin 5-ci qrafasında göstərilir.

4-cü sətirdə, yaşayış fondlarının, həyətyanı sahələrin və bağ sahələrinin tutduğu torpaqların sahəsi üzrə yaşayış məntəqəsinin yerindən asılı olaraq metodiki göstərişin 7-ci bəndinin b) yarımbəndində göstərilən verginin dərəcəsi 6-cı qrafada, verginin məbləği isə (5 və 6 -cı qrafaların hasili) 7-ci qrafada göstərilir.

Formanın 5-ci sətrinin 7-cı qrafasında ayrı-ayrı torpaq kateqoriyalarına görə fiziki şəxsə hesablanmış torpaq vergisinin (1, 2, 3 və 4-cü sətirlərin cəminə bərabər olmalıdır) cəmi göstərilir.

6-cı sətirdə metodiki göstərişin 21-ci bəndinin d) yarımbəndində göstərilən şəxslərin mülkiyyətində olan torpaqlara görə şərti maliyyə vahidinin 10 misli qədər (5500 x 10 = 55000) azaldılmalı vergi məbləği göstərilir.

7-ci sətirdə Vergi Məcəlləsinin 4.4-cü maddəsinə müvafiq olaraq bələdiyyələrin qərarına əsasən torpaq vergisi üzrə verilmiş güzəşt məbləği göstərilir.

8-ci sətirdə, 5-ci sətirdəki hesablanmış vergi məbləğlərinin cəmindən 6-cı və 7-ci sətirlər üzrə güzəşt məbləğləri çıxıldıqdan sonra fiziki şəxsin ödəməli olduğu vergi məbləği göstərilir.

Forma torpaq vergisi üzrə hesablamanı aparan və şəxsi hesab vərəqəsinə işləyən vəzifəli şəxs tərəfindən imzalanır, onun vəzifəsi, soyadı, adı, atasının adı və cədvəlin tərtib edildiyi tarix göstərilir.

## TƏDİYYƏ BİLDİRİŞİ

1. ____________________________________________
( fiziki şəxsin soyadı, adı, atasının adı)

2. ____________________________________________
(fiziki şəxsin ünvanı)

3. ____________________________________________
( fiziki şəxsin kodu və şəxsi hesab nömrəsi)

4. ____________________ bildirir ki, Sizə Azərbaycan Respublikasının Vergi
( bələdiyyənin adı)

Məcəlləsinin_______maddəsinə əsasən 200__il üçün ____________________
( rəqəm və sözlə)

__________ manat məbləğində ______________ vergi hesablanmışdır.
(əmlak, torpaq)

5. Verginin ödənilmə müddəti: 200_ il 15 avqust tarixədək __________ manat
200_ il 15 noyabr tarixədək __________ manat

6. Vergi ______________ yerləşən ______________ № li hesaba və ya
(bankın adı) (bələdiyyənin hesab nömrəsi)

bələdiyyənin xəzinəsinə ödənilməlidir.

7. Ötən dövrlər üzrə vergi borcu: ______________ manat
faiz məbləği: ______________ manat

M.Y. Bələdiyyənin sədri (onun müavini)______________/ ________ / ________
(soyadı, adı, atasının adı) (imza) (tarix)

## KƏSİLMƏ XƏTTİ

____________________________________________
Bildirişin kötüyü

____________________________________________
(bələdiyyənin adı)

200_ il üçün ______________________________ manat məbləğində
(rəqəmlə və sözlə)

hesablanmış ______________ vergisi üzrə tədiyyə bildirişini aldım:
(verginin adı)

______________________/ ____________/ ____________
(fiziki şəxsin soyadı, adı, atasının adı) (imza)* (tarix)

* Bildiriş sifarişli məktubla göndərildikdə fiziki şəxs tərəfindən imzalanmır.





# BƏLƏDİYYƏLƏR HAQQINDA

## sənədlər toplusu

*(Azərbaycan dilində)*
*Bakı-Qanun-2008*

NAŞİR:

*Şahbaz XUDUOĞLU*

KOMPÜTER TƏRTİBATÇISI:

*Rəmzi QULİYEV*

YIĞICILAR:

*Sevda NƏRİMANQIZI*
*Aytən TAHİROVA*

KORREKTOR:

*Mehparə ƏSƏDOVA*

Çapa imzalanmışdır: 15.10.2008
Formatı 70x100 1/16.
Fiziki ç/v 42,25; ş.ç/v 59,57.
Tirajı 300, Sifariş
Qiyməti: ***15*** *manat*

QANUN NƏŞRİYYATI

***Bakı, Azərbaycan, AZ 1001,***
***Natəvan döngəsi 1.***
***Tel:*** *437-52-84; 493-84-30*
***Faks:*** *498-91-74*
***E-mail:*** *ms@azdata.net*
***Web:*** *qanun.az*